Так, одним из запоминающимся и ярким событием в этом направлении было красочное мероприятие, проведенное республиканским общественным объединением «Ассоциация азербайджанцев» – «Единство народа – сила страны». На мероприятии была организована выставка книг, где было представлено азербайджанское устное народное творчество – известные эпосы «Китаби Деде Коркуд», «Кероглы», романтические «Асли и Керим», «Ашик Гариб», а также народное искусство, представленное искусством ашугов - народных певцов, поэтов и музыкантов, исполнявших дастаны и собственные сочинения. Также были представлены выставки азербайджанской живописи, фотографии, национальная одежда и украшения, и конечно же национальная кухня. [8].

В период правления Гейдара Алиева уделялось большое внимание историко-культурному сотрудничеству между Казахстаном и Азербайджаном, так как важное место занимало в его деятельности культурная дипломатия, которая направлена была на сохранение и развитие общего исторического и культурного наследия двух народов. Азербайджанская ассоциация, помня, как бережно Гейдар Алиев относился к культурной дипломатии, продолжает развитие культурного диалога между двумя странами такими видами мероприятий.

Идеи культурно-образовательного сотрудничества Гейдара Алиева нашли воплощение в деятельности Международной Тюркской Академии, созданной в Казахстане как научный центр с целью исследования тюркского мира, сохранения ценного наследия тюркских народов. 11 ноября 2022 года на состоявшемся саммите в городе Самарканд Организацией тюркских государств новым Президентом Международной Тюркской Академии был назначен известный специалист по средневековой истории и культуре Ближнего Востока и Центральной Азии, доктор исторических наук, академик Национальной академии наук Азербайджана Мустафаев Шаин Меджид оглу [17].

Идеи и традиции по сохранению и развитию общего исторического и культурного наследия двух народов до настоящего времени продолжают развиваться и поддерживаются гражданами Казахстана. Свидетельством этого является публикация в 2021 году по научному проекту «Энциклопедия персоналий «Представители этносов Казахстана в искусстве и культуре»» [13], куда вошли известные представители культуры и искусства этносов, внесших значительный вклад в развитие и процветание Казахстана.

Идейным вдохновителем и руководителем научного проекта по направлению деятельности Ассамблеи народа Казахстана *«Консолидация полиэтнического казахстанского общества как основа общенациональной идеи»* являлся доктор политических наук, проректор по учебной и учебно-методической работе Казахской национальной академии искусств имени Т.К. Жургенова Амирбеков Ш.А. Основная программа проекта это: «*Повышение конкурентоспособности сферы культуры и искусства, сохранение, изучение и популяризация казахстанского культурного наследия».* Уникальность энциклопедии состоит в том, что она включает ценные биографические сведения представителей трех поколений этносов, которые известны как в Казахстане, так и далеко за его пределами. Мы хотим презентовать вам эту Энциклопедию на казахском и русском языках и принести в дар библиотеке вашего вуза.

Сотрудничество Казахстана и Азербайджана в период правления Гейдара Алиева для Казахстана и Азербайджана является эффективным шагом культурной дипломатии и признано

сегодня очень важным для обоих государств. Сегодня два государства продолжают укреплять свои отношения и развивать сотрудничество во многих областях, что позволяет добиваться успехов и достижений в каждой стране в своих национальных интересах. Тесные и дружественные отношения Казахстана и Азербайджана, зарожденные век назад, укрепившиеся в период независимости государств продолжаются и по ныне. Но надо отметить, что именно Гейдар Алиев, как общенациональный лидер азербайджанского народа первый прибыл в Казахстан с официальным визитом для укрепления этих отношений и это был важный шаг для развития двусторонних отгошений между нашими странами и братскими народами. Сегодня мы продолжаем сохранять эту дружбу, укреплять и развивать гармноничные культурные отношения, популяризировать тюркскую историю и культуру, которые берут начало в исторических корнях – тюркские этнические корни, культура и искусство, традиции и обычаи, язык, религия, общая история.

Отмечая юбилейные даты – 100 летие со дня рождения общенационального лидера азербайджанского народа Гейдара Алиева, а также 2023 год как «Год развития тюркской цивилизации», который был объявлен Организацией тюркских государств, важных для Азербайджана и Казахстана, хотелось бы подчекнуть, что идеи и дела Гейдара Алиева продолжают руководители двух дружественных народов и государств – Президент Азербайджана Ильхам Алиев и Президент Казахстана Касым-Жомарт Токаев. Они сохраняют все лучшее, что оставили наши предки. Президенты двух стран – Касым-Жомарт Токаев и Ильхам Алиев еще более укрепляют эти братские узы, углубляют взаимодружеские отношения двух государств, укрепляя взаимовыгодное и плодотворное сотрудничество, закрепляют мир и стабильность двух государств, что будет и дальше способствовать сближению наших народов.

В заключение хочется еще раз подчеркнуть, что, будучи первым Президентом независимого Азербайджана, Гейдар Алиев остался в истории мира выдающейся фигурой в политической и культурной жизни региона, а его лидерские качества и настойчивость позволили значительно расширить культурное сотрудничество между Казахстаном и Азербайджаном в различных областях, включая науку, образование, искусство, спорт и другие.

Литература

1. 30 лет независимости: Связи между Азербайджаном и Казахстаном - пример взаимовыгодного и плодотворного сотрудничества. Международное информационное агентство «Kazinform». https://www.inform.kz/ru/30-let-nezavisimosti-svyazi-mezhdu-azerbaydzhanom-i-kazahstanom-primer-vzaimovygodnogo-i-plodotvornogo-sotrudnichestva_a3851394
2. Азербайджано-казахстанские отношения. https://lib.aliyev-heritage.org/ru/549420.html

3. Азербайджано-казахстанские отношения. Википедия. https://ru.wikipedia.org/wiki/%D0%90%D0%B7%D0%B5%D1%80%D0%B1%D0%B0%D0%B9%D0%B4%D0%B6%D0%B0%D0%BD%D0%BE-%D0%BA%D0%B0%D0%B7%D0%B0%D1%85%D1%81%D1%82%D0%B0%D0%BD%D1%81%D0%BA%D0%B8%D0%B5_%D0%BE%D1%82%D0%BD%D0%BE%D1%88%D0%B5%D0%BD%D0%B8%D1%8F
4. Ахундова Э. Рой Медведев: «Алиев оказался невостребованным в Москве». https://haqqin.az/analytics/258847
5. В Астане проходит I съезд Союза азербайджанских культурных центров Казахстана. Международное информационное агентство «КазИнформ». https://online.zakon.kz/Document/?doc_id=30362338&pos=4;-98#pos=4;-98; Энциклопедия. + Словарь
6. В Астане проходит I съезд Союза азербайджанских культурных центров Казахстана. Международное информационное агентство «КазИнформ». https://online.zakon.kz/Document/?doc_id=30362338&pos=4;-98#pos=4;-98
7. Гасанов, А.М. (2017). Казахстан и Азербайджан: история сотрудничества и новые перспективы. Международная жизнь, 6, 103-111.
8. День культуры и традиций азербайджанского этноса отметили в Алматы. Международное информационное агентство «Kazinform». https://www.inform.kz/ru/den-kul-tury-i-tradiciy-azerbaydzhanskogo-etnosa-otmetili-v-almaty_a3583691
9. Джилкишинова. Азербайджан и Казахстан становятся ближе. https://liter.kz/azerbaidzhan-i-kazakhstan-stanoviatsia-blizhe-1678347127/
10. Как Токаев с Алиевым, вспоминая его отца, обсуждали Карабах. https://arbat.media/evraziya/kak-tokaev-s-alievym-vspominaya-geidara-obsuzdali-karabax-7773
11. Калиев Ж.Б., Адиет К.Б. Казахстанско-Азербайджанские культурные связи, основанные на братстве. Институт истории государства. https://history-state.kz/ru/?ELEMENT_ID=1150
12. Официальный сайт Министерства иностранных дел РК. [Электронный ресурс]. – Режим доступа: www.mfa.gov.kz
13. Представители этносов Казахстана в искусстве и культуре: энциклопедия персоналий: Автор М.Шаймерденова, авторы-составители: Ш.Амирбеков, М.Шаймерденова, А.Рамазан, К.Биекенов. – Алматы: «Издательство Золотая Книга» ЖШС, 2020г. – 320 с.
14. Рой Медведев: «Алиев оказался невостребованным в Москве». https://haqqin.az/analytics/258847
15. Сулейменова А. Гейдар Алиев – аксакал тюркского мира. QAZAQZTAN TARIHY. https://e-history.kz/ru/news/show/4506
16. Сулейменова Э.Д., Аканова Д.Х., Шаймерденова Н.Ж. «Қазақстан тілдері: әлеуметтік лингсистика анықтамалығы»: Кітап: – Алматы: «Издаетельство Золотоая Книга»ЖШС, 2020 жыл – 480 бет.
17. Шаин Мустафаев назначен президентом Международной Тюркской академии. KAZISLAM.KZ. https://kazislam.kz/shain-mustafaev-naznachen-prezidentom-mezhdunarodnoj-tyurkskoj-akademii/

XÜLASƏ
HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ QAZAXISTAN VƏ AZƏRBAYCANIN TARİXİ-MƏDƏNİ ƏMƏKDAŞLIĞI

Şaymərdənova M.C., Alimcanova A.Ş.

Açar sözlər: *mədəniyyət, incəsənət, diplomatik münasibətlər, Heydər Əliyev, Ümummilli lider türk dövlətləri, türk sivilizasiyaları, Azərbaycan, Qazaxıstan, etnik köklər, beynəlxalq əməkdaşlıq, Beynəlxalq Türk Akademiyası*

Məqalədə Heydər Əliyevin hakimiyyəti dövründə Qazaxıstan və Azərbaycan arasında tarixi-mədəni əməkdaşlığın inkişafındakı müasir tendensiyalar müzakirə olunur. Müəllif oxucuları Qazaxıstan ilə Azərbaycan arasında tarixi və mədəni əlaqələrlə tanış edir. Müstəqil Azərbaycanın ilk Prezidenti olan Heydər Əliyev dünya tarixində regionun siyasi və mədəni həyatında görkəmli fiqur olaraq qalmışdır. Onun liderlik keyfiyyətləri və əzmkarlığı Qazaxıstan ilə Azərbaycan arasında elm, təhsil, incəsənət, İdman və digər sahələrdə mədəni əməkdaşlığı genişləndirmişdir. Məqalədə Heydər Əliyevin bu iki ölkə arasında dostluq münasibətlərinin möhkəmlənməsinə verdiyi töhfələr təqdim olunur və iki ölkə arasında münasibətlərin ümumi tarixi və mədəni xüsusiyyətlər əsasında daha da möhkəmləndirilməsinin vacibliyi qeyd olunur. Müəllif ölkələrimiz arasında qarşılıqlı münasibətlərin ictimai transformasiyalar dövründə Heydər Əliyev və D. Kunayevin uğurlu diplomatik işinin nəticəsi kimi nəzərdən keçirilməsini təklif edir. Heydər Əliyevin qeyd etdiyi, təhlil olunan ölkələrin xüsusiyyəti ondan ibarətdir ki, hər iki ölkə Şərqlə Qərb arasında ticarət və mədəni mübadilə üçün ən mühüm marşrutlardan biri olan Böyük İpək Yolunun kəsişməsindədir.

SUMMARY
HISTORICAL AND CULTURAL COOPERATION BETWEEN KAZAKHSTAN AND AZERBAIJAN DURING THE REIGN OF HEYDAR ALIYEV
Shaymerdenova M.J., Alimjanova A.Sh.

Keywords: *culture, art, diplomatic relations, Heydar Aliyev, national leader Turkic states, Turkic civilizations, Azerbaijan, Kazakhstan, ethnic roots, international cooperation, International Turkic Academy*.

The article examines current trends in the development of historical and cultural cooperation between Kazakhstan and Azerbaijan under the rule of Heydar Aliyev. The author introduces readers to the historical and cultural ties between Kazakhstan and Azerbaijan. As the first President of independent Azerbaijan, Heydar Aliyev remained in world history an outstanding figure in the political and cultural life of the region. His leadership qualities and perseverance have expanded cultural cooperation between Kazakhstan and Azerbaijan in various fields, including science, education, art, sports and others. The article presents Heydar Aliyev's contribution to strengthening friendly relations between the two countries and stresses the importance of further strengthening relations between the two countries based on common historical and cultural features. The author suggests that the relations between the countries should be seen as a result of Heylar Aliyev's and D.Kunayev's successful diplomatic work during the period of social transformation. The peculiarity of the analysed countries, to which Heydar Aliyev pointed out, is that both countries are located at the crossroads of the Great Silk Road, which was one of the most important routes for trade and cultural exchange between the East and the West.

HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DÖVLƏTİNİN XİLASKARIDIR

Baxşəliyev Adil Baxşəli oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, professor
sdu.adil@gmail.com

Açar sözlər: *Heydər Əliyev, Azərbaycan, qurtuluş, xilaskar, siyasətçi*

1993-cü il 15 iyunda Azərbaycan üçün son dərəcə təhlükəli və çıxılmaz vəziyyətdə zəmanəmizin ən güclü siyasətçisi - Heydər Əliyevin xalqın tələbi ilə yenidən böyük siyasətə qayıtması müxtəlif tarixi dövrlərdə bizim varlığımızı təhdid edən, müstəqilliyimizə son qoymaq istəyən düşmənlərin hiylələri və məkrli oyunlarını puç etməyə, Azərbaycanın ənənəvi düşmənlərimizin sonsuz hiylə və qəsdlərinə tab gətirməyimizə kömək etdi [4, s.163].

Bu gün dünya birliyinə tədricən inteqrasiya edən Azərbaycan Respublikası uğurlu daxili və xarici siyasət sayəsində öz tarixinin çox çətin, lakin ən şərəfli dövrünü yaşayır. Təbiidir ki, müasir tərəqqiyə nail olmuş bütün xalqlar, dövlətlər çətin keçid dövrləri yaşamışlar və hər birinin özünəməxsus xüsusiyyətləri, öz çətinlikləri olmuşdur.

Lakin yenicə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan üçün çətinliklər həddən çox idi. Xarici hərbi-siyasi təzyiqlər, Vətənimizin 20 faizdən çox hissəsinin düşmən tərəfindən işğalı, 8 milyon əhalisi olan bir ölkədə 1 milyondan artıq qaçqın və məcburi köçkünün olması - bütün bunlar keçid dövrümüzün daha da çətin və ağrılı tərəfləri idi.

Bütün bunlarla yanaşı, ənənəvi düşmənlərimiz Azərbaycan Respublikasının müstəqil dövlət kimi mövcudluğunu aradan qaldırmaq, onun daha da inkişaf edib yüksək tərəqqiyə nail olmuş dövlətlərin sıralarına daxil olmasının qarşısını almaq üçün əllərindən gələni edirdilər. Avropa və Asiya, Rusiya ilə Yaxın və Orta Şərq ölkələri arasında vacib körpü rolunu oynayan Azərbaycanın müstəqilliyi, tədricən güclənməsi bu qüvvələr üçün arzuolunmaz idi. Müasir Azərbaycanın qlobal miqyasda beynəlxalq qüvvələrin maraqlarının kəsişdiyi ən qaynar nöqtələrdən birində yerləşməsi bu çətinlikləri daha da artırırdı. Zəngin təbii sərvətlərə malik müstəqil Azərbaycana qarşı siyasi, hərbi, iqtisadi və mənəvi təzyiqlər dayanmaq bilmirdi.

Azərbaycan xalqının ən məkrli düşmənləri tərəfindən əsrlər boyu sınaqdan keçirilmiş erməni amilindən heç vaxt xalqımıza qarşı XX əsrin sonlarındakı qədər fəal və geniş miqyasda istifadə edilməmişdir. O vaxt Rusiya, Fransa, ABŞ kimi böyük dövlətlərdə, eləcə də digər ölkələrdə, o cümlədən beynəlxalq təşkilatlarda fəaliyyət göstərən erməni diasporu hər zamankından daha çox təsirə malik idi. Bu dövlətlərin parlamentlərinin, hərbi-siyasi idarələrinin, eləcə də bir sıra mötəbər beynəlxalq təşkilatların fəaliyyətinə təsir göstərmək üçün güclü imkanlara, mühüm mövqelərə və geniş maliyyə imkanlarına malik olan erməni diasporu regional siyasətə fəal təsir göstərir, yaşadıqları ölkələrin beynəlxalq təşkilatları ilə əlaqə saxlayır və Azərbaycanla münasibətlərin yaxşılaşdırılmasına davamlı olaraq ciddi maneələr yaradırdı.

1988-ci il hadisələri ərəfəsində Azərbaycanı xarici qüvvələr tərəfindən parçalamağa cəhd etmək, etnik və vətəndaş qarşıdurması təşkil etmək, xalq arasında dini təfriqə salmaq taktikasından tarixdə heç vaxt bu cür sistemli şəkildə istifadə olunmamışdı.

Azərbaycan xalqının böyük oğlu, dünya miqyaslı böyük siyasətçi Heydər Əliyev hələ siyasi rəhbərliyinin ilk dövründə doğma xalqının problemlərini dərindən bilən, gəncliyində belə məkrli qonşuların minlərlə hiyləsini öz gözləri ilə müşahidə edən nadir şəxsiyyət kimi tanınmışdı. O, dövlət idarəçiliyində yarım əsrlik zəngin təcrübəyə malik, müxtəlif xarakterli və səviyyəli hakimiyyət sistemlərinin bütün incəliklərini mükəmməl bilən, SSRİ kimi nəhəng dövlətin ali rəhbərlərindən biri səviyyəsinə yüksəlmiş nadir şəxsiyyət idi. Dünyanın altıda birini əhatə edən SSRİ-də o vaxtkı sovet rəhbəri M.Qorbaçovun təqibləri və hiylələri nəticəsində tutduğu vəzifələrdən uzaqlaşdırılan Heydər Əliyev tərəddüd etmədən yenidən böyük siyasətə qayıtmağı bacardı. Polad iradəli, fitri istedad sahibi Heydər Əliyev hamı tərəfindən qəbul edilən, planetimizin müasir siyasətini müəyyən edən dünya liderləri sırasında aydın şəkildə seçilən əzəmətli şəxsiyyət idi. O, Vətəni keçid dövrünün ən çətin və qanlı burulğanından xilas etmək üçün Uca Yaradan tərəfindən Azərbaycan xalqına bəxş edilmiş ümummilli lider idi.

Heydər Əliyevin görkəmli dövlət xadimi kimi polad iradəsinin parlaq sübutu onun fəaliyyətinin Moskva illəri oldu. 1982-1987-ci illəri əhatə edən bu dövrdə Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi özünü, tükənməz idarəçilik təcrübəsini nəhəng dövlətin hakimimiyyət olimpi olan Kreml rejiminə sübut etdi. Rus şovinizmi və böyük dövlət psixologiyası, bu rejimin yaratdığı təqib və qərəz sistemi şəraitində heç bir qüvvə onun zəngin, tükənməz və hərtərəfli idarəçilik istedadının qarşısını ala bilmədi. Daxili çəkişmələr və tənəzzül dövrünü yaşayan nəhəng imperiyada ən çətin sahələrin idarə olunmasında böyük uğurlar qazanan Heydər Əliyev qısa müddətdə bütün SSRİ-də böyük nüfuz qazanmışdı. O zaman Heydər Əliyev Siyasi Büroda yeganə dövlət xadimi idi ki, Sovet dövlətini idarə edə, onu dərin böhrandan çıxara bilmişdi. Bu səbəbdən də Kremlin səriştəsiz və bacarıqsız rəhbərləri, xüsusi ilə M.Qorbaçov Heydər Əliyevi ciddi rəqib hesab edirdilər [4, s.97].

1985-ci ildə L.Brejnevdən sonra xalqımızın böyük oğlunun Sovet İttifaqının başında durmasına yeganə maneə onun türk-müsəlman əhalisinin nümayəndəsi - azərbaycanlı olması idi. Belə bir şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Heydər Əliyev sovet rəhbərliyində olarkən vətənini daim diqqət mərkəzində saxlayır, onun inkişafına hər cür köməklik və qayğı göstərirdi.

O zaman xalqımızın dahi oğlu həm də M.Qorbaçovun yaxın əhatəsində olan və Dağlıq Qarabağı Azərbaycandan qoparmağa çalışan erməni millətçilərinin qarşısında güclü maneə, alınmaz qala idi. Məhz buna görə də Stavropol fəaliyyəti dövründən erməni mafiyasının əlində itaətkar alət olan M.Qorbaçov nəhayət ki, öz çirkin məqsədinə nail olaraq 1987-ci ildə onu SSRİ rəhbərliyindən uzaqlaşdırmağa nail olmuşdu. Əslində bu, sovet hakimiyyətinin bütün illərində xalqımıza vurulan ən güclü zərbə idi. Təsadüfi deyil ki, bundan dərhal sonra M.Qorbaçovun himayə etdiyi erməni millətçiləri Dağlıq Qarabağın Azərbaycandan ayrılması uğrunda fəal mübarizəyə başladılar [3, s.176]. Moskvadan hər cür yardım alan erməni silahlı birləşmələri tərəfindən Azərbaycan torpaqlarının işğalı üçün əlverişli şərait yaradıldı.

Heydər Əliyevin Moskvadakı həyatının 1987-1990-cı illəri M.Qorbaçovun başçılıq etdiyi Kreml rejimi tərəfindən xalqımızın dahi oğluna qarşı ağır təqiblər illəri olmuşdur. Ömrünün bütün dövrlərində olduğu kimi, bu illərdə də Heydər Əliyev öz doğma xalqı naminə yaşamış, xalqımızın ziyalıları, qabaqcıl nümayəndələri ilə sıx əlaqə saxlamış, ittifaqı gözləyən süqut şəraitində vətən üçün çıxış yolları axtarmışdı.

O, bütün gücünü sərf edərək Azərbaycanı ağır böhrandan çıxarmaq üçün müdrik məsləhətlər verirdi. Lakin Azərbaycana rəhbərlik edən Moskvaya tabe olan səriştəsiz rəhbərlərin xəyanətkar siyasəti nəticəsində bu dövrdə Azərbaycan xalqı dahi oğlunun əqli potensialından məhrum oldu.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci və ikinci dövrlər arasındakı illər tariximizdə sözün əsl mənasında qarışıqlıq, qanunsuzluq, ağır tənəzzül illəri idi. Xüsusi ilə Azərbaycan tarixinin 1990-1993-cü illəri xalqın yaddaşında "olum, ya ölüm" məsələsinin kəskinləşdiyi ən ağır faciələr dövrü kimi qalmışdır. Moskvanın göstərişi ilə hərəkət edən və onların yerinə dövlət idarəçilik təcrübəsi olmayan "Azərbaycan Xalq Cəbhəsi rejimi"ni gətirən təcrübəsiz liderlər ölkəni parçalanmaq və məhv olmaq təhlükəsi qarşısında qoydular. Azərbaycan, demək olar ki, Cənubi Qafqazın siyasi xəritəsindən silinmək ərəfəsində idi.

Həmin vaxt Vətənin, xalqın yeganə ümidi məhz Heydər Əliyev idi. Bu dövrdə, 1990-cı il yanvarın 21-də (20 Yanvar qırğınının ertəsi günü) öz həyatını təhlükəyə ataraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedən Heydər Əliyev doğma xalqına başsağlığı verərək, təqsirkarların cəzalandırılmasını tələb etmişdi [8, s.5]. Bakıda qırğın törədənlər əslində milli qurtuluş mübarizəsinin açıq düşmənləri olmuşdular. Hadisənin ardınca həmin çıxışın əsl mahiyyətini başa düşənlər onu dövlət müstəqilliyinə gedən yolun son mərhələsinin başlanğıcı kimi qiymətləndirdilər.

Xalq üçün çətin günlərdə Kremlin təqiblərindən qurtulan dahi siyasətçi 1990-cı il iyulun 20-də vətənə qayıtdı. Lakin Vətəndə - onun paytaxtı Bakıda tariximizin ən biabırçı faktlarından biri baş verdi. Xalqın xilaskarının vaxtı ilə simasını quruculuq fəaliyyəti ilə tam dəyişdiyi paytaxtda qalmasına, çətin anda

xalqının yanında olmasına, insanlara faciənin ardınca çətin vəziyyətdən düzgün çıxış yolunu göstərməsinə imkan verilmədi.

Böyük dövlət xadimi Bakıya gəldikdən iki gün sonra, 1990-cı il iyulun 22-də həyatının başladığı Naxçıvanda qayıtmağa məcbur oldu. Heydər Əliyev Naxçıvanda bütün Azərbaycanın xilası uğrunda mübarizəyə başladı. Bu dövrdə ermənilər və onlara dayaq olan Sovet Ordusu hissələri tərəfindən hərbi-siyasi və iqtisadi blokadaya alınan Naxçıvan çıxılmaz vəziyyətdə idi. Bu dövrdə Naxçıvan Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunması ərəfəsində idi.

Azərbaycanın o vaxtkı "rəhbərliyi"ndən heç biri Naxçıvandan gələn yardım çağırışına cavab vermədi. Hakimiyyətdə qalmağa can atan səriştəsiz rəhbərlər bir-birinin ardınca Vətən torpaqlarını düşmənə təhvil verirdilər. Təkcə Naxçıvanın deyil, bütün Azərbaycanın vəziyyəti ağır idi. Vətənimizin, o cümlədən Naxçıvanın Cənubi Qafqazın siyasi xəritəsindən silinmək planları var idi.

Məhz belə bir ağır vəziyyətdə Heydər Əliyev bütün Azərbaycanın xilasına ən çətin vəziyyətdə olan cəbhədən - Naxçıvandan mübarizəyə qalxdı. Həmin günlərdə sovet sərhəd qoşunları və müasir daşnaklar tərəfindən mühasirəyə alınan Naxçıvanda təkcə ölkənin bu bölgəsinin deyil, bütün Azərbaycanın taleyi həll olunurdu. Bu inanılmaz çətin tarixi şəraitdə Heydər Əliyev şəxsiyyəti yeganə silahı - misilsiz siyasi dühası, böyük dövlət xadimi kimi diplomatik peşəkarlığı sayəsində Naxçıvan əhalisinin mübarizlik ruhuna və iradəsinə arxalanaraq, xalqın vətənini nicata çatdıra bildi. Ermənilər Naxçıvanı işğal edə bilmədilər.

Uğursuz Qarabağ müharibəsi, hakimiyyəti ələ keçirmək üçün müqəddəs torpaqlarımızın düşmənə təslim edilməsi, əcnəbi ağalara daha sədaqətlə xidmət etmək uğrunda rəqabət, Kremlin labirintlərindən sağ çıxan böyük dövlət xadimi Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılması, lakin öz xalqını xilas etmək üçün vətənə qayıtmağı bacarması, hətta Naxçıvanda onun rəhbərlikdən uzaqlaşdırılması cəhdi və digər mürəkkəb hadisələr o vatkı tariximizin ən ağır səhifələri idi. Müdrik xalqımız haqlı olaraq hesab edirdi ki, əgər o dövrdə bu müdrik siyasətçi hakimiyyət başında olsaydı, Azərbaycan xalqı bu qədər bəlalara düçar olmazdı.

Heydər Əliyevin fəaliyyətinin Naxçıvan səhifələrinin ilk addımları milli dövlətçilik ənənələrinin dirçəldilməsi, muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması, Azərbaycan Respublikasının üçrəngli bayrağının qəbulu oldu. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının indi Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olması, 1990-cı il 19-20 yanvar faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanması haqqında referendumda iştirakdan imtinası, SSRİ-nin saxlanması haqqında referendumun ləğvi, Kommunist Partiyasının yerli orqanlarının muxtar respublika ərazisində fəaliyyətinin ləğvi, dekabrın 31-nin dünya azərbaycanlılarının həmrəyliyi günü elan edilməsi, nəhayət, hərbi şəraitdə doğma torpağın düşməndən qorunması böyük Vətəndən təcrid olunmuş Naxçıvanın iqtisadi blokadasının təsirinin aradan qaldırılması dahi şəxsiyyətin Naxçıvanda düşmən blokadası şəraitində keçən həyat və fəaliyyətinin qısa xülasəsi idi [6, s.1-2].

Böyük Vətənə - Azərbaycana gəlincə isə, o zaman o, fəlakətli vəziyyətdə idi. Acı tarixi həqiqət belə idi ki, 1993-cü ilin iyununda Heydər Əliyevin hakimiyyətə qayıdışı ərəfəsində Azərbaycan öz tarixinin ən qanlı burulğanı ilə mübarizə aparırdı. Cəbhədə ağır məğlubiyyətlər, xəyanətlər, qanunsuzluqlar, hakimiyyəti ələ keçirmək naminə müqəddəs torpaqlarımızın satılması adi hala çevrilmişdi. Ölkədə, sözün əsl mənasında, anarxiya və siyasi xaos hökm sürürdü. Rayonlarda, paytaxtın ayrı-ayrı məhəllələrində, faktiki olaraq silahlı quldur dəstələri üstünlük təşkil edirdi. Ayrı-ayrı silahlı dəstələr arasında davamlı atışmalar olduğundan insanlar evlərində rahat yata bilmirdilər. Girov götürmək kimi iyrənc qazanc vasitəsi adi hala çevrilmişdi.

Zahirən xalqın qayğısına qalan bir qrup karyerist əslində sovet hakimiyyəti illərində toplanmış milli sərvətləri talamaqla, bölməklə məşğul idi. Hər yerdə talan hökm sürürdü. Dövlət, əslində mövcud deyildi. Ölkəni xalqın adından idarə edən, lakin heç bir siyasi təcrübəsi və ən elementar dövlət qaydaları haqqında belə təsəvvürü olmayan, kənardan gələn ağaların göstərişi ilə hərəkət edən məhdud qrup ölkəni ən ağır fəlakət vəziyyətinə gətirmişdi. Ölkə vətəndaş müharibəsi və etnik münaqişələr meydanına çevrilmək ərəfəsində idi.

Ermənistanın rus hərbi birləşmələrinin əli işğal etdikləri qeyri-bərabər müharibə cəbhəsində bütün yollar düşmənə açıq idi. Babalarımızın müqəddəs yadigarı olan Vətən torpaqları bir növ hərraca çıxarılmışdı. Azərbaycan beynəlxalq nüfuzunu tamamilə itirmişdi. Əhali ümidsizlik içində idi. Sabaha, gələcəyə inam yox di. Ən böyük təhlükə Azərbaycanın xarici düşmənlərinin daxili satqınlarla birləşməsi idi. Daşnakların tarixi düşmənlərimiz olan qonşu dövlətlərin paytaxtlarında hazırladıqları "Böyük Ermənistan" yaratmaq niyyətləri, Azərbaycanı Cənubi Qafqazın siyasi xəritəsindən silmək planları reallaşmağa yaxın idi. Azərbaycan ərazisi etnik zəmində parçalanmaq və yox olmaq təhlükəsi ilə üz-üzə idi. 1993-cü il iyunun ilk günlərində Bakıdan kənardakı Gəncə şəhərində vətəndaş müharibəsinin ilk güllələri atıldı, qardaş qanı töküldü.

Tarixin bu faciəli anında Azərbaycan xalqının və Vətəninin yeganə ümidi və xilaskarı Heydər Əliyev oldu. O zaman müdrik xalqımız qətiyyətlə, sədaqətlə hərəkət edərək yeganə düzgün addım atdı və bu böyük

dünya siyasətçisini hakimiyyətə gətirdi. Beləliklə, Azərbaycan xalqının xarici və daxili düşmənlərinin oxları daşa dəydi, bədxahlarımızın istəkləri yarımçıq qaldı. Məhz o vaxt - 1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın düşdüyü çıxılmaz vəziyyətdən xilasında həlledici dönüş baş verdi [4, s.165]. Bir neçə uğurlu tədbirlərdən sonra müdrik siyasətçi vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalamaq, müstəqil dövləti məhv etmək planı iflasa uğradı. Xalq əmin oldu ki, dövlətin taleyinin sükanı dahi dövlət xadiminin əlinə keçmişdir. Vətən, millət, bütün xalqımız məkrli düşmənlərin hazırladığı dərin uçuruma düşmədi, ölümcül fəlakətdən yan keçdi. Milli qurtuluş uğrunda mübarizədə qələbəyə doğru dönüş yarandı.

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ən qısa müddətdə xalqı, Vətəni üçün həyata keçirilməsi qeyri-mümkün sayılan tədbirləri reallaşdırdı. Məhz 1993-cü il iyunun 15-i bu səbəblərdən qədirbilən xalqımız tərəfindən Milli Qurtuluş Günü adlandırıldı [5, s.107]. Həmin tarixdən sonra görülən bütün işləri sadalamaq mümkün olmasa da, onlardan ən mühümlərini qeyd etmək yerinə düşərdi.

Bu bir həqiqətdir ki, azadlıq və müstəqillik bütün xalqlar və millətlər üçün müqəddəs sərvətdir. Azərbaycan xalqı on illərlə öz azadlığını, müstəqilliyini gözləmiş, bu yolda döyüşüb, on minlərlə şəhid vermişdi. Azadlıq və müstəqilliyi qoruyub saxlamaq isə onları əldə etməkdən qat-qat çətindir. Güclü və sabit dövlət olmayan yerdə azadlıq və müstəqillik olmaz. Dövləti olmayan xalq sonda məhvə məhkumdur.

Heydər Əliyevin Azərbaycan xalqı və tariximiz qarşısında ən böyük xidməti, ilk növbədə, bu böyük dahi şəxsiyyətin torpaqlarımıza sahib çıxmaq üçün ən kəskin geosiyasi ziddiyyətlər şəraitində Azərbaycan dövlətçiliyini xilas etməsidir. Azərbaycanın parçalanmaq və məhv olmaq təhlükəsi şəraitində varlığının qorunması və dövlətçiliyin saxlanması həm də Azərbaycan xalqının azadlığının, müstəqilliyinin qorunub saxlanması demək idi. Ona görə də böyük qürur hissi ilə deyirik ki, Heydər Əliyev öz xalqının, Vətəninin xilaskarıdır.

Azərbaycan dövlətçiliyinin və Prezident Heydər Əliyevin qətiyyəti 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə cəhdlər zamanı ən çətin sınaqdan çıxdı. Heydər Əliyev öz andına sadiq qalan, Vətənin müstəqilliyi və xalqının azadlığı uğrunda mübarizədə öz canından keçməyə hazır prezident olduğunu bir daha nümayiş etdirdi. Çətin məqamda "keçmiş liderlər"dən fərqli olaraq xalqını, Vətənini darda qoymadı, dövlət postundan getmədi. Dövlət başçısının qətiyyəti xalqı ruhlandırdı, gələcəyə inamını bərpa etdi. Sabitlik və əmin-amanlıq bərpa olundu.

Bu sabitlik Heydər Əliyevin böyük dövlət xadimi kimi növbəti tarixi qələbəsi idi. Heydər Əliyev ölkədə sabitliyin bərqərar olması ilə dahi siyasətçi kimi öz gücünə və təcrübəsinə arxalanaraq dəfələrlə dediyi məşhur kəlamına sadiqliyini sübut etdi: Azərbaycanın dövlət müstəqilliyi əbədi, sarsılmaz olacaqdır, dönməzdir.

Heydər Əliyev Qarabağ müharibəsi məsələsində də düzgün mövqe tutdu. O, müdrik strateq kimi həmin dövrün real vəziyyətini nəzərə aldı. Azərbaycan Prezidenti məkrli düşmənlərin və onların beynəlxalq havadarlarının qüvvələrini və planlarını, Azərbaycanın düşdüyü ağır təhlükə dərəcəsini nəzərə aldı, vəziyyəti düzgün qiymətləndirdi. Dövlət başçısı real vəziyyətdən çıxış edərək atəşkəsə nail oldu. Bununla da o, Azərbaycanın gənc, sağlam qüvvələrinin mənasız ölümünün qarşısını aldı və bununla da xalqın genefondunu xilas etdi. Bu, Azərbaycan xalqının davamlı varlığı və gələcəyi demək idi.

Prezident Heydər Əliyev xalqı, vətəni milli-mənəvi parçalanmadan, süqutdan xilas etdi. O, keçmiş "liderlər"in dəyişən dünyanın real vəziyyətini, beynəlxalq vəziyyətin siyasi reallıqlarını nəzərə almadan, tarixi keçmişin dərslərinə deyil, emosiyalara əsaslanaraq qəbul etdikləri yanlış qərarların icrasını dayandırdı. Beləliklə, vətənpərvərliyimizin, xalqımızın və dilimizin adı, güc və birliyimizin əsasını təşkil edən türk-islam birliyi bərpa olundu, tam azğınlıq ərəfəsində olan etnik münaqişələrin yaranması ehtimalı aradan qaldırıldı.

Prezident Heydər Əliyevin xarici siyasətinin ən mühüm uğurlarından biri Azərbaycanı türk dünyasından təcrid vəziyyətindən çıxarması idi. Bizimlə birlikdə azadlıq əldə etmiş qardaş Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla ənənəvi dostluq münasibətləri bərpa olundu. Təsadüfi deyil ki, Heydər Əliyev bütün türk dünyasının müdrik bələdçisi, zəmanəmizin Atatürkü adlandırılmışdır.

Prezident Heydər Əliyev neft strategiyası siyasətini ənənəvi düşmənlərimizin Azərbaycanı diz çökdürmək üçün bütün tarixi dövrlərdə istifadə etdikləri "erməni amili"nə qarşı qoydu. O, sübut etdi ki, Qafqazın problemlərinin həllində "erməni amili"ndən daha güclü vasitələr var. İndi uzaqgörən siyasətçilər yaxşı başa düşürdülər ki, neft strategiyasının xarici ölkələrdə "erməni kartı" və erməni lobbisi üzərində yekun qələbə qazanacağı gün uzaqda deyil. Müəllifi Heydər Əliyev olan bu siyasətin nə qədər dərin düşünülmüş və uzaqgörən olduğu bu gün reallığa çevrilmişdir.

Xarici düşmənlərin və daxili satqınların törətdiyi minlərlə hiylə və maneələrə baxmayaraq, Bakı-Tbilisi-Ceyhan magistral neft kəmərinin, Bakı-Ərzurum qaz kəmərinin əhəmiyyəti türk dünyası da daxil olmaqla dünya ölkələri arasında Azərbaycanın nüfuzunu xeyli gücləndirdi.

Heydər Əliyev Azərbaycan Respublikasını şimaldan və cənubdan sıxışdıran, onun xarici dövlətlərlə ənənəvi əlaqələrini kəsən qüvvələrə qarşı Şərq-Qərb dəhlizini açdı [7, s.5]. O, Azərbaycanı iqtisadi blokadadan çıxarmaq üçün Böyük İpək Yolunun dirçəldilməsi ideyasından məharətlə istifadə etdi.

Heydər Əliyevin xarici siyasət sahəsində öz xalqı qarşısında çox böyük xidmətləri olmuşdur [1, s.44.] Bunlardan biri, şübhəsiz ki, o zaman M.Qorbaçov və onun ermənipərəst ətrafı tərəfindən 20 yanvar faciəsi nəticəsində kəskinləşmiş, böhrana düşmüş Rusiya-Azərbaycan münasibətlərinin normallaşması idi. Prezidentlər Heydər Əliyevin və Vladimir Putinin uzaqgörən siyasi müdrikliyi və qarşılıqlı səyləri nəticəsində Azərbaycan və rus xalqları arasında tarixi qardaşlıq əlaqələri bərpa olundu. Bu gün Azərbaycan xalqı böyük şimal qonşusu ilə daha da genişlənən dostluq münasibətlərini dərin məmnunluq hissi ilə qarşılayır.

Azərbaycan Prezidenti ölkədəki qəbullarından tutmuş beynəlxalq görüşlərə, yüksək səviyyəli danışıqlara qədər hər yerdə, hər fürsətdə ölkəsi haqqında həqiqətləri dünyaya yayırdı. Nəticədə Azərbaycan bir vaxtlar ona qarşı təşkil olunmuş beynəlxalq informasiya blokadasından çıxmağı bacardı. Dünya Azərbaycan həqiqətlərini qəbul etməyə başladı. Bu, böyük qələbə idi. Bu qələbə Prezident Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində, BÖYÜK AZƏRBAYCANLI kimi Vətənə, xalqa qayğısı sayəsində əldə olunmuşdur.

Heydər Əliyevin Vətən qarşısındakı danılmaz tarixi xidmətlərini saymaqla qurtarmaq olmaz. Onları dərindən öyrənmək, nizamlamaq, çeşidləmək və hamısını gələcək nəsillərə çatdırmaq həm çətin, həm də məsuliyyətli və şərəfli bir vəzifədir.

Bir daha qeyd edək ki, bütün xalqlar, millətlər, hazırda öz çiçəklənmə dövrünü yaşayan ölkələr keçid dövründə parlaq şəxsiyyətlər - Atatürklər, Vaşinqtonlar, Bismarklar, Nehrular, De Qolllar yetirmişlər. Heydər Əliyev isə çoxmininillik tariximizin ən dahi şəxsiyyəti, dünya tarixinin ən görkəmli şəxsiyyətlərindən biridir. Bunu Azərbaycan xalqı və bütün bəşəriyyət bilir və zaman keçdikcə daha da dərindən hiss edəcək.

Bu həm də o deməkdir ki, kiminsə subyektiv istəklərindən asılı olmayaraq, XX əsrin 90-cı illərində Azərbaycan tarixinə olduqca şanlı bir səhifə yazılmışdır. Bu səhifəni zamanın və tarixin özü yazmışdır. Bu qızıl səhifə "Müstəqillik uğrunda mübarizə" adlanır. Xalqımızı bu müqəddəs mübarizədən - istiqlal mübarizəsindən qalib çıxaran məhz Heydər Əliyev oldu. Tamamilə təbiidir ki, o, müstəqillik uğrunda mübarizənin qalibi kimi dünya tarixinin parlaq şəxsiyyətləri sırasında ən layiqli yer tutur.

Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və əsas siyasi proseslərə təsiri çox artmışdır. Azərbaycan Respublikası qısa müddət ərzində bütün dünyada demokratik, hüquqi və dünyəvi dövlət nüfuzu qazanmışdır. Heydər Əliyev dühasının məhsulu olan 1995-ci il Əsas Qanunumuz beynəlxalq aləmdə haqlı olaraq dünyanın ən demokratik, ən mükəmməl konstitusiyalarından biri sayılır. Ölkədə bərqərar olmuş sabitlik, aparılan islahatlar xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərir. Xarici siyasətini bərabərhüquqlu və qarşılıqlı maraqlar prinsipləri əsasında quran Azərbaycan Respublikası bütün dünya dövlətləri üçün açıq ölkəyə çevrilmişdir.

Bu gün müstəqil Azərbaycan dövlətinin İslam dünyasındakı nüfuzu da getdikcə artır. Azərbaycan Respublikası bir çox beynəlxalq birlik və təşkilatların üzvüdür. Azərbaycanın Avropa Şurasında uğurları göz qabağındadır. Heydər Əliyev siyasətinin layiqli davamçısı İlham Əliyevin bu mötəbər ümumavropa təşkilatında parlaq çıxışları, erməni millətçiləri üzərində aparılan debatlarda inamlı qələbələrimiz hər bir Azərbaycan vətəndaşında haqlı qürur hissi doğurur.

Bundan əlavə, İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının yüksək postlarına-vitse-prezident və Büro üzvü, BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Bloklara qoşulmayan ölkələr təşkilatına sədrlik etməsi və digər önəmli faktlar Azərbaycan Respublikasının beynəlxalq miqyasda artan nüfuzunun daha bir bariz sübutudur [2, s.1].

Bir sözlə, qüdrətli siyasətçi Heydər Əliyevin böyük müdrikliyi, incə və çevik siyasətinin nəticəsi olaraq bu gün bölgədə təkcə Azərbaycanda xarici dövlətlərin hərbi bazası yoxdur. Vətənimiz Azərbaycan bütün Cənubi Qafqazda sabitliyin və əmin-amanlığın təmin edilməsində mühüm rol oynayır. Azərbaycan beynəlxalq antiterror mübarizəsində fəal və ardıcıl iştirak edir.

Bu gün, müasir Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunda yeni uğurlar qazanır. Ən qanlı günlər geridə qalmış, tarixə keçmişdir. Azərbaycan dövlətçiliyi məkrli düşmənlərin qanlı caynağından həmişəlik xilas olmuşdur.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Müzəffər Ordumuz 2020-ci ildə 44 günlük Zəfər müharibəsində torpaqlarımızı 30 illik erməni işğalından azad edərək ərazi bütövlüyümüzü bərpa etmişdir. Xalqımız inamla parlaq gələcəyə doğru addımlayır. Azərbaycan Respublikası Cənubi Qafqazın lider dövlətinə çevrilmişdir. Bütün bunlar üçün hər bir Vətən övladı və bütövlükdə, xalqımız Vətənimizin parlaq xilaskarına - Heydər Əliyevə borcludur.

Dünya tarixinin dahi şəxsiyyətlərindən olan Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan, eləcə də dünyadakı 60 milyon azərbaycanlı bu gün dirçəliş yolundadır. Şübhə etməyə bilərik ki, ən yaxın gələcəkdə Azərbaycan xalqının, Böyük Azərbaycanın yeni intibah dövrü bizi gözləyir.

Ədəbiyyat

1.Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu. Bakı Dövlət Universitetinin Tarix fakültəsinin təşkilatçılığı ilə keçirilmiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. 8 may 2021-ci il. Bakı: - 2021. - 97 s.

2.Azərbaycan və Qoşulmama hərəkatı: beynəlxalq ədalət naminə İlham Əliyev qətiyyəti // Xalq. - 2023. - 4 mart. - s.1,8.

3.Əliyev İlham. İnkişaf - məqsədimizdir: [105 cilddə] / İ.Əliyev. - Bakı: Azərnəşr, - Yüz üçüncü kitab. may 2020 - iyun 2020. - 2020, - 392 s.

4.Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Təhsil, Bakı: - 2004. - 472 s.

5.Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Təhsil, Bakı: - 2002. - 328 s.

6.Məmmədov M. Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü // Azərbaycan. - 2008. - 3 avqust. - s.1-2.

7.Məmmədov N. Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli // Xalq qəzeti. - 2010. - 9 may. - s.5-6.

8.Qurbanov S. Heydər Əliyev qətiyyətinin təntənəsi // Azərbaycan. - 2023. - 19 yanvar. - s.5.

РЕЗЮМЕ

ГЕЙДАР АЛИЕВ – СПАСИТЕЛЬ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА

Бахшалиев А.Б.

Ключевые слова: *Гейдар Алиев, Азербайджан, освобождение, спаситель, политик,*

Накануне возвращения Гейдара Алиева к власти в июне 1993 года Азербайджан находился в самом кровавом водовороте своей истории. После возвращения народ убедился, что руль исторической судьбы государства находится в руках гениального государственного деятеля. Родина, народ не упали в глубокую пропасть, приготовленную коварными врагами, и избежали роковой катастрофы. Вот почему мы с большой гордостью говорим, что Гейдар Алиев – спаситель своего народа и своей Родины!Вполне естественно, что он, как победитель борьбы за независимость, занимает самое достойное место среди ярких личностей мировой истории.

SUMMARY

HEYDAR ALIYEV IS THE SAVIOR OF THE STATE OF AZERBAIJAN

Bakshaliyev A.B.

Keywords: *Heydar Aliyev, Azerbaijan, liberation, savior, politician*

In the period of Heydar Aliyev's return to power in June 1993, Azerbaijan was in the bloodiest vortex of its history. After his return, the people were convinced that the fate of the historical destiny of the state is in the hands of a brilliant statesman. Native land, the people did not fall into a deep abyss prepared by insidious enemies, and avoided a fatal catastrophe. That's why we say with great pride that Heydar Aliyev is the savior of his people and Nativeland! It is quite natural that he, as the winner of the struggle for independence, occupies the most worthy place among the bright personalities of world history.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN NEFT STRATEGİYASININ TARİXİ

Səlimov Şirxan Dadaş oğlu

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, professor

shirxan.salimov@mail.ru

Açar sözlər: *"Əsrin müqaviləsi", beynəlxalq şirkətlər, neft, xarici dövlətlər, "Azəri", "Çıraq", "Günəşli" yataqları.*

Sovet rejiminin dağılması və Azərbaycanın müstəqillik əldə etməsi xarici və daxili siyasətdə Azərbaycan xalqının milli maraqlarına cavab verən qərarlar qəbul etməsi üşün mühüm şərait yaratdı. Sovet rejiminin uzun illər yaratdığı problemlər müstəqilliyin ilk illərində də öz təsirini göstərməkdə idi. Bu baxımdan rejimin çökməsinə baxmayaraq onun varisi tərəfindən yaradılan problemlər həm siyasi, həm də iqtisadi cəhətdən böhranın yaranmasına gətirib çıxarmışdır. Müstəqilliyin ilk mərhələsində Rusiyanın təsir dairəsindən və sovet rejiminin idarəçilik prinsiplərindən ayrıla bilməyən Azərbaycan hakimiyyəti bu böhranların aradan qaldırılması üçün demək olar ki, heç bir tədbir görə bilmədilər.

AXCP-Müsavat cütlüyünün hakimiyyəti dövründə müstəqilliyin gücləndirilməsi və ölkədə mövcud olan siyai-iqtisadi problemlərin aradan qaldırılması məqsədi ilə bir sıra cəhdlər göstərdilər. O cümlədən Qərb ölkələri ilə neft müqavilələrinin bağlanması məqsədilə danışıqlara başladılar. Lakin bu danışıqlar zamanı beynəlxalq münasibətlərdə olan güc mərkəzlərinin-xüsusilə də sovet rejiminin varisi, Azərbaycan neft sənayesinin mahiyyətini çoxlarından daha yaxşı bilən və çox ciddi iddiası olan Rusyanın və digər qüvvələrin müqvilələrin imzalanmasında yaradacağı problemlər nəzərə alınmadı. Nəticədə Rusiya Qərblə bağlanacaq neft müqaviləsinin qarşısını almaq üçün Azərbaycana qarşı çox ciddi siyasi və iqtisadi xarakterli problemlər yaradan Rusiya ermənilər tərəfindən Azərbaycanın tarixi torpaqlarının işğal edilməsinə bütün vasitələrlə kömək etdi. Bu problemlərin aradan qaldırılmasına nail ola bilməyən Azərbaycan hökuməti siyasi fəaliyyətini Naxçıvanda davam etdirən Ali Məclisin sədri Heydər Əliyevi Bakıya dəvət etmək məcburiyyətində qaldı.

Bakıya gələn Heydər Əliyev ilk növbədə Azərbaycanın siyasi fəaliyyəti üçün çox ciddi təhlükə olan Gəncə qiyamının qarşısını siyasi yolla almaq məqsədilə Surət Hüseynovla danışıqlara başladı və buna nail ola bildi. Heydər Əliyev Ali Sovetin sədri seçilməklə bir sıra səlahiyyətlərə sahib oldu. Bunula yanaşı digər tədbiləri də həyata keçirən Heydər Əliyev qısa bir zamanda Azərbaycanda siyasi sabitliyin təmin olunmasına nail oldu. Bu zaman Azərbaycanda siyasi sabitliklə yanaşı ən mühüm problem iqtisadi sabitliyin və inkişafın əldə edilməsi idi. Bu zaman Azərbaycanda maliyyə böhranı hökm sürür büdcə demək olar ki, boş idi. Ciddi təbii sərvətlərə sahib olmasına baxmayaraq həmin sərvətləri reallaşdıraraq ehtiyac olan Avropa bazarlarına çıxarılması üçün böyük dövlətlərin maliyyə və siyasi dəstəyinə ehtiyac var idi. Bunu reallaşdırmaq üçün Heydər Əliyev Avropanın aparıcı dövlətləri, ABŞ və Rusiya ilə danışıqlara başladı. Danışıqlar zamanı balanslaşdırılmış siyasət yeridərək digər güc mərkəzlərinin də maraqları nəzərə alındı.

Beynəlxalq münasibətlərdə yeni bir şəraitin yarandığı zaman bir-biri ilə rəqabət aparan güc mərkəzlərinin maraqlarını bir araya gətirmək son dərəcə çətin məsələ idi. O zaman investitsiya qoyuluşu, pay bölgüsü və başqa məsələlərdə problemlər var idi. Ancaq buna baxmayaraq Heydər Əliyev danışıqların başlamasına qərar verdi. ARDNŞ-birinci vitse prezidenti İlham Əliyev danışıqlar prosesində yaxından iştirak edirdi.

1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. [2] Müqaviləni 1994-cü ilin dekabrın 12-də Milli Məclis təsdiq etdi. 1997-ci ilin noyabrın 12-dən ilkin neft hasil edilməyə başladı. Qoyulacaq invesititsiyanın həcmi təqribən 12-14 milyard dollara çatmalı idi. Bu rəqəm həmin dövrdə Azərbaycan iqtisadiyyatı üçün son dərəcə mühüm əhəmiyyətə malik idi. " Əsrin müqaviləsi"nin imzalanmasından sonra xarici şirkətlərlə müqavilələrin imzalanması prosesi davam etmiş və nəticədə Azərbaycan Neft Şirkətu müxtəlif ölkələri təmsil edən 30-dan artıq xarici şirkətlə müqavilə imzalamışdır.

Eyni zamanda, "Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 26 sazişin də imzalanmasına şərait yaratdı...Ümumilikdə isə "Əsrin müqaviləsi"nin həyata keçirilməsilə Azərbaycan iqtisadiyyatında dönüş yarandı.[1,s.3]

"Əsrin müqaviləsi"nin imzalanmaısndan 2021-ci il tarixinə qədər keçən müddət ərzində hasil olunan neftin miqdarı 3,9 milyard bareldən çox olmuşdur. *"Azəri-Çıraq-Günəşli" yataqları üzrə* neftdən əldə olunan gəlir isə 153 milyard dollardan çox olubdur. "Əsrin müqaviləsi"nin imzalanması tarixindən "Yeni Əsrin müqaviləsi"nin imzalanmasına qədər olan müddət ərzində Azərbaycanda neft istehsalı təqribən beş dəfədən çox artmışdır. Neftdən əldə olunan gəlirlər Azərbaycanda iqtisadiyyatın inkişaf etdirilməsi və sosial problemlərin həll edilərək əhalinin maddi rifah halının yüksəldilməsi üçün geniş imkanlar açmışdır. Bütün bunlar Azərbaycanın maliyyə imkanlarını artırmış, iqtisadiyyatın inkişafına müsbət təsir etmiş, neft sənayesində geniş texniki imkanlar əldə etməyə nail ola bilmiş və beynəlxalq münasibətlərdəki mövqeyinin güclənməsinə gətirib çıxarmışdır.

2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirilib. Sazişi Azərbaycan Hökumətinin, SOCAR-ın, BP, "Chevron", "Inpex", "Statoil", "ExxonMobil", "TP", "Itochu" və "ONGC Videsh" şirkətlərinin rəsmiləri imzalayıb. Sazişə əsasən BP layihənin operatoru olaraq qalıb. Saziş Milli Məclis tərəfindən oktyabrın 31-də ratifikasiya olunub.[3]

"Əsrin müqaviləsi" adı ilə tarixə düşən və Azərbaycanın iqtisadi, eləcə də siyasi həyatında mühüm rol oynayan bu "Müqavilə sayəsində Azərbaycan 1 sentyabr 2022-ci ilə qədər 162 milyard dollar mənfəət əldə edib. Həm hökumət vergilərdən qazanc götürüb, həm də Dövlət Neft şirkəti özünə düşən paya görə

vəsait qazanıb. Hazırda Dövlət Neft Fondunda 45 milyard ABŞ dolları mövcuddu. Yerdə qalanların hamısı xərclənib. Xərcələmələrin 90 faizindən çoxu dövlət büdcəsinə transfer edilib".[4]

Nəticə: "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan beynəlxalq münasibətlərdəki mövqeyini əsaslı şəkildə gücləndirə bildi;

-müstəqilliyin ilk illərində Azərbaycanda mövcud olan iqtisadi böhranın aradan qaldırılması üçün maliyyə imkanları əldə etdi;

-Azərbaycana böyük dövlətlər tərəfindən əsaslı şəkildə investitsiya qoyuluşu üçün münbit şəraitin yaranmasına gətirib çıxardı;

-"Əsrin Yeni müqaviləsi"nin bağlanması üçün Azərbaycan 1994-cü ildə imzalanmış müqavilənin şərtlərindən daha əlverişli şərtlələ müqavilənin müddətini 2050-ci ilə qədər uzadılmasına nail ola bildi;

-"Əsrin müqaviləsi"nin imzalanmasının nəticəsi olaraq geniş maliyyə imkanları əldə edən Azərbaycan 30 ilə yaxın bir müddətdə Rusiyanın hərbi-siyasi yardımı ilə Ermənistan tərəfindən işğalal məruz qalmış ərazilərimizin düşmən tapdağından azad edilməsi üçün hərbi büdcəmizin artırılmasına, müasir hərbi sənayeyə malik olan xarici ölkələrdən yeni silahların alınmasına imkan yarandı;

-sosial problemlərin həll edilməsi, əhalinin maddi rifah halının yaxşılaşdırılması və əmək haqqının artırılması üçün geniş imkanlar yarandı.

Ədəbiyyat

1. Alıyev İ., Əsədov A. "Əsrin müqaviləsi" – davamlı iqtisadi inkişafa aparan yol. Xalq qəzeti.- 2009.- 13 sentyabr.- S. 1; 3.
2. Əsrin müqaviləsi. https://azerbaijan.az/related-information/132
3. https://azertag.az/xeber/Yeni_Asrin_muqavilesinin_imzalanmasindan_4_il_kechir-1875003
4. Şaban İ. 28 ildə "Əsrin müqaviləsi"ndən nə qazandıq. https://modern.az/iqtisadiyyat/369283/esrin-muqavilesi-azerbaycana-ne-verdi/

РЕЗЮМЕ
ГЕЙДАР АЛИЕВ И ИСТОРИЯ НЕФТЯНОЙ СТРАТЕГИИ АЗЕРБАЙДЖАНА

Салимов Ш.Д.

***Ключевые слова**: «Контракт века», международные компании, нефть, зарубежные страны, месторождения «Азери», «Чираг», «Гюнешли»*

В статье рассказывается об экономической ситуации в первые годы после обретения Азербайджаном независимости, трудностях при заключении «Контракта века», переговорах с зарубежными странами с целью заключения договора после возвращения Гейдара Алиева к политической власти, подписание договора и подписание «Контракта нового века». В результате исследования был сделан вывод, что с подписанием «Контракта века» Азербайджан получил широкий спектр возможностей для развития социальной, экономической, политической, военной и культурной сфер. В результате подписания «Контракта нового века» по инициативе Президента Ильхама Алиева Азербайджан получил более широкие возможности и был заложен фундамент новой эпохи.

SUMMARY
AZERBAIJAN OIL STRATEGY AND ITS HISTORY

Salimov Sh.D.

***Keywords**: "Contract of the Century", international companies, oil, foreign countries, "Azeri", "Chirag", "Guneshli" fields*.

The article dealswith the economic situation in the first years after Azerbaijan gained independence, the difficulties in concluding the "Contract of the Century", the negotiations with foreign countries for the purpose of concluding the treaty after the return of Heydar Aliyev to political power, the signing of the treaty and the signing of the "Contract of the New Century". As a result of the research, it was concluded that with the signing of the "Contract of the Century" Azerbaijan achieved a wide range of opportunities for the development of social, economic, political, military and cultural fields. Signing of the "Contract of the New Century" on the initiative of President Ilham Aliyev, Azerbaijan gained wider opportunities and the foundation of a new era was laid.

MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ SİYASƏTİ

ВНУТРЕННЯЯ ПОЛИТИКА НЕЗАВИСИМОЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

INTERNAL POLICY OF THE INDEPENDENT REPUBLIC OF AZERBAIJAN

1993-2003-CÜ İLLƏRDƏ AZƏRBAYCANDA HƏYATA KEÇİRİLMİŞ AQRAR İSLAHATLAR

Abdullayev Nofəl Mahmud oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
nofalabdullayev61@gmail.com

Açar sözlər: *Azərbaycan, Heydər Əliyev, iqtisadiyyat, kənd təsərrüfatı, islahat, qanun*

SSRİ-nin dağılmasından sonra Azərbaycan digər sahələrlə yanaşı aqrar sahədə də dərin iqtisadi böhranla üz-üzə qalmışdı. Bu səbəbdən də Ulu Öndər Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə gəldikdən sonra ölkəni böhranlı vəziyyətdən çıxarmaq üçün tarixi şəraitin tələblərinə uyğun konsepsiya əsasında dövlət siyasətini həyata keçirməyə başladı. Bu siyasətin əsasını ilk növbədə iqtisadi və siyasi sabitliyin əldə olunması təşkil edirdi. Yalnız ölkədəki xaosa son qoymaq və atəşkəsə nail olmaqla siyasi sabitliyi təmin etmək olardı. Bu istiqamətdə həyata keçirilməsi nəzərdə tutulan problemlərin mərhələlər üzrə ardıcıl olaraq həll olunması modeli bu dövrdə daha məqsədəuyğun idi.

Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanın iqtisadi inkişafını üç tarixi dövrə bölmək olar: 1)1993-1995-ci illər; 2) 1995-1997-ci illər; 3) 1997-2000-ci illər.

Azərbaycandakı real vəziyyəti nəzərə almaqla aqrar islahatlar sahəsində dünya təcrübəsini öyrənməyi özündə ehtiva edən birinci dövrdə, həm də mərkəzləşdirilmiş unitar dövlətin formalaşdırılması məsələsi daxil idi.

Artıq, 1993-cü ilin ikinci yarısında Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsinin təməli qoyulur və onun sabit artım templərini əldə etmək imkanlarının yaradılması üçün işlər görülürdü [2, s.33]. Beləki, kənd təsərrüfatında islahatların həyata keçirilməsi vəziyyətinə həsr olunmuş 1994-cü il 18 müşavirəsində məhsul istehsalının artırılması, istehsal olunan kənd təsərrüfatı məhsullarından sənayedə, milli iqtisadiyyatda və əhalinin tələbatının ödənilməsində istifadə olunması kimi həlli vacib məsələlər müzakirə olunmuşdu. Heydər Əliyev müşavirədə çıxış edərək kənd təsərrüfatı sahəsində iqtisadi islahatların keçirilməsinin vacibliyini qeyd edir və bildirdi ki, qanun qəbul etmək çətin bir məsələ deyildir. Əsas məsələ həmin qanunun prinsiplərinin müəyyən edilməsidir [4, s.129]. Bu prinsiplər Heydər Əliyevin 1995-ci il 2 mart tarixli fərmanı ilə yaradılmış Aqrar İslahat üzrə Dövlət Komissiyası qarşısında qoyulmuş tələblərdə geniş şəkildə öz əksini tapmışdır.

1995-1997-ci illəri əhatə edən ikinci dövrün əsas prinsipi aqrar islahatlara dair qanunların və normativ hüquqi aktların hazırlanması idi. Bu dövrdə Heydər Əliyev milli iqtisadiyyatın formalaşdırılması üçün ölkə iqtisadiyyatının bazar prinsipləri əsasında yenidən qurulmasını və ölkənin dünya iqtisadiyyatına səmərəli inteqrasiyasını başlıca amil kimi ön plana çıxarmışdı.

1995-1996-cı illərdə qəbul olunmuş "Aqrar islahatların əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında", "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanunları, eləcə də digər normativ-hüquqi aktlar aqrar sahədə köklü dəyişikliklərin aparılması və bu sahənin davamlı inkişafı nəzərdə tuturdu. Bütün bunların nəticəsi olaraq 1995-ci ildə ölkədəki iqtisadi və sosial xaos makroiqtisadi inkişaf əvəz olundu.

1996-cı il 21 sentyabr tarixində torpaq islahatının tətbiqi və kənd təsərrüfatında mövcud vəziyyət barədə keçirilmiş müşavirədə verilən məlumatlardan və müzakirələrdən belə nəticə çıxarmaq olar ki, ölkəmizdə aqrar sektorda artıq öz müsbət nəticələrini verən iqtisadi islahatlar aparılır [1, s.51]. Təsadüfi deyil ki, 1997-ci il 16 aprel tarixində "Azərbaycanda iqtisadi islahatların gedişi, eyni zamanda kənd təsərrüfatında cari işlərin vəziyyətinin müzakirəsi" mövzusunda keçirilmiş müşavirədə Heydər Əliyev hüquqi normalar çərçivəsində islahatların və dəyişikliklərin aparılmasının doğru olduğunu qeyd edirdi.

Torpaqların xüsusi mülkiyyətə verilməsi ilə 1997-ci ildə Azərbaycan kəndlərində yeni sosial-iqtisadi mühit yarandı. Artıq, 1998-ci ildə respublikada aqrar islahatların birinci mərhələsi bitmək üzrə idi. Bu mərhələdə yeni mülkiyyətçilər, özəl, kooperativ və kəndli təsərrüfatları yaradılmışdı. İkinci mərhələdə əsas diqqət kənd yerlərində istehsal, sosial və bazar infrastrukturunun formalaşmasına yönəldilsə də nəzərdə tutulan işlər heç də tələb olunan səviyyədə həyata keçirilmirdi. Həm də bu sahənin cari istehsal münasibətləri bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılmamışdı. Bu səbəbdən də aqrar islahatlarda vahid dövlət siyasətinin həyata keçirilməsi və kənd təsərrüfatı məhsullarının istehsalının müasirləşdirilməsi məqsədilə 1999-cu il martın 22-də "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" fərman imzalandı [3, s.67]. İmzalanmış bu fərmana görə kənd yerlərində fəaliyyət göstərməyə başlayan yeni sahibkarlara güzəştli qiymətlərlə dövlət büdcəsi hesabına neft məhsullarının satılması haqqında qərar qəbul olundu.

Heydər Əliyevin 1999-cu il 19 aprel tarixində imzalandığı "Sovxozların, kolxozların və kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan digər hüquqi və fiziki şəxslərin vergi borclarının silinməsi haqqında Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında" sərəncam kənd təsərrüfatında bazar münasibətlərinin inkişafında əhəmiyyətli rola malik oldu.

Beləliklə, bu gün qeyri-neft sahəsi olan aqrar sahədə baş verən müsbət dinamika Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilən iqtisadi islahatların və onun tərkib hissəsi olan aqrar islahatın düzgünlüyünü bir daha sübut edir.

Ədəbiyyat

1. Əliyəv R.A., Aqrar bazar və ərzaq təhlükəsizliyi məsələləri, Bakı: Adiloğlu 2003, 101 s.
2. Hüseynov V.A., Özəl təsərrüfatların inkişafının əsas istiqamətləri, Bakı: Ozan 2003, 406 s.
3. Məmmədov Q.S., Heydər Əliyev Torpaq islahatları regionların sosial-iqtisadi inkişafının əsasıdır. Bakı, 2008, 232 s.
4. Vəliyev D.Ə., Yüksəliş illəri, Bakı: Adiloğlu, 2011, 225 s.

РЕЗЮМЕ

АГРАРНЫЕ РЕФОРМЫ, ПРОВЕДЕННЫЕ В АЗЕРБАЙДЖАНЕ В 1993-2003 гг.

Абдуллаев Н.М.

Ключевые слова: *Азербайджан, Гейдар Алиев, экономика, сельское хозяйство, реформа, закон*

Экономическая безопасность любой страны напрямую зависит от устойчивого развития сельского хозяйства. В международной практике низкая или высокая продуктивность сельскохозяйственного производства в разных странах с одинаковыми природными и экономическими условиями показывает, насколько эффективна аграрная политика этой страны. В нашей стране под руководством Гейдара Алиева, переход аграрного сектора к систему рыночных отношений, ликвидация экономического кризиса, возникшего в сельском хозяйстве, формирование многосистемной экономики составили комплекс важных мероприятий нашего государства.

SUMMARY

AGRARIAN REFORMS CARRIED OUT IN AZERBAIJAN IN 1993-2003

Abdullayev N.M.

Keywords: *Azerbaijan, Heydar Aliyev, economy, agriculture, reform, law*

The economic security of any country directly depends on the sustainable development of agriculture. In international practice, low or high productivity of agricultural production in different countries with the same natural and economic conditions shows how effective the agricultural policy of this country is. In our country, under the leadership of Heydar Aliyev, the transition of the agrarian sector to a system of market relations, the elimination of the economic crisis that arose in agriculture, the formation of a multi-system economy constituted a set of important measures for our state.

AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI VƏ MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN FƏALİYYƏTİNİN ƏHƏMİYYƏTİ

Abbaszadə Nigar Mütəllim qızı
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan

Açar sözlər: *Azərbaycan, hakimiyyət, Heydər Əliyev, dövlət müstəqilliyi, dövlətçilik, ərazi bütövlüyü*

H.Əliyevin siyasi hakimiyyətə qayıdışı, xalqımızın və dövlətçilik tariximizin ən parlaq və həm də məsuliyyətli dövrlərindən birinin başlaması demək idi. O günlərdə bəziləri, ən çox da xalqımızın düşmənləri elə güman edirdilər ki, Azərbaycan çox çətin vəziyyətdədir və tezliklə dövlət müstəqilliyimiz, ərazi bütövlüyümüz pozulacaq. Lakin H.Əliyevin yenidən böyük siyasətə qayıdışı bütün bu bədxah niyyətləri alt - üst etdi.

Bu son dərəcə ağır günlərdə H.Əliyevi ikinci dəfə Azərbaycan rəhbərliyinə gəlməsi ilə ölkəni bürüyən iqtisadi, siyasi və hakimiyyət böhranının tezliklə aradan qaldırılacağına əhalidə dərin inam yarandı. H.Əliyevin dövlətçilik təcrübəsi, qətiyyətli və uzaqgörən addımları çox qısa bir vaxtda ölkədə vəziyyəti nəzarət altına götürməyə və bununla da böhran mərhələsinin arxada qalmasına kömək etdi.

Ölkədə cərəyan edən hadisələri dərindən təhlil edən Heydər Əliyev bilirdi ki, Azərbaycanın müstəqilliyini təmin etmək, onu möhkəmləndirmək, ölkədə demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün, ilk növbədə, ictimai-siyasi sabitlik, qanunçuluq, hüququn aliliyi təmin edilməlidir. "Dövlət - dövlətçiliyi qorumalıdır" fikrini dönə-dönə vurğulayan Heydər Əliyev çox qəti və prinsipial mövqedən çıxış edərək ciddi intizam, tələbkarlıq və dövlət mənafeyi kimi amilləri ön plana çəkdi. Məhz H.Əliyevin fəaliyyəti ilə ölkədə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, xaricdən Azərbaycanda sabitliyin bərqərar olması əleyhinə çalışan qüvvələrin hakimiyyətə qarşı dövlət çevrilişinə göstərdikləri cəhdlərin qarşısı qətiyyətlə alındı.*"Dövlət baçşısının qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı"*[4, s.108-109].

Cəbhədə atəşkəsə nail olunması, milli orduda yenidənqurma işlərinin başlanması, döyüş cəbhələrində erməni silahlı qüvvələrinin bütün təxribatlarının və cəbhə boyu irəliləmələrinin qarşısının birdəfəlik alınması dövlətçiliyimizin yenidən bərpa olunması və möhkəmləndirilməsi yolunda H.Əliyevin fəaliyyəti ilə həyata keçirilmiş ən mühüm tarixi nailiyyətlərimizdən biri idi.

Beynəlxalq aləmdə Azərbaycanın cəlb olunduğu ədalətsiz müharibənin əsl günahkarının Ermənistan olduğunun, ermənilərin təcavüzkar kimi dünya ictimaiyyəti tərəfindən tanınması üçün ciddi və məqsədyönlü işlər görüldü. Məhz bunların nəticəsi idi ki, BMT-nin TŞ-sı 1993-cü ildə 4 dəfə Ermənistanın hərbi təcavüzünü pisləyərək, işğal olunmuş torpaqlarımızın dərhal azad olunmasını tələb edən qətnamələr qəbul etmişdi [1, s.540]. Bu qətnamələrin icra olunması kağız üzərində qalsa belə, Ermənistanın təcavüzkar kimi tanınmasında, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması yolunda görülmüş işlərin ilk böyük addımları idi.

1993-cü ilin 29 avqustunda ümumxalq referendumunda vəziyyəti başlı başına buraxıb öz kəndinə gedən və respublika ictimaiyyətinin, Milli Məclisin geri dönmək tələblərinə məhəl qoymayan Ə.Elçibəyə etimadsızlıq göstərilməsindən sonra, *"həmin ilin oktyabrın 3-də xalqın böyük əksəriyyətinin iradəsinə uyğun olaraq H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi"* [2, s.174].

Bununla da Azərbaycan xalqının həyatında çox böyük uğurların qazanılması ilə əlamətdar olan və dövlətçiliyimiz tarixində həm məsuliyyətli, həm də şərəfli yeni mərhələ başladı. H.Əliyevin 10 il ərzində hakimiyyətdə olduğu vaxtda həyata keçirilmiş ən müxtəlif islahatlar cəmiyyət və dövlətin bütün fəaliyyət sahələrində ciddi dəyikliklər və böyük uğurlar əldə edilməsinə şərait yaratdı.

H.Əliyevin ən böyük tarixi xidmətlərindən biri keçən əsrin 90-cı illərinin əvvəllərində bir tərəfdən xalqımız üçün tam əlverişsiz beynəlxalq vəziyyətdə, digər tərəfdən Xalq Cəbhəsi hökümətinin səriştəsizliyi və qətiyyətsizliyi nəticəsində yaranmış separatçılıq meyillərinin gücləndiyi, hakimiyyət strukturlarında inzibati və hüquqi özbaşınalıqların baş alıb getdiyi, cəmiyyətin bütün sahələrində bir növ idarə olunmazlıq mühitinin hökm sürdüyü bir şəraitdə xalqımızın tarixində ən dəyərli və ən əhəmiyyətli olan dövlətçiliyimizin qorunub saxlanması və daha da möhkəmləndirilməsi kimi ən çətin tarixi vəzifənin öhdəsindən gələ bilməsi idi.

H.Əliyevin yaranmış mürəkkəb siyasi vəziyyətə düzgün qiymət verərək *"1994-cü ilin mayında Ermənistanla atəşkəs haqqında saziş imzalanmasına nail oldu"* [2, s.355]. Avropaya inteqrasiya edən Azərbaycan cəmiyyətində siyasi, iqtisadi, hüquqi islahatların həyata keçirilməsinə əlverişli beynəlxalq şəraiti təmin edəcək məqsədyönlü xarici siyasət fəaliyyətini genişləndirməsi o günlərdə bizə dövlətimiz üçün son dərəcə vacib olan quruculuq işlərini genişləndirməyə zəruri olan fürsət verdi.

Dövlətçiliyimizin möhkəmləndirilməsi üçün çox vacib şərt olan iqtisadiyyatın dinamik və yüksək templərlə inkişafına nail olmaq üçün iri layihələrin hazırlanıb həyata keçirilməsinə başlanıldı.

Xəzər dənizinin Azərbaycan sektorunda karbohidratların zəngin yataqlarının müəyyən edilib istismara başlanılması üçün uğurlu neft strategiyası həyata keçirildi. Bu istiqamətdə aparılan işlərin yekunu olaraq dünyanın 26-dan çox ən iri neft şirkətləri ilə müqavilələr imzalandı. *"1994-cü il sentyabrın 20-də reallaşan "Əsrin müqaviləsi" Azərbaycanın həm də beynəlxalq nüfuzunu artırmağa xidmət etmiş oldu"*[5].

Dövlət müstəqilliyinin əsas təminatlarından biri kimi respublikamızda hüquqi- demokratik cəmiyyət qurulması istiqamətində görülmüş işlər də xüsusi qeyd edilməlidir. İlk demokratik parlament seçkilərinin ardınca yerli idarəçilik və özünüidarə orqanlarının fəaliyyətinin yenidən qurulması, siyasi və iqtisadi islahatlar üçün müvafiq hüquqi baza yaradılması, çoxpartiyalı siyasi sistemin qurulması və digər addımlar bütün cəmiyyət həyatının simasında dəyişiklik yaratdı.

Cəmiyyət həyatının və iqtisadiyyatın bütün sahələrini əhatə edən geniş miqyaslı islahatlara start verildi.*"12 noyabr 1995-ci il Azərbaycan tarixində parlamentə ilk dəfə demokratik seçkilər keçirildi, müstəqil dövlətin Konstitusiyası referendum - ümumxalq səsverməsi yolu ilə qəbul edildi* [3, s.198-199]. Beləliklə, Azədirbaycan tarixində ilk demokratik Konstitusiyanın qəbul edilməsi, qanunun aliliyini, insanların hüquq və azadlıqlarının təmin etmək üçün işlək hüquqi mexanizmin yaranması dövlətçiliyimizin daha da möhkəmləndirilməsi xalqımızın qarşıdakı illərdə əldə edəcəyi böyük uğurlar üçün möhkəm hüquqi baza yaratdı.

Azərbaycan qısa müddətdə regional və beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsi məkanına çevrildi. Bu hadisələr bizim üçün ona görə xüsusi əhəmiyyətli idi ki, onların hər biri dünya miqyasında baş verən ictimai və siyasi proseslərə təsir göstərmək gücünə malik idi. Ölkəmizin tarixi İpək yolunun bərpasına həsr edilmiş işlərin mərkəzinə çevrilməsi, *"Bakı - Tiblisi - Ceyhan neft, Bakı - Tiblisi - Ərzurum qaz kəmərlərinin inşasına başlanılması region ölkələri üçün, o cümlədən türk dünyasından ötrü nə demək olduğu neçə - neçə nəsillər keçəndən sonra başa düşüləcəkdir"*[4, s.112].Bu nailiyyətlər respublikamızın iqtisadi qüdrətinin artmasına xidmət göstərməklə bərabər, Azərbaycanın müstəqilliyinin əbədi olmasının təminatı demək idi.

XXI əsrə güclü və qüdrətli dövlət kimi daxil olan Azərbaycan Respublikasının öz tarixində yeni intibah dövrü yaşaması, dövlət müstəqilliyinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi H.Əliyevin nadir fitri idarəçilik qabiliyyəti və qətiyyəti, zəngin dövlət idarəçilik təcrübəsi səbəbindən mümkün olmuşdur.

Bütün bunların nəticəsi olaraq "*Azərbaycan Respublikası Milli Məclisi H.Əliyevin xalqımızı düşdüyü böhran vəziyyətindən çıxarmaq, bütün varlığımızın, müstəqilliyimizin böyük təhlükə, məhv olmaq və parçalanmaq təhlükəsi ilə üzbəüz qaldığı vaxtda, bunları aradan qaldırmağa nail olmasını yüksək dəyərləndirərək H.Əliyevin böyük siyasətə qayıdışını bildirən Milli Məclis sədri seçildiyi günü - 1993-cü ilin iyunun 15-ni "Qurtuluş günü" kimi qeyd etməyə qərar verdi"* [6, s.55]. Bu, həqiqətən dövlətimizin, dövlətçiliyimizin tarixin sərt dönüşlərindən biri ilə üz-üzə qaldığı bir vaxtda "Böyük xilaskarın" yaranmış mürəkkəb tarixi-siyasi şəraitdə yeganə düzgün addımlar ataraq, bu vəziyyəti aradan qaldırmağa nail ola bildiyi tarixi an və milli dövlətçiliyimizdə yeni tarixi mərhələnin başlanğıcı sayılan gün idi.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Məqalələr toplusu / red: F.Məmmədov - Bakı: Poliart, - 2017. - 904 s.
2. Hüseynova, İ. Müstəqilliyimizin təminatçısı. (Məqalələr, çıxışlar, müsahibələr, rəylər.. .) / İ.Hüseynova. - Bakı: Təhsil, - 2003. - 504 s.
3. Hüseynova, İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu / İ.Hüseynova. - Bakı: Təhsil, - 2004. - 472 s.
4. Mahmudov, Y. Azərbaycan: qısa dövlətçilik tarixi / Y.Mahmudov. - Bakı: Təhsil, - 2005. - 140 s.
5. Sadıqlı, Flora. 25 ildir Azərbaycana xidmət edən layihə: [Elekrton resurs] / URL: http://www.azerbaijan-news.az/view-172462/25-ildir-azerbaycana-xidmet-eden-layihe
6. Аббасзаде Н.М. Историческое значение деятельности Гейдара Алиева в восстановлении и укреплении государственности Азербайджана // -Ужгород: Науковий вісник Ужгородського національного університету. Серія международнi відносини. 2019. Випуск 5., s.50-57

РЕЗЮМЕ
ЗНАЧЕНИЕ ДЕЯТЕЛЬНОСТИ ГЕЙДАРА АЛИЕВА В ВОССТАНОВЛЕНИИ И УКРЕПЛЕНИИ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА
Аббасзаде Н.М.

Ключевые слова: *Азербайджан, власть, Гейдар Алиев, государственная независимость, государственность, территориальная целостность.*

Существовавший в стране экономический, политический и управленческий кризис завершился приходом Гейдара Алиева к руководству Азербайджаном во второй раз. В тезисах раскрывается значение деятельности Гейдара Алиева по обеспечению территориальной целостности Азербайджана, «Договора века», принятием первой демократической Конституции, подготовкой и реализацией проектов по достижению динамичного и высокого развития экономики.

SUMMARY
THE IMPORTANCE OF HEYDAR ALIYEV'S ACTIVITY IN RESTORING AND STRENGTHENING THE INDEPENDENCE OF AZERBAIJAN REPUBLIC
Abbaszade N.M.

Key words: *Azerbaijan, authority, Heydar Aliyev, state independence, statehood, territorial integrity*

The existing economic, political and managerial crisis in the country ended with the arrival of Heydar Aliyev to the leadership of Azerbaijan for the second time. The theses study the significance of Heydar Aliyev's activities to ensure the territorial integrity of Azerbaijan, the "Treaty of the Century", the adoption of the first democratic Constitution, the preparation and implementation of projects to achieve dynamic and high economic development.

AZƏRBAYCAN İQTİSADİYYATININ TARİXİ İNKİŞAF YOLU

[1]Abdullayeva Zoya Hamlet qızı, [2]Vəlizadə Ülkər Aydın qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, 1- dosent, 2- böyük laborant
abdullayevafuad2018@mail.ru

Açar sözlər: *müstəqillik dövrü, bazar iqtisadiyyatı, aqrar islahatlar, xarici investisiya, dövlət proqramları*

Ölkəmizin müasir iqtisadiyyatının yaradılması uzun bir tarixi dövrü əhatə edir. Bu dövr Heydər Əliyev tərəfindən onun hakimiyyətinin birinci mərhələsindən başlayır. Qeyd etməliyik ki, müstəqillik dövrünün islahatlarını sovet dövrünün islahatları ilə eyniləşdirmək real bənzətmə deyildir. Sadəcə olaraq bunların arasında məntiqi əlaqənin mövcudluğu da inkar edilə bilməz.

Azərbaycan xalqının *ümummilli lideri* Heydər Əliyevin müəyyənləşdirdiyi bazar iqtisadiyyatına keçid üçün seçilmiş yol nəticə etibarı ilə ölkənin iqtisadi modelinin əsaslarının yaradılmasında həlledici rol oynamışdır. Mülkiyyətin özəlləşdirilməsi, iqtisadiyyatın dövlətin inhisarından azad edilməsi, şəxsi mülkiyyət hüququnun formalaşması əsasında azad sahibkarlığın yaradılması bazar iqtisadiyyatına keçid konsepsiyasının başlıca xəttini təşkil edir[3].

Azad bazar münasibətlərinin formalaşdırılması mərhələləri iqtisadi siyasətin diqqəti cəlb edən mühüm xüsusiyyətlərindən hesab oluna bilər. Bazar münasibətləri sisteminə səmərəli keçidi təmin edən xidmət sahələrinin, ticarətin, tikintinin, nəqliyyatın bir sıra sahələrinin özəlləşdirilməsi yeni iqtisadi sistemin formalaşmasını istiqamətləndirdi. Bu təcrübə bazar iqtisadiyyatı üsullarından istifadə edilməsi imkanlarını xeyli dərəcədə genişləndirdi.

Ölkəmizdə aqrar islahatların aparılması yeni iqtisadi modelinin yaradılmasını təmin edən əsas amillərdəndir. Hələ Heydər Əliyevin rəhbərliyi dövründə (70-80-ci illər) sənaye sahələrinin inkişaf etdirilməsinə baxmayaraq, kənd təsərrüfatı sektoru iqtisadiyyatda xüsusi çəkiyə malik idi. Kənd təsərrüfatının əmək tutumlu sahə olması və ölkə əhalisinin təxminən yarısının kənd yerlərində yaşaması onun inkişafını şərtləndirən əsas amillərdən biridir. Bu səbəbdən də aqrar islahatların aparılmasına ölkə başçısı xüsusi önəm verirdi[3].

Aqrar islahat formasında həyata keçirilən kənddə yeni iqtisadi münasibətlər sisteminin yaradılması ulu öndərin böyük uzaqgörənliyi idi. Belə ki, onun torpaqların kəndlilərə paylanmasını nəzərdə tutan aqrar siyasəti təkcə kəndin kollektiv təsərrüfat sistemini dəyişdirmirdi, əslində bütün təsərrüfat ukladını, kəndlinin həyat tərzini kökündən yeni qaydalar üzərinə keçirilməsini təmin edirdi. Lakin həyata keçiriləcək aqrar islahatların riskləri (unudulmuş şəxsi təsərrüfatçılıq psixologiyasının yaradılması, birbaşa ərzaq təhlükəsizliyi problemi, kənddə işsizliyin kəskin surətdə artması, texnikanın yaranacaq bütün fərdi təsərrüfatlar arasında bölünməsinin qeyri mümkünlüyü, nəhayət müəyyən müddət ərzində kəndliyə verilmiş torpaqların əhəmiyyətli hissəsinin işlənməsi təmin edilə bilməyəcək) mövcud idi. Buna baxmayaraq kəndlidə

zəruri sahibkarlıq hisslərinin formalaşdırılması, kənddə ədalətin bərpa olunması kimi gələcək perspektivlərə inam güclü idi. Müasir dövrdə ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsində daxili imkanların rolunun getdikcə genişlənməsi həyata keçirilən aqrar islahatların səmərəliliyindən xəbər verir.

Azərbaycan Respublikası müstəqilliyin ilk illərində qarşılaşdığı maliyyə çətinlikləri iqtisadiyyatın struktur dəyişikliklərini həyata keçirməyə imkan vermirdi. Bu zaman xarici sərmayələrin cəlb edilməsi səmərəli çıxış yollarından biri idi. Xarici investisiyaların cəlb edilməsi siyasi xətti Heydər Əliyevin inkişaf strategiyasının tərkib hissəsi idi[1].

Bir sıra ölkələrin təcrübəsində xarici kapitalın cəlb edilməsi sınanmış əlverişli üsullardan hesab olunur. Zəngin karbohidrogen ehtiyatlarına malik olan Azərbaycan daxili imkanların məhdudluğu şəraitində xarici sərmayənin cəlb edilməsi mahiyyət etibarilə ölkənin inkişaf maraqlarına, eyni zamanda ayrı-ayrı beynəlxalq şirkətlərin biznes maraqlarına cavab verirdi. Bu əhəmiyyətli həlqə Azərbaycanın milli iqtisadiyyatını qlobal iqtisadiyyata sıx bağlılığını təmin edirdi. Nəticədə ölkənin zəngin karbohidrogen ehtiyatları böyük maliyyə axınına çevrilməklə iqtisadi və sosial inkişafın təməlini qoydu. Artıq Azərbaycan dünyada etibarlı tərəfdaş kimi qəbul edilməyə başladı. Belə ki, ölkə iqtisadiyyatının xarici sərmayələr üçün cəlbediciliyi, əlverişli investisiya mühitinə təminatı artmağa başladı.

Ölkə daxilində çoxsaylı çətinlikləri içərisində bazar münasibətləri ilə sosial ədalət prinsiplərinin əlaqələndirilməsi – kapitalizm və sosializm dəyərlər sisteminin təmin edilməsi, hər iki münasibətlər sisteminin uzlaşması qeyri-mümkün idi. Artıq bu iki antaqonist sistemin təmas nöqtələrinin axtarılıb tapılması həllini gözləyən vacib tələb idi.

Müstəqilliyin ilk illərində insanların üzləşdiyi işsizlik, yoxsulluq və digər sosial problemlər dövlətdən onun bir qisminin ödənilməsini zəruri hesab edirdi. Azərbaycanda azad bazar münasibətləri ilə sosial ədalət prinsiplərinin sintezinin yaradılması Heydər Əliyevin uzaqgörənliyi və müdrikliyi sayəsində öz müsbət həllini tapdı. Belə ki, azad sahibkarlıq, iqtisadi rəqabət, şəxsi mülkiyyət münasibətləri və onların yaratdığı yeni dəyərlər sistemi ilə yanaşı, əhalinin sosial qayğı və ehtiyaclarının müəyyən bir qismi dövlətin üzərinə qoyulmuşdu[3].

Azərbaycan iqtisadiyyatında 2004-cü ildən başlayaraq təkrarlanan yüksək artım müşahidə olunmağa başladı. Qısa bir müddətdə - 10 il ərzində dövlət büdcəsi gəlirləri 10 dəfədən çox yüksəldi, iqtisadiyyat 3 dəfəyə qədər artdı. Azərbaycan güclü bir dövlət kimi özünü təsdiq etməyə başladı. 2008-2009-cu illərin ağır, dünyanın əksər ölkələrini bürümüş maliyyə və iqtisadi böhranını Azərbaycan dayanıqlı müqaviməti ilə qarşıladı.

Azərbaycan regionların inkişafının tarazlaşdırılması məqsədi ilə aparılan regional siyasət, XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərinə təsadüf edən tənəzzül proseslərinin yaratdığı qeyri-bərabərliyin aradan qaldırılmasına xidmət edirdi. Belə ki, inkişaf etmiş Bakı ilə geridə qalmış regionlar arasında qeyri-bərabər fərqlər ölkə iqtisadiyyatının inkişafı qarşısında ən böyük maneələr yaradır[4].

Regionların inkişafının tarazlaşdırılması məqsədilə 2004-cü ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair dövlət proqramı qəbul edildi. Ardıcıl qəbul edilən dövlət proqramlarının həyata keçirilməsi nəticəsində iqtisadiyyatın strukturundakı qeyri bərabərlik tədricən aradan qaldırılmağa başlandı. Bu məqsədlə işsizliyin aradan qaldırılması üçün yeni iş yerləri açıldı, iş qüvvəsindən səmərəli istifadə olunması məsələsinə xüsusi diqqət ayrıldı. Nəticədə regionlarda iqtisadi fəallığın artması, ölkə iqtisadiyyatının ümumi inkişafında regionların xüsusi çəkisini yüksəltdi, regionların infrastukturu təkmilləşdirildi, regionların sosial siması dəyişdi. Hazırda regionların planlı inkişaf istiqamətləri Azərbaycanın davamlı iqtisadi yüksəlişində əhəmiyyətli rol oynayır.

Ölkəmizin bugünkü inkişafı, milli iqtisadiyyatın struktur dəyişiklikləri, yeni texnologiyaların tətbiqi, dünya iqtisadi sisteminə qovuşmağa imkan yaradan yeni sahələrin və istehsalların yaranması ilə xarakterizə olunur. Artıq Azərbaycanda bazar iqtisadiyyatının əsaslarının bərqərar edilməsi istiqamətində əsaslı işlər həyata keşirilmişdir.

Azərbaycanın qısa müddətdə əldə etdiyi uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər onun gələcək inkişafının təminatçısıdır. Belə ki, ölkənin işğaldan azad edilmiş ərazilərinin inkişafı və onun ümumi iqtisadiyyatımıza reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat dəhlizlərinin imkanlarından istifadə etmək gələcək inkişafımıza geniş imkanlar yaradacaqdır.

Ədəbiyyat

1. Şəkərəliyev A., Şəkərəliyev Q. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: Turxan NPB, 2016. -536 s.
2. Əliyev A.Ə., Şəkərəliyev A.Ş. Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti. Monoqrafiya, Bakı: Bakı Universitetiı, 2002 - 440 s.
3. https://azerbaijan.az/information/401

4. http://www.anl.az/down/meqale/azerbaycan/2010/may/118508.htm
5. http://anl.az/down/meqale/azerbaycan/2010/may/118834.htm

РЕЗЮМЕ
ИСТОРИЧЕСКИЙ ПУТЬ РАЗВИТИЯ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА
Абдуллаева З.Х., Вализаде У.А.

***Ключевые слова**: период независимости, рыночная экономика, аграрные реформы, иностранные инвестиции, государственные программы.*

В статье кратко отражены сто исторических периодов создания современной экономики нашей страны. Отмечается, что выбранный общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым путь перехода к рыночной экономике в конечном итоге сыграл решающую роль в создании основ экономической модели страны. Создание новой системы экономических отношений в деревне, осуществленное в форме аграрной реформы, было великим видением великого вождя. Привлечение иностранных инвестиций обеспечило тесную связь национальной экономики Азербайджана с мировой экономикой. В результате реализации последовательных государственных программ неравенство в структуре экономики стало постепенно устраняться. В статье отмечается, что намеченные направления развития регионов играют важную роль в непрерывном экономическом росте Азербайджана. В направлении создания основ рыночной экономики в Азербайджане уже проведены значительные работы.

SUMMARY
HISTORICAL DEVELOPMENT PATH OF AZERBAIJAN ECONOMY
Abdullaeva Z.Kh., Valizade U.A.

***Key words**: period of independence, market economy, agrarian reforms, foreign investments, government programs.*

The article briefly reflects one hundred historical periods of the creation of the modern economy of our country. It is noted that the path of transition to a market economy chosen by the national leader of the Azerbaijani people Heydar Aliyev ultimately played a decisive role in creating the foundations of the country's economic model. The creation of a new system of economic relations in the countryside, carried out in the form of an agrarian reform, was the great vision of the great leader. Attraction of foreign investments provided a close link between the national economy of Azerbaijan and the world economy. As a result of the implementation of consistent state programs, inequality in the structure of the economy began to be gradually eliminated. The article notes that the planned directions for the development of the regions play an important role in the continuous economic growth of Azerbaijan. Significant work has already been carried out in the direction of creating the foundations of a market economy in Azerbaijan.

AZƏRBAYCANDA SU QITLIĞININ YARATDIĞI PROBLEMLƏR

Abdulov Kamil Şamil oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
lemur-1976@mail.ru

***Açar sözlər:** su qıtlığı, çay, iqlim dəyişiklikləri, quraqlıq, iqtisadi inkişaf*

Su yer üzündə ən çox yayılmış maddədir, yer səthinin 70% -dən çoxunu tutur və yalnız təxminən 30% qurudur. Bununla belə, dünyada su, xüsusilə də içməli su qıtlığı var.

BMT-nin məlumatına görə, dünya əhalisinin demək olar ki, yarısı su qıtlığından əziyyət çəkir. Mütəxəssislərin hesablamalarına görə, dünyada 780 milyondan çox insanın təmiz içməli suya çıxışı yoxdur. 1,7 milyard insanın isə şirin suya ehtiyacı var. Hər il dünyada minlərlə insan təmiz su çatışmazlığı və antisanitar şərait üzündən ölür. Onların əksəriyyəti uşaqlardır.

Vəziyyətin bütün mürəkkəbliyi dünya şirin su ehtiyatlarının mövcudluğunun ümumi mənzərəsi ilə bağlıdır. Dünya okeanının həcmi su kütləsinin 96,5%-ni, şirin su isə ümumi su ehtiyatının cəmi 3,5%-ni təşkil edir. Buz şəklində mövcud ehtiyatların yalnız 1%-i insan istehlakı üçün mövcuddur.

Şirin suyun ölkələr və qitələr arasında paylanması qeyri-bərabərdir. Məsələn, bütün planetimizin əhalisinin 20%-nin yaşadığı Avropada su ehtiyatlarının cəmi 7%-i var. Bu, dövlətlərə təkcə içməli su ilə təmin etmək üçün deyil, həm də yaşamaq qabiliyyəti və həyat keyfiyyəti baxımından fərqli şərtlər qoyur. Bu resursların çatışmazlığından əvvəl həm zəngin iqtisadi inkişaf etmiş ölkələr, həm də kasıblar bərabərdir. Belə ki, 80 ölkə su qıtlığı yaşayır. Əsas amil artan iqtisadiyyat, əhalinin artımı və bununla bağlı sudan istifadənin artmasıdır. Buna baxmayaraq, qənaətbəxş keyfiyyətdə olan su ehtiyatları nəinki nisbi, hətta mütləq mənada da getdikcə azalır.

Azərbaycanda bu problemlərlə üzləşir. Son günlər ölkədə su qıtlığı çox ciddiləşib. Qeyd etməliyik ki, Azərbaycanın su ehtiyatları 32 milyard kubmetrdir. Onların 70%-i qonşu ölkələrdən (əsasən Kür və Araz çaylarından) gələn sulardan, 30%-i isə ölkə daxilində formalaşır. Daxili çaylar, eləcə də Kür, Araz dağlarda yağan yağışlar, əriyən qar və buzlaqlar, həmçinin yeraltı sularla qidalanır[1]. Kürdə suyun səviyyəsi apreldə

maksimum həddə çatır, sentyabrda isə minimuma enir. Araz çayında suyun səviyyəsi may ayında maksimuma çatır, avqustda minimuma enir.

Beynəlxalq Təbii Sərvətlər İnstitutu (WRI) proqnozlaşdırır ki, "2040-cı ilə qədər dünya ölkələrinin beşdə birində su problemi olacaq. Məsələn, iqlim dəyişikliyi yağış dövrünü pozur və əhalinin artması suya olan tələbatı artırır. Beynəlxalq Təbii Sərvətlər İnstitutunun hesabatına əsasən, "Azərbaycan quraqlıq riski ən çox olan ölkələr sırasındadır[2].

Azərbaycan 33 ölkə arasında 18-ci yerdədir. Ölkəmizin təxminən siyahının ortasında yer alması heç də o demək deyil ki, qonşu dövlətlər kimi biz də eyni problemlərlə üzləşəcəyik. Məsələ burasındadır ki, ölkənin su ehtiyatı ehtiyacından 7-8 dəfə çox olsa da, içməli və məişət suyuna olan tələbat ödənilmir, çünki ölkənin su itkisi həddindən artıq çoxdur.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) müəyyən etdiyi normaya əsasən, adambaşına içməli və məişət suyunun gündəlik norması 450 litr təşkil edir. Beynəlxalq standartlara görə, Azərbaycan əhalisi il ərzində 1,6 milyard kubmetr içməli və məişət suyu ilə təmin edilməlidir. Azərbaycanda su təchizatı 5,3 dəfə azdır, yəni 306 milyon kubmetrdir. Bu, adambaşına gündə 83 litr su deməkdir ki, bu da beynəlxalq normadan 5,3 dəfə azdır.

Azərbaycanda suvarma suyunun olmaması kənd təsərrüfatı istehsalı üçün çox ciddi problemlər yaradır. Ölkədə suvarılan torpaqların həcmi 1,4 milyon hektardır. Qeyd edək ki, son illər Kür və Araz çaylarının suyundan istifadə edən Azərbaycan, Gürcüstan və Ermənistan hökumətləri daha çox kənd təsərrüfatı məhsulu istehsal etmək üçün suvarılan əkin sahələrini genişləndirirlər.

Təbii ki, Azərbaycan əhalisinin ərzaq tələbatını ödəmək üçün daha çox kənd təsərrüfatı məhsullarına ehtiyac var. Qlobal iqlim dəyişikliyi nəticəsində son 20 ildə havanın temperaturunun 1 dərəcə artması quraqlıq şəraitində kənd təsərrüfatı məhsullarının yetişdirilməsini çətinləşdirib.

Köhnəlmiş suvarma sistemləri su itkisinin əsas səbəbidir. "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin balansında olan əsas magistral kanallar da sovet dövründə çəkilib. Belə ki, 1958-ci ildə Yuxarı Qarabağ və Yuxarı Şirvan kanalları, 1940-cı ildə Samur-Abşeron kanalı, 1960-cı ildə Baş-Muğan kanalı, 1976-cı ildə Baş-Mil kanalı istifadəyə verilmişdir.

Azərbaycanın daxili çaylarının Kür və Arazın mənbəyini yağış, əriyən qar və dağlardakı buzlaqlar, həmçinin qrunt suları təşkil edir. Reallıq ondan ibarətdir ki, qlobal istiləşmə regionda mövsümi qarın miqdarını azaldıb. Azərbaycanın dağlarına qış aylarında əvvəlki illərdəki qədər qar düşmür. Təbii ki, su heç vaxt yox olmayan, təbiətdə dövr edən bir şeydir. Əvvəllər buxarlanan suyun bir hissəsi yerə düşən qara çevrilirdisə, indi daha intensiv yağışlar şəklində geri qayıdır.

Göründüyü kimi, Azərbaycanda su qıtlığı çox ciddiləşib və bu problemin həlli üçün təxirə salınmaz tədbirlər həyata keçirilməlidir. İlk növbədə su ehtiyatlarının idarə olunması sisteminin təkmilləşdirilməsi üçün xüsusi dövlət proqramı hazırlanmalıdır. Kənd təsərrüfatının suvarma suyuna davamlı və itkisiz tələbatını ödəmək üçün suyun metal və plastik borularla əkin sahələrinə ötürülməsini təşkil etmək lazımdır. Suvarılan əkin sahələrində su itkisinin qarşısını almaq üçün bütün təsərrüfatlarda səmərəli suvarma üsulları və mütərəqqi suvarma texnologiyaları sürətlə tətbiq edilməlidir.

Ədəbiyyat

1. Müseyibov M.A. Azərbaycanın fiziki coğrafiyası. Bakı: Maarif, 1998. 400 s.
2. Rüstəmov Y. Azərbaycanda su təminatı ilə bağlı bəzi problemlər və onların həlli yolları. "Respublika"qəzeti,16.08.2021.

РЕЗЮМЕ

ПРОБЛЕМЫ, ВЫЗВАННЫЕ НЕХВАТКОЙ ВОДЫ В АЗЕРБАЙДЖАНЕ

Абдулов К.Ш.

***Ключевые слова**: нехватка воды, река, климатические изменения, засуха, экономическое развитие*

В статье рассматривается нехватка воды в Азербайджане и вызванные ею проблемы. Отмечается, что Азербайджан сталкивается с проблемами нехватки воды, и в последние дни эта проблема в стране стала очень серьезной. Водные ресурсы Азербайджана составляют 32 миллиарда кубометров, причем 70% из них поступает из соседних стран (в основном из рек Кура и Араз), а 30% формируются внутри страны. Недостаток оросительной воды создает очень серьезные проблемы для сельскохозяйственного производства. Для решения этих проблем должны быть приняты срочные меры, и в первую очередь должна быть разработана специальная государственная программа по совершенствованию системы управления водными ресурсами.

SUMMARY

PROBLEMS CAUSED BY WATER INSUFFICIENCY IN AZERBAIJAN

Abdulov K.Ş.

***Keywords:** water shortage, river, climate change, drought, economic development.*

The article discusses the lack of water in Azerbaijan and the problems caused by it. It is noted that Azerbaijan is facing water shortage problems, and in recent days this problem has become very serious in the country. Azerbaijan's water resources amount to 32 billion cubic meters, with 70% of them coming from neighboring countries (mainly from the Kura and Araz rivers), and 30% formed within the country. Lack of irrigation water creates very serious problems for agricultural production. To solve these problems, urgent measures should be taken, and first of all, a special state program should be developed to improve the water management system.

XX YÜZİLLİYİN ƏVVƏLƏRİNDƏ QUZEY AZƏRBAYCANDA YÜRÜDÜLMÜŞ AQRAR SİYASƏTİN TARİXİNDƏN

Adıgözəlov Kamil Mirnağı oğlu
A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı, Azərbaycan
kamiladigozelov@gmail.com

Açar sözlər: *Azərbaycan, kəndli, torpaq, əkinçilik, qanun, vergi*

Yaxşı məlumdur ki, Ulu Öndər Heydər Əliyev cənabları1997-ci ildə Azərbaycan Elmlər Akademiyasının aparıcı mütəxəsisləri ilə görüşündə Azərbaycanın XIX-XX əsrlər tarixinin yenidən ciddi şəkildə işıqlandırılmasına böyük ehtiyac olduğunu xüsusi ilə qeyd etmişdir. Düşünürük ki, bizim bu məqalə üçün seçdiyimiz problem məhz həmin dahi göstərişin yerinə yetirilməsi baxımından atılmış kiçicik bir addım sayıla bilər.

Hələ 1892-ci ildə xəzinə kəndlilərinin torpaq məsələsi haqqında yeni qanun layihəsi hazırlamaq üçün xüsusi bir komissiya təşkil edilmişdi. Bu komissiya 1884-1887-ci illərdə Cənubi Qafqaz xəzinə kəndlilərinin iqtisadi məişətinin tədqiqi nəticəsində əldə edilmiş materialları öz işi üçün əsas götürmüşdü. Komissiya "Cənubi Qafqaz diyarı dövlət torpaqlarında sakin olan kəndlilərin torpaq məsələsi barədə" qanun layihəsini tərtib etməli, habelə sahibkar torpaqlarından kənarlaşdırılmış və torpaqsız qalmış kəndlilərin dövlət hesabına torpaq təminatı məsələsini qaydaya salmaq yollarını müzakirə etməli idi. Bunun üçün Cənubi Qafqazın bütün quberniyaları üzrə dövlət kəndlilərinin torpaqla təminatı məsələsinin qaydaya salınması haqqında qeydlərin əhatəli şəkildə hazırlanması lazım gəlirdi. Bu iş komissiyasının sədri təyin olunmuş, dövlət müşaviri Y.S.Medvedevə həvalə edilmişdi.

Komissiya tərəfindən hazırlanmış "Qeydlər" 1896-cı ildə komissiyanın iclasında müzakirə olunduqdan sonra bəyənilmişdi. Sənəddə torpaqla heç təmin olunmamış kəndli icmaları ilə yanaşı, torpaq çatışmazlığından əziyyət çəkənlər, hətta artıqlaması ilə torpaq sahələri olanlar haqqında ətraflı məlumatlar yer almışdı [2, s. 14].

Burada həmçinin kəndlilərə, vergi ödəmək şərti ilə meşə pay torpaqları verilməsi məsələsinə də toxunulurdu [2, s. 12].

"Qeydlər" əsasında hazırlanmış qanun layihəsi tezliklə bütün materiallarla birlikdə Peterburqa – Əkinçilik və Dövlət Əmlakı Nazirliyinə təqdim olundu. Nazirliyin bir sıra şöbələrində müvafiq rəylər alan materiallar bir müddət sonra Tiflisə Qafqazın Baş Mülki rəisinə göndərildi. Burada layihə müzakirə olunmaq üçün 1896-cı ilin sonunda idarənin nəzdindəki Şuraya verildi. 1897-ci ilin mayında qanun layihəsini müzakirə edən Şura üzvlərinin çoxu pay torpaqlarının bərabər surətdə bölünməsinin və aztorpaqlı kəndlilərə boş xəzinə torpaqları hesabına pay torpağı verilməsinin əleyhinə çıxmış, dövlət torpaqlarının hökumət tərəfindən yalnız bu ərazilərə köçürülmüş rus kəndlilərinə verilməsini bildirmişdilər [4, s. 108].

Əkinçilik və Dövlət Əmlakı naziri Yermolov Qafqazın öz rəhbərliyi ilə yaradılmış mərkəzi komissiyanın 1898-ci ilin əvvəlində keçirilmiş yığıncağında bəhs olunan layihənin müzakirəsini keçirdi. Müzakirə zamanı komissiya üzvləri dövlət kəndlilərinin pay torpaqları haqqında göstərilmiş bəzi təklifləri rədd etdi və aztorpaqlı kəndlilərin torpaqla təmin olunması məsələsində çarizmin müstəmləkə maraqlarına üstünlük verildi. Belə ki, Yermolov "rusların Qafqazda yerləşdirilməsi kimi mühüm dövlət əhəmiyyətli vəzifənin yerli əhalinin torpaqla təmin olunması məsələsindən daha vacib olduğunu" [2, s. 21] komissiya üzvlərinin nəzərinə çatdırmış, Qafqazda yerləşdirilmiş rusların pay torpaq sahələrinin qaydaya salınmasını və torpaqla təminatının daha da qabardılmasının zəruri olduğunu bildirmişdi.

Qafqazın Baş Mülki rəisinin mərkəzə göndərdiyi qanun layihəsi bir sıra hazırlıq mərhələlərindən keçdikdən sonra, yenidən baxılmaq üçün Tiflisə, dəftərxanaya və baş rəislik Şurasına qaytarıldı və bunun ardınca yenidən Peterburqa Mərkəzi komissiyaya, Dövlət şurasının birləşmiş departamentlərinə, nəhayət Dövlət şurasına göndərildi. Ciddi müzakirələrə məruz qalan layihəyə bir sıra dəyişikliklər və əlavələr edildi. Həmin "Tiflis, Yelisavetpol, Bakı və İrəvan quberniyaları dövlət kəndlilərinin torpaq təminatının mühüm əsasları" adlı qanun layihəsi 1900-cü ilin mayın 1-də imperator II Nikolay tərəfindən təsdiq olundu [8, s. 389-391].

Bu qanunla hətta ötəri tanışlıq göstərir ki, onun müəllifləri ya Şimali Azərbaycandakı xəzinə kəndlərindəki aqrar münasibətlərin mahiyyətini axıradək başa düşməmiş, ya da başa düşməmək istəməmişdilər. Belə ki, Şimali Azərbaycandakı xəzinə kəndlərində pay torpaqları əyyami qədimdən icmalıqla yox, həyətyanı-şəxsi qaydada becərilirdi. İcmalıqla istifadədə ancaq ümumi örüşlər, otlaqlar, suvatlar, yollar, qəbiristanlıqlar və s. ikinci dərəcəli torpaqlar ola bilərdi.

Bu qanunun ən böyük naqisliyi isə pay torpaqlarının xüsusi mülkiyyətinə yox, kənd icmasının daimi istifadəsinə verilməsi idi.

Hələ 1899-cu ilin baharında Qafqaz diyarının baş mülki rəisi Qolitsının maliyyə naziri Vitteyə Qafqazda vergi sisteminin yenilənməsi təklifi ilə müraciət etməsi 1901-ci ilin yanvarın 1-dən qüvvəyə minmiş bu qanunun ilkin layihəsinin hazırlanmasına təkan verdi. Vitte Qolitsının islahat layihəsinin hazırlanması fikrini reallaşdırmaq məqsədlə Maliyyə nazirliyinin vergilərin toplanması departamentinin rəisi Lastoçkini Qafqaza göndərdi.

Qafqaz diyarının baş mülki rəisi Qolitsın tezliklə islahatın hazırlanması işinə başladı. İslahatın hazırlanmasının vəzifələrinin və əsas istiqamətlərinin müəyyən edilməsi üçün o, 1899-cu ilin oktyabrın 2-də Tiflisdə özünün bilavasitə başçılığı ilə xüsusi gizli müşavirə çağırdı. Bəhs olunan müşavirədə Qafqaz diyarının baş mülki rəisinin müavini Freze, Qafqaz diyarının baş mülki rəisi şurasının üzvü Sultan Krım-Girey, Lastoçkin və habelə Qafqaz administrasiyasından dörd nəfər yüksək rütbəli dövlət məmuru iştirak edirdilər.

Qeyd edək ki, vergi islahatının hazırlanmasının əsas məqsədi evbaşı (həyətbaşı – "подомный" vergisinin başqa vergi forması ilə dəyişmək və bütün əhalini bu vergiyə cəlb etməkdən ibarət idi. Müşavirə iştirakçıları islahat layihəsi ilə bağlı dörd əsas məsələni nəzərdən keçirdilər. Bunlardan birincisi, evbaşına toplanan yığımlar əvəzinə yeni formada verginin və yaxud da vergilərin müəyyən olunmasından, ikincisi, yeni müəyyən olunmuş verginin yığılması formasının seçilməsindən, üçüncüsü, qoyulan dövlət vergilərinin həcmi, dərəcələri və ölçüsünün təyin olunmasından, dördüncüsü, müəyyən olunmuş vergilərin toplanılması ilə məşğul olan dövlət vergi idarələrinin təşkilatlandırılmasından ibarət idi.

Xüsusi müşavirə keçiriləndən bir müddət sonra Komissiya vergi sisteminin təkmilləşdirilməsi üzrə gərgin işlərə başladı. Komissiyanın altı dəfə toplanmış iclaslarında layihədə nəzərdə tutulan vergilərin həcmi məsələsi əsas müzakirə obyekti oldu. Saatlarla davam edən müzakirələrdən sonra nəhayət ki, ümumi qərara gələn Komissiya 1899-cu ilin noyabrın 25-də vergi qanunu üzərində işlərini başa çatdırdı. Komissiyanın hazırladığı qanun layihəsi Dövlət Şurasında baxıldıqdan sonra 1900-cü il iyunun 12-də çar tərəfindən təsdiq edildi [11, s. 778-782]. "Qafqazda xəzinənin xeyrinə toplanan evbaşı mükəlləfiyyətlərin ləğvi və bunun əvəzinə dövlət töycü vergisi və dövlət torpaq vergisi haqqında" adlanan bu qanun 1901-ci il yanvar 1-dən qüvvəyə mindi.

Torpaq Vergilərinin Toplanması üzrə Quberniya idarəsi qubernatorun başçılığı altında qubernator köməkçisi, Xəzinə palatası müdiri və yaxud Maliyyə nazirinin onun əvəzinə təyin etdiyi nazirlik əməkdaşı, Dövlət əmlakı müdiri, Quberniya zadəganlarının başçısı, Quberniya və yaxud Vilayət idarəsi müşavirlərindən biri, Kəndli işləri üzrə idarənin iş icraçısı və yaxud Kəndli işləri üzrə idarənin nümayəndəsi, habelə Xəzinə palatasının ikinci şöbəsinin rəisi olmaqla təşkil edilirdi. Bundan əlavə bu idarənin iclaslarına müzakirəyə qoyulan məsələlərdən asılı olaraq müxtəlif idarələrdən bir sıra mütəxəssislər dəvət oluna bilərdi.

Daşınmaz əmlak və yaxud torpaqlar sahələri haqqında verilmiş ərizələr Torpaq Vergilərinin Toplanması üzrə Qəza (dairə) İdarəsindəki məlumatlarla tutuşdurulduqdan sonra bu idarə ayrı-ayrı ödənc vahidləri üçün torpaq vergisi və dövlət töycü mükəlləfiyyətin toplanmasını həyata keçirirdi. Torpaq Vergilərinin Toplanması üzrə Qəza (dairə) İdarəsinin vergilərin toplanmasının icrası üsullarına aid verilən qərarı ilə vergi müfəttişinin razılaşmadığı halda, həmin qərar yerinə yetirilmir, üç gün müddətinə Xəzinə palatası vasitəsilə Quberniya (vilayət) idarəsinə təsdiq edilmək üçün göndərilirdi. Vergi ödəyicisinə Torpaq Vergilərinin Toplanması üzrə Qəza (dairə) İdarəsinin tərtib etmiş olduğu siyahıya vergilərin toplanması dövrünün son gününə, yəni sentyabrın 1-nə qədər həmin idarəyə öz etirazını bildirmək hüququ verilirdi. Kənd icmalarından və ayrı-ayrı kəndlərdən göstərilən belə etirazlara kənd və yaxud xüsusi toplantılarda səlahiyyətli adamlar tərəfindən baxılırdı. Torpaq Vergilərinin Toplanması üzrə Qəza (dairə) İdarəsinin müzakirəsində etirazın əsaslı olduğu təsdiq edildiyi halda, o, yenidən baxılmaq üçün Quberniya (vilayət) idarəsinə göndərilirdi.

Əlavə vergilərə cəlb olunmuş hesab edilən torpaqlardan alınan torpaq vergisinin və yaxud dövlət töycü mükəlləfiyyətin məbləği müvafiq Xəzinə palatası tərəfindən eyni şəraitli qəza və dairənin vergi qoyulan torpaqlarından alınan vergi həcmində, tiyul kəndlərinin torpaqlarından xüsusi tiyuldan azad edilənlərdəki həcmində, köçürmələr üçün nəzərdə tutulan torpaq sahələrindən isə onlara verilən vergi güzəştləri həcmində hesablanırdı.

"Cənubi Qafqaz diyarı üzrə 1901-1903-cü illər torpaq vergilərinin toplanması və smetası haqqında"

adlı bu qanuna görə Cənubi Qafqazın əkinçilik və maldarlıqla məşğul olan kənd əhalisindən toplanan evbaşı torpaq vergisi və Cənubi Qafqaz diyarında (Qars vilayəti, Kutaisi quberniyasının Batum, Artvin və Suxum dairələri istisna edilməklə) evbaşı vergisini ödəməyənlərin kənd məhkəmələrinin və kəndli işləri üzrə məşğul olan idarələrin saxlanmasına nəzərdə tutulmuş torpaq vergiləri 1901-ci ilin yanvarın 1-dən ləğv olunmuş, bütün torpaqlardan alınan töycü mükəlləfiyyəti və dövlət torpaq vergisi ilə əvəz edilmişdi.

Beləliklə, bu qanun əsasən dövlət kəndlilərinin daimi istifadəsində olan xəzinə torpaqları üçün töycü mükəlləfiyyətini, bütün başqa torpaqlar üçün dövlət torpaq vergisini, həmişəlik ictimai-zemski vergisini müəyyən etdi. Töycü vergisinə, torpaq vergisindən əlavə, dövlət kəndlilərinin xalis gəlirlərinin 10-12 faizi qatmış oldu.

Torpaqların gəlirliyini müəyyən etmək üçün bütün torpaqlar — 1) bağlar, 2) əkin, 3) meşə və otlaqlar olmaqla 3 dərəcəyə ayrılırdı. Quberniyaların hər birində ayrı-ayrılıqda torpağın məhsuldarlığı, alınan məhsulun keyfiyyəti mövcud qiymətlə və satış şərtləri və icarə qiymətlərinin köməyi ilə torpaqdan istifadə xərclərinin yoxlanması üçün bir desyatindən hər üç torpaq dərəcəsi üzrə xalis orta gəlir müəyyən olunurdu. Dövlət torpaq vergisi (bu desyatin üzrə oklad adlanırdı) 12 iyun qanununa görə hər bir desyatin üçün xalis orta gəlirin 2 faizi təyin olunmuşdu. Vergilərin yığılması da həmçinin üç il üzrə aparılırdı.

Həmin ilin martın 13-də təsdiqini tapmış digər bir qanunvericilik aktı "Xəzinə torpaqlarına və töycü dərəcələrinə baxan yeni nəzarətçi vəzifələrinin təsis edilməsi haqqında" qanun oldu [12, s. 232-233]. Qanun Dövlət əmlakı idarəsi tabeliyində işləyən işçilərinin sayının xəzinə torpaqlarına və töycü dərəcələrinə baxan yeni on səkkiz böyük və qırx səkkiz kiçik nəzarətçi olmaqla altmış altı nəzarətçi vəzifəsini təsis edirdi. Bunlardan qırxı Cənubi Qafqaz üçün nəzərdə tutulmuşdu. Cənubi Qafqazda işə başlayan on böyük və otuz kiçik nəzarətçi qanunla müəyyən olunmuş xüsusi qaydalara riayət etməli idi. Bu qaydalar onlara xüsusi səlahiyyətlər verirdi. Belə ki, nəzarətçilərə 1896-cı ilin fevralın 26-da təsdiq olunmuş qanunun birinci bölməsinin birinci və ikinci maddələrində göstərilən səlahiyyətlərdən əlavə Mərz məhkəmələrində və kənd idarələrin işində iştirakına icazə verilirdi.

Nəzarətçilərin kənd idarələrinə nəzarət qaydaları Əkinçilik və Dövlət Əmlakı Nazirliyinin digər nazirliklərin və habelə Qafqaz Baş mülki rəisliyi ilə birgə işləyib hazırladıqları təlimatla müəyyən olunurdu.

1900-cü ilin 1 may qanunu verilənədək, dövlət tərəfindən müəyyən şərtlərlə kəndlilərin müvəqqəti istifadəsinə verilən torpaq sahələri həmin qanunun birinci şöbəsinin 6 və 7-ci maddələrində nəzərdə tutulmuş torpaqlara aid edilmirdi və yalnız Əkinçilik və Dövlət Əmlakı Nazirliyinin sərəncamı ilə istifadəyə verilə bilərdi. Bir neçə sahədə pay torpağının ayrılması zamanı müəyyən yollarla kəndlərdən uzaqda xüsusi plan daxilində kəsiklər hesabına örüş və otlaqlar yaradılırdı.

Torpaqların paylanılması zamanı icmalar, kəndlər və məntəqələr arasında yaranan mübahisələrlə bağlı verilmiş şikayətlərə bütün şikayət sahiblərinin iştirakı ilə birləşmiş iclaslarda iş icraçılarının və kənd əlaqələndiricilərinin iştirakı ilə keçirilirdi. Belə iclaslarda tərəflər arasında razılıq əldə olunmadıqda, Torpaq təminatı komissiyası mübahisəni həll edə bilərdi. Torpaq-təminatı komissiyasında da mübahisə yaranardısa, bunun həlli aidiyyəti üzrə Kəndli işləri üzrə quberniya idarələrinə tapşırılırdı [3, s. 408].

Ehtiyac yarandıqda dövlət və yaxud ictimai qurumlar 14 may 1870-ci il və 3 sentyabr 1877-ci il əsasnamələrinə əsasən torpaqlarından istifadə edən kənlilərin torpaq sahəsindən kəsib götürülməsinə görə əvəzin verilməsi haqqında qanun bir sıra məsələlərin həlli nəzərdə tutuldu. Bu qanun 1904-cü ilin iyunun 7-də qüvvəyə minmişdi [9, s. 685-686]. Qanunun birinci maddəsi Yelisavetpol, Bakı, İrəvan quberniyaları və habelə Tiflis quberniyasının bir hissəsində yaşayan, 14 may 1870-ci il və 3 sentyabr 1877-ci il əsasnamələri ilə tənzimlənən mülkədar kəndlilərinin torpaq sahələrindən torpaq sahiblərinin könüllü razılığı əsasında müəyyən olunmuş dövlət əhəmiyyətli layihələrin və digər bu tip tədbirlərin həyata keçirilməsi üçün əvəz ödənilmək şərtilə torpaq sahələrini götürə bilməsi hüququnu təsdiq edirdi.

Beləliklə, 1900-1904-cü illərdə həyata keçirilən qanunlarda bir sıra çatışmazlıqların olmasına baxmayaraq, həmin dövr üçün bunlar bir yenilik idi. Çoxsaylı qanunlar və qanun qüvvəli digər aktların başlıca məqsədi isə bir idi: çarizmin hələ də torpaq üzərində mülkiyyət hüququnu dövlət xəzinəsinin əlində saxlamaq və hər vasitə ilə xəzinə gəlirlərini mümkün qədər artırmaq.

Hesab edirik ki, 1900-1904-cü illərərzində Şimali Azərbaycanda həyata keçirilmiş aqrar islahatların tarixi dərslərinin, bu gün də nəzərə alınmasına müəyyən ehtiyac vardır.

Ədəbiyyat

1. İsmayılov, M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı / M.Ə.İsmayılov. – Bakı: Azərbaycan SSR EA nəşriyyatı, – 1960. – 240 s.
2. Антелава, И.Г. Государственные крестьяне Грузии в XIX веке. До крестьянской реформы 1864 г. / И.Г.Антелава. – Тбилиси: Сабчота Сакартвело, – Т.1. – 1969. – 483 с.
3. Высочайшие утвержденные Правила о поземельном устройстве государственных поселян и

переселенцев, водворенных на казенных землях в губерниях: Тифлисской, Елисаветпольской, Бакинской и Эриванской, в уездах: Кутаисском, Шаропанском, Рачинском, Лечгумском, Зугдидском, Сенакском и Озургетском, Кутаисской губернии, и в Сухумском округе // Полное Собрание Законов Российской империи. Собрание 3-е. Отделение 1-ое. 1903 г.: [в 33 томах] / – Санкт-Петербург: Гос. типография, – Т. 23. – 1905. – Закон 22 822, – с. 405-417.
4. Гасанов, Г.Н. Из истории Североазербайджанской деревни в конце XIX – начале XX вв. / Г.Н.Гасанов. – Баку: Тахсил, – 2007. – 224 с.
5. Кавказский календарь на 1901. – Тифлис: Типография Шарадзе, – Отдел 3, – 1900, – с. 1-676.
6. Копия приказа инспектора вод на Кавказе от 30 июня за №12, Тифлис 16 августа 1904 г. №1241 // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond №429, siyahı №1, iş №579, vərəq – 7-7arxa.
7. Материалы для изучения хлопководства. Выпуск 1. – Санкт-Петербург: Типография В.Ф. Киршбаума, – 1912. – 256 с.
8. О главных основаниях поземельного устройства государственных, водворенных на казенных землях в Закавказье // Полное Собрание Законов Российской империи. Собрание 3-е. 1900 г.: [в 33 томах] / – Санкт-Петербург: Гос. типография, – Т. 20. – 1902. – Закон 18 509, – с. 389-391.
9. О вознаграждении за отчужденные для государственной или общественной надобности земли поселян, владеющих ими на основании Положений 14 мая 1870 года и 3 сентября 1877 года // Полное Собрание Законов Российской империи. Собрание 3-е. 1904 г.: [в 33 томах] / – Санкт-Петербург: Гос. типография, – Т. 24. – 1907. – Закон 24 745, – с. 685-686.
10. О дополнении Положения о пользовании водами для орошения земель в Закавказье // Полное Собрание Законов Российской империи. Собрание 3-е. 1904 г.: [в 33 томах] / – Санкт-Петербург: Гос. типография, – Т. 24. – 1907. – Закон 24 209, – с. 263.
11. Об отмене взимаемых на Кавказе в пользу казны подымных податей и об установлении, за таковою отменою, государственных оброчной подати и поземельного налога // Полное Собрание Законов Российской империи. Собрание 3-е. 1900 г.: [в 33 томах] / – Санкт-Петербург: Гос. типография, – Т. 20. – 1902. – Закон 18 856, – с. 778-782.
12. Об учреждении новых должностей Надзирателей за казенными землями и оброчными статьями // Полное Собрание Законов Российской империи. Собрание 3-е. Отделение 1-ое. 1900 г.: [в 33 томах] / – Санкт-Петербург: Гос. типография, – Т. 20. – 1902. – Закон 18 273, – с. 232-233.
13. Об утверждении штатного расписания личного состава чинов и расходов по поземельному устройству государственных поселян Закавказского края // Полное Собрание Законов Российской империи. Собрание 3-е. Отделение 1-ое. 1902 г.: [в 33 томах] / – Санкт-Петербург: Гос. типография, – Т. 22. – 1904. – Закон 21 317, – с. 219-220.
14. Писаревский, Г.Г. Уничтожение в Закатальском округе зависимых отношений крестьян к бекам и кешкелевладельцам // Труды Института им А.Бакиханова АН Азербайджанской ССР, – 1947. т. I, – с. 94-106.

РЕЗЮМЕ
ИЗ ИСТОРИИ АГРАРНОЙ ПОЛИТИКИ, ПРОВОДИВШЕЙСЯ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В НАЧАЛЕ XX ВЕКА

Адыгезалов К.М.

Ключевые слова: *Азербайджан, крестьяне, земля, сельское хозяйство, закон, налог*

Развитие отдельных отраслей сельского хозяйства в Северном Азербайджане в начале XX века продолжалось на разном уровне в регионах. Эта ситуация сложилась уже в последней четверти XIX в., а более отчетливо она начала проявляться в период, когда экономическое «завоевание» национальных окраин усиливалось царской Россией и русский капитализм подчинил себе экономику национальных окраин. В Северном Азербайджане могли развиваться только значимые для российской промышленности сельскохозяйственные районы, которые становились источником дешевого сырья и благоприятным рынком сбыта. Официальные законы, создававшие основу для развития отдельных отраслей земледелия на разном уровне в регионах, изменялись лишь в соответствии с интересами империи, и в них регулярно вносились противоречивые дополнения.

SUMMARY
FROM THE HISTORY OF AGRARIAN POLICY CONDUCTED IN AZERBAIJAN AT THE BEGINNING OF THE XX CENTURY

Adygezalov K.M.

Key words: *Azerbaijan, peasant, soil, agriculture, law, tax*

The development of individual branches of agriculture in Northern Azerbaijan at the beginning of the 20th century continued at an uneven level in different regions. This situation developed already in the last quarter of the 19th century, and it began to manifest itself more clearly in the period when the economic “conquest” of the national outlying areas was intensified by tsarist

Russia and Russian capitalism subjugated the economy of the national outlying areas. In Northern Azerbaijan, only agricultural areas significant for Russian industry could develop, which became a source of cheap raw materials and a favorable market. Official laws, which formed the basis for the development of individual branches of agriculture at an uneven level in different regions, changed only in accordance with the interests of the empire, and contradictory additions were regularly made to them.

MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN SİLAHLI QÜVVƏLƏRİNİN ORDU QURUCULUĞU VƏ HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ

Allahverdiyev Pərviz Rəşad oğlu
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
pervizallahverdiyev06@gmail.com

Açar sözlər: *Azərbaycan, silahlı qüvvələr, ordu, vətənpərvərlik*

Artıq 30 ildən çoxdur ki, müstəqillik qazanmış Azərbaycan dövləti geridə qalan illər ərzində öz nüfuzunu qorumaqla yanaşı, daxili və xarici siyasəti nəticəsində həm qonşu dövlətlərlə münasibətinin qorunub saxlanmasında, həm də dünya dövlətləri arasında mövqe qazanmışdır. Müstəqil Azərbaycan Dövlətinin qurucusu, memarı sayılan ulu sərkərdə Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə Azərbaycan Dövləti, milləti, xalqı eyni zamanda onun silahlı qüvvələri yeni dönüş mərhələsi yaşayaraq zirvələrə yüksəlmiş oldu. Azərbaycanda bütün sahələrdə olduğu kimi silahlı qüvvələrimizin ordu quruculuğu sahəsində və gənc nəslin, eyni zamanda hərbi qulluqçuların vətənpərvərlik və hərbi vətənpərvərliyi hissinin yüksəldilməsində diqqət və qayğısını əsirgəməmişdir.

Keçən əsrin sonlarında Azərbaycan xalqının və onun bəşəriyyətinin başına açılan minbir müsibbətdən nəticə çıxaran xalq, millət, ordu ulu sərkərdə Heydər Əliyevə ehtimad göstərir, ona güvənir, inanır, onun Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlişini tələb edir və ətrafında sıx birləşirdilər.

Ordu ilə xalqın bir vəhdət təşkil etməsini görən Ulu Öndər hər zaman ordunun güclənməsini, xalqının isə vətənpərvər böyüməsini düşünərək bu yolda lazımı addımların atılmasını özünə borc bilirdi. Necə ki, gəclər üçün yaradılan onların hərbi sahədə çalışmaları, hərbi sirri, hərbi texnikanı ustalıqla öyrənməsindən ötəri bir çox ali hərbi məktəblərin açılmasına şərait yaratdı. Bu şəraitin yaradılması ilə vətənpərvər gənclərin yetişməsinə gətirib çıxardı. O, ilk öncə hələ keçən əsrin 70 ilərində C.Naxçıvanski adına hərbi təmayüllü internat məktəbinin əsasını qoyanda belə Azərbaycanın gələcəyini görür və deyirdi: "Bir gün gələcək sovetlər birliyi dağılacaq və hər bir dövlət kimi Azərbaycan da müstəqil dövlətə çevriləcək" çox keçmədi Ulu Öndərimizi sözləri öz həqiqətini tapdı. [6, s.118]

Azərbaycanda ikinci dəfə hakimiyyətə gələn Ulu sərkərdə Azərbaycanın ərazi bütövlüyünü qoruyur işxal olunmuş ərazilərimizin bərpası üçün əlindən gələni əsirgəmirdi. Ona görədə ordu quruculuğu və gənclər siyasəti onun ilk hədəfləri olmuşdur və demişdir: "Nəyin bahasına olursa olsun ordumuzu gücləndirəciyəm, Qafqazın ən böyük ordusuna çevirəcək, dünyanın isə 50 inkişaf etmiş ölkələri sırasında görəciyik" [2, s.254]

Elədə oldu, çünki ordunun güclənməsi üçün orduda vətənpərvər gənclərin yetişdirilməsi vacib məsələ idi. Ulu Öndərin yaratdığı məktəb, çəkdiyi yol Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilərək silahlı qüvvələrimizin ordu quruculuğu və yeni nəslin vətənpərvərlik və hərbi vətənpərvərlik tərbiyəsi ən yüksək həddə çatmış oldu. Müstəqil Azərbaycan Dövlətində yeni şəraitlə, dünya standartlarına tələb verən bir çox ali hərbi məktəblərin açılması və bura savadlı, peşəkar, vətənpərvər kadrların cəlb olunması ordumuzu dünya miqyasında tanıtdı və düşmənə isə göz dağı vermiş oldu.

Bunu elə Azərbaycan Silahlı Qüvvələrinin 2016-cı il Aprel döyüşlərində, 44 günlük Vətən müharibəsində də görmək olar. Yetişən gənc nəsl və hərbi məktəblərdə formalaşdırılan hərbi qulluqçularımız Azərbayca Ordusunun nəyə qadir olduğunu göstərmiş oldu.

Azərbaycanda Ordu quruculuğuna Azərbaycan Dövlətinin rəhbərliyinin diqqəti, qayğısı, istək tələbi və köməkəyi sayəsində hələ orta məktəblərdə, hətda aşağı siniflərdən başlayan məktəbin pedaqoji kollektivi, Həmkarlar İttifaqı, Uşaq Gənclər Təşkilatı, eyni zamanda hərbi komissarlıqlarla birgə işin təşkili onlara hərbi bilik, bacarıq, vərdişlərin verilməsi ilə onların orduya həvəsləndirilməsi, hərbi vətənpərvərlik hisslərinin yüksəldilməsi üçün dərslərin, tədbirlərin, konfransların, dərsdənkənar məşğələlərin keçiriməsini vacib hal olduğunu bildirmişdir. Sonradan ali hərbi məktəblərə daxil olan məktəbli gənclərimiz hərbi təhsil alaraq, lazımı qədər hərbi potensial yığmaqla peşəkar kadra çevrilmiş olur.

Azərbaycan Respublikasının Dövlət Başçısının silahlı qüvvələrimizdə ordu quruculuğunun və hərbi quluqçuların hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi sayəsində dövlət ilə xalqın, ordu ilə hərbi qulluqçunun bir sözlə ordu ilə xalqın bir arada, bir yumruq kimi birləşməsində müstəqil Azərbaycanın gələcəyini görür və inamla addımlayır. "Ordu xalqına inanır, xalq ordusuna güvənir" prinsipi altında hər zaman öndə gedən Azərbaycan Resbublikasının Siahlı Qüvvələri düşmnə göz dağı verərək gecəli-gündüzlü çalışıb-vuruşmaqla daha irəlidə naliyyətlərin həyata keçrilməsinə zəmin yaratmış olacaq.

Ədəbiyyat

1. Əliyev H.Ə. XX əsr Azərbaycanda gənclərin müstəqil dövlətimizi qurub-yaratmaq və inkişaf etdirmək dövrüdür (Respublika gənclərinin II formunda nitqi) "Azərbaycan" qəzeti 1999 5 mart.
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. XV cild. Bakı: Azərnəşr. 2005. 528 s
3. Heydər Əliyev və Azərbaycan məktəblilərinin gözü ilə. Bakı. Gənclik 1998
4. Əliyev F. Müasir mərhələdə vətənpərvərlik tərbiyəsi. Bakı: ADPU nəşriyyatı. 2012. s156
5. Əliyev H. Müstəqillik yolu (seçilmiş fikirər). Bakı: Azərbaycan Universiteti nəşriyyatı. 1997.
6. İsrafil bəy. "Azərbaycan Ordusu barədə xatirələr" məqalələr toplusu.
7. Süleymanov M. Azərbaycan Ordusunun Tarixi. V cild (1991-1917). Bakı. Marif, 2019, 784 s.

РЕЗЮМЕ

СОЗДАНИЕ АРМИИ И ВОЕННО-ПАТРИОТИЧЕСКОЕ ВОСПИТАНИЕ ВООРУЖЕННЫХ СИЛ НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА

Аллахвердиев П.Р.

Ключевые слова: *Азербайджан, вооруженные силы, армия, патриотизм*

Как известно, благодаря вниманию, заботе и уважению, проявленным руководством Азербайджанского государства к Вооруженным Силам, наступил новый переломный момент в строительстве армии. В то же время, благодаря безграничной любви офицеров, прапорщиков и солдат Вооруженных Сил к Родине, достигнуты успехи в развитие народно-армейского единства, воспитании воинского патриотизма. Путь, проложенный великим лидером Гейдаром Алиевым, воспитание патриотически настроенных граждан, организация высших военных училищ и военное обучение молодежи в этих учебных заведениях проложили путь к подготовке более передовых, глубоких и дальновидных военных личного состава вооруженных сил.

SUMMARY

CREATION OF THE ARMY AND MILITARY-PATRIOTIC EDUCATION OF THE ARMED FORCES OF THE INDEPENDENT AZERBAIJANI STATE

Allahverdiev P.R.

Key words: *Azerbaijan, armed forces, army, patriotism*

As we know, thanks to the attention, care and respect shown by the leadership to the State of Azerbaijan and its Armed Forces, a new turning point in the construction of the army was created. At the same time, thanks to the boundless love of the Armed Forces officers, ensigns and soldiers for the country, the achievement of successes reflects the high development of the people-army-leader unity, patriotism education and military patriotism education. The path of leadership drawn by the great leader Heydar Aliyev, the training of patriotic citizens, the organization of higher military schools and the military training of young people in those educational institutions paved the way for the training of more advanced, deeper, and visionary military personnel of the armed forces.

BIOECOLOGICAL CHARACTERISTICS, PHYTOCHEMICAL COMPOSITION AND BENEFITS OF *INULA HELENIUM* L. SPECIES

[1] Alakbarov Ramiz, [2] Abbaszade Zahrakhanim

Institute of Dendrology,Baku, Azerbaijan, 1-PhD in biology, 2- Junior researcher

ramiz_alakbarli@mail.ru ; abbaszade.zara@mail.ru

Keywords: *Inula, alkaloid, resin, benzoic acid, allanton, eczema*

Introduction. According to its botanical characteristics, it is a straight-stemmed, perennial herb with a height of 1-2 m. The large leaves are alternate, oblong-elliptical and unevenly toothed. The flower basket is large and is located at the top of the stem.

The outer flowers of the basket are tongue-shaped, golden-green, and the middle flowers are tubular. Roots are short, usually multi-domed, few in number, 6-7 cm in diameter, 20 cm in length, and up to 2-3 cm in thickness. The rhizomes and roots are brown-gray outside. In Azerbaijan, it is spread in the western areas

of the Greater Caucasus (the mountain massif of Guba), the Samur-Shabran plain, the southern, central, northern and Nakhchivan mountainous areas of the Lesser Caucasus, especially in the Batabat areas.

Results and discussions: According to the ecological conditions, it is distributed on the banks of rivers and sututars, in the foothills and forest clearings. In autumn and early spring, rhizomes and roots can be collected by digging the ground. It blooms in July-September and fruits ripen in September-October. It is recommended to collect the plant as a medicinal raw material when it is 2-4 years old. The length of the roots of the extracted raw material is 10-15 cm, and the thickness is 1-2 cm. The collected raw materials should be dried in open, but shaded, well-ventilated attics or in a drying cabinet at a temperature of $40^{O}C$. At this time, one kg of thinly chopped raw materials should be spread on 1m2 area and dried for 2-3 days. The rhizomes and roots are 2-20 cm long, 0.5-3 cm thick, cylindrical, divided, the outer part is elongated-small-wrinkled, firm, irregular, grayish-shiny (essential oil stores) dotted. The flowers are yellowish-brown on the outside, yellowish-white on the inside, and have a unique smell (aroma) and spicy bitter taste. Rooted leaves are long-stalked and oblong-ovate, 50 cm long. The stem leaves are small and the seeds are scaly. All leaves are wrinkled, cod, shiny on the upper side, and velvety, yellow-green, heart-shaped base and toothed edge on the lower side [1, 2, 3].

According to its phytochemical composition, rhizomes and roots contain essential oil, alontolactone (1-3%), triterpenoid lactones and 44% inulin saponins, pseudoinulin, inulin, resin, grafting substances, β-sitosterol, triterpene saponins, palmitic, acetic and benzoic acids. Its leaves contain 3% essential oil, vitamins C and E, vaccines (9%), lactone (1.2%), fumarin, acetic and propionic acids. Its organs contain galenin, lactone, essential oil (1-3%), alontolic acid, up to 44% inulin, alkaloids, resin, acetic and benzoic acids. This plant was highly valued by Hippocrates, who is considered the father of medicine. It is a perennial herbaceous plant based on its roots and roots, and it is a valuable raw material and medicinal plant [6,7].

Inula is used in bronchitis, pneumonia, bronchial asthma, tuberculosis and diphtheria due to its antitussive and anti-inflammatory properties. Due to its high-quality anti-inflammatory properties, it is prescribed for gastritis, colitis, diseases of the liver and bile ducts, urinary organs. Inula is used in cases of diarrhea, chronic enterocolitis, constipation, loss of appetite. Roots and roots are useful in bronchitis, tracheitis, pulmonary tuberculosis, and asthma. It is a quality antitussive and disinfectant medicinal plant. One tablespoon of the decoction should be taken 2-3 times a day in cases of gastric ulcers, gastritis, ulcers, nerve diseases, radiculitis, endemic ur and duodenal ulcers. In addition, it is very effective in heart diseases, hypertension, shortness of breath and weight loss, colitis, liver, bile, urinary tract diseases and swelling. Highly effective anthelmintic (especially ascarids) is a medicinal plant. Especially the 1:100 and 1:1000 solution repels worms. Decoctions of rhizomes and roots (crushing, briquettes) are used in diseases of the respiratory organs, especially in the composition of cough suppressant mixtures. Taking a drug called Allanton in a dose of 0.12 g 3 times a day for 6-8 weeks after meals has a very good effect on stomach and duodenal diseases [5, 8]. The following recipe is known:

- ✓ 2 teaspoons of roots are added to a glass of boiled water and brewed in a thermos for 20-40 minutes. 1/3 cup should be taken 20-40 minutes before meals 3 times a day. For infusion, one tablespoon of root should be added to 2 cups of water and heated over low heat for 10-15 minutes. It is advisable to take 1-2 tablespoons every hour. When coughing, you should use the following recipe. It is forbidden to take this plant during acute kidney diseases and pregnancy!

In skin diseases (leishmaniasis, eczema, skin rashes), the roots are filtered and the ointment is placed on the skin while it is warm. Inula is considered valuable in Tibetan medicine. In Bulgarian medicine, a decoction of its roots is used as a medicinal plant for heart palpitations, headaches, epilepsy and diphtheria [4, 9]. The composition of the ancient recipe for treating skin diseases is as follows:

- ✓ 180 g of andiz root is boiled in 360 g of water and mixed with 120 g of bacon and butter. In rheumatism, the pain area is placed along with the root of the gall bladder.
- ✓ 2 tablespoons of andis root is brewed in a glass of water for 30 minutes, cooled for 10 minutes, 0.5 cups are taken 2-3 times a day one hour before meals.
- ✓ 2 teaspoons of chopped andis roots are kept in boiled cold water for 8 hours. 0.5 cups are taken 4 times a day 30 minutes before meals for colds and rheumatism.

- ✓ 20 g of andiz root is stored in 100 g of 700 alcohol for 8-10 days. As a coagulant, 20 drops are taken 3 times a day 20 minutes before meals.
- ✓ In the case of women's diseases, add a cup of boiling water to a teaspoon of crushed andis root and let it brew for 10-15 minutes.

After keeping it on a weak fire in the zind, it is put aside for 4 hours and filtered. In case of painful periods, one tablespoon is taken 3-4 times a day.

It is used in folk and traditional medicine for headaches, epilepsy, heart palpitations and menstruation. Do not take during pregnancy. Because premature labor may occur. Inula's root is successfully used in gout, non-specific arthritis, hemostatic, purulent and exudative diatheses, bronchitis, tracheitis, pulmonary tuberculosis. It is prescribed externally for eczema, neurodermatitis, hard-to-heal wounds and inflammatory diseases.

References

1. Gurbanov E. Systematics of higher plants, Baku, 2009, 334 p.
2. Mustafayeva I.R., Ibadullayeva S.C., Alakbarov R.A. "Pharmacognosy with the basics of botany", Nakhchivan: Acami publishing house, 2015, 647 p.
3. Aliyev N. Medicinal plants and phytotherapy of Azerbaijan. Baku, Elm, 1998.
4. Alakbarov R.A. Biomorphoecological and therapeutic properties of the species of the genus Stachys L. of the Lamiaceae family (*Lamiaceae* Lindl.) distributed in the flora of the Nakhchivan Autonomous Republic News of the Nakhchivan Department. Series of natural and technical sciences, 2014, № 4, p. 154-161
5. Alakbarov R.A. Medicinal properties of the species belonging to the genus *Ziziphora* L. of the dalamazkimi family (*Lamiaceae* Lindl.) distributed in the flora of the Nakhchivan Autonomous Republic News of the Nakhchivan Department. Series of natural and technical sciences, 2013, 4, p. 132-138
6. Ibadullayeva S.C., Alakbarov R.A. Medicinal plants (*Ethnobotany and Phytotherapy*) Baku: Elm, 2013, 331 p.
7. Ibadullaeva S.D., Alakbarov R.A., Gasymov G.Z. *Thymus hyemalis* (Lamiaceae) - New species for the flora of Azerbaijan. St. Petersburg, Bot. Journal, 2014, p. 99, № 7, p. 825-827.
8. Mammadov T., Iskander E., Tariyel Talibov. Rare trees and shrubs of Azerbaijan. Baku: Elm, 2014, 380 p.
9. Wolf V.V., Maleeva O.F. World resources of useful plants. Справочник.- L.: Nauka, 1969, 564 c.

XÜLASƏ

***INULA HELENIUM L* NÖVÜNÜN BİOEKOLOJİ XÜSUSİYYƏTLƏRİ, FİTOKİMYƏVİ TƏRKİBİ VƏ FAYDALARI**

Ələkbərov R., Abbaszadə Z.

***Açar sözlər**: İnula, alkaloid, qatran, benzoy turşusu, allanton, ekzema*

Inula L.- çoxillik, alternativ, dişli və ya bütövyarpaqlı, səbət çoxçiçəkli və çoxdur. Sarımın yarpaqları zona şəklindədir, xarici çiçəklər tək sıra, dişli, orta çiçəklər borulu, 5 dişli, biseksualdır. Azərbaycanda bu cinsin 13 növü var. Botanika xüsusiyyətlərinə görə, bu, hündürlüyü 1-2 m olan dik saplı çoxillik ot bitkisidir.yarpaqları alternativ, uzunsov-eliptik, dişli, çiçək səbəti böyükdür, gövdənin yuxarı hissəsində yerləşir. Səbətin xarici çiçəkləri dil şəklində, qızıl yaşıl və orta çiçəklər borudur. Rizomlar qısa, azdır, diametri 6-7 sm, uzunluğu 20 sm və qalınlığı 2-3 sm-dir. Xaricdəki köklər və köklər qəhvəyi-boz rəngdədir. Onlar Böyük Qafqazda (Quba dağ silsiləsi), Samur-Şabran düzənliyində, böyük Qafqazın qərbində, Naxçıvan vilayətinin cənub, mərkəzi, şimal və dağlıq rayonlarında geniş yayılmışdır.

Fitokimyəvi tərkibinə görə rizomlar və köklər alontolakton, triterpenoid laktonlar və 44% inulin saponinləri, psevdoinulin, inulin, qatran, aşılayıcılar,-sitosterol, triterpen saponinləri, yarpaqlarda palmitik, sirkə, benzoik turşular, C və E vitaminləri, dəyişdiricilər, lakton, fumarik, sirkə və propionik turşular, kompleks galenin, lakton, efir yağı, alontol turşusu, 44% - ə qədər inulin, alkaloidlər, qatran, sirkə və benzoik turşular. Bitki bronxial astma, vərəm və difteriya, ishal, xroniki enterokolit, qəbizlik üçün faydalıdır, iştahsızlıq və kökləri bronxit, traxeit, ağciyər vərəmi, astma üçün faydalıdır. Bundan əlavə, ürək xəstəlikləri, hipertoniya, nəfəs darlığı, kolit, qaraciyər, safra və sidik yolları xəstəliklərində çox təsirlidir.

Xalq və ənənəvi tibbdə başağrısı, epilepsiya, sürətli ürək döyüntüsü və menstruasiya üçün istifadə olunur. Hamiləlik dövründə qəbul etmək arzuolunmazdır, çünki vaxtından əvvəl doğuş mümkündür. Kök gut, qeyri-spesifik artrit, hemostatik, irinli və eksudativ diatez, bronxit, traxeit, ağciyər vərəmində uğurla istifadə olunur. Ekzema, neyrodermatit, sağalması çətin yaralar və iltihab xəstəlikləri üçün xaricdən təyin edilir.

РЕЗЮМЕ

БИОЭКОЛОГИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ, ФИТОХИМИЧЕСКИЙ СОСТАВ И ПОЛЬЗА ВИДА *INULA HELENIUM L.*

Алекперов Р., Аббасзаде З.

***Ключевые слова**: Inula, алкалоид, смола, бензойная кислота, аллантон, экзема*

Род *Inula* L. – многолетник, очередный, с зубчатыми или цельнокрайними листьями, корзинка многоцветковая и многочисленная. Листья обертки черепицевидные, наружные цветки однорядные, зубчатые, средние цветки трубчатые, 5-зубчатые, двуполые. В Азербайджане насчитывается 13 видов этого рода. По своим ботаническим характеристикам это прямостебельное многолетнее травянистое растение высотой 1-2 м. Листья очередные, продолговато-эллиптические, зубчатые, цветочная корзинка крупная, расположена на верхушке стебля. Наружные цветки корзинки языковидные, золотисто-зеленые, а средние цветки трубчатые. Корневища короткие, немногочисленные, 6-7 см в диаметре, 20 см в длину и 2-3 см в толщину. Корни и корешки снаружи буровато-серого цвета. Они распространены на Большом Кавказе (горный массив Губа), Самур-Шабранской равнине, западе Большого Кавказа, южных, центральных, северных и горных районах Нахчыванской области в Азербайджане.

По своему фитохимическому составу корневища и корни содержат алонтолактон, тритерпеноидные лактоны и 44% инулиновые сапонины, псевдоинулин, инулин, смолу, инокулянты, β-ситостерол, тритерпеновые сапонины, в листьях пальмитиновую, уксусную, бензойную кислоты, витамины С и Е, модификаторы, содержит лактон, фумаровую, уксусную и пропионовую кислоты, комплексный галенин, лактон, эфирное масло, алонтоловую кислоту, до 44% инулина, алкалоиды, смолу, уксусную и бензойную кислоты. Растение полезно при бронхиальной астме, туберкулезе и дифтерии, диарее, хроническом энтероколите, запорах, потере аппетита, а его корни полезны при бронхитах, трахеитах, туберкулезе легких, астме. Кроме того, оно очень эффективно при заболеваниях сердца, гипертонии, одышке, колите, заболеваниях печени, желчи и мочевыводящих путей.

Применяется в народной и традиционной медицине при головных болях, эпилепсии, учащенном сердцебиении и менструациях. Нежелательно принимать его во время беременности, так как возможны преждевременные роды. Корень успешно применяют при подагре, неспецифических артритах, кровоостанавливающих, гнойных и экссудативных диатезах, бронхитах, трахеитах, туберкулезе легких. Назначают наружно при экземе, нейродермитах, труднозаживающих ранах и воспалительных заболеваниях.

BOLADİÇAY HÖVZƏSİ RELYEFİNİN DƏRİNLİK PARÇALANMASININ MORFOMETRİK TƏHLİLİ

Alməmmədli M.G.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
mesudaz@mail.ru

***Açar sözlər**: relyef, yamac, meyillilik, morfometrik, metr, dərinlik parçalanma*

Tədqiq olunan ərazinin morfometrik göstəricilərinə səthin dərininə parçalanmasının təhlili, onun müasir dinamikası və ekogeomorfoloji şəraitinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Morfometriya adətən iri miqyaslı topoqrafik xəritələrdə aparılan ölçü və hesablama işləri ilə kameralşəraitdə aparılır və relyefin hər bir elementə aid xüxusi xəritələr tərtib olunur[6].

Aparılan ölçü və hesablamalar nəticəsində xüsusi xəritə, üfiqi parçalanma xəritəsi, dərinlik parçalanma xəritəsi, səthi meyillik xəritəsi, bazis səthi xəritəsi tərtib olunur[5].

Yer səthi relyefinin morfometrik analizi ilə alim və tədqiqatçılardan N.M.Volkov,

A.S.Devdariani, R.X.Piriyev, M.M. Mehbalıyev R.S.Çalov və digər alimlər məşğul olmuşlar.

Tədqiq olunan ərazdə relyefin əsas morfometrik göstəricilərindən olan yamacların dərinlik parçalanması insanların təsərrüfat fəaliyyətinə və ətraf mühitin ekoloji şəraitinə təsiri baxımından mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar nəzərə alaraq həmin amillərin öyrənilməsi GİS-texnologiyasının tətbiqi ilə həyata keçirilmişdir. Bu məqsədlə hövzənin 1:100000 miqyaslı topoqrafik xəritəsindən və eləcə də relyefin morfometrik təhlilinə və mühit əmələgətirici funksiyasına həsr olunmuş tədqiqat işlərindən [1, 2, 4, 7.] istifadə edilmişdir.

Yamacların dərinlik parçalanmasının tədqiqində kartoqrafik-morfometrik təhlil əsasında dərinlik parçalanması xəritəsinin tərtib edilməsində ənənəvi üsuldan istifadə olunmuş və işlənmişdir. Bununla bağlı olaraq yamacların sahəsini ArcGİS arc map. Version 9.3, 2009 kompyuter proqramı vasitəsilə ölçülmüşdür.

Bolqarçayın tədqiq olunan hövzəsinin sahəsi 118,1 km^2 , hövzənin maksimal hündürlüyü isə 1014 metrdir (Vobba dağı).

Yamacların dərinlik parçalanması xəritəsinin təhlili aşağıdakı ardıcıllıq ilə həyata keşirilmişdir:

1. 1:100000 miqyaslı topoqrafik xəritə üzərində müxtəlif dərəcəli suayrıcı xətlər və dərə, yarğan şəbəkəsi əsasında yamacların sərhədi ayrılmışdır.
2. Hər bir yamac daxilində ən yüksək və ən alçaq yüksəkliklər müəyyən olunaraq yamac daxilində yazılmışdır.
3. Hər bir yamac daxilində dərinlik parçalanmasının orta qiyməti müəyyən edilərək yamac daxilində yazılmışdır.

Tərtib olunmuş xəritədə hövzə daxilindəki hər bir elementar hövzənin dərinlik parçalanması 200 metrlik fərqlə ayrılmışdır (şəkil1).



Şəkil 1. Boladiçay hövzəsinin dərinlik parçalanması xəritəsi.

Xəritə əsasında yamacların dərinlik parçalanmasının morfometrik göstəriciləri təhlil olunaraq cədvəl (cədvəl1) tərtib olunmuşdur.

Cədvəl.

Boladıçayçayı hövzəsində yamacların dərinlik parçalanmasının kəmiyyət göstəriciləri.

S/s	Yamacların yüksəkliy (metr)	Sahələr	
		Mütləq qiymətlə km^2	Faizlə %
1	0-200	-	-
2	200-400	54,53	50,18
3	400-600	34,06	31,35
4	600-800	20,07	18,47
5	800-1000	-	
6	1000-1200	-	
7	1200 və yuxarı	-	
	Cəmi	108,66	100

Boladıçay hövzəsinin dərinlik parçalanmasının morfometrik təhlilinin nəticələri onu göstərdi ki, tədqiq etdiyimiz ərazidə yüksəkliyi 200-400 metr arasında olan elementar yamaclar üstünlük təşkil edir (54,53km^2). Bu da ayrılmış yamacların 50,18 %-i deməkdir. Ümumiyyətlə Boladıçay hövzəsində hündürlüyü 200-600 metr arasında olan yamaclar üstünlük təşkil edir. Bunu onunla əsaslandırmaq olar ki Boladıçay əsasən alçaq dağlıq ərazidə yerləşir. Boladıçay hövzəsinin 800 metrdək yüksək əraziləri ümumi cay hövzəsinin cəmi 20,07 km^2-ni təşkil edir.

Tədqiq olunan ərazi Talış dağlıq sisteminin bir hissəsi olmaqla mühim rekreasiya ehtiyatlarına və estetik potensiala malikdir. Eləcə də onun özünəməxsus təbii sərvət hesab olunması və geomorfoloji təbiət abidələrinin ekoturizmin (geoturizmin) [1, 3. 8] inkişafı üçün mühim əhəmiyyət kəsb etməsini də qeyd etmək lazımdır.

Bütün bu məlumatlar ərazidə müxtəlif kənd təsərrüfatı əkinlərinin yerləşdirilməsinin planlaşdırılması zamanı prioritet ərazilərin seçilməsi, əkiləcək kənd təsərrüfatı bitkilərinin istiliyə və rütubətə tələbatı nəzərə alınmasında, turistlərin bu bölgəyə cəlb olunmasında istifadə edilə bilər. Həmçinin ərazidə, son illərdə bütün ölkədə olduğu kimi, genişlənən tikinti və quruculuq dövründə müxtəlif mühəndis qurğularının yaradılması zamanı belə məlumatlardan istifadə edilməsi və tətbiqi əldə etdiyimiz məlumatların əhəmiyyətini artırır.

Ədəbiyyat

1. Alməmmədli M.G. Lənkərançay hövzəsi relyefinin dərininə parçalanmış GİS-texnologiyasının tətbiqi ilə morfometrik təhlili // - Bakı: Azərbaycan Dövlət Pedaqoji Universitet Xəbərləri, - 2015. - №1, - s.133-137.
2. Антипцева Ю.О., Думит Ж.А. Морфометрический анализ рельефа с использованием ГИС-технологий при оценке рекреационного потенциала Лагонакского нагорья (северо-западный Кавказ) // - Москва: Геоморфология, 2009, № 1, с.45-50.
3. Xəlilov H.A. Talış dağlıq sistemində relyefin mühit əmələgətirici funksiyası haqqında (tədqiqatın ekogeomorfoloji aspekti)// - Bakı: AMEA Xəbərləri, Yer elmləri, - 2010. № 2, - s. 24-27.
4. Мехбалиев М.М. Морфометрическое исследование рельефа в рекреационных целях // - Изв. РГО, т.133, вып.6, - 2001. - с.76-80.
5. Müseyibov M.A, Budaqov B.A, Şirinov N.Ş. Ümumi geomorfologiya// - Bakı: "Maarif", 1986, 292 s.
6. Рычагов Г.И. Общая геоморфология// - Москва, "Наука". 2006, 416 s.
7. Piriyev R.X. Методы морфометрического анализа рельефа (на примере территории Азербайджана) // - Баку: Элм, 1985, 120s.
8. Tanrıverdiyev X.K.2002. Relyef təbii sərvətdir. H. Əliyevin 95 illiyinə həsr edilmiş konfrans materialları. Bakı, səh.188-189.

РЕЗЮМЕ

МОРФОМЕТРИЧЕСКИЙ АНАЛИЗ ГЛУБИННОЙ РАСЧЛЕНЕННОСТИ БАССЕЙНА РЕКИ БОЛАДЫЧАЙ

Алмаммедли М.Г.

Ключевые слова; *рельеф, склон, уклон, морфометрический, метр, глубина, расчлененность*

В работе проанализированы основные количественные показатели и обобщены результаты морфометрических исследований, проведенных в целях осуществления оценки рельефных условий бассейна реки Боладычай. Эти данные имеют научное значение в качестве фактического материала при выявлении степени расчлененности рельефа территории и могут быть использованы в целях хозяйственного планирования.

SUMMARY

MORPHOMETRIC ANALYSIS OF THE DEPTH DECOMPOSITION OF THE BOLADYCHAY BASIN RELIEF

Almammadli M.G.

Key words; *relief, slope, inclination, morphometric, meter, deepness, decomposition*

This dears with the results of morphometric studies and analyzes the main quantitative indicators carried out in order to assess the implementation of relief conditions Basin Boladychay. These findings are of scientific value as the actual material in identifying the degree of dissection of the relief area and can be used for economic planning.

ŞUŞA ŞƏHƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA TURİZMİN ROLU

Babaşova Əfşan Ağazayıd

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

efsan_73@mail.ru

Açar sözlər: *turizm-rekreasiya imkanları, iqtisadi-coğrafi rayon, tarixi-mədəni abidələr, təbii landşaft kompleksləri, təbii ehtiyat potensialı*

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında cari ilin əvvəli 05 yanvar tarixində sərəncam imzalamışdır. Sərəncamda Şuşa şəhərinin yaranma tarixi, şəhərin işğaldan azad olunması və görüləcək bərpa işləri və həyata keçiriləcək layihələr haqda qısa məlumat verilir: "Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır. Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada günümüzdə şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir." [3]

Hazırda işğaldan təmizlənmiş ərazilərin bərpa edilməsi, bundan sonrakı dövrdə inkişafının təmin olunması, sənaye və sosial infrastrukturun yaradılması və ən əsası qaçqın əhalinin doğma torpaqlarına qayıtması istiqamətində tədbirlər həyata keçirilməkdədir. Həmin torpaqların zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin

edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədə müvafiqliyi ərazisi işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.
Şuşa şəhəri Azərbaycan Respublikasının yeni iqtisadi rayonları bölgüsündə Qarabağ iqtisadi-coğrafi rayonu (keçmiş Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonu) ərazisində təşəkkül tapır. Keçmiş Yuxarı Qarabağ(indiki Qarabağ iqtisadi rayonu) iqtisadi-coğrafi rayonu zəngin təbii sərvətlərə malikdir. Burada mühüm polimetal filiz yataqları, vulkanik mənşəli rəngarəng tikinti daşları yayılmaqla yanaşı, regionun mineral və müalicə suları, kurort- rekreasiya ehtiyatları kimi potensial iqtisadi inkişaf imkanları mövcuddur. Düşmən tapdağından azad olduqdan sonra iqtisadi bölgənin çox böyük inkişaf etmə potensialı vardır.
İşğaldan azad olmuş iqtisadi rayonlarımızın kurort-rekreasiya potensialı, tarixi mədəniyyət abidələrinin zənginliyi, gözəl təbii-meşə landşaftları, müalicəvi suları, təmiz dağ havası, dağlıq və düzən relyefi turizmin müxtəli növlərini inkişf etdirmək üçün xeyli geniş imkanlar açır. Qədim Alban tikililəri, Şuşa qalası və oradakı digər tarixi- memarlıq abidələri turizm obyektləri kimi qonaqpərvərlikdə çox mühüm əhəmiyyətə malikdirlər. Bu qiymətli tarixi- memarlıq abidələri Qarabağa səfər edənləri milli-mədəni və tarixi irsimizlə tanış etməklə onlarda əhatəli təəssürat yaratmış olacaqdır. Təbiət abidələri də elmi, tarixi, mədəni estetik əhəmiyyətə malik olub təbiəti mühafizə formalarından biridir.[1]

Şuşa şəhərinin və onun ətrafının bolneoloji iqlimi, füsunkar şəfalı təbiət kompleksi yalnız Şuşadan deyil, onun ətraf ərazilərindən də sanatoriya-kurort, turizm məqsədləri üçün geniş istifadə etməyə tam imkan verir. Bütün bunlara əsasən Daşaltı yasaqlığının, Şuşa tarixi qoruğunun və şəhərdəki sanatoriyaların bazası əsasında Murovdağ milli parkının Şuşa sahəsini təşkil etmək çox faydalı tədbir olmalıdır. Belə milli park ərazidən sanatoriya-kurort kimi tam istifadə etməyə, təbii ərazi komplekslərini və qiymətli tarixi obyektləri qorumağa, rekreasiya və turizmi xeyli inkişaf etdirməyə, yerli təbii sərvətlərdən səmərəli istifadə etməyə tam imkan verərdi.[2]

Şuşanın təbii sərvətlərinin ermənilər tərəfindən məhv edilməsi. Şuşa 1992-ci il mayın 8-də erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Ərazisinin 20 faizini meşələr təşkil edən Şuşa şəhərinin ümumi sahəsi 29356 hektardır. Şuşanın ətrafındakı meşə və dərələrdə müxtəlif müalicə əhəmiyyətli mineral sular, dərman bitkiləri və çiçəklər geniş yayılmışdır. Şuşa ərazisində təsdiq edilmiş ehtiyatları 1143 min kubmetr olan və işğala olunana qədər istismara cəlb edilən Şuşa üzlük daşı yatağı, ehtiyatları 397 min kubmetr olan kərpic-kirəmid istehsalına yararlı Keçəldağ gil yatağı, istismar ehtiyatları 50 min kubmetr/gün olan Şuşa yeraltı şirin su yatağı, müalicəvi əhəmiyyətə malik 60 min kubmetr/gün və 25 min kubmetr/gün olan Şirlan və Turşsu mineral su yataqları vardır. 1988-ci ildə Şuşa və Əsgəran ərazisində nadir təbiət komplekslərini qorumaq üçün təşkil edilən Daşaltı Dövlət Təbiət Yasaqlığı 450 hektar ərazini əhatə edirdi. 1992-ci ildə işğala məruz qalan yasaqlıq hazırda tamamilə məhv edilmişdir. Şuşanın "Haça yal" adlanan sahəsində bitən 2000 ədəd palıd ağacı ermənilər tərəfindən doğranaraq aparılmışdır. Şuşanın Topxana meşəsinin qoruq zonasında meşə sahəsi qırılaraq geniş düzənlik açılmış və orada inşaat işləri aparılmışdır. Eyni zamanda, Şuşa şəhərindən cənubda, dəniz səviyyəsindən 1365 metr hündürlükdə yerləşən uzunluğu 114 metr olan "Xan Mağarası" , 200-ə yaxın müxətlif növ iri diametrli çoxillik ağacları kəsilib amansızlıqla məhv edilmişdir.[2]

Şuşa şəhərinin relyef və coğrafiyası haqda qısa məlumat. Ərazisi dağlıqdır (Qarabağ dağ silsiləsi). Ən yüksək zirvəsi Böyük Kirs dağıdır (2725m.). Rayonun şərq hissəsi Keçəldağ aşırımı ilə hüdudlanır. Əsasən, Yura və Tabaşir çöküntüləri yayılmışdır. Ərazinin əksər hissəsi qışı quraq keçən mülayim isti və qışı quraq keçən soyuq iqlim tiplərinə aiddir. Orta temperatur yanvarda -4 °C-dən, -1 °C-yə qədər, iyulda isə müsbət 16-19 °C, illik yağıntı 700-800 mm olur. Ərazisindən Qarqar çayı axır. Torpaqları əsasən, qəhvəyi dağ-meşə, çimli dağ-çəməndir tiplidir. Yüksək dağlıq sahədə subalp və alp çəmənlikləri ilə örtülüdür.

Şuşa şəhərinin təbii ehtiyatları və təsərrüfatı haqda. Şuşa üzlük daşı yatağı; ehtiyatları 397 min m3 olan kərpic-kirəmit istehsalına yararlı Keçəldağ (Lesoqor) gil yatağı; istismar ehtiyatları 389 min m3/gün olan Şuşa yeraltı şirin su yatağı; 342 min m3/gün və 70 min m3/gün olan Şırlan və Turşsu, İsa bulağı zəngindir. Əsas çayları Qarqarçayın qolları olan Zarıslı, Xəlfəli çaylarıdır. Heyvanat aləminə ayı, canavar, tülkü, boz dovşan, cüyür, kəklik, göyərçin və s. aiddirlər. Şuşanın ətrafındakı meşə və dərələrdə bunlardan başqa müxtəlif müalicə əhəmiyyətli mineral sular, dərman bitkiləri və çiçəklər geniş yayılıb. Müxtəlif növ tikinti materialı yataqları və xeyli irili-xırdalı mineral bulaqları var. Ən iri mineral bulaqları Turşsu və Şirlandır. Meşələrində şərq fıstığı, iberiya palıdı, qafqaz vələsi üstünlük təşkil edir. Çirişli dağının aşağı hissəsində dəniz səviyyəsindən 1160–1210 m yüksəklikdə yamacın şimal baxarında meşəlikdə bir-birindən təxminən 100 m-ə qədər aralı məsafədə 30-a yaxın şabalıd ağacları bitir. Burada şabalıd ağacları palıd — vələs meşəliyinin tərkibinə daxil olur. Meşə altında müxtəlif kol cinsləri — fındıq, murdarça, alça, göyəm, gərməşov, yemişan, əzgil, itburnu və s. bitir. Meşələrdə həmçinin vələs, ağcaqayın,gilas, göyrüş və palıd növləri yayılmışdır.[5]

Şuşa şəhərinin tarixi memarlıq abidələri və turizm-rekreasiya potensialı təbii sərvətləri ilə də zəngindir. Daşaltı Dövlət Təbiət Yasaqlığı, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu və s.. Dini-tarixi abidələrindən: Alban kilsəsi, Rus kilsəsi, Hacı Yusifli məscidi(XVIII), "Çöl Qala"məscidi(XVIII əsr), Xoca Mərcanlı məscidi(XVIII əsr), Quyuqluq məscidi(XVIII əsr), Seyidli məscidi(XVIII əsr), Mərdinli məscidi(XIX əsr), Aşağı Gövhər məscidi(1874–1875), Culfalar məscidi(XIX əsr), Yuxarı Gövhər Ağa məscidi (XIX əsr), Mamay məscidi(XIX əsr), Köçərli məscidi(XIX əsr), Malıbəyli məscidi, Qaybalı məscidi, Şırlan məscidi və s.. şəhərin ən məşhurlarıdır. Tarixi memarlıq abidələrindən: Qala divarı (uzunluğu 8 kilometr), Qala divarı üzərində tikilmiş bürclər (17 ədəd), qədim üslubda salınmış 17 məhəllə, Turşsu Qalereyası, Karvansara (4 ədəd), Gəncə qapısı, Əfsanəvi Leyli qalası, Molla Pənah Vaqifin poeziya evi, Molla Pənah Vaqifin məqbərəsi, Xan qızı Xurşudbanu Natəvanın sarayı, Xan qızı Xurşud Banu Natəvanın tikdirdiyi "Qarama", Gövhər Ağa məscidini və başqalarını misal göstərmək olar. Karvansaralarından: İkimərtəbəli karvansara(1888–1889-cu illər), Zarıslıda Korun və s.. tarixi əhəmiyyətli karvansaraları mövcuddur. Şuşa şəhərinin qədim qəsrləri və qalaları da çoxdur**.** Ən məşhur qalaları:"Pənahabad" Şuşa qalası(1750–1757-ci illər), Leyli qayası, Bayat qalası(1748-ci il), Şahbulaq qalası və s.. Muzeylərindən Xalça muzeyini, Tarix-diyarşünaslıq muzeyini, Qarabağ dövlət tarixi muzeyi, Rəsm qalereyası və s.. ən məşhurlarıdır. Turizm sektorunun inkişafı üçün geoloji təbii muzeylər də gələn qonaq turistlər üçün maraqlı yerlərdən olacaqdır. Geoloji təbiət abidələri: Daşaltı kəndində karst mağaraları, Şuşada Şahnəzər mağarası, Şuşa şəhəri yaxınlığında Daşaltı kanyonu, Böyük Kirs dağı, Keçəldağ aşırımı, Üçmıx dağı və s.. gələcəkdəki turistlərimiz üçün maraqlı təbiət muzeyləridir. Zəngin tarixilik baxımından arxeoloji abidələrin də xarici ölkələrdən gələn turist və qonaqlarımızın böyük marağına səbəb olacaq məkanlardan biridir. Arxeoloji abidələrdən: Şuşa Şahnəzər mağarasının(uzunluğu 125 m, eni 20 m, hündürlüyü 10m), Mağaradan Paleolitə aid iki kobud daş çapacaq, Mezolitə aid mikroiit bıçaqlar, b.e.ə. V— IV minilliyə aid Eneolit gil qablar, Tunc, Dəmir Dövrləri və orta əsrlərə aid saxsı məmulat qalıqları, müsəlman qəbri tapılmışdır. Bunlar qədim tarixi məkan turizmi səyahətçiləri üçün çox qiymətli nümunələrdir. Tarixi-mədəni abidələrə Daşaltı kəndində müdafiə qalası, İbrahimxəlil xanın tikdirdiyi sığınacaq evi(XVIIIəsr), tövlə, hamam qalıqları və s.. nümunələri göstərmək olar. Bu baxımdan işğaldan azad edilən torpaqlarımızda, həm Şuşa kimi qədim tarixi və musiqi mədəniyyəti ocağı olan şəhərimizin milli-mədəni sərvətlərini, təbii coğrafi obyektlərini də beynəlxalq turist marşrutlarına daxil etməklə ərazinin inkişafına, çiçəklənməsinə və iqtisadi-sosial inkişafına nail olmaq olar. Burada dağ-idman turizmi, ekoloji turizm, ekskursiya turizmi, müxtəlif mədəniyyətləri öyrənmək məqsədli ziyarət turizmi, istirahət-kurort məqsədli rekreasiya turizmi və s. turizm növlərini inkişaf etdirmək üçün fürsət yaranmışdır. Təbii, sosial-mədəni, tarixi-memarlıq, sağlamlıq kimi sadalanan turizm resurslarının bolluğu və məcmusu bölgəni turizm regionuna çevirmək imkanları açacaqdır.[4] Xüsusi estetik sərvət olan səciyyəvi nadir təbii landşaftların həm qorunması həm də istirahət-kurort kimi istifadəsi üçün milli parkların yaradılması da vacib məsələlərdən biridir. Yeni azad olunmuş iqtisadi rayonlarımızda yaradılması vacib olan mill parklar xüsusi mühafizə olunacaq yerlərin relyefini, bitki və heyvanat aləmini, həmin yerlərdəki nadir təbii kompleksləri, tarixi mədəniyyət abidələrini qorumaqla yanaşı, ərazidə əhalinin və gələn turist qonaqların istirahətini təşkil etmək və onlara xidmət göstərməklə yeni iqtisadi imkanlar açmış olacaq. Turizm sektorunun Suşa şəhəri kimi qədim tarixi-mədəni diyarda inkişafı ilkin olaraq sənaye və sosial infrastrukturun həmin ərazilərdə ən birinci növbədə isə Qarabağ iqtisadi-coğrafi rayonununda bərpa edilməsindən sonra turizm infrastrukturunun yaradılmasından başlayır. Qaçqın və məcburi köçkünlərin azad olunmuş ərazilərimizə qaytarılmasından sonra regionda kənd turizminin inkişafı üçün də xeyli imkanlar yaranacaqdır. Bu həm də orda yaşayacaq əhalinin maddi gəlirlərinin də artmasına fürsət verəcək və həmin ərazilərdə daha sıx məskunlaşmasını stimullaşdıracaqdır.

Ədəbiyyat

1. Babaşova Ə.A. İşğaldan azad edilmiş ərazilərimizdə turizm və rekreasiya potensialının inkişaf istiqamətləri. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Qarabağın tarixi: siyasi, iqtisadi, mədəni aspektləri – Beynəlxalq Elmi Konfransın materialları, SDU-2022. 510s. s.309-312, https://www.ssu-conferenceproceedings.edu.az
2. İbrahimov T.O. Azərbaycanın qoruq və yasaqlıqları. Dərs vəsaiti. Bakı-2019. 392s. s.51-63
3. Zəfərimizin təntənəsi - 2022-ci il Şuşa ilidir., Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, metodik vəsait. Azərbaycan Milli kitabxanası., Bakı-2022, 42 s.[1]
4. Soltanova H.B., Hüseynova Ş.H. Turizmin əsasları. BDU. Dərs vəsaiti. Bakı-2007. 316s. s.6-10
5. http://anl.az/down/SHUSHA.pdf**,** Turizmlə bağlı məlumat bazası. s.65

РЕЗЮМЕ
РОЛЬ ТУРИЗМА В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ ГОРОДА ШУША
Бабашова А.А.

Ключевые слова: *туристско-рекреационные возможности, экономико-географический район, историко-культурные памятники, природно-ландшафтные комплексы, природно-ресурсный потенциал*

Статья посвящена восстановлению хозяйства на вновь освобожденных от оккупации землях и исследованию туристско-рекреационных возможностей. В статье рассказывается о природных богатствах города Шуши, караван-сарае, замках, исторических памятниках архитектуры и туристско-рекреационном потенциале природных ресурсов. Курортно-рекреационный потенциал Шуши, освобожденного от оккупации древнего культурного города, богатство историко-культурных памятников, красивые природно-лесные ландшафты, целебные воды, чистый горный воздух, горно-равнинный рельеф открывают широкие возможности для развития различных видов туризма. Древние албанские постройки, шушинский замок и другие историко-архитектурные памятники имеют большое значение в сфере гостеприимства как туристические объекты.

SUMMARY
THE ROLE OF ECONOMY AND TOURISM IN THE SOCIO-ECONOMIC DEVELOPMENT OF SHUSHA CITY
Babashova A.A.

Keywords: *tourism-recreation opportunities, economic-geographic region, historical-cultural monuments, natural landscape complexes, natural resource potential*

The article is dedicated to the restoration of the economy in our newly freed lands from occupation and to the investigation of tourism and recreation opportunities. The article talks about the natural resources of Shusha, caravansary, castles, historical architectural monuments and tourism-recreational potential natural resources. The resort-recreational potential of Shusha, an ancient cultural city freed from occupation, the wealth of historical cultural monuments, beautiful natural-forest landscapes, healing waters, clean mountain air, mountainous and plain terrain open up a lot of opportunities for the development of various types of tourism. Ancient Albanian buildings, Shusha Castle and other historical-architectural monuments there are very important in hospitality as tourist objects.

AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL-İQTİSADİ SİYASƏTİNDƏ VƏTƏNDAŞLARIN SOSİAL TƏMİNAT SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ MƏSƏLƏLƏRİ

Baxşəliyev Eynulla Fazil oğlu
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
baxshaliev81@mail.ru

Açar sözlər: *sosial, təminat, proqram, rifah, təqaüd, aztəminatlı*

Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətlərinə və əldə edilmiş nəticələrə İlham Əliyevin 2003-2018-ci illərdə imzaladığı çoxsaylı fərman və sərəncamlarda, dövlət proqramlarında sosial təminat qanunvericiliyinin təkmilləşməsi ilə bağlı vəzifələr və göstərişlər öz təsirini göstərmişdir.

Bu o deməkdir ki, 2003-cü ildən başlayaraq cəmiyyət həyatının bütün sahələrində əldə edilmiş böyük uğurların səbəblərindən biri də Azərbaycan Respublikasında sosialyönümlü siyasətin aparılması, ölkədə sosial təminatın və sosial infrastrukturun yaxşılaşdırılmasına yönəlmiş ardıcıl proqramların həyata keçirilməsidir. Ölkədə sürətli iqtisadi inkişaf və büdcə gəlirlərinin artması sosial xərclərin sistemli şəkildə artırılmasına, o cümlədən son 5-7 ildə yoxsulluğun bir neçə dəfə azaldılmasına və sosial təminat sisteminin gücləndirilməsinə şərait yaratmışdır. Ölkənin büdcə xərclərinin əhəmiyyətli hissəsini sosial yönümlü xərclər tutur.

Müqayisələrin aparıldığı 2012-ci ildə sosialyönümlü xərclər bütün dövlət büdcəsi xərclərinin 28 faizini təşkil etmişdir. Son 7-8 il ərzində ölkədə 11-dən çox sosialyönümlü dövlət proqramı həyata keçirilmişdir. Bu proqramların mühüm hissəsi ölkə regionlarının, qalan hissəsi isə paytaxt Bakı şəhərinin və ətraf kəndlərin sosial-iqtisadi inkişafını əhatə edir. Yalnız gənclərlə bağlı 2005-2009 və 2011-2015-ci illəri əhatə edən iki dövlət proqramı qəbul edilmişdir. Sonuncunun həyata keçirilməsi üçün dövlət büdcəsindən 80 milyon manat vəsait ayrılmışdır [1, s.4]. Bütövlükdə hər il sosial yönümlü proqramlara büdcədən milyardlarla manat vəsait ayrılır.

Vətəndaşların sosial təminatı səviyyəsinin yaxşılaşdırılmasının istiqamətlərindən biri də ünvanlı sosial yardım göstərilməsidir. Ünvanlı sosial yardım mexanizminin yaradılması Azərbaycanda aztəminatlı sosial təbəqələrin sosial təminatının gücləndirilməsinə və maddi vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş icra olunan ən mühüm proqramlardan biridir. Bu mexanizm ölkə prezidenti İlham Əliyevin 2005-ci il oktyabrın 25-də imzaladığı qanunla tənzimlənir [6]. Qanunun əsas məqsədi ailənin hər bir üzvünə düşən orta aylıq gəliri ehtiyac meyarından çox olmayan ailələrə dövlət tərəfindən maddi yardımın ayrılmasını

1.Əliyev H. Müstəqilliyimiz əbədidir. Altıncı kitab. mart, 1996 - iyun, 1996. Azərnəşr, Bakı: - 1998. - 512 s.
2.Əliyev İ İnkişaf - məqsədimizdir. Otuz doqquzuncu kitab. noyabr 2009 - fevral 2010. Azərnəşr, Bakı: - 2017. - 400 s.
3.N.Nərimanov. Anadan olmasının 100 illiyinə həsr olunmuş yubiley tədbirlərinin materialları. Bakı: -1974. - 246 s.
4.Nəriman N ərimanovun 150 illik yubileyinin qeyd edilm əsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 14 fevral 2020-ci il // Azərbaycan. 15 fevral 2020. s.1.

5.Nəriman Nərimanov: Biblioqrafiya / Tərt. ed.: M.Vəliyeva, M.Cəfərova, H.Manafova; elmi red. K.Tahirov; red. T.Əhmədov. - Bakı: - 2020. - 688 s
6.Документальная эпопея: «Смертельная схватка» https://www.kaspiy.az/dokumentalnaya-epopeya-smertelnaya-sxvatka
7.Гейдар Алиев и социально-экономическое, культурное развитие Азербайджана в 1970-1980 годы. Бакинский рабочий. - 2012. - 14 июня. - с. 1-3.
8.Гражданин, Личность, Лидер. Бакинский рабочий. - 2003. - 23 мая. - с.2-5.
9. 150-летие Наримана Нариманова - Распоряжение https://report.az/ru/literatura/otmetyat-150-letie-narimana-narimanova/

РЕЗЮМЕ
ГЕЙДАР АЛИЕВ О ПОЛИТИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ НАРИМАНА НАРИМАНОВА
Бахшалиев С.Ф.

Ключевые слова: *Гейдар Алиев, Нариман Нариманов, юбилей, деятельность*

Гейдар Алиев имеет исключительные заслуги в возвращении видного политического деятеля Наримана Нариманова народу и культуре Азербайджана во всем его величии. Благодаря влиянию и целеустремленности великого лидера Гейдара Алиева общественно-политическая деятельность Наримана Нариманова, оставившего глубокий след в истории Азербайджана XX века, получила заслуженную оценку и была в полной мере передана нашему народу. Инициатива празднования 100-летия и 125-летия со дня рождения Наримана Нариманова, возведения его величественного памятника в Баку, а также увековечения его памяти за пределами нашей страны исходила от общенационального лидера Гейдара Алиева. 14 февраля 2020 года Президент Азербайджанской Республики Ильхам Алиев подписал указ о проведении 150-летия Наримана Нариманова.

SUMMARY
HEYDAR ALIYEV'S OPINON ABOUT THE POLITICAL ACTIVITY OF NARIMAN NARIMANOV
Bakshaliyev S.F.

Keywords: *Heydar Aliyev, Nariman Narimanov, anniversary, activity*

Heydar Aliyev has exceptional merits in the return of the prominent political figure Nariman Narimanov to the people and culture of Azerbaijan in all its greatness. Thanks to the influence and purposefulness of the great leader Heydar Aliyev, the social and political activities of Nariman Narimanov, who left a deep mark on the history of Azerbaijan in the 20th century, received a well-deserved appreciation and was fully transferred to our people. The initiative to celebrate the 100th and 125th anniversary of the birth of Nariman Narimanov, the erection of his majestic monument in Baku, as well as the perpetuation of his memory outside our country came from the national leader Heydar Aliyev. On February 14, 2020, President of the Republic of Azerbaijan Ilham Aliyev signed a decree on holding the 150th anniversary of Nariman Narimanov.

AZƏRBAYCANDA RƏQƏMSAL İQTİSADİYYATIN DAYANIQLI İNKİŞAFI VƏ İNSAN KAPİTALI AMİLİ

Cabbarova Günel Sabir qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan
Gunelsabir@gmail.com

Açar sözlər: *rəqəmsal iqtisadiyyat, rəqəmsal innovasiyalar, dayanıqlı inkişaf, rəqəmsal iqtisadiyyat strategiyası, insan kapitalı, rəqəmsal savadlılıq, İKT, əmək bazarı*

Bu gün dünya ölkələrinin əksəriyyəti dayanıqlı inkişafı, iqtisadiyyatın rəqəmsallaşmasını milli prioritet hesab edir. Məqalədə iqtisadiyyatın rəqəmsal transformasiyası, onun dayanıqlı inkişafı üçün insan kapitalının əhəmiyyəti tədqiqata cəlb edilmişdir. Qeyd edilmişdir ki, insan kapitalının həlledici rolu onunla bağlıdır ki, bu gün ən qabaqcıl sənaye və texnologiyalar elm tutumludur. Və məhz onlar iqtisadi inkişafın keyfiyyətini, inkişaf tempini müəyyən edir.

Rəqəmsal iqtisadiyyat konsepsiyası davamlı inkişafın konseptual müddəaları ilə qarşılıqlı əlaqədədir. 2015-ci ildə BMT çərçivəsində formalaşdırılan və 2030-cu ilə qədər həlli gözlənilən davamlı inkişaf məqsədlərinə nail olmaq birbaşa və ya dolayısı ilə cəmiyyətin rəqəmsal transformasiyası proseslərinin inkişafı ilə bağlıdır [4]. Xüsusilə, 2030 Dayanıqlı İnkişaf Gündəliyinin IX Məqsədi davamlı infrastrukturun qurulmasını, inklüziv və davamlı sənayeləşməni və innovasiyaları təşviq etməyi tələb edir [6]. Bu gün qlobal cəmiyyətdə rəqəmsal iqtisadiyyatın əsasında yeni biliklər sistemi və iqtisadiyyatın inkişafı üçün yeni istiqamət yaradılır.

Rəqəmsal iqtisadiyyat rəqəmsal texnologiyalara, həmçinin məlumat mübadiləsi, kommersiya əməliyyatları, xarici biznes mühiti ilə virtual əlaqə və s. kimi biznes proseslərinin dərin inteqrasiyasına və

optimallaşdırılmasına əsaslanan iqtisadi fəaliyyətdir. Onun inkişafı ilə məsafələr daralır, qloballaşma baş verir və inanılmaz imkanlar yaradılır [2, s. 27].

Rəqəmsal transformasiyalar epoxasında iqtisadiyyatın effektiv və səmərəli fəaliyyətinin, rəqabət qabiliyyətinin əsas müəyyənedici amili insan kapitalı, istedadlı və sərişləli mütəxəssislərdir. İnsan kapitalının əsas müəyyənedici rolu rəqəmsal iqtisadiyyatın bilik tutumlu olması ilə əlaqədardır. Əlbəttə ki, rəqəmsal transformasiyanın effektivliyi üçün kommunikasiya, bazarlara çıxış, qanunvericilik kimi amillər vacibdir, lakin insan kapitalının adekvat keyfiyyəti olmadan ən əlverişli şərtlər belə onun inkişafına kömək edə bilməz.

İnsan kapitalının ikinci keyfiyyət parametri kimi təhsilin səviyyəsi və keyfiyyəti hesab edilə bilər. Savadlı cəmiyyət iqtisadi məqsədlərin həyata keçirilməsini müəyyən edən "kapital"dır ki, bu da insan kapitalı nəzəriyyəsi, sənayeləşmiş ölkələrin inkişafı, eləcə də əsas insan hüquqlarının və insan inkişafı məqsədlərinin həyata keçirilməsi ilə təsdiqlənir. İnsan kapitalına qoyulan investisiyalar sosial-iqtisadi inkişafı stimullaşdıran və beynəlxalq iqtisadi rəqabət səviyyəsinə daxil olan əsas amillərdən biri olan uzunmüddətli investisiyalardır [3, s. 36].

Davamlı dəyişikliklərin yaşandığı rəqəmsal dünyada təhsilə yeni yanaşma tələb olunur. Mütəxəssislərin qənaətincə, yaxın gələcəkdə işçilərin əksəriyyəti hər 5-10 ildən bir iş yerini dəyişmək məcburiyyətində qalacaq. Beləliklə, bir çox peşə sahələrində əmək fəaliyyət müddətinin qısalması ömür boyu öyrənmə ehtiyacına zəmin yaradır. Bu nöqteyi-nəzərdən, müstəqillik, yaradıcılıq, ünsiyyət, multidissiplinarlıq yenilənmiş insan kapitalını xarakterizə etməli olan xüsusiyyətlərdir [3, s. 36]. Cədvəl 1-də milli iqtisadiyyatın rəqəmsallaşması kontekstində insan kapitalının qarşısında duran keyfiyyət parametrləri göstərilmişdir.

Cədvəl.

İnsan kapitalının keyfiyyəti və rəqəmsallaşmanın bəzi aspektləri [3, s. 36]

Rəqəmsallaşmanın aspektləri	**İnsan kapitalının keyfiyyətinə olan tələblər**
beynəlxalq əlaqələrin inkişafı	xarici dil bilikləri, mobillik
informasiya-kommunikasiya texnologiyaları	yüksək təhsil səviyyəsi, texnoloji sərişlə
əmək fəaliyyətinin yeni xarakteri	müstəqillik, kreativlik, davamlı təhsil
yeni peşələr	yeni ixtisaslar və bacarıqlar

Artıq bir çox ölkələr informasiya-kommunikasiya texnologiyalarının (İKT) ümumi daxili məhsula bəxş etdiyi (ÜDM) töhfələri qiymətləndirirlər. Bu, təkcə ölkələr səviyyəsində deyil, regional aspektdə də diqqət çəkir. Məsələn, Koreya və Yaponiya, şübhəsiz ki, onların ümumi və ən ciddi rəqiblərindən biri olan dinamik inkişaf edən Çinin yaxın qonşularıdır. Buna görə də, iqtisadi artım tempi, Çinin sürətli elmi və texnoloji inkişafı Yaponiya və Koreya Respublikası üçün dinamik inkişaf edən yeni bazarlarda öz rəqabət qabiliyyətini artırmaq üçün stimul yaradır . Digər regional oyunçu kimi Rusiya Federasiyası da öz Rəqəmsal İqtisadiyyat proqramını həyata keçirmək üçün Yaponiya və Koreya Respublikasının təcrübəsindən maraqlı ideyalar götürə bilər [5, s. 212].

Müasir rəqəmsal reallıqlarda biznesin aparılması bazarda rəqabət üstünlüyü əldə etməyin mümkün olduğu sahələrin daimi axtarışını tələb edir. Yuxarıda qeyd etdiyimiz kimi, fəaliyyətin səmərəli təkmilləşdirilməsi üçün şərt onlara tapşırılan vəzifələri yerinə yetirməyə qadir olan sərişləli işçilərdir. Bu, əməliyyatların təkmilləşdirilməsi mürəkkəb və biznesin aparılması üçün həyati əhəmiyyət kəsb edən zaman xüsusilə vacibdir.

Bu gün bir çox tədqiqatçılar uğurun getdikcə daha çox insan kapitalından asılı olduğunu vurğulayaraq, milli iqtisadiyyatların "insanlar vasitəsilə rəqabət apardığını" iddia edirlər (bilik işçilərinin, onların bacarıq və qabiliyyətlərinin iqtisadi dəyəri kimi nəzərə alınır) [3, s. 36].

İnsan kapitalı elementinin başqa bir keyfiyyət xüsusiyyəti peşəkar sərişlədir. Peşəkar sərişlə, bazarda rəqabət üstünlüyünün uzunmüddətli qurulmasına təsir edən maddi intellektual resursların məcmusudur. Digər məsələlərlə yanaşı, iqtisadiyyat subyektlərinin bacarıqlarının xarakteri onun əməliyyat imkanlarını müəyyən edir.

Rəqəmsal iqtisadiyyatın missiyasını və strategiyasını qurarkən sosial və humanitar amilləri və məqsədləri nəzərə almaq yeni rəqəmsal mədəniyyət yaratmağa imkan verir. İstənilən mədəniyyəti formalaşdırmaq bacarığı iqtisadiyyatın identikliyi, onun bazar mövqeyinə və rəqabət üstünlüklərinə təsir edən əsas kompetensiya kimi qəbul edilməlidir.

Öz növbəsində, sərişlələrin formalaşmasının şərti iqtisadiyyatın tələbatını ödəmək üçün konkret vəzifələri yerinə yetirmək üçün tələb olunan bacarıqların həcmini müəyyən etmək üçün zəruri olan müəyyən

ölçüdə informasiyadır. Peşəkar sərişdə iqtisadiyyata uzunmüddətli rəqabət üstünlüyü əldə etməyə imkan verən mühüm milli sərvət kimi qəbul edilməlidir. İqtisadi şəraitin dəyişkənliyi sərişdənin mövcud vəziyyətə uyğunlaşdırılması üçün davamlı dəyişikliklərin tətbiqini tələb edir ki, bu da insan kapitalının inkişafı kimi şərh edilə bilər ki, bu da onun dəyərini artırır.

Peşəkar sərişdənin düzgün inkişafı üçün zəruri şərt təkmilləşdirmə və motivasiya sahələrini müəyyənləşdirmək, eləcə də konkret iqtisadi vəzifələr üçün vacib "faydalı məlumat"a, yəni informasiyaya sahib olmaqdır.

"Azərbaycanda rəqəmsal iqtisadiyyatın davamlı inkişafı Prezidentin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda öz hüquqi əsasını tapmışdır. Həmin Strategiyanın Tədbirlər Planına əsasən, Rəqəmsal İqtisadiyyat Strategiyasının hazırlanması üzrə İşçi Qrup yaradılmışdır. Hazırda Azərbaycan Respublikasının Rəqəmsal İqtisadiyyat Strategiyası hazırlanır" [1].

Ədəbiyyat

1. Azərbaycanda Rəqəmsal İqtisadiyyat Strategiyası hazırlanır [elektron resurs] // https://azertag.az/xeber/Azerbaycanda_Reqemsal_Iqtisadiyyat_Strategiyasi_hazirlanir-2424893 (son giriş: 05.03.2023)
2. Гусева В., Курбанова И. Цифровая экономика и человеческий капитал – важные слагаемые успеха в Кыргызской республике // Вестник КРСУ № 7, Том 21, 2021, с. 26-31
3. Евграфова О. Человеческий капитал цифровой экономики: качественный анализ // Наука и образование № 8 (111), 2019, с. 35-38
4. Преобразование нашего мира: Повестка дня в области устойчивого развития на период до 2030 года. Резолюция, принятая Генеральной Ассамблеей ООН 25 сентября 2015 г. [elektron resurs] // https://unctad.org/system/files/official-document/ares70d1_ru.pdf (son müraciət: 05.03.2023)
5. Сагдеева Л., Коробко С. Человеческий капитал как фактор устойчивого развития в условиях цифровой экономики // Вестник Академии знаний № 31 (2), 2019, с. 211-215
6. Цели в области устойчивого развития [elektron resurs] // https://www.un.org/sustainabledevelopment/ru/infrastructure-industrialization/ (son giriş: 05.03.23)

РЕЗЮМЕ

УСТОЙЧИВОЕ РАЗВИТИЕ ЦИФРОВОЙ ЭКОНОМИКИ В АЗЕРБАЙДЖАНЕ И ФАКТОР ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА

Джаббарова Г.С.

Ключевые слова: *цифровая экономика, цифровые инновации, устойчивое развитие, стратегия цифровой экономики, человеческий капитал, цифровая грамотность, информационно-коммуникационные технологии, рынок труда*

Сегодня устойчивое развитие и цифровизация экономики считается национальным приоритетом для абсолютного большинства стран мира. В статье исследуется важность качества человеческого капитала для цифровой трансформации экономики, общества в целом, устойчивого развития цифровой экономики. Отмечено, что решающая роль человеческого капитала связана с тем, что сегодня наиболее передовые отрасли и технологии являются наукоемкими и определяют качество экономического развития и темпы развития.

SUMMARY

SUSTAINABLE DEVELOPMENT OF THE DIGITAL ECONOMY IN AZERBAIJAN AND THE FACTOR OF HUMAN CAPITAL

Jabbarova G.S.

Keywords: *digital economy, digital innovations, sustainable development, digital economy strategy, human capital, digital literacy, information and communication technologies, labor market*

Today, sustainable development and digitalization of the economy is considered a national priority for the vast majority of countries in the world.

The article examines the importance of the quality of human capital for the digital transformation of the economy, society as a whole, and the sustainable development of the digital economy.It is noted that the decisive role uman capital is due to the fact that today the most advanced industries and technologies are knowledge-intensive. And it is they who determine the quality of economic development and the pace of development.

HEYDƏR ƏLİYEVİN SİYASİ FƏLSƏFƏSİ

Cəbrayilova Fəridə Səyədulla qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, f.f.d.
cebrayilova_fira@mail.ru

Açar sözlər: *Heydər Əliyev, siyasi fəlsəfə, siyasət, dövlətçilik fəlsəfəsi*

Siyasi fəlsəfə sosial həyatın müəyyən sferasını - siyasi sahəni əks etdirir. Bu fəlsəfənin diqqət mərkəzində konket siyasi situasiya, siyasi fəaliyyətin konkret formaları və təzahürləri deyil, siyasi aləmin təbiəti, konkret dövlət və hakimiyyət strukturu deyil, ümumiyyətlə dövlətin və hakimiyyətin təbiəti, konkret siyasi partiya deyil, onun cəmiyyət həyatındakı yeri və rolu nəzərdə tutulur[3].

Siyasi fəlsəfənin banisi Sokrat hesab edilsə də, bu sahənin ən görkəmli mütəfəkkirləri arasında Platon, Aristotel, Makiavelli, Lokk, Hegel, Marks ilk növbədə seçilir. Azərbaycanda siyasi fikir tarixi çox qədim dövrə gedib çıxır. Siyasi fəlsəfənin ən mühüm mövzuları sırasında yer alan azadlıq, ədalət, mülkiyyət, hüquq, qanunilik, vətəndaşlıq, məsuliyyət və bu kimi mühüm mövzular Azərbaycan siyasi fikrinin, dahi mütəfəkkirlərin ictimai-siyasi ideologiyasının əsasını təşkil edir.

Siyasətdə fəlsəfə xüsusi intellektual səy tələb edir. Onun diqqət mərkəzində daha yaxşı sosial gələcəyə istiqamətlənən mənəvi məqsəd dayanır. Dünyanın bütün xalqları, millətləri və eləcə də dövlətləri həqiqi təbiətini və aristokratik ruhu özündə daşıyan və çox zaman genetik olaraq da bir-biri ilə bağlı olan insanlar tərəfindən yaradılmışdır [2]. Belə insanlardan biri XX əsrin son son ikinci yarısında Azərbaycanın sosial-siyasi mənzərəsini dəyişdirmək iqtidarında olan fenomenal siyasi xadim dahi Heydər Əliyevdir. Heydər Əliyev fenomeninin hərtərəfli açıqlanması tarixin və gələcəyin işidir. Lakin bu bizə onun zəmanəmizin görkəmli filosofu və mütəfərkkiri olması həqiqətini vurgulamaqdan azad etmək hüququ vermir.

Bütün siyasi fəlsəfə siyasi fikirdir, lakin hər bir siyasi fikir siyasi fəlsəfə deyil. Siyasi fikri öz-özlüyündə mülahizə maraqlandırmır; əksinə, siyasi fəlsəfə şüurlu, ardıcıl və yorulmaz səy ilə siyasi prinsiplər haqqında mülahizələri onlar haqqında bilik ilə əvəz etməyə yönəlib [6]. Bu mənada Heydər Əliyevin məhz şüurlu, ardıcıl siyasi prinsipləri ilə formalaşdırdığı siyasəti Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyənləşdirərək milli dövlətçiliyimizin əsasını təşkil etmiş və ölkənin beynəlxalq nüfuzunu sürətlə artmasına səbəb olmuşdur.

Siyasi fəlsəfənin məzmununu təşkil edən azadlıq, ədalət, qanunilik prinsipləri dahi şəxsiyyətin siyasətinin əsas stereotiplərindən idi. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, qanunun aliliyinə söykənən demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyətinin formalaşdırılması, milli dirçəliş problemi, müasir dünyanın hərbi meyarlarına cavab verə bilmək iqtidarında olan ordu quruculuğu məsələləri Heydər Əliyevin müdrik siyasət fəlsəfəsindən qaynaqlanır.

Heydər Əliyevin siyasi fəlsəfəsi sadəcə sosializm prinsiplərinin həyata keçirilməsi deyildi. O dövrün bütün sosial, siyasi, etik, estetik və digər anlayışları kommunist ideologiyasına xidmət etsə də, Heydər Əliyevin düşüncələri və fəaliyyəti dünyanın dinamikləşməsinə və keyfiyyətcə yenilənməsinə uyğun gəlirdi, bu da nəticə etibarilə vətəndaşlarıin mənəvi cəhətdən kamilləşməsinə, onlarda yüksək keyfiyyətlər - vəzifə borcu, dürüstlük, qarşılıqlı yardım, fədakar ruhlu əmək tərbiyəsinin formalaşmasına töhvə vermişdi. Ulu öndər hətta sosializm dönəmində mənsub olduğu xalqın hüquqlarını hər vasitə ilə müdafiə edərək, istənilən sahədə öz fikirlərini açıq-aşkar şəkildə bildirməyi bacarmışdı.

Ümummill lideri dünya siyasət meydanına filosof siyasətçi kimi təqdim edən onun zamanı və prosesləri doğru qiymətləndirməyə imkan verən dərin zəkası və vətəndaş cəmiyyəti ilə düzgün dialoq qurmaq bacarığı idi. Antik yunan filosofu Platon görə, siyasətin can atığı ümumi rifahın nə olduğunu bizə ancaq fəlsəfə izah edə bilər. Ən yaxşı hökmdar fövqəlhəssas düşünmə bacarığı olan siyasətçi filosofdur. [1]. Heydər Əliyev məhz həssas düşünmə bacarığı ilə çətin siyasi situasiyalarda məsuliyyəti öz üzərinə götürərək xalqın taleyində əvəzsiz rol oynamış, mütərəqqi ideyaları, müdrik, fəlsəfi siyasəti ilə dövlətçilik ənənələri yaratmağa müvəffəq olmuşdur.

İnsanın dünyadakı yeri və mövqeyi haqqındakı fəlsəfi düşüncələrdən müxtəlif kateqoriyalar, ideyalar yaranır, prinsiplər formalaşır. Heydər Əliyevin siyasi portreti müasir ictimai-siyasi və fəlsəfi fikrin ən davamlı keyfiyyətləri, prinsipləri ilə zəngindir. Son yüzillikdə baş vermiş hadisələrin təhlili göstərir ki, respublikanın müstəqillik yolu 1969-cu ildən başlamış və Azərbaycana yenidən rəhbərlik etdiyi dövrdə ümummilli liderin müdrikliyə, fəlsəfəyə söykənən məqsədyönlü siyasəti ilə başa çatmışdır. Heydər Əliyevin idarəetmə fəlsəfəsinin əsas ideya-siyasi istiqaməti XX əsr xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin artması və milli şüurun yüksəldilməsinə xidmət edən

sürətli inkişaf strategiyasının həyata keçirilməsi ilə səciyyələnir. Dövlətçilik fəlsəfəsi müxtəlif və özünəməxsus xüsusiyyətlərlə zəngin olan ümummilli liderin rəhbərlik etdiyi dövr ölkəni dinamik inkişaf yoluna çıxarmaqla yanaşı, milli müstəqilliyin etibarlı təməlini qoyan bir çox amilləri də özündə ehtiva edirdi. Öz kökünə, milli kimliyinə qayıdışın təşəbbüskarı və azərbaycançılıq ideologiyasının müəllifi olan Heydər Əliyevin Azərbaycana gətirdiyi ideyalar millətin genetik yaddaşını özünə qaytardı və inkişafın milli modelinin əsasını qoydu. Milli dövlətçiliyin ideoloji əsasına çevrilmiş "azərbaycançılıq" ideologiyası müasir dünyada öz yerini müəyyən etmiş, bütün dünyada yaşayan azərbaycanlıları birləşdirən amilə çevrilmişdir.

XX əsr tariximizin parlaq və görkəmli şəxsiyyəti olan ümummilli lider Heydər Əliyevin siyasi portreti Azərbaycan xalqının dövlətçilik təfəkkürünün canlı təcəssümü, müasir ictimai-siyasi və fəlsəfi fikrin ən davamlı olması ilə şərtlənən unikal idarəetmə məktəbidir. Məh bu məktəb sayəsində milli ideya və milli kimlik, millətin mədəniyyəti kimi əsas anlayışlar yeni tərzdə dərk edilməyə başladı, Azərbaycan xalqının mənlik şüurunun oyanması, milli inkişafın müasir tarix mərhələsində əsl məqsəd və məna ilə işıqlandırılması reallaşdı, vətənpərvərlik ictimai şüurun tərkib hissəsinə və dövrün əsas məzmununa çevrildi.

Siyasi fəlsəfə cəmiyyətin ictimai –siyasi təşkilinin normatividir, dəyər yönümlüdür, nəinki dünyanı dəyişdirməyə, hətta onu təkmilləşdirməyə qadir olan layihə növüdür. Siyasət fəlsəfəsini öyrənərək, biz siyasətin ola biləcəyi məkanı genişləndirməliyik" [4]. Amerikalı politoloq Z.Bzejinski deyirdi:"İndi Azərbaycana rəhbərlik edəcək bir lider var, o da yalnız Heydər Əliyevdir"[5]. Ulu öndər ozünün titanik fəaliyyəti ilə keçən əsrin 90-cı illərində deyilmiş bu fikri təsdiqlədi. Təsadüfi deyildir ki, Heydər Əliyevi müasir Azərbaycanın memari, ideolooqu, arxitektoru adlandırırlar. Onun müdrikliyi sayəsində siyasət meydanı genişlənərək cəmiyyətin bütün sahələrini əhatə etdi. Azərbaycan öz dövlətçiliyini, parlamentini, Konstitusiyasını əldə etməklə yanaşı, müxtəlif mülkiyyət formalarına əsaslanan yeni ictimai münasibətlər sistemi qurmağa, özəlləşdirmə prosesini həyata keçirməyə, bazar iqtisadiyyatını inkişaf etdirməyə başladı. Milli Ordunun qurulmasının əsasları qoyuldu, Dağlıq Qarabağda və onun ətrafında atəşkəs haqqında razılıq əldə olundu. Bir çox sənaye müəssisələri, ilk növbədə neft, energetika və kimya sənayesi ilə bağlı olanlar canlanmağa başladı.

Qırx dörd günlük Vətən müharibəsindəki şanlı qələbənin memarı da Heydər Əliyevdir. Məhz ulu öndərin müdrik fəlsəfi siyasəti nəticəsində Azərbaycan Vətən müharibəsində tarixi qələbəyə, öz doğma torpaqlarının erməni işğalından azad edilməsinə nail oldu, tarixi və siyasi ədalət bərpa edildi. Zəfər günü bütün həyatını vətənə xidmət kimi tarixi missiyaya həsr etmiş dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin yerinə yetirilmiş vəsiyyətidir. Bu gün dünya birliyində layiqli yerini tutan, demokratik, hüquqi, dünyəvi dövlət, sivil cəmiyyət yolu ilə addımlayan müasir, müstəqil, güclü Azərbaycan Heydər Əliyevin siyasi fəlsəfəsindən güc alır.

Ədəbiyyat

1. Əlizadə A.A. Antik fəlsəfə tarixi. Bakı-2016, 288 s.
2. Əsədov A. Siyasətin fəlsəfəsi. Bakı: Təknur, 2013, 464 s.
3. Rüstəmov Y. Fəlsəfənin əsasları. Bakı: Nurlar, 2007, 504 s.
4. Дугин А.Г. Философия политики. М.: Арктогея, 2004, 616 с.
5. Гусейнова И. Гейдар Алиев - от политического руководителя к общенациональному лидеру. Баку: Тахсил, 2005, 504 с.
6. Штраус Л. Введение в политическую философию. М.: Логос. 2(К)0. с.11.

РЕЗЮМЕ

ПОЛИТИЧЕСКАЯ ФИЛОСОФИЯ ГЕЙДАРА АЛИЕВА

Джабраилова Ф.С.

***Ключевые слова**: Гейдар Алиев, политическая философия, политика, философия государственности*

В статье представлены общие сведения о сущности политической философии. Представлены беспримерные заслуги Гейдара Алиева как политического философа в истории государственности. Конкретно трактуются феноменальные личностные качества великого лидера, прогрессивные идеи, его мудрая и философская политика.

SUMMARY

POLITICAL PHILOSOPHY OF HEYDAR ALIYEV

Jabrayilova F.S.

***Key words**: Heydar Aliyev, political philosophy, politics, philosophy of statehood*

The article presents general information about the essence of political philosophy. The unprecedented merits of Heydar Aliyev as a political philosopher in the history of statehood are presented. The phenomenal personal qualities of a great leader, progressive ideas, wise and philosophical politics are specifically interpreted.

MİLLİ DÖVLƏTÇİLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ DEMOKRATİK DƏYƏRLƏRİN ROLU (2003-CÜ İLDƏN SONRAKI DÖVR)

Cəfərov Pərviz Tahir oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
parvizjafarov5@gmail.com

Açar sözlər: *siyasi lider, milli həmrəylik, demokratiya, inteqrasiya, liberal dəyərlər, islahatlar*

Azərbaycan Respublikası sürətlə inkişaf edərək nəinki regionda, dünya miqyasında öz sözünü deyən, haqq mövqeyini müdafiə edən, demokratik dəyərlərə daim sadiqliyi ilə seçilən dövlətlərdən biridir. Təbii ki, bütün bu uğurlar Azərbaycan xalqının öz taleyini etibar etdiyi siyasi liderə güvənindən, siyasi lider və xalq birliyindən, ölkənin siyasi, iqtisadi, sosial və təhlükəsizlik sahələrində Prezident İlham Əliyev tərəfindən demokratik prinsiplərə uyğun yeni idarəetmə texnologiyalarının tətbiqindən meydana gəlir.

Respublikamızın müstəqilliyi, mübarizliyi, uzunmüddətli fəaliyyət imkanlarına sahib olması müstəqilliyimizin qlobal səviyyəli mühüm siyasi güc mərkəzləri tərəfindən qəbul olunmuş aksioma çevrilməsinə səbəb olmuşdur. Totalitar rejimin buxovlarından bir müddət öncə azad olmuş, keçid mərhələsini kövrək addımlarla keçən müstəqil respublikalarla demokratik inkişaf yönündə böyük uğurlar əldə etmiş Qərb ölkələrini eyniləşdirmək cəhdi heç bir halda qəbul olunan deyil. Demokratik inkişaf yolunu özünə əsas prioritet kimi müəyyənləşdirən, bu prosesin həyata keçirilməsində təkamülə əsaslanan Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra dünya ölkələri tərəfindən qəbul olunmuş demokratik prinsiplərin inkişaf etdirilməsi xətti ilə milli demokratiya modelinin inşa etmişdir. Ölkənin sosial-iqtisadi inkişaf strategiyası milli demokratiya modelinin formalaşması ilə həmahənglik təşkil edərək sabit və sürətli inkişafın yalnız demokratik və mütərəqqi yeniliklərin siyasi arenada geniş tətbiqindən keçdiyini bir daha sübut edir.

Azərbaycan öz dövlətçilik tarixinin müasir mərhələsinə 2003-cü ildə addım atmışdır. Dövlətçiliyimizin növbəti mərhələsinin simvolu Ulu öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyev olmuşdur[5]. Prezident İlham Əliyev öz fəaliyyətində siyasi sabitlik, iqtisadi tərəqqi, sosial rifah və demokratikləşmə prosesinin üzvi vəhdətinə nail olmaqla Azərbaycanın strateji inkişaf yolunu müəyyənləşdirmiş, siyasi hakimiyyəti xalqa layiqli xidmət vasitəsi kimi dəyərləndirmiş, idarəçilikdə demokratik ənənələri geniş tətbiq etmişdir.

Ulu öndərin milli dövlətçilik fəlsəfəsinə əsaslanan və onun siyasi varisi İlham Əliyev tərəfindən həyata keçirilən çoxşaxəli fəaliyyətin əsas istiqaməti ölkəmizdə sabit iqtisadi və siyasi sistemin yaradılmasını təmin etmək, cəmiyyətdə milli həmrəyliyin əldə edilməsinə nail olmaq, sosial vəzifələrin öhdəsindən gəlməklə əhalinin rifah halının yüksəldilməsinə yönəlmişdir[1, s. 115]. Bütün bu sahələrdə əldə edilən uğurlar Azərbaycanın davamlı inkişafına, dünya miqyasında siyasi nüfuzunu yüksəlməsinə səbəb olmuşdur. Milli dövlətçiliyin möhkəmləndirilməsinin yeni mərhələsində idarəçiliyin demokratik formasının tətbiqi sabit iqtisadi inkişaf yolunun əsas zəminini formalaşdırmışdır.

Milli dövlətçiliyin möhkəmləndirilməsinin yeni mərhələsində dünya birliyinə inteqrasiya strategiyası milli ideyanın əsas məhək daşına çevrilmiş, bu yolda milli dövlətçiliyin və identikliyin qorunub saxlanması əsas prioritet olmuşdur[2, s. 59]. Milli və dövlət müstəqilliyinin qorunub saxlanması və dünya birliyinə inteqrasiya siyasəti Azərbaycanın hərtərəfli inkişafının başlıca şərtləridir.

Milli dövlətçiliyin möhkəmləndirilməsi prosesi zamanı özündə ümumbəşəri ideyaları daşıyan həqiqi demokratiyanın mahiyyətinin qorunub saxlanması çox vacibdir. Respublika vətəndaşlarının sosial rifahında baş verən müsbət dəyişikliklər bu sahədə əməli addımların nəticəsi kimi qəbul olunmalıdır. Cəmiyyətin hər bir fərdinin maddi rifah halının yüksəldilməsi, sosial müdafiəsi, şəxsiyyətin azad inkişafı üçün bərabər imkanların yaradılması demokratik dövlətin başlıca vəzifəsidir. Ölkə vətəndaşlarının maddi rifah halının yüksəlməsi demokratik dəyər və normaların cəmiyyətdə möhkəmlənməsi prosesindən keçir. İqtisadi baxımdan inkişaf etməmiş, fərdləri sosial çətinliklər içərisində yaşayan bir cəmiyyət azad sayıla bilməz. Belə bir cəmiyyətdə demokratiya qurmaq mümkün deyildir. Təbii ki, demokratikləşmə prosesi hər bir xalqın mədəni və intellektual cəhətdən bu prosesə hazırlığı ilə balans təşkil etməlidir. Sosial-iqtisadi rifah isə bütün bunları şərtləndirən mühüm amildir[4, s. 305].

Respublikamız milli dövlətçiliyin möhkəmləndirilməsi və xalqın gələcək inkişafı prosesində mütərəqqi demokratik dəyərlərin əhəmiyyətini daim ön plana çəkmiş, demokratik inkişaf yolunun dönməzliyini özü üçün tam dəqiqləşdirmişdir. Milli dövlətçiliyinin möhkəmləndirilməsi prosesində 2003-cü ildən sonrakı dövrdə Azərbaycan cəmiyyətində ictimai konsensusa xidmət edən demokratik islahatlar kursu respublikamızın sürətli iqtisadi inkişaf tempi ilə uyğunluq təşkil etmişdir[3, s. 203].

Dövlətçiliyimizin inkişafının müasir mərhələsində qazanılmış yüksək nailiyyətlər şanlı dövlətçilik tariximizdən qaynaqlanmışdır. Azərbaycan xalqı daim öz tarixi keçmişi ilə, milli dəyərlərə və dövlətçilik ənənələrinə sadiqliyi ilə digər xalqlardan seçilmiş, tarix boyu qurmuş olduğu dövlətlərdə demokratik dəyərlərin qorunmasına çalışmışdır.

Sosial ədalət və humanist prinsiplərə əsaslanan idreetmənin əsasını insanların və vətəndaşların əsas hüquqları və azadlıqlarını təmin edən dövlət modeli təşkil edir. Dövlətimizin dünya dövlətləri arasında yüksək, layiqli siyasi imic qazanmasının əsas səbəblərindən biri də milli maraqlara söykənən dövlət siyasətinin həyata keçirilməsi ilə eyni zamanda demokratik dəyərlərə sadiqlik nümayiş etdirməsidir. Qloballaşan dünyanın mürəkkəb hadisə və prosesləri fonunda Azərbaycanda demokratikləşmə və sosial-iqtisadi tərəqqi proseslərinin vəhdət təşkil etməsi müasir dünyada çox az rast gəlinən hallardan biridir

Ədəbiyyat

1. Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu. Bakı: Elm və təhsil, 2019.- 456 s.
2. Azərbaycan diasporu: tarix və müasirlik. AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu.- Bakı: Turxan NPB, 2016.- 384 s.
3. Azərbaycan Respublikasının tarixi: 2003-2016. II cild: İlham Əliyev dövrü. AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu; - Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016.- 716 s.
4. Prezident İlham Əliyev: dinamik inkişafın 10 ili: / AzərTAc, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Prezident Kitabxanası". II cild.- Bakı: CBS Polygraphic Production, 2017.- 416 s.
5. Rafael Cəbrayılov. Heydər Əliyev və azərbaycançılıq ideologiyası. Azərbaycan qəzeti, 2011, 17 may, s. 6.

İnternet resursları

https://sia.az/az/news/politics/863180.html
https://president.az/az/articles/view/25639

РЕЗЮМЕ
РОЛЬ ДЕМОКРАТИЧЕСКИХ ЦЕННОСТЕЙ В УКРЕПЛЕНИИ НАЦИОНАЛЬНОЙ ГОСУДАРСТВЕННОСТИ (ПЕРИОД ПОСЛЕ 2003 Г.)
Джафаров П.Т.

***Ключевые слова**: политический лидер, национальная солидарность, демократия, интеграция, либеральные ценности, реформы.*

В процессе укрепления национальной государственности очень важно сохранить сущность подлинной демократии, несущей общечеловеческие идеи. После обретения независимости Азербайджанская Республика построила модель национальной демократии по линии развития демократических принципов, принятых странами мира. В 2003 году Азербайджан вступил в современный этап истории своей государственности. На новом этапе укрепления национальной государственности внедрение демократической формы правления легло в основу стабильного экономического пути развития.

SUMMARY
THE ROLE OF DEMOCRATIC VALUES IN STRENGTHENING NATIONAL STATEHOOD (POST-2003)
Jafarov P.T.

***Keywords**: political leader, national solidarity, democracy, integration, liberal values, reforms*

During the process of strengthening national statehood, it is very important to preserve the essence of true democracy, which carries universal ideas. After gaining independence, the Republic of Azerbaijan built a model of national democracy along the lines of developing the democratic principles accepted by the countries of the world. In 2003, Azerbaijan entered the modern stage of its statehood history. In the new stage of strengthening national statehood, the introduction of a democratic form of governance has formed the basis of a stable economic development path.

AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ SİYASƏTİ VƏ DÖVLƏT İDARƏÇİLİK SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ (2003-2018-Cİ İLLƏR)

Dadaşzadə Əhliman İbrahim oğlu, Cəfərov Pərviz Tahir oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
ehlimandadaszade@gmail.com parvizjafarov5@gmail.com

Açar sözlər: *dövlət başçısı, siyasi varislik, sosial-iqtisadi inkişaf, regionlar, insan kapitalı, peşəkar kadrlar*

2003-cü il oktyabrın 31-də Prezident İlham Əliyev ilk dəfə olaraq dövlət başçısı kimi and içdi və Azərbaycan xalqı qarşısında müqəddəs bir missiyanın başlanğıcına start vermiş oldu. Həmin tarixdən başlayaraq ölkədə təkmil bir sosial-iqtisadi inkişafa vüsət verilmiş oldu. Prezident İlham Əliyev özünün də qeyd etdiyi kimi, hər bir azərbaycanlının Prezidenti olmaq məqsədini həyata keçirmək yolunda qarşısına qoyduğu məqsədin reallaşmasına nail oldu. Ulu öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyev qısa zaman kəsiyində qazandığı ümumxalq etimadını, xalqın ona bəslədiyi böyük inamı doğrultdu.

2003-cü il oktyabrın 31-də andiçmə mərasimindəki nitqində Prezident İlham Əliyev Ulu öndər Heydər Əliyevin prezidentliyi dövründə ölkəmizin əldə etdiyi bütün nailiyyətlərdən danışarkən, 1993-2003-cü illərdə həyata keçirilmiş islahatların inqilabi mahiyyətini vurğulamış, bu islahatların həyata keçirilməsində ictimai-siyasi sabitliyin mühüm rolunu qeyd etmiş, ölkəyə cəlb olunmuş investisiyaların ən strateji xətlər üzrə iqtisadi sferanı dirçəltməsini xatırlatmışdır.

Daxili siysətdə dövlət başçısı İlham Əliyevin fəaliyyətinin əsasını insan hüquq və azadlıqlarının geniş şəkildə tətbiqi, seçki təcrübəsinin inkişaf etdirilməsi yönündə mühüm addımların atılması, əfv fərmanları və amnistiya aktlarının imzalanması kimi mühüm addımlar təşkil edirdi[2, s. 151].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilk növbədə imzaladığı bir sıra fərman və sərəncamlarla əhalinin sosial-iqtisadi durumunun diqqət mərkəzində saxlanılmasına nail oldu. Ölkədə minimum əmək haqqı və pensiyaların artırılması dövlət başçısının bu istiqamətdə geniş fəaliyyət proqramına malik olmasının bir daha əyani sübutu idi. Azərbaycanın xalqının maddi rifah halının yaxşılaşmasının və əhalinin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin başlanmasının əsası məhz 2003-cü ildə qoyulmuş, dövlət başçısı bu sahədə mühüm irəliləyişlər əldə etmək üçün titanik əmək sərf etmişdir. Məhz ölkə rəhbərinin yüksək idarəetmə qabiliyyəti sayəsində iqtisadi strategiyanın yeni prioritetləri və inkişaf perspektivləri müəyyən edilərək hərtərəfli şəkildə həyata keçirilməyə başlandı. Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ölkədə qeyri-neft sektorunun sürətlə inkişaf etdirilməsi əsas məqsəd kimi qarşıya qoyuldu. Bu yolda əsas məqsəd neft kapitalının insan kapitalına çevrilməsi ideyasının həyata keçirilməsi idi. Buna görə də əsas infrastruktur obyektlərinin beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulması və bu zaman insan amilinin önə çəkilməsi əsas vəzifə kimi qarşıya qoyuldu.

Sosial-iqtisadi tərəqqinin davamlı inkişaf dinamikasını təmin etmək üçün bir sıra mühüm Dövlət proqramları həyata keçirildi. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının (2004-2008-ci, 2009-2013-cü və 2014-2018-ci illər) təsdiq olunması ilə Azərbaycan Prezidenti İlham Əliyev bu sahədə qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün mühüm hüquqi baza yaratdı [3, s. 79].

Dövlət proqramlarının həyata keçirilməsi regionlarda mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadəni sürətləndirdi. Əhalinin məşğulluğu artırıldı, yoxsulluğun səviyyəsi azaldıldı, yeni iş yerləri, müasir tipli müəssisələr yaradıldı.

Dövlət proqramlarının iqtisadiyyatın bütün sahələrinə təsiri nəticəsində qeyri-neft sektorunun inkişafı sürətləndirildi. Aqrar sektorda islahatların dərinləşdirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirildi. Regionlarda dünya standartlarına cavab verən istehsal və sənaye müəssisələrinin yaradılması ilə ölkəmizin iqtisadi siması tamamilə yeniləndi.

Dövlət orqanlarının işinin müasir tələblərə uyğun yenidənqurulması Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan müvafiq islahatlar paketinə əsas prioritet sahələrdən biri kimi daxil edilmişdir. Respublikada ixtisaslaşmış kadr ordusunun yaradılması dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi sahəsində daim əsas istiqamətlərdən biri olmuşdur.

2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılmış, dövlət qulluğunun daha yaxşı təşkili və idarə olunması, bu sahədə vahid dövlət siyasətinin formalaşdırılması bu komissiyanın əsas iş istiqamətinə çevrilmişdir[1, s. 415].

2007-ci il 31 may tarixində Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü ilə hazırlanan "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanun qəbul edilmlşdir. Qanunla vətəndaşların dövlət orqanlarına və dövlət qulluqçularına etimadının yüksəldilməsi, idarəetmə sistemini daha peşəkar kadrlarla təmin edilməsi, dövlət orqanlarının və dövlət qulluğunun nüfuzunun artırılması məsələləri nizamlanmışdır.

Dövlət başçısının dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi sahəsində həyata keçirdiyi uzaqgörən addımlar sayəsində dövlətlə vətəndaş arasında inam, etimad bərqərar olunmuş, Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və onun siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət qulluğu siyasəti daha da təkmilləşdirilmişdır. Dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi ilə mahiyyətcə yeni - bərabərlik və cavabdehlik, qanunçuluq və hesabatlılıq prinsiplərinə əsaslanan təkmil bir sistem yaradılmışdır. Bütün bunlar bir daha onu göstərir ki, Prezident İlham Əliyevin dövlətçilik təcrübəsində siyasi varislik ənənələrinin davamı ideyası əsas yeri tutur.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının tarixi: 2003-2016. II cild: İlham Əliyev dövrü. AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu; - Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016.- 716 s.
2. Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu. Bakı: Elm və təhsil, 2019.- 456 s.
3. Vəliyev İsaxan. Sabitlik və rifah naminə siyasət. Bakı: Təhsil, 2018.- 672 s.

РЕЗЮМЕ

ВНУТРЕННЯЯ ПОЛИТИКА И СОВЕРШЕНСТВОВАНИЕ СИСТЕМЫ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (2003-2018 ГОДЫ)

Дадашзаде А.И., Джафаров П.Т.

***Ключевые слова**: глава государства, политическая преемственность, социально-экономическое развитие, регионы, человеческий капитал, профессиональные кадры*

Во внутренней политике основой деятельности главы государства Ильхама Алиева было широкое применение прав и свобод человека. В 2003 году была заложена основа для улучшения материального благосостояния народа и начала качественно нового этапа социально-экономического развития Азербайджана. Создание специализированного кадрового корпуса в республике всегда было одним из основных направлений в области совершенствования системы государственного управления. Благодаря предпринятым дальновидным шагам в сфере совершенствования системы государственного управления между государством и гражданами установилось взаимное доверие.

SUMMARY

INTERNAL POLICY AND IMPROVEMENT OF THE PUBLIC ADMINISTRATION SYSTEM OF THE REPUBLIC OF AZERBAIJAN (2003-2018)

Dadashzade A.I., Jafarov P.T.

***Keywords**: head of state, political succession, socio-economic development, regions, human capital, professional personnel*

In domestic politics, the basis of the activity of the head of state, Ilham Aliyev, was the wide application of human rights and freedoms. The basis for the improvement of the material well-being of the people of Azerbaijan and the beginning of a qualitatively new stage in the socio-economic development of the population was laid in 2003. Creation of a specialized personnel corps in the Republic has always been one of the main directions in the field of improving the state management system. Thanks to the far-sighted steps taken in the field of improving the public administration system, trust and confidence have been established between the state and citizens.

HEYDAR ALIYEV - THE ARCHITECT OF AZERBAIJAN'S MODERN STATE MODEL

Akhmedli Turkanbayim Amrakh

Mingachevir State University, Mingachevir, Azerbaijan

turkanbayim.ahmadli@mdu.edu.az

***Keywords**: Heydar Aliyev, national leader, Azerbaijan, science, economy, education, modernisation*

Heydar Aliyev was a remarkable and unique personality in the history of Azerbaijan. He served as the President of Azerbaijan from 1993 to 2003, and during this time, he transformed the country into a modern and thriving nation. H. Aliyev became a national leader of our country, and his inheritance continues to be known by the people of our motherland to this day.

In 1993, Heydar Aliyev was elected as the President of Azerbaijan, and he immediately started to transform the country. Despite many challenges, such as an economic downturn, widespread poverty, and political upheaval, the great leader overcame these obstacles through his decisive supervision, political sense, and precognition for the future of Azerbaijan.

Among his most notable achievements was his effort to revolutionise and rebalance the Azerbaijani economy. He enacted a series of reforms aimed at attracting foreign investment, promoting entrepreneurship, and diversifying the country's sources of revenue. He also worked to develop the country's oil and natural gas reserves, which have since become the backbone of the Azerbaijani economy. These efforts helped to create jobs, stimulate economic growth, and reduce poverty in Azerbaijan.

H. Aliyev was also a strong advocate for human rights and social justice. He worked to transform Azerbaijan into a more inclusive and equitable society and was a vocal opponent of corruption and discrimination. As a result, he established several programs to assist vulnerable and marginalised groups, such as women, children, and refugees [2]. He also worked to improve the living standards of Azerbaijan's people, implementing initiatives to improve health care, education, and infrastructure.

He was a visionary leader who significantly contributed to the development of science and education. During his leadership, Heydar Aliyev executed several projects and policies to modernise and improve the quality of education and research in Azerbaijan.

One of the most substantial contributions of Heydar Aliyev to science and education was the establishment of the Azerbaijan National Academy of Sciences (ANAS) in 1992. The ANAS plays a crucial role in advancing scientific research and development in the country. H. Aliyev provided the Academy with financial support and resources, allowing it to construct new research facilities, attract top scientists and researchers, and fund cutting-edge research projects [1]. This allowed the Academy to become one of the leading institutions for scientific research and development in the region, and it has continued to play a vital role in promoting the advancement of science and education in our country.

In addition, the leader also initiated a major reform of the education system in Azerbaijan. He aimed to bring the country's education system in line with international standards, making it more accessible, inclusive, and relevant to the needs of Azerbaijani citizens. To achieve this, H. Aliyev introduced a number of new programs aimed at improving the quality of education, including establishing new schools and universities, introducing new curricula and teaching methods, and creating scholarships and grants for students [3]. These reforms have helped create a strong foundation for education in Azerbaijan and laid the groundwork for future progress and expansion in the relevant areas.

Another key aspect of H. Aliyev's legacy in science and education was his commitment to supporting young and bright scientists and researchers. He established several programs aimed at encouraging the next generation of scientists and researchers in Azerbaijan, including the establishment of the Azerbaijan Youth Academy of Sciences, which provided young scientists with the opportunity to conduct research, attend conferences, and collaborate with other young scientists from around the world [2]. It has contributed to the establishment of a culture of scientific study and research in Azerbaijan and encouraged young people to pursue careers in these fields, thereby ensuring the country's proper development of scientific and technological capabilities.

Eventually, Heydar Aliyev made a lasting contribution to the growth of science and education in Azerbaijan. His leadership and vision have constructed a solid foundation for scientific research and education in the country. His heritage inspires and guides future generations dedicated to elevating the cause of science and education. Without a doubt, our national leader built a brighter future for our country, and his legacy will continue to be celebrated and remembered for upcoming generations.

References

1. Azerbaijan National Academy of Sciences. (2023). Azerbaijan National Academy of Sciences. Retrieved from https://www.heydaraliyevcenter.az/#2_HeyderEliyev
1. Heydar Aliyev Foundation. (2023). The Heydar Aliyev Foundation. Retrieved from https://heydar-aliyev-foundation.org/en
2. Ministry of Education of the Republic of Azerbaijan. (2023). Azerbaijan's Education System. Retrieved from https://edu.gov.az/en

XÜLASƏ
HEYDƏR ƏLİYEV - AZƏRBAYCAN DÖVLƏT MODELİNİN MEMARI

Əhmədli T.Ə.

***Açar sözlər**: Heydər Əliyev, ümummilli lider, Azərbaycan, elm, iqtisadiyyat, təhsil, modernləşmə*

Heydər Əliyev 1993-2003-cü illərdə respublikanın Prezidenti vəzifəsində çalışmış Azərbaycan tarixinin görkəmli şəxsiyyəti olmuşdur. Onun fəaliyyəti dövründə xalq müasir və firavan şəkildə formalaşmış transformasiyanı yaşamışdır. Əbədi lider özünün müstəsna uzaqgörənliyi və liderliyi ilə iqtisadiyyatın modernləşdirilməsi və xarici sərmayələrin cəlb edilməsi istiqamətində islahatlar aparmış, eyni zamanda Azərbaycanın neft və təbii qaz sənayesinin inkişafına təkan vermişdir. O, səhiyyə, təhsil və infrastruktur təşəbbüsləri vasitəsilə bütün vətəndaşların həyat standartlarını dəstəkləmək və yüksəltmək üçün yorulmadan çalışan bərabərlik və ədalətin qalibi idi. O, gələcək azərbaycanlıları ruhlandıran uzaqgörən lider kimi əbədi olaraq hörmətlə anılacaqdır.

РЕЗЮМЕ
ГЕЙДАР АЛИЕВ - АРХИТЕКТОР ГОСУДАРСТВЕННОЙ МОДЕЛИ АЗЕРБАЙДЖАНА

Ахмедли Т.А.

***Ключевые слова**: Гейдар Алиев, общенациональный лидер, Азербайджан, наука, экономика, образование, модернизация*

Гейдар Алиев занимал пост президента республики в 1993-2003 годах и был выдающейся фигурой в истории Азербайджана. Во время его деятельности нация пережила огромную трансформацию. Обладая исключительной дальновидностью и лидерством, вечный лидер провел реформы в направлении модернизации экономики и привлечения иностранных инвестиций, в то же время придал импульс развитию нефтегазовой отрасли Азербайджана. Он был

поборником равенства и справедливости, и неустанно работал над поддержкой и повышением уровня жизни всех граждан посредством инициатив в области здравоохранения, образования и инфраструктуры. Его навсегда запомнят как дальновидного лидера, вдохновившего всех азербайджанцев.

XX ƏSRİN 90-CI İLLƏRİNDƏ İQTİSADİ DİRÇƏLİŞİN BAŞLANMASI

Əhmədov Rüstəm Vəli oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

Açar sözlər : *iqtisadiyyat, böhran, dirçəliş, pul kredit, ticarət, sahibkarlıq*

Azərbaycanın iqtisadi və mədəni həyatında baş verən böhran XX əsrin 80-ci illərinin ikinci yarısına düşmüşdü. Bunun isə əsas səbəbi Sovet imperiyasının süquta doğru getməsi ilə əlaqədar olaraq siyasi proseslərin mürəkkəbləşməsi o cümlədən respublikalar arası iqtisadi əlaqələrin pozulması idi. Zavod və fabriklərin istehsal gücünün cəmi 25-30%-dən istifadə edilirdi. Xammal və materiallara tələbatın ancaq 40%-i ödənilirdi. Respublikanın əsas gəlir gətirən neft sənayesi zərərlə işləyir, dünya bazarına məhsulunu çıxara bilmirdi. Neft sahələrini müasir tələblər səviyyəsində qurmaq üçün böyük məbləğdə vəsait tələb olunurdu ki, onu da respublika ödəmək iqtidarında deyildi. [1, s. 31]

Kənd təsərrüfatının torpaq sahələri baxımsızlıq üzündən şoranlaşmış əkinə yararsız bir hala düşmüş müəssisələrin maşın-traktor parkları, aqro-meliorasiya texniki qurğuları yenilənmədiyi üçün köhnələrək sıradan çıxmış, kənd təsərrüfatı torpaqlarının suvarılmasında mühüm əhəmiyyəti olan suvarılma kanalları bərbad hala düşmüşdü.

Birinci Qarabağ müharibəsinin nəticələri iqtisadiyyata da ağır zərbə vurmuşdu. Qarabağ və Qarabağdan kənar yüz minlərlə hektar münbit torpaq sahələri otlaq və örüş yerləri, üzümlüklər, bağlar, çoxlu sayda qaramal və davar, 700-dən artıq yaşayış məntəqələri, 60 mindən çox şəxsi təsərrüfat, yüzlərlə istehsal sahələri, kolxoz və sovxozlar işğala məruz qalmış rayonların faydalı qazıntı yataqları erməni- separatçı qüvvələrin əlinə keçmişdi. [1, s. 56]

İqtisadiyyatın nizamı pozulmuş hərc-mərclik baş alıb gedir və işsizlik getdikcə çoxalırdı. Əhalinin 60-70 %-in güzəranı pisləşərək, yoxsulluq həddindən aşağı səviyyədə yaşayırdı.

İqtisadiyyat idarə olunmaz bir hala gətirilmişdir. Bazar münasibətləri üçün vacib olan özəlləşdirmə, çoxukladlı təsərrüfatçılığa keçid çox yavaş gedirdi.

Azərbaycan respublikasını düşdüyü bu ağır siyasi iqtisadi böhrandan çıxaracaq bir liderə ehtiyacı var idi. Belə bir zamanda rəhbərliyinə gələn Heydər Əliyev çevik bir hərəkətlə dövlət intizamını gücləndirib siyasi sabitliyə nail oldu və iqtisadi böhrandan çıxmaq üçün qətiyyətli addımlar ataraq, ciddi tədbirlər görməyə başladı.

1994-cü ilin mayında maliyyə sahəsində nizamı bərpa etmək üçün tədbirlərə başladı. Kredit sahələrindəki boşluqlar aradan götürüldü və bu sahə ciddi nəzarət altına alındı. 1994-cü ilin əvvəllərində milli valyuta- manat dövlətimizin ərazisində ödəniş vasitəsi elan edildi. Beynəlxalq Valyuta Fondu və Ümumdünya Bankı ilə müqavilələr bağlandı. Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankına qoşuldu. Büdcə kəsiri dövlətin nəzarətinə götürüldü və onun artmasına yol verilməməsi üçün tədbirlər görüldü. Nəticədə görülən tədbirlər öz bəhrəsini verdi. 1995-ci ildə infilyasiya aşağı endirildi. 1998-ci ildə manatın məzənnəsi (dollara nisbətən) artdı və infilyasiya aradan qalxdı. [2, s. 64]

Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında 1995-1998-ci illərdə qəbul olunan dövlət proqramının yerinə yetirilməsi istiqamətində işlər görülmüş və nəticədə dövlət müəssisələrinin özəlləşdirilməsi 1997-ci ilin martında başa çatdırılmışdı. 20 minə yaxın kiçik dövlət müəssisəsi özəlləşdirilmişdi. 1997-ci ilin mart-avqust aylarında Azərbaycan vətəndaşlarına verilən özəlləşdirmə payları onların iqtisadi cəhətdən canlanmasına səbəb oldu. Özəlləşmənin ikinci proqramının qəbul olunması ilə onun inkişafında yeni mərhələ başlamışdır. Bu mərhələdə respublika iqtisadiyyatı üçün ciddi əhəmiyyəti olan strateji müəsisələrin özəlləşdirilməsi diqqətdə saxlanılır. Respublika ərazisində bazar münasibətlərinə uyğun iqtisadiyyatın formalaşmasına yeni sahibkarlıq subyektlərinin yaradıb inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilir. Kiçik və orta sahibkarlığa dövlət köməyinə dair 2000-ci ilədək yerinə yetirilməsi nəzərdə tutulan dövlət proqramı qəbul edilmişdir. [3, s. 32]

Görülən tədbirlər nəticəsində ölkədə bazar iqtisadiyyatına əsaslanan özəl bölmələr artıq formalaşmışdır. Qeyd olunurdu ki, XX əsrin 90-cı illərinin sonunda məhsulun 60%-dən çoxu özəl müəssisələrdə istehsal edilirdi. Qeyri-dövlət istehsal müəssisələrində bir milyondan çox adam məşğul idi.

İqtisadiyyatı yenidən ayaq üstə saxlamaq üçün özünü tənzimləmə sisteminə əsaslanan idarəetmə mexanizminin formalaşdırılmasına xüsusi əhəmiyyət verilirdi. Sahibkarların iqtisadi fəallığına mane olan çox sayda yoxlamalar məhdudlaşdırıldı, o cümlədən bu yoxlamaları həyata keçirən bürokratik qanunlar da ləğv olunmağa başladı. 1994-cü il aprelin 5-də xarici ticarətin sərbəstləşdirilməsi haqqında fərman verildi. Xarici ölkələrdə aparılan iqtisadi əlaqələr liberallaşdırıldı və hər hansı gizli bağlaşmalar aradan götürüldü. Dövlət bu sahədə bütün nəzarəti öz ixtiyarına keçirdi. Taxıl məhsulları, sənaye-ticarət, xidmət , "Azərmebelsənaye", "Xalq üçün mallar" və başqa dövlət konsernləri ləğv edildi. [6 , s. 23]

Kənd təsərrüfatı Nazirliyinin nəzdində olan bir çox müəssisələr, o cümlədən pambıqtəmizləmə zavodları da özəlləşdirildi ki, bununla da sahibkarlığın inkişafına şərait formalaşdırılaraq, özünü tənzimlənmə sisteminin yaranmasına münasib şərait yaradıldı. Məsələn çörək mağazaları özəlləşdirildikdən sonra çörək qıtlığı aradan qalxdı. Bütün bu tədbirlərin görülməsi nəticəsində sənaye sahəsində ciddi canlanma və irəliləyişlər baş vermişdir. Respublikada çoxlu sayda yeni sənaye müəssisəsi, sex istehsal sahəsi, müxtəlif profilli qurğular işə salındı. 1995-1996-cı illərdə Penzoyl (ABŞ) şirkətinin köməyi ilə Xəzər dənizindən neft çıxarılması zamanı illərlə havaya sovrulan yanacaq qazını tutub sahilə ötürən kompressor stansiyası qurulub işə salındı və burada hər il orta hesabla 2 milyard 300 milyon m³ qaz hasil olunub istifadəyə verildi. [4, s. 78] Yeni texniki qurğuların olmaması üzündən hasilatın dayandırmış 600-dan çox neft, qaz quyuları yenidən istismara qaytarıldı. Şirvanın köhnə Murovdağ yatağından yeni məhsuldar neft qatları aşkar edildi. 1997- ci ilin yazında qeyd olunan yataqda qazılan iki quyudan neft fontan vurdu. Yeni üsullu qazma qurğularının köməyi ilə "Bahar" dəniz neft yatağında da qazma işləri aparıldı və nəticəsi müsbət oldu, quyu fontan vurdu. Qaz emal zavodu müasir texnika ilə təmin olunaraq yenidən quruldu. 1994-1995-ci illərdə neftayırma zavodlarında iki yeni ALOW-2 qurğusu işə salındı. Bundan əlavə ALOW-6 qurğusu da müasir texniki avadanlıqlarla təchiz olunaraq, istehsal gücü daha da artırıldı. [5, s. 92]

Göstərilən diqqətin nəticəsi olaraq maşınqayırma sənayesi müəssisələri respublika sənayesi və kənd təsərrüfatı avadanlıq, texnika, ehtiyat hissələri istehsal etməyə başladılar.

1997-ci ilin əvvəlində Sumqayıtda "Azərboru" istehsalat Birliyinin müəssisələrində hər biri on tonluq 5 yeni elektrik sobası quraşdırıldı. Təkcə Azərbaycanda deyil, hətta Avropada da ən böyük sayılan 150 tonluq Marten sobası yenidən qurularaq işlək vəziyyətə gətirildi. İstehsalını dayandırmış Sumqayıt Alüminium zavodu xarici mütəxəssislərin cəlb edilməsi nəticəsində yenidən işləməyə başladı. Daşkəsən alunit mədənlərində aparılan təmir işləri nəticəsində, istehsal tədricən bərpa olunmağa başladı. 2000-ci ildə Şəmkir -Yenikənd güclü su elektrik stansiyası qurularaq istifadəyə verildi. Kimya sənayesinə diqqət artırıldı. Görülən tədbirlər öz bəhrəsini verdi. Kimya sənayesi müəssisələrində polietilen, kaustik soda, sulfat turşusu, alüminium sulfat və s. istehsalı çoxaldı. Sənayedə ümumi məhsul istehsalı xeyli artdı. Əgər 1997-ci ildə sənaye məhsulunun artım həcmi 0,3% idisə, 1999-cu ildə 3,6% olmuşdur. Sənaye sahələrinin dirçəldilməsi və yenidən qurularaq işlək vəziyyətə gətirilməsi nəticəsində minlərlə Azərbaycan vətəndaşları işlə təmin olunur, işsizlik tədricən aradan qalxırdı. [6 , s. 21]

İqtisadiyyatın struktur dəyişmələrinin mühüm istiqamətlərindən biri də aqrar istehsalın həyata keçilməsi oldu.

Ümumilli lider Heydər Əliyevin kənd təsərrüfatı sahəsində apardığı düzgün siyasət nəticəsində ölkədə aqrar islahatlar müvəffəqiyyətlə həyata keçirilməyə başladı.

1995-ci ilin martında "Dövlət aqrar islahatı" komissiyası yaradıldı. Prezident Heydər Əliyevin rəhbərliyi altında hazırlanan onun siyasi iradəsinin məhsulu olan "Torpaq islahatı haqqında" Qanun 1996-cı il iyulun 16-da qəbul olundu. [3, s. 45]

Qanundan irəli gələn şərtlərə görə torpaq pulsuz olaraq kənddə yaşayan vətəndaşların xüsusi mülkiyyətinə verildi. Respublikanın vahid torpaq fondu əsasında üç dövlət bələdiyyə və xüsusi torpaq mülkiyyəti forması müəyyən olundu. Kənd təsərrüfatı torpaqlarının 22% -i 1 milyon 911 min hektar xüsusi , 45%-i dövlət, 33%-i bələdiyyə mülkiyyətinə verildi. "Dövlət torpaqları haqqında" , "Torpaq vergisi haqqında" qanunlar, bunlara uyğun normativ aktlar qəbul olundu. Bölgələrdə bölünmüş torpaqlar onu istifadə edənlərin adlarına invertorlaşdırıldı, iqtisadi cəhətdən qiymətləndirildi. Torpaqların əkilib-becərilməsinə vəsait tələb olunduğuna görə 1996-ci ilin iyulunda kənd təsərrüfatında 23 min kəndli (fermer) təsərrüfatı, yüzlərlə istehsal kooperativi, kiçik müəssisələr fəaliyyət göstərirdi. Respublika üzrə qaramalın 92,3% -i , davarın 91%-i özəl təsərrüfatların üzərinə düşürdü. [7, s. 22]

Meliorasiya sahəsindəki qüsurları aradan qaldırmaq üçün çoxlu vəsait tələb olunurdu. Məhz bu məqsədlə 1996-cı ilin oktyabrında "Sudan pullu istifadə haqqında əsasnamə" qəbul olundu. Az vaxtda bu sahədə işlər qaydasına düşdü. Yüzlərlə əkin sahələri xam surətdə su ilə təmin olundu. Aqrar sahədə artıq gözə çarpan irəliləyişlər özünü göstərməyə başladı. 1998-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalının illik artımı 4% təşkil etmişdir. 1999- cu ildə 7,1% olmuş, əhalinin həyat səviyyəsi xeyli yüksəltmişdi. [7, s. 30]

Dövlət xarici ticarətə də diqqət yetirirdi. 100-dən çox ölkə ilə ticarət əlaqələr saxlayırdı. 2000-ci ildən xarici ticarətdə idxal ixracı üstələməyə başlamışdı. Respublika rəhbərliyi inkişaf etmiş ölkələrdən Azərbaycana müasir texniki avadanlıqlar qurğular, taxıl və digər ərzaq məhsulları gətirilsin. Prezident əhalinin sosial güzəranının yaxşılaşdırılmasını daimi diqqətində saxlayırdı.

Xüsusilə qaçqın və məcburi köçkünlərin sosial – müdafiəsini təmin etmək üçün xüsusi proqram qəbul olunmuşdu və bu istiqamətdə işlər görülürdü. Beləki onların sahibkarlıq işləri ilə məşğul olmaları üçün imtiyazlar müəyyən olunur, işlə təmin olmaları üçün şərait yaradılırdı. Xüsusi qəsəbələrin salınması da dövlətin qəbul etdiyi proqramda öz əksini tapmışdı.

1994-cü ilin iyulun 24-də "Əhalinin sosial müdafiəsi haqqında" Qanun qəbul edildi. Əhalinin orta aylıq əmək haqqı 1995-ci ildə 62,5 min manatdan , 1998-ci ildə 170 min manata yüksəlmişdi. Son illərdə büdcədən maliyyələşdirilən təşkilatlarda işçilərin əmək haqları bir neçə dəfə artırılmış, aztəminatlı ailələrin sosial müdafiəsi gücləndirilmişdi. 1999-cu ilin avqustunda dövlət büdcəsindən maliyyələşdirilən bir sıra müəssisə və təşkilatlarda işləyən fəhlə və qulluqçuların aylıq maaşları 1,8 dəfə, 2000-ci il yanvarın 1-dən müəllimlərin, aprelin 1-dən elm, səhiyyə, mədəniyyət və sosial təminat sahələrində işləyən əməkdaşların əmək haqları 25% çoxaldılmışdı. [1, s. 22]

Qeyd etmək lazımdır ki, bütün bu yenidən qurmalar Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi zamandan baş vermişdi. Onun müdrik siyasəti xalqı bu ağır iqtisadi, siyasi böhrandan çıxardı.

Ədəbiyyat

1. Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Baku: "Letterpress", 2013, 452 s.
2. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1998-2001) Bakı: Letterpress, 2012, 912 s.
3. Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində (1991-1997-ci illər), Bakı 1998, 138 s.
4. Nəsirov E. Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999-cu illər) Bakı: Respublika Xatirə Kitab evi , 1999, 104 s.
5. Xəlilov S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi II. Heydər Əliyev və Azərbaycan. Bakı: Azərbaycan Universiteti, 2001,358 s.
6. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı: Bakı Universiteti, 2005, 545 s.
7. Qəndilov S. Müstəqillik illərinin düşüncələri. Bakı: Naksiana, 2006, 501 s.

РЕЗЮМЕ
НАЧАЛО ЭКОНОМИЧЕСКОГО ВОЗРОЖДЕНИЯ В 90-Е ГГ. XX ВЕКА
Ахмедов Р.В.

Ключевые слова: *экономика, кризис, подъем, денежный кредит, торговля, предпринимательство.*

Распад ССР, в том числе карабахская война, вызвали экономический и политический кризис в Азербайджане. После того, как по требованию народа Гейдар Алиев пришёл к руководству республикой, в стране установилась стабильность. Для выхода из экономического кризиса были приняты специальные государственные программы и законы. Уже в конце 1990-х годов улучшилось экономическое и социальное положение людей.

SUMMARY
THE BEGINNING OF ECONOMIC REVIVAL IN THE 90S OF THE 20TH CENTURY
Akhmadov R.V.

Keywords: *economy, crisis, recovery, money credit, trade, entrepreneurship*

The collapse of the SSR, including the Karabakh war, created an economic and political crisis in Azerbaijan. After Heydar Aliyev was brought to the leadership of the republic at the request of the people, stability was established in the country. Special state programs and laws were adopted to get out of the economic crisis. Already in the late 1990s, the economic and social situation of the people had improved.

MÜSTƏQİLLİK QAZANDIQDAN SONRA AZƏRBAYCANDA TURİZM SAHƏSİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

Əhmədova Nərmin Mirzalı qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
nermin.ahmedova@bk.ru

Açar sözlər*: turizm sənayesi, təbii şərait, iqlim ehtiyatları, infrastruktur*

Respublikamız turizm sənayesinin inkişafı üçün çox zəngin ehtiyatlara malikdir. Ölkənin relyefi çox mürəkkəbdir. Ərazinin 60%-i dağlıq relyefdən - Böyük və Kiçik Qafqaz, Talış dağları, 40%-i isə düzənliklərdən ibarətdir ki, onun da çox hissəsini Kür-Araz ovalığı tutur. Azərbaycan ərazisi mülayim və subtropik iqlim qurşaqlarının sərhəddində yerləşir. Ölkə ərazisinin 50%-i yarımsəhra quru-çöl, 30%-i mülayim isti, 20%-i isə soyuq iqlim tipində yerləşir. Əlverişli iqlim və relyef şəraiti turizm sənayesinin yüksək inkişafı üçün perspektiv imkanlar yaradır. [2]

Azərbaycanda turizm sahəsinin inkişafı ta qədimlərə dayanır. Orta əsrlər dövründən Azərbaycan ərazisi hər zaman səyyahların diqqət mərkəzində olmuşdur. Lakin ölkəmizdə turizm sənayesinin sürətli inkişafı son 20 ilə təsadüf edir. 1990-cı illərin ortalaranından sonra Resublikamızda ictimai-siyasi vəziyyətin sabitləşməsi bu sahənin inkişafına imkan yaratmışdır.

Azərbaycan Respublikasında da qeyri-neft sektorunun inkişaf etdirilməsi məqsədilə dövlət turizm sənayesinin inkişafına xüsusi diqqət ayırır. Planlaşdırılmış dövlət tədbirlərinin həyata keçirilməsi gələcəkdə bu sahədən gələn gəlirin kifayət qədər yüksəlməsinə səbəb olacaqdır. Turizmin inkişaf etdirilməsi üçün regionlarda mövcud infrastrukturların yenilənməsi, tələblərə uyğun olaraq müasir formalı turizm infrastrukturlarının yaradılması, bu sahələrə investisyaların cəlb edilməsi və dövlət siyasətinin təkminləşdirilməsi əsas məsələlərdən sayılır.

Ölkəmizdə turizm sahəsinin inkişafına 1990-cı illərin ortalarından ictimai-siyasi vəziyyətin sabitləşməsi ilə imkan yaranmışdır. Azərbaycan Respublikasının Prezidentinin 1994-cü il 26 iyul tarixli fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman nazirliyi yaradılmışdır. 2001-ci ildə isə ölkə təbiətinin potensial imkanlarını səmərəli istifadə etməklə bu sahədən gələn gəliri yüksəltmək məqsədilə ölkə prezidenti mühim addımlar atdı. Prezident H.Əliyev "Azərbaycan Resublikası Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması haqqında" fərman imzalamışdır. Bunun ardınca da Azərbaycan Respublikası Ümumdünya Turizm Təşkilatına üzv oldu. [3]

Ölkəmizdə turizmin inkişafını təmin etmək məqsədi ilə 2002-2005-ci illərdə "Turizmin inkişafına dair Dövlət proqramı" təsdiq edilmişdir . Elə 2002-ci ildə beynəlxalq standartlara cavab verən 7 əsas turist marşrutları müəyyənləşdirilmişdir. [1] Onlar aşağıdakılardır:

- Bakı-Xaşmaz
- Bakı-Astara
- Bakı-Balakən
- Bakı-Qazax
- Bakı-Abşeron yarmadası-Qobustan
- Bakı-Naxçıvan
- Bakı-Şuşa

Müstəqilliyin ilk illərində turizmin inkişaf istiqaməti iqtisadi obyektlərə yönəldilmişdirsə, sonrakı mərhələdə bu daha çox sosial yönümlü olmuşdur. Belə ki, 2011-ci il ölkəmizdə "Turizm ili" kimi qeyd olunmuş və bununla bağlı çoxlu sayda tədbirlər həyata keçirilmiş, yeni otellər istifadəyə verilmişdir.

Respublikada təşkil olunan bir çox beynəlxalq yarışlar da Azərbaycanın dünya səviyyəsində tanınmasına və nəticə etibarı ilə ilbəil ölkəyə turizt axınının artmasına səbəb olmuşdur. Belə yarışlardan 2012-ci ildə Avroviziya mahnı müsabiqəsi, 2015-ci ildə Bakı-2015 Avropa Oyunları, 2017-ci ildə İslam Həmrəyliyi Oyunları və Formula 1 qeyd etmək olar.

Resublikamızın turizm potensialı yüksək olan regionlarında buna uyğun infrasturkturun qurulması bu sahədən gələn gəlirin ilbəil artması ilə nəticələnir. Buna misal olaraq Şahdağ Milli Parkını göstərə bilərik. 2006-cı ildə yaradılan bu park ətrafında qurulan otellər şəbəkəsi bura yay və qış mövsümündə həm ölkə daxilindən, həm də xaricdən gələn turistlərə yüksək səviyyədə xidmət göstərir. Naftalan şəhərində müalicəvi neftin olması burada yüksək səviyyəli turizm kompleksinin yaradılması ilə nəticələnmişdir ki, bu da şəhərin hər il artan templə daha çox turist qəbulu ilə nəticələnmişdir.

Azərbaycanın Qarabağ bölgəsinin füsünkar təbiəti, müalicəvi mineral suları, tarixi abidələri bu regionun da ölkənin turizm sənayesinə verə biləcək gəlirin yüksək olduğunu göstərir. İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş rayonların turizm potensialını qiymətləndirmək məqsədilə bir çox layihələrə imza atılması nəzərdə tutulmuşdur. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonunda yamac paraşütü, dağ çaylarında qayıqçılıq, dağ-xizək turizmi yüksək səviyyədə inkişaf etdirilə bilər. Hələ sovet dönəmində fəaliyyət göstərən İstisu müalicəvi kurortunun , həmçinin bununla yanaşı Şuşada Turşsu, Şırlan mineral bulaqları ətrafında yenidən turizm komplekslərinin yaradılması bu sahədən ölkə büdcəsinə gələn gəlirin artması ilə nəticələnəcək.

Ədəbiyyat

1. Vəliyeva M., İbrahimova M. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı. Bakı: Azərbaycan, 2009.
2. Müseyibov M.A. Azərbaycanın fiziki coğrafiyası. Bakı, 1995.
3. https://tourism.gov.az

РЕЗЮМЕ

ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ТУРИЗМА В АЗЕРБАЙДЖАНЕ ПОСЛЕ ПРИОБРЕТЕНИЯ НЕЗАВИСИМОСТИ

Ахмедова Н.М.

Ключевые слова: *индустрия туризма, природные условия, климатические ресурсы, инфраструктура*

Каждый год миллионы людей отправляются в поездки с целью путешествовать. В настоящее время в странах с благоприятными климатическими условиями большая часть доходов, поступающих в государственный бюджет, приходит из туризма. Развитие туризма в стране приводит не только к увеличению доходов от этой сферы, но и к развитию нетуристических направлений, не связанных непосредственно с туризмом. Таким образом, развитие данной сферы оказывает влияние на развитие пищевой, транспортной, строительной индустрии, сферы услуг и текстильной промышленности, которые считаются основными отраслями экономики страны.

SUMMARY

PROSPECTS OF TOURISM DEVELOPMENT IN AZERBAIJAN AFTER INDEPENDENCE

Ahmadova N.M.

Key words: *tourism industry, natural conditions, climatic resources, infrastructure*

Every year, millions of people go on trips to travel. Currently, in countries with favorable climatic conditions, most of the income received by the state budget comes from tourism. The development of tourism in the country leads not only to an increase in income from this area, but also to the development of non-tourist destinations that are not directly related to tourism. Thus, the development of this sphere has an impact on the development of the food, transport, construction, service and textile industries, which are considered the main sectors of the country's economy.

HEYDƏR ƏLİYEV VƏ SOSİAL-İQTİSADİ İNKİŞAF

Əhmədova Şəhla Müzəffər qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

muzefferomer71@gmail.com

Açar sözlər: *sosial-iqtisadi, sovet quruluşu, Azərbaycan Respublikası, kombinat, zavod, sosial inkişaf, ümummilli*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Heydər oğlu Əliyevin 2023-cü ili ölkəmizdə "Heydər Əliyev ili" kimi qeyd etməsi prezidentimizin gözəl ənənələrinin davamıdır.Belə ki,yola saldığımız 2022-ci il isə cənab Prezident tərəfindən "Şuşa "ili kimi qeyd edilmişdi.Bu ənənənin gözəlliyi ondan ibarıtdir ki,hər hansı bir adla elan edilmiş ildə həmin adın ucalığı, möhtəşəmliyi, xalqımızın tarixində oynadığı rolu bir il müddətində keçirilən elmi konfranslarda,debatlarda və kütləvi informasiya vasitələrində,o cümlədən bir sıra televiziya görüşlərində yada salınır,xatırlanır və xatirəsi əziz tutulur. Bu baxımdan haqqında yazacağım şəxsiyyət daima bizim xalqın tarixində qalacaq bir şəxsiyyət Heydər Əlirza oğlu Əliyevdir.

Tarixdə şəxsiyyətlərin rolu böyükdür.Xalqın içərisindən çıxmış hər hansı şərəfli bir şəxsiyyət bir anda öz xalqının tarixi taleyini dəyişə bilər.Azərbaycan xalqının tarix boyu belə şəxsiyyətləri olub və var.

Zəngin dövlətçilik tarixinə malik xalqımız bu şəxsiyyətlərin gücü,qüdrəti sayəsində öz tarixinin şərəfli səhifələrini yaza bilmişdir.

1920-ci il 28 mayda Azərbaycanda AXC nin süqutu və Sovet quruluşunun yaradılması ilə ikinci respublikanın əsası qoyulur.

Azərbaycan Sovet Sosialist Respublikasının rəhbər vəzifəsinə milli kadrların gətirilməsinə qısqanclıq edilir, digər millətlərin nümayəndələrinə daha çox etibar edilirdi. Hakimiyyətə gətirilən kadr əgər azərbaycan türkü olardısa onun demək olar ki,səlahiyyətləri başqaları tərəfindən idarə edilirdi. Yalnız 1950 ci illərdən başlayaraq Respublikanın birinci katibləri olmuş İmam Mustafayev (1954-1959) və Vəli Axundov (1959-1969) qismən də olsa milli mövqedən çıxış edib öz sözlərini deyə bilmiş,az çox xalqın mənafeyinə xidmət edə bilmişlər.

1969-cu il 14 iyulda isə Azərbaycan xalqının tarixində böyük bir dövrün,dönüş mərhələsinin başlanğıcı oldu.Respublikanın həyatının bütün sahələrində canlanma başlandı.

Heydar Əliyevin ictimai-siyasi fəaliyyətini şərti olaraq 5 dövrə bölə bilərik.

1.1939-1969. Dövlət Təhlükəsizlik orqanlarındakı fəaliyyəti dövrü.
2.1969-1982. Sovet Azərbaycanına rəhbərliyi dövrü,
3.1982-1987. Kremlidə işlədiyi dövr.
4.1987-1990. Siyasi təzyiqlərə məruz qaldığı dövrü.
5.1990-1993. Naxçıvan MR ın rəhbəri olduğu dövr.
6.1993-2003. Azərbaycan Respublikasının rəhbəri olduğu dövr.[3.s,7]

1969-cu ildə hakimiyyətə gələn kimi avqustun 5-də baş tutmuş Azərbaycan KP MK nin plenumunda çıxış edərək respublikanın fundamental strateji istiqamətlərinin müəyyənləşdirilməsi haqqında geniş və ətraflı çıxış etdi. Hansı ki,bu çıxış Kremli rəhbərliyini təşvişə salmışdı.

Belə ki, Heydər Əliyev oz çıxışında o dövr üçün çox cəsarətli iqtisadi-sosial ideyalar irəli sürmüş və dəqiq fəaliyyət planı ortaya qoymuşdur.

Bu da iqtisadi vəziyyətin təhlili üçün geniş imkanlar açırdı.Yuxarıda da qeyd etdiyimiz kimi Moskvanın göstərişi əsasında milli kadrların ölkənin idarə edilməsində rolunun məhdudlaşdırılması,tez tez rəhbərliyin dəyişdirilməsi respublikanın iqtisadi göstəricisinin çox aşağı olmasına gətirib çıxarmışdı.Ölkəmiz iqtisadi inkişaf tempinə görə ittifaq respublikaları arasında çox geri qalırdı.Vətənimizin zəngin sərvətləri özümüzə deyil,başqalarına sərf edilirdi.Belə şəraitdə iqtisadi göstəricilərin artırılması,əhalinin sosial rifahının yüksəldilməsi üçün H.Əliyev daha yeni formada əhatəli quruculuq yoluna qədəm qoydu.

Məlumdur ki, SRRİ də Xalq Təsərrüfatı beşilliklər üzrə planlaşdırılmışdı.1969 ildə H.Əliyev Hakimiyyətə gələndə səkkizinci beşilliyin (1965-1970) sonları idi. Doğrudur respublikada bəzi sənaye müəssisələrinin əsası qoyulsa da işlər ləng gedirdi.Yüksək təşkilatçılıq qabiliyyətinə malik H.Əliyev tələbkarlığı artırdı,Az bir zananda Gəncə alüminum zavodu,Bakı poladtökmə zavodu,Sumqayıt üzvi xlor məhsulları kombinatı və Bakı metropoliteni işə düşdqü. [2.s,7]

H.Əliyevin hakimiyyətə gəlməsindən əvvəl Respublikanın iqtisadi inkişafı o qədər də yaxşı deyildi.Respublika 1969-cu ildən əhatəli quruculuq yoluna qədəm qoydu. Demək olar ki,tez bir zamanda Respublikada adambaşına düşən ümumdaxili məhsul istehsalı 2,5, sənaye istehsalı3,kənd təsərrüfatı məhsulları iki dəfə artırıldı.H.Əliyevin 1969-1982-ci illərdəki hakimiyyəti dövründə ölkədə 25-ə qədər fabrik, zavod, kənd təsərrefatına xidmət edən bəzi obyektlər tikilərək istifadəyə verildi.Eyni zamanda bu müddət ərzində ölkədə iki milyondan artıq əhalinin mənzil təminatı həll edildi.

Ölkənin kənd təsərrüfat sahələrində də istehsal nəzərəçarpacaq səviyyədə artırıldı.Əsas kənd təsərrüfatı sahələri olan pambıq və üzüm istehsalında 5-6 dəfə artım var idi.Təsadüfi deyildir ki,Ulu öndərin respublikaya rəhbərliyi dövründə ölkədə yalnız Rusiya və Azərbaycan mərkəz Moskvadan datasiya almadan yaşayırdı. [1.s,65.]

H.Əliyev nə vaxt hakimiyyətdə olmuşdusa da həmişə elmin,təhsilin inkişafına xüsusi fikir vermişdir. 1969-1982-ci illərdə ölkədə 700-ə qədər məktəb tikilmiş,ali məktəblətin sayı 12-dən 17-yə çatdırılmışdır.

1969-cu ildə Azərbaycandan SRRİ-nin digər respublikalarına və digər xarici ölkələrə oxumaq üçün göndərilən gənclərin sayı 47 nəfər olduğu halda,80-ci illərin əvvəllərində bu rəqəm 700-800 nəfərə çatdırılmışdı.

Hakimiyyətinin bütün dövrlərində H.Əliyev mədəniyyət və incəsənət xadimlərinə,elm adamlarına hörmət və qayğı ilə yanaşmş, klasiklərimizin əsərlərinin nəşr edilməsinə,xatirələrinin əbədiləşdirilməsinə nail olmuşdur. 1969-1982-ci illərdə Bakıda və respublikanın digər şəhər və rayonlarında N.Nərimanovun, İmadəddin Nəsiminin, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Mehdi Hüseynzadənin, Səttar Bəhlulzadənin, Şuşada Xürşudbanu Natəvanın abidələri ucaldılmış,ev muzeyləri,tarix diyarşünaslıq müzeyləri yaradılmışdır.

1969-1982-ci illərdə təkcə Bakının deyil digər rayon mərkəzlərinin və şəhərlərin abadlaşdırılması üçün küçə və parklar salınmış,istirahət obyektləri tikilmişdir.

Ümumiyyətlə, 11971-1975-ci illərdə Respublikanın xalq təsərrüfatı sahələrində inkişaf baş verdi.Bakı kondisionerləri zavodunun 1975 ci ildə istifadəyə verilməsi təkcə respublikada deyil, bütün ittifaqda böyük hadisəyə çevrilmişdir.Şünki,bu zavodun tikintisi heç də asan olmamış, SSRİ Nazirlər Soveti zavodun tikintisini Daşkənd şəhərində nəzərdə tuturdu.Lakin,rəsmi qərar olmadığına görə H.Əliyev zavodun Bakıda tikilməsi üçün icazə ala bilir,Zavodun tikintisinə 25 milyon ayrıldıqdan sonra SSRİ-nin Elektroenergetika naziri zavodun Ukraynanın Zaporojest vilayətində tikiləcəyini elan edir. Yenə də,H.Əliyevin ciddi cəhdi sayəsində zavodun Bakıda tikilməsinə nail olunur. Lakin.ABŞ,Yaponiya və Almaniya dövlətləri ilə danışıqlar aparıldıqdan sonra məlum olur ki,zavodun tikilməsi üçün ayrılmış 25 milyon dollar çox az məbləğdir.Belə qərara gəlinir ki,zavod tikilməsin. Lakin, Heydər Əliyev 1973-cü ildə Leonid İliç Brejnevin qəbulunda olur və bu məbləğ 120 milyon dollara qədər artırırlar. Eyni zamanda Brejnevə söz verir ki, zavod 1975-ci ildə istifadəyə veriləcəkdir. Zavodun tikintisinə ümumi rəhbərliyi həmin dövrdə Nazirlər Sovetinin sədr müavini işləyən Əliş Ləmbəranskiyə tapşırılır. Yaponiyanın "Toşiba" zavodundan avadınlıqlar alınır, bir neçə mütəxəssis gətirilir və zavodun inşası başlayır. Daha sonra isə

zavodu işlədə bilmək üçün Azərbaycandan Yaponiyaya mütəxəssislər göndərilir ki,təcrübə keçsinlər. Nəhayət, 1975 ci ildə zavod işə başlayır. [4.s34.]

Sovetlər dövründə Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə təkcə 1971-1975-ci illərdə Salyan plastik kütlə emalı zavodu, Sumqayıt kompressorlar zavodu, Sumqayıtda üst tirkotaj fabriki, Xankəndi ayaqqabı fabriki, Bakıda tikiş və ayaqqabı hissələri fabrikləri, Bulka-maya kiombinatı, Gəncədə ət kombinatı və qənnadı fabriki,Lənkəranda və xudatda konserv fabrikləri, tikilib istifadəyə verilmişdir. Ən mühüm hadisə isə Kür çayından Bakı şəhərinə içməli suyun verilməsi oldu. SSRİ neft və mədən avadanlıqlarının 1/3-ni, neftçıxarma texnikasının isə 76 % Azərbaycan neft maşınqayırması zavodu verirdi. [4.s.64.]

1976-1980-ci illər SSRİ-də onuncu beşillik illəri idi.Bu illərdə də Azərbaycanda, kənd təsərrüfatı, sənaye sahələri və xalq təsərrüfatının bir çox sahələri inkişaf edirdi.

Hələ mən uşaq ikən kənddə kolxozçu olan qonşularımız var idi. Onlar hər il, tonlarla pambıq yığdıqlarını vəbunun müqabilində həm aylıq məvacib, həm də mükafat olaraq ildə bir dəfə keçirilən Məhsul bayramında pul və digər qiymətli hədiyyələr aldıqlarını söyləyirdilər.

Yəni istər kənd təsərüffatında, istərsə də xalq təsərrüfatında olsun, inkişafın əsas meyarı əhalinin güzaranının get gedə yüksəldilməsi olurdu. Sənaye sahələrinin,məktəblərin,xəstəxanaların tikilib istifadəyə verilməsi nə qədər insanın işlə təmin olunması demək idi.

Bu illərdə Əli Bayramlıda məişət cihazları zavodu, Bakı neftayırma zavodu, Ələtdə ağac emalı zavodu, Naxçıvanda Şüşə qablar zavodu, Bakı və Mingəçevirdə iripanelli ev tikmə zavodları, Naxçıvan, Gəncə və Tovuzda mətbəələr, Bakıda ayaqqabı fabriki, Şampan zavodu, Gəncədə əlvan metallar emalı zavodu, Xırdalanda ət-süd kombinatı, Gəncədə "İstisu" meneral su zavodu, Şəki və Göyçayda çörək zavodları, Astara və Lənkəranda çay fabrikləri, Sumqayıtda xovlu iplik fabriki, Yevlaxda yunun ilkin emalı fabrikləri tikilib istifadəyə verilmişdir ki, bu da əhalinin məşğulluğunun artırılmasına, güzəranının yaxşılaşdırılmasına xidmət edirdi. Hər bir əməkçi insan, fərq etməzdi koloxozçu, fəhlə və ya qulluqçu olsun Azad Həmkarlar İttifaqının xətti ilə özünün məzuniyyət istirahətini istər ümumittifaqın hansısa şəhərində, istərsə də hər hansısa bir xarici ölkədə edə bilərdi.

Ümummilli Lider Heydər Əliyev Respublikaya rəhbərliyi dövründə Qarabağ və Şuşa şəhərinin sosial iqtisadi inkişfına xüsusi önəm verirdi.

1976-ci ildə Şuşanın sosial-iqtisadi inkişafı haqqında qərar qəbul edilmiş, Şuşa şəhəri ümumittifaq əhəmiyyətli kurort şəhərinə çevrilmişdir. 1982-ci il yanvarın 14 də Şuşada poetik şeirlər müəllifi, klassik Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsinin açılışı oldu. [5.s,47.]

1987-ci ilin aprel plenumunda SSRİ Ali Sovetinin sədri M.S.Qorbaçov SSRİ də Yenidənqurma islahatları elan etdikdən sonra ittifaq respublikalarında ardı arsı kəsilməyən mitinq və nümayişlər baş alıb gedirdi. Respublikalar müstəqilliyə can atırdılar.Azərbaycan xalqı da öz müqəddəratını təyin etmə anlarını yaşayırdı. 1991-ci ildə Azərbaycan Respublikasının Mili Məclisi Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi.Bundan sonra idarəçilikdə tez tez boşluqlar yaranırdı. Lakin xalq öz doğru seçimini etd və 1993-cü ildə Heydər Əliyev yenidən Azərbaycan Respublikasının prezidenti oldu.

Məlum hadisələrlə əlaqədar demək olar ki,Respublikanın infrastrukturu dağıdılmış,sənaye və təsərrüfat sahələri tənəzzül etmişdi.İttifaq respublikaları ilə köhnədən qurulmuş əlaqələr yox olmuş,yeni əlaqələr isə qurulmamışdı.Ulu öndər 1993-cü ildə hakimiyyətə gələn kimi ölkənin sosial-iqtisadi inkişafı haqqında düşünürdü.Onun başlıca amalı ölkə iqtisadiyyatının dirçəldirilməsi,onun dünya standartlarına uyğun qurulması,dayanıqlı sosial-iqtisadi inkişafın yaradəlması idi. Onun fikrincə,bazar münasibətlərinə əsaslanan iqtisadi sistemə keçid zamanı,sosial məsələlərin həlli üçün dövlət büdcəsinə xeyli vəsait ayrılmalıdır. [6.s,58]

Xəzər dənizində olan neftin istehsalı və xaricə ixracı ilə bağlı müxtəlif versiya və təkliflər olmasına baxmayaraq, Heydər Əliyev xarici şirkətlərlə birgə Xəzərin Azərbaycan hissəsindəki neftin mənimsənilməsi və dünya ölkələrinə ixracı üçün müqavilələr bağlamağa üstünlük vermişdir.O,investisiya layihələrinin işlənib hazırlanmasına şəxsən nəzarət edirdi.Nəhayət, 1994 cü il 20 sentyabrda Bakıda "Gülüstan" sarayında "Əsrin müqaviləsi" adını almış neft kontraktları imzalandı. Müqavilə Azərbaycan, ABŞ ,Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı olmaqla dünyanın 8 ölkəsi və 13 ən məşhur neft şirkəti arasında 33 il müddətinə bağlanmışdır.Müqavilənin imzalanmasından sonra Xəzərdə qazma işləri davam etdirilmuişdir.

1999-cu ilin aprelində Bakı-Supsa boru kəməri işə düşdü, 2002 ci ilin sentyabrında Bakı-Tibilisi-Ceyhan boru kəmərinin təməli qoyuldu. Daha sonra neftdən gələn gəlirlə ölkə iqtisadiyyatının bir sıra sahələrinin inkişafına nail olindu ki,bu da Heydər Əliyev uzaqgörənliyi idi.

Bir ölkənin istər sosial,istər siyasi,istərsə də iqtisadi inkişafı üçün orada qanunların işləməsi vacib şərtlərdən biridir.Yeni iqtisadi sistemin formalaşması üçün də qanunların var olması vacibdir.Bütün

qanunların mənbəyi isə həmin ölkənin Konstitusiyasıdır. Ulu Öndərin iştirakı ilə Azərbaycan Respublikasının Konstitusiyası dəfələrlə müzakirədən keçdi və 1995 ci il 12 noyabrda qəbul edildi.

Nəticə olaraq onu deyə bilərik ki,Heydər Əliyev öz xalqının sosial, siyasi, iqtisadi və maddi inkişafı üçün bir insan ömrünə sığmayacaq qədər xidmət göstərmişdir.

Ədəbiyyat

1. Alışanova M. Heydar Əliyev iqtisadi müstəqilliyimizin banisidir. 2006.-214 s.
2. Hacıyev E. Ulu öndər Heydər Əliyevin 14 iyulda Hakimiyyətə gəlişi. "Səs" qəzeti.14iyul. 2010. s.7.
3. Qasımlı İ. Heydar Əliyevi bioqrafiyası. Bakı,1998.152 s.
4. Qasımlı M . Heydar Əliyev- istiqlala gedən yol: 1969-1987-ci illər. Bakı, 2006. 600 s.
5. Məmmədov M. III Respublika : milli inkişaf modeli və strategiyası. Bakı, 2008. 200 s.
6. Sərdarov Z. Heydar Əliyev və milli mübarizə tariximiz. Bakı: 2008. 166 s.

РЕЗЮМЕ
ГЕЙДАР АЛИЕВ И СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ
Ахмедова Ш.М.

***Ключевые слова**: социально-экономический, советский строй, Азербайджанская Республика, комбинат, фабрика, социальное развитие, общенациональный.*

В статье рассказывается о стратегии социально-экономического развития бывшего президента Гейдара Алиева, известного в мире общественно-политического деятеля, оставившего неизгладимый след в жизни Азербайджана своей стратегией развития. Мы говорим об организациях и предприятиях, которые были построены и служили народу в период правления Г. Алиева, руководившего республикой в 1969-1982 и 1993-2003 годах, добившегося экономического развития в стране. Гейдар Алиев был не только хорошим политиком, но и большим знатоком экономического и социального развития. В годы его правления особое внимание и забота уделялось развитию науки, искусства и литературы в стране. Он всегда думал о социально-экономической безопасности народа и стоял на страже научного и культурного развития своей страны и народа.

SUMMARY
HEYDAR ALIYEV AND SOCIO-ECONOMIC DEVELOPMENT
Akhmedova Sh.M.

***Key words:** socio-economic, Soviet structure, Republic of Azerbaijan, combine, factory, social development, nationwide.*

The article deals with about the socio-economic development strategy of the late president Heydar Aliyev, a well-known social and political figure in the world, who left an indelible mark on the life of Azerbaijan with his development strategy. We talk about the administrations and enterprises that were built and served the people during the period of H. Aliyev who led the republic in 1969-1982 and 1993-2003, who achieved economic development in the country. Heydar Aliyev was not only a good politician, he was also a great connoisseur of economic and social development. During his rule, special attention and care was paid to the development of science, art, and literature in the country. He always thought about the socio-economic security of the people and stood guard over the scientific and cultural development of his country and people.

GƏNCLƏRİN MİLLİ VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏSİ ULU ÖNDƏRİN AMALI İDİ

Əhmədov Yaşar Paşa oğlu
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan, dosent
mr.yashar61@mail.ru

***Açar sözlər:** gənclər, vətənpərvərlik, dövlətçilik, milli ruh, milli-mənəvi dəyərlər, şəxsiyyət*

Əsası Ümummilli lider tərəfindən qoyulan gənclər siyasəti nəticəsində bu gün ölkəmizdə gənc nəslin yetkin şəxsiyyət kimi formalaşması, cəmiyyət həyatında fəal mövqe tutması aparılan dövlət siyasətində mühüm yer tutur-dövlət səviyyəsində gənclərlə aparılan iş sahəsində həyata keçirilən tədbirlər müasir gəncliyinin inkişafına böyüktəkan verir, onların fəaliyyət göstərdikləri bütün sahələrdə onlara olan etimadı doğrultması, yetkin vətəndaş kimi cəmiyyətdə özlərini təsdiq etmələrində əhəmiyyətli rol oynayır. Ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi gənclər siyasətinin ən mühüm istiqamətlərindən biridir, bu istiqamət daim dövlətin diqqət mərkəzindədir və hal-hazırda ümumtəhsil məktəblərində ən mühüm vəzifələrdən biri kimki qarşıda dayanır. Dövlətin bu sahədə keçirdiyi kütləvi tədbirlər, gənclər arasında aparılan maarifləndirmə və təbliğat işləri bu gün gənc nəslin həm mənəvi, həm fiziki, həm də psixoloji durumuna, onlarda Vətənə bağlılıq hissinin artırılmasında, qloballaşan dünyamızda milli-mənəvi dəyərlərin kənar müdaxilədən qorunmasına xidmət edir.

Gəncləri Azərbaycanın Silahlı Qüvvələri haqqında məlumatlandırmaq üçün bu gün orta ümumtəhsil məktəblərində "Gənclərin çağırışaqədərki hazırlığı" fənni tədris olunur-burada məqsəd gənclərə hərbi nizamnamə qaydalarını öyrətmək, onları müasir ordu həyatı ilə tanış etmək, hər bir gənci fiziki və psixoloji cəhətdən qarşıda onu gözləyən hərbi xidmətə hazırlamaq, hərbi xidmətin müqəddəs borc və şərəf işi olmasına onlarda inam yaratmaq, hər bir gəncdə vətənpərvərlik, əqidəlilik, dözümlülük, cəsurluq, intizam və şəxsi məsuliyyət hissi aşılamaq, mülki müdafiə və ilkin tibbi yardım bacarıqlarının formalaşdırmaq kimi mühüm vəzifələri dərk etdirməkdir. Tədqirəlayiq haldır ki, bu gün gənclərdə vətənpərvərlik və dövlətçilik ruhunu aşılamaq, hərbi tərbiyəni, ilkin hərbi bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün məktəblərdə şagirdləri arasında ənənəvi hərbi - idman və turizm respublika oyunları, respublika yarışlarıı və beynəlxalq turnirlər, yaradıcılıq müsabiqələri təşkil olunur. Hər bir gəncdə vətənpərvərlik tərbiyəsi üzrə aparılan işlərin daha intensiv olması, bu sahədə görülən işlərin davamlılığının təmin olunması, hər bir gəncdə fəal vətəndaş mövqeyi və Vətənə sədaqət hissinin formalaşdırılması məqsədilə hər il ümumitəhsil məktəblərində ilk dərs Vətən mövzusuna həsr olunur [6, 195].

Müasir gənclərin vətənpərvər ruhda yetişməsi üçün orta məktəblərin və ailənin xüsusi rol oynadığını qeyd etmək lazımdır-etraf edək ki, bu gün həm orta məktəb və həm də ailə dövlət üçün bütün sahələrə lazım olan kadrları hazırlamaqda əsas bazadır. Təəssüf ki, bu gün orta məktəb şagirdləri üçün vətənpərvərlik şüurunun formalaşdırılmasında mühüm rola malik ola bilən bədii ədəbiyyatlar kifayət qədər yoxdur-öz misilsiz igidlikləri ilə tarix yazmış qəhrəmanlarımız haqqında yazılar çox azdır, demək olar ki, yox dərəcəsindədir. Qeyd edək ki, ən ali və əzəli hiss olan vətənpərvərlik hissi yalnız vətəni sevmək deyil, o həm də vətənin naminə yaşamaq, vətəni canı bahasına belə qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Təbii ki, bu hiss anadangəlmədir, lakin bütün digər hisslər kimi bu müqəddəs hissin də xüsusi qayğıya, tərbiyəyə ehtiyacı var və o məhz tərbiyə yolu ilə daha da möhkəmlənir. Etiraf edək ki, vətənpərvərlik hər bir şəxsi səciyyələndirən vacib keyfiyyətlərdən biridir, onun gənc nəslə aşılanması, onların vətənpərvərlik ruhunda tərbiyəsi bu gün qarşıda dayanan ən vacib vəzifələrindən biri hesab olunmalıdır-müasir dövrdə məktəbləirin qarşısında qoyulmuş fəal vətəndaşlar yetişdirmək vəzifəsi də məhz sistemli, ardıcıl aparılan vətənpərvərlik tərbiyəsinin nəticəsində reallaşa bilər.

Dövlətçilik ideologiyasının, həmçinin azərbaycançılıq və vətənsevərlik ideyalarının gənclər arasında təbliğ olunmasına bu gün böyük ehtiyac var- həm təhsilimizin, həm də mədəniyyətimizin qarşısında duran əsas vəzifə əsl vətəndaş yetişdirmək, böyük gələcəyimiz naminə şəxsiyyət formalaşdırmaqdır. Dövlətçilik, vətəndaşlıq kimi keyfiyyətlər yalnız dərsliklərdə və ya əyani vasitələrdə əks olunmamalı, o həm də bütün sahələrdə təbliğ edilməli, hər bir adamın sevgi və ehtiram hədəfi olmalıdır. Aparılan təbliğatın daha uğurlu və təsirli olmasında həm də mənəvi tərbiyə ocağı kimi televiziyanın yeri və xidməti də əvəzolunmazdır-məhz televiziya əlində olan imkanlarla, bədii vasitələrlə, sənətkarlıqla, xüsusi incəliklə bu müqəddəs amalları gənclərə aşılamalı və sevdirməlidir-gənclər yalnız təbliğatın obyekti olmamalı, həm də estetik cəhətdən zəngin, yüksək istedadlı sənətkarlıqla tanış olmalıdır.

Bu gün hər kəsin dünyagörüşünü Vətən anlayışı, vətənə sevgi və məhəbbət hissi olmadan təsəvvür etmək qeyri-mümkündür. Zəfər qələbəsi sevincini yaşayan xalqımız milli dirçəlişə, siyasi həyatının dönüşlü mərhələsində, milli yetkinlik çağında labüd olaraq vətənpərvərlik şüurunun saflaşdırılmasına dərin ehtiyac duyur [8, 105]. Uzun illər boyu totalitar rejim şəraitində ideoloji təbliğatın aparıcı istiqaməti SSRİ - ni bu ərazidə yaşayan bütün xalqlar və millətlər üçün yeganə vətən kimi təbliğ etmək olmuşdur. Bu vaxt hər bir millətin özünəməxsus xüsusiyyətləri tam nəzərə alınmır, əsasən sosializm dəyərlərinə üstünlük verilirdi. Belə ağır və ziddiyyətli münasibətin mahiyyəti bunda idi ki, xalqımız əsl vətənpərvərliyin formalaşması üçün ümdə şərtlər olan milli qürur hissi və ləyaqətini, tarixi yaddaşını, milli adət və ənənələrini qoruyub saxlaya bilmək naminə güclü müqavimətləri dəf etməli olmuşdur-bu sahədə Ümummilli liderin xidmətləri əvəzsizdir. Tarixin sonrakı gedişi göstərdi ki, nəsildən-nəslə keçərək əsrlər boyu yaranmış, inkişaf etmiş və ən dərin hiss və duyğuya çevrilmiş Azərbaycan xalqının nəcib vətənpərvərlik hissi istənilən güclü müqaviməti dəf etməyi bacarır və öz azadlığına, müstəqilliyinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə sahib çıxmaqda israrlıdır. Müasir gənclərimizdə vətənpərvərlik keyfiyyətlərini formalaşdırmaq üçün siyasi və ictimai tərbiyə işinin effektliliyini artırmaq, onların dünyagörüşünü inkişaf etdirmək, özünü tərbiyəsinə diqqəti artırmaq, sosial əhəmiyyət kəsb edən ideyaların, normaların və prinsiplərin mənimsənilməsinə yönəldilmiş fəallığı stimullaşdırmaq olduqca vacib milli - psixoloji problemdir. Milli - mənəvi dəyərlərə bağlılıq hər bir insanda vətənpərvərlik hisslərini gücləndirir və insanın əsl vətəndaş olmasında mühüm rol oynayır. Ümummilli lider qeyd edirdi ki, Azərbaycanın suverenliyi hər bir azərbaycanlı vətəndaş üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir. Belə olan halda biz öz taleyimizin sahibi kimi vətənimizi, torpaqlarımızı öz gücümüzlə

qorumalıyıq. Bunu xalq, bizim gənclər, ordu sıralarındakı vətən oğulları etməlidirlər. Ona görə orta məktəblərdə bir tərəfdən hərbi tədrisə, gənclərin fiziki hazırlığına ciddi fikir verilməlidir, digər tərəfdən isə gənclərdə vətənpərvərlik hissini yüksəltmək, vətəni qorumağa hazır olmaq ruhunda tərbiyə etmək lazımdır [2,247].

Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2011 - ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011 – 2015 - ci illərdə" Dövlət Proqramında ayrıca bir bölmə gənclərin vətəndaşlıq və vətənpərvərlik tərbiyəsinə həsr olunmuşdur, burada bir görüləcək bir çox fəaliyyət növləri nəzərdə tutulmuşdur. Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin gücləndirilməsi istiqamətində böyük işlər görülməli, Azərbaycan Respublikasının dövlət rəmzlərinin təbliğinə xüsusi yer verilməli, dövlətin milli rəmzlərinin siyasi və mənəvi mənalarının dərk edilməsi vasitəsilə gənclərin bu sahədəki maariflənməsi imkanları artırılmalıdır. Dövlət rəmzlərinə – bayrağa, gerbə və himnə, milli bayramlara hörmət hisslərinin möhkəmləndirilməsi vasitəsilə gənclərdə vətənpərvərlik hisslərinin formalaşdırılması istiqamətində bir çox dünya dövlətlərində məqsədyönlü iş aparılır. Məsələn, ABŞ - da ailələrin yarısı öz evlərini bayraqla bəzədir, sürücülərin 15 – 20 faizə qədəri maşınlarında bayraq gəzdirirlər. Hər on amerikalıdan doqquzu ABŞ himni çalınanda qürur hissi keçirir və onu sonacan fəxrlə ifa edirlər. Bütün tarixi şəraitdə vətənpərvərlik və dövlətçilik hisslərinin təbliği milli - mənəvi dəyərlərin qorunması və təbliği ilə bərabər aparılmalıdır. Dünyanın ən sürətlə inkişaf edən ölkəsi olan Çində ailəyə və mənəvi dəyərlərə böyük önəm verilir, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində əsas məqsəd kimi milli dəyərlərin qorunması və bunun köməyi ilə sürətli inkişafa nail olunması irəli sürülür-eyni zamanda çinli gənclərə Qərb demokratiyasının Çinin milli dəyərlərinə zidd olması da aşılanır [7, 179].

Etiraf edək ki, ölkəmizdə milli və mənəvi dəyərlərin təbliği arzu olunan səviyyədən aşağı aparılır-bunun nəticəsində gənclərimiz arzuolunmayan sahələrə meyl edir, qeyri-ənənəvi dini qruplaşmalara qoşulurlar. Bir çox gənclər Suriyada, İraqda fəaliyyət göstərən terror qruplaşmalarına meyl edirlər. Bir çox hallarda Azərbaycan Respublikasına qarşı heç də xoş münasibətdə olmayan qüvvələr tərəfindən dəstəklənən həmin qrupların öz sıralarına kifayət qədər gənci cəlb edə bilməsi, əslində heç də güclü ənənəvi qüvvəyə və təsirə malik olmalarında deyil, cəmiyyətimizdə İslamın mahiyyətinin düzgün dərk edilməməsində və bu sahədə məqsədyönlü siyasətin zəif aparılmasındadır.

Bu gün gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsi, onların Vətənə bağlı şəxs kimi yetişməsi üçün ayrıca dövlət proqramının qəbul edilməsinə böyük ehtiyac var-bu proqramda bütün mühüm istiqamətlər-hərbi vətənpərvərlik, gənclərin hərbi xidmətə həvəsləndirilməsi, təhsildə vətənpərvərliyin gücləndirilməsi, gənclər arasında milli-mənəvi dəyərlərin təbliği, gənclərin Azərbaycanın milli-mədəni irsi və tarixi haqqında məlumatlandırılması, gənclərdə vətəndaşlıq hisslərinin gücləndirilməsi, gənclərdə müstəqil dövlətçilik ənənələrinə hörmət və sədaqət hissinin gücləndirilməsi və s. bu kimi istiqamətlər yer almalıdır.

Ulu öndər öz siyasi fəaliyyəti dövründə milli şüurun formalaşdırılmasını özünün ideoloji fəaliyyətinin başlıca istiqaməti sayır və qeyd edirdi ki, milli şüur Vətənə məhəbbətdən qaynaqlanmalıdır. Müstəqillik uğrunda mübarizə günlərini xatırlayarkən demişdi: "O vaxt Azərbaycan gəncləri, elmi vətənpərvərlik şüuru ilə yaşayan insanlar Azərbaycana qarşı ədalətsizliyə etiraz əlaməti olaraq meydanlara çıxdılar, böyük mitinqlər keçirildi. 20 Yanvar hadisələri Azərbaycan xalqının milli şüurunun daha da yüksəldiyini göstərdi. Eyni zamanda bu hadisələr milli hərəkatın, milli şüurun imperiya qüvvələri tərəfindən boğulduğunu göstərdi. Ancaq Azərbaycan xalqı sübut etdi ki, onun mənliyi var, milli qüruru var" [1,95]. Ulu öndərin milli vətənpərvərlik ideyalarında ən önəmli yerlərdən birini müasir nəsli milli vətənpərvərlik ruhunda tərbiyə etmək məsələsi tutur. Onun fikrincə, "gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tarixi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik, sadəcə, orduda xidmət deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik!" [4,39].

Ümummilli lider qeyd edirdi ki, dövlətçiliyimizin möhkəmlənməsi gənclərin bir şəxsiyyət kimi formalaşmasından, onlarda olan Vətənə məhəbbət hissinin gücündən - onların milli ruhda tərbiyəsindən çox asılıdır. Milli ruh, hər şeydən öncə - vətənpərvərlik ruhudur. Ulu öndər qeyd edirdi ki, hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, başqa şeyləri də qiymətləndirə bilməzsən. İndi bizim əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır. Vətəni, torpağı müdafiə etmək hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır [3,268].

Ümummilli lider bütün siyasi fəaliyyətində gənclərin milli vətənpərvərlik, hərbi vətənpərvərlik problemlərini daim diqqətdə saxlayırdı. Hərbi vətənpərvərliyi milli vətənpərvərliyin zirvəsi hesab edən Ulu öndər gəncləri hərbi xidmətə hazırlamağa, orduda qulluq edən gənclərə qayğı göstərməyə, onların

fiziki və mənəvi, hərbi - texniki hazırlığını yüksəltməyə xüsusi əhəmiyyət verirdi. "Azərbaycanın suverenliyi hər bir azərbaycanlı vətəndaş üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir. Belə olan halda biz öz taleyimizin sahibi kimi vətənimizi, torpaqlarımızı öz gücümüzlə qorumalıyıq. Bunu xalq, bizim gənclər, ordu sıralarındakı vətən oğulları etməlidirlər. Ona görə orta məktəblərdə bir tərəfdən hərbi tədrisə, gənclərin fiziki hazırlığına ciddi fikir verilməlidir, digər tərəfdən isə gənclərdə vətənpərvərlik hissini yüksəltmək, vətəni qorumağa hazır olmaq ruhunda tərbiyə etmək lazımdır" [5,243]. Ümummilli lider gənclər siyasətinin geniş miqyasda həyata keçirilməsi üçün Gənclər və İdman Nazirliyi yaratmış, mütəmadi olaraq gənclər forumları keçirirdi-fevralın 2 - si Gənclər Günü elan olunmuşdur.

Ümummilli lider ikinci dəfə hakimiyyətə qayıdandan sonra da gəncliyin vətənpərvərlik tərbiyəsinə daha çox önəm verdi. 1993 - cü il sentyabrın 22 - də gənclərlə keçirdiyi görüşdə gənclərə vətənpərvərlik ruhunun aşılanması yönündə öz konsepsiyasını onların nəzərinə çatdırdı. Bu gün Azərbaycan gəncləri vətənpərvər ruhda yetişirlər-əvvəllər bu işi yalnız dövlət görürdüsə, indi artıq Azərbaycan gəncləri özləri vətənpərvərliklə bağlı layihələri könüllü şəkildə həyata keçirirlər. Bu gün Azərbaycan gəncləri ölkə hüdudlarından kənarda da ölkəmizin təbliğini aparır-gənclərimizin səsi bir çox tanınmış ali məktəblərdən, elmi - tədqiqat mərkəzlərindən gəlir. Ölkə hüdudlarından kənarda olsalar da, onların ürəyi yenə də Azərbaycanla döyünür.

Gənclik hər bir millətin inkişafının təməl daşıdır-məhz bu səbəbdən bir millətin mövcudluğu üçün sağlam gəncliyin olması vacib şərtdir. Ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı, intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin daha da inkişaf etməsinə təkan verir, onların cəmiyyətdə təsdiq olunmaları üçün hər cür şərait yaradır. Cənclərinin düşüncə tərzi, onların intellektual səviyyəsi, milli ruhu hər bir ölkənin gələcəyini müəyyən edir. Bütün dövrlərdə ölkənin taleyüklü məsələlərinə münasibətdə, həlledici məqamlarda Azərbaycan gəncliyi öz sözünü demişdir. Müstəqilliyin əldə edilməsində olduğu kimi, onun qorunub saxlanmasında da gənclərin rolu danılmazdır. Həm xalqın əsrlər boyu yaradıb yaşatdığı ənənələri, həm də milli mədəniyyəti məhz gənc nəsil yaşadır və gələcək nəsillərə o ötürür-bu mənada gənclərin çiyinlərinə böyük yük düşmüş olur, çünki gənclər dövlətin həm bu günü, həm də onun gələcəyidir.

Bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının əsasında ölkəyə layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsi dayanır-bu gün Azərbaycana məhz milli şüura malik, vətənpərvər gənclər lazımdır. Ümummilli liderin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasəti də məhz bu amala xidmət edir. Ümummilli lider müstəqil düşüncə tərzinə sahib vətənpərvər nəslin yetişməsini dəfələrlə qürur hissi ilə vurğulamışdır: "Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var" [3,68].

Bu gün gənclərimiz milli ruhda tərbiyəsinə xüsusi diqqət yetirilir, tariximiz əsaslı şəkildə öyrənilir, gənc nəslə vətənə, xalqa məhəbbət hissləri dərindən aşılanır, Azərbaycan tarixinin və mədəni irsinin dərindən öyrənilməsi, qorunması və beynəlxalq aləmdə təbliğ olunması istiqamətində məqsədyönlü iş aparılır. Ümumiyyətlə, millətin tarixinin, mədəni irsinin, adət - ənənələrinin dərindən öyrənilməsi və qorunması hər bir azərbaycanlıda həm milli mənlik şüurunu, həm də vətənpərvərlik hissini daha da gücləndirir.

Etiraf edək ki, ailədə yaxşı tərbiyə alan uşaq mütləq həm savadlı, bilikli olacaq, həm də Vətənə, xalqa gərəkli bir övlad kimi yetişəcəkdir. Danılmaz faktdır ki, gözəl əxlaqlı və tərbiyəli insanın milli mənlik şüuru da, mədəni səviyyəsi də yüksək olur. Belə insanlar, digərlərindən fərqli olaraq, doğulduğu torpağın, vətəndaşı olduğu ölkəyə daha çox bağlı olur, onun təəssübünü daha çox çəkir. Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi, vətənpərvərlik hisslərinin tərbiyəsi məsələsi bu gün dövlət siyasətinin prioritet sahələrindən biridir. Humanist ideyalara xidmət edən təhsil sistemi insani dəyərlərin böyük əhəmiyyət kəsb etməsi, insan azadlığına və hüquqlarına hörmət, ətraf mühitə, vətənə, ailəyə məhəbbət, vətəndaş tərbiyəsi, milli mədəniyyətin inkişafı, milli adət-ənənələrə hörmət və ehtiram göstərilməsi əsasında yetişir. Doğma Vətənə bağlılıq, milli adət - ənənələrə hörmət və qayğı gənclərdə mənəvi və emosional hisslərin formalaşmasında əvəzsiz rol oynayır. Bu hisslər olmadan əsil insan, vətəndaş, vətənpərvər kimi yetişmək çox çətindir. Xalqın tarixini, dilini, mədəniyyətini bilməyən insanda milli mənlik şüuru yox dərəcəsindədir. Vətəni sevməyən insan heç vaxt vətənpərvər ola bilməz, Vətən yolunda qəhrəmanlıq göstərə bilməz. Vətəndaşlıq həm insanın cəmiyyətlə sosial-psixoloji, əxlaqi - etik, həm də pedaqoji əlaqəsidir. Doğma yurda, doğma dilə məhəbbət insanın öz ailəsinə, evinə məhəbbətdən başlayır. Bünövrəsi möhkəm qoyulan bu məhəbbətin dayaqları da möhkəm olur və get - gedə vətənə,

xalqa, onun tarixinə, mədəniyyətinə sevgiyə aparıb çıxarır. Şübhəsiz, milli mənlik şüuru da insanda uşaqlıq illərindən formalaşır və möhkəmlənir.

Milli şüur millətə, xalqa aid xüsusiyyətləri hər hansı bir fərdin özündə cəmləşdirmək bacarığıdır. Burada vicdan, milli mənlik önəmli rol oynayır. Vicdanı olan hər bir vətəndaş doğulduğu torpağın qədrini bilməli, onun təbii sərvətlərini qorumalı və mühafizə etməlidir. Milli şüurun formalaşmasında xalqın tarixi, onun görkəmli mütəfəkkir və tarixi şəxsiyyətləri, o cümlədən digər milli atributlar güclü təsirə malikdir. Milli mənlik şüuru sayəsində millət, xalq və etnik qruplar tarixi inkişaf xüsusiyyətlərini, sosial - etnik cəhətləri bütün dolğunluğu ilə dərk edirlər. Milli mənlik şüuru, vəzifəsindən, tutduğu mövqeyindən asılı olmayaraq, hər bir vətəndaşa xas olan keyfiyyətdir. Milli mənlik şüuru ictimai şüurun bir hissəsi kimi çıxış edir və hər bir şəxsin daxili xarakterini, insanlara, cəmiyyətə olan münasibətini əks etdirir.

Milli mənlik şüurunu, vətənpərvərlik mənəviyyatla sıx bağlıdır. Azərbaycan xalqının tarixində müəyyən iz qoymuş məşhur şəxsiyyətləri dünyada tanıtdıran və gələcək nəsillər üçün örnək edən səbəb onların yüksək mənəviyyata, müqəddəs amallara malik olmasıdır. Ulu öndər gənclərlə görüşlərinin birində demişdir: "Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi bilməyən gənc yaxşı vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil, Vətənəsadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik" [5,165].

Ümummilli lider gənclərə həmişə böyük qayğı göstərmişdir-bu gün gənclərin qarşısında duran ümdə vəzifə məhz Ulu öndərin ideyalarını layiqincə həyata keçirmək olmalıdır. XXI əsrin gənc nəslinin yüksək səviyyədə formalaşdırılmasında zamanın, dövrün tələbindən irəli gəlmiş təlim-tərbiyə işinin təkmilləşdirilməsi mühüm rol oynayır. Bu gün Azərbaycan gənclərinin böyük hamisi, yolgöstərəni və qayğıkeşi cənab Prezident İlham Əliyevin titanik fəaliyyəti nəticəsində gənclərimizin, deməli həm də , dövlətimizin səsi ən ali tribunalardan, müxtəlif dövlətlərdən eşidilməkdədir. Ölkə Prezidentinin həyata keçirdiyi ordumuzun və ölkəmizin modernləşdirilməsindən tutmuş fiziki cəhətdən sağlam nəslin yetişməsi üçün görülən çoxşaxəli işlərədək hər şey milli vətənpərvərlik tərbiyəsi üçün stimul, baza və istiqamətləndirici faktdır.

Ədəbiyyat

1. Əliyev H. Müstəqilliyimiz əbədidir. Bakı, 1997, 466 s.
2. Əliyev H. Müstəqillik yollarında. Bakı, 1997, 136 s.
3. Xalqın böyük xilaskarı. Bakı, 2001
4. Dövlətçilik naminə. Bakı, 2001
5. Əliyev İ. Azərbaycanıma inanıram. Bakı, 2007, 376 s.
6. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001, 358 s.
7. Əhmədov Y.P. Bəşəriyyət mənəvi süqut ərəfəsindədir. Bakı, 2011
8. Əhmədov Y.P. Vətən müharibəsi fəlsəfəsi. Bakı, 2021

РЕЗЮМЕ

ВОСПИТАНИЕ МОЛОДЕЖИ В ДУХЕ НАЦИОНАЛЬНОГО ПАТРИОТИЗМА БЫЛО ОСНОВНОЙ ЦЕЛЬЮ ВЕЛИКОГО ЛИДЕРА

Ахмедов Я.П.

Ключевые слова: *молодежь, патриотизм, государственность, национальный дух, национально-нравственные ценности, личность.*

Общенациональный лидер неоднократно подчеркивал, что современная молодежь – это настоящее и будущее Азербайджана, на ней лежит большая ответственность, и в будущем эта ответственность будет еще больше. Именно молодежь является фундаментальной основой выживания нации, ее существования и развития. Сегодня надежной гарантией будущего каждой страны является наличие здравомыслящей молодежи, так как от подготовки интеллектуально развитых молодых кадров, превращения их в руководящую и созидательную силу зависит укрепление государственной независимости.

Великий вождь в своей политике всегда заботился о молодежи, придавал особое значение ее личностному формированию, выступал покровителем молодежи и проделал огромную работу по воспитанию здравомыслящего поколения. Во многих подписанных им указах и распоряжениях, касающихся молодежной политики, он особое внимание уделял воспитанию молодежи в духе национального патриотизма, на основе национальных и нравственных ценностей, призывал хорошо знать свою историю, хорошо знать свой язык, быть патриотом, служить в армии, быть верным Родине, любить страну и быть преданным своей земле.

SUMMARY
EDUCATION OF YOUNG PEOPLE IN THE SPIRIT OF NATIONAL PATRIOTISM WAS THE GOAL OF THE GREAT LEADER
Akhmedov Y.P.

Key words: *youth, patriotism, statehood, national spirit, national-moral values, personality*

The national leader has repeatedly emphasized that the modern youth is the present and the future of Azerbaijan, they have a great responsibility, and this responsibility will be even greater in the future. It is the youth that is the fundamental basis for the survival of the nation, its existence and development. Today, it is very important to have a healthy youth, as the strengthening of statehood and independence in each country, the reliable guarantee of the future depends on the training of intellectually developed young personnel with great potential, and their transformation into a leading force.

The great leader in his policy always took care of young people, gave special importance to their personaity growth, acted as a patron of young people and did great work in raising a healthy thinking generation. In many decrees and orders he signed on the youth policy, he paid special attention to the education of young people in the spirit of national patriotism, on the basis of national and moral values, urged them to know our history well, to know our language well, to be a patriot, to serve in the army, to be loyal to the Motherland, love the country and be devoted to your land.

HEYDƏR ƏLİYEV İRSİ VƏ AZƏRBAYCANIN MÜASİR DÖVR TARİXİNİN AKTUAL PROBLEMLƏRİ

Ələsgərov Baxış İslam oğlu
Səmədov Yaqub Abasqulu oğlu
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı, Azərbaycan
elesgerov.adpu@mail.ru; yaqub.semedov63@mail.ru

Açar sözlər: *Heydər Əliyev, tarix, dövrləşdirmə, mərhələ, məsələlər*

Müstəqil Azərbaycan Respublikasının möhkəmləndirilməsinin banisi olan Heydər Əliyev qısa zaman kəsiyində dövlətimizi mütərəqqi inkişaf orbitinə çıxardı, dərin və köklü islahatlar həyata keçirərək yeni-yeni dövlətçilik strukturları yaratdı, milli tarixi ənənələrin yeni müstəvidə inkişafına əlverişli şərait yaratdı, mütəxəssis tarixçi alim kimi tariximizin yenidən yazılmasına göstərişlər verdi [6, s.279]. Müstəqilliyimizin daimi, ədəbi və dönməz olduğunu dəfələrlə bəyan edən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Dövlətçilik ənənələrinin zənginləşdirilməsi, müstəqilliyimizin daha da möhkəmləndirilməsi, onun əbədi edilməsi hər birimizdən var qüvvəsini sərf etməyi tələb edir" [1, s.6].

Heydər Əliyev Azərbaycanın XX əsr tarixinin dövrləşdirilməsi məsələləri məsələsinə 2000-ci ildəki müraciətdən öncə də dəfələrlə toxunmuşdu. Məsələn, 1998-xci il mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin 80- illik yubleyinə həsr olunmuş təntənəli mərasimdəki niqtində o, XX əsr Azərbaycan tarixinin belə dövrləşdirmişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından keçən 80 il dörd mərhələyə bölünə bilər: birinci -1918-1929-ci illər, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi illər; ikinci- 1920- 1922-ciillər, Azərbaycan Sovet Sosialist, Cümhuriyyətinin hakim olduğu illər; üçüncü- 1922-1991-ci illər, Azərbaycanın totalitar rejim, kommunist ideologiyası şəraitində yaşadığı dövr, Azərbaycan Sovet Sosialist Cümhuriyyətinin Sovetlər İttifaqında başqa müttəfiq respublikalarla birgə fəaliyyət göstərdiyi dövr; Dördüncü dövr 1991-ci ilin sonundan, dekabrından başlayır, Sovetlər İttifaqının dağılması ilə əlaqədar Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi günündən indiyədək keçən illərdir. Bu mərhələlərin hər birinin tarixdə özünəməxsus yeri, Azərbaycan tarixində mənası, mahiyyəti və əhəmiyyəti vardır" [2, s. 389]

Dövlətçilik tarixinin ən parlaq mərhələsi kimi XX əsri qiymətləndirən Heydər Əliyev bu dövrün hadisələrinin əsl tarixçi gözü ilə təhlil etmişdir. Xalqımızın XX əsrin əvvəllərində başladığı milli azadlıq hərəkatının kökündə məhz XIX əsrdə vüsət almış milli oyanış proseslərinin dayandığını hesab edən Heydər Əliyev deyirdi ki, "XX əsrə qədəm qoyan Azərbaycan artıq bir çox sahələrdə, o cümlədən mədəniyyət, maarif və milli mətbuat sahələrində olduqca mühüm nailiyyətlər əldə etmişdi. Ən başlıcası isə Azərbaycanda müasir burjuaziya təbəqəsi formalaşıb ölkənin ictimai həyatında mühüm rol oynamağa başlamışdı. Bu dövrdə Azərbaycan ziyalılarının müxtəlif sahələrdə göstərdiyi fəaliyyət milli dirçəliş, milli oyanış, milli ruhun aşılanması proseslərinə xidmət edirdi" [4, s.83]. Heydər Əliyevin həmin müraciətini "Azərbaycanın tarixi salnaməsi" kimi səciyyələndirən akademik İ.Hacıyev yazır ki, burada yaxın tarixə yığcam şəkildə və müdrikcəsinə baxılmış, baş verənlərə düzgün və obyektiv qiymət verilmişdir [8].

Heydər Əliyev Azərbaycanın bütövlükdə XX əsr tarixini dörd mərhələyə bölmüşdür:

Birinci mərhələ - Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün tarixi zəminin yetişməsi dövrüdür. Bu dövr 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə başa çatır.

İkinci mərhələ- Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdür (1918-1920-ci illər)

Üçüncü mərhələ - 1920-ci il aprel işğalından başlanan sovet dövrüdür. Bu dövr 1991-ci oktyabrın 18-də "Müstəqillik Haqqında Konstitusiya Aktı"nın qəbul olunması ilə başa çatır.

Dördüncü mərhələ- 1991-ci ilin oktyabrında müstəqilliyimizin bərpası ilə başlanan dövrdür [5, s.148].

XX yüzilliyin əvvəllərində Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə çox yüksək qiymət verən ulu öndər onu yaradan şəxsiyyətlərə də çox rəğbətlə yanaşırdı. Məhz buna görə də dahi şəxsiyyət 30 yanvar 1998-ci ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" sərəncam imzaladı. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi 29 dekabr 2000-ci ildə "Yeni il, yeni əsr və üçüncü minillik" münasibəti ilə Azərbaycan xalqına müraciət etmişdir [8].

Heydər Əliyev xalqa müraciətində XX yüzillikdəki ən mühüm tarixi nailiyyətimiz olan Azərbaycan dövlətinin yaradılmasını yüksək qiymətləndirir və Azərbaycanın müasir durumuna xüsusi diqqət yetirir. Müraciətdə qeyd olunduğu kimi, tarixən qısa müddət ərzində ən müasir demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlləri qoyulmuş, dünyanın ən mütərəqqi təməl qurumlarından biri olan Konstitusiyamız qəbul olunmuş, hakimiyyətin ayrı-ayrı qollarının formalaşmasına başlanmış, həyatın bütün sahələrində əsaslı islahatlar həyata keçirilmişdir. Ölkəsinin gələcəyi üçün xüsusi narahatlıq keçirən Heydər Əliyev qeyd edirdi ki, xalqımız dünyada öz yerini tutmaq üçün bir çox sahələrdə sıçrayışa nail olmalı, qabaqcıl texnologiyalara yiyələnməli, ən müasir proqramlar həyata keçirməlidir [7, s.119].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 31 yanvar 1997-ci ildə Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdə bu münasibətlə demişdi: "Xatırlaya bilərsiniz, 70-ci illərdə mən dəfələrlə Elmlər Akademiyasının qarşısında vəzifə qoymuşdum ki, Azərbaycanın tarixi yazılmalıdır. Amma bu gün mənim haqqım var deyəm ki, tarixçilərimiz bu vəzifəni yerinə yetirmədilər. Bizim tarixçilərimiz, bir tərəfdən, çəkişmə ilə məşğul oldular, hərə öz konsepsiyasını irəli aparmağa çalışdı. Başqa respublikalarda tarixçilər pis də, yaxşı da olsa, hər halda öz xalqlarının tarixini yaza bildilər. Biz bunu edə bilmədik. Ancaq indi bir tərəfdən, bəlkə yaxşıdır ki, bunu edə bilməmişik. Çünki etsəydik də onu yenidən yazmalıydıq. İndi vəzifə bundan ibarətdir ki, Azərbaycanın tarixi yazılmalıdır" [8]. Məhz prezidentin göstərişi ilə AMEA Tarix İnstitutu tərəfindən ilk dəfə olaraq 1998-2003-cü illərdə 7 cldlik Azərbayca tarixi nəşr edilmişdi.

Xalqımızın tarixinin doğru-düzgün yazılmasına, hadisələrin və tarixi faktların obyektiv tədqiq edilməsinə, tarixi həqiqətlərin üzə çıxarılmasına, zəngin arxiv materiallarının elmi dövriyyəyə cəlb edilməsinə və fundamental tarix kitablarının hazırlanmasına böyük diqqət və əhəmiyyət verən Ulu Öndər Heydər Əliyev demişdir: "… tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq ömrünün sonuna qədər lazımdır…, hər bir gənc gərək Azərbaycan tarixini yaxşı bilsin, oxusun, öyrənsin" [3].

Yuxarıda deyilənlərdən aydın olur ki, müasir dövr tariximizin müxtəlif mərhələlərində Azərbaycan tarixi bağlı məsələlərin araşdırılmasında Heydər Əliyev tərəfindən irəli sürülən konsepsiyanın olduqca mühüm əhəmiyyəti vardır.

Ədəbiyyat

1. Əliyev, İ. (2011-ci il, 6 iyul). Müasir, müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Dünya azərbaycanlılarının III Qurultayında nitq // «Azərbaycan» qəzeti, Bakı.
2. Əliyev, H. (2005a). Müstəqilliyimiz əbədidir. 15-ci kitab. Çıxışlar, nitqlər, bəyanatrlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar// Bakı, Azərnəşr.
3. Əliyev, H.(1997b). Ölkəmizdə elmin inkişafına qayğı dövlət siyasətinin mühüm istiqamətidir. Azər. SSR EA-da görüşdə nitq // "Azərbaycan" qəzeti, 1 fevral.
4. Hüseynova, L. (2011a). Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri. (Müstəqillik illərində). Bakı, "Təhsil", 2011.
5. Hüseynova, L. (2013b). Heydər Əliyev irsində Azərbaycanın XX əsr tarixinin dövrləşdirilməsi məsələsi. Elmi məqalə /// Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. № 1. Bakı.
6. Məmmədov, N. (2013). H.Əliyev və Azərbaycanın XX əsrin 20-30-cu illər tarixinin bəzi məsələləri. Elmi məqalə. Tarix və onun problemləri/ Nəzəri, elmi, metodik jurnal. Bakı: "Adiloğlu", № 2.
7. Mahmudov, Y. (2002).. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı.
8. Səfərlİ, F. (2023-cü il. 24 yanvar). Heydər Əliyev və Azərbaycan tarixi məsələləri. "Xalq qəzeti". Bakı.

РЕЗЮМЕ
НАСЛЕДИЕ ГЕЙДАРА АЛИЕВА И АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ СОВРЕМЕННОЙ ИСТОРИИ АЗЕРБАЙДЖАНА
Алескеров Б.И., Самедов Я.А.

***Ключевые слова**: Гейдар Алиев, история, периодизация, фаза, проблемы,*

Из статьи видно, что существует большая потребность в более глубоком исследовании нашей новейшей истории на основе концепции Гейдара Алиева. Гейдар Алиев был гением. Таким образом, Гейдар Алиев, прекрасно знающий нашу историю, на протяжении всей своей политической карьеры не только был сосредоточен на вопросах, связанных с историей Азербайджана, но и внес большой вклад в развитие этой области науки. С другой стороны, Великий Вождь уделял большое внимание правильному написанию истории нашего народа, объективному исследованию событий и исторических фактов, раскрытию исторических истин, привлечению в научный оборот богатых архивных материалов и подготовке фундаментальных книг по истории. Также каждому азербайджанскому юноше .рекомендовано глубже знать нашу историю. Гейдар Алиев, придававший большое значение истории Азербайджана XX века, проанализировал события этого периода глазами настоящего историка. Его славная жизнь доказывает, что великие и гениальные люди неустанно работали на высокие и благородные дела для народа со дня своего рождения и до конца жизни. Именно Гейдар Алиев сыграл исключительную роль в прогрессе и развитии своего народа.

SUMMARY
THE LEGACY OF HEYDAR ALIYEV AND CURRENT PROBLEMS OF THE MODERN HISTORY OF AZERBAIJAN
Aleskerov B.I., Samedov Y.A.

***Key words**: Heydar Aliyev, history, periodization, phase, issues*

It is clear from the article that there is a great need for a deeper investigation of our modern history based on Heydar Aliyev's concept. Heydar Aliyev was also a genius. Thus, Heydar Aliyev, who knows our history perfectly, was not only focused on issues related to the history of Azerbaijan throughout his political career, but also made great contributions to the development of this field of science. On the other hand, the Great Leader paid great attention and importance to writing the history of our nation correctly, objectively researching events and historical facts, uncovering historical truths, attracting rich archival materials to the scientific circulation and preparing fundamental history books, but also to every Azerbaijani youth. recommended to know our history more deeply. Heydar Aliyev, who gave great value to the history of Azerbaijan in the 20th century, analyzed the events of this period with the eyes of a true historian. A glorious life of eighty years proves that great and brilliant people worked tirelessly for high and noble deeds for the people from the day they were born until the end of their lives. It was Heydar Aliyev who played an exceptional role in the progress and development of his people.

2023-CÜ İL HEYDƏR ƏLİYEV İLİDİR. ULU ÖNDƏRİN HƏYAT AMALI BU GÜNÜN ZƏFƏR ZİRVƏSİDİR

Əliyev Əli Umud oğlu
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ağcabədi filialı, Azərbaycan
eli.eliyev.54@mail.ru

Açar sözlər: *müdrik lider, millət atası, dahi şəxsiyyət, siyasi düha, xalqımızın xilaskarı, fenomenal düha, zəfərimizin zirvəsi, xalq adamı, seçilmiş şəxsiyyət.*

Ulu öndər Heydər Əlirza oğlu Əliyev bütün mənalı ömrünü Azərbaycan xalqının tarixi inkişafına, dövlətçiliyinin qorunub saxlanılmasına və dünya arenasında inkişaf etmiş ölkələr sırasında özünəməxsus boy alması uğrunda mübarizəyə sərf etmiş, yüksək şəxsi bacarıq tərzi ilə müsbət nəticələrlə səciyələnən çox böyük uğurlara yol açmışdır. Ulu öndərin anadan olmasının 100 ili 2023-cü il, may ayının 10-da qeyd olunacaq. Odur ki, rəsmi sərəncamla 2023-cü il Heydər Əliyev ili elan olunmuşdur. Bu bayram münasibəti ilə xalqımızı təbrik edir və deyirəm ki, Azərbaycanın Atatürkü Heydər baba, ad günün mübarək! Gün o gün olsun ki, xalqımız 200 illik yubileyini Bütöv Azərbaycanın ən yüksək dəyərlər qazandığı zirvələrdə qeyd etsin!

Ulu öndərin həyat amalı, memarı olduğu Müstəqil Azərebaycanın təməl bünövrəsinin dayanıqlı möhkəmliyi, bu günün zəfər zirvəsidir.

Heydər Əlirza oğlu Əliyev dünya liderləri sırasında özünəməxsus yeri olan fenomenal şəxsiyyətdir. Azərbaycan xalqı zirvələr fəth etdikcə Heydər Əliyev dühasına yaxınlaşır və onun dahiliyini dərk edir. Dərk edir ki, uğurlarımızın səbəbkarı, doğru və düzgün seçilmiş milli ideologiyamız, Heydər Əliyev yoludur. Heydər Əliyev yolu Azərbaycanın dünəni, bu günü, sabahı və gələcəyidir. Odur ki, ulu öndəri Türk dünyasının müdrik lideri, millət atası, dahi şəxsiyyət, müdriklik zirvəsi, uzaqgörən siyasətçi, görkəmli siyasi düha, Azərbaycanın xilaskarı, həqiqətin aynası, millətimizin güvənc və and yeri, inkişaf və tərəqqi müəllifi adlandırmaqla onun şəxsiyyətinin çoxşaxəli cəhətlərini hələ də dərk edə bilmədiyimiz Heydər Əliyev zirvəsini, ucalığını anlamağımıza istiqamət veririk. [1]

İnsan fəaliyyətinin hər bir sahəsini həmin sahənin mütəxəsisindən daha yaxşı bilən və bütün sahələrə öz sərrast dəqiq və düzgün göstərişlərini verən, zərgər dəqiqliyi ilə qiymətləndirən Heydər Əliyev bənzərsiz dahi şəxsiyyət idi. Onun şəxsiyyəti həyati bacarıqlara söykənən təbii sərvəti, xəzinəni xatırladır. Hüseyn Arif poetik dillə sanki mənim duyğularıma uyğun şəkildə bunu belə ifadə etmişdir:

Yaşar qulağımda məğrur səsi də,
Təmiz gülüşü də cana yatardı,
Əqli heyran edən hafizəsi də
Təbii sərvəti xatırladardı.

Ana dilimizin xarici təsirdən qorunması, inkişafı, fəaliyyət dairəsinin genişlənməsi kimi məsələlərin yerinə yetirilməsində də ulu öndərin müstəsna rolu tarixi hadisə səviyyəsindədir. 2002-ci il sentyabr ayının 30-da Milli Məclis "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Heydər Əliyev həmin qanunu imzaladı və Azərbaycan dili Dövlət dili statusu qazandı. Ana dilimiz haqqında Heydər Əliyevin gordüyü işlər və söylədiyi müdrik fikirlər müasir gəncliyimiz üçün dəyərli xəzinədir. Heydər Əliyev demişdir: "Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir.", "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dil böyük bir aləmdir. Öz ana dilini bilməyən adamlar şikəst adamlardır. Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir." [2]

Ölkəmizin milli dövlətçilik ənənələrinin qurulmasında və inkişafında misilsiz xidmətləri olan dahi şəxsiyyət Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti ən yeni tariximizdə müstəsna yer tutur. Yüksək və mükəmməl dövləti idarəetmə bacarığına görə Heydər Əliyev dünyada nadir tarixi şəxsiyyətlər sırasındadır.

Bu gün Azərbaycan xalqı təməli Heydər Əliyev tərəfindən qoyulan yol ilə Prezident İlham Əliyevin rəhbərliyi altında gələcəyə, ən uğurlu inkişafa doğru irəliləməkdədir. Gündən-günə davamlı tərəqqi müstəqil Azərbaycanın dinamik inkişafda olduğunu şərtləndirməklə bərabər, dünya miqyasında Qafqaz üzrə söz sahibi olduğunu sübut edir. Şimali Azərbaycanın yüksəliş yönümündə bünövrə daşını, özülünü 1970-ci illərdən başlayaraq möhkəmləndirən və inkişaf etdirən, 1992-ci ildən müstəqilliyə qovuşan Azərbaycanı dağılmaq, məhv olmaq təhlükəsindən xilas edən, dövlətçilik ənənələrini inkişaf etdirən, Azərbaycançılıq idelogiyasını bütün fəaliyyət sahələrində aparıcı stimula çevirən, xalqı vahid milli ideya ətrafında birləşdirməyi bacaran ümummilli lider Azərbaycanı dünyada tanıtdırdı və bu gün Müstəqil Şimali Azərbaycan Respublikasının səsi, sorağı dünyanın mötəbər tribunalarından gəlir. İqtisadi və strateji baxımdan misilsiz əhəmiyyətə malik dünya miqyaslı nəhəng layihələrə imza atan ulu öndər öz şəxsi nüfuzu, qətiyyətli uzaqgörənliyi sayəsində Azərbaycanın gələcək uğurlarına da yol açmışdır. Heydər Əliyev siyasi strategiyasının bəhrəsi gündən-günə çiçəklənən müstəqil Şimali Azərbaycan Respublikasıdır. Respublikamızda sülhün, sabitliyin möhkəmləndirilməsi, tarixi böyük İpək yolunun bərpası, ölkəmizin milli inkişaf strategiyasının yüksəlişinin təmin olunması, "Əsrin müqaviləsi" çərçivəsində Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və s. layihələrin həyata keçirilməsi ulu öndərin ideologiyasının davamıdır.

Nə qədər Azərbaycan xalqı yaşayırsa, Heydər Əliyev xalqın qəlbində nurlu bir düha kimi daim anılacaq və seviləcəkdir. Hər il ulu öndərin anım günündə Azərbaycanı yenidən yaradan, onu dirçəldən və yaşadan dahi bir şəxsiyyəti xatırlayırıq. Qürur hissi keçiririk ki, onun yaratdığı yeni Azərbaycan dövlətinin vətəndaşlarıyıq. Onun yaratdığı yenilməz Azərbaycançılıq ideyası, millilik qüruru, ulu öndər yolu əbədidir, daim inkişafdadır. Çünki bu yol elə bir zirvə fəth edir ki, o zirvə yüksəliş zirvəsidir və əbədiyyət zirvəsidir. Ulu öndərin fəth etdiyi zirvə Azərbaycan dövləti və dövlətçiliyidir. Azad Azərbaycan dövləti, dövlətçiliyi və Azərbaycançılıq ideyası ulu öndərin şah əsəridir. Nə qədər bu dövlət, bu millət vardır, ulu öndərin şəxsiyyəti, ideyaları unudulmayacaq, əbədi olaraq yaşanacaq, xatırlanacaq və davam etdiriləcək. Gileyli Bəylər "Heydər Əliyevə min alqış olsun!" şeirində yuxarıda qeyd etdiyimiz fikirləri poetik dillə belə vurğulamışdır:

Haqq yolunda ömrü şamtək əridi,
Xalqına yadigar əməlləridi.
Azərbaycan onun "şah əsəridi!",
Heydər Əliyevə min alqış olsun! [3. s. 10].

Ulu öndərin uzaqgörən siyasətinin bəhrələri onun reallaşan arzularıdır. Bu arzuların bünövrə daşını o, özü qoymuşdur. Heydər Əliyevin lakonik, müdrik fikirləri bütün dövrlər üçün aktual olmuş və hər bir azərbaycanlının həyat amalına çevrilmişdir. Zəfər tariximizin başlanğıcı Heydər Əliyevin Azərbayycana qayıdışından başlayır. Bu başlanğıc Azərbaycanı parçalanmadan xilas etdi. Ümummilli ideologiya, Azərbaycançılıq ideologiyası formalaşdırdı. Bu gün zəfər qələbəmizin pik zirvəsində Heydər Əliyev ideologiyasının, amalının yekun nəticəsi dayanır. Onu əbədiyaşar edən əməlləridir. Dahi Nizami Gəncəvinin poetik ifadəsinə dirsəklənib deyə bilərik:

Yüz il sonra sorsalar, o, hardadır?!
Hər beyti səslənər, burda, burdadır.

Onun beyti Müstəqil Azərbaycan Respublikasıdır. Doğrudan da, Heydər Əliyevin mənalı və zəngin həyat yolu, onun bu yolda əbədiyyət qazandığını nəinki 100 il, hətta min il keçsə də, xalqımız unutmayacaq, bütün Azərbaycan söyləyəcək; O, burdadır, bizimlədir! Zaman bizi nə qədər Heydər Əliyevdən cismən uzaqlaşdırırsa da, mənən o qədər də Heydər Əliyev dünyasına yaxınlaşdırır.

Nəticə. Heydər Əliyev xalqın adamı, Tanrının seçilmişlərindən biri, xüsusi istedad və bacarığa malik, səcdəyə layiq şəxsiyyət idi. Təklif edirəm ki, Qarabağın tacı olan Şuşada ən hündür bir nöqtədə Haydər Əliyev səcdəgahı, Heydər Əliyev muzeyi tikilsin ki, xalqımız həm o səcdəgahı ziyarət etsin, onun səcdəsində dursun, həm də müqəddəs Şuşamız səcdədən əskik olmasın!

Şair Həsən Şirinov demişkən:

Azadlıq Allahı tək əyləşib öz yerində,
Yerin-göyün nuru var, peyğəmbər gözlərində.
Sadəliyi nur saçır, əzəməti dərində.
Gedir polad çiyində
Kəpəz, Qoşqar boyda yük,
Dədə-Heydər-Atatürk!

Prezidentimizin qeyd etdiyi kimi bu gün Ulu öndərin ruhu şaddır. Heydər Əliyevin arzu və diləkləri sözün həqiqi mənasında reallığa qovuşmuşdur. Bu reallıq Qarabağın işğaldan azad olunmasıdır. Odur ki, fəxarətlə deyə bilərik; Yaşasın Müstəqil Şimali Azərbaycan Respublikası!, Yaşasın qalib Azərbaycan xalqı!, Yaşasın Müzəffər Ali Baş komandan!, Yaşasın Azərbaycan ordusu!, Ordum varsa, yurdum var!, Şəhidlər ölməz Vətən bölünməz!

Şair Tofiq Zeynal "Yolumuz Heydər yoludur" şeirində Azərbaycanın zirvələrə gedən zəfər yolunu belə xarakterizə edir:

Mizanı var, ölçüsü var,
Sabah adlı elçisi var.
İlham adlı yolçusu var,
Yolumuz Heydər yoludur!

Yağılardan öc alıbdır,
İlham adı ucalıbdır.
Atasından güc alıbdır,
Yolumuz Heydər yoludur!

Zirvədən enən deyilik,
Yanmışıq sönən deyilik.
Bu yoldan dönən deyilik,
Yolumuz Heydər yoludur!

Haqq yolundan dönmək nədir?!
Yağı düşmən məqam güdür,
Xalqımız İlhamla gedir,
Sabaha, zəfər yoludur,
Yolumuz Heydər yoludur! [Tofiq Zeynal. "Ötən ömrün hekayəti", s. 11].

Ədəbiyyat

1. Bəylər, G. Əsgər libasını soyunma hələ / G. Bəylər, Bakı, 2012, 275 s.
2. Deyilən söz yadigardır. Heydər Əliyevin aforizmləri / Azərbaycan yazıçılar klubu. Bakı, 2013, 293 s.
3. Müdriklik zirvəsi / Bakı: Yazıçı, 2011, 302 s.
4. Şəxsiyyətin qüdrəti,/ Bakı: Yazıçı, 2012, 304 s.
5. Zeynal T. Ötən ömrün hekayəti, Bakı, 2016, 176 s.

РЕЗЮМЕ
2023 ГОД – ГОД ГЕЙДАРА АЛИЕВА.
ЖИЗНЕННЫЙ ПОДВИГ ВЕЛИКОГО ВОЖДЯ – ВЕРШИНА СЕГОДНЯШНЕГО ТРИУМФА
Алиев А.У.

***Ключевые слова**: мудрый вождь, отец нации, великая личность, политический гений, спаситель нашего народа, феноменальный гений, вершина нашей победы, человек из народа, избранная личность.*

Гейдар Алирза оглы Алиев, политический деятель тюркского мира, является одной из непревзойденных мировых личностей. Гейдар Алиев, феноменальный гений, архитектор независимого Азербайджана, историческая личность, всю свою содержательную жизнь посвятивший сохранению, развитию и формированию его теоретической концепции в русле национальной идеологии. Он всегда гордился тем, что он азербайджанец, и говорил: «Для каждого человека его национальность является предметом гордости. Я всегда гордился и сегодня горжусь тем, что я азербайджанец»! Он всегда боролся за защиту и развитие Азербайджанского государства, государственности и нашего родного языка и привел нас к вершине сегодняшней победы. Азербайджан - шедевр Гейдара Алиева!

SUMMARY
2023 IS THE YEAR OF HEYDAR ALIYEV.
THE LIFE GOAL OF THE GREAT LEADER IS THE TRIUMPHANT PEAK OF TODAY'S
Aliyev A.U.

***Keywords:** wise leader, father of the nation, genius, political genius, savior of our people, phenomenal genius, pinnacle of our victory, man of the people, chosen personality*

Heydar Alirza oglu Aliyev, a political figure of the Turkic world, is one of the unparalleled world personalities. Heydar Aliyev, a phenomenal genius, is the architect of independent Azerbaijan, a historical figure who spent his whole meaningful life in the way of its preservation, development and formation of its theoretical concept in line with the national ideology. He was always proud of being an Azerbaijani and said: "For every person, his nationality is a source of pride. I have always been proud, and even today I am proud that I am an Azerbaijani"! He always fought for the protection and development of the Azerbaijani state, statehood, and our mother tongue and brought us to the peak of today's victory. Azerbaijan is Heydar Aliyev's masterpiece!

HEYDƏR ƏLİYEVİN İDEYALARI AZƏRBAYCAN XALQININ MODERN İNKİŞAF STRATEGİYASININ NƏZƏRİ MƏNBƏYİDİR

Əliyev Qoşqar Cəlal oğlu
Azərbaycan Tibb Universiteti, Bakı, Azərbaycan, professor
qosqar.aliyev.57@mail.ru

***Açar sözlər:** milli ideya, azərbaycançılıq məfkurəsi, vətən amalı, milli mənlik şüuru, tarixi idrak*

Hər bir xalqın milli özünəməxsusluğunun inkişafında milli ideyanın xüsusi rolu vardır. Xüsusən indiki dövrdə, xalqların və millətlərin özünəməxsusluğuna real təhlükələrin artdığı qloballaşma dövründə milli ideya müxtəlif sosiumların qorunub saxlanmasının dayaq nöqtəsinə çevrilməkdədir. Ümumiyyətlə, milli ideyası olmayan xalqın nəinki inkişaf perspektivlərindən, hətta bugünkü mövcudluğu barəsində danışmaq qeyri-mümkündür. Milli ideya, həm də millətin birliyini və bütövlüyünü təmin etməklə, ona strateji hədəflərinə çatmaqda mühüm vasitədir.

Dövlətin dayanıqlı inkişafının mühüm amillərindən biri birləşdirici milli ideyanın varlığı və onun vətəndaşlar tərəfindən dərkidir. Əlbəttə, inkişafın strateji xətti, prioritetləri daima dəyişilir. Çünki, "millət" dinamik tarazlıq halında qərarlaşmış, zaman-zaman bir-birini əvəz edən dəyərlər fonunda yalnız sarsılmayan, xalqın qanına və canına hopmuş prioritetləri qoruyub saxlayır.

Azərbaycançılıq məfkurəsi həm də Azərbaycan xalqının vəhdətliyinin qorunmasında mühüm bir silahdır. Milli-etnik mənsubiyyətindən asılı olmayaraq Azərbaycan dövlətinin vətəndaşı olmaqdan qürur duyan hər kəs üçün Azərbaycan doğma vətəndir. Ölkə nə qədər çox xalqı birləşdirirsə, bir o qədər zəngin olar. Azərbaycanın polietnikliyi dövlətimizin, xalqımızın tolerantlığının, humanistliyinin əyani sübutudur.

Son dövrlərdə ölkəmizdə Azərbaycançılıq ideologiyasının nəzəri əsaslarının öyrənilməsi istiqamətində mühüm addımlar atılmış, milli ideologiyanın müxtəlif aspektlərinə həsr edilmiş bir sıra sanballı əsərlər yazılmışdır. Azərbaycançılıq ideologiyasının təşəkkül tapmasının tarixi-coğrafi, etnik-milli və mənəvi-mədəni şərtləri, təkamül mərhələləri, Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının nəzəri və əməli inkişafında rolu və xidmətləri, İlham Əliyevin dövlətçilik fəaliyyətində Azərbaycançılığın inkişafı və digər məsələlər çox böyük əhəmiyyətə malikdir.

Heydər Əliyevin fəlsəfəsində "vətən amalı" anlayışının strukturunda vətənə xidmət prinsipi mühüm yer tutur. Hər bir xalqın yaşadığı torpaq onun ruhi beşiyidir, çünki vətən hissi, millətin mənəvi-əxlaqi dəyərləri məhz bu etnik məkanda formalaşır. Heydər Əliyevin çıxış və nitqləri ilə dərindən tanışlıq belə bir

güclü əqidəyə əminlik yaradır ki, insanların öz doğma etnik beşiyinə ülvi məhəbbəti, öz doğma diyarına bağlılığı, xalqın ənənələrinə və adətlərinə dərin ehtiramı sosial fenomen kimi hazırda müstəqil Azərbaycanın vətəndaşlarının yeni mental keyfiyyətlərinə çevrilməkdədir. Doğma diyara və ata ocağına təbii bağlılıq xalqımızın görkəmli şair və yazıçılarının əsərlərində öz əksini tapmış, tarixi yaddaşın və tarixi şüurun Vətən xislətində əks etdirilmişdir: görkəmli şəxsiyyətlərimiz həmişə millətin bəşəri təcrübəsində xalqımızın ləyaqətini ucaldan, onu digər xalqlardan fərqləndirən mental keyfiyyətləri vəsf etmişlər. Xalqımızın həyat təcrübəsində mərdlik, cəsarət, ləyaqət, ulu babaların ənənə və adətləri, xeyirxahlıq və əməksevərliyi həmişə yüksək qiymətləndirilib. Abbas Səhhətin "Vətənim verdi mənə namü-nəmək, Vətəni məncə unutmaq nə demək" sözləri həmişə azərbaycanlıların Vətən məhəbbəti amalını şüurlarında milli mentalitetin xüsusiyyəti kimi həkk etdirib. Görkəmli şair və yazıçılar etiraf etmişlər ki, onların poeziyası, obrazlı düşüncələri, həyat müdrikliyinin mənbəyi olan xalq zərbi məsəllərindən, xalq mahnılarından başlayır, çünki bunlar Vətəni vəsf edən, Vətən məhəbbətini əbədiləşdirən qaynaqlardır. Azərbaycanlılar böyük sovet məkanında yaşasalar da, "öz kiçik" vətənlərini böyük məhəbbətlə sevmiş, onun qədim tarixi abidələrini qorumaqla şüurlarında vətən amalını yaşatmışlar.

Heydər Əliyev Azərbaycanı tanıtmaq yolunda atılan hər bir addımı Azərbaycançılığın formalaşdırılması yolunda mühüm təşəbbüs saymışdır. Xalqın milli mənlik şüuru ilə yeni dünya nizamının reallıqlarına uyğun dəyərləri əxz etməli və bir sözlə inkişaf etməli, öz milli mənliyini dərk etməlidir. "Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə də mən istədiyim yolla gedə bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə də milli mənliyimizi gərək itirməyək. [1, 1998, s.323]

Heydər Əliyevin nəzəri irsində Azərbaycançılıq anlamı öz əhatə dairəsinə görə olduqca genişdir. Ulu öndərin bu mülahizələrinə diqqət yetirək: indi müstəqil bir dövlət olan Azərbaycan bütün dünyadakı azərbaycanlıların qayğısına qalır, onların barəsində fikirləşir, düşünür. Bəzi səbəblərə görə bir çox azərbaycanlılar vətəndən kənarda yaşayırlar.. bunun müsbət cəhəti də var... əgər Brüsseldə və onun ətrafında azərbaycanlılar yaşamasaydı, mən gəlib bir azərbaycanlı kimi görüşməsəydim, özümü şübhəsiz pis hiss edərdim. Amma görürük ki, bizim azərbaycanlılar Avropada yaşayır, işləyir, həyat sürürlər. Bu sevindirici haldır". [2, 1997, s.371]

Heydər Əliyevin müstəqillik konsepsiyasında milli mənlik şüuru ilə özünüdərkin dialektikasına diqqəti cəlb etməklə milli şüur ilə tarixi idrak məsələlərinin aktuallığını ön plana çəkir. Tarixi yaddaş elə bir milli-psixoloji prosesdir ki, onun sayəsində düşünən insan dünyaya, dünya isə insana yaxınlaşır, onun dünyalaşması və dünyanın insanlaşması baş verir. Bu, özünüdərk prosesidir. Tarixi yaddaş anlayışına aydınlıq gətirmək baxımından qeyd etmək istərdik ki, özünüdərk eyni zamanda özünəqayıtmadır, bu isə insanın özünü, öz mahiyyətini yenidən kəşf etmək və onun özünün həqiqətə qovuşmasıdır. [3, 2004, c.8-59. 256 c.]

"Bizim tariximiz bizə ibrət dərsi verməlidir". Ulu öndərin bu ibrətamiz fikri tarixi yaddaşımıza yazılanları, həkk olunanları dərindən öyrənməyə böyük stimuldur. Həqiqətən də tarixi unutqanlıq millətin ruhunu öldürür, onun mənlik şüuruna, mənəviyyatına ziyan vurur.

Heydər Əliyevin vətən amalı təliminin mühüm struktur elementlərindən biri Vətənin taleyi üçün məsuliyyət hissidir. O, xalqının ağır vəziyyətində məsuliyyət hissinin artırılmasını Vətənə dönməz sədaqətin təzahürü sayır. Dünyada müstəqil dövlət kimi tanınmış Azərbaycanın suverenliyinin təhlükə altında olmasını xalqın düşüncəsinə xüsusilə çatdıraraq ölkə prezidenti Bakıda ümumrespublika müşavirəsindəki çıxışında (avqust 1993) demişdir: "Biz, böyük imtahan içindəyik və bu imtahandan ləyaqətlə çıxmalıyıq. Hər bir azərbaycanlı, əgər onun qəlbində doğrudan da Azərbaycanlı hissiyyatı varsa, nəbzi Azərbaycan xalqının ümumi nəbzi ilə həmahəng vurursa, bu yolla getməlidir". Həqiqətən də, vətən amalı, hər şeydən əvvəl, vətən üçün faydalı və vicdanlı iş görmək deməkdir.

Etiraf edək ki, mətin iradəli böyük siyasətçi və səriştəli dövlətçilik təcrübəsinə malik Heydər Əliyev xalqını bu ağır günlərdə ruhdan düşməməyə çağırır, özünün yüksək mənəvi keyfiyyətlərini bir daha nümayiş etdirməyə səsləyirdi. Həmin dövrdə, Heydər Əliyev xalqa "Vətən və tarixi məsuliyyət" anlamının vəhdətdə ən yüksək mənəvi keyfiyyət olduğunu inandırıcı surətdə aşılaya bilmişdir. Xalq dərk etməyə başlayırdı ki, gələcək nəsillərin azad, müstəqil, öz milli ənənələrinə, tarixi ənənələrinə sədaqətli ola bilməsi üçün dərindən düşünməlidir. Bu elə bir tarixi məsuliyyət anıdır ki, hər kəs hər şey üçün məsuliyyət daşımalı, öz vicdanı qarşısında cavab verməlidir. Heydər Əliyev üçün vətən və vicdan bir əxlaqi məcrada təsəvvür edilən anlayışlardır. Vicdan əzabı çəkməyən vətəndaş Vətən amalının ülviliyini dərk edə bilməz. Ona görə o, xalqın düşüncəsində bir daha belə ülvi keyfiyyətin önəmliliyini xatırladaraq deyirdi: "Xalq, insan daxili gücünü, iradəsini həmişə ağır dövrlərdə büruzə verir".

Ulu öndərin "vətən konsepsiyası"nın məzmununda "vətənə xidmət" anlayışı əhəmiyyətli yer tutur. O, hesab edirdi ki, hər bir xalqın yaşadığı torpaq onun ruhi beşiyidir, çünki millətdə vətən hissi, onun əxlaqi dəyərləri məhz yaşadığı torpaqda və sevdiyi vətənində ali dəyərlər kimi formalaşır.

Hakimiyyət mənəvi cəhətdən güclü olarsa, onun beynəlxalq nüfuzu da yüksək olar. İtaliya politoloqu Antonio Menegettinin bir yaxşı ifadəsi var. O yazır: "Əgər hakimiyyət başqaları üçün özünürealizə etməyə imkanlar açmırsa o, tarixi əhəmiyyət kəsb etmir". [4. 2002, c.36]

Heydər Əliyevin fikrincə, yalnız səriştəli və xalq qarşısında siyasi-mənəvi məsuliyyət daşıyan lider cəmiyyətdə baş verən yeniləşmə proseslərini idarə edə bilər. Biz deyərdik ki, bu prinsip onun hakimiyyət konsepsiyasının məhək daşıdır. O, keçmişin hadisələrinə sağlam düşüncə mövqeyindən yaradıcı yanaşaraq tarixi ənənələrə nihilist münasibəti qəbul etmirdi.

Milli ideyalara yiyələnmiş xalq milli liderlərin ətrafında sıx birləşəndə Azərbaycançılığın mühüm tərkib hissəsi olan həmrəylik fenomeni reallığa çevrilir. Xalq milli ideyanı dərk edəndə onun rolu daha da artır və yalnız o halda milli ideya dönməz olur. Azərbaycançılıq, bu gün Azərbayacn dövlətinin siyasətində hakim ideya, bir siyasi xətt kimi çıxış edir.

Məhz ümummilli lider Heydər Əliyevin önəmli siyasi ideyaları sayəsində Azərbaycançılıq inkişaf edərək artıq siyasi ideologiya səviyyəsinə yüksəlmiş, dünya azərbaycanlılarının amalına və məsləkinə çevrilmişdir.

Ulu öndərin bütövlükdə milli inkişaf konsepsiyasının aparıcı elementi olan Azərbaycançılıq ideologiyası, həm ölkəmizdə, həm xaricdə yaşayan soydaşlarımızı həmrəyliyə səsləyən milli dəyərdir. "Bütün Azərbaycanlıların indi dünyada bir vətəni var. O da Azərbaycan Respublikasıdır. Bir dövlətimiz var. Bu müstəqil Azərbaycan Respublikasıdır. Gəlin, hamımız bu dövlətin, bu vətənin ətrafında birləşək". "Sizin ən ümdə vəzifəniz vətənə, ölkəmizə, doğma torpağımıza daim sədaqətli olmaqdır. Hər bir gənc bunu heç vaxt unutmamalıdır. Nə olursa-olsun vətənə, xalqına, ölkəsinə, dövlətinə sədaqət hər bir gənci daim yaşadacaq və ona cəmiyyətdə özünə layiq, özü istədiyi yeri tapmağa imkan verəcəkdir".

Beləliklə, sonda biz alman filosofu Maks Veberin bir ifadəsini xatırlatmaq istərdik: "Biz ona görə insanıq ki, dünyaya, ətrafımıza insani məna kəsb etdirmək qabiliyyətinə, iradəsinə malikik". "Biz" bu gün qətiyyətlə deyə bilərik Heydər Əliyevin "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" ideyası nəinki milli manifest kimi səslənir, həm də onun Azərbaycançılıq konsepsiyası xalqımızın müstəqilliyini, milli varlığını, mənəvi ləyaqətini mənalandırır, gələcəyini nurlandırır. Məhz buna görə də Heydər Əliyev irsi Azərbaycan xalqının misilsiz, əvəzolunmaz milli sərvəti olmaqla Azərbaycanın modern inkişaf strategiyasının nəzəri mənbəyini təşkil edir.

Ədəbiyyat

1.Əliyev H. Müstəqilliyimiz əbədidir. V c. Bakı: Azərnəşr, 1998, s.323

2.Əliyev H. Müstəqilliyimiz əbədidir. III c. Bakı: Azərnəşr, 1997, s.371

3.Маралов В.Г. Основы самосознания и саморазвития. Раздел: Психология самосознания., М.: Академия, 2004, с.8-59. 256 с.

4.Менегетти А. Психология лидера. М.: ННБФ Онтопсихология. 2002, с.36

РЕЗЮМЕ
ИДЕИ ГЕЙДАРА АЛИЕВА ЯВЛЯЮТСЯ ТЕОРЕТИЧЕСКИМ ИСТОЧНИКОМ СОВРЕМЕННОЙ СТРАТЕГИИ РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА

Алиев Г.Дж.

***Ключевые слова**: национальная идея, азербайджанская идеология, патриотический долг, национальное самосознание, историческое осмысление*

Идеи Гейдара Алиева сыграли исключительную роль в жизни азербайджанского народа. Одним из важных факторов устойчивого развития государства является национальная идея. Эта идея объединяет и обогащает страну и народ. Азербайджан закладывает основу для современной стратегии развития. Идеи Гейдара Алиева выступают теоретическим источником для этой стратегии развития. У граждан Азербайджана формируются новые ментальные качества. Это еще больше развивает историческую память и историческое самосознание. Народ должен впитывать и развивать новые ценности с национальным самосознанием и понимать свое национальное "я".

В идеях Гейдара Алиева на первый план выдвигаются вопросы национального самосознания и исторического познания. Наследие Гейдара Алиева является уникальным и незаменимым национальным богатством азербайджанского народа и представляет собой теоретический источник современной стратегии развития Азербайджана.

SUMMARY
HEYDAR ALIYEV'S IDEAS ARE THE THEORETICAL SOURCE OF THE MODERN DEVELOPMENT STRATEGY OF THE AZERBAIJANI PEOPLE

Aliyev G.J.

***Key words:** national idea, Azerbaijani ideology, patriotic duty, national self-consciousness, historical understanding*

Heydar Aliyev's ideas played an exceptional role in the life of the Azerbaijani people. One of the important factors of sustainable development of the state is the national idea. This idea unites and enriches the country and the people. Azerbaijan lays the

groundwork for a modern development strategy. The ideas of Heydar Aliyev act as a theoretical source for this development strategy. Azerbaijani citizens are forming new mental qualities. It further develops the memory of history and historical awareness. The people should absorb and develop new values with national self-consciousness and understand their national self.

In Heydar Aliyev's ideas, issues of national self-consciousness and historical cognition are brought to the fore.The legacy of Heydar Aliyev is the unique and irreplaceable national wealth of the Azerbaijani people and constitutes the theoretical source of Azerbaijan's modern development strategy.

AZƏRBAYCAN DÖVLƏTİNİN İQTİSADİ SİYASƏTİ: MƏQSƏD VƏ NƏTİCƏLƏR

Əliyev Teyyub Qəni oğlu
Əliyeva Şəms Teyyub qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan
teyyub-qenioglu@mail.ru ; adnsu.nenk73@mail.ru

Açar sözlər: *iqtisadi siyasət, məqsəd, hüquqi baza, reallaşdırma, nəticələr.*

İnsan həyatının bütün sahələri bu və ya digər şəkildə dövlətdə bərqərar olmuş iqtisadi münasibətlərlə bağlıdır. Müasir reallıqlarda hər bir dövlət həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda təhlükəsizliyini təmin etmək üçün zəruri olan güclü iqtisadi baza yaratmağa çalışır. Həm də diqqətəlayiq haldır ki, dövlət orqanları ölkənin iqtisadi siyasətini və nəticədə onun inkişaf vektorunu, məqsədlərini müəyyən edir. Bəziləri hesab edir ki, iqtisadiyyat elm deyil, çünki hamı "saymağı" bacarır. Bu bir yanlışlıqdır. İqtisadiyyat fəlsəfə və ya riyaziyyat kimi qədim elmdir. O, insanların öz maddi sərvətlərini barter etməklə, toplamaqla məşğul olduqları bir vaxtda yaranmışdır. Yəni ilk dövlətçiliyin yaranması ilə bir elm kimi iqtisadiyyat da meydana çıxmışdır. Həm də diqqətəlayiq haldır ki, istənilən dövlətdə iqtisadiyyat həmişə ön planda olub, çünki dövlətin əsas gəliri həmişə öz vətəndaşlarının, fəaliyyət göstərən hüquqi şəxslərin vergisi hesabına formalaşır.

İqtisadi nəzəriyyədə ümumən qəbul edilir ki, dövlət və iqtisadiyyat ayrılmaz şəkildə bağlıdır. Çünki insanları birləşdirib dövlət yaratmaq üçün maddi nemətlər və ümumi məqsəd lazımdır. Dövlət yaranan kimi onunla münasibətlər, ilk növbədə bazar münasibətləri yaranır. Buradan belə nəticə çıxır ki, hər bir cəmiyyət iqtisadiyyatdan, iqtisadiyyat isə əksinə, bütövlükdə cəmiyyətdən və dövlətdən asılıdır. Məhz bunu nəzərə alaraq ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, hər bir inkişaf etmiş dövlət ölkədə mövcud olan iqtisadi əlaqələrə əsaslanaraq öz inkişafının əsasını qoyur. İqtisadiyyatın gəlir gətirən bütün sahələrini inkişaf etdirmək istəyi dövlət üçün normal haldır. İnkişaf edən iqtisadiyyat həm cəmiyyətin ayrı-ayrı sahələrini, həm də bütövlükdə cəmiyyəti, dövləti inkişaf etdirir.

Məlumdur ki, SSRİ-nin süqutu, onun tərkibinə daxil olan müttəfiq respublikaların, o cümlədən Azərbaycanın, ənənəvi qarşılıqlı iqtisadi əlaqələrinin pozulmasına, müstəqillik qazanmış hər bir respublikada iqtisadi böhranlara səbəb olmuşdu. Bununla yanaşı, xarici havadarlarının, ilk növbədə Rusiyanın, hərtərəfli siyasi, maliyyə və hərbi dəstəyinə arxalanan Ermənistanın Azərbaycan ərazisinin 20,0%-ni işğal etməsi, yüzlərlə sənaye, kənd təsərrüfatı və s. sahələrdə fəaliyyət göstərən müəssisələrin iqtisadi dövriyyədən çıxması, bir milyona yaxın soydaşlarımızın doğma torpaqlarından didərgin salınması, ötən əsrin 90-cı illərində ölkəmizdə iqtisadi böhranı daha da dərinləşdirmiş, hərbi təcavüzü dəf etmək, işğala son qoymaq, iqtisadi inkişafa nail olmaq üçün ciddi maliyyə çatışmazlığına səbəb olmuşdu. Yaranmış vəziyyət Azərbaycan dövləti qarşısında qısa müddət ərzində iqtisadi inkişafa nail olmaq məqsədini qoymuşdu. Bunun üçün ilk növbədə iqtisadi inkişafın hüquqi bazasını formalaşdırmaq tələb olunurdu. Bu məqsədlə Prezident, ümummilli lider Heydər Əliyevin təşəbbüsü və birbaşa göstərişi ilə qısa müddət ərzində bir neçə qanun, Dövlət Proqramları, Prezident Fərmanları və s. qəbul edilmiş və həyata keçrilmişdir. Onların sırasında "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"nın [3], "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın [4], "Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun [5], "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının [6], "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının Qanununun [8] qəbul edilməsi, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsinə dair 1994-cü il sentyabr ayının 20-də imzalanmış "Əsrin müqaviləsinin" və s. xüsusi rolu olmuşdur. Məhz iqtisadi inkişafın təmin edilməsi məqsədi ilə həyata keçirilən siyasətin, onun reallaşdırlması üçün qəbul edilmiş qanunların, Dövlət Proqramlarının və s. həyata keçirilməsi nəticəsində, 1995-ci ildən etibarən,

Azərbaycan iqtisadiyyatı inkişaf etməyə başlamış və hal-hazırda iqtisadi inkişaf sahəsində regionumuzun lider dövlətinə çevrilmiş, ölkəmizin iqtisadi təhlükəsizliyi təmin edilmişdir. Uğurlu iqtisadi siyasətin həyata keçiriməsinin bəzi nəticələri aşağıdakı cədvəldə əks etdirlmişdir.

Məlumdur ki, ölkə iqtisadiyyatının inkişafını xarakterizə edən ən mühüm göstərici istehsal olunan ümumi daxili məhsulun (ÜDM) həcmi göstəricisidir. Araşdırmalar göstərir ki, 1995-2021-ci illər ərzidə ölkəmizdə istehsal olunan ÜDM-un həcmi mütəmadi olaraq artmağa doğru meyl etmişdir. Nəticədə 2021-ci ildə Azərbaycanda bu göstəricinin həcmi 1995-ci illə müqayisədə 43,5 dəfə artmışdır. Dünyanın heç bir ölkəsidə 26 il ərzində belə yüksək göstəriciyə nail olunmamışdır. Bunun nəticəsidir ki, Cənubi Qafqazın üç ölkəsində istehsal olunan ÜDM-un təqribən70,0%-dən çoxu Azərbaycanın payına düşür.

Təsərrüfat-istehsal fəaliyyəti nəticəsində əldə edilmiş xalis milli gəlirin həcmi ölkədə geniş təkrar istehsalın həyata keçirilməsində mühüm rol oynayır. ÜDM-un həcminin artması bu göstəricinin də həcminin ilbəil artmasına imkan yaratmışdır. Belə ki, əgər Azərbaycanda qazanılmış xalis milli gəlirin məbləği 1995-ci ildə 1830,3 milyon manat təşkil edirdisə, onun səviyyəsi 2021-ci ildə 45,7 dəfə artaraq 83643,1 milyon manata yüksəlmişdir.

Nəzərdən keçirilən müddət ərzində ölkə əhalisinin hər nəfərinə düşən gəlirlərin miqdarı da artmağa doğru meyl etmişdir. Bu göstərici, dolayı da olsa, ölkə əhalisinin rifah halının yaxşılaşdığına dəlalət edir ki, bu da aparılan uğurlu iqtisadi siyasətin nəticəsidir. Təhlil göstərir ki, bu göstəricinin səviyyəsi son 26 ildə 31,5 dəfə artmışdır.

Ölkə iqtisadiyyatının inkişafında xarici iqtisadi əlaqələrin təşkili səviyyəsi, idxalın və ixracın əmtəə strukturu mühüm əhəmiyyət daşıyır. Müəstəqillik əldə etdikdən sonra Azərbaycan beynəlxalq iqtisadi əlaqələrin tam hüquqlu subyektinə çerilmiş və bu əlaqələri inkişaf etdirmək üçün mükəmməl hüquqi-iqtisadi baza yaratmışdır. Ölkəmizin xarici iqtisadi əlaqələrinin formalaşdırılmasında və inkişafında **"**Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı [7] və "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu [8] xüsusi rol oynamışdır. Uğurla həyata keçirilən xarici iqtisadi siyasətin nəticəsidir ki, ökəmizizin xarici iqtisadi əlaqələri müstəqillik illəri ərzində əsasən artmağa doğru meyl etmişdir. Belə ki, əgər 1995-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi cəmi1304,9 milyon manat, 2005-ci ildə-8558,4 milyon manat (1995-ci illə müqayisədə-6,6 dəfə çox), 2010-cu ildə-33160,7 milyon manat (2005-ci illə müqayisədə 3,9 dəfə çox) olmuşdursa, 2015-ci ildə 2010-cu illə müqayisədə 22,2% azalaraq 25809,0 milyon manata və 2020-ci ildə 2015-ci illə müqayisədə 6,2 % azalaraq 24203,5 milyon manata enmişdir.

Cədvəl.

Azərbaycanın sosial-iqtisadi inkişafını xarakterizə edən göstəricilərin dinamikası

İllər	ÜDM, mln. manat	Xalis milli gəlir, mln. manat	Əhalinin hər nəfərinə düşən gəlirlər, manat	Xarici iqtisadi fəaliyyət				İqtisadiyyatda məşğul olanların orta aylıq nominal əmək haqqı, manat	Məşqulluğun səviyyəsi, %	İşsizliyin səviyyəsi, %
				dövriyyə, mlyn. ABŞ dolları	idxal, mlyn. ABŞ dolları	ixrac, mlyn. ABŞ dolları	saldo, mlyn. ABŞ dolları			
1995	2133,8	1830,3	177,2	1304,9	667,7	637,2	-30,5	12,5*	99,2	0,8
2000	4718,1	4043,5	508,9	2917,3	1172,1	1745,2	573,1	44,3*	98,8	0,2
2005	12522,5	9849,9	962,2	8558,4	4211,2	4347,2	136,0	123,6	92,7	7,3
2010	42465,0	37623,1	2866,0	33160,7	6600,6	26560,1	19959,5	331,5	94,4	5,6
2015	54380,0	48997,9	4709,8	25809,0	9216,7	16592,3	7375,6	466,9	95,0	5,0
2020	72432,2	66925,4	5509,8	24203,5	10730,7	13470,4	2739,7	707,7	92,8	7,2
2021	92857,7	83643,1	5575,2	35556,4	11705,8	23850,6	12144,8	732,1	94,0	6,0

***Qeyd:** manatın denominasiyası nəzərə alınmaqla.*

***Mənbə:** Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuələr*

Araşdırmalar göstərir ki, 2015-ci ildə xarici ticarət dövriyyəsinin həcminin azalması əsasən ixrac edilən xam neftin dünya bazarlarında qiymətinin aşağı düşməsi, 2020-ci ldə isə- koronavirus pandemiyasının təsiri nəticəsində baş vermişdir. Ancaq 2021-ci ildə bu göstəricinin həcmi əvvəllki illə müqayisədə 46,9 % artaraq 35556,4 milyon manata yüksəlmişdir.

Nəzərdən keçirilən illər ərzində idxalın həcmi artmağa doğru meyl etmişdir. Nəticədə bu göstəricinin həcmi 2021-ci ildə 1995-ci illə müqayisədə 17,5 dəfə artmışdır.

Yuxarıda qeyd edilən səbəblər 2015-ci və 2020-ci illərdə Azərbaycanın ixracının həcminin azalmasına da səbəb olmuşdur. Ancaq 2021-ci ildə ölkəmizin ixracının həcmi yenidən artmış və 23850,6 milyon manata yüksəlmişdir. Azraşdırmalar göstərir ki, 1995-ci il istisna olmaqla, Azərbaycanın xarici iqtisadi əlaqələri hər il müsbət saldo ilə başa çatmışdır.

Ölkə iqtisadiyyatının inkişafında dövlətin qarşıya qoyduğu əsas məqsədlərdən biri və birincisi əhalinin rifah halının ilbəil yüksəldilməsidir. Əhalinin güzəranının yaxşılaşmasında iqtisadiyyatda məşğul

olanların orta aylıq nominal əmək haqlarının artırılması xüsusi əhəmiyyətə malikdir. Bunu nəzərə alaraq Azərbaycan dövləti bu göstəricinin yüksəldilməsi üçün mütəmadi olaraq tədbirlər həyata keçirir. Həyata keçirilən tədbirlər nəticəsində iqtisadiyyatda məşğul olanların orta aylıq nominal əmək haqqı 2021-ci ildə 732,1 manata yüksəlmişdir.

Ölkənin iqtisadi inkişaf səviyyəsi ilə əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsi arasında birbaşa əlaqə vardır və bu göstəricilərin səviyyəsi biri-birindən asılıdır. Ona görə dövlətin sosial-iqtisadi siyasətinin əsasında məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədi dayanır. Nəzərdən qaçırmaq olmaz ki, məşğulluq təkcə fərdin problemi deyil, o, həm də cəmiyyətin problemidir. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına istinadən belə nəticəyə gəlmək olar ki, son illər bu göstəricinin səviyyəsində cüzi fərqlər olsa da, ölkəmizdə məşğulluğun səviyyəsi kifayət qədər yüksək, işsizliyin səviyyəsi aşağıdır. Belə ki, 2021-ci ildə məşğulluğun səviyysəsi 94,0% təşkil etmişdir ki, bu da əvvəllki illə müqayisədə 1,2% çoxdur. Rəsmi məlumatlara görə, 2021-ci ildə Azərbaycanda işsizliyin səviyyəsi 6,0% təşkil etmişdir ki, bu da ümumiyyətlə normal göstərici hesab edilə bilər.

Aparılan araşdırmalardan belə nəticəyə gəlmək olar ki, müstəqillik əldə etdikdən sonra, xüsusilə umummilli lider Heydər Əliyevin təşəbbüsü ilə, Azərbaycanda həyata keçirilən iqtisadi siyasət öz məqsədlərinə çatmaqda və gözlənilən nəticələri verməkdədir. Əminliklə demək olar ki, bu istəqamətdə siyasət davam edəcək və Azərbaycan iqtisadiyyatı daha da inkişaf edəcəkdir.

Ədəbiyyat

1.Müstəqil Azərbaycan 20 il. Statistik məcmuə. ARDSK. Bakı, 2011- ci il. 640 səh.

2. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. ARDSK. Bakı, 2013- ci il. s. 747,749,770,804,812, 814.

3.“Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı”. Bakı, 1996.

4.“Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı”. Azərbaycan Respublikasının Qanunlar Külliyatı.III kitab, Bakı, 2001, səh. 660-670.

5. “Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikası Qanunu“. Azərbaycan Respublikasının Qanunlar Külliyatı.III kitab, Bakı, 2001, səh. 515-520.

6. “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 10 sentyabr 2002. “Azərbaycan” qəzeti,11.09.2002.

7. **“**Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 5 aprel 1994-cü il. https://e-qanun.az/ framework/8833 № 125.

8. “Xarici investisiyaların qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Qanunlar Külliyatı.II kitab, Bakı, 2001.

РЕЗЮМЕ

ЭКОНОМИЧЕСКАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА: ЦЕЛИ И РЕЗУЛЬТАТЫ

Алиев Т.Г, Алиева Ш.Т.

Ключевые слова: *экономическая политика, цель, правовая основа, реализация, результаты*

В статье отмечается, что каждое государство стремится создать прочную экономическую базу, которая необходима для обеспечения его безопасности как внутри страны, так и за ее пределами. Для этого, прежде всего, необходимо сформировать правовую основу экономического развития. С этой целью по прямому указанию и инициативе бывшего Президента Азербайджанской Республики, общенационального лидера Гейдара Алиева были приняты и реализованы ряд законов, Государственных Программ, указов и т.д.. В статье описаны некоторые результаты экономической политики, проводимой в нашей стране.

SUMMARY

ECONOMIC POLICY OF THE STATE OF AZERBAIJAN: GOALS AND RESULTS

Aliyev T.G., Alieva Sh.T.

Key words*: economic policy, goal, legal framework, implementation, results.*

The article notes that each state seeks to create a solid economic base, which is necessary to ensure its security both within the country and abroad. To do this, first of all, it is necessary to form a legal basis for economic development. To this end, on the direct instructions and initiative of the late President of the Republic of Azerbaijan, national leader Heydar Aliyev, a number of laws, State Programs, decrees, etc. were adopted and implemented. The article describes some of the results of the economic policy pursued in our country.

AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI

Əliyeva Leyla Elxan qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
leyla_848484@list.ru

Açar sözlər: *Heydər Əliyev, dövlət quruculuğu, İlham Əliyev, idarəçilik, müstəqillik*

Azərbaycanın dövlət müstəqilliyinin bərpa etməsi

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası öz müstəqilliyini elan edərək, suveren dövlət kimi Azərbaycan Xalq Cümhuriyyətini yaratdı. Bu, itirilmiş müstəqilliyin dirçəlişini göstərirdi. Həmin dövrdə bir çox xarici dövlətlər Azərbaycanı şərqdə ilk müsəlman dövləti kimi tanıdı və onun təsisatları sürətlə müstəqil dövlət kimi formalaşdı. Təəssüflər olsun ki, 1920-ci ildə Sovet Rusiyasının tərkibində bolşeviklər Azərbaycanın müstəqilliyinə son qoyduğundan bu müstəqillik qısamüddətli oldu. Lakin Azərbaycan xalqının sahib olduğu azadlıq və müstəqillik ideallarını Sovet imperiyası boğmaq mümkün olmadı. Sözləri ilə əməllərini uyğunlaşdıra bilməyən kommunist ideologiyası istər-istəməz dağılmağa məhkum idi. 70 il xalqı aldatmasına baxmayaraq, sonda fəlakətli bir süqutla dağıldı [1, səh.5].

Azərbaycan Respublikasının Ali Soveti AR-ın demokratik prinsiplərini və ənənələrini miras qoyaraq, Azərbaycan Milli Şurasının 28 may 1918-ci il tarixli İstiqlal Bəyannaməsini, habelə "Dövlətin bərpası haqqında" qərarını rəhbər tutaraq 1991-ci il avqustunda Ali Sovetin qəbul etdiyi "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" qanun layihəsi oktyabrın 18-i 1991-ci ildə Azərbaycanın müstəqilliyi haqqında Konstitusiya Aktını təsis etdi. Lakin idarəyə ölkəni irəli apara bilməyən təcrübəsiz şəxslər rəhbərlik edirdi.

Milli azadlıq mübarizəsinə məsuliyyətli ziyalılar, təcrübəli dövlət xadimləri, güclü siyasətçilər rəhbərlik edirdi. Lakin siyasi səhnəyə yeni gələn, təcrübəsiz, qeyri-sabit, şəxsi və qrup maraqlarının güdüldüyü şəxslər hökmranlıq edirdilər. Bu, respublikanı oyuncaq dövlətə çevirməyə, istədikləri kimi idarə etməyə çalışan qüvvələrə sərf edirdi. Onlar xalqın təcrübəli, xalq tərəfindən hörmət edilən, qəbul edilən siyasətçilərin ətrafında birləşəcəyindən ehtiyatlanır və bunun qarşısını almağa çalışırdılar [8].

1992-ci ilin mayında xalqın milli azadlıq və suverenlik tələbləri zəminində hakimiyyəti ələ keçirən AXC-Müsavat cütlüyü dərhal siyasi liderlik qabiliyyətinə malik olmadıqlarını nümayiş etdirdilər. Onların Azərbaycanda bir il sürən hakimiyyəti həm daxili, həm də xarici siyasət adı altında insani-mənəvi dəyərlərin, dövlətçilik ənənələrinin, idarəçilik təcrübələrinin tənəzzül və süqutunu nümayiş etdirən biabırçılıq idi. Zorla, silahla hakimiyyətə gələn komanda yarıtmaz, səriştəsiz, cinayətkar əməlləri ilə ölkəni məhv olmaq həddinə çatdırdı.

O zaman Azərbaycan xalqının böyük əksəriyyəti ümummilli lider Heydər Əliyevin üzləşdiyi problemlərin ancaq onun rəhbərliyi ilə həll oluna biləcəyinə inanır və onu respublikaya qayıtmağa çağırırdı. Heydər Əliyev vətən yolunda gördüyü işlərə və xidmətlərinə görə xalq tərəfindən böyük hörmət və məhəbbətlə qarşılanmış və bu heyranlıq artmaqda davam etmişdir. Bu mürəkkəb və böhranlı dövrdə Naxçıvan Muxtar Respublikası (NMR) Ali Məclisinin rəhbəri olmuş Heydər Əliyev milli dövlətçiliyin taleyindən çox narahat idi. O, artıq Azərbaycanın müstəqilliyi uğrunda əzmkar mübarizəyə başlamışdı. Naxçıvanda yaşayıb siyasi fəaliyyət göstərən xalq oğlu əsl dövlət müstəqilliyinin əsasını qoydu. Onun rəhbərliyi nəticəsində NMR Azərbaycan xalqının suveren hüquqlarının və müstəqilliyinin bərpası uğrunda mübarizənin mərkəzinə çevrildi. Ulu öndərin Naxçıvanda həyata keçirdiyi siyasət sayəsində bu qədim Azərbaycan torpağında Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributlarının bərpası, muxtar respublikanın adından "sovet sosialisti"nin çıxarılması kimi tarixi qərarlar qəbul edildi və 20 Yanvar hadisəsinə siyasi qiymət verildi [2, səh.3].

1990-cı illərin əvvəllərində Azərbaycan rəhbərləri müstəqilliyin səthi forması ilə kifayətləndilər və 1991-ci il martında Sovet İttifaqını qoruyub saxlamaq məqsədi ilə keçirilən referendumda iştirak etdilər. Lakin Heydər Əliyevin məsləhəti ilə NMR referendumda iştirakdan imtina edərək, əvəzində bütün diqqətini imperiyanın qorunub saxlamasına çalışan qüvvələrə qarşı yönəltdi. İlk növbədə Kommunist Partiyasına və Sovet dövlətinə açıq etirazını bildirərək onların riyakar siyasətini ifşa etdi, 1991-ci il iyulun 19-da Kommunist Partiyasından çıxdı. Naxçıvanın işlərinə qarışmaq cəhdlərinin qarşısı alındı, Azərbaycan Ali Soveti müvafiq qanunvericilik qərarları qəbul etməyə çağırıldı [9].

Heydər Əliyevin həyat və fəaliyyətinin Naxçıvanda olduğu dövr Azərbaycanın müstəqilliyinin əsasını qoydu. Bu prinsiplər və təcrübələr sonralar müstəqil dövlətin inkişafına böyük töhfə verdi. 1991-1993-cü illər Azərbaycan tarixində haqlı olaraq "itirilmiş illər" hesab olunur, belə ki, ölkə böyük problemlərlə üzləşmiş, bəzi ərazilər işğal edilmiş, müstəqilliyin itirilmək təhlükəsi yaranmışdı. Amma 1993-

cü il iyunun əvvəlində Heydər Əliyev xalqın xahişinə cavab olaraq Naxçıvandan Bakıya qayıtdı, ölkəni təhdid edən təhlükələrə son qoydu, insanların qəlbinə rahatlıq gətirdi.

Baxmayaraq ki, Konstitusiya Müstəqilliyi Aktı qəbul edildi, o, həqiqətən də Azərbaycana müstəqillik gətirmədi. Azərbaycanın müstəqilliyinin əsl başlanğıcı 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi hesab olunur. Onun 1993-2003-cü illərdə ölkəyə rəhbərlik etdiyi illərdə müstəqillik möhkəmlənərək əbədi və dönməz olmuşdur. Bu dövr göstərdi ki, Heydər Əliyev kimi lider olmadan xalq öz siyasi iradəsini ortaya qoya, müstəqilliyə nail ola bilməz [4, səh.4].

Liderin dövlət quruculuğu fəlsəfəsinə görə, müstəqillik üçün siyasi sabitlik və güclü dövlət hakimiyyəti mühüm əhəmiyyət kəsb etməkdədir. Heydər Əliyev siyasi fəaliyyətə başladığı vaxtdan bu şərtlərin yaradılmasına, müstəqillik prosesinə xələl gətirə biləcək istənilən daxili və ya xarici qüvvələrin zərərsizləşdirilməsinə çalışırdı. Digər ictimai problemləri həll etmək üçün siyasi sabitlik lazım idi.

Prezident Heydər Əliyevin milli dövlət quruculuğunda irsinin əlamətdar xüsusiyyəti onun dövlət quruculuğu proseslərinə, o cümlədən yeni konstitusiyanın qəbuluna, parlamentin və məhkəmə sisteminin yaradılmasına, dövlət quruculuğunda mühüm irəliləyişlərə sarsılmaz nəzarəti olmuşdur. O, Azərbaycan dövlətçiliyinin inkişafının nəzəri konsepsiyasını yaratmış, bazar iqtisadiyyatını inkişaf etdirmişdir.

Hələ Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri kimi o, Naxçıvan iqtisadiyyatına mühüm təsir göstərən torpaq islahatları və özəlləşdirmə siyasətini həyata keçirmişdir. Bazar əsaslı iqtisadi islahatlar, sahibkarlığın təşviqi, əlverişli qanunvericilik bazası ölkəyə xarici investisiyaları cəlb etdi. Ulu öndər aqrar islahatlar da apardı, özəlləşdirmə proqramını uğurla həyata keçirdi, kəndlilərə torpaq verdi. Heydər Əliyevin Azərbaycanın gələcəyinə baxışı demokratik inkişaf, hüquqi dövlət quruculuğu, azərbaycançılıq, vətəndaş birliyi idi [3, səh.3].

Heydər Əliyev vurğulayırdı ki, dövlət öz siyasi müstəqilliyini və sabitliyini təmin etmək üçün iqtisadi müstəqilliyə malik olmalıdır. O, özünün yeni neft strategiyasının nəticəsi olan "Əsrin müqaviləsi"ni imzalamaqla AR-ın dünya iqtisadiyyatında yerini təmin etdi. O, ölkənin ən qiymətli sərvəti olan nefti geosiyasət əmtəəsinə çevirərək Cənubi Qafqaz və Xəzər regionunu dünyanın supergüclərinin iqtisadi və siyasi maraqlarının mərkəzinə çevirdi.

Ulu öndər çətin anlarda, mürəkkəb situasiyalarda Azərbaycan xalqına arxalanmış, sarsılmaz güc, iradə və qətiyyət nümayiş etdirmişdir. O, güclü dövlətçilik quraraq ölkəni xaosdan və qeyri-sabitlikdən xilas etdi. O, Azərbaycanı fəlakət astanasından xilas etdi, onun əziyyətlə əldə etdiyi müstəqilliyini əbədi və dönməz etdi.

Əsası böyük dövlət xadimi Heydər Əliyevin siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi nəticəsində əldə etdiyi nailiyyətlər və müstəqil dövlətçilik prinsipləri zaman keçdikcə daha da möhkəmlənir. Prezident İlham Əliyev 20 il əvvəl seçildikdən sonra ilk bəyanatında Azərbaycanın Heydər Əliyevin müəyyən etdiyi kursdan və bu kursdan dönməyəcəyini vurğulamışdı. 1993-cü ildən başlayaraq bu kurs Azərbaycanda hüquqi və demokratik dövlət quruculuğu prosesinin başa çatması, iqtisadi islahatların həyata keçirilməsi, dinamik yüksəlişə səbəb olan iqtisadi əsasın yaradılması ilə nəticələndi. Bu, həm də Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasını və beynəlxalq hüquq normalarıyla tənzimlənən siyasət aləmində öz yerini tutmasını əhatə edirdi [6, səh.4].

Azərbaycan Respublikası 32 ildir ki, müstəqil dövlətdir ki, bunun 20 illiyinə Prezident İlham Əliyev rəhbərlik edib. Bu illər Azərbaycan üçün böyük uğurlara imza atdı, bunun da əsas səbəbi milli maraqları üstün tutan xarici siyasətdir. Ölkənin xarici siyasətinin məqsədi Azərbaycanı müasir və rəqabət qabiliyyətli ölkəyə çevirmək, Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ (DQ) münaqişəsinin sülh yolu ilə həllini tapmaq, beynəlxalq enerji, nəqliyyat, rabitə və tranzit mərkəzinə çevrilmək, vətəndaşları üçün əlverişli beynəlxalq şərait təmin etməkdir.

Azərbaycanın xarici siyasətində parlaq məqam onun BMT Təhlükəsizlik Şurasında (TŞ) qeyri-daimi üzv seçilməsi oldu. Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiyadan buna nail olan ilk ölkə olub və 2011-ci ildən Qoşulmama Hərəkatının üzvüdür. Qısa müddət ərzində Azərbaycan hərəkat üzvləri arasında böyük etimad və hörmət qazanıb. 2019-2022-ci illər üçün onun sədri seçilmişdir. Üzv dövlətlər hətta Azərbaycanın sədrlik müddətini 2023-cü ilin sonuna qədər uzadıblar. Bu nailiyyətlər Azərbaycanın beynəlxalq aləmdə qazandığı yüksək hörməti nümayiş etdirir.

Prezident İlham Əliyevin rəhbərliyi nəticəsində AR regionda müasir, güclü, rəqabətə davamlı və lider dövlətə çevrilib. Ölkə keçid dövrünü başa vurub və hazırda uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə yönəlib. Azərbaycan islahatlar gedən ölkə kimi tanınır və iqtisadi artıma görə dünyada mühüm yer tutur.

Prezident İlham Əliyevin dövründə Azərbaycan bir çox uğurlara imza atıb. Ölkədə ərzaq və enerji təhlükəsizliyini təmin edib, ÜDM-i, büdcəsi, valyuta ehtiyatları ildən-ilə artır. Neft, qeyri-neft, qaz sektorları çiçəkləndi, "Yeni əsrin müqaviləsi" imzalandı və Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısı

oldu. Üç regional inkişaf proqramı uğurla həyata keçirilib, dördüncü proqram həyata keçirilir. İşsizlik və yoxsulluğun səviyyəsi ən aşağı həddə çatıb və ölkənin şəhər və rayonlarının tikinti və abadlıq layihələri, insanların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində ölkəmiz ildən-ilə gözəlləşir.

Son 32 ildə Azərbaycan ordusunun quruculuğunda böyük nailiyyətlər əldə edib. Müdafiə Sənayesi Nazirliyi müdafiə təyinatlı silah və sursatların istehsalını səmərəli həyata keçirir. Silahlı Qüvvələrimizin peşəkar hazırlığı, maddi-texniki bazası, döyüş qabiliyyəti artırılır. Bu, İlham Əliyevin rəhbərliyi nəticəsində işğal altında olan bölgələrimizin azad edildiyi və son bir ildə uğurlu yenidənqurma işlərinin aparıldığı İkinci Qarabağ - Vətən müharibəsi zamanı özünü büruzə verdi. Bu, yolların, hava limanlarının, sosial obyektlərin, yaşayış binalarının tikintisini, su, işıq və qaz təchizatının yaxşılaşdırılmasını nəzərdə tutur. Silahlı qüvvələrimizin uğurlu fəaliyyəti BMT TŞ-in dörd qətnaməsinin yerinə yetirilməsinə, düşmənə layiqli cavab verilməsinə, torpaqlarımızdan qovulmasına səbəb olub. 44 günlük Vətən Müharibəsi nəticəsində Ermənistan məğlub oldu və təslim olmağa məcbur oldu. Bütün bunlar İlham Əliyevin rəhbərliyi altında ordu ilə xalqın birliyi sayəsində mümkün olub [5, səh.7].

Hətta COVID-19 pandemiyası fonunda Azərbaycan maliyyə resursları sayəsində böyüməyə və beynəlxalq rolunu və nüfuzunu artırmağa davam edir. Virusla mübarizəni dəstəkləmək üçün Ümumdünya Səhiyyə Təşkilatına və 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərir. Azərbaycan da pandemiyaya qarşı ölkə daxilində təsirli tədbirlər görür və nəticələr sevindiricidir.

Bu günlərdə Milli Məclisdə Respublika Günü və Milli Müstəqillik Günlərinin adının dəyişdirilməsi ilə bağlı müzakirələr aparılıb və qərar qəbul edilib. Mayın 28-nin Müstəqillik Günü, oktyabrın 18-nin Müstəqilliyin Bərpası Günü kimi təsis edilməsi 1918-ci ildə yaradılmış dövlət suverenliyinin tanınması deməkdir [7]. Müstəqilliyin 30-cu ildönümünə təsadüf edən bu dəyişiklik Azərbaycan xalqının qürur mənbəyidir.

32 illik inkişaf yolunda ən parlaq nəticə olmuşdur ki, Azərbaycan indi tam müstəqil ölkədir. Bu müddət ərzində həyata keçirilən siyasət həmişə Azərbaycan xalqının mənafeyinə xidmət edib. Azərbaycanın müstəqilliyi respublikamızın vətəndaşları üçün ən böyük sərvətdir. Demokratik, hüquqi, dünyəvi dövlətin qurulması ölkəmizin tarixi nailiyyətidir və xalqımız öz müstəqilliyi ilə fəxr edir.

Nəticə

Müstəqilliyin bərpası Azərbaycan tarixində yeni dövrün başlanğıcını qoydu. Ölkə həm daxilində, həm də beynəlxalq səviyyədə yeni dövlət qurmaq və öz suverenliyini bərqərar etmək problemi ilə üzləşdi. 1990-cı illərin əvvəllərində başlayan və AR-ın Ermənistan silahlı qüvvələri tərəfindən işğalıyla nəticələnən Dağlıq Qarabağ münaqişəsi dövlət quruculuğu prosesini çətinləşdirib. Bu çağırışlara baxmayaraq, Azərbaycan öz müstəqilliyini bərqərar etməkdə və dövlətçiliyini möhkəmləndirməkdə mühüm nailiyyətlər əldə etmişdir.

Müstəqilliyin bərpası Azərbaycanın iqtisadi və sosial inkişafına da böyük təsir göstərmişdir. Ölkədə bazar iqtisadiyyatının tətbiqi, xüsusi mülkiyyət hüquqlarının bərqərar olması, ticarət və investisiyaların genişləndirilməsi daxil olmaqla mühüm islahatlar aparılmışdır. Bu islahatlar ölkənin regional və qlobal iqtisadiyyatda mühüm oyunçu kimi yüksəlməsinə töhfə verərək, iqtisadi artımın və sosial inkişafın təşviqinə kömək edib.

Nəticədə, Azərbaycanın dövlət müstəqilliyinin bərpası ölkə tarixində dönüş nöqtəsidir. Müstəqillik və dövlət quruculuğu prosesi çətinliklərlə yadda qaldı, eyni zamanda siyasi, iqtisadi və sosial sahələrdə mühüm irəliləyişlər və nailiyyətlər əldə etdi. Azərbaycan öz müstəqilliyini və suverenliyini təsdiq etməyə davam etdikcə, regionda və dünyada getdikcə daha mühüm rol oynamağa hazırdır.

Ədəbiyyat

1. Abdullayev Z., (17 Oktyabr, 2021), Azərbaycanın müstəqilliyi əbədi, dönməz və sarsılmazdır, Xalq qəzeti, s.5
2. Hacıyev İ. (17 Oktyabr, 2021), Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi xalqımızın tarixi nailiyyətidir, Xalq qəzeti, s.3
3. İbrahimov E., (7 May, 2020), Müstəqil Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir, Azərbaycan qəzeti, s.3
4. Qafarova S., (18 Oktyabr, 2020), Azərbaycanın dövlət müstəqilliyi xalqımızın ən böyük sərvətidir, Azərbaycan, s.4
5. Qurbanlı M., (7 Noyabr, 2021), Zəfərə gedən yol, Azərbaycan, s.7
6. Mikayılov V. (11 İyul, 2020), "Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur", Respublika, s.4
7. http://www.anl.az/18oktyabr.html
8. https://genprosecutor.gov.az/az/post/2155
9. https://republic.preslib.az/az_a3.html

РЕЗЮМЕ
ВОССТАНОВЛЕНИЕ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА
Алиева Л.Э.

Ключевые слова: *Гейдар Алиев, государственное строительство, Ильхам Алиев, администрация, независимость*

Восстановление государственной независимости Азербайджана является значительным событием в истории страны. Путь к государственной независимости был не только национальной мечтой, но и трудным и тернистым путем, требовавшим традиции государственного строительства, высокого уровня развития и четкой направленности действий. Азербайджан является одним из редких народов мира, дважды за одно столетие достигшим государственной независимости благодаря исключительным достижениям на социокультурном, геополитическом и экономическом уровнях. В данной статье будет рассмотрен путь, пройденный Азербайджаном для восстановления своей государственной независимости.

SUMMARY
RESTORATION OF THE STATE INDEPENDENCE OF AZERBAIJAN
Aliyeva L.E.

Keywords: *Heydar Aliyev, state building, Ilham Aliyev, administration, independence*

The restoration of state independence in Azerbaijan is a momentous event in the nation's history. Acquiring independence was a difficult journey that demanded more than just a national aspiration, a tradition of state-building, advanced development, and a clear direction of action. Azerbaijan is one of the rare countries to have regained independence twice in a century, due to its exceptional accomplishments in the social-cultural, geopolitical, and economic fields. This article will delve into Azerbaijan's journey towards restoring its state independence.

SSRİ-NİN SÜQUTU VƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI

Əmrahov Mais İsrail oğlu
A.A. Bakıxanov adına Tarix İnstitutu, Bakı, Azərbaycan
emrahov48@ mail.ru

Açar sözlər*: SSRİ-nin süqutu, Konstitusiya Aktı, müstəqilliyin tanınması, BMT-yə üzvlük, hakimiyyət uğrunda mübarizə*

XX əsrin 70-ci illərin sonlarında SSRİ-nin dünya birliyi tərəfindən qəbul olunmuş beynəlxalq hüquq normalarını kobudcasına pozaraq Əfqanıstana hərbi müdaxiləsi nəticəsində beynəlxalq münasibətlərdə gərginlik artdı, 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində soyuq müharibənin yeni bir mərhələsi başlandı. Avropa qitəsində gərginliyin zəiflədilməsinə sözdə tərəfdar olan SSRİ dünyanın digər regionlarında tamamilə fərqli siyasət yürüdürdü. Sovet rəhbərliyi zəngin təbii sərvətləri olan, əlverişli geostrateji mövqedə yerləşən isti dənizlərə, Fars körfəzinə və Hind okeanına çıxmaq üçün bütün mümkün vasitələrdən istifadə edirdi. SSRİ rəhbərliyi geniş təbliğat apararaq əhalini "Qərb təhlükəsi" ilə qorxudur, hərbi-texniki baxımdan həmin ölkələrə çatmaq üçün baha başa gələn və xalqını müflis edərək vəziyyətini daha da ağırlaşdıran sürətlə silahlanma proqramlarını davam etdirirdi. Lakin sürətlə silahlanma üçün kifayət qədər iqtisadi-maliyyə potensialı olmayan sovet iqtisadiyyatı Qərb ölkələrindən geri qalırdı [5,s.29]. Qərb ilə rəqabətə tab gətirməkdə çətinlik çəkən SSRİ rəhbərliyi yeni sualtı qayıqlar hazırlamamağa, Avropada yeni nüvə raketləri yerləşdirməməyə, Avropada və Uzaq Şərqdə etimad tədbirlərinə dair danışıqlara başlamağa hazır olduğunu bəyan edirdi. Bütün bunlar sovet rəhbərliyinin Qərb ilə silahlanma yarışında fasilə götürməsi və ya "nəfəs alması" üçün aldadıcı manevri idi.

Sovet İttifaqının beynəlxalq hüquqa zidd hərəkətləri dünyada kəskin etirazla qarşılanırdı. ABŞ başda olmaqla Qərb dövlətləri əfqan mücahidlərinə açıq şəkildə yardımlar göstərməyə və silahla təmin etməyə başlamışdılar. BMT kürsüsündən də SSRİ-yə qarşı diplomatik-siyasi təzyiqlərini artırılır, sanksiyalar tətbiq edilirdi. 1980-ci il Moskva yay olimpiadasını boykot edilməsi də Qərb ölkələrinin SSRİ-yə münasibətindən qaynaqlanırdı.

1985-ci il martın 11-də Mixail Qorbaçov Sov.İKP MK-nın Baş katibi seçildikdən sonra ABŞ ilə münasibətləri yaxşılaşdırmaq qərarına gəldi. O, 1985 - ci il martın 25-də Ronald Reyqana məktubla müraciət edərək ümumi maraqlar naminə yarış və qarşılıqlı hörmət əsasında hər iki dövlətin məsuliyyət daşıması və etimad mühitinin yaradılması zəruriliyini vurğuladı. Lakin yeni sovet rəhbərinə və onun yürütdüyü siyasəti Qərb ölkələrində birmənalı qarşılanmadı. Bununla belə Qərb M.Qorbaçovun hakimiyyətdə qalmasında maraqlı idi, islahatları yalnız uğurlu olacağı təqdirdə o, hakimiyyətdə qala bilərdi və buna görə də Qərb ölkələri ona yardım etməli idilər. Yaranmış vəziyyətdən istifadə etmək istəyən sovet rəhbəri M.Qorbaçov idarəçilər və xalqların demokratiya, aşkarlıq və yenidənqurma siyasəti elan etməsinə hazır olmadıqlasrını

bilsə də, mövcud problemləri həll etmək əvəzinə özündən əvvəlki rəhbərləri günahkar hesab edir, yeritdiyi qeyri-ardıcıl, zəif və səriştəsiz siyasət SSRİ-də vəziyyəti daha da ağırlaşdırırdı.

Milli münasibətlər baxımından Cənubi Qafqaz regionu və Baltikyanı respublikalar narahat region olunsalar da, SSRİ-nin türk respublikalarının rəhbərlərinə etibar etməyən Mixail Qorbaçovun 1986-cı ildə Qazaxıstan KP MK-nın birinci katibi Dinməhəmməd Kunayevi vəzifəsindən azad edərək yerinə qazax olmayan Nikolay Kolbini təyin etməsi qazax xalqı tərəfindən milli hisslərini təhqir edilməsi kimi qarşılandı və qərara qarşı Alma-Ata küçələrinə çıxan tələbələrin etirazları polis və ordunun, xüsusən qeyri-qazaxlardan təşkil edilmiş silahlı dəstələrin köməyi ilə amansızlıqla yatırıldı, ölkə ərazisində ilk qan Qazaxıstanda töküldü Bu hadisədən bir müddət sonra – 1987-ci ilin oktyabrında Heydər Əliyevin Sov.İKP MK siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrindən istefa verdi.

Qanlı hadisələr Gürcüstanda da baş verdi. 1988-ci ilin noyabrından etibarən Tbilisidə başlayan kütləvi nümayişləri Mərkəzi hakimiyyət 1989-cu il aprelin 9-da silah gücünə dağıtdı. Oxşar hadisələr Baltikyanı respublikalarda da təkrar olundu. Qeyri-rus xalqlarının yaşadığı müttəfiq respublikalarda baş verən hadisələr, xüsusilə Məkəzi hakimiyyətin hazırlanacaq ölkə konstitusiyasında ediləcək düzəlişlər əsasında müttəfiq respublikaların ən minimum hüquqlarının da məhdudlaşdırılacağının bildirilməsi demokratik prosesləri gücləndirərək xalq hərəkatlarının qüvvətlənməsinə səbəb oldu. Nəticədə ölkədə dinc tələbləri özündə əks etdirən kütləvi mitinq və nümayişlər keçirilməyə başlandı.

Azərbaycanlıların etirazlarına Mərkəzi hökumətin məhəl qoymaması və hüquqlarını qorumaması nəticəsində Bakıda da ara verməyən mitinqlər başladı. Mitinq iştirakçıları Ermənistanın müdaxiləsinin dayandırılmasını, Topxana meşəsinin vəhşicəsinə qırılıb talan edilməsinin qarşısının alınmasını, regionda vəziyyətin normallaşdırılmasını, Ermənistandan qovulan insanların problemlərinin həllini tələb edirdi. Meydan hərəkatı getdikcə güclənirdi. Xalqdan ayrı düşmüş Azərbaycan hakimiyyəti isə bunları yerinə yetirməyə qadir deyildi. Respublikanın paytaxtında vəziyyət nəzarətdən çıxır, bölgələrdə də gərginləşirdi. Azərbaycan Xalq Cəbhəsinin fəalları bir neçə rayonda hakimiyyət orqanlarını ələ keçirmişdilər.

Kommunist diktaturası 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Çexoslovakiyaya, Macarıstana və Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni həmin vaxt qonşu Ermənistanın təcavüzünə məruz qalan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər gördi, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantları da daxil etdi. Ordunun Bakıda və Azərbaycanın digər ərazilərində görünməmiş vəhşiliyi nəticəsində 147 nəfər öldürüldü, 744 nəfər yaralandı, onlardan 176 nəfəri əlil oldu [2,s.153]. Həbs olunan 841 nəfərdən 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalarda saxlanıldı. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları dağıdıldı, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət əmlakı və şəxsi əmlak məhv edildi. Dövlət, ictimai və şəxsi əmlaka həmin dövrün qiymətləri ilə 5 milyon 637 min 286 rubl miqdarında maddi ziyan vuruldu. 20 Yanvar hadisəsi nəticəsində Əbdürrəhman Vəzirov respublikadan qaçdı. Yanvarın 25-də Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsində işləyən Ayaz Mütəllibov gətirildi [5,s.67]. Bütün bunlar nəinki Azərbaycan xalqının gözünü qorxutdu, əksinə onun Sovet imperiyasına qarşı nifrətini qat-qat artırdı. Azərbaycan xalqı 40 gün matəm saxladı. Xalq aclığa dözdü, lakin etiraz əlaməti olaraq 40 gün tətil etdi. Azərbaycan xalqının həyatında dönüş nöqtəsi olan 20 Yanvar hadisəsindən sonra xalq Mərkəz ilə yolunun bir olmayacağını, keçmişə qayıdışın mümkünsüzlüyünü dərk etdi və yerli hakimiyyətə də etimad bəsləmədi. Azərbaycan xalqı nicat yolunu yalnız dövlət müstəqilliyində gördü. [5, s.68]

XX yüzilliyin sonunda Sovetlər Birliyinin süquta uğraması ilə yaranan tarixi şərait nəticəsində Azərbaycan xalqı ikinci dəfə müstəqillik bayrağını qaldıraraq 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasdında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul edildi [3] . Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını lehinə Ali Sovetin 360 deputatından 258-i səs vermiş, yerdə qalanlar ya sessiyaya qatılmamış, ya da əleyhinə səs vermişlər. [2, s.252]

Konstitusiya Aktında göstərilir ki, müstəqil Azərbaycan dövləti 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin hüquqi varisidir, 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəltdi. Azərbaycan Respublikası öz ərazisində tam dövlət hakimiyyətinə malik olub müstəqil xarici və daxili siyasət yeridirdi. Azərbaycan Respublikasının müstəqil dövlətə xas olan təsisatları - parlamenti, hökuməti, ordusu, maliyyə sistemi yaradılmışdı. Azərbaycan Respublikası bir çox xarici dövlətlər tərəfindən tanınmış və onlarla diplomatik münasibətlər yaratmışdı. Lakin 1920-ci il aprelin 27-28-də RSFSR beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, müharibə elan etmədən öz silahlı qüvvələrinin hissələrini Azərbaycana yeritdi, suveren Azərbaycan Respublikasının ərazisini işğal etdi, qanuni seçilmiş hakimiyyət orqanlarını zorakılıqla devirdi və Azər-

baycan xalqının çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoydu. Azərbaycan1806-1828-ci illərdə olduğu kimi yenidən Rusiya tərəfindən işğal edildi. [2,s.252]

SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilə ilə bu ittifaq "rəsmiləşdirildi". Beləliklə, 70 il ərzində Azərbaycan Respublikasına qarşı əslində müstəmləkəçilik siyasəti yeridildi, Azərbaycanın təbii ehtiyatları amansızcasına istismar olundu, milli sərvətləri çapılıb talandı. Azərbaycan xalqı təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qaldı, onun milli ləyaqəti tapdalandı. Bütün bunlara baxmayaraq Azərbaycan xalqı dövlət müstəqilliyi uğrunda mübarizəni davam etdirdi. [2,s.252-253]

6 bölmə, 32 maddədən ibarət olan Konstitusiya aktının "Azərbaycan xalqı" adlanan 2-ci bölməsində Azərbaycan xalqının Azərbaycan Respublikasının ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan bütün Azərbaycan Respublikası vətəndaşlarından ibarət olduğu, Azərbaycan Respublikasında suveren hakimiyyətin Azərbaycan xalqına məxsus olduğu təsbit edilirdi. Konstitusiya aktına əsasən öz idarəetmə formasını seçmək, başqa xalqlarla münasibətlərini müəyyənləşdirmək, siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək Azərbaycan xalqının ayrılmaz hüququ kimi bəyan edilir, Azərbaycan Respublikasında suveren hakimiyyətin Azərbaycan xalqına məxsusluğu ifadə olunurdu.

Konstitusiya aktının çox mühüm müddəalarından biri "Azərbaycan dövləti" adlanan 3-cü bölmədir. Bölmənin 12-ci maddəsində Azərbaycan xalqının müstəqil, dünyəvi, demokratik, unitar dövlət yaratdığı, Azərbaycan Respublikasının suverenliyinin şəriksiz və onun bütün ərazisinə şamil olması qeyd olunur.

Konstitusiya aktında Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətin bölünməsi prinsipinə əsaslanması, qanunvericilik hakimiyyətinin Azərbaycan Respublikasının parlamenti tərəfindən həyata keçirilməsi, ali icra hakimiyyətinin Azərbaycan dövlətinin başçısı olan Azərbaycan Respublikası Prezidentinə məxsusluğu, məhkəmə hakimiyyətinin müstəqil məhkəmələr tərəfindən və ali instansiyada - hər birinin öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının Ali Arbitraj Məhkəməsi tərəfindən həyata keçirilməsi təsbit olunmuşdur.

Konstitusiya Aktının 14-cü maddəsində bildirilir ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, bölünə və özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin hər hansı bir hissəsini, hər hansı bir formada kimsəyə vermir, yalnız Azərbaycan Respublikası parlamentinin qərarı ilə respublikanın bütün əhalisi arasında xalq səsverməsi [referendum] keçirmək yolu ilə Azərbaycan xalqının razılığı əsasında sərhədlərdə dəqiqləşdirmə aparıla bilər. Azərbaycan Respublikası ərazisinin heç bir hissəsi başqa dövlətə və ya başqa dövlətin hüquqi şəxsinə satıla və verilə bilməz.

Konstitusiya Aktında Azərbaycan Respublikasının vahid vətəndaşlığı müəyyən edilmiş, vətəndaşların hüquq və azadlıqlarının qanunda nəzərdə tutulmuş xüsusi hallardan başqa, hər hansı formada məhdudlaşdırıla bilməyəcəyi qeyd olunmuşdur.

Aktın IV bölməsində iqtisadi münasibətlər müəyyənləşdirilmişdir. Bu bölmədə bütün təbii ehtiyatlar hər hansı şəxslərin və ya təşkilatların mülkiyyət hüquqlarından və mənafeyinə xələl gətirilmədən Azərbaycan Respublikasına məxsus olduğu təsdiqlənmiş, mülkiyyətin formaları müəyyənləşdirilmiş, Azərbaycan Respublikasında hər cür iqtisadi fəaliyyətin bazar münasibətlərinə və sahibkarlıq azadlığına əsaslandığı ifadə olunmuşdur.

Konstitusiya Aktının mühüm bir bölməsi siyasi münasibətlərə həsr olunmuşdur. Burada Azərbaycan Respublikasının yetkinlik yaşına çatmış vətəndaşlarının seçki hüququ olduğu, səsvermənin şəxsi, bərabər, azad və gizli olması, Azərbaycan Respublikasının bütün vətəndaşlarının azad surətdə siyasi partiyalar və digər ictimai birliklər yaratmaq hüququ olduğu qeyd edilmişdir. Aktda vətəndaşların vəzifələri də təsbit olunmuşdur.

Konstitusiya Aktı Azərbaycan Respublikasının yeni Konstitusiyasının hazırlanması üçün əsas olduğundan 1995-ci ildə qəbul olunan Konstitusiyada Aktın müddəaları nəzərə alınmışdır.

Konstitusiyada Aktının qəbulundan sonra Azərbaycan Respublikasının qarşısında dayanan başlıca vəzifələrdən biri Ermənistanın kobud müdaxilələrinin qarşısını almaq, beynəlxalq birlik tərəfindən de-yure tanınmağa nail olmaq, dünya dövlətlərinin sülhü və təhlükəsizliyi qorumaq üçün formalaşdırdıqları universal tipli təşkilat olan Birləşmiş Millətlər Təşkilatına üzv olmaqdan ibarət idi. Bu məqsədlə Ali Sovetin oktyabrın 29-da keçirilən növbədənkənar sessiya iclasında Birləşmiş Millətlər Təşkilatına müraciət qəbul edildi. Müraciətdə BMT nizamnaməsinə sadiqlik və ondan irəli gələn öhdəlikləri yerinə yetirməyə hazır olduğu bildirilir, nizamnamənin 4-cü maddəsinə müvafiq surətdə BMT üzvlərindən xahiş edilirdi ki, Azərbaycan Respublikasının təşkilatın üzvlüyünə qəbul edilməsi məsələsini nəzərdən keçirsinlər [4]. Müstəqil Azərbaycan Respublikasının tanınması ilə əlaqədar dünya birliyinin üzvü olan dövlətlərin parlamentlərinə və hökumətlərinə də müraciət qəbul edildi. [6]

Yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasını ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Cümhuriyyəti, dekabrın 11-də Rumıniya, dekabrın 13-də Pakistan, dekabrın 23-də İsveçrə, dekabrın

25-də İran, 1992-ci ilin yanvarın 23-də ABŞ, aprelin 10-da Rusiya Federasiyası və b. dövlətlər tanıdılar [1,s.94]. BMT Təhlükəsizlik Şurası isə Azərbaycan Respublikasının müraciətini dörd ay sonra – 1992-ci il fevralın 14-də müzakirə edərək bəyəndi. Martın 2-də BMT Baş Məclisinin 46-cı sessiyasında Azərbaycan 181-ci dövlət kimi üzv qəbul olundu. [7,s.33]

Ədəbiyyat

1.Azərbaycan Respublikası -1991-2001. – Bakı: XXI-Yeni Nəşrlər Evi, - 2001. - 280 s.
2.Azərbaycan Respublikasının tarixi. Üş cilddə. I cild. Azərbaycanın dövlət müstəqilliyinin bərpası və ilk dövrü [1991-1993]. Bakı: Elm, - 2022, - 432 s.
3.“Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı. 18.10.1991 // Azərbaycan Respublikası Milli Məclisinin Arxivi [ARMMA], Fond №2941, siyahı №1a, iş № 264, vərəq-29-38.
4.Birləşmiş Millətlər Təşkilatına müraciət. 29.10.1991 // ARMMA, Fond№2941, siyahı№1a, iş№ 265, vərəq - 14
5.Qasımlı M.C. Azərbaycan Respublikasının tarixi [1991-2021]: 2 cilddə. I cild [1991-2003]. Bakı: Bakı Dövlət Universiteti, - 2021. – 384 s.
6.Müstəqil Azərbaycan Respublikasının tanınması haqqında dünya birliyinin üzvü olan dövlətlərin parlamentlərinə və hökumətlərinə müraciət. 29.10.1991 // ARMMA, Fond№2941, siyahı№1a, iş№ 265, vərəq - 21.
7.Üçüncü minillikdə geosiyasətin yeni üfüqləri: [seçilmiş məqalələr] / N. İ. Məmmədov [et al.]; baş red. N. İ. Məmmədov
Ə. İ. Həbibbəyli [et al.]. - Bakı: Şərq-Qərb, 2018.- 336 s.

РЕЗЮМЕ
РАСПАД СССР И ВОССТАНОВЛЕНИЕ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (1991-1993 гг.)
***Амрахов* М.И.**

Ключевые слова: *распад СССР, Конституционный Акт, признание независимости, членство в ООН, борьба за власть*

В статье проанализирован принятый 18 октября 1991 года Конституционный Акт “О государственной независимости Азербайджанской Республики”, состоящий из 6 разделов, 32 статей. Документально обосновано, что Азербайджанская Республика является полноправным членом международного сообщества. В материале отражено негативное влияние возникшего в республике в результате нестабильной обстановки противостояния власти и оппозиции на политизированную армию, а также на ситуацию на фронте, также говорится об оккупации азербайджанских территорий армянскими военными формированиями, Ходжалинском геноцид, о путче произошедшем в июне 1993 года в Гяндже.

SUMMARY
THE FALL OF THE SSSR AND THE RESTORATION OF THE STATE INDEPENDENCE OF AZERBAIJAN REPUBLIC (1991-1993)
Amrakhov M.I.

Key words: *collapse of the USSR, Constitutional Act, recognition of independence, membership in the UN, Struggle for power*

This article deals with the Constitutional Act “On the State Independence of the Republic of Azerbaijan” adopted on October 18, 1991, consisting of 6 sections, 32 articles, it is documented that the Republic of Azerbaijan is a full member of the international community, there is a struggle for power in the republic. The article reflects the negative impact of the opposition-power confrontation that arose in the republic as a result of the unstable situation on the politicized army, as well as on the situation at the front, the occupation of Azerbaijani territories by Armenian military formations, the Khojaly genocide, coup attempt in June 1993 in Ganja.

AZƏRBAYCAN RESPUBLİKASI ÜÇÜN İQTİSADİ ARTIM VƏ ONUN BƏZİ DETERMİNANTLARI: NARDL ÇƏRÇİVƏSİNDƏ ANALİZ

Əsədova Rəvanə İskəndər qızı
İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan
revanaasadova@gmail.com

Açar sözlər: *iqtisadi artım, ÜDM-in artım tempi, ixrac, idxal, neft qiyməti, əsas kapitala yönəlmiş investisiyalar, məzənnə, COVID-19, NARDL, LongRun təsir, ShortRun təsir, kointeqrasiya, asimmetriya*

İqtisadi artım tempi dünya iqtisadi sisteminə daxil olan hər bir ölkənin iqtisadi inkişafını səciyyələndirən makroiqtisadi amil kimi çıxış edir. Müasir iqtisadi ədəbiyyatda milli iqtisadiyyatın tənzimlənməsinin mühüm xarakteristikası olan makroiqtisadi göstəricilərin, o cümlədən, iqtisadi artım və ona təsir göstərən amillərin araşdırılması, onların qarşılıqlı təsirlərinin modelləşdirilməsində VAR, VEC, ARDL [7], NARDL [5] və s. kimi müxtəlif dinamik alətlər diqqət çəkir [1, 2,3,4,5, 7,18 və s.]. [18]-də Çin üçün iqtisadi artım və onun determinantları ARDL çərçivəsində öyrənilmiş və ixrac, idxal və məzənnənin Çində ÜDM-in real artımına səbəb olduğu müəyyən edilmişdir. Burada məzənnə indikatoruna nəzərən asimmetriyanın olduğu aşkar edilmiş və Çin yuanının zəifləmə səbəbinin ixracın artması və ÜDM-in azalması ilə əlaqədar olduğu müəyyən edilmişdir.

Neft qiymətinin şoklarının iqtisadi artıma təsirinin ARDL metodologiyası əsasında araşdırılması [6]-də 1990-2015-ci illəri əhatə edən dövr üçün Əlcəzair iqtisadiyyatı üçün aparılmışdır və burada neft qiymətlərində baş verən dalğalanmaların qısa və uzunmüddərli perspektivdə iqtisadi artıma cüzi müsbət təsirlərinin olduğu müəyyən edilmişdir. Tədqiqat işində, neft sektorundan asılılığın azaldılması məqsədi ilə, Əlcəzair hökuməti tərəfindən daha səmərəli fiskal siyasət aparılmasını, neft satışından əldə edilən gəlirlərin və maliyyə profisitlərinin iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsinə yönəldilməsi tövsiyə edilir [6, 3].

[16]-də Nigeriyada maliyyə sektoru ilə iqtisadi artım arasındakı uzun və qısamüddətli səbəb-nəticə əlaqələri ARDL və VEC modelləri əsasında 1981-2017-ci il göstəriciləri əsasında öyrənilmişdir. İşdə Nigeriyada iqtisadi artımın stimullaşdırılmasında maliyyə sektorunun zəif təsirə malik olduğu və neft sektorunun isə dominant rol oynadığı qənaətinə gəlinmişdir [17]. [3]-də ARDL modelləşdirmə çərçivəsində postneft dövründə Azərbaycan Respublikası üçün aylıq iqtisadi artım tempinə qısa və uzunmüddətli horizontda istehlak qiymətləri indeksi, ixrac, idxal, inflyasiya, faiz dərəcəsi, əsas kapitala yönələn investisiyalar, neft qiyməti kimi model dəyişənlərinin təsir dərəcələri müəyyənləşdirilmiş və qurulmuş ARDL(3, 9, 10, 10, 10, 7, 9, 10) modelində uzunmüddətli tarazlığın bərpa mexanizminin mövcud olduğu müəyyən edilmişdir.

Problemin qoyuluşu

Tədqiqat işi COVID 19 pandemiyasının təsirlərinin nəzərə alınması ilə, ixrac, idxal, əsas kapitala yönəlmiş investisiyalar, məzənnə və neft qiymətlərinin iqtisadi artıma dinamik təsirlərinin NARDL (NonLinear AutoRegression Distributed Lags) metodologiyası [9, 10, 11, 14] çərçivəsində təhlilinə həsr edilmişdir. Hesablamalar Azərbaycan Respublikasının Statistika Komitəsinin [15], Azərbaycan Respublikasının Mərkəzi Bankının [13], Trading Economics iqtisadi informasiya bazasının [12] 2011M01-2022M12 dövrünü əhatə edən aylıq statistikası əsasında EvieWs 10 ekonometrik paketinin [8] tətbiqi ilə aparılmışdır.

Tədqiqat işində makrodəyişənlər $F_GDP_t = (ÜDM_t - ÜDM_{t-1}) / ÜDM_{t-1}$ (ÜDM-in artım tempi), EXPORT (ixrac), IMPORT (idxal), INVESTMENT (əsas kapitala yönəlmiş investisiyalar), EX_RATE (məzənnə), OP (neftin qiyməti), D_PANDEMIC (COVID-19 pandemiyası) kimi işarə edilmişdir. Burada neft qiyməti olaraq, Brend markalı neftin qiymətindən istifadə edilmiş, D_PANDEMIC dəyişən dummy dəyişənlər kimi daxil edilmişdir.

Empirik analiz.

Modelin qurulması və təhlili

Empirik modelləşdirmə alqoritminə əsasən, qurulacaq modelin xüsusiyyətlərini model dəyişənlərinin ehtimal-statistik xarakteristikaları müəyyən edir. Model dəyişənlərinin I(O) və ya I(1) sinfindən olması modelin spesifikasiyasının müəyyənləşdirilməsində başlıca rol oynayır. Dəyişənlərin I(O) və ya I(1) ailəsindən olduğu vahid kök testlərinin köməyi ilə müəyyənləşdirilir. Tədqiqar işində ADF (Augmented Dickey-Fuller) və PP (Philips-Perron) testlərindən istifadə edilmişdir. Hər iki test zaman sırasının seçməsinin vahid kökə malik olması haqqında HO-sıfır hipotezini yoxlayır. Tədqiq edilən makrodəyişənlər üçün aparılmış testin nəticələrini Cədvəl 1-də verək:

Cədvəl 1.

Vahid kök testinin nəticələri

Dəyişənlər üçün ADF testinin nəticələri		Dəyişənlərin birinci tərtib sonlu fərqləri (Δ) üçün PP testinin nəticələri	
Series	Prob.	Series	Prob.
F_GDP	0.0006	D(F_GDP)	0.0001
EXPORT	0.2429	D(EXPORT)	0.0000
IMPORT	0.6657	D(IMPORT)	0.0001

Cədvəl 1. (davamı)

EX_RATE	0.3533	D(EX_EATE_	0.0000
INVESTMENT	0.1901	D(INVESTMENT)	0.0001
OP	0.3320	D(OP))	0.0000

***Mənbə**: Müəllif tərəfindən aparılmış hesablamalar*

Cədvəl 1-dən göründüyü kimi, işdə iqtisadi artım xarakteristikası kimi seçilmiş ÜDM-in artım tempi – F_GDP sıfır tərtib I(O), qalan dəyişənlər isə 1-ci tərtib I(1) inteqrasiyaedən sıralardır. Belə sıralar üçün ARDL və ya NARDL modellərinin qurulması lazım gəlir. Sabitə və trendə malik olan ARDL modeli, ümumi şəkildə,

$$\Delta y_t = a_O + a_1 t + \lambda \cdot \left(\underbrace{y_{t-1} - \sum_{i=1}^{n} c_i x_{i,t-1} + c_1 + c_2 t}_{kointeqrasiya\ münasibəti} \right) + \sum_{k=1}^{N_y} d_k \Delta y_{t-i} + \\ + \sum_{l_j=0}^{N_X} \sum_{j=1}^{n} b_{l_j,j} \Delta x_{j,t-l_j} + \varepsilon_t \qquad (1)$$

kimi verilə bilər [3, 11], belə ki, burada, əmsallardan bir və ya bir neçəsi sıfra bərabər ola bilər. (1)-də $y_t -$ endogen dəyişən ; $n -$ ekzogen dəyişənlərin sayı ; N_y –endogen dəyişənin laglarının sayı ; N_X –ekzogen dəyişənin laglarının maksimal sayı; $a_O, a_1, b_{j,l_j}\left(j = \overline{1,n}, l_j = \overline{1,N_X}\ \right), c_i\ \left(i = \overline{1,n}\right),\ d_k\left(k = \overline{1,N_X}\right)$ –ARDL modelinin qiymətləndirilən əmsalları ; c_1 –kointeqrasiya tənliyinin sabiti ; c_2 –kointeqrasiya tənliyinin trendinin əmsalı ; ε_t –modelin xətasıdır [3].

Akaike informasiya meyarından (AIC) istifadə etməklə, tədqiq olunan dəyişənlər üçün sabitə malik olan ARDL(10, 3, 0, 6, 5, 6, 2) modeli qurulmuşdur. Burada (10, 3, 0, 6, 5, 6, 2), uyğun olaraq, F_GDP, EXPORT, IMPORT, INVESTMENT, EX_RATE, OP, D_PANDEMIC makroindikatorlarının modelə daxil edilmiş lag dəyişənlərinin sayıdır. Sadəlik üçün, F_GDP, EXPORT, IMPORT, INVESTMENT, EX_RATE, D_PANDEMIC model dəyişənlərinin, uyğun olaraq, $F_{GDP}, Ex, Im, Inv, Ex_R, D_P$ kimi yeni işarələmələrini aparaq və modeli riyazi olaraq, EC (Error Correction) şəklində verək:

$$\Delta F_{GDP_t} = 4.4 - 4.3 \left(F_{GDP_{t-1}} - \begin{bmatrix} 0.0 \\ 0.0 \\ -0.0 \\ -0.04 \\ -0.001 \\ -0.0006 \end{bmatrix} \times \begin{bmatrix} Ex_{t-1} \\ Im_{t-1} \\ Inv_{t-1} \\ Ex_{R_{t-1}} \\ OP_{t-1} \\ D_{P_{t-1}} \end{bmatrix} \right) + D \times \Delta F' + \begin{bmatrix} 0.0 \\ 0 \\ 0.0 \\ -0.07 \\ -0.0 \\ 0.00 \end{bmatrix} \times \begin{bmatrix} \Delta Ex_t \\ \Delta Im_t \\ \Delta Inv_t \\ \Delta Ex_{R_t} \\ \Delta OP_t \\ \Delta D_{P_t} \end{bmatrix} +$$

$$+ \begin{bmatrix} 0.0 \\ 0 \\ 0.0 \\ -0.18 \\ 0.0 \\ -0.24 \end{bmatrix} \times \begin{bmatrix} \Delta Ex_{t-1} \\ \Delta Im_{t-1} \\ \Delta Inv_{t-1} \\ \Delta Ex_{R_{t-1}} \\ \Delta OP_{t-1} \\ \Delta D_{P_{t-1}} \end{bmatrix} + \begin{bmatrix} 0.0 \\ 0 \\ 0.0 \\ 0.31 \\ 0.1 \\ 0 \end{bmatrix} \times \begin{bmatrix} \Delta Ex_{t-2} \\ \Delta Im_{t-2} \\ \Delta Inv_{t-2} \\ \Delta Ex_{R_{t-2}} \\ \Delta OP_{t-2} \\ \Delta D_{P_{t-2}} \end{bmatrix} + \begin{bmatrix} 0 \\ 0 \\ 0.0 \\ -0.08 \\ 0.0 \\ 0 \end{bmatrix} \times \begin{bmatrix} \Delta Ex_{t-3} \\ \Delta Im_{t-3} \\ \Delta Inv_{t-3} \\ \Delta Ex_{R_{t-3}} \\ \Delta OP_{t-3} \\ \Delta D_{P_{t-3}} \end{bmatrix} +$$

$$+ \begin{bmatrix} 0.0 \\ 0 \\ 0.0 \\ -0.36 \\ 0.0 \\ 0 \end{bmatrix} \times \begin{bmatrix} \Delta Ex_{t-4} \\ \Delta Im_{t-4} \\ \Delta Inv_{t-4} \\ \Delta Ex_{R_{t-4}} \\ \Delta OP_{t-4} \\ \Delta D_{P_{t-4}} \end{bmatrix} + \begin{bmatrix} 0.0 \\ 0 \\ 0.0 \\ 0 \\ 0.0 \\ 0 \end{bmatrix} \times \begin{bmatrix} \Delta Ex_{t-5} \\ \Delta Im_{t-5} \\ \Delta Inv_{t-5} \\ \Delta Ex_{R_{t-5}} \\ \Delta OP_{t-5} \\ \Delta D_{P_{t-5}} \end{bmatrix}.$$

Burada $D = [2.1\ ; 1.71; 1.45; 1.15; 0.87; 0.62; 0.44; 0.25; 0.13]$ və $\Delta F = \left[\Delta F_{GDP_{t-1}};\ \Delta F_{GDP_{t-2}};\ \Delta F_{GDP_{t-3}};\ \Delta F_{GDP_{t-4}};\ \Delta F_{GDP_{t-5}};\ \Delta F_{GDP_{t-6}};\ \Delta F_{GDP_{t-7}};\ \Delta F_{GDP_{t-8}}; \Delta F_{GDP_{t-9}}\right]$ sətir vektorlarıdır.

Dəyişənlərin asimmetrik təsirlərinin təhlili

Modelin izahedici dəyişənlərinin uzun – LongRun və qısamüddətli – ShortRun təsirlərinin simmetrikliyinin araşdırılmasında onların müsbət və mənfi komponentlərə ayrılışından istifadə edilir. Belə ki, $I(1)$ inteqrasiya tərtibinə malik olan w_t dəyişəni $w_t{}^+ = \sum_{k=1}^{t} \Delta w_k^+ = \sum_{k=1}^{t} max(\Delta w_k, 0)$ və $w_t{}^- = \sum_{k=1}^{t} \Delta w_k^- = \sum_{k=1}^{t} min(\Delta w_k, 0)$ kimi hesablanan müsbət və mənfi komponentlərin $w_t = w_t{}^+ + w_t{}^-$ cəmi şəklində göstərilə bilər.

Model dəyişənlərinin müsbət və mənfi komponentlərinin uzun və qısamüddətli təsirlərini araşdırmaq üçün, ARDL(10, 3, 0, 6, 5, 6, 2) modeli əsasında EViews 10 ekonometrik paketinin dəstəyi ilə məzənnə və neft qiymətinin mənfi və müsbət komponentlərinin NARDL(10, 7, 2, 6, 5, 7, 3, 7, 7) modeli qurulmuşdur. Belə ki, (10, 7, 2, 6, 5, 7, 3, 7, 7), uyğun olaraq, F_GDP, EXPORT, IMPORT, INVESTMENT, EX_RATE_POS, EX_RATE_NEG, OP_POS, OP_NEG, D_PANDEMIC dəyişənlərinin modelə daxil edilmiş lag dəyişənlərinin sayıdır.

ARDL(10, 3, 0, 6, 5, 6, 2) və NARDL(10,7,2,6,5,7,3,7,7) modellərinin keyfiyyətinin təhlili Cədvəl 2 şəklində verilmişdir:

Cədvəl 2.

Modellərin keyfiyyətinin müqayisəli təhlil nəticələri

ARDL(10, 3, 0, 6, 5, 6, 2) modelinin təhlili	**NARDL(10, 7, 2, 6, 5, 7, 3, 7, 7) modelinin təhlili**
Jargua-Bera testi	
	
Şəkil 1a. ARDL(10, 3, 0, 6, 5, 6, 2) modelinin qalıqlarının paylanması	**Şəkil 1b.**NARDL(10, 7, 2, 6, 5, 7, 3, 7, 7) modelinin qalıqlarının paylanması
Stabillik testləri	
CUSUM Test 	CUSUM of Squares Test 
CUSUM Test 	CUSUM of Squares Test 

RAMSEY RESET TESTİ

	Value	Probability		Value	Probability
F-statistic	1.428630	0.2448	F-statistic	0.177048	0.8381

Breusch-Godfrey Serial Correlation LM Test

F-statistic	0.257099	2.861296
Prob. F(2,93)	0.7738	0.0640

Heteroskedasticity Test: ARCH

F-statistic	0.195076	0.302863
Prob. F(2,129)	0.8230	0.7392

***Mənbə**: Müəllif tərəfindən aparılmış hesablamalar*

2011M01-2022M12 aylıq statistikası əsasında Azərbaycan Respublikası üçün iqtisadi artım tempinin dinamik modelləşdirilməsi məqsədi ilə qurulan ARDL və NARDL modellərinin keyfiyyəti, NARDL modlinin qalıqları paylanması istisna olmaqla, modellərə qoyulan tələbləri ödəyir.

ARDL(10,3,0,6,5,6,2) və NARDL(10,7,2,6,5,7,3,7,7) modellərinin dəyişənlərin kointeqrasiya münasibətinin olduğunu müəyyən etmək olar və bu münasibətlər, uyğun olaraq,

$$EC_{ARDL} = F_GDP - (1.98E\text{-}05*EXPORT + 1.64E\text{-}05*IMPORT - 1.87E\text{-}06*INVESTMENT - -0.03561*EX_RATE \ -0.0011*OP \ -0.0006*D_PANDEMIC)$$

və

$$EC_{NARDL} = F_GDP - (-4.7E\text{-}06*EXPORT + 4.3E\text{-}05*IMPORT -7.83E - 06*INVESTMENT + +0.1263*EX_RATE_POS+0.3739*EX_RATE_NEG - 0.0002*OP_POS - -0.0004*OP_NEG - 0.0034*D_PANDEMIC)$$

səklindədir. Kointeqrasiya münasibəti, hər iki modeldə əmsalının işarəsi mənfi və t-statistikanın uyğun ehtimalına əsasən əhəmiyyətlidir (ARDL və NARDL üçün, uyğun olaraq, $c_1^{ARDL} = -3.5781$, $Prob_{c_1}^{ARDL} = 0.0000$ və $c_1^{NARDL} = -4.9337$, $Prob_{c_1}^{NARDL} = 0.0000$),

Qurulmuş NARDL(10,7,2,6,5,7,3,7,7) modelinin məzənnə və neft qiyməti dəyişənlərinin müsbət və mənfi komponentlərinin uzun (LongRun) və qısamüddətli (ShortRun) təsirlərinin əhəmiyyətliliyini Uold testindən istifadə etməklə yoxlayaq (Cədvəl 3):

Cədvəl 3.

Məzənnə və neft qiymətinin müsbət və mənfi komponentlərinin LongRun və ShortRun horizontda asimmetriyasının Uold testi ilə təhlilinin nəticələri

	t-statistic	***F-statistic***	***Chi-square***	***t-statistic***	***F-statistic***	***Chi-square***
	Ex_Rate dəyişəni üçün					
	Null Hypothesis: C(6)=C(7)			Null Hypothesis: c(35)+c(36)+c(37)+c(38)+c(39)=c(40)+c(41)+c(42)+ c(43)+c(44)+c(45)+c(46)		
Value	-3.049460	9.299203	9.299203	1.635582	2.675128	2.675128
Probability	0.0032	0.0032	0.0023	0.0164	0.1064	0.1019
	OP dəyişəni üçün					
	Null Hypothesis: C(8)=C(9)			Null Hypothesis: c(47)+c(48)+c(49)= c(50)+c(51)+c(52)+c(53)+c(54)+c(55)+c(56)		
Value	1.775052	3.150811	3.150811	2.487549	6.187900	6.187900
Probability	0.0802	0.0802	0.0759	0.0152	0.0152	0.0129

Mənbə: Müəllif tərəfindən aparılmış hesablamalar

c(6), c(7), c(8) və c(9) uyğun olaraq, Ex_Rate_Pos, Ex_Rate_Neg, OP_Pos və OP_Neg dəyişənlərinin uzunmüddətli təsirlərini ifadə edən əmsallardır. (c(35), c(36), c(37), c(38), c(39)) - Ex_Rate_Pos ; (c(40), c(41), c(42), c(43), c(44), c(45), c(46)) – Ex_Rate_Neg; (c(47), c(48), c(49)) - OP_Pos və (c(50), c(51), c(52), c(53), c(54), c(55), c(56)) isə OP_NEG dəyişəninin qısamüddətli təsirlərini ifadə edən əmsallardır.

Nəticə. ARDL(10, 3, 0, 6, 5, 6, 2) modeli əsasında qurulmuş NARDL(10,7,2,6,5,7,3,7,7) modeli əsasında deyə bilərik ki, uzunmüddətli horizontda məzənnə dəyişəni, qısamüddətli dövrdə isə neft qiyməti üçün asimmmetriklik müşahidə olunur. Uzunmüddətli dövrdə ÜDM-in aylıq artım tempinə məzənnə və neft qiymətnin "mənfi" şokları "müsbət" şoklara nəzərən daha çox təsir göstərir. Uzunmüddətli dövrdə ixrac, idxal və əsas kapitala yönəlmiş investiisya dəyişənlərinin müsbət və mənfi komponentləri isə simmetrik təsirə malikdir. Bundan əlavə, qısamüddətli dövrdə ÜDM-in aylıq artım tempinə ixrac dəyişəninin müsbət, idxal dəyişəninin isə mənfi komponentlərinin təsiri müşahidə edilmir.

Ədəbiyyat

1. Davudova (Asadova) R.İ. Azərbaycan Respublikasında makroiqtisadi göstəricilərin əlaqələrinin COVID-19 pandemiyası və neft qiymətlərinin nəzərə alınması ilə postneft dövrü üçün qurulmuş dinamik modeli əsasında alternativ ssenarilərin işlənməsi və təhlili // AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. 2021, №1. səh.5-19 http://economics.com.az/images/fotos/xeberler_pdf/2021_1/1.Revane.pdf
2. Davudova (Asadova) R.İ. Azərbaycan Respublikasi nümunəsində ev təsərrüfatlarinin istehlaki, ümumdaxili məhsul və dövlət gəlirləri arasinda qarşiliqli əlaqələrin VEC modeli vasitəsi ilə qiymətləndirilməsi. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, 2019 № 4. Səh.18-3

http://economics.com.az/images/fotos/xeberler_pdf/2019_4/3.Revane.pdf
3. Əsədova (Davudova) R.İ.. Azərbaycan Respublikasında iqtisadi artım və ona təsir edən bəzi iqtisadi amillərin ARDL modelləşdirilməsi. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. 2022, №6. səh.7-24. http://economics.com.az/images/fotos/xeberler_pdf/2022_6/2.Ravana.pdf
4. Musayev A.F., Davudova (Asadova) R.İ. Postneft dövründə Azərbaycan Respublikasında makroiqtisadi göstəricilərin əlaqələrinin COVID-19 pandemiyası və neft qiymətlərinin nəzərə alınması ilə dinamik modelləşdirilməsi. İqtisadi artım və rifah. 2021, №2. səh.10-31. http://economics.com.az/images/fotos/iqtisadi_art%C4%B1m/2_2021/1.Musayev.pdf
5. Андреев А.. Исследование асимметрии и нелинейности переноса динамики обменного курса в инфляцию Серия докладов об экономических исследованиях, № 45 https://cbr.ru/Content/Document/File/79935/wp_45.pdf
6. Benazza Hanaa. Oil Price Fluctuations and their Short/Long Run Impact on Algerian Economic Growth: The ARDL Model. Roa Iktissadia REVIEW, University of Eloued, Algeria, V08, N02, 2018. DOI: 10.12816/0052781
7. Davudova (Asadova) R.I.. A VECM Analysis of the Relations the CPI, PPI, GDP per Capita, Exchange Rate in the Republic of Azerbaijan. Asian Journal of Economics, Business and Accounting. 2020 - Volume 19 [Issue 3], pp. 22-46 https://www.journalajeba.com/index.php/AJEBA/article/view/30306
8. EViews: AutoRegressive Distributed Lag (ARDL) Estimation. Part 1 - Theory
9. http://www.research.by/webroot/delivery/files/Seminar20180305.pdf
10. https://ceerp.hw.ac.uk/RePEc/hwc/wpaper/007.pdf
11. https://help.fsight.ru/9.2U7/ru/mergedProjects/lib/02_time_series_analysis/uimodelling_errcorrmodel.htm?ysclid=lf5mggpe7973683178
12. https://tradingeconomics.com/azerbaijan/gdp-per-capita
13. https://www.cbar.az/page-40/statistical-bulletin
14. https://www.researchgate.net/publication/358878370_Financial_Development_and_Economic_Growth_Nexus_ARDL_And_VECM_Analysis
15. https://www.stat.gov.az/news/macroeconomy.php?page=1&lang=az
16. İkubor J. Financial Development and Economic Growth Nexus: ARDL And VECM Analysis. lixir Finance Management. 128 (2019) 52909-52923
17. Shin Y., Yu B., Greenwood-Nimmo M.. Modelling Asymmetric Cointegration and Dynamic Multipliers in a Nonlinear ARDL Framework. http://ssrn.com/abstract=1807745
18. Zestos G., Guo W., Patnode R.. Determinants of Chinese Economic Growth and Trade: an ARDL Approach. https://www.efmaefm.org/0EFMAMEETINGS/EFMA%20ANNUAL%20MEETINGS/2017-Athens/papers/EFMA2017_0393_fullpaper.pdf

РЕЗЮМЕ
ЭКОНОМИЧЕСКИЙ РОСТ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И НЕКОТОРЫЕ ЕГО ДЕТЕРМИНАНТЫ: АНАЛИЗ В РАМКАХ NARDL

Асадова Р.И.

Ключевые слова: *экономический рост, темпы роста ВВП, экспорт, импорт, цена на нефть, инвестиции в основной капитал, обменный курс, COVID-19, NARDL, longrun Impact, ShortRun Impact, коинтеграция, асимметрия*

Исследовательская работа посвящена анализу динамического влияния экспорта, импорта, инвестиций в основной капитал, обменного курса и цен на нефть на темпы роста ВВП с помощью нелинейного моделирования NARDL (нелинейные распределенные лаги авторегрессии) на основе ежемесячной статистики 2011-2022 годов с учетом последствий пандемии COVID-19. Исследованы особенности симметричности динамического влияния положительной и отрицательной составляющих регрессоров на зависимую переменную-темп роста ВВП.

SUMMARY
ECONOMIC GROWTH OF AZERBAIJAN REPUBLIC AND SOME OF ITS DETERMINANTS: ANALYSIS WITHIN THE FRAMEWORK OF NARDL

Asadova R.I.

Keywords: *economic growth, GDP growth rates, exports, imports, oil price, investments in fixed assets, exchange rate, COVID-19, NARDL, longrun Impact, ShortRun Impact, cointegration, asymmetry*

The research paper is devoted to the analysis of the dynamic impact of exports, imports, investments in fixed assets, the exchange rate and oil prices on GDP growth rates using nonlinear modeling NARDL (nonlinear distributed autoregression lags) based on monthly statistics 2011-2022, taking into account the consequences of the COVID-19 pandemic. The features of the

symmetry of the dynamic influence of the positive and negative components of the regressors on the dependent variable-the GDP growth rate are investigated.

ABŞERON YARIMADASINDA *ARTEMİSİA FRAGRANS* WILLD. NÖVÜNÜN TOXUMLA ÇOXALDILMASI VƏ BİOEKOLOJİ XÜSUSİYYƏTLƏRİ

[1]Əsədov H.H., [2]Sadıqova K.S.
Dendrologiya İnstitutu, Bakı, Azərbaycan, 1-b.e.n., a.e.i., 2- e.i.
asadovhuseynaga@mail.ru, kemale.sadiqova1960@mail.ru

Açar sözlər: *toxum, inkişaf, inkişaf, efir yağı, dərman*

Azərbaycan Respublikasının florasının biomüxtəlifliyinin hərtərəfli tədqiq edərək, təsərrüfat əhəmiyyətli yeni xammal mənbələrinin elmi əsaslarla aşkarlanması, bitki növlərinin ehtiyatlarının və səmərəliyinin öyrənilməsi prioritet məqsəd olub və praktiki əhəmiyyətə malikdir. Son illər Respublikamızda və müxtəlif ölkələrdə aktual problemlərin aradan qaldırılmasında müəyyən qədər elmi tədbirlər, beynəlxalq elmi könfranslar keçirilir. Xalq və kənd təsərrüfatı təbii yayılmış əhəmiyyətli bitkilər Azərbaycan florasında xüsusi yer tutur. Bu bitkilər ölkəmizin təbii sərvətləridir [8]. Respublikamızın təbii florasında yayılmış bitkilər içərisində *Asteraceae* Dumort. fəsiləsinin polimorf formaları arasında *Artemisia* L. cinsi efir yağlı və dərman bltkisi olaraq çox əhəmiyyətlidir [4]. Bu cinsin Ətirli yovşan – *Artemisia fragrans* Willd. növünün efir yağı ilə zəngin dərman preparatlarının olduğunu, insanların sağlamlığını və bir çox xəstəliklərin müalicəsində faydalı olduğunu nəzərə alaraq, Abşeron şəraitində *Artemisia fragrans* Willd. növünün bioekoloji və faydalı xüsusiyyətləri tərəfimizdən araşdırılmışdır. Bu bitkinin xalq və kənd təsərrüfat əhəmiyyətli müxtəlif sahələrində geniş istifadə olunması məqsədyönlüdür [6].

Apardığımız elmi tədqiqat işləri 2021-2022-ci illərdə Abşeron yarımadasında yerləşən Dendrologiya İnstitutunun açıq təcrübə sahəsində yerinə yetirilmişdir. Material olaraq, polimorf *Artemisia* L. cinsinin Ətirli yovşan – *Artemisia fragrans* Willd. növü seçilmişdir. Elmi tədqiqat işinin yerinə yetirilməsi üçün müxtəlif üsullardan istifadə olunmuşdur. Tədqiqatda növün taksonomik tərkibi A.Enqler-Prantl və 2016-ildə qəbul edilmiş APG IV (Angiosperm Phylogeny Group IV) sistemlərinə istinad edilmişdir [7]. Toxumlarin keyfiyyəti M.K. Firsovanın üsuluna əsasən təyin olunmuşdur [10]. Cücərti və yuvenil mərhələdə böyümə və inkişaf dinamikası A.A. Molçanov və V.V. Smirnovun metodlarına əsasən aparılmışdır [9].

Azərbaycan florasında geniş yayılmış bitkilər arasında *Artemisia* L. cinsinə daxil olan növlər birillik, ikiillik, çoxillik ot və ya yarımkolcuqlardır. Bu cinsin Ətirli yovşan – *Artemisia fragrans* Willd. bitkisi endemdir, yarpaqları bozumtul və ya açıq-bənövşəyi rəngdə olan kol bitkisidir. Azərbaycanın Kiçik Qafqaz, Abşeron, Kür-Araz ovalığı Lənkəran düzənlikləri, Samur-Şabrani, Naxçıvan MR-da Araz boyu ərazilərdə yayılmışdır. Bitki 25 (30-45) sm hündürlüyə qədər boy atır, gövdəsi oduncaqlı olub, diametri 0,5-1 sm olan koldur.

Tədqiqatda təcrübə qoyulması üçün AR Elm və Təhsil Nazirliyi Dendrologiya İnstitutunun açıq təcrübə sahəsi seçilmişdir. Tədqiq olunan növün toxumları Abşeron yarımadasının ərazisindən toplanmışdır. Təcrübə sahəsi səpindən öncə 20-25 sm şumlanmış və ləklər düzəldilmişdir. Torpağın temperaturu ölçülmüş (temperatur 8-12ºC), mart ayının II ongünlüyündə toxumların səpilməsi aparılmış, sahə şırımlarlarının dərinliyi 0,8-1 sm olmuşdur. Cərgələrarası məsafə 30-35 sm, səpin norması isə hər kvadrat metrə 0,3-0,4q götürülmüşdür. Toxumların normal cücərməsi üçün optimal temperatur 20-25ºC-dir. Əkin zamanı torpaqda kifayət qədər rütubət RH 65-70% olmalıdır.

Cədvəl.

Tədqiq olunan növün toxumlarının torpaqda cücərmə qabiliyyəti

Növ	Səpin vaxtı	Cücərtinin alınması		Cücərmə **%**	Cücərtinin qalma %
		ilkin	kütləvi		
A. fragrans Willd.	16.02. 2022	11.03.2022	15.03.2022	85-95	80

Toxumlar aprel ayının I ongünlüyündə 85-95% cücərmə vermişdir. Toxumlardan alınmış uzunsov-elips şəkilli, 0,2-0,4mm onların tünd-qəhvəyi rəngdə olduğu müşahidə olunmuşdur. Müşahidələrimizə görə ilk olaraq,ağ rəngli kökcük əmələ gəlir. Sonradan əyilmiş hipokotil düzələrək, torpağın səthində ləpə yarpaqlarla örtülür. Toxumlar cücərdikdən 20 gün sonra, aprel ayının I ongünlüyündə ilk həqiqi yarpaqlar formalaşır. Artıq may ayının sonunda ləpə yarpaqları solur, ilk lələkvari yarpaqlar, 22-25 gün sonra isə lələkvari bölünmüş yarpaqlarəmələ gəlir. Yarpaqları lətli, ikili, üçər lələkvari-parçalanmış, uc hissəsi

uzunsovdur. Tədqiqat dövründə aydın görünür, inkişafın ikinci ilində səbətciklərdə yerləşən süpükəvari çiçəklər yaranır. Müğahidəmizə görə, səbətləri yumurtavari kürəkşəkilli, bozumtul-bənövşəyi tüklüdür, gövdə budaqlarının uclarında süpürgələrdə yerləşmişdir [1, 2] . Səbətlərin uzunluğu 2,7 mm, eni 0,5 mm ölçülmüşdür. Çiçəklərinin sayı 10-12 ədəd olub, qabarıq çiçək qrupunda yerləşir. Çiçəkləməsi sentyabr , meyvə verməsi isə oktyabra təsadüf edir.Ətirli yovşan bitkisi torpağa az tələbkar olub, quraqlığa və qışadavamlıdır [3].

Dərman məqsədi ilə xammalı bitkinin çiçəkləmə dövründə 2-ci aparılır. Xammalın vaxtında yığılması çox vacibdir, çünki gecikmə olarsa onda otların qaralması və səbətlərin parçalanması baş verər. Bitkinin xamallı zirvə yarpaqları və çiçəkləridir. Ədəbiyyat materiallarına görə yovşanın tərkibində efir yağı, kumarin, absintin, flavonoidlər, üzvü turşular, şəkər və s. vardır. Yovşanlar və onlardan alınan maddələr xalq və elmi təbabətdə bir sıra xəstəliklərin müalicəsində işlədilir. Tərkibində efir yağının olması onun həşərat və qurdqovucu, valerian turşusunun olması sakitləşdirici, fenol birləşmələrinin olması isə vəba xəstəliklərinə qarşı müalicəvi təsir göstərən dərmanlar almaq olur. *Artemisia fragrans* Willd. növündən alınan artemizin malyariya xəstəliyinə qarşı tətdiq olunur. Bu bitki kamfora kimi də geniş istifadə edilməkdədir.

Aparılan elmi-tıdqiqatın nəticəsində Azərbaycanıntəbii florasında yayılmış *Artemisia* L. cinsinə mənsub olan Ətirli yovşan - *Artemisia fraqrans* Willd. növünə Abşeron yarımadasında aqrotexniki qulluq göstərildiyi zaman boy və inkişafını normal keçirdiyi məlum olmuşdur. Dünya alimlərinin apardığları araşdırmalara istinad edilərək, onun müalicəvi xüsusiyyətləri öyrənilmişdir. Göründüyü kimi, efir yağı ilə zəngin olan *Artemisia fragrans* Willd. bitkisinin təsir dairəsi çox genişdir və müsbət xüsusiyyətlərinə görə yovşan cinsinin bəzi növləri ilə müqayisədə daha üstündür. Onun Respublikamızda geniş miqyasda becərilməsi, efir yağlı dərman bitkisi kimi xalq təbabətində və kənd təsərrüfatının müxtəlif sahələrində istifadə olunması məqsədyönlüdür.

Ədəbiyyat

1. Ələsgərova Ə.L., İbadullayeva S.C. Azərbaycan florasında yovşan növlərinin bitkilik tipində rolu // Məruzələri, 2011, LXVII c., s. 132-138.
2. Ələsgərov Ə.N. Abşeroda becərilmiş ətirli yovşan-*Artemisia frağrans* Willd. növünün ontogenezi / Ətraf mühütün mühafizəsində botanika bağlarının rolu. Bakı: 2006, s. 295-298.
3. Ələsgərov A.N. Ekoloji faktorların *Artemisia* L növlərinin istifadə prespektivləri / Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi "Həsən Əliyev və Azərbaycanda ətraf mühitin davamlı inkişafının problemləri" mövzusunda elmi-praktiki konfransın tezisləri. Bakı: 2002, s. 63-64.
4. Hümbətov H.S., Bəşirov V.V., Moumayev V.R. Yağlı və efir yağlı bitkilər. Bakı: Elm və təhsil nəşr. Poliqrafiya MMS, 2016,s. 4-6.
5. Məmmədov T. S. Azərbaycan dendroflorası II cild. Bakı: Səda, 2015, s. 178-181.
6. Məmmədov T.S., Əsədov H.H. Bitki ekologiyası, Bakı: Elm, 2015, 310 s. 43-44.
7. Məmmədov T.S., İbrahimov Ə.S., Nəbiyeva F.X. Abşeron florasının taksonomik spektri. Bakı: Elm, s. 254.
8. Алескерова А.Н. Эфирные масла некоторых видов рода *Artemisia. /* Материалы Международного симпозиума «Нетрадиционное растениеводство, этиология, экология и здоровье» 2001, Симферополь: Алушта, 2001, с. 671-672.
9. Молчанов А. А., Смирнов В. В. Методика изучения прироста древесных растений. М.: Наука, 1967, с. 95.
10. Фирсова М.К. Методы исследования и оценки качества семян. М.: Сельхозгиз, 1960, 375 с.

РЕЗЮМЕ

БИОЭКОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ И РАЗМНОЖЕНИЕ СЕМЕНАМИ ВИДА *ARTEMİSİA FRAGRANS* WILLD. В УСЛОВИЯХ АПШЕРОНСКОГО ПОЛУОСТРОВА

Асадов Г.Г., Садыгова К.А.

Ключевые слова: *семя, развитие, эфирное масло, лекарство*

В статье описаны ботанические особенности, размножение семенами и полезные свойства вида Душистой полыни – *Artemisia fragrans* Willd. В коллекции эфиромасличных растений Института Дендрологии это растение занимает особое место из размножающихся семенами. Выявлено, что при нормальных условиях она нормально развивается, цветёт и даёт семена в засушливых условиях Апшеронского полуострова. Вид *Artemisia fragrans* Willd произошла из рода полиморфного *Artemisia* L. Как эфиромасличное лекарственное растение, целесообразно выращивание ее в широком масштабе в Республике, использование в различных отраслях народного, сельского хозяйства и парфюмерии.

SUMMARY
BIOECOLOGICAL FEATURES AND REPRODUCTION BY SEEDS OF THE SPECIES *ARTEMİSİA FRAGRANS* WILLD. UNDER CONDITIONS OF THE ABSHERON PENINSULA
Asadov H.H., Sadigova K.A.

Keywords: *seed, species, development, essential oil, medicine*

The article describes the botanical features, propagation by seeds and useful properties of the species - *Artemisia fragrans* Willd. This plant has a special place in the collection of essential oil plants of the Institute of Dendrology. It was revealed that it develops normally, blooms and gives seeds in the conditions of the Absheron peninsula. Species *Artemisia fragrans* Willd. is originated from the polymorphic genus *Artemisia* L. as an essential oil medicinal plant, it is advisable to grows on a large scale in the Republic, use it in various sectors of folk, agriculture and perfumery.

TƏHLÜKƏSİZLİK RİSKLƏRİNİN TƏHLİLİ

Əhmədova Nərmin Kamil qızı
İslamova Dinarə Şirin qızı
Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan
narmin.ahmadova@mdu.edu.az ; dinara.islamova@mdu.edu.az

Açar sözlər: *kibertəhlükəsizlik, kiber-risk, kiberhücum, kibermüharibə, risk təhlili*

Giriş. 1837-ci ildə Cambridge Universitetində professor Çarlz Babbic tərəfindən "Ağıllı Mühərrik" adlı ilk kompüter dizayn edilərkən onun belə böyük bir inqilab yaradacağı və bəlkə də bugünkü müharibələrin astanasına gələcəyi düşünülmürdü [1]. Zamanla sürətlə inkişaf edən bu texnologiya indi informasiyanın nəinki saxlanıldığı, həm də işləndiyi, istifadə edildiyi və inkişaf etdirildiyi ən mühüm mühitə çevrilmişdir.

Problemin qoyuluşu. Fərdi istifadəçilərlə yanaşı, korporativ istifadəçilərin də səmərəli istifadə etdiyi bu rəqəmsal informasiya dünyasının internet mühitinə ötürülməsi məlumatı daha cəlbedici və məqsədyönlü hala gətirməklə yanaşı, əlçatanlığı asanlaşdırıb. Bu gün dünyada 2,28 milyard internet istifadəçisi, 19,2 milyard internet səhifəsi, 1,6 milyard şəkil və 50 milyon audio-şəkil faylı olduğu təxmin edilir [4]. Həm fərdlər, həm də qurumlar tərəfindən çox səmərəli istifadə edilən bu kiber dünya getdikcə daha təhlükəli bir məkana çevrilib. Kibertəhlükəsizlik, kiberhücum, kibermüharibə sözləri həm fərdlərin, həm də dövlətlərin lüğətinə yerləşmiş və gündən-günə daha qorxunc mənalar kəsb etməyə başlamışdır.

Müasir təhlükəsizlik zəncirinin ən əsas həlqələrindən biri də insanların, sosiumun, sosial-iqtisadi sistemin kiber-təhlükəsizliyinin təmin olunmasıdır. Prosesin ana xəttini kiber-təhlükələrin analaşılması, kiber-risklərin qiymətləndirilməsi və adekvat nəzarətlərin qurulması təşkil edir. Bu təhlükələrin təsir zonası fərdi və bir çox hallarda konfidensial məlumat daşıdığımız mobil telefonları, elektron kommunikasiya vasitələrini, sosial şəbəkələri, intellektual və inteqrasiya edilmiş, korporativ informasiya sistemlərini əhatə edir. Kibertəhlükələrin və risklərin rellaşması ciddi maddi və reputasiya itkilərinə, normativ aktların tələblərinin pozulmasına səbəb olur. Düzgün daxili nəzarət sistemləri qurmaqla və istiqamətləndirməklə daima qarşılıqlı təmasda olduğumuz və yararlandığımız informasiya ekosisteminə xas riskləri minimallaşdırmaq mümkündür. Bu proses xərc-fayda balansını əldə rəhbər tutmaqla, riskləri və təsirləri prioritetləşdirərək müvafiq nəzarət mexanizmləri ilə həyata keçirilir [2].

Kibertəhlükəsizlik riskinin təhlili kiberhücumlara həssas ola biləcək məlumatları, elektron aktivləri müəyyən etməyə, idarə etməyə və qorumağa kömək edir. Risk təhlili sizə cari və potensial riskləri müəyyən etməyə və onlardan qorunmağa kömək edə biləcək təhlükəsizlik nəzarəti strategiyası yaratmağa kömək edir.

Unutmaq olmaz ki, risklərin qiymətləndirilməsi və təhlilini aparmaq ən güclü müdafiə ola bilər. Risk təhlili informasiya texnologiyaları, layihələr, təhlükəsizlik məsələləri və risklərin kəmiyyət və keyfiyyətcə təhlil oluna biləcəyi bütün digər hadisələrə tətbiq edilir [2]. Risklər hər bir İT layihəsinin və biznes təşkilatının bir hissəsidir. Risk təhlili mütəmadi olaraq aparılmalı və yeni potensial təhlükələri müəyyən etmək üçün yenilənməlidir. Strateji risk təhlili gələcək risk və zərər ehtimalını minimuma endirməyə kömək edir.

Aktivi qorumaq üçün ilk növbədə onun dəyərini bilmək və onun hansı risklərə məruz qaldığını müəyyən etmək lazımdır. Tədqiqatlarda kiberhücumların hər il artdığı müəyyən edilib. Bu səbəbdən təhlükəsizlik risklərinin təhlili və zəruri risk modellərinin yaradılması mövcud vəziyyət üçün həyati əhəmiyyət kəsb edir.

Risk təhlilinin əsas faydaları təhlükəsiz məlumat idarəetməsinin inkişafı, təşkilatın kritik aktivlərinin monitorinqini və effektiv şəkildə qorunmasını təmin etmək, qərarların qəbulunda effektiv informasiya təhlükəsizliyi siyasətini dəstəkləmək, təşkilatlar üçün praktiki təhlükəsizlik siyasətlərinin müəyyən

edilməsini təmin etmək və gələcək proqnozlar üçün dəyərli analitik məlumatların təmin edilməsidir. Risk faktoruna aktivlər, təhdidlər və mövcud zəifliklər təsir edir. Aktivlər, təhdidlər və zəifliklər artdıqca risk də artacaq [3].

Aktivlər ümumiyyətlə məlumat/məlumat, sənədlər, aparat, proqram təminatı, insan resursları və şərtlərdən ibarətdir. Təhdidlər insan/qeyri-insani amillər, şəbəkə/fiziki, texniki/ekoloji, daxili/xarici və qəsdən/təsadüfi təhlükələr kimi təsnif edilə bilər. Zəifliklər inzibati sənədlər, kadrlar, qaydalar, fiziki şərait və qurğular, texniki avadanlıq, proqram təminatı, rabitə/şəbəkə qaynaqlı zəifliklər kimi təsnif edilə bilər. Riyazi olaraq risk hər hansı bir zəifliyə məruz qalma nəticəsində aktivlərin dəyərinin azalması ilə bağlı zəifliyə təhlükə ehtimalının vurulması yolu ilə hesablanır [3]:

Risk = Zərər * Ehtimal

Risklərin təhlili prosesi ümumiyyətlə dörd addımdan ibarətdir [5]. İlk addımda aktivlər, təhlükələr və zəifliklər üzrə identifikasiya və qiymətləndirmə aparılmalıdır. İkinci mərhələdə aktivlər, təhlükələr və mövcud zəifliklər nəzərə alınmaqla sistemin ümumi risk qiymətləndirilməsi aparılmalıdır. Üçüncü mərhələdə, mövcud təhlükələrin riskini azaltmaq üçün lazımi üsul və effektivliyin qiymətləndirilməsi aparılır. Risklər təşkilat tərəfindən müəyyən edilməli və bu riskləri mümkün qədər minimuma endirmək üçün üsul seçilməlidir. Dördüncü mərhələdə fayda və xərclər ikinci və üçüncü mərhələlərdə hesablanmış risk məbləğinə əlavə edilir və son risk məbləği alınır. Bu risk məbləğindən artıq zərər müəyyən edilərək, gələcək tədqiqatlara zəmin hazırlamaq və vəziyyəti daha aydın görmək üçün nəticə sənədi hazırlanır.

Müəssisə və təşkilatlar niyə risk analizindən istifadə etməlidirlər [6]:

- Mənfi hadisələrdən yaranan zərərli nəticələrin təsirini təxmin etmək və azaltmaq.
- Texnologiya və ya avadanlıqların nasazlığını və ya təbii və insan səbəbli mənfi hadisələrdən itkisini planlaşdırmaq.
- Layihə ilə irəliləyiş üçün qiymətləndirərkən layihənin potensial risklərinin qərar vermə prosesində balanslaşdırılmış olub olmadığını qiymətləndirmək.
- Müəssisə mühitindəki dəyişikliklərin təsirini müəyyən etmək və onlara hazırlaşmaq.

Hər bir təşkilat öz İT aktivlərini effektiv və səmərəli şəkildə qorumaq üçün informasiya sistemləri ilə bağlı riskləri başa düşməlidir. Risk təhlili təşkilata öz təhlükəsizliyini bir çox cəhətdən yaxşılaşdırmağa kömək edə bilər: maliyyə və təşkilati təsirlərə gəldikdə, o, təşkilatla bağlı risklərin ümumi təsirini müəyyənləşdirir, qiymətləndirir və müqayisə edir; o, informasiya təhlükəsizliyində boşluqları müəyyən etməyə və təhlükəsizlik risklərini aradan qaldırmaq üçün növbəti addımları müəyyən etməyə kömək edir; həmçinin informasiya təhlükəsizliyi ilə bağlı kommunikasiya və qərar qəbuletmə proseslərini təkmilləşdirə bilər; təhlükəsizlik siyasətlərini və prosedurlarını təkmilləşdirir, həmçinin informasiya təhlükəsizliyi siyasət və prosedurlarını həyata keçirmək üçün sərfəli üsullar hazırlayır; risk təhlili prosesi zamanı işçilərin risklər və təhlükəsizlik tədbirləri haqqında məlumatlılığını artırır və potensial təhlükəsizlik risklərinin maliyyə təsirlərini başa düşür.

Keyfiyyətli risk təhlili prosesi ehtimal və təsir nömrəsini təyin etməklə layihə üzrə riski prioritetləşdirən layihənin idarə edilməsi üsuludur. Ehtimal risk hadisəsinin baş verəcəyi bir şeydir, təsir isə risk hadisəsinin nəticələrinin əhəmiyyətidir. Keyfiyyətli risk təhlilinin məqsədi fərdi olaraq müəyyən edilmiş riskin xüsusiyyətlərini qiymətləndirmək və qiymətləndirmək və sonra razılaşdırılmış xüsusiyyətlərə əsasən onları prioritetləşdirməkdir [5]. Fərdi riskin qiymətləndirilməsi hər bir riskin baş vermə ehtimalını və layihə məqsədlərinə təsirini qiymətləndirir. Risklərin təsnifatı onları süzgəcdən keçirməyə kömək edəcək.

Nəticə. Risklərin kəmiyyət təhlili prosesinin həyata keçirilməsinin məqsədləri riskin layihə məqsədlərinə ümumi təsirinin ədədi qiymətləndirilməsini təmin edir. O, layihə məqsədlərinə nail olmaqda uğur ehtimalını qiymətləndirmək və adətən vaxt və xərc üçün tətbiq olunan ehtiyat ehtiyatını qiymətləndirmək üçün istifadə olunur. Xüsusilə kiçik layihələr üçün kəmiyyət təhlili məcburi deyil. Kəmiyyət risk təhlili əsas diqqət mərkəzində olan ümumi layihə riskinin təxminlərini hesablamağa kömək edir.

Ədəbiyyat

1. Анализ рисков информационной безопасности // securitylab.ru. [Электронный ресурс]. Режим доступа: https://www.securitylab.ru/blog/personal/aguryanov/30007.php/ (дата обращения: 21.02.2020).
2. Анализ рисков в управлении информационной безопасностью // bytemag.ru. [Электронный ресурс]. Режим доступа: https://www.bytemag.ru/articles/detail.php?ID=13265/ (дата обращения: 21.02.2020).
3. Герасименко В.А., Малюк А.А. Основы защиты информации. М.: Инкомбук, 1997.

4. Информационные риски: методы оценки и анализа // itportal.ru. [Электронный ресурс]. Режим доступа: http://itportal.ru/science/economy/informatsionnye-riski-metody-otsenk/ (дата обращения: 21.02.2020).
5. Маслова М.А. Анализ и определение рисков информационной безопасности // Научный результат. Информационные технологии. Т. 4. № 1, 2019.
6. Тенетко М.И., Пескова О.Ю. Анализ рисков информационной безопасности // Известия ЮФУ. Технические науки, 2011. № 12.

РЕЗЮМЕ
АНАЛИЗ РИСКОВ БЕЗОПАСНОСТИ
Ахмедова Н.К., Исламова Д.Ш.

Ключевые слова: *кибербезопасность, киберриск, кибератака, кибервойна, анализ риска.*

Одним из важнейших звеньев современной цепи безопасности является обеспечение кибербезопасности людей, общества и социально-экономической системы. Основным направлением процесса является понимание киберугроз, оценка киберрисков и установление адекватных механизмов контроля. Реализация киберугроз и рисков приводит к серьезным финансовым и репутационным потерям, нарушению требований нормативных актов. Создавая и направляя надлежащие системы внутреннего контроля, можно свести к минимуму риски, присущие информационной экосистеме, с которой мы постоянно взаимодействуем и извлекаем из нее пользу. Анализ рисков кибербезопасности помогает выявлять, управлять и защищать данные и электронные активы, которые могут быть уязвимы для кибератак.

SUMMARY
SECURITY RISKS ANALYSIS
Akhmadova N.K., Islamova D.Sh.

Keywords: *cyber security, cyber risk, cyber attack, cyber war, risk analysis.*

One of the most important links of the modern security chain is ensuring the cyber security of people, society, and the socio-economic system. The main line of the process is the understanding of cyber threats, the assessment of cyber risks and the establishment of adequate controls. Realization of cyberthreats and risks leads to serious financial and reputational losses, violation of the requirements of normative acts. By establishing and directing proper internal control systems, it is possible to minimize the risks inherent in the information ecosystem that we constantly interact with and benefit from. Cybersecurity risk analysis helps identify, manage, and protect data and electronic assets that may be vulnerable to cyberattacks.

AZƏRBAYCANDA MÜƏSSİSƏLƏRİN RƏQƏMSAL TRANSFORMASİYASININ SÜRƏTLƏNDİRİLMƏSİNDƏ İNVESTİSİYALARIN ROLUNUN TƏHLİLİ

Fətəliyeva Gülnarə Akif qızı
İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan, i.f.d., a.e.i.
feteliyevagulya@gmail.com

Açar sözlər: *rəqəmsal transformasiya, İKT, investisiya, müəssisə, proqram təminatı, təlim.*

Rəqəmsal transformasiya bu gün həyatımızın bütün sferalarına nüfuz etməkdədir. Bu da, öz növbəsində, gündəlik yaşam tərzimiz, eləcə də fəaliyyət sahələrinə təsir göstərir. Rəqəmsal transformasiyanın sürətləndirilməsinə təkan vermək və həmçinin onun qarşıya qoyduğu yeni tələblərə uyğunlaşmaq baxımından investisiya yatırımları mühüm əhəmiyyətə malikdir. Bu baxımdan təhsil, təkmilləşdirmə ilə bağlı təşkil edilən təlimlər, informasiya və kommunikasiya texnologiyaları (İKT) avadanlıqları, proqram təminatı və elmi-tədqiqatlara çəkilən xərclər xüsusi vurğulanmalıdır [3, s.144]. Sadalananlar həm də "insan kapitalı"na investisiyaların tərkib hissəsi hesab olunur.

Azərbaycanda İKT avadanlıqları və proqram təminatı sahəsində müəssisə xərcləri üzrə mövcud vəziyyət

Müəssisələrin rəqəmsal transformasiyası dedikdə, ilk növbədə, müəssisələrdə yeni, rəqəmsal texnologiyaların tətbiqi nəzərdə tutulur. İKT avadanlıqları ilə təminat və internet şəbəkəsinə qoşulmaq müəssisələr tərəfindən infrastruktura ilkin investisiya yatırılmasını zəruri edir.

Diaqram 1-in məlumatlarına əsasən, Azərbaycanda müəssisələr 2019-cu ildə İKT avadanlıqlarının alınmasına 25,4 milyon manat xərc çəkmişlər. Bir il sonra bu vəsaitlərin məbləği bir qədər də (2,9 milyon manat) artmışdır. 2021-ci ildə isə xərclərin həcmində (27,5 milyon manat) cüzi azalma (0,8 milyon manat) qeydə alınmışdır.

Təhlil dövrü ərzində müəssisələrin internetlə bağlı xərclərinin həcmi ümumi səviyyədə davamlı olaraq artmışdır. Belə ki, internet şəbəkəsinə qoşulmaqdan ötrü müəssisələr 2020-ci ildə öz xərclərini bir il

əvvələ nisbətən 3,4 milyon, növbəti ildə isə 5,1 milyon manat artırmışdır. Bununla da 2021-ci ildə internetə qoşulmaq üçün müəssisələr ümumilikdə 28,2 milyon manat vəsait sərf etmişlər.

Qeyd etmək lazımdır ki, 2019-2021-ci illərdə internet şəbəkəsinə qoşulmaqla bağlı xərclərin ümumilikdə müəssisələr tərəfindən proqram təminatı və İKT avadanlıqları üzrə çəkilmiş xərclərdə payı müvafiq olaraq 15,3%; 14,6% və 13% təşkil etmiş, yəni azalma baş vermişdir. Eyni vəziyyət İKT avadanlıqları üzrə xərclərdə də müşahidə olumuşdur. Daha dəqiq desək, qeyd edilən xərclərin müəssisələrin bu sahədəki ümumi xərclərinə nisbəti 19,8%-dən növbəti ildə 17,9%-ə, daha sonra isə 12,7%-dək enmişdir. Əslində isə, belə vəziyyət müəssisələrin proqram təminatı və İKT avadanlıqları üzrə yatırımlarının tərkibinə daxil olan digər növ xərclərin (məsələn, lisenziyalar, tətbiqi proqram təminatlarının hazırlanması, texniki dəstək və s.) həcminin əvvəlki ilə nisbətən kəskin artımı ilə izah olunmalıdır. Ümumilikdə isə, əgər 2019-cu ildə proqram təminatı və İKT avadanlıqları üzrə ümumi xərclər 128,6 milyon manat olmuşdursa, növbəti ildə 29,1% yüksələrək 157,7 milyon manata, yenidən 58,7% artaraq 2021-ci ildə 216,4 milyon manata çatmışdır.

Diaqram 1.

İKT avadanlıqları və internetə qoşulmaq üçün müəssisə xərcləri, milyon manat

Mənbə [1] *əsasında müəllif tərəfindən tərtib edilib*

Azərbaycanda müəssisələr proqram təminatının yaxşılaşdırılmasında maraqlıdır və bu sahəyə investisiyaları artırmaqdadırlar. 2 saylı Diaqramdan göründüyü kimi, müəssisələr tərəfindən çəkilmiş xərclərdə sürətli artım müşahidə olunub. 2019-2021-cı illərdə proqram təminatına yatırımların həcmi 46 milyon manat çoxalmışdır ki, bu artımın da 10,3 milyon manatı 2020-ci ilin, 35,7 milyon manatı isə 2021-ci ilin payına düşmüşdür.

Müəssisələrin proqram təminatı ilə bağlı investisiyalarının ÜDM-ə nisbəti üzrə ümumi tendensiyalar göstərir ki, bu sahədə stabil artımlar olmuşdur. Təhlil dövründə bu nisbət 0,02% olmaqla çoxalmışdır.

Diaqram 2.

Proqram təminatı üzrə müəssisə xərcləri, milyon manat



Mənbə [1] *əsasında müəllif tərəfindən tərtib edilib*

İşçilərin təlimi ilə bağlı müəssisə xərcləri üzrə müasir durum

Müəssisələr tərəfindən müasir texnologiyaların tətbiqi və istifadə imkanlarının genişləndirilməsi ilə yanaşı, burada çalışan işçilərin təkmilləşdirilməsi məqsədi ilə təlimlərə qoyulan investisiyalar onların bacarıqlarının müəssisələrin ehtiyaclarına uyğunlaşdırılmasına kömək edir. Təşkil edilən təlimlər, eyni

zamanda, aşağı ixtisaslı işçilərin rəqəmsal transformasiyanı idarə etmək üçün lazım olan bacarıqlara yiyələnməsi ilə bərabər, kollektivdə bərabərsizliyin azaldılmasına da səbəb olur.

Azərbaycanda müəssisələrin öz əməkdaşlarının təlimi və yeni tətbiqlərin öyrənilməsi üzrə xərclərinin həcmi 2019-cu ildə 2,8 milyon manat olmuşdur. Növbəti ildə bu sahədə nəzərəçarpacaq artım müşahidə edilmişdir. Belə ki, təlimlərə yatırılan investisiyaların həcmi əvvəlki ilə nəzərən 1,7 dəfə artaraq 2020-ci ildə 4,8 milyon manata yüksəlmişdir. 2021-ci ildə isə bu növ xərclər 2,9 milyon manat təşkil etmişdir.

Diaqram 3.

Azərbaycanda müəssisələrin işçilərin təlimi və yeni tətbiqlərin öyrənilməsi üzrə xərcləri, milyon manat



Mənbə [1; 2] *əsasında müəllif tərəfindən tərtib edilib.*

Müəssisələrdə işçilərin təlimi və yeni tətbiqlərin öyrənilməsi ilə bağlı xərclərin ÜDM-ə nisbəti isə çox kiçik rəqəmlərlə xarakterizə olunur. Bu göstərici qeyd edilən illər üzrə müvafiq olaraq 0,003%, 0,007%, 0,003%-ə bərabər olmuşdur (Diaqram 3). Kadrların təlimi üzrə yatırımların həcminin artıb-azalmasına uyğun olaraq İKT avadanlıqları və proqram təminatı üzrə müəssisə xərclərindəki payı təhlil dövründə 2,2%; 3% və 1,3% arasında dəyişmişdir.

Nəticə. Sürətli texnoloji dəyişikliklərin baş verdiyi hazırki dövrdə müəssisələrin öz fəaliyyətlərində İKT-ləri tətbiq etməsi rəqəmsal transformasiyaya doğru başlıca addımdır. Aparılmış müqayisəli təhlillərin nəticəsi göstərir ki, son illərdə Azərbaycanda müəssisələr İKT avadanlıqlarının alınması və internet şəbəkəsinə qoşulmaq məqsədilə öz xərclərini artırmaqda maraqlıdırlar. Proqram təminatı sahəsində müəssisələr tərəfindən çəkilən xərclərin həcmində xüsusilə nəzərəçarpacaq artımlar diqqəti çəkir. Bütün bu qeyd edilənlər müsbət hal kimi qiymətləndirilə bilər.

Rəqəmsal transformasiya işçilərin iş təcrübələrinin və səriştələrinin inkişaf etdirilməsi, onların məlumatlarla işləmək mədəniyyətinin təkmilləşdirilməsi üçün əlavə sərmayələr tələb edir. Bu isə, əsasən, işçilərin yeni bacarıq əldə edə bilməsinin mühüm yolu olan təlimlərə yatırımlar vasitəsilə reallaşdırılır. Ölkəmizdə müəssisələrin işçilərin yeni tətbiqləri mənimsəməsi ilə bağlı təşkil edilən təlimlərə xərcləri dəyişkən dinamikaya malik olmuşdur. Kadrların bilik və bacarıqlarının yüksəldilməsinə yönələn sərmayə yatırımları rəqəmsal transformasiyanın başlıca meyarlarındandır. Odur ki, işçilərin əmək bazarı tələbindəki dəyişikliklərə uyğunlaşa bilmələri məqsədilə belə növ investisiyaların həcminin artırılması vacib əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Müəssisələrdə İKT sistemləri və onlara giriş, 2021. [https://www.stat.gov.az/source/information_society/]
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Ümumi daxili məhsul, 2021. [https://www.stat.gov.az/source/system_nat_accounts/]
3. Measuring the digital transformation. A roadmap for the future. OECD publishing. Paris. 2019. 260 p.; [https://read.oecd-ilibrary.org/science-and-technology/measuring-the-digital-transformation_9789264311992-en]

РЕЗЮМЕ

АНАЛИЗ РОЛИ ИНВЕСТИЦИЙ В УСКОРЕНИИ ЦИФРОВОЙ ТРАНСФОРМАЦИИ ПРЕДПРИЯТИЙ В АЗЕРБАЙДЖАНЕ

Фаталиева Г.А.

Ключевые слова: *цифровая трансформация, ИКТ, инвестиции, предприятие, программное обеспечение, обучение.*

Цель исследования – изучение текущего состояния инвестиций, обеспечивающих цифровую трансформацию, на примере предприятий. С этой целью была проанализирована и изучена текущая ситуация в области расходов предприятий на программное обеспечение и ИКТ-оборудование, а также на обучение сотрудников предприятий в Азербайджане. В конце работы были сделаны обобщения и отмечены результаты. В работе использовались сравнительный и статистический анализ, системный подход, методы обобщения.

SUMMARY

ANALYSIS OF THE ROLE OF INVESTMENTS IN ACCELERATING THE DIGITAL TRANSFORMATION OF ENTERPRISES IN AZERBAIJAN

Fataliyeva G.A.

Keywords: *digital transformation, ICT, investment, enterprise, software, training.*

The purpose of the study is to study the current state of investments enabling digital transformation in the example of enterprises. For this purpose, the current situation in the field of expenditures of enterprises on software and ICT equipment, as well as on employee training in Azerbaijan was analyzed and studied. At the end of the work, generalizations were made and results were noted. Comparative and statistical analysis, systematic approach, generalization methods were used in the research work.

ABŞERONUN PARK-BAĞLARINDA DEKORATİV OT BİTKİLƏRİNİN ÖYRƏNİLMƏSİ

Gülməmmədova Şəlalə Adil qızı, Əliyeva Şəbnəm Rafiq qızı
Dendrologiya İnstitutu, Bakı, Azərbaycan
shalala.g@mail.ru

Açar sözlər: *park, bağ, dekorativ, ot, kompozisiya*

Dekorativ ot bitkiləri yaşıllaşdırmanın mühüm hissələrindən biridir. Çiçəkliklər parkların, bağların, xiyabanların, küçələrin, həyətlərin yaraşıqlı görünməsində, arxitektur tərtibatında böyük rol oynayırlar. Onların qoxusu insana xoş təsir bağışlayır. Çiçəklər bizim həyatımızı bəzəməklə və göz oxşamaqla yanaşı, sahənin əsas detallarını – girişi, yolları, hovuzu, istirahət guşəsini qeyd edən kompozisiya vasitəsidir.

Çiçəklərlə tərtibatın bütün kompleksi struktur elementlərin qarşılıqlı əlaqəsindən asılıdır. Mərkəzdə, ən çox diqqəti cəlb edən yerdə kompozisiyanın əsas mövzusunu əks etdirən iri, parlaq rəngli çiçəkli bitkilər əkilməlidir [1].

Müasir park və bağlarımıza gözəllik verən çiçəkli bitkilərin əmələgəlmə tarixi təbaşir dövrünə aid olmaqla yanaşı 110 mln. il hesab edilir. Aparılan elmi tədqiqatlar göstərir ki, hələ insanlar çox qədimdən çiçəkli bitkilərdən müxtəlif məqsədlərlə istifadə etmişlər. Çiçəkliklərin tərtibatı üçün birillik, ikiillik və çoxillik bitkilərdən istifadə olunur. Çoxillik gül bitkilərinin kökləri, kökümsovları, kök yumruları və soğanaqları torpaqda qalır və hər il yenidən zoğ verirlər. Birillik gül bitkiləri hər il toxumdan cücərir və bir vegetasiya dövrü ərzində inkişaf edərək məhv olurlar.

Çiçəklər parklarda, bağlarda, bulvarda, xiyabanlarda və meşə-parklarda əkilir. Hər dəfə müəyyən forma və tipli əkinlərdən istifadə edilir: ən sadə kompozisiyadan başlamış qazonlardan, kollardan, ağaclardan, çox miqdarda çiçəklərdən ibarət və müəyyən mənzərə yaradan mürəkkəb kompozisiyalaradək [2].

Dekorativ ot bitkiləri müxtəlif formalı çiçək ləklərində (yumru, oval, kvadrat, fiqurlu), ensiz, uzun gül gərdilərində, qruplarla qazonda, kolların ətrafında, divarların yanında əkilir. Abşeronun park-bağlarında dekorativ ot bitkilərinin öyrənilməsi məqsədilə 2019-2022-ci illərdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Dendrologiya İnstitutunun "Landşaft memarlığı" laboratoriyası tərəfindən elmi-tədqiqat işləri aparılmışdır.

Çiçəkli bitkilərin gözəl və sağlam böyüməsi üçün sahədə optimal ekoloji mühit yaradılmalıdır. Bağ və parkların tərtibatında əsas ekoloji amillər – su, torpaq, işıq, temperatur rejimi və hava böyük rol oynayır. Landşaft memarlığı əsasında yaşıllaşdırmanın yaradılmasında kompleks tədbirlərin keçirilməsi üçün aqrotexniki işlər mühüm rol oynayır [3].

Elmi-tədqiqat işlərində Abşeronun Dənizkənarı Milli Parkı, Filarmoniya Bağı, Səməd Vurğun Bağı, Xaqani Parkı, Güllər Parkı və Sahil Bağında dekorativ ot bitkilərinin taksonomik tərkibi, mənşəyi, kompozisiyalarda bioloji və dekorativ əlamətlərinə görə qruplaşdırılması öyrənilmişdir.

Abşeronun park-bağlarında öyrənilən bəzi dekorativ ot bitkilərinin taksonomik tərkibi və mənşəyi cədvəldə göstərilmişdir.

Cədvəl.

№	Fəsilə	Cins	Növ	Vətəni
1	Astrakimilər - *Asteraceae* Dumort.	Gülümbahar - *Calendula* L.	Dərman gülümbaharı- *C.officinalis* L.	Aralıq dənizi ölkələri
2	_ “ _	Kosmeya–*Cosmos* Cav.	Boz-sarı kosmeya – *C.sulphureus* Cav.	Cənubi Afrika, Meksika
3	_ “ _	Sabahgülü – *Tagetes* L.	Düzqalxan sabahgülü- *T.erecta* L.	Argentina, ABŞ
4	_ “ _	Dimorfoteka – *Dimorphotheca* Moench.	Yağış dimorfotekası - *D.pluvialis* Moench.	Cənubi Afrika
5	_ “ _	Hazaniya–*Gazania* L.	Codtəhər hazaniya – *G.rigens* L.	Cənubi Afrika, Mozambik
6	_ “ _	Ursiniya –*Ursinia* Gaerth.	Gözəl ursiniya –*U.speciosa* Gaerth.	Cənubi Afrika
7	_ “ _	Zinniya – Zinnia L.	Gözəl zinniya –*Z.elegans* L.	Mərkəzi və Cənubi Amerika
8	_ “ _	Qızçiçəyi– *Bellis* L.	Çoxillik qızçiçəyi- *B.perennis* L.	Avropa, Aralıq dənizi ölkələri
9	_ “ _	Astra – *Aster* L.	Alp astrası –*A.alpinus* L.	Amerika, Afrika
10	_ “ _	Qaylardiya– *Gaillardia* Foug.	Hibrid qaylardiya – *G.hybrida* Foug.	Şimali və Cənubi Amerika
11	Zanbaqkimilər – *Liliaceae* Juss.	Tülpan – *Tulipa* L.	Albert tülpanı – *T.alberti* Juss.	İran, Pamir-Alay
12	_ “ _	Sünbülçiçək– *Hyacinthus* L.	Şərq sünbülçiçəyi – *H.orientalis* L.	İran, İrak, Suriya
13	Quşüzümükimilər – *Solanaceae* Juss.	Petuniya– *Petunia* Juss.	Bağ petuniyası –*P.hybrida* Juss.	Cənubi Amerika
14	Xaççiçəklilər– *Brassicaceae* Burnett	Şəbbügülü – *Matthiola* R.Br.	Ağ şəbbügülü – *.incana* R.Br.	Cənubi Avropa, Aralıq dənizi ölkələri
15	Amarantkimilər – *Amaranthaceae* Juss.	Seloziya –*Celosia* L.	Gümüşü seloziya – *C.argentea* L.	Asiya, Afrika
16	Bənövşəkimilər - *Violaceae* Batsch.	Bənövşə - *Viola* L.	Alabəzək bənövşə - *Viola x. wittrockiana*	Avropa, Asiya
17	Pərpərənkimilər- *Portulacaceae* Lindl.	Pərpərən- *Portulaca* L.	İriçiçəkli pərpərən – *P.grandiflora* L.	Braziliya, Argentina
18	Kannakimilər - *Cannaceae* Juss.	Kanna- *Canna* L.	Hind kahhası-*C.indica* L.	Mərkəzi və Cənubi Afrika
19	Qərənfilkimilər – *Caryophyllaceae* Juss.	Qərəhfil –*Dianthus* L.	Türk qərənfili –*D.barbatus* Juss.	Avropa, Asiya
20	Novruzçiçəklilər – *Primulaceae* Vent.	Novruzçiçəyi – *Primula* L.	Adi novruzçiçəyi-*P.vulgaris* Vent.	Avropa, Kiçik Asiya

Abşeronun park-bağlarında dekorativ ot bitkiləri müntəzəm (həndəsi formalı) və landşaft və ya mənzərəli (orijinal formalı) üslublarda kompozisiyaların tərtibatında geniş istifadə edilmişdir. Dekorativ ot bitkiləri istifadə edilmiş bəzi kompozisiyalar şəkil 1-3-də göstərilmişdir.

Abşeronun park-bağlarında yaradılan müxtəlif formalı kompozisiyalarda dekorativ ot bitkilərinin bioloji və dekorativ əlamətlərinə görə qruplaşdırılmasına, rənginə, formasına, hündürlüyünə, kölgəyə davamlığına və işıq sevərliyinə görə bir-birilə uyğunlaşmasına, yeni formalara böyük rol verilmişdir. Kompozisiya üçün bitkilər seçildikdə onların quruluşu, çiçəkləmə vaxtı, torpağa, işığa, istiyə, suya tələbatı nəzərə alınmışdır. Kompozisiyalarda «müntəzəm çiçəkləməyə» nail olmaq üçün çoxillik və birillik dekorativ ot bitkilərindən istifadə edilmişdir və bitkilər elə seçilmişdir ki, çiçəkləyən növləri tədricən digərləri əvəz etsinlər.

Nərgiz, tülpan, zəfəran və sünbülçiçək yaz bağının "böyük dördlüyü" hesab edilir. Torpaq qış yuxusundan hələ ayılmadan, isti hava davamlı olmadan bu bitkilər artıq tamam çiçəkləyərək yuxulu bağı bitki aləminin bütün çalarları olan sehirli atəşfəşanlığa qərq edirlər [4].

Şək.1. Oval çiçəklik

Şək.2. Kvadrat forması



Şək.3. Orijinal forma

Çox vaxt güllər təbii əkin prinsipi ilə yerləşdirilmişdir. Bu prinsipin əsas növləri tək əkinlər, qruplar və massivlərdir. Bunlarla birlikdə sıra əkinlər, canlı hasarlar, bordürlər və s. istifadə olunmuşdur. Kompozisiyanın əsas hissələri yaxşı görünən zonalarda, əsasən mərkəzdə yerləşdirilmişdir. Kompozisiyalarda dibçəklərdə əkilmiş bitkilərdən də istifadə edilmişdir. Bu cür bitkilərdən istifadə ona görə rahatdır ki, onları asanlıqla dəyişmək, bir yerdən digər yerə keçirmək və s. olar.

Qızılgüllərin əzəmətli gözəlliyini iynəyarpaqlı və həmişəyaşıl bitkilər vurğulayır. Təbii qocalmış ağacın və müxtəlif daş cinslərinin fonunda qızılgüllər dəbdəbəli görünür. Qızılgüllərin yanında göy və mavi çiçəkləri olan lavanda və zəngçiçəyi gözəl görünür [5].

Bir neçə yaruslardan ibarət olan kompozisiyalar da yaradılmışdır. Birillik ot bitkilərindən düzəldilmiş kompozisiyalar hər il təzələnir. Çoxfəsilli kompozisiyalarda çoxillik ot bitkiləri əsas rol oynayır. Onlar təzələnmir, ona görə ot bitkiləri rənginə, formasına görə bir-birinə uyğunlaşmalıdır. Bu kompozisiyalarda birillik ot bitkiləri olan hissələri təzələnir. Klassik sxemə uyğun olaraq kompozisiyalar ön, orta və arxa planda yerləşən müxtəlif hündürlükdə olan bitkilərdən düzəldilir. Kompozisiyaların mərkəzində hündür bitkilər, ətrafında isə nisbətən alçaqboy ot bitkiləri yerləşdirilir. Hündürlüyə görə seçilən bitkilər bir-birini örtməməlidir. Yazda havalar sərin olanda kompozisiyaların tərtibatında parlaq rəngli güllərdən, yayda isə ağ, mavi, bənövşəyi rəngli güllərdən istifadə olunur. Açıq çalarlı güllük yüksək qan təzyiqi olan adamlara müalicəvi təsir göstərir. Yay ərzində fasiləsiz çiçəkləyən birillik güllərdən fərqli olaraq, çoxillik güllərin öz inkişaf dövrü və çiçəkləmə vaxtı vardır.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Dendrologiya İnstitutunun "Landşaft memarlığı" laboratoriyası tərəfindən aparılan elmi-tədqiqat işinin nəticəsində məlum olmuşdur ki, tədqiq edilən dekorativ ot bitkiləri Abşeron şəraitinə yaxşı uyğunlaşır, perspektivlidir və yaşıllaşdırmada, müxtəlif formalı kompozisiyaların tərtibatında istifadə olunması məqsədəuyğundur.

Ədəbiyyat

1. Məmmədov T.S. Gülçülük ensiklopediyası. Bakı: Azərb. nəşriyyatı, 2006, 7 s.
2. Səfərov İ.S., Əsədov K.S., Cəlilov Q.H. Yaşıllıq və sağlamlıq. Bakı: Gənclik, 1977, 3 s.
3. Витвицкая М.Э. Современный дизайн участка. М.: Лада, 2005, 207 с.
4. Анапова У. Зелёные хиты сада. М.: Ниола 21-й век, 2004, 9 с.
5. Бондарева О.Н. Садовые цветы. М.: Фитон, 2011, 174 с.

РЕЗЮМЕ

ИЗУЧЕНИЕ ДЕКОРАТИВНЫХ ТРАВЯНИСТЫХ РАСТЕНИЙ В ПАРКАХ И САДАХ АБШЕРОНА

Гюльмамедова Ш.А., Алиева Ш.Р.

Ключевые слова: *парк, сад, декоративный, трава, композиция*

В статье описаны результаты научно-исследовательской работы проводимой впервые в лаборатории «Ландшафтная архитектура» Института Дендрологии Министерства Науки и Образования Азербайджанской Республики по изучению таксономического состава, происхождения, группировки по биологическим и декоративным признакам декоративных

травянистых растений в различных формах композиций в парках-садах Апшерона. Выявлено, что декоративные травянистые растения изученные в парках-садах Апшерона хорошо адаптируются в почвенно-климатических условиях данной территории, являются перспективными и могут быть широко использованы в парках, садах, скверах при создании различных форм композиций.

SYMMARY

STUDY OF ORNAMENTAL HERBACEOUS PLANTS IN PARKS AND GARDENS OF ABSHERON

Gulmamedova Sh.A., Aliyeva Sh.R.

Keywords: *park, garden, ornamental, herbaceous, composition*

The article deals with the results of the research work carried out for the first time in the laboratory "Landscape Architecture" of the Institute of Dendrology of the Ministry of Education and Science of the Republic of Azerbaijan to study the taxonomic composition, origin, grouping according to biological and decorative characteristics of ornamental herbaceous plants in various forms of compositions in the park-gardens of Absheron. It was revealed that the ornamental herbaceous plants studied in the Apsheron park-gardens adapt well to the soil and climatic conditions of Apsheron, are promising and can be widely used in parks, gardens, squares when creating various forms of compositions.

HEYDƏR ƏLİYEV İDEYALARI XOŞBƏXT GƏLƏCƏYİN TƏMİNATÇISIDIR

Hacıyev Osman Yusif oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
osmanhaciyev@mail.ru

Açar sözlər: *Azərbaycan, gənclər siyasəti, Prezident, qələbə, vətənpərvərlik*

XX əsr Azərbaycan xalqının, dövlətinin tarixində çox mühüm dövr sayılır. Belə ki, bu dövrün mühüm bir dönəm olduğunu deməyə imkan verən amillər bunlardır - 1918-ci ildə milli dövlətçiliyimizin bərpa olunması, 23 aydan sonra Cümhuriyyətin süqutu, 70 il ərzində xalqımıza yad olan ideologiyanın hakimi olduğu dövlətin tərkibində olmağımız, nəhayət 1991-ci ildə müstəqilliyimizin bərpası və ondan sonrakı və bu günümüzədək olan proseslər. Müstəqilliyimizin ilk illərində Azərbaycan demək olar ki, uçuruma sürüklənirdi. Ölkəmiz hətta dünya xəritəsindən silinə bilərdi. Belə bir şəraitdə ölkəmizin inkişaf istiqamətini müəyyən etmək qeyri-mümkün idi, gələcək mövcudluğumuz isə sual altında idi. Belə bir çətin şəraitdə Heydər Əliyevin hakimiyyətə yenidən qayıtması yeganə və vahid çıxış yolu idi. Bunu dərk edən xalqımız onu israrla Bakıya çağırırdı. Çünki biz bilirdik ki, Azərbaycanı bu cür ağır və böhranlı şəraitindən yalnız və yalnız Heydər Əliyev çıxarmağa qadirdir. Nəhayət ki, 1993-cü ildə Heydər Əliyev Azərbaycan xalqının təkidi ilə hakimiyyətə geri döndü. Bu qayıdış ölkəmizə - Azərbaycana sabitlik, təhlükəsizlik, dirçəliş və intensiv inkişaf gətirdi. İctimai-siyasi sabitlik tam təmin olundu. Sonrakı dövrlərdə həyata keçirdiyi müxtəlif sahəli islahatlarla Heydər Əliyev yenidən bizləri tam əmin etdi ki, güclü iqtisadiyyata, müstəqil xarici siyasətə, mənəvi yüksəlişə malik olmayan millət güclü dövlətə sahib ola bilməz. Eyni zamanda ümummilli liderimiz onu da bilirdi ki, güclü dövlətin özəyini vətənpərvər, sağlam düşüncəli, savadlı, vətənə və xalqına sadiq gənclər təşkil edir. Odur ki, islahatlar zamanı Ulu Öndər Heydər Əliyev gənclərimizin fəaliyyətinə xüsusi önəm verirdi. Çünki Heydər Əliyev gənclərə aid sahələri həmişə əsas tutaraq müxtəlif qurumlarda, dövlət müəssisələrində gənclərin aktiv iştirakını təmin edirdi.

Xalqının tələbi və iradəsi ilə yeni hakimiyyətə qayıdan Ulu Öndərin apardığı gənclər siyasəti gənclərlə iş sahəsində də ciddi və önəmli dönüş yaratmağa imkan verdi. Gənclərə qayğı gündən-günə artdı. Onlara etimad göstərilməyə, məsul vəzifələrdə çalışmalarına şərait yaradıldı. Gənclərimizin ixtisaslarının artırılmasına, çalışdıqları sahələr üzrə təkmilləşdirilmələrinə, inkişaf etmiş demokratik ölkələrin təcrübələrinə yiyələnmələrinə qayğı göstərildi [2. səh.5].

Heydər Əliyev hələ 1969-cu ildən başlayaraq 1982-ci ilədək Azərbaycan gəncliyinin taleyində dərin izlər buraxmışdır. Belə ki, hələ XX əsrin 70-80-ci illərində gənclərimizin SSRİ-nin ən qabaqcıl ali təhsil müəssisələrinə müxtəlif ixtisaslara yiyələnmək üçün Ümummilli Liderin təşəbbüsü və xüsusi diqqəti nəticəsində göndərilmişdir. Bütün görülən bu tədbirlərdə əsas amal, əsas məqsəd gənc nəslə diqqətin, qayğının təşkil olunması idi. Qeyd etdiyim kimi keçmiş SSRİ-nin nüfuzlu ali təhsil müəssisələrinə minlərlə gənclər göndərildi və bundan başqa digər bir önəmli hadisə isə o idi ki, bu zaman kəsiyində yeni-yeni hərbi məktəblər, tədris müəssisələri, ümumiyyətlə bir çox yeni tədris ocaqları fəaliyyətə başladı.

Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradılmışdır [4]. Bu, onu deməyə əsas verir ki, Heydər Əliyev hələ sovet dönəmində azərbaycanlı gənclərin

hərtərəfli inkişafına, onların gələcəkdə savadlı mütəxəssis kimi yetişməsinə, xalqına, dövlətinə layiqli vətəndaşlar kimi formalaşmasına böyük diqqət ayırırdı.

Demək olar ki, Ümummilli Lider Heydər Əliyevin gənclərlə əlaqədar yeritdiyi siyasət yüksək nəticə göstərmiş, gənclər cəmiyyətin əsas qüvvəsinə çevrilmiş, gənclərin fəallığı həyatın bütün sahələrində özünü göstərməyə başlamış, Azərbaycan gəncliyi ölkəmizin dinamik inkişafında əhəmiyyətli xidmətlər göstərmişdir. Təsadüfi deyil ki, Heydər Əliyevin yenidən, ikinci dəfə siyasi hakimiyyətə qaydışı zamanı onu elə ən çox alqışlayan, yüksək rəğbətlə dəstəkləyən məhz gənclər idi. Gənclər Heydər Əliyevə olduqca böyük inam göstərirdi və ona çox arxalanırdılar.

1994-cü ilin iyul ayının 26-da Gənclər və İdman Nazirliyi yaradıldı. Bu nazirliyin yaradılmasında bir sıra məqsədlər var idi ki, bu məqsədlərdən ən əsası isə Azərbaycan gənclərinin təşkilatlanması idi. Belə ki, bu böyük və önəmli addımdan sonra dövlətimizin gənclərlə əlaqəli siyasəti artıq vahid mərkəzdən idarə olunmağa qədəm qoydu. Yeni yaradılan Gənclər və İdman Nazirliyi çox qısa bir zaman kəsiyində bir sıra uğurlu addımlar atdı və dövlət gənclər siyasətinin yönlərini təyin edərək dəqiqləşdirdi. Və bu yöndə olan planları uğurla reallaşdırmağa başladı. Ümumiyyətlə, 1996-cı ildən etibarən forumlar keçirilməyə başlandı. Başlayan bu Azərbaycan gənclərinin forumlarında Heydər Əliyev öz çıxışlarında gənclərin öhdəsinə düşən əsas missiyaları müəyyənləşdirdi. Eyni zamanda gənc nəslin əsas problemlərinin həlli istiqamətində fəaliyyətlərin təşkil olunması dəqiqləşdirildi.

1996-ci il fevralın 2-də I Forumda Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoydu: "Hər bir Azərbaycan gənci hər şeydən çox müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir"[3]. Ulu Öndər gənclərlə aparılan işin canlandığını nəzərə alaraq, 1997-ci ildə imzaladığı sərəncamla tədbirin keçirildiyi günü yəni fevralın 2-ni Azərbaycan Gənclər Günü elan etmişdir. II forumda gənclərə müraciət edən ümummilli liderimiz demişdir: "Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!"[5]. Ümumiyyətlə, Ulu Öndər gənclərlə bağlı bir çox mühüm fərmanlar vermiş, əhəmiyyətli sənədlər imzalamışdır ki, imzaladığı məhz bu sənədlər Azərbaycan gənclərinin həyatında yüksəlişə, gənclərin bütün sahələrdə daha da fəal iştirakına geniş imkanlar yaratmış və gənclər siyasətinin əsas prinsip və istiqamətlərini təyin edərək müəyyənləşdirmiş və dəqiqləşdirmişdir.

Heydər Əliyev ideyalarının bu günkü günümüzdə də yaşamasının əsas səbəbi odur ki, Ulu Öndər Azərbaycan dövlətinin gələciyini olduqca gözəl və çox dəqiq bilirdi. Elə bu səbəbdən də Heydər Əliyev ideyaları bu gün də yaşayır və hər şeyi üstələyir. Heydər Əliyev yaxşı bilirdi ki, müstəqillik yolu bir çoxlarının düşündüyündən də uzun və çətindir. Lakin bu əzablı yollara və çətinliklərə baxmayaraq Azərbaycanı böhranlı, ağır bir vəziyyətdən çıxarmış, tarixə ən şanlı səhifələrini yazmış Heydər Əliyev ideyaları bu günümüz və gələcələcəyimiz üçün əvəzolunmaz, zəngin sərvətdir. Bu dahi şəxsiyyət yalnız xalqımızın deyil, həmçinin bütün türk aləminin, dünyasının fəxridir. Bu dahi şəxsiyyətin həyata keçirdiyi tədbirlər haqqında hələ çox fikirlər söyləniləcək, əsərlər yazılacaq və nəsildən nəslə ötürüləcəkdir. Məhz bütün bunlara görə Ulu Öndərimiz Heydər Əliyev hər birimizin qəlbində əvəzolunmaz yeri, hər bir vətəndaşın taleyində çox xüsusi izi vardır. Həmçinin ümummilli liderin müasir tələblərə uyğun və əbədi ideyaları xoşbəxt gələcəyin təminatçısı kimi hər zaman yaşayacaqdır. Heydər Əliyevin dövlətçilik ənənələrini yenidən qurmaq və milli inkişafa çataraq gələcəyə əminliklə addımlamaq vəzifəsini öz üzərinə götürməsi ilə Qurtuluşdan tərəqqiyə, tərəqqidən Zəfərə aparan yolun bünövrəsi qoyulmuşdur. Böyük iftixar hissi ilə qeyd edə bilərik ki, bu yol ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hələ 1997- ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Prezidenti vəzifəsinə İ.Əliyevin seçilməsi idman və gənclər siyasəti sahəsində həyata keçirilən dövlət siyasətinin yeni şəraitdə gerçəkləşməsinə böyük imkanlar açdı. MOK Prezidenti kimi İ.Əliyev ölkədə Olimpiya hərəkatının genişlənməsinə, idman və bədən tərbiyəsinin inkişafına, Azərbaycanın dünya idman ailəsinin bərabərhüquqlu üzvünə çevrilməsinə yönəlmiş bir sıra tədbirlər həyata keçirdi [1, səh8]. Məhz bu uğurlu yolun nəticəsi olaraq böyük tarixi hadisə olan Vətən müharibəsi zəfərimizlə sonlandı. 44 günlük Vətən müharibəsi də öz növbəsində bir daha sübut etdi ki, Azərbaycan gəncləri necə də Vətəninə sıx tellərlə bağlıdır, gənclərimiz üçün torpaq sevgisi nə qədər önəmlidir. Gənclərimiz eyni zamanda bütün kainata vətənpərlik hislərini bu müharibə zamanı istər döyüş meydanında, istərsə də informasiya müharibəsində sosial şəbəkə meydanında göstərdilər. Ali Baş Komandanın bircə çağırışı ilə on minlərlə gənc səfərbər olaraq Vətəni üçün ayağa qalxdılar. Böyük ruh yüksəkliyi ilə mətin, qorxmaz gənclərimiz silaha sarılaraq Azərbaycan Ordusu sıralarına qoşularaq öz rəşadətli, qəhrəman adlarını tarixə silinməz, qızıl hərflərlə həkk etdilər. Onların bu qorxmaz rəşadətinin nəticəsidir ki, biz Şanlı Qələbə qazandıq, məhz onların sayəsində Azərbaycanın ərazi bütövlüyü bərpa edildi, xalqımızın 30 illik torpaq həsrətinə son qoyuldu. Bu yalnız ərazi bütövlüyünün bərpası deyildi, bu eyni zamanda ədalətin bərpası idi. Ümumiyyətlə, Azərbaycan gəncliyi hər zaman vətənpərvərlik ruhunda yetişib, milli maraqlarımızın qorunması istiqamətində daim yüksək fəaliyyət göstərib və biz bütün bunların 44 günlük Vətən müharibəsində əyani şahidi olduq.

Ədəbiyyat

1. Azərbaycanın ictimai həyatında gənclərin iştirakı (A.M.Cəfərovun, E.B.İmaməliyevin ümumi redaktəsi ilə) Sankt-Peterburq – Bakı 2012
2. Gənclər gələcəyimizin qurucularıdır (metodik vəsait) Bakı 2018
3. http://cls.az/front/3196/az/more/text/59543
4. http://www.medeniyyet.az/page/news/66225/Heyder-Eliyev-Azerbaycan-gencliyinin-ugurlu-sabahina-inanirdi.html
5. https://respublika-news.az/news/azerbaycan-gencliyi-geleceyin-etibarli-teminatcisi

РЕЗЮМЕ
ИДЕИ ГЕЙДАРА АЛИЕВА - ЗАЛОГ СЧАСТЛИВОГО БУДУЩЕГО
Гаджиев О.Ю.

Ключевые слова: *Азербайджан, молодежная политика, президент, победа, патриотизм*

Как известно, общенациональный лидер Гейдар Алиев ставил вопросы молодежи в центр своей политики, уделял особое внимание и заботу молодому поколению, постоянно работал над организацией молодежи Азербайджана и обеспечением ее активного участия в различных учреждениях, государственной администрации, политической и экономической сферах. Поэтому тезисах нашли отражение его идеи, являющиеся гарантом счастливого будущего. В то же время в тезисе говорится о молодежной политике, которая была заложена Великим Лидером Гейдаром Алиевым и успешно продолжена Президентом Ильхамом Алиевым, и как результат этой политики в 44дневной Отечественной войне, которая завершилась победой благодаря нашей смелой молодежи.

SUMMARY
HEYDAR ALIYEV'S IDEAS ARE THE KEY TO A HAPPY FUTURE
Hajiyev O.Yu.

Key words: *Azerbaijan, youth policy, president, victory, patriotism*

As we know, the national leader Heydar Aliyev kept youth-related issues at the center of his policy, paid special attention and care to the young generation and constantly worked to organize the youth of Azerbaijan and ensure their active participation in various institutions, state administrations, political and economic spheres. Therefore, his ideas, which are the guarantor of a happy future, are reflected in the thesis. At the same time, the thesis talks about the youth policy, which was founded by the Great Leader Heydar Aliyev and successfully continued by our President Ilham Aliyev and as a result of this policy, the 44-day Patriotic War ended with victory thanks to our brave young people.

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ FƏALİYYƏTİNƏ QAYĞISI

Həsənov Vəkil Səfiyar oğlu
Azərbaycan Dövlət İqtisad Universiteti, UNEC, Bakı, Azərbaycan, t.e.d., professor
hasanovvakil@mail.ru

Açar sözlər: *Azərbaycan, Heydər Əliyev, Həmkarlar İttifaqları, müstəqillik, konfederasiya.*

Ümummilli lider Heydər Əliyevin həmkarlar ittifaqlarının fəaliyyətinə diqqət və qayğısı əhəmiyyətli rola malik olmuşdur. Ümummilli liderin 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə Azərbaycan həmkarlar ittifaqlarının 3 qurultayı olmuşdur.1972-ci il fevralın 8-9-da Azərbaycan həmkarlar ittifaqlarının XIV qurultayı keçirilmişdir. Qurultayın işində əbədiyaşar lider Heydər Əliyev və hökümət üzvləri iştirak etmişlər [1].

1977-ci il martın 3-4-də Azərbaycan həmkarlar ittifaqlarının XV qurultayı keçirilmişdir. Qurultayın işində Heydər Əliyev başda olmaqla hökümət nümayəndələri iştirak etmişdilər. Əbədiyaşar lider "Respublika həmkarlar ittifaqlarının mübariz vəzifələr" mövzusunda geniş nitq söyləmişdir [9]. 1980-ci il oktyabrın 4-də Azərbaycan sovet həmkarlar ittifaqlarının yaranmasının 60 illiyi münasibətilə təntənəli yığıncaq keçirilmişdir. İclasda Heydər Əliyev çıxış etmiş, Azərbaycan həmkarlar ittifaqlarına Azərbaycan KP MK-nın təbrikini oxumuşdu [2]. 1982-ci il fevralın 5-6-da Azərbaycan həmkarlar ittifaqlarının XVI qurultayı keçirilib. Ümummilli lider Heydər Əliyev qurultayda iştirak etmiş "İdarəetmə məktəbi, təsərrüfatçılıq məktəbi, kommunizm məktəbi" mövzusunda geniş nitq söyləmişdir [10].

Ulu öndər Heydər Əliyev qurultaydakı çıxışında bildirmişdi ki, "öz sıralarında 2 mln. 200 min adamı birləşdirən Azərbaycan həmkarlar ittifaqları üzvlərinin şanlı ordusu beşilliklərin sosializm yarışında hər il qazanılan qələbədə böyük rol oynayır".

Azərbaycan müstəqilliyə nail olduqdan sonra həmkarlar ittifaqlarının işində də əsaslı dəyişikliklər baş verdi. Müstəqillik dövründə həmkarlar ittifaqlarının əməli fəaliyyətində Ulu öndər Heydər Əliyevin diqqət və qayğısı mühüm rol oynamışdır.

1993-cü ilin yayında respublikada vəziyyət gərgin olaraq qalırdı. 1993-cü ilin 4 iyun hadisələri vəziyyəti daha da pisləşmişdi. Azərbaycan parçalanmaq, bir ölkə kimi, bir dövlət kimi məhv olmaq təhlükəsi qarşısında idi. Azərbaycanda vətəndaş müharibəsi başlamışdı. Əbədiyaşar lider Heydər Əliyevin 1993-cü ilin 15 iyununda Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı ölkəmizi parçalanmaqdan, müstəqiliyimiz, dövlətçiliyimizi itirmək təhlükəsindən xilas etdi. Azərbaycanda başlamış və çox təhlükəli xarakter alan separatçılıq hərəkatlarının qarşısı alındı. Azərbaycan tarixinin milli qurtuluş və həqiqi müstəqillik mərhələsi başlandı.

1991-1992-ci illərdə respublikada baş verən proseslər həmkarlar ittifaqlarının işinə də mənfi təsir göstərmiş, bu təşkilatlarda da parçalanmağa meyillər artmışdı. Belə bir vaxtda, 1993-cü il iyulun 17-də AHİK-in İcaraiyyə Komitəsinin "Həmkarlar ittifaqı üzvlərinə, bütün zəhmətkeşlərə" müraciəti dərc olundu [3]. Çoxsaylı üzvlərə malik həmkarlar ittifaqları respublikada yaranmış vəziyyətlə bağlı öz narahatçılığını bildirmişdi.

1993-cü ildə Azərbaycanın cənub bölgəsində gərgin vəziyyət yaranmış, separatşılıq fəaliyyəti genişlənmişdi. Heydər Əliyevin respublikanın bütövlüyünü, dövlətçiliyi qorumaq sahəsində yeritdiyi siyasəti müdafiə edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) "Azərbaycan Respublikasının cənub regionunda yaranmış ictimai-siyasi vəziyyətlə əlaqədar bəyanət" qəbul etmişdi [4].

1993-cü ildə Heydər Əliyevin Azərbaycan Respublikası Prezindentliyinə namizədliyini AHİK də dəstəkləmişdi. 1993-cü ilin sentyabrında AHİK-in İcraiyyə Komitəsinin iclasında respublikamızda prezident seçkiləri haqda məsələ müzakirə olunmuş, AHİK prezident seçkiləri ilə əlaqədar olaraq Azərbaycan Respublikası Prezidentliyinə Heydər Əliyevin namizədliyinin müdafiə olunması barədə həmkarlar ittifaqları orqanlarının təkliflərini bəyənmiş və sahə həmkarlar ittifaqı respublika komitələrinə müvafiq tədbirlərin həyata keçirilməsini tövsiyə etmişdir [5].

Azərbaycan Respublikasının Milli Məclisi 1994-cü il fevralın 24-də "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul etmişdir. Bu qanun Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən təsdiq edilmişdir.Bu qanun İnsan hüquqlarının ümumi Bəyannaməsinə, Beynəlxalq Əmək Təşkilatının Konvensiya və tövsiyyələrinə uyğun olaraq Azərbaycan Respulikasında həmkarlar ittifaqlarının hüquqlarını,onların üzvlərinin əmək,sosial,iqtisadi hüquqlarının və mənafelərinin müdafiəsi üçün fəaliyyət təminatlarını müəyyən edir(11,s.70). 1994-cü ildə "Həmkarlar ittifaqları haqqında" Qanunun qəbul edilməsi bu təşkilatların səmərəli fəaliyyət göstərməsi üçün hüquqi baza yaradılmasını təmin etdi.

1994-cü il 5 oktyabr dövlət çevrilişi ilə bağlı AHİK Prezident Heydər Əliyevin xalqa müraciətinə həmrəyliklə cavab vermişdir. Bu hadisələrlə bağlı AHİK aparatının işçiləri "Dövlətçiliyimizi qorumaq naminə" adlı müraciət qəbul etmişdi. Müraciətdə respublikanın paytaxtında baş vermiş hadisələr dövlətçiliyimizə, müstəqilliyimizə zərər vuran hadisə kimi qiymətləndirilmişdi. Müraciətdə deyilirdi: "AHİK aparatının işçiləri Azərbaycanın müstəqilliyinə,dövlətçiliyinə qarşı atılan addımları qətiyyətlə pisləyir, ölkədə butun quvvələrin birləşməsini vacib hesab edir və əmin olduqlarını bildirirlər ki, dövlətçiliyimizi,müstəqilliyimizin qorunması təmin ediləcəkdir".

1996-ci il aprelin 5-6-da Respublika sarayında "1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyətlə bağlı" ümumxalq nümayəndələri toplantısı keçirilmişdi. Bu toplantıda qaldırılan məsələ ilə bağlı 1996-ci il may ayının 3-də Azərbaycan həmkarlar ittifaqları fəallarının yığıncağı keçirilmişdi. Yığncağın iştirakçıları Heydər Əliyevə müraciət qəbul etmişdilər. Müraciətdə deyilirdi: "İnanırıq ki, sizin apardığınız daxili və xarici siyasətiniz nəticəsində təxribatçı və düşmən qüvvələrin bəd əməllərinin qarşısı alınacaq, onların niyyətlərinin həyata keçirilməsinə bir daha şərait və imkan yaradılmayacaq. Bu yolda Azərbaycan həmkarlar ittifaqları sizinlə birgə olmağa, atdığınız bütün addımları dəstəkləməyə hazır olduğumuzu bəyan edirik" [6].

Heydər Əliyev Azərbaycan həmkarlar ittifaqlarının daimi zəhmətkeşlərin əmək və sosial mənafelərini müdafiə etmək sahəsində fəaliyyətlərini yüksək qiymətləndirmişdir.

AHİK-in 1998-ci iin fevralında keçirilmiş birinci qurultayında həmkarlar ittifaqlarının işinə yüksək qiymət verərək Heydər Əliyev qurultay iştirakçılarına müraciətində əmin olduğunu bildirmişdi ki, "Həmkarlar təşkilatları öz işini yeniləşən cəmiyyətimizin tələblərinə uyğun quracaq, Azərbaycanda müstəqil, demokratik, dünyəvi dövlət quruculuğunda yaxından iştirak edəcəkdir" [7].

1998-ci il prezident seçkilərində AHİK Heydər Əliyevin namizədliyini müdafiə etmişdir. 1998-ci il iyulun 8-də AHİK-də seçicilərin 105 nəfərdən ibarət təşəbbüs qrupu yaradılmışdı. 2003-cü il fevralın 5-6-da AHİK-in II qurultayı keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qurultay iştirakçılarına təbrik məktubu göndərmişdi. Məktubda deyilirdi: "Vətəndaşlarımızın ən böyük ictimai təşkilatı olan həmkarlar ittifaqları yeni cəmiyyət quruculuğunda yaxından iştirak etməli, sosial siyasətin həyata keçirilməsində önəmli rol oynamalıdırlar". Heydər Əliyev əminliklə bildirirdi ki, həmkarlar ittifaqları fəaliyyətini yenidən təşkil edəcək, Azərbaycan Respublikasında demokratik, azad cəmiyyətin,

insanların firavan həyatının bərqərar olması yolunda gələcəkdə də ön sıralarda addımlayacaqdır. Fevralın 6-da Heydər Əliyev Prezident sarayında AHİK-in II qurultayında iştirak edən xarici həmkarlar ittifaqları təşkilatlarının nümayəndələrini qəbul etmiş və görüşdə "Azərbaycan həmkarlar ittifaqlarının qurultayını ölkənin ictimai-siyasi həyatında mühüm hadisə adlandırmışdı" [8]. Heydər Əliyevin həmkarlar ittifaqlarının işini yüksək qiymətləndirilməsi və onların səmərəli fəaliyyətinə qayğı və diqqətlə yanaşması bu təşkilatların müasir dıvrdə də Müstəqil Azərbaycanın inkişafına öz sanballı töhfələrini verməsində əhəmiyyətli rol oynayır.

Ədəbiyyat

1. Azərbaycan həmkarlar ittifaqlarının XIV Qurultayına // Kommunist qəzeti, 9, 10 fevral 1972.
2. Azərbaycan həmkarlar ittifaqlarının 60 illiyi //Kommunist qəzeti, 5 oktyabr 1980.
3. AHIK-in İcraiyyə Komitəsinin Həmkarlar İttifaqı üzvlərinə, bütün zəhmətkeşlərə müraciəti // Ülfət qəzeti, 17 iyul 1993.
4. Azərbaycan Respublikasının cənub regionunda yaranmış ictimai-siyasi vəziyyətlə əlaqədar Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının bəyanatı // Ülfət qəzeti, 28 avqust 1993.
5. AHİK sədrinin təbrik məktubu // Ülfət qəzeti, 10 oktyabr 1993.
6. Azərbaycan həmkarlar ittifaqları fəallarının yığıncağı // Ülfət qəzeti, 15 may 1996.
7. AHİK-in I Qurultayına Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müracəti // Ülfət qəzeti, 5 mart 1998.
8. AHİK-in II Qurultayının iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təbrik məktubu// Ülfət qəzeti, 14 fevral 2003.
9. Əliyev H. Respublika Həmkarlar ittifaqlarının mübariz vəzifələri // Komminst qəzeti, 4-5 mart 1977.
10. Əliyev H. İdarəetmə məktəbi, təsərrüfatçılıq məktəbi// Komminst qəzeti, 6-7 fevral 1982.
11. Qaraşov H. Həmkarlar ittifaqları müstəqil ictimai, qeyri siyasi təşkilatdır. Bakı: Elm, 2003, 203 s.

РЕЗЮМЕ

ЗАБОТА ГЕЙДАРА АЛИЕВА О ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНСКИХ ПРОФСОЮЗОВ

Гасанов В.

Ключевые слова: *Азербайджан, Гейдар Алиев, профсоюзы, независимость, конфедерация*

В статье, основанной на обширном фактическом материале, отражена озабоченность великого лидера Гейдара Алиева деятельностью профсоюзов Азербайджана. В годы первой администрации Азербайджана Гейдар Алиев проделал большую работу по повышению роли профсоюзов в советском обществе. Даже после восстановления независимости Азербайджана Гейдар Алиев уделял постоянное внимание деятельности азербайджанских профсоюзов. В результате его заботы профсоюзы играли важную роль в политической и социально-экономической жизни Азербайджана.

SUMMARY

HEYDAR ALIYEV'S CONCERN FOR THE ACTIVITIES OF AZERBAIJANI TRADE UNIONS

Hasanov V.

Keywords: *Azerbaijan, Heydar Aliyev, trade unions, independence, confederation*

The great leader Heydar Aliyev's concern for the activities of Azerbaijan Trade Unions is reflected in the article based on extensive factual materials. During the first administration of Azerbaijan, Heydar Aliyev did great work for the promotion of the role of trade unions in the Soviet society. Even after Azerbaijan regained its independence, Heydar Aliyev paid constant attention to the activities of Azerbaijan Trade Unions. As a result of his concern, trade unions played an important role in the political and social economic life of Azerbaijan.

HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN İNKİŞAFI

Həsənov Yusifəli Lətif oğlu

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

ali200808@rambler.ru

Açar sözlər: *Azərbaycan Respublikası, Heydər Əliyev, müstəqillik, turizm, əlaqələr*

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdi. Müstəqilliyin ilk illərində ölkəyə rəhbərlik edənlər respublikada siyasi sabitlik yarada bilmədilər. Həmçinin Ermənistanın torpaqlarımızın 20 faizini işğal etməsi, qaçqınlar problemi Respublikada böyük çətinliklər yaratdı. Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra mövcud iqtisadi və siyasi

potensialına söykənərək, milli dövlətçiliyini bütün istiqamətlərdə möhkəmləndirməklə yanaşı, xarici siyasətini də formalaşdırmağa, beynəlxalq münasibətlər sisteminə daxil olmağa başladı. Azərbaycan Respublikasının xarici siyasət sahəsində keçdiyi yolun başlıca yekunu dövlət müstəqilliyinin tanıdılması, geniş diplomatik əlaqələrinin qurulması, xarici siyasətinin formalaşması, mövqelərinin möhkəmləndirilməsi olmuşdur. Azərbaycan dövləti bir sıra beynəlxalq və regional təşkilatların üzvü olmuş, ölkənin beynəlxalq əhəmiyyəti artmış və onunla əməkdaşlıq etmək istəyən dövlətlərin sayı çoxalmışdır. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün tədbirlər müəyyənləşdirilmiş və xarici ölkələrlə bərabərhüquqlu qarşılıqlı faydalı əlaqələr qurmaq istiqamətində addımlar atılmışdır.

Həmcinin Respublikamız iqtisadi-siyasi sahədə qazandığı imkanlardan səmərəli istifadə edərək, dünya turizm əlaqələrində beynəlxalq hüquq subyekti kimi təmsil olunur, bu sahələrdə hazırladığı strategiyanı uğurla həyata keçirirdi. Bu baxımdan, 1993-2003-cü illərdə Azərbaycan Respublikasında turizmin inkişafı fonunda ölkəmizin turizm əlaqələrinin öyrənilməsi, yaxın və uzaq dövlətlərlə turizm sahəsində qarşılıqlı faydalı əməkdaşlığın qurulması, görülmüş tədbirlərin və onların nəticələrinin ümumiləşdirilməsi və obyektiv qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, 1993-cü ildən sonra turizmə dövlət qayğısı sahəsində yüksək nailiyyətlərin əldə olunması, ölkəmizin beynəlxalq və regional turizm təşkilatlarında layiqli təmsil olunması, bu istiqamətdə dünya dövlətləri ilə əlaqələri, turizm sahəsində beynəlxalq tədbirlərin respublikamızda təşkili və respublikamızın beynəlxalq nüfuzunun artmasında və tanınmasında bu sahənin böyük rol oynaması da maraq doğurur.

Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra xarici turist qəbulunda MDB ölkələri birinci yerdə durmuşdur. Bu ölkələrdən gələnlərin də böyük əksəriyyətini Rusiya, Ukrayna, Orta Asiya respublikaları və Gürcüstanda yaşayan azərbaycanlılar təşkil etmişdi. [9, s.505-506] Ölkəmizə gələn turistlər içərisində ikinci yeri İran vətəndaşları tutmuşdu. İrandan Azərbaycana gələnlərin böyük əksəriyyətini sərhədyanı ticarət məqsədilə gələnlər təşkil etmişdir. İranla müqayisədə Türkiyədən Azərbaycana gələn turistlərin sayı az olmuş və azalmağa meyillilik müşahidə olunmuşdu. [9, s.505-506] Avropa ölkələrindən, habelə ABŞ, Kanada və İsraildən gələnlərin sayı isə 1997-ci ildən sonra azalmışdı. [9, s.505-506] 1997-ci ildən sonra Azərbaycana gələn turistlərin sayı tədricən artsa da, onlara göstərilən xidmətlərin həcminin azalması hiss olunurdu. 1997-ci ildə gəlmə turizmdən daxil olmalar 162 milyon, 2000-ci ildə bu rəqəm, təqribən, 2,6 dəfə azalaraq 63 milyon ABŞ dolları həcmində olmuşdu. Onu da qeyd etmək lazımdır ki, müstəqilliyin ilk illərində – yəni ötən əsrin 90-cı illərində Azərbaycanın beynəlxalq turizm əlaqələrində əsasən "alış-veriş məqsədli səfərlər" – "Shopinq-tur"lar üstünlük təşkil etmişdir. Bu dövrdə əsas turist axını Kiş adası və İstanbul, Kəraçi və Dehli, Urumçi və Dubaya olmuşdur.

Azərbaycan Respublikasının turizm bazarının inkişafı turistlərin sayını, göstərilən xidmətlərin, xüsusilə beynəlxalq turistlərə göstərilən xidmətlərin həcmini, həmçinin bu sektorda fəaliyyət göstərən şirkətlərin sayını və turizmdən gələn gəlirlərin həcmini artırmışdı [1, s.284-292; 5, s.117]. Turizmin inkişafı prioritet sahə kimi böyük iqtisadi əhəmiyyət kəsb etdiyindən bu istiqamətdə müxtəlif qərarlar qəbul edilmişdir. Bu proses turizm sənayesinin inkişafı sahəsində ÜTT-nin tövsiyələrinə uyğun olaraq, dünya təcrübəsi əsasında qəbul edilmiş "Turizm haqqında qanun" vasitəsilə tənzim olunur [10, s.3-17]. Qəbul edilmiş qanun və digər sənədlər ÜTT-nin tövsiyələri və dünya təcrübəsi əsasında turizm sənayesinin dolğun milli inkişaf proqramının hazırlanmasına, respublikamızın inteqrasiya yolu ilə dünya turizm infrastrukturlarına daxil olunmasına və turistlərə yüksək standartlara uyğun servis xidməti göstərilməsinə imkan vermişdir.

Beynəlxalq turizm sərgilərində, yarmarkalarında, birjalarında iştirak nəticəsində Azərbaycan Respublikası Avropa və dünyanın turizm birliyinə daxil olmuşdur. Ölkəmiz öz turizm məhsullarını turistlərə müxtəlif formalarda təklif etmişdir: mədəni tanış olma turları; Azərbaycan Respublikasının bütün ərazisi üzrə idman, ekstremal, xüsusi, tematik, etnoqrafik və dini turlar; Böyük Qafqazın dağlıq hissəsində dağkeçisinin ekzotik ovlanması; Xəzər Dənizinin sahil zonasında (7 istirahət zonası var) istirahət; Bakı-Şamaxı-Balakən-Gürcüstan marşrutu üzrə "İpək yolu"nun Azərbaycan hissəsi boyunca avtobus turu və s. [5, s.117]

Ölkənin turizm potensialının tanıdılması müstəqil Azərbaycan Respublikasının xarici turizm siyasətinin ən başlıca vəzifələrindən biridir. ÜTT-nin çap etdirərək yaydığı "İpək yolu" adlı kitabçada Azərbaycan haqqında da bölmə var. Bu kitabça, həmin layihədə iştirak edən ölkələrin turizm marketinqinin vacib aləti rolunu oynayır. Ümumiyyətlə, Azərbaycanın zəngin təbiətinin, tarixinin, tarixi abidələrinin, qədim mədəniyyətinin olması, mətbəxi, bu tarixi özündə əks etdirən müxtəlif mövzulu muzeylərin fəaliyyət göstərməsi ölkəni turistlər üçün cazibədar etməkdədir. Bunlar turizmin əsas məhsuludur və bu məhsullarla ölkəmiz beynəlxalq turizm bazarına cıxmaqdadır [9, s.525-529; 7, s.208].

İnfrastrukturun vəziyyətinin öyrənilməsi, köhnə turist marşrutlarının bərpası və yeni turist marşrutlarının işlənilib hazırlanması, yeni istirahət zonalarının və qoruqlarının müəyyənləşdirilməsi

istiqamətində işlər görülmüşdür.

Azərbaycan Respublikasının turizm potensialını əks etdirən reklam məhsulunun buraxılışı üzrə böyük iş aparılmışdır. "Welcome to Azerbaijan" CD diski, rus və ingilis dillərində "Azərbaycana xoş gəlmişsiniz" kataloqu, "Azərbaycan olduğu kimi" atlası, "Turist üçün informasiya" kitabçası, Şimali Azərbaycan və Bakı üzrə turist marşrutlarının xəritəsi, "Turizm xəbərləri" aylıq qəzeti, iki ayda bir dəfə rus və ingilis dillərində çıxan "Azerbaijan review" jurnalı, həmçinin Azərbaycan, rus və ingilis dillərində Şimali Azərbaycan üzrə soraq kitabçası buraxılmışdır. [2].

Turizm sahəsində beynəlxalq əlaqələrin inkişafı və möhkəmləndirilməsi üçün turizmə dair əməkdaşlıq üzrə beynəlxalq müqavilələrin bağlanmasına xüsusi diqqət yetirilmişdir. Bu məqsədlə turizm sahəsində əməkdaşlıq barədə hökumətlərarası sazişlər Azərbaycan Respublikası ilə Türkiyə, Pakistan, Özbəkistan, Qırğızıstan, Çin, Polşa, İtaliya, Gürcüstan, Ukrayna, Bolqarıstan, Moldova, Qətər, Yunanıstan, Belarus, Qazaxıstan, Latviya hökumətləri arasında imzalanmışdır. [3]. Bunlardan əlavə turizm sahəsində Böyük Britaniya, Misir, Rusiya Federasiyası, Avstriya, Fransa, Birləşmiş Ərəb Əmirliyi, Səudiyyə Ərəbistanı və İsrail ilə də əməkdaşlıq haqqında imzalanmaq üçün sazişlərin layihələri hazırlanmışdır. [3]. Bağlanmış sazişlər turizm sahəsində rəsmi dövlət orqanları arasında əməkdaşlıq koordinasiyasına, xidmətin yeni növlərinə, personal üçün məşq-kursların təşkil olunmasına, ekspert qruplarına, informasiya mübadiləsinə, sərgilərin, konqreslərin və mədəni tədbirlərin təşkil olunmasına yönəldilmiş birgə layihələrin hazırlanmasını təmin edirdi. Həmçinin Azərbaycan Respublikası üzv olduğu bir sıra beynəlxalq və regional təşkilatların turizm tədbirlərində fəal iştirak etmişdir. [3; 4].

Azərbaycan Respublikasının turizmə göstərdiyi dövlət qayğısı turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi üçün əlverişli şərtlərlə bir sıra vacib sənədlərin qəbul edilməsində, onlar üçün vergi güzəştlərinin nəzərdə tutulmasında, turistlər üçün viza rejiminin sadələşdirilməsində, müvafiq hüquqi bazanın təkmilləşdirilməsində öz əksini tapmalıydı [10, s.19-31, s.32-48; 8, s.129-140; 2]. Yəni görülən tədbirlərin davamı olaraq Azərbaycan Respublikası prezidentinin 27 avqust 2002-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş 2002-2005-ci illər üçün "Turizmin İnkişafının Dövlət Proqramı" təsdiq olunmuş və proqrama dair "Tədbirlər proqramı" hazırlanmışdır. Proqramın 7.2 bəndinə uyğun olaraq ölkə ərazisində beynəlxalq standartlara cavab verən 4 əsas və 3 əlavə marşrutun yaradılması məsləhət bilinmişdir [10, s.19-31; 5, s. 120]. Bunlar aşağıdakılardır: Bakı-Xaçmaz, Bakı-Astara, Bakı-Balakən, Bakı-Qazax marşrutları əsas, Bakı-Abşeron yarımadası-Qobustan, Bakı-Naxçıvan, Bakı-Şuşa əlavə marşrutlardır [8, s.132-140].

2001-ci ildən başlayaraq, Azərbaycan Respublikası bir neçə böyük sərgilərdə – MİTT – Moskvada, WTM – Londonda, İTB – Berlində, MTE – İstanbulda hər il iştirak edir. Beynəlxalq turizm sərgilərində iştirakla yanaşı, 2002-ci ildən başlayaraq Bakıda hər il keçirilən Beynəlxalq Turizm Sərgisi (AİTF) Azərbaycan Respublikasının turizm potensialını təqdim etməklə, beynəlxalq turizm əlaqələrini genişləndirmək baxımından da böyük əhəmiyyətə malik olmuşdu. [5, s.116]

Dövlətin turizm sahəsində gördüyü işlər nəticəsində 2003-cü ilin aprelinə qədər turizm fəaliyyəti üçün xüsusi icazə almış 65 turizm firması fəaliyyət göstərmiş, sonrakı illərdə bu rəqəm daha da artmışdı.[5, s.120]

2003-cü ilin noyabr ayının 24-də ölkə prezidentinin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafı tezləşdirmək məqsədilə tədbirlər haqqında"kı qərarında və 2004-cü il "Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının proqramı (2004-2008)" barəsində fərmanında da turizmin inkişafına xüsusi diqqət yetirilmişdir [6, s.98].

2004-cü ilə qədər Bakıda 50 turizm agentliyi, 10 mehmanxana fəaliyyət göstərmiş, içtimai iaşə müəssisələrinin sayı xeyli artmışdı. "Böyük ipək yolu", "Babaların zəfər və şəhadət yolu", "Aleksandır Düma Qafqazda" və digər turizm marşrutları işlənib hazırlanmışdır [5, s.120-121]. Artıq Azərbaycan Respublikasında işləyən turoperatorlar müştərilərin hər hansı xahişini yerinə yetirə və onların arzularını nəzərə almaqla turizm proqramını təşkil edə bilirlər.

Heydər Əliyevin Müstəqil Azərbaycana rəhbərliyi dövründə təkcə turizm infrastrukturunun inkişafına diqqət ayrılmamış, eyni zamanda respublikamıza turist axınını təşkil etmək üçün Avropa, Asiya və Afrikanın müxtəlif ölkələri ilə turizmə dair müqavilələrin imzalanmasına və ikitərəfli əlaqələrin daha da genişləndirilməsinə də diqqət yetirilmişdir. Yəni ölkəmiz beynəlxalq aləmdə bərabərhüquqlu üzv kimi tanındıqdan sonra xarici ölkələrin turizm nazirlikləri və digər təşkilatları ilə ikitərəfli əməkdaşlıq haqqında müqavilələr və protokollar əsasında birgə əməkdaşlığın yaradılması, turist mübadiləsi, xarici ölkələrdə sərgilərin keçirilməsi, turizm nümayəndəliklərinin yaradılması və Beynəlxalq Turist Təşkilatına üzv olmaq imkanı əldə etdi. Respublikamızın öz mövcud turizm potensialını beynəlxalq aləmdə tanıtdırmaq üçün fəaliyyətində geniş imkan və şərait yarandı. Beləliklə, dövlətin turizm sahəsində yeritdiyi daxili və xarici siyasət, görülən işlər turizmin maddi-texniki bazasını möhkəmləndirmiş, daxili və xarici turizmin inkişafı üçün şərait formalaşdırmış, beynəlxalq turizm əlaqələrini genişləndirməyə imkan vermişdir. Qısa müddət ərzində Sovet dönəmində bu sahədə mövcud olmuş vəziyyətin respublikamız üçün arzuolunmaz elementləri

aradan qaldırılmış, ölkəmizdə turizm biznesinin çağdaş tələblərə cavab verən bazasının yaradılması sahəsində böyük uğurlar qazanılmışdır.

Ədəbiyyat

1. Еганлы С.Т., Гаджиев Э.М. Международный туризм и развитие туризма в Азербайджанской Республике. Баку: Полиграф, 2003, 292 с.
2. Gənclər, İdman və Turizm Nazirliyinin Beynəlxalg əlaqələr şöbəsi arayışlar qovluğu, "Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin fəaliyyəti dövründə (1994-2004) beynəlxalq əlaqələr sahəsində görülmüş işlər barədə arayış".
3. Gənclər, İdman və Turizm Nazirliyi Beynəlxalq əlaqələr şöbəsi. Müqavilələr qovluğu.
4. Gənclər, İdman və Turizm Nazirliyi Turizm Baş İdarəsi Beynəlxalq əlaqələr şöbəsinin Müqavilələr qovluğu.
5. Həsənov Y.L. Azərbaycan Respublukası beynəlxalq idman və turizm əlaqələri sistemində (1991-2005-ci illər). Bakı: Elm və Təhsil, 2015, 224 s.
6. Hüseynov İ., Əfəndiyeva N. Turizmin əsasları. Bakı: Mars-print, 2007, 442 s.
7. Qurbanov X.K., Acalov E.F. Bədən tərbiyəsi və idmanın ümumi tarixi. Bakı: 3 saylı Bakı mətbəəsi, 2007, 420 s.
8. Məmmədov C.A, Bilalov B.Ə. Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları. Bakı: Mütərcim, 2004, 212 s.
9. Məmmədov C.A, Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası. Bakı: R.N.Novruz-94, 2002, 547 s.
10. Turizm sahəsində normativ–hüquqi sənədlər / Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi. Bakı: 2003, 55 s.

РЕЗЮМЕ
РАЗВИТИЕ ТУРИЗМА В НЕЗАВИСИМОЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ В ПЕРИОД ПРАВЛЕНИЯ ГЕЙДАРА АЛИЕВА
Гасанов Ю.Л.

Ключевые слова: *Азербайджанская Республика, Гейдар Алиев, независимость, туризм, отношения*

С принятием Декларации о суверенитете Азербайджанской Республики и Конституционного акта о восстановлении государственной независимости в истории нашей страны начался период самостоятельного развития в сфере туризма, как и во всех других областях. Так как она не была самостоятельной в составе СССР, была укреплена государственная независимость Азербайджанской Республики, и начали формироваться новые туристические связи. В новых условиях были определены цели и задачи внешнеэкономических связей, однако установление и развитие туристических связей Азербайджанской Республики продолжалось в ситуации, когда продолжалась военная агрессия Армении, остро стояля проблема беженцев и 20 процентов наших территорий оставались под оккупацией, были установлены широкие торговые отношения с различными странами, заключены договоры, принято членство в Международной туристской организации.

SUMMARY
DEVELOPMENT OF TOURISM IN THE INDEPENDENT REPUBLIC OF AZERBAIJAN DURING THE REIGN OF HEYDAR ALIYEV
Hasanov Y.L.

Keywords: *Heydar Aliyev, Republic of Azerbaijan, independence, tourism, relations*

With the adoption of the Declaration on the sovereignty of the Republic of Azerbaijan and the Constitutional act on the restoration of state independence, the period of independent development in the field of tourism began, as in all other fields in the history of our country. Since it was not independent within the USSR, the state independence of the Republic of Azerbaijan was strengthened, and new tourism relations began to be formed. In the new conditions, the goals and objectives of foreign tourism relations were determined. However, the establishment, formation and development of tourism relations of the Republic of Azerbaijan were continued in a situation where the military aggression of Armenia continued, the problem of refugees and 20 percent of our territories remained under occupation. wide trade relations with various countries were established, contracts were concluded, and membership of the International Tourism Organization was accepted.

ÇİRKAB SULARIN TƏMİZLƏNMƏSİ VƏ İSTİFADƏ MEXANİZMİ

Həsənova S.Z.
Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azərbaycan
sima1982h@gmail.com

Açar sözlər*: tullantı suları, təmizlənmiş, suvarılma , mexanizm, ətraf mühit.*

Tullantı suları istifadə edilərsə, artan qlobal əhalinin yaratdığı su təchizatı və tələbat çatışmazlığını qismən ödəyə bilər. Tullantı suları çox miqdarda və qidalanma xüsusiyyətlərinə görə (azot və fosforlu) suvarma üçün əsas su mənbəyi kimi xüsusən quru və yarı quru bölgələrdə istifadə olunur. Tullantı suları şəhərin müxtəlif yerlərindən atılır və müxtəlif keyfiyyətlərə malik olur, lakin bu sular bəzi prosesləri həyata keçirməklə - şəhər çirkab suları-təmizlənmiş çirkab suları - bərpa edilmiş - təkrar istifadə olunmuş sular kimi işlədilə bilər (şəkil).

Şəkil. *Çirkab sulardan istifadə mexanizmləri*

Şəkildən də göründüyü kimi təmizlənmiş və ya təmizlənməmiş çirkab suları birbaşa suvarma üçün istifadə edilə bilər və ya təmizlənmiş şəhər tullantı suları dolayı yolla istifadə edilə bilər. Qeyd etmək yerinə düşərdi ki, bir çox su qıtlığı olan ölkələrdə buna uyğun üsullar tətbiq etməklə xüsusən aqrar sahə inkişaf etdirilir. [3]

Aparılan ədəbiyyat incələmələrindən məlum olur ki, 100-dən çox ölkə müxtəlif su çatışmazlığı ilə qarşı-qarşıyadır. Dünya əhalisinin təxminən üçdə ikisinin 2025-ci ilədək orta dərəcədə yüksək su stresindən əziyyət çəkəcəyi proqnozlaşdırılır . Bundan əlavə, dünya əhalisinin təqribən 40% -i çirkab su hövzələrində yerləşir və suvarmaq üçün su çatışmazlığı səbəbindən əkin-biçin çatışmazlığı yaşayır. Eyni zamanda, sənaye sınaqlarının nəticələrində çirkab suların artması ətraf mühitə böyük təzyiqlər göstərir. Qlobal çirkab suların boşaldılması ildə 400 milyard m^3-ə çatır və ildə ~ 5500 milyard m^3 suyun çirkləndirilməsinə səbəb olur. Bununla yanaşı çirkab sularla suvarılmanın müsbət tərəfləri də vardır. Tullantı suları gübrələrə qənaət edə bilən sabit bir su mənbəyidir. Təmiz sudan fərqli olaraq, çirkab su axınları fəsillər, iqlim şəraiti və ya yağıntı səviyyələrinə görə fərqlənmir, başqa sözlə artıb-azalmır və bununla da fermerlərə il ərzində məhsul yetişdirməyə imkan verir. Üstəlik, çirkab suda məhsulun böyüməsini və kimyəvi gübrə istifadəsini azalda biləcək qida maddələri var. Tədqiqatlar göstərmişdir ki, təmiz su ilə suvarma çirkab su istifadəsilə müqayisədə buğda üçün tətbiq olunan xərcdən 45% -ə qədər qənaət edilə bilər, bu nisbət yonca üçün isə 94%-ə çatır. Lakin çirkab su ilə suvarılma insan sağlamlığı və ətraf mühit üçün risklər yaradır. Tullantı sularının suvarılması vacib olsa da, əlaqəli risklər də mövcuddur. [2]

Dünyada bütün bunlar nəzərə alınaraq tullantı suları ilə suvarılma, su çatışmazlığı, gübrəyə qənaət və ya suyun daha da çirklənməsinin qarşısını almaq üçün texnoloji cəhətdən yeniliklər inkişaf etməyə başlanılmışdır. Kənd təsərrüfatında mövcud olan çirkab suların suvarılmada istifadəsi dünya alimləri tərəfindən araşdırılmaqdadır. Suvarma metodlarının fərqli xüsusiyyətləri analiz edilərkən əkin sahələri və ətraf mühitə təsirlər göstərilir. [1]

Tullantı sularla suvarılma hal-hazırda iqtisadi və sosial inkişafla birlikdə suyun təkrar istifadəsində mühüm rol oynayır və bu üsul kəskin dərəcədə inkişaf etmişdir. Kənd təsərrüfatının inkişafı üçün müəyyən edilmiş bələdiyyə suyunun təkrar istifadəsi dünyada ~ 45% təşkil edir. Kənd təsərrüfatında istifadə olunan çirkab suların təkrar istifadəsi dünyada kənd təsərrüfatı su istehlakının 70% -ni təşkil edir. Çirkab su dünya üzrə 20 milyon hektardan çox əraziyə tətbiq olunur. Lakin, çirkab su istifadəsi təcrübələri ilə kənd təsərrüfatı

və landşaft suvarılması və xüsusən quru və yarı quraq bölgələrdə qabaqcıl texnologiyalarla təchiz edilmiş çirkab su təmizləyici qurğuların inşa edilməsi hələ də ölkəmizdə diqqət mərkəzində deyil. [4]

Nəzərə alınmalıdır ki, tullantı sularla suvarılma, suyun tərkibinə uyğun olaraq məhsulun fizioloji mexanizminə əsaslı təsir göstərir. Təmizlənməmiş tullantı suların suvarılması məhsullarda ağır metal yığılmasına və aşağı keyfiyyətli kənd təsərrüfatı məhsullarının çoxalmasına gətirib çıxarır. Mükəmməl təmizlənmə və idarəetmə qaydaları tətbiq olunduqda, çirkab suları suvarma, noxud, kələm, kahı, yonca və tomat bitkilərinin böyüməsini artırır. Tullantı sularının suvarılması ilə əlaqəli ekoloji risklər nəzərə alınmalıdır. [5]

Uyğun suvarma metodları ətraf mühitin mənfi təsirlərini effektiv şəkildə təmin edə bilər. İstifadə olunan suvarma metodundan asılı olaraq hər hansı bir daşqın suları ilə suvarma bir ərazini çox çirkləndirə bilər. Çiləyən suvarma üçün tullantı suları ən azı aerozol və sağlamlıq risklərini azaltmaq üçün ikinci dərəcəli dezinfeksiya standartlarına cavab verir. Damla suvarma ən sərfəlisidir, çünki ətraf mühitə uyğun bir yanaşma təşkil edir. Torpaqdakı damla sulama, ətraf mühitdəki riskləri o cümlədən, nitrat yuma nisbətlərini azaldır (% 70-ə).

Tullantı suvarma suyu gübrə sərfiyatı baxımından fayda gətirir və digər sosial ətraf mühit məqsədlərini həll etmək üçün istifadə edilə bilər. Dünyada çirkab suların istifadəsinin inkişafı gələcəyə yaxşı perspektivlər daşısa da, həm də çətinliklərlə üzləşir, daha çox sağlamlıq riski ortaya çıxarır.

Ədəbiyyat

1. Aziz F, Idrissib M. Reuse of treated wastewater in agriculture: solving water deficit problems in arid areas (review). Ann West *University Timisoara* 2014, 17:95–110.
2. Keraita B, Akatse J, Kinane M, Osei C, MateoSagasta J. On-farm practices for the safe use of wastewater in urban and peri-urban horticulture. 2012. Available https://cgspace.cgiar.org/handle /10568/ 21791.
3. Khandaker S, Saha GC, Islam MS, Ratan MMR. Reuse of textile dying wastewater for irrigation in cultivation of some selected crops: a review. Int J Renew Energy Environ Eng 2014, 2:294–300.
4. Kui Wang, Ahmed A. Abdala, Mohammad A. Khaleel , Nidal Hilal, Marwan K. Khraisheh. Mechanical properties of water desalination and wastewater treatment membranes//Desalination. July 2016 DOI: 10.1016/j.desal.2016.06.032
5. Водяницкий Ю.Н. Ладонин Д.В. Загрязнение почв тяжелыми металлами. М.: Изд-во МГУ. 2012. 305 с.

РЕЗЮМЕ
МЕХАНИЗМ ОЧИСТКИ И ИСПОЛЬЗОВАНИЯ СТОЧНЫХ ВОД
Гасанова С.З.

***Ключевые слова**: сточные воды, очищенные, орошение, механизм, среда.*

Рост населения, социальное и экономическое развитие стали серьезной проблемой нехватки воды в мире. По этой причине ученые начали использовать сточные воды в качестве основного альтернативного источника воды и для компенсации нехватки воды, однако это создает множество проблем с точки зрения здоровья человека и окружающей среды. Если для сведения к минимуму рисков будут применяться соответствующие технологии очистки и орошения, проблемы, вызываемые сточными водами для окружающей среды, могут быть значительно уменьшены, а в сельскохозяйственном секторе в будущем будут созданы большие экономические, социальные и экологические выгоды.

SUMMARY
MECHANISM OF WASTEWATER TREATMENT AND US
Hasanova S.Z.

***Key words**: waste water, cleaned, irrigation, mechanism, environment*

Population growth, social and economic development have become a serious problem of water shortage in the world. For this reason, scientists began to use wastewater as the main alternative source of water and to compensate for the lack of water, however, this creates many problems from the point of view of human health and the environment. If appropriate cleaning and irrigation technologies are used to minimize risks, the problems caused by wastewater for the environment can be significantly reduced, and in the future, great economic, social and ecological benefits will be created in the agricultural sector.

GƏNCƏÇAY ƏRAZİSİNİN TƏBİİ COĞRAFİ ŞƏRAİTİ VƏ ÖYRƏNİLMƏ SƏVİYYƏSİ

Həsənova Cəmilə Vaqif qızı
Azərbaycan Dövlət İqtisad Universiteti, UNEC, Bakı, Azərbaycan
hasanovacemile@mail.ru

Açar sözlər: *Gəncəçay, Orta tunc, Qoşqarçay, yaşayış məntəqələri, qəbir abidələri*

Mövzunun əhatə etdiyi ərazilər Gəncəçay və Qoşqarçay hövzələridir. Əraziyə coğrafi baxımdan nəzər yetirilsə, ərazi dağlıq, dağətəyi, düzənlik zonalarını özündə əks etdirir. Eyni zamanda bölgənin mülayim iqlim şəraiti, münbit torpaqları, zəngin təbii ehtiyatları, bol sulu çayları, meşə örtüyü, heyvanat aləmi – bütün bunlar Gəncəçay ərazisində ibtidai insanların ən qədim zamanlardan məskunlaşmasına şərait yaratmışdır [5, 19-21].

Belə təsəvvür yaratmaq olar ki, mövzunun əhatə etdiyi dövrdə iqlim şəraiti müasir dövrdən də əlverişli idi. Rütubət, meşə və bitki örtüyü yetərincə olmuşdur. Bunlar isə təsərrüfat həyatının canlanmasına şərait yaratmışdır. Nəinki təsərrüfat həyatının canlanmasına, eyni zamanda insanların yaşayış tərzində də öz əksini tapışdır.

Ərazinin çox hissəsini dağətəyi zonalar təşkil edir. Ərazinin dağətəyi və düzənliklərində yarımsəhra və çöl bitkiləri bitən boz və şabalıdı torpaqlar, tam düzənlikdə boz, boz-gillicə torpaqlar, dağlarda isə dağ-meşə və dağ-çəmən torpaqları yayılmışdır [1, 70-71].

Ərazinin dağətəyi və düzənliklərində yarımsəhra və çöl bitkiləri bitən boz və şabalıdı torpaqlar, tam düzənlikdə boz, boz-gillicə torpaqlar, dağlarda isə dağ-meşə və dağ-çəmən torpaqları yayılmışdır.

Ərazinin dağlıq hissəsində çoxsaylı faydalı qazıntılar, mis mədənləri, polumetal yataqları, dəmir filizi və s. mövcuddur.

Əsrlər boyu, ən qədim zamanlardan başlayaraq belə zəngin təbiətə, yaşayış üçün əlverişli iqlim şəraitinə, meşə örtüyünə, alp çəmənliklərinə, bolsulu çaylara, heyvanat aləminə malik olan bu ərazidə daim yaşayış olmuşdur [9, 54-55]. Nəsillər bir-birini əvəz etmiş, zəngin mədəni irs mütəmadi olaraq irsən ötürülmüşdür.

Lakin bəzi mənbələrdə, elə indi də qazıntılar aparılarkən buradan çox saylı ağac kötüklərinə rast gəlinir. Bu da belə nəticəyə gəlməyə əsas verir ki, bu ərazilər qədimi zamanlarda çoxsaylı meşə örtüyü ilə əhatə olunmuşdur. Daha sonradan əhalinin sıx məskunlaşdığı ərazi olduğu üçün burada meşə örtüyünün get-gedə azalmasına gətirib çıxartmışdı. Burada yaşayan əhali maldarlıqla daha çox məşğul olmağa başlamışdılar. Bu da son nəticədə meşə örtüyünün azalmasına, otlaq sahələrin çoxalmasına gətirib çıxartmışdı.

Azərbaycanın qədim dövr arxeoloji abidələrlə zəngin olan bölgələri içərisində Gəncəçay ərazisi önəmli yer tutur [10, 20-22].

Ərazinin coğrafi quruluşu, paleoekoloji durumu, dağ silsilələri və çayları, torpaq qatının münbitliyi, faydalı qazıntıları və s. bağlı məsələlər haqqında müxtəlif tədqiqatçıların əsərlərində məlumatlar mövcuddur.

Gəncəçay ərazisinin ilk tunc dövrünün arxeoloji abidələrində ilkin arxeoloji qazıntılar XIX əsrin 90-cı illərinə təsadüf edir. 1834-cü ildə İsveçrə səyyahı Dyubua de Monperonu Şuşadan Tiflisə gedərkən bu ərazidə Orta tunc çağına aid olan maddi-mədəniyyət nümunəsinə rast gəlmişdir.

1852-ci ildə F.Bayern öz qeydlərində yazır ki, bu ətazidən sərdabə tapılmış və bu sərdabənin içərisində çoxlu sayda dəvə sümükləri mövcud olmuşdur. Bu çox qiymətli məlumatdır, belə ki, bu məlumat ərazinin icarət baxımından zənginliyini bir daha göstərmiş olur [2, 91-92].

XIX əsrin sonlarından bu dəfə də axtarış və arxeoloji qazıntıları alman mənşəli həvəskar arxeoloq olan Yakov İvanoviç Hümmel aparmışdır. Yelenendorf (sonralar Xanlar, indiki Göygöl) orta məktəbinin biologiya müəllimi olan Y.İ.Hümmel həm Gəncəçay ətrafında, həm də Yelenendorft da tədqiqatlar aparmışdır. Arxeoloji tədqiqat nəticəsində üç daş baltaya rast gəlmişdir. O heç də təsadüfən bu ərazi seçməmişdir. Çünki Y.İ.Hümmel bu ərazi barədə, buradan tapılan daş balatalar haqqında çox eşitmişdir.

Bütün bu araşdırmalar nəticəsində Qafqazda arxeoloji tədqiqatlara maraq artır və nəticədə 1871-ci ildə Tiflisdə Qafqaz Arxeoloji Komitəsi yaradılır. Bundan sonra Qafqaz arxeologiyasına diqqət və maraq daha da artır [8, 119-121]. A.A.İvanovski, E. Resler, Jark de Morqan və digərləri də bu ərazilərdə tədqiqatlar aparmış və elmi hesabatlarında bu haqda məlumatlar verirlər. Bu cür mütəşəkkil tədqiqatlar XX əsrdə də davam etdirildi.

V.A.Skinder Gəncə və Xanlar ərazilərində iki qəbir qutusu aşkar etmişmişdir. Onun əldə etdiyi maddi mədəniyyət nümunələri Sank-Peterburq muzeyində II dünya müharibəsinə qədər saxlanılırdı. D.Şərifov burada tədqiqat apararkən yerli əhali ona məlumat vermişdir ki, burada alman müəllimləri tədqiqat aparmışlar və tapılan maddi mədəniyyət nümunələrini Almaniyaya göndərmişlər. Həqiqətən də bütün tapılan qəbir abidələri və yaşayış yerləri kobud casına dağıdılmış və talan edilmişdir [6, 79-80; 7, 165].

1923-cü ildə Azərbaycanın Arxeoloji Komitəsi yaradıldı. Sovet hakimiyyəti dönəmində arxeoloji tədqiqatlar mütəmadi olaraq aparılırdı. 1928-ci ildə Xanlar rayonunda Ölkəşunaslıq muzeyi açılmış və bu muzey Gəncəçay abidələrinin öyrənilməsində əvəzsiz xidmətləri ilə seçilir [3, 21]. Bu muzeyin açılmasında Y.İ.Hümmelin əvəzsiz xidmətləri olmuşdur.

1938-ci ildən A.Paxomov Gəncəçay hövzəsində tədqiqatlar aparmış, tikili qalıqlara rast gəlinmişdir. Eyni ildə İ.Cəfərzadə də bu ərazi də tədqiqatlar aparmış və siklop tikintilərinə rast gəlinmişdir [4, 19]. Hər iki arxoloqun bu ərazidə tapılan maddi mədəniyyət nümunələrinə dair kitab çap etdirmişdilər.

XX əsrin 50-ci illərində bu ərazidə İ.Nərimanov tədqiqatlar aparmış və tədqiqatların nəticəsini kitablara sığdırmışdır.Bu gün də bu istiqamətdə yeni tədqiqatlar davam etməkdədir.

Ədəbiyyat

1. Azərbaycan arxeologiyası. 6 cilddə. I c., Bakı: Şərq-Qərb, 2008, 448 s.
2. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik I hissə /akad. Z.Bünyadov və prof. Y.Yusifovun redaktorluğu ilə / Bakı: Çıraq nəşriyyatı, 2007, 716 s.
3. Azərbaycan SSR-nin Fiziki Coğrafiyası. Bakı, 1959, 367 s.
4. Azərbaycanın Respublikasının Milli Atlası. Bakı, 2015, 300 s.
5. Bəhərçi T., Mehdiyeva V.Z. Azərbaycan Respublikasının təbii şəraiti, təbii ehtiyatları, onların iqtisadi - ekoloji qiymətləndirilməsi. Bakı, 2012, 301 s.
6. Bünyatov T.Ə. Azərbaycan arxeologiyası oçerkləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1960, 238 s.
7. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı – e.ə. I minilliyin əvvəllərində. Bakı: Elm, 2000, 187 s. (101s. əlavə ilə.), cədvəl.
8. Cəlilov B.M. Göygöl-Goranboy arxeoloji ekspedisiyasının apardığı arxeoloji tədqiqatlar (Daşkəsən, Goranboy rayonları) / Azərbaycanda Arxeoloji Tədqiqatlar - 2012. Bakı, 2013, s. 128-137.
9. Hüseynov M.M, Kazımov Ə. Goranboy-Gölyeri qədim yaşayış yerində arxeoloji tədqiqatlar (Goranboy rayonu) / Azərbaycanda Arxeoloji Tədqiqatlar - 2009. Bakı, 2010, s. 70-75.
10. Hüseynov M.M, Kazımov Ə. Göl-yeri qədim yaşayış yerində aparılan arxeoloji tədqiqatlar / Azərbaycanda Arxeoloji Tədqiqatlar - 2010. Bakı, 2011, s. 69-72, rəngli şəkillər.

РЕЗЮМЕ
ПРИРОДНО-ГЕОГРАФИЧЕСКИЕ УСЛОВИЯ И УРОВЕНЬ ИЗУЧЕННОСТИ ТЕРРИТОРИИ РЕКИ ГЯНДЖАЧАЙ
Гасанова Дж.В.

Ключевые слова: *Гянджачай, средняя бронза, Гошгарчай, поселения, могильные памятники*

Из проведенного в статье исследования известно, что хотя население, проживающее на территории Азербайджана в один и тот же период, имело единую культуру, каждый регион имел свои местные особенности. В статье показаны некоторые аспекты культуры региона в эпоху средней бронзы. В результате археологических исследований изучены природно-географические условия местности и выявлен уровень изученности. Независимо от деятельности племен, живших в равнинной, предгорной и горной зонах Гянджачая и Гошгарчая, они входили в единую культурно-этническую общность.

SUMMARY
NATURAL AND GEOGRAPHICAL CONDITIONS AND THE LEVEL OF STUDY OF THE TERRITORY OF THE GANJACHAY RIVER
Hasanova J.V.

Key words: *Ganjachay, middle bronze, Goshgarchay,settlements, grave monuments*

From the study conducted in the article, it is known that although the population living in the territory of Azerbaijan in the same period had a single culture, each region had its own local characteristics. The article shows some aspects of the culture of the Middle Bronze Age region. As a result of archaeological research, the natural and geographical conditions of the area and the level of knowledge were studied. Regardless of the activities of the tribes living in the plain, foothill and mountainous zones of Ganjachay and Goshgarchay, they were part of a single cultural and ethnic unity.

XƏZƏRSAHİLİ TORPAQLARIN ANTROPOGEN FƏALİYYƏT NƏTİCƏSİNDƏ ƏTRAF MÜHİTƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ (ŞABRAN-ABŞERON ARASI)

Hüseynova Lalə İsmayıl qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
lale_huseynova_1986@mail.ru

Açar sözlər: *antropogen, təbii şərait, suvarılma, transformasiya, otlaqlar*

XX əsrin əvvəllərindən etibarən Azərbaycanın inkişaf yoluna qədəm qoyması, dağ-mədən, xüsusən də neft-mədən və ağır sənayenin inkişafı, kənd təsərrüfatının (xüsusən də suvarmanın) və yaşayış məntəqələrinin genişlənməsinə, nəqliyyat infrastrukturun yüksəlişi çox hallarda təbii ekosistemlərin transformasiyasına, torpaqların eroziyasına, şorlaşma və şorakətləşməsinə, sənaye və məişət tullantıları ilə çirklənməsinə və ya bəzi rayonlarda tamamilə məhvinə gətirib çıxarmışdır. Bu neqativ proseslər son 50-60 il ərzində daha yüksək intensivliklə baş verməkdədir.

Xəzərsahili ərazilərdə tədqiqat və müşahidələr nəticəsində məlum olmuşdur ki, torpaq və bitki örtüyündə baş vermiş təbii və antropogen transformasiya prosesi mürəkkəb və çox amilli, bəzən araşdırılması çətin olan kompleks təsirlərdir. Bu təsir prosesinin tarixi çox qədim dövrlərə gedib çıxır və hal-hazırda bu proses iqtisadi və sosial vəziyyətin dəyişməsi nəticəsində daha kəskin şəkil almışdır.

Xəzərsahili (Şabrançay-Abşeron arası) düzən torpaqlar demək olar ki, 100% arid və semiarid ərazilərdən ibarətdir. Ərazinin təbii şəraiti antropogen xarakterli neqativ təsirlərin sürətlə getməsini şərtləndirir. N.Q.Xarin [4, s. 136-168] qeyd edir ki, səhralaşma məhsul istehsalının səviyyəsinin aşağı düşməsi ilə nəticələnir. Bunun üçün istehlakın azaldılması və məhsul istehsalının artırılmasına nail olmaq və yaxud təbii komponentlərə diqqət artırılmalıdır. İstehlakın azaldılması əhalinin say tərkibinin tənzim olunması ilə bağlıdır. İstehsalın artırılması torpaqların transformasiyası ilə nəticələnir. Göründüyü kimi ətraf mühitin neqativ istiqamətdə transformasiyaya məruz qalması sosial-iqtisadi şəraitlə sıx əlaqədardır.

Xəzərsahili bölgə və Azərbaycanın digər regionları ilə bağlı insanın təsərrüfat fəaliyyətinin ətraf təbii komponentlərə, o cümlədən torpaq örtüyünə təsiri bir sıra tədqiqatçılar tərəfindən öyrənilmişdir. Antropogen prosesə örüş və otlaq sahələrinin normadan çox yüklənməsi, otarma normasının pozulması, ağac və kol bitkilərinin qırılması, eroziyaya, o cümlədən deflyasiyaya qarşı mübarizə tədbirlərinin, xüsusilə dəmyə əkin sahələrində gözlənilməməsi, torpaqların suvarılması zamanı mütərəqqi texnologiyanın tətbiq olunmaması aiddir[1].

Xəzərsahili (Samur-Abşeron arası) düzənliklərə son bir əsrdə antropogen təsir dinamik olaraq çoxalmışdır. Məskunlaşma XX əsrin ortalarından başlayaraq ətraf inzibati rayonların, o cümlədən Quba, Şabran, Xızı rayonlarının dağlıq bölgələrinin hesabına burda məskunlaşma kəskin formada çoxalmışdır. XX əsrin 90-cı illərindən başlayaraq ölkədə ictimai-siyasi quruluşun, torpaq üzərində mülkiyyət formalarının dəyişməsi hesabına Sumqayıt şəhərindən başlayaraq şimal istiqamətə doğru antropogen təsirin gündən-günə çoxalması müşahidə olunur.

Əhalinin dağlıq bölgələrdən Xəzərsahili bölgəyə miqrasiya etməsi aşağıdakı səbəblərlə bağlı olmuşdur:

-suvarma əkinçiliyinin iqtisadi nöqteyi-nəzərdən ekstensiv heyvandarlıqla müqayisədə rentabelli olması;

-dağlıq bölgələrdə yaşayış məntəqələri ətrafında meşələrin tükənməsi və yerli əhalinin meşədən əldə etdiyi gəlirdən məhrum olması;

-sosializm dövründə dövlətin-hökümətin heyvandarlıq təsərrüfatı ilə bağlı verdiyi səhv qərarlar;

-bitkiçilik sahəsinin heyvandarlığa nisbətən üstünlüyünün yaranması, yəni əmək tutumlu təsərrüfat sahələrinə zəruri ehtiyacın yaranması.

Tədqiqat rayonu və ətraf təmas ərazilərdə meşələrin transformasiyaya məruz qalması təbii qazın olmaması səbəbindən odundan yanacaq kimi istifadə edilməsi, yerli əhalinin meşə ağaclarından qazanc məqsədi üçün kömür hazırlayaraq satması, əkin və otlaq sahələrinin genişləndirilməsi olmuşdur.

Örüş və otlaq sahələrinin heyvanlarla normadan çox yüklənməsi, dəmyə ərazilərdə eroziya və deflyasiyaya qarşı kompleks mübarizə tədbirlərinin aparılmaması, suvarmada mütərəqqi metodlardan istifadə olunmaması ərazidə torpaqların müxtəlif istiqamətlər üzrə transformasiyasına səbəb olmuşdur.

Qərb istiqamətdə insanın təsərrüfat fəaliyyətinin nəticəsi olaraq oduncaqdan yanacaq kimi istifadə olunma zərurəti meşələrin məhv olunmasına gətirib çıxarmışdır [2].

Arid iqlim şəraitində örüş və otlaqların sürətlə transformasiyaya məruz qalma səbəbi vahid ərazi üzrə heyvanların baş sayının normadan çox olması ilə əlaqədardır. Cədvəldən göründüyü kimi tədqiqat rayonu ərazisində son illərdə müsbət dinamika nəzərə çarpır. Belə ki, qoyun və iri buynuzlu qaramalın baş sayı əksər yaşayış məntəqələri üzrə son 8-10 il müddətdə çoxalmışdır. Verilmiş bütün məntəqələrdə vahid ərazi üzrə heyvanların baş sayı normadan dəfələrlə yüksəkdir.

Tədqiqat rayonu ərazisi üçün örüş və otlaqların pisləşməsinin başlıca səbəbi kimi aşağıdakıları göstərmək olar: vahid ərazi üzrə düşən mal-qaranın baş sayının normadan dəfələrlə çox olması; örüş və otlaqların dəmyə əkin sahələri ilə əvəz olunması; heyvanların eyni yolla hər gün hərəkət etməsi; meşə və kolluqların yanacaq məqsədilə qırılması və yandırılması; heyvanların suvarılması üçün su mənbələrinin az olması; mal-qara sürülərinin tənzim olunmaması; bitkilərin hər il yay vaxtı yandırılması.

Cədvəl.

Şabran-Abşeron arası Xəzərsahili düzənliyin ayrı-ayrı məntəqələri üzrə heyvanların (qoyun, iribuynuzlu mal-qara) baş sayının dinamikası (2008-2020-ci illər statistika və yerli məlumatlar əsasında)

Sıra №si	Yaşayış məntəqəsinin adı	İ l l ə r					
		2008		2016		2020	
		Qoyun	İribuynuzlu mal-qara	Qoyun	İribuynuzlu mal-qara	Qoyun	İribuynuzlu mal-qara
Xızı rayonu							
1.	Şurabad	5870	1050	6250	1150	6757	1075
2.	Giləzi	6550	985	7785	993	8200	1015
3.	Yeni Yaşma	4950	768	4645	805	5370	817
4.	Sitalçay	4126	673	4500	705	4150	718
Siyəzən rayonu							
5.	Yenikənd	3750	520	4057	462	4375	485
6.	Həmyə	3200	452	3050	481	3275	300
7.	Beşdam	1955	215	1988	275	2080	271
8.	Zarat	1170	258	900	292	915	287
Şabran rayonu							
9.	Ağbaş	1925	557	2008	548	2100	562
10.	Şabran	1217	500	1526	576	1612	573
11.	Güləmi	1007	452	1310	518	1445	536
12.	Yalavac	972	512	1272	600	1331	590

Tədqiq olunan ərazinin cənub qurtaracağında , o cümlədən Sumqayıt şəhəri ərazisində əhalinin sıxlığı daha da yüksəkdir. Ərazidə davam edən müsbət dinamika yaxın gələcəkdə bu rəqəmlərin daha da böyüməsinə səbəb olacaq. Bunun başlıca səbəblərindən biri də Xəzərsahili bölgədə süni suvarmanın tətbiq edilməsi ilə bağlı suvarma əkinçiliyinin genişləndirilməsidir. Taxtakörpü su anbarının tikintisindən sonra Şabran, Siyəzən və Xızı rayonlarının dənizsahili bölgəsində yeni mütərəqqi suvarma sistemləri quraşdırılır və torpaq-meliorativ tədbirlər genişləndirilir. Şabranda ümumi suvarılan sahə 30207 ha, Siyəzəndə 12136.7 ha, Xızıda 12579 ha təşkil edir.Yeni suvarılan sahə Şabran rayonu ərazisində 13806 ha, Siyəzən rayonu ərazisində 6971.9 ha, Xızı rayonu ərazisində 3513 ha çatdırılmışdır. Ərazidə kənd təsərrüfatı üzrə ən çox suvarılan əkin sahələridir.

Süni suvarmanın geniş şəkildə tətbiq olunması, ərazidə səhralaşma prosesini zəiflətməklə yanaşı, həm də torpaqların transformasiyasının qarşısını kəskin şəkildə alacaqdır.

Çoxillik sosial-iqtisadi statistik məlumatların təhlilindən məlum olur ki, Xəzərsahili düzənliyin ayrı-ayrı yaşayış məntəqələri üzrə antropogen təsirin çoxalması nəticəsində örüş və otlaq sahələrində son 25-30 ildə yüklənmə normanı orta hesabla 0,5-3,4 dəfə üstələmişdir. Ərazi üzrə bütün istiqamətlərdə antropogen təsirin ildən-ilə çoxalması sübut edilmişdir.

Ədəbiyyat

1. Budaqov B.Ə., Qəribov Y.Ə. Təbii landşaftların antropogenləşməsinin əsas istiqamətləri / B.Ə.Budaqov B.Ə, Y.Ə.Qəribov.Azərbaycan Respublikasının Konstruktiv coğrafiyası - Bakı: Elm, - 2000, - s. 159-165.
2. Əliyev H.Ə., Xəlilov M.Y. Təbiətin yaşıl libası / H.Ə.Əliyev, M.Y.Xəlilov. - Bakı: Gənclik, - 1988, - 174 s.
3. İsmayılov M.C. Landşaftların fəaliyyət intensivliyinin onun məhsuldarlığına təsirinin öyrənilməsi // Azərb. Coğrafiya Cəmiyyətinin əsərləri. Bakı: 2001, - VII cild, - s. 27-34.
4. Kharin N. G. Dégradation des terres séches en Mongolie // Sécheresse: - 1997. № 3, - p. 136-168.
5. Салаев М.Э. Почвы зоны Самур-Дивичинского канала имени Сталина / М.Э.Салаев. Баку, - 1945, - с.7-10.

РЕЗЮМЕ

ОЦЕНКА ВОЗДЕЙСТВИЯ НА ОКРУЖАЮЩУЮ СРЕДУ ПРИКАСПИЙСКИХ ЗЕМЕЛЬ В РЕЗУЛЬТАТЕ АНТРОПОГЕННОЙ ДЕЯТЕЛЬНОСТИ (МЕЖДУ ШАБРАНОМ И АПШЕРОНОМ)

Гусейнова Л.И.

Ключевые слова*: антропогенные, природные условия, орошение, трансформация, пастбища.*

В статье оценивается влияние земель Каспийского побережья (между Шабраном и Апшероном) на окружающую среду в результате деятельности человека, анализируются изменения окружающих территорий на основе статистических

данных. Показана динамика численности животных на разных участках Прикаспийской равнины между Шабраном и Абшероном, рассмотрена трансформация наземного покрова. Массовое переселение людей из горных районов в равнинные районы также сказалось на окружающей среде. Таким образом, в статье отражено изменение окружающей среды в результате антропогенного воздействия на исследуемые территории.

SUMMARY
ASSESSMENT OF THE ENVIRONMENTAL IMPACT OF THE CASPIAN LANDS AS A RESULT OF ANTHROPOGENIC ACTIVITIES (BETWEEN SHABRAN AND ABSHERON)
Huseynova L.I.

Key words: *anthropogenic, natural conditions, irrigation, transformation, pastures*
In the article, the impact of the land of the Caspian coast (between Shabran and Absheron) on the environment as a result of human activity is evaluated. Changes in the surrounding areas are analyzed based on statistical data. The dynamics of the number of animals in different areas of the Caspian coastal plain between Shabran and Absheron are shown, and the transformation of land cover is considered. Mass migration of people from mountainous areas to plain areas has also had its effect on the environment. Thus, the change in the environment as a result of anthropogenic influence in the research area is reflected in the article.

HEYDƏR ƏLİYEVİN RƏHBƏRLİYİ İLƏ AQRAR İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ

Hüseynov Xəzər
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan, t.e.d., dosent
xezerhuseynov@gmail.com

Açar sözlər: *Naxçıvan, iqtisadi böhran, xüsusi mülkiyyət, aqrar sahə, islahat.*

Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında aqrar sahənin uğurlu inkişafı Azərbaycan xalqının ümummilli lideri, Müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır.

Məlum olduğu kimi 1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini bərpa edəndə ölkədə ictimai həyatın bütün sahələrində islahatların aparılması vacib və zəruri bir problem kimi qarşıya qoyulmuşdur. Bunun əsas səbəbi kimi uzun illər ərzində qurulmuş ittifaqdaxili sabit istehsal-təsərrüfat əlaqələrinin dağılması, dövlətin yeni şəraitdə, xüsusilə də aqrar sahə üzrə öz tənzimləmə funksiyalarını lazımi şəkildə yerinə yetirə bilməməsi, kəskin sosial-siyasi böhranlar, ölkəmizin bir sra mühüm kənd təsərrüfatı rayonlarının düşmən işğalına məruz qalması, ölkə daxilində sahələrarası iqtisadi əlaqələrin qırılması və s. göstərmək olar. Nəticədə aqrar sahədə istehsal kəskin aşağı düşmüş, bir sıra aqrar sahə müəssələri dağıdılmış, kənd təsərrüfatı məhsulları daxili bazarda aşağı səviyyəyə düşmüşdür.

Belə gərgin dövrdə Naxçıvan Muxtar Respublikasını dərin-iqtisadi böhrandan çıxarmaq üçün dahi bir dövlət xadimi Heydər Əliyevə böyük ehtiyac var idi. Ümummilli lider Heydər Əliyevin Azərbaycana, xüsusilə Naxçıvana qayıdışı blokada şəraitində yaşayan, Azərbaycanın digər ərazilərindən təcrid olunan Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafına güclü təsir göstərmişdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev XX əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan Muxtar Respublikasına rəhbərlik edərkən, yaranmış iqtisadi böhran və xaosdan ancaq islahatlar yolu ilə çıxarmağın mümkün olduğunu bildirdi. Onun təfəkkürünün və siyasi iradəsinin məhsulu olaraq, Naxçıvanda ilk dəfə olaraq aqrar sahədə radikal bir addım atıldı. Aqrar islahatlar ölkəmizdə ilk dəfə olaraq Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında Ali Məclisin sədri vəzifəsində işlədiyi dövrdən həyata keçirilməyə başlamışdı.

1992-ci il aprelin 6-da Ali Məclisin sessiyasında iqtisadi islahatlarla bağlı məsələlər müzakirə edildi, "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləş-dirilməsi haqqında". İlk növbədə Culfa rayonunun Şurut və Gal kimi sərhəd kəndlərində eksperimental qaydada torpaq islahatına başlandı [4, s. 42].

Lakin təssüf ki, Ulu Öndərin atdığı bu addımlar Azərbaycanın o zamankı rəhbərliyi tərəfindən qısqanclıq hissi ilə qarşılanaraq qəbul edilmədi. Yalnız 1993-cü ildən sonra Azərbaycanda bu sahədə əməli iş görülməyə başladı. Yəni 1993-cü ilin iyun ayında xalqın tələbi ilə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gələn ümummilli liderimiz Heydər Əliyev əsaslı islahatlara başladı. Bu baxımdan aqrar islahatlara xüsusi əhəmiyyət verən Ulu Öndərin rəhbərliyi ilə ölkədə aqrar sahədə islahatlar uğurla həyata keçirilməyə başladı.

Ulu Öndər Heydər Əliyev 1993-cü ildən başlayaraq ilk növbədə, ölkədə sabitliyin bərqərar olması üçün ciddi tədbirlər həyata keçirmişdir. Bununla yanaşı, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi və tapşırığı əsasında iqtisadiyyatda yaranmış böhrandan çıxış yolları axtarılır, xarici ölkələrin təcrübəsi

öyrənilir, ölkəmizin xüsusiyyəti və xalqımızın mentaliteti nəzərə alınaraq, milli maraqların qorunması əsas götürülərək təhlillər aparılırdı. Bu təhlillər nəticəsində belə bir fikir formalaşmışdır ki, ölkə iqtisadiyyatını, o cümlədən aqrar bölməni bu çətin vəziyyətdən çıxarmaq üçün heç bir səmərə verməyən inzibati amirlik metodundan əl çəkmək və bazar münasibətlərinə əsaslanan iqtisadi sistemə keçmək lazımdır. Bunun üçün islahatlar həyata keçirilməli, dövlətin mülkiyyətində olan əmlakın bir hissəsi özəlləşdirilərək xüsusi mülkiyyətə verilməli idi ki, ölkədə sahibkarlıq inkişaf etsin. Bununla əlaqədar hələ 1994-cü ilin sentyabr ayında keçirdiyi müşavirədə Ulu Öndər Heydər Əliyev demişdir: "Kənd təsərrüfatı sahəsində gələcək inkişafımız yalnız və yalnız iqtisadi islahatların həyata keçirilməsi ilə bağlıdır. Gecikmək olmaz. Bu mənim üçün əsas prinsipdir. Mən bu prinsipdən geri çəkilməyəcəyəm".

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan torpaq islahatları, onun respublika prezidenti seçiləndən sonra Azərbaycanın bütün rayonlarında tətbiq edilməyə başladı. Bu proses dünyada analoqu olmayan bir şəkildə, yəni torpaqların pulsuz olaraq əvəzsiz pay kimi vətəndaşlara verilməsi ilə həyata keçirildi.

Azərbaycanda aparılan torpaq islahatları digər MDB ölkələrinin daim marağına səbəb olduğundan, bu sahədə yaradılan hüquqi baza dərindən öyrənilmiş, prosesin idarə edilməsi və həyata keçirilməsi mexanizmlərinə xüsusi diqqət yetirilmişdir.

Həmin məqsədlə Ukrayna, Rusiya, Belarusiya, Qazaxıstan və digər dövlətlər Azərbaycanın bu sahədəki təcrübəsindən yararlanmaq qərarına gəlmişdilər [10, s. 9].

Azərbaycan Respublikasında 1993-cü il siyasi dönümündən sonra ölkənin siyasi və iqtisadi sahələrini yeni şəraitdə uyğunlaşdırmaq üçün qlobal və ciddi islahatlar həyata keçirilməyə başlandı. Aqrar islahatların strukturunda torpaq islahatı öz xüsusi və müstəsna mövqeyi ilə seçilir, böyük əhəmiyyətli rol oynayır. Respublikada həyata keçirilən torpaq islahatının mükəmməl xarakter daşıması, nəticə etibarilə bu radikal dəyişikliklərin demək olar ki, sosial baxımdan tam mənası ilə ağrısız və itkisiz keçirilməsinə gətirib çıxardı. Qısa müddət ərzində kənd təsərrüfatında iqtisadi böhranı dayandırmaqla, ölkədə digər islahatların keçirilməsinə təkan verdi.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandan başlanan islahatlar proqramı real və görünən imkanlara istinad etdi. 1996-cı il iyulun 16-da ölkənin aqrar sektorunda radikal bir addım atıldı. Respublikada 1996-cı ildə torpaq islahatı aparıldı. Bu islahatı aparmaq üçün yenə də dahi dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə torpaq islahatı proqramı hazırlandı. Bu proqram əsasında torpaq islahatını təmin edən onun hüquqi bazası yaradıldı [2, s. 87].

Ümummili lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanan, onun təfəkkürünün və siyasi iradəsinin məhsulu olan "Torpaq islahatı haqqında" Qanun 16 iyul 1996-cı ildə qəbul edildi. Bu qanuna görə, bütün postsovet respublikalarından fərqli olaraq, torpaq sosial ədalət prinsipinə əsasən kənddə yaşayan vətəndaşların xüsusi mülkiyyətinə verildi [1, s. 387]. İkincisi torpağın ən yararlısı və keyfiyyətlisi özəlləşdirilir. MDB məkanının digər ölkələrindən fərqli olaraq, vətəndaşa yararsız və ya az yararlı torpaqlar deyil, keçmiş kolxoz və sovxozların ən yaxşı və münbit torpaqları verilir. Üçüncüsü, respublikamızın ərazisində yaşayan bütün vətəndaşlara harada yaşamasından və kimliyindən asılı olmayaraq torpaqlardan istifadə və icarə hüququ verilir, eyni zamanda Azərbaycanın hər bir vətəndaşı torpaq alqı-satqısı prosesində, torpaqla bağlı müxtəlif müqavilə bağlanmasında iştirak edə bilər. Bu sosial ədalət prinsipi gözlənilməklə həyata keçirilən torpaq islahatı Respublikamızda aqrar sektorun dinamik inkişafına təkan verdi və az bir müddətdə islahatların müsbət nəticələri özünü biruzə verdi.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə respublikada Azərbaycan vətəndaşı olmayan fiziki və hüquqi şəxslərə torpağa mülkiyyətçilik hüququ verilməmişdir, bu da nəinki mühüm iqtisadi, həmçinin ciddi siyasi əhəmiyyət daşıyır [2, s. 89-90].

Muxtar respublikada kənd təsərrüfatını inkişaf etdirmək üçün görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə rəhbərliyi və iştirakı ilə hazırlanan geniş və hərtərəfli müzakirə edilən, "Aqrar islahatın əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında" (1995-ci il), "Torpaq islahatı haqqında" (1996-cı il), "Lizinq xidməti haqqında", "Torpaq icraiyyəsi haqqında", "Torpaq bazası haqqında" və şair qanunların çox böyük əhəmiyyəti olmuşdur. Həyata keçirilən bu islahatlar ölkəmizdə aqrar sahənin inkişaf etməsinə şərait yaratmışdır və aqrar sahədə dönüş yaranmışdır.

Bəhs edilən illərdə Azərbaycan Respublikası üzrə Dünya Bangı tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulan 5 nümunəvi özəl təsərrüfatın sırasına ümummili lider Heydər Əliyevin tapşırığı ilə Şərur rayonunun Püsyan kəndi də daxil edilmişdi. Nümunəvi özəl kənd təsərrüfatı müəssələri yaratmaq məqsədi ilə həmin kənddə torpaq islahatı işləri həyata keçirilmişdir.

Aparılmış təhlil və araşdırmalardan məlum olur ki, muxtar respublikada aqrar sahədə əldə olunan dinamik inkişaf ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olmuşdur. Əlverişli iqlim şəraitinin, bərəkətli münbüt torpaqların olması, üstəlik də aqrar sahənin inkişafına hərtərəfli

dövlət qayğısının göstərilməsi kənd təsərrüfatının inkişafına, muxtar respublikanın torpaq potensialından səmərəli istifadəyə imkan yaratmışdır. Həyata keçirilən aqrar islahatlar nəticəsində Naxçıvan Muxtar Respublikasında aqrar sektor xeyli inkişaf etmişdir.

Muxtar respublikada həyata keçirilən aqrar islahatlar bugün ölkə Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikasında aqrar sahədə istehsalın artması idxal olunan məhsulları yerli məhsullarla əvəz etməyə, meyvə-tərəvəz, kartof, ət süd məhsulları və digər kənd təsərrüfatı məhsullarının istehsalını çoxaltmaqla ümumi ticarət balansını yaxşılaşdırmağa və kənd yerlərində məşğulluq səviyyəsini yüksəltməyə imkan yaratmışdır.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, müstəqilik illərində ölkə iqtisadiyyatının mühüm sahəsinə çevrilmiş aqrar bölmədə aparılan islahatların, xüsusən də onun mühüm tərkib hissəsi olan torpaq islahatlarının həyata keçirilməsi öz bəhrəsini vermiş, muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı xeyli çoxalmışdır.

Ədəbiyyat

1. Azərbaycan tarixi: Yeddi cilddə. VII c. Bakı: Elm, 2008, 608 s.
2. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında, Bakı: Elm, 2005, 312 s.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 22-ci cild Bakı: Azərnəşr, 2007, 528 s.
4. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan: Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi, 2011, 272 s.
5. Xalq qəzeti.
6. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008. 840 s.
7. 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı haqqında. Naxçıvan: Əcəmi nəşriyyatı Poliqrafiya Birliyi, 1998, 32 s.
8. Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002, 328 s.
9. Naxçıvan Muxtar Respublikası (Akademik C.Quliyevin redaktorluğu ilə) Bakı: Elm, 2001, 222 s.
10. Rüstəmov A.A., Quliyev Ə.G., Qasımov D.Q. Aqrar sahənin inkişafının regional problemləri (Dərs vəsaiti), Bakı: Avropa, 2013, 172 s.
11. Respublika qəzeti.
12. Şərq qapısı qəzeti.

РЕЗЮМЕ

ОСУЩЕСТВЛЕНИЕ АГРАРНОЙ РЕФОРМЫ ПОД РУКОВОДСТВОМ ГЕЙДАРА АЛИЕВА

Гусейнов Х.

Ключевые слова: *Нахчыван, экономический кризис, частная собственность, аграрная сфера, реформа*

За годы независимости в сельском хозяйстве Нахчыванской Автономной Республики достигнуты большие успехи. Были проведены аграрные реформы, значительно повысился жизненный уровень населения. Говоря о реформах в сельскохозяйственной деятельности, уместно отметить, что все они были непосредственно подготовлены в Нахчыванской Автономной Республике и здесь же осуществлялась их первоначальная реализация.

Наш общенациональный лидер Гейдар Алиев сделал первые шаги по осуществлению аграрных реформ в этом регионе, работая Председателем Верховного Собрания Нахчыванской Автономной Республики. В этот период на сессии Верховного Собрания Автономной Республики принимались специальные решения по аграрной реформе. Одно из решений было направлено на упразднение убыточных колхозов и совхозов и создание на их базе фермерских хозяйств, а второе – на приватизацию животноводства в убыточных колхозах, совхозах и создание личных (индивидуальных) форм хозяйств на их основе в теме.

SUMMARY

IMPLEMENTATION OF AGRARIAN REFORM UNDER THE LEADERSHIP OF HEYDAR ALIYEV

Huseynov Kh.

Key words: *Nakhichevan, economic crisis, private property, agrarian field, reform*

During the years of independence, great progress was made in the agriculture of the Nakhchivan Autonomous Republic. Agrarian reforms were carried out and people's standard of living increased significantly. When talking about reforms in the agricultural activity, it would be appropriate to metion that all these were directly prepared in the Nakhchivan Autonomous Republic and their initial implementation was carried out here.

Our national leader Heydar Aliyev took the first steps to implement agrarian reforms in this region while working as the Chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic. During that period, special decisions on agrarian reform were adopted in the session of the Supreme Assembly of the Autonomous Republic. One of the decisions was aimed at abolishing loss-making collective farms and state farms and creating private farms on their basis, and the second aimed at privatizing animal husbandry in profit-making collective farms, state farms and creating private (individual) farm forms based on it.

ÜMUMMİLLİ LİDER, DAHİ ŞƏXSİYYƏT

Hüseynov Məhəmməd Allahverdi oğlu
Mikayılova Fəridə Mürşüd qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ağcabədi filialı, Azərbaycan

Açar sözlər: *dahi şəxsiyyət, Ümummilli Lider, strategiya, azərbaycançılıq, məfkurə, milli şüur, postsovet*

Müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dövlətçiliyimiz tarixində özünəməxsus müstəsna yeri vardır. Müasir dövrdə nəinki Azərbaycanda, hətta bütün postsovet məkanında, eləcə də dünya miqyasında gedən prosesləri Heydər Əliyevin şəxsiyyətindən və fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyildi.

Müasir Azərbaycanda dövlət quruculuğunun, siyasi şuurun, siyasi həyatın böyük siyasət xadimi kimi tanınan və dərin zəkaya, geniş dünya görüşünə malik olan tarixi şəxsiyyətin–Heydər Əliyevin adı, əməli fəaliyyəti və reallaşdırdığı konkret işlərlə bağlıdır.

Heydər Əliyev zəmanəmizin böyük siyasi lideri və şəxsiyyəti idi. Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir.

Bu baxımdan Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsindən sonrakı dövr milli özünüdərkin, milli özünəqaydışın başlanğıcı kimi qəbul edilir.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında millətin özünütəsdiqi üçün çox vacib olan siyasət, onun hələ ötən əsrin 70-ci illərində başladığı siyasət uğurla həyata keçirildi–dilimizə tam dövlət dili statusu verilməsi və dövlət idarəçiliyinin bütün sahələrində fəal istifadə edilməsinin təmin olunması vəzifəsi gerçəklişdirildi. Azərbaycan dili cəmiyyətdə və həqiqi yerini tutdu. Bu isə yalnız və yalnız çox illik ardıcıl, ən başlıcası isə, ölçülüb-biçilmiş və dərindən düşünülmüş dövlət tədbirlərinin görülməsi nəticəsində mümkün olmuşdur. Azərbaycan SSR-nin 1978-ci il Konstutusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit olundu.

Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiramı nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan məşhur insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır.

Heydər Əliyev Azərbaycanın gələcəyini düşünərək, uzaqgörənliklə atdığı addımlardan biri də gənclərimizin gərəkli ixtisaslara yiyələnməsindən ötrü keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə təhsil alması üçün göndərilməsi idi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəkliyi kimi, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği də həyata keçirilirdi. Milli intibahi şərtləndirən amillərdən biri respublikada təhsilin inkişafına xüsusi diqqət yetirilməsi, gənclərimizin ana dilində təhsilə üstünlük verilməsi olmuşdur. Hələ sovet rejiminin mövcud olduğu bir zamanda Ulu Öndər milli hərbçi kadrların hazırlanmasına da xüsusi diqqət və qayğı göstərirdi. Mərkəzi hökumətin Azərbaycanda hərbiçi kadrların hazırlanmasına ehtiyac olmadığını əsaslandırmağa çalışmasına və ciddi etirzlarına baxmayaraq Heydər Əliyev qətiyyət nümayiş etdirərək Naxçıvanski adına Hərbi Liseyin açılmasına və fəaliyyət göstərməsinə nail oldu. Həmin dövrdə yetişdirilən hərbiçi kadrlar Azərbaycan müstəqillik əldə etdikdən sonra erməni işğalçılarına qarşı hərbi əməliyyatlarda fəal surətdə iştirak etmişdirlər.

Heydər Əliyevin gələcəyin müstəqil Azərbaycanını nəzərdə tutaraq, milli məfkurənin güclənməsi və xalqın milli dövlətçilik arzularının daha da artması üçün gördüyü işlərindən biri SSRİ-nin xarici siyasəti səviyyəsində də olsa, Azərbaycanın xarici aləmə, elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsi üçün gördüyü işlər idi. Bu məqsədlə respublikanın paytaxında Heydər Əliyevin təşəbbüsü ilə ittifaq və beynəlxalq əhəmiyyətli tədbirlər keçirilir, həmçinin müttəfiq respublikalarda, eləcə də xarici ölkələrdə Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi ki, bütün bunlar son nəticədə Azərbaycanın xarici ölkələrlə və orada yaşayan azərbaycanlılarla əlaqələrin qurulmasına zəmin yaradır, Bakının isə həmin dövrdə dünya miqyasında tanınan bir elm və mədəniyyət mərkəzinə çevrilməsini təmin edirdi.

Sonralar SSRİ rəhbərliyində təmsil olunduğu vaxtlarda Heydər Əliyev Azərbaycanı yüksəklərə qaldırmaqla,özü də dünyanın görkəmli siyasi və dövlət xadimlərindən birinə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyev tariximizin bu dövrünü belə şərh edirdi: "O illərdə Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya istiqamətini, milli özünüdərkin güclənməsinə imkan verən sürətli inkişaf strategiyası təşkil etmişdir" [1].

Xalqımızın təkidli tələbi ilə Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, iqtisadi, beynəlxalq əlaqələrdə dönüş yaranmış, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlamışdır. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində vahid komandanlığa tabe olan Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, ordunun silah-sursatla təmin edilməsi və nəticədə Füzuli rayonu istiqamətində bir sıra torpaqların düşməndən azad edilməsi, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salınmış, bununla da 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyətə malik atəşkəsə nail olmuşdur ki, bu da ordunun yenidən qurulması istiqamətində tədbirlərin həyata keçirilməsinə imkan yaratmışdır.

Heydər Əliyevin gərgin siyasi fəaliyyəti və həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizin artan nüfuzundan istifadə edərək 1994-cü ilin sentyabrında həm daxili həm də xarici siyasətdə son dərəcə mühüm rol oynayan və "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalanmışdır. Dünyanın güc mərkəzləri olan dövlətlər və onları təmsil edən, böyük maliyyə imkanlarına malik olan beynəlxalq şirkətlərlə müqavilənin imzalanamsı Azərbaycanın siyasi və sosial-iqtisadi baxımdan son dərəcə ağır bir dövrünə təsadüf ediridi. Sovet rejimi dağıldıqdan sonra keçmiş müttəfiq respublikalarla iqtisadi əlaqələr demək olar ki, kəsilmişdir. Kəskin maliyyə problemləri var idi. Müqvilənin bağlanmasına həm daxildən, həm də xaricdən maneələr mövcud idi. Neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və neft strategiyasının uğurla həyata keçirilməsinə başlanmışdı. Nəticədə Heydər Əliyev dünya siyasətində söz sahibi olan böyük dövlətlərin diqqətini Azərbaycana yönəldə bilmiş və ölkəmizə investitsiya qoyuluşu üçün münbit şərait yaratmışdır ki, bu da sosial-iqtisadi inkişafa müsbət təsir göstərmişdir.

Heydər Əliyevin rəhbərliyi altında aparılmış və son dərəcə gərgin fəaliyyət nəticəsində ölkəmizdə qan tökülmədən bəzi xarici havadarlarından dəstək alan separatçılıq və cinayətkarlıq meyllərinin qarşısı siyasi vasitələrdən istifadə edərək qətiyyətlə alınmışdır.

Ölkəmizdə siyasi və iqtisadi sabitlik təmin edildikdən sonra, müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət almışdır ki, bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitututsiyası təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçiliyin mökəmlənməsi və demoktarik prinsiplərin bərqarar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi Ümummilli Lider, dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır.

"Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqarar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrassiyası özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olmuşdur".[3].

"Heydər Əliyevin xarici siyasətinin əsasını sülh,beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir". [4].

Azərbaycanın Ümummilli Liderinin şəxsiyyəti, həyat yolu, dövləti və siyasi fəaliyyəti haqqında müxtəlif ölkələrdə, ayrı-ayrı dillərdə kitablar nəşr edilmişdir və edilir, məqalələr dərc olunur. Bunların bir çoxunda əsas diqqət onun tam siyasi portretinin yaradılmasına verilir. Heydər Əliyev dərin zəkalı ensiklopedik biliyə, son dərəcə geniş dünya görüşünə malik şəxsiyyət kimi səciyyələndirilir. Tamamilə haqlı olaraq vurğulanır ki, onun genişmiqyaslı fəaliyyətini təkcə siyasi mübarizə ilə məhdudlaşdırmaq olmaz. Onun başlıca keyfiyyəti quruculuq fəaliyyətidir. Heydər Əliyevin heyranedici uzaqgörənliyi, titanik fəaliyyəti sayəsində müasir müstəqil Azərbaycan dövləti yaradılmışdı. O ölkənin dövlət müstəqilliyinin sarsılmazlığını və dönməzliyini, Azərbaycanın siyasi, iqtisadi və mədəni inkişafını təmin etmişdi.

2003-cü ildən etibarən ölkəyə inamla rəhbərlik edən, Ulu Öndərin idarəçilik məktəbinin layiqli davamçısı, Heydər Əliyevin özü qədər inandığı və etimad göstərdiyi cənab İlham Əliyev Azərbaycanın Prezidenti kimi ölkəni irəliyə, intibaha doğru aparır.

Ədəbiyyat

1. Heydər Əliyev Müstəqillik yolu, Bakı, 1997.
2. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. 8-ci kitab, Bakı, 1998.
3. Xalqa bağışlanan ömür. II kitab, Bakı, 2009.
4. Müdriklik zirvəsi. Bakı, 2011.

РЕЗЮМЕ
ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР, ВЫДАЮЩАЯСЯ ЛИЧНОСТЬ
Гусейнов М.А., Микаилова Ф.М.

Ключевые слова: *гений, общенациональный лидер, стратегия, азербайджанство, идеология, национальное самосознание, постсоветское пространство.*

В статье широко овещается руководящая роль Общенационального лидера гениального Гейдара Алиева как в советский период, так и в годы независимости, перечисляются его исторические заслуги перед нашим народом, справедливо указано, что его масштабная деятельность в этой области в конечном итоге привел к высоким достижениям Азербайджана.

Успешная политика, проводимая Гейдаром Алиевым как во внутренней, так и во внешней политике, позволила Азербайджану занять достойное место в мировом сообществе. Все это нашло своё отражение в статье на основе конкретных фактов.

SUMMARY
NATIONAL LEADER, GENIUS PERSON
Huseynov M.A., Mikayilova F.M.

Keywords: *Genius, National Leader, strategy, Azerbaijaniism, ideology, national consciousness, post-Soviet*

In the article, the leadership of National Leader, Genius Heydar Aliyev, both in the Soviet period and in the years of independence, is widely discussed, his historical services to our people are listed, and it is rightly shown that his large-scale activities in this field ultimately led to Azerbaijan's high achievements.

The successful policy implemented by Heydar Aliyev, both in the field of domestic and foreign policy, has led Azerbaijan to occupy a worthy place on the world scale. All this is reflected in the article with concrete facts.

AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA İMİŞLİNİN YERİ VƏ ROLU

Hüseynov Novruz Həsən oğlu
İmişli Rayon Statistika İdarəsinin rəisi, İmişli şəhəri, Azərbaycan
novruz_huseynov_92@mail.ru

Açar sözlər: *İmişli, iqtisadi inkişaf, Dövlət Proqramı, əməkhaqqı, rayon büdcəsi.*

Ulu Öndər Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə ikinci dəfə gəlişindən sonra, onun uzaqgörən və düşünülmüş siyasi iradəsinin nəticəsi olaraq ölkədə hərc-mərcliyə son qoyuldu, bütün sahələrdə sabitlik təmin olundu, ölkənin beynəlxalq arenalarda nüfuzu artmağa başladı. Ulu öndərin rəhbərliyi dövründə bütün sahələri əhatə edən o cümlədən ölkənin gələcək inkişafına hesablanan iqtisadi, siyasi və sosial islahatlar nəticəsində bütün sahələrdə sürətli inkişafa nail olundu.

Qeyd olunan inkişaf bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xüsusi ilə bu inkişaf ölkənin regionlarında da özünü göstərir. Artıq demək olar ki, bütün regionlarda zavodlar, fabriklər, kənd təsərrüfatı müəssisələri və digər infrastruktur obyektlər fəaliyyət göstərir, bunun nəticəsində isə işsizlik səviyyəsi azalır. Regionların sosial-iqtisadi inkişafına təkan verən əsas amillərdən biri, Prezidentin fəaliyyətə başladığı ilk dövrdən bu məsələni diqqətdə saxlaması və regionların inkişafı ilə bağlı ardıcıl olaraq dövlət proqramlarını təsdiq etməsi olmuşdur. Həmin dövlət proqramlarında konkret olaraq məsələlər qoyulur və həll edilməsi dövrü göstərilir ki, bunun nəticəsində də müvafiq qurumlar özlərində məsuliyyət hiss edərək müəyyən olunmuş dövrə göstərilən məsələni həll etməyi özlərinə borc bilirlər. Regionların sosial iqtisadi inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları aşağıdakılardır:

1. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)” təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli Fərmanı; [1].
2. “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli Fərmanı; [2].
3. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli Fərmanı; [3].
4. “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı; [4].

Hazırda regionların sosial-iqisadi inkişafı ilə bağlı 2019-2023-cü illəri əhatə edən IV dövlət proqramı icra olunmaqdadır.

Regionların sosial-iqtisadi inkişafı proqramları İmişli rayonunda da uğurla icra olunur. Belə ki, ölkədə aparılan uğurlu sosial-iqtisadi siyasətin nəticəsi olaraq, digər regionlar kimi İmişlidə də yeni iş yerləri yaradılır, məktəblər, uşaq bağçaları, xəstəxanalar tikilir və ya təmir olunur, rayondaxili və kəndlər arası yollar çəkilir, əhalinin təbii qazla təchizatı yaxşılaşdırılır və digər əhalinin rahatlığına xidmət edən zəruri tədbirlər görülür.

İmişli rayonu ilk rayonlardan biridir ki, 2014-cü ildən başlayaraq dövlət büdcəsindən dotasiyalar almadan yerli büdcə hesabına rayonun xərcləri ödənilir. Ümumilikdə rayon büdcəsinin gəlir və xərclərinin təhlili göstərir ki, gəlirlər üzrə nəzərdə tutulan plan göstəricisi daxilolmalar hesabına artıqlaması ilə icra olunur. Eyni zamanda xərc istiqaməti üzrə plan göstəricisi də, xərclərin optimallaşdırılması və qənaətlə istifadə edilməsi nəticəsində nəzərdə tutulandan az istifadə olunur. Cədvəl-1-in məlumatlarına əsasən son 5 ilin gəlir və xərclərin təhlilindən aydın olur ki, rayon büdcəsində hər il xərc istiqaməti üzrə qənaətlər olunmuşdur. Son 2021-ci ilin yekun və 2022-ci ilin ilkin məlumatlarına əsasən bu qənaətlər əvvəlki illərə nisbətən xeyli artıq olmuşdur. Bu isə öz növbəsində xərc istiqamətində şəffaflığın və ünvanlılığın təmin edilməsinin göstəricisidir.

Cədvəl 1.

Rayon büdcəsinin gəlir və xərcləri

Göstəricinin adı	**2018**	**2019**	**2020**	**2021**	**2022 (ilkin)**
Rayon büdcəsinin gəlirləri, min manat	7103,5	8415,0	5931,2	6959,6	7854,2
Rayon büdcəsinin xəcləri, min manat	6587,9	7121,7	5002,9	5056,9	6496,0
Rayon büdcəsinin profisti	515,6	1293,3	928,3	1902,7	1358,2

Mənbə: *müəllif tərəfindən tərtib edilmişdir.*

Ölkədə mövcud əlverişli iqtisadi mühit regionlarda təsərrüfat subyektlərinin inkişafına, o cümlədən regionların sosial-iqtisadi göstəricilərinin yüksəlməsinə əsaslı zəmin yaratmışdır. İmişli rayonunda da sosial iqtisadi göstəricilərin artan templə inkişafı davam edir. Son illərin statistik göstəricilərinin təhlili göstərir ki, rayonda məhsulun ümumi buraxılışı, əsas sahələr üzrə məhsulların istehsalı, əsas sahələr üzrə xidmət istehsalı, pərakəndə ticarət dövriyyəsi və s. göstəricilər artan templə inkişaf edir. Bunu aşağıdakı 2 saylı cədvəldən daha aydın görmək olar.

Cədvəl 2.

Rayon üzrə məhsul buraxılışı və pərakəndə ticarət dövriyyəsi [5].

Göstəricilərin adı	**2018**	**2019**	**2020**	**2021**
Məhsulun ümumi buraxılışı, min manat	488647,7	624385,3	608517,6	722892,7
Əsas sahələr üzrə məhsulların istehsalı, min manat	402163,2	534694,6	521539,4	625009,1
Pərakəndə ticarət dövriyyəsi, min manat	233142,0	246592,0	254113,2	283515,4
Əsas sahələr üzrə xidmət istehsalı, min manat	86484,5	89690,6	86978,2	97883,6

Cədvəl 2-nin məlumatından göründüyü kimi 2018-ci illə müqayisədə 2021-ci ildə məhsulun ümumi buraxılışı 47% artaraq 722892,7 min manat, əsas sahələr üzrə məhsul istehsalı 55% artaraq 625009,1 min manat, pərakəndə ticarət dövriyyəsi 21% artaraq 283515,4 min manat və əsas sahələr üzrə xidmət istehsalı 13% artaraq 97883,6 min manat olmuşdur. Qeyd olunan iqtisadi inkişaf rayonda yeni iş yerlərinin yaradılmasına, bununla da rayon üzrə işsizlik probleminin həll olunmasına şərait yaradır. Ümumiyyətlə İmişli rayonu əsasən kənd təsərrüfatı rayonu olsa da hazırda sənaye sahəsi də rayonda sürətlə inkişaf etməkdədir. 3 saylı cədvəldə sənaye sahəsinin bəzi göstəricilərini nəzərdən keçirək.

Cədvəl 3.

Rayon üzrə sənaye sahəsinin bəzi göstəriciləri [5].

	2018	**2019**	**2020**	**2021**
Fəaliyyət göstərən sənaye müəssisələrinin sayı, vahid	36	38	40	42
Fərdi sahibkarların sayı, nəfər	160	194	211	228
Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, min manat	220713,5	352041,8	330615,7	373109,0
İşçilərin orta aylıq əməkhaqqı, manat	435,1	681,9	618,0	634,3

Cədvəl 3-dən göründüyü kimi fəaliyyət göstərən sənaye müəssisələrinin və fərdi şəkildə sənaye sahəsində fəaliyyət göstərən fiziki şəxslərin sayı əvvəlki ilə nisbətən artmaqda davam edir. Bundan başqa, 2018-ci illə müqayisədə 2021-ci ildə sənaye məhsulunun faktiki qiymətlərlə dəyəri 70%-ə qədər artaraq 373109,0 min manat, sənaye sahəsində orta aylıq əməkhaqqı 45,8% artaraq 634,3 manat olmuşdur. Qeyd etmək yerinə düşər ki, rayon üzrə orta aylıq nominal əməkhaqqıda yüksələn xətlə inkişaf edir. Aşağıdakı qrafikin 2018-2021-ci illər üzrə məlumatlarından göründüyü kimi, İmişli rayonu üzrə orta aylıq nominal əməkhaqqı 2018-ci illə müqayisədə 2021-ci ildə 55,9% artaraq 511,5 manat təşkil etmişdir.

Qrafik: *Rayon üzrə orta aylıq nominal əməkhaqqı*



Mənbə: *statistik göstəricilər əsasında müəllif tərəfindən tərtib edilib.*

Beləliklə İmişli rayonu hazırda Mil-Muğan iqtisadi rayonuna daxil olan rayonlar arasında bir çox göstəricilər o cümlədən orta aylıq nominal əməkhaqqı üzrə də liderlik edir. Bu isə rayonun düzgün inkişaf yolunu tutmasından və resurslardan səmərəli istifadə edilməsindən irəli gəlir.

Rayonun təhsil göstəriciləri də yetəri qədər yüksəkdir. Belə ki, hər il müxtəlif ali təhsil müəssisələrinə qəbul olan tələbələrin sayı bunu deməyə əsas verir. 2021-ci ildə rayon üzrə ali təhsil müəssisələrinə qəbul olunanların sayı 279 nəfər təşkil edir ki, bu da Mil-Muğan iqtisadi rayonuna daxil olan digər rayonlardan çoxdur. Xüsusi ilə qeyd etmək yerinə düşər ki, Mil-Muğan iqtisadi rayonunun da ali təhsil müəssisəsinin yaradılması və inkişaf etdirilməsi regionun sosial-iqtisadi inkişafında mühüm rol oynamaqla yanaşı, eyni zamanda əhalinin məşğulluq probleminin həllinə və təhsil səviyyəsinin daha da yüksəlməsinə müsbət təsir edər.

Beləliklə ölkənin regionlarında və bütövlükdə ölkədə gedən sürətli sosial-iqtisadi inkişaf əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, gəlirlərinin artmasına, məşğulluğunun təmin edilməsinə, asudə vaxtının səmərəli təşkil edilməsinə xidmət edir ki, bu da ölkənin daxili və xarici siyasətində vətəndaş amilinin əsas faktor olduğunu göstərir.

Ədəbiyyat

1.“Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)” təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli Fərmanı;
2. “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli Fərmanı;
3. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli Fərmanı;
4. “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı;
5. www.stat.gov.az

РЕЗЮМЕ

МЕСТО И РОЛЬ ИМИШЛИ В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ АЗЕРБАЙДЖАНА

Гусейнов Н.Г.

Ключевые слова: *Имишли, экономическое развитие, государственная программа*

Стремительное социально-экономическое развитие Азербайджана является результатом продуманной и целенаправленной политики. Основу этой политики заложил Великий лидер Гейдар Алиев. Этот политический курс в настоящее время успешно проводит Президент Ильхам Алиев. Все регионы страны, даже отдаленные села, сегодня переживают бурное социально-экономическое развитие. Одним из развивающихся регионов страны является Имишли. Имишли получил статус города в 1960 году. В Имишли быстро развиваются все отрасли экономики, сельское хозяйство, промышленность и другие сферы.

SUMMARY

THE PLACE AND THE ROLE IMISHLI'S IN SOCIO-ECONOMIC DEVELOPMENT OF AZERBAIJAN

Huseynov N.H.

Key words: *Imishli, economic development, State program, wages, district budget.*

The rapid socio-economic development of Azerbaijan is the result of a deliberate and purposeful policy. The foundation of this policy was laid by the Great Leader Heydar Aliyev. That political course is currently being successfully pursued by the country's president, Ilham Aliyev. All regions of the country, even remote villages, are experiencing rapid social and economic development today. One of the developing regions of the country is Imishli. Imishli was granted city status in 1960. All economic fields, agriculture, industry and other fields are developing rapidly in Imishli.

SUMQAYIT ƏHALİSİNİN SOSİAL VƏZİYYƏTİ
(XX əsrin 80-ci illərin sonu-90-cı illərin əvvəlləri)

İbrahimli M.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

Açar sözlər: *Sumqayıt, sosial problemlər, mənzil problemi, həyat səviyyəsi, maddi rifah, xidmət sahələri*

Giriş. Sumqayıt şəhəri XX əsrin 40-cı illərinin sonlarında sovet rejimi dövründə yaradılan sənaye şəhərlərində biridir. Ancaq digər sənaye şəhərlərindən kəskin şəkildə fərqli xüsusiyyətlərə malik olmuşdur. Kiçik bir ərazidə normadan dəfələrlə artıq kimya sənayesinin- xüsusilə də insan sağlamlığı üşün son dərəcə zərərli istehsalatların cəmlənməsi ekoloji problemlərin kəskin şəkildə ağırlaşmasına səbəb olmuşdur. Sovet rejimi dövründə kimya sənayesi üzrə bir sıra istehsalat sahələrinin ilkin sınağı Sumqayıtda keçirildikdən sonra İttifaqın digər ərazilərində tətbiq edilmişdir. İttifaq hökumətinin əsas məqsədi daha çox gəlir götürməkdən ibarət olmuşdur. Bu müddət ərzində əhalinin maddi rifah məsələləri arxa planda olmuşdur. Sovet rejimi dövründə yaradılan Sumqaytın sənayesi Azərbaycan xalqının deyil, keçmiş ittifaqın maraqlarına uyğun olaraq qurulmuşdur. Bunun nəticəsi olaraq Sumqayıt sənayesi əhalinin maddi rifahının yüksəldilməsi və sosial problemlərinin həll edilməsində mühüm rol oynaya bilmədi. Sovet rejimi dövründə problemin obyektiv şəkildə araşdırılması mümkün deyildi. Bu baxımdan müstəqillik əldə edildikdən sonra sovet rejiminin son və müstəqilliyin ilk illərində Sumqayıt əhalisinin sosial problemlərinin araşdırılması üçün imkan yaranmışdır. Ona görə müasir dövrdə problemin tarixi baxımdan tədqiqi aktualdır. Problemin araşdırılmasında əsas məqsəd sovet rejiminin Azərbaycana qarşı yeritdiyi müstəmləkəçilik siyasətinin mahiyyətini açmaq və bununla yanaşı Sumqayıt əhalisinin real sosial vəziyyətini tarixi müqayisə metodundan istifadə edərək tədqiqata cəlb etmək vəzifə olaraq qarşıya qoyulmuşdur.

Sumqayıt şəhərinin sənayesi. Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafında ən ziddəyyətli, problemli və əslində tənəzzül dövrü kimi xarakterizə edilməsi daha obyektiv görünən dövr kimi -1986-1993-cü illər bu şəhərin sosial-iqtisadi tarixində ən ağrılı və acılı bir dövr kimi qiymətləndirilə bilər/ [1]

Sovet rejminin maraqlarına uyğun olaraq uzun illər müəssisələrimiz xammal və yarımfabrikatlar istehsalı üzrə ixtisaslaşıb. Təkcə onu qeyd etmək kifayətdir ki, bir milyard manatdan çox sənaye məhsulu istehsalından əldə ounan gəlirin miqdarı buraxılan məhsulun dəyərinin 10 faizindən də az idi. Müəssisələrimizin bəzisi mənfəətlə işləmirdi. Elə ona görə də bazar iqtisadiyyatı vəziyyəti normallaşdırmağın real vasitəsi idi. [2]

1990-cı illərin əvvəllərində bir sıra iri sənaye kompleksləri və sahələri dayanmış, digər sahələrdə isə istehsal gücləri 20-30 faiz səviyyəsində olmuşdu. Nəticədə Sumqayıt iqtisadi rayonunun iqtisadi potensialı qat-qat zəifləmiş, minlərlə iş yerləri itirilmişdir. [3]

Sovet rejiminin dağılmasından sonra Azərbaycanda bütün resruslardan, o cümlədən əmək ehtiyatlarından səmərəli istifadəni təmin etmklə, iqtisadi cəhətdən güclü və yüksək sosial standartlara malik cəmiyyətin qurulması əsas məqsəd olaraq müəyyən edilmişdir. [4]

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra 1990-cı illərin ortalarından başlayaraq Azərbaycanda kimya sənayesinin işinin sabitləşməsi, müəssisələrdə istehsal olunan məhsulların

əksəriyyətinin bazar rəqabəti ilə uzlaşması, tarixi obyektivlik baxımından 1970-1980-ci illərdə olduğu kimi yenə də ümummilli liderimimiz Heydər Əliyevin bu sahəyə olan qayğısının nəticəsi kimi qiymətləndirilməlidir. [5]

Mənzil problemi. Uzun müddət Sumqayıtın sənaye kompleksinin inkişafı birtərəfli, sosial sahənin ehtiyaclarından təcrid edilmiş şəkildə aparılmışdır. Son illər sosial sahənin əsasını təşkil edən mənzil məsələsinə baxış kökündən dəyişilmişdir. Görülən konkret tədbirlər nəticəsində müəyyən naliyyətlərimiz olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, cari beşilliyin ilk üç ilində 7 min ailənin mənzil şəraiti yaxşılaşdırılmışdısa, 1989-cu ildə 129,5 min kvadratmetr mənzil sahəsi tikilmiş və dörd min ailənin mənzilə olan ehtiyacı ödənilmişdir. [2]

Həqiqətən də Sovet rejiminin mövcudluğu dövründə əhalinin mənzillə təmin edilməsi dövlətin nəzarətində olmuşdur. İşçi qüvvəsinin mənzillə təmin edilməsi istiqamətində tədbirlər həyata keçirilirdi. Ancaq rejmin ümumxalq mülkiyyəti adı altında yeritdiyi siyasətin nəticəsi olaraq xüsusi mülkiyyətə qarşı münasibət bəlli idi. Ona görə də dövlət tərəfindən işçi qüvvəsinin mənzillə təmin edilməsinə baxmayaraq verilən mənzillərin xüsusi mülkiyyət olaraq sahibi deyildilər və onlardan ancaq istfadə hüquqları var idi.

Əhalinin həyat səviyyəsi və xidmət. Sosial problemlərdən biri də əhalinin həyat səviyyəsinin yüksəldilməsi məsələsi idi. XX əsrin 80-ci illərinin sonlarında əhalinin həyat səviyyəsini yüksəltmək, onların pullu xidmətlərə olan tələbatını daha dölğun ödəmək, göstərilən xidmətin keyfiyyətini daima yaxşılaşdırmaq qarşıda duran vəzifələrdən idi. Bəhs edilən dövrdə şəhərin əksəriyyət müəssisə, təşkilat və idarələrində əhaliyə göstərilən pullu xidmətin həcmi və xidmət növləri xeyli artmışdır.

Gələckdə analara sosial qayğını daha da artırmaq məqsədilə həmkarlar ittifaqı təşkilatlarında uşaqlı ailələrə dövlət yardımını gücləndirmək üçün güniş fəaliyyət proqramı hazırlanmışdır. [7]

1991-ci ildə (müstəqilliyiə qədər) şəhərin müəssisə, təşkilat və idarələrində əhaliyə göstərilən pullu xidmətin həcmi faktiki qiymətlərlə 38,4 mln. manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 8.0 mln. manat və 26.3 faiz artıqdır. Ümumi pullu xidmətin 12,7 mln. manatını və ya 30 faizini məişət xidməti təşkil edir. Həmin dövrdə əhaliyə göstərilən məişət xidmətinin həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,9 mln. manat və 29,2 faiz artmışdır. [8] Yuxarıda qeyd edilən rəqəmlərdən ilk baxışda belə bir qənaətə gəlmək olar ki, müstəqilliyin ərəfəsində sovet rejimi tərəfindən əhaliyə göstərilən pullu xidmət həcminin artım sürətinin belə yüksək olmasının maddi rifah halının yüksəlməsindən irəli gəlir. Ancaq əslində bu belə deyildi. Rəqəmlərin yüksək olmasının əsas səbəbi xidmət tariflərinin və qiymətlərin kəskin şəkildə artmasından irəli gəlirdi.

1993-cü ilin məlumatına əsasən Sumqayıt şəhərinin müəssisə, təşkilat və idarələrində əhaliyə göstərilən xidmətin həcmi faktiki qiymətlərlə 577,7 mln. manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 7,4 dəfə və ya 700 mln. manat artıqdır. Ümumi pullu xidmətin 128,1 mln. manatı və ya 22,2 faizini məişət xidmətləri təşkil etmişdir. Bu göstərici əvvəlki ilin eyni dövrü ilə müqayisədə 112 mln. manat və ya 8,4 dəfə artmışdır... Xalq istehlakı mallarını və istehsal-texniki təyinatlı məhsulların satışından 139 mln. manat gəlir əldə edilmişdir. Bu əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7 dəfədən çoxdur. [6] Müqayisə üçün qeyd etmək lazımdır ki, sovet rejiminin sonlarından Sumqayıt şəhər sənayesində yaranmış böhranın müstəqilliyin ilk illərində daha da dərinləşməsinə baxmayaraq insan sağlamlığı üçün təhlükəli olan bir sıra istehsal sahələrinin milli maraqlara uyğun olaraq bağlanmasına qərar verilmişdir. Görülən tədbirlərin nəticəsi olaraq 1993-cü ildən Sumqayıtda sənaye tədricən inkişaf etməyə başlamışdır.

Ekoloji problem. Sumqayıt əhalisinin maddi rifah halının yüksəldilməsindən də vacib olan ən mühüm amillərdən biri zərərli zavodlarla zəngin olan şəhərin ekoloji problemlərinin həll edilməsi idi. Sivilizasiyanın canlı həyata gətirdiyi fəlakətlər içərisində biosferin fasliləsiz olaraq tənəzzülə uğraması, ətraf mühütün kimyəvi zəhərli maddələrlə süni zənginləşdirilməsi ekoloji problemlərin həllinə olan diqqəti daha da artırmağı tələb edirdi. [9]

Sənayedə şəhər üzrə havanı çirkləndirən mənbələrin qaztəmizləyici qurğularla təchizi məsələləri yarıtmaz halda idi. 2477 ədəd mənbədən yarısından bir az çoxu qaztəmizləyici qurğularla təchiz olunmamışdır. [10]

Nəticə. İndiyə qədər Sumqayıt əhalisinin sosial vəziyyəti (XX əsrin 80-ci illərin sonu-90-cı illərin əvvəlləri) probleminin ayrı-ayrı məqamları araşdırılsa da kompleks olaraq araşdırılmamaışdır. Sovet rejimi dövründə Sumqayıtda inkişaf kimi təqdim edilən sənaye sahələrinin bir qismi insan sağlamlığı üçün son dərəcə təhlükəli olmuş və bəzi xəstəliklərin baş verməsi, uşaq ölümü və digər problemlərin artmasına səbəb olmuşdur;

-müstəqillik əldə edildikdən sonra Sumqayıtda insan sağlamlığı üçün zərərli olan bir sıra istehsalatların bağlanması ekoloji problemlərin həllinə müsbət təsir göstərmişdir;

-sosial problemlə bağlı sovet dövrünün statistikasında verilən məlumatların əksəriyyəti ideologiyaya xidmət etdiyi üçün tam olaraq reallığı əks etdirmirdi;

-təşkilat və müəssisələrdə işləyən əhalinin mənzillə təmin edilməsində bəzi müsbət məqamlar vardır. Ancaq həmin mənzillər dövlət mülkiyyəti olaraq qalırdı. Əhalinin xüsusi mülikiyyətinə verilmirdi.

Ədəbiyyat

1. Əliyev Ş. (2019). Azərbaycanın sosial-iqtiasi inkişafında Sumqayıt şəhərinin strateji əhəmiyyəti.- Sumqayıt: Azəri nəşriyyatı, 367 s.
2. Əbdülhəsənov T. (1991). Bazar iqtisadiyyatı, ekoloji gərginlik və çıxış yolları. Sumqayıt,12 yanvar, s.2
3. Əliyev, Ş. (2008a) Sumqayıt şəhərində sənaye kompleksinin potensialından səmərəli istifadə edilməsi perspektivləri. Bakı, Azərbaycan Milli Elmlər Akademiyası Məruzələr, 5, s.119-127
4. Əliyev Ş. (2007). Sumqayıt şəhərində mövcud əmək ehtiyatları və işlə təminolunma istiqamətləri / "Bazar iqtisadiyyəti şəraitində Sumqayıt şəhərinin inkişafı: problemlər və perspektivlər" elmi-praktik konfransının materialları, SDU, Sumqayıt, s.91
5. Əliyev Ş. (2008 b). Sumqayıt şəhərində mövcud əmək ehtiyatlarından və sənaye kompleksinin potensialından effektli istifadə məsələləri. Maliyyə və uçot jurnalı, 5, (189), s.27-33.
6. Şəhər statistika idarəsinin məlumatı. (1993). Doqquz ayın yekunları. Sumqayıt, 25 noyabr, s.3
7. Abdulov C. (1989). Analara güzəştlər. Sumqayıt,12 noyabr. s.2
8. Sumqayıt şəhər statistika idarəsi. (1992).1991-ci ildə Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafı haqqında məlumat. Sumqayıt, 18 fevral, s.3
9. Salahov M. (1993). Dioksin təşvişi, yoxsa həqiqət. Sumqayıt, 1 aprel. s.2
10. Eminbəyli R. (1989). Şəhərin ekoloji vəziyyətini yaxşılaşdırmalı. Sumqayıt, 7 may, s.1

РЕЗЮМЕ
СОЦИАЛЬНОЕ ПОЛОЖЕНИЕ НАСЕЛЕНИЯ СУМГАИТА
(Конец 80-х-начало 90-х годов XX века)
Ибрагимли М.

Ключевые слова: *Сумгаит, социальные проблемы, жилищная проблема, уровень жизни, материальное благополучие, сферы обслуживания.*

Сумгаит, один из промышленных городов, основанных в конце 40-х годов XX века при советской власти, имеет характеристики, резко отличающие его от других промышленных городов, а именно концентрацию во много раз большей, чем обычно, промышленности на небольшой территории, в частности производств, крайне вредных для здоровья человека. В статье указаны причины резкого обострения экологических проблем, актуальность исследования с научной точки зрения, характер социальных проблем в Сумгаите советской власти и первые годы независимости и меры, предпринятые для их решения. В результате исследования был сделан вывод о том, что при советской власти некоторые производствнные предприятия в Сумгаите стали крайне опасными для здоровья человека, социальные проблемы не решались, статистика была далека от реальности, поскольку служила идеологии. Национальные интересы в сумгаитской промышленности после обретения независимости основаны на закрытии производств, вредных для здоровья человека. Были приняты положительные решения с экологической точки зрения. В период советской власти интересы союза брались за основу в социально-экономической политике, а в период независимости обеспечивались национально-государственные интересы Азербайджана.

SUMMARY
SOCIAL STATUS OF SUMGAYIT POPULATION
(Late 80s-early 90s of the XX century)
Ibragimli M.

Key words: *Sumgayit, social problems, housing problem, standard of living, material well-being, service areas*

In the presented thesis, Sumgayit, one of the industrial cities created in the late 40s of the XX century during the Soviet regime, has characteristics that are sharply different from other industrial cities, the concentration of many times more than normal industry in a small area - especially productions that are extremely harmful to human health. The reasons for the sharp aggravation of environmental problems, the relevance of research from a scientific point of view during the investigation of the problem, the nature and solutions of social problems in Sumgait at the end of the Soviet regime and the first years of independence, and the colonial policy implemented by the Soviet regime were investigated. As a result of the research, it was concluded that during the Soviet regime, some of the industrial areas in Sumgait were extremely dangerous for human health, social problems were not solved, and the statistics of the Soviet era were far from reality because they served the ideology. After gaining independence, the closure of industries harmful to human health based on national interests in the Sumgayit industry was a positive decision from an environmental point of view. During the Soviet regime, it was mentioned that the interests of the union were taken as the basis in the socio-economic policy, and in the period of independence, the national and state interests of Azerbaijan were ensured.

MÜSTƏQİLLİK VƏ PREZİDENT İLHAM ƏLİYEV DÖVRÜNDƏ AZƏRBAYCANDA SOSİAL-İQTİSADİ İNKİŞAF

İsayev Əmirxan İsmayıl oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

Açar sözlər: *dövlət proqramları, qeyri-neft sektoru, inkişaf, rəqabətqabiliyyətli, turizm, kənd təsərrüfatı*

2003-cü il prezident seçkilərindən sonra Prezident İlham Əliyevin müdrik, düşünülmüş, uzaqgörən və zamanla sınaqdan keçirilmiş siyasəti nəticəsində ölkəmiz həm forma, həm də məzmun baxımından yeni inkişaf mərhələsinə qədəm qoydu. Yeni mərhələ iqtisadi, siyasi, diplomatik və mənəvi cəhətləri ilə diqqəti cəlb edir. Prezident İ. Əliyevin ölkə iqtisadiyyatı ilə yanaşı, sosial sferanın da inkişafını sürətləndirilməsi ilə əlaqədar bir sıra tədbirlərin həyata keçirilməsi bu baxımdan çox vacib bir hadisə olması ilə yanaşı, ölkəmiz bir çox uğura imza atdı və sosial-iqtisadi inkişaf yolunda önəmli nəticələr əldə etməyə nail oldu [3, s.28].

Ölkə iqtisadiyyatının sabitlisini və davamlılığını təmin etmək üçün onda əhəmiyyətli kəmiyyət və keyfiyyət dəyişiklikləri etmək lazımdır. Dövlət bu siyasəti həyata keçirmək üçün məqsədyönlü stimullaşdırıcı tədbirlərindən istifadə edir. Məhz belə tədbirlərdən biri olan dövlətin sənaye siyasətinin əsas məqsədi ölkədə iqtisadi artımın və əhalinin yaşayış səviyyəsinin artırılmasına yönələn tədbirlər kompleksidir.

Prezident İ. Əliyevin 29 dekabr 2012-ci il tarixində təsdiqlədiyi "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasıda məhz ixrac yönümlü iqtisadi modelə əsaslanır və ölkədə iqtisadiyyatın inkişafını sürətləndirmək məqsədilə əsas vəzifələr qarşıya qoyulur. Bu vəzifələrə qeyri-neft sektorunun yüksək inkişaf dinamikasının neft gəlirlərindən asılı olmadan gələcək illərdə də qoruyub saxlamaq, iqtisadiyyatın diversifikasiya sürətini artırmaq və ölkənin ixrac potensialının çoxaldılması prosesi daxildir [2, s.1].

Azərbaycan regionlarının həm iqtisadi, həm də sosial inkişafının yeni mərhələsində regionların inkişafını özündə əks etdirən dövlət programlarının işlənib hazırlanmasının və tətbiq olunmasının rolu danılmazdır. Ölkə prezidenti İ.Əliyev tərəfindən təsdiq edilmiş 2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə "Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" aqrar sektor, yüngül sənaye, kimya sənayesi, qara və əlvan metallurgiya, tikinti materialları istehsalı, dərman bitkilərinin tədarükü, tütünçülük və turizm sənayesinin inkişaf etdirilməsini hədəfə almışdır və bu istiqamətdə bir çox işlər görülmüş yeni layihələr işlənib hazırlanmışdır.

Bölgələrin ilk sosial-iqtisadi inkişaf proqramı 2004-2008-ci illəri əhatə edir. 24 noyabr 2003-cü il tarixində ölkə prezidenti İ. Əliyev cənablarının imzaladığı fərmana əsasən dövlət proqramının ərsəyə gəlməsi üçün əmr verilmişdir. 11 ferval tarixindən etibarən 2004-2008-ci illər olmaqla Azərbaycanda iqtisadi regionların sosial-iqtisadi inkişafı yüksəldilməsi istiqaməti ilə əlaqədar fərman imzalandı. Bu illər ərzində imzalanmış fermana əsasən qəbul edilmiş Dövlət Proqramı regionlarda sosial infrastrukturun və ümumilikdə bölgələrin hərtərəfli inkişafında əsas hüquqi baza rolu oynayırdı və rayonların iqtisadi dirçəlişi üçün önəmli fərman idi [1, s.9].

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2009-2013-cü illər)" əsas hədəf olaraq, ölkədə qeyri-neft sənayesinin dinamik inkişafını, iqtisadiyyatın diversifikasiyasını (şaxələndirmə), regionların və iqtisadi-sosial mühitin daimi inkişafı, vətəndaşların həyat səviyyəsinin daha da yüksəldilməsini qarşıya qoymuşdur. Bu hədəflərə çatmaq məqsədilə respublikanın təbii və əmək resurslarından istifadə etməklə qeyri-neft sənayesinin dayanıqlı və sürətli inkişafını təmin edilməsi, infrastrukturun müasirləşdirilməsi istiqamətində yeni işlər görülməsi, sahibkarlıq mühitinin yaxşılaşdırılması və regional tədbirlərin həyata keçirilməsi, yoxsulluğun azaldılması, insanların məşğulluq səviyyəsinin yüksəldilməsi üçün müvafiq tədbirlərin görülməsi, sərmayələrin cəlb olunması yönündə işlərin görülməsi və bu yolla milli iqtisadiyyatın inkişaf etdirilməsi ixracyönümlü əmtəələrin istehsalının genişləndirilməsi və dəstəklənməsi, müasir infrastruktura malik obyektlərin yaradılması nəzərdə tutulmuşdur [4, s.3].

Məhz 2009-2013-cü illər ərzində Azərbaycanda regionların iqtisadi-sosial inkişafını nəzərdə tutan bu proqramda da bu məsələ ön planda olmuşdur. Belə ki, sənaye sektorunda qeyd olunan məqsədlərə çatmaq üçün bir sıra tədbirlər görülür. Qeyri-neft sənayesinin inkişaf vektorlarının müəyyən edilməsi, rəqabətqabiliyyətli sənaye əmtəələrin istehsalına dövlət dəstəyinin göstərilməsi, xaricə ixracla bağlı istehsal növlərinin artırılması, dövlətə məxsus, yaxud səhmlərinin 50%-dən çoxu dövlətdə olan sənaye müəssisələri əhəmiyyətli dərəcədə yenilənmiş, bir çoxu özəlləşdirilmiş, bu müəssisələrin fəaliyyətinə kompleks dəstək

göstərilmiş, istehsal sahələrində yeni texnoloji yeniliklər tətbiq edilməyə başlanılmış və bu sahədə mütəxəssis kadr hazırlığına xüsusi diqqət yetirilmişdir [5].

Hər iki Dövlət Proqramının icrası çərçivəsində, ölkənin bütün iqtisadi rayonlarına daxil olan şəhər və rayonların sosial inkişafı ilə yanaşı, iqtisadi inkişafla bağlı daha 240 qərar imzalanmışdır.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" 2004-cü ildən başlayaraq məqsədyönlü şəkildə reallaşdırılan dövlət siyasətinin tərkib hissəsi kimi işlənib hazırlanmışdır. Proqram milli iqtisadiyyatın inkişafında önəmli rola sahibdir [6].

Kənd təsərrüfatı sektoru hər zaman dövlətin diqqət mərkəzində olub və qeyri-neft sektorunun ən böyük dövlət dəstəyi görən, islahatların aparıldığı sahəsidir deyə bilərik. Artıq, bu tendensiya müstəqillik illərindən başlayaraq müasir dövrdə də İ.Əliyev tərəfindən uğurla davam etdirilir. Aqrar sektorda qəbul olunan dövlət proqramlarının məqsədi bu sahəni daha da inkişaf etdirmək və yoxsulluğu aradan qaldırmaqdır. Bu baxımdan 2003-cü il noyabrın 24-də "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" imzalanan sərəncamda Azərbaycanda kənd təsərrüfatının inkişafına nail olmaq və onu rəqabətə davamlı bir sektora çevirmək strateji hədəf olaraq qarşıya qoyulmuşdur.

Respublikamızın regionlarında kənd təsərrüfatının inkişafı və infrastrukturun qurulması istiqamətində məqsədyönlü islahatların reallaşdırılması daima dövlətin diqqət mərkəzindədir. Bu islahatların məqsədi əhalinin ərzaq ehtiyyaclarını ölkənin öz mövcud imkanları hesabına ödəməkdir. Ölkə prezidenti İ.Əliyevin 2004-2008-ci, 2009-2013-cü və 2014-2018-ci illərdə qəbul etdiyi dövlət proqramları eyni zamanda regionların, kənd yerlərinin və kəndli təsərrüftlarının iqtisadi-sosial inkişafını nəzərdə tuturdu [7].

Aydındır ki, ölkəmizin turizm potensialı genişdir. Bölgələrin sosial-iqtisadi inkişafı dövlət proqramlarında da turizmin inkişaf istiqamətləri öz əksini tapmışdır. Turizmi inkişaf etdirməklə ölkəmizin iqtisadi-sosial inkişafına böyük töhfə vermək olar.

Prezident İlham Əliyevin 2003-cü il tarixli "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair sürətli tədbirlər haqqında" və 2004-cü ildə "Azərbaycan Respublikasının regional sosial- iqtisadi inkişafı Dövlət Proqramına dair" Fərmanları turizmin inkişafını sürətləndirdi.

İ.Əliyevin ölkəmizdə rəhbərliyi illəri ərzində bütövlükdə Azərbaycanda və regionlarda sosial və iqtisadi, idarəçilik, dövlət quruculuğu və beynəlxalq sferada fəaliyyəti sayəsində əldə olunan uğurlu nəticələr onun uzaqgörənliyini, iqtisadi və sosial prioritetləri vaxtında və dəqiq müəyyən etməyi bilən bir lider olduğunu bir daha sübut etdi.

Ədəbiyyat

1. Azərbaycanın regionları. Bakı, "DSK", 2008, 712 s., s.9
2. Bayramov Ə., Prezident İlham Əliyev: Əsas məqsədimiz Azərbaycanı güclü sənaye ölkəsinə çevirmək üçün bütün imkanlardan istifadə etməkdir, "Xalq" qəz., 27 iyul 2014, s.1
3. Mirzəzadə A.B., Azərbaycan, zaman, inkişaf, Bakı: Azərbaycan, 2008, 608 s.
4. İsa A., Aqil Ə., 2009-2013-cü illər regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı ölkənin davamlı inkişafını təmin edəcəkdir, "Xalq" qəz., 21 aprel 2009, s.3
5. https://e-qanun.az/framework/16721
6. https://e-qanun.az/framework/27284
7. https://republic.preslib.az/az_c3.html

РЕЗЮМЕ

СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНА В ПЕРИОД НЕЗАВИСИМОСТИ И ПРЕЗИДЕНТСТВА И.АЛИЕВА

Исаев А.И.

Ключевые слова: *государственные программы, ненефтяной сектор, развитие, конкурентоспособность, туризм, сельское хозяйство*

Развитие нефтяной промышленности как с отечественными, так и с иностранными инвестициями в нашей стране, обретшей независимость, создало условия для роста веса этой отрасли в экономике и развития ненефтяного сектора. В статье говорится, что Президент И.Алиев постоянно уделяет внимание ненефтяному сектору, подчеркивается важность оказания государственной поддержки стратегии развития сельского хозяйства и туризма в Азербайджанской Республике в последние годы, производства конкурентоспособных промышленных товаров, роль государственных программ социально-экономического развития регионов в развитии страны, а также разъясняется ее социально-экономическое значение.

SUMMARY

SOCIO-ECONOMIC DEVELOPMENT OF AZERBAIJAN IN THE PERIOD OF INDEPENDENCE AND THE PRESIDENCY OF I.ALIYEV

Isayev.A.I.

Keywords: *government programs, non-oil sector, development, competitiveness, tourism, agriculture*

The development of the oil industry with both domestic and foreign investments in our country, which gained independence, created conditions for the growth of the weight of this field in the economy and the development of the non-oil sector. For this reason, it is emphasized that President I. Aliyev constantly focuses on the non-oil sector, and at the same time, the importance of providing state support to the development strategy of agriculture and tourism in the Republic of Azerbaijan in recent years, the production of competitive industrial goods, as well as the important role of the State Programs for the Socio-Economic Development of Regions in the country's development. explains its role and shows its socio-economic importance.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİK KONSEPSİYASI

Qasımova Samirə Əliağa qızı,
Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azərbaycan, dosent
samira.qasimova82@mail.ru

***Açar sözlər**: Azərbaycan, müstəqillik, ümummilli lider, müdrik siyasətçi, qurtuluş, dövlət siyasəti, sosial-iqtisadi yüksəliş.*

Məlumdur ki, müstəqillik, azadlıq dünya xalqları üçün hər zaman mühüm əhəmiyyət kəsb edib və bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir desək yanılmarıq. Təəssüf hissi ilə qeyd etməliyik ki, tarixən Azərbaycan xalqının müstəqil dövlət quruculuğu yolu heç də hamar olmamışdır. Belə ki, bu yolda xalqımız illərlə mübarizə aparmış, minlərlə şəhid vermişdir. Hələ XX əsrin əvvəllərində müstəqilliyin sevincini, azadlığın dadını ilk dəfə yaşamış xalqımız onu 23 ay sonra itirmək məcburiyyətində qaldı.

Əsrin sonlarına doğru Azərbaycanın siyasi tarixində yenidən mühüm hadisə baş verdi. 1991-ci il sovet imperiyasının çökməsi nəticəsində Azərbaycan müstəqilliyə qovuşdu, həmin il 30 avqustda Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul edildi. Həmin ilin oktyabr ayının 18-də isə Ali Sovet "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi.

Ancaq o vaxt ölkədə gedən proseslər və mövcud olan ağır vəziyyət müstəqilliyimizi sual altına qoymuşdu. Ölkədə xaos, anarxiya, kütləvi itaətsizlik hökm sürürdü. İqtisadi və siyasi tənəzzül faktiki olaraq ölkəmizi uçuruma aparırdı. Bundan əlavə, Ermənistanın Azərbaycana qarşı təcavüzü və təcavüz nəticəsində torpaqlarımızın işğal altına düşməsi, daxili çəkişmələr, qarşıdurmalar və vətəndaş müharibəsinin başlanması – bütün bunlar müstəqilliyimizin ilk illərinin hadisələri idi [14].

Belə bir çətin vaxtda, Azərbaycan xalqı 1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə xalq ümummilli lider Heydər Əliyevin namizədliyini yekdilliklə irəli sürməklə muxtar respublikanın, ümumilikdə isə Azərbaycanın qurtuluşunu məhz onun yenidən siyasi hakimiyyətə qayıdışında görürdü. 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyası deputatların istəyi və böyük təkidi nəticəsində ümummilli lider Heydər Əliyevin sədrliyi ilə öz işinə başladı. Sessiyada gündəliyə çıxarılan məsələlər və qəbul edilən tarixi qərarlar, ümumilikdə, Azərbaycanın müstəqilliyinə və suverenliyinə hesablanmışdı. Azərbaycan Prezidenti, Cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həmin dövrdə qəbul etdiyi qərarların tarixi əhəmiyyətindən danışarkən qeyd etmişdi: "O illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdir. O vaxt Naxçıvanın adı dəyişdirildi. Ulu öndərin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq 1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi qəbul edildi və Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etsin [5, s.148].

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra sessiyadakı ilk çıxışında Ulu öndər öz taleyini xalqa tapşırdığını bildirərək deyirdi: "Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm" [11, s.4-5].

Məhz, müstəqilliyimiz, bütün Azərbaycanımız məhv olmaq təhlükəsi ilə üz üzə qaldığı bir fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri, qurtuluş işığı Heydər Əliyev olduğundan müdrik xalqımız, o zaman qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı - dünyanın bu böyük siyasət dahisini 1993-cü il iyunun ilk günlərində hakimiyyətə gətirdi. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Həmin gün Azərbaycan xalqının tarixinə Qurtuluş günü kimi daxil

oldu. Bununla, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü başlandı. Ulu öndər bütün varlığı, enerjisi ilə yeni siyasi mübarizəyə qədəm basdı. Sözün əsl manasında, Azarbaycanda boyük quruculuq erası, milli dövlətçilik epoxası başlandı [6, s.25]. Uzaqgörən siyasətçi Heydər Əliyev hələ 1969-1982-ci illərdə Azərbaycan SSR-yə rəhbərliyi zamanı əsasını qoymuş olduğu sosial-iqtisadi, hərbi, mədəni əsasları 1993-cü ildən uğurla davam etdirməyə başladı.

İlk növbədə Azərbaycan dövlətçiliyinin məhv edilməsi, vətəndaş müharibəsi və ölkənin parçalanması təhlükəsinin qarşısı alındı. Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr ləğv edilməyə başladı, Azərbaycan dövlətçiliyinə, müstəqilliyə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi və cəzalandırıldı. Dövlət qurumları ilə xalqın birliyi, yekdilliyi təmin edildi, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarda dövlətə və Vətənə mənsubluq hissləri aşılanmağa başlandı [8, s.9]. Tarixçi alim Yaqub Mahmudov bu barədə yazır: "Dövlət başçısının qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. Azərbaycan qanlı burulğandan çıxdı. Sabitlik və əmin-amanlıq yarandı. Böyük dövlət xadimi kimi Heydər Əliyevin digər tarixi qələbəsi məhz budur - sabitlikdir. Ölkədə sabitlik yaratmaqla Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi: Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır!.." [8, s.11].

Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev respublikamızda ordu quruculuğu sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə güclü təkan verdi, cəbhədə vəziyyətin müsbət istiqamətdə inkişafına şərait yaratdı. Bu dövrdən etibarən ölkədəki silahlı qüvvələr dövlətin tam nəzarətinə keçdi. Görülmüş tədbirlər nəticəsində qısa zaman kəsiyində Füzuli və Ağdam rayonlarının bir sıra yaşayış məntəqələri işğaldan azad edildi, cəbhədə təşəbbüs Azərbaycan ordusunun əlinə keçdi. Bu uğurların müvəqqəti olduğunu güman edən düşmən öz havadarlarının köməyindən və silahlı sursatından istifadə edərək 1994-cü ilin ilk aylarında bütün cəbhə boyu irimiqyaslı hücum əməliyyatlarına başladı [15]. Məkrli düşmənlərimizin və onların beynəlxalq havadarlarının gücünü, planlarını, Azərbaycanın düşdüyü qanlı burulğanın nə qədər təhlükəli olduğunu nəzərə alaraq vəziyyəti düzgün qiymətləndirdi. Real vəziyyətdən çıxış edərək atəşkəs rejiminə nail oldu [9, s.355].

1993-cü ilin ortalarından etibarən ümummilli lider Heydər Əliyevin daxili və xarici siyasətinin məqsəd və prinsiplərini dövlət müstəqilliyimizi qorumaq və möhkəmləndirmək, ölkənin təhlükəsizliyini, milli dövlətçilik hüquqlarını təmin etmək və beynəlxalq təhlükəsizlik sistemi ilə bağlamaqdan ibarət oldu. Heydər Əliyev bu dövrdə beynəlxalq təşkilatların tribunalarından çox bacarıqla istifadə edərək, Ermənistanın Azərbaycana təcavüzünün nəticələri və ölkəmiz haqqında obyektiv informasiyanı beynəlxalq aləmə çatdırmağa çalışırdı [2, s.23].

Bütövlükdə, Azərbaycan Respublikasının xarici siyasət xəttinin prinsipləri - ölkədə və dünyada sülh, bütün ölkələrlə bərabərhüquqlu əməkdaşlıq, hərbi bloklarda iştirak etməmək, başqa ölkələrin daxili işlərinə qarışmamaq, dövlətlərin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri dəqiq cizgilər kəsb etməyə başladı [1, s.318].

Heydər Əliyevin müdrik və uzaqgörən xarici siyasət xətti nəticəsində respublikamızla dünyanın inkişaf etmiş ölkələri arasında bərabər hüquqlu qarşılıqlı əməkdaşlıq münasibətləri yarandi, bu əlaqələr strateji partnyorluq səviyyəsinə yüksəldi. Heydər Əliyevin ABŞ, Böyük Britaniya, Fransa, İtaliya... kimi dünyanın qabaqcıl ölkələrinə, o cümlədən Polşa, Norveç, Bolqarıstan, Ruminya... kimi inkişaf etmiş Qərb dövlətlərinə səfərləri zamani bu ölkələrlə qarşılıqlı münasibətlərin inkişafinda keyfiyyətcə yeni mərhələnin əsasını qoyan çox mühüm sənədlər imzalandi. Onun Azərbaycanın xarici siyasətində daim ozünəxas yeri ilə seiçilən qardaş Türkiyəyə, islam ölkələrinə, o cümlədən İran İslam Respublikasina, Səudiyyə Ərəbistanına, Misirə, Pakistana rəsmi va işgüzar səfərləri respublikamizin İslam dövlətləri ilə əlaqələrinin inkişafinda müstəsna rol oynadi. Azərbaycanın beynəlxalq təhlükəsizlik sistemində iştirakı üçün Ulu öndər Heydər Əliyev bütövlükdə MDB, GUAM, Qara dəniz İqtisadi Əməkdaşlıq Komitəsi, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlarla əməkdaşlıq və münasibətlərin qurulmasına böyük əhəmiyyət vermişdir [10, s.5].

Görkəmli dövlət xadimi Heydər Əliyev həmişə Azərbaycanla nüfuzlu beynalxalq təsisatlar arasinda səmərəli əlaqələrə və əmakdaşlılğa böyük diqqət yetirirdi. Ötən illərdə onun uzaqgörən xarici siyasəti sayəsində Azarbaycan Respublikasi müstaəqillik, suverenlik yolunda inamla addımladi, dünya ölkələri ilə barabarhüquqlu əməkdaşlıq, dostluq münasibətləri yaradılmasi sayəsində Vətənimiz dünya birliyinin tamhüquqlu üzvünə çevrildi [7, s.349].

1996-ci ilin dekabrında keçirilən ATƏT-in Lissabon sammitində Azərbaycanın ərazi bütövlüyünun tanınması ilə bağlı qərarın qəbul edilməsi Heydər Əliyev diplomtiyasının ən böyük uğurlarından biri olmuşdur [3]. Bununla yanaşı Avropa Şurası kimi mühüm əhəmiyyət kəsb edən bir təşkilata da çox böyük üstünlük verilmiş və 2001-ci il yanvarın 25-də Azərbaycan AŞ-nın tam hüquqlu üzvü seçilmişdir [14].

Ulu öndər Heydər Əliyevin dövründə Azərbaycan vətəndaşlarını vahid amal, ideya və məqsəd ətrafında birləşdirəcək milli ideologiyanın yaradılması dövlət siyasəti səviyyəsinə qaldırıldı. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" – deyən Heydər Əliyev azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. Bununla milli şəhadət və qürur hissini ifadə etmiş, Azarbaycan nəsillərinə vətəndaşlıq və vətənpərvərliyin ən böyük nümunəsini, ən ideal, dəyərli sozünü miras qoymusdur [6, s.13].

Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biri də Azərbaycanın yeni neft strategiyasının hazırlanaraq həyata keçirilməsi olmuşdur. Milli mənafeləri siyasi fəaliyyətində hər zaman uca tutan ulu öndər Qərb şirkətləri ilə birgə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının işlənilməsini müstəqil respublikamızın milli təhlükəsizlik maraqlarının təminatı baxımından da son dərəcə vacib sayırdı. "Əsrin müqaviləsi"ni imzalaması Xəzər dənizində beynəlxalq əməkdaşlığın bünövrəsini qoymaqla yanaşı, Azərbaycanın müstəqil dövlət olaraq təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını sonadək müdafiə etmək əzmində olduğunu təsdiqlədi. Bu müqavilə respublikamızın dövlət müstəqilliyinin mühüm təminatına çevrilməklə həm də Azərbaycanın iqtisadi yüksəlişinə yol açdı. "Bakı- Tbilisi-Ceyhan" neft ixrac boru kəməri Heydər Əliyevin iqtisadi siyasətinin böyük bəhrəsi və real təntənəsidir. "Bakı-Tbilisi-Ərzurum" qaz kəməri, "Bakı-Tbilisi-Qars" dəmir yolu layihələri də mahiyyət etibarilə Ceyhana uzanan nəhəng magistralı tamamlayır. Beləliklə, neft siyasəti Azərbaycanın hərtərəfli inkişafının və beynəlxalq aləmdəki siyasətinin əsas generatoru statusunu qazanmışdır [4, s.7]. Müdrik rəhbərimiz Heydər Əliyevin apardığı məqsədyönlü iqtisadi siyasət və həyata keçirilən bu va ya digər kompleks tədbirlər nəticəsində Azərbaycanda 1996-ci ildən etibarən iqtisadiyyatin ilbəil artan inkişafi va dinamik yüksəliş dövrü başlandı [13, s.56].

Bütövlükdə, Heydər Əliyevin müstəqil ölkəmizə rəhbərlik etdiyi 10 il Azərbaycanın ən yeni tarixinə həm də sosial-iqtisadi yüksəliş dövrü kimi yazıldı. Belə ki, sosial-iqtisadi inkişafa geniş meydan açıldı, ölkəyə xarici sərmayələr cəlb edildi, böhran həddində olan iqtisadiyyatımızda, sənayedə uğurlu islahatlar nəticəsində tərəqqiyə doğru inamlı dönüş yarandı. O cümlədən postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda effektli aqrar islahatlar aparıldı, torpaqlar təmənnasız olaraq kəndliyə verildi. Kənd təsərrüfatı tənəzzüldən qurtularaq inkişaf mərhələsinə qədəm qoydu. Şəffaf özəlləşdirmə prosesi nəticəsində ölkədə xüsusi mülkiyyətə keçidin sağlam təməli qoyuldu və özəl sektorun inkişafına hər cür şərait yaradıldı [14].

Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin məntiqi davamı olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin rəhbərliyi ilə, dövlətimizin iqtisadi gücü, müasir ordu quruculuğu, nəhayət xalq-iqtidar birliyi nəticəsində ölkəmizin müqəddəs Vətən müharibəsində qələbəsi təmin olundu. Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Beləliklə, Azərbaycanı hərtərəfli inkişaf yoluna çıxaran ulu öndər əməlləri ilə, xalqa əvəzsiz xidmətləri ilə tariximizdə əbədiyaşarlıq qazandı. Zəmanəmizin ən görkəmli siyasi xadimi siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə Azərbaycanın yeni tarixində dövlətçiliyimizin möhkəmlənməsinə, müstəqilliyimizin əbədi olmasına verdiyi töhfələrə görə xalqımızın ümummilli liderinə çevrildi. Bütün ömrünü xalqına xidmət hasr etmiş ulu öndərimiz Heydar Əliyev müstəqil Azərbaycan dövlətinin yaradıcısı va qurucusu kimi Azarbaycan xalqnın qan yaddaşında əbədi yaşayacaqdır.

Ədəbiyyat

1. Abbasbəyli A.N. Dünya siyasəti Bakı: NURLAR, 2011, 584 s.
2. Abdullayev V. Müstəqilliyimizin strategiyası. Bakı, 2002.
3. ATƏT-in Lissabon sammiti (2-4 dekabr 1996-cı il)/ http://anl.az/el/emb /QARABAQ/beynelxalq-senedler/atet(lissabon-sammiti). pdf Müraciət tarixi: 18.03.2023.
4. Həbibbəyli İ. Heydər Əliyevin dövlətçilik təlimi və müasir dünya. Azərbaycan, 2015, 5 may. №95. Səh.7
5. Qasımov Ə.Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi. (1969-2003-cü illər) Bakı, "Turxan" NPB, 264 səh.
6. Qasımov R.A., İsmayil Z.H. Müstəqillik yollarında: Liderlik missiyast. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2016, 216 səh.
7. Hüseynova M. Missiya. ADPU-naşriyyati. Baki-2019. 366 s
8. Mahmudov Y. Tariximizin dirçəliş konsepsiyasının müəllifi. Azərbaycan, 2015, 9 may. №99. Səh. 9
9. Mahmudov Y. (Mahmudlu). Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, "Təhsil", 2011, 608 s.

10. Məmmədov N. Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli // Azərbaycan. 2010. 16 aprel. N 80, s. 5
11. Naxçıvandan başlayan müstəqillik yolu. AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosu. Səs, 2015, 4 sentyabr. №163. Səh. 4-5
12. Sərdarov M. Mahir siyasətçi, müdrik rəhbər (maqalalar va xatiralar). Baki: 2020, 222 səh.
13.Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasmin təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri (1969-2019-cu il). Baki "AVROPA" nəşriyyati-2019. 594 səh.
14. https://president.az/
15. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/heyd%C9%99r-%C9%99liyev-v%C9%99-milli-ordu/

РЕЗЮМЕ
ГЕЙДАР АЛИЕВ И КОНЦЕПЦИЯ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА
Гасымова С.А.

Ключевые слова: *Азербайджан, независимость, общенациональный лидер, мудрый политик, освобождение, государственная политика, социально-экономический подъем.*

В конце XX века, когда государственная независимость азербайджанского народа оказалась перед угрозой уничтожения, азербайджанский народ в первых числах июня 1993 года привел к власти выдающегося государственного деятеля Гейдара Алиева. 15 июня 1993 года великий лидер Гейдар Алиев был избран Председателем Верховного Совета Азербайджана. Этот день вошел в историю азербайджанского народа как День освобождения. С этого начался второй период руководства Общенационального лидера Гейдара Алиева Азербайджаном. В результате мудрой и дальновидной внешнеполитической линии Гейдара Алиева исчезла опасность разрушения азербайджанской государственности, начала гражданской войны и распада страны. Установились стабильность и мир, начался период социально-экономического роста. Наш великий лидер Гейдар Алиев, всю свою жизнь посвятивший служению своему народу, навсегда останется в памяти азербайджанского народа как создатель и основатель независимого Азербайджанского государства

SUMMARY
HEYDAR ALIYEV AND THE CONCEPT OF INDEPENDENCE OF AZERBAIJAN
Qasimova S.A.

Key words: *Azerbaijan, independence, national leader, wise politician, liberation, state policy, socio-economic development.*

At the end of the 20th century, when the state independence of the Azerbaijani people was facing the threat of destruction, the Azerbaijani people brought the outstanding statesman Heydar Aliyev to power in the first days of June 1993. On June 15, 1993, Great Leader Heydar Aliyev was elected the Chairman of the Supreme Soviet of Azerbaijan. That day entered the history of the Azerbaijani people as Liberation Day. With this, the second period of the leadership of National leader Heydar Aliyev to Azerbaijan began. As a result of Heydar Aliyev's wise and visionary foreign policy line, the danger of the destruction of the Azerbaijani statehood, civil war and the disintegration of the country disappeared. Stability and peace were established, the period of socio-economic growth began. Our great leader Heydar Aliyev, who devoted his whole life to serving his people, will live forever in the blood memory of the people of Azerbaijan as the creator and founder of the independent state of Azerbaijan.

"ƏSRİN MÜQAVİLƏSİ"NİN İMZALANMASI, ONU İSTƏMƏYƏNLƏR ÜZƏRİNDƏ HEYDƏR ƏLİYEV SİYASƏTİNİN QƏLƏBƏSİ OLDU

Qasımov Şikar
Azərbaycan Texniki Universiteti, Bakı, Azərbaycan, professor
shikarqasimov@mail.ru

Açar sözlər: *Müqavilə, investisiya, kompaniya, iqtisadiyyat, inkişaf, əməkdaşlıq.*

Azərbaycan Respublikası 1991ci ildə Sovet İttifaqının dağılması ilə dövlət müstəqilliyini bərpa etdi. Lakin respublika bazar iqtisadiyyatına keçid mərhələsində böyük iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. Müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə dövlət idarəçiliyində buraxılan səhvlərin məntiqi nəticəsi kimi sosial-iqtisadi gərginlik yüksək səviyyəyə çatmışdı, Belə bir çətin dövrdə xalqın iradəsi və tələbi ilə yenidən hakimiyyətə gələn Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti, qətiyyəti və dövlət idarəçiliyindəki sərişteti ilə fəlakətin qarşısı alindı. Ölkə iqtisadiyyatı möhkəmləndi və Azərbaycan gələcəyə inamla baxan bir dövlətə çevrildi.

Zəngin təbii ehtiyatlara malik olan Azərbaycan, həm də tranzit ölkə kimi regional və beynəlxalq miqyasda mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən ölkəmizin dayanıqlı iqtisadi inkişafını təmin etmək üçün coğrafi üstünlüklərindən də maksimum şəkildə istifadə etmək qarşıda dururdu. Ölkəmizin təbii resurs

potensialı və tranzit potensialının bir-birini tamamla-masının ən yaxşı nümunəsi ümummilli lider Heydər Əliyevin memarı olduğu və ölkə iqtisa-diyyatının bütün əsas sahələrində inkişafın əsasını qoyan- 1994-cü ilin sentyabrında imza-lanmış ”Əsrin müqaviləsi” oldu. Onun imzalanması ilə respublikanın iqtisadi və tranzit-kommunikasiya əhəmiyyəti xeyli dərəcədə artdı.

Ancaq qeyd olunmaldır ki, ”Əsrin müqaviləsi”nin imzalanması heçdə asanlıqla başa gəlmədi. Hazırlıq işləri və danışıqlar başlayan ilk günlərdən etibarən Azərbaycan təzyiqlərlə və pozuculuq fəaliyyətləri ilə üzləşməli oldu. Müqavilənin imzalanmasını və Azərbaycanın inkişafını istəməyən ölkələr və ermənilər anlayırdılar ki, Ermənistan - Azərbaycana və “Qondarma Qarabağ” probleminin həlli yolunun əsas bünövrəsi, mühüm təsir vasitəsi olan iqtisadi amilin həlli- problemin araşdırılmasına döğru böyük irəliləyiş olacaqdı. Eyni zamanda Ermənistanda yaxşı bilirdilər ki, Azərbaycanın xarici şirkətlərlə müştərək iş birlikləri, Azərbaycan neftinə kapital qoyuluşunun başlanması, “Qondarma Qarabağ” probleminin iqtisadi amilinin həlli ilə nəticələnə bilər. Ermənilər həm də başa düşürdülər ki, Azərbaycanda xarici dövlətlərin iqtisadi maraqlarının qismən də olsa təmin olunması, yəni xarici şirkətlərin Azərbaycan neftindən bəhrələnməsi yalançı “Qondarma Qarabağ” probleminin tutacağını itirmək təhlükəsi ilə üzləşə biləcəklər.

Bu səbəblər isə Rusiya Federasiyasında, istərsə də Ermənistanda “Əsrin müqavi-ləsi”nin imzalanmasına hələ hazırlıq işləri və danışıqlar getdiyi bir dövürdən başlayaraq mane olmaq üçün qüvvələrini səfərbər etməyə başladılar.

“Əsrin müqaviləsi”nin imzalanmasının Azərbaycan üçün necə əhəmiyyət kəsb etdiyini dərk edən düşmənlərimiz əməli fəaliyyətə başladılar. Rus-erməni hakim dairələri, siyasi partiyaları, kütləvi informasiya vasitələri bu müqavilənin imzalanmasını pozmaq üçün geniş konpaniya təşkil etdilər. Hələ müqavilə haqqında aparılan çətin danışıqlar dövründə rus-erməni birliyinin etiraz konpaniyasına start verilmişdi. “Kommunist” qəzetinin müxbiri Georgi Bovtun 1994-cü il fevralın 15-də “Heydər Əliyev od və neftlə oynayır” məqaləsində, Heydər Əliyevin neft siyasəti tənqid atəşinə tutulurdu. Məqalədə Xəzərin neft ehtiyatlarının istismarında Qərb dövlətləri və Türkiyə ilə separat danışıqlar aparılmasında Heydər Əliyev günahlandırılır və eyni zamanda Rusiya maraqlarının nəzərə alınması xüsusi vurğulanırdı.

“Əsrin müqaviləsi”nin imzalanmasından xeyli əvvəl, daha doğrusu 1994-cü il martın 7-də Rusiya XİN-i İngiltərənin Moskvadakı səfirinə nota təqdim etdi. Notada deyilirdi ki, Azərbaycan birtərəfli qaydada Xəzər dənizinin neft və qaz ehtiyatlarının kəşviyyatı və istismarını apara bilməz. Bu Rusiyanın maraqlarının pozulması kimi qəbul olunacaq [4].

1994-cü il sentyabrın 19-da “Nezavisimaya qazeta”da Armen Xanbabayan məqaləsində yazırdı ki, “Əsrin müqaviləsi” kontraktı ölkə daxilində müxalifət qüvvələrin aktivləşməsinə və qeyri-sabitliyin yaranmasına səbəb olacaqdır. Həm Elçibəyin, həm də Mütəllibovun tərəfdarları bu kontraktın Milli Məclisdə ratifikasiyasını çətinləşdirəcəklər. Moskva Xəzəryanı dövlətlərin xarici şirkətlərlə olan iqtisadi əlaqələrin yaranmasına, eyni zamanda Xəzərin neft və qaz ehtiyatlarının Rusiyadan kənar istismarına yol verməyəcəkdir. (6). Bu göstərilən fikirlər həm də Rusiyanın 12 sentyabrda Azərbaycana və Türkmənistana, sentyabrşn 16-da isə Qazaxıstana göndərdiyi notalarda da öz əksini tapmışdır.

Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mixail Demurin 1994-cü il sentyabrın 18-də keçirilən brifimqdə bəyan etmişdi ki, “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycan ilə bütün iqtisadi, siyasi, humanitar əlaqələr dondurulacaqdır. O, Prezidentə Andrey Kozırevin təqdimatı nəticəsində 396 saylı məxvi sənədin imzalanmasını vurğuladı. Sənəd “Rusiya Federasiyasının Xəzər dənizində maraqlarının qorunması haqqında” adlandırılmışdı. Sənəddə qeyd olunur ki, əgər “Əsrin müqaviləsi” imzalanarsa Azərbaycana qarşı sanksiya tətbiq olunacaqdər. Pralel olaraq Andrey Kozırevin RF-nın Baş Naziri Çernomırdinə ünvanladığı məktubda da qeyd olunurdu ki, Bakıya qarşı iqtisadi, ticarət və maliyyə xarakterli təzyiqlər artırılmalıdır ki, Azərbaycan Rusiyanın maraqlarına hörmətlə yanaşsın [1, s.760]. Eyni zamanda Rusiyanın daxili sularında Azərbaycan bayrağı altında üzən gəmilərə qadağa qoyulması da həmin məktubda öz əksini tapmışdı.

Rusiyanın Xarici İşlər Nazirliyi 1921-ci il və 1940-cı ildə Sovet İttifaqı ilə İran arasında bağlanan müqvilələrin pozulmasını əsas səbəb kimi bəyan edir. Azərbaycan isə keçmiş Sovet İttifaqının bağladığı müqavilələri tanımayaraq öz hüquqlarını müdafiə edərək suveren Respublika olduğunu iddia edirdi. Bu azmış kimi Rusiya Xarici İşlər Nazirliyi Birləşmiş Millətlər Təşkilatının baş katibinə 5 oktyabrda rəsmi məktub göndərmişdi. Məktubda qeyd olunurdu ki, Xəzəryanı dövlətlərin hər hansı birtərəfli olaraq Xəzərin neft ehtiyatlarından bəhrələnməsi beynəlxalq qanunlara ziddir. Bu o biri Xəzəryanı dövlətlərin maraqlarının tapdalanmasıdr. Azərbaycanın bağladığı müqavilə bizim üçün legitim sayıla bilməz [1, s.761]. Yenə də məktubda Sovetlər İttifaqı ilə İran arasında bağlanan müqavilələr arqument kimi göstərilirdi. Məktubun sonunda xəbərdarlıq edilir ki, Xəzər dənizinə aid hər hansı birtərəfli müqavilənin fəaliyyətə başlanması Rusiya Federasiyasının maraqlarına zid kimi qəbul ediləcək və Rusiya dövləti mümkün hesab etdiyi zaman ədaləti bərpa etmək üçün hər hansı bir ciddi tədbirlərin həyata keçirməsini öz hüququ hesab edir.

Rusiya-erməni birliyinin "Əsrin müqaviləsi"nin imzalanmasına qarşı fəaliyyətinə iran da qoşulur. İran hökuməti Xəzər dənizinə Qərb dövlətlərinin cəlb olunmasına İranın biganə qalmayacağını bəyan edir. İran qəti olaraq Xəzərin qaz və neft ehtiyatlarının istismarında beş Xəzəryanı dövlətdən başqa Qərb və ABŞ şirkətlərinin iştirakının yolverilməz olduğunu bəyan edir. Bu baxımdan oktyabr ayının 10-da Moskvada İran və Rusiya dövlət nümayəndələrinin Azərbaycana qarşı birgə mübarizə strtegiyası razılaşdırılır. Onlar nəyin bahasına olursa-olsun "Əsrin müqaviləsi"nin fəaliyyətə başlamasına yol verməyəcəkləri haqqında razılığa gəlirlər.

Bu prosesdə ermənilər də rus havadarları kimi kontraktın imzalanmaması üçün çirkin əməllərindən çəkinməmişlər. Belə ki, erməni Milli və Strateji Tədqiqat Mərkəzi "Əsrin müqaviləsi" mövzusunda dəyirmi masa keçirmişdir. "Armat" adlı iqtisadi mərkəzin rəhbəri Edvard Ağacanovun çıxışı diqqəti xüsusi olaraq cəlb edir. Onun çıxışının əsas motivi "Əsrin müqaviləsi"nin imzalanmasına yol verməmək, erməni hakim dairələri, bütün siyasi partiyalar səfərbər olmalı və aşağıdakı istiqamətdə kontraktın imzalanmasına qarşı qəti fəaliyyət göstərməkdən ibarər idi;

1.Azərbaycanın neft ehtiyatının həddindən artıq şişirdildiyini kontrakt iştirakçılarına çatdırmaq,

2.Azərbaycanın daxili ictimai-siyasi vəziyyəti gərgindir, hakimiyyət uğrunda sivil qaydalara uyğun olmayan mübarizə aparılır. Ümuiyyətlə Azərbaycan qeyri sabit ölkədir,

3.Neftin bir bareli 18-20 dollar civarındadır. Bu isə Azərbaycana qoyulan kapitalın 50-70 ilə ödənilməsi deməkdir,

4.Erməni diasporu bu sahədə daha fəal və çevik fəaliyyət göstərməlidir. "Əsrin müqaviləsi" kontraktına daxil olan xarici şirkətlərlə əlaqə yaradıb, onları necə olursa-olsun, hətta lazım gələrsə təzyiq vasitəsi ilə bu əməliyyatdan imtina etmələrinə nail olmaq və iqtisadi cəhətdən iflasa uğrayacaqlarını inandırmaq lazımdı.

Sonra çıxış edən Alvard Barxudyan özünun cəfəng çıxışında qeyd edir ki, əsrin əvvəllərində Bakı neftinin 40 faizi erməni milyonçuları Mantaşov, Ter-Quqasyan, Lalayan, Gülbekyan və başqalarına məxsus idi. Onların vərəsələrində Bakı neftinin aksiyaları mövcuddur. Bakı neftindən onlar bəhrələnməlidirlər. Bakı nefti onların şəxsi mülkiyyə-tindədir. Beynəlxalq hüquq normalarını əsas gətirərək "Əsrin müqaviləsi" ermənilərin razılığı olmadan imzalana bilməz demişdi. [5] Bundan başqa "Novosti Armenii" qəzetinin müxbiri İqor Muradyan isə daha aqresivliyi ilə seçilən məqaləsində yazır ki, "Əsrin müqaviləsi" kontraktını Heydər Əliyev imzalamaqla həm özünün, həm də Azərbaycanın taleyini həll etmiş oldu. Bu müqavilədə rusların marağı nəzərə alınmamşdır. Ona görə də Rusiyanın Azərbaycana təzyiqi artacaqdır. Qarabağ müharibəsinin yenidən olovlanması da istisna edilmir. Sonra isə altı ədəd MİQ-23 qırıcı təyyarənin təmənnasız Ermənistana verilməsini və Ermənistanın hava hücumundan müdafiə sistemlə-rinin təkmilləşdirilməsində Rusiyanın təşəbbüsünü qabardaraq diqqət cəlb edirdi [7].

Ermənilərin burda dəridən-qabıqdan çıxmasl ilə yanaşı erməni lobbisi də yerli ermənilərdən geri qalmırlar. Onlar Azərbaycanın heft ehtiyatlarının şişirdilməsi haqqında, ölkədə qeyri-sabitliyin hökm sürməsi, vəhşi müsəlmanlarla iş birliyinin qurulmasının xeyli riskili olması haqqında ictimai rəy yaratmaq istiqamətində fəaliyyətləri ilə seçilirlər. Erməni lobbisinin sadiq məddahı olan Baronessa Koksun imzası ilə İngiltərə parlamentində Britş Petroiium (BP) şirkətinin Azərbaycanla bütün iqtisadi əlaqələrinin dayandırılmasını tələb edən çıxışını təşkil etdilər və parlamentdə Koksu dəstəkləyən deputatlarda tapıldı.

Göstərilənlərdən fərqli olaraq Heydər Əliyevin şəxsi nüfuzu, peşəkarlığı, diplomatik bacarığı və hər bir görüşdə müqavilənin imzalanması istiqamətində irəliləyişə nail olması getdikcə müşahidə olunurdu. Müharibəyə cəlb olunmuş, hələ sabitliyin tam bərqərar olmadığı bir zamanda, Azərbaycana nəhəng heft şirkətlərini sərmayə qoymaları ancaq, Ulu öndər Heydər Əliyev bacarığı, zəkası, nüfuzu və şəxsiyyəti hesabına mümkün olmuşdu.

Bütün görülən təxribatlara və pozuculuq işlərinə baxmayaraq Ümummilli Lider Heydər Əliyevin 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi"ni imzalamaqla bu günkü Azərbaycanın tqtisadiyyatının inkişafının bünövrəsini qoymuş oldu [2, s.47].

"Əsrin müqaviləsi"nin imzalanmasına kömək edən əsaslı bir məsələni də qeyd edək ki, müvafiq dövrdə cənab Prezident İlham Əliyev Azərbaycan Neft Şirkətinin Beynəlxalq məsələlər üzrə vitse-prezidenti idi. Bu baxımdan cənab İlham Əliyev də "Əsrin müqaviləsi" kontraktının bağlanması üzrə gedən danışıqlarda fəal və yaxından iştirak edirdi. Mübaliğəsiz demək olar ki, onun da əsrin müqaviləsinin imzalanmasında böyük və əvəzsiz xidməti olmuşdur. cənab İlham Əliyev müqavilənin imzalanması ərəfəsində özünüm diplomatik bacarığını və Azərbaycanın maraqlarının müdafiəsi yolunda cəsarətini və vətənsevərliyini məharətlə nümayiş etdirmişdi.

"Əsrin müqaviləsi"nin imzalanması ərəfəində Hyustonda xarici neft şirkətləri ilə gedən danışıqlarda gərgin məqamlar yaşanmışdı. Onlar bəyan edirdilər ki, biz Azərbaycanla müqaviləni imzalamağa hazırıq və öz razılığımızı bildiririk. Ancaq müqavilə üzrə işlər Xəzərin statusunun müəyyənləşdirilməsindən sonra

başlaya bilər. Bu isə o demək idi ki, müqavilə kağız üzərində qalırdı. Belə ki, kontrakt imzalanandan sonra keçən dövr ərzində hələ də Xəzərin statusu müəyyənləşdirilməyibdir. Əgər kontrakt üzvlərinin istəyi ilə olsaydı, onda bu günə kimi kontrakt üzrə işlər başlanılmayacaqdı. Danışıqların kəskin getdiyi, düyünə düşdüyü zamanda cənab İlham Əliyev bir neçə dəfə Vaşinqtona səfər etdi. 1994-cü ilin avqustunda ABŞ-ın Milli Müdafiə Şurasının nümayəndəsi Rozmari Forsaytla görüşür və eyni zamanda kontrakt üzvləri ilə səmərəli görüşləri olmuşdu [3].

Bu səfərlər və danışıqlar nəticəsində Heydər Əliyev siyasəti və İlham Iliyev diplomatiyası qələbə çaldı. İlham Əliyevin Hyustndakı əsaslı arqumentlərlə xarici neft şirkətlərini fikirlərindən yayındıra bildi. Nəticədə imzalanan "Əsrin müqaviləsi" kontraktında Xəzərin statusu haqqında bir kəlmə də yazılmadı. Bununla da Müasir Azərbaycan iqtisadiyyatının inkişafının bünövrəsi məhz 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" oldu. Bundan sonra Azərbaycana investisiya axını başladı.

Məsələyə daha geniş prizmadan baxsaq, aydın görünür ki, "Əsrin müqavi-ləsi" ölkəmizin tranzit potensialının realizasiyası və bilavasitə ölkə iqtisadiyyatının dayanıqlı inkişaf tenpinin əldə olunması istiqamətində həyata keçirilmiş silsilə layihələrin ən əhəmiyyətlisidir. Bu müqavilənin imzalanması ilə respublikamızın beynəxalq əməkdaşlığa cəb edilməsi prosesi daha da sürətləndi və ölkəmiz artıq dünyada etibarlı enerji təminatçısı kimi tanınmağa başladı. Bunun nəticəsi olaraq, ölkəmiz Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi olan TRACECA, NABUCCO, Şimal-Cənub nəqliyyat dəhlizi və bunun kimi bir neçə qlobal əhəmiyyətli regional layihələrin əsas iştirakçısına çevrilmişdi [8].

Beləliklə, yuxarıda qeyd edilənlərdən görünür ki, "Əsrin müqaviləsi" sadəcə bir neft sazişi deyil. Bu müqavilə yaxın və uzaq gələcəyə hesablanmış siyasətin əsası, beynəlxalq əməkdaşlığın və müstəqilliyimizin qarantıdır.

Ədəbiyyat

1. Azərbaycan Texniki Universitetinin 60 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları, Bakı, 2010, 847s.
2. Bayramov Q. Heydər Əliyev və Azərbaycan tarix elmi. Bakı, 2004, 264 s.
3. Əsrin Müqaviləsi http://az.wikipedia.org/wiki
4. "Kommunist" qəz. fevralın 15-1994-cü il.
5. "Qolos Armenii". 2 avqust 1994-cü il.
6. "Независимая газета", 1994, 19 сентября.
7. "Новости Армении", 1994, 20 сентября.
8. http://www.gun.az/economy

РЕЗЮМЕ

ПОДПИСАНИЕ «КОНТРАКТА ВЕКА» СТАЛО ПОБЕДОЙ ПОЛИТИКИ ГЕЙДАРА АЛИЕВА НАД ЕГО ПРОТИВНИКАМИ

Гасымов Ш.

Ключевые слова: *контракт, инвестиции, компания, экономика, развитие, сотрудничество*

Подписанный 20 сентября 1994 года «Контракт века» значительно повысил экономическое и транзитно-коммуникационное значение Азербайджана. Однако подписание «Контракта века» было совсем непростым делом. С первых дней подготовки и переговоров Азербайджан столкнулся с давлением и подрывной деятельностью. Страны, не желавшие подписания соглашения и развития Азербайджана, и особенно армяне, организовали кампанию по срыву подписания соглашения.

Несмотря на провокации и подрывные действия, Великий лидер Гейдар Алиев заложил основу для развития сегодняшней экономики Азербайджана, подписав «Контракт века». Это соглашение является не просто нефтяным соглашением, а основой политики, рассчитанной на ближайшее и далекое будущее, гарантом международного сотрудничества и нашей независимости.

SUMMARY

THE SIGNING OF THE "CONTRACT OF THE CENTURY" WAS A VICTORY OF HEYDAR ALIYEV'S POLICY OVER THOSE WHO DID NOT WANT IT

Gasimov Sh.

Keywords: *contract, investment, company, economy, development, cooperation.*

The "Contract of the Century" signed on September 20, 1994 greatly increased the economic and transit-communication importance of Azerbaijan. However, the signing of the "Contract of the Century" was not easy at all. From the first days of preparations and negotiations, Azerbaijan had to face pressures and disruptive activities. Countries that did not want the signing of the agreement and the development of Azerbaijan, and especially the Armenians, organized a campaign to disrupt the signing of the agreement.

Despite the provocations and disruptive actions, Great leader Heydar Aliyev laid the foundation for the development of today's economy of Azerbaijan by signing the "Contract of the Century". This agreement is not just an oil agreement, but the basis of a policy calculated for the near and far future, a guarantor of international cooperation and our independence.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA DÖVLƏT QURUCULUĞU: DAYANIQLI İQTİSADİ İNKİŞAF KONSEPSİYASI

Qəhrəmanova Çinarə Məmməd qızı
Azərbaycan Dövlət İqtisad Universiteti, UNEC, Bakı, Azərbaycan, dosent
chinara83@gmail.com

Açar sözlər: *iqtisadiyyat, daxili siyasət, iqtisadi inkişaf, strateji mənbə*

1991-1995-ci illər Azərbaycan iqtisadiyyatının iqtisadi xaos və tənəzzül dövrü kimi səciyyələnir. 1993-cü il oktyabrın 3-də xalqın tələbi və istəyi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti oldu. Heydər Əliyev kimi dahi siyasətçi Azərbaycanın ağır vəziyyətini yaxşı görürdü. Heydər Əliyev başa düşürdü ki, bu problemlər öz həllini tapmasa Azərbaycan heç zaman qüdrətli bir dövlət ola bilməz. Müstəqillik dövründən bu günə kimi, ölkədə gedən iqtisadi inkişafı bir neçə mərhələyə ayırmaq olar. 1991-1995-ci illəri əhatə edən iqtisadi xaos və ya tənəzzül dövrü. İkincisi, 1996-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü.

Heydər Əliyev iqtisadi inkişafda geriliyi tez zamanda aradan qaldırmağa, iqtisadiyyatı inkişaf etdirməyə Azərbaycanın gücü olduğunu dönə-dönə vurğulayırdı. Çünki o ölkənin iqtisadi potensıalını yaxşı bilir və insanların ona inamı ilə daha əvvəl də olduğu kimi böyük uğurlara imza atmağın mümkünlüyünə inanırdı.

Onun atdığı qətiyyətli addımlar öz nəticəsinin verdi. Azərbaycan tez bir zamanda bu iqtisadi böhrandan xilas ola bildi. Heydər Əliyev iqtisadi böhrandan xilas olmaq üçün vergi sahəsində və sahibkarlığın inkişaf etdirməsi yolunda bir sıra islahatlar keçirdi. Ölkədə iş yerlərinin çoxu bağlanmış və işsizlərin sayı çoxalmış, ölkədə gedən müharibənin nəticəsində öz doğma yerlərini tərk etmiş əhalinin xeyli hissəsinin çalışmaq qabiliyyəti olsa da, iş yerlərinin olmaması, pulun inflyasiya nəticəsində dəyərinin aşağı düşməsi, qiymətlərin qalxması, əhalinin alıcılıq qabiliyyətinin azalması və xarici dövlətlərlə iqtisadi əlaqələrin aşağı səviyyəd olması iqtisadi böhranı aradan qaldırmağa mane olurdu.

Belə bir şəraitdə iqtisadi inkişafı təmin edə biləcək strateji mənbəyə ehtiyac var idi. Və bu strateji mənbə neft resursları idi. Heydər Əliyevin ən mühüm nailiyyətlərindən biri neft sahəsində oldu. Azərbaycan neftinin dünya bazarına çıxarılması və neftdən əldə olunan gəlir ilə büdcənin gəlirlərini təmin etmək və möhkəmləndirmək, əhalinin yaşam səviyyəsinin yüksəldilməsində mühüm bir addım idi. 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Bu bağlanmış müqavilə neft sahəsində Heydər Əliyevin qazandığı uğurların hələ başlanğıcı idi. Bu müqavilənin bağlanması ilə Azərbaycana xarici kapitalın qoyulmasının axını gücləndi. Müqavilədə adları çəkilən dövlətlər Azərbaycan ilə bütün sahələrdə əlaqələr qurmağa can atırdılar. Müqavilə yalnız Heydər Əlliyevin şəxsi nüfüzu və təminatı əsasında gerçəkləşməyə başladı.

Heydər Əliyevin apardığı bu məqsədyönlü siyasət nəticəsində Azərbaycan get-gedə öz inkişafını yenidən bərpa edir, qüdrətlənirdi. Əvvəl qeyd etdiyimiz kimi Azərbaycanda iqtisadi inkişaf 2 mərhələdən ibarət idi. Birinci mərhələdə bu inkişafın tənzimlənməsi üçün müəyyən çətinliklər var idisə, artıq ikinci mərhələdə Azərbaycanın bu inkişafı bərpa etməsi üçün kifayət qədər gücə malik idi. 1995-2003–cü illəri əhatə edən bu dövr öz mühüm müqavilələri və islahatları ilə bu müstəqilliyi bir daha möhkəmləndirdi. Artıq Heydər Əliyev öz apardığı siyasət və gördüyü işlər ilə yeni inkişaf modeli – Yeni Azərbaycan modeli yaratdı. Bu inkişaf özünü hər sahədə göstəridi. Bura sahibkarlığı, kənd təsərrüfatını, sənayeni, neft sənayesini, magistralları, bank sahəsini, vergi sahəsini, nəqliyyatı və başqa sahəıəri daxil etmək olar. Bu sahələrin inkişafı artıqca onların başqa xarici dövlətlərlə iqtisadi münasibətləri güclənirdi. Bu Azərbaycanın get-gedə güclənməsinə gətirib çıxardı. Heydər Əliyev həmişə deyirdi:"Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını inkişaf etdirə bilməz".Buna görə də, Heydər Əliyev çalışırdı ki, Azərbaycan başqa dövlətlərlə iqtisadi əlaqələri qurmaq üçün müəyyən inkişaf sahəsinə malik olsun. Heydər Əliyevin yaratdığı yeni model Azərbaycanın inkişafının sürətlənməsi dövrü kimi 1996-cı illərdən başlayaraq daha da artmışdır. Bu dövrlərdə bir çox irimiqyaslı müqavilələr bağlanmış, mühüm əhəmiyyət kəsb edən sənədlər və aktlar imzalanmışdır.

Bu dövrdə Azərbaycanda kənd təsərrüfatında olan durğunluq aradan qaldırılmış, ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərüffat dövrüyyəsinə cəlb olunması, kənd təsərrüfatının inkişaf etdirilməsinə dair qəbul olunmuş islahatlar bu inkişafa xeyli təkan vermişdi.

İpək yolu hələ qədimdən bu günə kimi Avropa ilə Asiya arasında körpü rolunu oynayırdı. İpək yolunun Azərbaycan ərazisindən keçməsi, Azərbaycanın burada tranzin rolunu oynaması bizə iqtisadi və maddi cəhətdən böyük imkanlar verirdi. Avropa Komissiyasının TRASEKA (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) Proqramının yaradılmasının təşəbbüskarı kimi 8 ölkədən biri də Azərbaycan Respublikası olmuşdur. Avropa Birliyinin TASİS (MDB ölkələrinə texniki yardımı) çərçivəsində nəqliyyat infrastukturu üzrə çoxmilli TRASEKA proqramı (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) Mərkəzi Aasiyadan Qara dənizə və daha sonra Avropaya çıxan nəqliyyat marşurutunun yenidən qurulmasını qarşıya məqsəd qoymuşdur.

Azərbaycanın inkişafında mühüm əhəmiyyət kəsb edən sahələrindən biri də neft sənayesidir. Azərbaycan təbii sərvətlərlə zəngin bir ölkədir. Heydər Əliyev neft sahəsində bir çox uğurlara imza atmışdır. Heydər Əliyevin ən böyük uğurlarından biri Azərbaycanın enerji resurslarının dünya bazarına hansı marşurutlarla çıxarılması məsələsi idi. Və yorulmaz əməyi nəticəsində Heydər Əliyev Azərbaycanın enerji resurslarının 2 istiqamətdə dünya bazarına çıxarılmasına nail oldu. 1996-cı ildə Moskvada Azərbaycan neftinin Rusiya ərazisindən keçməklə Qara dənizin Novorossiysk limanına nəql olunması haqqında müqavilə imzalanmışdır. 1996-cı ildə Azərbaycan Prezidenti H.Əliyev və Gürcüstan prezidenti E.Şevardnadze Tiflisdə Bakı-Supsa neft kəmərinin çəkilməsi barədə razılığa gəldilər. ABƏŞ, ARDNŞ və Gürcüstan hökuməti arasında bağlanmış 3 tərəfli müqavilələrdə Azərbaycan "Azəri", "Çıraq", "Günəşli" yataqlardan çıxan ilkin Azərbaycan neftinin daşınmasını Bakı-Supsa neft kəməri vasitəsi ilə nəqlini nəzərdə tuturdu. Neft marşurutlarının alternativliyi Azərbaycanın hər hansı bir dövlətdən iqtisadi aslılığına son qoymaqla yanaşı ölkəmizin milli mənafeyinə cavab verirdi. Bu marşurutun ən böyük üstünlüyü Azərbaycan neftinin təmiz halda "Azəri light" markası ilə dünya bazarına çıxarılmasıdır.

Heydər Əliyevin neft sahəsində növbəti ən böyük uğurlarından biri BTC (Barkı-Tbilisi-Ceyhan) lahiyəsi oldu. Heydər Əliyev "Əsrin müqavilə"si ilə neft strategiyasının inkişafının təməlini qoysa da, Bakı-Tbilisi-Ceyhan lahiyəsi ilə bu uğuru davam etdirdi.Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdir.

Heydər Əliyev təkcə neft sahəsində deyil, Azərbaycanda qaz resurslarının istifadəsi haqqında bir çox sənədlər imzalamışdır. Bu addımlar XXI əsrdə Azərbaycanda qaz sənayesinin inkişafına və Azərbaycanı neftlə yanaşı qaz ixrac edən ölkəyə çevrilməsinə zəmin yaratdı.

Bu gün Heydər Əliyevin əməlləri və ideyaları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti və gərgin əməyi nəticəsində yaşayır. İlham Əliyevin apardığı həm xarici, həm də daxili siyasət Heydər Əliyev əməllərinin davamıdır. Bu siyasətin məğzində Azərbaycanın iqtisadiyyatının inkişafı və əhalisinin yaxşı yaşaması əsas meyarlardan biridir. Azərbaycan və Azərbaycan xalqı var olduqca, Heydər Əliyev əməlləri və ideyaları daim yaşayacaq və qorunub saxlanacaq.

İqtisadi inkişaf sürətinə görə dünyada lider ölkələrdən olan Azərbaycan bu gün öz müasir və çevik iqtisadi siyasətinə görə fərqlənir. Güclü əsasları olan Azərbaycan iqtisadiyyatı və onun cəlbedici imkanları artıq Qərb-Şərq, Şimal-Cənub arasında inteqrasiya rolunu oynamaqdadır. Ölkə Prezidenti İlham Əliyevin düşünülmüş, gələcəyə hesablanmış iqtisadi qərarları Azərbaycanın iqtisadi qüdrətini dayanlıqlı etməyə hesablanmışdır və bu qərarlar artıq öz nəticələrini verməkdədir.

Ədəbiyyat

1. https://ictimaifikir.az/index.php?newsid=24283
2. https://justice.gov.az/articles/90
3. https://nk.gov.az/az/page/33/

РЕЗЮМЕ

ГЕЙДАР АЛИЕВ И ГОСУДАРСТВЕННОЕ СТРОИТЕЛЬСТВО В АЗЕРБАЙДЖАНЕ: КОНЦЕПЦИЯ УСТОЙЧИВОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ

Кахраманова Ч.М.

Ключевые слова: *экономика, внутренняя политика, экономическое развитие, стратегический источник*

В первые же периоды деятельности Гейдара Алиева быстрое экономическое развитие Азербайджана стало неоспоримым фактом. В то время в Азербайджане преобладало уникальное развитие не только в промышленной сфере, но и

в сельском хозяйстве. Азербайджан особенно отличался развитием сельского хозяйства в СССР. За это время Азербайджан сохранил свое место в авангарде сбора хлопка, выращивания винограда и технических растений. Такой человек, который заботится о своем народе и своей Родине, как Гейдар Алиев, прекрасно осознавал, что мощный экономический потенциал служит не только на благо страны, но и на повышение уровня жизни населения.

SUMMARY
HEYDAR ALIYEV AND STATE ESTABLISHMENT IN AZERBAIJAN: CONCEPT OF SUSTAINABLE ECONOMIC DEVELOPMENT
Kahramanova Ch.M.

Key words: *economy, domestic policy, economic development, strategic source*

In the very first periods of Heydar Aliyev's activity, rapid economic development in Azerbaijan became an undeniable fact. At that time, unique development prevailed in Azerbaijan, not only in the industrial sector, but also in agriculture. Azerbaijan was particularly distinguished by the development of agriculture in the USSR. During these times, Azerbaijan maintained its place in the forefront of cotton harvesting, cultivation of grapes and technical plants. A person who cares about his people and his homeland like Heydar Aliyev was well aware that the strong economic potential is both for the benefit of the country and serves to raise the standard of living of the population.

AZƏRBAYCANDA BANK SEKTORUNUN İNKİŞAF MƏRHƏLƏLƏRİ

Qənbərov Həsən Vüqar oğlu
İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan, doktorant
hasan.ganbarov@hotmail.com

Açar sözlər: *bank sektoru, kapital, ÜDM, risk, kredit*

Bank sektoru Azərbaycanın maliyyə sektorunun mühüm elementidir. Bu gün banklar aktiv və kapitala, regional əhatə dairəsinə görə digər maliyyə vasitəçilərini dəfələrlə üstələyir. Banklar nağd pul vəsaitlərinin inkassasiyası, kredit verilməsi, nağd pul svopları, tədavül üçün kredit vəsaitlərinin buraxılması, müxtəlif qiymətli kağızların buraxılması və s. funksiyalarını yerinə yetirən özəl iqtisadi qurumlardır. Bank sənayesi bankların, bank infrastrukturunun, bank qanunvericiliyinin və bank bazarının məcmusudur. Azərbaycanda iki mərhələli bank sektoru mövcuddur. Birinci mərhələdə Azərbaycan Mərkəzi Bankı fəaliyyətini davam etdirir, ikinci mərhələdə isə dövlət bankları, kommersiya bankları və bank olmayan kredit təşkilatları fəaliyyət göstərir.

Azərbaycan Respublikasının bank sisteminin ilk tərəqqisi 19-cu əsrin ikinci yarısında başlasa da, Azərbaycan bank sisteminin institusional və hüquqi əsası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi əldə edildikdən sonra baş verdi. 1992-ci ildə "Respublika Milli Bankı" və "Azərbaycanda banklar və banklar tərəfindən görülən işlər haqqında Əsasnamə" bank sisteminin hüquqi-normativ mənbəyinin əsasını təşkil etmişdir. 1992-ci ildə Prezidentin qərarları ilə Azərbaycan Milli, Mərkəzi və Əmanət kassaları yaradıldı. Azərbaycanda fəaliyyət göstərən bütün bankların idarəetmə səlahiyyətləri Azərbaycan Mərkəzi Bankına verilib. Bank sektorunun azadlığı ilə bağlı yaradılmış şəraitə uyğun olaraq Azərbaycanın milli valyutası olan "Manat" 1992-ci il avqustun 15-də dövriyyəyə buraxılmış və Mərkəzi Bankda onun digər valyutalara nisbətdə dəyərinin qorunması istiqamətində fəaliyyətə başlanmışdır. 1994-cü il yanvarın 1-dən manat Respublikanın yeganə ödəniş vasitəsi olmuşdur. 1995-ci il noyabrın 12-də keçirilmiş referendumda təsdiq edilmiş Azərbaycanın ilk Konstitusiyasının 19-cu maddəsinin ikinci hissəsində pul nişanlarının buraxılması və onların ləğvi səlahiyyəti yalnız Mərkəzi Banka verilmişdir. Mərkəzi Bankın ölkənin müstəsna mülkiyyətinə daxil olması da izah edilmişdir.

2000-2003-cü illərdə bank sektorunun keyfiyyətinin və etibarlılığının artırılması, zəif bankların fəaliyyətinin qarşısının alınması məqsədilə bankların sintezi və genişlənməsi üzrə tədqiqatlar davam etdirilmişdir. Bu əməliyyatlar sayəsində bank sahəsində fəaliyyət göstərən bankların sayı 46-ya qədər azalmışdır. Azərbaycan Mərkəzi Bankının fəaliyyətinin tərəqqi dövründə bu illər makroiqtisadi vəziyyətin daxili və xarici təzyiqlərdən ciddi şəkildə təsirləndiyi illər kimi göstərilmişdir. 2008-ci ilin ikinci yarısından başlayaraq dünyanın bir çox ölkələrində geniş vüsət alan qlobal böhran Azərbaycan Respublikasında da makroiqtisadi vəziyyətə və bank sektorunun fəaliyyətinə mənfi təsir göstərmişdir. 2009-2012-ci illərdə bankların kapital adekvatlığını artırmaq məqsədilə banklar mənfəət vergisindən azad edilmişdir. Əmanətlərin azalma tendensiyasının qarşısını almaq, cəmiyyətin bank sahəsinə inamını və marağını təmin etmək məqsədilə Əmanətlərin Sığortalanması Təşkilatına tabe olan banklarda əmanətlərin xüsusi çəkisi artırılıb. Bu tədbirlər nəticəsində dünyanın bir çox ölkələrində iqtisadi və maliyyə çöküşünün yaşanmasına baxmayaraq, Azərbaycan iqtisadiyyatı və bank sektoru inkişafını davam etdirmişdir.

2016-2017-ci ilin ilk aylarında qlobal maliyyə böhranı fonunda likvidlik riski ilə bağlı milli bank sektorunda gərginlik yaşanıb. Belə vəziyyət Mərkəzi Bankın kredit və depozit mövqeləri ilə bağlı likvidlik riskinin idarə edilməsində banklara daha konservativ yanaşmasına səbəb olub. Bu səbəbdən il ərzində bank sektorunun ani likvidlik səviyyəsi 75%-dən aşağı düşməyib. 2016-cı ilin oktyabr-2017-ci ilin iyul ayları arasında iqtisadiyyata, real sektorun mühüm şirkətlərinə və banklara 2 milyard dollar likvid vəsait verilib. Əhalinin banklardakı əmanətlərinin müsbət dinamikası, əvvəllər qeyd edildiyi kimi, makroiqtisadi amillər və birbaşa bankların inkişaf strategiyasının həyata keçirilməsinin uğurlu nəticələri ilə şərtlənir. Şübhəsiz ki, əmanətlərin sığortalanması sistemindəki inkişaflar və kompensasiyaların məbləğinin maksimuma çatdırılması bu baxımdan çox əhəmiyyətli olmuşdur.

Azərbaycan müstəqillik əldə etdikdən sonra həyata keçirirlən iqtisadi islahatlar və dünya bazarına neft ixracının artması ilə ÜDM-in və ixracın həcmi sürətli artmış, əhlinin sosial vəziyyəti yaxşılaşmışdır. İqtisadiyyatda artımın olması və əhalinin nominal gəlirlərinin artması bank sektorunun inkişafına da ciddi təsir göstərmişir. Bankların inkişaf etməsi ilə yanaşı sektorda rəqabətin artması və Mərkəzi Bankın 2010-cu ildə bank kapitalına minimum tələbin 10 mln manatdan 50 mln manata çatdırılması bank sektorunun formalaşmasında mühüm rol oynamışdır. 2015-ci ildə Azərbaycanın milli valyutası manatın 2 dəfədən çox ucuslaşması bank sektoruna cidi təsir göstərmiş bə bəzi bankların bağlanmasına səbəb olmuşdur. Belə ki, 2005-ci ildə ölkədə 44 bank fəaliyyət göstərmiş və 2010-cu ildə daha bir bank yaranaraq bankların sayı 45-ə çatmış, ancaq 2015-ci il devalvasiyasında sonra 15 bank bağlanaraq bankların sayı 30-a düşmüşdür. 2020-ci ildə isə 4 bank bağlanmış və hazırda ölkədə mövcud bankların sayı 26-dır. Bank sektoru bu dövrdə bütün göstəricilər üzrə kəskin artmışdır. Belə ki, Qrafikdə göründüyü kimi 2021-ci ildə Azərbaycanda bank sektorunun aktivlərinin həcmi 2005-ci ilə müqayisədə 17.1 dəfə, kredit qoyuluşlarının həcmi 12.2 dəfə, bank kapitalının həcmi 12.8 dəfə, depozitlərin həcmi isə 21.2 dəfə artmışdır. (Qrafik)

Qrafik. Azərbaycanın bank sektorunun inkişafı



Mənbə:*Qrafik AMB, Azərbaycan Banklar Assosiyasının məlumatları əsasında müəllif tərəfindən hesablanıb*

Bank sektorunda səmərəlilik göstəriciləri üzrə də artım baş vermişdir. Belə ki, 2005-ci ildə bank aktivlərinin ÜDM-də xüsusi çəkisi 18%, kredit qoyulşlarının həcminin qeyri neft ÜDM-də xüsusi çəkisi 23.8% olsa da, 2021-ci ildə müvafiq olaraq 41.4 və 29.6% təşkil etmişdir. Mühüm göstəricilərdən biri olan kredit qoyuluşlarında dollarlaşmanın azalmasıdır. Belə ki, 2005-ci ildə xarici valyutada kredit qoyuluşlarının xüsusi çəkisi 62,3% olsa da, 2021-ci ildə bu göstrici 25.8%-ə düşmüşdür.

Azərbaycan bank sisteminin əsas xüsusiyyətlərindən biri, adətən vahid filial bank növü olan, müəyyən ixtisaslaşma olan investisiya sahələrini maliyyələşdirmək və kommersiya bankçılığı adlanan qısamüddətli kredit sahəsində çalışmaqdır. Azərbaycan Respublikasında bankların əsas fəaliyyət sahəsi kreditlərin verilməsi ilə bağlıdır. Banklar ümumiyyətlə hökumətə və oxşar dövlət qurumlarına kredit xidmətləri göstərir. Bununla belə, kredit xidmətlərində mühüm çatışmazlıqları qeyd etmək lazımdır: investisiya məqsədlərinə xidmət edən kreditlər ya mənfi, ya da kiçik bir paya malikdir. Ümumilikdə verilən kreditlərin 90%-dən çoxu qısamüddətli kreditlərdir.

Azərbaycanda bank sektorunun istər statistik və istərsə də riyazi hesablama-ları onu deməyə əsas verir ki, ilk növbədə bu sektorda rəqabətin təmini və daha da inkişaf etdirilməsi üçün potensial imkanlar var.

İkinci bir önəmli məqam isə ölkə bankları arasında olan rəqabətin əsasən kredit məhsulları arasında olmasıdır. Yəni hal-hazırda ölkə banklarının gəlirinin əsas hissəsini faiz gəlirləri təşkil edir. Beynəlxalq təcrübələrə əsasən bank o halda sağlam gəlirlə və dayanıqlı bank hesab olunur ki, gəlirinin əsas hissəsini qeyri-faiz gəlirləri təşkil etsin. Bu baxımdan Azərbaycan bankların qeyri faiz gəlirlərinin artırılması zəruridir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının "Mərkəzi Bank haqqında" Qanunu (10. XII. 2022-cü il).
2. Экономическая безопасность. Производство. Финансы. Банки / Под ред. В.К. Сенчагова. - М.: Финстатинформ, 2020.

РЕЗЮМЕ
ЭТАПЫ РАЗВИТИЯ БАНКОВСКОГО СЕКТОРА В АЗЕРБАЙДЖАНЕ
Ганбаров Г.В.

***Ключевые слова**: банковский сектор, капитал, ВВП, риск, кредит*

В статье были рассмотрены направления развития банковского сектора после обретения Азербайджанской Республикой независимости. Сравнивая различные показатели банковского сектора 2021 года с 2005 годом, было установлено, что банковский сектор Азербайджана развивался по всем направлениям. Также в исследовании представлены предложения о новых вызовах, стоящих перед банковским сектором.

SUMMARY
STAGES OF DEVELOPMENT OF THE BANKING SECTOR IN AZERBAIJAN
Ganbarov G.V.

***Keywords:** banking sector, capital, GDP, risk, credit*

The article considered the directions of development of the banking sector after the independence of the Republic of Azerbaijan. Comparing various indicators of the banking sector in 2021 with 2005, it was found that the banking sector of Azerbaijan was developing in all directions. The study also presents proposals on new challenges facing the banking sector.

ƏSRİN MÜQAVİLƏSİ İLƏ BAŞLANAN İNKİŞAF

Qocayev Samin Məhiyəddin oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
samin-qocayev@mail.ru

***Açar sözlər:** neft strategiyası, inkişaf, iqtisadiyyat, Heydər Əliyev, xarici neft şirkətləri, müqavilə*

1993-cü ildə Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərliyə gəlişi ilə Respublikamızın ictimasi-siyasi, sosial-iqtisadi və mədəni həyatında yeni bir dövr başladı. Çox çətin bir məqamda ölkənin sükanı arxasına keçən Ümummilli lider bu çətin vəziyyətdən ölkəni çıxarmaq üçün əməli addımlar atmağa başladı. Ölkəni parçalanmaqdan xilas edəndən sonra Heydər Əliyevin əsas məqsədi iqtisadi cəhətdən ölkəni dirçəltmək idi. Ermənistanla 1994-cü il may ayının 8-də Bişkek şəhərində atəşkəs barədə razılıq əldə ediləndən sonra Ümummilli lider iqtisadiyyatımızın yenidən qurulması üçün tədbirlər həyata keçirməyə başladı. SSRİ dağılandan sonra bütün keçmiş sovet ölkələrində müşahidə edilən iqtisadi tənəzzül Azərbaycanda da müşahidə edilməkdə idi. Ona görə də Heydər Əliyev Azərbaycanın ənənəvi iqtisadi sahəsi olan neft sahəsini dirçəltməyə başladı. Həmin dövrdə Dövlət Neft Şirkətinin vitse-prezidenti olan İlham Əliyev də bu proseslərdə çox yaxından iştirak edirdi. Əsas çətinliklərdən biri iri şirkətləri bu layihəyə cəlb etmək idi. Onlar Ermənistanla Azərbaycan arasında növbəti müharibədən çəkinərək belə bir böyük layihədə iştirak etməkdən çəkinirdilər. Amma Heydər Əliyevin təcrübəsi və İlham Əliyevin qətiyyəti sayəsində nəhayət ki, 1994-cü ildə sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti və dünyanın 7 ölkəsindən olan 13 şirkətlə neft müqaviləsi bağlandı. Rusiya, Türkiyə, Yaponiya, Norveç, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları və Səudiyyə Ərəbistanına məxsus BP, Amoko, Statoil, Delta, Remko, Lukoyl və digər şirkətlərlə imzalanmış müqaviləyə görə Xəzər dənizinin Azərbaycan sektorunda Azəri-Çıraq-Günəşli yataqlarının pay bölgüsü haqqında razılıq əldə edildi. 4 Dildə və 400 səhifə həcmində olan müqavilə beynəlxalq əhəmiyyətinə, Azərbaycanın sonrakı inkişafında mühüm yer tutduğuna görə "Əsrin müqaviləsi" adlandırıldı [1, 355 s.].

Müqavilə 1994-cü il dekabrın 12-də Azərbaycan parlamentində təsdiq edildi. İlkin hesablamalara görə hər üç yataqda neft ehtiyatlarının miqdarı 511 milyon ton nəzərdə tutulsa da, son dəqiqləşdirmələrdən

sonra bu rəqəmin 1 milyard tonu keçdiyi qeyd edilir. Müqavilədə ümumi xalis gəlirin 80%-ı Azərbaycana, 20%-ı isə digər dövlətlərə çatacağı razılaşdırılmışdı. Yataqlara qoyulacaq sərmayənin həcmi isə 11,5 milyard dollar nəzərdə tutulmuşdu [1, 356].

1997-ci ildə Çıraq yatağından ilk neft hasilatına başlanıldı. 1997-ci ildə daşınmanı daha sürətli təmin etmək üçün 231-km-lik Bakı-Novorossiysk neft kəməri bərpa edilərək istifadəyə verildi. Şimal istiqamətində məsələ öz həllini tapandan sonra qərb istiqamətinə də diqqət artırıldı və 1999-cu il aprelin 17-də 837-km uzunluğunda Bakı-Supsa neft kəməri də istifadəyə verildi [2,117s].

Amma məsələ bununla bitmədi. 1999-cu ilin noyabrında İstanbulda ATƏT-in növbəti sammitində daha böyük bir uğura imza atıldı. Azərbaycan, Türkiyə, ABŞ, Qazaxıstan, Gürcüstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan "Əsas ixrac neft kəməri"nin çəkilməsi haqqında razılıq əldə edidi. Bir çox dövlətlər, xüsusilə Respublikamıza düşmən münasibətdə olanlar bu layihənin bir xəyal olduğunu düşünərək bizə gülsələr də, Heydər Əliyevin başçılığı altında yenidən mümkün olmayanın öhdəsindən gələ bildik. 2002-ci ildə Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin əsası qoyuldu. Amma çox təəssüf ki, Heydər Əliyev bu layihənin tamamlanmasını görə bilmədi. 2003-cü il dekabrın 12-də müalicə aldığı Klivlend xəstəxanasında rəhmətə getdi. 2003-cü ilin prezident seçkilərində İlham Əliyev qalib gəldi. İlham Əliyev öz andiçmə mərasimində prioritetləri açıqlarkən Qarabağ məsələsini həll etməyi əsas məsələ, bu məqsədlərə çatmaq üçün isə daha güclü iqtisadiyyata malik dövlət qurmağı qarşıya məqsəd qoymuşdur [4].

2005-ci ildə açılış mərasimi Azərbaycan, Gürcüstan və Türkiyə dövlət başçılarının iştirakı ilə yüksək səviyyədə qeyd edilmiş, 2006-cı ildə Ceyhan limanından ilk neft nəqlinə başlanmışdır.

Neft sahəsindəki uğurlarla yanaşı 2001-ci ildə Azərbaycan yeni bir uğura imza atdı. Belə ki, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsi ilə bağlı razılıq əldə olundu ki, bu da Azərbaycanı artıq təkcə neft ixracatçısına deyil, həm də qaz ixracatçasına çevirə bilərdi. 2006-cı ildə tikintisi başa çatdırılan bu qaz kəməri vasitəsilə Azərbaycan hal-hazırda Avropaya qaz nəql edən əsas ölkələrdən biri hesab edilir. Bu qaz kəmərinin fəaliyyətə başlaması, həm də gələcəkdə "Cənub Qaz Dəhlizi" layihəsi üçün bir başlanğıc oldu. Şahdəniz qaz yatağının kəşfindən sonra Azərbaycanın çox böyük qaz ehtiyatına malik olduğu aşkar edildi [3]. 2014-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin 20 illiyində Səngaçal terminalında "Cənub Qaz Dəhlizinin" əsası qoyulur. Hal-hazırda bu ehtiyatın 2,5 trilyon kub metrə qədər olduğu güman edilir. "Cənub Qaz Dəhlizi"nin 3 borudan ibarət olmaqla ümumilikdə 3500 km uzunluğunda olan boru kəmərləri vasitəsilə TAP və TANAP layihələri də sona çatmışdır ki, İtaliyaya qədər uzanan bu boru kəməri vasitəsilə Azərbaycan hal-hazırda Qərbi Avropa dövlətlərinə də qaz ixrac edir.

2017-ci ilin sentyabrında "Əsrin müqaviləsinin" 23-cü il dönümündə Bakıda Azəri-Çıraq-Günəşli yataqlarında dərinlikdə olan hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında yeni saziş imzalandı. Sazişə əsasən BP şirkəti layihənin operatoru kimi fəaliyyətini davam etdirir, SOCAR-ın payı 11 faizdən 25 faiza qaldırılır, mənfəət neftinin isə 75 faizi Azərbaycana qalırdı. "Yeni Əsrin müqaviləsi" kimi adlandırılan bu saziş Azərbaycanın yeni neft strategiyasını da müəyyənləşdirdi [5].

2022-ci il fevralın 24-dən başlanan Rusiya-Ukrayna müharibəsindən sonra Azərbaycanın nüfuzu daha da artmışdır. Xüsusilə Rusiya neft və qazına qoyulan qadağalardan sonra, Avropa İttifaqı ölkələri ilə Azərbaycan arasında bir sıra müqavilələr bağlanmışdır. Müharibə başlayandan 10 ölkə ya ixracın artırılması ilə bağlı, ya da ixraca başlamaqla bağlı müraciətlər etmişdir. Hal-hazırda Azərbaycan Avropa İttifaqının əsas strateji tərəfdarlarındandır. Ölkəmizə bir neçə ay ərzində müxtəlif dövlətlərin hökümət başçılarının rəsmi səfəri baş tutmuşdur ki, bu səfərlərin də əsl səbəbini bilmək elə də çətin deyildir.

Beləliklə, əsası Heydər Əliyev tərəfindən "Əsrin müqaviləsi" ilə qoyulan neft strategiyası İlham Əliyev tərəfindən davam etdirilir. Bu illər ərzində Azərbaycan iri neft-qaz layihələrində iştirak etməklə Azərbaycanı regionda ən güclü dövlətə çevirməklə yanaşı, həm də bu sahələrdən gələn kapital hesabına qeyri-neft sektorunu inkişaf etdirmiş və insan kapitalına çevirməyə bacarmışdır. İqtisadiyyatımızın inkişafı sayəsində həm də güclü ordu qurmağı bacaran dövlətimizin 44 günlük müharibədə Ermənistan tərəfindən işğal edilmiş ərazilərimizi qaytarmaqla ərazi bütövlüyünü təmin etməsi yürüdülən düzgün siyasi xəttin nəticəsidir. Amma torpaqlarımızın qaytarılması ilə hələ işlər bitməyib, əksinə bundan sonra rayon və şəhərlərimizin abadlaşdırılması və dədə-baba torpaqlarından didərgin düşmüş məcburi köçkülərimizin öz yurdlarına köçürülməsi təmin edilməlidir. Bütün bunlar isə milyardlarla manat pul hesabına mümkündür. Bu pulların isə böyük hissəsi böyük neft-qaz layihələrindən gələn gəlirlər hesabına mümkün olacaqdır.

Ədəbiyyat

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I cild, Bakı Azərnəşr, 1997, 608 s.
2. Məmmədov C. Avrasiyanın islam dövlətləri. Bakı, 2000, 345 s.
3. https://minenergy.gov.az/az/neft/esrin-muqavilesi
4. https://president.az/az/pages/view/azerbaijan/contract

5. https://xalqqazeti.com/az/news/111803

РЕЗЮМЕ
КОНТРАКТ ВЕКА - ПУТЬ К РАЗВИТИЮ
Годжаев С.М.

Ключевые слова: *нефтяная стратегия, развитие, экономика, Гейдар Алиев, иностранные нефтяные компании, контракт.*

Соглашение века, подписанное 20 сентября 1994 года Азербайджаном и рядом зарубежных нефтяных компаний мира, заложило основу для нового этапа социально-экономического развития Азербайджана. Благодаря этому соглашению был обеспечен экспорт азербайджанской нефти на европейский рынок. Это, в свою очередь, дало возможность вкладывать капитал в другие социально-экономические проекты за счет нефтяных доходов. Не так сложно понять, насколько важны эти деньги для страны, только что обретшей независимость. Контракт века был не только обычным нефтяным контрактом, он был и будущим развитием, и укреплением нашей независимости. С этой точки зрения значение договора еще более возрастает.

SUMMARY
CONTRACT OF THE CENTURY - THE ROAD TO DEVELOPMENT
Gojayev S.M.

Keywords: *oil strategy, development, economy, Heydar Aliyev, foreign oil companies, contract*

The Agreement of the Century, signed on September 20, 1994 with Azerbaijan and a number of foreign oil companies of the world, laid the foundation for a new stage in the socio-economic development of Azerbaijan. Thanks to this agreement, the export of Azerbaijani oil to the European market was ensured. This, in turn, made it possible to invest capital in other socio-economic projects at the expense of oil revenues.

It is not so difficult to understand how important this money is for a country that has just gained its independence. The contract of the century was not only an ordinary oil contract, the contract of the century was both future development and strengthening of our independence. From this point of view, the importance of the contract increases even more.

TƏBİİ PROSESLƏRİN ENERJİSİNİN ELEKTRİKƏ ÇEVRİLMƏSİ

Qəribov Amil Mürvəd oğlu
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan
amil.qeribov1988@gmail.com

Açar sözlər: *elektrik enerjisi, tükənməz xammal, alternativ enerji, yaşıl texnologiya, su hövzəsi, iqtisadi səmərə*

Giriş. Məqalədə bu prinsipdən bəhs edərək atmosfer təzyiqinin hesabına elektrik enerjisi əldə etməyin yolunu göstərmişəm. İşin əsili birləşmiş qablar qanununa yeni yanaşma tərzidir.



Şəkil 1. *Birləşmiş qablar qanununu izah edən sxem.*



Şəkil 2. *Təbii proseslərdən enerji alınmasını izah edən sxem.*

Şəkil 1-dən göründüyü kimi bu birləşmiş qabların formaları bir-birindən kəskin şəkildə fərqlənir. Birləşmiş qablar qanununu yaradan atmosfer təzyiqinin yerin səthində bərabər paylanmasıdır.

Birləşmiş qablarda suyun səviyyəsinin eyni qalması, sağ və sol qolun səthindəki təzyiq və mayenin qabın divarları ilə yaratdığı sürtünmə qüvvəsindən asılıdır.

Materiallar və metodlar. Birləşmiş qabın sol qolunu böyük həcmli konus hazırlayıb su hövzəsinin içərisinə yerləşdiririk. Sağ qolu borudan hazırlayırıq. Borunu hündürlüyü 50-100 metr olan su anbarına birləşdiririk.

Borunun iç səthinə bir-birindən elektrik keçirməyən arakəsmə ilə ayrılan iki metal lövhə yapışdırırıq. Bu metal lövhələrə əks istiqamətdə axan kiçik voltlu (12-24 volt) sabit cərəyan veririk. (şəkil 2)

Əks istiqamətli axının borunun iç səthində yaratdığı elektromaqnetik sahə sürtünmə qüvvəsini azaldır. Qolların ölçüləri və içərisindəki suyun ağırlığı yaranan sürtünmə qüvvəsi ilə düz mütənasibdir. Yəni qolun həcmi nə qədər kiçik olarsa, onun divarında yaranan sürtünmə qüvvəsi o qədər çox olur.

Sağ borudakı sürtünmə qüvvəsi azaldığından, sol tərəfdəki suyun kütləsi ilə üzərindəki atmosfer təzyiqinin təsirindən sağ qoldakı su istədiyimiz hündürlüyə qalxır.

Nəticə.

Cüzi elektrik enerjisi sərf etməklə suyu istədiyimiz hündürlükdə hazırladığımız su anbarına doldururuq. Yüksəklikdəki su anbarından suyu su hövzəsinə təkrar boşaldırıq. Suyu boşaltdıqda yaranan suyun potensial enerjisini elektrik turbinindən keçirərək elektrik enerjisinə çeviririk. Anbardan dənizə boşaldılan su borusunun üzərində su elektrik stansiyası qurulur.

Bu üsul alternativ enerji sahəsinə aiddir [3]. Üsulun əsasında yaradılan texnologiya ekologiyaya zərər verməyəcəkdir [4]. Texnologiyanın üstün cəhəti digər üsullarla müqayisədə iqtisadi səmərəli olmasıdır.

Ədəbiyyat

1. Yaşıl inkişaf : enerji səmərəliliyi və alternativ mənbələr, Azərb. Resp. Prezidenti Yanında Strateji Araşdırmalar Mərkəzi. V. Qasımlı, Z. Vəliyev, M. Hümbətov, s. 143, 2014. http://ek.anl.az/lib/item?id=chamo:377681&theme=e-kataloq
2. Alternativ enerji və ekologiya, R. N. Əliyev , P. Əliyev, s. 368, 2015. https://www.ebooks.az/book_v2qdpM5Q.html
3. Qəribov A.M., Tağıyev İ. “Alternativ enerji mənbələrindən yeni növ yanacaq istehsalı və tədqiqi”, Journal of Baku Engineering University, say. 2, s. 87-92, 2018. http://journal.beu.edu.az/journal-details/13/
4. Qəribov A.M., Leonyuk İ. Получение топлива из возобновляемых источников энергии. World science: problems and innovations, чис. 26, 2018, с. 38-40. https://www.elibrary.ru/item.asp?id=36616985

РЕЗЮМЕ

ПРЕОБРАЗОВАНИЕ ЭНЕРГИИ ПРИРОДНЫХ ПРОЦЕССОВ В ЭЛЕКТРИЧЕСТВО

Гарибов А.М.

Ключевые слова: *электричество, неисчерпаемое сырье, альтернативная энергетика, зеленые технологии, водоем, экономическая эффективность*

Энергетические ресурсы в природе неисчерпаемы и получить их несложно. Увеличение потребности в энергии создает необходимость использования новых источников. Ведется поиск эффективных способов извлечения выгоды из альтернативных и возобновляемых источников энергии. Энергия получается за счет целенаправленного использования силы давления, создаваемой другой рукой, за счет уменьшения и минимизации силы трения на одной руке.

Вес миллионов тонн атмосферного слоя создает на поверхности земли неиссякаемый источник энергии, то есть силы давления. Сила давления, падающая на земную поверхность, распределяется равномерно. То есть на каждую точку земной поверхности приходится одинаковое количество давления.

Можно преобразовать этот источник энергии в электрическую энергию, создав разность давлений в любых двух желаемых точках.

SUMMARY

CONVERSION OF THE ENERGY OF NATURAL PROCESSES INTO ELECTRICITY

Garibov A.M.

Key words**:** *electricity, inexhaustible raw materials, alternative energy, green technology, water basin, economic efficiency.*

Energy resources are inexhaustible in nature and it is not difficult to obtain it. The increase in energy demand creates the need to use new sources. Effective ways to benefit from alternative and renewable energy sources are being sought. Energy is obtained by purposefully using the pressure force created by the other arm by reducing and minimizing the friction force on one arm.

The weight of millions of tons of the atmospheric layer creates an inexhaustible source of energy, that is, pressure force, on the surface of the earth. The pressure force falling on the earth's surface is evenly distributed. That is, the same amount of pressure falls on every point of the earth's surface.

It is possible to convert this energy source into electrical energy by creating a pressure difference at any two desired points.

QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİNDƏ HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

Qurbanova Lalə İsbat qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
lale.qurbanova.85@inbox.ru

Açar sözlər: *Heydər Əliyev, Qarabağ münaqişəsi, işğal, deportasiya, azərbaycançılıq*

Milli dövlət quruculuğunda əvəzsiz xidmətləri olan Ulu öndər Heydər Əliyevin fəaliyyətini araşdırdıqda bu dahi şəxsiyyətin "Azərbaycançılıq" ideologiyasının müddəalarını əldə rəhbər tutaraq ərazi bütövlüyümüzün təmin olunmasında və müdafiəsində həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə göstərdiyi səylərin çox böyük tarixi əhəmiyyətə malik olduğunun 2020-ci ildə 44 günlük "Vətən müharibəsi"nin nəticəsində əldə etdiyimiz uğurlu nəticələrin timsalında bir daha şahidi oluruq.

Dövlətçilik tariximizə öz fəaliyyəti ilə əvəzolunmaz tövhələr verən Ümummilli lider Heydər Əliyev siyasi kursunun əsas istiqamətlərindən biri məhz Qarabağ probleminin həllini əhatə edirdi. Azərbaycan xalqının milli marağını rəhbər tutaraq beynəlxalq müstəvidə bu münaqişə ilə bağlı olan həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmaq və xarici ölkələrdə yerləşən diaspora və lobbiçilik qurumlarının üzvləri ilə şəxsən görüşlər keçirərək onları mütəşəkkil şəkildə haqq işimiz üçün bir araya gətirmək Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin baza prinsipini təşkil edirdi.

Hələ 60-70-ci illərdə erməni millətçilərinin Dağlıq Qarabağı Ermənistana birləşdirmək planlarını həyata keçirmək cəhdləri fəallaşmışdı. 1977-ci ildə yeni konstitusiyanın qəbulu ilə əlaqədar yaradılmış Konstitusiya Komissiyasının üzvü olan Heydər Əliyev Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı saysız-hesabsız ərizələrin daxil olmasına diqqət yetirmiş və bununla bağlı müzakirələrin aparılacağı planlarını bildikdə kəskin etirazını bildirərək onların müzakirə mövzusundan çıxarılmasına müvəffəq olmuşdur. Bu cür cəhdlərin qarşısını rəhbər vəzifədə işlədiyi 14 il ərzində dəfələrlə almaqla Ümummilli lider Heydər Əliyev böyük səy göstərmişdir. Sonralar bu haqda çıxışlarının birində bu haqda xüsusi vurğulayaraq "Mən o vaxt bunların qarşısını aldım. Amma qarşısını almaq da çətin idi. İradəmlə və Azərbaycan xalqının milli mənafelərini canımla, qanımla müdafiə edərək qarşısını aldım" [4].

Ümumiyyətlə Heydər Əliyev sovet dövründə rəhbər vəzifədə işlədiyi illərdə dəfələrlə erməni separatçılarının qəsbkar planlarının qarşısını qətiyyətlə alır və münaqişə həddinə gəlib çıxmasına imkan vermirdi. Orada yaşayan azərbaycanlıların haqq və hüquqlarını müdafiə etməklə Ümummilli lider hər bir sahədə millətimiz üçün əsl sərkərdə kimi mübarizə aparırdı. Hətta o vaxt fəaliyyət göstərən və hər gün Azərbaycana qarşı yeni-yeni torpaq iddiaları fikirləşən və bu iddiaları nəyin bahasına olursa, olsun reallaşdıran erməni rəsmiləri, xüsusilə Ermənistan KP MK-nın büro üzvləri Heydər Əliyevin onlar üçün ciddi maneə yaratdığını dəfələrlə etiraf etmişdilər. Bununla da demək olar ki, bir müddətlik ermənilərin torpaq iddialarına fasilə verilmiş oldu. 1984-cü ilə qədər onlar bu haqda məsələ qaldırmamaqla dəfələrlə etiraf edirdilər ki, onların bu iddialarının qarşısı Heydər Əliyev tərəfindən alınır və onlar bir daha torpaq istəklərini bildirə bilməzlər. Heydər Əliyevin güclü və böyük şəxsiyyət olduğunu ermənilər çox yaxşı dərk edirdilər və onunla hesablaşmağa məcbur idilər. Onlar Moskvada Heydər Əliyevin çox böyük nüfuza sahib olduğunu dəfələrlə etiraf etmişdilər. 1984-cü ildə Qorbaçovun yenidənqurma siyasəti ilə ermənilərin də yenidən torpaq iddiaları alovlandı. Separatçı daşnaq ideoloqları Heydər Əliyevə qarşı təxribat və hücumlarını artırmağa davam edirlər. O zamanlar Heydər Əliyevə qarşı başladılmış böhtan kompaniyasına M.Qobaçov rəhbərlik edirdi. 1986-1987-ci illərdə ermənilər Dağlıq Qarabağ Muxtar vilayətinin Ermənistana birləşdirilməsi üçün imza toplama kompaniyasına başladılar. 1987-ci ildə Heydər Əliyev tutduğu SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən səhhəti ilə bağlı istefa verdikdən sonra Siyasi Bürodan da uzaqlaşdırıldı. Onun hakim dairələrdən uzaqlaşmasını ermənilər boyük tarixi imkan kimi dəyərləndirib fəaliyyətlərinin miqyasını bir az da genişləndirməyə başladılar. Onların beynəlxalq erməni lobbisinin maliyyə dəstəyi ilə gerçəkləşdirməyi planlaşdırıdqları ən birinci fəaliyyətləri Azəbaycan əsilli əhalinin Qərbi azərbaycan torpaqlarından tamamilə çıxarılaraq etnik təmizləməyə nail olmaq idi. Buna görə də 1988-ci ilin noyabr və dekabr aylarını əhatə edən müddətdə 22 rayondan kütləvi surətdə 300 mindən çox azərbaycanlı deportasiya edildi. 185 yaşayış məntəqəsinə vəhşicəsinə hücumlar təşkil edən erməni quldur dəstələri 217 nəfəri xüsusi amansızlıqla qətlə yetirmiş, deportasiyaya məruz qalan mülki əhalinin mülkiyyətini müsadirə etmişdilər. Elə həmin ildə ermənilərin "miatsum" şüarları altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbləri yenidən alovlandı. Bütün bu olanlara qarşı Azərbaycan xalqı etiraz səsini ucaltmağa cəhd etdikdə isə 1990-cı ilin 20 yanvar faciəsi törədildi. Sovet ordusu əli yalın əhaliyə Bakıda divan tutdu.

Həmin çətin dövrdə belə dahi şəxsiyyət Ümummilli liderimiz Heydər Əliyev xalqı darda qoymadı. Əlində olan mümkün imkanlardan maksimum istifadə etməklə haqq səsimizi ucaltmağa çalışdı [2].

70 il hökm sürən Sovet imperiyasının süqutundan sonra Azərbaycan müstəqillik qazansa da bu dövr xaosla müşaiyət olunurdu. Dərinləşməkdə olan ictimai-siyasi böhran erməni işğalçıları üçün öz mənfur planlarını həyata keçirməyə şərait yaradırdı. Ölkələr müstəqillik əldə etdikləri üçün müharibə onlar arasında müstəviyə daşınmalı oldu. Azərbaycana qarşı həyata keçirilən hərbi əməliyyatlara birbaşa Ermənistan Müdafiə Nazirliyi tərəfindən rəhbərlik edilirdi. "Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər)" kitabındakı hadisələrin ardıcıllığına diqqət yetirdikdə hər bir detalın on illərdir planlaşdırılan məkrli işğalçılıq siyasətinə hesablanmasının şahidi olmuş oluruq. 1988-ci ilin fevral ayından başlayaraq erməni quldurlarının günahsız mülki vətəndaşlara hücumunun getdikcə daha da intensivləşdiyini və cəzasız qaldıqca daha da azğınlaşdıqlarını izləmək mümkündür [1]. Ölkə həm daxildən, həm də qərbdən uçuruma sürüklənirdi. Belə bir çətin zamanda xalq düzgün qərar verərək Heydər Əliyevi Bakıya dəvət etdi və dahi şəxsiyyət Azərbaycan üçün yeni tarixi xilas səhifəsini gəlişi ilə 15 iyun 1993-cü il tarixdə açdı. 1993-cü ilin oktyabr ayında xalqın böyük etimadını qazanan Ümummilli lider seçkidə qalib gəldi. Ermənistan xarici havadarlarının tam dəstəyi ilə Heydər Əliyevin prezident seçilməsinə qədərki qısa müddət ərzində işğalçılıq əməllərinin davamı olaraq daha bir neçə rayonumuzu işğal etməyə müvəffəq olmuşdu. Ancaq Heydər Əliyevin hakimiyyətə gəlişi ilə keçirilən "Horadiz əməliyyatı" ilə 1994-cü ilin fevralınadək Füzuli rayonunun 23 yaşayış məntəqəsini əhatə edən böyük bir hissəsi düşmən işğalından azad olundu.[https://www.azerbaijan-news.az] 1994-cü ilin mayın 5-də isə Ulu öndərin səyləri nəticəsində Bişkekdə atəşkəs barədə razılıq əldə olundu. Əslində sonrakı danışıqlar prosesindəki sərgilədiyi qətiyyətli mövqe və özünün layiqli davamçısı olan İlham Əliyevin onun siyasi kursunu ləyaqətlə davam etdirməsi nəticəsində ikinci Qarabağ müharibəsində dövlətimizin qazandığı qalibiyyət bu dahi şəxsiyyətin nə qədər uzaqgörən bir lider olduğunu dəfələrlə sübut etdi.

Ümummilli lider Heydər Əliyev hər zaman ərazi bütövlüyümüzün bərpa olacağına ümid etdiyini bildirirdi: "Biz Azərbaycan torpağının bir qarışını da heç kimə verməyəcəyik!" "Azərbaycanın ərazi bütövlüyü istənilən yolla mütləq bərpa ediləcəkdir!". Bütün bu fikirlər müəllifi olduğu "Azərbaycançılıq" ideologiyasının tərkib hissəsi olmaqla bütün dünyaya çatdırdığı qətiyyətli mövqe və ismarıc idi.

Ədəbiyyat

1. Dağlıq Qarabağ: hadisələrin xronikası(1988-1994-cü illər) Bakı, Vətən, 2005., 108 s.
2. Heydər Əliyev və milli mübarizə tariximiz. Zakir Sərdarov. Bakı, Çinar, 2008., 166 s.
3. Qafqazşünasların I Beynəlxalq Forumu. Bakı: MTM İnnovation, 2017., 564 s.
4. https://www.geostrategiya.az/news.
5. https://www.azerbaijan-news.az

РЕЗЮМЕ

ЗАСЛУГИ ГЕЙДАРА АЛИЕВА В РАЗРЕШЕНИИ КАРАБАХСКОГО КОНФЛИКТА

Гурбанова Л.И.

Ключевые слова: *Гейдар Алиев, карабахский конфликт, оккупация, депортация, азербайджанство*

Основное направление политической деятельности Гейдара Алиева было связано с урегулированием карабахского конфликта. Как великая историческая личность Гейдара Алиев занимает незаменимое место в истории нашей государственности. Он мужественно преодолел все угрозы для восстановления нашего государственного суверенитета и территориальной целостности. Гейдар Алиев всегда поддерживал национальные интересы азербайджанского народа и доводил до сведения мировой общественности на международном уровне истины, связанные с этим конфликтом. Наше национальное единство было основным принципом политической деятельности великого лидера Гейдара Алиева, который провел личные встречи с членами диаспоры и лоббистскими организациями, находящимися в зарубежных странах и организованно сплотил их во имя нашего правого дела.

SUMMARY

THE MERITS OF HEYDAR ALIYEV IN THE RESOLUTION OF THE KARABAKH CONFLICT

Gurbanova L.I.

Key words: Heydar Aliyev, Karabakh conflict, occupation, deportation, Azerbaijanism.

The main direction of Heydar Aliyev's political activity was related to the settlement of the Karabakh conflict. As a great historical person Heydar Aliyev has an irreplaceable position in the history of our statehood. He courageously overcame all threats for the restoration of our state sovereignty and territorial integrity. Heydar Aliyev always supported the national interests of the Azerbaijani people and brought the truths related to this conflict to the attention of the world community at the international level. Our national unity was the basic principle of the political activity of the great leader Heydar Aliyev, who held the personal meetings with the members of diaspora and lobbying organizations located in foreign countries and brought them together in an organized manner for our just cause.

MƏHSULLARIN RƏQABƏT QABİLİYYƏTİNİN ƏSAS ASPEKTLƏRİ

Məhərrəmli Sübhi İlqar oğlu
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan, doktorant
s.maharramli@xsq.az

Açar sözlər: *bazar, rəqabət, marketinq, məhsul, istehlak.*

Giriş. Bazarda analoji məhsulların mövcudluğu şəraitində məhsulun rəqabət qabiliyyətini təhlil etmək lazımdırsa, əsas parametrlər baxımından birbaşa müqayisənin aparılması kifayətdir.Müqayisəli baza olmadıqda analogiya üsulundan istifadə edilir. Bunun üçün istehlakçıya ideal uyğun gələn model məhsul və onun parametrləri qiymətləndirilən məhsulun parametrləri ilə müqayisə ediləcək. Rəqabətli məhsul təkcə sabit satışları deyil, həm də biznesin gəlirliliyini təmin etməlidir. Bu halda söhbət rəqabət qabiliyyətinin digər göstəricilərini azaltmayan xərc liderliyindən gedir. İstehsal üçün nadir avadanlıqla qiymət liderliyindən maksimum bazar payı əldə etmək olar. Son illərdə firmalar arasında satış bazarları uğrunda mübarizənin güclənməsi, gərgin və qlobal rəqabətin əldə olunması ilə əlaqədar rəqabətqabiliyyətlilik probleminin əhəmiyyəti xeyli artmışdır.

Məhsulun rəqabət qabiliyyəti.Məhsulların rəqabət qabiliyyətinin müxtəlif aspektləri üzrə tədqiqatlar bir çox keçmiş sovet və Qərb iqtisadçıları tərəfindən aparılmışdır. Bu konsepsiya haqqında nəzəriyyənin formalaşmasının başlanğıcı "fitness" anlayışı olmuşdur Müştəri niyə başqa bir məhsulu yox, məhz bu məhsulu seçir? O, hansı meyarlara əməl edir? Alıcını müəyyən bir məhsul seçməyə necə təşviq etmək olar? Verilən sualların cavabları birbaşa rəqabətqabiliyyətlilik anlayışının mahiyyəti ilə bağlıdır [1,s.127].

Bazar iqtisadiyyatının inkişaf etmiş ölkələrində, alıcının prioritet rolunun təsiri altında məhsulun rəqabət qabiliyyətinə olan tələblərə uyğunluğun müəyyənedici qabiliyyətini tanıyan Qərb iqtisadçıları onu cəlbedicilik dərəcəsi kimi müəyyən etməyə meyllidirlər.

Əvvəla, qeyd etmək lazımdır ki, rəqabətqabiliyyətlilik anlayışı inhisarçılığa yer olmayan rəqabətli bazarlarda önəmlidir. Digər tərəfdə, məhsulun rəqabət qabiliyyəti onun keyfiyyət və texniki səviyyələri, qiyməti, maya dəyəri və s. kimi xüsusiyyətləri ilə ödəyəcəyi ehtiyaca uyğunluq dərəcəsi ilə müəyyən edilir. Bu dərəcələr uyğunluq, rəqabət aparan məhsullardan hansının daha rəqabətqabiliyyətli olduğunu göstərir [5, s.92].

Bazarın müxtəlif seqmentlərində alıcıların ehtiyacları keyfiyyət və kəmiyyət xüsusiyyətlərinə görə fərqli olduğundan, məhsul müəyyən bir bölgənin və ya ölkənin bazar seqmentlərində yüksək rəqabət qabiliyyətli, qlobal bazar seqmentlərində isə uğursuz ola bilər. Buna görə də, məhsulun rəqabət qabiliyyəti konkret bazar seqmenti üçün müəyyən edilməlidir. Sənaye müəssisələri təmin etməklə yanaşı, yeni istehsal imkanları, ehtiyacların dinamizmini əhəmiyyətli dərəcədə artırdı, onların xüsusiyyətlərinin mürəkkəbləşməsinə səbəb oldu. Nəzərə alsaq ki, rəqabət daha intensiv və kəskinləşib, o zaman rəqabətqabiliyyətliliyin zamanla dəyişkənliyini təsdiqləyə bilərik. Bu baxımdan məhsulun rəqabət qabiliyyətinin müəyyən bir zamanda (və ya vaxt intervalında) və müəyyən bir müddətdə alıcının ehtiyaclarına uyğunluğu kimi müəyyən edilməsi bazar seqmenti üçün daha dolğun olardı [4, s.45-46].

Məhsulun rəqabət qabiliyyəti müəyyən edilərkən müəyyən parametrlərə görə bir neçə qrupda birləşdirilir. Məhsulun təyinatından, bazar seqmentinin xüsusiyyətlərindən və digər göstəricilərdən asılı olaraq, bu parametrlərin qrupları məhsulun rəqabətqabiliyyətliliyində müxtəlif paylara malik ola bilər. Bu ehtiyacları ödəmək üçün məhsulun malik olmalı olduğu parametrləri üç qrupda birləşdirə bilərik: texniki, normativ və iqtisadi parametrlər [7,s.65]. Məhsulun rəqabət qabiliyyətini təmin etmək üçün istehsalçı tələbat parametrlərini daha diqqətlə təyin etməli, həmçinin keyfiyyət göstəriciləri ilə yanaşı kəmiyyət göstəricilərini də aydınlaşdırmalıdır. Məhsulun texniki parametrləri qrupuna aşağıdakılar aiddir:

- təyinat parametrləri (məhsulun istifadə sahələrini və funksiyalarını müəyyən edən xassələr, məsələn, funksional yararlılıq, təhlükəsizlik, istismara hazırlıq, təmirə yararlılıq, ətraf mühitin mühafizəsi göstəriciləri və s.);
- erqonomik parametrlər (məhsulu istehlak edərkən insan orqanizminə uyğunluğu xarakterizə edən göstəricilər);
- estetik parametrlər (məhsulun xarici görünüşünü əks etdirən göstəricilər, məsələn, ifadəlilik, orijinallıq, ətraf mühitə və modaya uyğunluq, faydalılıq və s.) [7, s.81].

Məhsula və ya xidmətə olan tələbatın təmin edilməsinin zəruri şərti onun texniki və tənzimləyici parametrlərinin eyni tələb parametrlərinə uyğunluğudur. Ancaq bu da kifayət deyil. Alıcının bu və ya digər məhsulu alması onun ehtiyacının ödənilməsinin ilkin anıdır. Məhsulun növündən asılı olaraq ehtiyacın ödənilməsi prosesi müəyyən vaxt aparır, yəni alıcı faydalı məhsul alır. Bu da öz növbəsində əlavə xərclərlə

bağlıdır. Beləliklə, alıcı həm alış üçün, həm də məhsulun istismarı üçün pul ödəməlidir. Məhsulun satış və əməliyyat xərcləri birlikdə onun "istehlak qiymətini" müəyyən edir. Bu isə "iqtisadi parametrlər" adı altında birləşən yuxarıda göstərilən göstəricilərin müəyyən edilməsində mühüm rol oynayır [2, s. 146].

İstehlak qabiliyyətli məhsullar. Məhsulların texnoloji və konstruktiv mürəkkəbliyi nə qədər yüksəkdirsə, onların istehsalında və istehlakında norma və standartlar bir o qədər mürəkkəb olur. Hər bazarda məhsuldan istifadə şərtləri üzrə müxtəlif beynəlxalq, dövlətlərarası və sənayelərarası standartlar tətbiq edilir. Mövcud qanunvericiliklə təsdiq edilmiş normalara, standartlara əməl edilməməsinə səbəb olur. Məhsulun mövcud norma və standartlara uyğunluğunu xarakterizə edən göstəricilərə normativ göstəricilər deyilir. Məhsulun rəqabət qabiliyyətini keyfiyyət səviyyəsi ilə qarışdırmaq olmaz. Əgər məhsulun keyfiyyət səviyyəsi onun texniki, konstruktiv və texnoloji xüsusiyyətlərinə görə müəyyən edilirsə, məhsulun rəqabət qabiliyyəti onun iqtisadi göstəriciləri, imici, səviyyəsi ilə müəyyən edilir [6, s.98].

Məhsulun rəqabət qabiliyyətini müəyyən etmək üçün onun parametrlərini ehtiyac parametrləri ilə müqayisə etmək lazımdır. Təcrübədə ehtiyacların parametrlərini dəqiq müəyyən etmək son dərəcə çətindir, bəzən hətta qeyri-mümkündür. Tələblər isə bir sıra dəyişən amillərdən təsirlənir:

1. Potensial və faktiki bazar ölçüsü.
2. Verilmiş məhsulun başqa növ məhsulla əvəzlənmə dərəcəsi.
3. Məhsulun keyfiyyətinə dair tələblər.
4. Məhsulun satış qiymətindən və istehlak qiymətindən asılı olaraq dəyişən tələbin elastikliyi [2, s. 146].

İstehlak məhsullarının alıcıları əsasən ailələr, xidmət şirkətləri və digər sahibkarlıq subyektləridir. Subyektlərin alıcılıq qabiliyyəti bu növ məhsullara tələbin real səviyyəsini müəyyən edir. Tələbin həcminə bu amillər təsir göstərir:

- məhsulun satış qiymətinin alıcının büdcəsində payı;
- bazarın bu məhsulla doyma səviyyəsi;
- real istehlakçıların sayı və onların artım tempi;
- köhnəlmiş məhsulları yeniləri ilə əvəz edən istehlakçıların sayı.

Ölkədə məişət texnikasının əsas alıcıları olan ev təsərrüfatlarının gəlir dinamikası və əmanət səviyyələri barədə dəqiq məlumatın olmaması istehsalçıları son illər satış dinamikasına əsasən tələbatı proqnozlaşdırmağa məcbur edir.

Fiziki və ya mənəvi cəhətdən köhnəlmiş məhsulları yenisinə dəyişdirmək istəyən istehlakçıların sayını müəyyən etmək üçün aşağıdakı məlumatlar lazımdır:

- mövcud sənaye məhsulları parkının həcmi;
- bu donanmanın istismar şərtlərinə görə bölgüsü;
- məhsulun dəyişmə sürəti;
- yeni məhsulların meydana çıxmasının təsiri [3, s. 13].

Bir çox marketinq araşdırmalarının nəticələrinə görə, alıcılar adətən "korrelyasiya" meyarını rəhbər tutaraq məhsul seçirlər. Bu zaman keyfiyyət anlayışının mürəkkəb xarakteri nəzərə alınmaqla və müxtəlif alıcı qrupları üçün fərqli olan etibarlılıq, təmirə yararlılıq, qənaətcillik, möhtəşəmlik və s. kimi müxtəlif göstəricilərin kombinasiyası istifadə olunur. Bu sahədə çoxlu sayda elmi ədəbiyyatın təhlili göstərir ki, alıcının əldə etdiyi faydalılıq effekti keyfiyyət səviyyəsi, istehlak olunan məhsulun qiyməti və ona olan tələbat vəziyyəti ilə müəyyən edilir.Məhsul istehlakının qiyməti aşağıdakılar əsasında formalaşır. istehsal və istehlak sferalarının təsiri, kommunal effekt isə istehlak prosesində üzə çıxır. Keyfiyyət səviyyəsi müəssisənin nəzarəti altında olduğu halda, istehlak mühiti müəssisənin nəzarətindən kənar bir çox amillərlə formalaşır. Bazarda tələbin vəziyyətini müəyyən edən amillərdən keyfiyyət tələbləri amili alıcının tələbatının verilmiş məhsul keyfiyyətinə ödənilməsini xarakterizə edir. Qeyd olunan amil alıcının müəyyən xüsusiyyətlərə malik məhsulu almaq qərarını müəyyən edir [3, s. 13].

Son zamanlar uzunmüddətli istehlak təyinatı ilə məhsullar üçün bazarda gərgin rəqabətin formalaşması əvvəllər ikinci dərəcəli xüsusiyyətlər hesab edilən rahatlıq göstəricilərinin rəqabətqabiliyyətlilikdə rolunu xeyli artırmışdır. Məhsullarının texniki-iqtisadi göstəricilərini tamamilə bir araya gətirən müəssisələr müxtəlif üsullarla məhsula yeni xüsusiyyətlər daxil edərək, rəqib şirkətlərdən fərqlənməyə çalışırlar. İstehlakçılara istismar zamanı bütün rahatlığı təmin edən xüsusiyyətlər istehlakçının məhsul alması üçün mühüm göstəricidir.

Məhsulun rəqabətqabiliyyətliliyində mühüm rol oynayan parametrlərdən biri satış və satışdan sonrakı xidmətin təşkili səviyyəsini əhatə edən xüsusiyyətlər qrupudur. Alıcının seçiminə əhəmiyyətli dərəcədə təsir edən satış şəraiti, məhsulun müxtəlif xüsusiyyətləri barədə müştərinin məlumatlılığı, brend imici, satışdan sonra xidmətin təşkilinin səviyyəsi və digər oxşar göstəricilər mühüm elementlərdir [8, s.106].

Nəticə. Yuxarıda deyilənləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, "komfort" və "satış və satışdan sonrakı xidmətin təşkili səviyyəsi" parametrlərinin "texniki", "iqtisadi" və "normativ" parametrləri

ilə yanaşı qiymətləndirilməsi vacibdir. Amerika və Yapon iqtisadçıları keyfiyyəti rəqabət uğurunun açarı hesab etdikləri halda, Britaniya iqtisadçıları qiymət, xərc və gəlirliliyin hər şeydən üstün olduğuna inanırlar. Fransız iqtisadçıları məhsulun rəqabət qabiliyyətini aşağıdakı meyarlara görə müəyyən etməyə çalışırlar: məhsulun innovasiya dərəcəsi, məhsulun keyfiyyəti, məhsul haqqında məlumatların yayılması imkanı, satışın təşviqi tədbirləri (reklam və s.), mümkünlüyü. məhsulun konkret bazarın tələblərinə uyğunlaşdırılması, maliyyə şəraiti, satış dinamikası və s. .

Ədəbiyyat

1. Карпов А.Л., Конкурентное пространство предприятия и отрасли, Омск, 2011
2. Нурлихина Г.Б. Конкурентоспособность национальной экономики в контексте устойчивого развития // Материалы Международной научно-практической конференции. г. Алматы, 2005.
3. Портер М. Международная конкуренция // Пер. с англ. / под ред. И с послесловием Щетинина В.Д. Москва, Международные отношения, 1993.
4. Baker, M.J. and Hart, S.J. (2007) Product Strategy and Management, 2nd edn, Harlow: Pearson Education.
5. Douglas, Edna (1975) Economics of Marketing, New York: Harper & Row
6. Hauser, J. R., & Shugan, S. M. (2008). Defensive marketing strategies. Marketing Science, 27(1), 88-110.
7. Kalman A. (2004) The Marketing Era: From Professional Practice to Global Provisioning, London: Routledge.
8. Peter E. (1995) Microeconomics for Business and Marketing: Lectures, Cases and Worked Essays, Aldershot: Edward Elgar Publishing

РЕЗЮМЕ
КЛЮЧЕВЫЕ АСПЕКТЫ КОНКУРЕНТОСПОСОБНОСТИ ПРОДУКЦИИ
Магеррамли С.И.

Ключевые слова: *рынок, конкуренция, маркетинг, продукт, потребление.*

Поскольку потребности покупателей в разных сегментах рынка различаются по качеству и количеству, товар может быть высококонкурентным в сегментах рынка конкретного региона или страны, но не иметь успеха в сегментах глобального рынка. Поэтому конкурентоспособность товара следует определять для конкретного сегмента рынка. Помимо обеспечения промышленных предприятий, новые производственные возможности значительно повысили динамизм потребностей, обусловив усложнение их характеристик.

SUMMARY
THE MAIN KEY ASPECTS OF PRODUCT COMPETITIVENESS
Maharramli S.I.

Keywords: *Market, competition, marketing, product, consumption.*

Since the needs of buyers in different segments of the market differ in terms of quality and quantity, a product may be highly competitive in the market segments of a particular region or country, but fail in the global market segments. Therefore, product competitiveness should be determined for a specific market segment. In addition to providing industrial enterprises, new production possibilities significantly increased the dynamism of needs, causing the complexity of their characteristics.

MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN NEFT SƏNAYESİ

Məhərrəmov Samir Qasım oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
Meherremovsamir394@gmail.com

Açar sözlər: *neft sənayesi, müstəqillik, müqavilə, xarici şirkət, əsrin müqaviləsi, texnologiya.*

Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra neft sənayesinin dirçəldilməsi, son dövr texnologiyalarına uyğun olaraq yenidən bərpa edilməsi iqtisadiyyatın böhrandan çıxarılması və sürətli inkişaf prosesində mühüm rol oynayırdı. Ulu öndər Heydər Əliyevin başçılığı ilə Azərbaycanın yeni dövlət neft strategiyası hazırlandı və bu sahədə uğurlu siyasət həyata keçirildi. Bu dövr Azərbaycanın neft sənayesində uğurlu bir dövrün başlanğıcı idi

Neft sənayesinə xarici investisiyaların və yeni texnoloji sistemlərin daxil edilməsi, respublikaya daha uyğun şərtlərlə xarici neft şirkətləri ilə müqavilələr bağlamaq üçün danışıqlar aparılması ADNŞ-ə həvalə olundu. Danışıqların aparılması məqsədilə yeni qrup yaradıldı və bu sahədə planların həyata keçirilməsi neft

və beynəlxalq əlaqələr üzrə görkəmli mütəxəssislərə tapşırıldı. Yaradılan qrupun fəaliyyətində İlham Əliyev və Xoşbəxt Yusifzadənin rolu xüsusilə seçilirdi. Yeni imzalanmış müqavilələr respublikamız üçün qarşıya qoyulmuş maraqlara istənilən cavabı verirdi.

Müqavilənin bağlanmasına ilk dövrlərdə xarici qüvvələr ciddi maneçilik törədirdilər. Rusiya Federasiyasının təşəbbüsü ilə təklif irəli sürüldü ki, Xəzər dənizi bütün Xəzər ətrafı ölkələrə məxsusdur, onu milli bölmələrə aid düzgün olmazdı. Bütün bu proseslərə əsasən Azərbaycan birtərəfli olaraq xarici şirkətlərlə neft müqavilələri bağlaya bilməz. Bu işlərin yarıda axlanılması məqsədilə bir sıra diplomatik notalar və bəyanatlar irəli sürülürdü. Xarici şirkətlər isə bu bəyanatlardan sonra müqavilənin imzalanmasına tərəddüd edir və düşünürdülər ki, müqavilə Xəzər dənizinin statusu prosesi həll edildikdən sonra qüvvəyə minə bilər. Lakin bu dövrdə ADNŞ-in birinci vitse-prezidenti İlham Əliyev ölkə rəhbərliyi tərəfindən Vaşinqtona ezam edildi. İlham Əliyev ABŞ-da Energetika Nazirliyi rəhbərləri ilə səmərəli formada danışıqlar apardı və bu danışıqlardan sonra ABŞ hökumətinin verdiyi dəstəyin sayəsində xarici şirkətlər qəbul etdikləri fikirdən əl çəkməli oldular [1, s.305-306].

Azərbaycanda milli gəlirin böyük bir hissəsini və iqtisadiyyatın əsas sahəsini neft təşkil etməkdədir. Bakıda "Gülüstan" sarayında sentyabr ayının 20-i 1994-cü ildə ADNŞ və ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı, Yunanıstanın iri şirkətləri arasında "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının bir hissəsinin birgə işlədilməsi və çıxarılan neftin pay sisteminə əsasən bölüşdürülməsinə uyğun olaraq 30 illik müqavilə imzalandı. İmzalanan müqavilə dünya tarixində "Əsrin müqaviləsi" adı ilə tanındı [4, s.211]. 1994-cü ildən etibarən tətbiq edilən neft sahəsindəki tədbirlərin əsas mahiyyəti Xəzər dənizinin Azərbaycan hissəsinə düşən neft ehtiyatlarının əsas inkişaf etmiş dövlətlərə məxsus texnologiya və mənfəət əldə etmək vəziyyətindən yararlanmaqla dövriyyəyə daxil edilməsi, təhlükəli yollardan uzaqlaşmaqla dünya bazarına daxil edilməsi, neftin satışı zamanı əldə olunan vəsaitlə ölkədəki digər iqtisadi və sosial sahələrin, xüsusən də qeyri-neft sektorunun inkişafına nail olunmasından ibarət idi. Neft və qaz kəmərlərinin çəkilişi zamanı onun təhlükəsizliyini təmin etmək, qazanc əldə etmək prosesini formalaşdırmaq, Azərbaycanın dünya neft-qaz bazarında xüsusi yer tutması kimi işlərin müəyyən edilməsi də mühüm vəzifələr sırasına daxil idi [3, s. 454 s].

Ulu öndər Heydər Əliyev tərəfindən yaradılmış Azərbaycan neft sənayesi XXI əsrin ilk illərindən etibarən özünün ən yüksək inkişaf etmiş mərhələsinə qədəm qoydu. Neft sənayesindən istifadə edilməsi ölkəmizin siyasi mövqeyinin əsasını təşkil edir. Azərbaycanın beynəlxalq arenada daha da möhkəmləndirilməsində neft amili əsas rol oynamaqdadır. Əsası XX əsrin sonlarında qoyulmuş Bakı-Tiblisi-Ceyhan neft kəməri artıq XXI əsrin əvvəllərindən etibarən tam formada reallaşmağa başladı [2]. Azərbaycan, Türkiyə və Gürcüstan dövlətləri arasında imzalanan müqavilə Azərbaycan büdcəsinə böyük miqdarda neft gəlirlərinin daxil olmasına şərait yaratdı. Günəşli yatağında aparılan qazıntılar zamanı böyük ölçüdə qaz yatağının əldə edilməsinə imkan yaratdı. Bu da Azərbaycanı neft ixracatı ilə yanaşı qaz ixracatçısı ölkəsinə çevirdi.

Ulu öndər Heydər əliyevin davamçısı prezident İlham Əliyevin həyata keçirdiyi tədbirlər, dünyanın super güc dövlətləri ilə əlaqələrin qurulması və Azərbaycan neftinin ayrı-ayrı ölkələrə ixracı ölkədə sosial-iqtisadi vəziyyətin sürətli inkişafına gətirib çıxardı. Neft sənayesində əldə olunan gəlirlərin qeyri-neft sektoruna da nüfuz etməsi Azərbaycanda əhalinin həyat şəraitinə müsbət təsir göstərdi. Ölkə Büdcəsində cəmləşən neft gəlirləri hesabına Azərbaycanda regionların inkişaf etdirilməsi məqsədilə dövlət proqramları qəbul olundu. Bu da bölgələrdə sürətli inkişafa gətirib çıxardı.

Ədəbiyyat

1. Azərbaycan tarixi: Yeddi cilddə. VII c. (1941-2002-ci illər). Bakı: Elm. 2008. 608 s.
2. Hacızadə E.M., Paşayev T.Ə. Neft-qaz sənayesində yeni bazar mexanizmlərinin formalaşdırılması istiqamətləri. Bakı: Elm. 2000.
3. Qəniyev H.Q. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı: Elm və Təhsil, 2019, 499 s.
4. Nəcəfli T., Dədəyev B. Azərbaycan tarixi, Bakı, 2013, 287 s.

РЕЗЮМЕ
НЕФТЯНАЯ ПРОМЫШЛЕННОСТЬ АЗЕРБАЙДЖАНА В ГОДЫ НЕЗАВИСИМОСТИ

Магеррамов С.Г.

***Ключевые слова**: нефтяная промышленность, независимость, контракт, иностранная компания, контракт века, технология.*

Провозглашение независимости создало условия для выхода из кризисной ситуации и развития промышленности Азербайджана. Основной целью было развитие нефтяной промышленности, налаживание отношений с иностранными компаниями и обеспечение выхода азербайджанской нефти на мировой рынок. Подписанный в период правления великого

лидера Гейдара Алиева «Контракт века» обеспечил вывод запасов нефти в азербайджанском секторе Каспийского моря на мировой рынок с использованием передовых западных технологий. Определенная часть полученного дохода направлялась на развитие ненефтяного сектора.

SUMMARY
OIL INDUSTRY OF AZERBAIJAN IN THE YEARS OF INDEPENDENCE
Maharramov S.G.

***Key words**: oil industry, independence, contract, foreign company, contract of the century, technology.*

Azerbaijan's declaration of independence created conditions for the end of the crisis situation and the development of Azerbaijan's industries. The main goal was to develop the oil industry, establish relations with foreign companies and ensure the introduction of Azerbaijani oil to the world market. The "Contract of the Century" signed during the reign of the great leader Heydar Aliyev ensured that oil reserves in the Azerbaijani sector of the Caspian Sea were brought to the world market using advanced Western technology. A certain part of the obtained income was directed to the development of the non-oil sector.

HEYDƏR ƏLİYEV VƏ ƏDƏBİ DƏYƏRLƏRİMİZ

Məhərrəmova Nigar Mustafa qızı
Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan
mhrrmova86@mail.ru

Açar sözlər: *qeyri-adi zəka, mədəni irs, türkçülük ideyaları, mədəni siyasət.*

Ədəbiyyat, söz ustalığı olaraq, milli özünüdərk və özünürealizasiya baxımından informativ xarakterli digər predmetlərdən fərqlənir. XXI əsrin ədəbiyyatı qloballaşmış və mürəkkəb dünyada yaşamağa, müstəqillik və yaradıcılıq nümayiş etdirməyə, öz xalqını və vətənini ləyaqətlə təmsil etməyə qadir olan müasir dünyagörüşünə, milli və ümumbəşəri dəyərlərə malik vətəndaş yetişdirmək üçün böyük imkanlara malikdir" [1]. Həyat yolunu, yaradıcılığını, dövrün hadisələrinə münasibəti, ədəbiyyat yaradanları tarixi, Yaradıcı nümunələrlə yanaşı, hökmdarların, dövlət başçılarının və görkəmli siyasi xadimlərin münasibətini, fəaliyyətini əks etdirən mənbələr də mühüm rol oynayır. Bu mənada ümummilli lider Heydər Əliyevin şəxsiyyətinin tarixi fenomeni unikaldır. "Ədəbiyyat tariximizin daha dərin təbəqələri, dilimizin, ruhumuzun, ədəbi-mədəni abidələrimizin incəlikləri üçün zəmindir". Ulu Öndər ədəbiyyata, bədii-ədəbi irsə, müasir söz ustalarına böyük hörmət və qayğı ilə yanaşmış və tarixin buraxdığı səhvləri uzaqgörənliklə aradan qaldırmışdır.

Heydər Əliyev üçün sənətkarın şəxsiyyəti, bədii sözü, ədəbiyyatı hər şeydən üstün idi. Onun min illərlə ifadə etdiyi fikirlərinin xatirəsi ilə yanaşı, xalqın, Kitabi-Dədə Qorqud ənənələrinin, klassik irsin nümayəndələrinin folklor mənbələrindən tutmuş, müasir şair və yazıçıların yaradıcılığına qədər ədəbiyyatımızın tarixində silinməz izlər qoymuşdur. Hər bir söz ustasının şəxsiyyətinə hörmət təkcə onun praktiki fəaliyyətində deyil, həm də onun dünya mədəniyyəti və ədəbiyyatı xəzinəsində yeri, nəşr və saxlanması ilə əks olunur. Bu qərarlar bir tərəfdən tarixin həll olunmamış səhifələrinə gözəl vətəndaş düzəlişi, digər tərəfdən isə xalqa, onun ustalığına və ədəbiyyatına təmənnasız qayğı ilə yanaşılması idi.

Heydər Əliyev qeyri-adi zəkaya, dünyagörüşünə malik olaraq ədəbiyyata böyük xidmət göstərmişdir. O, Azərbaycan ədəbi-poetik dilinin beşiyi önündə dayanan Füzuli və Nəsimi irsini yüksək qiymətləndirdi. O, Füzulini dünya ədəbiyyatının klassiki hesab edir və qeyd edirdi ki, onun təkcə ölkə daxilində deyil, həm də Azərbaycanın hüdudlarından kənarda da məşhur olması vacibdir. Hələ gənc yaşlarından Füzuli yaradıcılığına böyük məhəbbət bəsləyən liderin ideyası uzun illər sonra, sadə, təvazökar bir cümlədə bir çox ədəbi tənqidçilər tərəfindən orijinal və xatırlanır: "Füzuli elə bir ulduzdur ki, 500 il bundan əvvəl işıq saçır və öz şüalarını dünyaya yayırdı. Füzuli təkcə Şərqdə, müsəlman aləmində, türk dünyasında, bütün dünyada, o cümlədən inkişaf etmiş Qərb ölkələrində tanınır. Ancaq Füzuli Azərbaycan xalqı üçün daha da əzizdir və sevilir, son vaxtlar zirvələrə qalxıbdır. Bu gün iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan xalqının, Azərbaycan alimlərinin Füzulinin tanınması və onların gördüyü işlər xalqımızın öz köklərinə, ənənələrinə, tarixinə, dininə, dilinə nə qədər bağlı olduğunu sübut edir".

Ulu öndər xalqın mədəniyyətini qoruyub saxlayan və gələcək nəsillərə ötürən heç kəsi diqqətdən kənarda qoymadı. O, "milli varlığımızın nüfuzlu mənbəyi" adlandırdığı "Kitabi-Dədə Qorqud" dastanının tarixi və milli-mənəvi missiyasını təsvir etmiş və qeyd etmişdir ki, öz milli köklərinə malik yeni nəsil gənclər yetişdirmək lazımdır. Keçid dövrünün çətinliklərinə və mürəkkəb proseslərinə baxmayaraq, biz qısa müddət ərzində tariximizin dəyərli səhifələrini açıq və xalqımıza göstərə bilmişik. Millətimizin hər bir nümayəndəsi tarix və mədəni irs sahəsində geniş biliklərə malik olmasından böyük qürur hissi keçirir" [4].

Beynəlxalq səviyyədə, Dahi Nizami Gəncəvinin 840, ölməz Füzulinin 500 və Nəsiminin 600 illik yubileylərinin təşkili şəxsən diqqət mərkəzində olan Heydər Əliyev böyük söz ustalarının qəbirlərinin bərpasına və bərpasına da biganə qalmamışdır. Onun üçün hər bir bədii söz ustası-istər keçmişdən, istərsə də müasirlikdən vətəndə, yaxud qürbətdə gizlənən, milli dəyərləri qoruyub saxlayan və təbliğ edən sənətkar bir azərbaycanlı kimi əhəmiyyətlidir.

Gəncədə Heydər Əliyev qeyd edirdi: "Azərbaycanda tarixi şəxsiyyətin şərəfinə ucaldılmış heç bir məqbərə, məqbərə yoxdur, amma şair və yazıçılara ucaldılmış türbələr var. Amma açıq olaq, xalqımız təkcə şairlər, yaxud yazıçılar tərəfindən məşhur deyildir. Azərbaycan krallarla, sərkərdələrlə, xanlarla da məşhurdur. Xanlıqlar dövründə müxtəlif dövlətlər və bu dövlətlərin başçıları var idi. Azərbaycan torpağı böyük dövlət xadimləri ilə məşhurdur. Amma onlardan hansına məqbərə, yoxsa heykəllər qoyulubdur? Ancaq şair və yazıçılara abidələr də, məqbərələr də ucaldılıb, bu da var və olmalıdır" [4].

Böyük biliklərə və dərin təfəkkürə malik olan Heydər Əliyev hər bir ədəbi şəxsiyyəti və ədəbi incini yalnız bir fərdiyyət kimi nəzərdən keçirmir, onlarda Azərbaycan tarixinin parlaq bir parçasını görürdü. Ədəbiyyatımızın tarixində elə bir nümayəndə yoxdur ki, onun yaradıcılığına və bədii yoluna görə Heydər Əliyev onu qiymətləndirməsin. Onun Nizami, Füzuli, Xətai, Vaqif, Cəlil Məmmədquluzadə, Sabir, Cavid, Səməd Vurğun, Xəlil Rza, Məmməd Araz, Bəxtiyar Vahabzadə və başqa şair və yazıçılarla bağlı ədəbi irsi Azərbaycan ədəbiyyatının tədrisində nəzəri metodoloji sərvətdir.

"Latın qrafikalı Azərbaycan dilində kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixli və 27 dekabr 2004-cü il tarixli "İşlərin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlarına uyğun olaraq 2005-2006-cı illərdə Latın qrafikası ilə Azərbaycan dilində nəşr olunmuş "kütləvi tirajla və ölkənin bütün kitabxana şəbəkəsinə, Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinə hədiyyə edilmişdir. Hər iki sərəncamla Azərbaycan və dünya ədəbiyyatı dövrlərindən olan kitablar, eyni zamanda ümumi tirajı 9 milyon nüsxədən çox olan lüğətlər və ensiklopediyalar kitabxanalara göndərilib oxuculara təhvil verilib.

Hüseyn Cavid fəlsəfi lirikanın motivlərinin, humanizm və insansevərlik məsələlərinin, tarixi dramlarının əks olunduğu əsərləri ilə Azərbaycan ədəbiyyatında və dramaturgiyasında yeni səhifə açdı. Qeyri-adi istedadlı şair, romantik, namuslu, sadiq insan, gözəl ər, gözəl ata – Hüseyn Cavid xalqına həsr etdiyi çox faciəli həyat yaşamış, onun üçün ölməz əsərlər, Azərbaycan və dünya ədəbiyyatına qızıl hərflərlə yazılmış əsərlər yaratmışdır.

8 fevral 1956-cı ildə görkəmli Azərbaycan yazıçılarının bir qrupu bəraət dövründə qanunsuz olaraq məhkum olunmuş Cavidin reabilitasiyası üçün hüquq-mühafizə orqanlarına vəsatətlə müraciət edərək onu görkəmli şair və dramaturq kimi səciyyələndirmişlər. Vəsatəti Süleyman Rəhimov, Mehdi Hüseyn, Süleyman Rüstəm, Mirzə İbrahimov, Mir Cəlal Paşayev, Əli Vəliyev və başqaları imzalayıblar.

6 mart 1956-cı ildə SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının müəyyən edilməsi ilə 9 iyun 1939-cu ildə SSRİ DTK-nın nəzdində xüsusi müşavirənin Hüseyn Cavid barəsində qərarı ləğv edilmiş və onun hərəkətlərində cinayət tərkibinin olmamasına görə iş icraata xitam verilmişdir.

12 oktyabr 1982-ci ildə şairin 100 illik yubileyi ilə əlaqədar ədalətli və qətiyyətli dövlət xadimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Cavidin cənazəsinin Naxçıvanda yenidən dəfn edilməsi haqqında qərar qəbul edilir. Oktyabrın 14-də partiya komitəsinin sədri Həmid Cəfərov, polkovnik Telman əliyev və respublikanın deputatı Zakir Əliyev İrkutsk şəhərinə yola düşdülər və oktyabrın 21-də Şevçenko kənd qəbiristanlığına gəldilər. Nümayəndə heyəti 59 saylı tabutun dəfn olunduğu yeri tapdı və qəbirdən çıxarıldı. Oktyabrın 24-də nümayəndə heyəti Cavid qalıqları ilə birlikdə Heydər Əliyevin fərmanı ilə İrkutskdan Bakıya uçub. Oktyabrın 26-da təyyarə Bakıya endi. Həmin gün SSRİ tarixində görünməyən, böyük vətəndaş cəsarəti və Heydər Əliyevin səyləri nəticəsində baş verən hadisə baş verdi. Azərbaycan xalqının ümummilli liderinin sayəsində görkəmli dramaturq və şairin qalıqlarının Vətənə qaytarılması, Onların Naxçıvana köçürülməsi və məzarı üzərində abidənin ucaldılması mümkün olmuşdur. Vidalaşma mərasimindən sonra Bakıda Şirvanşahlar sarayında böyük şair və dramaturqun cənazəsi Naxçıvana gətirilmiş və atalıq evinin yanında tut ağacı altında dəfn edilmişdir. Şairin məzarı üzərində məqbərə ucaldıldıqdan sonra 13 sentyabr 1996-cı ildə şair Müşkünazın və oğlu ərtoğrulun həyat yoldaşı, 12 sentyabr 2004-cü ildə isə türan Cavidin qızı türbədə dəfn edilmişdir.

Ümummilli lider Heydər Əliyev görkəmli mütəfəkkir Hüseyn Cavidin yaradıcılığını yüksək qiymətləndirirdi. O, deyirdi: "Hüseyn Cavid bizim üçün doğrudan da əzizdir. O, tariximizdə böyük bir şəxsiyyətdir və böyük bir irs qoyub gedibdir. Nə qədər ki, xalqımız yaşayır, bizim tariximiz, Hüseyn Cavidin irsi də yaşayacaq və xalqımız da bundan istifadə edəcəkdir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycanın milli sərvətidir". Şairin əsərlərində türkçülük və turanizm ideyaları öz əksini tapmış, insan dəyərlərinin mahiyyətinin dərk edilməsinə diqqət yetirmişdir. Cavid ümumbəşəri miqyaslı sənətkardır. Demək lazımdır ki, Cavidin yaradıcılığı bu gün də aktuallığını saxlamaqdadır.

Onun əsərlərinin müxtəlif dillərə tərcüməsi Cavidin irsinin bütün dünyada yayılmasına kömək edir.

Heydər Əliyevin 1972-ci ildə Aşıq Ələsgərin 150 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncam Qərbi Azərbaycanın (İrəvan Çuxurunun, Vedibasarın, Göyçənin, Zəngəzurun və s.) tarixi-mədəni irsinin məhz Azərbaycan xalqına mənsubluğunun rəsmən bəyan edilməsi olmuş və bu irsə sahib çıxmağımız üçün bir işarə mahiyyəti daşımışdır.

"Vaqif Türbəsinin açılışı 1982-ci il yanvarın 14-də Azərbaycanın lideri, ulu öndər Heydər Əliyev və məşhur mədəniyyət və incəsənət işçiləri - Mirzə İbrahimov, Süleyman Rüstəmin də olduğu bir qrup fəxri qonağın iştirakı ilə baş tutdu. Niyazi, Polad Bülbüloğu, Fərhad Bədəlbəyli və başqaları. Buna hazırlıq böyük məsuliyyətlə aparıldı, qonaqların görüşünə və yerləşməsinə qədər belə əlamətdar bir tədbirin təşkili üçün böyük bir iş görüldü. Məqbərənin açılışında Heydər Əliyev Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin birinci katibinə Vaqif şeir günlərinin hər il keçirilməsini tapşırdı" deyə Zahid Abbasov xatırlayır. Elə həmin ilin yayında, 29 iyulda bir həftə boyunca "Vaqif şeir günləri" keçirildi, təşkilatçılarından biri Zahid Abbasov idi. Şeir Günlərinin açılışı həmişə mədəniyyət və incəsənət insanlarına böyük hörmət və məhəbbət bəsləyən, milli şeiri şərəfləndirən Heydər Əliyevin iştirakı ilə keçirildi.

Azərbaycan hökuməti elmə və mədəniyyətə qayğı göstərir, Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycanın görkəmli şəxsiyyətlərinin dünyada tanıdılması istiqamətində çoxsaylı tədbirlər həyata keçirilir. Ümummilli liderimizin mədəni siyasəti bu gün ölkənin birinci xanımı, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər əliyev Fondu tərəfindən də uğurla davam etdirilir.

Ədəbiyyat:

1. Həsənli B. A. Bakı ədəbiyyatının tədrisi metodikası. Bakı: Müəllim, 2012.
2. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: Şərq-Qərb, 2009.
3. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Kitab XIII. Bakı, 2004.
4. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Kitab XVIII. Bakı, 2006.
5. "Kitabi-Dədə Qorqud" Ensiklopediyası. I. Bakı, 2006.

РЕЗЮМЕ

ГЕЙДАР АЛИЕВ И НАШИ ЛИТЕРАТУРНЫЕ ЦЕННОСТИ

Магеррамова Н.М.

Ключевые слова: *незаурядный интеллект, культурное наследие, идеи тюркизма, культурная политика*

Гейдар Алиев, обладая незаурядным умом и кругозором, оказал большую услугу в области изучения литературы. Его литературное наследие, связанное с Низами, Физули, Хатаи, Вагифом, Джалилом Мамедгулузаде, Сабиром, Джавидом, Самедом Вургуном, Халилом Резой, Мамедом Аразом, Бахтияром Вахабзаде и другими поэтами и писателями, является теоретическим и методологическим достоянием в преподавании азербайджанской литературы. Для Гейдара Алиева превыше всего были личность художника, художественное слово, литература. Правительство Азербайджана заботится о науке и культуре, и по распоряжению Президента Ильхама Алиева принимаются многие меры для популяризации выдающихся личностей Азербайджана в мире.

SUMMARY

HEYDAR ALIYEV AND OUR LITERARY VALUES

Maharramova N.M.

Key words: *extraordinary intelligence, cultural heritage, ideas of Turkism, cultural politics.*

Heydar Aliyev, having extraordinary intelligence and outlook, rendered great service to literature. His literary heritage related to Nizami, Fuzuli, Khatai, Vagif, Jalil Mammadguluzade, Sabir, Javid, Samad Vurgun, Khalil Reza, Mammad Araz, Bakhtiyar Vahabzade and other poets and writers is a theoretical and methodological asset in the teaching of Azerbaijani literature. For Heydar Aliyev, the artist's personality, artistic words, and literature were above all else. The government of Azerbaijan takes care of science and culture, and by the order of President Ilham Aliyev, many measures are being taken to introduce prominent personalities of Azerbaijan to the world.

MALİYYƏ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA BÜDCƏ SİYASƏTİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

Mikayılova Sevda Məmməd qızı

İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan, b.e.i., i.e.d.

sadiqmerkez@gmail.com

Açar sözlər: *maliyyə təhlükəsizliyi, büdcə siyasəti, kreditlərin stimullaşdırılması, qarışıq pul dövriyyəsi, qeyri - ekvivalent mübadilə, dövlət - özəl tərəfdaşlığı;*

Dövlət üçün makroiqtisadi sabitlik prioritet yerlərdən biridir, lakin bu öz-özünə reallaşmır, çünki o milli maliyyə institutlarının fəaliyyətinə nəzarəti öz üzərinə götürməlidir. Başqa sözlə, maliyyə-büdcə sahəsinin səmərəliliyinin yüksək səviyyədə inkişafı zəruridir. Büdcə sahəsi iqtisadi strukturun özəyini təşkil edir və qeyri-kamil bazar mexanizmləri, asimmetrik məlumat və maliyyə - iqitisadi siyasətin qeyri-adekvatlığı ilə bağlı əsas riskləri öz üzərində cəmləşdirir.

Maliyyə sistemi - Azərbaycan iqtisadiyyatının qarşısında dayanan ambisiyalı inkişafın məsələlərinin həlli üçün bir əsasdır; invesitisyada yatırımların transformasiyasının effektivliyini və Azərbaycan iqtisadiyyatının rəqabətə davamlılığını müəyyən edən milli infrastrukturun açar komponentidir.

Rəqabət qabiliyyəti dayanıqlı iqtisadi artıma, kapital axınına və ölkənin dünyavi-təsərrüfat mövqeyinin möhkəmlənməsinə yardım edən milli iqtisadiyyatın başlıca xarakteristikalarından birinə çevrilir. Bununla əlaqədar maliyyə təhlükəsizliyinin və rəqabət qabiliyyətinin təmin edilməsi zəruriliyi Azərbaycan daxil olmaqla, dünyanın bir çox ölkəsində dövlət nizamlanmasının olduqca mühüm oriyentirinə çevrilir.

Büdcə siyasəti dövlətin milli valyutaların sabitliyinin möhkəmləndirilməsinə, infilyasiya ilə mübarizəyə, həmçinin iqtisadi artımın tənzimlənməsi, xalq təsərrüfatı proporsiyalarının yaxşılaşdırılması, istehsalın effektivliyinin artırılması, məşğulluğun təmin olunması və hər bir ölkənin iqtisadiyyatı qarşısında duran digər strateji məsələlərin həll edilməsi məqsədilə pul dövriyyəsi vasitəsilə təkrar istehsal prosesinə təsir göstərilməsinə yönəldilən, mərkəzləşdirilmiş şəkildə işlənib hazırlanmış tədbirlər toplusudur.

Büdcə siyasətinin tətbiqində istifadə olunan alətlər:

- ✓ Likvidliyin artırılması - kreditləşmə; problemli borcların geri alınması
- ✓ Gerçək sektorun kreditləşməsinin stimullaşdırılması
- ✓ Milli valyutanın möhkəmləndirilməsi
- ✓ -Valyuta siyasəti
- ✓ -Girovsuz kreditlərin verilməsi **və s.**

Büdcə siyasətinin təsir alətlərini tətbiq edərkən aşağıdakılar nəzərə alınmalıdır:

- ✓ maliyyə təsisatlarının kapitallaşma səviyyəsi;
- ✓ maliyyə bazarının ayrı-ayrı seqmentləri arasındakı qarşılıqlı əlaqələr;
- ✓ maliyyə bazarı iştirakçıları tərəfindən tənzimləyici arbitraj aparılması imkanları;
- ✓ bazarın iştirakçıları tərəfindən tətbiq olunan pul siyasəti tətbiqində dərk edilmə dərəcəsi və s.

Reallaşdırılma məqsədlərindən asılı olaraq büdcə siyasətinin tədbirlərini bir biri ilə qarşılıqlı əlaqəli üç qrupa ayırmaq olar.

I. Bank sektorununu likvidliyinin artırılması üzrə;
II. Real sektorun kreditləşməsinin stimullaşdırılması üzrə;
III. Milli valyutanın möhkəmləndirilməsi üzrə.

Qeyd etmək lazımdır ki, dövlət qlobal maliyyə böhranı Mərkəzi Banklar üçün maliyyə stabilliyi üzrə lazımı tədbirlərin həyata keçirməsi üçün münbit şərait yaratmışdır.

I. Böhranlar zamanı bütün ölkələrdə demək olar ki, Mərkəzi Banklar ilk tədbir görən orqan olmuşdur.
II. Mərkəzi Bankların maliyyə sabitliyi ilə əlaqədar real məqsədləri olmasıdır, büdcə siyasətinin əsas məqsədi maliyyə sabitliyinin qorunması olduğuna görə monetar və maliyyə stabilliyi siyasətləri uzlaşdırılmalıdır.
III. Mərkəzi Bankın bu məqsədləri həyata keçirməsi üçün kifayət qədər səlahiyyəti və iqtisadi alətləri olmalıdır.

Yuxarıda qeyd edilən prinsiplər əsasında Mərkəzi Banklar və eyni zamanda hakimiyyət orqanlarının fəaliyyətləri əlaqələndirilməlidir.

Azərbaycan Mərkəzi Bankının büdcə siyasətinin əsas isiqamətlərində - "səlahiyyətləri çərçivəsidə qiymət sabitliyinin təmin edilməsi Mərkəzi Bankın büdcə siyasətinin əsas məqsədini təşkil edir" ifadələri yer alır.

Lakin, son vaxtlar dünyada büdcə siyasəti dizaynında yeni dəyişikliklər qeydə alınır. Son qlobal böhran göstərdi ki, Mərkəzi Banklar dayanıqlı iqtisadi inkişafı yalnız qiymət sabitliyi ilə dəstəkləməklə kifayətlənməməlidirlər. Hazırda dünyada Mərkəzi Bankların hədəf parametrinin (qiymət sabitliyi ilə yanaşı, iqtisadi artım və maliyyə sabitliyi) və alət arsenalının genişləndirilməsi məsələsi aktuallaşmışdır.

Azərbaycan 1993-cü ildə hiperinflyasiya mərhələsinə qədəm qoymuş və bu dövrdə inflyasiya ən yüksək həddə, 1763,5 faizə çatmışdı. Büdcə kəsirinin ümumi daxili məhsula nisbəti 1991-ci ildəki 0,2 faizdən 1993-cü ildə 15 faizə qədər artmışdı.

İnflyasiyanın dağıdıcılığını, investisiya qoyuluşunun və istehsalin inkişafının mümkünsüzlüyünü anladıqdan sonra, Azərbaycan Mərkəzi Bankı pul kütləsinə ciddi nəzarəti nəzərdə tutan sərt monetarist siyasətə keçdi.

Pul və maliyyə sabitliyi siyasətinin tətbiqi sisteminin prinsiplərinin əksəriyyəti iqtisadiyyatın bazar modelinə malik istənilən ölkəyə xasdır, lakin bəziləri fərdi ola və hər bir ölkənin milli xüsusiyyətlərini əks edə bilər.

Bu prinsipləri Azərbaycanda büdcə və maliyyə sabitliyi siyasətinin tətbiqi sisteminin timsalında nəzərdən keçirək.

1. Büdcə tənzimləməsi sisteminin mərkəzləşdirilmiş şəkildə idarə edilməsi prinsipi o deməkdir ki, bütün büdcə tənzimləməsi sisteminin fəaliyyəti (belə ki, o, vahid məqsədə - dövlətin büdcə və maliyyə sabitliyi siyasətinin reallaşdırılması məqsədinə tabedir) vahid mərkəzdən - Azərbaycanın Mərkəzi Bankından idarə olunur.

2. Büdcə sabitliyi siyasətinin vahidliyi prinsipi ondan ibarətdir ki, pul-kredit tənzimləməsi sisteminin bütün subyektləri, mərkəzdən və ya yerlərdə yerləşməsindən asılı olmayaraq, vahid büdcə sabitliyi siyasətini rəhbər tutur. Onların fəaliyyəti ölkə ərazisində icrası məcburi olan vahid normativ sənədlərlə tənzimlənir.

3. Mərkəzi icra hakimiyyəti orqanlarına bankın tabe olmaması və onun qanunverici hakimiyyət orqanlarına - parlamentə hesabatlılığı prinsipi. Bu prinsipin tətbiqi onunla bağlıdır ki, hakimiyyət orqanları, Mərkəzi Bank kimi dövlət aparatının bir hissəsi olsa da, Mərkəzi Bankın başlıca prioritet məqsədi - milli valyutanın sabitliyinin saxlanılması - hakimiyyətin və onun orqanlarının cari siyasi məqsədləri ilə üst-üstə düşməyə bilər. Buradan Mərkəzi Bank hakimiyyət orqanlarına tabe olarsa, özünün başlıca strateji məqsədinin zərər vuraraq, ani konyunktur məqsədlərin həllinə cəlb edilə bilər.

Bununla yanaşı, cəmiyyət büdcə sabitliyi siyasətinin nə dərəcədə effektiv təsir göstərməsi barədə məlumatlandırılmalıdır. Demokratik ölkələrdə büdcə sabitliyi siyasətinin tətbiqi sisteminin qiymətləndirilməsi üçün Mərkəzi Bankların parlamentlərə hesabatlarından istifadə olunur.

Büdcə siyasəti mexanizmi sistemin elementi kimi büdcə sabitliyi siyasəti alətlərinin istifadəsi şərtləri və qaydası, Mərkəzi Bankların bu istifadə üzrə fəaliyyətinin təşkilidir. Bu mexanizm hər bir ölkə üçün fərdidir və Mərkəzi Bankların normativ sənədləri ilə nizamlanır, o cümlədən Azərbaycanda Mərkəzi Bankının qəbul etdiyi normativ xarakterli aktlardan istifadə olunur.

Likvidlik mövqeyi depozit və ya əmanətlərin vaxtından əvvəl tələb olunması, eləcə də kreditlərin qaytarılması müddətlərinin pozulması zamanı qeyri-real ola bilər.

Son illər bankların aktiv və passiv əməliyyatlarının müxtəlif valyutalarda, əsas etibarilə isə manat və ABŞ dollarında inkişafı ilə əlaqədar olaraq valyuta likvidliyinin təminatı problemi, yəni aktivlərin və passivlərin konkret valyutada müddət yə məbləğə görə uyğunluğu problemi meydana çıxmışdır. Buradan nəinki ümumi likvidlik mövqeyinin, eləcə də ayrı-ayrı valyutalar nöqteyi- nəzərindən də likvidlik mövqeyinin təyin olunması zərurəti doğur. Əgər həm ümumi likvidlik mövqeyi, həm də ayrı-ayrı valyutalar üzrə likvidlik mövqeyinin tərkib hissələri də tarazlaşa bilərsə, o zaman bankın likvidliyi təmin olunacaqdır.

Milli Məclisin 2023-cü il dövlət büdcəsi haqqında qanun layihəsinin müzakirəsi zamanı banklar tərəfindən girovsuz böyük məbləğdə kreditlərin verilməsi sonradan problemlər yaratdığına görə kənd təsərrüfatı sahəsində 50 min manata qədər kreditlərin ayrılması təklif edilmişdir.

Kreditlərin stimullaşdırılması dedikdə kredit faizlərinin aşağı səviyyəsi nəzərdə tutulur.

Dünya təcrübəsində Asiya böhranı zamanı Çin Xalq Respublikasında iqtisadi yüksəliş əsasən kənardan güclü təzyiqlərə baxmayaraq, xarici-iqtisadi əməliyyatlar üzərində döylətin tam nəzarətinin qorunması ilə bağlıdırsa, Tayvanda bu onunla əlaqədardır ki, maliyyə liberallaşdırılması zamanı vaxtında strateji maliyyə tənzimlənməsinin yeni vasitələrinin yaradılması həyata keçirilmişdir.

Maliyyə təhlükəsizliyi sahəsində xüsusi tədbirlər sisteminin işlənib hazırlanmasına ehtiyac burada olan problemlərdən irəli gəlir:

- maliyyə-bank sistemi qarışıq pul dövriyyəsi manat, dollar-avro sisteminə əsaslanır ki, bu da kapital axınına səbəb olur;
- maliyyə-bank sistemi inflyasiya şəraitində formalaşmışdır ki, bu da aşağı səviyyəli inflyasiya ilə xarakterizə olunan yeni iqtisadi şəraitə uyğun gəlmir;
- vergi, gömrük, xarici ticarət və digər əməliyyatlarda vahid əlaqəli dövlət tənzimlənməsi sisteminin olmaması və s.

Ölkəmizdə maliyyə sisteminə ən böyük təhlükə törədən amillərdən biri də xarici ölkələrlə iqtisadi ticarət münasibətlərində olan qeyri-ekvivalent mübadilədir. Xarici ölkələrə strateji xammal ixrac etməklə onlardan maşın, avadanlıq, ərzaq və digər istehlak şeylərinin alınmasıdır. Ölkəmiz öz əhalisini ərzaqla, sənayesini xammalla təmin etmək imkanına malikdir və hətta xarici bazarlara hazır məhsul ixrac etmək üçün potensial imkanları vardır.

Ona görə də dövlət büdcə kəsirini maliyyələşdirərkən vergi dərəcələrini artırmaq imkanlarından istifadə edir. Burada əsas şərt kimi dövlət maliyyəsinin sabitliyini müəyyən edən mühüm şərt vergilərin Və rüsum dərəcələrinin məhdud miqdarda artırmaq məsləhət görülür.

Ölkənin maliyyə təhlükəsizliyi xarici borcların ÜDM-dəki faizi ilə də ölçülür. 2022-ci ilin 10 ayında bu rəqəm 13 % təşkil edir.

Cənubi Qafqaz respublikaları arasında bu rəqəm 50-60 % aralığındadır. İlin axırına kimi həmin rəqəmin 10 % olacağı nəzərdə tutulur.

Dünya təcrübəsinə əsaslanaraq, maliyyə təhlükəzliyinin təminatı çərçivəsində büdcə siyasəti işləyib həyata keçirərkən aşağıdakı prinsipləri rəhbər tutmağı məqsədəuyğun hesab edirik.

1. Büdcə siyasətini həyata keçirən orqan - risk amillərinin güclənməsi

haqqında həyəcanlı siqnalların formalaşması barədə informasiya əldə edib maliyyə vasitəçilərinin fəaliyyətinə təsir etmə imkanı əldə edər.

2. Büdcə siyasəti hazırlanarkən, milli maliyyə bazarının bütün seqmentləri ilə maliyyə təsisatları arasındakı qarşılıqlı əlaqələrin dinamikasının monitorinqini aparmalıdır. Stress (gözlənilən vəziyyətlərin) situasiyalarının təcrübəsi göstərir ki, maliyyə təsisatları arasında qarşılıqlı asılılıqlar tez bir zamanda güclənə bilir ki, bu da öz növbəsində gözlənilməz neqativ şok zamanı maliyyə xidmətlərinin təklifində pozuntulara və ya bu təkliflərin dayandırılmasına gətirib çıxarır.

3. Hal-hazırda daxili bazarda maliyyə stabilliyini daha çox təhdid edən

sistemli riskin və maliyyə disbalansının konkret amillərinin məhdudlaşdırılmasına yönələn infrastruktur siyasəti aparmalıdır.

4. Potensial stressin qarşısını səmərəli şəkildə almaq üçün monetar orqanlar pul siyasətinin hazılanarkən, intensiv beynəlxalq informasiya mübadiləsi aparmalıdırlar.

5. Büdcə siyasətinin əsas istiqamətləri araşdırılarkən Mərkəzi Bank Maliyyə Nəzarət Palatası, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyinin təklif və tövsiyələrini nəzərə almalıdır.

Praktikada ölkələrin Mərkəzi Bankları büdcə sabitliyi siyasətinin aparılmasına müxtəlif yanaşmalardan istifadə edir, lakin onlardan çoxunun ümumi son məqsədi var - inflyasiyanı cilovlamaq, iqtisadi artım, işsizlik problemləri də Mərkəzi Banklar üçün maraqlıdır.

Makroiqtisadiyyat baxımından qiymətlərin sabitliyi inflyasiya səviyyəsinin ildə 2-3 % artması deməkdir.

Belə qənaətə gəlinir ki, maliyyə və büdcə dayanıqlığı dövlətin social-iqtisadi sabitliyinin tərkib hissəsi, kimi nəzərə alınmalıdır, ona görə də müasir iqtisadi proseslər dövlətin büdcə dayanıqlığının idarə edilməsində yeni komponentlərin tətbiqi zərurətini aşağıdakılarla əsaslandırır: büdcənin şəffaflığı, büdcənin sabitliyi və uzunmüddətli dayanıqlığı, büdcələrarası münasibətlərin səmərəli və ədalətli sistemi, büdcələrin və büdcə prosesinin konsolidasiyası, ortamüddətli maliyyə planlaşdırılması, fəaliyyətin nəticələrinə əsaslanan büdcələşdirmənin həyata keçirilməsi, səmərəli maliyyə nəzarətinin və monitorinqinin təşkili və s.

Azərbaycanın büdcə sisteminin müasir vəziyyətinin təhlili bir daha sübut edir ki, bu da bir sıra çatışmazlıqları, o cümlədən strateji planlaşdırma sisteminin olmaması, iqtisadi nəticələrin qiymətləndirilməməsi kimi nöqsanları müəyyən etməyə imkan verdi. Cari investisiya xərclərinin planlaşdırılmaması sahəsində büdcə vəsaitlərindən istifadənin məhdud qiymətləndirilməsi büdcələrin qeyri-şəffaflığı, büdcə sisteminin neft və qaz gəlirlərindən asılılığı, vergi sisteminin sabitliyini və uzunmüddətli tarazlığını qorumağa diqqət yetirməklə büdcə sisteminin təsisatlarının müasirləşdirilməsinin zəruri olduğu qənaətinə gəldik.

Ədəbiyyat

2. Azərbaycan Respublikasının "Mərkəzi Bank haqqında" Qanunu (10. XII. 2022-cü il).
3. Azərbaycan Respublikasının "Banklar haqqında" Qanunu (16.1.2022- cü il).
4. "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
5. Mərkəzi Bankın illik hesabatları. 2015-2020-ci illər // www.cbar.az
6. Azərbaycan Respublikası Mərkəzi Bankının 2015-2020-cu il üçün Pul Siyasətinin Əsas İstiqamətləri barədə bəyanatı // http://www.cbar.az
7. Муршудли Ф.Ф. Банковское обслуживание внешнеэкономической деятельности Азербайджана в условиях финансовой глобализации. Баку: Şərq-Qərb, 2020. 416 с.
7. Экономическая безопасность. Производство. Финансы. Банки /Под ред. В.К. Сенчагова. - М.: Финстатинформ, 2020.

РЕЗЮМЕ
РОЛЬ И ЗНАЧЕНИЕ БЮДЖЕТНОЙ ПОЛИТИКИ В ОБЕСПЕЧЕНИИ ФИНАНСОВОЙ БЕЗОПАСНОСТИ
Микаилова С.М.

Ключевые слова: *финансовая безопасность, бюджетная политика, кредитное стимулирование, смешанное денежное обращение, без эквивалентный обмен, государственно-частное партнерство*

В статье говорится о роли услуг, отвечающих потребностям экономики и общества в инвестиционном росте, экономическом росте и социальной стабильности.

Здесь среди инструментов, используемых при реализации бюджетной политики, рассматриваются - повышение ликвидности, стимулирование кредитования, укрепление национальной валюты, предоставление без залоговых кредитов нуждающимся и другие вопросы.

SUMMARY
THE ROLE AND IMPORTANCE OF BUDGET POLICY IN ENSURING FINANCIAL SECURITY
Mikayilova S.M.

Keywords: *financial security, budget policy, credit stimulation, mixed money circulation, non-equivalent exchange, public-private partnership*

The deals with talks about the role of services that meet the needs of the economy and society for investment growth, economic growth and social stability.

Here, among the instruments used in the implementation of the budget policy - increasing liquidity, stimulating loans, strengthening the national currency, providing unsecured loans to those in need, and other issues are considered.

HEYDƏR ƏLİYEV AZƏRBAYCANÇILIQ MƏFKURƏSİNİN VƏ İNKİŞAFININ ƏSASINA ÇEVRİLMİŞ İDEYANIN BANİSİDİR

В научной статье рассматривается нахчыванская эпоха политической власти общенационального лидера азербайджанского народа Гейдара Алиева и анализируется влияние осуществленных им демократических преобразований в автономной республике на Азербайджан в целом. Показано, что 20 января 1990 года Гейдар Алиев, потрясённый трагедией, учинённой над его родным народом советской армией, возвысил голос протеста и находя более невозможность жизнь в Москве, вернулся в Баку, а оттуда в родной Нахчыван, где он родился и вырос.

В связи с военной агрессией Армении, жители автономной республики, пережившие самый тяжелый период своей истории, проявили большое доверие Гейдару Алиеву, избрав его сначала депутатом Верховного и Национального Собраний, а затем Председателем Верховного Меджлиса. Демократические изменения, предпринятые великим лидером, меры по выбору Автономной Республики из ситуации, в которой она окахалась, в кратчайшие сроки оправдали себя. В статье исследованы эти вопросы на основе источников.

SUMMARY

HEYDAR ALIYEV AND THE DEMOCRATIC TRANSFORMATIONS THAT BEGAN WITH NAKHCHIVAN

Mustafayev A.

Keywords: *Great Leader, Cabinet of Ministers, Speaker of the Supreme Assembly, Communist Party, Referendum, Autonomous Republic, Milli Majlis*.

The scientific article examines the Nakhchivan era of the political power of the national leader of the Azerbaijani people, Heydar Aliyev, and analyzes the impact of the democratic changes he implemented in the autonomous republic on Azerbaijan as a whole. It was shown that on January 20, 1990, Heydar Aliyev, unable to bear the tragedy inflicted on his native people by the Soviet army, raised his protest voice, seeing the impossibility of living in Moscow, and returned to Baku, and from there to his native Nakhchivan, where he was born and raised.

The population of the autonomous republic of Armenia, which is experiencing the most difficult period of its history due to military aggression, shows great faith and trust in Heydar Aliyev and first elects a deputy to the Supreme and Milli Majlis, and then the Chairman of the Supreme Majlis. The democratic changes implemented by the great leader, the measures he took to save the

autonomous republic from the situation it had fallen into, bore fruit in a short time. In the article, these issues were investigated based on sources.

AZƏRBAYCANDA AQRAR SAHƏNİN İNKİŞAFI İSTİQAMƏTİNDƏ TƏDBİRLƏR

Orucova Həcər Əjdər qızı
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
Orucova.hecer@mail.ru

Açar sözlər: *ölkə iqtisadiyyatı, aqrar sahə, dayanıqlı inkişaf, tədarük sistemi, dövlət tənzimlənməsi, təkmilləşdirmə*

Qabaqcıl texnologiyaların və elmi-texniki tərəqqinin bütün sahələrə tətbiqi ilə bərabər təşkilati və iqtisadi tədbirlərin tətbiqi ölkəmizdə kənd təsərrüfatının daha da inkişaf etməsinə zəmin yaradır.

Bütün dünyada güclü kənd təsərrüfatı sistemi formalaşdırmaq ideyasının əsasını kənd təsərrüfatı texnologiyası innovasiyasında güclü ölkə olmaq təşkil edir. Qeyd etmək lazımdır ki, bizim ölkəmizin kənd təsərrüfatı məhsulları çoxdur, lakin üstün deyil, resursdan istifadə səviyyəsi yüksək deyil, kənd təsərrüfatı elmi və texnologiyasının innovasiya qabiliyyəti güclü deyil. Bu səbəbdən, gələcəyə baxaraq, yeni modernləşmə səfərində biz innovasiyaya əsaslanan inkişaf strategiyasını dərindən həyata keçirməli, yüksək səviyyəli kənd təsərrüfatı elmi və texnologiyasının özünə inamını və özünü təkmilləşdirməsini təşviq etməli, kənd təsərrüfatının inkişafının sürətləndirilməsinə möhkəm təminat verməliyik.

Kənd təsərrüfatı elmi və texnologiya innovasiyalarını gücləndirmək vacibdir.

Yüksək səviyyəli kənd təsərrüfatı texnoloji innovasiyasını böyük dərəcədə təşviq etmək dünyanın kənd təsərrüfatı gücünün mühüm xüsusiyyətidir. Güclü kənd təsərrüfatı ölkəsinin qurulmasını sürətləndirmək üçün ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, sənayenin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi və kənd təsərrüfatının yaşıl transformasiyasına dəstək vermək üçün kənd təsərrüfatı elmi və texnologiyasının potensialından istifadəyə diqqət yetirməlidir. [1]

Birincisi, güclü kənd təsərrüfatı ölkəsinin qurulmasını sürətləndirmək, ilk növbədə, ərzaq təhlükəsizliyini və mühüm kənd təsərrüfatı məhsullarının tədarükünü gücləndirməkdir.

Dünyanın kənd təsərrüfatı gücləri kənd təsərrüfatı istehsalının səmərəliliyini davamlı olaraq təkmilləşdirmək üçün biotexnologiyadan və rəqəmsal texnologiyadan tam istifadə edir və ümumiyyətlə yüksək taxılla özünü təmin etmək dərəcəsinə malikdirlər.Məsələn, ABŞ, Kanada, Fransa, Avstraliya və digər ölkələr uzun müddətdir ki, kənd təsərrüfatının məhsuldarlığını qoruyub saxlayırlar. [2]

Güclü kənd təsərrüfatı ölkəsinin qurulmasını sürətləndirmək üçün ilk vəzifə elmi və texnoloji imkanlardan istifadə etməkdir. Bundan əlavə, toxumçuluq sənayesində əsas texnoloji tədqiqatları gücləndirmək, becərilən torpaq potensialından istifadə etmək, taxılçılıq zəncirinin bütün həlqələrində elmi və texnoloji innovasiyaların dəstəkləyici rolunu tam şəkildə yerinə yetirmək və möhkəm təminat vermək lazımdır.

İkincisi, aqrar sənayenin keyfiyyətinin, səmərəliliyinin və rəqabət qabiliyyətinin yüksəldilməsinə diqqət yetirməklə, güclü kənd təsərrüfatı ölkəsinin qurulmasını sürətləndirməkdir.

Kənd təsərrüfatını və onunla əlaqəli sənayeləri yüksək səviyyəli kənd təsərrüfatı texnologiyası innovasiyası və sənaye innovasiyası ilə dəstəkləmək dünyanın kənd təsərrüfatı güclərinin ümumi xüsusiyyətidir və güclü beynəlxalq rəqabət qabiliyyətinə və brend təsirinə malikdir. Bunun əksinə olaraq, ölkəmizin kənd təsərrüfatı elmi və texnologiyasının müstəqil innovasiya qabiliyyəti təkmilləşdirilməlidir, elmi və texnoloji investisiyaların intensivliyi kifayət deyil, elmi və texnoloji innovasiya sisteminin səmərəliliyi yüksək deyil, kənd təsərrüfatı sənayesinin beynəlxalq rəqabət qabiliyyəti yüksək deyil, kənd təsərrüfatı markalarının təsiri zəifdir. Güclü kənd təsərrüfatı ölkəsi qurmaq üçün kənd təsərrüfatı istehsal amillərini hərtərəfli gücləndirmək, əmək məhsuldarlığını, torpaq məhsuldarlığını və intellektual istehsal vasitələrini yaxşılaşdırmaq, kənd təsərrüfatı müəssisələrini və kənd təsərrüfatı sənayesini gücləndirmək və beynəlxalq potensialı əhəmiyyətli dərəcədə artırmaq üçün elmi və texnoloji innovasiyaların qabiliyyətini gücləndirmək lazımdır. [6]

Üçüncüsü, güclü kənd təsərrüfatı ölkəsinin qurulmasını sürətləndirmək, kənd təsərrüfatının yaşıl transformasiyasını və ekoloji resursların davamlı inkişafını təşviq etməkdir.

Kənd təsərrüfatının yaşıl transformasiyasını təşviq etmək dünyanın kənd təsərrüfatı gücləri üçün ümumi strateji seçimə çevrilib. Məsələn, ABŞ Kənd Təsərrüfatı Departamenti tərəfindən 2021-ci ildə dərc edilmiş ABŞ Kənd Təsərrüfatı İnnovasiyaları Strategiyası kənd təsərrüfatının əhəmiyyətli dərəcədə

artırılmasını hədəfləyən dörd əsas kənd təsərrüfatı sənayesinin, o cümlədən qida bitkiləri, meşəçilik, heyvandarlıq və süd sənayesinin texnoloji innovasiyaların inkişafı istiqamətini açıq şəkildə ortaya qoyur.

Ölkəmiz kənd təsərrüfatının yaşıl transformasiyasına böyük əhəmiyyət verir və kənd təsərrüfatının yaşıl inkişafına və ekoloji resursların davamlı inkişafına kömək etmək ölkəmiz üçün güclü kənd təsərrüfatı ölkəsinin qurulmasını sürətləndirməyin yeganə yoludur, lakin vəzifə çox çətindir. Hazırda ölkəmizin kənd təsərrüfatında yaşıl transformasiyası becərilən torpaqların deqradasiyası, resurs məhdudiyyətləri və mənbədən kənar çirklənmə kimi çoxsaylı problemlərlə üzləşir. Güclü bir kənd təsərrüfatı ölkəsinin qurulmasını sürətləndirmək üçün kənd təsərrüfatı elmi və texnologiyasının tərəqqisini davamlı şəkildə təşviq etmək, kənd təsərrüfatı istehsalının innovasiyalarını və təkmilləşdirməsini sürətləndirmək və resurslardan istifadə texnologiyası ilə bağlı öhdəlik götürməliyik ki, ölkənin kənd təsərrüfatının inkişafı liderlik edə bilsin. [3]

Texnoloji yeniliyin üç qısa lövhəsinin həllinə diqqət yetirin.

Dünyanın kənd təsərrüfatı gücləri ilə müqayisədə ölkəmizin kənd təsərrüfatı texnologiyası innovasiyası hələ üç aspektdə təkmilləşdirilməlidir.

Birincisi, ölkəmizdə əsas kənd təsərrüfatı tədqiqatlarının bəzi əsas sahələrində hələ də innovasiya boşluğu mövcuddur.

İkincisi, ölkəmizdə kənd təsərrüfatı elmi və texnologiyasının sənayeyə, universitetə və tədqiqata çevrilməsinin səmərəliliyi yüksək deyil.

Son illərdə ölkəmizin kənd təsərrüfatında yüksək texnologiyalı fərdi nailiyyətləri məhsuldar olub, lakin texnologiya inteqrasiyası və sənayeləşmə imkanları zəifdir, güclü texnologiyadan güclü sənayeyə gedən yol hamar deyil, effektiv təklif və mümkün olan təklif arasında hələ də uyğunsuzluq var. Kənd təsərrüfatının texnoloji innovasiyaları və kənd təsərrüfatı elmi və texnoloji nailiyyətləri transformasiya prosesində müvafiq imkan və şəraitin olmaması kənd təsərrüfatı elmi və texnologiyasının istehsala, təhsilə və tədqiqata çevrilməsində səmərəliliyin aşağı olmasına və kənd təsərrüfatı innovasiyalarının zəif inteqrasiyasına səbəb olmuşdur.

Patent müraciətləri nöqteyi-nəzərindən, ölkəmizin universitet elmi-tədqiqat müəssisələri kənd təsərrüfatı sahəsindəki patent müraciətlərinin böyük bir hissəsini təşkil edir, səlahiyyətli patent lisenziyası köçürmələrinin nisbəti aşağıdır və istehsal, təhsil və tədqiqatın transformasiyası hamar deyil.

Üçüncüsü, kənd təsərrüfatı müəssisələrinin elmi və texnoloji innovasiya imkanlarının kifayət qədər güclü olmamasıdır.

Dünyanın kənd təsərrüfatının güc mərkəzlərindəki müəssisələr innovasiya sahəsində görkəmli mövqeyə malikdirlər, lakin ölkəmizdə müəssisənin rəhbərlik etdiyi kənd təsərrüfatı elmi və texnologiyası innovasiya modelinin inkişafı hələ yetkin deyil və kənd təsərrüfatı ilə bağlı müəssisələrin texnoloji innovasiya imkanları nisbətən zəifdir. Ölkəmizdə kənd təsərrüfatı elmi və texnologiyası müəssisələrinin sayı nisbətən azdır.

Ölkəmizin kənd təsərrüfatı sənayesi zəncirində "uzun zəncir və bir çox subyekt" xüsusiyyətləri də kənd təsərrüfatı müəssisələrinin texnoloji innovasiyasında innovasiyaların çətinləşməsi, innovasiya zəncirində sənaye zəncirinin geri qaytarılmasında çətinlik və aşağı həvəs kimi böyük problemlərə səbəb olmuşdur.

Mövcud məsələlərin həlli qismində ölkədə kənd təsərrüfatı həlledici problemlərlə üzləşməli, sistemləri və mexanizmləri yeniləşdirməli, yüksək səviyyəli kənd təsərrüfatı elmi və texnologiyasını özünə güvənən olması üçün güclü şəkildə təşviq etməli, güclü kənd təsərrüfatı ölkəsinin qurulmasının sürətləndirilməsinə təkan verməlidir. Konkret olaraq, aşağıdakı aspektlərdən səy göstərilməlidir.

Birincisi, milli kənd təsərrüfatı elmi və texnologiyası innovasiya sisteminin təkmilləşdirilməsini sürətləndirməkdir.

Bunun üçün milli kənd təsərrüfatı elmi və texnologiyası innovasiya sisteminin təkmilləşdirilməsini təşviq etmək, kənd təsərrüfatı sahəsində milli laboratoriya sistemi qurmaq, əsas sərhədyanı sahələrdə hərtərəfli tədqiqat platformalarının daşıyıcı planını sürətləndirmək, milli elmi tədqiqat müəssisələrinin elmi və texnoloji innovasiya imkanlarını təkmilləşdirmək və yüksək -kənd təsərrüfatı sahəsində elmi-tədqiqat universitetlərinin səviyyəsini artırmaq və qabaqcıl kənd təsərrüfatı elmi və texnologiya müəssisələrini yetişdirmək, kənd təsərrüfatı yüksək texnologiyalı zonaların və kənd təsərrüfatı elmi və texnologiya parklarının yüksək keyfiyyətli inkişafına kömək etmək lazımdır. Kənd təsərrüfatı elmi və texnologiyası innovasiya resurslarını sistemli şəkildə aktivləşdirməli, əsas kənd təsərrüfatı texnologiyalarının döyüşündə qalib gəlmək üçün hər cür səy göstərməli və dünyanın kənd təsərrüfatı elmi və texnologiyası rəqabətinin yüksəkliklərini ələ keçirməyə çalışılmalıdır.

İkincisi, əsas kənd təsərrüfatı tədqiqatlarını gücləndirməyə davam etməkdir.

Əsas kənd təsərrüfatı tədqiqatları kənd təsərrüfatı sənayesinin inkişafı üçün güc mənbəyidir. Əsas kənd təsərrüfatı tədqiqatlarının davam etdirilməsi üçün əsas kənd təsərrüfatı tədqiqatları sahəsi

optimallaşdırılmalıdır. Əsas sahələrdə fundamental tədqiqatları gücləndirilməli, kənd təsərrüfatının xüsusiyyətlərinə hörmət edilməli və əsas sahələrdə əsas kənd təsərrüfatı tədqiqatlarına uzunmüddətli və davamlı dəstək verilməlidir. Kənd təsərrüfatı ilə bağlı kollec və universitetlərdə əsas tədqiqat şəraitinin qurulmasını gücləndirmək, intizam sisteminə uyğun gələn elmi və texnoloji innovasiya platforması sistemi qurmaq, fundamental və qabaqcıl tədqiqatların davamlı inkişafı üçün şərait yaratmaq lazımdır. Aparıcı elm və texnologiya müəssisələrini milli elm və texnologiya planlaşdırma layihələrinin həyata keçirilməsində liderlik etməyə təşviq etməli və kənd təsərrüfatı ilə əlaqəli müəssisələri tədqiqat institutları qurmaq, innovasiya konsorsiumları yaratmaq və innovativ istedadları maliyyələşdirmək və yetişdirməklə əsas kənd təsərrüfatı tədqiqatlarında iştirak etməyə təşviq edilməlidir.

Üçüncüsü, kənd təsərrüfatı texnologiyası innovasiyasında müəssisələrin vəziyyətini əhəmiyyətli dərəcədə artırmaqdır.

Müəssisənin rəhbərlik etdiyi kənd təsərrüfatı elmi və texnologiyası innovasiya modellərinin inkişafını dəstəkləmək və müəssisələrin kənd təsərrüfatı elmi və texnologiyası innovasiyalarında daha böyük rol oynamasını təşviq etmək lazımdır. Əsas milli və yerli kənd təsərrüfatı elmi-tədqiqat layihələrinin formalaşma mexanizmini yeniləmək , layihələrin təşkili və idarəetmə modellərində innovasiyaları təşviq etmək lazımdır. Müəssisələrin və elmi tədqiqatçıların maraqlarının əlaqələndirilməsi mexanizmini yeniləşdirmək, elmi tədqiqatçıları müəssisə texnologiyası tədqiqatlarında iştirak etməyə təşviq etmək, müvafiq tədqiqatlara nəticələrin tanınması və elmi tədqiqatçılara müəyyən əmək haqqı almağa imkan vermək inkişaf tədbirləri arasında yer ala bilər. Kənd təsərrüfatı müəssisələrinin elmi və texnoloji innovasiyalarına dəstəyi gücləndirmək, kənd təsərrüfatı elmi və texnoloji müəssisələri üçün məqsədyönlü siyasət və tədbirləri tətbiq etmək, kənd təsərrüfatı elmi və texnoloji maliyyə yardımı üçün xüsusi fondların yaradılmasını nəzərdən keçirmək, kənd təsərrüfatı elmi və texnoloji müəssisələrinə investisiya subsidiyalarını həyata keçirmək və maliyyələşdirmə kanallarını genişləndirmək də həmçinin bunlara aid edilə bilər.

Dördüncüsü, kənd təsərrüfatı elmi və texnologiyasının innovasiya istedadlarının innovasiya canlılığını stimullaşdırmaqdır.

Kənd təsərrüfatı elmi və texnologiyası sahəsində innovasiya istedadları güclü kənd təsərrüfatı ölkəsinin qurulması üçün əsas dəstəkdir. Kənd təsərrüfatı elmi və texnologiyası sahəsində innovasiya istedadlarının canlılığını stimullaşdırmaq üçün kənd təsərrüfatı elmi və texnologiyası innovasiyaları sistemini və mexanizmini davamlı olaraq təkmilləşdirmək, tələblərə riayət etmək lazımdır. Bilik dəyər yönümlü gəlir bölgüsü siyasəti və kənd təsərrüfatı elmi və texnologiya istehsalı, təhsil və tədqiqatın dərin inteqrasiya problemlərindən xilas olmaq, kənd təsərrüfatı elmi və texnologiyası istedadlarının yetişdirilməsi, kənd təsərrüfatı elmi və texnologiyası istedadları üçün komanda sistemi qurmaq və kənd təsərrüfatı elmi və texnologiyasında innovasiya istedadlarının yetişdirilməsi, istedadın tətbiqi, istedaddan istifadə və istedad həvəsləndirilməsi ətrafında siyasət dəstəyini gücləndirmək güclü kənd təsərrüfatı ölkəsi olmağa kömək edə bilən səbəblər arasındadır. Kənd təsərrüfatı elmi və texnologiyası xidmət istedadlarının yetişdirilməsini gücləndirmək, kənd təsərrüfatı elmi və texnologiya komissarı sistemini dərindən tətbiq etmək, yüksək keyfiyyətli fermerlərin təlim planlarının həyata keçirilməsini artırmaq və kənd təsərrüfatı elmi və texnologiyası xidmət istedadlarının radiasiya və aparıcı rolunu artırmaq lazım olan gücün əldə olunmasına şərait yarada bilər.

Ədəbiyyat

1. Abbasov A.F. Ərzaq təhlükəsizliyi. Bakı: Nasir, 2007, 602 s.
2. Aqrar sahə modernləşmə dönəmində: problemlər və onun həlli yolları (kollektiv monoqrafiya). Bakı: 2009, 505 s.
3. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"
4. Tədarük və təchizat jurnalı, № 1/2017, 32 s.
5. www.nedir.az
6. www.tedaruk.gov.az

РЕЗЮМЕ

МЕРОПРИЯТИЯ, НАПРАВЛЕННЫЕ НА РАЗВИТИЕ АГРАРНОЙ СФЕРЫ В АЗЕРБАЙДЖАНЕ

Оруджова А.А.

***Ключевые слова**: национальная экономика, аграрный сектор, устойчивое развитие, система снабжения, государственное регулирование, совершенствование*

Направление достижений научно-технического прогресса в эту сферу имеет большое значение в обеспечении устойчивого развития аграрного сектора, который является одной из важнейших и приоритетных отраслей экономики

страны. Вопросы правильной организации и государственного регулирования данного вида деятельности, стимулирующего деятельность производителей продукции, постоянно освещаются и стоят на повестке дня в силу своей актуальности. В статье рассматриваются вышеперечисленные вопросы и основные аспекты и направления его совершенствования.

SUMMARY
MEASURES FOR THE DEVELOPMENT OF THE AGRARIAN SECTOR IN AZERBAIJAN.
Orujova H.A.

Key words: *national economy, agrarian sector, sustainable development, supply system, state regulation, improvement*
Directing the achievements of scientific and technical progress to this field is of great importance in ensuring the sustainable development of the agricultural sector, which is one of the most important and priority sectors of the country's economy. The issues of proper organization and state regulation of this type of activity, which stimulates the activity of product manufacturers, are constantly highlighted and on the agenda due to their relevance. The article discusses the above-mentioned issues and discusses the main aspects and directions of its improvement.

HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA TORPAQ İSLAHATLARININ MÜƏLLİFİ KİMİ

Rüstəmov Famil Vəli oğlu
İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan, i..f.d., dosent
Familrustamov456@gmail.com

Açar sözlər*: aqrar sahə, kənd təsərrüfatı, torpaq, islahat, savxoz, xolxoz.*

Ümummilli Liderin ölkəmizə ilk rəhbərlik etdiyi dövrdə də (1969-1982-ci illər) aqrar sahə prioritet istiqamət kimi qəbul edilərək bu sahəyə xüsusi diqqət və qayğı göstərmişdir. Heydər Əliyevin qətiyyətli addımları, gərgin əməyi, hərtərəfli düşünülmüş aqrar siyasəti qısa müddət ərzində öz müsbət nəticələrini verməyə başladı. Ölkəmizi ittifaq miqyasında qabaqcıl aqrar-sənaye respublikası kimi ön sıralara çəkə bildi. Amma çox təəssüf ki, Heydər Əliyevdən sonrakı dövrdə bu inkişafın davamlılığı təmin edilmədi və bir çox sahədə olduğu kimi kənd təsərrüfatında da tənəzzül baş verdi. 80-ci illərin sonlarında respublikamızda ümumi daxili məhsulun təxminən yarısı aqrar-sənaye kompleksinin payına düşürdü. Həmin illərdə respublika SSRİ-nin bütün kənd təsərrüfatı məhsullarının təqribən10%-ni verirdi. Çox təəssüf ki, müstəqillik qazandığımız ilk illərdə pərakəndəlik, qeyri-peşəkar idarəetmə, bu sahəyə biganə münasibət və digər səbəblərdən ölkədə kənd təsərrüfatının maddi-texniki bazası praktiki olaraq məhv edildi, kənd təsərrüfatı məhsullarının istehsalı isə kəskin şəkildə aşağı düşdü. Bundan sonra kənd təsərrüfatı istehsalında yaranan böhran nəticəsində Azərbaycan nəinki xarici bazarda mövqeyini itirdi, hətta daxili tələbatını da ödəyə bilmədi. Beləliklə, Azərbaycan kənd təsərrüfatı məhsulları üzrə ixrac edən ölkədən idxalçısı ölkəyə çevrildi. Ancaq Heydər Əliyev xalqın israrlı tələbi ilə yenidən Azərbaycan respublikası Prezidenti kimi hakimiyyətə qayıtdıqdan sonra kənd təsərrüfatında mövcud tənəzzülün qarşısı alındı və təxirə salınmadan aqrar islahatlara start verildi.

Azərbaycan xalqının Böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyev 16 iyul 1996-cı ildə iqtisadi azadlıq və sosial ədalət prinsiplərini rəhbər tutaraq ölkədə torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, bazar iqtisadiyyatını və sahibkarlıq təşəbbüslərini inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyinə, o cümlədən ərzaq təhlükəsizliyinə nail olmaq və nəticə etibarı ilə əhalinin maddi rifahını yüksəltmək məqsədi ilə torpaq islahatı haqqında Azərbaycan Respublikasının Qanununu imzaladı. Aparılan islahatının başlıca vəzifəsi respublikada dövlət torpaqlarının müəyyən edilməsindən, torpaqların bələdiyyə və xüsusi mülkiyyətə verilməsini, mülkiyyətçilərin torpağa sahiblik, istifadə və sərəncam hüquqlarının təmin edilməsindən ibarət idi.[1]

Ulu Öndərin "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası qanunu layihəsinin müzakirəsinə həsr edilmiş iclasda dediyi kimi torpaq islahatı haqqında qanun sadə bir qanun deyil, bu, çox mürəkkəb, demək olar ki, respublikanın iqtisadiyyatının böyük bir sahəsini əhatə edən bir məsələdir.[6]

Bundan öncə isə 18 fevral 1995-ci il tarixində torpaq və əmlak üzərində yeni mülkiyyət münasibətlərinin formalaşdırılmasına, bazar iqtisadiyyatına uyğun müxtəlifnövlü təsərrüfatların yaradılmasına, istehsal münasibətlərinin dəyişdirilməsi və təkmilləşdirilməsinə zəmin yaradacaq, eyni zamanda aqrar islahatının əsas istiqamətlərini və onların hüquqi təminatını müəyyən edəcək "Aqrar islahatın əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. [2]

Xüsusulə qeyd etməliyik ki, ölkəmizdə torpaq islahatlarının əsas hələ 1992-ci ildə müasir Azərbaycan dövlətinin qurucusu, xalqının və dövlətinin inkişafı naminə misilsiz işlər görmüş Ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik etdiyi dövrdə Culfa rayonunun

Şurut və Gal kəndlərindəki torpaqların kəndlilərə verilməsi ilə qoyulmuşdu. Torpaq-vətəndaş münasibətlərində həyata keçirilən tarixi və inqilabi hadisənin birinci mərhələsinin yekunlarını Ulu öndər olduqca yüksək qiymətləndirərək demişdir: "Biz torpaq islahatının aparılmasında radikal tədbirlərə əl atmışıq. Deməliyəm ki, nəticə idealdır. Özü də bu, hələlik başlanğıcdır".[3] Tarix sübut etdi ki, Ulu öndər hər zaman olduğu kimi bu məsələdə də tamamilə haqlıdır. Doğurdan da bu proses ölkəmizdə torpaq islahatlarının başlanğıcı oldu.

Həyata keçirilmiş torpaq islahatları nəticəsində ölkəmizdə mövcud olmuş 2032 təsərrüfat, yəni, sovxoz və kolxozlar ləğv edilərək, onların əkinə yararlı münbit torpaqları əhaliyə paylandı. O zaman işğal olunmuş rayonlarımız istisna olmaqla ölkəmizin digər bölgələrində torpaq payı almaq hüququ olan 870 minə yaxın ailəyə torpaq payı verildi ki, bu da 3 442 778 subyekt demək idi. Torpaq islahatları nəticəsində torpaq üzərində üç mülkiyyət forması müəyyənləşdi- dövlət, bələdiyyə və şəxsi mülkiyyət. Azərbaycanın vahid torpaq fondunu təşkil edən 8 641 506 hektar torpaq sahəsindən 4 913 639 hektarı, yəni 56,9 faizi dövlət mülkiyyətində saxlanıldı; 2 032 744 hektarı, yəni 23,5 faizi bələdiyyə mülkiyyətinə verildi; 1 695 123 hektarı, yəni, 19,6 faizi isə xüsusi mülkiyyətə ayrıldı. [3]

Aparılan torpaq islahatının ən üstün cəhətlərindən biri o idi ki, digər ittifaq ölkələrindən fərqli olaraq ölkəmizdə bu proses çox sürətli və ağrısız şəkildə reallaşdırılaraq, qısa zamanda savxoz və kolxozlar ləğv olunaraq, onların torpaqları kəndlilərə paylandı və bütün sənədləşmə prosesləri dövlətin hesabına həyata keçirildi. Torpaq islahatı haqqında Azərbaycan Respublikasının Qanununda diqqəti çəkən vacib məqamlardan biri də o idi ki, Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslərə, xarici ölkələrin fiziki və hüquqi şəxslərinə torpaq yalnız istifadəyə və ya icarəyə verilə bilərdi (maddə 4). [1

Nəticə. Lakin təəssüf hissi ilə qeyd etməliyik ki, son illər ölkəmizdə kənd təsərrüfatına yararlı torpaqların bir hissəsi məmur-oliqarxların, aqrar sahə ilə əlaqəsi olmayan biznesmenlərin, imkanlı şəxslərin nəzarətinə keçməkdədir. Təbii amillərlə, toxumun, gübrənin keyfiyyəti ilə bağlı, eləcə də satışla bağlı risklər səbəbindən kənd təsərrüfatı sahəsinin o qədər də rentabelli olmamasından, həmçinin şəxsi problemlər, maddi sıxıntılardan dolayı pay torpağı sahibləri öz paylarına düşən torpaq sahələrini çox aşağı qiymətə, necə deyərlər dəyər-dəyməzinə bu sahəyə yad olan imkanlı şəxslərə satmışlar və bu gün də belə hallara tez-tez təsadüf edilir. Yəni kəndlilər sürətli şəkildə torpaq paylarını itirməkdədirlər. Aqrar sahədən anlayışı olmayan, əksər hallarda tamam başqa sahələrdə çalışan, başqa peşə sahibləri olan bu insanların torpaq mülkiyyətçisi olmaqda başlıca məqsədləri aqrar istehsalla məşğul olmaq deyil, ən yaxşı halda yaxın müddətli bir investisiya proektini reallaşdırmaq, yəni ucuz alıb, baha satmaq, digər hallarda isə kamil olmayan subsidiya mexanizmlərindən istifadə edərək dövlətin aqrar istehsalçılara ayırdığı subsidiyalardan faydalanmaq və ya həmin torpaqları yüksək qiymətə kəndlilərin özlərinə icarəyə verməkdir ki, bu da gələcəkdə ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasında ciddi təhdidlər yarada bilər. Onsuz da öz torpaqlarında yüksək gəlirlər əldə edə bilməyən kəndlilərin vəziyyəti bir qədər də çətinləşir. Əsasən maddı sıxıntılar və ya digər səbəblərdən vaxtıilə 1 hektarını 500-1000 manata satan kəndli indi həmin torpaq sahəsini illik 500-600 manata icarəyə götürmək məcburiyyətindədir. Bu kimi hallar isə gələcəkdə də torpaq sahələrinin satış qiymətlərinin və icarə haqqlarının yüksəlməsi ehtimalını artırır ki, bu da xeyli müddətdir yüksəlkəkdə olan kənd təsərrüfatı məhsullarının qiymətlərinin artımının davamlı olacağına, kəndli və fermerlərin gəlirlərində isə ciddi dəyişikliklərin baş verməyəcəyinə işarədir. Bəzi işbazlar isə nəinki öz mülkiyyətlərində olan, hətta şəxsi əlaqələrinin və ya digər vasitələrin hesabına əlverişli şərtlərlə və uzun müddətə icarəyə götürdükləri dövlətə və ya bələdiyyələrə məxsus torpaq sahələrini də yüksək qiymətə kəndlilərə icarəyə təklif edirlər. Bir sıra hallarda isə alınmış və ya icarəyə götürülmüş kənd təsərrüfatı təyinatlı torpaqlar təyinatı üzrə istifadə olunmayaraq, həmin ərazilərdə villalar, malikanələr, müxtəlif iaşə obyektləri və s. tikirlər. Əfsuslar olsun ki, vəziyyət o həddə çatıb ki, atrıq bəzi rayonlarımızda kəndlilər heyvanlarını otarmağa örüş yerləri, əkməyə torpaq sahələri tapa bilmirlər. Bunu isə təkçə mən yox, Azərbaycan Respublikası Milli Məclisinin III, IV, V, VI çağırışlarının deputatı, Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı "Azərittifaq"ın sədri, Azərbaycan Kooperasiya Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor, Azərbaycan Ağsaqqallar Şurasının sədri Eldar Quliyev də müsahibələrinin birində qeyd edir. [1]

Bir çox ekspertlər ölkəmizdə torpaq islahatlarının yekunlaşdığını qeyd etsələr də bu fikirlə tamamilə razılaşmaq çətindir. İlk növbədə ona görə ki, işğaldan azad edilmiş ərazilərimizdə, eləcə də tezliklə üzərində tam nəzarəti bərpa edəcəyimizə şübhə etmədiyim Xankəndi və ətraf ərazilərində hələ də torpaq islahatları aparılmayıb. Digər səbəb isə səhlənkarlıqdan, məlumatsızlıqdan, bəzən isə bürokratik maneələr səbəbindən, eləcə də ailədaxili və ya digər mülkiyyət mübahisələri səbəbindən hələ də çoxlu sayda torpaq mülkiyyətçisi yekun sənədi, yəni daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarını təsdiq edən dövlət reystrindən çıxarışı ala bilməyiblər.

Sadalanan problemlərin vaxtında qarşısı alınmazsa gələcəkdə ölkəmizdə təkrar torpaq islahatlarının həyata keçirilməsi iqtisadi zərurətə çevriləcəkdir.

Ədəbiyyat

1. Torpaq islahatı haqqında Azərbaycan Respublikasının Qanunu [Elektron resurs] / Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi aktların vahid elektron bazası, Bakı şəhəri, 16 iyul 1996-cı il, № 155-IQ., https://e-qanun.az/framework/4207
2. "Aqrar islahatın əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu [Elektron resurs] / Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi aktların vahid elektron bazası, Bakı şəhəri, 18 fevral 1995-ci il, № 976. https://e-qanun.az/framework/9164
3. Akademik Qərib Məmmədov: Heydər Əliyev torpaq islahatı Azərbaycanın iqtisadi uğurlarının əsaslarından biridir [Elektron resurs] / "Yeni Azərbaycan" qəzeti, 06.05.2014 https://www.yeniazerbaycan.com/Sosial_e16041_az.html
4. Respublika Ağsaqqallar Şurasının və "Azərbaycan" qəzetinin Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişinin 50-ci ildönümünə həsr olunan birgə konfransı [Elektron resurs] / " Azərbaycan" qəzeti, 09 iyul 2019. https://www.azerbaijan-news.az/view-170757/azerbaycan-tarixinin-heyder-eliyev-dovru-qudretli-dovlet-guclu-xalq-mohtesem-inkisaf
5. İ.e.d, prof. Eldar Quliyevin müsahibəsi [Elektron resurs] / "Mia.az" Xəbər portalı-31.05.2016 https://mia.az/w242387/242387
6. "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanunu layihəsinin müzakirəsinə həsr edilmiş iclasda Heydər Əliyevin çıxışı [Elektron resurs] / "HEYDƏR ƏLİYEV İRSİ" Beynəlxalq elektron kitabxana, 12 iyul 1996-cı il, https://lib.aliyev-heritage.org/az/25770646.html

РЕЗЮМЕ
ГЕЙДАР АЛИЕВ КАК АВТОР ЗЕМЕЛЬНЫХ РЕФОРМ В АЗЕРБАЙДЖАНЕ
Рустамов Ф.В.

Ключевые слова: *аграрная сфера, сельское хозяйство, земля, реформа, совхоз, колхоз.*

В представленном материале отмечается, что начало аграрной реформы и земельной реформы, являющейся ее важной частью, и создание новых отношений собственности на землю связаны с именем Великого лидера Гейдара Алиева. В статье говорится о необходимости аграрных реформ, особенно земельных реформ, сообщаются основные принципы и результаты проведенной земельной реформы, отмечается, что за быстрым и безболезненным проведением земельной реформы в нашей стране в отличие от других союзных стран, стоит решимость гениального лидера, сильная политическая воля и большой труд. Подчеркивается, что земельная реформа в нашей стране не завершена и существует ряд проблем, связанных с землепользованием.

SUMMARY
HEYDAR ALIYEV AS THE AUTHOR OF LAND REFORMS IN AZERBAIJAN
Rustamov F.V.

Key words: *Agrarian sector, agriculture, land, reform, state farm, collective farm.*

The material presented notes that the beginning of the agrarian reform and land reform, which are its important part, and the creation of new land ownership relations are associated with the name of the Great Leader Heydar Aliyev, the need for agrarian reforms, especially land reforms, is shown, the main principles and results of the land reform carried out are reported. , what stands behind the very quick and painless implementation of land reform in our country, unlike other allied countries, is the determination of a brilliant leader, strong political will and hard work. At the end, it is emphasized that the land reform in our country has not been completed and there are a number of problems associated with land use.

KİMYA SƏNAYESİNDƏ ELMİ VƏ TEXNİKİ İNSAN RESURSLARININ İNKİŞAFI VƏ İDARƏEDİLMƏSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Rüstəmova Vəfa Xanlar qızı
İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan
vafa.rustamova2022@mail.ru

Açar sözlər: *kimya sənayesi, elmi-texniki kadr potensialı, insan resursları, bazar iqtisadiyyatı, elmi-texniki tərəqqi*

Giriş. Müxtəlif iqtisadi sahələrlə bərabər, sənaye sahəsinin inkişafı xüsusi əhəmiyyət kəsb edir. Müasir dövrün tələbləri ölkənin sosial-iqtisadi inkişafına nail olmaq və dəyərli kadrlar əldə etmək üçün müasir tələblərə cavab verən elmi-texniki kadr potensialından səmərəli istifadəni, onun struktur elementlərinin təsnifatını, planlaşdırılmasını, yaradılmasını, qiymətləndirilməsini və idarə olunmasını tələb edir. Müasir dövrdə elmi - texniki tərəqinin sürətli inkişafı, bütün iqtisadi sahələrə təsir etmişdir.

Azərbaycan Respublikasının dünya ölkələri arasında yer tutması, mexanizmlərinin hərtərəfli araşdırılması iqtisadiyyatın inzibati sistemindən bazar iqtisadiyyatına keçidi, ölkənin elmi-texniki kadr potensialının qorunması, yaradılması və səmərəli istifadəsi obyektiv zərurətə çevrilmişdir.

Kadr potensialının inkişafı baxımından, kimya sənaye sahəsində kadr potensialı xüsusi əhəmiyyət daşıyır. Kadr potensialı iki hissəyə, sənayedə çalışan və elmi – tədqiqat sahələrində çalışan kadrlara bölünür. Dünyada baş verən dəyişiklər fonunda, kadr potensialı bütün dövrlərdə öz aktuallığını qoruyub saxlamışdır.

Azərbaycan Respublikasında kimya elmi-texniki kadr potensialının yaranması və səmərəli idarə olunması məsələsi

İnsan resurslarının yüksək səviyyədə inkişaf etməş ölkələrin inkişafında əsas amildir. Müasir iqtisadiyyatın mühüm sosial-mədəni amilinə çevrilmiş səmaye sahələrinin inkişafında yaranan problemlərin aradan qaldırılması aktual məsələlrdən hesab olunmaqdadır. Bu baxımdan əhalinin maddi rifahının yüksəldilməsi istiqamətində respublikamızda həyata keçirilən sosial-iqtisadi islahatlar, dövlət tərəfindən aparılan islahatlar Azərbaycanda həyata keçirilən dövlət proqramlarının əsas prioritetlərindən biridir.Bu baxımdan Azərbaycanda kimya elmi-texniki kadr potensialının formalaşması və inkişafı müasir dövrün aktual məsələlindəndir.

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin əsas istiqamətlərində" ölkə iqtisadiyyatının gələcək inkişafı üçün dörd strateji hədəf seçilmişdir. Bu hədəflərdən biri də insan resursları ilə bağlıdır və insan resurslarının ölkə iqtisadiyyatının gözləntilərinə uyğunlaşdırılması nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, kimya sənayesi ağır sənaye sahələrindən biridir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının təsdiq edilməsi haqqında" qanunun müddəa və müddəaları mühüm əhəmiyyət kəsb edir. Bu sənədlərdə qaldırılan məsələlər elmi-texniki kadr potensialının inkişafının stimullaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Hazırkı dövrdə ölkəmizin qarşısında duran mühüm vəzifələrdən biri də elmi-texniki kadr potensialının ölkə iqtisadiyyatının tələblərinə uyğun hazırlanması və səmərəli istifadəsi üçün elmi əsaslarla təsdiqlənmiş təklif və təkliflərin hazırlanması, elmi-texniki bazanın müddəa və prinsiplərini nəzərə almaqdır. Bu baxımdan, mövcud potensialdan səmərəli istifadə kimya sənayesində elmi-texniki kadr potensialının yaradılması və istifadəsi üzrə kompleks tədbirlərin həyata keçirilməsini tələb edir. Yuxarıda qeyd olunan məsələlər kimya sənayesində elmi-texniki kadr potensialının bərpası və səmərəli istifadəsi üçün mövcud problemlərin həllini tələb edir.

Kimya sənaye müəssisələrinin, kadr hazırlayan ali təhsil müəssisələrinin, Azərbaycan Milli Elmlər Akademiyasının Kimya Elmlər Bölməsinin elmi müəssisələrinin kadr potensialından səmərəli istifadə etmək, kadr hazırlığının müasir vəziyyətinin təhlili, təkmilləşdirilməsi aşağıdakı vəzifələr yerinə yetirilmisi lazımdır:

- kimya elmi - texniki kadr potensialı anlayışı və onun strukturunun müasit tələblər səviyyəsində hazırlanması;
-kimya elmi - texniki kadr potensialının komponentlərinin elmi əsaslandırılması;
- kimya elmi - texniki kadr potensialının dinamikasının mövcud vəziyyətini
Müasir tələblər səviyyəsində qurulması;
-kimya elmi - tədqiqat müəssisələrində elmi - texniki kadrların əməyinin stimullaşdırılması üzrə konkret təkliflərin verilməsi;
-elmi - texniki kadr hazırlığı sisteminin qiymətləndirilməsi;
-elmi - texniki fəaliyyətin təşkili və optimal variantların tapılması;
-elmi - texniki kadrlardan səmərəli istifadə mexanizminin müasir tələblər səviyyəsində hazırlanması.

Azərbaycanda kimya sənayesinin inkişaf dinamikasının təhlili göstərir ki, elmi-texniki axtarışlar, nailiyyətlər bu sahədə uğurların qazanılmasına səbəb olmuşdur. Kimya elmi – texniki kadr potensialının nailiyyətləri, yeni məhsul istehsalı ilə yanaşı, elmi tədqiqatların nəticələrinin sənayedə tətbiqi, gəlirin artmasına səbəb olmuşdur.

Dünya İqtisadi Forumunun məlumatına əsasən Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətinə görə 2017-2018 – ci illdeki hesabatında 144 ölkə arasında 35-ci yerdədir. [3] Məhz bu səbəbdən, Azərbaycan Respublikası dünyanın 128 dövləti ilə ticarət əməkdaşlığı apararaq, xarici ticarət dövriyyəsinin 56%-i qeyri-dövlət sektoru tərəfindən yerinə yetirir. Azərbaycanla beynəlxalq iqtisadi əlaqələr sürətlə genişlənməkdədir.[4]

Bütün bunlar, kimya sənayesində, ETKP-dan səmərəli istifadə olunmasına, intellektual mülkiyyət obyektlərinin qorunmasına, informasiya texnologiyalarının inkişafına, təhsil modellərinin təkmilləşdirilməsinə, elimtutumlu istehsal sahələrinin inkişafına təkan verir. Müstəqillik dövrünün ilk

illərində bu amillərin çatışmaması, kimya sənayesində durğunluğun yaranmasına və sənaye obyektlərinin fəaliyyətinin dayanmasına səbəb olmuşdur.

2018 -2019 tədris ilində Azərbaycan Respublikasında 52 təhsil müəssisləri fəaliyyət göstərir ki, onlarda təhsil alan tələbələrin sayı 176723 nəfərdir. 52 təhsil müəssisəsindən 40 – ı dövlət təhsil müəssisəsinə aiddir ki, burada təhsil alanların sayı 161326 nəfər təşkil edir. 12 özəl ali təhsil müəssisəlrində 15397 nəfər tələbə təhsil alır. 2018 – ci ildə ölkəmizdə elmi - tədqiqatları 133 elmi – tədqiqat müəssisələrində həyata keçirirlər. Onlardan 88 – si elmi - tədqiqat, 39 – u ali təhsil müəssisələri, 6 –sı sair təşkilatdır. İşləmələri və elmi – tədqiqatları yerinə yetirən işçilərin sayı 11 737 nəfəri qadın olmaqla, 20 179 nəfərdir.[5]

2018- ci il KEB – in müəssislərində 769 elmi işçi çalışır ki, onlardan 109 nəfəri elmlər doktoru, 307 nəfəri fəlsəfə doktorudur. Bölmənin tərkibində AMEA –nın 12 həqiqi üzvü, 17 müxbir üzvü vardır. Elmi kadrların hazırlanması sahəsində fəlsəfə doktoru proqramı hazırlığı üzrə bölmənin institutlarında 45 doktorant təhsil alır. 2018 - 2019 – cu təhsil ilində bölmənin elmi müəssisələrinə magistratura üzrə 15 nəfər qəbul olmuş, 24 fəlsəfə və 6 elmlər doktorluğu dissertasiyası müdafiə olunmuş, 10 fəlsəfə, 3 elmlər doktorluğu müdafiəyə tövsiyə edilmişdir. [1, 53]

Cədvəl 1.

Azərbaycan Respublikasında kimya sənayesinin ümumi iqtisadı göstəricilərində kadr potensialı [2, 2]

	2005	**2010**	**2015**	**2016**	**2017**	**2018**	**2019**
Fəaliyyət göstərən müəssisələrin sayı	95	77	69	75	81	93	99
dövlət	13	7	7	8	5	6	7
qeyri-dövlət	82	70	62	67	76	87	92
Sənaye fəaliyyəti ilə məşğul olman sahibkarların sayı, nəfər	50	90	105	111	115	131	157
Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri,	198.3	120.3	353.2	374.2	513.9	528.0	599.6
Sənaye istehsalı, faizlə (sabit qiymətlərlə)	101.9	134.6	143.2	88.8	116.5	101.4	125.6
İşçilərin orta illik sayı, min nəfər	10.9	8.7	6.2	6.0	10.2	7.1	-
əvvəlki ilə nisbətən, faizlə	97.3	94.6	95.4	96.8	171.8	69.9	
Əsas kapitala investisiyalar, milyon manat	5.6	1.3	6.8	18.5	87.4	230.6	172,3

Kimya sənaye sahəsi üzrə fəaliyyət göstərən müəssisələrin sayı 2005 – ci ildə müyəssərlərin sayı 95, 2019 – cu ilde müəssisələrin sayı 99 olmuşdur. Kimya sənaye sahəsi üzrə fəaliyyət göstərən müəssisələrin sayı 2005 – ci ildə müyəssərlərin sayı 95, 2019 – cu ilde müəssisələrin sayı 99 olmuşdur.

Kimya sahəsinin elmi – texniki kadr potensialının dinamik inkişafı üçün bu sahədə AMEA – nın əsas prioritetlərindən olan yüksək ixtisaslı elmi kadrların hazırlanması yalnız 2015 - ci ildə doktorantura, dissertantura və ilk dəfə olaraq magistratura yolu ilə həyata keçrilmişdir. 2015 – ci ildə fəlsəfə doktoru hazırlığı üzrə AMEA – nın doktoranturasına qəbul olan 77 nəfərdən 11 – i, elmlər doktoru hazırlığı üzrə doktoranturaya qəbul olan 31 nəfərdən 8 nəfəri Kimya Elmlər Bölməsinə qəbul olmuşdur. AMEA- da 2016 – 2017– cı il üçün magistraturaya Kimya Elmlər Bölməsinin əyani bölməsinə 9 ixtisas üzrə 19 nəfər qəbul olmuşdur.

Cədvəl 2.

2018 – 2019 cu illərdə kimya elmlər bölmələrində elmi kadrların hazırlanması[3]

Elmi müəssisələrin adları	Doktoranturada təhsil alanlar				Bitirib Doktorantura	Dissertasiya müdafiəyə olunub			Müdafiəyə Hazırlanıb		Dissertantlar	Təhsil alanlar Magistralda	Magistraturaya yeni qəbul
	Fəlsəfə doktoru		Elmlər doktoru			Fəlsəfə doktoru	Elmlər Doktoru	Fəlsəfə doktoru	Elmlər Doktoru	Fəlsəfə doktoru	Elmlər Doktoru		
	əəyani	qqiyabi	əəyani	qqiyabi									
Neft – Kimya Prosesləri İnstitutu	16	5	6	11	5	14	3	5	2	20	12	6	
Kataliz və Qeyri - Üzvi Kimya Institutu	14	3	-	9	12	8	1	-	-	22	9	13	
Aşqarlar kimyası Institutu	2	1	1	5	-	1	2	2	-	8	3	2	

Cədvəl 2. (davamı)

Polimer materialları Institutu	3	1	-	-	1	1	-	3	1	6	6	2	
Bölmələr üzrə cəmi	35	10	7	25	18	24	6	10	3	6	30	23	5

Cədvəldən göründüyü kimi, 2018 – ci ildə xaricdə doktorantura üzrə təhsil alanlar olmamasına rəğmən, xaricdə elmi təcrübə keçənlər və 2018- 2019 cu illər magistraturada təhsil alanlar da azlıq təşkil edir. Belə ki, KEB – nə ümumilikdə 15 qəbul olmuşdur ki, bunu da bölmələr üzrə böldükdə 3 magistr düşür. Onda belə nəticəyə gəlmək olur ki, il ərzində hazırlanan kadrların sayı lazımi səviyyədən aşağı olur.

Xarici ölkələrdə Azərbaycan gənclərinin təhsili üzr Dövlət Proqramı layihəsi, gənclərin xaricdə təhsilinin təşkilini vahid bir sistem üzərində yaradılmasını təmin edir. Artıq 4-5 il ərzində yüzlərlə gənc bu proqram vasitəsi ilə, xaricdə təhsil alaraq, Azərbaycana geri dönmüşlər. Bunun ardı olaraq, Təhsil Nazirliyi 12 müxtəlif ixtisası üzrə, 2017-2018 – ci il üçün, prioritet sahə təqdim edib ki, yalnız bu tələbələr nazirlikdən təqaüd alçaqlar. Demək olar ki, bu 12 ixtisaslardan çoxu dəqiq sahəni əhatə edir. Azərbaycanda humanitar sahə üzrə təhsil alan tələbələrin çox olması, bu ixtisaslarda humanitar sahəyə yer verilməyib.

Belə ki, 2019-2020-ci ildə, Təhsil Nazirliyi tərəfindən Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində Latviya, Çin və Macarıstanda təhsil almaq üçün gənclər, seçdikləri ixtisas üzrə müəyyən təcrübə toplamaq, yeni biliklər əldə etmək imkanı qazanmışlar. Təhsil Nazirliyi dünya reytinqində daxil olan universitetlərdə təhsil almağı nəzərdə tututan bu proqramda, gənclərin xaricdə təhsil alaraq, yaxşı mütəxəssis kimi yetişməsində əhəmiyyətli layihələrdən hesab olunur.[6]

Lakin, Azərbaycanda təhsil sistemin yaxşılaşması ilə bağlı dövlət səviyyəsində görülən işlər bununla bitmir. Buna misal olaraq, dövlət tərəfindən qəbul edilmiş fundamental lahiyələr dövlət siyasətinin əsas prinsiplərini özündə daşıyır.

Bu sahədə qazanılan nailiyyətlər elmi tədqiqatların nəticələrini sənayedə tətbiqi, yeni məhsul istehsalı ilə yanaşı, əlavə gəlir mənbəyidir və kimya elmtutumlu sənaye olduğundan, cəmiyyətin sosial-iqtisadi inkişafında mühüm rol oynayır və ETKP-ın tədqiqi müasir dövrün tələbləri baxımından aktuallıq kəsb edir. Tətbiqi tədqiqatların formal xarakter daşıması, lazımi labaratoriyaların olmaması elmi tədqiqatların zəifləməsinə səbəb olmuşdur.

Kimya sənayesində ETKP – dan istifadəni təkmilləşdirmək və inkişaf etdirmək üçün, inkişaf etmiş ölkələrin təcrübəsini nəzərə almaq lazımdır. Bütün bunlara əsasən, kimya sənaye sahəsi üzrə ETKP-dan istifadənin təkmilləşdirilməsi, yeni texnika və texnologiyanın, iş qüvvəsinin hazırlıq səviyyəsinin, elmi-texniki tədqiqatların keyfiyyətinin yüksək səviyyədə olmasını tələb edir. Buna görə də, kimya sənayesində, köhnə metodların yeniləri ilə əvəz olunması, ixtisasartırma kurslarının yaradılması, yüksək ixtisaslı kadrların işə cəlb olunması zəruridir.

Azərbaycan Respublikasının iqtisad fəaliyyət sahələrinin genişlənməsi, milli iqtisadiyyatın yüksək prinsiplər əsasında qurulması, dövlətin iqtisadi siyasətinin inkişaf etdirilməsi, sahibkarlığa geniş imkanlar verilməsi, müştərək müəssisələrin yaradılması sosial – iqtisadi inkişafı sürətləndirir. Bu proses dövlətin iqtisadi cəhətdən möhkəmlənməsinə, əhalinin yaşayış səviyyəsinin yüksəlməsinə əhəmiyyətli təsir göstərir. Dünya miqyasında elmi-texniki kadr potensialdan (ETKP) istifadənin səmərəliliyin yüksəldilməsi və onun qiymətləndirilməsi mexanizminin işlənib hazırlanması sahəsində tədqiqat işlərinin aparılmasını zəruri etmişdir.

Azərbaycanda kimya sənayesinin inkişafı üçün geniş potensial imkanlar olmasına baxmayaraq, bundan səmərəli istifadə olunmur. Bu məqsədlə, Azərbaycan Respublikası öz keçmiş əlaqələri ilə yanaşı, Avropa dövlətləri ilə də əməkdaşlığın qurulması, elmi əlaqələrin yaradılması olduqca əhəmiyyətli hesab olunur.

Müstəqillik illərində respublikamızın neft gəlirlərindən səmərəli istifadə olunması nəticəsində dünya iqtisadiyyatına inteqrasiya prosesi baş vermişdir. Nəzər alsaq ki, Azərbaycan dövlətində neft ixracından əldə olunan gəlirin bir hissəsinin qeyri-neft sektorunun inkişafına yönəldilir. Xam neft ixracından əldə olunan gəlirlərin bir hissəsini kimya sənayesində kadrların təkmilləşdirilməsi prosesində istifadə oluna bilər.

Ədəbiyyat

1. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin hesabat məruzəsi, AMEA-nın Elmin Sahələri və İstiqamətləri üzrə Elmi Bölmələrinin 2018-ci ildəki fəaliyyəti, II cild, Bakı, 2019, 254 s.

2. Novruzova V.X., Kimya sənaye müəssisələrinin regional inkişaf problemləri, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər və inkişaf meyilləri Respublika elmi-praktik konfransının materialları, Bakı, 2010, 268 s.
3. https://www.economy.gov.az/article/international-reports/21565
4. https://www.stat.gov.az/news/index.php?id=3995
5. https://www.stat.gov.az/source/industry/
6. https://edu.gov.az/az/page/9/17109
7. https://www.asstra.com/az/kimya-s%C9%99nayesi/
8. https://www.stat.gov.az/

РЕЗЮМЕ
ОСОБЕННОСТИ РАЗВИТИЯ И УПРАВЛЕНИЯ НАУЧНО-ТЕХНИЧЕСКИМИ КАДРАМИ В ХИМИЧЕСКОЙ ПРОМЫШЛЕННОСТИ
Рустамова В.Х.

***Ключевые слова**: химическая промышленность, научно-технический кадровый потенциал, человеческие ресурсы, рыночная экономика, научно-технический прогресс.*

Объективной необходимостью стало эффективное использование имеющегося научно – технического кадрового потенциала химической промышленности для достижения экономического развития в Азербайджанской Республике, и инграции в мировую экономику. Актуальным является вопрос подготовки и использования научно-технического кадрового потенциала химической промышленности на уровне современных требований.

В статье были рассмотрены проблемы имеющихся научно-технических кадров в области химической промышленности Азербайджана, отмечены реформы, проводимые государством в этой области. При этом в статье подчеркивается важность развития химической промышленности, подготовки новых научно-технических кадров. В конце статьи даны предложения и рекомендации с целью устранения возникших проблем.

SUMMARY
THE MAIN FEATURES OF THE DEVELOPMENT AND MANAGEMENT OF SCIENTIFIC AND TECHNICAL PERSONNEL IN THE CHEMICAL INDUSTRY
Rustamova V.Kh.

***Keywords:** chemical industry, scientific and technical personnel potential, human resources, market economy, scientific and technical progress.*

An objective necessity has become the effective use of the existing scientific and technical personnel potential of the chemical industry to achieve economic development in the Republic of Azerbaijan, integration into the world economy. The issue of training and using the scientific and technical personnel potential of the chemical industry at the level of modern requirements is relevant.

The article examined the position and problems of the existing option of scientific and technical personnel in the chemical industry of Azerbaijan, noted the reforms carried out by the state in this area. At the same time, the article emphasizes the importance of the development of the chemical industry, the training of scientific and technical personnel. At the end of the article, suggestions and recommendations are given in order to eliminate the problems that have arisen.

SSRİ-NIN SÜQUTU VƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI

Sadıqov C.Ş.
Azərbaycan Tibb Universiteti, Bakı, Azərbaycan, dosent
javanshirsadikhov@gmail.com

***Açar sözlər**: böhran, Qarabağ, Sumqayıt, müstəqillik, konstitusiya*

XX əsrin 90-cı illərində SSRİ-də sosial-iqtisadi böhran dərinləşirdi. Azərbaycan iqtisadiyyatı böhranın zərbələrinə daha ciddi məruz qalır, əhalinin maddi rifahı gündən-günə pisləşirdi. Milli ruhun oyanışı hər sahədə özünü göstərirdi. Real vəziyyət Azərbaycanın sovet imperiyasının əsarətindən xilas olmasını tələb edirdi.

Dövlətin özünün yuxarıdan başladığı demokratikləşdirmə siyasəti sayəsində, keçmiş ittifaqın bütün respublikalarında, eləcə də Azərbaycanda demokratik cəmiyyətlər, siyasi partiyalar təşəkkül tapdı. 1989-cu ilin iyul ayında Azərbaycan Xalq Cəbhəsi, oktyabrında Azərbaycan Milli-Demokrat Partiyası (Yeni Müsavat) və s. qurumlar meydana gəldi. Respublikanın bütün demokratik qüvvələri ölkədə başlanmış iqtisadi islahatları, bazar təsərrüfatına keçməyi müdafiə edirdilər.

80-cı illərin ikinci yarısında Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətində təxribatçı fəaliyyət göstərən "Krunk" erməni ekstremist təşkilatı SSRİ-də və xaricdəki erməni "Milli müqəddəratın müstəqil təyin edilməsi birliyi" və "Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi"nin

himayəsindən istifadə edərək daha da azğınlaşdı. “55-lər komitəsi” adlı orqanın göstərişləri əsasında “Krunk” antiazərbaycan ruhlu vərəqələr yayır, vilayətin əhalisinin Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etməyə çağırırdılar. Rus diplomatı və şairi A.S.Qriboyedov vaxtı ilə yazırdı “...Ermənilər ilk dəfə buraxıldıqları torpaqlara həmişə sahib çıxırlar”.

1988-ci il yanvarın 25-də Ermənistanda yaşayan azərbaycanlıların ilk qrupu doğma el-obasından didərgin salındı. Fevralın 18-i və 23-də Azərbaycana pənah gətirmiş yeni didərginlər dəstəsinin gəlişi ilə onların sayı 4000 nəfərə çatdı. Moskva bu cinayətlərə göz yumdu. Qovulan azərbaycanlılar olduğu halda, DQMV-də ermənilərin hüquqlarının guya pozulması bəhanəsi ilə mitinqlər təşkil olundu. Fevralın 21-də Yerevanda tarixən fəaliyyət göstərən məscid təhqirə məruz qaldı. Fevralın 22-də azərbaycanlılarla Əsgəranlı ermənilər arasında süni toqquşma təşkil edildi və iki azərbaycanlı qətlə yetirildi. Ssenariyə uyğun olaraq Ermənistanın Qafan rayonunda daha bir azərbaycanlı qətlə yetirildi. Milli toqquşmanın vaxtında qarşısını almaq üçün əməli tədbir görülmədi. Əksinə, fevralın 28-də Sumqayıt faciəsi törədildi. [1; səh.344] Hadisənin istintaqı zamanı üzə çıxarılmış 96 cinayətkar arasında müxtəlif millətlərin nümayəndələrinin, o cümlədən də qırğının əsas təşkilatçısının erməni olmasına baxmayaraq, cinayətin guya ancaq azərbaycanlılar tərəfindən törədilməsi haqqında dünyaya iftiralar yayıldı. Sumqayıt hadisəsi bütün dünyada “əzabkeş ermənilər” haqqında süni hay-küy qoparmağa məqam yaratdı. Sumqayıt hadisəsini bəhanə edən Ermənistan Quqark, Masis, Yerevan, Dilican, Qafan, Mehri, Sevan və digər tarixi yaşayış yerlərindən azərbaycanlıları qovub çıxardı. Martın 10-da Yerevandan cənubda Mehmandar kəndinin 4 azərbaycanlı sakini öldürüldü, 25-də Ararat rayonunda azərbaycanlıların Vedi, Şirazlı, Xalsa və Şidli kəndlərinin əhalisi hücuma məruz qaldı. Bir nəfər öldürüldü, onlarca adam yaralandı, 100-dək ev yandırılaraq viran qoyuldu.

Bütün bu hadisələrə münasibətdə Azərbaycanın milli mənafeyindən çıxış etməyən, Moskvanın göstərişi ilə oturub-duran respublika rəhbərliyinin gözləmə mövqeyi respublikada narazılığı daha da artırırdı. Erməniləri müdafiə edən Moskva kütləvi informasiya vasitələrinin qızışdırıcı xəbərlərinə rəsmi etiraz bildirmirdi. Azərbaycanlılara edilən erməni zorakılığı barədə həqiqətləri respublikanın kütləvi informasiya vasitələri ilə xalqa obyektiv çatdırılmasına icazə verilmirdi.

Baş verən hadisələrə dair əsl həqiqətlərdən xəbərdar olan xarici dövlətlər də susur, münasibətlərini bildirmirdilər. Çünki bu hadisələr, xüsusilə Sumqayıt hadisəsi, əslində onların da maraqlı olduğu ssenari əsasında həyata keçirilmişdi. Nyu-Yorkda buraxılan “Qlasnost” jurnalının müxbiri və yaradıcılarından biri Qriqoryantsın nümayəndəsi Andrey Şelkovun hadisələrin qızğın anında Sumqayıtda olması və baş verənləri lentə alıb xaricə ötürməsi, ertəsi gün həmin lentlərin beynəlxalq efir kanalları ilə nümayiş etdirilməsi faktı təsdiq edir.

Hüquqları nə respublika, nə də ittifaq dövləti tərəfindən qorunmayan Azərbaycan xalqı etiraz nümayişlərinə qalxır, kortəbii mitinqlərə toplaşırdı.

1988-ci ilin əvvəllərində Əbülfəz Elçibəyin rəhbərliyi altında altı nəfərdən ibarət ilk siyasi özək yaradıldı. Mövcud siyasi şəraitdə xalqın təşkilatlanmaya, siyasi şüurunun yüksəldilməsinə olan ehtiyac nəzərə alınaraq, siyasi birlik və cəmiyyətlərin yaradılmasına başlandı. Az sonra “Çənlibel”, “Müstəqillər” və s. ictimai-siyasi təşkilatlar meydana çıxdı. Yeni siyasi özək və təşkilatlarda birləşən qüvvələrin bilavasitə təşəbbüsü ilə Azərbaycanda Xalq Cəbhəsinin yaradılması ideyası ortaya çıxdı.

Azərbaycana qarşı erməni cinayətlərindən və Respublika rəhbərliyinin passiv siyasətindən təngə gəlmiş ziyalılar və əhalinin digər təbəqələri mitinqlər təşkil edir, siyasi təkliflərini bildirirdilər. 1988-ci il martın 16-da Respublika Elmlər Akademiyasında mitinq keçirildi. Respublika EA-da başlanan mitinq Azadlıq meydanına qədər davam edən nümayişlə, daha sonra həmin meydanda gecə-gündüz davam edən 19 günlük Meydan hərəkatı ilə əvəz olundu. [3; 18 oktyabr 2011]

Respublikanın rayon və şəhərlərində də mitinq dalğası güclənirdi. Lənkəran, Cəlilabad, Sabirabad, Ağcabədi, Şəki, Dəvəçi və digər rayonlarda, Naxçıvan MR- də Respublika rəhbərliyinin fəaliyyətsizliyinə, Moskvanın Ermənistan və DQMV-nin millətçilərini himayədarlıq siyasətinə, eləcə də, xalqla hesablaşmayan rayon partiya komitələrinə qarşı etiraz ruhlu mitinqlər keçirilirdi.

1989-cu il iyulun 16-da Azərbaycan Xalq Cəbhəsinin təsis konfransı çağırıldı. [1; səh.346] Konfransda Respublikanın 30 rayonundan səsvermə hüququ ilə 196, məşvərətçi səslə 240 nümayəndə iştirak edirdi. Konfransda Azərbaycan Xalq Cəbhəsinin Təşəbbüs Mərkəzinin hesabatı, respublikada siyasi vəziyyət müzakirə edildi.

İlk vaxtlar AXC-nin varlığı barədə eşitmək belə istəməyən Azərbaycan rəhbərliyi 1989-cu il oktyabrın 5-də onu rəsmi qeydə almağa məcbur oldu.

Xalqın tələbi ilə 1993-cü il iyunun 9-da Heydər Əliyev Naxçıvandan Bakıya qayıtdı. Ali Sovetin Sədri seçildi. İyunun 23-də Respublika Ali Soveti tərəfindən Respublika Prezidentinin səlahiyyətləri də Heydər Əliyevə həvalə olundu. 1993-cü ilin oktyabrında o, ümumxalq səsverməsi yolu ilə respublikanın prezidenti seçildi.

Azərbaycan Respublikasının mövcud olması və möhkəmlənməsi onun uğurlu xarici siyasəti ilə əlaqədardır. Azərbaycanın bir dövlət kimi müstəqil xarici siyasət fəaliyyəti məhz Azərbaycan Respublikası parlamentinin 1991-ci il oktyabrın 18-də 32 maddədən ibarət Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdikdən sonra başlamışdır. [2; səh.4]

Azərbaycan dünyanın 100-dən çox dövləti tərəfindən tanınmış, 60-dan çox, xarici ölkə ilə diplomatik münasibətlər yaradaraq beynəlxalq fəaliyyətin mühüm mərkəzlərindən birinə çevrilmişdir.

Azərbaycan respublikasının səfirlikləri Türkiyədə, İranda, Almaniyada, ABŞ-da, Misirdə, Səudiyyə Ərəbistanında, Pakistanda, Gürcüstanda və s. təsis edilmişdir. BMT-də Azərbaycan nümayəndəliyi açılmışdır.

1992-ci il martın 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olundu. İyunun 3-də isə Azərbaycan BMT-nin təhsil, elm və mədəniyyət məsələləri üzrə təşkilatı olan YUNESKO-ya daxil oldu.

Azərbaycan Respublikası 1992-ci il yanvarın 20-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə (ATƏT), dekabrın 8-də İslam Konfransı Təşkilatına üzv qəbul olundu. 1993-cü il dekabrın 27-də Avropa Birliyi, sonra Avropa Şurası, Avropa Şurasının Parlament Məclisi ilə əlaqələr yaradıldı.

ABŞ, 1991-ci oktyabrın 18-do Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildikdən sonra onun müstəqilliyini ilk tanıyan dünya dövlətlərindən biri olub. Həmin il dekabrın 25-də ABŞ öz müstəqilliyini elan etmiş müstəqil Azərbaycan dövlətini rəsmən tanıdı və tezliklə iki dövlət arasında diplomatik münasibətlər yaratmaq üçün addımlar atdı. 1992-ci il martın 18-də iki dövlət arasında rəsmi diplomatik münasibətlər yaradıldı. 1993-cü il aprel-may aylarında Bakıda və Vaşinqtonda iki ölkənin səfirlikləri fəaliyyətə başladı.

Çin Xalq Respublikas. Azərbaycan suverenlik əldə etdikdən sonra onu ən əvvəl tanıyan ölkələrdən biridir. ÇXR 1991-ci il dekabrın 27-də Azərbaycan Respublikasının müstəqilliyini tanımış və 1992-ci il martın 2-də ölkəmizlə diplomatik münasibətlər yaratmışdır. 1993-cü ildə Azərbaycan dövləti ÇXR-do öz səfirliyini açdı.

Azərbaycanın xarici siyasət fəaliyyətində İngiltərə ilə münasibətlər xüsusi yer tutur. Böyük Britaniya 1991-ci il dekabrın 31-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı, 1992-ci il martın 11-də onunla diplomatik münasibətlər yaratdı.

Fransa 1992-ci il yanvarın 3-də Azərbaycanın dövlət müstəqilliyini tanımış, fevralın 21-də onunla diplomatik münasibətlər qurmuş, martda isə Azərbaycanda öz səfirliyini açmışdır.

1991-ci il dekabrın 25-də İran Azərbaycan Respublikasının müstəqilliyini tanıdı, 1992-ci il martın 12-də Azərbaycanla diplomatik münasibətlər qurdu. 1992-ci il fevralın 4-də Bakı-Tehran-Bakı xətti açıldı.

1993-cü ilin iyunun 15-də Heydər Əliyev Ali Sovetin sədri seçildi. Həmin ilin oktyabrın 3-də Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikası Konstitusiyası qəbul edildi və Parlament seçkiləri keçirildi. 1998-ci ilin oktyabrın 11-də Heydər Əliyev 2-ci dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Ədəbiyyat

1. Abdullayev M. Azərbaycan tarixi. Bakı, 2016
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016
3. "SSRİ-nin süqutu və Azərbaycanın müstəqilliyinə gedən yol" (Azərb.). www.modern.az 18 oktyabr 2011.

РЕЗЮМЕ

РАСПАД СССР И ВОССТАНОВЛЕНИЕ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Садыгов С.Ш.

Ключевые слова: *кризис, Карабах, Сумгаит, независимость, конституция*

В конце 80-х годов XX века на территории СССР начался подъем общественно-политической активности народов. Республики стремились приобрести суверенитет и реальную экономическую и политическую самостоятельность. В Азербайджане обстановка была дестабилизирована надуманной «Карабахской» проблемой. Все это привело к январским событиям, после которых азербайджанский народ стал стремиться к выходу из состава СССР и восстановлению государственной независимости. 18 октября 1991 года был принят Конституционный акт о государственной независимости Азербайджанской Республики.

SUMMARY
COLLAPSE OF THE USSR AND RESTORATION OF STATE INDEPENDENCE OF THE REPUBLIC OF AZERBAIJAN
Sadiqov J.Sh.

***Key words**: crisis, Karabakh, Sumgait, independence, constitution*

At the end of the 80s of the 20th century, on the territory of the USSR began an upsurge in the socio-political activity of nations. The republics aimed to acquire sovereignty and real economic and political independence. In Azerbaijan, the situation was destabilized by the so-called "Garabagh" problem. All this led to the January events, after which the Azerbaijani people began to separate from the USSR and restore state independence. On October 18, 1991, the Constitutional Act on State Independence of the Republic of Azerbaijan was adopted.

İDARƏETMƏ QƏRARLARININ İCRASININ SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Səlimova Nəzakət
Bakı Biznes Universiteti, Bakı, Azərbaycan, psix.f.d.

Açar sözlər: *idarəetmə, sosial-psixoloji, qərarların hazırlanması, qərarların qəbulu, sosial-psixoloji mühit, qərarların icrası.*

Müasir dövrdə dövlət və yerli özünüidarəetmə orqanlarında idarəetmə fəaliyyətinin təkmilləşdirilməsinin müxtəlif aspektlərinin tədqiqi zəruriəti ilə əlaqədar idarəetmə prossesində qərarların hazırlanması, qəbulu və icrasının sosial-psixoloji xüsusiyyətlərinin araşdırılması daim diqqət mərkəzindədir.

Sosial psixalogiyanın bir qolu kimi idarəetmə qərarlarının qəbul olunmasının sosial-psixoloji aspektləri kompleks şəkildə tədqiq edilir ki, bu da idarəetmədə qərarların hazırlanması, qəbulu və icrasının bütün istiqamətlərdə səmərəliliyinin artırılmasına əlverişli şərait yaradır. İdarəetmə sahəsində qərarların hazırlanması, qəbulu və icrası idarəetmə subyektinin fəaliyyətinin təzahürü, yaradıcı təfəkkürünün, mürəkkəb zehni prossesinin məhsulu olub, psixoloji cəhətdən idrak, fantaziya, bilik və təcrübə tələb edir ki, bunlar da idarəetmə subyektinin şüurlu həyatının mühüm elementi olmaqla, onun sosial-psixoloji inkişaf səviyyəsini, idarəetmə bacarığını, qarşısına qoyduğu məqsədi özündə əks etdirir.

İdarəetmədə qərarların qəbulu və icrası proseslərinin təkmilləşdirilməsi bu fəaliyyəti həyata keçirən orqanların işinin səmərəliliyinin artırılmasına və keyfiyyətinin yüksəldilməsinə xidmət etməlidir. Psixoloji nöqteyi-cəhətdən bütün bu proseslər insanın yaradıcı təfəkkürünün məhsulu olub, dərketmə, fantaziya, bilik, böyük təcrübə və yüksək bacarıq tələb edir.

Ədəbiyyatda qərarın qəbulu, şəxsin yaradıcılq prossesi kimi qəbul edilməklə yanaşı, eyni zamanda bu prosesdə zəruri informasiyanın olması da mövcud problemlərin həllində, idarəetmə vəzifələrinin səmərəlliliyinin təmin olunmasında mühüm vasitə kimi göstərilir. Bu zaman zəruri məlumatların toplanması və lazımi ünvanlara ötqrqlməsi xüsusi əhəmiyyət kəsb edir. Ona görə də düzgün qərarların qəbul olunmasının əsasını təşkil edən amillərdən biri də idarəetmə subyektində düzgün məlumatların olması hesab olunur. Bu məlumatlar idarəetmənin real vəziyyətini dəqiq qiymətləndirməyə və düzgün qərarlar qəbul etməyə əlverişli şərait yaradır. Bu nöqteyi-nəzərdən informasiyaların qəbulu zamanı onların dəqiqliyi bir daha yoxlanmalıdır ki, gələcəkdə qəbul olunmuş qərarların məzmununda qeyri-müəyyənlik yaranmasın.

Ümumiyyətlə, psixoloji ədəbiyyatda qeyd olunduğu kimi qərar qəbul etmək şəxsiyyətin şüurlu həyatının mühüm elementi olub, onun sosial-psixoloji inkişaf səviyyəsini, idarəetmə bacarığını, qarşısına qoyduğu məqsədi özündə əks etdirir.

İstər dövlət, istərsə də yerli özünüidarəetmə orqanlarında həyata keçirilən idarəşilik prosesində qəbul olunmuş qərarlar şərti olaraq optimal və qeyri-optimal olmaqla iki yerə bölünür.Onların başlıca fərqi ondan ibarətdir ki, optimal qərarlar fəaliyyətin səmərəliliyini artırdığı halda, qeyri-optimal qərarlar iş şəraitini daha da çətinləşdirir və işin səmərəliliyini azaldır.

İdarəetmə prosesində qərarların qəbul edilməsi zərurəti adətən problemli situasiyanın həlli yollarını araşdırarkən yaranır kı, bu da qərarı qəbul edəcək subyekti problemin mahiyyətini dərindən öyrənməyə, onun yaranması səbəblərini aydınlaşdırmağa və həlli zamanı qəbul ediləcək qərarın kollektivin fəaliyyətinə nə dərəcədə müsbət təsir edəcəyini öyrənməyə sövq edir. Bu zaman qərarı qəbul edən şəxs öz fərdi üslubundan istifadə etməklə yanaşı, həm də idarəetmə bacarığını, idarəetmə mədəniyyətini ortaya qoyur.

Yuxarıda qeyd olunduğu kimi qərar qəbul edən zaman şəxsiyyətin fərdi təfəkkür üslubü, onun istifadə etdiyi metodlar, şəxsi təcrübəsi, verdiyi qərarların mövcud şəraitə uyğunluğu, təcrübəli mütəxəssislərlə məsləhətləşmələr, həmin qərarın düzgünlüyünün zəruri şərtləri kimi qiymətləndirilməlidir. Hətta qərar layihəsi hazırlanmazdan əvvəl həmin layihədə öz əksini tapacaq məsələlərlə bağlı əmək

kollektivi və ya ayrı-ayrı fərdlərlə təmasların diskussiya və müzakirələrin aparılması da düzgün qərar layihəsinin hazılanması və qəbulunda müstəsna əhəmiyyətə malik ola bilər ki, bu da qərarın qəbul olunacağı təqdirdə onun icra mexanizminin düzgün müəyyən edilməsində başlıca təminatını yaradar.

Düzgün qərarların layihəsinin hazırlanması, müzakirəsi, qəbulu və icrasının sosial-psixoloji əsaslarının, xüsusilə də, onun metodlararının düzgün seçilməsi, qiymətləndirilməsi və tətbiqi də qarşıya qoyulan məqsədə nail olunması üçün vacib şərtlərdəndir. Belə qərarların qəbulu mahiyyətcə ictimai xarakter daşıyır və bütöv bir kollektivin məqsəd və maraqlarının təmin edilməsinə xidmət edir.

Yuxarıda qeyd olunduğu kimi idarəetmə qərarlarının xarakteri qərar verən subyektin təfəkkürünün məhsulu olmaqla, həm də təşkilatın fəaliyyətində yaranan problemlərin həllini nəzərdə tutur. İdarəetmə qərarları kollektiv fəaliyyət prosesində qəbul olunur və kollektivin idarəetmə subyekti kimi iştirakını nəzərdə tutur. Bu nöqteyi-nəzərdən həmin qərarlarda təşkilatın mənafeyi ilə yanaşı, kollektivin hər bir üzvünün mənafeyi də əks olunmaqla ciddi şəkildə qorunmalıdır. Ona görə də qərar layihələri hazırlanarkən aşağıdakı proseslərin nəzərə alınması vacib şərtlər kimi məqsədəuyğun hesab olunur:

-fəaliyyətin təhlil edilməsi, problemlərin aşkar olunması və bu poblemlərlə bağlı geniş infomasiyaların toplanması;

-əldə edilmiş informasiyalar əsasında kollektivdə vəziyyətin öyrənilməsi və qəbul olunacaq qərarların səmərəlilik dərəcəsinin müəyyən edilməsi ;

-optimal qərarların hazırlanmısı prosesində ixtisaslı və təcrübəli mütəxəssislərlə məsləhətləşmələrin aparılması;

-idarəetmə qərarlarının kollekiv tərəfindən qəbul olunması ;

-qərarlarının icrası prosesində ortaya çıxa bilən poblemlərin həlli məqsədi ilə alternativ layihələrin hazırlanması;

Qeyd etmək lazımdır ki, qərar layihəsini hazırlanarkən kollektivin təklifəri öyrənilməklə, icra prosesində ona müəyyən korrektələr də edilə bilər. Çünki problemli situasiyalar müxtəlif idarəetmə vəzifələri meydana çıxarır kı, bunların bir qismi fəaliyyət prosesində yaranır, digər qismi isə rəhbərlik tərəfindən verilir. İdarəetmə vəzifələri özlüyündə idarəetmə məqsədlərinin həyata keçirlməsinə kömək edir.

İdarəetmə vəzifələrini həyata keçirərkən yenilənmiş metodlar və üsullardan səmərəli surətdə istifadə olunmaqla bərabər, rəhbər tərəfindən konkret strategiyanın da seçilməsi zəruridir. Bu zaman idarəetmənin statistik quruluşu bir daha nəzərdən keçirilməli, idarəetmə posesinə uyğunlaşdırmaqla, kollektivin fəaliyyəti məqsədyönlü şəkildə idarə olunmalı, onların xüsusuyyətləri dəqiqləşdirilməli, bu xüsusiyyətlərdən irəli gələn tələblər nəzərə alınmalıdır. İdarəetmə funksiyaları yerinə yetirilərkən aşağıdakılar nəzərə alınmalıdır:

-idarəetmə vəzifələri düzgün qiymətləndirilməli, bu vəzifələrdən irəli gələn posesləri tənzımləmək üçün situasiyaya uyğun qərarlar verilməlidir;

-kollektivə öz fəaliyyətini həyata keçirmək üçün əlverişli şərait yaradılmalı, səmərəli fəaliyyəti həyata keşirmək üçün ixtisaslı və bacarıqlı kadrlar seçilməli, fəaliyyətin düzgün istiqamətdə olduğu daim nəzarətdə saxlanılmalıdır;

-qərarların icrası prosesində icraçılara onların fəaliyyəti posesində məsuliyyətləri izah olunmalı, müxtəlif həvəsləndirmə üsullarından istifadə olunmalıdır ;

Qəbul olunmuş qərarların səmərəliliyinin artırılması üçün rərbər tərəfindən yenilənmiş idarəetmə üsullarından istifdə edilməklə, kollektivin qarşısında qoyulmuş konkret məqsədlərə çatmaq üçün təsiretmə vasitələrindən istifadə olunmalıdır. Bu üsullar idarəetmədə yaranan qeyri-müəyyənliyi aradan qaldırmaqla yanaşı, həm də kollektivin fəaliyyətini istiqamətləndirməklə, əməyin səmərəliliyini artırmalıdır. İdarəetmə üsulu məzmun, istiqamət və təşkilatçılıq formalarına uyğun olaraq qarşılıqlı əlaqələndirmə prosesidir. İdarəetmədə, biq qayda olaraq, aşağıdakı üsullardan istifadə olunur:

-direktiv göstərişlərlə əsaslandırılmaqla kollektiv maraqların iqdisadi həvəsləndirilməsinə istiqamətlənən və əməkdaşların sosial aktivliyinə arxalanan idarəetmə;

-müəssisədə sosial-psixoloji mühitə əsalanan idarəetmə fəaliyyətinin aparılması üçün işçi heyətinin yaradılması və s.

İdarə, müəssisə və təşkilatın gundəlik fəaliyyətinin idarə olunmasının forma və üsullarından obyektiv əsaslarla istifadə olunması təşkilatçılıq münasıbətlərinə və idarəolunma mexanizminə hərtərəfli təsir edir. Bu zaman heyət üzvlərinin daxili əlaqələri vasitəsi ilə idarəetmənin funksiyalarından biri reallaşdırılır. [1]

İdarəetmə qərarlarının səmərəliliyini müəyyən etmək üçün onun həll olunma ehtimalını elmi cəhətdən araşdırmaq lazımdır. İdarəetmə orqanlarlarında qəbul olunmuş qərarların səmərəliliyi onların hazırlanması zamanı əldə edilmiş məlumatların obyektivliyi, zənginliyi ilə yanaşı, onlardan istifadə zamanı rəhbərin informasiya almaq və onu ötürmək mədəniyyəti, onun yaradıcı təfəkkürünün səviyyəsindən də asılıdır. Qərarların verilməsi vaxtı da onun səmərəliliyinə təsir göstərən amillərdəndir.Vaxtından əvvəl verilmiş və ya gecikdirilmiş qərar idarəetmə mexanizminə mənfi təsir göstərir. Düzgün və vaxtında verilmiş

qərarlar o qərarlar hesab olunur ki, onlar həm rəhbərliyin, həm də kollektivin maraqlarına cavab veməklə qarşıya qoyulmuş problemin həllinə kömək edir.

İdarəetmə prosesində qəbul olunmuş qərarların səmərəlililiyinin əsas amillərindən biri də insan amilidir. Bu proseslərdə insan amili dedikdə konkret kollektiv və kollektivin maraqları nəzərdə tutulur. Ona görə də kollektiv və fərdi maraqlar rərbərlik tərəfindən qəbul olunan qərarların hazırlanması prosesində daim diqqət mərkəzində olmalıdır.

İdarəetmə subyektləri tərəfindən qərarların hazırlanması və icrası posesi fərdi və kollektiv şəkildə həyata keşirilir. Kollektiv qərarlar bir nəfərin deyil, iki və daha artıq şəxsin təfəkkürünün məhsulu olduğu üçün analitik təfəkkürə və təcrübəyə əsalanır.Qərarların hazırlanması zamanı müxtəlif metodlardan istifadə edilməli, problemli məsələlər kollektivin müzakirəsinə verilməli, problem barədə kollektiv davamlı məlumatlndırılmalı, problemin mahiyyəti onlar tərəfindən dərk olunmalıdır.

Kolllektiv tərəfindən iirəli sürülən təkliflər müzakirə olunduqdan sonra, konkret qərar layihəsi hazırlanmalı, bu zaman müzakirələrin gedişində müxtəlif məzmunlu yanaşmalar meydana çıxma ehtimalı nəzərə alınmaqla qəbul ediləcək qərar əsas məqsəddən uzaqlaşmamalıdır.Elə bu məqsədlə də işgüzar müzakirələr zamanı ixtisaslı və təcrübəli mütəxəssislərin iştirakı təmin olunmalı, onların arqumentləri ilə kollektiv də tanış olmalıdır. Aparılan müzakirələr ümumi məqsədə çatmağa xidmət etməli, kollektiv üzvlərinin bu istiqamətdə əməkdaşlığına xidmət etməlidir. İdarəetmə fəaliyyətində işin səmərəliliyini artırmaq üçün aparılmış müzakirələr zamanı altenativ qərar layihələri də hazırlanmalıdır.

İdarəetmə qərarlarının hazırlanması və icrası zamanı idarəetmə fəaliyyətində insanlar arasında yaranan münasibətlər, kollektivdə mövcud olan psixoloji mühit, rəhbər və işçilər arasında mənəvi-psixoloji münasibətlər, əmək kollektivi üzvlərinin maraq və meylləri, xarakterlərinin uyğunluğu mühüm rol oynayır. İdarəetmə fəaliyyətinin obyekti olan hər bir əmək kollektivinin üzvü və rəhbər müvafiq struktur elementləridir.

İdarə etmə prosesində qərarların hazırlanması və icrası prosesinə əmək kollektivi də psixoloji cəhətdən hazır olmalıdır. Belə ki, qərarların icrası prosesində kollektiv üzvlərinin məsuliyyət hissinin artırılması, onlar tərəfindən qərarların mahiyyətinin dərk olunması, qəbul olunmuş qərarların yerinə yetirilməsində müsbət motivasiyanın yaradılması vacibdir. Kollektivdə yaradılan müsbət motivasiya idarəetmədə uğurların qazanılması üçün lazım olan əsas amillərdən sayılır.Kollektivdə yaradılan müsbət motivasiya məqsədə çatmaq üçün faydalı fəaliyətə yönəltmə prosesidir. Müsbət motivasiyanın yaradılması kollektivi daha əzmlə fəaliyyət göstərməyə sövq edir ki, bu da yüksək nəticələrə nail olmağa kömək edir.İdarəetmədə motivləşmə fizioloji tələbatdan irəli gəlir.Tələbatdan müvafiq davranışa sövq edir, şəxsdə bu istiqamətdə pozitiv hərəkətlər etmək qətiyyəti yaradır.

Ümumiyyətlə, motivasiya insanın daxili emosional hissləri ilə müşayət olunan motiv anlayışı ilə sıx bağlıdır. Motiv dedikdə, şəxsi konkret hərəkət və ya hərəkətsizliyi törətməyə vadar edən, onda bu hərəkətləri törətmək qətiyyəti yaradan, dərk olunan daxili emosional hisslər başa düşülür.Yüksək intellektual səviyyəyə malik olan təcrübəli rəhbər işçi öz tabeliyində olan şəxslər barəsində qərar qəbul edərkən onun daxilində pozitiv və ya neqativ hisslərin mübarizəsi gedir. İşçinin əmək fəaliyyətindən, davranışından, kollektivlə münasibətindən və bir sıra digər fərdi keyfiyyətlərindən asılı olaraq o, müsbət xarakterizə olunursa, onun barəsində həvəsləndirici, əks halda isə intizam tənbeh tədbirləri tətbiq edilir. Bu qərarın qəbul edilməsi sonda rəhbərin daxili emosional hisslərində yaranan motivlərdən hansının üstünlük təşkil etməsindən asılı olur. Məsələn, işçinin fərdi keyfiyyətləri rəhbərdə rəğbət hisslərini artırırsa pozitiv, digər halda isə neqtiv qərar qəbul edilir.Son nəticədə qəbul edilmiş düzgün və ədalətli qərar işçidə də müsbət emosiyalar yaratmaqla əməyin məhsudarlığına səmərəli təsir göstərərir. Qəbul olunmuş qərarların icraçıların istəkləri ilə uyğunluğu da icra olunacaq işin keyfiyyətinə, fəaliyyətin səmərəliliyinə birbaşa təsir göstərir.

İdarəetmə psixalogiyasında idarəetmə qərarları yuxarıda göstərilən amilləri nəzərə alınaraq üç qrupa bölünür :

-qadağan edən qərarlar;

-icazə verən qərarlar;

-konstruktiv qərarlar.

Müasir elmi-texniki tərəqqi şəraitində cəmiyyətin inkişaf səviyyəsi artdıqca idarəetmədə daha yüksək təşkiatçılıq qabiliyyətinə malik , təcrübəli rəhbər işçilərə tələbat da artır. Belə bir rərbər qarşıya qoyduğu məqsədə çatmaq üçün əzmkarlıq göstərməli, kollekyivin əməyinin effektivliyini artırmaq üçün idarəetmə strategiyası seçməlidir. Düzgün seçilmiş strategiya sonradan qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində və bunun üçün taktiki üsul və vasitələrin seçilməsində əhəmiyyətli rol oynayır. Səriştəli rəhbər bu məqsədlərə nail olmaq üçün fəaliyyət istiqamətlərini müəyyən edən idarəetmə modeli quraraq təşkilati-sərəncamverici və inzibati-təsərüfat funksiyalarını müəyyən edir.

Rəhbər üçün mühüm keyfiyyətlərdən biri də kollektivin fəaliyyətinə müntəzəm nəzarət etməkdir. Lakin bu nəzarət avtoritar xarakterli olmamalı, avtoritarizmə və süni əngəllərin yaradılmasına gətirib çıxarmamalıdır. Özünün idarəetmə strategiyasını düzgün seçmiş rəhbər düzgün qərarların qəbul edilməsi və icrasında da çətinlik çəkmir.

Bəzən qərarların icra modelləri ilə kolektivin fəaliyyəti üst-üstə düşmür.Təcrübəli rəhbər başçılıq etdiyi əmək kollektivinin idarə olunmasında qarşıya qoyulmuş məqsədə çatmaq üçün qətiyyət göstərməli, təşkilatın potensialını nəzərə alaraq, öz idarəetmə mədəniyyətini nümayiş və təlqin edərək təfəkküründə qurduğu fəaliyyət mexanizminə idarə etdiyi kollektivi inandırmaqla məqsədini həyata keçirməlidir.

Qəbul olunmuş qərarların icrası prosesində əsas amillərdən biri də bu qərarlar haqqında düzgün informasiyaların çatdırılmasıdır. Düzgün çatdılmış infomasiya qəbul olunmuş qərarların düzgün qavranılmasına xidmət edir. Qərarların düzgün çatdırılması qrup və fərdi tapşırıqlara bölünür. Qəbul olunmuş qərarlar icraçılara çatdırılarkən kollektivin hər bir üzvünün funksiyası, məsuliyyəti, səlahiyyətləri müəyyənləşdirilir.

Verilən tapşırıqların düzgün qavranılması üçün müxtılif işgüzar müzakirələr aparmaq olar. Rəhbər çalışmalıdır kı,müzakirələr zamanı qeyri- inzibati xarakterli metodlardan istifadə etməklə (inandırma,səxsi nümunə və s.) diqqəti əsas məsələyə yönəltsin, kollektivin bütün psixofizioloji keyfiyyətlərini nəzərə alaraq öz fəaliyyət strategiyasını həyata keçirsin.

Qərarların düzgün icrası üçün düzgün rəhbərlik üslubunun seçilməsi də önəmlidir. Rəhbər tərəfindən seçilən iş üslubu yalnız onun deyil, həmin təşkilatın fəliyyəti zamanı ortaya çıxan bütün sosial-psixoloji münasibətlərə də təsir edir. Rəhbər tərəfindən seçilən üsulu daim kollektiv tərəfindən izlənilir, kollektivdə müsbət və ya mənfi motivasiya yaradılmasına gətirib çıxarır.Verilən tapşırıqların icrası üçün nəticələrin obyektiv qiymətləndirilməsi vacibdir. Nəticələri qiymətləndirərkən rəhbər işçilərdə müsbət motivasiya yaratmaq üçün aşağıdakı həvəsləndiririci tədbirlərdən istifadə edə bilər:

-əmək haqqının artırlması;

-xüsusi mükafatlandırma;

-iş şəraitinin yaxşılaşdırılması;

-daha yüksək səlahiyyətlərin verilməsi;

-karyerasının yüksəldilməsi;

Rəhbərlik üslubunu xarakterizə edən amillər aşağıdakılardır:

-peşəkarlığa, təcrübəyə, yaradıcılığa, məsuliyyətliliyə, şəxsi keyfiyyətliliyə, əxlaqiliyə, tempramentliliyə və sairə olan münasibət;

-sistemin spesifikliyi, onun məqsədləri və vəzifələri, idarəetmə strukturları və idarəetmənin texnikası, rəhbərin fəaliyyətinin funksional məzmunu;

-idarə edilən kollektivin xüsusiyyətləri, onun strukturu və hazırlıq dərəcəsi, daxili xüsusiyyətləri, kollektivdə olan formal və qeyri-formal qarşılıqlı münasibətlərin xarakteri.

İdarəetmə obyektlərində sosial-psixoloji mühit də qərarların düzgün icrasına birbaşa təsir göstərir. Xüsusilə də sosial-psixoloji birlik və həmrəylik, yekdillik, kollektivdə ayrı-ayrı fərdlər arasında qarşılıqlı işgüzar münasibətlərin xarakteri, psixoloji uyğunluq, qarşılıqlı anlaşma, birgə işə pozitiv münasibət və sair də qərarların icrası prosesində mühüm rol ynayır. Ona görə də, hər bir əmək kollektivinin sosial-psixolji keyfiyyətlərinin, inkişaf istiqamətlərinin və səviyyəsinin, sosial münasibətlər sistemindəki yeri və rolunu düzgün qiymətləndirməyin başlıca meyarı olan sosial-psixoloji mühitin əsas elementlərinin qərarların icra prosesinə təsiri xüsusi aktuallıq kəsb edərək, psixoloqlar tərəfindən daim araşdırılır.

İdarəetmənin mühüm elementi olan sosil-psixoloji mühit işçilərin emosional-psixolji münasibətlərinin təzahür forması olmaqla, kollektivdə təşkilati-sərəncam və inzibati-təsərrüfat fəaliyyətinin düzgün həyata keçirilməsində xüsüsi əhəmiyyətə malik olur.

Mahiyyəti işçilərin kollektiv fəaliyyətə və kollektivdə baş verən proseslərə, hadisələrə, idarəetməyə emosional-psixoloji reaksiyasından ibarət olan sosial-psixoloyi mühit idarə və təşkilatın funksiyalarına uyğun tənzimlənməlidir.Bunun üçün onun tərkib elementlərini təşkil edən ünsürlərin hər birinin bu mühitin yaranmasında iştirakını və xarakterini ətraflı öyrənmək və təhlil etmək lazımdır.

Psixoloji ədəbiyyatda sosial-psixoloji mühitin aşağıdakı parametrləri müəyyən olunmuşdur:

-qrupun sosil- psixoloji xarakteristikası;

-kollektivdə üstünlük təşkil edən davamlı psixoloji əhval-rühiyyə;

-kollektivdə şaquli münasibətlərin xarakteristikası;

-kollektivin mənəvi-psixoloji vəziyyətinin interaktiv xarakteristikası. [2]

Təşkilatda əlverişli mənəvi-psixoloji mühit, özünü aşağıdakı əlamətlərdə göstərir:

-kollektivdə optimist əhval-ruhiyyə, işindən kollektivdən işin xarakterindən, rəhbərliklə qarşılıqlı münasibətlərdən razılıq hissinin olması,

-yeniliklərə səy etmək və öz yaradıcı potensialını ,peşəkarlığını daima təkmilləşdirmək, işinə yaradıcı yanaşmaq, məsuliyyət hissi, kollektiv və rəhbərlik tərəfindən layiqincə qiymətləndirilmək, ədalətlilik, humanizm, kollektivə bağlılıq hissi və sair. [2]

Kollektivdə yaranmış qeyri-sağlam mühit işin səmərililiyinə, keyfiyyətinə təsir etməklə, insanların sağlamlığına da zərər vurur. Belə bir mühit rəhbərliklə işçilər arasında inamsızlığa, konfiliktlərin yaranmasına, streslərə səbəb olur. Nəticədə işçiləri kollektivə bağlayan əlaqələr zəifləyir ki, bu da öz növbəsində kadr axınına səbəb olur. Şübrəsiz ki, təcrübəli və ixtisaslı kadrların kollektivi tərk etməsi fəaliyyətin səmərəliliiyinə və keyfiyyətinə mənfi təsir göstərərək, təşkilatın nüfuzunun aşağı düşməsinə səbəb olur.

Qəbul olunmuş qərarların icrası posesində əsas amillərdən biri də adaptasiya prosesidir. İşə daxil olan işçi adaptasiya prosesində kollektivdə mövcud olan sosial münasibətləri öyrənir və bu münasibətlərə uyğun olaraq öz mövqelərini də ortaya qoyur.Kollektivə yeni daxil olan işçi təşkilatdaxili münasibətlər sisteminə qoşulmaqla idarəedən və yaxud da tabeçilikdə olan funksiyasını daşıyır. Bu funksiyanı daşıyan hər bir şəxsdən fəaliyyətinə uyğun davranış gözlənilir. Kollektivin üzvünə çevrildikdən sonra onun kollektivə psixoloji cəhətdən uyğunluğu, kollektivə işgüzar adaptasiyası rəhbərlik tərəfindən verilmiş qərarların müsbət yönümdə yerinə yetirilməsinə təsir göstərir. Bu proses qanunvericilikdə də tənzimlənərək sınaq müddətinin müəyyən edilməsi yolu ilə həyata keçirilir.

İşçinin fərdi keyfiyyətini, onun adaptasiya imkanlarını və sair halları nəzərə alaraq əmək qanunvericiliyində üç aylıq sınaq müddəti müəyyən olunur. Həmin müddət ərzində işçinin təhsil və ixtisası, əmək vərdişləri, peşəkar iş qabiliyyət i, tutduğu vəzifəyə uyğun olub-olmaması, onun kollektivlə qarşılqlı əlaqələrənin xarakteri nəzərə alınmaqla müvafiq qərar qəbul edilir. Məhz göstərilən şəxsi keyfiyyətlər və digər hallar qarşılıqlı əlaqədə qiymətləndirilərək işçi ilə əmək münasibətlərinin davam etdirilməsi və ya ondan imtina edilməsi barədə qərar qəbul edilir.

Müasir şəraitdə idarəetmə heyətinin tərkibində keyfiyyət dəyişiklikəri özünü göstərməkdədir.Bu da idarəetmə prosesinin səviyyəsində öz təzahürünü tapır. İdarəetmə sisteminin işinin səmərəliliyini artırmaq üçün idarəetmə quruluşu da düzgün formalaşdırılmalı, müasir elmi tərəqqinin nailiyyətlərindən, o cümlədən informasiya texnikasından yüksək səviyyədə istifadə olunmalıdır.Kollektivə yüksək ixtisaslı kadrlar cəlb edilməklə bərabər, həm də fəaliyyət göstərən təcrübəli işçilərin iş təcrübəsindən istifadə edilməli, əsas məqsədə çatmaq üçün bütün imkanlardan istifadə edilərək rəhbərin özünün və yaxud yuxarı təşkilatların qəbul etdiyi qərarların icrasını təmin olunmalıdır.

Ümumiyyətlə, kollektivdə sağlam işgüzar mühit yaratmaqla təşkilatın rəhbərliyi qəbul olunmuş qərarların uğurlu icrasına nail olur ki, bu da öz növbəsində idarəçilik proseslərinin sürətləndirilməsini, idarə etmənin daha səmərəli surətdə həyata keçməsini təmin edir.

Ədəbiyyat

1. Yahudov H.M. Menecmentin əsasları. Bakı: Təhsil, 2007
2. Haqvediyev İ. İdarəetmə psixologiyası. Bakı: Elm, 2008.
3. Bayramov Ə., Əlizadə Ə. Sosial psixologiya. Bakı: 2004.
4. Əliyev R. Psixologiya. Bakı: 2007.

РЕЗЮМЕ

СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ РЕАЛИЗАЦИИ УПРАВЛЕНЧЕСКИХ РЕШЕНИЙ

Салимова Н.

Ключевые слова: *социально-психологическое, подготовка решения, принятие решения, социально-психологическая среда, выполнение решения*

В статье, посвященной социально-психологическим особенностям принятия и исполнения управленческих решений, освещаются социально-психологические аспекты подготовки, принятия и исполнения этих решений, обеспечение их эффективности и оперативности.

Отмечается, что социально-психологическая среда как форма эмоционально-психологических отношений работников, имеет особое значение для правильного осуществления организационно-распорядительной и административно-хозяйственной деятельности в коллективе.

Уделяется особое внимание основному фактору качественных изменений в управлении, отношениям между руководителями и сотрудниками, процесам адаптации и их законодательному регулированию.

SUMMARY
SOCIO-PSYCHOLOGICAL FEATURES OF THE IMPLEMENTATION OF MANAGEMENT DECISIONS
Salimova N.

Key words: *execution, socio-psychological, decision making, social and psychological environment, the implementation of decisions.*

The article dedicated to the socio-psychological features of the adoption and implementation of manaqement decisions, as a branch of modern manaqement theory, the social-psycholoqical aspects of the preparation adoption and implementation of manaqement decisions, the issue of increasinq their flexibility are investiqated ,

It is noted that as an important element of manaqement, the social-psicholoqical environment is a manifestation of the emotional-psicholoqical relations of employees and is of particular importance in the correct implementation of orqanizational-discipline and administrative-economic activities in the collective.

To the processes of adaptation to employee-manaqer relations, attention is paid to the issues of their requlation in legislation.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV MİLLİ NEFT STRATEGİYASININ BANİSİDİR

Süleymanlı Dilşad Qürbət qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
dilshad8080@mail.ru

Açar sözlər: *iqtisadiyyat, neft, qaz, yataqlar, sənaye, sərvətlər*

Xarici kapitalın axını sayəsində Azərbaycanda 19-cu əsrin sonlarından, yerli neft sahibləri ilə birlikdə neftin hasilatı və satışına nəzarət edən iri neft şirkətləri yarandıqdan sonra sürətlə inkişaf etməyə başladı. Ötən əsrin əvvəllərində Bakı təkcə Rusiya imperiyasının deyil, həm də dünyanın əsas neft mərkəzinə çevrildi. Sovet dövründə Azərbaycan nefti SSRİ-nin əsas yanacaq mənbəyi idi.

Lakin Azərbaycanın, xüsusən də Bakının inkişafında neftin xüsusi rolu olmasına baxmayaraq, heç vaxt bu sərvətin sahibi xalq olmayıb. Yalnız müstəqillik əldə etdikdən sonra, suveren Azərbaycan Respublikası yarandıqdan sonra neft Azərbaycan xalqının mülkiyyətinə çevrildi. Əvvəllər olduğu kimi, bu gün də neft Azərbaycanın gələcək tərəqqisinin açarıdır. Xüsusən bu sənaye sahəsinin hərtərəfli inkişafı Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdən biri idi. 1994-cü il sentyabrın 16-da keçirdiyi brifinqdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev demişdir: "Biz indi və gələcəkdə çalışmalıyıq ki, Azərbaycanın təbii sərvətlərindən, xüsusən də onun əsas sərvətindən - neft yataqları ehtiyatla, bacarıqla istifadə edək.. Biz elə etməliyik ki, bu gün də, gələcəkdə də bu sərvətlərdən maksimum yararlanaq". Bunu deyən Heydər Əliyev respublikanın neft sənayesinin tarixi təcrübəsinə əsaslanırdı [1]. 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərində Azərbaycan dünyanın ən böyük neft hasilatçılarından biri idi. Hələ 1872-ci ildə burada 26 min ton neft hasil edilirdisə, 1900-cü ildə bu rəqəm 10 milyon tona yüksəldi. Artıq o dövrdə Xəzər neftinin çıxarılması və emalı ilə xarici neft şirkətləri və yerli sənayeçilər məşğul olurdular. Bakı nefti dünyada getdikcə daha geniş istifadə olunurdu. Neft sənayesi Bakının inkişafına ciddi təsir göstərsə də, eyni zamanda ekoloji vəziyyətin pisləşməsinə, ətraf mühitin çirklənməsinə səbəb oldu. Neft emalı zavodlarının tikintisi Bakıda Qara şəhər adlanan bütöv bir qəsəbənin yaranmasına səbəb oldu. Azərbaycanın SSRİ-də olduğu dövrdə neft sənayemiz yeni neft yataqlarının kəşfiyyatı və istismara verilməsində qabaqcıl idi. Buna görə də SSRİ ərazisində aşkar edilmiş yeni iri yataqlar "İkinci Bakı", "Üçüncü Bakı" və s. adlandırılırdı. Azərbaycan 1949-cu ildə Xəzərin dibindən neft hasilatına başlayaraq dənizdə, böyük dərinliklərdə neft yataqlarının kəşfiyyatı və istismarı üzrə dünyada ilk addımlar atan və bununla da Azərbaycanda dənizdə neft hasilatının əsasını qoyan ölkəyə çevrilmişdir. 1949-cu ilin noyabrında ilk dəniz quyusu əfsanəvi Neft Daşlarında fəvvarə verdi. Azərbaycan neftçiləri dəniz yataqlarının işlənməsində böyük təcrübə əldə ediblər. 1949-cu ildən 1997-ci ilin ortalarına qədər dəniz neftçiləri 420 milyon ton neft və 320 milyard kubmetr qaz hasil etmişlər. 1969-cu ildə respublikaya rəhbərlik edən Heydər Əliyev Azərbaycan sənayesinin köklü yenidən qurulması proqramının işlənib hazırlanması təşəbbüsü ilə çıxış etdi və bu proqram sonrakı dövrdə də ardıcıl şəkildə həyata keçirildi. 1976-cı ildə Azərbaycan KPMK-nın birinci katibi Heydər Əliyevin adı ilə qırılmaz şəkildə bağlı olan əsas və perspektivli sənaye sahələrinin inkişafı proqramı qəbul edildi [2]. Bu proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi respublika iqtisadiyyatının bir çox sahələrinin yenidən qurulmasının hərtərəfli canlanmasına səbəb oldu. Belə ki, əsasən Bakıda yerləşən neft sənayesinin perspektiv inkişafı, ilk növbədə, yeni texnika və texnologiyaların tətbiqi, ekoloji vəziyyətin normallaşdırılması üçün ətraf mühitin çirklənməsinə qarşı mübarizə sayəsində neft hasilatının sabitləşdirilməsi və onun emalının təkmilləşdirilməsi ilə bağlı olmuşdur. Paytaxtın hərtərəfli

abadlaşdırılması, müasir tələblər səviyyəsində quruculuq işlərinin aparılması və s. tədbirləri həyata keçirən Heydər Əliyev geriyə də nəzər salmağı unutmamış və vurğulamışdır ki, Bakıda neft sənayesinin yaranması ilə neft emalı qurğularının tikintisinə başlanılmış və bu, Azərbaycan xalqına böyük fayda vermişdir .

Müasir neft emalı tələbləri səviyyəsində köklü modernləşmə Heydər Əliyevin təşəbbüsü ilə 70-ci illərdə baş verdi. "Mən bunu ona görə demirəm ki, siz məni həyasız hesab edəsiniz. Bunu ona görə deyirəm ki, həqiqəti bir daha xatırlayasınız. Köhnə emal müəssisələrinin yararsızlığını nəzərə alaraq, 70-ci illərdə o, yeni texnoloji planlar hazırlamaq vəzifəsini qoydu [3]. 1994-cü il sentyabrın 17-də "Azneft" İstehsalat Birliyinin Avtomatik İdarəetmə Mərkəzinin əməkdaşları qarşısında çıxış edən Azərbaycan Prezidenti qeyd etdi ki, 20-ci əsrin əvvəllərində tikilmiş neft emalı zavodları Azərbaycan iqtisadiyyatında böyük rol oynayıb. Lakin digər tərəfdən, Bakının bir hissəsinin qurusu da, dənizi də neftdən qaralmış, bu şəraitdə insanların güzəranı dözülməz dərəcədə ağır olan "Qara şəhər"ə çevrilməsinə də onların töhfələri olub. Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış neft sənayesinin yenidən qurulması proqramında "Qara şəhər" probleminə xüsusi diqqət yetirilmişdir. Heydər Əliyev həmin illərdə görülən işləri xatırlayaraq vurğulayırdı: "Biz bu proqramı hazırlamışıq, mən bu proqramı hazırlamaq ideyasını irəli sürmüşəm. Hesabatdan söz düşmüşkən - onun mətninə arxivdən baxıb baxa bilərsiniz, - "Qara şəhər"in mövqeyini açıqladım və dedim ki, vaxt gələcək, "Qara şəhər" qara rəngdən qurtulacaq, çiçəklər gələcək. burada əkiləcək, hər tərəf yaşıllıq olacaq, ağaclar, gözəl yaşayış binaları tikiləcək, insanlar burada yaşamağa çalışacaqlar". Ötən əsrin 70-ci illərindən başlanan Azərbaycan sənayesinin yenidən qurulması, emal müəssisələrinin tam yenidən qurulması Qara şəhərin ekoloji problemlərini qismən həll etdi [4]. Bu, Heydər Əliyevin böyük səylərinin nəticəsi idi. 70-80-ci illərdə aparılan neft hasilatının yenidən qurulması, neft emalı sənayesinin texniki yenidən qurulması, yeni texnologiyaların tətbiqi ilə iqtisadiyyatın bu sahəsi görünməmiş sürətlə inkişaf etməyə başladı. Həmin dövrdə Heydər Əliyev tərəfindən Azərbaycan iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi onun gələcək inkişafı üçün güclü zəmin yaratdı. Sovet İttifaqının tərkibində respublikamız müstəqil deyildi, hər şey Moskvadan planlaşdırılıb, diktə olunurdu. Lakin həmin illərdə mövcud olan sərt inzibati sistem çərçivəsində də Heydər Əliyev Azərbaycan iqtisadiyyatının inkişafı üçün respublikanın iqtisadi qüdrətinin gücləndirilməsinə yönəlmiş düşünülmüş, əsaslı planlar irəli sürdü və uğurla şəxsi səlahiyyət və vəzifəsindən istifadə edərək bunları həyata keçirmişdir. Neft sənayesinin ən mühüm sahələrindən biri neft emalı idi və Heydər Əliyev ona böyük diqqət yetirirdi. Bütün sənayenin hərtərəfli inkişafını təmin edən o idi. 1970-ci illərdə SSRİ-də yüksək keyfiyyətli neft istehsal edən "Katalitik krekinq" qurğusunun tikintisi müzakirə edilərkən Azərbaycan KPMK-nın birinci katibi Heydər Əliyev onun tikilməsi məsələsini dəfələrlə qaldırmışdı. Heydər Əliyevin qeyd etdiyi kimi, Azərbaycanda katalitik krekinq qurğusunun yaradılmasına on il vaxt sərf olunub. Onun tikintisi Azərbaycanda neft emalının modernləşdirilməsi üzrə kompleks proqramın mühüm tərkib hissəsi idi. Bu layihə 70-ci illərdə hazırlanmışdı, lakin yalnız 1981-ci ildə tikintinin özü başladı. Digər bloklar iki il ərzində tikildiyi halda, Katalitik Krekinq 12 ildə tikilərək 1993-cü ildə istifadəyə verilib. Sovet dövründə respublikada güclü elmi, kadr, maddi-texniki potensialın toplandığından danışan Heydər Əliyev tarixi ənənələrin yeni mərhələdə qorunub saxlanmasının vacibliyini qeyd etdi: "Bunun sayəsində - ölkəmizin topladığı böyük təcrübə, ixtiyarımızda olan böyük maddi-texniki baza sayəsində Azərbaycan Xəzər dənizində, böyük dərinliklərdə yerləşən yataqlardan neft hasil etmək üçün yeni addımlar atmağa başladı". 1991-ci ildən sonra respublikamızın düşdüyü siyasi və iqtisadi vəziyyətlə əlaqədar Azərbaycanın neft sənayesi ağır böhran yaşayırdı. Maliyyə çətinlikləri, kəşfiyyat və hasilat qazma işlərinin azalması, onların uzunmüddətli istismarı nəticəsində yataqların tükənməsi, 150-200 metrdən çox dərinlikdən neft hasilatı üçün müasir avadanlıq və texnologiyanın olmaması sənayenin kəskin şəkildə aşağı düşməsinə səbəb olub. 1987-1997-ci illərdə Azərbaycanda neft hasilatı 14280 milyon tondan 9022 milyon tona düşüb. Respublikada neft sənayesinin inkişaf mənbələrini diqqətlə təhlil edən Prezident Heydər Əliyev neft hasilatının artırılması üçün yeni imkanlar kəşf etdi. Elmi tədqiqatların nəticələrinə, neft sənayesində çalışan alimlərin, mühəndislərin, mütəxəssislərin rəylərinə əsasən belə bir qənaətə gəlib ki, Azərbaycanın yataqları neft ehtiyatları ilə zəngindir. Lakin onların inkişafı bir sıra çətinliklərlə əlaqələndirildi. Quruda neft hasilatının səmərəliliyinin artırılması yeni texnologiyalar tələb edirdi. Dəniz yataqlarının kəşfiyyatı və istismarı isə Xəzər dənizinin onların yarandığı yerin üstündəki böyük dərinliyi ilə çətinləşirdi. 1990-cı illərə qədər nisbətən dayaz dərinliklərdə yerləşən sakit yataqlar istismar olunurdu. Böyük dərinliklərdən neft hasilatı böyük kapital qoyuluşu, müasir texnika və texnologiya və təcrübə tələb edirdi. Qərbin aparıcı neft şirkətləri ilə birgə dərinsulu yataqların işlənməsinə dair genişmiqyaslı saziş bağlamaq məsələsi ortaya çıxdı. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Qərbin iri neft şirkətləri arasında Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənməsinə dair danışıqlar 1990-cı ildə, SSRİ-nin mövcud olduğu dövrdə başlamışdır. Bu məqsədlə ilk dəfə olaraq xüsusi tender elan edilib. Lakin nə sovetlər dönəmində, nə də respublikanın müstəqilliyinin ilk illərində mahir rəhbərlik və təşkilatçılıq olmadığından bu iş başa çatdırılmadı. 1992-ci ildə ARDNŞ ilə danışıqlar aparan Qərb neft şirkətləri Konsorsium yaratdılar. Müqavilə

layihəsi hazırlanırdı. Lakin onun bütün variantlarında əhəmiyyətli çatışmazlıqlar var idi və Azərbaycanın maraqlarına cavab vermirdi. Müqavilənin şərtlərinin ölkəmiz üçün yararsız olduğunu və imzalanacağı təqdirdə iqtisadiyyatımıza daha böyük ziyan vura biləcəyini anlayan respublika Ali Sovetinin sədri, Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edən Heydər Əliyev fərman verdi. 1993-cü ilin iyulunda imzalanma mərasimi 1993-cü il iyulun 21-nə təyin edilmiş bu müqavilə üzrə danışıqları dayandırmaq. Bu addım çoxları arasında böyük təəccüb doğurdu, bu məsələ ətrafında müxtəlif dedi-qoduların yaranmasına səbəb oldu. Prezidentlər və Qərb şirkətlərinin digər rəhbərləri ilə görüşən Heydər Əliyev öz nöqteyi-nəzərini onlara ətraflı izah etdi, danışıqların dayandırılmasının səbəblərini izah etdi. "Mən başa düşürəm ki, neft şirkətləri öz iqtisadi maraqlarına riayət edirlər", - deyə Heydər Əliyev bildirib. "Ancaq eyni zamanda, biz ölkəmizin maraqlarını şirkətlərin maraqlarından üstün tutmalıyıq". Neft Azərbaycan iqtisadiyyatının ən böyük sektorunun əsasını, respublikanın ən qiymətli sərvətini təşkil edir, ona görə də məsələyə daha dərindən baxmaq lazımdır, hərtərəfli düşünmək lazımdır. Sonra müzakirələr başladı, nəticədə razılıq əldə olundu və danışıqlar davam etdirildi. Heydər Əliyev Azərbaycanın alimləri, mütəxəssisləri, neft hasil edən müəssisələrinin rəhbərləri ilə görüş keçirdi, onlara Azərbaycanın mövqeyini ətraflı izah etdi. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti dövlətimizin başçısının tapşırıqlarını rəhbər tutaraq, həmçinin alim və mütəxəssislərlə birlikdə müzakirələrdə işlənib hazırlanmış prinsiplər əsasında danışıqlarda ölkənin mövqeyini, onların hansı prinsiplər əsasında davam etdirilməli olduğunu müəyyən etdi. Fərmanla Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin işlənmiş prinsipləri üzrə danışıqların davam etdirilməsi səlahiyyəti onun prezidenti N.Əliyevə verilib. Bundan sonra danışıqların yeni mərhələsi başlayıb və bu mərhələ iyulda başa çatıb. Heydər Əliyev onların nəticələrini təsdiq etdi və bunun əsasında Müqavilənin hazırlanması haqqında Fərman verildi. Bakıda SOCAR ilə Qərb neft şirkətləri arasında danışıqlar aparılıb. Onların növbəti mərhələsi Qərb şirkətlərinin istəyi ilə İstanbulda davam etdi. Heydər Əliyev danışıqların gedişini diqqətlə izləyir, öz tövsiyələrini verirdi. Bütün bunlar onu göstərir ki, bu neft müqaviləsinin hazırlanmasına gedən yol nə qədər çətin və gərgin keçib. Azərbaycanın taleyi üçün böyük gələcək əhəmiyyət kəsb edən müqavilə görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörən və gərgin əməyinin nəticəsi idi. Dövlət başçısı brifinqdə çıxışı zamanı vurğulayıb: "Hesab edirəm ki, üç ildən artıqdır ki, görülən işlər öz müsbət nəticəsini verib. Heç bir şübhə yoxdur ki, təklif olunan müqavilə layihəsi bizim bütün arzu və arzularımıza cavab verir. Bununla belə, biz bu layihədən daha çox fayda əldə etmək istəyirik. Əməkdaşlıq elə bir şeydir ki, tərəflərin hər biri öz mənfəətini əldə etməyə çalışır. və mən onu çıxarmalıyam. Qarşılıqlı fayda prinsipinə əməl olunmasa, şübhəsiz ki, razılaşma, müqavilə olmayacaq."

Heydər Əliyev Qərb neft şirkətlərinin konsorsiumu ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında müqavilənin bağlanma yeri və vaxtı haqqında fərman imzaladı. Fərmana əsasən, bu mərasim 1994-cü il sentyabrın 20-də Gülüstan sarayında keçirilməli idi. Bakıda danışıqların aparılması və müqavilənin imzalanması böyük əhəmiyyət kəsb edir. "İmzalanmanın Bakıda keçirilməsi Azərbaycanın müstəqilliyini bir daha sübut edir". Azərbaycanın neft sənayesi üçün böyük əhəmiyyət kəsb edən neft mədənləri ərazisində iri platformaların tikintisi nəzərdə tutulurdu. Hələ 80-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda dərinsulu özüllər üçün güclü zavod tikildi. Həmin illərdə o, Sovet İttifaqında quyuların qazılması və dənizdə neft hasilatı üçün platformalar tikən yeganə müəssisə idi. Amma son illər zavodun yenidən qurulmasına ehtiyac olduğu üçün fəaliyyətini dayandırıb. "Əsrin müqaviləsi" qüvvəyə mindikdən sonra müəssisənin tam modernləşdirilməsi nəzərdə tutulmuşdur [5]. Burada təkcə Xəzər dənizinin Azərbaycan sektoru üçün deyil, onun digər sektorlarında da neft hasilatı üçün platformaların tikilməsi nəzərdə tutulurdu. Müqavilə imzalandıqdan sonra əvvəllər istifadə olunan və indi köhnəlmiş qurğuların, gəmilərin əvəzinə otuz ildən sonra Azərbaycanın mülkiyyətinə keçəcək yeni gəmilərin, tankerlərin, qurğuların alınması nəzərdə tutulurdu. Neft Daşlarında salınmış estakadaların təmiri və abadlaşdırılması da qarşıya qoyulmuşdur. Konsorsiumdan və neftin Azərbaycan payının satışından əldə edilən vəsait neft qurğularının, quyularının və yataqlarının bərpasına sərf edilməli idi. Nəhayət, üç ildən artıq davam edən danışıqlardan sonra 1994-cü il sentyabrın 20-də Bakıda, Gülüstan sarayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın 11 ən böyük neft şirkətinin konsorsiumu arasında birgə işlənməsi haqqında müqavilə imzalandı. və Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri" yataqlarından, "Çıraq" və "Günəşli"nin dərinsulu hissəsindən neft hasilatı imzalanıb. Bu sənəd "Əsrin müqaviləsi" adını alaraq dünyada böyük rezonans doğurdu. Müqaviləni Amerikanın Amoko, Unocal, Penzoil, Exxon şirkətləri, Böyük Britaniyanın British Petroleum, Remco, Rusiyanın Lukoil, Norveçin Statoil, Türkiyənin Turk Petrolary, Səudiyyə Ərəbistanının "Delta" şirkəti və Yaponiyanın "Itochu" şirkəti imzalayıb. Onun praktiki həyata keçirilməsi üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradılmışdır.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin təntənəli imzalanması mərasimini Azərbaycan Prezidenti Heydər Əliyev açdı. O, ilk növbədə mərasimdə iştirak edən qonaqları, o cümlədən ABŞ, Rusiya Federasiyası, Böyük Britaniya, Türkiyə, Norveç nümayəndə heyətlərini səmimiyyətlə salamladı.

Dövlətimizin başçısı neft sənayesinin zəngin tarixini qeyd edərək bildirdi ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra Azərbaycanın neft sənayesində yeni mərhələ başlayır. İndi xalqımızın öz təbii sərvətlərini idarə etmək imkanı var. Azərbaycan Respublikası müstəqil dövlətdir, Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibidir. Onları öz mülahizəsinə görə sərəncam verə bilər. Heydər Əliyevin əsas arzusu xalqın arzusunun həyata keçirilməsi, respublikanın gələcəyidir. Müqavilə üzərində işin ilk günündən son iş gününə qədər bu istək müqavilənin bütün maddələrindən qırmızı sap kimi keçərək ölkə başçısının daim diqqət mərkəzində olub. Azərbaycan Prezidenti "Əsrin müqaviləsi"ni imzaladıqdan sonra böyük iftixar hissi ilə qeyd etdi: "Mən xoşbəxtəm ki, bu müqavilənin hazırlanmasında və imzalanmasında iştirak etmişəm. Üzərimə götürdüyüm məsuliyyəti dərk edərək əminəm ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni yüksək qiymətləndirəcəklər".

Ədəbiyyat

1. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı, 1998.
2. Sultanov O. 80-ci illərin sonu 90-cı illərin əvvəlində Azərbaycanda siyasi mübarizə. Bakı, 1995. 298. Sülhə aparan yollar. Azərbaycan Respublikasmın Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarma işgüzar səfəri. 1-14 aprel 2001-ci il. Bakı, 2001.
3. Sülh və təhlükəsizlik naminə. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin NATO-nım 50 illik yubileyi ilə əlaqədar Amerika Birləşmiş Ştatlarına səfəri. 22-27 aprel 1999-cu il. Bakı, 2000.
4. Şükürov S., Səfərov M. Millət atası. Bakı, 2000.
5. Tarixin memarı. Bakı, 1998.

РЕЗЮМЕ

ВЕЛИКИЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ-ОСНОВАТЕЛЬ НАЦИОНАЛЬНОЙ НЕФТЯНОЙ СТРАТЕГИИ

Сулейманлы Д.Г.

***Ключевые слова**: экономика, нефть, газ, месторождения, промышленность, ресурсы*

Нефтяная промышленность, являющаяся основной отраслью экономики Азербайджана, прошла большой путь в своем историческом развитии. Экономика республики бурно развивалась в годы нахождения у власти великого лидера Гейдара Алиева, считавшего нефть залогом будущего прогресса Азербайджана. Этот сектор экономики начал развиваться невиданными темпами с реконструкцией перерабатывающих мощностей азербайджанской промышленности и внедрением новых технологий, начавшейся в 70-х годах прошлого века. За годы независимости велись переговоры с иностранными нефтяными компаниями о совместной разработке нефтяных месторождений в азербайджанском секторе Каспийского моря. Это стало возможным в результате больших усилий Гейдара Алиева.

SUMMARY

NATIONAL LEADER HEYDAR ALIYEV IS THE FOUNDER OF THE NATIONAL OIL STRATEGY

Suleymanli D.G.

***Keywords:** economy, oil, gas, deposits, industry, resources*

The oil industry, which is the main branch of the Azerbaijani economy, has come a long way in its historical development. The economy of the republic developed rapidly during the years when the great leader Heydar Aliyev was in power, who considered oil the key to the future progress of Azerbaijan. This sector of the economy began to develop at an unprecedented pace with the reconstruction of the processing capacities of the Azerbaijani industry and the introduction of new technologies, which began in the 70s of the last century. During the years of independence, negotiations were held with foreign oil companies on the joint development of oil fields in the Azerbaijani sector of the Caspian Sea. This was the result of Heydar Aliyev's great efforts.

AZƏRBAYCAN RESPUBLİKASININ İNKİŞAF STRATEGİYASININ ƏSAS İSTİQAMƏTLƏRİ

Şamilova Aysel Məhəmməd qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

aysel.yaqubova5@mail.ru

***Açar sözlər:** Azərbaycan, Prezident, inkişaf, strategiya, dövlət proqramı*

Müstəqil dövlətimiz getdikcə daha da inkişaf edir, daha da güclənir. Ancaq onu qeyd etmək lazımdır ki, inkişafa gedən yol heç də asan olmamışdır. Müstəqilliyinin ilk illərində dövlətimiz bir sıra ağır problemlərlə üz-üzə qalmışdır. Lakin müstəqilliyimizin əvvəllərində bütün siyasi və iqtisadi çətinliklərə baxmayaraq bu günkü gündə Azərbaycan yeni bir mərhələyə - müasirləşmə mərhələsinə addım atıb. Bu modernləşmə mərhələsi alınmış bir çox mühüm qərarların, nailiyyətlərin nəticəsidir. Və bu bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasətin nəticəsində baş vermişdir. Heydər Əliyev hakimiyyətə

yenidən qayıtdıqdan sonra ölkənin inkişafında dönüş yarandı. Belə ki, Ulu Öndər Heydər Əliyevin xalqın təkidi ilə yenidən hakimiyyətə qayıtmasından sonra onun uzaqgörən siyasəti nəticəsində qısa bir zaman kəsiyində dövlətimizdə istər siyasi sahədə, istərsə də iqtisadi sahədə sabitləşmə yarandı. Hər bir dövlətin uzunmüddətli inkişafı onun güclü, dayanaqlı, güvənli təməllər üzərində qurulmasıdır. Bu təməlləri Ümummilli lider Heydər Əliyev qura bilmişdir. Onun rəhbərliyi ilə Milli Neft Strategiyası gerçəkləşməyə başladı. Məqsəd isə neft ehtiyatlarımızdan ölkəmizin daxili imkanlarının səfərbər olunması və Azərbaycan xalqının tərəqqisi üçün istifadəsi idi. Bu günkü günümüzdə məhz Ümummilli Lider Heydər Əliyevin düzgün siyasəti, keçirdiyi uzaqgörən islahatları, addığı strateji addımları sayəsində Azərbaycanımız regionun mühüm iqtisadi mərkəzinə çevrilmişdir. Bu addımları bu günkü günümüzdə Prezidentimiz İlham Əliyev uğurla davam etdirir. Təsadüfi deyil ki, Prezidentlik dövrünün hələ ilk mərhələsində 2003-cü il noyabr ayının 24-də "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman vermişdir. Bu fərmanla qəbul edilən I Dövlət Proqramı ölkəmizin müxtəlif yerlərində inkişafın yeni imkanlarını yaratdı. Bunun davamı olaraq Prezident İlham Əliyev 2009-cu ilin aprel ayının 14-də verdiyi Fərmanını yəni II Dövlət Proqramını - "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı təsdiq etdi. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqram"ı artıq üçüncü proqramın vacibliyini ortaya çıxardı. Fevral ayının 27-si 2014-cü il tarixli Fərmanla Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı təsdiqlədi[4]. Bu proqram icraat müddəti başa çatmış öncəki iki proqram daxilində bünövrəsi qoyulan fəaliyyətlərin ardının işlənməsini özündə əks etdirirdi. Qəbul edilən bu dövlət proqramlarının ən böyük əhəmiyyəti ölkəmizin bir çox bölgələrində tərəqqinin yeni bir mərhələyə yüksəlməsi, inkişafın yeni istiqamət alması, sosial-iqtisadi inkişafıdır. 2004-cü ildən regionların müxtəlifyönlü inkişafı sahəsində başlanılan məqsədli və ağıllı siyasətin davamı kimi "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" hazırlanmışdır [1]. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsinin böyük üstünlükləri vardır. Belə ki, bu proqram öncə ölkəmizin iqtisadiyyatının daha da inkişafı üçün əhəmiyyətli idi. Həmçinin bu proqram yeni iş sahələrinin yaranmasına, kommunal xidmətlərinin inkişafına, ölkəmizin müxtəlif yerlərində sahibkarlığın geniş yayılmasına gətirib çıxaracaqdır ki, nəticə olaraq da əhalinin rifahı yaxşılığa doğru dəyişilərək yoxsulluq aşağı səviyyəyə düşəcəkdir.

Dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır [2. Səh 5].

Qəbul edilmiş yeni Dövlət proqramlarında o da nəzərdə tutulurdu ki, neft sahəsindən əldə olunan maliyyənin təsərrüfatın digər sahələrinin inkişafına yönəldilməsi əsas şərt olaraq qəbul edilməlidir. Bu da neft sahəsi olmayan sektorların inkişafı və bu sahənin daha da modernləşməsi üçün atılan addımlara qoyuluşlarının təşviqi idi və Prezidentimiz bununla bağlı daha bir önəmli qərar qəbul etdi. Belə ki, bu sahədə daha müvəffəqiyyətlərə nail olmaq üçün yeni bir idarəetmə strukturuna ehtiyac var idi. Bu baxımdan 2006-cı ilin martın 30-da verilən sərəncamla yaradılmış "Azərbaycan İnvestisiya Şirkəti Açıq Səhmdar Cəmiyyəti" bu işin öhdəsindən gəlməli idi. Yaranmış bu yeni şirkətin maliyyə vəsaiti Dövlət Neft Fondunun büdcəsi hesabına formalaşdırıldı. Şirkətin fəaliyyətində öndə duran amal iqtisadiyyatımızın neft olmayan sahələrində fəaliyyətdə olan səhmdar cəmiyyətlərin və başqa maliyyə şirkətlərinin nizamnamə kapitalındakı daxili fəaliyyətini, eyni zamanda səhmlərini qazanmaqla müəyyən müddət çərçivəsində investisiya daxil edilməsinin reallaşmasına şərait yaradır.

Azərbaycan Respublikasının kənd yerlərində məqsədyönlü işləri sonrakı dövrdə də davamlı olaraq yerinə yetirilməsi, əhaliyə olan sosial xidmətlərin yüksəldilməsi məqsədi ilə yeni dövlət proqramı "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilsin[3].

Müasir dövrdə dünyada bir sıra əsas hədəflər vardır. Bunlardan biri ənənəvi enerji mənbələrindən "yaşıl enerji"yə keçiddir. Azərbaycan da bu sahəyə xüsusi önəm verir. Belə ki, ölkəmizin əsas enerji siyasətində qarşıda duran mühüm məqsədlərdən əsası işğaldan azad olunmuş ərazilərin "Yaşıl Enerji" Zonasına çevirməkdir. Ümumiyyətlə, Ölkə başçısı İlham Əliyev 44 günlük Vətən müharibəsində azad edilmiş torpaqlarımızı "yaşıl enerji" zonası elan edib. Hətta bu ərazilərdə bir sıra su-elektrik stansiyası inşa edilib və artıq fəaliyyətə də başlayıb. Ümumiyyətlə bu sahə ilə bağlı konkret olaraq planlar mövcuddur. Bu bölgələrə böyük şirkətlər olduqca böyük maraq göstərirlər. Hazırda dünyanın ən qabaqcıl enerji şirkətləri

bununla bağlı əməkdaşlıq etməyə çox maraqlıdırlar. Bunun digər əsaslı səbəbləri var. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanda yaranmış sabitlik inkişaf komunikasiyalarının bərpasına, nəqliyyat sektorunun inkişafına şərait yaratdı və bunun nəticəsi olaraq ölkə başçısı İlham Əliyevin dediyi kimi "Azərbaycan nəinki xam neft, neft məhsulları və təbii qaz, eyni zamanda, elektrik enerjisinin böyük istehsalçısı və ixracatçısı olacaqdır"[4].

Ümumiyyətlə, ölkəmizin müstəqilliyinin və inkişaf etdirilməsi Heydər Əliyev ilə başlanan bu böyük yol bu gün yeni məzmun və xüsusi əhəmiyyət kəsb etməklə ölkə başçısı tərəfindən davam etdirilir.

Ədəbiyyat

1. https://e-qanun.az/framework/27284
2. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Xalq qəzeti. 30 yanvar 2019. №23. s. 5.
3. https://azerbaijan.az/related-information/276
4. Azərbaycan qəzeti, 18 mart 2022

РЕЗЮМЕ
ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ СТРАТЕГИИ РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
Шамилова А.М.

Ключевые слова: *Азербайджан, президент, развитие, стратегия, госпрограмма*

Долгосрочное развитие любого государства – это его создание на прочных, стабильных, надежных основах и эти основы Азербайджанской Республики были заложены общенациональным лидером Гейдаром Алиевым. В статье рассматривается стратегия развития Азербайджанской Республики, заложенная великим лидером и успешно продолженная Президентом Ильхамом Алиевым, а также государственные программы утвержденные с целью непрерывного осуществления целенаправленных работ в регионах Азербайджанской Республики, улучшения предоставляемых населению социальных услуг, подчеркиваются успешные результаты этих государственных программ.

SUMMARY
MAIN DIRECTIONS OF THE DEVELOPMENT STRATEGY OF THE REPUBLIC OF AZERBAIJAN
Shamilova A.M.

Keywords: *Azerbaijan, president, development, strategy, state program*

The long-term development of any state is its establishment on strong, stable, reliable foundations and these foundations of the Republic of Azerbaijan were established by the National leader Heydar Aliyev. In the thesis, the development strategy of the Republic of Azerbaijan which was founded by the great leader and successfully continued by President Ilham Aliyev, as well as the state programs approved for the purpose of continuous implementation of purposeful works in the regions of the Republic of Azerbaijan, improvement of social services to the population and these state programs successful results are discussed.

AZƏRBAYCANDA PAMBIQÇILIĞIN İNKİŞAF PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ

Tağıyeva Leyla İntiqam qızı
Aqrar Tədqiqatlar Mərkəzi, Bakı, Azərbaycan
leyla.tagiyeva.80@mail.ru

Açar sözlər: *pambıq, pambıqçılıq, klaster, ixrac, rəqabətqabiliyyətlilik, milli iqtisadiyyat.*

Pambıqçılıq kompleksinin əhəmiyyəti müxtəlif ölkələrin iqtisadiyyatı üçün bir-birinə bağlıdır və uğurlu inkişafa təsir etməsi göstəricisinə görə üstünlük təşkil edir. Pambıqçılıq ilk növbədə istehsal və xidmət sahələrinin inkişafını şərtləndirir. Müasir iqtisadi şəraitdə ölkəmizin iqtisadiyyatında mühüm əhəmiyyətə malik pambıqçılıq kompleksinin inkişaf etdirilməsi həm xammal istehsalının inkişafına, həm də sənaye sahələrinin inkişafına güclü stimul verə bilər. Bu, inkişaf etmiş ölkələrin təcrübəsində də özünü aydın şəkildə göstərir. Məhz bu baxımdan, ölkənin milli iqtisadi maraqları üçün pambçılıq kompleksinin inkişafını stimullaşdırmaq və rəqabət qabiliyyətinin artırılması çox vacibdir. Pambıqçılıq kompleksinin inkişafını stimullaşdırmaq milli iqtisadiyyatın digər struktur komplekslərini inkişaf etdirmək üçün əsas baza ola bilər. Bir sözlə, pambıqçılığın əhəmiyyətli üstünlüyü çoxşaxəli istehsalın və əlaqədar sənaye sahələrinin inkişaf etdirilməsindədir.

Pambıqçılıq ölkədə çoxlu iş yerlərinin açılmasını da stimullaşdırır, kənd yerlərində əhalinin məşğulluq səviyyəsini yüksəldir. Ölkəmizin iqtisadiyyatında da pambıqçılıq kompleksinin və bu sahənin inkişafı əhalinin məşğulluq səviyyəsinin artırılmasında müstəsna *əhəmiyyətə malikdir*.

Eyni zamanda, pambıq məhsullarının ixracı ölkənin valyuta ehtiyatlarının möhkəmlənməsində mühüm rol oynayır. Ona görə də bəzi ölkələrdə pambıq əkini dövlətin nəzarətində və ya ən azı onun təsiri altındadır. Ölkəmizdə də dövlət pambıqçılığa dəstəyi gücləndirir və bu sahənin inkişafını stimullaşdırılır.

Ümumilikdə, 70-dən çox ölkəsində təxminən 34 milyon hektar əkin sahəsində pambıq becərilir ki, bu da dünya əkin sahələrinin təxminən 2,4 faizini təşkil edir. Son illərdə dünya xam pambıq istehsalı təxminən 20 milyon ton/il olmuşdur. İstehsal 1970-ci ildən indiyədək ildə orta hesabla 2,2 faiz artmışdır ki, bu da gübrələrdən istifadə və zərərvericilərə qarşı mübarizə hesabına əldə edilmişdir. Yeddi ölkə dünya pambıq tədarükünün 3/4-dən çoxunu istehsal edir. Bəzi ölkələrdə (məsələn, Hindistan, Braziliya, Şərqi Afrika ölkələri) hələ də xeyli torpaq ehtiyatları mövcuddur [3, 4].

Bu məhsulun yüksək iqtisadi imkanlarına baxmayaraq, onun inkişafı əsasən iki amillə məhdudlaşır: suvarma suyu üçün su ehtiyatlarının olmaması və məhsuldarlığın aşağı olması. Bu iki amil pambıqçılığın inkişafını riskli edir.

Pambıqçılığın üzləşdiyi birinci problem su ehtiyatlarının tükənməsidir. Pambıq quraqlığa davamlı məhsul olsa da, susuz halda tam inkişaf edə bilməz. Fermerlər tez-tez susuzluqdan əziyyət çəkdiklərini, sahələrinin məhv olduğunu deyirlər. Su ehtiyatlarının pambığın suvarılması üçün səfərbər olunması isə tez-tez ağır nəticələrə gətirib çıxara bilər. Təbii yağıntılar kifayət etmədikdə, su çaylardan götürülür və ya dərin quyulardan yerdən çıxarılır. Nəticədə dünyanın bir çox regionlarında qrunt suları və çaylar həddindən artıq istifadə olunur. Qiymətli şirin su ekosistemləri getdikcə daha çox təhlükə altına düşür. Təkcə ötən əsrdə bataqlıqların yarısı yoxa çıxmışdır. Müntəzəm və bol-bol suvarma sayəsində torpağın üst qatında duzların tədricən yığılması müşahidə olunur. MDB-də, həm də üçüncü dünya ölkələrində pambıq əkinlərinin suvarılması nəticəsində yaranan duzluluq geniş əraziləri hər hansı kənd təsərrüfatında istifadə üçün yararsız hala salmışdır.

Bundan başqa, artıq qeyd etdiyimiz kimi, strateji əhəmiyyətli olmasına baxmayaraq, pambıqçılıq çox əziyyətlə başa gələn və ilkin hasilatında o qədərdə gəlir gətirməyən bir sahədir. Statistik məlumatların təhlili göstərir ki, ölkəmizdə pambıq əkin sahələri 2010-cu ilə nisbətən 2017 – ci ildə 4,5 dəfə artaraq 136,4 min hektar, məhsul istehsalı 207,5 min ton, məhsuldarlıq isə 15,3 sentner olmuşdur. İstehsal olunan məhsulun 94 % -i şəxsi təsərrüfatlarda istehsal olunmuşdur. Bir hektara çəkilən xərcin 650 – 800 manat həcmində olduğunu nəzərə aldıqda, təsərrüfatların çox aşağı gəlir əldə etmələri müəyyən edilir.

Ümumilikdə isə pambıq əkini ekoloji mühitə təsir baxımından zərərli sahə kimi qiymətləndirilir. Pambıq ətraf mühitə təsir baxımından ən əlverişsiz bitkilərdən biri hesab olunur. Pambıq bitkisini zərərvericilərdən qorumaq üçün pambıq sahələri mütəmadi olaraq pestisidlərlə dərmanlanır. Pambıq becərilməsi dünya üzrə pestisidlərdən istifadənin əhəmiyyətli hissəsini təşkil edir. Böyük miqdarda pestisidlərin müntəzəm, bəzən də profilaktik tətbiqi çox vaxt faydalı həşəratları məhv edir və ya qovur, zərərli həşəratlarda isə rezissentliyi inkişaf etdirir. 500-ə yaxın həşərat və gənə növü artıq bir çox kimyəvi maddələrə davamlıdır. Herbisidlər artıq 50-yə yaxın alaq otuna təsir göstərmir [2]. Eyni zamanda torpağa tonlarla herbisid və funqisid daxil olur, ki, bu da təbii ekosistemlərin evtrofikasiyasına səbəb olur. Torpağın deqradasiyası və eroziyası genişlənir, suvarılan əkinçilikdə torpaqlar şoranlaşır, növbəti illərdə yararsız hala düşür, qrunt sularının səviyyəsi aşağı düşür. Bəzi ölkələrdə su və torpaq ehtiyatları kəskin təhlükə altındadır. Pambığın əllə yığıldığı kasıb ölkələrdə kimyəvi zəhərlənmə hər il minlərlə insana təsir edir. Azərbaycanda da 2018-ci ildə pambıq becərilməsində ciddi zəhərlənmələr qeydə alınmışdır.

Üstəlik, fermerlər kimyəvi maddələr alaraq borca düşürlər. Pambıq fermerlərinin gübrə və pestisid sənayesindən artan asılılığı uzunmüddətli perspektivdə ciddi iqtisadi nəticələrə səbəb olur.

Son bir neçə ildə baş verən iqlim dəyişikliyi də pambıqçılıq qarşısında yeni vəzifələr qoyur. Bu, pambıqçılıq sənayesi üçün fövqəladə haldır. İqlim dəyişilikliyinin baş verməsi və ekoloji tarazlığın pozulması pambığın məhsuldarlığına və lifin keyfiyyətinə mənfi təsir etməklə digər sərt növlərin meydana gəlməsinə səbəb olur. Hər il dünyada vilt xəstəliyinə tutulmadan məhsulun böyük bir hissəsi itkiyə məruz qalır və eləcədə suvarma suyunun çatışmamazlığı və torpaqların şoranlaşması nəticəsində məhsuldarlıq əhəmiyyətli dərəcədə aşağı düşür.

Pambıqçılığın inkişafına mane olan bu və bir sıra digər problemləri dövlətin birbaşa iştirakı olmadan həll etmək çətindir. Araşdırmalarımız göstərir ki, pambıq istehsalında ekoloji mühitə mənfi təsiri azaltmaq və məhsuldarlığı artırmaq üçün dünyanın bir çox ölkəsi öz genomik mərkəzlərini formalaşdırmağı hədəf götürmüşdür. Demək olar ki, bu gün dünya genomika, proteomika, bioinformatika və pambıq biotexnologiyası sahəsində bir bilik kompleksi formalaşdırmışdır. Hesab edirik ki, dünya məlumatlarına

əsaslanaraq, yerli pambıq sortları və hibridlərinin yaradılması ölkəmizdə pambıqçılığın inkişafına təkan vermis olar.

Hazırda ölkəmizdə pambıqçılığın inkişafı üçün ən perspektivli istiqamətlərdən biri respublikada pambıq-tekstil klasterinin yaradılmasıdır. Dünya təcrübəsi göstərir ki, klaster siyasətinin həyata keçirilməsi ölkənin ərazilərinin və sənaye komplekslərinin rəqabət qabiliyyətinin artmasına gətirib çıxarır. Müasir sənaye kompleksinə daxil olan kiçik sənaye özünün modernləşdirilməsində, eləcə də rəqabətqabiliyyətli məhsulların istehsalına yönəldilmiş istehsal qruplarının formalaşmasında əsas amil olmuşdur. Bu, təkcə ixracın inkişafını deyil, həm də idxal əvəzləyici məhsul istehsalının artmasını təmin edir. Bu, kiçik biznesin cəmiyyətin iqtisadi sistemində rolunu əhəmiyyətli dərəcədə dəyişir. Kiçik biznes yalnız əhalinin məşğulluğunun təmin edilməsi vasitəsi deyil, həm də istehsalın yenidən qurulmasında, rəqabət qabiliyyətini və fəaliyyətin səmərəliliyinin artmasına səbəb olur.

Azərbaycanın milli iqtisadiyyatının təşkilində klaster forması tamamilə yeni bir yanaşmadır və bu yeni bir ideya verə bilən, yüksək keyfiyyətli komponent və xammalın istehsalını və son məhsulun satın alınmasını təşkil edən kadr hazırlığından başlayaraq rəqabətli məhsul istehsalının sistemli idarə edilməsinə qədər imkan verəcək.

Pambıqçılıq komplesi klaster formalaşması üçün əsas ola bilər, lakin, bunun üçün bu kompleksin sənaye sahələrinin modernləşdirilməsində və genişlənməsində sıçrayış etmək lazımdır. Digər tərəfdən daha səmərəli ixrac etmək üçün pambıq lifinin istehsalının səmərəliliyini artırmaq və hazır pambıq məhsullarının rəqabər qabiliyyətini artırmaq lazımdır. Hökümətin pambıq sənayesinin rəqabətqabiliyyətini yaxşılaşdırmaq üçün hədəflənmiş proqram hazırlanması və həyata keçirilməsi məqsədəuyğundur.

Pambıq istehsalına klaster yanaşması, bütün iqtisadi amilləri müəyyən bir istiqamətə səfərbər etməyə imkan verir. Bu gün klaster inkişafı iqtisadi inkişafı və rəqabət qabiliyyətini müşayiət edən tanınmış bir vasitəyə çevrilmişdir. Hazırda respublikamızda kənd təsərrüfatının mövcud inkişaf səviyyəsi aqrar sahədə qarşılıqlı əlaqələrin inkişafının faktiki problemi klasterlərin formalaşmasıdır. Pambıq istehsalında bu problem, sektorlararası qarşılıqlı əlaqələrin azaldılması və elm, istehsal və marketinq arasında səmərəli əlaqələrin olmaması səbəbindən xüsusilə vacibdir.

Təhlil göstərir ki, Azərbaycanda müxtəlif tipli çoxlu sayda klasterlər yaratmaq mümkündür. Məhz bu baxımdan klasterlərin yerli şəraitdə təşəkkülü, fəaliyyəti və idarə edilməsinin inkisafı problemlərinin araşdırılması böyük elmi-təcrübəvi əhəmiyyət kəsb edir və bu səbəbdən aktual xarakter daşıyır.

Aqrar sahənin mövcud durumu və inkişaf istiqamətlərinə klasterial yanaşma meylləri göstərir ki, bu prosesdə kənd təsərrüfatında hər bir bölmə və ərazinin mövcud durumu, həmçinin gələcək inkişaf perspektivləri düzgün təhlil edilməli, rəqabət baxımından daha geniş imkanlara malik olan istiqamətlərə üstünlük verilməli, müxtəlif ərazilər üzrə modern klasterlər yaradılmalıdır. Eyni zamanda, klasterial inkişafa uyğun səmərəli informasiya-texnologiya sistemlərinin işlənib hazırlanması, digər adekvat tədbirlərin görülməsi də zəruridir. Böyük idxaləvəzləmə və ixrac potensialına malik olan aqro-sənaye kompleksinin sahələrindən biri də pambıqçılıq olduğundan iqtisadiyyatı güclü inkişaf edən ABŞ və Çin bu sahədə aktivliyini qoruyub saxlayırlar. Qeyd edildiyi kimi, dünyanın 70-dən çox ölkəsi pambıq istehsalı ilə məşğuldur, bunların əsas hissəsinin Çin, ABŞ, Hindistan və Pakistanda cəmlənməsinə baxmayaraq, klasterial təsərrüftçılıq əsasən ABŞ-da inkişaf etmişdir ki, bu da yüksək nəticələr əldə olunmasına imkan veirir və rəqabətqabiliyyətini artırır.

Kiçik biznes təkcə əhalinin məşğulluğunun təmin edilməsi vasitəsi deyil, həm də istehsalın yenidən qurulmasında, rəqabət qabiliyyətini və səmərəliliyinin artmasına səbəb olur [1].

Pambıqçılıq kompleksində klasterial inkişaf, pambıq tekstil qrupunun yaranmasını şərtləndirməklə, pambıq bazarında iştirakçılar üçün iqtisadi cəhətdən faydalı olacaq məhsuldar qüvvələrin böyüməsinə, istehsal həcminin artmasına, istehsal münasibətlərinin yaxşılaşmasına və istehsalın səmərəliliyinin artmasına kömək edən, son istehlakçıya çatana qədər məhsulun yaradılmasını sürətləndirir.

Klasterlər iqtisadi termin kimi müəyyən bir məhsul növünün istehsalı, emalı, saxlanması, daşınması və istehlakçıya çatdırılması proseslərini əhatə edir. Bu proses aqrar sahədə müxtəlif növ məhsul növləri, o cümlədən pambıqçılıq üzrə fəaliyyət istiqamətlərini kompleks şəkildə birləşdirir. Elə isə göstərilən amilləri cəmləşdirərək, bu sahədə böyük təcrübəsi olan regionda, məsələn, Aran iqtisadi rayonunda nümunəvi pambıqçılıq klasterinin yaradılması pambıq istehsal sahələrinin gönüllü genişlənməsinə və istehsala marağı artıra bilər. Düzdür, kiçik bir regionda klasterlər yaradılmaya da bilər. Lakin əsas odur ki, bu sahədə regionlar qarşılıqlı əməkdaşlıq etsinlər. Kompleks şəkildə və modern, innovativ ideyaların tətbiqinə uyğun işlər görülməlidir ki, müsbət nəticə və səmərə əldə edilsin. Yaxın gələcəkdə pambıq istehsalçılarının kooperasiyasının inkişafı, həmçinin pambıq emalı zavodları və pilot pambıqçılıq təsərrüfatlarının bir klasterial fəaliyyəti hazırda mövcud olan problemlərin aradan qaldırılmasına imkan verəcək. Eyni zamanda, irriqasiya sistemləri yenidən qurulmalı, torpaqların münbitliyini və məhsuldarlığını artırmaq üçün pambıq-

yonca-taxıl növbəli əkin sisteminə keçilməli, aqrokimyəvi xidmətlərdən geniş istifadə edilməlidir. Aqrolizinq yolu ilə pambıqçılığa dair müasir texnikalar gətirilməli, pambıq son məhsula məhz ölkə ərazisində keçməli və emal sənayesi (toxuculuq-trikotaj, yem, yağ və s.) yaradılmalıdır. Xaricə əsasən hazır məhsul çıxarılması iqtisadi səhətdən daha səmərəlidir. Buna ölkəmizdə mövcud olan əmək və istehsal resursları tam imkan verir. Pambıqçılıq kompleksinin klasterial inkişafı məhz bu baxımdan çox əhəmiyyətlidir və bu sosial – iqtisadi problemlərin azaldılmasında və məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.

Ədəbiyyat

1. Пятинкин С.Ф., Быкова Т.П. Развитие кластеров: сущность, актуальные подходы и зарубежный опыт. – Минск: Тесей, -2008. - 72 с.
2. Allen, W. (California Institute For Rural Studies, Farmer) (1994): Sustainable Cotton Production: a niche market or a must market? Konferenzbesuch: „Cotton Connection – ökologisch & sozioökonomisch langfristig tragfähige Baumwollproduktion“, 25.–26. November 1994, Hamburg
3. Otzen, Uwe (E+Z - Entwicklung und Zusammenarbeit) (2000): Deutsche Stiftung für internationale Entwicklung (DSE), Nr. 9, September 2001, S. 257–260
4. Sonn, L. (2003): Weltlandwirtschaft 2015/2030. In: Blickpunkt Welternährung, FAO-Akutell .Nr. 1/2003 vom 17. Januar 2003.

РЕЗЮМЕ

ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ХЛОПКОВОДСТВА В АЗЕРБАЙДЖАНЕ

Тагиева Л.И.

Ключевые слова: *хлопок, хлопководство, кластер, экспорт, конкурентоспособность, национальная экономика.*

В статье подчеркивается широкое социально-экономическое значение хлопководства, исследуются факторы, ограничивающие его развитие, и перспективы развития хлопководства в Азербайджане. Отмечается, что нехватка водных ресурсов, низкая продуктивность, воздействие на экологическую среду ограничивают развитие хлопководства. Автор приходит к выводу, что одним из наиболее перспективных направлений развития хлопководства в Азербайджане является создание хлопково-текстильного кластера. Кластерная форма в организации экономики Азербайджана позволит системно управлять производством конкурентоспособной продукции, начиная с производства высококачественных компонентов и кончая подготовкой кадров, организующих закупки конечного продукта.

SUMMARУ

DEVELOPMENT PROBLEMS AND PROSPECTS OF COTTON FARMING IN AZERBAIJAN

Taghiyeva L.I.

Key words: *cotton, cotton farming, cluster, export, competitiveness, national economy.*

The essay highlights the broad socioeconomic significance of cotton farming, studies the factors limiting its development, and discusses the prospects for cotton farming in Azerbaijan. It is noted that the lack of water resources, low productivity, impact on the environment limit the development of cotton farming. The author concludes that the establishment of a cotton-textile cluster is one of the most potential areas for the growth of cotton farming in Azerbaijan. The cluster structure in the organization of the Azerbaijani economy will allow to systematically manage the production of competitive products, beginning with the production of high-quality components and ending with the training of workers who organize the purchase of the final product.

MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ SİYASƏTİNDƏ GƏNCLİK VƏ GƏNCLƏRLƏ İŞİN BAŞLICA MEXANİZMLƏRİ

Talıblı Rəhimə Əlövsət qızı

Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan

trehime@mail.ru

Açar sözlər*: Azərbaycan Respublikası, gənclik, siyasət, mexanizm, təşkilat*

Hər bir ölkənin əhalisinin tərkibində xüsusi unikal qüvvə hesab edilən gənclik cəmiyyətdə mövcud olan sosial enerjinin başlıca mənbəyidir. Bu baxımdan dövlət siyasətinin ayrıca bir vektorunun gənclərlə bağlı olmasını təsadüf hesab etmək olmaz. Dövlətlərin gənclər siyasətinin tənzimlənməsi, bu siyasətin reallaşdırılması ilə bağlı mexanizmlərlə bağlı məsələlər dünyanın bir çox ölkələrində tədqiqatçıların diqqətini cəlb edir. Azərbaycan Respublikasında dövlət gənclər siyasəti müxtəlif istiqamətlərdə reallaşdırılır. Aparılan təhlillər göstərir ki, müstəqilliyin qazanılmasından sonra gənclər siyasəti çərçivəsində uzun illər başlıca

diqqət idmana yönəldilmişdir. Gənclər siyasətinin prioritet istiqaməti idman məsələləri olmuşdur. Doğrudur, gənclərin təhsil məsələləri ilə addımlar atılmışdır. Lakin bu idmanla müqayisədə nisbətən zəif olmuşdur. Hazırki mərhələdə isə tədricən dövlət gənclər siyasətində təhsil məsələlərinin prioritetlik dərəcəsinin idmanın prioritetlilik dərəcəsi ilə bərabərləşdiyini müşahidə etmək mümkündür.

Hazırda dövlət gənclər siyasətinin reallaşdırılmasının başlıca mexanizmləri olaraq isə aşağıdakıları müəyyənləşdirmək olar:

- Gənclərə dair dövlət proqramlarının qəbul edilməsi;
- Müxtəlif təşkilatlar tərəfindən irəli sürülən gəncliyə dair layihələrin dəstəklənməsi və maliyyələşdirilməsi;
- Xüsusi istedada malik gənclərin dəstəklənməsi;
- Gənclərin ənənəvi və xüsusi toplantılarının keçirilməsi;
- Könüllülük institutunun inkişafı;
- Gənclərin dövlət idarəçiliyinə cəlbi.

Gənclər siyasətinin əsas məqsədi gənclərin inkişafı üçün müvafiq mühitin yaradılması və onlara dəstək verilməsidir. Gənclərin öz potensiallarını reallaşdırmaq və ictimai həyatın bütün sahələrində fəal iştirak etməsi, müxtəlif sərişt ələrini inkişaf etdirmələri üçün imkanların yaradılması çox vacibdir. Bu baxımdan gənclərin cəmiyyətdə fəallığını təmin etmək üçün ilk növbədə müvafiq tədbirlərin planlaşdırılması ən vacib məqamlardan biri olaraq qiymətləndirilir. Bu sahədə dünyada yayılmış başlıca mexanizmlərdən biri dövlət proqramlarının qəbul edilməsidir. Məsələn, Avropa Birliyi çərçivəsində bu cür proqramlarının qəbulu tarixi XX əsrin 80-ci illərinin sonlarına təsadüf edir. Birlik tərəfindən 1987-ci ildə gənclər üçün xüsusi proqram – Erasmus Proqramı qəbul edilmişdir. 1989-cu ildə "Gənclər Avropa üçün", 1995-ci ildə "Avropa üçün Gənclər" proqramları qəbul edilmiş, 1998-ci ildə Avropa Könüllülük Xidməti Proqramının icrasına başlanılmış, 2007-ci ildə "Gənclər" proqramına start verilmişdir [5, s. 146]. 2000-2001-ci illərdə Avropa İttifaqının gənclər siyasətini istiqamətləndirən və üzv ölkələrin milli gənclər siyasətinin hazırlanmasında hüquqi əsas kimi qəbul edilənAvropa İttifaqının "Bəyaz Kitab"ı qəbul edilmişdir [5, s. 147].

Azərbaycan Respublikasında gənclər siyasəti ilə bağlı tədbirlərin planlaşdırılmasında da gəncliyin inkişafına dair dövlət proqramları əhəmiyyətli mexanizmlərdən biridir. 2005-ci ilin avqustunda Azərbaycan Respublikasında ilk belə sənəd - "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)" qəbul edilmişdir [1]. 2011-ci ilin iyulundan etibarən "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının, 2017-ci il sentyabrın 15-dən etibarən isə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrasına başlanılmışdır. 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" adlı sənəd qəbul edilmişdir [3].

Gənclər siyasətinin başlıca reallaşdırılması mexanizmlərindən biri gənclər arasında ictimai fəallığı təbliğ edən tədbirlərin həyata keçirilməsi, layihələrin reallaşdırılmasıdır. Aparılan təhlillər göstərir ki, müstəqilliyin ilk 10 ili ərzində Azərbaycanda bu cür layihələrin reallaşdırılmasına ölkənin paytaxtı Bakı şəhərində daha çox rast gəlinmiş, gənclər təşkilatlarının fəaliyyəti əsasən ölkə paytaxtında təmərküzləşmişdir. Burada reallaşdırılan layihələr həm sayı, həm də istiqamət müxtəlifliyi baxımından regionları üstələmişdir. Həmin dövrdə regionlarda gənclərin ictimai fəallığı təmin edən müxtəlif layihələrə cəlb edilməsində əsasən xarici donor təşkilatları müəyyən rol oyanmışlar. 2000-ci illərin ortalarından etibarən isə bu məsələyə yanaşma dəyişmişdir. İlk növbədə regionlarda gənclər aktivləşdirilməsi ilə bağlı layihələrin reallaşdırılmasında əsas təşəbbüslər dövlətin dəstəklədiyi milli gənclər təşkilatlarından gəlməyə başlamışdır. Ölkə paytaxtında fəaliyyət göstərən gənclər təşkilatları bir çox layihələrin məhz regionlarda həyata keçirilməsinə üstünlük verməyə başlamışlar. Bu baxımdan sonrakı illərdə yaradılmış Gənclər Fondları da layihələrin reallaşması üçün maliyyələşdirmə tədbirlərinin həyata keçirilməsində vacib rol oyanmışlar. Fəaliyyət göstərdiyi 10 il ərzində Azərbaycan Respublikası Gənclər Fondu gənclər və gənclər təşkilatları üçün qrant müsabiqələri, beynəlxalq tədbirlərdə və beynəlxalq təşkilatların təcrübə proqramlarında onların iştirakının maliyyələşdirilməsi, ölkədaxilində sosial müdafiəyə xüsusi ehtiyacı olan istedadlı gənclərin təhsil haqlarının qarşılanması, xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində magistratura təhsilinin maliyyələşdirilməsi, gənclərin məşğulluğunun təmini və gənclərin inkişafı ilə bağlı minlərlə fəaliyyətlər həyata keçirilmişdir. 10 il ərzində Azərbaycan Respublikası Gənclər Fondu gənclər və gənclər təşkilatları tərəfindən daxil olmuş 11 mindən artıq qrant müraciətinin 4550-sini dəstəkləmiş, 650-dən artıq gəncin təhsil xərclərini qarşılamış, gənclərin və gənclər təşkilatlarının 330-dan artıq beynəlxalq tədbirdə iştirakına şərait yaratmışdır.

Xüsusi istedada malik olan gənclərin dövlət tərəfindən həm maddi, həm də mənəvi əhəmiyyətli tədbirlər vasitəsilə dəstəklənməsi bu siyasətinin reallaşdırılmasının başlıca mexanizmlərindən biridir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il aprelin 17-də imzaladığı sərəncamla

“Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006- 2010-cu illər)” qəbul edilmişdir [4, s. 9].

Xüsusi istedada malik olan gənclərin dövlət tərəfindən dəstəklənməsi üçün atılan ən mühüm addımlardan biri Azərbaycan Respublikasının Prezidenti tərəfindən hər il ən müxtəlif kateqoriyalardan olan gənclər üçün Prezident mükafatlarının təqdim edilməsidir.

Gənclər siyasətinin reallaşdırılmasının digər mexanizmləri ilə müqayisədə gənclərin ənənəvi və xüsusi toplantılarının keçirilməsi ikili xüsusiyyətə malikdir. Bu təkcə gənclər siyasətinin həyata keçirilməsi üçün deyil, həm də bu siyasətin formalaşdırılması və təkmilləşdirilməsi üçün bir mexanizmdir. Burada gənclərin ənənəvi toplantıları dedikdə 1996-cı ildən etibarən keçirilməyə başlanmış Gənclər forumları nəzərdə tutulur. Məlum olduğu kimi, ilk gənclər forumun ideya müəllifi və təşəbbüskarı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev olmuşdur. Müqayisə üçün qeyd etmək lazımdır ki, dünyada ən universal beynəlxalq təşkilat sayılan BMT-nin gənclər siyasətinin həyata keçirilməsinə cavabdeh olan əsas qurumlarından biri kimi YUNESKO-nun özü gənclər forumlarının keçirilməsinə 1999-cu ildən başlamışdır [6].

Dövlət gənclər siyasətinin reallaşdırılmasının mühüm mexanizmlərindən biri kimi gənclərin könüllülük fəaliyyətlərinə cəlbi xüsusilə diqqəti cəlb edir. Könüllülük həm bir çox ideyaların reallaşdırılmasına çəkilən xərclərin azaldıllması, həm də təcrübələrin qazanılması üçün mühüm alətlərdən biridir

Təhlillər göstərir ki, xüsusən 2012-ci ildən etibarən Azərbaycan Respublikasında könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş və gənclərin həyat tərzinin bir hissəsi olmuşdur. Gənc könüllülər Azərbaycanda keçirilən bir çox mötəbər tədbirlərdə (“Eurovision-2012”, 2015-ci il Avropa Oyunları, IV İslam Həmrəliyi Oyunları (2017) “Formula-1” yarışları və s.) fəal iştirak etmişlər.

2020-ci il ölkədə “Könüllülər ili” elan edilmişdir. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan müvafiq sərəncamda gənclərlə bağlı məsələlərə xüsusi diqqət yetirilmişdir [2].

Dövlət gənclər siyasətinin mühüm elementlərindən biri isə gənclərin dövlət idarəçiliyinə cəlbinin genişləndirilməsidir. Gənc nəsil hər bir cəmiyyətdə innovativ potensialın daşıyıcısı və dəyişikliklərin mühərriki olduğu üçün onların siyasi proseslərdə iştirakı, eləcə də dövlət idarəçiliyinə cəlb edilməsi siyasi sistemin fəaliyyətinin mühüm xüsusiyyəti hesab edilir [7, s. 3]. Bu proses uzun illər ərzində tədrici şəkildə aparılmışdır. 2018-ci ildən sonrakı dövrdə isə daha geniş vüsət almışdır. Gənclərin dövlət idarəçiliyinə cəlbi ilə bağlı mühüm mexanizmlərdən biri daha innovativ xarakterli müsabiqələrin keçirilməsidir. Bu baxımdan “Yüksəliş” müsabiqəsi təkcə ölkədə deyil, ölkə sərhədlərindən kənarda da maraq doğurur. Bu müsabiqə Azərbaycan Respublikası Prezidentinin 27 iyul 2019-cu il tarixli Sərəncamı ilə intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, onların dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunmuşdur.

Ümumilikdə, ölkədə gənclər siyasəti ilə bağlı görülən işlərin, qəbul və icra edilən sənədlərin təhlili bu istiqamətdə müstəqil Azərbaycan Respublikasının çox böyük addımlar atdığını sübut edir. Aydın olur ki, Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin reallaşdırılması mexanizmlərinin formalaşması üçün ilk addımlar XX əsrin 90-cı illərinin ortalarından etibarən atılmışdır. Gənclər siyasətinin reallaşdırılması prosesində Azərbaycan Respublikası həm dövlət institularların, həm də qeyri-hökumət institutlarının gücündən aktiv şəkildə istifadə etməkdədir. Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin reallaşdırılmasının başlıca mexanizmləri sırasında bu sahədə dövlət proqramlarının və milli strategiyaların hazırlanması, qəbulu və icrası əsas yeri tutur. Dövlət müxtəlif təşkilatlar tərəfindən gəncliklə bağlı irəli sürülən layihələri və təşəbbüsləri dəstəkləyir, bir çox hallarda hətta onların maliyyələşdirilməsini təmin edir. Xüsusən Prezident İlham Əliyevin hakimiyyəti illərində bununla bağlı həm hüquqi baza, həm də dövlət infrastrukturu formalaşdırılmışdır. Dünyanın bir çox ölkələrində istifadə olunan gənclərin ənənəvi və xüsusi toplantılarının keçirilməsi mexanizmi də Azərbaycan dövləti tərəfindən aktiv istifadə olunur. Bu cür toplantılar həm dövlətin gənclər siyasətinin müəyyənləşdirməyə, həm təkmilləşdirməyə, həm də icrasını uğurla təmin etməyə imkan verir. Dövlət gənclər siyasətinin mühüm mexanizmlərindən biri kimi könüllülük institutunun gücündən istifadə edilir və sosial bir institut kimi könüllülüyün inkişafı təşviq edilməkdədir. Azərbaycan dövləti gənclərin dövlət idarəçiliyinə cəlbi vasitəsi ilə həm də müasir çağırışlara uyğunlaşmağa, idarəçilikdə mobilliyi və çevikliyi artırmağa çalışır.

Ədəbiyyat

1. Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009- cu illər): [Elektron resurs] / Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi aktların vahid elektron bazası – 30 avqust, 2005. URL: https://e-qanun.az/framework/10692

2. Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs] / Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet saytı, -2019, 30 dekabr. URL: https://president.az/az/articles/view/35533
3. Dövlət Proqramları: [Elektron resurs] / Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin saytı, -2022. URL: www.mys.gov.az/qanunvericilik/dovlt-proqramlari
4. Gənclər gələcəyimizin qurucularıdır / tərt.ed. R. Məmmədliş - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, -2018.- 40 s.
5. Tosun, S.B. Avrupa Birliği gençik politikaları //Gençlik ve gönüllülük bağlamında / Ed. Z.Gök Demir, M.Bayırlı –Ankara: Nobel, -2020. -ss. 141-158.
6. UNESCO Youth Forum: https://www.unesco.org/en/youth#:~:text=According%20to%20the%20World%20Youth,a%20priority%20group%20for%20UNESCO.
7. Зиненко, В. Е. Политическое участие как условие проявления политической субъектности Российской молодежи / Автореферат диссертации на соискание ученой степени кандидата политических наук. – М., -2020. 30 с.

РЕЗЮМЕ
ОСНОВНЫЕ МЕХАНИЗМЫ УЧАСТИЯ МОЛОДЕЖИ И РАБОТЫ С МОЛОДЕЖЬЮ ВО ВНУТРЕННЕЙ ПОЛИТИКЕ НЕЗАВИСИМОЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
Талыблы Р.А.

***Ключевые слова**: Азербайджанская Республика, молодежь, политика, механизм, организация*

В статье исследовано и проанализировано место молодежи во внутренней политике в независимой Азербайджанской Республике в современных условиях, основные механизмы реализации молодежной политики. Основной целью является изучение основных механизмов, используемых при реализации молодежной политики, и оценка степени их эффективности. В связи с этим особое внимание было уделено таким вопросам, как принятие государственных молодежных программ в стране, государственная поддержка и финансирование молодежных проектов, продвигаемых различными организациями, поддержка особо талантливой молодежи, проведение традиционных и специальных молодежных собраний, развитие института волонтерства, вовлечение молодежи в государственное управление.

SUMMARY
THE MAIN MECHANISMS OF YOUTH PARTICIPATION AND WORK WITH YOUTH IN THE INTERNAL POLICY OF THE INDEPENDENT AZERBAIJAN REPUBLIC
Talibli R.A.

***Keywords:** Republic of Azerbaijan, youth, politics, mechanism, organization*

The article investigated and analyzed the place of youth in the domestic policy in the Independent Republic of Azerbaijan, the main mechanisms for the implementation of youth policy. The main goal is to study the main mechanisms used in the implementation of Youth Policy and to assess the degree of their effectiveness. In this regard, special attention was paid to issues such as adoption of state programs on youth in the country, state support and financing of youth projects put forward by various organizations, support of young people with special talents, holding traditional and special meetings of young people, development of the Institute of volunteerism, involvement of young people in public administration.

SSRİ-NİN SÜQUTU VƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI

[1]Ubuşaev Yevqeniy Nikolayeviç, [2]Namiq Muradov Vaqif oğlu
B.B Qorodikov adına Kalmık Dövlət Universiteti, Elista, Kalmıkiya Respublikası, Rusiya
1-Humanitar fakültənin dekanı, t.f.d., 2 - V kurs tələbəsi
dipl1978@yandex.ru ; namiqmuradov999@gmail.com

***Açar sözlər:** dövlətçilik, milli dirçəliş, məhdudiyyət, vətəndaş, repressiya, hərbi-siyasi, ərazi bütövlüyü*

XX yüzilliyin sonunda yenidən müstəqilliyə qovuşmuş Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir.

Tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim mədəniyyət mərkəzlərindən biridir. Azərbaycan xalqı öz torpaqlarında zəngin və çoxşaxəli mədəniyyətlə yanaşı dövlətçilik ənənələri də yaratmışdır [1, səh.3].

Azərbaycanlılar həmçinin dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlarındandır. Azərbaycan xalqı təqribən 5 min illik dövlətçilik tarixinə sahibdir. Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq yaranmışdı. Burada meydana gəlmiş ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynayırdılar [1, səh.3].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət"ində XX əsr Azərbaycan dövlətçiliyi tarixini 4 mərhələyə bölmüşdür.

Birinci mərhələ, XIX əsrin sonundan başlayıb 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinə qədər davam etmiş dövrdür. Bu mərhələ ölkədə baş verən mürəkkəb ictimai-siyasi proseslərin Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə, ilk növbədə isə milli dirçəlişin, milli oyanışın, milli ruhun yüksəlməsinə səbəb olması və müstəqil dövlət qurmaq üçün münbit zəmin yaradılması ilə səciyyələnir.

İkinci mərhələ, çar Rusiyası dağıldıqdan sonra ölkəmizin ilk dəfə dövlət müstəqilliyi əldə etdiyi, yəni Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı və fəaliyyət göstərdiyi dövrdür (28 may 1918-28 aprel 1920).

Üçüncü mərhələ, 1920-1991-ci illəri əhatə edən sovet hakimiyyəti illəri dövrüdür.

Dördüncü mərhələ, SSRİ-nin süqutu ərəfəsində 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə başlanmışdır və bu gün də uğurla davam etməkdədir [1, səh.20].

XX əsr tariximizin düzgün olaraq dövrləşdirilməsindən də göründüyü kimi, haqqında danışacağımız üçüncü mərhələ keçən əsrin çox hissəsini - 71 illik bir dövrünü əhatə edir.

Dövlət başçımız həmin dövrü haqlı olaraq belə səciyyələndirir: "...bu dövr çox mürəkkəb, ziddiyyətli dövr – bir tərəfdən hakim rejimin repressiyaları, xalqımızın ənənələrinə, mənəviyyatına göstərilən təzyiqlər, məhrumiyyətlər və məhdudiyyətlər, ikinci tərəfdən isə eyni zamanda xalqımızın böyük inkişaf yolu olmuşdur".

Ölkəmizin çoxəsrlik dövlətçilik tarixində, siyasi taleyində ümummilli liderimiz Heydər Əliyevin danılmaz xidmətləri, zəhməti var. Məhz bu səbəblərdən, dahi şəxsiyyətin, Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul tarixini qüdrətli və müstəqil Azərbaycanın təməli sayıldığı gün adlandırmaq olar. Həmin gündən sonra ölkəmizin taleyində müsbət yönümlü dəyişikliklər müşahidə edildi. Hansı ki, Ulu Öndər rəhbər olduğu vaxtda, Azərbaycan həm iqtisadi, siyasi, elmi, mədəni cəhətdən rifaha qovuşdu. Müstəqilliyə qovuşmaq məqsədilə reallaşdırılan həmin tədbirlər nəticəsində 1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilib, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunub. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artıb. Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına 10 mindən çox azərbaycanlı oğlan və qız təhsil almağa göndərilib. Bu, Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin göstəricisi idi [2].

Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul edildi. Həmin ilin 18 oktyabr tarixli sessiyasında isə "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı yekdilliklə qəbul edildi. Konstitusiya Aktında göstərilir ki, müstəqil Azərbaycan dövləti 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin hüquqi varisidir. Konstitusiya Aktı 6 fəsil, 32 maddədən ibarətdir. Beləliklə, 1991-ci il 18 oktyabr tarixi Azərbaycanın dövlət müstqilliyi haqqında konstitusiya aktının qəbul olunduğu gündür.

Azərbaycan Respublikasında 1991-ci ilin dekabrın 29-da ümumxalq səsverməsi keçirildi. Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı. Nəticədə 1992-ci ilin mayında Milli Məclis tərəfindən Azərbaycan Respublikasının Dövlət himni (musiqisi Üzeyir Hacıbəyovun , sözləri Əhməd Cavadın), az sonra üçrəngli bayraq, içində alov olan səkkiz guşəli ulduz təsvirli dövlət gerbi təsdiq edildi. Azərbaycan Respublikası artıq 31 ildirki müstəqil bir ölkədir [3, səh.3].

1995-ci ilin ortalarında Azərbaycanda artıq ictimai-siyasi sabitlik yaradılmışdır. Respublikada demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesləri sürətlə davam etdirildi. Komissiya tərəfindən "Azərbaycan Respublikasının Konstitusiyası" layihəsi hazırlandı. Layihə ümumxalq müzakirəsindən keçdikdən sonra 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) ilə qəbul edildi. Konstitusiya 5 bölmə, 12 fəsil, 158 maddədən ibarətdir. Konstitusiyanın 158 maddəsindən 48-i insan hüquqlarına və onların təminatlarına həsr edilmişdir. Konstitusiyada dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, cəmiyyətin demokratikləşdirilməsi və vətəndaş cəmiyyətinin bərqərar olmasına nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, bazar iqtisadiyyatına xas olan münasibətlərin formalaşmasını təmin etmək və s. kimi niyyətlər təsbit olunmuşdu. Konstitusiyaya görə Azərbaycanda hakimiyyətin yeganə mənbəyi xalqdır [4, səh.311].

Nəticə. Yenicə qədəm qoyduğumuz XXI əsrin zirvəsindən artıq tarixə qovuşmuş XX əsrə nəzər salarkən bir daha əmin oluruq ki, həmin əsr istər nailiyyətləri, istərsə də məhrumiyyətləri ilə bəşəriyyətin həyatında nə dərəcədə fövqəladə rol oynayıb.

Azərbaycan xalqının da taleyində XX yüzilliyin ayrı yeri var. Yeni dünya ilə ayaqlaşması baxımından bu əsr xalqımızın həyatında böyük nailiyyətlərlə zəngindir. Ən yaxın keçmişə nəzər salarkən yüzilliklərin və hətta minilliklərin qovuşuğunda çalxantılı zamanının dalğaları qoynunda bütün əzəməti ilə yeni bir Azərbaycan gözlər önündə canlanır. Yeni minillik və yeni yüzillik isə Azərbaycan xalqının həyatında onunla əlamətdar sayılır ki, ölkəmizin tarixinin ən yeni mərhələsinin başlandığı dövrdür. Bu il isə dövlət müstəqilliyinin 32 yaşı tamam olacaq.

Azərbaycanın öz müstəqilliyini əldə etmək üçün hansı əziyyətli və tarixin çətin sınağından necə üzüağ çıxdığını yaxşı bilirik. Eyni zamanda müstəqillik Azərbaycana havayı yox, minlərlə azərbaycanlı oğul və qızların şəhid edilməsi bahasına başa gəlib. Bu, Azərbaycanın istiqlal tarixinə yazılan şərəfli günlərdən biridir və bunu heç kim inkar edə bilməz. Azərbaycan uğurlu strategiya yürüdərək, müstəqilliyinin güclənməsi istiqamətində böyük layihələr həyata keçiririr.

Bu gün Azərbaycan dünyada yaşayan soydaşlarımızın potensial birləşmə mənbəyinə çevrilib. Azərbaycan beynəlxalq münasibətlərin bir subyekt kimi bir çox regional və qlobal təşkilatın daimi və həqiqi üzvüdür. Azərbaycan beynəlxalq səviyyədə öz sözünü deyir və dünyada gedən geosiyasi proseslərdə öz layiqli yerini tutmağa çalışır.

После восстановления Азербайджаном независимости 18 октября 1991 года дипломатические отношения между Турцией и Азербайджаном были установлены 14 января 1992 года, и с тех пор они развивались позитивно для обеих стран. Отношения между Азербайджаном и Турцией можно проследить с начала 20 века. После большевистской революции 1917 года царский режим рухнул, и Азербайджан вместе с грузинами и армянами основал "Федеративную демократическую Республику Кавказа", которая быстро распалась. Азербайджан провозгласил свою независимость 28 мая 1918 года. Нападения, осуществленные русскими против Азербайджана при участии армян, были остановлены при поддержке Кавказской исламской армии. Азербайджано-турецкие отношения продолжались в различных областях со времен национальной борьбы и продолжаются по сей день.

SUMMARY

UNBREAKABLE FRIENDSHIP AND BROTHERHOOD BETWEEN THE TWO PEOPLES - TURKEY AND AZERBAIJAN: YESTERDAY, TODAY, TOMORROW

Jan A., Jan Sh.T.

Keywords: *Azerbaijan, Turkey, russian occupation, diplomacy, second Karabakh war*

Following Azerbaijan's reestablishment of independence on October 18, 1991, diplomatic relations between Turkey and Azerbaijan were established on January 14, 1992, and have since progressed positively for both countries. Relations between Azerbaijan and Turkey can be traced back to the beginning of the 20th century. After the 1917 Bolshevik Revolution, the Tsarist regime collapsed, and Azerbaijan, along with Georgians and Armenians, established the "Federal Democratic Republic of the Caucasus," which quickly disintegrated. Azerbaijan declared its independence on May 28, 1918. The attacks carried out by the Russians against Azerbaijan, with the participation of the Armenians, were halted with the support of the Caucasian Islamic Army. Azerbaijan-Turkey relations have continued in various fields since the national struggle and continue to this day.

HEYDƏR ƏLİYEVİN RƏHBƏRLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN VƏ RUSİYA ARASINDA QURULAN VƏ İNKİŞAF EDƏN İQTİSADİ ƏLAQƏLƏR

Cəlalzadə Bənövşə Mehdi qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
celalzade.92@mail.ru

Açar sözlər: *Heydər Əliyev, İlham Əliyev, Azərbaycan-Rusiya iqtisadi əlaqələri, neft və qaz, enerji sənayesi*

Heydər Əliyevin ikinci dəfə rəhbərliyə qayıtmasından sonra Azərbaycan-Rusiya əlaqələri müxtəlif sahələrdə davamlı inkişaf etmişdir. Heydər Əliyev dövlət başçısı kimi ölkənin idarə edilməsində iqtisadi məsələlərə böyük diqqət ayırır və Rusiya ilə əlaqələrin inkişafına səy göstərirdi. 1994-cü ildə Heydər Əliyev, Rusiya Federasiyası ilə "Müqaviləli İqtisadi Tərəfdaşlıq" sazişini imzaladı [1, s. 115]. Bu saziş, iki ölkə arasındakı iqtisadi əlaqələri daha da genişləndirdi və daha qabaqkı sazişlərin əsaslarını dəyişdirib gücləndirdi. Heydər Əliyev, ölkənin neft və qaz sahələrinin Rusiya və digər ölkələrlə müqavilələr vasitəsi ilə inkişaf etməsini təşviq edirdi. O, həmçinin Azərbaycanın neft və qaz sənayesinin inkişafı üçün Rusiya ilə əməkdaşlıq edərək, ölkənin neft və qaz üzrə maliyyə dəstəyini artırmağa çalışırdı.

Heydər Əliyev, Azərbaycanın Rusiya ilə olan iqtisadi əlaqələrinin genişlənməsinə, özünü Avropa və Asiya arasında mühüm bir tranzit mərkəzi kimi mövcud etməsinə töhfə olaraq "Bakı-Tbilisi-Ceyhan" neft xətti və "Bakı-Tbilisi-Erzurum" qaz xəttini inşa etmək qərarını verdi. Bu layihələr, ölkənin neft və qaz ixracını artırmaqda əhəmiyyətli bir rol oynadı. Ayrıca Rusiya ilə Azərbaycanın digər sahələrində iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi üçün çalışılırdı. Ən mühümü, Rusiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə müəyyən məhsulların, məsələn, maşın, yük və s. kimi istehsal sahələrində iki ölkə arasındakı ticarət artırıldı [2, s. 178].

Heydər Əliyev, Rusiya ilə olan münasibətlərin daha da gücləndirilməsi üçün çoxsaylı səfərlər edərək, ölkələr arasında daha da mənəvi yanaşmaların yaradılmasına çalışırdı. Azərbaycan təkcə Rusiya ilə deyil, eyni zamanda müxtəlif dövlətlər və beynəlxalq təşkilatlarla da iqtisadi əlaqələrini yüksələn xətt üzrə qurur və inkişaf etdirirdi. Məhz bu əlaqələrin düzgün qurulması ilə Azərbaycan dünya neft bazarında daha aktiv rol oynamağa və müxtəlif layihələrin həyata keçirilməsi üçün əlavə maliyyə dəstəyi almağa nail oldu.

Ən mühümü, Heydər Əliyev, Azərbaycanın Rusiya ilə olan əlaqələrində "tərəfdaşlıq və əməkdaşlıq" əsasını tətbiq edir və bu əsas, iki ölkə arasındakı iqtisadi əlaqələrin daha da inkişaf etməsinə imkan verirdi. Heydər Əliyev dövründə Azərbaycan və Rusiya arasında bir çox iqtisadi müqavilələr imzalanmışdır. Bu müqavilələr iki ölkə arasında maliyyə, neft və qaz sahələrində əməkdaşlığı daha da gücləndirərək, ticarət əlaqələrini artırmağı hədəfləyirdi. Müqavilələrdən bəzilərini qeyd etmək olar:

1. Neft müqaviləsi: Bu müqavilə 1994-cü ildə imzalanmışdır və iki ölkə arasında neft və neft məhsullarının ixracı, nəqli və satışı ilə bağlı tərəfdaşlığı təmin edir. Müqavilə Azərbaycanın neft və neft məhsullarının ixracı ilə bağlı Rusiya ilə uzunmüddətli bir münasibətin əsasını təşkil edir.
2. Qaz müqaviləsi: Bu müqavilə də 1994-cü ildə imzalanmışdır və Azərbaycanın Şahdəniz qazı ilə bağlı uzunmüddətli ixracı sazişləri özündə cəmləşdirir. Müqavilə Azərbaycanın qaz ixracına başlamağı və tərəfdaşlığın inkişaf etdirilməsi ilə bağlı Rusiya ilə tərəfdaşlığını təmin edir.
3. Maliyyə müqaviləsi: Bu müqavilə 1996-cı ildə imzalanmışdır və iki ölkə arasında bank təşkilatları, iqtisadi təşkilatlar, valyuta və maliyyə sahələrində tərəfdaşlığı təmin edir. Müqavilə, Azərbaycan və Rusiya arasındakı maliyyə əlaqələrini, özü daxil olmaqla, digər ölkələr arasındakı maliyyə əlaqələrinin inkişafına da imkan verir [1, s. 117-119].

Bu müqavilələr Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan və Rusiya arasındakı əlaqələrin inkişafında əhəmiyyətli rol oynamışdır.

Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan və Rusiya arasındakı iqtisadi əməkdaşlıq yalnız Moskva ilə məhdudlaşmır, həm də Rusiyanın digər bölgələri ilə də sürətlə inkişaf edirdi. Bu sahədə qeydə alınmış əhəmiyyətli tərəfdaşlıq münasibətləri var idi:

1. Sankt-Peterburq: Heydər Əliyev dövründə Sankt-Peterburq ilə Azərbaycan arasında müxtəlif iqtisadi tərəfdaşlıq sazişləri imzalanmışdır. Bu tərəfdaşlıq xüsusilə maşın, texniki cihaz və metal qazanların ixracı ilə bağlı idi.

2. Krasnodar: Heydər Əliyev dövründə Krasnodar ilə Azərbaycan arasında müxtəlif iqtisadi tərəfdaşlıq müqavilələri imzalanmışdır. Bu tərəfdaşlıq xüsusilə meyvə-tərəvəz və ət məhsullarının ixracı ilə bağlı idi.

3. Ufa: Heydər Əliyev dövründə Ufa ilə Azərbaycan arasında müxtəlif iqtisadi tərəfdaşlıq sazişləri imzalanmışdır. Bu tərəfdaşlıq xüsusilə tibbi cihaz və dərmanların ixracı ilə bağlı idi.

4. Tatarıstan: Heydər Əliyev dövründə Tatarstan ilə Azərbaycan arasında müxtəlif iqtisadi tərəfdaşlıq müqavilələri imzalanmışdır. Bu tərəfdaşlıq xüsusilə texniki cihaz və turizm məhsullarının ixracı ilə bağlı idi [1, s. 133-135].

Bunlar sadəcə bir neçə nümunədir və Heydər Əliyevin rəhbərliyi dövründə Rusiya ilə əlaqələrin genişləndirilməsi ilə bağlı daha bir çox müqavilələr və sazişlər imzalanmışdır.

Heydər Əliyevin dövründə başlayan strateji əməkdaşlıq siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə davam edir. İki ölkə arasındakı ticarət münasibətləri artıq neft və qaz tədarükü ilə məhdud qalmayaraq, dəyişən dünya iqtisadiyyatına uyğun yeni sahələrə genişlənmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə, Azərbaycan və Rusiya arasında bir çox iqtisadi müqavilələr imzalanmışdır. Bu müqavilələr, iki ölkə arasındakı iqtisadi əməkdaşlığı artırmaq üçün istiqamətləndirilmişdir. Həmçinin, iki ölkə arasında müxtəlif sahələrdə investisiya fəaliyyəti də genişləndirilmişdir.

Azərbaycan və Rusiya arasındakı münasibətlərin səmərəli inkişafı, İlham Əliyevin Rusiya ilə əlaqələrində qarşılıqlı qəbul edilən "strateji tərəfdaşlıq" siyasətinin nəticəsidir. Bu siyasət, iki ölkə arasındakı münasibətlərin daha da güclənməsinə imkan verir. Rusiya, Azərbaycanın ən vacib ticarət tərəfdaşlarından biri olaraq qalır və bu münasibətlər yüksələn xətlə inkişaf etməyə davam edir.

Ədəbiyyat

1. Hacıbəyli, N., Yusifova, F. Heydər Əliyevin dövründə Azərbaycan və Rusiya iqtisadi əməkdaşlığı. Bakı: Elm və təhsil, 2018, 220 s.
2. Əliyev, R. Heydər Əliyevin iqtisadi fəaliyyəti və Azərbaycan Respublikası iqtisadi inkişafı. Bakı: Elm və təhsil, 2014, 400 s.
3. Məmmədov, N. Heydər Əliyev və Azərbaycanın iqtisadi inkişafı. Bakı: Ganj Qala, 2016, 256 s.

РЕЗЮМЕ

ЭКОНОМИЧЕСКИЕ ОТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И РОССИЕЙ, УСТАНОВЛЕННЫЕ И РАЗВИВАВШИЕСЯ В ЭПОХУ РУКОВОДСТВА ГЕЙДАРА АЛИЕВА

Джалалзаде Б.М.

Ключевые слова: *Гейдар Алиев, Ильхам Алиев, Азербайджано-российские экономические отношения, Нефть и газ, Энергетика.*

В статье рассказывается об экономических связях между Азербайджаном и Россией. Отношения между двумя странами были установлены и получили развивитие при Гейдаре Алиеве. Эти отношения особенно касаются энергетической отрасли, такой как нефть и газ. Это экономическое сотрудничество продолжается и при Президенте Ильхаме Алиеве, достойном преемнике политического курса общенационального лидера Гейдара Алиева, и уровень экономических отношений между двумя странами остается высоким.

SUMMARY

ECONOMIC RELATIONS BETWEEN AZERBAIJAN AND RUSSIA ESTABLISHED AND DEVELOPED DURING HEYDAR ALIYEV'S LEADERSHIP

Jalalzade B.M.

Keywords: *Heydar Aliyev, Ilham Aliyev, Azerbaijan-Russia economic relations, Oil and gas, Energy industry*

The article describes the economic relations between Azerbaijan and Russia. Relations between the two countries were established and developed under Heydar Aliyev. These relations are particularly relevant to the energy sector, such as oil and gas. This economic cooperation continues under President Ilham Aliyev, a worthy successor of the political course of national leader Heydar Aliyev, and the level of economic relations between the two countries remains high.

HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCANIN BALANSLAŞDIRILMIŞ XARİCİ SİYASƏTİ

Əsədova AytənVaqif qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
asadova_ayten@bk.ru

***Açar sözlər**: Azərbaycan, əlaqə, xarici siyasət, uzaqgörən siyasət, inkişaf*

1991-ci ildə Azərbaycan olduqca çətin şəraitdə öz müstəqilliyini qazandı. Müstəqilliyin qazanılması ilə yanaşı , ölkə daxili bir çox problemlər və Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə təcavüzü olduqca mürəkkəb vəziyyət yaratmışdır. Hakimiyyət çəkişmələri ölkə daxili vəziyyəti daha da gərginləşdirmişdir. Belə çətin bir vəziyyətdə Heydər Əliyevi ziyalılar Naxçıvandan xalqına yardım üçün Bakıya dəvət etdilər. 1993-cü il iyunun 15 də Azərbaycan Respublikasının Milli Məclisinin fövqəladə sessiyası keçirildi [1, s.322]. Heydər Əliyev Ali Sovetin sədri seçildi. Xalqının inamını qazanan dahi lider Heydər Əliyev 1993-cü ildə ölkə başçısı seçilməsindən sonra ölkədə iqtisadi-siyasi inkişafı bərqərar olundu. Dövlət idarəçiliyində zəngin təcrübəyə, uzaq görən siyasətə malik olan Ulu öndər ilk növbədə daxildə davamlı sabitliyi təmin etdi. Bundan sonra Azərbaycanın beynəlxalq aləmdə əlaqələrinin genişləndirilməsi həyata keçirilməyə başlanıldı. Qısa vaxtda Dahi lider qarşısına qoyduğu daxili sabitliklə bağlı vəzifələri həyata keçirdi. Digər ən əsas məsələ atəşkəs və iqtisadi inkişaf strategiyası idi. Ümummilli liderin çevik siyasəti nəticəsində Azərbaycan bütün maneələri dəf edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" kimi tarixə düşmüş neft müqaviləsini imzaladı. Əsrin müqaviləsi və sonrakı dövrlərdə bağlanan çoxsaylı neft kontraktları Azərbaycanın dünya birliyinə inteqrasiyasını gücləndirirdi, 1998-ci ildə 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştrakı ilə tarixi "Böyük İpək yolu"-nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin müstəqillik illərində qazandığı ən mühüm nailiyyətlərdən biridir [3, s.172] .

Xarici siyasətin əsas istiqamətlərin biri kimi dahi lider Azərbaycan diasporunun formalaşdırılmasını qarşıya qoymuşdu. Qısa vaxt ərzində bu məsələdə öz həllini tapdı. H.Əliyevin xarici siyasətinin əsas istiqamətləri ilk növbədə milli maraqlar və Dağlıq Qarabağ probleminin həlli idi. H.Əliyevin xarici siyasətində əsasən balanslaşdırılmış siyasəti önə çəkirdi. Dahi lider Azərbaycanın xarici siyasətində özünütəcrid siyasətini tamamilə qəbul etmirdi və bunun yolverilməz olduğunu vurğulamışdır. Azərbaycanın maraqlarını qorumaq və dünyaya çatdırmaq üçün ciddi addımların atılmasını əsas götürürdü. Heydər Əliyev vətənin maraqlarını hər şeydən uca tuturdu. Bu səbəbdən xarici siyasətdə dövlətin mənafelərinin qorunmasını vacib sayırdı. Yenicə müstəqillik əldə edən, 20 faiz torpaqları işğal edilən ölkədə bu işləri görmək çox çətin bir proses idi. Qısa vaxtda Azərbaycan MDB-yə, Qara dəniz Hövzəsi İqtisadi Əməkdaşlıq Təşkilatına, İƏT-ə, GUÖAM-a, Avropa şurasına, Nato-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu, ATƏT-n, İKT-nin, Türkdilli Dövlətlərin Başçılarının sammitlərinin daimi iştrakçısı oldu [2, s.25]. Bununlada ölkəmiz öz tərəfdaşlarının sayını artırdı, eyni zamanda da Ermənistan-Azərbaycan münaqişəsinin əsas mahiyyətini, Ermənistanın işğalçılıq siyasətinin beynəlxalq ictimaiyətə çatdırdı. Heydər Əliyevin uzaqgörən, balanslaşdırılmış xarici siyasətində Yaxın və Orta Şərq ölkələri ilə əməkdaşlıqda əsas yeri tuturdu. Dahi şəxsiyyət hər zaman bəyan edirdi: "Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun xarici siyasət vasitəsi ilə təmin etməyə çalışacağıq" [6, s. 205].

Azərbaycanın xarici siyasətində Türkiyə ilə münasibətlər ən öndə gedirdi. Təsadüfü deyil ki, Azərbaycanın müstəqilliyini də ilk tanıyan məhz qardaş ölkə olmuşdu. Qardaşlıq münasibətləri ilə yanaşı, Azərbaycanın sahib olduğu enerji ehtiyatları həm də Türkiyənin enerji tələbatını ödəyirdi. Bu isə Azərbaycanın iqtisadi çətinliklərinin aradan qaldırılması üçün də vacib idi. Eyni zamanda Ermənistanla münaqişənin həlli yolları üçün Türkiyənin dəstəyi çox vacib idi. Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan- Türkiyə münasibətləri dostluq – qardaşlıq şəraitində davam etmişdir. 9 fevral 1994 cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə" və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol" imzalandı [9, s.6].

Heydər Əliyev uzaq görən siyasəti nəticəsində bilirdi ki, ilk növbədə, qonşu dövlətlərlə münasibətləri qaydaya salmaq, əlaqələri bərpa etmək lazımdır. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə

daxil olması bu sahadə görülən işlərdən biri idi. MDB-yə daxil olan keçmiş Sovet respublikaları ilə hərtərəfli əlaqələrin qurulması istiqamətində ciddi işlər görüldü. Bu ölkələrlə iqtisadi, ticarət və mədəni əməkdaşlıq məsələlərinə xüsusi önəm verildi. 1996-cı ildə mart ayında Gürcüstanla dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı [1, s.337]. İki ölkə arasında bütün sahələrdə əməkdaşlıq başladı. Qısa vaxt ərzində şərq ölkələri ilə əməkdaşlıq və dostluq münasibətləri yaradıldı. Bura Səudiyyə Ərəbistanı, Liviyanı, Misiri, Suriyanı, İraqı, Pakistanı, Mərakeşi, Birləşmiş Ərəb Əmirliklərini, Livanı, Əlcəzairi, Küveyti və sair olkələri göstərə bilərik. Azərbaycan Pakistan münasibətlərinə xarici siyasətdə xüsusi önəm verilirdi. Pakistanın ABŞ, Türkiyə və ÇXR-sı ilə çox tərəfli münasibətləri vardır, eyni zamanda Pakistan İslam dünyasında böyük nüfuzu vardır [2, s.358]. Ən əsası isə Pakistan Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Ermənistanın işğalçılıq siyasətini həmişə pisləmişdir. Təsadüfü deyil ki, 90-cı illərdə möhkəmləndirilən əlaqələr bu gündə davam edir. 2020 ildə Azərbaycan öz torpaqlarını erməni faşistlərindən azad etdiyi dövrdə də Pakistan bizi dəstəklədi.

Asiya ölkələri içində öz iqtisadi gücü olan Çinlə münasibətlər də Heydər Əliyevin rəhbərlik etdiyi on il müddətində yüksələn xətlə inkişaf etmişdir. Qurulan əməkdaşlıq sayəsində Azərbaycan Çinin Cənubi Qafqazda ən əsas iqtisadi tərəfdaşıdır.

Azərbaycanın xarici siyasətində Rusiya ilə münasibətlərdə xüsusi yer tuturdu. Bu bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından çox böyük əhəmiyyətə malik idi. 1993-cü ildə böyük qonşumuz Rusiya ilə münasibətlərin səmimi olduğunu deyə bilmərik. Rusiyanın Ermənistana silah satması münasibətlərə zidd idi. Dahi lider 1994-cü ildə Qərb dövlətləri ilə əməkdaşlığı gücləndirdiyi bir vaxtda, Rusiya ilə münasibətlərədə mühüm önəm verirdi. Eyni zamanda Əsrin müqaviləsi neft müqaviləsinə Rusiyanın LUKoyl neft şirkəti də qoşulmuşdur. Heydər Əliyev Rusiyanın mövqeyinin yumşaldılmasına və xüsusəndə Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Rusiyanın dəstəyini almağa və ya tərəfsizliyini təmin etməyə çalışmışdı [4, s.112]. Rusiya ilə münasibətlər həmin dövr üçün Azərbaycanın xarici siyasət fəaliyyətində mühüm əhəmiyyət kəsb edən istiqamətlərdən biri də Qafqazda ümumi təhlükəsizlik sisteminin yaradılması olmuşdur [8, s.34]. Qeyd etmək lazımdır ki, Qərb dövlətləri ilə neft müqavilələrinin bağlandığı, münasibətlərin qurulduğu dövrdə rusiya ilə münasibətlər soyumuşdur. Bütün olan problemlərə baxmayaraq Heydər Əliyev Rusiya ilə münasibətlərin vacibliyini önə çəkərək münasibətlərin zəruriliyini dəfələrlə vurğulamışdır. Məhz bu idi dahi liderin uzaq görən , balanslaşdırılmış xarici siyasəti. 1996-cı ildə Heydər Əliyevin Moskvaya səfəri iki ölkə arasında münasibətlərə xüsusi təsir etmişdir. Heydər Əliyevin formalaşdırdığı münasibətlər bu gündə həm siyasi, həm də humanitar sahədə davam etdirilir [7, s.55] .

Digər qonşu ölkə İranla münasibətlərə də dahi lider xüsusi önəm verirdi. Uzaqgörən siyasəti nəticəsində Heydər Əliyev İranın təcavüzkar Ermənistanla dostluq münasibətlərini bildiyi halda , eyni zamanda İran mübahisəli hesab etdiyi suallardan Azərbaycan gəmilərinin çıxarılması və sair məsələləri dinc yolla həll etdi. Təsadüfü deyil ki, Heydər Əliyev bildirirdi ki, İran böyük qonşumuzdur, İranla əməkdaşlıq xətti əsas götürülməlidir [5, s.73] .

Heydər Əliyev strateji istiqamət olaraq Qərblə inteqrasiya xəttinin əsas götürülməsini irəli sürürdü. [5]

Azərbaycanın 1993-2003-cü illərdə apardığı uğurlu xarici siyasət nəticəsində ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, İtaliya və digər inkişaf etmiş dünya dövlətləri ilə əməkdaşlıq quruldu. Azərbaycan üçün xarici siyasət kursunda əsas ölkələr sırasında ilk yeri məhz ABŞ tuturdu. 1992-ci ildə Azərbaycana qarşı tətbiq edilən; 907-ci düzəliş; erməni diasporunun yalanlarla əldə etdiyi bir sənəd idi. Bu müstəqil dövlət quruculuğu yolu tutmuş və zorla müharibəyə cəlb edilmiş Azərbaycan üçün çox ağır bir zərbə idi [3, s.231] 1996-cı ildə ABŞ Konqresində Azərbaycana yardım haqqında qərarın verilməsi, 1993-1995-ci illər ərzində aparılan gərgin işin nəticəsi idi. Bu Azərbaycan ABŞ münasibətlərində dönüş nöqtəsi oldu. Qərbi Avropa ölkələri ilə iqtisadi və siyasi əməkdaşlıq Azərbaycan üçün çox vacib idi. Heydər Əliyev Qərbi Avropa ölkələrinin Beynəlxalq münasibətlərə təsiretmə gücünü çox yaxşı bilirdi. Təsadüfü deyildi ki, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən ikisi məhz Fransa və Böyük Britaniya idi.

Heydər Əliyevin xarici siyasət kursunda ən böyük uğurlardan biri 1996-cı il 2-3 dekabrda ATƏT-in Lissabon sammitində qazandığı uğur idi. Bu uğur Azərbaycanın Qarabağ münaqişəsinin həllinə yönələn siyasət üzrə qazandığı uğurun başlanğıcı idi.

Nəticə. Heydər Əliyevin 1993-2003 cü illərdə gərgin əməyi səyi nəticəsində Azərbaycanın xarici siyasətində yeni inkişaf xətti formalaşdırıldı..Müasir dövrdə Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirdi. Bu gün dahi liderin uğurlu xarici siyasətini İlham Əliyev ustalıqla davam etdirir . Aparılmış uğurlu xarici siyasətin nəticəsində Azərbaycan 30 ilə yaxın işğal altında olan torpaqlarını azad etdi və ədaləti bərpa etdi .

Ədəbiyyat

1. Azərbaycan tarixi.yeddi cilddə. Vll cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, 608 s.
2. Heydər Əliyev və Şərq.birinci kitab.red.M Qurbanlı.Bakı, 2002, s.212
3. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı- Azərbaycan nəşriyyatı, 2005. s.631
4. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Bakı: Poliart, 2017. s. 904
5. N.Məmmədov.Xarici siyasət: Reallıqlar və gələcəyə baxış. Bakı: Qanun nəşriyyatı, 2013, s. 264
6. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir.l- kitab.Bakı-1997.s.205
7. Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2006.Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. Bakı. Garisma- MMC -2008 s.848
8. E.Məmmədov Müasir dövrdə Azərbaycan və Rusiya əlaqələri.Bakı-Yazıçı -2014,s.182
9. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiklik münasibətləri haqqında Şuşa Bəyamnaməsi.15 iyun 2021 il .Azərbaycan və türk dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər hüquqludur. s.6

РЕЗЮМЕ

СБАЛАНСИРОВАННАЯ ВНЕШНЯЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНА В ПЕРИОД ПРАВЛЕНИЯ ГЕЙДАРА АЛИЕВА

Асадова А.В.

Ключевые слова: *Азербайджан, отношения, внешняя политика, дальновидная политика, развитие.*

В статье рассматривается внешняя политика Азербайджана в 1993-2003 годах. В результате дальновидной внешней политики Гейдара Алиева, блестящего лидера Азербайджана, была создана успешная внешняя политика страны, только что обретшей независимость в 90-х годах и находившейся в сложной политической ситуации. В результате проводимой взвешенной политики в короткие сроки были установлены успешные экономические и политические отношения с зарубежными странами. Карабахская проблема и территориальная целостность Азербайджана были взяты в качестве основных направлений внешней политики, проводимой в этот период. В результате успешной внешней политики была проделана важная работа в плане укрепления независимости, экономического развития и безопасности. Самое главное, были установлены дружеские добрососедские отношения с государствами и народами Кавказского региона (за исключением Армении). Самое главное, были установлены отношения с ведущими странами Запада и Востока.

SUMMARY:

BALANCED FOREIGN POLICY OF AZERBAIJAN DURING THE REIGN OF HEYDAR ALIYEV

Asadova A.V.

Keywords: *Azerbaijan, relations, foreign policy, visionary policy, development*

In this topic, it is discussed about the foreign policy of Azerbaijan in 1993-2003. As a result of the visionary foreign policy of Heydar Aliyev, the brilliant leader of Azerbaijan, a successful foreign policy of the country that had just gained its independence in the 90s and was in a difficult political situation was established. As a result of the implemented balanced policy, successful economic and political relations with foreign countries were established in a short time. The Karabakh problem and the territorial integrity of Azerbaijan were taken as the main directions of the foreign policy implemented during this period. As a result of the successful foreign policy, important work was done in terms of strengthening independence, economic development, and security. Most importantly, friendly neighborly relations were established with the states and peoples of the Caucasus region (with the exception of Armenia). Most importantly, relations were established with the leading countries of the West and the East.

AZƏRBAYCAN RESPUBLİKASININ TÜRK DÖVLƏTLƏRİ İLƏ MƏDƏNİ ƏLAQƏLƏRİNDƏ HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİNİN ROLU

İbrahimov Mahir Nadir oğlu

A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı, Azərbaycan, t.f.d.

mahir.ibrahimov1969@gmail.com

Açar sözlər: *mədəni əlaqələr, "TÜRKSOY", türkdilli ölkələr, Türk Dövlətləri İttifaqı*

Giriş. XX əsrdə fəlsəfənin ən kəskin tənqidçilərindən biri olan Avstriya filosofu Lüdviq Vitginşteyn (1889-1951) yazırdı: "Mədəniyyət nəhəng bir təşkilat olub hər kəsə özünün hara mənsub olduğunu göstərir" [3, s.299-300]. Digər bir filosof misirli mütəfəkkir Zəki Nəcib Mahmud mədəniyyəti belə səciyyələndirir: "Mədəniyyət yalnız incəsənət və bədii yaradıcılıqdan ibarət deyildir. Mədəniyyət sözün əsl mənasında fəaliyyət, hərəkətə gətirmək və istiqamətləndirmək vasitəsidir. Bu mədəniyyət cəmiyyət üzvlərinin yalnız bir hissəsini yox, hamısının dünyagörüşünü və maraqlarını əks etdirməlidir. Bu mədəniyyət "hamının arzuladığı

gələcək" əsasında qurulmalı və bu məqsədə xidmət etməlidir" [4, s. 284]. Həqiqətən də mədəniyyətlərin və sivilizasiyaların dialoqu, onların bugünkü qlobal siyasi proseslərə təsiri məsələləri hazırkı ictimai elmlərin diqqət mərkəzində dayanan məsələlərdəndir. Mədəniyyətin siyasətin bir qolu olması, yəni "siyasi mədəniyyət" anlayışına ilk dəfə biz XVIII əsrdə yaşayıb yaratmış alman filosofu İ. Herderin "Bəşəriyyət tarixi fəlsəfəsinə dair ideyalar" adlı əsərində rast gəlirik. O, həmin əsərində bu anlayışla yanaşı "siyasi mədəniyyətin yetkinliyi", "siyasi mədəniyyətin daşıyıcıları" kimi terminlərdən də istifadə etmişdir [5, s. 232]. Artıq XX əsrin ikinci yarısından başlayaraq vəziyyət dəyişməyə başladı. Q. Almond, S. Verba, L. Pay, M. Duverje kimi qərb tədqiqatçıları "siyasi mədəniyyət" anlayışını ictimaiyyət elmində nəinki möhkəmləndirdilər, həm də siyasi mədəniyyət nəzəriyyəsinin əsasını qoydular. Məhz ötən əsrin 60-cı illərindən Fransada meydana çıxan mədəniyyət siyasəti qısa zaman kəsiyində bütün ölkələrin mədəni həyatının tərkib hissəsinə çevrildi [3, s.301-302]. Bu fikirlər tədqiq etdiyimiz mövzunun mahiyyətinə birbaşa təsir etməsə də türk dövlətləri arasındakı mədəni münasibətlərin araşdırılması üçün bir açar rolunu oynaya bilər.

Ümumiyyətlə, Avrasiya coğrafiyasına diqqətlə nəzər salası olsaq çox maraqlı mənzərə ilə rastlaşmalı olarıq. Belə ki, bu coğrafiya hər bir istiqamətdə türksoylu xalqların yaşadığı ərazilərlə əhatələnmişdir. Məhz həmin türk xalqları dünya mədəniyyətinə böyük töhfələr vermiş, onu xeyli zənginləşdirmişdir. Bununla yanaşı yüz illərlə bir-birindən ayrı salınaraq dövlətçilikdən məhrum edilmiş türk xalqları yalnız XX əsrdə milli dirçəliş yoluna uğurla qədəm basmağa nail oldular. Belə ki, ötən əsrin əvvəlində - 1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabı digər xalqlarla yanaşı türk xalqlarının da milli azadlıq hərəkatının yüksəlişinə güclü təkan vermişdi. Lakin, edilmiş müəyyən səhvlər və mövcud tarixi şərait həmin xalqların müstəqil olaraq beynəlxalq münasibətlər sisteminə qatılmasına imkan vermədi. Artıq sözügedən əsrin 90-cı ilərində SSRİ-nin süquta uğraması ilə beş yeni müstəqil türk dövləti - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan Respublikaları yarandı. Bir sıra türk xalqları - tatarlar, başqırdlar, çuvaşlar və digərləri isə Rusiya Federasiyası tərkibində milli ərazi muxtariyyəti səviyyəsində qaldılar.

Qeyd etmək lazımdır ki, yeni yaranmış müstəqil türk dövlətləri öz xarici siyasət prioritetlərini özləri müəyyən etdiklərinə görə bütün bunlar mədəniyyət sahəsində də qarşılıqlı münasibətlərin yeni formada qurulmasına birbaşa təsir göstərdi. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi kimi, "...bizim məqsədimiz bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək, həm də ölkənin elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir" [1, c.1, s.205]. Məlumdur ki, Sovet dövründə bütün beynəlxalq mədəni əlaqələri Moskva tərəfindən müəyyən edilirdi. Lakin, buna baxmayaraq Azərbaycan incəsənəti beynəlxalq arenaya çıxa bilmiş və bu çıxış öz təcəssümünü Hollandiya, İtaliya, Portuqaliya, Türkiyə, İran, Yaponiya, ərəb dövlətləri və s. kimi ölkələrdə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsində, Azərbaycan Dövlət Opera və Balet Teatrının Fransa və digər ölkələrdə qastrollarında tapmışdır [6]. Onu da qeyd etmək lazımdır ki, SSRİ-nin süqutuna qədər də müttəfiq respublikaların qarşılıqlı münasibətlərində mədəni sfera sahəsində əlaqələr mövcud idi.

"TÜRKSOY" təşkilatı. Sözügedən mövcud əlaqələr Sovet imperiyasının süqütündan sonra da müstəqillik əldə etmiş türk dövlət qurumları arasında daha sıx ədəbi-mədəni, siyasi-iqtisadi əlaqələrin yaradılması zərurətini önə çıxardı. Yaranmış yeni əlverişli şərait onların eyni kökdən olan müştərək mədəniyyəti və incəsənətinin vahid təşkilatının meydana çıxmasına imkan verdi. Bu istiqamətdə 1992-ci ilin iyun ayında İstanbul şəhərində 6 olkənin mədəniyyət nazirləri tərəfindən bunövrəsi qoyulan Turkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası (TURKSOY) muhum rol oynadı. Türk mədəniyyəti və incəsənətinin inkişafı və tanıdılması üçün nəzərdə tutulan bu beynəlxalq təşkilat Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin birgə təşəbbüsü ilə 1992-ci ildə İstanbul və Bakı şəhərlərində keçirilmiş Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, həmçinin Türkmənistan respublikaları mədəniyyət nazirlərinin görüşlərinin gedişində əldə edilmiş razılaşmalar əsasında yaradılmışdır. Təşkilatın yaradılması və fəaliyyət prinsipləri haqqında müqavilə həmin ölkələrin mədəniyyət nazirləri tərəfindən 1993-cü il iyulun 12-də Qazaxıstan Respublikasının keçmiş paytaxtı Almatı şəhərində imzalanmışdır[7]. Sonralar bu təşkilata müşahidəçi ölkələr simasında Başqırdıstan, Tatarıstan respublikaları, Şimali Kipr Türk Respublikası, Xakasiya, Tuva, Altay, Yakutiya və Qaqauz Yeri respublikaları da qoşulmuşlar. Beləliklə TÜRKSOY-a 6 üzv və 8 müşahidəçi ölkə daxildir [8]. Aydın məsələdir ki, TÜRKSOY təşkilatının əsas məqsədi türkdilli ölkələrin apardıqları xarici siyasətdən asılı olmayaraq onların mədəniyyət və incəsənət sahəsində regional birliyini həyata keçirməkdən ibarətdir. Qurumun Baş direktorluğu Türkiyə Respublikasının paytaxtı Ankara şəhərində yerləşir, rəsmi dili türk dilidir.

Öz məqsədlərinə və vəzifələrinə, fəaliyyət sahəsinə və prinsiplərinə görə TÜRKSOY bir təşkilat kimi YUNESKO-nun (BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı) strukturuna yaxındır və 1996-cı il iyulun 8-də İstanbulda TÜRKSOY-la YUNESKO arasında qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Göründüyü kimi, bu qurumun fəaliyyət dairəsi çox genişdir. Belə bir cəhəti də qeyd etmək yerinə düşər ki, Azərbaycan Respublikası TÜRKSOY-un yaradılmasında olduğu kimi,

ikitərəfli əlaqələr kontekstində də fəaliyyət göstərən aparıcı dövlətlərdən biri olmuşdur. Bu məqsədlə 1995-ci ilin iyununda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin tapşırığı əsasında xarici işlər naziri Türkmənistana rəsmi səfər etmiş və orada ölkə prezidenti Saparmurad Niyazov və digər rəhbər şəxslərlə görüşmüşdü. Səfər zamanı iki ölkənin xarici işlər nazirlikləri arasında əməkdaşlıq protokolu imzalanmışdı. Digər sahələrdə olduğu kimi, mədəni əlaqələr sahəsində qarşılıqlı münasibətlər qurmaq haqqında fikir mübadiləsi aparılmışdı. Qeyd etmək lazımdır ki, hələ Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi sovet dövründə ölkəmizdə Aşqabad günlərinin keçirilməsi bu respublika ilə mədəni əməkdaşlıq sahəsində tarixi önəm daşıyırdı. 1996-cı ilin martında Azərbaycana rəsmi səfərə gəlmiş Türkmənistan Prezidenti Saparmurad Niyazovun şərəfinə təşkil olunmuş ziyafətdə Azərbaycan Prezidenti Heydər Əliyev demişdi: "Biz daha sıx əməkdaşlıq etməli, elm, mədəniyyət, təhsil sahələrində əməkdaşlıq üçün mövcud imkanlardan yaranan gözəl şəraitdən istifadə etməliyik..."[2]. Həmin səfər zamanı Saparmurad Niyazov Bakı Dövlət Universitetinin fəxri doktoru seçilmişdir. Sözügedən səfər çərçivəsində mədəni əməkdaşlığın strateji istiqamətləri müəyyənləşmiş, iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə, daha sonra təhsil, elm, mədəniyyət sahəsində sazişlər imzalanmışdı.

Göründüyü kimi, ikitərəfli münasibətlərdə də mədəni sfera sahəsinə münasibət Azərbaycanın ümummilli lideri Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. O, 1996-cı il noyabrın 6-da türk dünyası yazıçılarının Bakıda keçirilən III qurultayında bu barədə belə demişdir: "Biz çalışmalıyıq ki, ölkələrimiz, xalqlarımız arasında əlaqələr bundan sonra da bütün sahələrdə sürətlə inkişaf etsin. Dövlət tərəfindən biz bunu edirik və türkdilli dövlət başçılarının ikitərəfli görüşləri də buna çox böyük imkanlar verir... Əmin ola bilərsiniz ki, Azərbaycan hökuməti bu sahədə əlindən gələni əsirgəməyəcəkdir" [1, s. 11-12]. Qeyd edək ki, Azərbaycan nümayəndələrinin bacarıqlı təşkilatçılıq fəaliyyəti qurumun məqsədyönlü şəkildə təşkilində getdikcə daha çox özünü göstərirdi. Belə ki, artıq TÜRKSOY-un V toplantısında (28 may – 3 iyun 1994-cü il, Bişkek, Çolpan-Ata) Azərbaycan mədəniyyət nazirinin təşkilatın Baş direktoru seçilməsi sözügedən fəaliyyətin bariz nümunəsi idi. Bu isə öz növbəsində qurumun fəaliyyətində Azərbaycanın aparıcı rolunun artdığını əyani olaraq göstərdi. Ədalət naminə qeyd etməliyik ki, TÜRKSOY-un yarandığı ilk vaxtlarda təşkilatın fəaliyyətində əsas ağırlıq mərkəzi Türkiyənin üzərində idi. Lakin, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında aparılan xarici siyasət nəticəsində 1994-1995-ci illərdən başlayaraq vəziyyət bir qədər dəyişdi. Artıq ağırlıq mərkəzi digər türk respublikaları ilə yanaşı, həm də Azərbaycanın üzərinə düşdü. Belə ki, bu təşkilatın II toplantısı Bakıda keçirilmiş və əməkdaşlığı gücləndirməyə yönəldilən mühüm qərarlar qəbul edilmişdi. 1996-cı il noyabrın 6-7-də Bakıda türk xalqlarının birliyi, ədəbi-mədəni əlaqələri ilə bağlı üç mühüm tədbir (TÜRKSOY-un VIII toplantısı, türk dünyası yazıçılarının III qurultayı və Məhəmməd Füzulinin 500 illik yubileyinin tədbirləri) keçirilmişdi. Bu bir daha sübut edir ki, Azərbaycan Ulu öndərin rəhbərliyi altında türk dünyasının liderlərindən birinə çevrilməkdədir. Bu münasibətlə Azərbaycan prezidenti Heydər Əliyev qurultaya gələn qonaqlara və toplantı iştirakçılarına müraciətlə belə demişdir: "Bu gün Azərbaycan Respublikasının həyatında çox əlamətdar hadisələr baş verir. Günün birinci yarısında Bakıda türk dünyası yazıçılarının II qurultayı açılıbdır, ikinci yarısında isə TÜRKSOY Beynəlxalq Təşkilatının növbəti toplantısı işə başlayır. TÜRKSOY ötən dövrdə böyük gələcəyi olduğunu həm türkdilli dövlətlərə, həm də dünyaya nümayiş etdiribdir"[9]. Maraqlı cəhət odur ki, hələ 1996-cı il oktyabrın 21-də Daşkənddə türk ölkələri dövlət başçılarının 4-cü Zirvə toplantısında təşkilatın fəaliyyətinin gücləndirilməsi sahəsində qarşıda duran vəzifələr daha geniş səviyyədə müzakirə edilmiş və onun nəticələri yekun sənədlərdə - Daşkənd bəyannaməsində öz əksini tapmışdı. Bəyannamədə tövsiyyə olunan məsələlər içərisində yubiley mərasimlərinin hamılıqla həyata keçirilməsi də nəzərdə tutulmuşdu. Sonrakı dövrdə bütün türkdilli dövlətlərin iştirakı ilə nəzərdə tutulan tədbirlər, yubileylər təntənə ilə qeyd edilmişdir.

Qarşılıqlı görüşlərdən və alınan qərarlardan sonra Bakıda 1996-cı il noyabrın 6-7 də türk dünyası yazıçılarının III qurultayı öz işinə başlamışdı. Onu da qeyd etmək lazımdır ki, türk dünyası yazıçılarının I və II qurultayları 1992 və 1994-cü illərdə Türkiyənin paytaxtı Ankara şəhərində keçirilmişdi. Bakı şəhərində keçirilən Qurultayda müxtəlif türk ölkələrindən o cümlədən Türkiyədən, Qazaxıstandan, Başqırdıstandan, Tatarıstandan, Saxa-Yakutdan, o cümlədən, Cənubi Azərbaycandan və başqa yerlərdən gəlmiş numayəndələr iştirak etmişdir. Qurultayda çıxış və müzakirələrin yekunu olaraq bir sıra mühüm qərarlar qəbul edilmişdi. Bunların sırasında Bakı şəhərində Azərbaycan Yazıçıları Birliyinin nəzdində türk dünyası yazıçılarının əlaqələndirmə mərkəzinin yaradılmasını, türk dövlətlərində latın qrafikalı əlifbaya keçirilməsi ilə əlaqədar real tədbirlər planının hazırlanmasını, ortaq ədəbi türk dilinin formalaşdırılması üçün tədbirlərin həyata keçirilməsini və s. bu kimi qərarları qeyd etmək olar.

Dahi mütəfəkkir Məhəmməd Füzulinin 500 illik yubileyinin qeyd olunduğu ərəfədə Ulu öndər Heydər Əliyevin çıxışındakı bəzi məqamları xatırlamaq yerinə düşərdi: "Təsəvvür edin, biz türkdilli dövlətlər birlikdə "Manas"ın 1000 illiyini qeyd etdik, böyük qazax şairi, filosofu Abayın 150 illyini qeyd etdik. Özbəkistanın böyük dövlət xadimi, bütün türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660

illiyini qeyd etdik. Bu günlərdə biz böyük Azərbaycan şairi, eyni zamanda bütün türk dünyasına mənsub olan Məhəmməd Füzulinin 500 illiyini bir yerdə qeyd edəcəyik.... İndi isə, türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu bizim vəzifəmizdir, borcumuzdur...” [1, s. 10]. Qeyd edək ki, Məhəmməd Füzulinin yubileyi təkcə Azərbaycanda deyil, dünyanın bir çox şəhərlərində - Ankarada, Moskvada, Bağdadda, Kərbəlada, Kərkükdə, Tehranda, Dağıstanda, Dərbənddə, Mahaçqalada, Parisdə YUNESKO-nun baş qərargahında, habelə Gürcüstanda, Qazaxıstnada, Özbəkistanda keçirilmişdi. Maraqlı cəhətlərdən biri də odur ki, XXI əsrin astanasında TÜRKSOY-un ilk toplantısı da məhz Bakıda keçirilmişdir. TÜRKSOY-un 2001-ci il yanvarın 16-17-də Bakıda kecirilmiş on beşinci toplantısında Azərbaycan Respublikasının mədəniyyət naziri bu təşkilatın varlığı və onun beynəlxalq nüfuzunun ölkələrimizin və xalqlarımızın daha da birləşməsinə xidmət edəcəyini vurğulamış, bu qurumda XXI əsrin tam mənada türk dünyası əsri olması üçün var qüvvəsi ilə çalışacaqlarını qeyd etmişdir” [10]. Azərbaycan prezidenti Heydər Əliyev yanvarın 16-da toplantı iştirakçılarını qəbul edərkən bu beynəlxalq təşkilatın fəaliyyətinə yüksək qiymət verərək demişdir: “... Türkdilli Dövlətlər Birliyi yaranandan indiyə qədər Türksoy təşkilatı hamıdan çox iş görmüş bir təşkilatdır” [11]. 2002-ci il yanvarın 28-30-da Qazaxıstanın Almata şəhərində təşkilatın 17-ci toplantısı keçirilmiş və tədbirin ilk günü Almatadakı Dövlət İncəsənət Muzeyində rəsm sərgisinin açılışı olmuşdur. Toplantıda təşkilatın Baş direktoru xüsusi olaraq vurğulamışdır ki, TÜRKSOY-un üzvü olan respublikaların mədəniyyət sahəsindəki əlaqələrinin genişləndirilməsində və təbliğində türk dövlətləri başçıları ilə yanaşı, Heydər Əliyev və Nursultan Nazarbayevin bu mühüm işə böyük diqqət, qayğı göstərmələri və təşkilatın fəaliyyətini yüksək qiymətləndirmələri əhəmiyyətli rol oynamışdır.

Bununla yanaşı qeyd etmək lazımdır ki, 2006-cı ildə Türkiyə Respublikasında keçirilmiş zirvə toplantısında qəbul edilmiş Antalya Bəyannaməsi və xüsusilə 2-3 oktyabr 2009-cu ildə Azərbaycan Respublikasının Naxçıvan şəhərində keçirilmiş Türkdilli ölkələrin dövlət baçşılarının IX Zirvə Toplantısında qəbul edilmiş Naxçıvan Bəyannaməsi də mədəni əməkdaşlıq sahəsində mühüm əhəmiyyət kəsb edir [12]. Belə ki, Naxçıvanda keçirilən IX Zirvə Toplantısında iştirak edən dövlət başçıları yeni təkliflərlə çıxış etmiş, Azərbaycan prezidenti İlham Əliyev TÜRKSOY fondunun təsis edilməsi haqqında, Qazaxıstan prezidenti Nursultan Nazarbayev isə Türkdilli Akademiyanın yaradılması barədə təkliflər vermişdilər [13].

Ümumiyyətlə yarandığı gündən Təşkilat mədəni əlaqələr sahəsində xeylı işlər görmüşdü. Qurumun Baş katibi Düşen Kaseinov “Amerikanın səsi” radiosuna verdiyi müsahibəsində təşkilatın yeni əsrin əvvəlindən indiyə qədər gördüyü işlərdən danışmışdı. O, hesabat dövründə “Ankarada TÜRKSOY-un 15 illiyinə həsr olunmuş yubiley tədbirləri, İstanbul, Ankara, Nide, Manisa şəhərlərində Novruz bayramının qeyd edildiyini bildirib. Ötən il ərzində, “TÜRKSOY rəssam və fotoqraflarının laboratoriyaları”, İstanbulda “Türk dillərinin bədii tərcüməsinin problemləri və müasir vəziyyəti”, Almatıda “Sivilizasiyaların dialoqunda Türk dünyasının rolu” adlı simpoziumlar, Elazığda 17-ci Beynəlxalq “Xəzər axşamları”, Qaramanda türk dilinin 732 illiyi, Mərsin, Girn, İstanbul şəhərlərində “Qız Jibek” əfsanəsinin 500 illiyinə həsr olunmuş XXII TÜRKSOY Opera günləri keçirilib. İstanbulda Tatarıstan və Başqırdıstanın mədəniyyət mərkəzləri açılıb və Sabantuy qeyd edilib, Ankarada “Xan Mirqen” qədim Xakasiya eposu kitabının, Abakan və İstanbulda “Başqırd səcərəsi” nin təqdimatı, teatr, kino, ənənvi musiqi festivalları keçirilib. Eyni zamanda sentyabrda Bişkek, Almatı, Ankara və Bakı şəhərlərində TÜRKSOY-un beynəlxalq layihəsi - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Başqırdıstan və Tatarıstan opera teatrları solistlərinin iştirakı ilə məşhur Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun “Koroğlu” operasının tamaşaya qoyulması böyük müvəffəqiyyətlə həyata keçirilib” deyə o qeyd edib [14].

Nəticə. Artıq biz Türk dünyasının dünya mədəniyyətinin inkişafında rolunun ilbəil artdığını müşahidə edirik. Belə ki, 2009-cu il Bakı İslam ölkələrinin mədəniyyət paytaxtı elan edilib, 2010-cu ildə isə İstambul Avropanın paytaxtı seçilib. Söz yox ki, gələcəkdə TÜRKSOY digər türk xalqlarının da mədəniyyətlərinin inkişafında və qovuşmasında mühüm rol oynayacaqdır. Əgər siyasi razılıq olarsa yaxın zamanlarda balkan, kərkük və uyğur türkləri də bu təşkilatda təmsil oluna bilərlər. Hesab edirik ki, istər TÜRKSOY istərsə də iki və çoxtərəfli münasibətlər çərçivəsində türk xalqları arasında mədəniyyət və incəsənət sahəsində əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, bu məqsədlə müxtəlif proqram və layihələrin birgə həyata keçirilməsi, mədəniyyət, incəsənət, təhsil, elm sahələrində beynəlxalq və milli təşkilatlarla, ictimai strukturlar və hərəkatlarla qarşılıqlı əlaqə yaradılması nəinki sözügedən xalqların, eləcə Avrasiya məkanında yaşayan çoxsaylı digər xalqların daha da bir-birinə yaxınlaşmasına və əməkdaşlığına yeni imkanlar açacaqdır.

Ədəbiyyat

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 1c., 8c., Bakı: Azərnəşr, 1997, 606 s., 1998, 488 s.

2. Ömərov V.A. Azərbaycan, Türkmənistan və Qırğızıstan mədəni əlaqələri. “Səs” qəz., 2013, 11 dekabr, №235, s.15.
3. İbadov N.S.Siyasi mədəniyyətin təsnifatına müqayisəli yanaşma // BDU, Tarix və onun problemləri, 2009, №1-2, s.299-304.
4. Mahmud Z.N.. Hisad əs-sinin, Qahirə, 1992, 423 s.
5. Гердер И.Г. Идеи к философии истории человечества. М.: Наука, 1977, 705 с.
6. http://www.mct.gov.az/Azərbaycan Resublikası Mədəniyyət və Turizm Nazirliyinin illik hesabatı, 2013.
7. http://www.onerjurnali.narod.ru/0002.htm/Kamil Muxtarov. Azərbaycan respublikası və Türksoy.
8. http://www.anl.az/el/h/hf_mdateka.pd / Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji əsasları (elm, təhsil, mədəniyyət).
9. http://www.anl.az/heliyev/he.htm/”Heydər/Əliyev/irsi”Beynəlxalq/elektron/kitabxana.
10. http://www.elibrary.az/docs/semer.Pdf./BeynəlxalqTURKSOYtəşkilatınınXV toplantısında Azərbaycan Respublikasının Mədəniyyət Naziri Polad Bulbuloğlunun cıxışı.
11. http://www.elibrary.az/xronologiya.pdf. // H. Əliyevin TURKSOY təşkilatının XV toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələri ilə görüşdə söhbəti.
12. http://www.mfa.gov.az/mədəni münasibətlər /2-3 oktyabr 2009-cu il tarixdə Azərbaycan Respublikasının Naxçıvan şəhərində keçirilmiş Türkdilli ölkələrin dövlət baçşılarının IX Zirvə Toplantısı.
13. http://www.gunaz.tv/gündəlik xəbərlər/TÜRKSOY-un Naxçıvanda keçirilən IX Zirvə Toplantısında iştirak edən dövlət başçıları yeni təkliflərlə də çıxış ediblər.
14. http://www.voanews.com /Azərbaycan/xəbərlər. TÜRKSOY-un Baş katibi Düşen Kaseinov “Amerikanın səsi” radiosuna verdiyi müsahibə.

РЕЗЮМЕ
РОЛЬ ЛИЧНОСТИ ГЕЙДАРА АЛИЕВА В КУЛЬТУРНЫХ СВЯЗЯХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ТЮРКСКИМИ ГОСУДАРСТВАМИ
Ибрагимов М.Н.

Ключевые слова: *культурные связи, «ТЮРКСОЙ», тюркоязычные страны, Союз Тюркских Государств.*

Выход бывших советских республик на международную арену в качестве независимых государств и определение собственных внешнеполитических приоритетов оказали непосредственное влияние на становление новой формы международных отношений в сфере культуры. В статье в основном анализируется значение регионального сотрудничества и взаимоотношений Азербайджанской Республики с другими тюркскими государствами в контексте культурных связей. Автор особо отмечает место и роль личности Гейдара Алиева в налаживании отношений между тюркскими государствами в рамках «ТЮРКСОЙ» и двустороннего сотрудничества.

SUMMARY
THE ROLE OF THE PERSONALITY OF HEYDAR ALIYEV IN THE CULTURAL RELATIONS OF THE AZERBAIJAN REPUBLIC WITH THE TURKIC STATES
Ibrahimov M.N.

Keywords: *cultural relations, “TURKSOY”, Turkic-speaking countries, Union of Turkic States.*

The entry of the former Soviet Republics into the international arena as independent states and the determination of their own foreign policy priorities had a direct impact on the formation of a new form of international relations in the field of culture. The article mainly analyzes the importance of regional cooperation and relations between the Republic of Azerbaijan and other Turkic states in the context of cultural ties. The author emphasizes the place and role of the personality of Heydar Aliyev in the establishment of relations between the Turkic states within the framework of “TURKSOY” and bilateral cooperation.

AZƏRBAYCANIN TÜRKDİLLİ DÖVLƏTLƏRLƏ ELM, TƏHSİL VƏ MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏLAQƏLƏRİ (2012-2022-Cİ İLLƏR)

Kəngərlinskaya Gülşən
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı, Azərbaycan
gulshan.kengerlinskaya@mail.ru

Açar sözlər: *türkdilli ölkələr, TÜRKSOY, mədəni əlaqələr, elm və təhsil, Azərbaycanın əlaqələri*

Maddi və mənəvi dəyərlərin toplusu olan mədəniyyətin inkişafı, xalqların mədəni irslərinin qorunaraq təbliğ edilməsi müasir dünyamızın mühüm qanunauyğunluqlarından hesab edilir. Xalqların daxili dünyasının zənginləşməsinə xidmət edən mədəni əlaqələr cəmiyyətin inkişafında müstəsna əhəmiyyətə malikdir. Milli nailiyyətlər mübadiləsinə əsaslanan Azərbaycan xalqı öz mədəniyyətini digər xalqlarla

münasibətlər prosesində inkişaf etdirir və bu əlaqələr içərisində bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmiş türk xalqları ilə münasibətlər xüsusi önəm daşıyır [1, s.61].

Dil bənzərliyi, din birliyi, tarixi köklərin və coğrafiyanın yaxınlığı türkdilli xalqların TÜRKSOY təşkilatında qovuşmasına möhkəm zəminlər yaratdı. Məhz TÜRKSOY təşkilatı türk mədəniyyəti nümunələrinin qorunması, tədqiq edilməsi kimi bir sıra vəzifələri fəaliyyətində əsas tutaraq, dünya mədəniyyətində türk mədniyyətinin mühüm rolunu təsdiq edir, türk dünyasının görkəmli tarixi şəxsiyyətləri, mütəfəkkir və şairləri, dövlət xadimləri Təşkilat xətti ilə təbliğ edilir [1, s.63-64]. Azərbaycan Respublikasının türkdilli ölkələrlə mədəni əlaqələri istiqamətində bir sıra ədəbi mədəni tədbirlərin keçirilməsi xalqların yaxılaşması strategiyasının ayrılmaz hissələrindən hesab olunur.

Etnik, dini, mədəni aspektlər baxımından Azərbaycana yaxın, sədaqətli tərəfdaş Türkiyə ilə elm, təhsil və mədəniyyət sahəsində əlaqələr son dərəcə yüksək səviyyəsi ilə fərqlənir. Azərbaycan və Türkiyə universitetləri arasında əməkdaşlıq müqavilələri mütəmadi olaraq yenilənir, birgə elmi tədbirlər təşkil olunur, Azərbaycanda Türkiyə, Türkiyədə isə Azərbaycan günləri qardaş xalqlar tərəfindən sevinclə gözlənilir. Bu cür tədbirlərdən biri 2017-ci ilin mayında Azərbaycanın paytaxtı Bakıda IV Islam həmrəyliyi oyunları günlərində İstanbul bələdiyyəsi, Türkiyə səfirliyi tərəfindən, Türkiyənin mədəniyyət və turizm nazirliyinin dəstəyi ilə təşkil edildi. Tədbir çərçivəsində, Sabir adına parkda – İçərişəhər divarları önündə musiqi kollektivlərinin iştirakı ilə Türk bazarının təqdimatı yerli əhali və xarici qonaqlar tərəfindən maraqla qarşılandı.

Dünya universitetləri ilə beynəlxalq əməkdaşlıq strategiyasına uyğun 2021-ci ilin dekabr ayında Bakı Dövlət Universiteti və Türkiyənin Fırat Universiteti arasında imzalanan memorandum əməkdaşlığın genişləndirilməsi, tədris və elmi mübadilə baxımından mühüm əhəmiyyət daşıyırdı. 2022-ci il Azərbaycan-Türkiyə mədəni əlaqələrində bir sıra yadda qalan tədbirlər baş tutdu. Azərbaycan Respublikasının Mədəniyyət nazirliyi ilə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi arasında işgüzar görüşlər mükəmməl səviyyədə mövcud əlaqələrə yeni rəng qatdı. Nazirliklər arasında görüşlərdə yeni layihələr müzakir olundu, Yunus Əmrə institutu ilə Azərbaycan Respublikasının Mədəniyyət nazirliyi arasında "Türkiyə Rezidans Proqramı" nın həyata keçirilməsi protokolu imzalandı.

Son illər, xüsusilə Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən sonra Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə münasibətlərində yüksək dinamika müşahidə olunur. Azərbaycan Respublikasının regionun türkdilli dövlətləri ilə əlaqələri yeni reallıqlara müvafiq olaraq inkişaf edir, strateji səviyyəyə yüksəlir [5]. Ötən əsrin 90-cı illərindən fəaliyyət göstərən "Azərbaycan-Qazaxıstan" dostluq cəmiyyəti Bakı-Astana arasında mühüm körpü rolunu yerinə yetirərək, bir kökdən olan qardaş xalqların mədəni əlaqələrində möhkəm bağlar qurmuşdur. İki ölkənin elm, təhsil, mədəniyyət sahələrində tədbirlər proqramları hazırlanaraq həyata keçirilir, mütəmadi olaraq Qazaxstan və Azərbaycan günləri təşkil olunur. 130 mindən çox azərbaycanlının doğma evinə çevrilən Qazaxıstanda azərbaycanlıların dil və ənənələrinin saxlanılması üçün imkanlar yaradılmışdır. Qazaxıstanda "Azərbaycanlıların mədəniyyət mərkəzlərinin ittifaqı" fəaliyyət göstərir ki, onun da tərkibinə 10 vilayət və 2 şəhər milli birlikləri daxildir [8]. Ölkələrin təhsil müəssisəsələri arasında əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır. 2015-ci ildə Bakı Dövlət Universiteti və Əl-Fərabi adına Qafqaz Universiteti arasında əməkdaşlıq haqqında iki memorandumda tələbə, müəllim, təcrübə mübadiləsi, birgə elmi simpoziumların, seminar və konfransların keçirilməsi, təhsil sahəsində bir sıra müsbət layihələr planlaşdırıldı.

2016-cı ilin 7-11 dekabr ayında Bakıda Qazaxstan Prezidentinin iştirakı ilə "Naməlum Qazaxıstan" mövzusunda təşkil edilən fotosərgi Azərbaycan xalqı tərəfindən dərin maraqla qarşılandı. 2017-ci ildə S.Nurmahambetov adına "Babalar izimen" Beynəlxalq ictimai xeyriyyə fondunun elmi ekspedisiya qrupu Bakı və Qazaxda olaraq qədim türk abidələri ilə bağlı tədqiqat işləri həyata keçirdilər [4]. 2020-ci ilin yanvar ayında Bakı Dövlət Universitetində qazax xalqının görkəmli ictimai xadimi və maarifçi Abay Kunanbayeiın 175 illiyinə və türk dünyasında "Abay Kunanbayev" ilinə həsr olunmuş açılış tədbiri baş tutdu.

Azərbaycan-Özbəkistan mədəni əlaqələrinin geniş vüsət almasında Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət mərkəzi 2013-cü ildən başlayaraq bir sıra mühüm tədbirlərə imza atır, qardaş Özbək xalqı ilə mədəni əlaqələrin möhkəmləndirilməsinə xidmət edir. Mərkəzin fəaliyyəti nəticəsində 2016-cı ildə Özbəkistan Dövlət Konservatoriyasında Ü.Hacıbəyov adına özbəkistan-azərbaycan musiqi mədəniyyəti kabineti, 2017-ci ildə Səmərqənd Dövlət Universitetində Seyid Rza Əlizadə adına Azərbaycan-Özbəkistan Dostluq Mərkəzi açılmışdır. 2018-ci ildə Özbəkistan Respublikasının İncəsənət və Mədəniyyət Universitetində təşkil olunan "Azərbaycan mədəniyyəti günü" Azərbaycan-Özbəkistan mədəni əlaqələri tarixində silinməz izlərini qoydu. Tədbir çərçivəsində Azərbaycanın görkəmli bəstəkarı Qara Qarayevin adını daşıyan Azərbaycanın mədəniyyət və incəsənət mərkəzinin açılışı baş tutdu, Azərbaycan tarixi, mədəniyyəti, musiqisi, incəsənəti haqqında kitablar, disklər, bədii filmlər, Azərbaycanın milli geyimləri və

alətləri Mərkəzə hədiyyə edildi. Hədiyyələr arasında Azərbaycanın görkəmli incəsənət xadimlərinin portretləri, Azərbaycan mədəniyyətini təmsil edən suvenirlər də var idi. Özbəkistandakı H.Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə Özbəkistanın İncəsənət və Mədəniyyət Mərkəzi arasında imzalanan Memorandumda müxtəlif mədəniyyət sahələri üzrə əməkdaşlıq, təcrübə mübadiləsi nəzərdə tutulurdu ki, bu da əsrlərlə mövcud tarixi əlaqələrin möhkəmləndirilməsi istiqamətində yeni mərhələ oldu.

Orta Asiyanın digər tükdilli dövlətləri kimi Qırğızıstanla da tarixi əlaqələrinə önəm verən Azərbaycan Respublikası rəhbərliyi bir sıra mədəni tədbirlərin təşəbbüsçüsü kimi çıxış edir. 2012-ci ildə Qıqrğızıstanın Bişkek şəhərində Türkdilli Dövlətlərin əməkdaşlıq Şurasının ikinci sammitində Azərbaycanın təşəbbüsü ilə "Türk mədəniyyəti və mirası vəqfinin yaradılması türk dövlətlərinin mədəniyyəti tarixində mühüm mərhələ oldu. Türk mədəniyyətinə aid dil, adət-ənənələr, mənəviyyat kimi dəyərlərin qorunaraq gələcək nəsillərə ötürülməsi Vəqfin fəaliyətinin ana xəttidir. 2020-ci ildə Türkmənistan Elmlər Akademiyasının seysmoloqiya və atmosferin fizikası institutu ilə Azərbaycan Milli Elmlər Akademiyasının seysmik idarələr institutu arasında qarşılıqlı anlaşma müqaviləsinin, həmçinin Türkmənistanın Mahtumquli adına dil, ədəbiyyat və milli əlyazmalar institutu ilə AMEA-nın Nizami Gəncəvi adına ədəbiyyat institutu arasında əməkdaşlıq müqaviləsinin imzalanması türkdilli xalqların elmi mübadiləyə önəmini əks etdirir.

2022-ci ilin sentyabrın 11-də Bişkekdə qırğız-azərbaycan dostluq parkının açılışı bu iki türk dövlətinin qardaşlıq simvollarından birinə çevrildi. 2022-ci ilin oktyabr ayında Qırğızıstanda Heydər Əliyev adına təhsil-tərbiyə kompleksinin–gimnaziyanın açılması Azərbaycanın ölməz liderinin xatirəsinə dərin sevginin göstəricisi idi. Elə həmin ay Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Qırğızıstan Respublikası Prezidenti Sadır Japarovun iştirakı ilə Bişkekdə N.Gəncəvinin adını daşıyacaq, müsir avadanlıqlarla təchiz edilmiş daha bir məktəbin açılış tədbiri baş tutdu [3].

2022-ci ilin iyun ayında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Aşqabada səfəri əməkdaşlığın növbəti istiqamətlərinin müəyyən edilməsində əhəmiyyətli oldu [2]. Nurməhəmməd Əndəlib, Məhtumquli Fraqi, Sultan Hüseyn Baykar kimi görkəmli türkmən klassiklərinin əsərlərinin, poeziya toplularının azərbaycan dilinə tərcümə və nəşr edilməsi iki dost xalq arasında ənənəvi mənəvi-mədəni əlaqələrin genişləndiyini sübut edir.

Azərbaycan Respublikasının türkdilli dövlətlərlə elm, təhsil və mədəniyyət sahəsində əlaqələri zəngin və müxtəlif olduğu qədər əhəmiyyətlidir. Bu əlaqələr çərçivəsində müzakirələr, yaradıcılıq gecələri, görkəmli şəxsiyyətlərin yubileyləri, festivallar təşkil olunur, ədəbi əsərlər tərcümə edilir, incəsənət günləri, poeziya günləri keçirilir, elmi əməkdaşlıq genişləndirilir.

Ədəbiyyat

1. Aslanova R. Türkdilli dövlətlərin inteqrsiyasının aktual problemləri. Tarix və onun problemləri. 2014, №3
2. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. https://president.az/- müraciət tarixi – 30.01.2023
3. Bişkekdə Qırğızıstan–Azərbaycan dostluq parkı açılıb. https://apa.az/az/resmi-xeber/biskekde-qirgizistan-azerbaycan-dostluq-parki-acilib-yenilenib-726829 – müraciət tarixi 30.01.2023
4. "Əcdadların izi ilə" mövzusunda dəyirmi masa keçirilmişdir. https://turk-pa.org/az/content/news/turkpa_news/369__cdadlarn_izi_il_mvzusunda_dyirmi_masa_keirilmidir – müraciət tarixi 20.01.2023
5. Qəribov A. Azərbaycan–Mərkəzi Asiya münasibətləri. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Bakı: Poliart MMC, 2017.
6. Özbəkistan Dövlət Konservatoriyasında Üzeyir Hacıbəyli adına musiqi mərkəzi yaradılmışdır.https://www.medeniyyet.az/page/news/15895/Ozbekistan-Dovlet-Konservatoriyasinda-Uzeyir-Hacibeyli-adina-musiqi-merkezi-.html – müraciət tarixi 03.02.2023
7. Türkmənistanın Azərbaycandakı səfirliyinin rəsmi saytı. https://azerbaijan.tmembassy.gov.tm/ru/turkmenistan/culture
8. "Посол: Дни культуры и Дни кино Казахстана планируется провести в Азербайджане в этом году. https://report.az/ru/vneshnyaya-politika/dni-kul-tury-i-dni-kino-kazahstana-projdut-v-azerbajdzhane-v-etom-godu/–müraciət tarixi 02.22.2023.

РЕЗЮМЕ

СВЯЗИ АЗЕРБАЙДЖАНА С ТЮРКОЯЗЫЧНЫМИ ГОСУДАРСТВАМИ В ОБЛАСТИ НАУКИ, ОБРАЗОВАНИЯ И КУЛЬТУРЫ (2012-2022 ГОДЫ)

Кенгерлинская Г.

***Ключевые слова**: тюркоязычные страны, ТЮРКСОЙ, культурные связи, Наука и образование, связи Азербайджана*

Исключительное значение в развитии общества имеют культурные связи, служащие обогащению внутреннего мира народов. Азербайджанский народ развивает свою культуру в процессе отношений с другими народами, и в этих отношениях особое значение имеют отношения с тюркскими народами. Языковое сходство, единство религии, близость исторических корней и географии подтверждают важную роль тюркской культуры в мировой культуре, создавая прочные основы для объединения тюркоязычных народов в организации ТЮРКСОЙ. Проведение ряда литературно-культурных мероприятий в направлении культурных связей Азербайджана с тюркоязычными странами является неотъемлемой частью стратегии сближения народов.

SUMMARY
AZERBAIJAN'S RELATIONS WITH THE TURKIC-SPEAKING STATES IN THE FIELD OF SCIENCE, EDUCATION AND CULTURE (2012-2022)
Kengerlinskaya G.

Keywords: *turkic speaking states, TURKSOY, cultural relations, science and education, relations of Azerbaijan*
Cultural relations are exceptional importance in the development of society. The Azerbaijani people develop their culture in the process of relations with other peoples, and relations with the Turkic peoples are of particular importance. The similarity of language, the unity of religion, the proximity of historical roots create a solid foundation for the unification of Turkic-speaking peoples in the organization of TURKSOY. Holding a number of literary and cultural events within the framework of the approchement of the peoples of the Turkic-speaking countries is an integral part of the strategy of the Republic of Azerbaijan.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN SİYASİ GÖRÜŞLƏRİNDƏ ATATÜRK ŞƏXSİYYƏTİNİN YERİ

Quliyev Elman Hilal oğlu
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan, professor
elman.guliyev1958@gmail.com

Açar sözlər: *Atatürk, Heydər Əliyev, türk, Türkiyə, Azərbaycan*

Giriş. Türk dünyasının iki nəhəng şəxsiyyəti və nəhəng siyasi liderləri olan Qazi Mustafa Kamal Atatürk və Ulu öndər Heydər Əliyev haqqında hər zaman düşünərkən və ya barələrində yazı yazmağa başlayarkən XI əsr türk mənəviyyatımızın qızıl kitabı "Divanı lüğət -it türk"də yer alan aşağıdakı sözlər bir anlığa düşüncələrimə hakim kəsilir: "Tanrının inayəti ilə günəş türk bürclərində doğdu və göylərin bütün dairələri onların mülkləri üzərinə döndü, Tanrı onlara türk adını verdi və onları yer üzünə hakim qıldı. Dövrümüzün xaqanlarını onlardan çıxardı, dünya millətlərinin idarə cilovunu onların əlinə tapşırdı, onları hamıdan üstün elədi, onları haqq üzrə qüvvətləndirdi" [2, s.54]. Bu sözlərin hikməti kimi zəngin və qədim tariximizin şan-şöhrəti olan Mete, Atilla, Alp Ər Tonqa, Oğuz Kağan, Əmir Teymur, Şah İsmayıl Xətai, Sultan Suleyman, Ərtoğrul, Osman Qazi, Qanuni Sultan Süleyman, Sultan Əbdülhəmid və s. türk siyasi liderlərinin, Mahmud Kaşğarlının sözləri ilə desək, "dünya millətlərinin idarə cilovlarını əllərində saxlamaq və hamıdan üstün olmaq" bacarıqlarının kökündə bir Tanrı inayətinin dayandığı təsdiqini tapır. Qədim türk inanclarından birində deyildiyi kimi: "Tanrı istəməsə kimsə hökümdar ola bilməz".

"Türk dünyasının əvəzsiz şəxsiyyəti, böyük öndər, dahi Mustafa Kamal Atatürk" (Heydər Əliyev) haqqında düşüncələrdə də bu hikmətdən doğan məntiqin aparıcılığı böyük önəm təşkil edir. Azərbaycanın xalq şairi Zəlimxan Yaqubun söylədiyi kimi:

Tanrı qüdrətiydi, Allahdı, nəydi,
Əyilməz başları önündə əydi.

Mustafa Kamal Atatürk geniş anlamda Tanrının türk dünyasına bəxş etdiyi mücadiləçi, xilaskar, dövlət qurucusu və s. olaraq BÖYÜK TÜRK idi. Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin poeziyasında Atatürk şəxsiyyətinin xilaskarlıq və liderlik missiyası belə ifadə olunur:

Zaman ötdükcə nədən səcdə qılır hər kəs ona
Bir böyük millətə hər gün ata doğmuş o ana
Atatürkün sinəsi, yurdun alınmaz qalası,
Atatürk millətinin həm atası, həm balası.

Atatürk bir lider olaraq elə bir əbədilik qazanmışdır ki, zaman-zaman dünyanın müxtəlif yerlərində onun şəxsiyyəti araşdırma obyekti olmuş, haqqında möhtəşəm filmlər çəkilmiş, sənətin və ədəbiyyatın baş obrazına çevrilmişdir.

Təbii olaraq Atatürk fenomeni siyasi liderlərin də daim maraq dairəsində olmuş, dünyanın bir çox nüfuzlu siyasi xadimləri Mustafa Kamal Atatürkün şəxsiyyətini, siyasi və milli-tarixi xidmətlərini yüksək dəyərləndirmişlər. Bu sırada müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin daha

böyük, eyni zamanda fərqli fikirləri xüsusi əhəmiyyət kəsb edir. Ulu öndər Heydər Əliyevin dahi şəxsiyyət Mustafa Kamal Atatürk haqqında söylədiyi fikirlər bir böyük türkün digər bir böyük türk haqqında, o cümlədən bir dövlətin dövlət təhlükəsizliyini təmin edən, ona əbədi müstəqillik bəxş edən siyasi liderin eyni taleyi yaşamış və eyni missiyanı yerinə yetirmiş başqa bir siyasi lider barəsində analitik düşüncə əsaslı ictimai-siyasi görüşlər sistemini təşkil edir. Heydər Əliyevin Mustafa Kamal Atatürklə bağlı fikirlərində hərtərəfli, eyni zamanda kompleks yanaşmanı izləmək mümkündür. Çünki vətənini və xalqını sevən, ona min bir tellə bağlı olan bir vətəndaş, bir türk və bir uzaqgörən siyasi lider kimi Heydər Əliyevin Türkiyəyə və onun qururcusu Mustafa Kamal Atatürkə sevgiləri səbəbsiz deyildi. 6 may 1997-ci il tarixində Ankarada bir jurnalistin- "Atatürkün adını tez-tez çəkməyiniz nə ilə əlaqədardır?"- sualına Heydər Əliyevin verdiyi cavabda bu sevginin səbəblərini aydın şəkildə görmək mümkündür:

"Mən Türkiyə haqqında, Türkiyə Cümhuriyyəti, onun keçdiyi yol barədə sadəcə olaraq öz fikirlərimi deyirəm. Mən dostam, qardaşam, Mustafa Kamal Atatürk haqqında dediyim sözlər yetərlidir. Əgər istəyirsiniz yenə də deyim".

Ulu öndər Heydər Əliyev "bir millət iki dövlət" prinsipini əsas götürərək Türkiyə ilə Azərbaycan arasında birliyin, inkişafın, siyasi marağların təməlində doğmalıq və qardaşlıq münasibətlərinin dayandığına xüsusi önəm vermişdir. Heydər Əliyev Azərbaycanla Türkiyə arasındakı qardaşlığın təməlində milli-tarixi bağlarla yanaşı, Atatürk ideyalarının da mühüm rol oynadığını xüsusi qeyd etmişdir. Heydər Əliyev bir çox çıxış və müsahibələrində Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir " sözlərini dilə gətirməklə Atatürk ideyalarında mövcud olan prinsipial Azərbaycan sevgisindən məmnunluq duymuş və Azərbaycanın Türkiyəyə münasibətində eyni mövqedə olduğunu xüsusi şəkildə qeyd etmişdir. Ulu öndər Heydər Əliyevin 8 may 1997-ci il tarixində "Çırağan" və "Suis" otellərində Türkiyənin "TRT", "Samanyolu", "NTV" televiziya kanallarının rəhbəri və Türkiyənin iş adamları ilə görüşlərindəki çıxışlarında həm Atatürkə olan rəğbətin şahidi olur, həm də Atatürkün Azərbaycanla bağlı atdığı addımların xarakter və əhəmiyyəti açıqlanır: "Türkiyə də, biz də böyük öndər Mustafa Kamal Atatürkün sözlərini tez-tez xatırlayırıq. O vaxtilə demişdir ki, Azərbaycanın dərdi bizim dərdimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir. Biz də deyirik ki, Türkiyənin dərdi bizim dərdimizdir, Türkiyənin sevinci bizim sevincimizdir. Mustafa Kamal Atatürk nə qədər müdrik adamdır. Bu sözləri hələ 30-cu illərdə demişdir. Onda hələ Ermənistan Azərbaycan arasında belə savaş, münaqişə yox idi, qan tökülmürdü. Ancaq o – böyük Mustafa Kamal Atatürk 1918-1920-ci illərdə həmin o erməni müəlliflərinin, daşnaklarının azərbaycanlıların başına nə bəlalar gətirdiklərini yaxşı bilirdi. Məhz Mustafa Kamal Atatürkün və onun kimi insanların iradəsi nəticəsində 1918-1920-ci illərdə Türkiyənin Qafqaz ordusu Azərbaycana gəldi, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda azərbaycanlıları erməni qırğınından xilas etdi. Biz bunları unutmuruq". Mustafa Kamal Atatürkün Azərbaycanla bağlı atdığı addımları sadalayarkən Heydər Əliyevin tarixə səyahəti məqsədli səciyyə daşıyır və bu yanaşma bir neçə baxımdan əhəmiyyət kəsb edir. Bu yanaşmada Atatürkün Azərbaycan sevgisi, türkün türkə qardaşlıq münasibəti, erməni daşnaklarının Azərbaycanın müxtəlif bölgələrində törətdikləri soyqırım hadisələri diqqətə çatdırılır və ən başlıcası isə Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyinə inam nümayiş etdirilir.

Heydər Əliyev Atatürkün Türkiyə üçün xidmətlərindən danışarkən onun dövlət quruculuğu fəaliyyətinə xüsusi önəm verir. O, Atatürkün müstəqil dövlət quruculuğu yolunda atdığı addımları alqışlayır, bu günkü Türkiyənin uğurlarının təməlində Atatürk ideyalarının dayandığını fəxr ilə diqqətə çatdırır. Heydər Əliyev Atatürkün dövlət yaratmaq yox, həm də dövləti yaşatmaq və inkişaf etdirmək yollarındakı xidmətlərini də təqdir etmiş, Türkiyənin milli-mənəvi dəyərlərə bağlı olmasında və bəşəri ideyalara inteqrasiyasında Atatürk yolunun əhəmiyyətinə böyük dəyər vermişdir. Heydər Əliyevin 30 oktyabr 1998-ci ildə İstanbulda "Mərmərə" qrupunun Strateji Araşdırmalar Vəqfinin keçirdiyi mərasimdəki nitqində Atatürkün Türkiyənin dövlətçilik tarixində tutduğu mövqe belə dəyərləndirilir: "Mustafa Kamal Atatürk Cümhuriyyəti yaratdı, amma eyni zamanda da onu qurdu, yaşatdı. Şübhəsiz ki, hər bir yeni işi yaratmaq asan deyil. Bu böyük iradə, ağıl, qəhrəmanlıq tələb edir. Ancaq qurulan hər bir şey yaşaya bilmir, Mustafa Kamal Atatürkün xidmətləri bir də ondan ibarətdir ki, o, Türkiyə Cümhuriyyətinin nəinki əsasını qoydu, həm də onu qurdu, onun bütün təsisatlarını yaratdı, onu yaşatdı, böyük dövlət etdi, bu günkü nəsillərə, gənclərə əmanət edərək özünü əbədiyyətə qovuşdurdu". Diqqət etdikdə görürük ki, Heydər Əliyev Atatürkün dövlət quruculuğu fəaliyyətindən danışarkən dövlətçilik üçün vacib olan bütün detallara toxunmuş, Atatürkün qurucu rəhbər obrazını göz önünə gətirməklə Atatürk yolunun uğurlarından bəhs açmış, bu günkü nəsli Atatürkə hədsiz hörmət və sədaqət ruhunda tərbiyələndirməyə çağırış etmişdir: "Böyük öndər Mustafa Kamal Atatürkün xidmətləri bu gün hər kəsin gözünün önünə gəlir. O, hər kəsin ürəyindədir... Biz Azərbaycanda çox sevinirik və fəxr edirik ki, Türkiyə Cümhuriyyəti ardıcıl olaraq, davamlı, sürətlə, inamla Mustafa Kamal Atatürkün yolu ilə gedir".

Heydər Əliyev Atatürk şəxsiyyətinə müasir Türkiyənin və türk xalqının bir zamanlar yaşamış olduğu keşməkeşli tarixi olaylar prosesində dəyər verir, bu məqsədlə onun misilsiz lider və böyük rəhbər keyfiyyətləri üzərində xüsusi dayanır. Eyni taleyi yaşayan insan kimi Heydər Əliyevin Atatürkə bu kontekstdə münasibətində Atatürk ucalığının mahiyyəti və təfərrüatları açıqlanır, tarixi simvola çevrilən Atatürk şəxsiyyətinə olan sevgi və rəğbətin səbəblərinə cavab tapılır. Qeyd etməliyik ki, Heydər Əliyevin natiqlik məharəti, o cümlədən təfərrüatları üzə çıxarıb mahiyyət müstəvisində dəyərləndirmək səriştəsi Atatürklə bağlı hər hansı analitik fikrin ortaya çıxmasını təmin edir. Məsələn, Atatürkün "Yurdda sülh, cahanda sülh, bölgədə sülh" prinsiplərini Azərbaycanın Qafqaz siyasəti üçün örnək hesab edən Heydər Əliyev müəyyən məqamlarda Atatürk yolunun Azərbaycan üçün də əhəmiyyət kəsb etdiyini açıq etiraf etməkdən çəkinmir.

Ulu öndərimiz Heydər Əliyevin 16 aprel 1999-cu il tarixində Türkiyə prezidenti Süleyman Dəmirəl ilə görüşündə söylədiyi nitq bu baxımdan xarakterikdir: "Azərbaycan xarici siyasətində və ilk növbədə Qafqazda apardığı strateji kursunda böyük Atatürkün "Yurdda sülh, cahanda sülh" prinsipləri gerçəkləşdirilərək daim həyata keçirilir".

Heydər Əliyevin Ankarada Atatürk məqbərəsini ziyarət etdiyi zamanlarda, o cümlədən 1997-ci ildə "Nərgiz tv" televiziyasının təsis etdiyi "Dünyada ilin adamı" və 1999-cu ildə Atatürk Beynəlxalq Sülh Mükafatı kimi ali təltiflərin təqdimində etdiyi çıxış və kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində Atatürkə olan sonsuz məhəbbətini bir daha diqqətə çatdırmış, aldığı mükafatın Atatürkün adını daşıdığı üçün indiyə qədər aldığı mükafatlardan üstün hesab etdiyini bəyan etmiş, Atatürk ideyalarının təkcə Türkiyə üçün deyil, həm də Azərbaycan üçün əhəmiyyətli olduğunu vurğulamışdır: "Böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan mükafatı almaq mənim üçün böyük şərəfdir. Hesab edirəm bu mükafat mənim indiyə qədər aldığım mükafatlardan ən alisidir". Heydər Əliyevin Atatürk məqbərəsini ziyarət etdiyi zaman Azərbaycandan gətirdiyi torpağı Atatürk məzarının yanına qoymasını bir neçə baxımdan əlamətdar hesab etmək olar. Bu bir tərəfdən eyni millət anlamında Azərbaycan-Türkiyə qardaşlığını, digər tərəfdən Azərbaycan xalqının Atatürkə olan sevgisini, başqa bir tərəfdən isə Heydər Əliyevin sözləri ilə desək "Azərbaycanın Mustafa Kamal Atatürkü özünün öndəri, özünün qəhrəmanı, özünün müdrik şəxsiyyəti hesab etməsini" əks etdirir.

Heydər Əliyev Azərbaycanda Atatürkün adını daşıyan küçə və meydanlardan danışarkən onları iki baxımdan xarakterizə etmişdir. Heydər Əliyev Bakıda, Gəncədə, Naxçıvanda, Sumqayıtda Atatürkün şərəfinə adlandırılan küçə və prospektləri Azərbaycanda Atatürkün adının əbədiləşdirilməsi ilə yanaşı, geniş mənada Türkiyənin nümayişi baxımından da əhəmiyyətli hesab edir.

Heydər Əliyev Türkiyə və türk dünyası qarşısında xidmətlərinə görə Mustafa Kamal Atatürkü xalqı üçün, torpağı üçün müqəddəslər müqəddəsi hesab etmiş, onun ideyalarına, qoyub getdiyi dəyərli irsinə böyük hörmət və ehtiramını ifadə etmişdir. Heydər Əliyev Atatürkün demokratik dövlət quruculuğundakı xidmətlərini, xarici qüvvələrin təsiri ilə Türkiyəni parçalanmaqdan qurtarmasını, Türkiyəni yeni inkişaf yoluna çıxararaq dünyanın aparıcı dövlətləri sırasında yer almasına nail olmasını və s. təkcə Türkiyə xalqının və Türkiyə dövlətinin deyil, həm də türk dünyasının xoşbəxtliyi hesab edir, bir Azərbaycan türkü və bir Azərbaycan dövlətinin prezidenti olaraq bununla fəxr etdiyini açıq şəkildə bəyan edir: "Biz hamımız bununla fəxr edirik ki, belə bir Türkiyə var, Mustafa Kamal Atatürk Cümhuriyyəti var".

Hesab edirik ki, ümummilli Heydər Əliyevin bu müdrik kəlamları bu gün olduğu kimi gələcəkdə də aktuallığını itirməyəcək və hər bir azərbaycanlının dilində əhəmiyyətli ifadə kimi səslənəcəkdir: "Nə yaxşı ki, Türkiyə var, nə yaxşı ki, Mustafa Kamal Atatürk Cümhuriyyəti var..."

Ədəbiyyat

1. Heydər Əliyev Atatürk haqqında. Bakı: AzAtaM, 2003
2. Kaşğari M. Divani lüğət-it türk. I c., Bakı , 2006
3. Hüseynova M. Missiya. Bakı: ADPU, 2019
4. Xudiyev N. Uğurlu yolun layiqli davamçısı. Bakı: Nurlan , 2007
5. Hudiyev N. Haydar Aliyev: devlet kuruculuğu ve dil politikası. Bakı: AzAtaM , 2005
6. Речь. Мустафа Кемал Ататюрк. Анкара: Бургаз, 2005

РЕЗЮМЕ

МЕСТО ЛИЧНОСТИ АТАТЮРКА В ПОЛИТИЧЕСКИХ ВЗГЛЯДАХ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

Кулиев Э.Х.

Ключевые слова: *Ататюрк, Гейдар Алиев, тюрк, Турция, Азербайджан*

Идеи, высказанные великим лидером Гейдаром Алиевым о гениальной личности Мустафе Кемале Ататюрке, составляют систему общественно-политических взглядов на одного великого Тюрка по отношению к другому великому тюрку. Гейдар Алиев, руководствуясь принципом "одна нация-два государства", придавал особое значение тому факту, что в основе единства, развития, политических интересов между Турцией и Азербайджаном лежат родственные и братские отношения. Гейдар Алиев особо отметил, что наряду с национально-историческими связями важную роль в основании братства между Азербайджаном и Турцией играют идеи Ататюрка. Во взглядах Гейдара Алиева на Ататюрка можно проследить комплексный подход

SUMMARY
THE PLACE OF THE PERSONALITY OF ATATURK IN THE POLITICAL VIEWS OF THE GREAT LEADER HEYDAR ALIYEV
Guliyev E.H.

Keywords: *Ataturk, Heydar Aliyev, turkish, Turkey, Azerbaijan*
The great leader Heydar Aliyev's thoughts about the genius Mustafa Kemal Atatürk form a system of socio-political meetings of one great Turk about another great Turk. Taking the principle of "one nation, two states" as the basis, Heydar Aliyev gave special importance to the fact that relations of kinship and brotherhood are the basis of unity, development, and political interests between Turkey and Azerbaijan.Heydar Aliyev specifically noted that the ideas of Atatürk played an important role in the foundation of the brotherhood between Azerbaijan and Turkey, along with national-historical ties. It is possible to observe a complex approach in Heydar Aliyev's ideas about Atatürk.Haydar Aliyev Azerbaycan ile Türkiye arasındaki kardeşliğin ve ulusal-tarihi bağların kurulmasında Atatürk'ün fikirlerinin önemli rol oynadığını özellikle kaydetmişdir.

HEYDƏR ƏLİYEV DÖVRÜNÜN XARİCİ SİYASƏTİ

Mədədzadə Könül Mahir qızı
Sumqayıt Dövlət Universiteti, Bakı, Azərbaycan, dosent

Açar sözlər: *xarici siyasət, prioritet, balans, əməkdaşlıq*

Xarici siyasət hər bir dövlətin müstəqilliyinin əbədiliyini təmin edən başlıca atributdur, fəaliyyətinin çox vacib, prioritet istiqamətlərindən biridir. Çünki ölkəni üzləşdiyi ağır siyasi, iqtisadi, sosial durumdan xilas etmək üçün ağıllı daxili siyasətlə yanaşı, həm də düşünülmüş, praqmatik xarici siyasət kursuna ciddi zərurət yaranmışdı.

Etiraf etmək lazımdır ki, müstəqilliyin ilk illərində Azərbaycan dövlətinin xarici siyasətdə buraxılmış səhvlər nəticəsində ölkəmiz beynəlxalq aləmdən təcrid olunmuşdu, müxtəlif təhdidlərlə, təzyiqlərlə üz-üzə qalmışdı. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev ilk günlərdən Azərbaycanın xarici siyasətini ölkənin strateji maraqlarına uyğun olaraq tamamilə yenidən qurdu.

Heydər Əliyev Azərbaycanın xarici siyasətində başlıca istiqamətləri müəyyən edərkən bütün dövlətlərlə, ilk növbədə qonşu Türkiyə, İran, Gürcüstan, Rusiya ilə, həmçinin Amerika, Avropa, Ərəbistan, Mərkəzi Asiya dövlətləri ilə bərabər hüquqlu əlaqələrin qurulmasını vacib hesab edirdi.

Heydər Əliyev xarici siyasətdə balanslaşdırılmış və praqmatik siyasət yürüdərək ölkədə öz nüfuzunu daha da möhkəmləndirdi, hakimiyyəti dövründə ona qarşı çevrilişləri uğurla aradan qaldıraraq baş verə biləcək daxili və xarici təzyiqləri azaltmağa nail oldu. Heydər Əliyevin daxili siyasətində siyasi sabitlik üstünlük təşkil edirdi, bununla yanaşı o, ölkənin daxili vəziyyəti ilə xarici siyasət arasındakı əlaqəni də nəzərdən qaçırmırdı. Buna görə də bir prezident kimi xarici güclərin ölkənin daxili işlərinə qarışmasının qarşısını ala bildi, həm də xarici siyasət variantları baxımından müstəqil addımlar atdı. Bu dövrdə Azərbaycanın xarici siyasətdə əsas prioriteti özünü bərqərar etmək və müstəqilliyini möhkəmlətmək idi.

Burada ən əsas məqsəd qonşu dövlətlərin ölkənin daxili işlərinə qarışmasının qarşısını almaq idi. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlar və Xəzər problemi də ölkənin özünü və regionda müstəqilliyini qəbul etdirməsi baxımından həllini gözləyən problemlər olduğuna görə, bu problemlərin həllinin açarı kimi ilk növbədə neft sazişlərini imzalamaqda gördü, 1994-cü ildə Ermənistanla atəşkəs sazişi imzalamaqla müharibəni dayandırdı, daha sonra enerji şirkətləri ilə enerji müqavilələri imzalandı. Heydər Əliyev prezident seçildikdən sonra Rusiya ilə anlaşaraq onun Ermənistana dəstəyini və Azərbaycanın daxili işlərinə qarışmasını dayandırmaq üçün sələfindən fərqli xarici siyasət yürüdəcəyini və Rusiya ilə münasibətləri hər istiqamətdə inkişaf etdirəcəyini bəyan etdi. 1993-cü il sentyabrın 20-də Azərbaycan Parlamenti MDB-yə üzvlüyü təsdiq etdi, 1993-cü il sentyabrın 24-də isə H.Əliyev Moskvaya gedərək MDB-yə üzvlük və birgə təhlükəsizlik və iqtisadi əməkdaşlıq müqavilələrini imzaladı. [1. s.23]

Digər tərəfdən, Heydər Əliyev İran, Türkiyə, Rusiya və Qərb arasında balanslaşmış siyasəti həyata keçirdi. Azərbaycan MDB-yə üzv olandan sonra Rusiya ilə dialoqa xüsusi önəm verdi, həmin dövrdə Azərbaycan Kollektiv Təhlükəsizlik Təşkilatına da üzv oldu.[2,s.65]

1994-cü ilin əvvəllərində, Rusiyanın təzyiqlərinə baxmayaraq, Qərb və Türkiyə ilə münasibətlərin inkişaf etdirilməsinə nail olundu, Azərbaycan-Türkiyə münasibətlərində hərbi əməkdaşlıq ön plana çıxdı. 1996-cı ildən Türkiyə azərbaycanlı zabitlərin hazırlanması prosesinə başladı və Azərbaycanın hərbi təhsil sistemini NATO səviyyəsinə çatdırmaq üçün dəstək verdi. Türkiyə ilə Azərbaycan arasında ən böyük razılaşma 1993-cü il sentyabrın 19-da Türkiyənin o vaxtkı xarici işlər nazirinin Azərbaycana səfəri zamanı reallaşdı. Səfər zamanı Heydər Əliyev Azərbaycan neftinin dünya bazarlarına nəqli üçün əsas ixrac marşrutu kimi Türkiyəyə üstünlük verəcəyini və Türkiyənin Azərbaycan ordusuna təlim keçməsini davam etdirəcəyini bildirdi. 1994-cü ilin fevralında Heydər Əliyevin Türkiyəyə səfəri zamanı *Türkiyə və Azərbaycanı bir millət, iki dövlət* adlandırması Türkiyə-Azərbaycan münasibətlərində yeni dövrün başlanğıcı oldu.

Heydər Əliyev Naxçıvana rəhbərlik etdiyi müddətdə İranla münasibətlərin nisbətən yaxşılaşdırılmasına nail olmuşdu. Bu müddətdə o, Ermənistanın mühasirəsində olan Naxçıvana kömək etmək üçün İran rəsmiləri ilə görüşmüş, 1993-cü ilin oktyabrında İranın o vaxtkı Prezidenti Haşimi Rəfsəncani Azərbaycana səfər etmişdi. Heydər Əliyevin 1994-cü il iyunun 29-da İrana səfəri də faydalı olmuşdu. Lakin İranla Ermənistanın işğal etdiyi Azərbaycan torpaqları arasında körpünün yenilənməsi ilə bağlı yayılan məlumatdan sonra münasibətlər yenidən soyuq məcraya yönəldi, Heydər Əliyev iranlı nazirlə görüşməkdən imtina etdi, Azərbaycanın Təbrizdə konsulluq açmaqla bağlı müraciətinə İranın mənfi cavab verməsi səbəbindən onun İrana səfəri də təxirə salındı. [2]

Dünyada əsas söz sahiblərindən biri kimi tanınan ABŞ-la da münasibətlərin qurulmasında və inkişaf etdirilməsində Heydər Əliyevin xidmətləri böyükdür. Sentyabrın 11-dən sonra ABŞ-ın Mərkəzi Asiya və Cənubi Qafqaza marağı Azərbaycanın qərbyönümlü xarici siyasət prosesini sürətləndirdi, eyni zamanda Rusiyanı balanslaşdırmaq asanlaşdı. Xüsusən də bu prosesdən sonra Rusiya və İran kimi dövlətlərin Azərbaycanı öz qütblərinə çəkmək cəhdləri Cənubi Qafqazdakı proseslərə yanaşmanı Orta Asiyada gedən proseslərdən fərqləndirməyə səbəb oldu.[1,s.49]

Heydər Əliyevin antiterror koalisiyasına verdiyi dəstək və Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin gerçəkləşdirilməsi, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Azərbaycan üzərindən Qərbə nəql edilməsi istiqamətində həyata keçirilən ardıcıl və qətiyyətli səylər nəticə etibarilə "Azadlığı dəstək aktı"na ədalətsiz 907-ci düzəlişin qüvvəsinin dayandırılmasına gətirib çıxardı. Bu, şübhəsiz, Heydər Əliyevin xarici siyasətinin böyük uğuru idi.

Bir sözlə, 11 sentyabr hadisələri Azərbaycanın xarici siyasətinə yeni ölçü və fəallıq gətirdi. ABŞ-ın yaratdığı antiterror alyansına qoşulan Azərbaycan Əfqanıstana 23, İraqa isə 150 əsgər göndərdi. Beləliklə, Azərbaycan-ABŞ hərbi təhlükəsizlik münasibətlərində yeni dövr başladı.[4]

Ümummilli lider Heylər Əliyevin xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsinə də böyük diqqət yetirilib. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması, onların fəaliyyətində müntəzəm, eləcə də fəal iştirak etməsi ölkəmizin beynəlxalq aləmdə tanıdılmasında və üzləşdiiyi problemlərin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynadı. Bu baxımdan 1994-cü il mayın 4-də imzalanmış "Sülh naminə tərəfdaşlıq" proqramı da Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu, NATO-nun hərbi strukturları ilə Azərbaycan Ordusunun sülh naminə əməkdaşlıq etməsi üçün əlverişli şərait yaratdı.

1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında əməkdaşlığa dair Sazişin imzalanması, 2001-ci il yanvarın 17-də Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi də Heydər Əliyevin xarici siyasətinin növbəti uğuru idi.

Dünyada ən mötəbər beynəlxalq qurumla - BMT ilə əlaqələrin qurulması və inkişaf etdirilməsi də Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır. Ümummilli lider BMT Baş Assambleyasının sessiyalarında və digər yüksək səviyyədə keçirilən müxtəlif, eləcə də çoxsaylı görüşlərdə bu əlaqələr inkişaf etdirildi. Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə o, 1994-cü ilin sentyabr ayında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirak edərək, bu beynəlxalq təşkilatın tribunasından ölkəmizin bir çox məsələləri ilə bağlı, xüsusilə Ermənistanın Azərbaycana silahlı təcavüzü haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdı. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən Baş Məclisinin xüsusi iclasında dünya dövlətlərinə müraciət edərək, mövcud qlobal problemlərə dair Azərbaycan dövlətinin prinsipial mövqeyini açıqladı, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırış etdi.

Həyata keçirilən tədbirlər nəticəsində BMT Təhlükəsizlik Şurasının münaqişənin həllinin ilə bağlı 822, 853, 874 və 884 saylı qətnamələrində, BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi A/RES/62/243

saylı qətnaməsində, habelə ATƏT və Avropa Şurasının müvafiq qərarlarında Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığı bir daha təsdiqləndi.

Ümumiyyətlə, Heydər Əliyevin 1993-2001-ci illərdə 80-dək ölkənin dövlət başçıları ilə keçirdiyi 500-dən çox görüş, eləcə də nüfuzlu beynəlxalq təşkilatların ən yüksək səviyyəli nümayəndələri ilə etdiyi söhbətlər, mötəbər sammitlər çərçivəsində aparılan müzakirələr öz bəhrəsini verdi. Hazırda Azərbaycanın dünyanın 170-dən çox dövləti ilə diplomatik münasibətləri vardır. Ölkəmizdə 81 diplomatik nümayəndəlik və konsulluq fəaliyyət göstərir. Öz növbəsində Azərbaycanın 67 ölkədə səfirliyi, 9 baş konsulluğu və 10 daimi nümayəndəlikləri mövcuddur. Azərbaycan mötəbər beynəlxalq təşkilatların üzvüdür və orada çox aktiv fəaliyyət göstərir. Avropa Şurasında, İslam Əməkdaşlıq Təşkilatında, BMT-nin Təhlükəsizlik Şurasında, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında, YUNESKO-da, digər nüfuzlu təşkilatlarda Azərbaycanın xüsusi yeri vardır. Ölkəmiz Avropa İttifaqının TRASEKA, "Yeni Qonşuluq", "Şərq tərəfdaşlığı" kimi proqramlarının aktiv iştirakçısıdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən qətiyyətlə, müvəffəqiyyətlə davam və inkişaf etdirilməsi nəticəsində Azərbaycan çox böyük uğurlara imza atır, ölkəmizin dünya birliyində mövqeyi ildən-ilə güclənir. Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi və mədəni proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Uğurlu xarici siyasət dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini Azərbaycana yönəldib. Bütün bunlara görə isə Azərbaycan xalqı Prezident İlham Əliyevlə bərabər, həm də ulu öndər Heydər Əliyevə minnətdar olmalıdır.

Ədəbiyyat

1. Aslanlı A. Denge Politikasının Doğal Sonucu: Aliyev'in Moskova Ziyareti, Bakı: Stratejik Analiz.Mart 2002
2. Mollazadeh C. Azerbaijan and The Caspian Basin: pipelines and Geopolitics // The Jorunal Of Post Soviet Demokratization. Vol. 6, Nu. 5. Winter:1998.
3. Nesipli N. Azerbaycan ve Moskova-Erivan-Tahran İttifakının Jeopolitik Kuşatması.
4. Cornell Svante: Azerbaycanın Daxili ve Xarici Problemleri. Müstəqilliyimizin On İlliyi, Azərbaycan Naminə İctimai Forum. Bakı: 2003.
5. Əliyev H. Müstəqilliyimiz əbədidir. 1-ci kitab. Bakı: Azərnəşr. 1997.

РЕЗЮМЕ

ВНЕШНЯЯ ПОЛИТИКА ПЕРИОДА ПРАВЛЕНИЯ ГЕЙДАРА АЛИЕВА

Мададзаде К.М.

Ключевые слова: *внешняя политика, приоритет, баланс, сотрудничество*

В статьте рассматривается внешняя политика периода правления общенационального лидера азербайжанского народа Гейдара Алиева в 1993-2003-х годах. Отмечается, что Г.Алиевым были определены пути выхода молодого Азербайджанского государства из сложившегося тяжелого политического, экономического, социального положения, признания его на международной арене, так же им были определены параметры внешней политики с целью предотвращения специально формировавшихся негативных мнений о нашей стране. В результате претворяемых мероприятий, за короткое время были налажены нормальные отношения с соседними государствами, в первую очередь, с Россией, Турцкий и Ираном, и установлено тесное двухстороннее сотрудничество с крупными государствами и международными организациями. Как следствие, Азербайджан приобрел имидж миролюбивого государства, которое с уважением относится к международному праву, являясь сторонником справедливости. Сбалансированная, отвечаюшая национальным интересам внешняя политика, основоположником которой является общенациональный лидер, и сегодня с успехом претворяется в жизнь.

SUMMARY

FOREIGN POLICY OF THE PERIOD OF HEYDAR ALIEV'S GOVERNMENT

Madadzadeh K.M.

Keywords: *foreign policy, priority, balance, cooperation*

The article deals with the foreign policy of the period of government of the national leader of the Azerbaijani people Heydar Aliyev in 1993-2003. It is noted that H.Aliyev determined the ways for the young Azerbaijani state to get out of the current difficult political, economic, social situation, its recognition in the international arena, he also determined the parameters of foreign policy in order to prevent specially formed negative opinions about our country. As a result of the implemented measures, in a short time, normal relations were established with neighboring states, primarily with Russia, Turkey and Iran, and then achieved close bilateral cooperation with large states and international organizations. As a result, Azerbaijan has acquired the image of a peace-loving state in the world, which respects international law, being a supporter of justice. A balanced foreign policy that meets the national interests, the founder of which is the national leader, is being successfully implemented today.

AZƏRBAYCAN RESPUBLİKASININ AVROPA BİRLİYİ İLƏ MÜNASİBƏTLƏRİ

Məhərrəmova Sona Səbəddin qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
ttm.17@mail.ru

Açar sözlər: *Avropa Birliyi, əməkdaşlıq, qonşuluq siyasəti, enerji siyasəti, layihələr*

Avropa İttifaqı 1989-cu ildə etibarən siyasi və regional baxımdan Şərqə doğru addımba-addım yaxınlaşmışdı. 1990-cı il noyabrın 19-21-də ATƏM-in 34 üzv ölkəsi Parisdə Zirvə görüşü keçirdi və Soyuq müharibənin sona yetməsi haqqında müzakirələrdən sonra "Paris Xartiyası" qəbul edildi. Bundan sonra Aİ postsovet məkanına doğru genişlənərək 2004 cü ildə 450 milyon əhalisi, 10,7 trilyon avroliq iqtisadi gücüylə dünyanın ən böyük daxili bazarına çevrildi və 2007-ci ildə üzv ölkələrin sayı 27-yə çatdı [10].

Avropa Birliyi ilə SSRİ arasınad 1989-cu il dekabr ayının 18-də əməkdaşlıq haqqında saziş imzalnsa da, Sovetlər Birliyinin dağılması ilə yeni siyasətin irəli sürülməsi zərurəti meydana çıxdı. Avropa Birliyi SSRİ-nin süqutundan dərhal sonra dekabr ayında Azərbaycan respublikasının müstəqilliyini tanıdı. Rəsmi Bakı öz tərəfindən postsovet məkanında meydana gəlmiş müstəqil dövlətlərin tanınması şərtləri timsalında Avropa Birliyinin irəli sürdüyü meyarlara hörmət etməyə hazır olduğunu bildirdi və [5, s.123-130] 1993-cü il fevral ayını 27-dən etibarən Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin əsası qoyuldu. Əvvəllər AB-nin strateji kursunda Qafqaz ölkələri arxa planda dururdusa, sonradan bu strategiyanın dəyişdiyini görürük. Bununla əlaqədar olaraq 1995-ci ilin dekabr ayında Madrid zirvəsində qəbul olunmuş ortaq xarici siyasət və milli təhlükəsizlik konsepsiyasında "Avropa siyasi gündəliyi" adlı siyasi proqram qəbul olunmuşdu. Proqrama əsasən, o zamana qədər AB ölkələrinin region dövlətləri ilə mövcud ikitərəfli münasibətləri indi AB-nin ümumi xarici siyasət kursuna daxil edilmişdir. Müzakirələrdən sonra Qafqaz və Mərkəzi Asiya regionuna AB-nin gepolitik və iqtisadi maraqları müəyyənləşdirildi.

Avropa İttifaqı ilə Azərbaycan arasında çoxtərəfli münasıbətlərin hüquqi əsası 1996-cı il aprelin ayının 22-də Lüksemburq şəhərində imzalanmış "Tərəfdaşlıq və Əməkdaşlıq" sazişi ilə qoyulmuşdur. Azərbaycan Prezidenti Heydər Əliyev imzalanma mərasimində Sazişin mahiyyəti və əhəmiyyəti haqqında demişdir: "Saziş hərtərəfli əməkdaşlığı genişləndirmək, insan hüquqlarını qorumaq, bütün Avropa qitəsində tərəqqiyə və səmərəli əməkdaşlığa nail olmaq üçün geniş üfüqlər açır. Azərbaycan Avropa ölkələri arasında inteqrasiya proseslərinin gələcəyinə böyük ümidlər bəsləyir və bərabərhüquqlu tərəfdaş kimi bu proseslərdə iştirak edəcəkdir" [3, c.II, s.502]. Azərbaycan ilə Avropa İttifaqı arasında ticarət, iqtisadi, texniki və sosial sahələrdə əməkdaşlığı nəzərdə tutan bu Saziş 1999-cu il iyulun 1-də qüvvəyə mindi. Bu Azərbaycanın Avropa Birliyinə inteqrasiya etməsi yolunda mühüm addım idi.

Avropa İttifaqı və Azərbaycan arasında siyasi əməkdaşlığın əsas istiqamətləri 1999-cu il iyunun 22-də Lüksemburq şəhərində keçirilən zirvə toplantısı zamanı imzalanmış Birgə Bəyyənnamədə öz əksini tapmış [5, 123-130] və 2004-cü il may ayının 18-də Aİ-nın 10 yeni üzv dövlətinin Aİ və Azərbaycan Respublikası arasında tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə qoşulmasına dair protokol imzalanmışdır. Burada əsas məqsəd siyasi dialoq üçün çərçivənin təmin edilməsi, demokratiya və iqtisadiyyatın inkişafına, bazar iqtisadiyyatına keçidin başa çatdırılmasına dəstək, ticarətin və sərmayə qoyuluşunun dəstəklənməsi, qanunvericilik, iqtisadiyyat, sosial, maliyyə, elm, texnologiya və mədəniyyət sahələrində əməkdaşlıq üçün əsasın yaradılmasıdır. Avropa Komissiyasını təklifi və onun tövsiyyələrinə əsasən 2004-cü ilin iyun ayında Azərbaycan Avropa Qonşuluq Siyasətinə (AQS) daxil edilmişdir [8]. Azərbaycan Prezidenti İlham Əliyevin 1 iyun 2005-ci il tarixli "Azərbaycan Respublikasının Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Sərəncamı Azərbaycan Respublikasının bu sahədə qarşıda duran vəzifələrin həyata keçirilməsi istiqamətində ardıcıl addımların atılması ilə bağlı idi.

Avropa Qonşuluq Siyasəti mövcud Tərəfdaşlıq və Əməkdaşlıq Şazişindən kənara çıxaraq əhəmiyyətli dərəcədə iqtisadi inteqrasiya və dərinləşən siyasi əməkdaşlıq da daxil olmaqla Avropa İttifaqı ilə daha da sıx əlaqələrin perespektivini təklif edir. Bu barədə Aİ-nın Xarici Əlaqələr və AQS üzrə Komissarı Benita Ferrero-Waldner qeyd etmişdir: "Avropa Qonşuluq Siyasəti Azərbaycanla münasibətlərimizi daha da inkişaf etdirmək imkanı verir. Bizim münasibətlərimizdə inkişaf ölkənin öz səy və uğurlarını əks etdirəcəkdir" [2]. Azərbaycanın uğurlarının nəticəsi idi ki, dövlət başçısı İ.Əliyevin 2006-cı ili noyabr ayında Brüsselə reallaşan səfəri zamanı Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində sıx əməkdaşlığa dair memorondum və Yeni Qonşuluq Siyasətinə dair "Fəaliyyət Proqramı" imzalanmış və əməkdaşlıqğın 2-ci mərhələsi başlamışdır. Proqram çərçivəsində Azərbaycan AB ilə iqtisadi, siyasi, hüquqi islahatların həyata keçirilməsində təşkilatın texniki-maliyyə dəstəyini alaraq, qarşıdakı 5 il ərzində respublikada siyasi və iqtisadi inkişaf meyyarlarını Avropa göstəricilərinə uyğunlaşdırılmasının təməlini

qoyacaqdır. Bu siyasət cəmiyyətin bütün strukturlarını əhatə edəcək. "Avropa evi"nin Bakıdakı kordinatoru Volfqanq Şporer bildirmişdi ki, Avropa Birliyi 2007-2010-cu illər arasında qonşuluq siyasətinin həyata keçirilməsi üçün 12 milyon avro qrant ayırıbdır. Ümumiyyətlə, Azərbaycanda fəaliyyət Planının həyata keçirilməsi üçün AB 92 milyon avro məbləğində vəsait ayırıbdır [9, s.65-70] ki, müqayisə üçün deyək ki, bu Gürcüstana və Ermənistana ayrılan məbləğdən azdır. Avropa İttifaqı Azərbaycanda bir sıra layihələrin həyata keçirilməsini dəstəkləmişdir. Bu proqramlardan biri 1991-ci il ildə qəbul edilmiş TACİS proqramıdır. Aİ TACİS proqramı çərçivəsində Azərbaycana müvafiq texniki və ekspert köməyi vasitəsi ilə bazar iqtisadiyyatına keçid, iqtisadi islahatların həyata keçirilməsini dəstəkləyir. 1991-ci ildən 2003-cü ilə qədər keçən dövr ərzində TACİS xətti ilə postsovet respublikaları ərazisində 185 layihə reallaşmışdır ki, bunlardan da 129-u Azərbaycanın iştirakı ilə baş vermişdir [5, s.127]. Aİ TACİS proqramı çərçivəsində 1992-ci ildən 2006-cı ilə qədər olan dövr ərzində Azərbaycana birbaşa 101.500 milyon avro (regional proqlamlarda iştirak zamanı ayrılan vəsait daxil edilmədən-S.M.) məbləğində vəsait yardım etmişdir. Ümumiyyətlə, biliklərin ötürülməsi, bazar iqtisadiyyatına və demokratiyaya keçid prosesini dəstəkləyən bu proqram çərçivəsində, Azərbaycana 116.5 milyon avro dəyərində vəsait yardım ayrılmışdır. Ümumiyyətlə, 1992-ci ildən 2005-ci ilin iyununa qədər AB Azərbaycana 384.994 milyon avro məbləğində vəsait yardım etmişdir [2].

AB ilə Azərbaycan arasında həyata keçirilən əhəmiyyətli digər layihələrdən biri TRASEKA (Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) proqramıdır. Bu proqram 1993-cü ilin may ayinin 7-də Brüsseldə Avropa Birliyi Komissiyasının təşəbbüsü ilə 8 təsisçi dövlət- 3 Cənubi Qafqaz və 5 Orta Asiya respublikasının ticarət və nəqliyyat nazirlərinin konfransında təsis olunmuşdur. Bu proqramın əsas məqsədi layihədə iştirak edən ölkələrin iqtisadi müstəqilliyini dəstəkləməklə onların alternativ nəqliyyat yolları vasitəsi ilə Avropa və dünya bazarlarına çıxış qabiliyyətini yüksəltmək, üzv dövlətlər arasında sonrakı regional əməkdaşlığı inkişaf etdirməkdən ibarətdir. Bu proqram çərçivəsində ən mühüm layihə "Tarixi İpək Yolunun bərpası"dır. Tarixi İpək Yolunun bərpasının təşəbbüsçüsü Avropa Birliyi, Azərbaycan və Gürcüstan Prezidentləri olmuşdur. 1996-cı ilin may ayında Mərkəzi Asiyadan yüklərin Xəzər dənizi-Azərbaycan-Gürcüstan-Qara dəniz vasitəsi ilə Avropaya daşınması barədə dörd ölkə-Gürcüstan, Azərbaycan, Özbəkistan və Türkmənistan Sərəxs şəhərində Tarixi İpək Yolunun bərpası haqında müqavilə imzalamışdılar, hansı ki, bu yol əvvəlki yoldan 2000 km qısa idi [4].

TRASEKA proqramı çərçivəsində Avropa İttifaqı həyata keçirilən layihələrə hər cür dəstək vermiş və 1998-ci il sentiyabrın 7-8-də Bakıda 32 ölkə və 12 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi Konfrans keçirilmişdi. TRASEKA layihəsi çərçivəsində Azərbaycanla 25 texniki və 11 investisiya layihəsinin həyata keçirilməsi dəstəklənnmişdi ki, bu layihələrin 26-da Azərbaycana edilən maliyyə yardımının ümumi məbləği 100 milyon avrodan artıqdır [9, s.65-70]. Bu haqda digər bir ədəbiyyatda isə fərqli məlumat verilir və göstərilir ki, 1993-2002 ci illər ərzində TRASEKA proqramı çərçivəsində 110 milyon avro məbləği dəyərində 53 layihə həyata keçirilmişdir. Bu layihələrdən 40-ı Azərbaycanda həyata keçirilib. Ən iri həcmli layihə isə 18 milyon dollar (ABŞ) olan Bakı portunun qurulması proqramı olmuşdur [12, s.150].

AB ilə əməkdaşlıq çərçivəsində Azərbaycan üçün ən mühüm proqramlardan biri İNOGATE (Neft və Qazın Avropaya beynəlxalq nəqli) layihəsi çərçivəsində həyata keçirilən proyektlərdir. Azərbaycan İNOGEYT proqramına 1999-cu il iyul ayının 22-də Kiyev sammitində 15 dövlətin iştirakı ilə imzalanan çərçivə Sazişini imzalamaqla qoşulmuşdur. TRASEKA və İNOGEYT proqramlarının uzlaşdırılması Azərbaycan ərazisindən 3 əsas marşurutun: 1.8 milyard ABŞ dolları dəyərində Bakı- Supsa(855 km), 2.5 milyard ABŞ dolları dəyərində Bakı-Novarasiysk (1483km), və dəyəri 4 milyard ABŞ dolları, uzunluğu 1769 km, ilə 50 milyon ton neft nəql imkanı olan BTC (25.05.05 ilk neft kəmərə vuruldu 28.05.06 Ceyhan limanına çatdı [7]) neft marşurutlarının inşasına imkan verdi. 1994-2000-ci illər ərzində bu proqram çərçivəsində 60 milyon avro məbləğində 25 layihə həyata keçirilmişdir ki, onun da 15-i Azərbaycanda həyata keçirilmişdir [12, s.150]. Bu marşurutların inşası Azərbaycanı öz karbohidrogen ehtiyatlarını Avropaya nəql etməsi ilə yanaşı, Mərkəzi Asiya ölkələrinin enerji ehtiyatlarının Avropaya tranziti imkanını da yaratmışdır. Bu da tranzit ölkə kimi Azərbaycanın mövqeyini möhkəmlənməsi və dövlət büdcəsinə əlavə gəlirlərin daxil olması deməkdir.

Məlum olduğu kimi, Enerji resuslarının dünya miqyasında idxalatçılarından biri Avropa İttifaqıdır. Avropa İttifaqı dünya enerji bazarında əsas aktorlardandır. Avropa dünya neft ehtiyatlarının 2 faizinə sahib olmasına baxmayaraq neft istehsalının 24 faizini verir. Avropa öz neft-qaz ehtiyatlarını sürətlə tükətdiyi üçün gələcəkdə enerji təminatı təhlükəsizliyi problemləri var. 2000-ci ildən etibarən Aİ-da enerji asılılığı mövcuddur. Burada Şimal dənizində neft-qaz ehtiyatları azalmaqdadır. 2000-ci ildə neft-qaz sahəsində Aİ 50 faiz idxaldan asılıydısa, 2030-cu ildə bu rəqəm 70 faiz olacaq [1, s.97].

Avropa İttifaqı bu riski aradan qaldırmaq üçün idxal mənbələrini difersifikasiya edir. Ümumiyyətlə dünya iqtisadiyyatının birtərəfli qaydada neftdən asılılığı ümumi təhlükəsizlik baxımından terroru artırır və

inkişafa mənfi təsir göstərir. Bu mənbələr içərisində Şimali Afrika, Xəzər dənizi, Fars körfəzi əsas yerdə dayanır. Xəzərin Azərbaycan sektorunda təxminən 3 milyard ton neftlə dolu olan 145 yataq var [6, s.52-57]. Bu həcmdə enerji ehtiyatlarının bazara çıxarılmasında da müəyyən problemlər ola bilərdi. Lakin Avropanın enerji problemləri Azərbaycanı onun üçün maraqlı edir. Enerji təhlükəsizliyinin sığortalanmasında Azərbaycan maraqları ilə Avropa maraqlarının üst-üstə düşməsi 7 noyabr 2006-cı ildə Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Varrozonun Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma Memorandumun imzalanması ilə nəticələndi.

Karbohidrogen ehtiyatlarının marketinqi-bazara çıxarılması və dəyərləndirilməsi Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinə təminat verir və Azərbaycanın xarici siyasət kursunun müəyyənləşdirilməsinə, həyata keçirilməsinə neft faktoru böyük təsir göstərir. Xəzər regionunun karbohidrogen ehtiyatlarının Avropaya çatdırılması üçün NABUKKO proyektini həyata keçirilməsi üzun sürən müzakirələrdən sonra razılaşdırıldı. Doğrudur bu layihə siyasi cəhətdən çox mübahisəlidir Burada İran qazının layihədə iştirak etməsinə ABŞ-ın narazılıq etməsi və proyektə alternativ kimi Türk-Rus "Mavi axın", Rusiya-İtaliya "Cənub axını" qaz boru kəməri layihələrinin inşa ediləcəyi, eləcə də Orta Asiya qazının boru kəmərinə qoşulmayacağı təqdirdə layihənin səmərəsizliyi nəzərdə tutulur.

Aİ özünün enerjiyə olan tələbatını tam təmin etmək və mənbələrin diferensiallığını təmin etmək (təbii qaz ehtiyatlarının alınmasında Rusiya asılılığından və təhdidlərindən yaxa qurtarmaq məqsədi ilə- S.M.) məqsədi ilə Azərbaycan və Mərkəzi Asiya ölkələrinin qaz ehtiyatlarının Avropaya, eləcə də dünyaya nəqlini dəstəkləyən və ilkin hesablamalara görə 8 milyard ABŞ dollarına başa gələcək, 2012-ci ildə isə istifadəyə verilməsi nəzərdə tutulan NABUKKO proyekti 2009-cu il iyul ayının 13 -də Türkiyədə tərəflər arasında rəsmən imzalandı. İmzalanma mərasiminə AB Komissiyasının sədri Joze Manuel Barroso, tərəf ölkələrin nzirləri və 20 ölkədən nazir səviyyəsində təmsilçinin qatılması NABUKKO proyektinin çox böyük strateji əhəmiyyətinə bir işarədir. Mərasimdə çıxış edən Türkiyənin Baş Naziri R.T.Ərdoğan demişdir ki, NABUKKO sadəcə bir təbii qaz kəməri deyil, qitələri və mədəniyyətləri birləşdirəcək bir xəttdir. Proyektdə ilk əvvəl Azərbaycan təbii qazı, sonrakı illərdə isə Misir, Türkmənistan, Qatar, Suriya və hətta Rusiya qazı Avropaya daşınmaqla, Avropanın 4-cü təbii qaz arteriyası olacaq [11].

Nəticədə qeyd etmək istəyirəm ki, Avropanın artan enerji ehtiyacları və Azərbaycanla bu sahədə maraqlarının üst-üstə düşməsi respublikamızın ərazi təhlükəsizlik məsələlərinin həllinə xidmət etməlidir. Belə ki, Avropa İttifaqı Ermənistana kömək əvəzinə, iki ölkə arasında sülh sazişinin imzalanmasında daha səmimi davransa yaxşı olar. 2003-cü ildən etibarən Avropa İttifaqının təhlükəsizlik strategiyasında Aİ üçün əsas təhlükələr regional konfliktlər, dövlətlərin dağılması, təşkil olunmuş cinayətkarlıq və terror aktları hesab edilir. 2004-2007-ci ildə Avropa Birliyinin Şərqə doğru genişlənməsindən sonra Aİ coğrafi baxımdan Cənubi Qafqaza yaxınlaşdı. Gələcəkdə Cənubi Qafqazın AB-nə inteqrasiya etməsi üçün münaqişələr həll edilməsi vacibdir. Yalnız belə olan təqdirdə Avropanın təhlükəsizlik strategiyasının əsas prinsiplərindən biri olan "Qonşuluqda təhlükəsizliyin möhkəmləndirilməsi" məqsədinə nail olmaq olar.

Ədəbiyyat

1. Abdolvandb Behrooz. Lutz Mez. Diversifizerung des Europäischen Gasbedarfs und die kaspischen Gasressourcen / Aghaev Mardan und Suleymanova Ruslana. Jahrbuch Aserbaidschanforschung 2008. Beiträge aus Politik, Wirtschaft, Geschichte und Literatur. Band 2. Berlin: Verlag Dr.Köster, 2008. 97-101 p.
2. Avropa İttifaqı-Azərbaycan. "Azərbaycan" qəz.., Bakı. 2005, 23 iyun
3. Azərbaycan beynəlxalq aləmdə. (Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1995-1996-cı illərdə xarıcı ölkələrə səfərlərinə dair materiallar) Tərtibçilər / Abdullayev E.İ., Muradov.F.İ. II c., Bakı: Göytürk, 1997, 761 s.
4. Azərbaycan Prezidenti Heydər Əliyev Begerdof konfransının Bakıda keçirilən iclasının iştirakçılarını qəbul etmişdir. AzərTAc. "Azərbaycan" qəz.., Bakı. 1998, 30 iyun.
5. Məmmədov.H.N. Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın əsas istiqamətləri // Tarix və onun problemləri, 2005, №1, 123-130.
6. Safiyev Rail. Aserbaidschan und europäische energiesicherheit / Aghaev Mardan und Suleymanova Ruslana. Jahrbuch Aserbaidschanforschung. Beiträge aus Politik, Wirtschaft, Geschichte und Literatur. Band 1. Berlin: Verlag Dr.Köster, 2007, 52-57 p.
7. SOCAR.gov.az/btc-az.html.
8. Son 5 ildə əhəmiyyətli dərəcədə güclənmiş Azərbaycan gələcəyə ümidlə, nikbinliklə baxır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi. "Azərbaycan" qəz., Bakı, 2008, 25 oktyabr.

9. Məhərrəmova S. Azərbaycan Respublikasının Almaniya Federativ Respublikası ilə münasibətləri (1991-2011-ci illər). Bakı: Turxan NPB, 2020, 207 s.
10. Uluslararası organizasyonlarda Almanya. p 1 of 1 / www.tatsachen-ueber-deutschland.de/tr/dis-politika/inhaltsseiten/hintergrund/ul.
11. Nabucco resmen imzalandı. www.hurarsiv.hurriyyet.com.tr/haber.aspx?id=12060579&tarih=2009-07-13.
12. Алиев.Н. Азербайджан-Европейский Союз:состояния и анализ экономического сотрудничества. // Diplomatiya Aləmi, yanvar-mart, 2005, №10, 143-150 с.
13. Магеррамова С.С. К вопросу об основных приоритетах и направлений внешней политики Азербайджанской Республики // Вопросы истории. Ежемесячный журнал РАН – Москва, 2022 11 (1), с 268-279

РЕЗЮМЕ
ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ЕВРОПЕЙСКИМ СОЮЗОМ
Магеррамова С.С.

Ключевые слова: *Европейский союз, сотрудничество, политика соседства, энергетическая политика, проекты.*

Азербайджанская Республика благодаря своему экономическому и политическому потенциалу установила многогранные отношения сотрудничества с Европейским Союзом, который имеет значительное влияние в международном мире. Отношения с Евросоюзом по-прежнему осуществляются в рамках специальных программ. Эти программы охватывают широкий спектр экономических, социальных и культурных отношений со странами-партнерами и в основном направлены на проведение реформ внутри нашей республики. В статье представлена подробная информация о широких связях Азербайджанской Республики с Европейским Союзом.

SUMMARY
RELATIONS OF THE REPUBLIC OF AZERBAIJAN WITH THE EUROPEAN UNION
Maharramova S.S.

Keywords: *European Union, cooperation, Neighborhood policy, energy policy, projects*

Due to its economic and political potential, the Republic of Azerbaijan has established multifaceted cooperation relations with the European Union, which has significant influence in the international world. Relations with the European Union are still carried out within the framework of special programs. These programs cover a wide range of economic, social and cultural relations with partner countries and are mostly aimed at carrying out reforms in the internal life of our republic. The article provides detailed information about the broad relations of the Republic of Azerbaijan with the European Union.

EU'S ENERGY RELATIONS WITH AZERBAIJAN AS AN ALTERNATIVE ENERGY EXPORTER

Mirzazadeh Murad
School of Governance, Law and Society Department of International Relations
Tallinn University, Estonia
muradmirze@gmail.com

Key words: *energy resources, energy projects, cooperation, security, strategy*

The article is about EU-Azerbaijan energy relations, so, Azerbaijan's rich energy resources, particularly its natural gas reserves, have played a crucial role in meeting the EU's energy demands, particularly in South Eastern Europe. The Southern Gas Corridor, which was established to transport Azerbaijani natural gas to the EU, has also been a key component of the EU's external energy engagement strategy, in particular the REPower EU plan.

Concluded with that, EU-Azerbaijan energy relations have a great potential to continue to develop and strengthen in the future. Azerbaijan's increasing production of natural gas, together with the EU's efforts to diversify its energy mix, will further contribute to a stable and secure energy supply for the region. The enhanced energy cooperation between the EU and Azerbaijan will be mutually beneficial and will play a vital role in the EU's energy security and diversification strategy.

First, it should be indicated that Azerbaijan's energy policy is created by Haydar Aliyev, with the Contact of Century in 1994. Azerbaijan's energy strategy focuses on attaining long-term energy self-sufficiency. As the country is a net energy exporter, it has already attained energy independence. The energy and industrial sectors are the critical generators of CO2 emissions in Azerbaijan whereas the agriculture and forestry sectors generate the principal carbon sinks and land use change. Burning fuel in the production of

energy, oil and gas extraction, and transportation emits CO2 emissions in the energy field which indirectly puncture the ozone layer in the atmosphere. Additionally, the industry sector consistent with the growth of the metallurgy sector led to a vast increase in GHG emissions. [3,p. 29]

In order to decrease greenhouse gas emissions and improve energy efficiency, the According to the Decree of the President of Azerbaijan Republic Ilham Aliyev, created the State Program on the Use of Alternative and Renewable Energy Sources (SAARES) in 2004, and it was established in 2009. As an incentive, firms working in the renewable energy field are not required to pay customs duties or taxes. [2,p.1156] The conflicting goals of the European Union and Azerbaijan have led to a deadlock in discussions about their agreements. The EU's reliance on Azerbaijan's abundant energy resources has diminished the EU's ability to promote democratic reform in Azerbaijan. This policy brief suggests that a successful policy towards Azerbaijan would involve a balance of both moral principles and practical considerations, achieved through exerting influence over Azerbaijan and better coordination among EU member states and institutions. [1,p. 282-292] The EU and Azerbaijan are currently in talks to establish a new comprehensive agreement, which would facilitate greater cooperation across various sectors such as economic development, investment, trade and the promotion of civil society. Additionally, the agreement would emphasize the significance of human rights and the rule of law. On July 19th, the EU-Azerbaijan Cooperation Council was held a meeting in Brussels to evaluate their overall relationship and identify potential areas for collaboration in the future. The Cooperation Council was chaired by Minister of Foreign Affairs J. Bayramov. The High Representative of the European Union for Foreign Affairs and Security Policy and Vice President of the European Commission, Mr Josep Borrell, led the EU delegation. EU Commissioner for Neighbourhood and Enlargement, Olivér Várhelyi participated in the meeting. [5] The European Union has been making efforts in partnership with other countries to reduce dependence on a single source of energy and curb the increase in energy prices for several months now. In the EU's external energy engagement strategy in support of the REPower EU plan, the Commission acknowledged that the Southern Gas Corridor is vital in the diversification of natural gas supply to the EU, particularly for countries in South Eastern Europe. The Commission has consistently supported the expansion of the Southern Gas Corridor as a significant means to ensure secure, dependable, and foreseeable natural gas supplies in South Eastern Europe and, potentially, also in the Western Balkans, by means of the Trans Adriatic Pipeline. The Memorandum of Understanding on a Strategic Partnership in the Field of Energy signed by the leaders of both countries today, commits to increasing the capacity of the Southern Gas Corridor to provide a minimum of 20 billion cubic meters of natural gas annually to the EU by 2027. This will aid the EU's goals of diversifying energy sources and decrease dependence on Russian gas outlined in the REPowerEU Plan. As a result of the enhanced energy cooperation, Azerbaijan has already begun to increase the amount of natural gas it provides to the EU, from 8.1 billion cubic meters in 2021 to a projected 12 billion cubic meters in 2022. [6]

In the end, the article should be finished as the President of the Republic of Azerbaijan said in his speech. "Today, Azerbaijani gas contributes to Europe's energy security. Azerbaijan is already recognized and appreciated by the European Union officials as a reliable partner. Of course, we also understand this responsibility."

Bibliography

1. Ciarreta, A., & Nasirov, S. (2012). Development trends in the Azerbaijan oil and gas sector: Achievements and challenges. *Energy Policy, 40*.
2. Huseynova, H. (2015). Alternative and Renewable Energy Outlook for Azerbaijan 2014.
3. Ibrahimov, R. (2010). Azerbaijan Energy Strategy And The Importance Of The Diversification Of Exported Transport Routes. *Journal of Qafqaz University*.
4. Vidadili, N., Suleymanov, E., Bulut, C., & Mahmudlu, C. (2017). Transition to renewable energy and sustainable energy development in Azerbaijan. Renewable and Sustainable Energy Reviews, 80, 1153-1161.
5. Merabishvili, G. (2015). *The EU and Azerbaijan: Game on for a more normative policy*. Centre for European Policy Studies.
6. European Commision - Press Release (2022)

XÜLASƏ

AB-NİN AZƏRBAYCAN İLƏ ALTERNATİV ENERJİ İDXALÇISI KİMİ ENERJİ ƏLAQƏLƏRİ

Mirzəzadə M.

Açar sözlər: *enerji resursları, enerji layihələri, əməkdaşlıq, təhlükəsizlik, strategiya*

Tədqiqat işində Avropa Birliyi və Azərbaycanın enerji əlaqələri , eləcə də, Azərbaycanın zəngin enerji resursları, təbii qaz rezervləri, Cənub Qaz Dəhlizi vasitəsilə Cənub-şərqi Avropaya qaz ixrac olunması məsələləri də daxil olmaqla əks olunmuşdur.

Qeyd edilmişdir ki, AB-Azərbaycan enerji layihələrinin gələcəkdə potensial inkişafı və güclənməsi mövcuddur. Azərbaycanın təbii qaz istehsalının artması regiondakı enerji təhlükəsizliyinin təminatının artması deməkdir. AB-Azərbaycan enerji əlaqələrinin inkişafı Avropa enerji təhlükəsizliyinin və diversifikasiya strategiyasında əsas rol oynayacaqdır.

РЕЗЮМЕ

ЭНЕРГЕТИЧЕСКИЕ СВЯЗИ ЕС С АЗЕРБАЙДЖАНОМ – КАК ИМПОРТЕРА АЛЬТЕРНАТИВНОЙ ЭНЕРГИИ

Мирзазаде М.

***Ключевые слова**: энергетические ресурсы, энергетические проекты, сотрудничество, безопасность, стратегия*

В исследовательской работе отражены вопросы энергетических связей Европейского союза и Азербайджана , а также богатых энергетических ресурсов Азербайджана, резервов природного газа, экспорта газа в Юго-Восточную Европу через Южный газовый коридор.

Было отмечено, что существует потенциальное развитие и усиление энергетических проектов ЕС-Азербайджан в будущем. Увеличение добычи природного газа в Азербайджане означает повышение обеспечения энергетической безопасности в регионе. Развитие энергетических связей ЕС-Азербайджан будет играть ключевую роль в европейской стратегии энергетической безопасности и диверсификации.

TÜRK DÖVLƏTLƏRİ BİRLİYİNİN TƏŞƏKKÜLÜNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

Nəsirova Nərgiz Məhəmməd qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
nargiz917@gmail.com

Açar sözlər: *türk dövlətləri, əməkdaşlıq şurası, zirvə görüşləri, status, dinamik inkişaf*

Heç kəsə sirr deyil ki, bu gün dünyanın siyasi palitrası bir-birinə ziddiyyət təşkil edən, insanların həyatını faciələrə düçar edən, gələcəyi böyük təhlükələrlə üz-üzə qoyan çalarlarla xarakterizə olunur. Beynəlxalq müstəvidə güc dövlətləri arasında münaqişələrin, qarşıdurmaların, qütbləşmənin getdikcə dərinləşməsi dünyada izaholunmaz, heç bir proqnoza uyuşmayan situasiyalara rəvac verir, ortaya çıxan problemlərin həllində siyasi dialoq, diplomatiya gücsüzlük nümayiş etdirir, hərbi gücə, silaha üstünlük verilir. Belə bir vəziyyətdə siyasi, iqtisadi, hərbi və s. məqsədlərə xidmət edən müxtəlif platformaların yaradılması təbiidir. Lakin bu birliklərin yaradılmasında başlıca məqsəd ilk növbədə öz fəaliyyətini beynəlxalq hüququn prinsipləri əsasında həyata keçirmək, başqa dövlətlərə heç bir təhdid, təhlükə yaratmamaq, üzv dövlətlər arasında ölkələrin və xalqların mənafelərinə xidmət edən qarşılıqlı əlaqələrin, sıx əməkdaşlığın qurulması olmalıdır.

Böyük iftixar hissi və qürurla qeyd etmək lazımdır ki, 150 milyondan çox insanın yaşadığı coğrafi ərazini əhatə edən, eyni kökə, dilə, dinə, mədəniyyətə malik 5 dövləti (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyə) özündə birləşdirən Türk Dövlətləri Birliyi məhz ədalətli missiyası ilə dünyada tanınan və hörmətlə yanaşılan beynəlxalq qurumdur. Əvvəlcə bu Birliyin keçdiyi tarixi yola qısa nəzər salaq:

-hələ XX əsrin əvvəllərində Mustafa Kamal Atatürkün uzaqgörənliklə dediyi *"Türk birliyinə inanıram və onu görürəm"* sözləri əsrin sonunda reallaşmağa başladı;

-1992-ci il oktyabrın 30-da Türkiyənin Ankara şəhərində keçirilmiş Türkcə Danışan ölkələrin Zirvə toplantısında əməkdaşlığın təməli qoyuldu və Zirvə Görüşləri sonralar müxtəlif ölkələrdə təşkil olundu;

-1993-cü il iyulun 12-də Qazaxıstanın Almatı şəhərində türk xalqlarının mədəni birliyini müdafiə məqsədilə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyənin mədəniyyət nazirləri tərəfindən TÜKSOY təşkilatı yaradıdı;

-2009-cu il oktyabrın 3-də Azərbaycanın Naxçıvan şəhərində keçirilmiş Zirvə Görüşündə təsisçilər: Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə əməkdaşlığın yeni formatını müəyyənləşdirərək təşkilatı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adlandırmaq barədə qərar qəbul etdilər;

-2012-ci il avqustun 22-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bişkekdə keçirilmiş II Zivvə toplantısında qurumun bayrağı qəbul edildi;

-2019-cu il oktyabırn 15-də Bakıda keçirilmiş VII Zirvə Toplantısında Özbəkistanın təşkilata üzvlüyü təsdiq edildi;

-2021-ci il noyabrın 12-də Türkiyənin İstanbul şəhərində keçirilən VIII Zirvə toplantısında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adı dəyişdirilərək Türk Dövlətləri Təşkilatı adlandırıldı və onun statusu daha da yüksəldi.

Qurumun ilk gündən etibarən yaradılmasında və inkişafında Azərbaycan dövlətinin də yaxından iştirakı qürurvericidir. Təşkilatın bütün toplantılarında Azərbaycanın yüksək səviyyədə təmsil olunması, 4 Zirvə görüşünün məhz Azərbaycanda təşkili, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması ilə bağlı sazişin Naxçıvan şəhərində imzalanması ölkəmizin üzərinə götürdüyü öhdəlikləri uğurla yerinə yetirməsinə bariz sübutdur. Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilmiş IX Zirvə Görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, *"Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir"*. [1]

Tarixi araşdırmalar sübut edir ki, Ulu öndər Heydər Əliyev türk dövlətləri arasında sıx əlaqələrin yaradılmasına və inkişafına daim həssaslıqla yanaşıb və buna xüsusi diqqət göstərib. Onun türkdilli dövlətlərin rəhbərləri, həmçinin TÜRKSOY-un təmsilçiləri ilə keçirdiyi çoxsaylı görüşlərdə türkdilli xalqlar və dövlətlər arasında sıx əməkdaşlığın qurulması və genişləndirilməsi məsələləri qırmızı xətlə keçir. Heydər Əliyev Naxçıvana rəhbərlik etdiyi ilk günlərdən qardaş Türkiyə ilə əlaqələrin qurulmasına səy göstərdi, bir millətin iki dövlətini birləşdirən "Ümid körpüsü"nin tikilməsinə, blokada şəraitində olan Naxçıvan bölgəsi ilə Türkiyə arasında gediş-gəlişin, ticarət əlaqələrinin asanlaşdırılmasına, əhalinin düçar olduğu çətin vəziyyətdən xilas edilməsinə nail oldu.

1994-cü ildə imzalanmış Əsrin Neft Kontraktına əsasən neft kəmərinin Bakıdan Türkiyəyə-Ceyhana çəkilməklə ixrac edilməsi ideyasının müəllifi də Heydər Əliyev idi. Bu da Türkiyə-Azərbaycan əlaqələrinin möhkəmləndirilməsində mühüm rol oynadı.

Ulu öndər türk dövlətləri arasında sıx əlaqələrin qurulmasının vacibliyini daim vurğulayırdı. 6 noyabr 1996-cı il tarixində Azərbaycan dövlətinin memarı TÜRKSOYun Bakıdakı toplantısı çərçivəsində keçirilmiş türk dünyası yazıçılarının III qurultayında demişdi ki, bizim köklərimiz eyni dilə, dinə, mənəviyyata bağlı olduğu səbəbindən çox dərindir. Tarix boyu rastlaşdığımız çətinliklərə baxmayaraq inkişafımız olmuşdur və indi də türk dünyasının əlaqələrinin daha da möhkəmləndirməliyik, bu bizim borcumuzdur. [2, s. 10]

Heydər Əliyev Türkiyə ilə qardaşlıq əlaqələrini möhkəmlətməklə bərabər, Orta Asiyadakı türkdilli respublikalarla da sıx əməkdaşlığı hər zaman diqqət mərkəzində olmuşdur. O, 18 oktyabr 1994-cü il tarixində dövlət başçılarının İstanbul sammitində bu sahədə vəzifələrdən danışarkən demişdi ki, ötən dövr ərzində Azərbaycanın Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan ölkələri ilə əlaqələri zəif olmuşdur, lakin, Azərbaycan münasibətlərin qorunub möhkəmlənməsinə daim çalışacaqdır. Eyni zamanda bildirmişdir ki, ölkələrimiz arasındakı münasibətlərin tarixi kökləri,əsrlərə dayanan adət-ənənə birliyi, dil və fəaliyyət birliyi əsasında qurulmuşdur. [3, s.401-402]

Tarixi faktlar göstərir ki,Türkiyə və Orta Asiyanın türk dövlətləri arasında salınmış bu etibarlı körpü Ulu öndər Heydər Əliyevin prezidentliyi dövründə təşəkkül tapdı, inkişaf etdi və möhkəmləndi. O, 1994 və 2001-ci illər ərzində həyata keçirilmiş türk dünyası dövlət başçılarının sammitlərində şəxsən iştirak edərək, çıxış etmiş və bu əməkdaşlıq formatının yaradılması məqsədilə həmişə təşəbbüskar mövqe nümayiş etdirmişdir.

Müasir dövrümüzdə ölkəmizin Orta Asiyadakı türk respublikaları ilə münasibətlərinə, həmin respublikaların Türkiyə ilə əməkdaşlıq mənzərəsinə nəzər salsaq, ölkələrin hamısında Heydər Əliyevin fikirlərini, müəllifliyini,təşəbbüslərini görmək mümkündür. Onun 1994-1998-ci illərdə türk xalqlarının mədəni abidələrinin, böyük ədiblərinin, görkəmli şəxsiyyətlərinin yubiley mərasimlərində iştirakı, türkmən şairi Məhdimqulunun, qazax ədəbiyyatının klassiki Abayın, böyük özbək hökmdarı Əmir Teymurun, qırğız eposu "Manas"ın yubiley mərasimlərindəki çıxışları, 1998-ci ildə Bakıda, Azərbaycanın ev sahibliyi ilə "Böyük İpək yolu" layihəsinin təməlinin qoyulması, sonrakı illərdə Özbəkistan, Qazaxıstan, Türkmənistan, Azərbaycan və Türkiyənin iştirakı ilə bu yöndə yeni təşəbbüslərin ortaya çıxması, hazırda gerçəkləşən mühüm layihələr türk xalqlarının inteqrasiyasına əməli töhfələrdir.

Heydər Əliyevin 26 aprel 2001-ci il tarixində İstanbulda keçirilən Türkdilli Dövlətlərin Zirvə görüşündə dediyi bu sözləri isə 21-ci yüzillik üçün qurumun fəaliyyət proqramı hesab etmək olar. O bildirir ki, türkdilli dövlətlər dünyanın ən vacib coğrafi-strateji bir ərazisində yerləşir. Bu dövlətlər əlverişli mövqeyə, zəngin təbii ehtiyatlara,yüksək potensiallı intelektual kadrlara malikdirlər. Milli azadlığımız, dövlət müstəqilliyimiz və müştərək işbirliyimizin-bir sözlə tarixi nailiyyətlərin daha da möhkəmlənməsi nəticəsində nail olacağıq. [4,s.393]

Hazırda müstəqil türk respublikaları və xalqları arasında müxtəlif sahələri əhatə edən əlaqələrin genişləndirilməsinə xidmət edən bu təşkilatın nəzdində Ümumi Katiblik, Türk Dövlətləri Parlament Assambleyası və Beynəlxalq Türk Akademiyası olmaqla, 3 mərkəz fəaliyyət göstərir. Fəaliyyətin əsas məqsədi isə beynəlxalq hüquq çərçivəsində üzv ölkələr arasında qarşılıqlı etimadın və əməkdaşlığın

möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, əlverişli investisiya mühiti yaratmaqla dayanıqlı inkişafın təmin edilməsi, beynəlxalq cinayətkarlığa və təhdidlərə qarşı birgə mübarizənin təşkilidir.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş türk dövlətləri ilə sıx əlaqələrin yaradılması siyasəti Azərbaycan Prezidenti İlham Əliyevin səyləri nəticəsində qətiyyətlə davam etdirilir. Qardaş Türkiyə ilə 2021-ci il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsi iki ölkə arasında əməkdaşlığın strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini göstərir. Ölkə başçılarının yürütdükləri müdrik siyasət nəticəsində Azərbaycanla Orta Asiya dövlətləri arasında bərqərar edilmiş dostluq və əməkdaşlıq münasibətləri məmnunluq doğurur. İstanbulda keçirilən Zirvə görüşündə Prezident İlham Əliyevin türk birliyinin daha da güclənməsi işinə töhfələrinə görə Türk Dünyasının Ali Ordeninə layiq görülməsi, türk dövlətləri ilə ticarət dövriyyəsinin həcminin 20 milyard dolları ötüb keçməsi bu əlaqələrin dinamik inkişafının göstəricisidir.

11 noyabr 2021-ci ildə Özbəkistanın Səmərqənd şəhərində Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə çıxışında Türk dünyasının böyük bir ailə olmasını söyləyən Prezident İlham Əliyev birliyin qarşısında duran mühüm vəzifələr barədə demişdir ki, əməkdaşlığımızı siyasi, ticari, mədəni, nəqliyyat, iqtisadi, turizm, təhlükəsizlik müdafiə, müdafiə sənayesi vasitəsilə fəallaşdırmalıyıq. [1] Ölkə başçımızın bu təşəbbüsünün digər türk dövlətlərinin rəhbərləri tərəfindən birmənalı olaraq dəstəkləməsi bütün iştirakçıların əməkdaşlığı daha da genişləndirməkdə və inkişaf etdirməkdə maraqlı olduğunu göstərir.

İllər ötdükcə Türk Dövlətləri Təşkilatının beynəlxalq gücü və nüfuzu artır. Türkmənistanın müşahidəçi statusundan üzvlüyə keçmə istəyi, bir sıra, hətta qeyri-türk dövlətlərinin bu birliyə artan marağı yaxın gələcəkdə qurumun əhatə dairəsinin xeyli genişlənəcəyindən xəbər verir. Eyni zamanda təşkilatın üzv ölkələrdən kənarda yaşayan çoxsaylı türklərin problemlərinin həllinə də diqqət yetirəcəyi şübhəsizdir. Azərbaycan Prezidenti İlham Əliyev IX Türk Dövlətləri Təşkilatının Zirvə Görüşündə Güney Azərbaycanda yaşayan 40 milyona yaxın soydaşımızın problemini açıqlayaraq bu istiqamətdə fəaliyyətin vacibliyini vurğulaması belə deməyə əsas verir. O, demişdir ki, Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın assimilyasiyaya uğramaması, hüquq, təhlükəsizlik və milli kimliyinin qorunması kimi məsələlərini daim diqqət mərkəzində saxlamağın vacibliyini bildirmişdir. [1]

Cəsarətlə demək mümkündür ki, Türk Dövlətləri Təşkilatı müasir dünyanın daha mükəmməl, güclü, ədalətli, dövlət və xalqlarının mənafeyini qətiyyətlə müdafiə edən, bütün prinsipial məsələlərdə eyni mövqeyi sərgiləyən, öz tərəqqipərvər, humanist məqsəd və fəaliyyəti ilə seçilən beynəlxalq platforma kimi səciyyələndirilir. Onun gücünün mənbəyi şüarında daha dolğun əks etdirirlib- “Biz birlikdə daha güclüyük”.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin rəsmi Internet saytı “President.az”. 11 noyabr 2022-ci il.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir. 8-ci kitab. Bakı: Azərnəşr, -1998.
3. Əliyev H. Müstəqilliyimiz əbədidir.2-ci cild. Bakı: Azərnəşr. -1997.
4. Əliyev H. Müstəqilliyimiz əbədidir. 33-cü cild. Bakı: Azərnəşr. -2011.

РЕЗЮМЕ

РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ОРГАНИЗАЦИИ СОЮЗА ТЮРКСКИХ ГОСУДАРСТВ

Насирова Н.М.

Ключевые слова: *тюркские государства, совет сотрудничества, встречи на высшем уровне, статус, динамичное развитие.*

В статье представлена информация об истории создания Союза Тюркских Государств, влиятельным на международной арене современности, о его основателях, целях, задачах, встречах на высшем уровне, также отмечается роль Азербайджана в организации и деятельности этого Союза, подчеркивается историческое значение подписанного договора в городе Нахчыван.

Отмечается постоянное и чуткое отношение великого лидера Гейдара Алиева к установлению и развитию тесных отношений между тюркскими государствами, его особый вклад на установление сотрудничества между тюркоязычными народами и государствами на многочисленных встречах, проводимых с руководителями тюркоязычных государств, а также представителями ТЮРКСОЙ, отмечается его личное участие на заседаниях организации, ценные речи, озвученные им предложения в выступлениях.

В завершении отмечается деятельность Президента страны Ильхама Алиева, направленная на совершенствование работы Союза.

SUMMARY

HAYDAR ALIYEV'S ROLE IN THE ORGANIZATION OF THE TURKISH STATES UNION

Nasirova N.M.

Key words: *Turkish states, cooperation council, summit meetings, status, dynamic development*

The article provides information on the history of the establishment of the Union of Turkish States, the influential international platform of the modern era, its founders, goals, tasks, summit meetings,also there is emphasized the role of Azerbaijan in the organization and operation, and the historical significance of the signed agreement in the city of Nakhchivan.

Then, the great leader Heydar Aliyev's constant sensitive approach to the establishment and development of close relations between the Turkish states, his special emphasis on establishing cooperation between the Turkish-speaking people and states in numerous meetings held with the leaders of the Turkish-speaking states, as well as the representatives of TURKSOY, his personal participation in the organization's meetings, and the valuable speech he voiced in his speeches initiatives are discussed.

In the end, the President of the country, Ilham Aliyev, draws attention to the work done by the Union regarding improving its activities.

MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİ (1993-2003-CÜ İLLƏR)

Orucov Soltan Bəhmən oğlu
A.A.Bakıxanov adına Tarix İnstitutu. Bakı, Azərbaycan
orucovsoltan2@gmail.com

Açar sözlər: *ümummilli, suveren, lider, müstəqil, xarici, siyasət, qələbə*

XX əsrin axırlarında dünyada baş verən qlobal proseslər, SSRİ-nin dağılması beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiya vəziyyətin yaranmasına səbəb oldu. Post sovet məkanında meydana çıxan yeni müstəqil dövlətlərin bilavasitə beynəlxalq münasibətlər sisteminə qatılması və öz maraqlarını ifadə edən xarici siyasət xəttini həyata keçirməyə başlaması dünyada dövlətlərarası münasibətlərin yeni nizamının formalaşmasına gətirib çıxardı.

Belə bir tarixi şəraitdə Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etməsi ilə az bir müddə ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmən tanındı. Rəsmən tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-yə üzv qəbul edildi.

30 avqust 1991-ci ilə qəbul edilmiş "Müstəqillik haqqında Bəyannamə" və 1991-ci il 18 oktyabr tarixli "Müstəqillik haqqında Konstitusiya Aktı"nın qəbul edilməsi ilə Azərbaycan Respublikasının müstəqil xarici siyasət aparmasına geniş yollar açırdı. [4, s.396]

İyunun 15-də Ali Sovetin Sədri seçilən və 3 oktyabr 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev xarici siyasətin başlıca məqsədi və vəzifələri barədə deyirdi: " Bizim xarici siyasətimiz birinci növbədə dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyəini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü nəyin bahasına olursa olsun xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq." [3, s.316]

Azərbaycan Respublikasının tarixi siyasətinin əsas istiqamətləri aşağıdakı kimi müəyyənləşdirildi: Ermənistanın hərbi təcavüzünü dayandırmaq və ölkənin ərazi bütövlüyünü təmin etmək; qonşu dövlətlərlə münasibətləri normallaşdırmaq; ABŞ, Avropa dövlətləri, Asiya və Afrika ölkələri ilə münasibətlər; beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq.

Azərbaycan xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyyətləri 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyada, Prezident Heydər Əliyevin nitqlərində öz əsərini tapmışdır. Konstitusiyanın 10-cu maddəsində göstərilir ki, Azərbaycan başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qurur. [2, s. 385]

Ölkə başçısının qarşısında duran əsas vəzifələrdən ən önəmlisi Ermənistanın hərbi təcavüzünü dayandırmaq və diplomatik fəaliyyətlə bu təcavüzü beynəlxalq aləmdə tanıtmaq idi. Bu vəzifəni yerinə yetirməkdən ötrü geniş diplomatik siyasi fəaliyyətə başlayan Heydər Əliyev həm çoxtərəfli, həm də ikitərəfli formatda diplomatiyadan geniş istifadə etdi. Münaqişənin həlli ilə bilavasitə ATƏT-in Minsk qrupu məşğul olduğundan Heydər Əliyev ATƏM-in vasitəlik səylərini müdafiə etdi. [3, s.318] O, 1993-cü il iyunun 2-də ABŞ, Türkiyə və Rusiyaya müraciət etdi. Beynəlxalq təşkilatların səylərinə baxmayaraq Ermənistan silahlı qüvvələri 1993-cü ilin iyul ayının 23-də Ağdam rayonunu işğal etdi. Heydər Əliyev iyulun 24-də BMT Təhlükəsizlik Şurasının sədrinə müvafiq məktubla müraciət etdi. Müraciətə cavab olaraq Təhlükəsizlik Şurasının iyulun 29-da 3259 saylı iclasında Azərbaycan Respublikasının Ağdam rayonu və digər işğal olunmuş ərazilərdən işğalçı qüvvələrin tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 853 saylı qətnamə qəbul edildi. [3, s.319]

Heç bir Beynəlxalq qüvvələrin səylərinə məhəl qoymayan erməni hərbi birləşmələri Ağdamın ardınca avqustun 23-də Füzuli və Cəbrayıl, avqustun 31-də Qubadlı rayonunu, oktyabrın 29-da Zəngilanı işğal etdi.

Beləliklə, Heydər Əliyevin gərgin diplomatik-siyasi fəaliyyəti nəticəsində münaqişənin həlli üçün beynəlxalq hüququn norma və prinsiplərindən, Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrdən doğan beynəlxalq hüquqi və siyasi əsaslar yaradıldı. Dövlət başçısının diplomatik səyləri nəicəsində mayın 9-da 1994-cü ildə Ermənistan və Azərbaycan tərəfi mayın 12-dən etibarən atəşkəs elan etdilər.

Uğurlu xarici siyasət aparmaqla paralel olaraq Heydər Əliyev torpaqları işğaldan azad etməkdən ötrü ölkə daxilində bütün sahələrdə islahatları dərinləşdirdi, iqtisadi, siyasi və hərbi cəhətdən güclü dövlət qurmaq üçün səyləri artırdı.

1993-2003-cü illərdə Azərbaycan Respublikasının xarici siyasətində mühüm istiqamətlərdən biri qonşu dövlətlərlə münasibətlər olmuşdur. 1994-cü il fevralın 8-10-da Prezident Heydər Əliyev Türkiyəyə rəsmi səfər etdi. Prezident Süleyman Dəmirəl və digər rəsmi şəxslərlə danışıqlar zamanı hər iki ölkə arasında əhəmiyyətli və anlaşılan sənədlər imzalanmışdır. Səfərin yekununa aid qəbul edilən birgə bəyanatda iki ölkə arasında münasibətlərin mövcud vəziyyəti və perspektivləri əks olunmuşdur.

Səfər zamanı Ankarada Azərbaycan səfirliyinin yeni binasının təməlqoyma mərasimi olmuşdur. [3, s.331]

Azərbaycan Respublikasının xarici siyasətində Rusiya Federasiyası və münasibətlər xüusi yer tutur. Heydər Əliyevin Ali Sovetə rəhbərlik etdiyi dövrdə 5-8 sentyabr 1993-cü ildə olmuş səfəri xüsusilə əhəmiyyətli oldu. Azərbaycan Respublikası MDB-yə üzv qəbul edildi. Bundan sonra Cənubi Qafqazda sabitliyin bərpası məqsədilə müsbət addımlar atıldı.

Növbəti 1996-cı il yanvarın 18-də Prezident Heydər Əliyevin Moskvaya səfəri Azərbaycan neftinin Rusiya ərazisindən nəql edilməsi barədə 10 maddədən ibarət saziş imzalandı. 2-4 iyul 1997-ci ildə Prezident Heydər Əliyevin Rusiyaya rəsmi səfəri xüsusi əhəmiyyə kəsb edir. Səfər zamanı siyasi, iqtisadi və digər münasibətlər sahəsində olan məsələlər müzakirə edilib.

Rusiya dövlət başçılarının da Azərbaycana səfəri xüsusi əhəmiyyət kəsb edir. Mayın 7-də 2000-ci ildə Rusiya Prezidenti seçilən Vladimir Putin 2001-ci il yanvarın 9-11-də Azərbaycana səfər etdi. Səfər zamanı hər iki ölkə arasında ticarət, sərhədlər, hərbi sahədə əməkdaşlıq və s. Kimi məsələlər öz əksini tapmışdı. Heydər Əliyev Vladimir Putinin Azərbaycana səfərini tarixi hadisə adlandırırdı.

Sözügedən dövrdə İran İslam Respublikası ilə münasibətlər xüsusi yer tutur. Hər iki ölkə arasında yığılıb qalmış problemləri həll etmək üçün yüksək səviyyəli danışıqlara ehtiyac var idi. 1993-cü il oktybrın 26-28-də İran İslam Respublikasının Prezidenti Əkbər Haşimi Rəfsəncaninin Azərbaycana, 1994-cü il iyunun 29-dan iyulun 2-dək Prezident Heydər Əliyevin Tehrana səfəri hər iki ölkə arasında soyuqluğu aradan qaldırmış və danışıqlar zamanı ikitərəfli və regional münasibətlərə aydınlıq gətirildi. [5, s.191]

1993-2003-cü ilərdə Amerika Birləşmiş Ştatlarla münasibətlər xüsusi yer tutur. Azərbaycanın ABŞ-a olan marağı bəzi mühüm məsələlərin həllində xüsusən Dağlıq Qarabağ məsələsinin həlli və dövlət müstəqilliyinini möhkəmləndirmək, ağır iqtisadi və sosial şəraitdən çıxmağı idi.

ABŞ Prezidenti Bill Klinton 10 may 1997-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevi ABŞ-a rəsmi səfərə dəvət etdi. 1997-ci il iyulun 27-dən avqustun 5-dək Prezident Heydər Əliyev ABŞ-a rəsmi səfər etdi. Səfərdə başlıca məqsəd iki ölkə arasında əlaqələri nizama salmaq, münasibətlərin bütün sahələrində hərtərəfli inkişafa nail olmaq idi. [1]

Prezident Heydər Əliyevin 2000-ci il fevral ayına ABŞ-a işgüzar səfəri zamanı Bill Klintonla görüşündə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi Dağlıq Qarabağın münaqişəsiz dinc yolla həlli və digər dövlətlər arası əhəmiyyətə malik olan məsələlər müzakirə olunmuşdur.

Prezident Heydər Əliyev 1993-2003-cü illərdə dövlətə rəhbərliyi dövründə Gürcüstana (mart 1996-cı il, mart 2000-ci il), (Qazaxıstana sentyabr 1996-cı il), Türkmənistanla (dekabr 993-cü il, may 1994-cü il), Almaniyaya (iyul 1996-cı il), Böyük Britaniyaya (fevral 1994-cü il), Fransaya (dekabr 1993-cü il, yanvar 1997-ci il), İtaliyaya (sentyabr 1997-ci il) etdiyi səfərlər dövlətlərarası münasibətlərin tənzimlənməsində böyük rolu olmuş və Azərbaycanın dövlət müstəqiliyyinin qorunmasında xüsusi əhəmiyyətə malik olmuşdur.

Beləliklə, Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərdə müstəqil dövlətimizin tərəqqisi üçün möhkəm təməl yaradılmışdı. Aparılan düzgün xarici siyasət nəticəsində müstəqil Azərbaycan dövləti müasir dünya ölkələri sırasında özünə layiqli yerlərdən birini tutmuşdur. Bu da onu deməyə əsas verir ki, Ulu Öndər Heydər Əliyevin apardığı siyasət düzgün və məqsədyönlü siyasət idi.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfəri (27 iyul- 6 avqust 1997-ci il) https://lib.aliyev-heritage.org/az/6555664.html
2. Azərbaycan Respublikasının tarixi (2003-2016). 2-ci cild. İlham Əliyev dövrü. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi. 2016.- 716.s 385.s
3. Azərbaycan Respublikasının tarixi. Üç ciddə. II cild. Azərbaycan Respublikasının Heydər Əliyev epoxası: 1993-2003. Bakı: Elm, 2022, - 448 s.
4. Əliyev H. İki cilddə. 2-ci cild. Bakı: Turxan NPB, s. 2013-704 , s 396
5. Əliyev H. Tehranda mətbuat konfransında bəyanatı. 2 iyul 994-cü il. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 2-ci kitab, s.704, s.191.

РЕЗЮМЕ
ВНЕШНЯЯ ПОЛИТИКА НЕЗАВИСИМОЙ РЕСПУБЛИКИ АЗЕРБАЙДЖАН
(1993-2003 годы)
Оруджев С.Б.

***Ключевые слова**: национальный, суверенный, вождь, независимый, иностранный, политика, победа.*

В целом внешняя политика Азербайджана является надежной гарантией национальной безопасности страны. Это позволило сохранить дипломатическую стратегию, заложенную великим лидером Гейдаром Алиевым, и в то же время направленную на создание благоприятных внешних условий для обеспечения устойчивого развития страны. Он дал импульс процессу исторического развития Азербайджана. Гейдар Алиев как основатель независимого Азербайджанского государства создал идеологическую основу нашей национальной государственности.

SUMMARY
FOREIGN POLICY OF THE INDEPENDENT REPUBLIC OF AZERBAIJAN
(1993-2003 years)
Orujov S.B.

***Keywords**: National, sovereign, leader, independent, foreign, politics, victory*

As a whole, Azerbaijan's foreign policy is a reliable guarantee of the country's national security. This made it possible to maintain the diplomatic strategy, which was founded by the great leader Heydar Aliyev, and at the same time aimed at creating favorable external conditions to ensure the sustainable development of the country. He gave impetus to the historical development process of Azerbaijan. Heydar Aliyev, as the founder of the independent state of Azerbaijan, created the ideological basis of our national statehood.

XARİCİ KİV MATERİALLARI ƏSASINDA HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏTİNİN EKZİSTENSİAL BAXIMDAN DƏYƏRLƏNDİRİLMƏSİ

Rüstəmova Xədicə Rüstəm qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
aidaqurbanli719@gmail.com

***Açar sözlər:** Azərbaycan, H.Əliyev, xarici siyasət, ekzistensiallıq, xarici KİV*

Davam edən qloballaşma şəraitində ekzistensial təhlükələrin qarşısını almaq məqsədilə dövlətlərin inteqrasiyası prosesi sürətlə davam edir. Belə bir vəziyyətdə dövlətin qloballıqdan təcrid olunması təhlükəsi yarana bilər. Bütün bunlar deməyə əsas verir ki, özünütəcrid siyasəti nəticəsində təkcə dövlətin sərhədləri deyil, həm də sabitliyi problemi yarada bilər. Bunun qarşısını almağın bir yolu isə xarici KİV-lər vasitəsilə dövlətin müsbət imicinin formalaşdırılmasıdır.

Xarici KİV-lərdən Heydər Əliyevin xarici siyasət təşəbbüsləri və digər ölkələrlə əlaqələri tez-tez işıqlandırılırdı. Məsələn, Heydər Əliyev prezidentliyi dövründə Azərbaycanın qonşusu və regionda əsas tərəfdaşı olan Rusiya ilə möhkəm münasibətlər qurulub [1, s.39]. Bu əlaqələr Rusiya mətbuatında mütəmadi olaraq işıqlandırılır və iki ölkənin enerji, nəqliyyat və təhlükəsizlik sahələrində əməkdaşlığı vurğulanırdı. Heydər Əliyevin Azərbaycanın ən böyük ticarət tərəfdaşı və regionda əsas müttəfiqi olan Rusiya ilə yaxın münasibəti qurmaqda maraqlı idi. “Moskva Tayms” qəzetində bir neçə dəfə Heydər Əliyev ilə Rusiya Prezidenti Vladimir Putinin yaxın əlaqələri barədə məlumat verilib və iki liderin “qarşılıqlı hörmət və anlaşmaya əsaslanan yaxşı işgüzar münasibətləri” olduğu bildirilirdi.

Heydər Əliyevin Azərbaycan üçün mühüm mədəni və iqtisadi tərəfdaş olan Türkiyə ilə də əlaqələri möhkəmləndirirdi. “Hürriyet Daily News” qəzeti Heydər Əliyev ilə Türkiyə Prezidenti Süleyman Dəmirəl arasında səmimi əlaqələrdən bəhs edir, hər iki lider ölkələri arasında əlaqələrin möhkəmləndirilməsinə sadiq

olduqlarını bildirirlər. Bundan başqa Heydər Əliyev Azərbaycanı neft və qaz ehtiyatlarına və strateji yerləşməsinə görə regionda əsas tərəfdaş kimi görən ABŞ-la daha sıx əlaqələr qurmağa çalışırdı. "The New York Times" qəzeti Heydər Əliyevin ABŞ sərmayəsini cəlb etmək səyləri və Azərbaycanın enerji sektoruna dəstəyi barədə məlumat verib. İranla ilə ölkə arasında dini və siyasi məsələlərlə bağlı gərginliyə baxmayaraq, Heydər Əliyev İranla münasibətlərini qoruyub saxladı. "Tehran Tayms" qəzeti Heydər Əliyevin İranla münasibətləri yaxşılaşdırmaq və regional sabitliyi təşviq etmək səyləri barədə məlumat vermişdir. Heydər Əliyev Azərbaycanı enerji təhlükəsizliyi və regional sabitlik üçün mühüm tərəfdaş kimi görən Avropa İttifaqı (Aİ) ilə Azərbaycanın münasibətlərini yaxşılaşdırmağa çalışırdı. BBC Heydər Əliyevin Avropa liderləri ilə görüşmək və Azərbaycan ilə Aİ arasında əlaqələrin dərinləşdirilməsi yollarını müzakirə etmək üçün Brüsselə səfəri barədə məlumat yaymışdır. H.Əliyev Aİ-nı Azərbaycan üçün iqtisadi əməkdaşlıq, ticarət və investisiyalar baxımından mühüm tərəfdaş kimi görürdü və həmçinin hesab edirdi ki, Aİ ilə daha sıx əlaqələr Azərbaycana demokratiya və insan haqları vəziyyətini gücləndirməyə kömək edəcək. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan 1996 və 1999-cu illərdə Aİ ilə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişləri imzalayıb [2, s.139]. Bu sazişlər Azərbaycan və Aİ arasında siyasi və iqtisadi əməkdaşlığı inkişaf etdirmək, o cümlədən Azərbaycanın demokratik inkişafına və insan hüquqlarına hörmətə dəstək olmaq məqsədi daşıyırdı. Heydər Əliyevin Aİ ilə münasibətləri İlham Əliyev tərəfindən də davam etdirilmişdir. Eyni zamanda BBC yazırdı ki, Heydər Əliyevin həqiqətən də prezidentliyi dövründə Avropa İttifaqı ilə yaxşı münasibətlər saxlamağa çalışıb. Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə Azərbaycan Aİ tərəfindən öz qonşuları ilə daha sıx əlaqələr qurmaq üçün başlamış Avropa Qonşuluq Siyasəti (AQS) proqramında fəal iştirak edirdi. Heydər Əliyev Azərbaycanın Almaniya, Fransa və İtaliya kimi ayrı-ayrı Avropa İttifaqına üzv dövlətlərlə əlaqələrini gücləndirmək üçün də addımlar atmışdır. O, bu ölkələrə tez-tez səfər edir və ticarət, investisiya və mədəni mübadilə ilə bağlı bir sıra sazişlər imzalamışdır. Aİ Heydər Əliyevin prezidentliyi dövründə və ondan sonrakı dövrdə Azərbaycanla konstruktiv əməkdaşlıq siyasətini davam etdirmişdir.

Bütövlükdə, Heydər Əliyevin xarici ölkələrlə əlaqələri onun prezidentliyinin əsas hissəsi olub, Azərbaycanın regionda və dünyada rolunu formalaşdırıb. Onun Rusiya, Türkiyə, ABŞ, İran və Avropa İttifaqı kimi əsas tərəfdaşlarla əlaqələr qurmaq səyləri Azərbaycanda sabitliyin və iqtisadi artımın təşviqinə kömək etdi və onun irsi bu gün də ölkənin xarici siyasətinə təsir göstərməkdə davam edir.

Ümumilikdə, xarici KİV-də Heydər Əliyev haqqında yazılan yazılar Azərbaycanın beynəlxalq imicinə müsbət təsirləri göstərmişdir.

Ədəbiyyat

1. Ağamirzəyev F. Dönüşdən qurtuluşa. Bakı: Adiloğlu nəşriyyatı, 2012, 168 s.
2. Vəliyev X. Heydər Əliyev və qanunçuluq: çıxışlar, nitqlər, müraciətlər, müsahibələr, bəyanatlar, fərmanlar. Bakı: Adiloğlu nəşriyyatı, 2008, 432 s.
3. Dragadze T. Azerbaijan. London: Melisende, 2000, 175 p.
4. Zirve Haydar Aliyevin hayatı. İstanbul: İleri yayınları, 2007, 493 s.
5. Сартр Ж. П. Бытие и ничто: опыт феноменологической онтологии: пер. с фр. / предисл., примеч. В. И. Колядко. М.: Республика, 2000. 639 с.

РЕЗЮМЕ
ЭКЗИСТЕНЦИАЛЬНАЯ ОЦЕНКА ВНЕШНЕЙ ПОЛИТИКИ ГЕЙДАРА АЛИЕВА НА ОСНОВЕ МАТЕРИАЛОВ ЗАРУБЕЖНЫХ СМИ

Рустамова Х.Р.

Ключевые слова: *Азербайджан, Г. Алиев, внешняя политика, экзистенциализм, зарубежные СМИ.*

XXI век характеризуется совокупными процессами глобализации, охватывающими политические, экономические, социальные аспекты жизни общества во всех странах мира. На современном этапе многогранные преобразования, происходящие в обществе, отраслях науки, в результате развития цифровых технологий, сталкиваются с риском искажения некоторых социальных и культурных ценностей. Учитывая вышесказанное отметим, что великий лидер Гейдар Алиев сыграл важную роль в формировании внешней политики Азербайджана, поддержании связей с другими государствами. В зарубежной прессе связи Гейдара Алиева с зарубежными странами регулярно освещались в контексте стратегического значения Азербайджана в регионе и в мире.

SUMMARY
EXISTENTIAL ASSESSMENT OF HEYDAR ALIYEV'S FOREIGN POLICY BASED ON FOREIGN MASSMEDIA MATERIALS

Rustamova Kh.R.

Keywords: *Azerbaijan, H. Aliyev, foreign policy, existentialism, foreign mass media*

The 21st century is characterized by cumulative processes of globalization, involving political, economic and social aspects of society in all countries of the world. The multifaceted transformations that occur in society and in the fields of science at the

modern stage face the risk of disrupting some social and cultural values as a result of the development of digital technologies. Taking these into consideration, the great leader Heydar Aliyev played a significant role in shaping Azerbaijan's foreign policy and maintaining its relations with other countries. Heydar Aliyev's relations with foreign countries were regularly featured in the foreign press in the context of Azerbaijan's strategic importance in the region and all over the world.

HEYDƏR ƏLİYEVİN DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ GÜRCÜSTAN İLƏ ƏLAQƏLƏRİ

Xudaverdiyeva Kəmalə Allahverdi qızı
Qafqazşünaslıq İnstitutu, Bakı, Azərbaycan
kamala.khudaverdiyeva@bk.ru

Açar sözlər: *Heydər Əliyev, Gürcüstan-Azərbaycan, "Tbilisi" bəyənnaməsi, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum*

Azərbaycan – Gürcüstan arasında mövcud olan münasibətlər Qafqazı dünyanın geosiyasi maraqları çərçivəsinə daxil etdi. Onların qlobal enerji daşıyıcısı olmaları müxtəlif dünya əhəmiyyətli layihələrin iştirakçısına çevirdi. [1, s.349]

Azərbaycan ilə Gürcüstan arasında siyasi, iqtisadi əlaqələr uzun tarixi dövr keçmişdir. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu əlaqələr daha da inkişaf etdirildi. Belə ki, Azərbaycanla Gürcüstan arasında diplomatik əlaqələr 1992-ci ildə qurulmuş olsa da, Bakıda Gürcüstanın 1995-ci ilin fevralında, Tbilisidə Azərbaycanın 1996-cı ilin martında səfirlikləri açılmışdır.

Bu iki dövlət arasında mövcud olan əlaqələr iqtisadi yolla da inkişaf etdirilirdi. Belə ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Traseka, Bakı-Tbilisi-Ərzurum və b. layihələr, onların reallaşdırılması Azərbaycan-Gürcüstan dövlətləri arasında iqtisadi əlaqələrin qurulması və gücləndirilməsi istiqamətində atılan addımlar idi. 2006-cı ildə istifadəyə verilən Bakı-Tbilisi-Ceyhan boru xətti Azərbaycan neftinin Xəzər dənizindən Türkiyənin Ceyhan limanına, oradan Aralıq dənizi vasitəsilə Avropa bazarlarına nəqli kəməridir. Uzunluğu 1768 km olan boru xətti Azərbaycandan (443 km), Gürcüstandan (249 km) və Türkiyədən (1076 km) keçir. Ötürücülüyü gündəlik 1 milyon barrel neftdir. Bakı-Supsa neft kəməri 1999-cu ildə istifadəyə verilmişdir. Xəzərin Azərbaycan sektorunda hasil edilən neftin Gürcüstandan keçməklə dünya bazarlarına nəqlini həyata keçirir. Xam neft Gürcüstanın Supsa terminalında tankerlərə yüklənərək Bosfor boğazından keçməklə Avropa bazarlarına yola salınır. Digər adı ilə Qərb İxrac Boru Kəməri adlanan Bakı-Supsa neft kəmərinin uzunluğu 833 km olub Səngəçal terminalından başlayıb Gürcüstan sahilindəki Supsa terminalına qədər uzanır. Kəmərin gəmiyükləmə qabiliyyəti 600000 barreldən 1 milyon barrelə qədərdir. 2006-cı ildə istifadəyə verilən Bakı-Tbilisi-Ərzurum boru xətti Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından çıxarılan qazın Gürcüstan və Türkiyəyə nəqli üçün inşa edilmişdir. Ümumi uzunluğu 980 kilometrdir. Ötürmə gücü ildə 20 milyard kubmetrə qədərdir. [4]

Müstəqil Azərbaycan dövləti yarandıqdan sonra daimi əlaqələr qurduğu dövlətlərdən biri Gürcüstan olmuşdur. Gürcüstan ilə tarixi yaxınlıq Azərbaycan və Gürcüstan arasında siyasi, iqtisadi, mədəni əlaqələrin qurulmasına köməklik göstərirdi. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu əlaqələrin qurulmasında daha da yaxından iştirak edirdi. SSRİ dağıldıqdan sonra Azərbaycan və Gürcüstan respublikalarında baş verən milli münaqişələr ərazi bütövlüyünün təmin olunmasına, separatizmin aradan qaldırılmasına, müstəqil dövlət qurulması prosesinə əngəl törədirdi. Buna görə də iki dövlət hər zaman Qafqazda sülh və əmin-amanlığın təmin olunmasına dair tədbirlər keçirilməsinə daha çox maraqlı idilər. Ölkə rəhbərləri Heydər Əliyev və Eduard Şevardnadze dəfələrlə qarşılıqlı səfərlər ediblər. Bu səfərlər zamanı iki ölkə arasında mühüm məsələlər müzakirə olunmuşdur. 1996-cı il mart ayının 8-10-da Heydər Əliyev Gürcüstana rəsmi səfər edir. Mart ayının 8-də Heydər Əliyev və Eduard Şevardnadze tərəfindən "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan birgə Bəyannaməsi imzalandı. Bu Bəyannamə elmi-siyasi ədəbiyyatda "Tbilisi Bəyannaməsi" də adlandırılır.

"Ümumi Qafqaz evi" layihəsinin əsası bu bəyannamə ilə qoyulmuşdur. Yaradılması nəzərdə tutulan "Ümumi Qafqaz evi" insan hüquq və azadlıqlarına əsaslanmalı, dini və etnik mənsubiyyətindən asılı olmayaraq milli azlıqlara hörmət əsasında yaradılmalı, etnik və dini dözümlülük hər zaman gözlənilməli, dünyanın ən zəngin mədəniyyət beşiyi olan Qafqaz xalqlarının və dövlətlərinin mədəni irsi və dövlətçilik ənənələri qorunmalı, ərazi toxunulmazlığı təmin edilməli, xalqların və dövlətlərin iqtisadi-mədəni əlaqələrinin formalaşmasına şərait yaradılmalıdır. [1, s.413]

"Ümumi Qafqaz evi" ideyasının mahiyyəti ondan ibarət idi ki, Qafqazda mövcud olan dövlətlər bir – biriləri ilə münasibətlərdə beynəlxalq hüquq normaları və prinsiplərinə əməl etməli, regional münaqişələri sülh və danışıqlar yolu ilə həll etməli, regionda yerləşən dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmalı, qarşılıqlı faydalı iqtisadi əlaqələr qurmalıdırlar. "Ümumi Qafqaz evi" ideyası Qafqazda ümumi təhlükəsizlik sisteminin yaradılması baxımından böyük əhəmiyyətə malikdir. Qafqaz evinin ağsaqqalı Heydər Əliyevin bu ideyası region ölkələri arasında münasibətlərin milli sərhəd və maraqlarla yanaşı, ümumbəşəri dəyərlərə-vətəndaş cəmiyyəti, insan və vətəndaş hüquqlarının təmin edilməsi əsasları üzərində qurulmasına şərait yaradır. [3, s.88]

Azərbaycan – Gürcüstan münasibətləri bir çox dövlətlər üçün nümunəvi rol oynayırdı. Bu münasibətlər Heydər Əliyevin əvəzsiz xidmətləri hesabına yaxşılaşdırılmış, iqtisadi, strateji tərəfdaşlığa çevrilmişdi. Dünya şöhrətli siyasi xadim hər iki ölkənin qurtuluş yolunu iki ölkə arasında birlik, dinc qonşuluq və strateji əməkdaşlıqda görürdü. Əslində hər iki ölkə arasında münasibətlər XX əsrin 90-cı illərindən qurulmağa başlanmışdır. Bu dövrdə baş verən 1989-cu il 9 Aprel faciəsi, 1990-cı ilin 20 Yanvar faciəsi, Dağlıq Qarabağ münaqişəsi, Abxaziya və Osetiya münaqişələri iki ölkə arasında münasibətlərin qurulmasına təsir göstərmişdi. Bundan başqa, iki ölkəni bir-birinə yaxınlaşdıran əlamətlər içərisində coğrafi baxımından uyğunluq, Qara və Xəzər dənizləri, bu dənizlərin sahilində yerləşən ölkələri birləşdirməsi və b. qeyd edə bilərik.

Azərbaycanla Gürcüstan arasında mövcud olan münasibətlər içərisində təhlükəsizlik sahəsində olan əməkdaşlıq da diqqətə layiqdir. Dağlıq Qarabağ münaqişəsində Gürcüstan haqlı olaraq Azərbaycanı dəstəkləyir və Ermənistandan öz qoşunlarını Azərbaycanın işğal etdiyi ərazilərindən çıxarmağı tələb edirdi. Münaqişənin ilk başladığı zamanlarda Gürcüstan, Azərbaycan və Ermənistan dövlətlərinə qarşı birtərəflik nümayiş etdirməyə çalışsa da, Heydər Əliyevlə Eduard Şevarnadze arasında mövcud olan səmimi dostluq onların bu məsələdə həmfikir olmasına gətirib çıxardı. Gürcüstan dövləti hər zaman ən çətin anlarında Azərbaycana arxalanırdı. Hətta Gürcüstan prezidenti müsahibələrinin birində belə deyirdi: "Azərbaycan bizə hər zaman yardım edib. Gürcüstan belə bir xeyirxah qonşulağa görə sizə dərin minnətdarlığını bildirir". Onlar eyni zamanda GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində də öz əlaqələrini möhkəmləndirirdilər. Belə ki, Gürcüstan 1999-cu ildən Ümumdünya Ticarət Təşkilatının tamhüquqlu üzvüdür və Azərbaycanın bu təşkilata əlverişli şərtlərlə qəbul edilməsi üçün danışıqlar zamanı dəstək göstərmişdi. 2000-ci ildə dekabr ayında Rusiya Gürcüstana qaz nəqlini dayandırdı. Gürcüstanda enerji böhranı baş verdi. Gürcüstanın 1,8 milyard ABŞ dolları həcmində xarici borcu yarandı. Gürcüstana bu böhrandan çıxmağa yardım edən dövlətlər arasında Azərbaycan da var idi. Bütün bunlar iki ölkə arasında əlaqələri daha da genişləndirirdi.

Azərbaycanla Gürcüstan arasında mövcud olan əlaqələr bugün də inkişaf edir. Belə ki, hər iki ölkə birlikdə irimiqyaslı strateji layihələrdə, regional və beynəlxalq təşkilatlarda fəal iştirak edirlər. Azərbaycan və Gürcüstan arasında mövcud olan strateji müttəfiqlik münasibətləri regionda yaşayan xalqların inkişaf etməsinə, münaqişələrin nizamlanmasında, münaqişələr zamanı kompromis variantın tapılıb istifadə edilməsində mühüm əhəmiyyət kəsb edir.

Qeyd etdiyimiz kimi, Azərbaycan və Gürcüstan arasında münasibətlərin tarixi qədimdir. Heydər Əliyev deyirdi: "Gürcüstan bizim üçün yaxın qonşu və dost ölkədir. Çox böyük tarixi əlaqələrimiz var...". İstiqlaliyyət əldə etdikdən sonra iki ölkə arasında münasibətlər daha da möhkəmləndirildi. Bu münasibətlərin istiqamətlərindən biri də sosial, iqtisadi, mədəni, hərbi sahələrdə olan münasibətlərdir.

İki ölkə arasında iqtisadi əlaqələri inkişaf etdirmək məqsədilə 1996-cı ilin iyul ayının 10-da "Azad ticarət haqqında", "Ticarət –iqtisadi əməkdaşlıq prinsipləri haqqında", 1997-ci ilin iyul ayının 10-da "Neft-qaz sənayesi sahəsində əməkdaşlıq haqqında", "Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində əməkdaşlıq haqqında", 1998-ci il yanvar ayının 30-da "Sərnişin avtomobil daşımaları haqqında", "Dəmir yolu nəqliyyatının fəaliyyətinin əlaqələndirilməsi haqqında", "Enerji sahəsində əməkdaşlığın gücləndirilməsi haqqında" müqavilələr imzalanmışdır.

İki ölkə arasında iqtisadi əlaqələrin böyük hissəsi neft məhsulları, neftin nəqli ilə bağlıdır. Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və b. layihələr iki ölkə arasında iqtisadi əlaqələri daha da inkişaf etdirir.

Azərbaycan və Gürcüstan hökumətləri arasında 1993-cü ilin 3 fevralında Bakıda elm, mədəniyyət, humanitar əməkdaşlıq haqqında saziş imzalanmışdır. Bundan sonra, 1997-ci ilin 18 fevralında iki ölkə arasında Bakıda mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş imzalanmışdır. Bu saziş 8 may tarixindən qüvvədədir. Həmçinin 1996-cı ilin 8 martında Tbilisidə iki respublika arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin qüvvətləndirilməsi haqqında müqavilə imzalanmışdır.

Azərbaycan və Gürcüstan arasında münasibətləri də daha da gücləndirən Azərbaycanda gürcülərin, Gürcüstanda Azərbaycalıların yaşamasıdır. 1997-ci ilin 6 oktyabrında Gürcüstan prezidenti Eduard

Şvardnadze "Azərbaycanda gürcü diasporu və Gürcüstanda Azərbaycan diasporu ilə iş üzrə birgə komissiyanın Gürcüstan tərəfi tərkibinin yaradılması haqqında" və 1998-ci ilin 25 aprelində Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev "Azərbaycan Respublikası və Gürcüstan arasında imzalanmış dövlətlərarası müqavilələrin milli azlıqlara aid maddələrinin həyata keçirilməsi üçün Azərbaycan Respublikası və Gürcüstan birgə komissiyasının Azərbaycan Respublikası tərəfi tərkibinin yaradılması haqqında" sərəncamlar imzalamışlar. [1, s.436]

Azərbaycanla Gürcüstan arasında hərbi sahədə olan əməkdaşlığın əhəmiyyəti böyük idi. Belə ki, regionda sülhün, əmin-amanlığın təmin edilməsi, təhlükəsizliyin qorunması, Azərbaycanla Gürcüstanın ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində mühüm əhəmiyyətə malikdir. İki respublikanın hökumətləri hesab edirdilər ki, hər iki ölkənini müdafiə nazirlikləri arasında müxtəlif sahələr üzrə əməkdaşlıq onların ümumi mənafelərinə ximət edir. Heydər Əliyev də iki ölkə arasında olan hərbi əlaqələri yüksək qiymətləndirirdi.

Beləliklə, Heydər Əliyevin dövründən başlayaraq qonşu ölkələrlərlə, xüsusilə də Gürcüstanla olan sıx dostluq əlaqələri bugün də davam etdirilir. Günümüzdə Qafqazda sülhün və əmin-amanlığın təmin edilməsində Heydər Əliyevin misilsiz əməyi olmuşdur. İki ölkə arasında dostluq, qardaşlıq, əməkdaşlıq kimi münasibətlərinin inkişafının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Əmin-amanlığın yaradılması təkcə Gürcüstan və Azərbaycan arasında deyil bütün Qafqazda sabitliyin qorunmasına gətirib çıxarmışdır. Hal-hazırda isə prezident İlham Əliyev tərəfindən Gürcüstan Respublikası ilə həm siyasi, həm iqtisadi həm də ticari əlaqələr davam etdirilməkdədir.

Ədəbiyyat

1. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, 2008. 670 s.
2. Prezident kitabxanası. 1993-2003-cü illər. Elektron sənədlər toplusu.
3. Hüseynova İ. Tarix, zaman, düşüncələr. I c. Bakı, 2019. 511 s.
4. https://az.wikipedia.org/wiki/Bak%C4%B1-TbilisiCeyhan_neft_k%C9%99m%C9%99ri

РЕЗЮМЕ

ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ГРУЗИЕЙ ПРИ ГЕЙДАРЕ АЛИЕВЕ

Худавердиева К.А.

Ключевые слова: *Гейдар Алиев, Грузия-Азербайджан, утверждение "Тбилиси", Баку-Тбилиси-Джейхан, Баку-Тбилиси-Эрзурум*

В наше время позитивное развитие азербайджано-грузинских отношений играет важную роль в обеспечении мира, спокойствия и безопасности на Кавказе. Гейдар Алиев оказал беспрецедентные заслуги в развитии этих отношений. Гейдар Алиев, вернувшийся к политической власти в Азербайджане в 1993 году, думал не только об Азербайджане, но и обо всем регионе и предпринял продуманные шаги по обеспечению безопасности на Кавказе.

SUMMARY

RELATIONS OF AZERBAIJAN REPUBLIC WITH GEORGIA IN THE PERIOD HEYDAR ALIYEV LIDERSHIP

Khudaverdiyeva K.A.

Keywords: *Heydar Aliyev, Georgia-Azerbaijan, "Tbilisi" approval, Baku-Tbilisi-Ceyhan, Baku-Tbilisi-Erzurum*

In modern times, the positive development of Azerbaijan-Georgia relations plays an important role in ensuring peace, tranquility and security in the Caucasus. Heydar Aliyev had unparalleled services in the development of these relations. Heydar Aliyev, who returned to political power in Azerbaijan in 1993, thought not only of Azerbaijan, but of the entire region, and took thoughtful steps to ensure security in the Caucasus.

ДАГЕСТАН И АЗЕРБАЙДЖАН: СОЦИАЛЬНО-КУЛЬТУРНОЕ ВЗАИМОДЕЙСТВИЕ
(к 100-летию видного государственного, партийного и политического деятеля Г. Алиева)

Нагиева Мадина Курбанисмаиловна

Институт истории, археологии и этнографии Дагестанского Федерального Исследовательского Центра РАН, Махачкала, Россия, к.и.н.

nagieva-73@mail.ru,

Ключевые слова: *Россия, Кавказ, Республика Дагестан, Азербайджанская Республика, видный государственный деятель, музыкальные и театральные коллективы, учреждения культуры.*

В 2023 г. Республика Азербайджан отмечает 100-летие со дня рождения советского и азербайджанского государственного, партийного и политического деятеля, славного сына своего народа Гейдара Алиевича Алиева.

В рамках празднования 100-летнего юбилея в Азербайджане побывала дагестанская делегация во главе с председателем Правительства РД Абдулмуслима Мухидиновича Абдулмуслимова. В ходе встречи с заместителем премьер-министра АР Шахином Мустафаевым, было отмечено успешное развитие двусторонних связей между АР и РФ. На встрече был подписан План мероприятий по развитию основных направлений сотрудничества между государствами на 2023 – 2025 гг.

В утвержденном Плане мероприятий особое внимание уделяется развитию торгово-экономического взаимодействия и активизации привлечения инвестиций. Также План предполагает развитие культурно-гуманитарных связей между народами двух республик. [5]

Важно сегодня сказать, о том, что независимая азербайджанская государственность своим существованием обязана своему лидеру Гейдару Алиеву.

Г.А. Алиев является одним из наиболее ярких представителей послевоенного поколения партийных руководителей. Видный партийный организатор, с 1969 по 1982 гг. возглавлял ЦК КП Азербайджана, блестяще проявил себя не только в политической, но и в хозяйственной деятельности. Значительный подъем экономики республики, особенно сельскохозяйственного производства, получили самую высокую оценку руководства СССР. В 1979 г. Г. Алиев был награжден золотой звездой Героя Социалистического Труда. С 1991 по 1993 гг. после развала Советского государства занимал пост председателя верховного Маджлиса Нахичеванской автономной республики [9]. В октябре 1993 г. азербайджанский народ избрал Г. Алиева президентом Азербайджанской Республики.

Отмечая положительную динамику развития межгосударственных взаимоотношений Президент России В.В. Путин говорил об Г.А.Алиеве: «Гейдар Алиев, действительно, был большим другом России, мы это чувствовали и очень высоко ценили. В течение всех этих лет Азербайджан был одной из немногих стран СНГ, в которой не закрылись русскоязычные школы, не только не сократилось, а даже возросло количество русскоязычных изданий по сравнению с Советским периодом. Он был великим государственным деятелем. Без сомнения можно сказать, что он был политической глыбой. Я относился к нему не только с большим уважением, я относился к нему с любовью» [3].

Об отношении к русскому языку в журнале «Вестник Кавказа» было опубликовано выступление сенатора Совета Федерации РФ Ильяса Магомед-Саламовича Умаханова, которое прозвучало на приеме в посольстве Азербайджана в Москве в 2018 г., посвященном Годом Азербайджанской Демократической Республики в РФ. И. Умаханов, обратил особое внимание на развитие сотрудничества в гуманитарной сфере: «В России сегодня обучается порядка 15 тысяч студентов из Азербайджана. Успешно работают азербайджанские филиалы ведущих российских вузов. Площадкой для обсуждения актуальных проблем развития современного общества стал получивший широкое распространение и признание в мире наш совместный проект - Бакинский международный гуманитарный форум под патронажем президентом России и Азербайджана…» [8]. В выступлении И. Умаханова также было отмечено, что Г. Алиев всегда обращал внимание на положительное влияние русского языка, русской культуры на социально-культурное развитие Азербайджана. Сегодня для сохранения оставшегося наследства общего духовного и образовательного пространства трудятся сотни преподавателей, ученых, деятелей культуры наших стран, в том числе коллективы более трехсот азербайджанских школ с обучением на русском языке [8].

Г. Алиеву принадлежала значительна роль в развитии отношений между Азербайджанской Республикой и Российской Федерацией, включая и взаимодействие с Дагестаном. Сегодня национальный лидер Ильхам Гейдарович Алиев как национальный лидер современного Азербайджана продолжает традиции добрососедских отношений между государствами.

Это также отмечается и в его высказываниях о взаимоотношениях с Дагестаном, которое прозвучало на встрече с Р. Абдулатиповым в 2016 г.: «Наши отношения – отношения между Дагестаном и Азербайджаном – это важный фактор межгосударственных отношений между Россией и Азербайджаном, которые активно развиваются и давно уже вышли на уровень стратегического сотрудничества». «В наших межгосударственных отношениях, которые очень разносторонние и многоплановые, сотрудничество с Дагестаном всегда имеет особое значение. Для нас Дагестан из всех регионов России – самый близкий, самый дорогой край…»[10].

Действительно, Азербайджан традиционно является основным торговым партнером нашей республики: объемы торговли с ним ежегодно составляют не менее 30 % внешнеторгового оборота Республики Дагестан. Отношения между нашими регионами характеризуются стабильной

позитивной динамикой и направлены на дальнейшее укрепление стратегического партнерства. Это взаимные инвестиции, экспорт-импорт сельскохозяйственной продукции, туристическое и другие социально-экономические и культурные направления [1].

Существование таких взаимоотношений можно объяснить не только географической близостью и общими границами, но и крепкими, уходящими в далекое прошлое историко-культурными взаимосвязями.

Многие поколения дагестанцев и азербайджанцев вложили огромный вклад в сохранение этих отношений.

В этом контексте хотелось бы отметить, что в суровые годы Великой Отечественной войны и первые послевоенные годы с 1942 по 1948 гг., руководителем нашей республики был Азиз Мамедкеримович Алиев – выдающийся государственный деятель Советского Союза, Дагестана и Азербайджана, был третьим секретарем ЦК КП Азербайджана. Будучи руководителем Дагестана он сыграл важную роль в экономическом развитии, государственном и культурном строительстве республики. Одна из улиц г. Махачкалы названа в его честь, где установлен памятник.

В системе этнокультурных взаимоотношений между регионами во все исторические периоды важную роль играли различные аспекты искусства, в частности музыкальное, театральное, литературное и т.д. Широкий размах культурные связи получили в советский период с утверждением в Азербайджане и Дагестане советской власти. Так, в июне 1930 г. в Дагестане проходили гастроли Бакинского художественного ансамбля. В репертуаре ансамбля особо были отмечены темы: «Женщина в прошлом и настоящем», где раскрывалось существовавшее многие века гендерное неравноправие между мужчинами и женщинами. В 1936 г. в газете «Дагестанская правда» была опубликована статья о гастролях Азербайджанского национального ансамбля в Дагестане. В ней было отмечено: «… В составе ансамбля 45 певцов и музыкантов. Это один из наиболее крупных национальных ансамблей, существующий уже свыше 10 лет. В Дагестане ансамбль дает 5 гастролей в Махачкале, на Двигательстрое и т.д.» [4].

Социально-культурные взаимосвязи между республиками нашли свое отражение в сфере культурно-просветительной работы. Так, для организации культпросветучреждений в Дагестане приглашались работники из соседнего региона. К примеру, в Кайтаго-Табасаранском округе азербайджанские работники культуры активно участвовали в открытии изб-читален в таких селах как: Каякент, Утамыш, Башлы, Алходжакент, Янгикент, Чумли, Берикей, Марага и Гимейди, Маджалисе. В избах-читальнях организовывались коллективные читки на азербайджанском языке. Так, в отчете отдела народного образования Кайтаго-Табасаранского окружного ревкома от 24 ноября 1920 г. было отмечено, что для таких чтений специально приглашались люди, хорошо владеющих языком [2].

Большое влияние на развитие дружбы и добрососедства между народами оказывали культурные взаимосвязи в годы Великой Отечественной войны 1941 – 1945 гг. и послевоенный период. В период войны деятельность учреждений культуры и искусства Дагестана и Азербайджана была подчинена интересам фронта, делу Победы над врагом. Театры, клубы, дома культуры, библиотеки, музеи обеих республик стали подлинными центрами идейно-воспитательной, патриотической и агитационно-массовой работы.

В декабре 1942 г. «В целях культурного художественного обслуживания населения и воинских частей действующей Красной Армии в прифронтовом г. Махачкала» в Дагестан был приглашен Азербайджанский театр русской драмы. За время своего пребывания в республике театр показал 14 спектаклей, 60 концертных выступлений, провел творческие встречи с работниками искусства г. Махачкалы [7]. Большой популярностью в годы войны и в последующий период среди дагестанского (особенно южных районов) и азербайджанского зрителей пользовался коллектив Лезгинского драматического театра им. С. Стальского.

В первые послевоенные и последующие годы театры с каждым годом все больше обогащали свой репертуар, работали над повышением уровня спектаклей. Этому способствовало увеличение финансирования театров, их кадровое пополнение молодыми и талантливыми артистами. Молодая и профессионально подготовленная молодежь пополняла труппы театров республики, в основном оканчивая специальные студии для под готовки актерских кадров, которые были открыты в разных городах при театральных институтах, такая подготовка театральных кадров для республики проходила и в Азербайджанской республике [6]. На этих курсах учились представители всех народов Дагестана, тем самым заложив прочное основание для комплектования национальных театров квалифицированными кадрами.

В развитии культурных связей между народами Дагестана и Азербайджана немаловажное значение имела деятельность Государственного национального ансамбля танца «Лезгинка», созданного в 1958 г. народным артистом СССР Танхо Израиловым, чья творческая биография начиналась в Баку. Первая концертная программа ансамбля, которая включала 17 танцев, была подготовлена к маю 1959 г. Необходимо отметить, что в первый период многие артисты «Лезгинки» являлись выходцами из Азербайджана: артисты балета Агаронов М.Г., Израилов М.С., Израилова С.Т., Израилов Р.М., Попов С.К., солист оркестра Аратюнов Г.С. – уроженец Баку, солист оркестра Аюбов О.А. выходец из Кусарского района Азербайджанской ССР. Долгие годы в ансамбле «Лезгинка» работал композитор Зейнал Гаджиев - выпускник музыкального техникума при Азербайджанской консерватории. Дагестанский хореограф И. Матаев говорил: «90% всех танцев "Лезгинки", будь то татский, аварский, либо танец другого дагестанского народа, написаны 3. Гаджиевым, проработавшим в ансамбле до последних дней». Свою первую гастрольную поездку «Лезгинка» совершила по республикам Закавказья. В сентябре 1959 г. состоялся концерт ансамбля в Баку. В программе выступления были танцы народов Дагестана и Азербайджана [7].

Отмечая взаимосвязи между республиками в области музыкального искусства, необходимо отметить важную роль, которая принадлежала Азербайджанской государственной консерватории им. У. Гаджибекова (ныне Бакинская музыкальная академия), которая открыла широкую дорогу на музыкальный олимп многим деятелям культуры Дагестана и Азербайджана.

Выпускниками этого учебного заведения в разные годы были дагестанцы - дирижеры И. Варшавский, Ю. Авшалумов, композиторы М. Кажлаев, Г. Джавлалов, Эльза Ибрагимова, женщины-певицы академического плана И. Баталбекова, Г. Панюкова, Л. Платонова, 3. Хирматова и др. Многогранная и насыщенная атмосфера культурной жизни многонационального Баку, учеба у первоклассных педагогов не могли не отразиться на мировоззрении этих музыкантов. В своем творчестве они не раз обращались к богатому музыкальному наследию азербайджанского народа, приобщая к нему и дагестанцев. Особенно ярко это проявляется в творчестве М. Кажлаева. В 1964 г. Азербайджанскую консерваторию окончила уроженка дагестанского селения Ахты, ученица известного азербайджанского композитора К. Караева - Эльза Ибрагимова. В творчестве она широко использует лезгинские песенные мелодии. В 70-80-е гг. XX в. песни Э. Ибрагимовой на стихи дагестанских и азербайджанских поэтов были популярны как в Азербайджане, так и в Южном Дагестане [7].

Рассматривая взаимодействие между нашими регионами, в частности, в социально-культурной сфере, хотелось бы отметить, что ощущается постоянная взаимная поддержка, и она приобретает более широкий размах. Общая история и сегодня показывает нам, как важно сохранять и укреплять добрососедские отношения между государствами. Об этом убедительно говорят проводимые в этом году в Дагестане и Азербайджане совместные юбилейные мероприятия, посвященные 100-летию со дня рождения общенационального лидера Гейдара Алиева и народного поэта Дагестана Расула Гамзатова.

Литература

1. Абдулатипов Р. Дагестан искренне ценит дружбу с Азербайджаном [электронный ресурс]: https://azru.org/ramazan-abdulatipov-dagestan-iskrenne-tsenit-druzhbu-s-azerbajdzhanom
2. *Ашурбекова С.И.* Культурные связи народов Дагестана и Азербайджана в области языка, литературы и искусства [электронный ресурс]: https://cyberleninka.ru/article/n/kulturnye-svyazi-narodov-dagestana-i-azerbaydzhana-v-oblasti-yazyka-literatury-i-iskusstva
3. Высказывания знаменитых людей о Гейдаре Алиеве. Газета «Каспий» [электронный ресур]: https://kaspiy.az/vyskazyvaniya-znamenityx-lyudei-o-geidare-alieve-foto
4. Дагестанская правда. 1936. 20 сентября.
5. Направления сотрудничества известны //Дагестанская правда. 2023. 22 февраля.
6. Нагиева М.К. Дагестано-азербайджанское сотрудничество в сфере культуры в 1940 – 1950-е гг.: гендерный аспект. С. 128-133. / Qafqazşünaslarin III beynəlxalqforumu / 3rd international forum of the caucasus studies scholars. 19-20 oktyabr / october, 2022, Bakı / Baku. Elmiməruzələr / Scientific papers. 2 kitabda: 2-ci kitab. – Bakı: «STAR-08 LTD» MMC, 2022. – 172 səh
7. Рустамова А.К. Дагестано-азербайджанские культурные связи в 40-х – 70-х годах XX века [электронный ресурс]: https://cyberleninka.ru/article/n/dagestano-azerbaydzhanskie-kulturnye-svyazi-v-40-h-70-h-godah-xx-veka
8. Умаханов И. Мы будем вечно помнить пророческий завет Гейдара Алиева: «Русский язык будет в Азербайджане всегда». Вестник Кавказа [электронный ресурс]: https://vestikavkaza.ru/articles/Ilyas-

Umakhanov-My-budem-vechno-pomnit-prorocheskiy-zavet-Geydara-Alieva-Russkiy-yazyk-budet-v-Azerbaydzhane-vsegda.html
9. [электронный ресурс]: https://cathedra.dgu.ru/Content/files/%D0%BC%D0%B0%D0%BA%D0%B5%D1%82%202.pdf
10. [электронный ресурс]: https://www.trend.az/azerbaijan/politics/2702783.html

XÜLASƏ
DAĞISTAN VƏ AZƏRBAYCAN: SOSİAL-MƏDƏNİ QARŞILIQLI ƏLAQƏ
(görkəmli dövlət, partiya və siyasi xadim H. Əliyevin 100 illiyinə həsr olunur)
Nağıyeva M.Q.

Açar sözlər: *Rusiya, Qafqaz, Dağıstan Respublikası, Azərbaycan Respublikası, görkəmli dövlət xadimi, musiqi və teatr kollektivləri, mədəniyyət müəssisələri.*

Bu gün müasir dünyada, bütün dünyada geosiyasi yenidənqurma cəhdləri baş verdikdə, dövlətlərimiz arasında tarixi keçmişə müraciət etmək çox vacibdir, çünki Azərbaycan və Dağıstan xalqları arasında mədəni əlaqələrin tarixi uzaq keçmişə gedib çıxır. Dövri nəşrlərin materiallarının cəlb olunduğu məqalədə xalqlarımız arasında fasiləsiz baş verən mədəni təmasların bəzi aspektləri işıqlandırılır. Məqalədə müxtəlif mədəniyyət müəssisələri, məsələn, respublikaların teatr və musiqi qrupları arasında əlaqələrin işıqlandırılması vəzifəsi qoyulur.

Sonda belə bir nəticəyə gəlirik ki, qonşu dövlətlər arasında əsrlər boyu mövcud olan dostluq iqlimi bu gün də mehriban qonşuluq mədəniyyətlərarası təmasları üçün böyük imkanlar açmağa davam edir.

SUMMARY
DAGESTAN AND AZERBAIJAN: SOCIO-CULTURAL INTERACTION
(on the occasion of the 100th anniversary of the prominent state, party and political figure H. Aliyev)
Naghiyeva M.G.

Keywords*: Russia, Caucasus, Republic of Dagestan, Republic of Azerbaijan, prominent statesman, musical and theatrical groups, cultural institutions.*

Today, in the modern world, when there are attempts of geopolitical reconstruction all over the world, it is very important to turn to the historical past of the relationship between our states, because the history of cultural relations between the peoples of Azerbaijan and Dagestan goes back to the distant past. The article highlights some aspects of cultural contacts that took place continuously between our peoples with the involvement of materials from periodicals. The article aims to highlight the interrelationships between various cultural institutions, for example, theater and musical collectives of the republics.

İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ TÜRKİYƏ-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ

Karademir Hasan Sıddık oğlu
Türkiyə

Açar sözlər: *Türkiyə, Azərbaycan, II Qarabağ müharibəsi, erməni işğalçıları, qələbə, Şuşa döyüşləri*

XIX əsrin birinci yarısından Rusiya tərəfindən Cənubi Qafqaza-Azərbaycanın tarixi torpaqlarına köçürülən ermənilər XIX əsrin sonlarından ərazi iddiaları irəli sürməyə başlamışlar. Birinci Dünya müharibəsinin sonlarında yaranmış tarixi şərait və böyük dövlətlərin təzyiqi nəticəsində ərazi iddialarına son qoyulması şərtilə Azərbaycanın tarixi torpaqlarında 9 min kvadrat km-lik bir ərazidə Ermənistan dövləti yaradılmışdır. Lakin buna baxmayaraq ərazi işğalları istər sovet rejimi dövründə, istərsə müstəqillik dövründə davam etmişdir. Bu işğallar nəticəsində milyonlarla azərbaycanlı ata-baba yurdunu tərk etmək məcburiyyətində qalıb, yüz minlərlə insan həyatını itirib. Bu zaman çərçivəsində öz himayədarlarına arxalanan ermənilər Azərbaycan xalqına qarşı amansız qəddarlıqla cinayətlər törətmişlər.Azərbaycan dövlətinin qarşısında duran ən böyük problemlərdən biri Ermənistan tərəfindən işğal edilmiş tarixi torpaqlarının azad edilməsi məsələsidir.

BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə əsasən Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxarılması tələb olunsa da bu qərarlar yerinə yetirilmədi. Bu problemin həll edilməsi məqsədilə ATƏT-in Minski qrupu yaradılsa da heç bir nəticə əldə edilmədi.

Bütün bunların nəticəsi olaraq 2016-cı ilin aprelində atəşkəs rejimi dövründə Azərbaycan və erməni qoşunlarının təmas xəttində ən böyük hərbi qarşıdurma baş verdi. Aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu Azərbaycanın mövqeləri və yaşayış məntəqələri erməni silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qaldı [1]. Əks-hücuma keçən Azərbaycan hərbçiləri ermənilərin istehkam xətlərini bəzi yerdə 20 dəqiqəyə, bəzi yerdə 2 saata yarıb keçdi... Aprelin 5-də Rusiyanın

vasitəçiliyi ilə Moskva şəhərində Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin baş qərargah rəisləri arasında əldə edilən razılığa əsasən atəşkəs bərpa olundu [5, s.5].

Sülh danışıqları prosesi 2018-ci ildə Ermənistanda hakimiyyətə gəlmiş Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi populist bəyənatları və Azərbaycanın işğal olunmuş ərazilərinə ardıcıl qanunsuz səfərləri kimi təxribatçı xarakter daşıyan hərəkətləri ilə ciddi ölçüdə sarsıldı [22].

Ermənistanın baş naziri Nikol Paşinyanın son dərəcə inamlı və beynəlxalq hüquqa zidd olan "Qarabağ Ermənistan və nöqtə" kimi rəsmi açıqlaması, yeni torpaqlar əldə etmək ideyası və attığı addımlar Azərbaycan üçün gözlənilən strateji vəziyyətin xəbərçisi idi.

Paşinyan rəsmi açıqlaması ilə Ermənistanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı işğalçılıq siyasətini ortaya qoydu və bütün dünyaya onun necə bir dövlət olduğunu açıq şəkildə göstərdi [15].

İki ay sonra Rusiyada keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun illik iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistanın baş nazirinin "Qarabağ Ermənistanın hissəsidir və nöqtə" bəyanatının yalan olduğunu vurğulayaraq dedi: "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" [16].

Ermənistanın yeni torpaq iddiası, Şuşanı paytaxta çevirmək cəhdi, yeni müharibə tezisi, bunun əsasında başladığı və işğal etdiyi əraziləri heç vaxt geri qaytarmayacağı və bu yolda etdiyi hücumları, eləcə də Azərbaycanın işğal olunmuş əraziləri azad etmək əzmi bölgədə "qəfil müharibənin" başlayacağına işarə idi. Cənubi Qafqazda özünü böyük dövlətlərin geosiyasi maraqlarının həyata keçiricisi kimi görən və daim dəstəklənəcəyinə ümid edən Ermənistan sərhəd xəttini pozdu.

2020-ci ilin iyulunda Ermənistan hərbi birləşmələri Azərbaycanın dövlət sərhədində, Tovuz istiqamətindəki strateji yüksəklikləri ələ keçirmək məqsədilə hücuma cəhd etdilər. 11 gün davam edən şiddətli döyüşlər nəticəsində düşmən geri oturduldu. [21, s.3].

2020-ci il sentyabrın 27-dən başlayaraq, Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində tərəflər arasında irimiqyaslı hərbi əməliyyatlar yenidən alovlandı. Beləliklə, 28 il müddətdə ATƏT-in Minsk Qrupu çərçivəsində həllini tapmayan Dağlıq Qarabağ konflikti XXI əsrdə ikinci fazasına qədəm qoydu.

Ermənistan Silahlı Qüvvələri tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndləri saat 06:00 radələrində iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğuları vasitəsilə intensiv atəşə tutulmuşdur [9].

Ermənistan tərəfinin törətdiyi təxribatlara cavab olaraq Prezident İlham Əliyev sentyabrın 27-də "Hərbi vəziyyət elan edilməsi haqqında" Fərman imzalayıb. Fərmana əsasən Ermənistan Respublikasının Silahli Qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar, 2020-ci il 28 sentyabr 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilib [17, s.3].

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Azərbaycan Ordusunun Madagizi işğaldan azad etdiyini və həmin ərazilərdə Azərbaycan bayrağının qaldırıldığını açıqlamışdır [10]. Elə həmin gün kəndin tarixi adı bərpa edilərək Suqovuşan adlandırılmışdır [2]. Oktyabrın 4-də Cəbrayıl şəhərini, 9-da Hadrut, 17-də Füzuli şəhərini işğalçılardan təmizlədi. Oktyabrın 18-də Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdı, 20-də Zəngilan şəhərini Oktyabrın 25-də Qubadlı rayonunu işğaldan azad edildi [8].

Azərbaycan XüsusiTəyinatlı Qüvvələri 7 noyabrda şəhərin qayalıqlarını dırmaşaraq çiyinlərində yaralılar, şəhidlərlə, yüngül silah-sursat ilə Şuşaya daxil olmuşdur [23].

Onlar ermənilər şəhərdən qovmuş və 8 noyabrda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan əsgərlərinin Şuşanı azad etdiyini bəyan etmişdir. Şuşa döyüşləri müharibənini həlledici anı olmuş və bir neçə gün sonra Ermənistan tərəfi məğlubiyyətlərini qəbul etmişdir. Beləliklə İkinci Qarabağ müharibəsi Azərbaycanın tam qələbəsi ilə başa çatmışdır.

Noyabrın 8-də Şəhidlər Xiyabanını ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin Şuşa şəhərini işğaldan azad etdiyini elan etdi: [4,s.3].

Şuşa azad edildikdən dərhal sonra noyabrın 9-u Azərbaycan ordusu daha 71 kəndi, bir qəsəbəni və 8 strateji yüksəkliyi işğaldan azad etdi. Bununla, hərbi əməliyyatlar gedişində işğaldan azad edilmiş yaşayış məntəqələrinin sayı 300-ə çatdı.

Azərbaycan milli ordusunun qələbəsində Türkiyədən alınmış "Bayraktar" və İsraildən alınmış"Harop", eləcədə Azərbaycan milli sənaye istehsalı olan "Zərbə" dronları mühüm rol oynadı. Bununla yanaşı hərbi starategiya taktikada dünya hərb tarixinə töhfə verəcək yeniliklər baş verdi. Düşmənin milyardlarla dollar dəyərində olan hərbi texnikaları sıradan çıxarıldı.

Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İ. Əliyev Rusiya Federasiyasının Prezidenti V.Putin və Ermənistanın Baş Naziri N.Paşinyan hərbi əməliyyatların tam dayandırılması haqqında birgə bəyanat imzaladılar [20, s.5]. Bu bəyanatın müddəalarına əsasən Azərbaycan ordusu tam qalib elan olunurdu. Bəyanatın imzalanmasından sonra noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları boşaldılaraq işğaldan azad edildi.

Azərbaycan 2020-ci il sentyabrın 27-də başlamış və 44 gün davam etmiş İkinci Qarabağ müharibəsini qlobal pandemiyanın baş verdiyi şəraitdə böyük zəfərlə başa çatdırdı...Bundan əlavə, bəyanata müvafiq olaraq Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda sülhməramlı kontingenti yerləşdirilmişdir [19].

Türkiyə Prezidenti R.T.Ərdoğan müharibə başlayan gün çıxış edərək bildirmişdir ki, Azərbaycana qarşı yürütmüş olduğu siyasətlə Ermənistan işğalçı bir dövlət olduğunu bir daha göstərmişdir. Və biz bu savaşda "İki dövlət tək millət olaraq" Azərbaycanın yanındayıq. 30 ilə yaxındır ki məsələyə etinasız yanaşan ATƏT-in MİNSK qrupu ölkələri məsələnin həllindən təəssüf ki, çox uzaqdır deyə o mövqeyini bildirmişdir. Həmçinin Ərdoğan erməni xalqını fəlakətə aparan və onları kukla kimi oynadanlara qarşı çıxmağa dəvət etdiyini bildirmişdi.

İkinci Qarabağ müharibəsi başladığı ilk saatlardan etibarən Azərbaycan istiqamətində öz qəti mövqeyini bəyan edən Türkiyə Respublikasının istər rəsmi dairələri, istərsə də Türkiyə ictimaiyyəti siyasi və diplomatik dəstəyini davam etdirmişdir. Beləki müharibənin ilk saatlarında Türkiyənin Müdafiə Naziri H.Akar öz müsahibəsində qardaş Azərbaycanın yanında olduqlarını, Ermənistanın bu hərəkətlərinin Cənubi Qafqazda sülhə və təhlükəsizliyə mane olduğunu bildirmişdir.

Sonrakı günlərdə Türkiyənin Azərbaycana dəstəyinin nümunəsi olaraq Xarici İşlər Naziri M.Çavuşoğlu bir neçə dəfə Bakıya səfərlər etmiş və bu səfərlərində hər zaman Azərbaycana dəstək olduqlarını bəyan etmiş və hər iki tərəfin verdiyi itkilərdə Paşinyanın məsuliyyət daşıdığını bildirmişdir [6].

Türkiyə Prezidentinin sözçüsü İbrahim Kalın məsələ ilə bağlı rəsmi "Twitter" səhifəsində paylaşım edərək Türkiyənin bu hücumlara qarşı Azərbaycanın yanında olduğunu bildirib [12].

Ədalət və İnkişaf Partiyasının sözçüsü Ömər Çelik də rəsmi "Twitter" səhifəsində etdiyi paylaşımda Ermənistanın Azərbaycana qarşı hücumlarını sərt şəkildə qınadığını ifadə edib. O bildirib ki, Ermənistan təkcə Azərbaycan üçün bir təhdid deyil, bölgədə sülhə təhlükə yaradan islah olunmaz bir terror dövlətidir [11]. Sentyabrın 29-da Rossiya-1 kanalının "60 dəqiqə" proqramına müsahibə verən İlham Əliyev Türkiyə polemikasına qarşı öz mövqeyini bəyan etmişdir. Ö bildirmişdir ki, "Türkiyənən rolu regionda sabitləşdirici xarakter daşıyır. Türkiyə bizə qardaş ölkə və bizim müttəfiqimizdir. Ermənistanın Azərbaycana hücum etməsinin ilk saatlarında Türkiyə rəhbərliyi və ictimai dairələri çıxış edərək Azərbaycanı dəstəklədiklərini, beynəlxalq hüququ dəstəklədiklərini bəyan etmişdilər. Türkiyə bizə mənəvi dəstək göstərir. Guya Türkiyə münaqişə tərəfi kimi çıxış etməsi barədə ermənilərin yaydığı şayiələr təxribat xarakteri daşıyır. Türkiyənin münaqişədə iştirakına dair heç bir sübut yoxdur və buna zərurətdə yoxdur [13].

Demək olar ki, bir çox müsahibələrdə İlham Əliyev Türkiyənin dəstəyinin önəmindən danışmış və Türkiyənin sülh prosesində iştirakını vurğulamışdı. Türkiyənin TRT xəbər kanalına müsahibə verən prezident bəyan etmişdir ki, Türkiyə güclü bir dövlətdir və bu hadisələrdə fəal olmalıdır. Döyüşlərin daha böyük müstəviyə çıxmaması üçün Türkiyənin dəstəyi, qəti mövqeyi bizim üçün çox önəmlidir. Region dövləti olaraq Türkiyə bundan sonra da sülh prosesində mütləq olmalıdır. Məhz bundan sonra bölgədə uzun müddətli sülh təmin edilə bilər [3].

Müharibə başa çatdıqdan və sülh məramlıların bölgədə yerləşdirilməsi zamanında da Azərbaycan Türkiyə əməkdaşlığı öz aktuallığını yenə qoruyub saxlamışdır. Noyabr ayının 10-da İlham Əliyev Türkiyə Respublikasının Xarici İşlər Naziri M.Çavuşoğlu, Müdafiə Naziri H.Akarı və Milli Kəşfiyyat İdraəsinin rəisi H.Fidanı qəbul etmişdir. İ.Əliyev çıxışında bildirmişdir ki, bütün bu 44 gün ərzində qardaş Türkiyənin dəstəyini biz hər an hiss edirdik, bütün Azərbaycan xalqı hiss edirdi. Dünən artıq bəyanatın imzalanmasından sonra Türkiyə televiziyalarında müşahidə olunan mənzərə çox ürək açan idi. Yəni, bizim türk qardaşlarımız bu Qələbəyə öz qələbələri kimi sevinirdilər. Onsuzda bu, belədir. Bu, bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir [16].

10 noyabr Qələbəyə həsr olunmuş Zəfər paradında da Türkiyə Azərbaycanı yalnız buraxmamışdır. Paradda çıxış edən Türkiyə Prezidenti R.T.ƏrdoğanAzərbaycanın yanında olduqlarını bir daha bəyan etmişdir. Ərdoğan çıxış edərək bildirmişdir ki, Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı otuz il boyunca

sinəmizdə yara etdik. Bu gündə bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq [14].

İkinci Qarabağ müharibəsi gedişində və sonrasında Azərbaycan-Türkiyə münasibətləri xarici mətbuatda və müxtəlif ictimai dairələrdə də ən çox müzakirə olunan məsələlərdən olmuşdur... Məsələn, New York Times qəzetinin müxbiri Anton Troyanovski hesab edir ki, Qarabağ müharibəsi Türkiyənin böyüyən regional gücünü göstərmiş oldu. Müəllifə görə, "müharibənin sona çatması Türkiyə, Rusiya və İran arasında sıxışmış dəyişkən bir bölgə olan Cənubi Qafqazın təhlükəsizlik xəritəsinin əhatəli bir şəkildə yenidən cızıldığını göstərir və bu xəritədə Türkiyə çox önəmli bir rola sahibdir" [7].

Müharibə başlanan andan Türkiyə Azərbaycanın yanında olduğunu elan etmklə siyasi dəstəyini əsirgəməmişdi. İkinci Qarabağ müharibəsinin timsalında Türkiyənin bir qardaş ölkə olaraq Azərbaycanın yanında olması qələbənin təmin edilməsində mühüm rol oynamışdır. Nəticə olaraq bir daha şahidi olduq ki, türk dünyasının problemlərini həll etmək üçün türk dövlətlərinin birliyinə böyük ehtiyac var.

Ədəbiyyat

1. Aprel döyüşləri- Böyük zəfərin başlanğıcı. https://mod.gov.az/az/pre/21662.html
2. Azerbaijani President: Azerbaijani Army raised Azerbaijani flag in Madagiz. https://apa.az/en/domestic-news/Azerbaijani-President:-Azerbaijani-Army-raised-Azerbaijani-flag-in-Madagiz-331986
3. Azerbaycan Cumhurbaşkanl Aliyev TRT habere konuştu https://www.trthaber.com/haber/gundem/azerbaycan-cumhurbaskani-aliyev-trt-habere-konustu-520996.html (05.10.2020)
4. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva Şəhidlər Xiyabanında olublar. "Azərbaycan ordusu " qəzeti, 11 noyabr 2020-ci il, № 78 (2496), s.3
5. Cabbarlı, A. Azərbaycan ordusunun aprel dərsləri /A.Cabbarlı //Xalq qəzeti.- 2016.- 22 aprel, № 85.- S.5
6. Dışişleri Bakanı Çavuşoğlu Bakü'de https://www.trthaber.com/haber/gundem/disisleri-bakani-cavusoglu-bakude-527465.html (01.11.2020)
7. http://www.geostrategiya.az/news.php?id=130
8. https://az.wikipedia.org/wiki/%C4%B0kinci_Qaraba%C4%9F_m%C3%BCharib%C9%99sinin_xronologiyas%C4%B1#cite_note-508
9. https://news.milli.az/politics/884640.html
10. https://qafqazinfo.az/news/detail/madagiz-de-azad-edildi-sad-xeberi-ali-bas-komandan-elan-etdi-300448
11. https://www.trt.net.tr/azerbaycan/turkiy/2020/09/27/ibrahim-kalin-turkiy-bu-hucumlara-qarsi-az-rbaycanin-yanindadir-1497982
12. İbrahim Kalın: Türkiyə bu hücumlara qarşı Azərbaycanın yanındadır. https://www.trt.net.tr/azerbaycan/turkiy/2020/09/27/ibrahim-kalin-turkiy-bu-hucumlara-qarsi-az-rbaycanin-yanindadir-1497982
13. İlham Əliyev Rossiya -1 kanalının "60 dəqiqə" proqramında sualları cavablandırıb https://president.az/articles/41172
14. İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər. https://president.az/articles/48788 (10.12.2020)
15. Kucera J. Pashinyan calls for unification between Armenia and Karabakh https://eurasianet.org/pashinyan-calls-for-unification-between-armenia-and-karabakh
16. Prezident İlham Əliyev Türkiyə Respublikasının Xarici İşlər Naziri M. Çavuşoğlu, Müdafiə Naziri H. Akarı və Milli Kəşfiyyat İdraəsinin rəisi H. Fidanı qəbul etmiş https://apa.az/az/xarici_siyaset/Prezident-Ilham-liyev-Turkiynin-xarici-islr-milli-mudafi-nazirlrini-v-Milli-Ksfiyyat-Idarsinin-risini-qbul-edib-614621
17. Prezident İlham Əliyev "Hərbi vəziyyət elan edilməsi haqqında" Fərman imzalayıb. Azərbaycan ordusu qəzeti. 30 sentyabr 2020-ci il, № 62 (2480), s.3
18. Prezident İlham Əliyev: Qarabağ Azərbaycandır və nida işarəsiXalq qəzeti. 4 oktyabr 2019. https://xalqqazeti.com/az/news/31782
19. Russian Peacekeepers Head to Nagorno-Karabakh After Peace Deal https://www.themoscowtimes.com/2020/11/10/russian-peacekeepers-head-to-nagorno-karabakh-after-peace-deal-a71997 (12.11.2020)
20. Səs qəzeti, 11 noyabr 2020-ci il, № 200 (6164), s.5
21. Tovuz rayonu istiqamətində şiddətli döyüşlər gedir. Müdafiə Nazirliyi Mətbuat Xidməti. "Azərbaycan ordusu" qəzeti. 15 iyul 2020-ci il №41 (2459) s.3
22. Vətən müharibəsi və ya "Dəmir Yumruq əməliyyatı" https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html

23.Почему Азербайджан выиграл войну в Карабахе? Отвечают военные эксперты. https://www.bbc.com/russian/features-54900906

РЕЗЮМЕ
ТУРЕЦКО-АЗЕРБАЙДЖАНСКИЕ ОТНОШЕНИЯ ВО ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ
Карадемир Х.С.

***Ключевые слова**: Турция, Азербайджан, Вторая карабахская война, армянские захватчики, победа, Шушинские сражения*

В материале изложено создание армянского государства на исторических землях Азербайджана, оккупация других территорий Азербайджана армянами, время от времени полагающимися на своих покровителей, требование безоговорочного вывода армянских вооруженных сил с земель Азербайджана по известным 4 резолюциям Совета Безопасности ООН, апрельские бои, новые земельные претензии Армении к Азербайджану, попытка превратить Шушу в столицу, Миротворческие шаги руководства Армении, Указ Президента Ильхама Алиева о Декларации. Было упомянуто военное положение 27 сентября в ответ на провокации армянской стороны, успешные боевые действия азербайджанской армии, азербайджано-турецкие отношения во время и после Второй карабахской войны и Заявление от 10 ноября.

SUMMARY
TURKISH-AZERBAIJANI RELATIONS IN THE SECOND KARABAKH WAR
Karademir H.S.

***Keywords:** Turkey, Azerbaijan, Karabakh War II, Armenian invaders, victory, battles of Shusha*

In the material, the creation of an Armenian state in the historical lands of Azerbaijan, the occupation of other territories of Azerbaijan by Armenians relying on their patrons from time to time, the demand for the unconditional withdrawal of Armenian armed forces from the lands of Azerbaijan according to the known 4 resolutions of the UN Security Council, the April battles, Armenia's new land claim against Azerbaijan, The attempt to turn Shusha into the capital, the peace-breaking steps of the Armenian leadership, President Ilham Aliyev's Decree on the Declaration of Martial Law on September 27 in response to the provocations by the Armenian side, the successful military operations of the Azerbaijani army, Azerbaijan-Turkey relations during and after the Second Karabakh War and The November 10 Statement was mentioned.

ELM. TƏHSİL. MƏDƏNİYYƏT
НАУКА. ОБРАЗОВАНИЕ. КУЛЬТУРА
SCIENCE. EDUCATION. CULTURE

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI

Abbasova Aygün Abbas qızı
Münxen, Almaniya, t.f.d.

Açar sözlər: *ideologiya, azərbaycançılıq, baxışlar sistemi, milli-mənəvi zənginlik, milli birlik*

Cəmiyyətin milli birliyinin və ümumxalq münasibətlərinin qoruması və dövlətin ətrafında sıx birləşməsi baxımından ideologiya vacib bir faktordur. Hər bir xalqın, millətin və dövlətin tarixi varlığının əsas atributları onun dili, ərazisi, dini və ideoloji birliyidir. Bu baxımdan Azərbaycan da qədim tarixə və dövlətçilik ənənənələrinə malik bir ərazi olaraq bu atributlara malik olmuşdur. Azərbaycançılıq ideyası ta qədim dövrlərdən müasir dövrümüzə qədər Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini, dini tolerantlığını özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi təşəkkül tapmışdır. Tarixən çoxmillətli ölkə, milli-dini xoşgörülüyün bərqərar olması azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir.

Azərbaycanın milli identifikasiya kodunun böyük tarixi-mədəni ənənələrə, dərin etnik və polietnik köklərə, fərqli konfessiyalara dayanması onun milli ideologiyasının sabit vəziyyətini təmin edir. Hələ XIX əsrdə və XX ərin əvvəllərində azərbaycançılıq ideyasının ətrafında gedən ideya və fikir mübarizələrinə nəzər saldıqda aydın olur ki, azərbaycançılıq ideyasının təkamül prosesi çoxşaxəli və ziddiyyətli olmuşdur. Azərbaycançılıq ideologiyasının məzmunca tamamlanaraq və zənginləşərək yeni konfiqurasiyada rəsmi dövlət siyasəti səviyyəsinə gətirilməsi, ölkə vətəndaşlarının və bütün dünya azərbaycanlılarının birləşdirici və səfərbərədici Milli ideya statusuna qaldırılması kimi çətin bir vəzifəni isə Ulu öndər Heydər Əliyev həyata keçirmişdi. Ulu Öndər azərbaycançılığın tarixən formalaşmış ayrı-ayrı komponentlərini vahid konsepsiyada birləşdirərək onu dövlət idarəçiliyinin elmi-nəzəri bazasına çevirmiş və praktikada tətbiq etmişdir.

Qloballaşan dünyada ölkələrin milli səddlərini, milli-mənəvi dəyərlərini, vətəndaşlarının milli maraqlarını qorumaq asan deyil [5, s. 268-279]. Məhz Heydər Əliyev dühası düzgün aparılan ideoloji siyasət nəticəsində fərqli dini-etnik əhalisi olan Azərbaycanda bu çətin işin öhdəsindən layiqincə gəldi. Bu gün də bu siyasət Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Ölkədə reallaşdırılmasına səy göstərilən hər hansı bir ideya təkcə milliyətcə azərbaycanlıların deyil, bütün etnosların maraqlarını özündə tam ehtiva edir.

Prezidentin güclü iqtisadi təməl üzərində müasir siyasi sistemin formalaşdırılması, dövlətçilik əsaslarının möhkəmləndirilməsi, azərbaycançılıq ideologiyasının gücləndirilməsi məsələləri subyektin zərər görmədən və mənafeyinə toxunmadan vahid vətən və vahid dövlət anlayışına yiyələnməsini təmin etmək asan is deyildi. Bu çətin işi məhz Heydər Əliyev zəkası düşüncə gücü həll etdi. Dövlətin siyasi ideologiyası onun ərazisində yaşayan və ya bu ərazidən köçüb getsə də köklərilə bu torpağa bağlı olan bütün konfessiya və etnosları öz ətrafında birləşdirən amillərlə əlaqəlidir. Bu amillər nə qədər demokratik, tolerant və humanist olarsa xalqı öz ətrafında bir o qədər sıx və yekdil birləşdirə bilər. Uzun illər ərzində Azərbaycanın gökəmli xadimlərinin bir neçə nəslinin həyata keçirmək uğrunda mübarizə apardığı milli ideya özünün həqiqi təcəssümünü məhz müstəqil Azərbaycanın qurucusu olan Heydər Əliyevin yürütdüyü siyasət nəticəsində tapdı. Azərbaycanın bir çox tarixi şəxsiyyətlərindən fərqli olaraq Heydər Əliyev Azərbaycançılıq ideyasını dövlət ideologiyasına çevirdi [2]. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir. Heydər Əliyevin yaratdığı Azərbaycançılıq ideologiyasının əsas məqsədi Azərbaycan və azərbaycanılılar haqqında geniş və düzgün təsəvvür yaratmaq və onun dünyadakı universal mövqeyini müəyyən etməkdən ibarətdir. Bu ideologiya birləşdirici məfhum olmaqla dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq ölkə ərazisində və

ya onun sərhədlərindən kənarda yaşayan bütün vətəndaşları öz ətrafında birləşdirdi, bütün azərbaycanlıların istinad nöqtəsində çevrildi. Hələ 1989-cu ildə Naxçıvan Muxtar Respublikası ərazisində İranla Azərbaycan arasındakı sərhəd dirəklərinin hər iki tərəfdən yerli əhali tərəfindən dağıdılması beynəlxalq aləmdə böyük əks-səda yaratdı və dünya ictimaiyyətinə hər iki taylı azərbaycanlıların əslində bir millət olduğunu göstərdi. 1991-ci il 16 dekabr tarixində o zaman hələ Naxçıvanda olan Heydər Əliyev Dünya Azərbaycanlıları günü elan etdi. Dünya azərbaycanlılarının konkret milli ideya ətrafında sıx birləşdirilməsi ideyasını irəli sürən Ulu Öndər xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması məsələsini daima diqqət mərkəzində tutmuş, onların tarixi Vətənlə əlaqələrinin genişlənməsinə çalışmışdır. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların arasında birliyin və həmrəyliyin təmin olunması ilə bağlı məsələlərin birgə müzakirəsi məqsədilə 2001-ci il noyabrın 9-10-da Bakıda tarixi bir toplantı – Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmişdir. Bu azərbaycançılıq ideologiyasının Heydər Əliyev siyasətindəki rolu və əhəmiyyətinin ən bariz göstəricidisir. 2002-ci ildə Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikası qanununun qəbulu diasporumuzun təşkilatlanması, dünya azərbaycanlılarının birliyinin yaranması və dövlətin bu sahədə apardığı məqsədyönlü siyasətin həyata keçirilməsinə nail olmaq üçün genş imkanlar açmışdır [1. s. 111].

Heydər Əliyev cəmiyyətin bütünləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı əsaslarının möhkələndirilməsi, azərbaycançılıq ideologiyasının gücləndirilməsi məsələləri bizim üçün prioritet məsələdir sözləri bu ideologiyanın layiqincə davam etdirildiyini sübut edir.

Ədəbiyyat

1. Mahmudov Y.M. Azərbaycan: Qısa dövlətçilik tarixi. Bakı: Təhsil, 2005, s.118-123
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I Kitab. Bakı: Azərnəşr, 1997, 612 s.
3. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, Yeni əsr və Üçüncü Minillik münasibətilə Azərbaycan xalqına müraciət // "Azərbaycan" qəzeti, 30.12.2000.
4. Həbibbəyli İ. Heydər Əliyevin dövlətçilik təlimi və müasir dünya // "Azərbaycan" qəzeti, 05.05.2015.
5. Магеррамова С. К вопросу об основных приоритетах и направлениях внешней политики Азербайджанской Республики / Вопросы истории. Ежемесячный журнал/ РАН – М., 2022, №11(1), с.268-279. http://i.uran.ru/webcab/system/files/journalspdf/voprosy-istorii/voprosy-istorii-2022-no11-1/voprist111.pdf ; https://elibrary.ru/item.asp?id=49764727

РЕЗЮМЕ

ГЕЙДАР АЛИЕВ И ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНСТВА

Аббасова А.А.

Ключевые слова: *идеология, азербайджанство, система взглядов, национально-духовное богатство, национальное единство.*

Хотя азербайджанство является древней идеей, до Гейдара Алиева эта идея не достигала уровня политической государственной идеологии. Своими уникальными заслугами и деятельностью великий лидер Гейдар Алиев смог превратить политическую идею азербайджанства в фундамент национальной солидарности всего азербайджанского общества.

SUMMARY

HAYDAR ALIYEV AND THE IDEOLOGY OF AZERBAIJANISM

Abbasova A.A.

Key words: *ideology, Azerbaijaniism, system of views, national-spiritual richness, national unity*

Although Azerbaijanism is an ancient idea, this idea did not reach the level of political state ideology until Heydar Aliyev. The great leader Heydar Aliyev was able to turn the political idea of Azerbaijanism into the foundation pillar of the national solidarity of the entire Azerbaijani society with his unique services and activities.

H.ƏLİYEV SİYASƏTİNDƏ DİLİMİZ, MƏDƏNİYYƏTİMİZ VƏ TƏHSİLİMİZ

Abdullayeva Mahirə Mövlud qızı

Azərbaycan Dövlər Pedaqoji Universiteti, Bakı, Azərbaycan, ped.f.d.

mahiremovlud56@mail.ru

Açar sözlər: *Ulu öndər, ümummilli lider, Azərbaycan, təhsil, dilimiz, siyasət.*

Dahi dövlət xadimi ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının qurucusu olmaqla bərabər, vaxtında verdiyi qərarları və sərəncamları ilə ölkəmizin, dilimizin, mədəniyyətimizin inkişafına böyük xidmətləri olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin "Hər bir xalqın səviyyəsini onun bilik səviyyəsi müəyyən edir. Bilik səviyyəsinə də nail olmaq üçün təhsil daim mövcud olmalıdır və o, ardıcıl surətdə inkişaf etməlidir. Təhsil daim təkmilləşdirilməlidir. Bütün bunlar Azərbaycan təhsil işçilərinin üzərinə düşən vəzifədir" sözləri müəllimlərin məsuliyyətini hər zaman daha da artırır [1, s.2-6].

Ana dilimizin inkişafında və bu dilin dünya arenasına çıxması uğrunda əlindən gələni edən Azərbaycan xalqının ümummilli lideri Heydən Əliyev ana dilimiz barədə dediyi başqa bir fikrə diqqət edək: "Ana dilimiz bizim sərvətimizdir. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan inkişaf etdirən onun dilidir. Dil böyük bir aləmdir. Hər bir xalq öz dili ilə yaranır, ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə çatdırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur" [2, s.7].

Müstəqilliyin ilk ilində, 1991-ci ildə latın qrafikalı Azərbaycan əlifbası qəbul olumuş, lakin o bütün gücü ilə işləyə bilmirdi. Yalnız Ümummilli Liderimiz Heydər Əliyev bu məsələnin birdəfəlik həllinə nail olmuşdur. O, imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşməsi haqqında" 18 iyun 2001-ci il tarixli 506 saylı fərman dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərdə həlledici rol oynamışdır.

Azərbaycan dilimizin inkişafı və təkmilləşdirilməsi barədə Heydən Əliyevin verdiyi sərəncamlardan bir neçəsini sadalamaq yerinə düşər.

18.06.2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında, daha sonra 04.06.2001-ci ildə 766 saylı sərəncamla "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında", yenə də o illərdə 19.08.2001-ci və 02.01.2003-cü illərdə "Azərbaycan Respublikasının Dövlət dili haqqında Azərbaycan Respublikasının qanununun tətbiq edilməsi" barədə verdiyi sərəncamlar Heydər Əliyevin ana dilimizə olan qayğısının bariz nümunəsidir.

Bu tarixi sənədlər dilimizin tətbiqi işinin daha mükəmməl səviyyədə həyata keçirilməsinə stimul verdi, latın qrafikalı Azərbaycan əlifbasına keçidi sürətləndirdi.

Ümummilli liderimizin rəhbərliyi dövründə Yeni Azərbaycan Partiyası yaradıldı ki, o çətin illərdə gənclərə tək doğru yolu göstərən bir siyasi partiya idi. Bu partiya (yəni YAP) əvvəlcə Naxçıvanda, daha sonra isə Bakıda fəaliyyətə başladı. Bakıda ilk iclası bizim doğma universitetimizin, yəni ADPU-nun akt zalında həyata keçirildi. Bu isə bizi həm qürurlandırır, həm də hər zaman xatırlamamıza səbəb olur. Azərbaycanımızın gələcəyi və inkişafı yolunda ulu öndərimizin gördüyü işlərdən biri də məhz bu partiyanın yaradılması oldu. Hal-hazırda da gənclərimiz ümummilli liderimizin təməlini qoyduğu partiyanı (YAP-ı) layiqincə təmsil edirlər.

O illərdə, yəni 80-cı illərin sonlarında ölkəmizdəki hərcimərcliyin, özbaşınalığın tüğyan etdiyi və mənfur qonşularımızın sərhədlərimizi pozduğu, bizə qarşı soyqırım törətdiyi, Qarabağımızı işğal etdiyi bir vaxtda ulu öndərimizin vətənə dönüşü tam yerinə düşdü. Bu illərdə yalnız böyük bir şəxsiyyət Azərbaycanı düşdüyü xaosdan xilas edə bilərdi. Ölkəmizin xilaskarı Heydən Əliyev oldu və uzaqgörən siyasəti ilə xalqının, vətəninin ən çətin günündə soydaşlarının yanında olmaqla, Azərbaycan millətinin ümummilli liderinə çevrildi.

O illərdə xalqımızın başlıca qayğıları respublikamızın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü, dövlət müstəqilliyini qorumaqdan, respublikamızı inkişaf etmiş demokratik dövlətlər siyahısına qaldırmaqdan ibarət idi. Bu gün nə qazanmışıqsa Heydər Əliyevin yürütdüyü düzgün və uğurlu siyasətin nəticəsidir. Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyə başladı. "Onun siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırıldı. Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan orduya malik olması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərindən biri sayıla bilər" [3. s.4].

Gəncləri gələcəyimiz hesab edən Ulu öndərimiz onların təlim-tərbiyəsinə, sağlamlığına çox önəm verər, diqqət və qayğı ilə yanaşardı. Azərbaycanda təhsilin məzmununun yeniləşməsi və keyfiyyətinin yüksəldilməsi üçün 1995-ci il, iyunun 15-də "Azərbaycan Respublikasının təhsil sistemində islahat Proqramı" qəbul olundu və Heydən Əliyev tərəfindən imzalandı ki, bu da gənc nəslin təhsilinin Avropa standartları səviyyəsinə qalxmasına səbəb oldu.

Təhsilin daha səmərəli olması üçün əlindən gələni etməyə hazır olan Heydən Əliyev Kurikulumu Azərbaycan məktəbləri üçün səmərəli yenilik olacağını düşünmüş və təhsil alan gənclərin daha müasir tələblərlə bilik almalarını təmin etmək baxımından dünya standartlarına uyğun olduğunu nəzərə alaraq dəstəkləmişdir. Bunun nəticəsidir ki, yeni təlim və təhsil proqramı olan Milli Kurikulumun tətbiq olunması gənc nəslin əqli inkişafına, onun təfəkkür fəaliyyətinin formalaşmasına da müsbət təsirini göstərdi. Tətbiq

olunan yeni təlim texnikaları, üsulları, həmçinin metodları şagirdlərin və tələbələrin təlimə maraqını artırdı. Hal-hazırda təlimdə uğur qazanılması, təhsilin keyfiyyətinin artması da bu baxımdan çox uğurlu nəticədir.

Dahi dövlət xadimi Heydər Əliyev öz natiqliyi ilə də nümunə olacaq bir şəxsiyyət idi. Heydən Əliyevin Azərbaycan və rus dillərində mükəmməl çıxışları dinləyicilərin hər zaman rəğbətini qazanmış, onu bir natiq kimi məşhurlaşdırmışdır.

"Mübahisəsiz deyə bilərik ki, yaşadığımız yüzilliyin (söhbət XX yüzillikdən gedir) Azərbaycan dilinin hərtərəfli inkişfı, onun təkcə sözdə deyil, gündəlik təcrübədə də ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə - diplomatiya aləminə yol alması, zənginləşə-zənginləşə nüfuz qazanması və dünyanın mötəbər kürsülərindən eşidilməsi görkəmli dövlət başçısı Heydər Əliyevin yorulmaq bilməyən fialiyyəti və yürütdüyü müdrik, uzaqgörən dil siyasəti ilə bağlıdır [4, s.14].

Göründüyü kimi Ulu Öndər Azərbaycan xalqının, dövlətinin tarixi, taleyi üçün çox əhəmiyyətli işlər görmüş, böyük əmək sərf etmişdir. Ulu Öndərimiz Heydər Əliyev gəncləri çox sevər, onları dəstəkləyər, təklif və arzularını dinləyər, ümumrespublika tədbirlərində iştirak edərək onları ilhamlandıraraq qayğı ilə belə səslənərdi: "Əziz gənclər, Azərbaycan övladları. Əziz balalar!" [5, s.17].

Ulu Öndərin gənc nəslə qayğı və məhəbbətini, onlarla görüşlər zamanı söhbətlərini tez-tez televiziya verilişlərindən də izləmək bizə nəsib olmuşdur. Heydər Əliyevin çıxışlarını izlərkən qürur hissi keçirməmək mümkün deyildi. Xüsusən də onun bu sözləri bizi daha çox qürurlandırırdı: "Mən çox fəxr edirəm ki, mən Azərbaycanlıyam!"

Dini etiqad azadlığımıza da məhz Heydər Əliyevin hakimiyyəti dövründə qovuşa bildik. İslam dini barədə ölkədə verdiyi sərəncam və qanunlar buna sübut ola bilər.

08.05.2009-cu il tarixində "İslam dininə aid ibadət yerlərinə rəhbərlik edən din xadimləri müvafiq icra hakimiyyəti orqanına məlumat verməklə Qafqaz Müsəlmanlar İdarəsi tərəfindən təyin edilir" verdiyi qanunlardan biri hesab edilə bilər [6, s.79].

Ölkəmiz Ulu Öndər Heydər Əliyevin siyasəti sayəsində sosial-iqtisadi və mədəni inkişafa başladı və bu istiqamətdə gedən işlərin uğurlu davamçısı hal-hazırda dövlət başçımız İlham Əliyev oldu. O, "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamları ilə öz ictimai-tarixi əhəmiyyətinə görə kifayət qədər uğurlu sərəncamlara imza atdı.

Heç təəccüblü deyil ki, Ulu Öndərin oğlu və davamçısı İlham Əliyev atasının vəsiyyətini də həyata keçirdi, ordumuzun qələbəyə gedən yolunu siyasəti ilə işıqlandırdı. Nəticədə 44 günlük müharibədə ordumuz düşmənə qalib gələrək, Azərbaycanın gözü Qarabağı, ən əsası isə vətənimizin döyünən qəlbi olan Şuşanı düşmən tapdağından azad etməyə nail oldu.

Bu il, yəni 2023-cü il Azərbaycan Respublikasının sərəncamı ilə ölkəmizdə "Heydər Əliyev ili" elan edildi. Məhz Azərbaycan dövlətinin çətin zamanında onun xilaskarı olmuş insana Ulu öndər və Ümummilli Lider adı yaraşır.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan dili və ədəbiyyat tədrisi. Bakı, 2003, N 1, s.2-6.
2. "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Azərbaycan Respubliksı Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikasının Fərmanı // Azərbaycan dili və ədəbiyyat tədrisi, Bakı, 2003, N 1, s.7.
3. "Səs qəzeti, N 42 (3091), 5 mart, 2008-ci il, s.4.
4. "Dil ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnal N 1(118), Bakı, 2022, s.14.
5. "Dil ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnal, N 1 (118), Bakı, 2022, s.17.
6. Bakı Dövlət Universiteti, İlahiyyat Fakültəsinin elmi məcmuəsi. N 25, Bakı, 2016, s.79.

РЕЗЮМЕ

ЯЗЫК, КУЛЬТУРА И ОБРАЗОВАНИЕ В ПОЛИТИКЕ Г. АЛИЕВА

Абдуллаева М.М.

Ключевые слова: *Великий лидер, общенациональный лидер, Азербайджан, образование, наш язык, политика*

В тезисе рассказывается о беспримерных заслугах Великого лидера Гейдара Алиева перед Азербайджаном и его народом. Освещается его любовь к нашей Родине, объясняется, насколько важны для страны законы и распоряжения, издаваемые великим вождем. В результате правильной и дальновидной политики общенационального лидера Гейдара Алиева страна достигла социально-экономического и культурного развития. В тезисах также подчеркивается то, как решения и распоряжения Великого вождя сыграли важную роль для Азербайджана.

Было отмечено, что в годы независимости Азербайджана Гейдар Алиев своей дальновидностью, заботой о молодежи, обновлением образования уверенно вел страну к благополучию. В годы его правления принимается во внимание важность повышения благосостояния Азербайджана и нашего народа, внедрения новой учебно-воспитательной программы (Национальной учебной программы).

Отмечается значение господина Ильхама Алиева, продолжателя идей, заложенных Гейдаром Алиевым, для благополучия Азербайджана, и подчеркивается, что под его руководством мы успешно вышли из 44-дневной Карабахской войны.

SUMMARY

OUR LANGUAGE, CULTURE AND EDUCATION IN H. ALIYEV'S POLICY

Abdullayeva M.M.

Key words: *Great leader, national leader, Azerbaijan, education, our language, politics.*

The thesis deals with about the unparalleled services of Great Leader Heydar Aliyev to Azerbaijan and its people. His love for our motherland is illuminated, and it is explained how important the laws and orders issued by the great leader are for the country. As a result of the correct and far-sighted policy of National Leader Heydar Aliyev, the successful progress of socio-economic and cultural development and construction works in our country is brought to mind, and the extent to which the decisions and orders made at certain times play an important role for Azerbaijan is emphasized.

It was also mentioned here that during the years of Azerbaijan's independence, the Great Leader walked confidently with his foresight, Heydar Aliyev's care and concern for the youth, and the renewal of education. During the years of his rule, the importance of the improvement of the welfare of Azerbaijan and our people, the introduction of a new training and education program (National Curriculum) is brought into consideration.

The importance of Mr. Ilham Aliyev, the successor of all the works laid by Heydar Aliyev, for the well-being of Azerbaijan, is mentioned, and it is emphasized that under his leadership, we successfully got out of the 44-day war for Karabakh.

PEDAQOJİ UNİVERSİTETLƏRDƏ BİOLOGİYA MÜƏLLİMİNİN HAZIRLIĞINDA ELEKTRON TƏHSİL RESURSLARINDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

Abdullayeva Təranə Qeyis qızı

Niftaliyeva Şəfəq Nazim qızı

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan

shefeqniftaliyeva@gmail.com

Açar sözlər: *elektron, təhsil, resurslar, proqram, layihə*

Təhsil adamlarını hər zaman düşündürən məsələlərdən ən başlıcası keyfiyyətli dərsin müvəffəqiyyət düsturunu doğru təyin etmək olmuşdur. Bu nöqteyi-nəzərdən pedaqoqlar tədrisin müvəffəqiyyətini bir sıra şərtlərlə əlaqələndirməyə çalışmış və hələ də çalışmaqdadırlar. Bura müəllimin ümumi elmi-pedaqoji hazırlığı, öz ixtisasını sevməsi, müəllimin pedaqoji sahədə təcrübəsi, düzgün seçilmiş tədris proqramı, dərslik və dərs vəsaitlərinin müvafiqliyi, tədris məkanının münasibliyi və s. daxil edilir. Məzmunun mənimsənilməsinə dair aparılmış tədqiqatlar göstərir ki, insan oxuduğunun 10%, eşitdiyinin 20%, gördüyünün 30%, eyni vaxtda gördüyü və eşitdiyi informasiyanın 50 %-ni yadda saxlayır. Öyrənənlərin mövzuya aid məkan, zaman, şəxs və obyekt, anlayış haqqında daha dolğun təsəvvürlərinin yaranması üçün tədris zamanı vizual olaraq qavranılan əyani, texniki vasitələrə müəllimin zaman-zaman ehtiyacı olmuşdur. Belə ki, sinif mühitində tədrisi dəstəkləyən bütün vasitələr ənənəvi olaraq əyani vəsaitlər hesab olunmuş və müəllimin bu vasitələri dərsə tətbiq etməkdə məqsədi öyrədəcəyi məzmunu bir yox, bir neçə ötürmə üsulu ilə şagirdə daha yaxşı mənimsətməklə təlim prosesində müvəffəqiyyət qazanmaq olmuşdur. Məhz müasir təhsilin də məqsədi əsasən də biologiya fənninin tədrisi zamanı- öyrənmə prosesini şagird üçün maraqlı və cəlbedici işgüzar mühit halına gətirməkdir. Əgər İKT-nin müasir imkanlarının olmadığı vaxtlarda müəllimin əyani vəsaiti təbaşirlə yazılan lövhələr, şəkil və stendlər, tablolar, maket və illüstrasiyalar, xəritə və qlobus, televizor və radiomaqnitafonlar idisə, indi interaktiv lövhələr, animasiyalar, interaktiv xəritələr, mətn, cədvəl, sxem, şəkil, prezentasiya, müxtəlif nəşrlər hazırlayan tətbiqi kompüter proqramları, çoxsaylı internet xidmətləri, virtual laboratoriyalar, trenajorlar, interaktiv Web 2.0 alətləri ilə bu vasitələr kifayət qədər zənginləşmişdir. Deməli, texnologiyanın inkişafı sayəsində müəllimin əhatəsində məhsuldar vasitələrə çevrilə biləcək kifayət qədər resurslar yaranmışdır. Bir sözlə, XXI əsrin yaratdığı texnoloji imkanları təhsil müstəvisinə gətirməklə öyrənənlərin gün-gündən dəyişən, artan maraq və tələbatlarını, öyrənmə ehtiyaclarını qarşılamaq müasir müəllim üçün ən yaxşı fürsətdir. Bundan sonrakı fəaliyyət məntiqi olaraq bu resursları tədris prosesinə yönəltməklə biologiya fənninin tədrisi sinifdə şagirdin maraq dairəsini özünə cəlb edəcək effektiv öyrənmə mühiti yaratmaqdır. Bu zaman müəllimin köməyinə çatan ən faydalı vasitələrdən biri müasir texnologiyaların təhsilə tətbiqi ilə təhsil məhsuluna çevrilən **Elektron Təhsil Resurslarıdır** [1].

Resurslar-məzmun standartlarının reallaşdırılmasında istifadə olunan təlim vasitələridir. Elektron Təhsil Resursları (ETR), dərs materiallarının elektron cihazlar vasitəsilə təqdim olunmasıdır. ETR deyəndə təhsil materiallarının texniki və proqram təminatı vasitəsilə rəqəmsal olaraq şəkillər, video fraqmentlər, modellər, animasiyalar, interaktiv xəritələr, səs yazmaları, simvolik obyektlər, qrafik və mətn formatında şagirdə təqdim olunması nəzərdə tutulur.

Mətn xarakterli elektron tədris resursları əsasən mətndən ibarət olur. Bu tip resurslar mühazirə xarakteri daşıyır və internetdə yerləşdirilməsi mümkündür. Bu resursların müxtəlif təhsil müəssisələrinin veb səhifələrində müəllimlərin şəxsi bloqlarında, hətta sosial şəbəkələrdə də görmək olar.

Tekstoqrafik xarakterli elektron tədris resursları mövzunu açıqlayan mətn və illüstrasiyalardan ibarət resurslardır. Bu tip resurslara həmçinin cədvəllər, diaqramlar və s. əlavə ola bilər. Multimedia xarakterli elektron tədris resursları tərkibində video, animasiyalar, audio məzmun, interaktiv üsul ola bilər.

Elektron təhsil resursları dərsin öyrənilməsi üçün daha üstün praktik şərait yaradır, yəni bu zaman şagird sinif otağını tərk etmədən muzeylərə virtual səyahətlər edə bilər, virtual laboratoriyalarda təcrübə və sınaq işlərini həll edərək, həmin anda cavabların düzgün olub-olmadığını özü yoxlaya bilər. Yəni, sərbəst şəkildə öz bilik və bacarıqlarının nə səviyyədə olduğunu müəyyən edə bilər.

Bu məsələ Təhsil və Elm Nazirliyinin qarşıya qoyduğu prioritet məsələlərdən biridir. Bu günə qədər elektron resurslar istiqamətində qısa müddətdə irimiqyaslı layihələrə başlanılıb. Yaradılan bütün elektron resurslardan istifadə rahatlığı üçün ümumi bir portal yaradılıb və resursların hamısı orada yerləşdirilib. Elektron resurs (e-resurs. edu.az) portalı şagird və müəllimlərin rahat istifadə etməsi üçün elektron resursları birləşdirən 9 bölməni özündə cəmləyir. İstifadəçilər bu portala daxil olaraq seçdikləri elektron resursdan rahatlıqla istifadə edə bilərlər [2].

Hazırda istifadəçilər e-resurs.edu.az portalında "elektron kitablar" (e-derslik.edu.az),"elektron testlər" (e-test.edu.az), "video dərslər" (video. edu. az), "elektron tapşırıqlar", "xarici elektron resurslar","intellektual oyunlar" bölmələrinə daxil olub artıq istifadəyə verilmiş elektron resurslardan yararlana bilərlər.

Təhsil portalında (www.portal.edu.az) biologiya, fizika, kimya, riyaziyyat, informatika, coğrafiya və digər fənləri əhatə edən elektron dərs resursları, video portalda isə (video. edu.az) müxtəlif fənləri və mövzuları edən video dərslər artıq hazırlanıb və yerləşdirilmişdir. Həmçinin "e-telim"(e-telim.edu.az) və "e-sinif" (e-sinif.edu.az) bölmələrdəki resurslar da artıq aktivdir və hazırda onların daha da təkmilləşdirilməsi prosesi gedir.Təhsil portalında (portal.edu.az) biologiya, fizika, kimya, riyaziyyat, informatika, coğrafiya və digər fənləri əhatə edən elektron dərs resursları, video portalda isə (video.edu.az) müxtəlif fənləri və mövzuları edən video dərslər artıq hazırlanıb və yerləşdirilmişdir.

İstifadəyə verilən bütün yeni elektron dərs resursları şagird və müəllimlər tərəfindən, eləcə də ali məktəblərə hazırlaşan abituriyentlər tərəfindən maraqla qarşılanır. Bu resurslardan elektron dərsliklər (e-derslik.edu.az) və elektron test (e-test.edu.az) resursları daha müntəzəm istifadə olunur.

Şagirdlər üçün tapşırıqlar hazırlamaq üçün istifadə olunan müxtəlif saytlar var. Bu gün sizləri belə saytlardan biri olan wizer.me saytı ilə tanış etmək istəyirəm. Saytı eyni tipli digər saytlardan fərqləndirən xüsusiyyətlər: Açıq sual, test, boşluqu doldurmaq, şəkil və video üzrə iş, düzgün sıralamaq və s. tapşırıq növlərindən istifadə etmək mümkündür. Tapşırıqların dizaynı üçün daha çox imkan var; Hər bir suala ayrıca bal təyin etmək, şagirdin düzgün cavabları görməsi imkanı; Müəllim şagirdin nəticəsinə və verdiyi cavablara fikir bildirə bilməsi imkanı [3].

Virtual laboratoriya, təcrübələrin həqiqi bir quraşdırma ilə birbaşa təmas olmadan və ya tama-milə olmadığı təqdirdə aparılmasına imkan verən bir proqram və hardware kompleksidir.

Virtual laboratoriyalar iki növ aparat və proqram sistemi deməkdir:

1) uzaq laboratoriyalar - uzaqdan giriş imkanı olan laboratoriya qurğuları kompleksi;

2) virtual laboratoriyalar - laboratoriya təcrübələrini simulyasiya etməyə imkan verən proqram üçün istifadə edilə bilər:

1) eksperimentlərin aparılması texnikası ilə tanışlıq;

2) işləməyiniz lazım olan avadanlıqla tanışlıq;

3) müşahidə vərdişlərinə yiyələnmək, hesabatlar tərtib etmək üçün.

Bu cür komplekslər eksperimentlər aparmaq üçün həqiqi avadanlıq modeli ilə uyğunlaşmanın maksimum aydınlığını, dəqiqliyini təmin edir. Bu, işi xeyli asanlaşdırır, vaxta qənaət edir və artıq öyrənilmiş avadanlıqları tanıma effekti yaradır [4].

Həmçinin biologiya fənnini tədris edən müəllimin özü də fotosintez prosesinin izahını virtual laboratoriyadan istifadə etməklə kimyəvi reaksiyaları birbaşa elektron şəkildə həyata keçirə bilər, bu zaman şagirdlərin gözündə uzun və yaddaşda qalmayan, əzbərlədikdə tez unudulan reaksiyalar şagirdlərin yaddaşında uzun müddət yaddaşında iz buraxacağına hətta yaddaşlarında ömürlük qalacağına tam əminliklə

söyləmək olar. Bu zaman biologiya müəllimi aşağı siniflərdə sadə formada keçilən fotosintez prosesini- virtual şəkildə karbon qazını bitkinin yarpaqlarına əlavə etməklə, suyu bitkinin dib hissəsindən köklərə doğru sorulması prosesi nəticəsində qlükoza və canlıların yaşama mənbəyi olan- oksigenin yaranmasını şagirdlər birbaşa izləyə bilirlər. Nəticədə biologiya müəllimi yuxarı siniflərdə keçilən fotosintez prosesinin işıq və qaranlıq fazasını izahına virtual şəkildə ardıcıl olaraq izahına keçid edə bilər. Uzun, bitməyən şagirdlərin qorxulu yuxusuna çevrilən reaksiyalar şagirdlərin sevimli, unudulmaz reaksiyalarına çevrilir. Bundan başqa biologiya müəllimi şagirdlərə təbiət və biologiya fənnlərini tədris edən zaman insan kursuna aid olan dayaq-hərəkət sisteminə aid Mən böyüdüm adlı mövzunu tədris edən zaman **"3D Anatomy"**, **"Anatomy Learning - 3D Anatomy"**- tətbiqlərindən istifadə etməklə dayaq-hərəkət sisteminin asan şəkildə öyrənilməsinə şərait yarada bilər. "**Anatomyka - 3D Anatomy Atlas"**- bu tətbiqdə insanın dayaq-hərəkəti, sümüklərin birləşməsi, ürəyin qan-damar sistemi ilə təchizi verilmişdir.**"BioDigital Human - 3D Anatomy"** tətbiqində insanın dayaq-hərəkəti, hətta qırıqlar və çıxıqların müalicəsi yolları göstərilmişdir. Həmçinin təbiət və biologiya fənnindən daxili orqanların quruluşu keçilən zaman **"Anatomy 3D Atlas"**- bu tətbiqdə beyinin sinirlərlə birlikdə quruluşu, dayaq-dərəkət sistemi, qan-damar sistemi, ürək, ağciyər, böyrəyin daxili quruluşu ətraflı şəkildə göstərilir.**"3D Biology+"**-tətbiqindən istifadəsi təlimdə böyük uğurlar qazanılmasında köməkçi vasitədir. **"3D Anatomy for the Artist"**- İnsan anatomiyasının dərindən öyrənilməsi hər bir böyük şagird üçün çətin bir addım olmuşdur.Bu tətbiq şagirdlərə skelet və əzələ sistemini yüksək dərəcədə ətraflı 3D anatomik modellər vasitəsilə göstərməyə imkan verir. Şagirdlər həmçinin bu 3D anatomik modelləri çəkmək qabiliyyəti əldə edə bilərlər. Biologiyadan Hüceyrənin öyrənilməsi zamanı **"Biology Cellular Respiration"**- tətbiqi ingilis dilində olsa da biologiya fənnini tədris edən müəllim tərcümə etməklə və yaxud şagirdlərdə ingilis dilinə tərcümə etməklə bu tətbiqdə hüceyrənin quruluşunu online şəkildə baxa, məlumat əldə edə və tətbiqdə olan testləri işləyə bilərlər. Biologiyadan şagirdlərə çətin görünən mitoz və meyoz proseslərini, xromosomlar və kariotiplər haqqında, ikiyə bölünməni daha yaxşı mənimsətmək üçün **"Biology Mitosis & Meiosis"**- tətbiqindən istifadə bu bioloji prosesin daha asan, uzun müddət yaddaşda qalan mənimsənilməsinə şərait yaradır. Aşağı sinif şagirdlərində canlılara aid müxtəlif rəsmlərin çəkilməsinin öyrədilməsi təsviri incəsənət müəllimlərindən başqa biologiya müəllimlərinin üzərinə də böyük yük düşür, təbii ki, bəzi şagirdlərin anadan gəlmə irsi istedadlardan başqa həyat fəaliyyəti nəticəsində qazanılmış istedadları müəllimlər tərəfindən inkişaf etdirilməklə bu zaman həmin mövzunun möhtəşəm şəkildə mənimsənilməsinə nail oluna bilər. Biologiya fənnini tədris edən müəllimlər mütəmadi olaraq zəif yaddaşlı şagirdlərə və yaxud yaxşı oxumaq qabiliyyəti olmayan şagirdlərə rast gəlirlər. Bu tətbiq- **"Quiver"**aşağıda göstərilmişdir [5,6].

Buna uyğun olaraq biologiya müəllimi həmin şagirdlərə həmin canlının quruluşunu, bioloji prosesin təsvirini, tənəffüs sistemini, həzm sistemini, ifrazat sistemi və s. kimi təsvirini sxematik çəkdirməklə şagird göz yaddaşı, əl əməyi nəticəsində bu məlumatları yaddaşda saxlamaqla yanaşı, onların harada baş verdiyini, yerləşdiyini həmçinin tənəffüs, həzm və ifrazat orqanlarının funksional ardıcıllıqlarını şəkillərini sxematik çəkməklə şüuraltı formada yaddaşda saxlanılır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün Biologiya fənni üzrə Təhsil proqramı / Kurikulum (VI-XI siniflər) ARTN, Bakı, 2013, 69s.
2. Əhmədov A. Ümumtəhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru. Kurikulum, Bakı, 2008, №1.
3. Grachev E.Y. Müəllim hazırlığı xüsusiyyətləri // Humanitar və təbiət elmləri, 2010, №10, s.255-263.
4. Hüseynov.Ə.M, Abdullayeva.T.Q. Biologiya tədrisinin müasir metodikası. Bakı-2012,184s.
5. Müəllimə kömək (metodik toplu). Bakı: Azərbaycan, Avqust, №1,2005, 60s.
6. Müəllimə kömək (metodik toplu). Bakı: Azərbaycan, 1(2) Yanvar-mart, 2006, 79s.

РЕЗЮМЕ

ЗНАЧЕНИЕ ИСПОЛЬЗОВАНИЯ ЭЛЕКТРОННЫХ ОБРАЗОВАТЕЛЬНЫХ РЕСУРСОВ ПРИ ПОДГОТОВКЕ УЧИТЕЛЯ БИОЛОГИИ В ПЕДАГОГИЧЕСКИХ ВУЗАХ

Абдуллаева Т.Г., Нифталиева Ш.Н.

Ключевые слова: *электрон, образование, ресурсы, программа, дизайн*

В статье исследуется роль использования электронных образовательных ресурсов в обучении биологии в педагогической подготовке учителей биологии. Дизайн электронных образовательных ресурсов обсуждался при подготовке учителя биологии. Электронные образовательные ресурсы создают условия для практического изучения урока, то есть в это время учащийся может совершать виртуальные походы по музеям, не выходя из аудитории, решать опыты и тесты в виртуальных лабораториях, а также самостоятельно проверять правильность ответов на уроке. То есть он может свободно определять уровень своих знаний и умений.

SUMMARY
THE IMPORTANCE OF USING ELECTRONIC EDUCATIONAL RESOURCES IN THE PREPARATION OF BIOLOGY TEACHERS IN PEDAGOGICAL UNIVERSITIES
Abdullayeva T.G., Niftalieva Sh.N.

Keywords: *electron, education,resources,program, design*

The article deals with, the role of the use of electronic educational resources in the teaching of biology is studied in the pedagogical training of biology teachers. The design of electronic educational resources was discussed in the preparation of the biology teacher. Electronic educational resources create better practical conditions for learning the lesson, that is, at this time, the student can make virtual trips to museums without leaving the classroom, solve experiments and tests in virtual laboratories, and check for himself whether the answers are correct at that moment. That is, he can freely determine the level of his knowledge and skills.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİNİN MİLLİ-MƏNƏVİ VARLIĞI

Abdullazadə Nazilə Əbdül qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan, dosent
nazile.s.m.d@mail.ru

Açar sözlər: *Azərbaycan dili, Heydər Əliyev, tədris, dilin saglığı, dilin qorunması*

Qədim və zəngin tarixə malik, ənənələri, rəngarəng dil vahidləri, qrammatik quruluşa və leksik sistemə malik Azərbaycan dili bu gün dünyanın bir çox qitəsində azərbaycanlıların malik olduğu ana dilidir. Ünsiyyət vasitəsi olan bu dil tarixi inkişafı boyu təzyiqlərə məruz qalmış, yad ünsürlərlə mübarizədə bərkimiş, öz varlığını qoruyub saxlaya bilmişdir. Xalqın söz sahibləri, sənət adamları, ziyalıları Azərbaycan dilinin çiçəklənmisində, öz saflığını, gözəlliyini qoruyub saxlamasında mübarizə aparmış, sözü zərrəbinlə ölçərək gələcək nəsillərə ötürmüşlər. Sözün zirvəsinə ucalanlar dilin ilahi qüdrətini dərk etmiş, onu zamanın sınaqlarından üzüağ, mərd çıxarmışlar.

Azərbaycan dilinin vaxtilə Qafqazın ünsiyyət dili kimi işlənməsini Heydər Əliyev qürurla qeyd edirdi. Rus yazıçısı Lermontovun "Avropada fransız dili kimi, Qaafqazda da Azərbaycan dili çox məşhur və mötəbər bir dildir" fikrini o, iftixar hissi ilə vurğulayırdı. Heydər Əliyev bunu tarixdə nadir bir hadisə adlandırır, Azərbaycan dilinə hörmətlə yanaşmağı, onun hörmətini qaldırmağı tövsiyə edirdi. Ulu öndər ana dilinin gözəlliyini pozanlara, dili əcnəbi söz və ifadələrlə dolduranlara qarşı sərt mövqe tuturdu. Onun fikrincə, Azərbaycan ədəbiyyatını, mədəniyyətini ana dilində oxuyanlar bu xalqın necə zəngin mənəviyyata, ədəbiyyata, mədəniyyətə malik olduğunu dərk etmiş olacaqlar.

Heydər Əliyev milli-ədəbi dili dövlət quruculuğunun əsas atributlarından biri sayırdı. Təsadüfi deyil ki, onun hakimiyyəti illərində Azərbaycan dili dövlət dili statusunu qazanmış, dillə bağlı fərman və sərəncamlar imzalanmış, Azərbaycan dili diplomatiya dili kimi işlənilməyə başlanılmışdır.

AXC dövründə Azərbaycan dili müxtəlif situasiyalara məruz qaldı; Milli Məclis səviyyəsində "Azərbaycan dili" ifadəsindən imtina etdilər, dilimiz "türk dili" oldu. Orta məktəbin IX sinif dərsliyi "Türk dili" adı ilə nəşr olundu. Heydər Əliyev bunun xalq arasında narazılıq doğurduğunu dərhal başa düşdü və hakimiyyətə gələn kimi bu məsələni xalqın müzakirəsinə buraxdı, özü bu müzakirələrdə iştirak etdi, münasibətini bildirdi. Bunun nəticəsi olaraq, 1995-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasında dillə bağlı müşavirədə bildirilirdi:

1. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir.
2. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan türk dilidir (Azərbaycan türkcəsidir).
3. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir (Azərbaycan türkcəsidir).
4. Azərbaycan Respublikasının dövlət dili türk dilidir.

Heydər Əliyev bütün bunları dinləyərək oz münasibətini, dilin adı ilə bağlı fikrini belə ifadə etmişdi: "Ana dilinin adı müasir ictimai təfəkkür üçün tamamilə aydın olmalı, arxaik səciyyə daşımamalıdır. Ölkənin, xalqın və dilin adında məntiqi bağlılıq olmalı, biri digərini təsdiq etməli, milli müstəqillik, milli mənlik qüruru zədələnməməlidir".

Heydər Əliyev dilin üslublarından, qrammatik konstruksiyasından, frazeologizmlərdən yerində istifadə edir, bəzən onlara yaradıcı yanaşır, auditoriyanın səviyyəsinə uyğun nitqini qurur, məntiqi vurğudan, intonasiyadan yerində istifadə edirid. O, ustalıqla sadə cümləni mürəkkəb cümləyə çevirir, bədii dilin ifadəilik vasitələri ilə nitqini obrazlı etməyi bacarırdı. Ulu öndər çox dil bilməyin, dil öyrənməyin tərəfdarı idi. Xüsusilə Azərbaycandan kənarda təhsil almaq, dünyada baş verən yeniliklərdən xəbərdar olmaq üçün gənc nəslin doğma dillə yanaşı, xarici dilləri öyrənməyi, Şekspiri ingilis dilində, Puşkini rus dilində

oxumalarını arzulayırdı. Azərbaycan Respublikası Gənclərinin I Forumunda o demişdir: "...Azərbaycan torpağında ən qədim zamanlardan indiyə kimi müstəqil dövlətlər olmuşdur. Biz bununla fəxr edirik və fəxr edə bilərik. Azərbaycanlılıq hissiyyatını gənclərdə yaşatmaq lazımdır. Azərbaycanı sevmək azərbaycanlılıq hissiyyatını özündə cəm etmək deməkdir. İndi müstəqil Azərbaycan Respublikası məlum olan Azərbaycanın hüdudları çərçivəsindədir. Keçmiş dövrlərdə, keçmiş əsrlərdə Azərbaycan dövlətləri daha da geniş ərazidə olmuşlar. İndi bizim Azərbaycandan savayı dünyanın çox ölkələrində azərbaycanlılar yaşayır. Amerika qitəsində də, Avropa qitəsində də, Asiya qitəsində də azərbaycanlılar yaşayır. Onlar da azərbaycanlıdırlar, onlarda da azərbaycanlılıq hissləri yaşamalıdır. Onlar özlərini azərbyacnlı kimi hiss etməlidirlər, onlar da Azərbaycanla bağlı olmalıdırlar...

Bilirsiniz, hər bir azərbaycanlı gənc çalışmalıdır ki, dünyanın çox dillərini – rus dilini, ingilis dilini, ərəb, fars dillərini də mənimsəsin, öyrənsin. Bu lazımdır, çünki müasir dünya ölkələrinin bir-biri ilə sıx əlaqəsi bu gün və gələcəkdə insanlardan bir çox dil bilməsini tələb edir. Mən gənclərinizə bu tövsiyəni verirəm. Amma bunlarla yanaşı, bunlardan əvvəl öz ana dilimizi, Azərbaycan dilini mənimsəmək lazımdır, bu dildə yaxşı danışmaq lazımdır, bu dili ana dili kimi duymaq lazımdır, bu dili sevmək lazımdır. Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz".

Heydər Əliyev sovet imperiyasının tərkibində olduğumuz zaman belə dilin yaşadığını, varlığını qoruyub saxladığını ən böyük xoşbəxtlik sanırdı. Bunu o, xalqın, xüsusən söz ustalarının, ədəbiyyatçıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin ən böyük nailiyyəti sayırdı. Azərbaycan dilinin vaxtilə məişət dili, bir də ədəbiyyat dili kimi işləndiyini, rus dilinin hakim dil olduğu, Azərbaycan dilinin dövlət dili olmadığını təəssüflə qeyd edən ümummilli lider Türkiyədə də Azərbaycan dilinə böyük sevgi və ehtiram bəsləndiyi ilə fəxr edirid. Azərbaycandan olan xarici ölkə nümayəndələrinin də Azərbaycan dilini öyrənməyə səy etdiklərini o alqışlayır, bunu Azərbaycanın dövlət müstəqilliyi ilə bağlayırdı. O deyirdi: "...Bizim Azərbaycan dili çox mükəmməlləşib və çox genişlənibdir. Dilimizin çox böyük lüğət ehtiyatı var. Bizim Azərbaycan dili şeir dilidir. Dil, dil, bir də dil... Dili inkişaf etdirməliyik. Mən demişəm və bu gün də deyirəm. Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından da yaxşı öz Azərbaycn dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan" [3].

Hələ 70-ci illərdə hakimiyyətdə olanda Heydər Əliyev iqtisadi, ictimai quruculuqla yanaşı, dil məsələlərinə də böyük önəm verirdi. SSPİ rəhbərliyi ilə ən uyğun kompromisdə o, özünün bildiyi "dil siyasəti"ni yürüdürdü; bu siyasətin əsasını "Ana dilini daha da inkişaf etdirmək, cilalamaq, müstəqil dövlət dilinə çevirmək, bunun üçün tələb olunan funksional-üslubi imkanlara yiyələndirmək, müəyyən təcrübə qazandırmaq" [4, s.13] təşkil edirdi.

Heydər Əliyev bunu ilk olaraq öz şəxsi nümunəsində həyata keçirirdi; yığıncaqlarda təntənəli ana dilində çıxış edir, xalqla onun dilində − anlaşıqlı dildə danışırdı. Bu, rus dilinin hakim mövqedə olduğu, qurultayların, iclasların rus dilində aparıldığı bir zamanda heç də asan məsələ deyildi: Azərbaycan 30-cu illərdən Sovetlər birliyində "yerini tutmuş", Moskvanın siyasətini dəstəkləmişdi. Zəngin dil potensialı olan xalq uzun illər rus dilinin içində əriyib itirilməyə səy edilmiş, elmi, mədəniyyəti, maarifi sıxışdırılaraq məişət dili səviyyəsində baxılmışdı. Heydər Əliyev bunu tələbəlik illərindən canlı şahid kimi görür, hiss edir və təbii ki, bu, xalqını sevən bir ziyalıda, rəhbərdə etiraz doğurmaya bilmirdi. "Heydər Əliyev dünyaya gəldiyi torpağa, ana dilinə, xalq danışıq dilinin incəliklərinə, özünəməxsus mülayimliyinə, səmimiyyətinə, eyni zamanda sərt məntiqinə məhəbbətlə böyümüş bir azərbaycanlı kimi həmin dilin daşıdığı psixoloji gücü, mənəvi enerjini mənimsəmişdi. Rus dilini nə qədər gözəl öyrənib, həmin dildə ölkənin tanınmış, ictimai-siyasi xadimlərinin belə qibtə etdikləri bir səviyyədə danışsa, nitqlər söyləsə, məruzələr etsə də, doğma Azərbaycan dilinin cazibəsindən heç zaman qopmamışdı... Respublikaya rəhbərlik etdiyi illərdə müxtəlif müəssisələrdə, xüsusilə kənd zəhmətkeşləri ilə görüşlərində Azərbaycanın müxtəlif regionlarındakı danışıq-dialekt təzahürləri ilə yaxından tanış olduqca Heydər Əliyev xalq dilinin zənginliyini daha dərindən hiss edir, onun ilıq nəfəsini, hərarətini duyurdu"... [4, s.17].

Heydər Əliyev dilin tarixi inkişaf boyu qarşılaşdığı çətinlikləri, saflaşdığını dilçi-alim kimi analiz edirdi. O, ana dilinin zənginliyindən, şirinliyindən zövq alirdi və bu dilin yarandığı gündən çox dəyişikliklərə uğradığını bilirdi. "Bizim gözəl Azərbaycan dilimiz var. Bu gün danışdığımız dil 20-ci ildə danışılan dil deyil. Əsrin əvvəlindəki dil deyil. Amma ondan qat-qat yaxşı dildir, ondan qat-qat təmiz dildir, ondan qat-qat mükəmməl dildir. Bu, bizim ən böyük sərvətimizdir. Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq millət ola bilməz. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, Şərq ölkəsinin əsarəti altında olduğumuz zaman da, sovet imperiyasının tərkibində olduğumuz zaman da biz bu dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf etdirmişik" [1, s.444].

Heydər Əliyevin dil siyasətində əsas yeri xalqın dilinin adı tuturdu. SSRİ dövründə Azərbaycan dili "türk dili" adlandırılmış, böyük mübahisələrə səbəb olmuşdu; bir qrup elm-mədəniyyət xadimləri bunun əleyhinə çıxır, "türk dili" anlayışını "Türkiyə türkcəsi" kimi başa düşürdülər. Digər bir qrup dilin "türk dili" yaxud "Azərbaycan türk dili", "Azərbaycan türkcəsi" adlandırılmasını müdafiə edirdilər. 80-ci illərin sonu 90-cı illərin əvvəllərində gedən bu mübahisələrə 1992-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin dövlət dilinin türk dili olması barədə qəbul etdiyi qərar son qoydu. Lakin Heydər Əliyev bunun birmənalı qarşılandığını, özbaşınalığa yol verildiyini bilirdi; 59 nəfərdən 39-nun iştirak etdiyi Mili Məclisin iclasında 26 nəfər "türk dili"nə səs vermişdi. 1993-cü ildə Heydər Əliyev Milli Məclisin sədri seçiləndə bu məsələni yenidən gündəmə gətirdi və uzun müzakirələrdən sonra türk mənşəli millətin və türkdilli xalqların dilinə mənsub olan Azərbaycan dilinin Azərbaycan xalqının və müstəqil respublikanın dövlət dili kimi qəbul edilməsini əsaslandırdı. Bu reallıqda "əvvəla, ...müstəqil dövlət qurmuş bir xalqın iradəsi, hətta belə demək mümkünsə, siyasi əxlaqı ifadə olunur; ikincisi, dil (dövlət dili yaxud ana dili) məsələsi milli mənlik məsələsi hesab edilərək ona Azərbaycana rəhbərlik etmiş adamların indiyə qədər heç birinin vermədiyi bir qiymət, dəyər verilir; üçüncüsü isə müzakirə edilən həmin məsələyə bir aydınlıq gətirilir, düzgün mövqe tutmağın, demək olar ki, metodologiyası verilir"di [4, s.109].

Ədəbiyyat

1. Əliyev, H. (1999). Ədəbiyyatın yüksək borcu və amalı. Tərtibçi: V.Quliyev. – Bakı: Ozan. – 496 s.
2. Əliyev, H. (1998). Müstəqilliyimiz əbədidir. V kitab. – Bakı: Azərnəşr. – 500 s.
3. Azərbaycan qəzeti, 8 fevral 2003-cü il.
4. Xudiyev, N. (1997). Heydər Əliyev və Azərbaycan dili. – Bakı: Təhsil. −287 s.

РЕЗЮМЕ

ГЕЙДАР АЛИЕВ И НАЦИОНАЛЬНО-ДУХОВНОЕ СУЩЕСТВОВАНИЕ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Абдуллазаде Н.А.

Ключевые слова: *азербайджанский язык, Гейдар Алиев, образование, чистота языка, защита языка.*

Исторически сложилось так, что азербайджанский язык, прошедший суровые испытания, сегодня поднялся до высочайшего статуса как основа нашего национального бытия и государственности. Обретение языком статуса государственного является успехом национального государственного строительства, а также является выражением нашей национальной свободы, национальной зрелости и попыткой защитить государственность. В этом смысле неоценимы заслуги Гейдара Алиева, общенационального лидера азербайджанского народа. Включение азербайджанского языка в качестве государственного в Конституцию Азербайджанской ССР в советское время было важным событием для того времени.

Любовь и забота великого лидера о родном языке отражалась не только в его поступках, но и в речи. Он говорил: «Я везде говорю по-азербайджански. Пусть переводчики переведут то, что я говорю с их родного языка. Я бы хотел, чтобы азербайджанская молодежь читала Шекспира на английском, Пушкина на русском, Низами, Физули, Насими на азербайджанском. Люди, не знающие родного языка − калеки!»

Сегодня формирование самостоятельной языковой политики в Азербайджане, массовые публикации, издание национальной энциклопедии на родном языке и т.д. яркое овоплощение политики Гейдара Алиева.

SUMMARY

HAYDAR ALIYEV AND THE NATIONAL-SPIRITUAL EXISTENCE OF THE AZERBAIJAN LANGUAGE

Abdullazadeh N.A.

Key words: Azerbaijani language, Haydar Aliyev, education, language health, language protection.

Historically, the Azerbaijani language, which has gone through severe trials, has risen to the highest status today as the basis of our national existence and statehood. The acquisition of the status of the language as the state language is the success of the national state building and is also an expression of our national freedom, national maturity and an attempt to protect statehood. In this sense, the services of Haydar Aliyev, the great leader, the national leader of the Azerbaijani people, are invaluable. The inclusion of the Azerbaijani language as the state language in the Constitution of the Azerbaijan SSR during the Soviet era was an important event for that time.

The great leader's love and concern for his mother tongue was reflected not only in his actions, but also in his speech. He used to say: "I speak Azerbaijani everywhere". Let the translators translate what I speak from their own language. I would like the Azerbaijani youth to read Shakespeare in English, Pushkin in Russian, Nizami, Fuzuli, and Nasimi in Azerbaijani. People who do not know their mother tongue are crippled people!"

Today, the formation of an independent language policy in Azerbaijan, mass publications, the publication of a national encyclopedia in the mother tongue, etc. It is a clear embodiment of Haydar Aliyev's policy.

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ COĞRAFİYA DƏRSLƏRİNDƏ EKOLOJİ TƏHSİL

Ağayev Tahir Dövlət oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, professor
aqayev_tahir@mail.ru

Açar sözlər: *şagird, ekoloji təhsil, coğrafiya, ətraf mühit, təbiət, cəmiyyət*

Ekoloji təhsil cəmiyyətlə təbiət arasında münasibətlərin harmonik inkişafının prioritet kimi tanınır.Ekoloji problemlərin həllinə yönəlmiş tədbirlər sırasında təhsilin aparıcı rolunun tanınması ölkəmizdə və xaricdə normativ sənədlərdə öz əksini tapmışdır. "Ekoloji savadsızlığın" aradan qaldırılmasında xüsusi rol ümumtəhsil məktəbinə məxsusdur, çünki təbii sərvətlərdən bütün potensial istifadəçilər buradan keçir.

Təbiət, insanlar, iqtisadiyyat - coğrafiyanın üç əsas sütunudur. Onların birlikdə öyrənildiyi və aralarındakı əlaqənin xəritədə göstərildiyi yerdə, şübhəsiz ki, coğrafiya mövcuddur. İstər memarlar, istərsə də şəhərsalma işi ilə məşğul olanlar insanın süni mühitlə (yaşayış yerləri, şəhər küçələri) əlaqəsi ilə maraqlanırdılar. İnsan ekologiyası insanların həyatını, sağlamlığını, fəaliyyətini Yer kürəsində yaşayan bütün canlılarla əlaqələndirir; insanı yer aləminin tam mərkəzinə qoyur. Ancaq belə bir ekologiya iki min ildir ... coğrafiya şəklində mövcuddur!

Məhz coğrafiya həmişə insanın ətraf mühitlə münasibətinin öyrənulməsi ilə məşğuldur. Ekologiyaya gələn mühəndislərdən fərqli olaraq, coğrafiyaçıları təkcə çirklənmə deyil, həm də ətraf mühitin eybəcərləşməsi, təbii landşaftın süni tikililər tərəfindən sıxışdırılması,etalon obyektlərin yoxa çıxması və s. bu kimi problemlər onları düşündürür. Ekologiya o zaman coğrafiya olur ki, ekoloji hadisələrin ünvanlarını qeyd edir və tədqiqatların nəticələrini xəritələşdirir. Coğrafi bilik milliyyətindən, yaşından, dini mənsubiyyətindən asılı olmayaraq Yer kürəsinin bütün sakinləri üçün zəruridir. Regionların və bütövlükdə planetin davamlı inkişafı, ətraf mühitdə baş verən prosesləri daha ağıllı və bacarıqla idarə etmək üçün coğrafi biliyə malik olmaq lazımdır.

Bəşəriyyətin qlobal problemlərinin həllində məsuliyyətin artması, dünyanın siyasi xəritəsində bu qədər sürətlə baş verən dəyişikliklərlə coğrafi təhsilin rolu artır. Ekoloji təhsilin əsas obyekti uşaqlar olmalıdır: gələcəkdə qərar verənlər məhz onlardır.

Coğrafi təhsilin ekolojiləşdirilməsi məktəblilərin ekoloji mədəniyyətinin səviyyəsinin yüksəldilməsi üçün son dərəcə vacibdir. Beləliklə, yuxarıda deyilənlərin hamısı fasiləsiz və inteqrasiya olunmuş ekoloji təhsil ideyasını həyata keçirən coğrafiyanın ekologiyalaşdırılmasının zəruriliyini göstərir. Cəmiyyət və təbiət arasındakı əlaqənin kəskinləşməsi səbəbindən ekoloji biliklərin aktuallığı problemi bu gün məlum olan bütün elmlərdə öz əksini tapır və bütün məktəb fənlərində öz əksini tapmalıdır.

Məzmunu coğrafiya elminin əsaslarını əks etdirən məktəb coğrafiyası təbiəti, cəmiyyəti və onların münasibətlərinin xarakterini öyrənməyə kompleks yanaşması ilə digər akademik fənlərdən fərqlənir. Coğrafiya təbiətşünaslıq və sosial-iqtisadi bilikləri birləşdirən məktəb fənlərindən biridir. Bütün bunlar onu deməyə əsas verir ki, məktəb coğrafiyası ekoloji təhsil və tərbiyənin məqsədlərinə çatmaq üçün əhəmiyyətli potensiala malikdir.

Ekoloji təhsil YUNESKO və Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı tərəfindən insan və təbiət arasında qarşılıqlı əlaqənin optimallaşdırılmasının əsas vasitəsi kimi irəli sürülür.

BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Konfransında (Rio-de-Janeyro, 1992) davamlı inkişaf konsepsiyasını bəşəriyyətin mənəvi və peşə münasibətləri sisteminə çevirmək üçün təhsili, ictimai məlumatlılığı və təlimi təşviq etmək qərara alınıb.

Bu gün gənc nəslin öz ysşayış mühitinə qayğıkeş münasibət ruhunda tərbiyə və tərbiyəsinin vacibliyinə heç kim şübhə etmir. Lakin bu gün tədqiqatçılar arasında həm "ekoloji təhsil" termininin şərhinə, həm də onun inkişaf strategiyasına birmənalı yanaşma yoxdur.

Orta məktəbdə ekoloji təhsil fənlərarası xarakter daşıyır və bir çox fənlərin məzmununa daxildir: təbiətşünaslıq, coğrafiya, biologiya, kimya və s. Lakin məktəb coğrafiyası digər tədris fənləri ilə müqayisədə ekologiyaya dair daha çox məlumata malikdir [1].

Birincisi, fənnin aparıcı ideyalarının məzmunu ekoloji təhsildə əsasdır. Beləliklə, coğrafiyanın tədrisi məktəblilərdə Yer kürəsinin təbiətinin bütövlüyünü, onun proseslərinin vəhdətini, insanın onunla təbii əlaqəsini, habelə insan fəaliyyətinin təbiətlə əlaqəsi haqqında anlayışı inkişaf etdirməyə yönəldilmiş qanunlarına uyğun olmalıdır.

İkincisi, məktəb təhsilində coğrafiya kursu ekoloji problemləri üç səviyyədə - qlobal, regional və diyarşünaslıq yanaşması əsasında nəzərdən keçirən yeganə fənndir.

Coğrafiya dərslərində şagirdlərin tədrisi fiziki və iqtisadi coğrafiyanın bütün kurslarının öyrənilməsi zamanı ekologiya haqqında bilik tələb edir. Bu, insan cəmiyyətinin ətraf mühitə böyük təsiri, planetin ekoloji

vəziyyətinin pisləşməsi və "təbiət - insan - cəmiyyət" sistemindəki əlaqələri xüsusi olaraq təmsil edən və istehsalın təbiətə təsirinin nəticələrini qabaqcadan görə bilən ekoloji savadlı insanların yetişdirilməsi ilə bağlıdır [2].

Məktəb coğrafiyası kurslarının ekolojiləşdirilməsi müəllimə məlum "təbiət – insan – istehsal" düsturu sistemində səbəb-nəticə əlaqəsini göstərməyə, şagirdləri sosial ekologiya və geoekologiya aləminə cəlb etməyə imkan verir; coğrafiyanın tədrisini daha maraqlı təşkil etmək, yaradıcı təlim metodlarından, xüsusilə problemli metodlardan istifadə etməklə, ekoloji biliklərin praktikada tətbiqinin mümkünlüyünü göstərmək, diyarşünaslıq materialından geniş istifadə etməyə kömək edir.

Şagirdlər arasında ekoloji biliklərin dərinləşdirilməsi məktəbdə keçirilən geoekoloji və coğrafiya olimpiadalarında, fənn həftələrində, dekadalarında və s. davam edir.

Coğrafiya müəllimi "ekoloji mədəniyyət", "ekoloji tərbiyə", "ekoloji tərbiyə", "ekoloji yanaşma", "ekoloji şüur" kimi anlayışları mənimsəməlidir.

Ekoloji maarifləndirmə üçün ətraf mühitə təsirin mahiyyətinin qiymətləndirilməsi üzərində iş vacibdir. Belə ki, şagirdlər insan həyatı və onun təsərrüfat fəaliyyətinin nəticələri ilə bağlı məsələləri konkret nümunələr üzərində açmağa çalışır.

Bu mövzunun davamında ətraf mühitin çirklənməsi problemlərinin həlli yollarını açıqlayan referatlar tərtib edilir.

Beləliklə, məktəb coğrafiyası kursunun məzmunu məktəblilərin ekoloji tərbiyəsinə öz töhfəsini verir, bunun üçün geniş imkanlara malikdir. Təhsil sistemində ekoloji təhsil davamlı və məqsədyönlü proses olmalıdır, məqsədi hər bir insanı ekoloji savadlı etməkdir.

Ədəbiyyat

1. Кучер Т.В. Экологическое образование учащихся в обучении географии: Пособие для учителя. – М.: Просвещение, 1990. - с. 128.
2. Экологическое образование в школе: концепция. –М.: Моск. центр межнац. и сравнит. образования, 1994. — 32 с.

РЕЗЮМЕ
ЭКОЛОГИЧЕСКОЕ ВОСПИТАНИЕ НА УРОКАХ ГЕОГРАФИИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ
Агаев Т.Д.

***Ключевые слова**: школьник, экологическое образование, география, окружающая среда, природа, общество.*

В статье рассматривается роль экологического воспитания на уроках географии в общеобразовательных школах, отмечается, что география всегда связана с изучением взаимоотношений человека с окружающей средой. Экология становится географией, когда фиксирует адреса экологических явлений и наносит на карту результаты исследований. Для экологического образования важна работа по оценке характера воздействия на окружающую среду. Таким образом, школьники пытаются решить вопросы, связанные с жизнью человека и результатами его хозяйственной деятельности, на конкретных примерах.

SUMMARU
ENVIRONMENTAL EDUCATION IN THE LESSONS OF GEOGRAPHY IN COMPREHENSIVE SCHOOLS
Aghaev T.D.

***Key words:** schoolchild, environmental education, geography, environment, nature, society.*

The article discusses the role of environmental education in geography lessons in secondary schools, it is noted that geography is always associated with the study of the relationship of man with the environment. Ecology becomes geography when it fixes the addresses of ecological phenomena and maps the results of research. For environmental education, it is important to work on assessing the nature of the impact on the environment. Thus, schoolchildren try to solve issues related to human life and the results of his economic activity, using specific examples.

AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNDƏ "XOŞAGƏLMƏZ HADİSƏLƏR" KONSEPTİNİ VERBALLAŞDIRAN DİL VASİTƏLƏRİNİ TƏŞKİL EDƏN KOQNİTİV ƏLAMƏTLƏR

Allahverdiyeva Günel Teyyub qızı
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
al_gunel@mail.ru

***Açar sözlər:** atalar sözləri, qarğışlar, leksik vahid, konsept, frazeoloji vahid*

"Xoşa gəlməyən hadisələr", yaxud, ümumiyyətlə, "xoşagəlməzlik" mücərrəd səciyyə daşıyaraq son dərəcə geniş məna sahəsinə aid edilir ki, mücərrəd anlayışın konkretləşməsi konkret dildə və konkret leksik vahidlər üzrə aparılır. Bunun üçün isə müəyyən sahənin mərkəz dil vahidi tapılır. Milli dilin paremiologiyası, atalar sözləri və məsəlləri sistemi, xalq təfəkkürü üçün vacib olan bütün hadisələri özündə ehtiva edir, onlara münasibət bildirir. Bu isə təbii haldır, çünki insan üçün standart səciyyə daşıyan faktlar mütləq dildə öz əksini tapmalıdır.

Bütün xalqların mentalitetlərində və dünyanın dil mənzərələrində ən xoşagəlməz və psixoloji baxımdan qəbul olunmayan hadisələrin içində qarğışlar, demək olar ki, əsas yerlərdən birini tutur. ADİL-də *qarğış* sözünün mənası *"Birisinin haqqında pis arzu, nifrin, bəddua"* [1, c.3, s.58] kimi izah olunur. Bu definisiyadan iki semantik ədəd müəyyən oluna bilər: "istək" və "bəd". Fikrimizcə, bu lüğət məqaləsində qeyri-dəqiqlik də özünü göstərir. Məsələn, qarğış sadəcə arzu deyil, qarğış – deyimdir, ümumiyyətlə, bir çox alim, məlum olduğu kimi, qarğışları, eləcə də, alqışları frazeoloji vahid hesab edir, yəni bu deyimlərdə frazeoloji semantika görür. Əlbəttə, bu fikri şübhə altına da almaq olar, qəbul da etmək olar. Şübhəsiz olan bir şeydir: qarğışlar sabitliyə malikdir və dil daşıcılarının nitqində bərpa olunur. Bunları adi sərbəst söz birləşmələrinə də oxşatmaq olar, çünki əksər hallarda istifadə olunan leksik vahidlər ilkin denotatları ilə əlaqələrini itirmirlər və qarğışlarda onlarla əlaqəli istifadə olunurlar. Məsələn, adi deyimləri yada salmaq olar: *öləsən, boynunu yerə soxum, əli qurusun* və s. bu kimi ifadələr elə öz mənalarında işlənir. Əlbəttə, bir məqamı da mütləq nəzərə almaq lazımdır. Danışıq situasiyasından, adresantdan və adresatdan asılı olaraq bu cür deyimlərin hərfiliyi, yaxud frazeolojiləşmənin dərəcəsi fərqli ola bilər. Məsələn, qadın öz əri, hətta övladları haqqında "Boynunu yerə soxum" deyə bilər. Belə vəziyyətlərdə qarğış sadəcə insanın hirsin ifadə edir. Fikrimizcə, bəzən heç hirsi də yox, narazılığı, təəssüfü, istehzanı bildirir.

Nəzərə almaq lazımdır ki, azərbaycanlılar qarğış kimi istənilən ifadəni işlədə bilər. Belə hallarda müvafiq leksik vahidlər, əlbəttə, öz ilkin mənalarında işlənir və sadəcə qarğış funksiyası yerinə yetirir. Məsələn, biri özünə təzə ayaqqabı alır, deyirlər: "kabluku sınsın", biri harasa gedir, deyirlər: "heç sağ gedib çatmasın", yaxud "heç sağ qayıtmasın". Ümumiyyətlə, azərbaycanlılar qarğışdan çox qorxurlar, lakin çox tez-tez ondan istifadə edirlər.

ADİL-də *qarğış* lekseminə həsr olunmuş məqalədə iki sabit söz birləşməsi verilir: *"qarğış etmək* (qarğımaq, nifrin etmək)*, qarğış tutmaq* (qarğışın təsiri keçmək)*"* [1, c.3, s.58]. Hər ikisi eyni mənada işlənir və hər ikisinin mənasında "şər" koqnitiv əlaməti qabarıq şəkildə təqdim olunur. Azərbaycan mentalitetindən bununla bağlı onu demək olar ki, qarğışın real gücünə inam var, xalq inanır ki, qarğış yerini tapır. Ona görə xalq arasında belə bir fikir də var ki, qarğış edən adamlardan qorunmaq lazımdır.

Azərbaycan dilində qarğış leksemi lənət sözü ilə vahid paradiqma yaradır. Lakin bu sözün mənası qarğışın mənasından fərqli izah olunur. ADİL-də oxuyuruq: *"Dini etiqada görə Allahın mərhəmətindən məhrum olma, nifrin (adətən köməkçi feillərlə işlənir)"* [1, c.3, s.256]. Maraqlıdır ki, burada xüsusi dini əsas leksemin siqnifikativ tutumunu təşkil edir. O ki qaldı *lənət* sözünün denotativ tutumuna, burada, fikrimizcə, *lənət qarğış*dan heç bir cüzi semantik fərqə malik deyil. Azərbaycan xalqının kütləvi şüurunda qarğış və lənət eyni şeydir. Hər iki halda "nitq məhsulundan" söhbət gedir. Yəni birinci halda ADİL arzudan danışır, ikinci halda isə dini etiqaddan, lakin, xalq təsəvvürlərinə görə, burada fərq duyulmur. Fikrimizcə, fərq ondadır ki, qarğış ümumi anlayış kimi çıxış edir və konkret deyimlər qarğış kimi dəyərləndirilə bilər. Lənət isə özü deyimin komponenti kimi işlənir. Məsələn, *Allah sənə lənət eləsin*.

Lənət lekseminə həsr olunmuş məqalədə ADİL iki sabit söz birləşməsi göstərir: *lənət damğası basmaq* və *lənət etmək* (eləmək, oxumaq, yağdırmaq). Yəni bu ifadələr kvadrat işarəsindən sonra verilir. Qeyd etmək lazımdır ki, burada faktiki olaraq cəmi bir ifadə göstərir. Semantik-struktur konfiqurasiya tamamilə eynidir: "lənət" anlayışı və feil, yəni hərəkət bildirən söz. Hərəkət isə həmin "xoşagəlməz qüvvə"ni rəqibin üzərinə atmaqdan ibarətdir. Lüğətdə göstərilən məna isə yalnız bir deyimdə reallaşır: *Allah sənə (ona) lənət eləsin*. Yəni burada məna, ADİL-də göstərilən kimi, "Allah səni (onu) öz mərhəmətindən məhrum etsin" semantikası mövcuddur. Bu halda lənətin koqnitiv əsası da müəyyən və konkret olur. İnsanlar, azərbaycanlılar, inanırlar ki, Allah pis adamı öz mərhəmətindən məhrum edə bilər. Təbii ki, bu koqnisiya insanın bədbəxtliyini Allahın həmin mərhəmətindən məhrum olunması ilə şərtləndirir. Lakin bu ifadəni müəyyən kateqorial əlamətlə bağlamalı olsaq, deyərik ki, kimsə kimisə qarğışladı. Yəni lənət anlayışını qarğışla izah edərik. Maraqlıdır ki, lüğətdə göstərilən ikinci sabit söz birləşməsini izah edərkən müəlliflər məhz "qarğış" konseptinə müraciət edirlər: *lənət etmək* (eləmək, oxumaq, yağdırmaq) – nifrin etmək, qarğımaq [1, c.3, s.256].

ADİL həmin məqalədə romb işarəsindən sonra bir frazeoloji vahidi göstərir: *Lənət sənə kor şeytan! Lənət şeytana* [11, c.3, s.256]. Əslində burada bir frazeoloji vahidin iki variantı verilir. Mənası "arzuedilməz bir hərəkətdən çəkinmək istərkən deyilən nida ifadəsi" kimi müəyyən olunur. Bu ifadə qarğış olaraq Azərbaycan dilində bir növ universal səciyyə daşıyır, yəni *lənət şeytana* ifadəsi istənilən situasiyada işlənir.

Əslində funksional baxımdan burada nida semantikası realizə olunur. *Lənət şeytana* ifadəsi əslində adi *ah* nidasına bərabərdir. Funksional və semantik baxımdan bu ifadələr tamamilə bərabərdir. Lakin propozisional baxımdan *lənət şeytana* ifadəsi son dərəcə mühüm məzmuna aiddir. O ki qaldı *ah* nidasına, bu ifadə semantik baxımdan tamamilə boşdur, yəni funksional məzmunu semantik məzmunla qarışdırmaq olmaz. Funksional baxımdan, əlbəttə, *ah* nidasının məzmunu var və bu nida işarə kimi yozula bilər və bilir. Əlbəttə, nidanın özü heç də həmişə eyni koqnisiya qəlibində yozulmurdu, situasiyadan asılı olaraq *ah* müxtəlif yozuma münasib gəlir. Lakin situativ yozum istənilən dil işarəsininə aid oluna bilər.

Qeyd olunduğu kimi, mədəni-tarixi informasiya baxımından *lənət kor şeytana,* yaxud *lənət şeytana* ifadəsi adi nida ilə tamamilə eyniləşdirilə bilməz. Bundan əlavə, baxmayaraq ki, bu iki ifadəni bir frazeoloji vahidin iki variantı kimi dəyərləndirmək olar, bunların arasında semantik və koqnitiv fərq mövcuddur. Məsələn, *lənət sənə, kor şeytan* ifadəsində *kor* komponentinin son dərəcə mühüm koqnitiv rolu müşahidə olunur. Yəni azərbaycanlılar şeytanı kor bilir, görmək qabiliyyətindən məhrum olmuş. Kor olduğuna görə şeytan lazım oldu-olmadı insanların işlərinə qarışır və onların gedişatını pozur, mane olur. Burada elə koqnitiv baxımdan iki fikir ola bilər. Birincisi, ümumiyyətlə, və bütövlüklə şeytanın kor olmasını inkar edir, yəni şeytan çox yaxşı bilir ki, insanlara necə ziyan vura bilər. İkincisinə görə isə, şeytan əməli insanların yaxşı işlərinə ziddir, elə ucdan tutma bütün işlərinə yox. Əfsanəyə görə, iblis Allahdan xahiş edir ki, ona qiyamətə qədər insanları yoldan çıxarmağa imkan versin. İblisin arzusu və məqsədi Adəm övladlarının Allah qarşısında ifşasıdır. *Lənət şeytana* ifadəsi bu mədəni-tarixi və dini-fəlsəfi kontekstdən məhrumdur.

Rus dilində "qarğış" konsepti *проклятие* leksemi ilə işarələnir. Eyni zamanda *lənət* leksemi də rus dilinə həmin sözlə tərcümə olunur. Beləliklə də, iki dildəki fərq özünü elə ilk addımdan göstərir. Azərbaycan dilinin iki sözü rus dilinin bir lekseminə çıxır. Rus dilində qarğışlar, Azərbaycan dilində olduğu kimi, geniş yer tutmur. Ümumiyyətlə, standart qarğışlara nəzər salsaq görərik ki, Azərbaycan dilində qarğışlar həqiqi denotatına uyğun şəkildə işlənir və yalnız tək-tük hallarda frazeoloji deyim funksiyasında çıxış edir. Rus dilində isə, əksinə, formal işlənmə halları üstünlük təşkil edir. Əlbəttə, bu heç də o demək deyil ki, rus dilindəki qarğışlar ekspressiv mahiyyətini itiriblər və sırf şərti işarə kimi çıxış edirlər. Məsələn, rus dilindəki *чтоб тебе пусто было, ах черт тебя подери, чтоб тебе ни дна ни покрышки* deyimləri ekspressiv mahiyyətini itirmirlər. Lakin bunlar, ekspressiv deyim olaraq, qarğış funksiyasını itirirlər və həqiqi frazeoloji vahid rolunda çıxış edirlər. Bunun əsas sübutu isə onların öz ilkin və həqiqi denotatları ilə əlaqələrini itirməklərindədir. Məsələn, göstərilən *чтоб тебе пусто было, ах черт тебя подери, чтоб тебе ни дна ни покрышки* ifadələrində ilkin denotatın heç izi də qalmır. Bəlkə, etimoloji təhlil nəticəsində həmin denotatın izləri bərpa oluna bilər. Azərbaycan dilində isə qarğışlar ilkin denotatları ilə əlaqə heç kəsmirlər. Azərbaycanlılar *gözün çıxsın, əlin qurusun, heç sağ qayıtmasın, Allah cəzasını versin* və onlarla bu cür ifadələrdə onların hərfi mənada yerinə yetməsini arzulayır. Azərbaycan və rus dilindəki qarğışları müqayisə edəndə denotativ mahiyyətin fərqi özünü bilavasitə göstərir. Azərbaycan deyimlərinin hamısında komponentlər həqiqi mənalarında işlənir, rus dili qarğışları isə əksər hallarda nida funksiyası yerinə yetirir. Bundan əlavə, rus dilindəki qarğışlar, etimoloji qarğış olaraq, bir çox hallarda hətta komik təəssürat bağışlayır.

Mənəvi baxımdan xoşagəlməz və insan psixikası tərəfindən rədd olunan hadisələr hər iki dildə, eləcə dünya dillərində, kifayət qədər çoxdur. Bunların hamısını tədqiqata cəlb etmək mümkün deyil. İş orasındadır ki, bunlar həm konseptual, həm də semiotik baxımdan zəncirvari şəkildə bir-birilə bağlıdır. Məsələn, ən ümumi və mücərrəd anlayış kimi "ağrı" (yəni mənəvi ağrı) çıxış edirsə, leksik-semantik səviyyədə Azərbaycan dilində *ağrı* leksemi hiperonim olaraq müvafiq semantik sahədə mərkəz funksiyası yerinə yetirir. Mücərrəd məna qanunauyğun şəkildə *söyüş, danlaq, təhqir, istehza, lağa qoymaq, alçaltmaq, təqib, böhtan, iftira, şər, qeybət* və s. bu kimi bir çox leksemlərdə ifadəsini tapır. Bu leksemlərdən hər biri ümumi mənanı konkretləşdirir və beləliklə də daraldır. Bu sözlərdən hər biri öz xüsusi paradiqmatikasına və sintaqmatikasına malikdir. Beləliklə, xoşagəlməz hadisələri bildirən əsas söz hər iki sistem əlaqə vasitəsi ilə xüsusi şəbəkə yaradır və dil sistemi çərçivəsində ayrıca leksik-semantik və frazeoloji sistem yaradır. Bu cür sistemlik həm Azərbaycan, həm də rus dilinə xasdır. Fərqlər bəzi konfiqurasiyaların konkret komponent-lərinə aiddir, o ki qaldı mənanın ifadəsinə, bu əksər hallarda baş verir.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. – 1 cild. – Bakı: Şərq-Qərb, – 2006. – 744 s. – 4 cild. – Bakı: Şərq-Qərb, – 2006. – 712 s.
2. Azərbaycanca-rusca lüğət. – 1 cild. – Bakı: Elm, – 1986. – 576 s. – 4 cild. –Bakı: Mütərcim, –2000. – 1288 s.

3. Həmidov, İ., Axundov, B., Həmidova, L. Azərbaycanca-rusca, rusca-azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti. – Bakı: Təhsil, – 2009. – 560 s.
4. Orucov, Ə.Ə. Azərbaycanca-rusca frazeologiya lüğəti. – Bakı: Elm, – 1976. – 247 s.
5. Ожегов, С.И. Словарь русского языка. – М.: Русский язык, – 1990. – 917 с.

РЕЗЮМЕ
КОГНИТИВНЫЕ ЗНАКИ, ОРГАНИЗУЮЩИЕ ЯЗЫКОВЫЕ СРЕДСТВА ВЕРБАЛИЗАЦИИ КОНЦЕПТА «НЕПРИЯТНОЕ СОБЫТИЕ» В АЗЕРБАЙДЖАНСКОМ И РУССКОМ ЯЗЫКАХ
Аллахвердиева Г.Т.

Ключевые слова: *пословицы, проклятие, лексическая единица, концепт, фразеологизм*

«Неприятные события» или вообще «неприятности» имеют абстрактный характер и относятся к чрезвычайно широкому смысловому полю, так что конкретизация абстрактного понятия осуществляется на конкретном языке и на конкретных лексических единицах. Для этого находится центральная языковая единица определенной области. Паремиология национального языка, система пословиц и поговорок, содержит в себе все важные для национального мышления явления и относится к ним.

Среди самых неприятных и психологически недопустимых явлений в ментальности всех народов и языковом ландшафте мира *проклятия* занимают едва ли не одно из главных мест.

SUMMARY
COGNITIVE SIGNS ORGANIZING LINGUISTIC MEANS OF VERBALIZATION OF THE CONCEPT "UNPLEASANT EVENT" IN THE AZERBAIJAN AND RUSSIAN LANGUAGES
Allahverdiyeva G.T.

Keywords: *proverbs, curse, lexical unit, concept, phraseological unit*

"Unpleasant events" or "troubles" in general are of an abstract nature and refer to an extremely wide semantic field, so that the concretization of an abstract concept is carried out in a specific language and in specific lexical units. For this, the central language unit of a certain area is found. The paremiology of the national language, the system of proverbs and proverbs, contains all the phenomena important for national thinking and refers to them.

Among the most unpleasant and psychologically unacceptable phenomena in the mentality of all peoples and the linguistic landscape of the world, curses occupy almost one of the main places.

FONETİKANIN TƏDRİSİ İLƏ ƏLAQƏDAR OLARAQ ŞAGİRDLƏRİN LÜĞƏT EHTİYATINI ZƏNGİNLƏŞDİRMƏK YOLLARI

Aslanova Kəmalə Həşim qızı
Bakı Slavyan Univertsiteti, Bakı, Azərbaycan
etll@bsu-uni.edu.az

Açar sözləri*: lüğət, ana dil, nitq, qrammatika*

Giriş: Fonetikanın tədrisi ilə əlaqədar olaraq müəllim şagirdlərə dilin insanlar arasında ünsiyyət vasitəsi olduğunu praktik yolla başa salmalı, səs, hərf, əlifba, sait və samitlərin xüsusiyyətlərini, heca və vurğunu öyrətməlidir. Bu mövzuların tədrisi ilə əlaqədar olaraq orfoqrafiya ilə orfoepiya arasındakı münasibət izah olunmalı, şagirdlərin nitq inkişafına, lüğət ehtiyatını zənginləşdirilməsinə fikir verilməlidir. Müəllim bu məqsədə nail olmaq üçün tədris zamanı şagirdlərin həmin məsələyə dair biliklərini nəzərə almalı və fonetikadan verilməli olan biliklə üzvi surətdə bağlamalıdır. Müəllim tədris prosesində şagirdlərin köhnə biliklərinə əsaslanaraq yeni bilikləri onların fəallığı və müstəqilliyi nəticəsində aşkara çıxarmalıdır. Fonetika bəhsi yaxşı tədris olunarsa, morfologiya bəhsinin tədrisi də asanlaşar, morfologiya bəhsi yaxşı tədris olunarsa, sintaksis bəhsinin tədrisi asanlaşar. Çünki qrammatikanın bu bölmələri üzvi surətdə bir-birinə bağlıdır. Bu əlaqə şagirdlərin lüğət ehtiyatını zənginləşdirməkdə öz əksini tapır.

Tədris prosesində qrammatikanın müxtəlif bölmələri arasındakı əlaqələrdən bəhs edərkən görünür ki, fonetika da, morfologiya da, sintaksis də öz spesifik xüsusiyyətlərini saxlamaqla bərabər daima bir-biri ilə təmasda olur: hər bir bölmənin tədrisi prosesində istər şagirdlərin lüğət ehtiyatını zənginləşdirilməsinə, istər rabitəli nitqlərinin inkişaf etdirilməsinə və istərsə də orfoqrafiya və durğu işarəsi vərdişlərinin formalaşmasına müəyyən dərəcədə fikir verilməlidir.

Fonetikanın tədrisini orfoqrafiya və lüğət işi ilə daima əlaqələndirmək lazımdır. Fonetikanın tədrisi ilə əlaqədar olaraq aparılan lüğət işinin mühüm bir hissəsi həmin bəhsdə qarşıya çıxan terminlərin və çətin sözlərin izahından ibarətdir. Ümumiyyətlə, qrammatikaya, o cümlədən, fonetikaya aid terminləri şagirdlərin düzgün başa düşməsi keçilən materialları, qayda-qanunları onların şüurlu surətdə mənimsəməsi üçün əsas

verir. Bu nöqteyi-nəzərdən qrammatikadan hər bir bölməni tədris edərkən ona aid bütün terminləri şagirdlərə izah etmək vacib və əhəmiyyətlidir. «Fonetika» bəhsinin öyrənilməsi dövründə birinci olaraq şagirdlərə *fonetika* termininin mənası aydın izah olunmalıdır. Müəllim izah etməlidir ki, *fonetika* mənşəyi etibarı ilə yunan sözüdür. Yunanca phone (səs), tikos (elm, bilik) tərkibindən ibarətdir, əsil mənası *səsə dair*, termin mənası *səs elmidir*. Onun tərkibindəki *fon* hissəsi *səs, səda* deməkdir. «Fon» hissəsinə bir çox sözlərdə rast gəlmək olur. Bu izahatdan sonra müəllim aşağıdakı sözləri yazı taxtasına yazıb, onların mənasını, yazılışını və tələffüsünü şagirdlərə izah edir: *telefon* – elektrik dalğalarını səsə çevirib, uzaq məsafəyə verən bir cihazdır. Yeri gəlmişkən müəllim telefonun 1861-ci ildə ixtira edilməsi haqqında da məlumat verə bilər. *Mikrofon* – səs dalğalarını elektrik dalğalarına çevirən və gücləndirən cihazdır. *Maqnitofon* – mikrofonun təkmilləşdirilmiş formasıdır. *Simfoniya* – orkestr üçün yazılmış böyük musiqi əsəridir. Tərkibində «fon» olan bu sözlərin mənalarını şagirdlərə başa salmağın əhəmiyyəti böyükdür. Bu, bir tərəfdən *fonetika* termininin mənasını başa salmaq, digər tərəfdən də şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək üçün çox faydalıdır. Müəllim bu bəhsin tədrisi ilə əlaqədar olaraq danışıq səsləri – sait və samitlər üzərində iş apararkən şagirdlərə başa salmalıdır ki, dilimizdə işlənən sözlər səs komplekslərindən başqa bir şey deyildir. Səslərin ayrılıqda müstəqil mənası yoxdur, lakin onlar sözlərin yaranmasında və mənaca bir-birindən fərqlənməsində böyük rol oynayır.

Lüğət işi ilə əlaqədar olaraq sözün tərkibindəki saitlərin yerini dəyişməklə sözün mənasında əmələ gələn dəyişikliyin şagirdlər tərəfindən nə dərəcədə düşünüldüyünü öyrənmək məqsədi ilə Bakı məktəblərində təcrübə apardıq. Təcrübənin nəticəsi göstərdi ki, müəllimlər bunu aşağıdakı şəkildə izah edirlər:

M. – *Həkim* sözündə neçə sait var?

Ş. – *Həkim* sözündə iki sait var.

M. – Bu saitlər hansılardır?

Ş. – Bu saitlər ə və i-dir.

M. – Bu saitlərin hansını başqa saitlə əvəz etsək sözün mənası dəyişər?

Şagird susur.

Ona görə də şagirdlər bunu yaxşı mənimsəyə bilmədilər. Burada şagirdlər ancaq sözlərdən saitləri tapıb, növlərini göstərə bilirdilər. Həmin məktəbin Vb sinfində isə bu məqsədlə eksperiment qoyduq. Məqsədimiz sait səslərin sözlərin məna və formaca fərqini müəyyənləşdirməkdəki rolunu göstərmək idi. Bunun üçün bizim təklifimiz üzrə müəllim aşağıdakı sözləri lövhəyə yazıb, bu sözlərin forma və mənaca dəyişilməsində saitlərin rolunu izah etdi. Dərs zamanı müəllim lövhəyə bu sözləri yazdı: *həyət – həyat; həkim – hakim; limon – liman; hərəkət – hərəkat*.

M. – *Həkim* sözündə neçə sait var?

Ş. – *Həkim* sözündə iki sait var.

M. – Bu saitlər hansılardır?

Ş. – Bu saitlər ə və i-dir.

M. – Bu saitlərin hansını başqa saitlə əvəz etsək sözün mənası dəyişər?

Ş. – Bu saitlərdən ə-ni a ilə əvəz etsək, sözün mənası dəyişər və *həkim* əvəzinə *hakim* olar.

Deməli *həkim* sözündə ə saitini a ilə əvəz etdikdə sözün forması dəyişildiyi kimi, mənası da dəyişildi.

Həyət və *həyat* kimi sözlərdə saitin rolunu başa salmaq üçün belə sual-cavab aparıldı:

M. – *Həyət* sözündə neçə sait var?

Ş. – *Həyət* sözündə iki sait var.

M. – Bu saitlər hansılardır?

Ş. – Bu saitlər ə və ə-dir.

M. – *Həyat* sözündə neçə sait vardır?

Ş. – *Həyat* sözündə iki sait vardır.

M. – Bu saitlər hansılardır?

Ş. – Bu saitlər ə və a-dır.

M. – Bu sözdəki hansı sait dəyişilib ki, *həyət* sözü *həyat* olub?

Ş. – Bu sözdə ikinci ə saiti a saiti ilə əvəz olunduğu üçün *həyət* sözü *həyat* olub.

M. – Düzdür. Kim buradan ümumi bir nəticə çıxara bilər?

Ş. – Sözlərdə saitləri dəyişdikdə məna da dəyişə bilər.

O biri sözlər də bu qayda ilə izah edildikdən sonra müəllim bu sözlərin mənalarını daha yaxşı başa salmaq üçün şagirdlərə aşağıdakı cümlələri tərtib etdirdi.

1.Uşaqlar məktəbin *həyətini* təmizlədilər.

2.Xalqımızın *həyatı* gündən-günə yaxşılaşır.

3.*Hakim* oyunun başlanması üçün fit verdi.

4.*Həkim* xəstəyə dərman verdi.
5.Mən *limon* aldım.
6.Gəmi *limana* yan aldı.
7.Küçə *hərəkətini* gözləmək lazımdır.
8.İnqilabi *hərəkat* başlandı.

Müəllim kursivlə verilmiş bu sözlərin mənalarını və orfoqrafiyasını şagirdlərə izah etdi.

Bu məsələni şagirdlərə daha əsaslı şəkildə öyrətmək üçün müəllim dərsdə şagirdlərin müstəqilliyini və fəallığını artıran bir sıra tapşırıq və çalışmalardan istifadə etməlidir. Bu məqsədlə belə bir tapşırıqdan istifadə etmək olar. Tapşırıqda deyilir: sözləri ucadan oxuyun, onlarda hansı saitin dəyişdiyini göstərin. 1) daş, döş, diş, düş; 2) baş, beş, biş; 3) qaz, qoz, qız; 4) saz, siz, söz, süz; 5) şar, şor, şir; 6) gəl, göl, gül, gil. Göründüyü kimi, bu tapşırıq saitləri öyrənməklə bərabər, şagirdlərin lüğət ehtiyatını zənginləşdirməyə xidmət edir. Biz bu mövzunun tədrisi ilə əlaqədar olaraq şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək üçün aşağıdakı çalışmaların aparılmasını lazım bilirik və tövsiyə edirik.

1.Sait hərfi dəyişməklə yeni məna verən iki söz yazın və bunları cümlələr içərisində işlədin.

2.Aşağıdakı sözlərdə olan saitlərin altından xətt çəkin və sözlərin mənasını izah edin.

Əsr, əsir, əsər; nəfis, nəfəs; hərf, hərif; mətn, mətin; surət, sürət.

3.Stol və stul, göyərti və göyərtə, kotan və kətan sözlərində neçə səs vardır? Bu səsləri sayın. Bu sözləri bir-birindən hansı saitlərə görə fərqləndiririk.

4.Elə sözlər tapıb deyin ki, hər iki tərəfdən oxuduqda eyni məna versin (ana, ata, ada, yay, iti, ütü, səs, tut, mum).

Samitlər mövzusunun tədrisi ilə əlaqədar olaraq eyni üsuldan istifadə etməklə şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək üçün aşağıdakı çalışmaların aparılmasını tövsiyə edirik.

1.Yalnız samit hərfini dəyişməklə yeni məna verən dörd söz yazın və bunları cümlələr içərisində işlədin.

2.Verilmiş sözlərin əvvəlinci samitini əvəz edib, başqa sözlər düzəldin: *qol, qar, bağ, ac, saç, dərs*.

N ü m u n ə: bağ – dağ.

3.*Sakit* və *sakin, orden* və *order, tədqiqat* və *təhqiqat* sözlərində neçə səs vardır? Bu səsləri sayın. Bu sozləri bir-birimdən fərqləndirməkdə hansı samitlərin rolu vardır.

4.Elə sözlər tapıb deyin ki, tərsinə oxuduqda başqa mənalı bir söz alınsın: *daş – şad, alaq – qala, qaya – ayaq, kələm – mələk, Babək – kəbab*.

5.Aşağıdakı sözlərin mənasını izah edin və onları cümlədə işlədin: *daxıl – taxıl, sənət – sənəd, təmin – təmir, ləpir, səpir, mətin – çətin*.

N ü m u n ə: Elxan *sənədlərini* verib, *sənət* məktəbinə daxil oldu.

Söz düzəltmək lüğət tərkibini zənginləşdirməkdə əsas yollardan biridir. Ona görə də şagirdlər söz köklərinin mənalarını başa düşməli, sözdüzəldici şəkilçilər vasitəsi ilə köklərdən yeni sözlər düzəldiyini və həmin sözlərin mənasının dəyişdiyini bilməlidirlər. «Sözün tərkibi» bəhsinin tədrisi həm nəzəri, həm də praktik cəhətdən böyük əhəmiyyətə malikdir. Çünki bu bəhs bir tərəfdən nitq hissələrinin tədrisi üçün zəmin hazırlayır, digər tərəfdən isə şagirdlərin söz ehtiyatının artmasına xidmət edir.

Bu izahatdan sonra şagirdlərin kök və şəkilçi haqqında təsəvvürləri genişlənir.

Ədəbiyyat

1.Abdullayev A. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 1962.
2.Abdullayev A. Orta məktəbdə Azərbaycan dili tədrisinin metodikası. Bakı, 1964.

РЕЗЮМЕ
ПУТИ ОБОГАЩЕНИЯ СЛОВАРНОГО ЗАПАСА УЧАЩИХСЯ В СВЯЗИ С ПРЕПОДАВАНИЕМ ФОНЕТИКИ
Асланова К.Г.

Ключевые слова: *словарный запас, родной язык, речь, грамматика*

В связи со словарной работой мы провели эксперимент в бакинских школах, чтобы выяснить, в какой степени учащиеся задумываются об изменении значения слова путем изменения места гласных в слове. Результат эксперимента показал, что педагоги объясняют это следующим образом:

SUMMARY
WAYS TO ENRICH THE VOCABULARY OF STUDENTS IN CONNECTION WITH THE TEACHING OF PHONETICS
Aslanova K.H.

Key words: *dictionary, native language, speech, grammar*

In connection with dictionary work, we conducted an experiment in Baku schools to find out to what extent students think about changing the meaning of a word by changing the place of vowels in a word. The result of the experiment showed that teachers explain it as follows.

B.VAHABZADƏNİN ŞEİRLƏRİNİN DİLİNDƏ ANTONİMLƏRİN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

Aslanova Mətanət Musa qızı
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
aslanova.metanet.01@mail.ru

Açar sözlər: *semantik söz qrupları, şeir, antonim sözlər, təzad, üslubi xüsusiyyətlər.*

Ana dilimizin keşiyində duran onun saflığı uğrunda mübarizə aparan B.Vahabzadə Azərbaycan ədəbiyyatının XX əsrdə yetişdirdiyi görkəmli şairlərindən biridir. Onun hər bir əsəri Azərbaycan Azərbaycan adlı ananın südündən, isti nəfəsindən, laylasından yoğrulmuş mükəmməl poeziya nümunəsidir.

Dil açanda ilk dəfə söyləyirik biz,
"Ana dili" adlanır bizim ilk dərsliyimiz
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gülə-gülə [6, s.35]

B.Vahabzadə Azərbaycan ədəbi mühütində xüsusi fərqlənən, sözün kəsərini, nüfuzunü həmişə öz yaradıcılığında qoruyan sənətkardır. O, dilinin özünəməxsusluğu ilə seçilən söz xiridarıdır ki, bütün yaradıcılığı boyu xalqa yaxın olmuş, ondan qaynaqlanmışdır.

"B.Vahabzadə şeirimizin Füzuli, Vaqif, Sabir, S.Vurğun, Aşıq Ələsgər, Şəhriyar bulağından su içmişdir. O, sözü elə gözəl oynadır ki, elə parlaq təzadlar yaradır, fikri gözlənilmədən elə döndərir, elə dərinləşdirir və fəlsəfi ümumiləşdirmələr səviyyəsinə elə qaldırır ki, oxuyanda valeh olursan, hədsiz sevinc və mənəvi, estetik ləzzət duyursan (M.İbrahimov)" [5].

Yazıçı və şairlərin əsərləri bədii dilinə görə bir-birindən fərqlənir. B.Vahabzadə də digər ədiblərdən milli təfəkkürü və dil özünəməxsusluğu ilə seçilir. Onun əsərlərinin dili axıcı, milli koloritli, vətən sevgili, vətən avazlı, həzin ahəngi və aforizmlərlə zəngin olan bir dildir.

Şairi kimsəyə dəyişmərəm mən,
Onlar hər cilvədə min sirr axtarır
İdrakın irişməz dərinliyindən
Onlar söz axtarır, fikir axtarır [4, s.42]

Azərbaycan ədəbi dili olduqca rəngarəng, gözəl bədii ifadə üsuluna, zəngin lüğət tərkibinə malikdir. Dilimizin lüğət tərkibində özünəməxsus rolu olan, sinonimlərlə əks qütbdə duran leksik vahidlərdən biri də antonimlərdir. Dilimizin əsas semantik kateqoriyalarından olan antonimlər lüğət tərkibinin mühüm bir hissəsini təşkil edərək, dilimizin özəl xüsusiyyətlərini özündə qoruyub saxlayan leksik vahidlərdir. Antonimlər ziddiyyət, təzad mənasını ifadə edir. Bu xüsusiyyət antonim sözlərin leksik mənasından irəli gəlir. "Antonimləri təşkil edən sözlər müxtəlif fonetik tərkibə malik olur. Müqayisə və qarşılaşdırma yolu ilə aşkar edilən müxtəlif təzadlı hadisələr, obyektiv aləmin bütün zidiyyətli cəhətləri əksmənalı anlayışlar silsiləsini təşkil edən antonimlər vasitəsilə şərh edilir" [2, s.37]

Antonimlər bədii üslubda maraqlı çalarlar yaratmaları ilə seçilən dil vahididir. Bədii əsərlərin dilində antonimlərin işlədilməsinin əsas məqsədi bu və ya digər hadisənin məfhumunun təzadlı fərqlərini göstərməkdən ibarətdir.

Antonim sözlər B.Vahabzadə şeirinin məzmunu ilə üslubi strukturunun harmoniyasını təmin edən leksik semantik söz qruplarındandır.

Cavan ikən qoca könlüm
Qocaldıqca cavan oldu [4, s.228]

Bir əppəyim yağlı fətir,
Bir əppəyim yavan oldu [4, s.228]

Poetik əhval-ruhiyyəyə, emosional mühakimə tərzinə müvafiq B.Vahabzadənin işlətdiyi hər antonim cütlük həyat həqiqətinin bədii həqiqətə çevrilməsi vasitəsidir.

Antonimlər yanaşı, çox vaxt da qonşu misralarda işlənməklə, bədii zövqü oxşayaraq nəzər-diqqəti cəlb edir.

Bayaq yaman tutulmuşdum, açıldım indi [4, s.160]

Ən böyük nifrətə layiq olanı
Ən böyük sevgiylə sevirik bəzən [4, s.102]

Antonimlərin işləndiyi şeir nümunələri göstərir ki, B.Vahabzadə qüdrətli təzad şairidir. Təzadlar onun üçün gərçəkliyi poetik, məntiqi düşüncələr vasitəsilə dərk etməyə imkan verir. Məhz buna görə də antonimlər şairin misralarında bədii fikrin, poetik əhvalın aparıcı gücü kimi verilir.

Var-dövlətli kişi varmış,
Sərvətini kasıblara paylayarmış [4, s.125]

Biri varmış, biri yoxmuş
Ön sözüdür nağılların,
Son sözüdür nağılların [4, s.125]

Ziddiyətli həyat mənzərələrini əyaniləşdirmək B.Vahabzadənin dərin mündəricəli yaradıcılığına xas olan məziyyətdir.

Həmişə qaraya ağ deyən qara
Ağın əllərilə dara çəkilmiş [3, s.96]

Xəttin bu başında mən dayanmışam.
Xəttin o başında ustad Şəhriyar [3, s.94]

"Zidiyyətli həyat hadisələrini, münasibətləri vermək üçün antonim sözlər sənətkarın əlində ən dəyərli ifadə vasitəsi kimi özünü göstərir. Antonim sözlər vasitəsi ilə bədii əsərlərin dilində təzad yaradılır ki, bunun da köməkliyi ilə surətlərin xarakteristikası əldə edilir" [2, 66]

Şair antonim sözlərlə yeni ifadə tərzləri yaradır, obrazları, hadisələri müqayisə edərək daha dolğun şəkildə vermək üçün onları qarşılaşdırır və bu zaman antonimlərdən üslubi vasitə kimi istifadə edir.

Şiş dağlar sualdır, gen düzlər cavab
Gecələr sualdır, gündüzlər cavab [4, s.46]

Antonim sözlər B.Vahabzadənin dilində ən işlək semantik vasitədir.

Şəkərin – artırır həsrətimizi,
Zəhərin – aparır dərinliklərə.
Şəkərin – uçurur, qaldırır bizi
Zəhərin – endirir göylərdən yerə. [4, s.248]

Gördüyümüz kimi, bu bənd bütövlükdə təzadlar üzərində qurulmuşdur.

B.Vahabzadənin əsərlərinin dilində mənaca bir-birini tam tam ziddini təşkil edən sözlərə, yəni mütləq antonimlərə tez-tez rast gəlmək olur. Şair eyni məfhumun zidd cəhətlərini qabarıq vermək üçün bu sözlərə müraciət etmişdir.

Onda hökm verərdim ki,
Bu yaxşıdır, bu yamandır.
Bu doğrudur, bu yalandır. [3, s.55]

Heç bilmirəm bu halına
Mən ağlayım, yoxsa gülüm [3, s.65]

Şairin şeirlərində işlənən antonim sözlər quruluş etibarı ilə də müxtəlifdir.

Mən səs istəmirəm, söz istəyirəm,
Astar istəmirəm, üz istəyirəm. [3, c.242]

İlkini başladın, sonunu gözlə,
İmkanlar, təsdiqlə, bütov, tanıq biz [3, s.296]

****

Kiçiyə mərhəmət, böyüyə hörmət!

Antonimlər B.Vahabzadənin şeirlərində mətnin bədii-estetik təsir gücünü artıran leksik vahid kimi mühüm yer tutur. Bir sözlə, şair qüvvətli kontraslar yaradır, əşya və hadisələri daha inandırıcı, obrazlı, təsirli verir.

Nifrət də, sevgi də, qara da, ağ da
İşıq ola, zülmət də göz göz içindədir [4, s.196]

Dost da özündədir, yad da özümdə
Rəhm də məndədir, zülm də məndə,
Həyat da məndədir, ölüm də [4, s.65]

Təzadlı ifadələrdən yaradıcılığında bəhrələnməklə şair öz hikmətli fikirlərini, obrazların daxili aləmini, hadisələrə, əfrafında baş verənlərə münasibətini daha çox təzad qəliblərində ifadə etməyə üstünlük verir.

Həyat səni güldürəndə gülmüsən,
Hünərin var ağladanda, gül görüm [3, s.146]

B.Vahabzadə antonim sözlərdən təsadüfən istifadə etməmiş, məqamına yerinə obrazların xarakterinə, hadisələrinə uyğun olaraq onlara müraciət etmişdir.

Görüşlər özü də dadıma gəlmir
Bu qədər yaxınıq, o qədər uzaq. [4, s.233]

Şairin şeirlərində işlənən antonimləri nitq hissələrinə görə aşagıdakı kimi qruplaşdırmaq olar.

İsimdən düzələnlər:

İnkarla təsdiqin arası bəlkədir. [3, s.121]

Sən həyat naminə ölmədin, qızım
Sən ölüm naminə öldün, dərd budur [3, s.169]

Sifətdən düzələnlər:

Duyuram qaranı ağ görür gözüm [3, s.102]

****

Kiçiyə mərhəmət, böyüyə hörmət! [3, s.321]

Feildən düzələnlər:

Ayaq açan diləklər
Gah durar, gah yıxılar [3, s.241]

Bir də görürsən ki, yaman dolmuşam
Bəhanə gəzirəm boşalmaq üçün. [3, s.103]

Zərfdən düzələnlər:

Gah asta yeridin,
Gah yeyin-yeyin [4, s.238]

O qaçır, yel kimi burulur tindən
O önə qaçdıqcan dala qaçır yol [4, s.296]

B.Vahabzadənin şeirlərində qoşa işlənən leksik sinonimlərə də tez-tez rast gəlmək olur.

Gördü ki, otaqda hər şey qışqırır,
Açdı pəncərəni yer-göy qışqırır [4, s.195]

****

Təzəli-köhnəli nə istəsən var
Qəribə şəhərdir bu qoca London [4, s.177]

Ədəbiyyat

1. Alməmmədova S. B.Vahabzadə poeziyasının dili. Bakı: Elm, 2010. 163 s.
2. Cəfərov S.Ə. Müasir Azərbaycan dili. II hissə. Leksika. Bakı: Şərq-Qərb, 2007. 192 s.
3. Vabahzadə B. Seçilmiş əsərləri: II cilddə. Bakı: Öndər, 2004. 320 s.
4. Vahabzadə B. Payız düşüncələri. Bakı: Yazıçı, 1981. 365 s.
5. Yusifli V. Sözü gülləyə çevirən şair. “Azərbaycan” qəzeti, 13 fevral, 2015.

РЕЗЮМЕ
СТИЛИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ АНТОНИМОВ В ЯЗЫКЕ СТИХОВ Б.ВАГАБЗАДЕ
Асланова М.М.

Ключевые слова: *семантические группы слов, стихотворение, антонимы, контраст, стилистические особенности.*

Антонимы являются одним из художественных средств, используемых мастерами слова для создания наглядности, образности, яркого воображения в произведении.

Бахтияр Вахабзаде один из поэтов, имеющих уникальный след в истории азербайджанской литературы с древними и богатыми традициями. Он был художником, чувствительным к слову и умевшим по-мастерски использовать его.

Б.Вахабзаде использовал антонимы в лексике нашего языка в соответствии с темой стихов и характером образов. Поэт использует антонимы, чтобы сделать существующие противоречия более эффектными. Делая ее более рельефной, ему удалось образно и эффектно раскрыть внутренний мир образов и донести до читателя художественное содержание.

SUMMARY
STYLISTIC FEATURES OF ANTONYMS IN THE LANGUAGE OF POEMS BY B.VAGABZADE
Aslanova M.M.

Key words*: semantic word groups, poetry, antonyms, contrast, stylistic features*.

Antonyms are one of the artistic means used by masters of the word to create clarity, imagery, and vivid imagination in a work.

Bakhtiyar Vahabzade is one of the poets who have a unique mark in the history of Azerbaijani literature with ancient and rich traditions. He was an artist, sensitive to the word and able to masterfully use it.

B.Vahabzade used antonyms in the vocabulary of our language in accordance with the theme of the poems and the nature of the images. The poet uses antonyms to make existing contradictions more effective. By making it more embossed, he managed to figuratively and effectively reveal the inner world of images and convey artistic content to the reader.

MÜASİR AZƏRBAYCAN MUSİQİ SƏNƏTİNƏ HEYDƏR ƏLİYEV QAYĞISI

[1]Babayev Bağır Həmid oğlu
[2]Musayev Etibar Adil oğlu
[1]Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan, f.f.d., dosent
[2]Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan t.f.d, dosent
baqirbabayev59@mail.ru ; etibaradiloglu@mail.ru

Açar sözlər: *Niyazi, musiqi, akademiya, kamera, orqan, gimnaziya*

Məhz Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra musiqi sahəsində çalışan incəsənət xadimləri dövlət tərəfindən yüksək səviyyədə himayə edilmiş, onların maddi vəziyyətləri yaxşılaşdırılmış və vaxtilə Azərbaycan musiqisinin inkişafında müstəsna xidmətlər göstərmiş böyük bəstəkar və müğənnilərin xatirəsinin əbədiləşdirilməsi və təbliğ olunması istiqamətində diqqətəlayiq işlər görülmüşdür.

1994-cü il sentyabrın 18-də Milli musiqi günündə Heydər Əliyevin fərmanı ilə Bakıda görkəmli dirijor və bəstəkar Niyazinin ev-muzeyinin açılışı olmuşdur. Görkəmli sənətkarın xatirəsini yad etmək, mərasimdə iştirak etmək üçün Heydər Əliyev buraya gəlmişdir. Mərasimdə geniş nitq söyləyən Heydər Əliyev Niyazinin yaradıcılığına yüksək qiymət verərək demişdir: «Niyazinin ən böyük xidməti bundan ibarətdir ki, o, həm də bəstəkar kimi milli musiqimizi zənginləşdirmiş, Azərbaycan mədəniyyətinə, böyük töhfələr vermişdir» [31, c. 2, 186-188].

1995-ci il aprelin 8-də Ü. Hacıbəyov adına Musiqi Akademiyasında Aşqabadda keçirilmiş Beynəlxalq musiqi festivalının laureatları və diplomantları ilə Heydər Əliyevin görüş keçirilmişdir. Görüşdə Heydər Əliyev bundan sonra da gənc sənətkarlara diqqət və qayğısını artıracağını bildirmiş və onların Azərbaycanın milli mənəvi dəyərlərinin inteqrasiyası işində apardıqları məqsədyönlü işləri dəstəklə- mişdir [3, 310-311].

1995-ci il mayın 13-də Heydər Əliyevin göstərişilə Azərbaycan Qadınlarının Milli Komitəsi, Mədəniyyət Nazirliyi, Bəstəkarlar İttifaqı və Ü. Hacıbəyov adına Musiqi Akademiyası tərəfindən Bakıdakı Kamera və Orqan Musiqisi salonunda «Qadın musiqi dünyası» adlı kamera musiqisi konserti verilmişdir. Konsertdə iştirak edən Heydər Əliyev əvvəlcə Bakı Musiqi Akademiyasının müəllimləri Xatirə Həsənzadənin və Ella Nəcəfovanın qrafika əsərlərindən və əl işlərindən ibarət sərgiyə baxmış, bu əsərlərin bədiiliyini və zərifliyini yüksək qiymətləndirmişdir [1, c. 2, 305-306].

Heydər Əliyevin milli mənəvi dəyərlərə göstərdiyi qayğı və diqqətin nəticəsində meydana gəlmiş gənc istedadlar dövlət qayğısı ilə əhatə olunmuşdurlar. Azərbaycanda fəaliyyət göstərən Respublika İncəsənət gimnaziyasında təhsil alan istedadlı şagirdlərin sayı 1993-cü ildən etibarən 1000 nəfərə çatmış, 9 nəfər şagird isə müxtəlif beynəlxalq müsabiqələrin qalibi olmuşdu [31, c. 2, 296]. Bunlardan 1994-cü ildə Moskvada keçirilmiş beynəlxalq müsabiqədə birinci yeri tutmuş, «Azərbaycanın Robertino Lorettisi» adlandırılmış Surxay Əsgərovun adını xüsusi qeyd etmək olar. 1996-cı il iyunun 22-də Heydər Əliyevin göstərişi ilə R.Mustafayev adına Dövlət İncəsənət muzeyində onun yaradıcılıq gecəsi keçirilmişdir [1,c.2,298].

1997-ci il dekabrın 1-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Heydər Əliyevin təşəbüsü ilə müstəqil Azərbaycanın tarixində ilk dəfə keçirilmiş vokalçıların Bülbül adına birinci beynəlxalq müsabiqəsinin qaliblərinə mükafat və diplomların təqdim edilməsinə həsr olunmuş mərasim keçirilmişdir [1,c.2, 180].

Münsiflər heyətinin üzvü Rusiyanın görkəmli vokal ustası İrina Arxipova Heydər Əliyevin respublikanın bu ağır dövründə incəsənətə, mədəniyyətə eləcə də müsabiqənin bütün iştirakçılarına göstərdiyi xüsusi diqqət və qayğını yaxından tanıdığı bir sıra dünya ölkələrinin dövlət rəhbərlərində müşahidə etmədiyi xüsusi keyfiyyət kimi qiymətləndirmişdir.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamış görkəmli müğənni, Azərbaycan professional vokal sənətinin banisi Bülbülün anadan olmasının 100 illiyi ilə əlaqədar 1997-ci il dekabrın 3-də Heydər Əliyev Bülbülün qəbrini ziyarət etmək üçün Fəxri Xiyabana gəlmişdir [2, 172].

Heydər Əliyev bayram şənliklərini milli mənəvi dəyərlərin əsl təbliğçisinə çevrildi. Hər il ölkə miqyasında bayram şənlikləri keçirilməyə başlandı. Bayram şənliklərinin xalqımızın milli dəyərlərinin nümayişinə çevrilməsinin vacibliyi ilə bağlı dahi şəxsiyyət demişdir: "Bayram şənliklərində, konsertlərdə Azərbaycan xalqının nə qədər zəngin mədəniyyəti, incəsənəti, adət-ənənələri olduğunu bir daha iftixar hissi ilə duymalıyıq" [1, c.2,329].

Milli bayramların keçirilməsi ilə əlaqədar Heydər Əliyev böyük işlər görmüşdür. Buna misal olaraq, 1994- cü ildən bəri hər il qeyd olunan Novruz bayramı şənliklərini göstərmək olar. Ulu öndərin göstərişi ilə hər il Bakının Gənclər meydanında və Qoşa Qala qapısı önündə Novruz şənliyi keçirilir. Bu gün də həmin ənənə davam etdirilir.

Novruz bayramının keçirilməsi milli dəyərlərin daha dolğun ifadə olunmasına xidmət edir. Azərbaycan xalqının el şənlikləri içərisində islamaqədərki milli dəyərlər əsasında qurulanı Novruz bayramıdır. Novruz bayramı şənliyi xalqımızın qədim və zəngin dəyərlərə malik olduğunun canlı böyük nümunəsidir. Bununla əlaqədar Heydər Əliyev 1998-ci il matın 21-də Novruz bayramı şənliyində vurğulamışdır: "Bizim bu mənəvi dəyərlərimiz safdır, pakdır. Onlar insanlarda həmişə saflıq, paklıq, xeyrxahlıq, yüksək ülvi xüsusiyyətlər tərbiyə edibdir. Ona görə də biz öz xalqımızın milli mənəvi dəyərləri ilə fəxr edirik. Bu gün biz xöşbəxtik ki, ulu babalarımızdan, sevimli əcdadlarımızdan bizə yadigar olan bu mənəvi dəyərlər yenidən canlanır, gənc nəslə çatdırılır, bu mənəvi dəyərləri xalqımızı bu gün də yaşadır və gələcək nəsillərə də çatdıracaqdır" [1,c.2, 330].

1998-ci il mayın 22-də "Respublika" Sarayında xalq artistləri Fidan və Xuraman Qasımova bacılarının konserti keçirilmişdir [2, c.252]. Heydər Əliyev Fidan və Xuraman Qasımova bacılarının xalqımızın mədəniyyətinin inkişafındakı xidmətlərini yüksək qiymətləndirmişdir. Konsertdə AŞPA-nın vitse-prezidenti Ernst Mülemani də iştirak edirdi. Konsertində olmaq imkanına görə Heydər Əliyevə təşəkkür edərək bildirən E. Müleman Azərbaycan mədəniyyətinin yüksək səviyyədə inkişaf etməsində onun müstəsna rola malik olduğunu qeyd etmişdir: "Bir dəfə bir ingilis lordu mənə demişdir ki, keçmiş Sovet İttifaqında mədəniyyət ümumiyyətlə yoxdur. İndi mən tam hüquqla bəyan edə bilərəm ki, siz heç olmasa bir dəfə Azərbaycan Simfonik Orkestrini dinləyin. Onunla ancaq London simfonik orkestri müqayisə edilə bilər. Bu yüksək inkişafda isə Prezident Heydər Əliyevin mədəniyyətə göstərdiyi qayğı və diqqət əsas amildir" [1,c.2,253].

"Britiş Petroleum" şirkəti 1998-ci il iyulun 22-də Londonda məşhur "Viktoriya və Albert" muzeyində Azərbaycan incəsənət nümayəndələri konsert təşkil etmişdir. Konsertdə Böyük Britaniya hökumətinin nümayəndələri, tanınmış siyasi xadimlər, diplomatlar, jurnalistlər iştirak etmişdir [1,c.2,255].

İngiltərədə səfərdə olan Heydər Əliyev "Viktoriya və Albert" muzeyində olmuşdur. Konsertdən əvvəl o, geniş çıxış etmişdir. Heydər Əliyev xalqımızın mənəvi dəyərlərinin Londonda təbliğ edilməsini və britaniyalılar tərəfindən rəğbətlə qarşılanmasını fəxarət hissi ilə vurğulamışdır: "Mən fəxr edirəm ki, Azərbaycan incəsənəti, musiqisi, mahnıları dünyanın ən böyük şəhərlərindən biri olan Londonda, bu möhtəşəm sarayda səslənəcəkdir. Mən fəxr edirəm ki, Azərbaycan xalqının öz tarixi ənənələrinə söykənən, eyni zamanda müasir, professional səviyyədə olan mədəniyyəti, incəsənəti, musiqisi vardır. Mən fəxr edirəm ki, Azərbaycanın bu mənəvi dəyərlərini təkcə biz yox, bizim dostlarımız, o cümlədən, Böyük Britaniyada olan dostlarımız da qiymətləndirirlər və buna böyük maraq göstərirlər" [1,c.2,257-258].

Heydər Əliyevin göstərişi ilə 1995-ci il fevralın 4-də "Respublika" Sarayında bəstəkar və müğənni Polad Bülbüloğlunun anadan olmasının 50 illiyinə [31, c. 2, 248], 1995-ci il fevralın 5-də R. Mustafayev adına İncəsənət muzeyində Azərbaycanın xalq artisti, respublika Dövlət Mükafatı laureatı Arif Məlikovun müəllifliyinə [31, c. 2, 205], 1995-ci il sentyabrın 18-də milli operamızın banisi və ictimai xadim Üzeyir Hacıbəyovun anadan olmasının 110 illiyinə [3, 166], 1997-ci il oktyabrın 17-də Müslüm Maqomayevin anadan olmasının 55 illiyinə [3,236], 1997-ci il noyabrın 19-da Tofiq Quliyevin anadan olmasının 80 illiyinə [1, c.2,196], 1997-ci il noyabrın 24-də Akademik Opera və Balet Teatrında Azərbaycan vokal sənətinin görkəmli nümayəndəsi, Şövkət Həsən qızı Məmmədovanın anadan olmasının 100 illiyinə həsr olunmuş yubiley gecələri keçirilmişdir [2].

1999-cu il mayın 15-də Klivlend şəhərində ağır cərahiyyə əməliyyatı keçirən Heydər Əliyev «Omni» hotelində dünya azərbaycanlılarının məşhur nümayəndəsi, hazırda Almaniyada yaşayan müğənni Yaqub Zürufçu ilə görüşmüşdür. Heydər Əliyev Klivlend klinikasında müalicə olunduğu zaman onu ziyarət etmək üçün gəlmək istəyən bir çox adam müraciət etsə də, o, yalnız Yaqub Zürufçunun gəlməsinə icazə vermişdir [1, c. 2, 278-279]. Bütün bunlar Heydər Əliyevin qürbətdə və müalicədə olduğu zaman belə, incəsənət adamlarına olan hörmət, diqqət və qayğısının bariz nümunəsidir.

Ədəbiyyat

1. Heydər Əliyev mədəni irsimizin keşiyində.1-2 cild Bakı: Nurol, 2001, 439 s.
2. Quliyeva X. Heydər Əliyev və mənəvi- estetik dəyərlər. Bakı: Azərnəşr, 2002,175 s.
3. Qaffarov T. Azərbaycan Respublikası əsrə bərabər on il, 1991-2000. Bakı: Tural- Ə.NPM, 2001, 325 s.
4. Maqsudov F. Heydər Əliyev və Azərbaycan elmi. Bakı: Elm, 1998, 231 s.
5. Mehdiyev R. Azərbaycan: tarix irs və müstəqillik fəlsəfəsi. Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2001, 273

РЕЗЮМЕ

ИНТЕРЕС ГЕЙДАРА АЛИЕВА К СОВРЕМЕННОМУ АЗЕРБАЙДЖАНСКОМУ МУЗЫКАЛЬНОМУ ИСКУССТВУ

Бабаев Б.Г. , Мусаев Э.А.

Ключевые слова: *Ниязи, музыка, академия, камера, орган, гимназия*

Музыка – одна из богатых национальных духовных ценностей азербайджанского народа, которая постепенно достигла своего уровня развития от древнейших времен до современности. Хотя традиционная музыка составляет духовную пищу общества, есть в этой сфере области, которыми пренебрегают. Есть отдельные разделы и направления музыкальной сферы, являющейся неотъемлемой частью нравственных и национальных ценностей нашего народа, которая, как и все другие важные сферы, находилась в кризисной ситуации. Особенно в тяжелые дни на пути к нашей независимости, с конца 1980-х по 1993 год, в развитии названных направлений наблюдался застой. Государственной заботы о деятелях, работающих в области музыки, почти не было.

SUMMARY
HEYDAR ALIYEV'S CONCERN FOR MODERN AZERBAIJANI MUSICAL ART
Babayev B.H.,Musayev E.A.

Key words: *Niyazi, music, Academy, Camera, Organ, gymnasium*

Music is one of the rich national spiritual values of the Azerbaijani people which gradually reached its level of development from ancient times to modern times. Although traditional music constitutes the spiritual food of society, there are sections of this field that have been neglected. There are some sections and areas of the music field, which is an integral part of the moral and national values of our people, which, like all other important fields, was in a crisis situation. Especially in the bitter days of the road to our independence, from the late 1980s to 1993, there was a stagnation in the development of the mentioned areas. There was almost no state care for figures working in the field of music.

HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ

Babayeva Kəmalə Şakir qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
ttm.17@mail.ru

Açar sözlər: *milli-mənəvi dəyərlər, Ulu Öndər, mədəniyyət, xalq, Azərbaycan*

Hər xalqın öz adət-ənənəsi və milli-mənəvi dəyərləri var. Xalqın milli dəyərlərinin qorunması vətəndaşların birliyinin təmin olunmasına xidmət edir. Azərbaycan çox zəngin ölkədir. Ölkəmizin böyük istedada malik dahiləri, tükənməz təbii sərvətləri var, ancaq bizim çox böyük sərvətimiz Heydər Əliyev irsidir. Siyasət korifeyi olan müdrik insan Heydər Əliyev Naxçıvanda çox sadə zəhmətkeş azərbaycanlı ailəsində dünyaya göz açmışdır. O, hələ gənc ikən yüksək vəzifələr tutmuşdur. Heydər Əliyev rəhbərlik etdiyi dönəmlərdə hər zaman xalqımızın milli-mədəniyyətinin inkişafına, milli dəyərlərinin qorunmasına çalışmışdır. Azərbaycan xalqı ən ağır günlərdə belə İslam dininin mənəvi və zəngin dəyərlərindən heç zaman dönməyərək bu əqidəyə, dəyərlərə sadiq qalmışdır. Ümumilli lider şərəfli, mənalı ömür yolunun hər bir işıqlı səhifəsi xalqımızın yaxın tarixi keçmişi ilə çox bağlıdır. Tarixdən də bizə bəllidir ki, milli ideyanın gerçəkləşdirilməsi üçün dövlətin güclü idarəçilik səriştəsinə malik liderinin olması çox önəmlidir. Azərbaycan dövlətçiliyinin əsaslarının formalaşması Heydər Əliyev dühasının məhsuludur. Əvəzolunmaz şəxsiyyət Heydər Əliyev irsinin öyrənilməsi, təbliğ edilməsi günümüzün əsas hədəfi, strategiyasıdır. Rəhbərlik etdiyi ilk gündən Heydər Əliyev mədəniyyətimizin tərəqqisinə və inkişafına görə mühüm işlər gördü. Onun rəhbərliyi ilə görkəmli şəxsiyyətlərimizə heykəllər və abidələr ucaldıldı. Şah İsmayıl Xətai, Nəsimi, Hüseyn Cavid, Cəfər Cabbarlı və b. ucaldılmış abidə və heykəllər Heydər Əliyev yadigarlarıdır. Heydər Əliyev çox diqqətli şəxsiyyət idi. O, şairlə şair, tarixçi ilə tarixçi kimi danışırdı. Bütün bunlardan görünürdü ki, böyük dövlət xadimi olan Heydər Əliyev hərtərəfli, istedadlı şəxsiyyət idi. Onun nəzərindən heç bir şey yayınmırdı. Məhz onun sayəsində müstəqilliyimizin təməli möhkəm qoyulub. Azərbaycan xalqı çox xoşbəxt xalqdır ki, onun Heydər Əliyev kimi ümümilli lideri, siyasət olimpini fəth etmiş nadir incisi olub. Əgər biz azərbaycanlı kimi öz müstəqilliyimizi, milli azadlığımızı yüksək qiymətləndiririksə, xalqımızın tarixini, adət ənənələrini, xalqımıza məxsus milliliyi həmişə yaşatmalıyıq və onları hər yerdə təbliğ etməliyik [1, s. 213].

Bizim adət-ənənələrimizin əsas məqsədi insanları paklığa, düzlüyə dəvət etməkdir. Biz fəxr edirik ki, Azərbaycan xalqı milli sənətdə, mədəniyyətdə yüksək sivilizasiyaya malikdir. Tariximizin demək olar ki, bütün dövrlərində möhkəm iradəyə malik şair, dərin zəkaya və çox böyük fitri istedada qadir hökmdarlar xidmət göstərmişlər. Xalqımız müstəmləkəçilik zülmü altında çox yaşamışdır. Vətənimiz cürbəcür hökmdarların əlində olub, acımasız əziyyətlər çəkibdir. Ancaq bütün bunlara baxmayaraq dinini də, mənəvi əxlaq mentalitetini də qoruyub saxlamışdır. Liderimiz hər zaman yüksək mənəviyyat uğrunda mübarizə aparıb, əməllərini saf mənəviyyat əsasında qurubdur. O, yüksək mənəviyyatı böyük sərvət hesab edib. Dövlətin başçısı kimi ölkəmizdə milli-mənəviyyatın daha da möhkəmlənməsi, milli-mənəvi dəyərlərimizin yaşaması naminə çalışıb və milli adət-ənənələrimizə sadiq olmağımızı təmin etməyə çalışıb. Dahi şəxsiyyət Heydər Əliyevin yubiley ili respublikamızda müxtəlif cür tədbirlərin keçirilməsi, elm, mədəniyyət, dövlət quruculuğu, sosial sfera və başqa istiqamətlər üzrə çoxsaylı kitabların nəşri ilə qeyd olunur. Heydər Əliyev böyük fenomen və praqmatik siyasətçidir. Ölkənin, cəmiyyətin tərəqqisi onun əsas mənasını kəsb etdiyindən o hər zaman bu problemə tez-tez toxunardı. Heydər Əliyev –siyasi xadim, praktik mütəfəkkirdir. O, tərbiyə sistemində mənəvi paklığı həlledici sayırdı. Mənəvi dəyərlər, mənəviyyat çoxcəhətli anlayışdır. Bura mənəvi saflıq, yüksək təvazökarlıq daxildir. Hər bir gənc mənəvi mövqe tutmalı, hər zaman özünütərbiyə ilə məşğul olmalı, mənəvi meyllərini kamilləşdirməlidir. Mənəviyyatımızı, dini adət-ənənələrimizi qoruyub saxlamaq

üçün müsəlmanlar nə qədər şəhidlər, qurbanlar veriblər. Heydər Əliyev xalqımızın mənəviyyatının qorunması üçün çalışıb, milliliyimizə, mənəviyyatımıza əks olan hər bir hala qarşı mübarizə aparmışdır. Bir sözlə xalqının mənəviyyatının keşiyində durmağa çalışıb. Əxlaqımıza, milli-mənəvi dəyərlərimizə zərər verən bütün ünsürlərlə çox ciddi mübarizə aparıb. O, 1969 –cu ildən başlayaraq korrupsiya ilə, dövlət əmlakının mənimsənilməsi hallarına qarşı mübarizə aparıb. Ümumilli liderimiz fikrinə görə xalqına, vətəninə xidmət etmək vətəndaşların borcudur. Buna görə isə heç kəs öz vətəninə minnət qoya bilməz. Hər bir xalqın öz mentaliteti var. Bizim mentalitetimiz böyük sərvətimizdir. Milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən yaxşı forması milli dövlətçilikdir [3, s. 229].

Biz hal hazırda potensial milli birlik dövrümüzü yaşayırıq. Onun da əsasını Heydər Əliyev qoymuşdur. Müstəqil Azərbaycan Respublikasının xarici siyasəti sahəsində fəaliyyəti, uğurları azərbaycanlıların milli şüurunu gündən günə möhkəmləndirir. Dövlətimizin müstəqilliyi bizim tarixi nailiyyətimiz və uğurumuzdur. Ümumilli liderimiz diasporamızın fəaliyyətini genişləndirməsinə müstəqilliyimizin möhkəmlənməsində vacib rol oynayan təsirli bir vasitə kimi baxır. Xalqımızın milli adət-ənənələrini yaşatmaq və bütün dünyada təbliğ etmək hər birimizin üzərinə düşən bir yükdür. Biz bu gün tam əminliklə deyə bilərik ki, Azərbaycan dövlətçiliyinin qorunub saxlanması, siyasi, iqtisadi tədbirlər sırf onun adı il bağlıdır. Heydər Əliyev prezident olduğu illərdə möhtəşəm nailiyyətlər, uğurlarımız olmuşdur. Siyasi dayaqlarımız möhkəmləndirilmiş, ölkədə vətəndaş müharibəsinin qarşısı alınmış, xalqın təhlükəsiz yaşaması üçün hər cür şərait yaradılmışdır. Liderimizin geniş siyasi fəaliyyəti, apardığı siyasət konkret faktlar əsasında təhlil olunmuşdur və diasporumuzun formalaşması, onun inkişafında bir dövlət rəhbəri, xadimi kimi onun əməyi, rolu vurğulanır. Bu gün dövlətçiliyimiz, müxtəlif sahələrdə qazandığı uğur, xalqımızın firavan yaşamasına görə liderimiz, möhtərəm prezidentimiz Heydər Əliyevə minnətdardır. Xalqımız öz övladına, müdrik siyasətçisinə çox inanırdı. Hər zaman onu dəstəkləyib, ardınca gedirdi. Heydər Əliyev də ağır dönəmlərdə özünü xalqdan ayrı təsəvvür edə bilmirdi. Bizim yolumuz demokratiya yoludur. Dünyada gedən müharibələr, ictimai-siyasi proseslər nəticəsində Azərbaycan iki yerə parçalanmışdır. Lakin liderimizin apardığı düzgün siyasət nəticəsində Respublikamız çox iqtisadi yüksəlişə doğru inamla irəlilədi. Bu gün dünya azərbaycanlılarının əsl milli özünüdərk və ümumilli ideya-azərbaycançılıq, müstəqillik, dövlətçilik və milli mənəvi dəyərlər ətrafında birləşməsi prosesi başlanmışdır [2, s. 291].

Heydər Əliyevin bütün addımları qətiyyətli idi. Siyasət xadimləri arasında Heydər uzaqgörənliyi, idarəçiliyi, mütəfəkkirliyi ilə seçilmişdir. Ümumiyyətlə siysasi xadimlər haqqında danışmaq çox çətin və məsuliyyətlidir. Min illər boyu qazana bildiyimiz ən böyük sərvətimiz dövlətçiliyimizdir. 1969- cu ildən Heydər Əliyevin xalqa göstərdiyi xidmətləri saymaqla qurtarmaq olmaz. Ümumilli liderimiz H. Əliyev xalqın taleyində əvəzolunmaz şəxsiyyət, dövlətimizin tarixində qüdrətli rəhbər kimi yaşamaq haqqını hələ 70-80-ci illərdə əldə etmişdir. Memarı yaşadan onun əməlləridir. Heydər Əliyevin Vətənə, torpağa və dövlət müstəqilliyinə münasibəti böyük sərvət kimi heç zaman dəyərini itirməyəcəkdir. Ona görə də bu sərvətin qayəsində, mayasında Azərbaycana sevgi və məhəbbət durur. Dahi şəxsiyyətin ən böyük üstünlüyü öz xalqının tarixini mükəmməl bilməsi idi. Ümumiyyətlə, Heydər Əliyev qərinəsi nadir xüsusiyyətlərə malikdir. Bu da həm Azərbaycan, həm türk dünyasına görə orijinal bir mərhələdir. Heydər Əliyevin fenomenal təbiəti eyni zamanda çox sadə, adi bir insan təbiəti idi [5, s. 188].

Heydər Əliyev cəmiyyətin mənəvi inkişafı naminə hər cür şərait yaratmışdır.Tarix boyu xalqımıza qarşı olan haqsızlıqlar yaddaşımızda dəhşətli faciələr, ədalətsizliklər, siyasi eksperimentlər dövrü kimi əbədi qalacaq. Həmin anlar Heydər Əliyevə qarşı da mənəvi repressiya kimi yaddaşımızda həkk olunacaqdır. Ulu öndərin zəngin və şərəfli ömür yolunun parlaq səhifələrindən birini də onun dövlət təhlükəsizliyi orqanlarındakı fəaliyyətidir. O, leytenant rütbəsindən DTK-nın sədri vəzifəsinədək uzun yol keçmişdir. Heydər Əliyev bildirdi ki, yüksək postlar tutmasına baxmayaraq xalqımızın milli mənafelərinə əks heç bir xoşagəlməz addım atmamışdır. O, təhlükəsizlik orqanlarında xidmət etdiyi bütün il ərzində cəsarəti, gözəl ünsiyyət tərzi, fitri istedadı, heyrətamiz natiqliyi ilə bütün rəhbər heyətinin rəğbətini qazanmışdır. Heydər Əliyev xalqımızın lideri olmaqla bərabər planetar səviyyəli siyasətçi idi. Dahilərin, mütəfəkkirlərin öz məktəbləri olur. Həmin bu məktəblər onların işini yaşadır, davam etdirir. Liderimiz mənalı həyatını öz xalqına qurban verməklə kifayətlənməmiş, həmçinin xalqın taleyini təyin etmək kimi məsuliyyətli vəzifəni öz üzərinə götürüb yeni lider Prezident İlham Əliyevi yetişdirmiş və xalqın xidmətinə vermişdir. Heydər Əliyev çox dərin ensiklopedik biliyə sahib idi. Respublikamızda iqtisadi inkişafa çox yüksək diqqət yetirir, sosial rifaha əhəmiyyət verirdi. Xalqımızın mədəni-tarixi, ədəbi irsini yüksək tutan, onun gələcək nəsillər üçün vacib üstün sayan, Heydər Əliyev elm, mədəniyyət xadimlərinin mükafatlandırılması, muzeylərin açılması üçün əlindən gələni əsirgəməmişdir. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda ali və orta ixtisas təhsil ocaqları yaradılırdı. Onun müdrik siyasəti nəticəsində Azərbaycanın iqtisadiyyatında çox qısa bir müddətdə dəyişikliklərin əldə olunmasına nail olundu. Liderimizin Azərbaycan, onun xalqı üçün gördüyü bütün işlər möhtəşəmdir. Bu gün Azərbaycanın və xalqımızın ümümilli lideri Heydər Əliyevin adı dünyanın

bir çox ölkələrində keçirilən xoşməramlı tədbirlərdə qoşa çəkilir, böyük ehtiramla və dərin hörmət hissi ilə birgə anılır [6, s. 263].

İctimai-siyasi fikir tarixində şəxsiyyət, siyasi lider kimi Heydər Əliyev çox mühüm yer tutur. Onun zəngin, müdrik siyasəti, mənəvi dəyərlərimizin qorunması, milli dövlətçiliyimizin möhkəmləndirilməsi üçün göstərdiyi fədakarlıqlar və başqa fəaliyyətlər bundan sonra da çox çox öyrəniləcəkdir. Liderimizin çox zəngin və siyasi irsi tədqiqatçılar, müxtəlif sənət adamları tərəfindən diqqətlə öyrənilir və öyrənilməkdədir. Azərbaycan xalqının rifahı naminə, Azərbaycan dövlətçiliyinin inkişaf etdirilməsi üçün çalışan Heydər Əliyev dil və din məsələsini hər zaman diqqətdə saxlayıb, vacib məsələ kimi həyata keçirib. Milli-mənəvi dəyərlərimiz, millətin ülvi hisslərinin parlaq ifadəsidir. Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə respublikamız öz simasını on qat gözəlləşdirdi. Heydər Əliyevin müdrik siyasəti forma və məzmununun tamlığı, bitkinliyi baxımından da müsbət qarşılanır [4, s. 167].

Xüsusi qeyd etmək lazımdır ki, ölkədə milli-mənəvi dəyərlərin qorunması və bütün istiqamətdə keçirilən tədbirlərdə faəliyyət göstərən Heydər Əliyev fondunun da çox böyük rolu var. Heydər Əliyev ideyalarını uca tutan, onları hər zaman bütün sahələrdə gerçəkləşdirən Prezident İlham Əliyevin yeritdiyi siyasətin əsasında xalqın mədəni, milli-mənəvi potensialının gücləndirilməsi məqsədi ön planda dayanır. Heydər Əliyevin fəlsəfi konstruksiyası xalqın milli qürur hisslərinin oyanmasına gətirib çıxarırdı. Prezidentimiz Heydər Əliyev 70-ci illərdə xalqımızın görkəmli şəxsiyyətlərinin şairlərinin, xatirəsini əbədiləşdirməklə, azərbaycanlıların necə şərəfli tarixə malik olduğunu əks etdirmişdir. Folklorumuzun inkişafı istiqamətində həyata keçirdiyi uğurlu addımlar Heydər Əliyevin milli dəyərlərə önəmli və həssas münasibətindən dolayı olmaqla ictimai fikrin və şüurun ona öz dilini sevdirməlidir. Xalqın, vətənin milliliyini saxlayan onun dilidir. Etiraf etmək lazımdır ki, tarixi abidələr, ədəbiyyat da milliliyi təsdiqləyir. Heydər Əliyev mədəniyyətimizin inkişafı və tərəqqisində yeni bir dövrün başlanğıcını qoymuşdur. Ulu öndərimizin hakimiyyəti illərində rəssamlıq, muzey, memarlıq sənəti çox böyük sürətlə inkişaf etmişdir. Bu gün mədəniyyət siyasətinin reallaşması işində öndərimizin adını daşıyan fondun xidməti çox böyükdür. Fondun mədəniyyətimizin dünyada tanınmasına, mənəvi dəyərlərimizin təbliği üçün keçirdiyi tədbirlərin olduqca əhəmiyyəti var. Siyasi tariximizin bir çox səhifələri, onun genişmiqyaslı dövlətçilik fəaliyyəti ilə əlaqədardır. Ümummilli liderimizin milli dəyərlərin qorunması ilə əlaqədar 2001- ci il avqustun 13-də verdiyi "Milli mənəvi dəyərlərin" pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir" bəyanatı müdrik bir rəhbərin münasibəti idi.

Prezidentimiz İlham Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb. Fondun yaradılmasında və fəaliyyətində məqsəd Azərbaycanda mənəvi dəyərlərin qorunmasına inkişafına dövlət-din münasibətləri sahəsində proqramların hazırlanması, vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyəti və dəstəyini təmin etməkdir. Yaradılan bu fond Azərbaycanda mənəvi sahələrin inkişafına böyük bir töhfə verəcəkdir. Təkcə xalqımızın deyil, türk dünyasının fəxri, əvzolunmaz lideri olan Heydər Əliyevin söylədiyi müdrik fikirlər, gördüyü işlər barədə çox əsərlər yazılacaqdır. Hər bir insanın, vətəndaşın qəlbində liderimizin xüsusi yeri var. Ümumiyyətlə 1988-1993 cü illər xalqımızın tarixində ən ağır, acınacaqlı zaman olub. Həmin illər ərzində ümid çırağımız Heydər Əliyev idi. 12 dekabr tarixi liderimizin həyat ilə cismani vidalaşdığı gündür. Ancaq o hər zaman xalqının qəlbində yaşayacaqdır. Xalqımız öz qüdrətli, vətənpərvər xilaskarını unutmur, onu hər zaman çox böyük sevgi ilə ehtiramla yad edir. Təkcə 12 dekabr tarixində yox, adi günlərdə də Fəxri Xiyabana gedib onu yad edirik. Öz ömrünü xalqına həsr edən, əvəzsiz xidmətlər göstərən rəhbəri heç zaman unutmayacayıq. Heydər Əliyev ömrünün son anlarında İlham Əliyevə çox böyük ümidlə inandığını vurğulamışdı. Xalqımız İlham Əliyevin ətrafında sıx birləşərək onun qətiyyətli, müdrik siyasətini çox dəstəkləyir. "Biz öz milli mənəvi dəyərlərimizlə, adət- ənənələrimizlə fəxr edirik" deyən liderimizin işıqlı ideyaları bu gündə yaşayır və həyata keçirilir.

Ədəbiyyat

1. Heydər Əliyev: Mənəviyyat, mənəvi dəyərlər, mənəvi tərbiyə. Bakı: Müəllim, 2011, 635 s.
2. Həbiboğlu V. Heydər Əliyev və Azərbaycan diasporu. Bakı: Qartal, 2001, 358 s.
3. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı: Azərbaycan Universiteti, 2001, 358 s.
4. Quliyeva X. Heydər Əliyev və mənəvi estetik dəyərlər. Bakı: Azərnəşr, 2002, səh 167
5. Mirələmov H. Millətin atası: Publisistik düşüncələr, tarixi esselər, məktublar. Bakı: Azərbaycan, 2004, 288 s.
6. Yusifzadə Z. Böyük insan. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 2014, 286 s.

РЕЗЮМЕ
ГЕЙДАР АЛИЕВ И НАШИ НАЦИОНАЛЬНЫЕ И ДУХОВНЫЕ ЦЕННОСТИ
Бабаева К. Ш.

Ключевые слова: *национально-нравственные ценности, Великий Вождь, культура, народ, Азербайджан*

Наш народ чутко относится к своим традициям и национальным ценностям, сохраняя и защищая их. Национальные ценности имеют особое место в укреплении государственности. Наша многовековая история также основана на нашей культуре. Идеи великого лидера Гейдара Алиева всегда высоко ценились в защите наших национальных и нравственных ценностей. Мы должны взять на себя ответственность за наши национальные ценности, идеологию азербайджанства, доверенную нам нашим великим лидером. Сегодня наш народ твердо верит в Президента Ильхама Алиева, достойного продолжателя политического курса нашего общенационального лидера.

SUMMARY
HAYDAR ALIYEV AND OUR NATIONAL-SPIRITUAL VALUES
Babayeva K.S.

Key words*: national-moral values, Great Leader, culture, people, Azerbaijan*

Our people are sensitive to their traditions and national values, and have kept them alive by protecting them. National values have a special place and role in strengthening statehood. Our centuries-old history is also based on our culture. The ideas of the great leader Heydar Aliyev are always held high in the protection of our national and moral values. We must take ownership of our national values, the ideology of Azerbaijanism entrusted to us by our great leader. Today, our people strongly believe in President Ilham Aliyev, a worthy follower of the political course of our national leader.

SABİR ƏHMƏDOVUN YARADICILIĞINDA SOSİALİZM CƏMİYYƏTİ VƏ İNSAN AMİLİ

Babayeva Elmira Məcnun qızı
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı, Azərbaycan
elmirababayeva0791@gmail.com

Açar sözlər: *"altmışıncılar", Sabir Əhmədov, "Yamacda nişanə", insan və zaman problemi, psixoloji nəsr, sosializm cəmiyyəti və insan amili, sosial-mənəvi problemlər*

XX əsrin 60-cı illərindən etibarən cəmiyyətdə baş verən dəyişikliklər ədəbiyyatdan da yan keçmədi. Sosializm cəmiyyətində baş verən təbəddülatlar yeni ədəbi obrazların, yeni insan duyğularının ədəbiyyata gətirilməsini tələb edirdi. Ədəbiyyatda kök salmış hegemon ideologiyanın monotonluğu yeni tipli yazıçıları təmin etmir, onlar şişirdilmiş qəhrəmanlar yerinə real "kiçik" insan obrazına müraciət etməyə başlayırdılar. Bu insanların həyat tərzi heç kimdən fərqlənmirdi, qeyri-adi istedadları və ehtirasları yox idi. Ancaq bunun əvəzinə bu insanların ilk baxışdan diqqət çəkməyən, yazıçı tərəfindən xüsusi vurğulanmayan mənəvi dünyalarına enilirdi. Sosial-mənəvi problemləri, sıxıntıları olan bu qəhərəmanların ortaya çıxma zərurətini Mehdi Hüseyn hələ 1962-ci ildə qeyd edir, sanki gələcək ədəbiyyatın manifestini açıqlayaraq yazırdı: "Mən cəsarətlə deyə bilərəm ki, bədii nəsrimizdə də, şeirimizdə də yeni bir mərhələyə qədəm qoymuşuq. Bu mərhələnin artıq qəti mövqe tutduğunu iddia etmək üçün tələsməyə ehtiyac yoxdur. Ən mühüm cəhət budur ki, həmin mərhələyə keçməyin tarixi labüdlüyünü bütün ədəbi ictimaiyyətimiz aydın hiss etməkdədir. Həyat hadisələrinin və insan surətlərinin təsvirində və mənalandırılmasında nə isə daha lirik, psixoloji təhlildə daha təmkinli və kamil bir üsul axtarmağın, daha təravətli və təzə ifadə vasitələrinə meyil göstərməyin özü heç də az əhəmiyyətli deyildir" [1,3].

Ədəbiyyata "60-cılar" kimi daxil olan nəsil Bəkir Nəbiyev, Akif Hüseynov, Qulu Xəlilov, Yəhya Seyidov, Yaşar Qarayev, Nazif Qəhrəmanlı, Vaqif Yusifli, Tehran Əlişanoğlu və başqalarının tədqiqat predmeti olmuşdur. İnsan və zaman, həyat həqiqətlərinin bədii həqiqətə çevrilməsi, qlobal problemlər, konflikt kimi məsələlər bu tədqiqatçıların qələmində elmi ədəbiyyata gətirilmişdir. Bu tədqiqatlarda yazıçıların üslub, forma, təsvir və ifadə vasitələrinə yeni münasibəti də diqqətdən kənarda qalmamışdır.

60-cılar nəsrinin əsas problematik məsələlərindən biri də yeni psixoloji nəsrin meydana çıxması idi. İlyas Əfəndiyev, Anar, Elçin, İsa Hüseynov, Həsən Seyidbəyli, Sabir Əhmədli kimi yazıçıların əsərlərində insanın daxili dünyasına səyahət, ictimai varlığa yeni münasibət, sadə insan həyatının alt qatındakı dərinlik, mənəvi baxımdan kamil insanın kəşfi kimi məsələlər irəli sürülür, yeni və vahid insan konsepsiyası formalaşırdı.

"Psixoloji varlıq olan insanın içi, içəri dünyası ictimai məzmundan (sosial əhatədən) tutmuş, mənəvi-əxlaqi dəyərlərə, fəlsəfi sıraya (insan – varlıq, insan – dünya münasibətlərinə) qədər ən müxtəlif səviyyələrdə gəzişir, "öz həqiqətinə" yetməyə can atır. İnsanın iç dünyası nəsrin əsas predmetinə çevrildiyindən, məhz bu

səbəbdən tənqidçilərin tez-tez yeni nəsrin aparıcı keyfiyyəti kimi təsbit etdikləri psixologizm qabarır, funksionallıq kəsb edir" [2, 228].

Psixologizm ədəbi tənqidin də diqqətində olmuş, M.İmanovun "Azərbaycan nəsrində psixologizm", S.İldırımzadənin "Müasir Azərbaycan nəsrində mənəvi-psixoloji problemlər", S.Həsənovanın "Müasir Azərbaycan hekayələrində psixoloji təhlil" və başqa tədqiqatlarda nəsrin daxili təkamülü araşdırılmışdır.

Sabir Əhmədov yeni psixoloji nəsrin nümayəndələrindən biri olmaqla, "Yaşıl teatr", "Qanköçürmə stansiyası", "Yamacda nişanə" kimi psixoloji nəsr örnəkləri yaratmışdır. Bu baxımdan "Yamacda nişanə" əsəri xüsusilə fərqlənir. Əsərin qəhrəmanı Laçın adi, sönük mühitdə parlayan bir işığı xatırladır. Ancaq sıradan olmayanın normal qəbul edilmədiyi mühitdə yaşamaq onun üçün çətin olur. Çünki sönük cəmiyyət fərqliliyi qəbul etmir. Asif Atanın təbirincə desək, "O yerdə ki, hamı bir-birini bəsit görmək istəyir, o yerdə özünəməxsusluq qəribəlik əlaməti sayılır, şablon normativlərdən kənara çıxmaq isə bəzən "yersiz" olur" [3].

Laçın fiziki baxımdan güclüdür, qüvvətlidir, ilk baxışda cəngavər görünüşlüdür. Onun bu gücü ətraf mühitdə etirazla qarşılanır, qəribə və anlaşılmaz görünür, insanlarla arasına sədd çəkir. Bunun isə iki səbəbi var, birincisi o, öz qəribəliyi ilə insanları psixoloji baxımdan narahat edir, ikincisi isə, mühitinin insanlarında öz yaşayış və mövcudluq tərzinə qarşı bir etiraz doğurur. Ancaq bununla belə, o, insanları vahid mövqedə birləşdirməyi bacarır. Ondan qorxduğunu etiraf edən raykom katibinə ətrafdakıların gülməsi də bu baxımdan səciyyəvidir: "Çoxunun gözü yaşardı, dəsmal axtardılar. Danlananlar da, danlanmayanlar da həmin dəqiqələrdə onları birlikdə güldürən Laçına ürəklərində minnətdarlıq elədilər" [4].

"Yazıçı Sabir Əhmədovun "Yamacda nişanə" povestinin qəhrəmanı Laçın "faciəvi" xarakterdir. Ona görə ki, Laçın, mühitində bərqərar olmuş və zehinlərə həkk olunmuş normalara uyğun hərəkət edə bilmir. Ona görə ki, odlu-alovludur, məcraya, qəlibə sığmayandır. Ona görə ki, Laçının atəşin təbiəti dar mühitə yabançıdır. Ona görə ki, bəsit şəraitdə Laçının gözəl insani məziyyətləri "qəribəlik" kimi qiymətləndirilir. Ona görə də Laçın onu əhatə edənlər arasında artıq adamdır. Ümumi ictimaiyyət, böyük cəmiyyət onun keyfiyyətlərini yüksək qiymətləndirməyə, ona dayaq olmağa hazırdır. Lakin Laçın müəyyən kiçik kollektivdə, kiçik mühitdədir" [4].

Laçına qarşı fikirlər birmənalı deyil, o, qəribə qarşılandığı qədər də sevilən bir insandır. Çünki mühit onu nə qədər özünə yaxınlaşdırmaq istəməsə də, onu özündən kənara da atmır. Onun faciəsi də aralıqda qalması ilə başlayır: "Qorxsalar da, qorxmasalar da, sevsələr də, sevməsələr də Laçın kiçik şəhərin bir ərköyün, dəlisov balası idi. Ərsəyə yetib, qənşərə çıxdığı gündən adamların gözü-qulağı ona elə öyrəşmişdi ki, buranı Laçınsız ağıllarına gətirə bilməzdilər... Yerişində, hərəkətində elə od, hərarət vardı ki, guya keçib getdiyi havaya kibrit çəkəcəklər" [4].

Əsərdə Laçın və onu əhatə edən mühit arasındakı ziddiyyətlər o, iş axtararkən ortaya çıxmağa başlayır. Ona qarşı sabit, mənfi fikir mövcuddur: Laçın heç nə bacarmaz, Laçın heç kimlə evlənə bilməz, Laçın bir işin qulpundan yapışıb normal insan kimi yaşaya bilməz. Hətta əsərin əvvəlində iş istəmək üçün yanına getdiyi raykom katibi də öz-özünə düşünür ki, Laçın vaxtında şoferlərin yanında sürücülük öyrənməyib, onun yanına boş, yararsız biri kimi gəlib. Ancaq sonradan vəsiqəni ortaya qoyanda bu dəfə də düşünürlər ki, o vəsiqəni qeyri-qanuni yollarla alıb, əsgərə maşın vermək olmaz, onlar maşını məhv edir. Hətta əsgərlikdən anasına yazdığı məktubunda sevincini bölüşəndə də ona inanmırlar, ona görə hərbi xidmətdən qayıdanda təşkil olunan qonaqlıq bitən kimi vəsiqəsinə baxmaq istəyirlər. Vəsiqəni gözləri ilə görməsinə baxmayaraq, sonradan ondan xəlvət qardaşı katibdən xahiş edir ki, Laçına maşın verilməsin.

Laçına yönələn ittihamlandırma ailəsi ilə yekunlaşmır. Sevdiyi qızın atası ağbaş kişi səbəbini bilmədən ondan qorxur, xəstə düşür. İnsanlar ondan şikayətçi olurlar. Ancaq bu şikayətlərin heç bir tutarlı əsası yoxdur. Onu insanlaradiqqətlə baxmaqda ittiham edirlər. Həyatdakı yeganə sevgisi olan Sarıtel isə Laçına ən böyük psixoloji zərbəni vuraraq məhəbbətini rədd edir, onu sözləri ilə yaralamaqdan çəkinmir: "Dünya dağıla, bir o qala, bir mən, bizim ulduzumuz barışmaz. Getsin itirdiyini başqa yerdə axtarsın" [4].

Laçın xarakterinin mənəvi aləmi onun daxili monoloqlarında açılır. Qoyub getdiyi elini-obasını olduğu kimi tapmayan Laçın bunun günahını özündə görür.

"Təqsirin hamısı onda idi, adamlar ona görə belə olmuşdular, bu kökə düşmüşdülər. Yox, belə olmaz. Hardasan, Laçın, harda dayanmısan? Hanı sənin dağı-daş tərpədən, aləmə düşən nərələrin, səsin-sədan? Özünü unut, Laçın, özündən xəbərin yoxdur. Səni tanımırlar. Axı, oxşamırsan! Əmanət kassasının müdirinin qızı da səni tanımayıb. Axı, sən Sarıtelə o vaxt şəhərdən gələnlərin verdiyi konsertdə sinəsi ilə yol açan cəngavər oğlana da az oxşayırsan, hərəkət lazımdır. Hərəkətə gəlmək, camaatı da hərəkətə gətirmək lazımdır, Laçın!.." [4]. Bununla da, yazıçı özü kimi olmayan, davranmayan insanlar mühitində monotonluğun, solğunluğun hökm sürdüyünə işarə edir.

Laçın mənəvi baxımdan təmiz adamdır. Ona görə onun üzünə gülüb, başqa şeylər düşünən insanların duyğuları ona yaddır. Səbrlə maşın alacağı günü gözləyən Laçın bilmir ki, o gün çox uzaqdadır. Bunu dərk etdikdə isə uzun illər qardaşına duyduğu dərin hörmət və çəkingənlik hissi şübhə ilə əvəzlənir. Beləcə o,

artıq öz taleyini sorğulayan, buna etiraz edən üsyankar bir xarakterə çevrilir. Bununla da, içindəki özünügünahlandırma duyğusu məcrasını dəyişərək qardaşına və mühitinə yönəlir. Daxili monoloq xarici monoloqla əvəz olunur: "Bir halda ki sarsağam, nəinki sükan etibar etməzlər, mənə qız da vermək olmaz. Bir Laçının ki qardaşı öz ayağı ilə gedə böyüklərdən xahiş edə, ona maşın verməyin, onda Laçına kim qız verər, kim?" [4].

Mənən zəngin olan Laçın özünə tənqidi yanaşmağı bacarır, eyni zamanda "doğma yurdunun daş atılmış qurbağa gölünə dönməyinə" dözə bilmir, bu yeknəsəkliyə yazığı gəlir.

Yaşadığı sönük mühitdə bir işıq kimi parlayan Laçın obrazını söndürmək bu mühitin insanlarının əsas qayəsinə çevrilir. Onlar iki yol arasında qalırlar: 1) Laçını ağır bir işə göndərmək, 2) evləndirmək.

Ona bir çox iş təklif olunsa da, yalnız sürücü kimi çalışacağını bəyan etdikdən sonra Laçını yanğınsöndürmə idarəsinə şofer göndərirlər. Onun xarakterinin bilinməyən cəhətləri də Həsənxan ilə dialoqlarında açılır. İşə ilk gəlişini yazıçı belə qeyd edir: "...ona elə gəldi ki, buraya qədəm basıb daxil olduğu dəqiqədə buzdan üzülüb qopan bir gilə su düz təpəsinə düşdü və "cızz" elədi. Guya kişi, həqiqətən bir sal buzdu. Laçın od. Onu — Laçını buraya ona görə göndərmişdilər ki, görsünlər bunların hansı davamlıdır" [4]. Bununla da, yazıçı əslində, Laçının öz məhvini şüuraltı dərk etməsini göstərmək istəmişdir.

Laçının gözü ilə baxanda Həsənxanın papağındakı ulduzun itdiyini, təkcə oraq-çəkicin göründüyünü sezirik. Ədəbiyyatımızda və mifologiyamızda günəşin, işığın, aydınlığın simvolu olan ulduzun yox olması, əslində, sosrealizm həqiqəti içərisində məhv olan ümid işığının yox olması, kor-koranə itaətin mövcudluğunun simvolu kimi mənalandırıla bilər.

Həsənxan yanğın maşınının rənginin mənasını izah edərkən yazıçı maraqlı məqamlara toxunur: "Yanğın nədən törəyir? Şübhəsiz, qığılcımdan, bircə qordan. Deməli, gərək həmin o qığılcımı vaxtında görüb söndürəsən ki, böyük yanğına çevrilməyə. Çünki yanğını söndürmək olmur, söndürənə qədər xeyli ziyanlıq törədir. Əsas qordur, nə qədər ki, alova çevrilməyib dərhal üstünü torpaqlamalı, ya da ən etibarlısı — su tökməli. Bil, bizim düşmənimiz qordur, qığılcımdır, çirpəkdir və sair" [4]. Əslində bir qor olan Laçının buraya söndürülmək üçün göndərildiyini dərk edən Həsənxan onun qarşısına bir çox maneələr çıxarır. Bu da düşünülmüş əməliyyatın bir hissəsidir.

Qıpqırmızı, kənardan alov təsiri bağışlayan maşın Laçının içini isitmir. Çünki alov olan Laçına başqa bir alovun varlığı təsir göstərə bilmir, bu, onun üçün adidir. Burada adiləşmə və fövləqtəbiilik müşahidə etmək mümkündür. Hər kəs üçün fövqəltəbii görünən bir şey onsuz da fövqəltəbii olan birinə qeyri-adi gələ bilməz: "İki divar arasında dayanan maşın alovdu. Hətta bir baxışda, qara təkərlər çatılmış kösöv-odun parçası, maşının gövdəsi isə yanıb lalıqlamış köz yığını, bəlkə də polad əridən atəşli soba timsalında göründü. Bu alov on metrdən adamın üzünü, əllərini qarsmalı ikən iki addımda dayanan oğlanı azacıq, bir küləşin, bir kağız qırığının istisincə qızdırmadı" [4].

İdarənin divarlarında asılan alətlər ona uşaqlığını, məktəb illərini xatırladırdı. Elm adına onun yadında qalan tək söz "herbari" idi. Divara düzülmüş alətlər ona uşaq vaxtı topladığı cücüləri, böcəkləri xatırladırdı. Yazıçının bu ədəbi priyomu təsadüfi deyil. Mövcud cəmiyyət qurudulmuş, candan, qandan məhrum, duyğuları olmayan herbariyə bənzədilir. Ancaq Laçını məktəbdən soyudan təbiət dərslərinin azlığıdır. Buradan bu qənaətə gələ bilərik ki, hətta Laçına maraqlı gələn herbari toplamaq da onu məktəbə - dolayısı ilə cəmiyyətə dözməyə məcbur edə bilmir. Cəmiyyətlə barışmazlıq elə uşaqlığından – məktəb illərindən Laçında formalaşmışdı.

Laçını sındırmaq üçün Həsənxanın seçdiyi vasitə uzun müddət davam edə bilmir, o, bir gün bu sərhədləri sındırır: "Həsənxan, maşın adam kimidir. Bir yerdə saxlayarsan, saxlayarsan, axırda bilmərrə tərpənməz, inan. Sürüm yuxarı kəhrizə, yoxlayım, həm də üzünə su çiləyib havaya verim, qərəmətdən çıxsın" [4]. Bununla Laçın sətraltı olaraq ona qarşı yönələn qüvvələrə etirazını bildirir.

Laçının işə düzəlməsindən sonra səhhəti normallaşan, təhlükənin keçdiyini düşünən ağbaş kişi "Lalə"nin (yanğınsöndürən maşına uşaqların verdiyi ad- E.B) ortaya çıxmasından sonra yenidən xəstələnir. Onu xəstə cəmiyyətin simvolu olaraq təqdim edən yazıçı fərqlilik, yenilik, gözəllik gördüyü halda buna özünəməxsus reaksiya verən bir varlıq kimi yanaşır. Laçının əhali üçün su daşımasından sonra insanlarla barışması isə onun adiləşməyə doğru getdiyini göstərir. Ağbaş kişidən üzr istəməsi, onunla barışması da xəstə cəmiyyətlə Laçının razılaşmağa başladığının əlamətidir. Bu vəziyyət onun Həsənxanla dialoquna qədər davam edir. Həsənxan yaşadığı cəmiyyətdən yüksəkdə dayanan Laçına qarşı göstərdiyi münasibətdən, onu su daşıyaraq sönən, rüşvət alaraq bəsitləşən bir varlığa çevirməsindən utanc hissi duyur. "… ən çətin, fəqət e'tibarlı və ağıllı tədbir yenə də ondan ibarətdir ki, Laçının canında olan odu onun özünə hiss etdirmədən yavaş-yavaş yox etmək. İstiyə qarşı soyuqluq" [4].Laçının alovlanmaq təhlükəsinin qarşısını almaq üçün planlar quran Həsənxan onu iki vasitə ilə - Laçını ona biganə olmayan mamaça ilə qarşılaşdırmaq və onun hər gün su ilə təmasını təmin etməklə "yola gətirməyə" çalışırdı.

Bütün vasitələr sınanandan sonra onun gecə növbəsində işləməsini də təşkil etmək üçün rəhbərlik səviyyəsində göstərişlər verilir. Ancaq bu, Laçının qabağında yeni, heç bilmədiyi bir dünya açır. 30-cu illərdə banditlərlə mübarizədə həlak olmuş sərhədçi əsgərin məzarını görməsi, ordan yayılan işığın fərqində olması sanki gələcəkdə də onun cəmiyyətin şəhidi olacağına bir işarədir. Şəhid məzarını qəbiristanlıq xofu kimi deyil, bir nur mənbəyi kimi qəbul edən Laçın Həsənxanın önündə də heç bilmədiyi yeni üfüqlər açır. Laçın linglə uzun illər bağlı qalan pəncərəni aralayaraq Həsənxana, dolayısı yolla cəmiyyətə yeni bir pəncərə açıla bilməsinin mümkünlüyünü göstərir. Ancaq bu cəmiyyət Həsənxan kimi Laçına qarşı tolerant ola bilmir. Laçınla ünsiyyətdə mənən arındığının fərqinə varan Həsənxan cəmiyyətin buna hazır olmadığını da dərk edir.

Laçın obrazına geniş pəncərədən baxarkən onu italyan yazıçısı Dino Buzzatinin hələ 1940-cı ildə yaratdığı, "Tatar çölü" romanının qəhrəmanı Covanni Droqoya bənzədə bilərik. Tatar çölündəki qalaya hərbçi kimi gedən Covanni ömrü boyu şimaldan gələcək düşmənləri gözləyir və özünün şanlı əsgər kimi döyüşəcəyinə, qalib ordunun komandanı olacağına ümid edir. Ancaq o gün gələndə Droqo işindən uzaqlaşdırılır. Laçın obrazının düşüncələri də bu baxımdan maraqlıdır. "O zaman, həmin dəqiqələrdə ölü alətlər adamların nəzərində elə qüvvəyə çevriləcək ki, əvəzsiz... Bu isə ancaq yanğın düşsə, mümkündür. Həftələr, aylar, bəlkə illər keçəcək. Laçın bu həftələrin onunu-yüzünü buraxıb birində yaşaya biləcək. Ömrün-günün beləcə keçəl qarğıdalı kimi seyrək keçəcəyinin fikrini çəkməkdə ikən, o, bir qədər bərk yatağa uzandığı halda, təzəcə süzülmüş şirə kimi mət, sütül bir coşğunluq duydu" [4].

Əsərin ən maraqlı məqamlarından biri də Həsənxanla Laçının qadınlar haqda söhbətidir. Cəmiyyətdə əsl kişi hesab edilmək üçün qadınlarla qeyri-qanuni münasibətlərin əsas götürülməsi, bunun kişilər arasında qürur duyulan bir əməl olması Laçına qəribə gəlir. Ona görə Həsənxanla söhbətində yalan danışır. Ancaq sonradan evlənmək məsələsi gündəmə gələndə əvvəl yalan dediyini etiraf edir. Bir qəlbin bir insanı unudub başqasına meyil salmasını dərk edə bilmir. Belə fikir Laçına tamamilə yaddır. O, Sarıteldən başqa heç kimlə evlənməyi təsəvvürünə belə gətirə bilmir: "Heç vaxt, heç zaman mən başqasının haqqında düşünməmişəm. Gözüm açılandan qız adına, həyat yoldaşı adına onu görmüşəm. Seçməmişəm, axtarmamışam. Əsgərlikdən ona nə qədər məktub yazmışam, burda da neçəsini yazmaq istəmişəm. Amma bircəciyini də nə göndərmişəm, nə vermişəm" [4].

Laçın onu dəyişdirməyə çalışan, gücünü gücsüzlüyündən ayıran cəmiyyətə öz daxili monoloqu ilə cavab verir: "İnsanda iki qüvvə yox, bir qüvvə var. O da budur: adam nə qədər güclüdürsə, o qədər gücsüzdür. Hər bir canlı öldürməyi, yıxmağı bacardığı qədər ölməyə, yıxılmağa hazırdır. Gücsüzlük-güclülük eyni qüvvədir, belədən-belə çevrilir, elədən-elə. Sevgi-məhəbbət də bu təhər, müəllim! Misal üçün adi bir almanı götürək: həm acıdır, həm şirin. Ayıra bilməzsən onun öz acısını öz şirinindən. Su — hidrogeni də var, oksigeni də. Onu da ayıra bilməzsən. Ayıra bilərsən ha, müəllim, onda alma almalıqda qalmır, su da itir..." [4].

Özündə fövqəlqüvvə hiss edən Laçın yalnız məzardan gələn işığı görür: "Bu gecə oğlana vəhy gəlmişdi. Bir qədər beləcə davam etsə, hara gedib çıxacaqdı, allah bilirdi... Həmin gecə ay, guya elə nöqtədən çıxmışdı ki, işığı yalnız bir yerə düşürdü. Qonşu yamacın üstdəki məzara. Yamacdakı tək qəbir daşı ağappaqdı. Ayın qar ziyasına bənzəyən şüası ordan süzülüb bəridə — yanğın idarəsi ilə məzarın arasındakı dərənin üzərində dayanırdı. Elə idi ki, guya həmin dərə boş, quru olmayıb, sahillərinəcən siləbəsilə dolu, ağ-göy suyu asta-asta yırğalanan və ancaq gecələr, min gecənin birində gözə görünən təmiz dağ dəryaçasıdır" [4].

Laçının əxlaqi məsələlərdə təmizliyi onun mamaça ilə görüşməyə razılıq verməsindən sonra ortaya çıxır. Ancaq bu, bir qədər də kədər doğuran məqamdır. Bu məqamdan sonra onun cəmiyyətlə barışmazlığı, hadisələrə dözə bilməməsi daha kəskin nəzərə çarpır. Həsənxanın mamaça ilə əlaqəsi olduğunu düşünərək onu döyür. Onu döyməsinin səbəbi isə təkcə Həsənxanın ona yalan deməsini düşünməsi yox, həm də bir qadının əxlaqına qarşı hörmətsizlik kimi qiymətləndirməsidir. Sonradan məlum olur ki, əslində, onun düşündükləri xəyal imiş. Yaşadığı mühit onu dəliyə çevirir. Yalana nifrət edən Laçın Həsənxanın yoxa çıxması ilə sorğuya çəkilir. Bu məqamda yalan deməyə məcbur olması olduqca canlı təsvirlərlə verilmişdir: "O qədər yalan demişdi ki, rəis bir yana, özü özünə hirslənmişdi. Dünyada yalan danışmaqdan, yalançı görünməkdən də əclaf iş varmı?" [4]. Laçının düşdüyü situasiyanı Herman Hessenin qəhrəmanları ilə müqayisə etmək mümkündür. Yazıçı həyatda "etmərəm" dediyi hər şeyi etmək məcburiyyətində qalan qəhrəmanına göstərir ki, bu hal əslində insanın taleyinin bir hissəsidir. Ancaq bununla nə qədər barışmaq, ya da buna nə qədər baş qaldırmaq insanın təbiətindən, psixoloji durumundan asılıdır.

Laçının psixologiyası Həsənxanın Bakıya getməsindən sonra daha geniş açılır. Onun gözləri yanğınları bir hallusinasiya kimi görür. Burada da əslində xüsusi ştrixlər vardır. Bu zamana kimi onun cəmiyyətlə münasibətləri sanki Həsənxan vasitəsilə tənzimlənir. Həsənxan alışmaqda olan odun üstünə atılan

sudur. Ancaq bu alovu söndürmür, nəzarət altında saxlayır. Onun gedişi ilə yanğın nəzarətdən çıxır. Laçın hər gecə şəhərin başqa-başqa yerlərindən yanğın xəbərləri aldığını güman edir.

Bu, yazıçının arzularını əks etdirmə biçimidir. O, həqiqətən, yeni yanğınların olmasını, sabitliyin pozulmasını, yeni bir odun canlılıq yaratmasını istəyir. Bunun mümkün olmadığı, insanların yeknəsəkliyə uyumlu həyat tərzi keçirdiyi mühitdə isə o yanğının olması mümkünsüzdür.

Gecənin gündüzə çevrildiyi bir ildırımlı gecədə isə Laçın tamamilə yox olmağı seçir. Ona qarşı birmənalı münasibət göstərməyən cəmiyyət onun üçün dözülməz olur. O işığın məhv olduğu gecə Həsənxan ümid edir ki, Laçın maşından düşüb canını qurtarmış ola bilər. Əslində, bu işığın həyatına gətirdiyi mənanın fərqində olan surət kimi Həsənxan obrazı xüsusi fərqlənir.

Həsənxan bilir ki, onun istinadgahı həmişə tənha əsgər məzarı olmuşdu. Buna görə də sürüşmə baş verəndə onun uçuruma yox, məzara baxdığına şübhəsi yox idi. "Görəsən, qarajdan çıxarkən arxaya baxırmışmı? Baxıbsa, yeganə nişanətək həmin əsgər məzarını görüb"[18]. Sabir Əhmədov nurdan qopub gələn tənha obrazını zülmət dünyadan qoparıb yenidən gəldiyi yerə - nura qovuşdurur. Cismən ölən Laçın, əslində ona layiq olmayan cəmiyyətdən uzaqlaşaraq əbədiyaşarlıq qazanır.

Ədəbiyyat

1. Hüseyn M. Yeni mərhələ, yeni vəzifələr. "Azərbaycan" jurnalı, 1962, № 7, s.3.
2. Əlişanoğlu T. XX əsr Azərbaycan nəsrinin poetikası. Bakı: Elm. 2006. 312 s.
3. http://www.asifataocagi.com/wp-content/uploads/2014/06/insan-ve-senet.pdf
4. http://www.azadliq.org/a/24705144.html

РЕЗЮМЕ

СОЦИАЛИСТИЧЕСКОЕ ОБЩЕСТВО И ЧЕЛОВЕЧЕСКИЙ ФАКТОР В ТВОРЧЕСТВЕ САБИРА АХМЕДОВА

Бабаева Э.М.

Ключевые слова: *«шестидесятники», Сабир Ахмедов, «След на холме», проблема человека и времени, психологическая проза, социалистическое общество и человеческий фактор, социально-нравственные проблемы*

Поколение так называемых «шестидесятников» в литературе Азербайджана – Анар, Эльчин, Юсиф Самедоглу и другие сумели достичь глубокого раскрытия социально-нравственных проблем современного им человека, отображая перемены и преобразования, происходившие в обществе, новые человеческие ощущения, сложившиеся в результате них, а также создавая новые художественно-литературные образы. Выходя за рамки идейно-литературных канонов социалистического реализма, они выдвинули на передний план человеческий фактор, добившись вникания в самые глубинные пласты его внутреннего мира.

Эти важные вопросы рассматриваются в статье «Социалистическое общество и человеческий фактор в творчестве Сабира Ахмедова», одного из ярких представителей прозы 60-х гг.

SUMMARY

SOCIALIST SOCIETY AND THE HUMAN FACTOR IN THE WORK OF SABIR AKHMEDOV

Babayeva E.M.

Keywords: *60s, Sabir Ahmadov, "Trail on the hill", human and time problems, psychological publication, socialist society and human factor, socio-moral problems.*

The 60s generation of Azerbaijani literature - Anar, Elchin, Yusif Samadoglu and others managed to uncover the social and moral problems of the person, reflecting the changes in society, their problems, new literary images and new human emotions. They went beyond the limits of socialist realism and put the human factor in the forefront and managed to penetrate the deepest parts of its inner world. These important issues are discussed in the article "Socialist society and the human factor in the works of Sabir Ahmadov", one of the prominent representatives of the prose of the 60s.

DEVELOPMENT OF AZERBAIJANI CULTURE

Bakhshaliyeva Aytan Akhad

Azerbaijan State Pedagogical University, Baku, Azerbaijan

mammadli.aytan@mail.ru (055 921 30 13)

Key words: *development of culture, Azerbaijani culture, Heydar Aliyev Foundation, International Music Festival, integration of culture*

Culture is one of the factors that play an important role in the formation of peoples and nations and their emergence on the world scale. Culture is a set of objects and values achieved by a person in the process of his activity, all of which are further developed by being passed on from generation to generation. History

has proven that a nation with a high culture is able to act in accordance with the new challenges of the modern world and walk confidently on the path of progress and development. Therefore, it is very important to promote, develop, preserve and pass on culture to future generations.

National leader Heydar Aliyev always paid great attention to the development of culture and art during his leadership of Azerbaijan, gave honorary titles and valuable gifts to the representatives of this field, and set the restoration and reconstruction of cultural institutions as a priority task. Today, there are countless relics of the great leader in all regions of Azerbaijan. These are the manifestation of the mighty personality's infinite love for his people and nation. [1]

National leader Heydar Aliyev's political course is successfully implemented today. The ideas of the genius are being continued with great success by our honorable President Mr. Ilham Aliyev and the Heydar Aliyev Foundation, the foundation's president Mehriban Aliyeva. In this article, I want to discuss the activities of the Heydar Aliyev Foundation in the field of culture and art. It goes without saying that volumes and volumes could be written about the work done by the foundation in the field of culture and art, attracting the attention of the international world to our country, and tireless activities in the integration of Azerbaijani culture and art into the world. In any case, I feel obliged to draw attention to some points.

During the five-year period of its activity, the large-scale events carried out by the Heydar Aliyev Foundation in the direction of the development of Azerbaijani culture have created a great resonance both in our country and in the international world. Over the past five years, the foundation headed by the first lady of Azerbaijan has paid attention to the development of all areas of culture and art, which are of unparalleled importance for the fate of our nation. On his initiative, large-scale projects related to Azerbaijani culture and art were successfully implemented. These projects promoted and recognized our culture worldwide. I would also like to mention that the foundation's projects and activities in the direction of the development of Azerbaijani culture are based on loyalty to the people and national and moral values. It is no coincidence that the development of culture occupies a special place during the large-scale activity of the Heydar Aliyev Foundation, which studies and promotes the statehood legacy of the great leader and supports the implementation of large-scale programs. Azerbaijani culture, art, and mugham have already taken a special place in the international world.

The Heydar Aliyev Foundation has turned Azerbaijan into a place of intercultural dialogue and peace. The development of culture, its integration into the world, care for culture shows how the Heydar Aliyev Foundation approaches the national-spiritual heritage with great sensitivity. The activity of the fund, especially in the recognition of Azerbaijani mugham in the world, deserves high values. Starting from 2005, important events were carried out related to the development and promotion of mugham, one of the musical pearls of our nation. On the initiative of the president of the foundation, Mehriban Aliyeva, a "round table" was held inviting prominent mugham masters, and it was decided to create an International Mugham Center in Baku. After some time, the ceremonial opening of the International Mugham Center took place. The next step towards the development and protection of mugham art was the elegant release of the music album "Karabakh Khanandalari". Mugam connoisseurs of the world gathered in Azerbaijan at the "World of Mugham" International Festival initiated by the Foundation and exchanged views on preservation and development of mugham.

As a result of the works initiated by the Heydar Aliyev Foundation in the promotion of mugham, which is the bearer of our national wealth and moral values, the intercultural dialogue started. Mugham masters from Iran, Syria, Iraq, Morocco, Uzbekistan, Tajikistan, Kazakhstan, Egypt, Turkey, Germany and other countries came together at the international scientific symposium and International Mugham competition and turned Baku, the capital of our native republic, into a place where the beginning of a new stage in the history of mugham art was written. This unparalleled cultural program has been highly appreciated by world-renowned mugham connoisseurs. All this is of great importance in the protection of the cultural heritage of the Azerbaijani people and bringing it to the attention of the international world, as well as promoting it. Honorable President Mr. Ilham Aliyev also noted at the opening ceremony of the "World of Mugham" International Festival that mugham is the national wealth of Azerbaijan. [2]

Mehriban Aliyeva, president of the Heydar Aliyev Foundation, goodwill ambassador of UNESCO and ISESCO, deputy of the Milli Majlis, first lady of Azerbaijan, who has exceptional services in the preservation and development of our national culture and folk art, including mugham, which is considered the most valuable pearl of the East, is one of the most famous mugham scholars in the world. in his speech at the event they participated in, he said: "Mugham enters the life of every Azerbaijani almost from the moment of birth. This amazing music matches our inner voice in all situations. It always falls into place - in our sad and sad moments, and in our overflowing emotions of joy and love. Yes, mugham constantly accompanies us from the beginning to the end of our life. The Mugham phenomenon is precisely the fact that it has

accompanied man for centuries, and has been a bridge for him from the earliest times to the present and the future. Indeed, it is difficult to imagine our country without mugham, and mugham without Azerbaijan."

Such international-level events, which are of great importance in the recognition of Mugham at the world level, and at the same time in the wider promotion of our national-cultural pearls, will remain in the memory for a long time. Because precisely thanks to these events, our mugham, in general, Azerbaijani culture and art have been successfully integrated into the world. Azerbaijani mugham has a unique place among the world's musical pearls. Let me also mention that the actions of the fund, which are of great importance in the successful integration of Azerbaijani culture into the world, have replaced each other. With the support of the foundation, world culture came together again in Azerbaijan. I am referring to the International Music Festival and international competition of pianists recently held in Gabala region. This high-level event, attended by famous musicians from 16 countries of the world - USA, France, Israel, Mexico, Poland, Russia, Italy, Spain and other developed countries, brought together numerous music masters of different cultures in Azerbaijan. [3]

This festival, which played an exceptional role in the promotion of Azerbaijani culture, was also of great importance in promoting the musical traditions of our country in the world. Mehriban Aliyeva, President of the Heydar Aliyev Foundation, Goodwill Ambassador of UNESCO and ISESCO, Member of the Milli Majlis, wrote in her congratulatory letter to the participants of the festival: "The Gabala International Music Festival and the international competition of pianists, held with the participation of well-known musicians of the world, help to discover new talents, meet young people with professionals. and will allow them to learn the intricacies of the art. Master classes organized by famous pianists within the festival will be a great contribution for young musicians.

The Heydar Aliyev Foundation continues its activities in the implementation of projects that will leave an indelible mark on the cultural history of Azerbaijan. Such projects create ample opportunities and favorable conditions for artists and cultural representatives who contribute to the culture of Azerbaijan. In addition to the recognition of Azerbaijani culture in the international world, continuous work is being done in the direction of our people's familiarity with world music culture. The Heydar Aliyev Foundation, the president of the foundation, Mehriban Aliyeva, is closely involved not only in Azerbaijan, but also in international cultural processes, paying special attention to initiatives related to intercultural dialogue. With his care and initiative, prestigious international conferences devoted to cultural diversity, intercultural and interreligious dialogue were organized. The international conference on increasing the role of women in intercultural and interreligious dialogue held in Baku should be especially noted. It should also be noted that this conference was highly appreciated in the international world. Protection and restoration of historical-religious and cultural monuments has always been the focus of the foundation's president. The fund also takes great care in restoring monuments belonging to other religions and cultures.

Ədəbiyyat

1. https://culture.gov.az/az/azerbaycan-medeniyyeti
2. http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_oktyabr2009/91634.htm
3. http://anl.az/down/meqale/xalqqazeti/2010/mart/110218.htm

XÜLASƏ

AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAFI

Baxşəliyeva A.Ə.

Açar sözlər: *mədəniyyətin inkişafı, Azərbaycan mədəniyyəti, Heydər Əliyev Fondu, Beynəlxalq Musiqi Festivalı, mədəniyyətin inteqrasiyası*

Müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında baş verən proseslər musiqiyə də böyük təsir göstərmişdir. Bu dövr Azərbaycan musiqisinin inkişafında Ümummilli lider Heydər Əliyevin rolu olmuşdur. Onun himayə və qayğısı, siyasəti nəticəsində Azərbaycan mədəniyyəti və incəsənəti inkişaf etdirilmişdir. Ölkəmizdə həyata keçirilən ən mühüm layihələrin əksəriyyəti Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilmişdir. Son illərdə Heydər Əliyev Fondu tərəfindən mədəni sərvətlərimizin təbliği istiqamətində çoxsaylı işlər görülmüşdür. Muğam Şərqin ən qədim musiqi janrlarından olaraq dünya sənətsevərlərin diqqətini cəlb etmişdir.

РЕЗЮМЕ

РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ

Бахшалиева А.А.

Ключевые слова: *развитие культуры, культура Азербайджана, Фонд Гейдара Алиева, Международный музыкальный фестиваль, интеграция культуры*

Процессы, происходящие в общественно-политической жизни независимой Азербайджанской Республики, оказали большое влияние на музыку. В этот период общенациональный лидер Гейдар Алиев сыграл большую роль в развитии азербайджанской музыки. Культура и искусство Азербайджана развивались в результате его покровительства, заботы и политики. Большинство важнейших проектов, реализованных в нашей стране, осуществлены по инициативе Фонда Гейдара Алиева. В последние годы Фонд Гейдара Алиева провел большую работу в направлении популяризации наших культурных ценностей. Как один из древнейших музыкальных жанров Востока, мугам привлек внимание мировых любителей искусства.

"MƏCNUNLUQ-DƏLİLİYİN" FƏLSƏFİ ANLAMI VƏ TÜRK DASTAN ƏNƏNƏLƏRİ (N.GƏNCƏVİNİN "LEYLİ VƏ MƏCNUN" POEMASI ƏSASINDA)

Baxşıyeva Ülkər Elman qızı
Azərbaycn Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
ulker.baxsiyeva@mail.ru

Açar sözlər: *Nizami, Məcnun, ənənə, dəli , məsnəvi*

Nizami Gəncəvi yaradıcılığı ilə bütün dünya ölkələrinin ədəbiyyatşünas alimlərini, tədqiqatçılarını öz fövqünə ala bilən, klassik Azərbaycan ədəbiyyatının görkəmli simalarındandır. Nizami sənəti əsrlər, illər boyu təhlil olunub araşdırılmasına baxmayaraq bitib-tükənməyən sehrli xəzinədir. Nizami yaradıcılığının özəlliyi onun orijinallığında, hər zaman aktuallığındadır. Şairin toxunduğu bəşəri və fəlsəfi ideyalar hər zaman cəmiyyəti düşündürən məsələlər olmuşdur. Nizami bütün ruhu ilə,canı ilə öz xalqına, vətəninə, elinə-obasına bağlı sənətkar olmuşdur. Bu səbəbdən də bütün "Xəmsə" yaradıcılığı boyu türk folklor ənənələrinin elementləri mövcuddur. Nizami yaradıcılığında türk folklor ənənəsindən istifadə baxımından "Leyli və Məcnun" məsnəvisi xüsusilə seçilir. Məsnəvidə Azərbaycan məhəbbət dastanlarının xüsusiyyətlərindən istifadə olunmuşdur.Şair məqsədli şəkildə dastan süjet və obraz ənənələrindən bəhrələnməyə geniş yer vermişdir. Nizami Gəncəvi bununla öz türk kimliyini və türk dilinə münasibətini vurğulamaq istəmişdir. "Leyli və Məcnun" poemasında Məcnun obrazı ilə bağlı bəzi süjet və xüsusiyyətlərin məhəbbət dastanlarından götürülməsi məqamlarını görürük.Məqalədə bu araşdırmalara nəzər yetirək. Nizami "Leyli və Məcnun" məsnəvisində süjet xəttində cərəyan edən hadisələrə uyğun olaraq Qeys obrazının adını Məcnun adı ilə dəyişdirmişdir.Buna folklorşünaslıqda addəyişmə deyilir. Addəyişmə motivinin həm təsəvvüflə, həm də folklorla bağlılığı vardır. Təsəvvüfi-irfani görüşlərə görə insan maddi dünyada müvəqqəti sayılır,o əbədi dünyaya ,Allaha qovuşmaqdan ötrü müəyyən mərhələləri keçməlidir.İnsan bu yola dörd mərhələni uğurla keçdikdən sonra qovuşa bilər. Təsəvvüfi-irfani görüşlərə görə insan Allaha aşiqlik yolunun sonunda buta alaraq yeni sosial-mənəvi statusa-haqq aşiqi statusuna qədəm qoyur. Bu statusa çatdıqdan sonra qəhrəman yeni ad ilə adlandırılır. Bizim məhəbbət dastanlarında da bu məqamlar vardır. Dastanların süjetlərindən görürük ki, qəhrəmanlara buta verilir. Buta alan qəhrəmanlar ilahi eşqə mübtəla olub,haqq aşiqlərinə çevrilirlər. Bundan sonra onların adları dəyişdirilir. Məsələn, "Əsli və Kərəm" dastanında Mahmud və Məryəm bir-birilərinə aşiq olduqdan sonra adlarını dəyişdirirlər. Nizaminin məsnəvisində də Qeysin adının Məcnun adı ilə dəyişdirilməsinin kökündə folklor elementləri dayanmışdır. Eləcə də folklora bağlı digər məqamlardan biri də Məcnunun yaşadığı cəmiyyətdə "dəli" adlandırılmasıdır. Azərbaycan qəhrəmanlıq epos ənənələrində "dəli" leksik morfeminin xüsusi məna yükü vardır. "Kitabi-Dədə Qorqud" eposunda sayılıb-seçilən igidlər "dəli" adlandırılmışdır.Qədim oğuz elində "dəlilik" ən yaxşı göstərici hesab olunmuş və xüsusi status kimi qəbul olunmuşdur. "Dədə Qorqud" eposundan maraqlı tədqiqatlar aparmış alim Muxtar Kazımoğlunun araşdırmalarına görə, Oğuz elində hər igidə dəli deyilməmişdir. Onun digər əsərində yazılıb ki, "Dədə Qorqud"da dəlilik neçə-neçə obrazı əhatə edən bir xətdir və həmin xətt üzrə təsvir edilən obrazların hərəkətləri, təbii ki, bir-biri ilə yaxından səsləşir. *"Ayrı-ayrı obrazlarda özünü göstərən ağlasığmaz hərəkətlərin ümumi mənzərəsindən aydın olur ki, belə hərəkətlərin ən başlıca səbəbi başqa bir şey yox, dəliliyin, dəlisovluğun özüdür"* [4, s. 175].

S.Rzasoy "Oğuz mifologiyası" kitabında bildirmişdir ki,"dəli" Oğuz elində yeniyetməlikdən igidliyə keçirilmə mərasimlərində hünər göstərən şəxslərə verilən addır. İnisiasiya mərhələsində olan fərd eyni zamanda həm o həyat dünyasında, həm də ölüm dünyasında yaşayır, həm ölü, həm diri olur. O, eyni zamanda həm ağıllı, həm də dəli sayılır [5, s. 182].

Bu prizmadan yanaşsaq, Məcnun obrazı haqqında spesifik xüsusiyyətlər söyləmək mümkündür. Məcnunu yaşadığı cəmiyyət, mühit anlamır, onu dəli hesab edirdilər.Lakin arif insanlar Məcnunu anlayır onu ağıllı hesab edirlər. Məcnun cismən maddi dünyanın varlığıdır. Lakin Nizami onu haqq aşiqinə çevirmişdir ,o, ruhən haqq aşiqlərinin dünyasındadır.Maraqlı məqamlardan biri budur ki, Məcnun səhraya getməklə

cəmiyyət üçün ölür, lakin özünün keçmiş kimliyində ölən Məcnun səhrada ilahi dirilik tapır. Nizami obrazı addəyişmə ilə öldürür və yenidən dirildir. Belə ki bu addəyişmə, qəhrəmanın Qeys kimi ölüb Məcnun kimi dirilməyinin göstəricisidir. Nizami məsnəvidə el adət-ənənələrindən biri olan elçilik mərasimini də təsvir etmişdir. Məcnunun atası oğlunun Leyliyə olan hədsiz sevgisini,onun dərdindən dəli-divanə olmasını görüb Leylinin atasının yanına elçiliyə gedir. Leylinin atası zəmanəsinin ideoloji xüsusiyyətlərini daşıyan tipik obrazdır. O cəmiyyətinin digər üzvləri kimi azad sevgi məfhumunu başa düşmür və Məcnunun hissini dəlilik hesab edir. Məcnunun atasının hörmətli, nüfuzlu şəxs olmasına bamayaraq qızını onun oğluna verməyə razılaşmır.

Nə yaman ərköyün böyümüş oğlun,
Özbaşına gəzir, muğayat olun.
Dalınca "divanə" söyləyir hər kəs,
Bizə divanələr tay ola bilməz.
Əvvəl dua et ki, gəlsin ağıla,
Sonra məhəbbətdən başla nağıla....
Gözdən kirpik çəkir bizim ərəblər,
Gülərlər üstümə dil versəm əgər.
Bir də bu mətləbdən gəl danışma heç,
Söhbəti qurtaraq, bu işdən vaz keç" [3, s. 89-90].

Nümunədən görünür ki, Leylini atası sosial-psixoloji xarakterli səbəblərdən qızını Məcnuna vermir. Bu cəmiyyətdə Məcnunun hərəkətlərinə bütün cəmiyyət gülür, Məcnun atasını,ailəsini də cəmiyyətdə hörmətdən salmış, ona görə də heç kəs bu ailə ilə qohum olmaq istəmir. Yəni Məcnun cəmiyyət içərisində dəli kimi tanınır. Azərbaycan məhəbbət dastanlarında biz bu motivlərə rast gələ bilərik. "Tahir və Zöhrə", "Əsli və Kərəm", "Seydi və Pəri" dastanında qızların sevdikləri şəxslərlə ailə qurmalarına müxtəlif şəxslər tərəfindən maneələr olmuş, icazələr verilməmişdir. [1, s. 127; 2, s. 17; 2, s. 191]

Məsnəvidə hadisələrin süjet ardıcıllığına nəzər salsaq , məhəbbət dastanlarının süjet ardıcıllığı ilə oxşarlıqlarını görərik. Məsələn: məhəbbət dastanlarında buta almış aşiqlər sevgililərinə qovuşmaq üçün yola çıxırlar. Lakin onların valideynləri bu səfərə qarşı çıxırlar,onları yollarından döndərmək istəyirlər. Bu motivə bir çox məhəbbət dastanlarında rast gəlmək mümkündür. Valideynlərin onların səfərlərinə qarşı çıxmaqlarının əsas məqsədləri isə övladlarını bu sevgidən döndərmək olmuşdur. Məhəbbət dastanlarımızdan biri olan "Abbas və Gülgəz" dastanında bu motivi icra edən qəhrəmanın anasıdır. Ana Abbasın sevgisi yolunda səfərə çıxmasına razılıq vermir. Nə qədər yalvarıb-yaxarsa da, ağlayıb-sızlasa da oğlunu fikrindən döndərə bilməyir. Axırda naəlac qalan ana razılıq verməyə məcbur olur. [2, s. 125-126]

Məhəbbət dastanlarımızdakı bu motivi "Leyli və Məcnun" məsnəvisində də görə bilərik. Məcnunun atası onu düçar olduğu eşq yolundan döndərmək istəyir. Oğlunu Kəbəyə aparıb orada Allaha yalvararaq bu eşqdən qurtulmasını istəyir. Bu element eynən məhəbbət dastanlarındakı motivlərə bənzəyir. Məcnunun atası onun eşqini "hərzəlik", "dərd" hesab etmiş, bundan qurtuluş yolunda Allahdan dualarını əsirgətməmişdir.

De ki: böyük Tanrı, bu hərzəlikdən
Canımı bir dəfə azad eylə sən.
Rəhm elə, məni öz himayənə al,
Gəl, bu divanəni doğru yola sal.
Bu dərdi canımdan irağa göndər,
Bir də bu eşqdən qəlbimi döndər.
Mən eşq əsiriyəm, bir məni yad et,
Eşqin bəlasından məni azad et [3, s. 97]

Lakin atasının israrla təkidlərinə baxmayaraq, Məcnun öz eşqinə sadiqdir. Məcnun Leyliyə olan eşqindən dönməyəcəyini bildirir. Bu elementi biz az öncə qeyd etdiyimiz və eləcə də digər məhəbbət dastanlarında da müşahidə etmişdik. Məhəbbət dastanı qəhrəmanları öz eşqindən dönmədikləri kimi, Məcnun da dönmür:

Halqanı öpərək, dedi: "Ey Allah!....
Mənə deyirlər ki, gəl eşqi burax,
Bu, dost məsləhəti deyildir ancaq.
Eşq ilə yaşayır aləmdə səsim,
Eşqsiz aləmdə batar nəfəsim.
Eşqdən yoğrulmuş ruhum, bədənim,
Eşqsiz bir günüm olmasın mənim..." [3, s. 97]

Nəticə. Bütün bu təhlillərdən bu qənaətə gələ bilərik ki, "Leyli və Məcnun" məsnəvisi ilə Azərbaycan məhəbbət dastanlarının arasında süjet xətti və poetik-fəlsəfi ideya baxımından oxşarlıqlar vardır. İlahi eşq carçıları olan bu qəhrəmanlar bütün varlıqları ilə öz eşqləri yolunda canlarını belə qurban verməyə hazırdırlar. Bu qəhrəmanlar həm cismən, həm ruhən bu eşqə sadiqdirlər. Məcnun öz sevgisi yolunda cismən ölməkdən belə qorxmamışdır. Eynən bu motivi biz məhəbbət dastanlarının qəhrəmanlarının həyat yolunda görə bilərik. Dahi Nizami öz yaradıcılığında türk etnik kimlik məsələsini qabartmaqdan ötrü türk epik folklor ənənələrinə müracit edərək, folklor elementlərindən yararlanmışdır. Şair dövrün tələbinə uyğun olaraq farsca yazıb yaratmışdır. Lakin ən mühüm məqam odur ki, Nizami türkcə düşünmüşdür farsca yazmışdır. Nizami "Leyli və Məcnun" poemasında türklük problemində özünün açıq-aydın milli-etnik, siyasi-ideoloji yanaşmasını ifadə etmişdir. Nizamini bu məsələni belə açıq şəkildə yazmağa təhrik edən bir səbəb olmuşdur. Belə ki, məsnəvinin yazılmasını sifariş verən Şirvanşah Axsitan şairin milli heysiyyətinə toxunmuşdur. Şirvanşah Axsitanın ədəbiyyatımıza yanaşmasında şüubi baxışları mövcud olmuşdur.Hər zaman qəlbi türk milli ruhu ilə döyünən, Azərbaycanın vətənpərvər oğlu Nizami Axsitanın bu mövqeyinə sakit dayana bilməzdi. O, məsnəvinin giriş hissəsində bu fikirlərə qarşı öz mövqeyini cəsarətlə qoymuşdur. O, türk dilinin , türk milli kimliyi, türk ədəbi-estetik kimliyi haqqındakı düşüncələrinin onun üçün nə qədər ali səviyyədə olduğunu göstərmişdir. Nizami bununla təkcə öz milli əqidəsini göstərməklə kifayətlənməmiş ,eyni zamanda türklüyün XII əsrdə milli ideoloji düşüncədəki mövqeyini göstərmişdir. Şairə Axsitan tərəfindən qoyulan qadağa tələblərinə baxmayaraq, "Leyli və Məcnun" poemasında da ölməz Nizami türk milli ruhunu, türk etnik kimliyini məsnəvinin ana xəttinə çevirməyə nail olmuşdur. Bu səbəbdən də məsnəvidə şair müxtəlif məhəbbət dastanları üçün xarakterik süjet motivlərinə tez-tez müracət etmişdir. Nizaminin "Leyli və Məcnun" məsnəvisində Azərbaycan məhəbbət dastanlarına sistemli şəkildə müraciəti Nizaminin bu məqsədindən soraq verir.

Ədəbiyyat

1. Azərbaycan məhəbbət dastanları [5 cilddə] / Tərtib edənləri Ə.Axundov, M.Təhmasib. Təkmilləşdirilmiş II nəşri. Yenidən işləyib nəşrə hazırlayanlar Ə.Cəfərli, H.İsmayılov, S.Axundova. – Bakı: Çıraq, – 2005, – C.1, – 404 s.
2. Azərbaycan məhəbbət dastanları [5 cilddə] / Tərtib edənləri Ə.Axundov, M.Təhmasib. Təkmilləşdirilmiş II nəşri. Yenidən işləyib nəşrə hazırlayanlar Ə.Cəfərli, H.İsmayılov, S.Axundova. – Bakı: Çıraq, – 2005, – C.2, – 440 s.
3. Gəncəvi, N. Leyli və Məcnun. Tərcümə edəni Səməd Vurğun / N.Gəncəvi. – Bakı: Yazıçı, – 1983, – 303 s.
4. Kazımoğlu, M. Xalq gülüşünün poetikası / M.Kazımoğlu. – Bakı: Elm, – 2006, – 268 s.
5. Rzasoy, S. Oğuz mifologiyası / S.Rzasoy. – Bakı: Nurlan, – 2009, – 363 s.

РЕЗЮМЕ

ФИЛОСОФСКОЕ ЗНАЧЕНИЕ «БЕЗУМИЯ МЕДЖНУНА» И ТЮРКСКИЕ ЭПИЧЕСКИЕ ТРАДИЦИИ (по мотивам поэмы Гянджеви «Лейли и Меджнун»)

Бахшиева У.Э.

***Ключевые слова**: Низами, Меджнун, традиция, сумасшедший, маснави.*

Элементы тюркских фольклорных традиций можно услышать во всем произведении Низами «Хамса». Маснави Низами «Лейли и Меджнун» также использовал элементы азербайджанского любовного эпоса, сюжетно-образные традиции тюркских эпосов, чтобы подчеркнуть свою тюркскую идентичность и отношение к тюркскому языку. Низами изменил имя персонажа Гайса на Меджнун в соответствии с событиями, разворачивающимися в сюжетной линии «Лейли и Меджнун», что в фольклористике называется переименованием.

SUMMARY

THE PHILOSOPHICAL MEANING OF "MAJNUN'S MADNESS" AND TURKIC EPIC TRADITIONS (based on Ganjavi's poem "Leyli and Majnun")

Bakhshiyeva U.E.

***Key words**: Nizami, Majnun, tradition, crazy, masnavi*

Elements of Turkish folklore traditions can be heard throughout Nizami's work "Khamsa". Nizami's "Leyli and Majnun" masnav also used the features of Azerbaijani love epics. The poet used the plot and image traditions of Turkish epics to emphasize his Turkish identity and attitude to the Turkish language. Nizami changed the name of the character of Qays to Majnun in accordance with the events unfolding in the plot line of "Leyli and Majnun". This is called renaming in folklore studies.In the article was analyzed the connection of the motif of the name change with both Sufism and folklore .

FİZİKİ TƏRBİYƏDƏ KEYFİYYƏT DƏYİŞİKLİKLƏRİ VƏ MƏKTƏBLİLƏRİN ÖZÜNÜMÜDAFİƏSİNİN ƏSASINI TƏŞKİL EDƏN ŞƏRQ DÖYÜŞ NÖVLƏRİ

Daşdəmirov Nurəddin Emil oğlu
Bakı şəhəri Sabunçu rayonu 293 saylı tam orta məktəbi
Nuru93@mail.ru

***Açar sözlər**: şərq döyüş növləri, ciu-citsu, cüdo, karate, Krav-maqa, sambo, aykido*

Xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir:" *Bizim gənclərimiz yaxşı hazılanmalıdırlar ki, XXI əsrdə Azərbaycanın inkişafını təmin etsinlər. Bunun üçün isə təhsil almaq, sağlam həyat tərzi keçirmək, daim bizim milli dəyərlərimizə arxalanmaq və ümumbəşəri dəyərlərdən səmərəli istifadə etmək lazımdır. Mən əminəm ki, bizim gənclərimiz Azərbaycanın gələcəyini bizdən də yaxşı təmin edəcəklər."*

Ümummilli liderimizin dediyi kimi, Azərbaycanın gələcək inkişafını təmin etmək gənclərimizin üzərinə vəzifə olaraq düşür. Bu günün məktəbliləri sabahımızın qurucularıdır. Biz müəllimlərin də ən ümdə vəzifəsi onlara yaxşı təhsil verməklə yanaşı, həm də onların sağlam, fiziki cəhətdən möhkəm böyümələrinə yardım etməkdir. Uşaqların sağlam həyat tərzinin təmin olumasında valideynlərlə birlikdə çox işlər görməliyik.

Uşaqların təhlükəsizliyi hər zaman, bütün dövrlərdə valideynlərin, ümumilikdə, bütün cəmiyyətin diqqət mərkəzində olmuşdur. Hal-hazırda cəmiyyətin heç də bütün üzvlərinin həyat şəraitinin arzuolunan səviyyədə olmaması qlobal aləmdə bu və ya digər səbəblərdən insanlar arasında aqressivliyin, əsəb gərginliyinin artması və bu halların bəzən məktəblilərə də sirayət etməsinə rast gəlirik. Aqressivlik, əsəbilik, dalaşmağa meyllilik və s. bu kimi hallar məktəblilərin telefonlarında oynadıqları oyunların, baxdıqları cizgi filmlərinin, xarici döyüş filmlərinin təsirindən meydana gəlir. Ona görə də uşaqların təhlükəsizliyinin qorunması problemi meydana çıxır. Bu problemin həlli yollarından biri, fikrimizcə ən mühümü, məktəblilərin özünümüdafiə bacarıqlarını formalaşdırmaq və inkişaf etdirməkdir. Bunun üçün onları idman məşğələlərinə cəlb etmək, onların güc, sürət, cəldlik, dözümlülük kimi fiziki keyfiyyətlərini və diqqətlərini inkişaf etdirmək zəruriddir.

Uşaqlar üçün özünümüdafiə nədir? Bu yalnız hər hansı bir valideynin öyrədə biləcəyi sadə qaydalar toplusu deyil. Bu, lazım olduqda istifadə edilə bilən, xüsusi texnikanın daha dərin təhlilidir.

Fiziki özünümüdafiə fiziki təsir fəndləridir: zərbələr, tutmalar, təkanlar, hücumçunun hərəkətlərinin neytrallaşdırılmasına yönəldilmiş bloklar və s. Özünümüdafiə həm müxtəlif əlaltı vasitələrin, məsələn, qaz balonlarının köməyi ilə, həm də onlarsız "çılpaq əllər"lə həyata keçirilə bilər.

Müxtəlif vasitələrdən istifadə edilmədən özünümüdafiə fərdi özünümüdafiə adlanır. Bura müxtəlif döyüş növləri və əlbəyaxa döyüş növləri daxildir. Onlardan hansının daha effektli olması barədə diskussiyalar hələ də davam edir. Burada hər kəs şagirdlərin hansı döyüş növlərinin fəndləri əsasında hazırlanmasına özü qərar verir

Gənclər üçün özünümüdafiənin əsas prinsiplərinə gəldikdə isə, bu prinsiplər ondan ibarətdir ki, uşaq təhlükəni tanımağı bacarmalı, həm də düzgün psixoloji əhval-ruhiyyəyə malik olmalıdır.

Təəccüblü deyil ki, valideynlərin əksəriyyəti uşağın təhlükəsizliyinə əsas vaxtlarını sərf etməyə üstünlük verir. Unutmayın ki, əgər uşaq özü özünü müdafiə etməyi öyrənməsə, gələcəkdə bir çox ciddi psixoloji problemlərlə üzləşə bilər.

Bəs, uşaqlara özünümüdafiə üsullarını necə aşılamaq olar? Əminliklə demək olar ki, təcrübədə yoxlamadan daha yaxşi üsul tapılmır. Uşaqları qorumaq üçün əvvəlcədən mümkün qədər erkən qayğı göstərmək lazımdır. Əlbəttə, bu təcrübənin böyüklərin nəzarəti altında əldə edilməsi çox vacibdir. Əbəs yerə hesab edilmir ki, yaxşi müəllim yalnız nəzəriyyəci deyil, həm də hər kəsə yanaşma tapmağa qadir olan psixoloq-praktik olmalıdır.

Müasir həyatın reallıqlarını nəzərə alaraq bilmək çox vacibdir ki, zəruri hallarda uşaq maksimal dərəcədə layiqli cavab verə bilər.

Təcrübə göstərir ki, çox vaxt gənc yaşlarında çoxları öz diqqətsizliklərinə görə xoşagəlməz vəziyyətlərə düşürlər. Ona görə də özünümüdafiə məsğələləri qarşisında duran əsas məqsəd məktəblilərə təhlükəni qabaqcadan aşkar etmək, onu bir sıra əlamətlər üzrə anlayıb, həmçinin ondan maksimum tez qaçmağı öyrətməkdir. Özünümüdafiə məsğələlərində uşaqlar həm də intizamlı, diqqətli olmağı öyrənir və eyni zamanda sürət, cəldlik və dozümlülük kimi fiziki keyfiyyətlər əldə edirlər.

Özünümüdafiə metodları və priyomları şərq əlbəyaxa döyüş idman növlərinin metod və priyomlarına əsaslanır. Həmin əlbəyaxa döyüş idman növlərindən bəzilərini nəzərdən keçirək.

Özünümüdafiə məqsədilə məşhur sovet sambosu yaradılmışdı. Termin özü "самозащита - özünümüdafiə, без оружия - silahsız " abbreviaturadan əmələ gəlir. Döyüş sənətinin bu növünün texniki arsenalı müxtəlif döyüş sənətlərindən və milli texnikalardan qəbullara əsaslanır. Bu gün yalnız sambo deyil, həm də bir çox digər döyüş aparma sistemləri özünün mümkün olan ən effektiv üsulları inkişaf etdirmək məqsədi ilə üslubların qarışdırılmasını tətbiq edirlər.

Sambo 1920-1930-cu illərdə cüdo, Jiu-Citsu əlbəyaxa döyüş növləri əsasında hazırlanmış idman və tətbiqi təkbətək döyüşün beynəlxalq növüdür .

20 iyul 2021-ci ildə Beynəlxalq Olimpiya Komitəsi (BOK) sambo-nu ilk dəfə Olimpiya idman növü kimi tanıyıb. 2020-ci il Olimpiya Oyunları ərəfəsində Tokioda (Yaponiya) BOK-nın sessiyasında bu qərar qəbul edilib.

Karate Yapon döyüş sənəti, müdafiə və hücum sistemidir. 2020-ci ildən Olimpiya idman növüdür.

Yaponiyanın mübarizəni, müxtəlif növ atışları, tutub saxlamaları və boğucu priyomları nəzərdə tutan (ciu-citsu, cüdo) digər təkbətək döyüşlərindən fərqli olaraq, karatedə döyüş iştirakçıları arasında bilavasitə əlaqə dərəcəsi minimaldır, rəqibin əzilməsi üçün isə onun bədəninin həyati əhəmiyyətli nöqtələrinə vurulan əl və ayaqların dəqiq hədəflənmiş güclü zərbələrindən istifadə olunur.

İdman yarışları iki karate proqramı üzrə keçirilir: kumite (sərbəst sparring) və Kata (xəyali rəqiblə döyüşün aparılması prinsipləri ilə bağlı hərəkətlərin formal ardıcıllığı).

Aykido. Müstəqil məktəb kimi Yaponiyada əsrin 30-cu illərinin ortalarında formalaşib və ilk dəfə 1954-cü ildə geniş aşkar olunub. O, Dayto-Ryu - ayki-Dyutsu, Kito-ryu - Dyu-Dyu-Dyutsu, Sinkaqe – Ryu-Ken – do, Dzüdo kimi Yapon döyüş sənətinin nailiyyətlərindən müvəffəqiyyətlə sintez edilərək dünyaya unikal, qamətli, məzmuna görə zərif təkbətək döyüş sistemi təqdim edilmişdir. Bütün insanların sülhə can atmasının tarixi inkişafının müasir mərhələsində belə ahəngdar olan bu məqsədlər Aikido-nun geniş populyarlığını yaratmışdır. Aikido gücün bir-birinə qarşi qoyulmasını təmsil etmir, düşmən qüvvəsini özünə qarşi istiqamətləndirir. Aikidonun unikallığı ilk növbədə etika sahəsində özünü göstərir. Aikidonun prinsiplərindən biri deyir:"özünü zərbələrdən uzaqlaşdır və düşməni onların tətbiqindən qoru". Aikidonun etik prinsiplərinin humanistliyi bilavasitə texnikada əks olunur. O, demək olar ki, hücum üsullarini özündə saxlamır və həyat və sağlamlıq üçün təhlükəli deyil. Bu texnika orijinal və effektiv sığorta sistemini əhatə edir ki, bu da, demək olar ki, ciddi xəsarətlər əldə etmək imkanını aradan qaldırır və hər yaşda olan insanlara məsgul olmaq imkanı verir. Hətta qadınlar, uşaqlar və yaşlı insanlar Ayka-treninqin əqli və fiziki fəallığının sonsuz birləsmələrində sağlamlığın möhkəmləndirilməsi, funksional və psixofizioloji vəziyyətin yaxşilaşdırılması üçün gözəl üsul tapırlar. Aykidonun məsq imkanları o qədər müxtəlifdir ki, bu sənətin praktikasını sonsuz olaraq təkmilləsdirmək olar.

Ciu-Citsu (sözün hərfi tərcüməsi "yumşaqlıq sənəti") – Yapon döyüş sənəti növləri üçün istifadə olunan ümumi addır, özündə silahla və silahsız iş texnikasını ehtiva edir; əlbəyaxa mübarizə sənətidir, onun əsas prinsipi "yumşaq", "üzüyola" hərəkət texnikasıdır.

Ciu-citsu Yapon güləşinin ən qədim növlərinə aid edilir. Ciu-citsunun əsas prinsipi - "qazanmaq üçün birbaşa qarşıdurmaya getməmək", müqavimət göstərməmək, rəqibin hücumunu güzəstə getmək, sadəcə, tələyə düşənə qədər onun hərəkətlərini lazımi istiqamətə yönəltmək və sonra rəqibin gücünü və hərəkətlərini onun özünə qarşi yönəltməkdir.

Ciu-citsunun fəlsəfi əsasını aşağıdakılar təskil edir:

Həyat boyu insan özünün 4 əsas, "qala" divarlarını qurur və gücləndirir. Bunlar: sağlamlıq, sosial aspekt (ətraf ilə ünsiyyət), bilik, iş və mənəviyyatdır. Ciu-Citsu texnikası atışları, əyrilikləri, boğmaları, ağrı üsullarini, zərbələri, ağrı nöqtələrinə təsirləri kombinasiya edir. Qədim üslublarin əsas məqsədi, şübhəsiz ki, düşmənin effektiv öldürülməsi idi, müasir Ciu-Citsunun isə əsas istiqaməti özünü müdafiə etməkdir.

Nəzərdə tutulur ki, divarlardan biri qəzaya uğradığı halda insanın həyatı dağıla bilər. Buna görə də, bu dörd komponentin formalaşması erkən uşaqlıqdan başlamalıdır. Çox vacibdir ki, uşağın yetkinlik yaşina çatdigi an etibarlı dayağı və möhkəm təməli olan "qala"sı olsun.

Ciu-Citsu ilə məsğul olmaq möhkəm, cəsarətli xarakter formalaşdırmaq, ən yaxşi insan keyfiyyətlərini təkmilləsdirmək məqsədi daşiyır.

Krav-Maga İsraildə həyat təhlükəsinin tez bir zamanda neytrallaşdırılmasına diqqət yönəldən əlbəyaxa döyüşün hərbi sistemidir. İsrailin müxtəlif güc strukturları tərəfindən silahlanmaya qəbul ediləndən sonra bu sistem məşhurlaşdı.

İvrit dilində bu sözün mənası "kontaktlı döyüş" deməkdir (maga - kontakt, crav - döyüş) və məsafədən silah istifadə etməklə döyüşdən fərqli olaraq rəqib ilə fiziki qarşılıqlı döyüş növünə aiddir. 1930-

cu illərdə İmi Lichtenfeld Bratislavanın yəhudi icmasını nasistlərdən qorunmağa kömək etmək üçün bu əlbəyaxa döyüş sistemini inkişaf etdirmişdir.

Krav-maqada dəqiq qaydalar mövcud deyil və kişilər və qadınlar üçün məşqlər arasında heç bir fərq yoxdur. Bu idman sistemi deyil, xüsusi geyim forması yoxdur və bu sahədə yarışlar keçirilmir.

Krav-maqanın əsas prinsipləri aşağıdakılardır:

* Zədə almamaq (və xüsusilə yerə yıxılmağınıza imkan verməyin- yoxsa nəfəsinizi kəsərlər);
* Tez hücumu neytrallaşdırmaq;
* Tez müdafiə texnikasından hücum texnikasına keçmək;
* Bədən reflekslerindən istifadə etmək;
* Rəqibin həssas yerlərindən istifadə etmək;
* Müdafiə və ya hücum üçün əl altında olan hər hansı bir əşyadan istifadə etmək.

Yuxarıda göstərilən prinsiplər həyat üçün təhlükəli vəziyyətləri nəzərə alaraq hazırlanmışdır, buna görə də təhlükə ilə reaksiyanın ölçülməsi zərurəti daim vurğulanır.

Ümumiyyətlə, krav-maqa ilk növbədə birbaşa təhlükəni aradan qaldırmağı, daha təcavüzkar hərəkətlərin qarşısını almağı və sonra hücumçunu neytrallaşdırmağı tələb edir. Bəzi hallarda təhlükəli vəziyyətin inkişaf etməməsi üçün qabaqlayıcı hücuma yol verilir.

Cüdo. Yaponiyada qəbul edilmiş təsnifata əsasən cüdo əlbəyaxa döyüş idman növünə aiddir. Cüdo döyüşü professor Cigoro Kano tərəfindən 1882-ci ildə yaradılmışdır.

O vaxt yaponların milli idman növü sayılan əlbəyaxa-silahsız döyüş növü olan ciu-citsu təkcə Yaponiyada deyil, eləcə də əksər dünya xalqları arasında geniş yayılmışdır. Lakin bu idman növü ilə məsgələlər, yarışlar saysız-hesabsız zədələrlə nəticələnirdi. Buna görə də ciu-citsu gənclərin fiziki tərbiyəsinə yönəldilmiş idman növü ola bilməzdi. Yaponiya məktəblərindən birində müəllim işləyən Ciqaro Kanonu gənclərin fiziki və mənəvi tərbiyəsi həmişə ciddi şəkildə düşündürdüyündən o belə qənaətə gəlmişdir ki, gənclərə yeni, zərbələrsiz və fəndləri zədələnmələrə səbəb olmayan maraqlı bir idman növü gərəkdir. Buna görə də o, Tokio universitetinin həkimi Ervin Bels ilə birlikdə ciu-citsu idman növündə zədələnmələrə, çıxıqlara və sınıqlara səbəb olan fəndləri və zərbələri çıxararaq yeni idman növünü yaratdı və ona "Cüdo" adını verdi. Cüdo öz əsasını qədim döyüş forması olan "sumo"dan götürən "ciu-citsu"dan qaynaqlanır.

Kano müxtəlif məktəblərin təcrübəsini ümumiləsdirərək, yeni güləş növünü – cüdonu yaratdı ki, bu da "yumşaq yol"kimi tərcümə olunur. Onun sözlərinə görə, cüdo "gənclərin fiziki tərbiyəsi və ümumi təhsili üçün döyüş idmanı, fəlsəfə, gündəlik həyat sənəti" deməkdir.

Ədəbiyyat

1. Əliyev A.Ə. Əlbəyaxa döyüş növləri və əlbəyaxa döyüş (metodiki vəsait), Bakı: 2012
2. Məmmədli S.B., Məmmədli O.B. Əlbəyaxa döyüş, - Bakı: Hərbi Nəşriyyat, 2020. - 262 s.
3. Боевые искусства: Китай, Япония / Сост. В.В.Малявин. – М, 2012. – 400 с.

РЕЗЮМЕ

КАЧЕСТВЕННЫЕ ИЗМЕНЕНИЯ В ФИЗИЧЕСКОЙ КУЛЬТУРЕ И САМООБОРОНА ШКОЛЬНИКОВ, ОСНОВАННАЯ НА ВИДАХ ВОСТОЧНЫХ ЕДИНОБОРСТВ

Дашдамиров Н.Э.

Ключевые слова: *Восточные виды борьбы, джиу-джитсу, дзюдо, карате, Крав-мага, самбо, айкидо.*

Статья посвящается актуальной теме нашей эпохи ускоренного технического прогресса - проблеме здоровья и самообороне школьников. Автор предлагает привлечь детей и подростков к спортивным занятиям, чтобы отвлечь их от мультфильмов, компьютерных игр, боевых фильмов, которые, действуя на психику, пропагандируют агрессию, а также способствовать их физически здоровому росту. Он отмечает необходимость формирования у школьников способностей самообороны, развивая у них такие физические качества, как сила, скорость, ловкость, выносливость, а также внимание, и отмечает эффективность использования при этом приемов разных видов Восточных единоборств.

SUMMARY

QUALITATIVE CHANGES IN PHYSICAL CULTURE AND SELF-DEFENSE OF SCHOOLCHILDREN BASED ON TYPES OF MARTIAL ARTS

Dashdemir N.E.

Key words: *eastern combat types, jiu-jitsu, judo, karate, Krav-maga, sambo, aikido, physical qualities.*

The article is dedicated to an actual topic like the self-defense of schoolchildren during our contemporary technological innnovation period. The author suggests to keep children and teenagers away from mobile games, foreign cartoons and foreign fight

films that promote aggression and involve them to sports so they can grow up healthy and vigorous. The importance of forming self-defense abilities are mentioned while developing schoolchildren's physical qualities such as strength, quickness, endurance, and speed. Thus, using different eastern martial arts principles are being suggested.

U.S.MOEMİN "THE UNCONQUERED" ƏSƏRİNİN DİLİMİZƏ TƏRCÜMƏSİ ZAMANI İSTİFADƏ OLUNMUŞ FRAZEOLOJİ BİRLƏŞMƏLƏR

Əkbərli Turan Telman qızı
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
turan.akbarli@gmail.com

***Açar sözlər**: məxəz mətn, hədəf mətn, tərcümə, frazeoloji birləşmələr, metaforik tərcümə*

U.S.Moem 1874-cü il 25 yanvar Parisdə dünyaya gəlmişdi. Yazıçının atası Fransanın Britaniya səfirliyində hüquqşünas olaraq çalışırdı. U.S.Moem on yaşında valideynlərinin hər ikisini itirdikdən sonra İngiltərəyə əmisinin yanına göndərilir. Fransız dilində danışan yazıçı yalnız İngiltərəyə köçdükdən sonra ingilis dilini öyrənməyə başlayır. O, ibtidai və orta təhsilini Kenterberi Kral məktəbində almış, Qeydelberq universitetində ədəbiyyat və fəlsəfəni öyrənmiş, daha sonra London tibb məktəbini bitirmişdir. U.S.Moem ətrafında baş verənləri, insanların həyatı və davranışlarını maraqla müşahidə edirdi. Londonun kasıb məhəllələrində həkimlik etdiyi vaxtlarda sıravi insanların real həyatları, dözməyə məcbur olduqları sınaqlar, çətinliklər, səfalət, aclıq və ailə faciələrinə şahid olmuşdu. İnsanların cəsarəti, əzmi, ümid və inancları onu bir-birindən maraqlı əsərlər yazmağa ruhlandırmışdı. U.S.Moem 25 pyes, 21 roman və 100-dən çox kiçik hekayə müəllifidir. O, yazıçılıq fəaliyyətinə tələbəlik illərindən başlasa da, ilk dəfə "Ledi Frederik" pyesinin nəşri yazıçıya böyük uğur gətirir. U.S.Moem "Lambetli Liza", "Xanım Kreddok", "Sehrbaz", "İnsan əsarətindən", "Ay və qara qəpik", "Eşenden, yaxud Britaniya agenti", "Şeytanın qurbanları", "Teatr", "Dövrə", "Boyalı duvaq", "Tüksüz meksikalı", "Sadiq arvad" kimi dünya şöhrətli əsərlərin müəllifidir.

1943-cü ildə nəşr olunan **"The Unconquered"** hekayəsi müəllifin yazdığı **"Creatures of Circumstances"** adlı hekayələr toplusuna daxildir. Hekayələr toplusu 1947-ci ildə nəşr olunmuşdur. [10] Əsərdə nəql olunan hadisələr Fransanın Almaniya tərəfindən işğalı dövründə baş verir. Zaman baxımında hadisələr müharibə dövrünə təsadüf etsə də, əsər ölkənin və xalqın faciəsindən çox iki gəncin faciəsini əks etdirir. Onlardan biri alman əsgəri Hans, digəri isə Annetdir. Hekayə olduqca ağır və dəhşətli səhnənin təsviri ilə başlayır. Sərxoş alman əsgəri Hans fermanın sahibinin qızı Annetə təcavüz edir. Əslində Annet ağılsızlıq etməsəydi bu hadisə baş verməzdi. İki alman əsgəri yolu azmışdılar. Onlar fermaya yalnız Suassona gedən yolu soruşmaq üçün daxil olurlar. Qapını onlara açan Annet yolu bilmədiyini söyləyir və əsgərlər içəri daxil olub qızın valideynlərindən yolu soruşurlar. Almanlar qalib gəlmişdi. Döyüşlər zamanı almanlar şəhəri, kəndlilərin fermalarını dağıtmış, inək, donuz və toyuqlarını çəkib aparmışdılar. Demək olar ki, hər şeylərini itirmiş fransızlar almanlara nifrət edirdilər. Annet və valideynlərinin onlara düşməncəsinə nifrətlə yanaşması Hansı qıcıqlandırır. Annet Hansı təhqir etməsəydi, üstəlik də oğlanın sözünə baxıb ona öpüş versəydi bu hadisə baş verməzdi. Annetin valideynləri faciənin qarşısını ala bilmədilər. Hans verdiyi zərər və içdikləri çaxır şüşəsi qarşılığında yüz iyirmi frank qoyub evi tərk edirlər. Üç ay sonra Hans yenidən Suassona gəlir. Annetə ipək corablar hədiyyə gətirib könlünü almağa çalışır. Növbəti gəlişlərində Hans aclıq çəkən ailəyə pendir, donuz əti, sardina gətirir. Alman əsgərlərinə yerlilərlə münasibət qurmaq və onlara yaxşı davranmaq tapşırılmışdı. Mister və madam Perye Hansın hədiyyələrini qəbul edir və ona vərdiş etməyə başlayırlar. Oğlanın niyyətinin ciddi olduğunu başa düşdükdə ailə qurmaqlarına belə razılıq verirlər. Hans fermaya sahib çıxmağa, öz pulu ilə traktor və kotan almağa söz verir. Əslində Annet Hansın zövqüncə deyildi, amma savadlı və mədəni olması, fransız şarmı yaxud Hansın da dərk etmədiyi hansısa bir qüvvə onu cəlb edirdi. Hans qızın hamilə olduğu xəbərini alanda Anneti sevdiyini başa düşür. Onu bu evə çəkən də məhz Annetə olan sevgisi idi. Annet isə Hansa nifrət edirdi, ona əzab vermək, yara vurmaq, dağ çəkmək istəyirdi. Hans xoşbəxt idi. Hans oğluyla bağlı xəyallar qurduğu zaman Annetin dəhşətli bir planı vardı. Annet Fransanın yenidən azad olacağına inanırdı. Vətənini əsarət altına alanlarla barışmaq istəmirdi. O yalnız Hansa deyil, ondan törəyən uşağa da nifrət edirdi. Hekayənin sonunda Annet oğlunu çayda boğur və bununla da Hansdan qisasını almış olur.

Əsər ingilis dilindən Azərbaycan dilinə iki fərqli mütərcim Z.Ağayev və A.Abbasov tərəfindən tərcümə olunmuşdur. Z.Ağayev tərcümə zamanı əsəri **"Qisas"**, A.Abbasov isə **"Yolagəlməz qadın"** adlandırmışdır.

Təqdim olunmuş məqalədə tərcümə zamanı hədəf mətnlərdə istifadə olunmuş frazeoloji birləşmələr təhlil edilir. Bədii mətndə rast gəlinən frazeoloji birləşmə, atalar sözü və məsəllər həmin dildə danışan xalqın mədəniyyəti, düşüncə tərzi, inancları, məişəti ilə sıx bağlıdır. Frazeoloji birləşmələr milli çalarlığı və obrazlılığı ilə seçilir, oxuculara xüsusi estetik zövq verir. Hər iki tərcümə mətnində çoxlu sayda frazeoloji birləşmələrə rast gəlirik. İstifadə olunan frazeoloji birləşmələr tərcümə dilinin daha zəngin, tərcümə mətninin daha maraqlı və oxunaqlı olmasına xidmət edir. Aşağıdakı verilmiş nümunələrdə orijinal mətndə sözlər tərcümə mətnində frazeoloji birləşmələrlə əvəz edilmiş, yaxud ingilis dilində frazeoloji birləşmələr Azərbaycan dilində ekvivalenti ilə kompensasiya olunmuşdur. İstifadə edilən bu üsul metaforik tərcümə adlanır.

1. Orijinal mətn: "I'll just **finish** the bottle of wine and then we'll go." [10, s. 231]

Tərcümə mətni: **Butulkanın başına daş salım,** sonra tərpənərik. (Z.Ağayevin tərcüməsində) [3, s. 470]

Qoy çaxır şüşəsinin axırına çıxım, gedərik. (A.Abbasovun tərcüməsində) [4, s. 7]

Verilmiş nümunədə məxəz mətndə olan "to finish" feili, hədəf mətnlərdə frazeoloji birləşmələrlə kompensasiya olunmuşdur. Tərcümə zamanı "to finish" feilini Z.Ağayev "başına daş salmaq", A.Abbasov isə "axırına çıxmaq" feili frazeoloji birləşmələr ilə əvəz etmişdir. Frazeoloji birləşmələrin ifadə etdiyi mənalara nəzər salaq: başına daş salmaq – 1. Nəyisə lazımsız yerə sərf etmək, pulu xərcləyib qurtarmaq; 2. Xarab etmək, korlamaq, sıradan çıxarmaq. Axırına çıxmaq – bir işi sonadək araşdırmaq, nöqtə qoymaq; 2. Hamısını istifadə etmək, qurtarmaq ~ süpürgə çəkmək; 3. Məhv etmək, yox etmək, öldürmək; ~ aradan götürmək, başını əkmək, başını yemək, kökünü kəsmək (qazımaq), nəslini kəsmək, kötüyünün üstündə od yandırmaq, külünü göyə sovurmaq, kökünə daş atmaq, işini bitirmək. [12]

2. Orijinal mətn: Even in Soissons there were only two doctors left, **old men both of them ...** [10, s. 243]

Tərcümə mətni: Suassonda iki **ahıl** həkim vardı... (Z.Ağayevin tərcüməsində) [3, s.482]

Suassonda vur-tut iki həkim vardı. **Onların da hayı gedib, vayı qalmışdı – çox qoca idilər.** (A.Abbasovun tərcüməsində) [4, s. 21]

Məxəz mətndə **"old men both of them"** şəxs haqqında əlavə məlumat vermək məqsədilə yazılmış əlavə cümlədir. Əlavə cümlə hər iki həkimin yaşlı olduğunu ifadə edir. Z.Ağayev konteksti tamamlamaq məqsədilə hədəf mətndə **"iki ahıl həkim"** birləşməsindən istifadə etmişdir. A.Abbasovun tərcümə mətnində işlətdiyi **"hayı gedib, vayı qalmaq"** feili frazeoloji birləşməsi cümlənin daha obrazlı olmasına xidmət edir. Frazeoloji birləşmə aşağıdakı mənaları ifadə edir: hay-hayı gedib, vay-vayı qalıb – xəstə, zəif, əldən düşmüş birisi və tamam sıradan çıxmış, yararsız, xarab olmuş, zayı çıxmış, köhnəlmiş bir şey haqqında işlədilən ifadə; ~ ələyi ələnib, xəlbiri göydə fırlanır [12].

3. Orijinal mətn: The day had been **sweltering** and he hadn't had a drink since noon. [10, s. 231]

Tərcümə mətni: **Bərk istiydi**, axırıncı dəfə isə günortaçağı dillərinə su dəymişdi. [3, s. 470] (Z.Ağayevin tərcüməsində)

Günəş bütün günü yerə od ələmişdi. Onlarsa axırıncı dəfə günorta içmişdilər. [4, s. 7] (A.Abbasovun tərcüməsində)

Məxəz mətndə rast gəldiyimiz **"sweltering"** sifəti "İngiliscə-Azərbaycanca lüğətdə" "bərk isti/bürkülü" şəklində dilimizə tərcümə olunmuşdur. [2, s. 1082] Z.Ağayev **"sweltering"** sözünü hədəf dilə hərfi tərcümə etmişdi. A.Abbasov cümləni daha obrazlı şəkildə, frazeoloji birləşmə vasitəsilə hədəf mətnə köçürmüşdür. "Göydən od yağmaq (ələnmək)" frazeoloji birləşməsi "dözülməz dərəcədə isti olmaq" mənasını ifadə edir [12]. Eyni cümlədə verilmiş "to have drink" frazeoloji feilini A.Abbasov "içmək", Z.Ağayev isə daha obrazlı şəkildə "dilinə su dəymək" frazeoloji birləşməsi vasitəsilə hədəf dilə tərcümə etmişdir.

4. Orijinal mətn: "C'est le premier pas qui coute. **There's nothing to cry about**, old woman. [10, s. 234]

Tətcümə mətni: **Gözünün qorasını az sıx**, qarı. (Z.Ağayevin tərcüməsində) [3, s. 473]

Ağlamaq nə lazım, qarı. (A.Abbasovun tərcüməsində) [4, s. 10]

Mənbə mətnindən seçilmiş nümunədə **"there's nothing to cry about"** (ağlamağın heç bir faydası yoxdur) birləşməsinə rast gəlirik. Göründüyü kimi, Z.Ağayev tərcümədə **"gözünün qorasını sıxmaq/tökmək/axıtmaq"** feili frazeoloji birləşməsindən istifadə etmişdir. Frazeoloji birləşmə "dayanmadan ağlamaq; ~ gözünün qorasını axıtmaq, gözünün zılığını axıtmaq, gözünü bir yumub beş açmaq" mənalarını ifadə edir. [12]

5. Orijinal mətn: He hadn't had a bad educauon himself, but he couldn't **hold a candle to her.** [10, s. 250]

Tərcümə mətni: Heç Hans özü də az oxumamışdı, ancaq Annetlə müqayisədə **qara qəpiyə də dəyməzdi.** (Z.Ağayevin tərcüməsində) [3, s. 488]

Hansın təhsili bir elə bəd deyil. Ancaq qızın **əlinə su tökməyə də yaramır**. (A.Abbasovun tərcüməsində) [4, s. 28]

Məxəz mətndə istifadə olunan **“to hold a candle to someone/something”** feili frazeoloji birləşməsi Azərbaycan dilinin eyni məna daşıyan frazeoloji birləşmələri ilə kompensasiya olunmuşdur. Sözü gedən frazeoloji vahidin hədəf mətnlərdə “qara qəpiyə dəymək” və “əlinə su tökməyə də yaramamaq” kimi frazeoloji analoqları verilmişdir. Lüğətdə frazeoloji birləşmələrin mənalarına nəzər salaq: **bir qəpiyə dəyməz** - heç bir qiyməti, dəyəri, əhəmiyyəti olmayan şey haqqında; **əlinə su tökməyə də yaramamaq (layiq olmamaq)** - başqa birisi ilə müqayisədə keyfiyyət və səviyyəcə aşağı olmaq. [12]

6. Orijinal mətn: “**You came here to ask your way** and now you know it,” said the girl. [10, s. 232]

Tərcümə mətni: **Yolu soruşmağa gəlmişdiniz**, cavab aldınız, - qız onun sözünü kəsdi. (Z.Ağayevin tərcüməsində) [3, s. 471]

Siz yolu soruşmağa gəlmişdiniz, yoxsa köhnə palan içi tökməyə?! Yolu sizə göstərdik, - dedi. (A.Abbasovun tərcüməsində) [4, s. 8]

Məxəz mətndə rast gəldiyimiz “**You came here to ask your way”** cümləsi hər iki hədəf mətndə hərfi tərcümə olunmuşdur. A.Abbasov əsərdə Annetin dilindən səslənən cümlənin emosionallığını artırmaq məqsədilə tərcüməyə **“köhnə palan içi tökmək”** frazeoloji feilini əlavə etmişdir. Frazeoloji vahidin lüğətdə verilmiş izahına nəzər salaq: köhnə palan içi tökmək/sökmək/eşmək - unudulmuş, yaddan çıxmış bir hadisəni, pis işi, nöqsanları xatırlamaq; ~ keçmişi qurdalamaq, köhnə küllükləri eşələmək. [12]

Tədqiqat zamanı hər iki mütərcimin peşəkarlığı, yazıçılıq qabiliyyəti və özünəməxsus dəsti-xəttinə şahid oluruq.

Ədəbiyyat

1. Azərbaycanca-ingiliscə lüğət. Bakı: Şərq-Qərb, 2005, 896 s.
2. İngiliscə-Azərbaycanca lüğət. Bakı: Şərq-Qərb, 2004, 1320 s.
3. İngilis ədəbiyyatı antalogiyası. – Bakı: Şərq-Qərb, 2009, 704 s.
4. Moem U.S. Yolagəlməz qadın. Bakı: Nurlan nəşriyyatı, 2004, 40 s.
5. Абдуразакова Ш.Р. Стратегии элиминации лакун // Specialized and multidisciplinary scientific researches, Volume 6, 2020, p. 55-58.
6. Байрамова Л.К. Лингвистические лакунарные единицы и лакуны // Вестник Челябинского государственного университета, № 25 (240), 2011, с. 22-27.
7. Ларина Т.В., Озюменко В.И. Лакуны и безэквивалентная лексика как фиксаторы специфики языка и культуры // Вестник РУДН, серия Русский и иностранные языки и методика их преподавания, № 4, 2013, с. 93-100.
8. Муравьев В.Л. Лексические лакуны. Владимир, «Издательство Владимирского Государственного педагогического института», 1975, 97 с.
9. Cambridge Learner’s Dictionary, 4th edition. USA, Cambridge University Press, 2012, 886 p.
10. Maugham W.S. Creatures of Circumstance, London: William Heinemann, 1917, 324 p.
11. Oxford Advanced Learner’s Dictionary, 7th edition. USA, Oxford University Press, 2005, 1780 p.
12. https://obastan.com/azerbaycan-dilinin-frazeologiya-lugeti/

РЕЗЮМЕ

ФРАЗЕОЛОГИЧЕСКИЕ СОЧЕТАНИЯ, ИСПОЛЬЗОВАННЫЕ ПРИ ПЕРЕВОДЕ ПРОИЗВЕДЕНИЯ У.С.МОЭМА «THE UNCONQUERED» НА АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

Акбарли Т.Т.

***Ключевые слова**: логический текст, целевой текст, перевод, фразеологические сочетания, метафорический перевод*

Рассказ «Непокоренная» написан известным английским писателем У.С.Моем. Он был переведен на Азербайджанский язык З.Агаевым и А.Аббасовым. Обоими переводчиками в тексте переводов было использовано большое количество фразеологических единиц. В данной статье даны примеры на таких единиц.

SUMMARY

PHRASEOLOGICAL COMBINATIONS USED IN THE TRANSLATION OF THE WORK OF W.S. MAUGHAM "THE UNCONQUERED" INTO AZERBAIJANI

Akbarli T.T.

***Keywords**: logical text, target text, translation, phraseological combinations, metaphorical translation*

The short story “Unconquered” is written by the outstanding English writer W.S.Maugham. The given story was translated from English into Azerbaijani by two different well-known translators Z.Aghayev and A.Abbasov. During the translation process both translators have used phraseological units in target texts. Examples of such set expressions are given in this article.

KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TƏLİM FƏALİYYƏTİNDƏ NƏZARƏT VƏ ÖZÜNƏNƏZARƏTİN FUNKSİYASI

Əliyeva Turə Əli qızı
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
tureeliyeva@mail.ru

Açar sözlər: *psixoloji proses, təlim fəaliyyəti, nəzarət, özünənəzarət, təlimin vəzifələri, motivasiya.*

Məktəblilərin təlim fəaliyyətində nəzarət və özünənəzarətin formalaşması və inkişafı üzrə aparılan elmi tədqiqatların əsasını sovet önəmində pedaqoq və psixoloqların şagirdlərin idrakı qabiliyyətlərinin tədqiqi sahəsindəki nailiyyətləri təşkil edir.

Nəzarət və özününəzarətin psixoloji mahiyyətinin, şagirdlərin təlim fəaliyyətində onların əhəmiyyətinin və yerinin öyrənilməsinə R.İ. Əliyevin [1], Ə.Ə. Əlizadənin [2], İ.T. Qavarkovanın [3], A.K. Markovanın [4], Q.A. Sobiyevanın [5] və başqalarının işləri mühüm töhfə vermişdir.

Mütəxəssislər, təlim prosesində nəzarət və özünənəzarətin funksiyasını fərqli cəhətlərdən nəzərdən keçirirlər. Onların bir qismi bu məfhuma geniş mənada - şəxsiyyətin ümumi əlaməti kimi baxırlar (Ə.Ə. Əlizadə, Q.A. Sobiyeva və b.), digərləri isə özünənəzarəti insanda idrak fəaliyyətinin aktı, düşüncə tərzi üçün xarakterik olan tənqidi əlamət hesab edirlər (T.İ. Qavarkova və b.); bəzi işlərdə isə özünənəzarət şagirdin təlim fəaliyyətinin komponentlərindən biri kimi, təlim fəaliyyətini və nəticəsini təhlil edən və tənzimləyən ayrılmaz hissə kimi qəbul edilir (R.İ. Əliyev, A.K. Markova və b.).

İndi bəzi tədqiqatçıların şagirdlərin təlim fəaliyyətində nəzarət və özünənəzarətin funksiyası və rolu barədəki ən mühüm fikirlərini nəzərdən keçirək.

Q.A. Sobiyevanın qeyd etdiyi kimi, geniş mənada özünənəzarət dedikdə insanın öz davranışlarına, fəaliyyətlərinə tənqidi yanaşması və öz hərəkətlərini tənzimləmək qabiliyyəti nəzərdə tutulur. O, təlim fəaliyyətində özünü yoxlamağı öz fəaliyyətinə nəzarət etmənin təzahürlərindən biri hesab edir. Q.A. Sobiyeva yazır: "Özünənəzarət təlim prosesində mühüm rol oynayır. Təlim fəaliyyətində özünüyoxlamaq təlim tapşırıqlarının dəqiq yerinə yetirilməsinə sövq edir, səhvləri aradan qaldırır, məzmunu daha yaxşı anlamağa kömək edir, şagirdlərə öz fikirlərini ifadə etməyi, araşdırılan obyektləri müqayisə etməyi, qiymətləndirməyi, düşüncənin müstəqilliyini göstərməyi öyrədir" [5, s.44]. Təlim fəaliyyətində nəzarət və özünənəzarətə böyük əhəmiyyət verərək, o qeyd edir ki, bu bacarıqların şagirdlərdə formalaşması uzun və mürəkkəb bir prosesdir və aparılan təcrübələr əsasında kiçikyaşlı şagirdlərdə nəzarət və özünənəzarətin xüsusiyyətləri ilə bağlı bir sıra maraqlı qənaətlərə gəlirik. Q.A. Sobiyeva ümumilikdə özünənəzarəti fərdin öz hərəkətlərinə tənqidi yanaşma qabiliyyəti kimi qiymətləndirir və özünü yoxlamanı şagirdin təlim fəaliyyətinin tərkib hissəsi hesab edir.

T.İ. Qavarkova məsələyə başqa cür yanaşır və belə hesab edir ki, özünənəzarət - idrak fəaliyyətinin əsas göstəricisidir. O qeyd edir ki, "məktəblilərin bilik, bacarıq və vərdişləri mənimsəməsi zamanı özünənəzarət fəallığının və şüurunun inkişaf etdirilməsinin vacib şərti kimi formalaşmalıdır, çünki, şagirdlər müstəqil səxsi fəaliyyətlərində öz hərəkətlərinin müəyyən və ya ümumiləşdirilmiş bir nümunə ilə müqayisəsi əsasında öz səhvlərinin və çatışmazlıqlarının tapılması, düzəldilməsi və qarşısının alınması qabiliyyətinə malik olurlar"[3, s.3].

Şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnməsində özünəzarətin böyük əhəmiyyətini vurğulayan T.İ. Qavarkova, məktəblərdə bu qabiliyyətlərin formalaşdırılması işinin zəif aparıldığını da vurğulayır. Tədqiqatının nəticələrinə əsaslanaraq yazır: "Məktəblilərdə müəyyənləşdirilmiş özünənəzarətin inkişaf səviyyəsi onların yaş xüsusiyyətlərinə uyğun gəlmir... Bu, məktəb tərəfindən şagirdlərdə özünənəzarət bacarıq və vərdişlərinin formalaşdırılması üzrə sistemli işin az qiymətləndirilməsi, onun icrası üçün qəti tələblərin olmaması və məktəblilərin təlim fəaliyyətində özünənəzarətin formalaşdırılması yollarının və şərtlərinin müəllimlər tərəfindən zəif bilinməsi ilə izah olunur"[30, s.27].

A.K. Markovanın şagirdlərin təlim fəaliyyətində özünənəzarətin və nəzarətin mahiyyəti və funksiyası ilə bağlı apardığı araşdırma diqqətəlayiqdir. Onun işlərində nəzarət və özünənəzarət təlim fəaliyyətinin tərkib hissəsi kimi, ayrılmaz komponenti kimi qəbul edilir. A.K. Markova qeyd edir ki, nəzarət və özünənəzarətin təşəkkülü şagirdin müstəqil düşüncəsinin formalaşmasında böyük əhəmiyyətə malikdir. O yazır: "Özünənəzarətin təşəkkülünün müstəsna vacibliyi, onun, uşağın bir fəaliyyət subyekti kimi formalaşması ilə əlaqəli olmasıdır" [4, s.101].

Təlim fəaliyyətində nəzarət və özünənəzarətin funksiyası və rolu barədə yuxarıda göstərilən bütün izahlar məqbuldur və səhv deyil. Nəzarət və özünənəzarət mürəkkəb, çoxşaxəli psixoloji hadisələrdir və hər

bir qeyd edilmiş tərif, bu bacarıqların müəyyən tərəf və xüsusiyyətini əks etdirən cəhətlərinə bir baxışdır, nöqteyi-nəzərdir.

Prof. Ş.T. Tağıyevin əsaslandırdığı kimi, özünənəzarət şagirdlərin sərbəst işi üçün böyük əhəmiyyət kəsb edir. O yazır: "Özünənəzarət, biliklərin müstəqil əldə edilməsində müəyyənedici amil olmaqla yanaşı, şagirdlərin digər fəaliyyətlərində də zəruridir. Özünənəzarətin sayəsində təlim fəaliyyəti məqsədyönlü olur" [6, s.23]. Özünənəzarət şagirdə öyrənilən materialın, onun məzmununun əsasını təşkil edən əşya və hadisələr arasındakı bütün mümkün əlaqələri və münasibətləri tapmaq və təlim prosesində istifadə etmək imkanı verir. Bu da öz növbəsində sərbəst iş üçün zəruri şərtlərdən biridir. Ş.T. Tağıyev qeyd edir: "Geniş mənada özünənəzarət priyomu məfhumu altında şagirdlərin elə meyarları seçmək qabiliyyəti başa düşülməlidir ki, onların koməyi ilə gələcəkdə müstəqil iş təşkil etmək və onun üzərində özünənəzarəti tədbiq etmək mümkün olsun" [6, s.25].

Şagirdlərdə özünənəzarətin səviyyəsinin əsasən ibtidai siniflərdə onlarla aparılan bu işin vəziyyətindən asılı olduğu barədə tədqiqatçıların fikirləri ilə razılaşaraq qeyd etmək istəyirik ki, məktəblərdə bu məsələyə kifayət qədər diqqət yetirilmir. Bunun səbəbini, yəqin ki, pedaqoji ədəbiyyatda bu bacarıqların formalaşdırılması yollarının və vasitələrinin hələ kifayət qədər işıqlandırılmamasında axtarmaq lazımdır. Şagirdlərin bacarıq və vərdişlərinin, onların təlimlərinin hərtərəfli inkişafının əsas amili kimi, kiçikyaşlı məktəblilərin təlim fəaliyyəti, məhs bu yaş dövründə, onlarda nəzarət və özünənəzarətin formalaşması məsələsini xüsusi tədqiq etməyi tələb edir.

Biz nəzarət və özünənəzarəti şəxsin psixi xüsusiyyətlərindən biri, təlim prosesində inkişaf edən və xüsusi formalaşma prosesi tələb edən bir bacarıq kimi qəbul edən tədqiqatçıların fikri ilə də razıyıq. Xüsusi pedaqoji iş olmadan şagirdlərdə bu bacarıq inkişaf etməyəcəkdir. Görkəmli azərbaycanlı-psixoloq, prof. Ə.Ə. Əlizadə göstərir ki, "bacarıq, fəaliyyətin şüurlu məqsədə yönəldildiyi yerdə – müəyyən bilik, bacarıq və vərdişlərin mənimsənildiyi, davranış formalarına və fəaliyyət növlərinə yiyələnildiyi zaman mümkündür" [2, s.177].

Özünənəzarətin mahiyyətini praktik olaraq nəzarətin mahiyyətinin açıqlanması müəyyənləşdirdiyindən əvvəlcə nəzarətin funksiyası üzərində dayanaq.

Nəzarət məktəblinin təlim fəaliyyətində reallaşan elə bir prosesdir ki, o, konkret etalona, standarta uyğun olaraq şagirdin təlim fəaliyyətini idarə edə bilsin. Nəzarət əsasında fəaliyyətin gedişatının və onun nəticəsinin müəyyən edilmiş qaydaya (standarta) uyğun olub-olmadığı müəyyənləşdirilir. Əgər uyğunluq varsa, nəzarət funksiyası bitmiş hesab edilir və alınan məlumatlar əsasında nəticənin standartla müqayisədə nə qədər tam, natamam və ya daha yaxşı olduğu qiymətləndirilir.

Standarta uyğunluğun pozulduğu halda, nəzarətin funksiyası mürəkkəbləşir: uyğunsuzluğa, fərqli bir nəticəyə səbəb olan pozuntunun harada, hansı mərhələdə baş verdiyini, pozuntunun nədən ibarət olduğunu müəyyən etmək lazımdır. Təlim fəaliyyətinin bu cür çevikliyindən sonra, onu iki istiqamətdə davam etdirmək olar: nəticəni qiymətləndirmək və yaxud bir plan tərtib edərək onun əsasında istənilən nəticəyə nail olmaq üçün müəyyən edilmiş səhvləri və çatışmazlıqları düzəltmək.

Nəzarət funksiyası iki prinsipial fərqli yollarla reallaşa bilər: birinci halda, nəzarət təlim fəaliyyəti başa çatdıqdan sonra hərəkətə keçir, yəni artıq nəzarət başa çatmış prosesə və nəticəyə tabe olur; ikinci halda, nəzarət funksiyası fəaliyyətin gedişatından əvvəl baş verir və belə halda, nəzarət mümkün ola bilən səhvlərdən qurtulmağa və etalona uyğun hərəkət etməyə köməklik edə bilir. Təbii ki, bu halda şagirdin təlim fəaliyyəti daha mükəmməl olacaq və bu və ya digər təlim əməliyyatlarının reallaşdırılması daha uğurla həyata keçiriləcəkdir. Elə buradaca qeyd etmək lazımdır ki, təlim fəaliyyətinə nəzarətin qabaqcadan edilməsi təlim fəaliyyətini daha da çətinləşdirir, zehni gərginlik, ehtiyatlılıq, standarta (plana, qaydaya, gözlənilən nəticəyə) adət edilməyən diqqət tələb edir və ümumiyyətlə, təlim fəaliyyəti istiqamətini yüksək səviyyədə obyektivləşdirir.

Təlim prosesinin ən vacib vəzifələrindən biri şagirdin təlim fəaliyyətinə ilkin nəzarətin bu prosesə daxil edilməsi olmalıdır. İcra edilən təlim əməliyyatlarını qabaqlayan nəzarət fəaliyyəti, bu və ya digər mərhələdə fəaliyyətin sonunda gözlənilən nəticəni də aydınlaşdırır və konkretləşdirir, şagirdin irəliləməsinə, anlaşılmazlıqlardan, səhvlərdən və sapmalardan qurtulmalarına da köməklik edir. Əlbətdə ki, zərurət yarandıqda qabaqcadan olan nəzarət əməliyyatın sonrakı mərhələlərinə nəzarəti də əvəz etməli və harada, bu və ya digər fəaliyyətin düzgün yerinə yetirildiyini tamamilə təsdiqləməlidir, fəaliyyətin və ya nəticənin standarta uyğunluğunu yenidən yoxlamalıdır. Təcrübə göstərdi ki, bir şagirdin rasional şəkildə təşkil olunmuş təlim fəaliyyəti prosesində, fəaliyyətdən əvvəlki nəzarət və fəaliyyətdən sonrakı nəzarət bir-biri ilə sıx əlaqəli əməliyyatlar şəklində təqdim oluna bilir və burada əvvəlki nəzarət aparıcı rol oynayır.

Nəzarət ilə özünənəzarət arasındakı fərq odur ki, kiminsə fəaliyyəti və ya fəaliyyətinin nəticəsi nəzarətə məruz qalır. Əgər başqasının fəaliyyətinə və ya nəticəsinə onun etalona uyğun olub-olmamasına

görə baxılırsa, bu nəzarət olacaqdır, lakin öz fəaliyyətinə və ya fəaliyyətin nəticəsinə etalona uyğun olub-olmamasına görə baxılırsa, o zaman bu, özünənəzarətdir.

Beləliklə, nəzarətin vəzifəsi müəyyən bir motivasiya (kömək, təcrübə mübadiləsi, həvəsləndirmə, qınaq və s.) əsasında etalona nisbətən başqasının fəaliyyətini və ya fəaliyyətin nəticəsini aydınlaşdırmaq, özünənəzarətin vəzifəsi isə həmçinin müəyyən bir motivasiya (səhvlərdən qurtulmaq, tapşırığın keyfiyyətli icrası və s.) əsasında öz fəaliyyətinin və ya onun nəticəsinin etalona uygun olub-olmamasını müəyyənləşdirməkdir.

Biz nəzarəti və özünənəzarəti diqqəti mərkəzləşdirməyə əsaslanan mürəkkəb psixoloji proseslər kimi qəbul edirik. Diqqəti mərkəzləşdirmə, R.İ. Əliyevin müəyyən etdiyi kimi, "subyekti nəinki ani impulslardan azad edir, hətta davranışlarına nəzarət etməklə yanaşı, tətbiqetmə sərhədlərini genişləndirmək üçün bir fürsət yaradır"[1, s.567]. "Subyektin ani impulslardan azad olması" isə, fikrimizcə, özünənəzarətin təzahürünün mahiyyətini özündə cəmləşdirir. Bunun əsasında subyektdə onu az və ya çox dərəcədə mümkün olan səhvlərdən qoruyan müəyyən etalonlar yaranır.

Tənzimləmə fəaliyyətinin gecikməsi ilə yaranan diqqətin mərkəzləşdirilməsi nəticəsində subyekt ayrı-ayrı əməliyyatların və onların nəticələrinin etalona uyğun təhlilini apara bilir. Obyektə qarşı səmərəli təşkil edilmiş subyektin mərkəzləşdirilmiş diqqəti mürəkkəb fəaliyyətlərin planlaşdırılması üçün ilkin şərt kimi, hadisələrin gedişatının qabaqcadan təhlili impulsu kimi meydana çıxır. Bunun əsasında subyektdə onu az və ya çox dərəcədə mümkün olan səhvlərdən qoruyan müəyyən etalonlar yaranır.

Ədəbiyyat

1. Əliyev, R.İ. Şəxsiyyət psixologiyası / R.İ.Əliyev, G.B.Əliyeva – Bakı: ADPU-nun nəşriyyatı, 2014. – 144 s.
2. Əlizadə, Ə.Ə. Pedaqoji psixologiya (II kitab). Dərslik. / Ə.Ə.Əlizadə, H.Ə.Əlizadə – Bakı: ADPU, 2010. – 685 s.
3. Гаваркова Т.И. Формирование самоконтроля у учащихся 5-8 классов в учебной деятельности: Автореф. Дисс… канд.пед.наук. – Киев. 2014, 22 с.
4. Маркова А.К. Сравнительная характеристика самоконтроля и взаимоконтроля в учебной деятельности. – М.: Педагогика, 2016, с.92-100.
5. Собиева Г.А. Формирование навыков самоконтроля у учащихся на уроках русского языка. – Вопросы психологии, 2012, № 2, с.42-56.
6. Tağıyev Ş.T. Natural ədədlərin toplanması və çıxılması zamanı şagirdlərin özünənəzarəti. / İbtidai məktəb və məktəbəqədər tərbiyə» jurnalı, №3, – Bakı, 1981, c.23-27.

РЕЗЮМЕ

ФУНКЦИЯ КОНТРОЛЯ И САМОКОНТРОЛЯ В УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ МЛАДШИХ ШКОЛЬНИКОВ

Алиева Т.А.

Ключевые слова: *психологический процесс, учебная деятельность, контроль, самоконтроль, задачи обучения, мотивация.*

В результате исследования установлено, что контроль и самоконтроль представляют собой сложный психологический процесс, основанный на концентрации внимания. Концентрация внимания не только освобождает субъекта от сиюминутных импульсов, но создает возможность расширить границы применения, контролируя его поведение. А освобождение субъекта от сиюминутных импульсов составляет суть проявления самоконтроля.

Опыт показал, что в процессе рационально организованной учебной деятельности ученика преддеятельный контроль и последеятельный контроль могут быть представлены в виде тесно связанных операций, и здесь предыдущий контроль играет ведущую роль.

SUMMARY

THE FUNCTION OF CONTROL AND SELF-CONTROL IN THE EDUCATIONAL ACTIVITIES OF YOUNGER STUDENTS

AliyevaT.A.

Key words: *psychological process, learning activity, control, self-control, learning tasks, motivation.*

As a result of the study, it was found that control and self-control are a complex psychological process based on concentration of attention. The concentration of attention not only frees the subject from momentary impulses, but creates the opportunity to expand the boundaries of application by controlling his behavior. And the release of the subject from momentary impulses is the essence of the manifestation of self-control.

Experience has shown that in the process of a student's rationally organized educational activity, pre-active control and post-active control can be represented as closely related operations, and here previous control plays a leading role.

AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MÜƏLLİM ŞƏXSİYYƏTİ HAQQINDAKI DƏYƏRLİ FİKİRLƏRİNİN PSİXOLOJİ ASPEKTLƏRİ

Əliyeva Validə Rəcəb qızı
Azərbaycan Dövlət İqtisad Universiteti, UNEC, Bakı, Azərbaycan, dosent
Valid.aliyeva61@mail.ru

Açar sözlər: *lider, vətən, təhsil, şəxsiyyət, psixoloji, gənclər, müəllimlik peşəsi, fəaliyyət, qüdrətli dövlət, milli ruh, siyasət*

Azərbaycan təhsilinin mühüm inkişaf mərhələləri ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin təhsil sahəsinə, müəllim şəxsiyyətinə diqqət və qayğısı əvəzsiz olub, o təhsilə həmişə prioritet sahə kimi baxırdı. "Təhsil millətin gələcəyidir" deyən Ulu Öndər bu sahənin, müəllim – tələbə fəaliyyətinin cəmiyyətdə yüksəldilməsinə xüsusi diqqət göstərib. Ulu öndərin fəaliyyəti illərində Azərbaycanın təhsil sistemi təkmilləşdirilib və təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası üçün geniş imkanlar yaradılıb. Müəllimlik peşəsini, müəllim əməyini həmişə yüksək qiymətləndirən müdrik rəhbər Heydər Əliyev deyirdi: "...Bizim müstəqil respublikamızda, Azərbaycan cəmiyyətində müəllim bu gün də, gələcəkdə də ən hörmətli insan kimi qəbul edilməlidir və müəllimlik peşəsi ən yüksək qiymətə layiq olan peşədir".

Ona görə də, müasir cəmiyyətimiz müəllimlik peşəsinə müxtəlif tələblər qoyur, müəllimdən çox şey umur ki, bu tələbləri psixoloji aspektdə belə ümumiləşdirmək olar :

a) müəllim geniş məntiqi təfəkkürə malik olmalıdır b) düzgün mühakimə yürütməyi bacarmalıdır, psixologiyanı, pedaqogikanı, yaş fiziologiyasını, ictimai-fəlsəfi fikri yaxşı bilməlidir və onları bir - biri ilə üzvi şəkildə əlaqələndirməyi psixoloji istiqamətdə bir şəxsiyyət kimi bacarmalıdır. Yəni, müəllim gənc mütəxəssislərin şəxsiyyət kimi formalaşdırır, dünyagörüşünün təşəkkül etməsinə və inkişafına şərait yaradır, onlarda vətənin, xalqın, millətin səadəti uğrunda (44 günlük müharibədə olduğu kimi) mübarizə aparmaq əzmi yaradaraq vətənpərvər insanlar yetişdirir.

Şübhəsiz ki, Azərbaycan gənclərinin xoşbəxtliyi həm də ondadır ki, onlar müstəqillik dövründə yaşayırlar, yəni, müstəqil, güclü, qüdrətli Azərbaycan Respublikasının vətəndaşlarıdırlar. Bu gün Azərbaycanı dünya miqyasında fərqləndirən səciyyəvi xüsusiyyətlərdən biri müstəqil siyasət həyata keçirməsi və inkişaf yolunda əmin addımlarla irəliləməsidir.

Xüsusi vurğulamaq gərəkdir ki, Azərbaycan dövləti gənclərin milli ruhda tərbiyə almalarına xüsusi diqqət yetirir və həyata keçirilən məqsədyönlü tədbirlər məhz bu amala xidmət edir. Bu baxımdan, 44 günlük Vətən müharibəsində gənclərin rolu həlledici oldu. Bu da Ulu Öndərin gənc nəsli Azərbaycanın uğurlu sabahı naminə səfərbər edən siyasətinin, Prezident İlham Əliyevin gənc nəslə qayğısının nəticəsi idi. Vətən müharibəsində iştirak etmiş hər bir igid gəncinə Azərbaycan xalqı minnətdardır. Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir.

Beləliklə, tarixi missiyanı həyata keçirən bizim qəhrəman gənclərimiz tarix qarşısında, xalq qarşısında, Vətən qarşında misilsiz xidmətlər göstərdilər. Rəşadətli Azərbaycan Ordusunun sıralarındakı Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Onların rəşadəti sayəsində əldə olunan şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu.

Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etdilər. Azərbaycan gəncliyi bundan sonra da müstəqil dövlətimizin inkişafında və güclənməsində öz sözünü deyəcək.Bizim müəllimlərimiz sözün əsl mənasında insan qəlbinin mühəndisi rolunu ifa edirlər!

Müəllim verilən ictimai fikirləri təhlil edir, ümumiləşdirir və onların qeyri-obyektiv, düzgün olmayanlarını yeniləri ilə əvəz edir, demək müəllim tələbənin informasiya mübadiləsi prosesini idarə edir, düzgün istiqamətləndirir.

XXI əsrin təhsil konsepsiyasında bu məsələlər önəmli psixo - pedaqoji problem kimi vurğulanır, araşdırılır və təfəkkürün inkişafını təlimin ana xətti kimi dəyərləndirən koqnitiv psixologiyanın uğurlarına inanılır. Müəllimlik peşəasinə sahib olan insanların şəxsiyyəti, fərdi-psixoloji xassələri əhəmiyyəti haqqında nə qədər təntənəli fikirlər söylənilmişdir. Bu sözlərin hamısı inkar edilməz pedaqoji həqiqətlərə söykənir.

Prezident İlham Əliyevin 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" Sərəncamdan irəli gələrək gənclərin inkişafı istiqamətində çoxsaylı tədbirlər həyata keçirilib və mühüm nəticələr əldə olunub. Bununla yanaşı, Prezident İlham Əliyevin sərəncamları ilə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı", "Azərbaycan

gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi müasir Azərbaycan gəncliyinin dövrün tələbləri səviyyəsində hərtərəfli inkişafına möhkəm zəmin yaradıb. Digər tərəfdən, dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncamlar əsasında reallaşan "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın, habelə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın nəticəsində 5000-dən artıq Azərbaycan gənci dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa müvəffəq olmuşlar.

Dövlətin dəstəyi sayəsində gənclərin dünyanın 32 ölkəsinin 350-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində təhsil almaları məqsədilə ümumilikdə 3558 təqaüd verilib və bu məqsədlər üçün 200 milyon manat vəsait xərclənib. Prezident İlham Əliyev 2022-ci il 28 fevral tarixli Sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın icrası müddətində isə hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000 nəfərədək Azərbaycan vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrində təhsil alması təmin ediləcək.

Nəticə. Müdrik siyasi və dövlət xadimi Heydər Əliyevin parlaq ideyaları bu gün Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Heydər Əliyev Fondunun dəstəyi ilə reallaşdırılmış "Yeni Azərbaycana - yeni məktəblər" layihəsi çərçivəsində son illərdə ölkəmizdə xeyli sayda müasir məktəb binası tikilib, istifadəyə verilib, təhsil sahəsində informasiya–kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülüb və görülməkdədir.Prezidentliyinin ilk vaxtlarından qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində Azərbaycana sanballı nəticələr qazandıran Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin son fəaliyyəti xüsusilə uğurlu olub. O, təhsil sistemi qarşısında duran əsas vəzifələri müəyyənləşdirərək azərbaycançılıq ideologiyasının təbliği, Azərbaycan dilinə, iqtisadiyyatına, tarixinə, mədəniyyətinə məhəbbət hissinin, milli-mənəvi dəyərlərə hörmət hissinin yüksək psixoloji ustalıqla aşılanmasını, vətənə sədaqət, vətənpərvərlik tərbiyəsi məsələlərini ön plana çəkibdir. Bütün bunlar hər bir məsuliyyətli azərbaycanlı, o cümlədən respublikamızın təhsil ictimaiyyəti qarşısında yeni – yeni vəzifələr qoyur.

Ədəbiyyat

1. https://azertag.az/xeber/Azerbaycan_tehsilinin_inkisafi_ulu_onder_Heyder_Aliyevin_adi_ve__fealiyyeti_ile_ba glidir-857019
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri . Bakı, 2004.
3. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı, 2001.
4. https://azertag.az/xeber/Gencler_siyaseti_Azerbaycanda_heyata_kechirilen_dovlet_siyasetinin__muhum_terkib_hissesi-2471153
5. Cavadov R., Cavadova R. Psixologiya. 2020

РЕЗЮМЕ

ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ИДЕЙ О ЛИЧНОСТИ УЧИТЕЛЯ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОГО ОБРАЗОВАНИЯ

Алиева В.Р.

Ключевые слова: *лидер, Родина, воспитание, личность, психология, молодежь, педагогическая профессия, деятельность, могучее государство, национальный дух, политика.*

Сегодня, помимо образования, в Азербайджане очень быстро развиваются экономика, наука, культура и другие сферы. Азербайджан является одной из ведущих стран мира по уровню своего развития. Все эти достижения являются результатом политики общенационального лидера и влиятельной личности Гейдара Алиева. Целью этих важных документов, охватывающих все вопросы, касающиеся молодежи, является достижение более эффективной реализации молодежной политики в Азербайджане, создание условий для активного участия молодежи во всех сферах жизни общества, поддержка их творческого и инновационного потенциала, охрана здоровья подрастающего поколения, акцентирование внимания на вопросах образования и трудоустройства молодежи, повышение, эффективное использование современных информационных и коммуникационных технологий, развитие волонтерского движения в стране.

SUMMARY
PSYCHOLOGICAL ASPECTS OF THE IDEAS ABOUT THE PERSONALITY OF THE TEACHER OF THE GREAT LEADER HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF AZERBAIJANI EDUCATION
Aliyeva V.R.

Key words: *leader, motherland, education, personality, psychological, youth, teaching profession, activity, powerful state, national spirit, politics.*

Today, in addition to education, economy, science, culture and other fields are developing very rapidly in Azerbaijan. Azerbaijan is one of the leading countries in the world in terms of its development. All these achievements are the result of the policy of Heydar Aliyev, the national leader and powerful personality. The purpose of these important documents, which cover all issues related to youth, is to achieve a more effective implementation of youth policy in Azerbaijan, to create conditions for the active participation of young people in all spheres of society, to support the discovery of their creative and innovative potential, to protect the health of the young generation, to focus on the issues of education and employment of young people. to increase, to effectively use modern information and communication technologies, to develop the volunteering movement in the country.

İNGİLİS VƏ FRANSIZ DİLLƏRİNDƏ DETERMİNATİVLƏRİN NÖVLƏRİ VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ MÖVCUD ANALOQU

Əliyeva Şəlalə
Azərbaycan Dillər Univeristeti, Bakı, Aəzrbaycan, dosent
Shalalahaliyevah@gmail.com

Açar sözlər: *determinativ, semantika, nitq hissələri, təyinedici, əvəzliklər, sifətlər, kəmiyyət bildirən sözlər*

Determinasiya ismin mürəkkəb və özünəməxsus qrammatik kateqoriyası olub, onun hər hansı bir sinfindən obyekt və ya obyektlər qrupunun seçilməsinə/fərqlənməsinə kömək edir. Determinativlərin qruplaşdırılması barədə ingilis, rus və Azərbaycan alimlərinin bir-birindən fərqli fikirləri mövcuddur.

B.Arts, S.Çolker və E.Vaynerin müəllifi olduğu "The Oxford Dictionary of English Grammar" kitabında qeyd olunur ki, determinativlərin məna baxımından bir sıra qruplara bölünərək təsnifatı aparıla bilər: demonstrative (işarə) - *this, that; degree* (dərəcə) - *few, little;* ekzistensial - *any, some*; free relative (nisbi) - *which, whatever* və interrogative (sual) - *which, what [2]*.

Determinativlər, adətən, 2 şəkildə təsnif olunur: bir model bütün determinativləri və sayları ayrıca "kvantifikator" adlı qrupda qruplaşdırsa da, digər bir model determinativləri general (ümumi) və specific (xüsusi) olaraq 2 qrupa bölür.

D.Fribourn determinativlər qrupuna daxil olan sözləri "*the*" müəyyənlik artiklı və *"a/an"* qeyri-müəyyənlik artiklından başqa 6 qrupda bölmüşdür:

1. Possessives (əvəzliklər): *my, your, his, her, its, our, their*
2. Relatives (təyini): *whose, which*
3. İnterrogative (sual): *what, which, whose*
4. Negative (inkar): *no*
5. Quantitative (kəmiyyət): *some, any, enough, every, each, either, neither*
6. Demonstrative (işarə): *this, that, these, those*

C.K.Pullum və R.Hadlstoun determinativlərin ismi birləşmələrin quruluşunda rast gəlindiyini və həmin birləşmələrin müəyyən və ya qeyri-müəyyən olmasını müəyyənləşdirmək rolu daşıdığını qeyd etmişlər. Bəzi tək isimlərlə bu və ya digər bir determinativin işlənməsinin vacibliyini qeyd etmişlər. Misal üçün: "*The cat was purring" və "I bought a car*" cümlələrində "the" və "a" determinativlərinin işlənməsinin məcburi olduğu qeyd edilir.

"Jane's dog" və ya "the dog's owner" tipli birləşmələrdə ismin yiyəlik hal göstəricisi olan "***'s***" -in determinativ kimi işlənə bildiyini də qeyd edirlər.

C.K.Pullum və R.Hadlstoun determinativləri müəyyən və qeyri-müəyyənliyi ifadə etmə xüsusiyyətlərinə görə bölmüşlər [6, s. 328]:

Definite (müəyyən): *the; this, that; all, both; which, whichever, what, whatever*

Indefınıte (qeyri-müəyyən): *a; each, every; some, any; either, neither; no; another; a few, a little, several; many, much, more, most, few, fewer, little, less; enough, sufficient; which, whichever, what, whatever; one, two, three, four, five* və s.

C.Liç və Y.Svartvik determinativlərin, ismi müəyyən və ya qeyri-müəyyən formada olduğunu və ya ismin kəmiyyətini göstərərək müəyyənləşdirən sözlər olduğunu qeyd etmişlər [4, s. 196]. Müəlliflər determinativlərin qrammatik rolunun daha anlaşıqlı olması üçün hansı determinativlərin hansı isimlərlə birgə

işlənməsini nəzərdən keçirməyin vacibliyini vurğulamışlar. Onlar determinativlərlə işlənə biləcək isimlərin 3 qrupunu müəyyənləşdirmişlər:

1) tək halda olan sayılan isimlər;
2) cəm halda olan sayılan isimlər;
3) sayıla bilməyən isimlər.

Hər iki alim xüsusi isimlərin determinativ qəbul etmədiyi faktını qeyd etmişlər. C.Liç və Y.Svartvik daha bir bölgüyə imza ataraq, işlənmə yerinə görə, determinativlər 3 qrupa bölünmüşdür:

1) ön determinativlər (pre-positive determiners);
2) orta (mərkəz) determinativlər (central determiners);
3) son determinativlər (post-positive determiners).

Digər dilçi L.C.Aleksandr qeyd etmişdir ki, "isimlərin qarşısında işlənən bir sıra sözlər deter-minativ adlanır, çünki bu sözlər ismin mənasına təsir göstərir. Determinativlər işləndikləri zaman, nədən bəhs olunduğunu və bəhs olunanın miqdarını aydınlaşdırır. Tək halda olan sayılan isimlər mütləq özündən əvvəl determinativ işlənməsini tələb edir". Təsnifata gəldikdə isə, L.C.Aleksandr determinativlərin təsnifatını 2 qrupda vermişdir.

1. Təsnifedici və ya müəyyənləşdirici determinativlər. L.C.Aleksandr bu qrupa müəyyənlik və qeyri-müəyyənlik artikllarını (a/an); işarə əvəzliklərini (this/that); yiyəlik əvəzliklərini (my, your, his və b.) daxil etmişdir [1, s. 93, 230, 241]. Məsələn,

*He got **a** letter from his sister this morning.*
***The** interview lasted half an hour.*
***This / that** novel was written by a young writer.*
*Few people know **her** knew address.*

2. Miqdar (kəmiyyət) müəyyənləşdirici determinativlər. Bu qrupa, saylar və kvantifikatorlar (many, much və b.) daxil edilir. Məsələn,

***Three** men arrived at the hotel after four o'clock.*
*As it had rained all day, there were not **many** people in the streets.*
*Anna didn't have **much** difficulty in finding the ring she wanted.*

A.J.Tompson və A.V.Martinet determinativləri artikl, işarə əvəzlikləri, yiyəlik əvəzlikləri və bir neçə qeyri-müəyyənlik əvəzlikləri adı altında qeyd etmişlər.

M.Svon isə determinativlərin təsnifatını iki qrupda vermişdir:

Qrup A. Bu qrupa daxil olan determinativlərə artikllar *(a/an, the)*; yiyəlik əvəzlikləri; işarə əvəzlikləri daxildir. Bu qrupa daxil olan iki determinativin birlikdə işlənməsinin mümkün olmadığı qeyd olunmuşdur. Həmçinin, yiyəlik hal göstəricisi olan "***'s***" - in determinativ kimi işlənə bildiyi də göstərilmişdir.

Qrup B. M.Svon bu qrupa daxil olan determinativlərə *"some, any, no"; "each, every, either, neither"; "much, many, more, most"; "(a) little, (a)few, less, fewer, least, fewest"; "all, both, half"; "what, whatever, which, whichever"; "enough, several"* daxil etmişdir.

Fransız dili də öz determinativ sistemi ilə zəngin və məşhur dillərdən biridir. Fransız dilçiləri determinativləri cümlədə ismi müşaiyət edən köməkçi sözlər adlandırır və onların obyektə xas ümumi əlamətləri əks etdirdiyini göstərir.

Fransız dilinin müasir qrammatikasında determinativlər dedikdə aşağıdakı nitq hissələri nəzərdə tutulur:

1. Artikl (müəyyən və qeyri-müəyyən) (L'article indéfini at l'article défini).
2. İşarə determinativləri (Le déterminant démonstratif).
3. Yiyəlik determinativləri (Le déterminant possessif)
4. Kəmiyyət determinativləri Le déterminant numéral).
5. Sual determinativləri Le déterminant interrogatif).
6. Təyini determinativlər (Le déterminant relatif).
7. Qeyri-müəyyən determinativlər (Le déterminant indéfini).

R.Vaqnerin fikrincə determinativlər semantik, morfoloji və sintaktik əlamətlərə görə fərqli nitq hissələrinə ayrılır. Bu baxımdan fransız dilində determinativlər üç funksiya daşıyır [8, s. 68]:

1. Sintaktik.
2. Morfoloji.
3. Semantik.

Sintaktik funksiya cümlədə adlıq birləşmənin formalaşmasını reallaşdırır. Başqa sözlə desək, determinativsiz isimlər öz sintaktik funksiyasını daşıya bilmir. Məsələn,

Le garçon lit un livre.

Garçon lit livre forması mümükün deyildir, çünki determinativlər cümlədə ismin aktualizatoru kimi çıxış edir.).

2. Morfoloji funksiya ismin kateqoriyalarını (cins və kəmiyyət) dəqiqləşdirməyə xidmət edir. Məsələn,

un livre və *une livre (kitab/bir kitab);*

ce livre və *ces livres (bu kitab və bu kitablar).*

3. Semantik funksiya özündə müəyyənlik/qeyri-müəyyənlik qrammatik kateqoriyalarının ifadə edilməsinə xidmət edir. Qeyd edək ki, müasir fransız dilində bu kateqoriyanı "ən təmiz" şəkildə ifadə edən vacib nitq hissəsi artikldır. Digər determinativlər isə əlavə məna və ya çalar verir.

Beləliklə semantik-qrammatik cəhətdən, fransız dilindəki determinativlər 5 qrupa ayrılır:

1. Artikllar: *le, la, les, un, des, du.*
2. Yiyəlik və ya pozessivlər: *mon, ton, son və* s.
3. İşarə və ya demonstrativlər: *ce, cette, ces.*
4. Sual: *quel, quells.*
5. Qeyri-müəyyən. Bu qrupa maksimal olaraq 13 söz daxildir: *aucun, divers, différents, même, tel, autre, maint, tout, chaque, plusieurs, nul, certains, quelque(s)* və iki tərkibi vahidlər: n'importe quel и je ne sais quel.

Müəlliflərin fikrincə, determinativlərin özəyini ilk dörd qrup təşkil edir. Sonuncu qrup – qeyri-müəyyən determinativlər isə nitq hissəslərinin periferiyasında yer alır; onlar ya sözlərin mənasını dəqiqləşdirir (*certains, divers, plusieurs = des; quelque = un, du; tous les = les), ya da xüsusi məna (une espèce de, une sorte de (= un) ; un certain nombre, un tas de)* kəsb edirlər.

C.Qross (J. Gross) [5] və M.Silberştayn (M.Silberztein) [7, s. 221-246] fransız determinativ-lərinin iki hissədə təsvirini vermişlər: kompleks determinativlər və determinativlər kombinasiyası.

Fransız dilində determinativlərin daha bir təsnifatı J.Qalişeyə (*Galichet G.) aiddir*. Onun nəzər-nöqtəsi aşağıdakı kimi əks olunmuşdur [3, s. 72]:

1. Determinativlər sifətləri özündə birləşdirir. Ənənəvi qrammatikada onlar *adjectifs pronominaux və ya déterminatifs* (в последнем случае к ним присоединяются и числительные) qrupuna aid edilir.
2. Determinativlər əvəzlikləri özündə birləşdirir.
3. Determinativlər ayrı nitq hissəsi təşkil edir və artiklla birləşmirlər.
4. Determinativlər artiklla birləşərək eyni nitq hissəsi təşkil edir.
5. Artikllar, determinativlər (qeyri-müəyyəndən başqa) və əvəzliklər üst kateqoriya olan sub-stitut-əvəzləyicilər qrupunda birləşir.

Azərbaycan dili üçün determinativ anlayışı nisbətən yenidir desək, səhv etmərik. Determina- tivlərə özünün "Azərbaycan dilinin tarixi" kitabında geniş yer verən dilçi alim Q.Kazımovdur. O, əsərində determinativlərin növləri məsələsinə toxunmasa da, determinativlərin analoqu rolunda bəzi nitq hissələrinin qeyd edir.

Beləliklə, araşdırılan hər iki dili determinativlər baxımdan "zəngin" dil hesab etmək olar. Bunu determinatvlərin müxtəlif növ bölgüsündə və eləcə də mütəxəssislər tərəfindən təsnifatında da görmək mümkündür.

Ədəbiyyat

1. Alexander L.G., Close R.A. Longman English Grammar. Longman. 2010. 304 p
2. Arts B, Chalker S., Weiner E. "The Oxford Dictionary of English Grammar". Oxford University press. 1998. 464 p.
3. Galichet G. Grammaire structurale du français moderne. P., 1970. 296 p.
4. Geoffrey N. Leech, Geoffrey Leech, Jan Svartvik. A Communicative Grammar of English Longman, 2002. 440 pages
5. Gross, M. Grammaire transformationelle du français. Vol. 2, Syntaxe du nom. Paris: Cantilène. 1986.
6. Huddleston R., Geoffrey K.Pullum, Reynolds B. A Student's Introduction to English Grammar, revised 2nd edition. Cambridge, UK: Cambridge University Press. 2022. 400 p.
7. Silberztein, M. "Finite-State Description of the French Determiner System", Journal of French Language Studies 13 (2), Cambridge University Press, 2003. p. 221-246.
8. Wagner R. La grammaire française. Paris. 1973. 152 p.
9. Kazımov Q. Azərbaycan dilinin tarixi. Bakı. Nurlan. 2009. 584 s.

РЕЗЮМЕ
ТИПЫ ДЕТЕРМИНАТИВОВ В АНГЛИЙСКОМ И ФРАНЦУЗСКОМ ЯЗЫКАХ И ИХ АНАЛОГ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ
Алиева Ш.

***Ключевые слова**: детерминативы, семантика, части речи, определитель, местоиме-ния, прилагательные, слова, обозначающие количество (квантификаторы)*

Невозможно представить английский и французский, два самых богатых и самых активных языка в мире, без детерминативов. Каждый из этих языков имеет детерминативные типы, характерные для его структуры и семантики. В целом существуют общие для этих языков детерминативные типы: артикли, местоимения, прилагательные, квантификаторы. Точки зрения на употребление вышеприведенных частей речи в качестве детерминативов, а также на классификацию детерминативов принадлежат английским (Э. Вайнер, Д. Фрибурн, С. К. Пуллум, Р. Хаддлстоун, К. Лич, Л. К. Александер и др.) и французским (Р.Вагнер, Дж.Гросс, М.Зильберштейн, Ю.Галише и др.) специалистам или ученым. В Азербайджанском языкознании детерминативы были выделены Г.Казымовым.

SUMMARY
TYPES OF DETERMINERS IN ENGLISH AND FRENCH AND THEIR ANALOGUE IN AZERBAIJANI
Aliyeva Sh.

***Key words**: determiners, semantics, parts of speech, modifier, pronouns, adjectives, words denoting quantity (quantifiers)*

It is impossible to imagine English and French, two of the world's richest and most active languages, without determinatives. Each of these languages has determinative types specific to its structure and semantics. In general, there are determinative types common to these languages: articles, pronouns, adjectives, quantifiers. The view-points on the usage of the above-given parts of speech as determiners, and also on the classification of determiners belong to English (E. Weiner, D. Fribourn, C. K. Pullum, R. Huddlestone, C. Leach, L. C. Alexander, etc.) and French (R .Wagner, J.Gross, M.Silbershtein, J.Galichet and others) experts or scientists. In Azerbaijani linguistics, G. Kazimov highlighted the matter of determiners.

İNKLÜZİV TƏHSİLDƏN İNKLÜZİV CƏMİYYƏTƏ

Əsədova Bəsti Qoşun
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan, b.f.d.
basti.mirzoeva1984@gmail.com

Açar sözlər: *inklüziya, təhsil, sinif strategiyası, fərqlilik, mühit, adaptasiya*

İnklüziya – ictimai həyatda hər bir insanın bərabərhüquqlu iştirakına imkan yaradan konkret qərarların hazırlanmasını və tətbiqini özündə ehtiva edir. Həmçinin hər yerdə maneələrdən, stereotiplərdən azad olmuş, xoşməramlı mühitin yaranmasını təşviq edir. Təhsildə inklüziya – təhsil sisteminin yenilənməsi ilə yanaşı, ümumilikdə təhsilin fəlsəfəsini dəyişən bir prosesdir. İnklüziv məktəbin məqsədi isə bütün təhsil alanlara cəmiyyətə uğurlu inteqrasiya olunma imkanı yaratmaq, onların kollektivdə fəal iştirakını, həmçinin cəmiyyət üzvü kimi qarşılıqlı qayğı və münasibətlərinin formalaşmasını təmin etməkdir.

Ümumi təhsilin məqsədi dövlətin təhsil – tərbiyə sahəsindəki siyasətindən irəli gəlir və onun bir hissəsi hesab olunur. Təhsil cəmiyyətin və dövlətin mənəvi, sosial, iqdisadi, mədəni inkişafının əsasıdır. Hər bir ölkənin, dövlətin kadr hazırlığına olan ehtiyacını ödəmək üçün yaradılan təlim – tərbiyə müəssisələrinin məcmusuna təhsil sistemi deyilir. [1 ,4]. Təhsil sosial inkişafa təsir göstərən mühüm faktorlardan olub, şəxsiyyəti şərtləndirən keyfiyyətlərin - dəyərlərin formalaşmasına xidmət edir. “Azərbaycan Respublikasının Təhsil Qanunu”nda göstərilmişdir ki, “irqindən, milli və dini mənsubiyyətindən, dilindən, cinsindən, yaşından, səhhətindən, sosial maddi vəziyyətindən, fəaliyyət sahəsindən, ictimai mənşəyindən, yaşayış yerindən, dinə münasibətindən, siyasi əqidəsindən, həmçinin üzərində məhkumluğun olmasından asılı olmayaraq vətəndaşların təhsil hüququna təminat verilir”. [2]. İnklüziv təhsil proqramına qoşulan, xüsusi qayğıya ehtiyacı olan uşaqlar normal uşaqların qazandığı akademik və sosial davranış qaydalarına görə hazırlanmalıdır. Eyni zamanda inklüziv təhsilə qoşulan xüsusi qayğıya ehtiyacı olan uşaqlar xüsusi təhsil müəssisəsindəki istifadə olunan üsullardan yavaş-yavaş uzaqlaşdırılmalıdır. İnklüziv təhsilə qoşulan normal uşaqlar xüsusi qayğıya ehtiyacı olan uşaqlara qarşı mövqeyini aydınlaşdırılmalıdır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar haqqında uşaq kitabları, filmlər, qrup müzakirələri, rollu oyunlar və tamaşalardan istifadə etmək yolu ilə normal uşaqlar inklüziv təhsilə hazırlanmalıdır.

Günümüzün aktual problemlərindən biri də əlilliyi olan şəxslərin təhsil məsələsidir. İnklüziv təhsil uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir. Sağlamlıq imkanları məhdud uşaqlar dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak etdikdə, onların arasında bir-birinə qarşı anlaşma və hörmət hissi inkişaf edir. Müasir dövrdə dünya təhsil sistemində sağlamlıq imkanları məhdud uşaqların fərdi şəkildə, təcrid olunmuş

formada xüsusi təhsil almaları doğru hesab edilmir. Çünki bu cür yanaşma uşaqların cəmiyyətə adaptasiyasına, sosiallaşmasına mənfi təsir göstərir. Halbuki "xüsusi təhsil"in (Special Education) əsas məqsədi sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası, özü və cəmiyyət üçün lazımlı şəxsiyyət kimi formalaşmasına nail olmaqdır [3]. Məhz buna görə də aidiyyəti beynəlxalq təşkilatlar tərəfindən bir sıra yeni təhsil proqramları işlənib hazırlanmışdır. Onlardan biri də "inklüziv təhsil"dir. İnklüziv təhsil anlayışına daha geniş aspektdən yanaşsaq, yaxın perspektivdə bu təhsil modelinin cəmiyyətdə ailələrin möhkəmlənməsinə, xüsusilə həssas təbəqədən olan ailələrin cəmiyyətə inteqrasiyası, inklüzivliyi və stimullaşdırılması, özünə layiqli yer tapmasında kömək edəcək vasitə sayıla bilər. İnklüziv təhsilin müsbət tərəflərindən biri də bu sistemdə təhsil alanların sosial və akademik göstəricilərinin yüksək olmasıdır. Digər tərəfdən əlilliyi olan uşaqların inklüziv təhsilə qoşularkən zəruri xərclərinin (nəqliyyat, məktəb ləvazimatları, hər bir uşağın ehtiyacına uyğun vasitələrlə təminatı, qidalanma və s.) aidiyyəti qurumlar tərəfindən qarşılanması onların ailələri üçün iqtisadi baxımdan yararlı olacaqdır. Bu da sosial rifahın yaxşılaşdırılmasına təsir edən amillərdəndir. Əgər biz inklüziv təhsilin formalaşdırılmasına nail olsaq, bu zaman nəinki əlilliyi olan uşaqlar, eləcə də digər tipik uşaqlar müsbət nəticələr əldə edər. Əslində inklüziv təhsil sadəcə xüsusi təhsil alanlar üçün deyil, bütün təhsil alanlar üçün əsas hüquq kimi qəbul edilməlidir.

Ədəbiyyat

1. "2015-2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhislin inkişafı üzrə Dövlət Proqramı". https//www.azerbaycan-news.az
2. Uşaq hüquqları haqqında Konvensiya https//migration.gov.az
3. https://www.researchgate.net -The Heart of Inclusive Education is Collaboration (PDF)
4. https://blogs.unicef.org -Inclusive education for children with disabilities- UNICEF connect

РЕЗЮМЕ
ОТ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ К ИНКЛЮЗИВНОМУ ОБЩЕСТВУ
Асадова Б.Г.

***Ключевые слова**: инклюзия, образование, классная стратегия, отличие, среда, адаптация.*

Инклюзивность – включает в себя подготовку и реализацию конкретных решений, обеспечивающих равноправное участие каждого человека в общественной жизни. Это также способствует созданию доброжелательной среды, свободной от барьеров и стереотипов повсюду. Инклюзия в образовании – это процесс, меняющий философию образования в целом, наряду с обновлением системы образования. Цель инклюзивной школы - создать возможность для успешной интеграции в общество для всех учащихся, обеспечить их активное участие в коллективе, а также формирование взаимной заботы и отношений как членов общества.

SUMMARY
FROM INCLUSIVE EDUCATION TO INCLUSIVE SOCIETY
Asadova B.G.

***Keywords**: Inclusion, education, classroom strategy, difference, environment, adaptation*

Inclusion - includes the preparation and implementation of specific decisions that enable the equal participation of every person in public life. It also encourages the creation of a good-willed environment freed from barriers and stereotypes everywhere. Inclusion in education is a process that changes the philosophy of education in general, along with the renewal of the education system. The goal of an inclusive school is to create an opportunity for successful integration into society for all students, to ensure their active participation in the collective, as well as the formation of mutual care and relations as members of society.

AZƏRBAYCAN RESPUBLİKASINDA DİNİ TOLERANTLIQ: AZƏRBAYCAN YƏHUDİLƏRİNİN VƏTƏN SEVGİSİ

[1]Əsgərov Rəşad Hüseynağa oğlu, [2]Babayev Bağır Həmid oğlu
[1]Fəlsəfə və Sosiologiya İnstitutu, Bakı, Azərbaycan
[2]Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
asgarov_rashad@mail.ru ; baqirbabayev59@mail.ru

Açar sözlər: *Azərbaycan Respublikası, yəhudilər, döğma vətən, mədəni-mənəvi inkişaf, əlverişli imkanlar, Azərbaycan həqiqətlərinin təbliği*

Azərbaycanda digər müsəlman ölkələrindən fərqli olaraq, tolerantlıq təkcə cəmiyyətdə deyil, eləcə də, hər bir vətəndaşın şüurunda, mövqeyində, münasibətində və həyat tərzində gündən-günə daha çox əks olunur. Bunun əsas səbəblərdən biri, əlbəttə ki, Azərbaycan Respublikasının Konstitusiyasında [1] və

Azərbaycan Respublikasının "Dini etiqad azadlığı haqqında Qanun"unda nəzərdə tutulmuş, milliyyətindən, dinindən, dilindən və irqindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının bərabərliyini təmin edən milli siyasətin əsas müddəalarıdır. Konstitusiyamızın "Milli mənsubiyyət hüququ" adlı 44-cü maddəsində göstərilir: "Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz" [1, maddə 44]. Bu isə çox vacib bir məqamdır.

Bu gün Azərbaycan Respublikası dünyadakı örnək dövlətlərdən biri kimi, cəmiyyətin etnik-mədəni müxtəlifliklərinin düzgün tənzimlənməsi siyasətini çox uğurla həyata keçirir və bu sahədə böyük nailiyyətlər əldə edilmişdir. Bunun əsas göstəricisi isə odur ki, ölkəmizdə etnik, dini və irqi zəmində heç bir qarşıdurma, münaqişə baş verməmişdir. "Bu nailiyyətlər əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla aparılan multikulturalizm siyasətinin nəticəsidir" [2, s.9].

Bu gün tarixi ənənəyə söykənən multikulturalizm və tolerantlıq mühiti formalaşan Azərbaycan, tarix boyu müxtəlif xalqların azad, sərbəst yaşadığı məmləkət olaraq, burada yaşayan hər bir xalqın nümayəndəsi üçün vətəndir. "Ulu öndər Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara vahid Azərbaycan dövlətinə mənsub olmalarının əsasında birlik hissi aşılanmağa başladı" [2, s.47].

Azərbaycanda insanlar həmişə başqa dinlərin nümayəndələrinə hörmətlə yanaşıblar. Ölkəmizdə ayrı-ayrı milli məhəllələr və rayonlar yoxdur. Həyətlərdə, küçələrdə müxtəlif millətlərdən və fərqli inanclardan olan insanlar birlikdə dinc yanaşı yaşayır, ünsiyyət qurur, bir-birlərinə kömək edirlər. Ona görə də demək olar ki, Azərbaycan sakinləri tolerantlıqdan daha çox multikulturaldırlar, çünki onlar sadəcə bir-birlərinə dözümlülük nümayiş etdirməklə qalmırlar, pislik etməkdən uzaqdırlar, eləcə də, hamılıqla fəal qarşılıqlı əlaqədədirlər. Bütün bunların əsasında Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin müdrik siyasəti dayanır. Heydər Əliyev demişdir ki, "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətəndiririk və qoruyub saxlayacağıq" [3].

Azərbaycan çoxmillətli respublikadır. Münaqişə vəziyyətlərini və anlaşılmazlıqları həll etmək vacibdir. Bizlərin ölkəmizdə yaşayan bütün xalqlarla, əksər ənənəvi dinlərin nümayəndələri ilə, Qafqaz müsəlmanlarının rəhbərləri ilə də, pravoslav və katolik kilsəsinin nümayəndələri ilə də, dağ və Avropa yəhudilərinin dini icmalarının rəhbərləri və nümayəndələri ilə də yaxşı münasibətlərimiz vardır. Onlar vaxtaşırı görüşürlər və aktual problemləri müzakirə edirlər. Ölkədə sabitliyin möhkəmlənməsinə töhfə verənlərin hamısı həm dini mükafatlarla, həm də Azərbaycan Respublikasının Dövlət mükafatları ilə təltif edilmişdir. Bu illər ərzində əldə edilən ən vacib şey isə ölkəmizdə heç bir dini məbədin, heç bir kilsənin bağlanmaması, yalnız yenilərinin açılması oldu. Dinlər insanları ayırmır, əksinə, birləşdirirlər. Digər insanlarla şəxsi münasibətlərdə, bəzi məsələlərdə fərqlilik olsa da belə, din sayəsində hamı ilə həm ümumi dil, həm də qarşılıqlı anlaşma tapa bilərik. Buna görə dini liderlər arasında dialoq və görüşlərin olması çox vacibdir. Ona görə də, "Azərbaycan multikulturalizm modelinin formalaşmasında və inkişafında müstəsna xidmətləri olan Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əvəzsiz rolları danılmazdır" [2, s.11].

Deməli, multikulturalizm "bütün konfessiyaların və millətlərin nümayəndələrinin vahid ailə kimi yaşadığı Azərbaycanın dövlət siyasətidir. Bəlkə də bunun ən bariz nümunəsi ölkədəki müsəlmanlarla yəhudilər arasındakı münasibətdir. Azərbaycan yəhudi icmasına dərin hörmət nümayiş etdirir" [10]. Buradakı mehriban qonaqpərvərlik, sülhsevərlik və humanist mühitdə yaşayan bütün xalqların, o cümlədən də, "azsaylı xalqların hüquqları hər zaman qorunur və onlara ana dilini, mədəniyyətini, dinini yaşatmaq üçün hər cür şərait yaradılır. Azərbaycanda məskunlaşan belə azsaylı xalqlardan biri də yəhudiləridir. Hazırda ölkəmizdə yəhudilərə məxsus 7 sinaqoq, 2 orta məktəb, kollec və 3 uşaq bağçası fəaliyyət göstərir. Digər ölkələrlə müqayisədə bunlar az göstərici deyil. Yəhudilər, əsasən Azərbaycanın şimalında, Quba rayonunda məskunlaşıblar" [5, s.10].

Yüz illərdir ki, Azərbaycanda yaşayan yəhudi xalqı da Azərbaycanı özlərinə vətən bilirlər. Məhz bunun bariz nümunəsi Azərbaycanın ilk milli qəhrəmanlarından biri olan Qarabağ savaşında şəhid olan Albert Aqarunovdur. "Təsadüfi deyil ki, 1990-cı illərin əvvəllərində erməni işğalçıları ilə mübarizə aparmaq və tarixi vətənləri Azərbaycanın ərazi bütövlüyünü qorumaq üçün yəhudilərin bir çoxları könüllü olaraq Azərbaycan ordusuna qoşuldular. Ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülən döyüşçülərdən biri olan Albert Aqarunovun adını Azərbaycan xalqı heç vaxt unutmayacaqdır" [7].

Azərbaycan xalqının bir parçası olan Azərbaycan yəhudiləri dünyanin heç bir yerində olmayan əmin-amanlıq və sülh şəraitində yaşayırlar. Bu gün Azərbaycanda üç yəhudi icması fəaliyyət göstərir. Bakıda Aşkenazlara, dağ yəhudiləri və gürcü yəhudilərinə xidmət edən üç Sinaqoq var. "Qərb və Şərqin

xüsusiyyətlərini özündə birləşdirən Bakı xaricdə "Asiyanın Mərkəzində Paris" adını alıb. Bakıya bəzən isə "Asiyanın Mərkəzində Dubay" da deyilir. Keçmiş SSRİ-nin digər respublikalarındakı şəhərlərdən çox fərqlidir. Şəhərin üstündəki üç alov qülləsi onun simvolu oldu" [8].

Qafqazın ən böyük sinaqoqu Bakıdakı dağ yəhudilərinin sinaqoqudur. Qubada-Qırmızı Qəsəbədə iki, Oğuzda da iki sinaqoq vardır. "Yəhudilər hazırda Bakı, Sumqayıt, Quba və Oğuz rayonunda yaşayırlar. Qırmızı qəsəbə, dünyada Dağ Yəhudilərinin sayına görə ən sıx məskunlaşılan ərazidir" [6, s.13]. "Azərbaycanın Quba rayonunun Qırmızı qəsəbəsi bütün postsovet məkanında dağ yəhudilərinin kompakt yaşadığı yeganə yerdir. Bu qəsəbədə dünyanın ilk dağ yəhudiləri muzeyi inşa edilmişdir" [11, s.23].

Təxminən 300 il əvvəl Qırmızı qəsəbənin təməli qoyulmuşdur. "Bu qəsəbənin tikintisi həm dağ yəhudilərinin təhlükəsizliyi, həm də dini ayinlərin rahat şəkildə yerinə yetirilməsi, onların tərəqqisi və rifahı, uşaq tərbiyəsi üçün mühüm əhəmiyyət kəsb edirdi. Sonradan Azərbaycanın digər bölgələrindən, Rusiyadan yəhudilər buraya köçməyə başladılar. Buna görə burada hər icmanın öz sinaqoqu var. Bu yer "Qafqazın Qüdsü" adlanırdı [9].

Tarixə nəzər salsaq, görərik ki, Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılması ilə çar rejimindən qurtaran bütün xalqlar kimi, dağ yəhudilərinin həyatında da dönüş nöqtəsi oldu. Onların hüquq və azadlıqlarının qorunması və milli mədəniyyətinin inkişafı üçün geniş təminatlar verildi. AXC parlamenti, Şərqdə ilk qanunverici orqan kimi, ölkədə yaşayan bütün xalqlara təmsil olunmaq hüququ verdi. O dövrdə yəhudi mənşəli məmurlar hökumətdə nazir olmaqla, habelə, müxtəlif vəzifələrdə çalışırdılar.

Ancaq AXC-nin süqutu yəhudilərin vəziyyətini də pisləşdirdi və etnik kimlikləri təhrif edildi. 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan dərhal sonra burada yaşayan bir çox yəhudi ailələri (Qırmızı qəsəbənin sakinləri də) bolşevik rejiminin təqibindən tarixi vətənlərinə mühacirət etdilər və orada bir icma kimi, "Qafqaz məhəllələri" yaşayış məntəqələrini yaratdılar. Onlar özləri ilə Azərbaycan mədəniyyətinin bir hissəsini- musiqi, adət-ənənələr, mətbəx mədəniyyətini və s. öz tarixi vətənlərinə gətirdilər. Təsadüfi deyil ki, bu gün İsraildə yaşayan yəhudilərin toy şənlikləri və masaları Azərbaycan musiqisi və rəqsləri ilə yanaşı, ümumi milli mətbəxin nümunələrinin olduğu Azərbaycandakı bayramlardan fərqlənmir.

Sovet hökuməti ruslaşdırma siyasəti ilə rus şovinizminin dirçəldilməsinə nail olmaq, bununla da, qeyri-rus xalqların milli mədəniyyətlərini və mənəvi-əxlaqi dəyərlərini sıxışdırıb aradan çıxarmalı olurdu. Kommunist rejimi yaradacağı utopik sivilizasiya dəyərləri ilə milli mədəni və mənəvi-əxlaqi dəyərlər arasında ziddiyyətləri getdikcə artırırdı. Stalinin hakimiyyəti dövründə SSRİ-dəki bütün yəhudilərə zülmlər güclendi. Kommunist rejim bir tərəfdən yəhudilərin tarixi Vətənləri ilə təmaslarını qadağan etdi, digər tərəfdən özlərini etnik yəhudi kimi qəbul etmələrini ciddi şəkildə məhdudlaşdırdı. Üstəlik 1930-1940-cı illərdə rəsmi Kreml orta məktəblərdə yəhudi dillərində kitabları və dövri nəşrləri dayandırdı. Bütün bunlar yəhudilərin SSRİ-dən Avropa, Amerika və Yaxın Şərqə köçünün artmasına səbəb oldu.

Sovet hakimiyyəti zamanında "Azərbaycan xalqı kimi, yəhudi xalqı da öz dinlərini və mədəniyyətlərini yaşada bilmirdilər. Lakin Sovet İttifaqı dağılandan sonra müstəqil Azərbaycan dövlətinin qurulması ilə birlikdə yəhudi xalqı da dini və mədəni həyatlarında azadlıq əldə etdilər. Müstəqil Azərbaycan dövləti Azərbaycanda yaşayan digər azsaylı xalqlarla birlikdə, yəhudi xalqına da öz dinlərini və mədəniyyətlərini yaşatması üçün hər cür şərait yaratdı" [6, s.13]. 1991-ci ildə Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdi, ölkədəki bütün etnik qruplara qarşı siyasi maneələr aradan qaldırıldı, yəhudi milli kimliyi tanındı, onların ana dillərinin və mədəniyyətlərinin qorunub saxlanması və inkişafı üçün əlverişli şərait yaradıldı.

Bu gün yəhudilər vətənləri Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında fəal iştirak etməklə yanaşı, ölkəmiz haqqında həqiqətlərin dünya birliyinə çatdırılmasında, Azərbaycanın təbliğində və maraqlarının qorunmasında mühüm rol oynayırlar. Onlar Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında mədəni, siyasi və iqtisadi sahələrdə əməkdaşlığın qurulmasına da böyük töhfə verirlər. Azərbaycan rəhbərliyi ölkənin yəhudi icmasının ənənələrinə və həyatına qayğıkeş və səmimi münasibət göstərir. Qədim "Qırmızı Qəsəbə" İsrail hüdudlarından kənarda bütün dünyada dağ yəhudilərinin yığcam şəkildə yaşadığı yeganə nadir məkan, Azərbaycanın əsl qürur yeridir. "Qırmızı Qəsəbə"də görə biləcəkləriniz Azərbaycanda dini konfessiyaların-müsəlmanların və yəhudilərin sıx əməkdaşlığının və tərəfdaşlığının nəticəsidir" [4, s.10].

Azərbaycan türklərinin yəhudilərlə bir yerdə yaşaması tarixi yüzilliklər öncə mövcud olmuş Alban dövlətinə qədər gedib çatır. "Bütün tarixi dövrlərdə yəhudilər Azərbaycanda özlərini böyük bir ailənin bərabərhüquqlu üzvü kimi hissi etmiş, yerli əhalinin diqqət və qayğısı ilə əhatə olunmuş, azad və sərbəst yaşamışlar. Məhz bu münasibətin nəticəsidir ki, Quba rayonundakı Qırmızı qəsəbə keçmiş Sovetlər məkanında Dağ yəhudilərinin kompakt yaşadığı yeganə tarixi məkan kimi dövrümüzə qədər gəlib çatmışdır" [2, s.247].

Hazırda "İsrail-Azərbaycanın münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır. İsrail Azərbaycana həmişə böyük diqqət və səmimiyyətlə yanaşıb, Azərbaycanın ərazi bütövlüyünə hörmət bəslədiyini dəfələrlə bəyan edib" [4, s.10]. Bu isə Azərbaycandakı tolerant və multikultral mühitlə, ölkəmizin yurutduyi uğurlu siyasətə bağlıdır.

Dağ Yəhudiləri Azərbaycanda harada yaşamasından asılı olmayaraq, Qırmızı qəsəbə ilə əlaqələrini kəsməyiblər. Bu gün Azərbaycanda, İsraildə və dünyanın digər ölkələrində yaşayan dağ yəhudiləri arasında tanınmış alim və tibb işçiləri, bəstəkar və yazıçılar, siyasətçilər, rəssamlar, iş adamları və hərbçilər vardır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı: Qanun nəşriyyatı, 2017, 77 s.
2. Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. Bakı: BBMM, 2017. 421 s.
3. Əliyev H. "Müstəqillik yolu". Seçilmiş fikirlər. Bakı, 1997.
4. Qəribli M. Azərbaycan yəhudilərinə dövlət və ictimai münasibətə beynəlxalq baxışlar… Bakı Xəbər. 2021. 5 fevral. № 22. S. 10.
5. Qəribli M. Azərbaycanda yəhudi icması- dünya ölkələrində bütün milli azlıqların həsəd apardığı toplum... Bakı Xəbər. 2021. 3 mart. № 40. S. 10.
6. Salmanov M. Azərbaycan yəhudiləri- tarixdən bugünə. Palitra. 2018. 25 oktyabr. S.13.
7. Горские евреи - Этно-культурное разнообразие, http://multikulturalizm.gov.az ›...25.09. 2019
8. Как живут сейчас евреи в Баку. Рассказ израильтян. https://azertag.az › xeber 12 Ноябрья 2022
9. Красная Слобода преображается – Газета "Бакинский рабочий", 24 Мая 2022
10. Один день в Красной Слободе - Газета "Бакинский рабочий", 11 Августа 2022
11. Шнайер М. "Евреям повезло, что они живут в такой толерантной стране, как Азербайджан" https://ffeu.org › in-the-news September 23, 2022

РЕЗЮМЕ
РЕЛИГИОЗНАЯ ТЕРПИМОСТЬ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ:
ЛЮБОВЬ ЕВРЕЕВ АЗЕРБАЙДЖАНА К РОДИНЕ
Аскеров Р.Г., Бабаев Б.Г.

Ключевые слова: *Азербайджанская Республика, евреи, татуированная Родина, культурно-духовное развитие, благоприятные возможности, пропаганда азербайджанских истин*

Исторически евреи, веками проживающие в Азербайджане, знают нашу страну как свою Родину. После восстановления государственной независимости Азербайджанской Республики на государственном уровне их права и свободы защищены, они живут в мире и согласии. Наше государство создало достаточные условия для их культурно-духовного развития, сохранения языка, религии и культуры. Перед еврейскими общинами открылись благоприятные возможности. Евреи Азербайджана отличаются активностью в экономической и социально-политической жизни нашей страны. Они представлены в Милли Меджлисе Азербайджанской Республики. А за пределами нашей Родины евреи Азербайджана оказывают большие услуги в донесении и пропаганде азербайджанских истин до всего мира.

SUMMARY
RELIGIOUS TOLERANCE IN THE REPUBLIC OF AZERBAIJAN:
THE LOVE OF THE JEWS OF AZERBAIJAN FOR THE MOTHERLAND
Askerov R.H., Babayev B.H.

Keywords: *Republic of Azerbaijan, Jews, tattooed Homeland, cultural and spiritual development, favorable opportunities, propaganda of Azerbaijani truths*

Historically, Jews who have lived in Azerbaijan for centuries know our country as their homeland. After the restoration of the State independence of the Republic of Azerbaijan at the State level, their rights and freedoms are protected, they live in peace and harmony. Our state has created sufficient conditions for their cultural and spiritual development, preservation of language, religion and culture. Favorable opportunities have opened up for Jewish communities. The Jews of Azerbaijan are distinguished by their activity in the economic and socio-political life of our country. They are represented in the Milli Majlis of the Republic of Azerbaijan. And outside of our homeland, the Jews of Azerbaijan render great services in conveying and propagating Azerbaijani truths to the whole world.

BİOSORBSİYA VƏ MİKROORQANİZMLƏR

Eyyubova Əfsanə Möhvət qızı
Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azərbaycan
afsanaeyyubova223@gmail.com

Açar sözlər: *ekosistem, suyun çirklənməsi, ağır metallar, biosorbsiya, mikroorqanizmlər, biosorbentlər*

Bu gün metallar mədənçıxarma, metallurgiya, elektronika, metal cilalama kimi bir çox sənaye sahələrində geniş istifadə olunur. Son zamanlar sənaye tullantılarında metal ionlarının olması arzuolunmazdır, çünki onlar canlılar üçün çox zəhərlidirlər. Müəyyən ekoloji şəraitdə metalların toksik toplanması ekoloji çirklənməyə səbəb olur. Civə, qurğuşun, kadmium və xrom zəhərli olsa da, mis, nikel, kobalt və sink zəhərli deyil, lakin bu metalların geniş yayılması və ətraf mühitdə onların səviyyəsinin artması ciddi narahatlıq doğurur. Uran kimi radioaktiv metallar isə yüksək toksiklik və radioaktivliyə malikdir və hətta kiçik konsentrasiyası belə ciddi təhlükə yaradır. [1]

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə sənaye prosesləri nəticəsində atılan çirkləndiricilərlə bağlı ciddi ekoloji tənzimləmələr aparılır. Bu səbəbdən sənaye müəsisələrindən gələn tullantıları yol verilən çirkləndirici konsentrasiya səviyyəsinə endirmək və sənaye müəssisələrində fəaliyyətləri yaxşılaşdırmaq üçün müxtəlif texnologiyalara ehtiyac var. [1]

Ətraf mühitə təsiri və ya mikroorqanizmlərlə qarşılıqlı təsiri baxımından metalları müxtəlif yollarla təsnif etmək mümkündür. Zəhərliliyinə görə metallar üç sinfə bölünür. Bunlar;

• Zəhərli metallar: civə, qurğuşun, kadmium və xrom VI

• Ətraf mühit üçün yüksək konsentrasiyaya malik metallar: mis, nikel, kobalt və sink

• Yüksək toksiklik və radioaktivlər: uran və s. [2]

Sənaye çirkab sularının axıdılması nəticəsində suyun ağır metallarla çirklənməsi su ekosistemlərinə təhlükə yaradan əsas səbəblərdən biridir. Sənaye müəssisələrinin artması ətraf mühitdə ağır metalların sürətlə artmasına səbəb olur. Ağır metalların ətraf mühitə, heyvanlara və insanlara da ciddi zəhərli təsiri var. Digər zəhərli çirkləndiricilərdən fərqli olaraq metallar bioloji parçalanmır və canlı toxumalarda toplana bilir və nəticədə onlar qida zəncirində geniş şəkildə tapıla bilirlər. Metallar hüceyrə membranına, sitoplazmaya, maddələr mübadiləsinə və mikroorqanizmlərin struktur funksiyalarına mənfi təsir göstərir. [3]

Sənaye tullantılarında boya və metalların təmizlənməsi üçün işlənib hazırlanmış texnikaları abiotik və biotik üsullar olaraq iki əsas sinifdə qruplaşdırmaq mümkündür. Abiotik üsullar; çökmə, adsorbsiya, ion mübadiləsi, membran və elektrokimyəvi texnologiyalar. Bu üsulların əksəriyyəti bahalı, ekoloji cəhətdən təmiz olmayan və ümumiyyətlə tullantıların konsentrasiyasından asılı olduğundan praktikada onlara tələbat yoxdur.Bu gün daha effektiv, ekoloji cəhətdən təmiz və ucuz üsullar tədqiq olunur. [1]

Pənah xanın ölümündən sonra böyük oğlu İbrahimxəlil xan Qarabağ xanlığına hakim oldu. O, güclü qoşunları və diplomatik səyləri ilə Şəki, Şirvan, Gəncə, Təbriz, Naxçıvan, Qaradağ, Ərdəbil, Xoy, Marağa, İrəvan və hətta İraqla Azərbaycan hüdudunda olan Qaplankuya qədər olan torpaqları öz hökmranlığına qatdı. Qacariyyə dövlətində hakimiyyəti ələ alan Ağa Məhəmməd şah Qacar Qarabağ xanlığının getdikcə güclənməsindən və rus qoşunlarının Qafqaza girməsindən sonra xanlığı danışıqlar yolu ilə özünə tabe etmək istəsə də, buna nail ola bilmədi, hücum edib Şuşa şəhərinin yaxınlığında ordugah qurdu. Ağır toplar və qüvvətli qumbaraatanlarla silahlanmış Ağa Məhəmməd şah otuz üç gün Şuşanı top atəşləri ilə mühasirədə saxlasa da, bir şeyə nail ola olmadı. Əsgərləri də Qarabağ qoşunlarının mərdanə hücumlarından və cəsarətli çarpışmalarından qorxuya düşürdülər. Pənahabad qalasına od yağdıran toplar Qalada çox evlərə sədəmə yetirir, insanlar həlak olur. İbrahim xan fürsət gözləyir, qəflətən 10 min nəfər silahlı qoşun ilə şəhərdən çıxıb, üstün qoşunla savaşır. Bütün gün yadelli qoşun ilə vuruşub, çoxlu tələfata uğradır. Gün batana yaxın savaşı dayandıran İbrahim xan qoşunu ilə qalaya qayıdır. Qacar qoşunlarında ciddi ruh düşgünlüyü yaranır. Ağa Məhəmməd şah Şuşa şəhərini almaqda aciz qalıb zərərin yarısından qayıtmaq da mənfəətdir fikrilə Darüssürura - Tiflisə doğru hərəkət edir. Zəif müqaviməti qırıb bütün acığını Tiflisin üstünə tökür; şəhəri oda qalayıb əhalinin bəzisini qılıncdan keçirib, 20 min nəfəri də əsir aparır. 1797-ci ilin yazında Şuşada Ağa Məhəmməd xanın yenidən saysız-hesabsız qoşunla şəhərə yaxınlaşması haqqında xəbər alınır. Aclıq və vəba xəstəliyi üzündən daha şəhərdə davam gətirmək mümkün olmadığına, gizli əlaqə qurduğu Rusiyadan yaxın zamanlarda kömək gözlənilmədiyinə, Osmanlı sultanının yanına göndərilən elçilərin isə yalnız aparılan hədiyyələr müqabilində yeni hədiyyələr gətirib, heç bir kömək ümidi vermədiklərinə görə, artıq insan ölümünə yol verməmək naminə İbrahim xan Şuşanı tərk edərək, öz ailəsi ilə birlikdə əlavə kömək almaq ümidilə Car-Balakən vilayətinə gedir. Ağa Məhəmməd xan, bu bakirə qalaya (Şərqdə bütün alınmaz qalalar belə adlanırdı–H.N) - Şuşaya döyüşsüz daxil olur. Şahın əmri, şahidliyi ilə Şuşada insanlara verilən zülm, işgəncələr "Qarabağnamə"lər belə təsvir edilir: *"...onlardan beşi çarmıxa keçirilsin, altıncı, Əli Məhəmməd ağa isə İbrahim xan tərəfindən Türkiyə sultanının yanına elçiliyə getdiyinə görə, onun seyid nəslindən olması nəzərə alınaraq boğulsun...Öz peşələrini çox gözəl bilən bir neçə cəllad bu hökmə əsasən onu boğmağa başladılar...Cəlladlar isə çarmıxlara keçirilib can verən qurbanların çapaladıqlarını gördükdə qana bulaşmamaq üçün ehtiyatla çarmıxları balta ilə vururdular. Baş cəllad öz həmkarlarından bir qədər aralanıb müstəbidə dedi ki, əlahəzrət, əmr etməzmisiniz ki, yeddinci cinayətkarı pələnglərə ataq, çünki daha çarmıx yoxdur və heyvanlar da bu gün heç bir şey yeməmişlər. - Bəli! - deyə o cavab verdi, - lakin əvvəlcə onun başı bədənindən üzülməlidir, çünki mən sabah cinayətkarların kəllələrindən bu vaxtadək görünməmiş yüksəklikdə kəllədən minarə qoyduracağam* [4, s.19-20].

Şah ən yaxın adamlarından və nədimlərindən Səfərəli bəy və Abbas bəyə əhəmiyyətsiz bir xətalarından ötrü acıqlanır, atasının goruna and içib deyir ki, yatım oyanım səhər sizin ikinizin də başını vücudunuzdan ayırıb qanınızı Qarabağın gülzarına axıdacağam. İllərlə şahla birlikdə olmuş bu iki şəxs bilirdi ki, şahın ki beyninə bir şey düşdü, ağzından söz çıxdısa onu icra edəcək. Həmin gecə onun işini bitirmək fikrinə düşürlər. Səhərə yaxın Ağa Məhəmməd şah yuxunun şirin vaxtında ikən onlar saraya daxil olub heç nədən şübhələnməyən qaravulu zərərsizləşdirib şirin yuxuda olan şahın bədənini xəncərlə deşik-deşik edirlər. Şahın qaş-daşla bəzədilmiş bazubənd, tac və həmailini götürüb başını da kəsib Balakənə qaçan İbrahim xana göndərirlər ki, geri qayıdıb xanlığına sahib dursun [4. s.19-20]. Qacarların qoşunu başsızlıqdan istifadə edib sarayı, şəhəri yağmalamağa başlayırlar, sonra da əllərinə keçəni götürüb şahın başsız bədənini də özlərinə yük eləmədən burada buraxıb Tehrana üz qoyurlar. İbrahim xan da Xan şahın başını bir sovqat kimi Gürcüstan valisinə göndərir. Onun baçsız meyidi isə Şuşa meydanının ortasına atılıb qalmışdı. Xalq bu tale-qədərə şeir də qoşur:

"Gecə düşdükdə, ölü baş edildi tarac, Nə bədəndə baş qaldı, nə də başda tac."

Xan bir neçə gündən sonra öz oğlu və vəliəhdi Mehdiqulu ağa, Məhəmmədhəsən ağa və digər ailə üzvləri ilə Şuşaya gəlir, yenə hökumət taxtında oturur [2. s.33-35].

Ancaq Şuşa, Qarabağ daha bir istilaçı, sümürgəçi, işğalçı qüvvənin girovluğuna keçmişdi. Şuşada sakin olan rus qoşununun komandiri mayor Lisaneviç 1806-cı ildə iyun ayının 2-də gecəyarısı qalanın xaricində külfətilə yuxuda olan İbrahim xanın üzərinə basqın edib onu, arvadı, oğlu, qızı və bir çox əyan və xadimlərilə bir yerdə öldürür. İbrahim xan hünərli, ədalətli, bərk və sadə rəftarlı bir əmir idi və onun belə ağsaqqal yaşında, heç bir günahı olmadan amansızlıqla qətlə yetirilməsi Qafqazın bütün müsəlman əhalisində çar Rusiyasının müstəbid üsuli-idarəsinə qarşı nifrət, qəzəb oyadır, qatil mayor Dağıstana yeni görevə dəyişdirilir [3. s.107-108].

Şuşa 1905-06, 1918-20, 1992-ci ildə yenə də eyni mərkəzdən idarə edilən ağır müsibətlərə, qanlı qırğınlara səhnə olur.

44 günlük Vətən müharibəsinin son zəfəri olan 8 noyabrda müzəffər Azərbaycan ordusunun Şuşanı yenidən Ana Vətən Azərbaycana qovuşdurması, Şuşada 2021-ci mayın 12-də yenidən "Xarıbülbül" festivalının keçirilməsi, Türkiyə Prezidenti R.T.Ərdoğanın ailə üzvləri, Hökumət rəsmiləri ilə birlikdə Şuşaya səfəri, müttəfiqlik haqqında "Şuşa Bəyannaməsi"nin imzalanması, Azərbaycan Prezidetinin imzaladığı sərəncamlarla Şuşanın "Azərbaycanın mədəniyyət paytaxtı" və 2021-ci ilin Azərbaycanda "Şuşa İli" elan olunması, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində 31 mart 2022-ci ildə keçirilən iclasında qəbul olunan qərarla 2023-cü il üçün Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi 270 yaşlı Şuşanın yenidən Azərbaycanın maarif, mədəniyyət mərkəzinə çevriləcəyinə aparan yolun, Şuşanın yenidən doğuluşunun, möhtəşəm dirçəlişinin başlanğıcıdır [5].

Ədəbiyyat

1. Qarabağnamələr, I kitab. Bakı: Şərq-Qərb, 2006, 214 s.
2. Qarabağnamələr, II kitab, Bakı: Şərq-Qərb, 2006, 286 s.
3. Qarabağnamələr, III kitab Bakı: Şərq-Qərb, 2006, 248 s.
4. Nərimanoğlu H. "Şuşa -270", "Füyuzat", Bakı, 2022, 220 s.
5. Nərimanoğlu H. Bildiyimiz Şuşa haqqında bilmədiklərimiz: keçmiş, bu gün və gələcək, 04.01.22, https://musavat.com/mobile/news/bildiyimiz-susa-haqqinda-bilmediklerimiz-tarix-bu-gun-ve-gelecek_857090.html
6. https://regnum.ru/news/polit/2894200.html

РЕЗЮМЕ

ШУША, «КАРАБАХНАМЕ», ПАНАХАЛИ ХАН, КАРАБАХСКОЕ ХАНСТВО

Абдулла Г.Н.

Ключевые слова: *Шуша, «Карабахнаме», Панахали хан, Карабахское ханство*

История Карабахского ханства и Шуши подробно и правильно освящена в «Карабахнаме», написанных 11-ю историками, которые жили и творили в XVIII-XIX веках.

В Шуше, все названия мест, кварталов, мечетей, караван-сараев, бань, школ, улиц, рынков являются чисто тюркскими и мусульманскими. Даже армянские авторы писали, о строительстве Шуши Панахали-ханом, о том, что армяне никогда не играли здесь важной роли, и она являлась родиной многих тюрко-мусульманских поэтов, писателей и музыкантов.

Шуша, имеющая 270-летнюю историю стремительно развивается, в 2022 году город был объявлен культурной столицей Азербайджана, а в 2023 году культурной столицей Тюркоязычных государств.

SAMMARY

SHUSHA, "KARABAGHNAME", PANAHALI KHAN, KARABAKH KHANATE

Abdullah H.N.

Key words: *Shusha, "Karabaqhname", Panahali Khan, Karabakh Khanate*

The history of the Shusha and Karabakh Khanate is reflected in considerable detail and correctly in the "Karabaghname" written by 11 historians who wrote and created it in the 18th - 19th centuries.

The names of all places – quarters, mosques, caravanserais, baths, schools, streets, bazaars in Shusha are purely Turkic, Muslim ones. Even Armenian authors stated that Shusha had been built by Panahali Khan, that Armenians had never played an important role in the life of the city, that many Turkish-Muslim poets, writers and musicians had lived and created there.

270-year-old Shusha was declared the cultural capital of Azerbaijan in 2022 and the Turkish noble states in 2023, the city is developing rapidly.

ANALYSIS OF ASSESSMENT OF PERSONNEL EFFICIENCY IN THE DIGITAL ECONOMY

Hashimova A.Ch.
Azerbaijan State Academy Of Physical Education And Sport, Baku, Azerbaijan
albina-hesimova@mail.ru

Keywords: *digital economy, performance evaluation, ICT services, human resources, process automation.*

When looking at the efficiency of work with personnel, the benefits it provides, the work order it creates, the first thing that comes to mind is the digital performance shown by personnel hired with innovative methods.

In a digital platform, the right way of working is the process of defining, measuring and improving the performance of individuals and teams according to the goals of the organization. The purpose of performance management is to improve the motivation and skills of employees, to strengthen the sense of commitment and responsibility, and therefore to increase the efficiency and success of the company.

Digital performance management involves the collection, storage, analysis, and reporting of data to evaluate the performance of employees, groups, or organizations using audio-visual computer systems. The main purpose of using technology in performance appraisal is to improve the individual performance of employees by providing support systems along with the necessary information, techniques and methods. The use of digital technology in performance appraisals is extremely important for both employees' career goals and business vision.

Maximizing the use of information technologies and management information systems in the economy and making information technologies a tool used in all areas of life is the most important development requirement in today's information society. In order to meet this demand, the employment and motivation of the personnel who adopt and use information technologies is extremely important. Determining the factors that will ensure adaptation of employees to information technologies and applying innovations in this direction is one of the important parameters that allow companies to stand out[1].

The priority condition for the introduction of information technologies is the openness of employees and managers to innovation. Since information technologies are understood and accepted by employees, management information systems are effectively used.

The transfer of ICT functions to an electronic environment allows performance evaluation to be carried out simultaneously and entirely online. Thus, both employees and managers can submit performance appraisal data to human resource departments through online capabilities. The technological infrastructure and systems used in performance appraisal facilitate the distribution and evaluation of materials and provide feedback to employees, which is the final stage. For example, a performance audit based on prior computer usage facilitates performance measurement by keeping track of variables such as tasks completed, key success factors, and unit time costs.

The gradual digitization of human resources functions while evaluating staffing efficiency has increased organizations' expectations of these new applications. It focuses on four main objectives. [2,3].

These goals are to increase the strategic focus of the digital economy, reduce costs / increase efficiency, improve employee and customer services, and facilitate employee management. Within the framework of previous academic studies, digital economic activities of the new era with the use of technological tools and applications are not only a strategic partner of management but also;

- ✓ Develop an organizational culture open to continuous learning, innovation and development;
- ✓ Maintaining transparency in information, learning, development, career and reward policies;
- ✓ Provide multidimensional organizational communication;
- ✓ It is a change tool that has the ability to support decision-making time by reducing costs in business processes and facilitating access to information. Since HR performance evaluation was first studied, the most interesting and sought-after aspect of HR transformation has been the individual and organizational benefits. Studies provide an overview of the implications and benefits of digital HR. While digital ICT increases the engagement, competence and harmony of employees individually, it reinforces ICT investments in an organizational context in terms of:
- ✓ Reorganizing ICT activities;
- ✓ By increasing the quality and efficiency of ICT services;
- ✓ By turning ICT functions into a strategic business partner, as well as providing benefits by reducing costs.

Scheme . *An online assessment approach in the digital economy*



Source:*file:///C:/Users/User/Downloads/ BAYARCELK-Dijital Dnmnnsan Kaynaklar Yneti mi.pdf – Dijital dünyada insan kaynakları 2020*

Performance appraisal systems supported by information technology provide ideal usability and increase success, especially for performance appraisals based on very different data sources, such as the balanced scorecard [4, 5].

Studies show that electronic performance appraisal systems provide both time and financial advantages in the evaluation process of enterprises. In addition, the online evaluation approach determines the performance of the organization; It increases the loyalty and trust of employees, motivation, helps to overcome communication barriers and the general activity of the enterprise.

In order to improve the efficiency of work with personnel in the digital economy, we can show the following as future development trends for 2020-2021.

Robot-Based Process Automation: While AI is able to automate the talent acquisition process, it also aims to transform the operational processes surrounding the IT department. In addition, ICT technology seeks to shorten time-consuming processes such as employee onboarding so that new employees can devote more time from the ICT department to the job function[6,7].

The goal of robot-based process automation is to reduce the use of repetitive tasks such as creating a new employee record in the employee database, collecting employee documents and adding a new employee to the payroll system, which 93% of ICT managers are engaged in.

ICT Analytics: Data has become increasingly important in the digital economy in the last few years. Digital ICT aims to transform the role of human resources into data-driven people management for everything from candidate recruitment to talent acquisition analysis, promotion, employee management and employee performance. Human resource technology aims to increase company productivity by analyzing data about existing and potential employees.

Analytical models help companies uncover critical information about employee performance. Using ICT analytics, companies can detect employee turnover that can lead to high performance outcomes that predict employee engagement and recommend necessary training to address existing issues[8].

Training and Development: Training and development play an important role in creating a digital workforce. The company is being digitized by artificial intelligence, virtual reality and reality technologies, thus changing the way employees are trained. While training and development has traditionally been based on the skills required by the profession, employees develop themselves based on interesting initiatives along the career path.

The first ICT function that employers digitize and computerize is payroll and employee management. Because the amount of data used in payroll and personal affairs is valuable to the enterprise, the importance of digitization to facilitate operations, increase the speed of the process and ensure information security is enormous[9].

Salary rate, dependents, social rights, working time, each employee's tax and marital status, defined benefits, leave, overtime / overtime, requests for payment from department heads or additional payments are calculated individually.

During the evaluation of the efficiency of work with personnel, the information about all the employees of the enterprise is monitored under one system in the salary operations, and the electronic

banking system that gives automatic payment orders to the banks is established and salary reports are obtained.

In addition, loans and advances received by personnel are tracked through this system. The use of payroll software allows transactions to be carried out without errors, faster and at lower costs. With a digital payroll account, even large businesses with many employees can make all their payments quickly and easily.

All these mentioned data are very important in terms of evaluating the efficiency of work with personnel. It is inevitable that companies will succeed in each step based on these approaches in the phase of integration into the digital economy[10,11].

Reference

1. Ağamalıyev K.M. (2011). Azərbaycanda müasir peşə təhsili: kadr hazırlığı və idarəetmə. Bakı: Qanun, 423 s.
2. Əliquliyev.R.M. Elmi kadr hazırlığı. Bakı: İnformasiyatexnologiyaları, 2019, 289 s.
3. Quliyev T.A. İnsan resurslarının idarə edilməsi. Bakı: Maarif, 2014, 276 s.
4. Armstrong's handbook. Human Resources Management Practice. London, 2015, 378 p.
5. Marchington M.A. Human Resources Management at Work.London, 2016, 327 p.
6. Ergin A.M. Dijital ekonomide iş prensipleri. İstanbul: Koçak yayınevi, 2019, 447 s.
7. İlhami F.A. İnsan kaynakları yönetimi. №1. Baskı. İstanbul: Basyayın evi, 2019, 378 s.
8. Nur Y.R. (). "İnsan kaynaklarının önemi". İstanbul: Beta yayın evi, 2016, 451 s.
9. https://www.ieryt.az-managmentofstaff2020
10. https://www.economy.gov.az.working in a group 2019 .
11. https://www.stat.gov.az-using different methods to work better 2018 .

XÜLASƏ

RƏQƏMSAL İQTİSADİYYATDA KADRLARLA İŞİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ANALİZİ

Həşimova A.Ç.

***Açar sözlər**: rəqəmsal iqtisadiyyat, performans qiymətləndirmə, İKT xidmətləri, kadr potensiyalı, proses avtomatlaşdırma.*

Kadrlarla işin səmərəliliyinə, onun verdiyi faydalara, yaratdığı iş nizamına nəzər saldıqda ilk öncə ağıla gələn innovativ metodlarla işə alınan kadrların göstərdiyi rəqəmsal performansdır.

Rəqəmsal platformada düzgün iş rejimi təşkilatın hədəflərinə uyğun olaraq fərdlərin və komanda fəaliyyətinin təyin edilməsi, ölçülməsi və yaxşılaşdırılması prosesidir. Performans idarəetməsinin məqsədi işçilərin motivasiyasını və bacarıqlarını yaxşılaşdırmaq, işə bağlılıq və məsuliyyət hissini gücləndirmək və buna görə şirkətin səmərəliliyini və müvəffəqiyyətini artırmaqdır.

Rəqəmsal performans rəhbərliyi səs-vizual kompüter sistemlərindən istifadə edən işçilərin, qrupun və ya təşkilatın fəaliyyətini qiymətləndirmək üçün məlumatların toplanması, saxlanması, təhlili və hesabatının aparılmasını özündə əks etdirir. Performansın qiymətləndirilməsində texnologiyadan istifadənin əsas məqsədi, lazımi məlumat, texnika və metodlarla yanaşı dəstək sistemləri təmin edərək işçilərin fərdi fəaliyyətlərini yaxşılaşdırmaqdır. Performans qiymətləndirmələrində rəqəmsal texnologiyanın istifadəsi həm işçilərin karyera hədəfləri, həm də işgüzar baxış üçün olduqca vacibdir.

РЕЗЮМЕ

АНАЛИЗ ОЦЕНКИ ЭФФЕКТИВНОСТИ РАБОТЫ ПЕРСОНАЛА В ЦИФРОВОЙ ЭКОНОМИКЕ

Гашимова А.Ч.

***Ключевые слова**: цифровая экономика, оценка эффективности, ИКТ-услуги, кадровый потенциал, автоматизация процессов*

Эффективность работы персонала, их преимущества основаны, в первую очередь, на получение цифровых показателей при помощи инновативных методов. Правильный режим работы на цифровой платформе-это процесс определения, измерения и улучшения деятельности отдельных лиц и группы в соответствии с целями организации. Целью управления эффективностьи является повышение мотивации и навыков сотрудников, укрепление чувства приверженности и ответственности за работу и, следовательно, повышение эффективности и успеха компании. Цифровое управление эффективностью включает в себя сбор, хранение, анализ и отчетность данных для оценки эффективности сотрудников, группы или организации с использованием аудио-визуальных компьютерных систем.

Основная цель использования технологий в оценке эффективности-улучшить индивидуальную производительность сотрудников, предоставляя им необходимую информацию, методы, а также системы поддержки. Использование цифровых технологий в оценке эффективности чрезвычайно важно, как для карьерных целей сотрудников, так и для обзора бизнеса.

H.ORUCOVUN BƏDİİ NƏSRİNDƏ İFADƏ VƏ ÜSLUB ƏLVANLIĞI

Həsənova Ş.Ə.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbayan, fil.f.d.

m.shahana1982@mail.ru

***Açar sözlər:** dramaturgiya, obraz, bədii nəsr, publisistika, çağdaş, ədəbi mühit, problemli mövzu*

Hidayət Orucovun bədii nəsrinin problematikasında önəm daşıyan məsələlərdən birisi üslub özünəməxsusluğunun müəyyənləşməsidir. Çağdaş Azərbaycan ədəbiyyatına əvəzsiz töhfələr verən ədib bütün kontekstlərdə milli kimliyin nümunəsi olaraq etnik mədəniyyət klişeləri üzərində bir-birindən maraqlı ədəbiyyat nümunələri yaratmışdır. "Burdan min atlı keçdi", "İrəvanda xal qalmadı", "Ömürdn uzun gecə", "Tamaşadan sonra" əsərləri təkcə məzmun mükəmməlliyi, xalqın əxlaqi-mənəvi dəyərlərini əks etdirmə meyar və tendensiyası ilə önəm daşımır və burada digər xətt ədibin çatdırma üsullarının spesfikliyidir. Çünki sənətkarlıq elə bir möhtəşəm düşüncə hadisəsidir ki, onunla cild-cild romanlara sığmayacaq bir düşüncəni uğurlu boya ilə ifadə etmək olur. H.Orucovun da bədii nəsrindəki ifadə formulları, hadisə və faktları əks etdirmə üsulları, başlanğıc və sonluq motivləri bu baxımdan diqqətçəkici məsələ olaraq təhlil zərurəti doğurur. Görkəmli rus tənqidçisi V.Q.Belinski vurğulayırdı ki, "həyat haradadırsa, poeziya da oradadır və deməli poeziya üçün məzmun da oradadır. Yalnız məzmun hər bir şairin – həm dahi, həm də sadəcə istedadlı şairin həqiqi meyarı ola bilər.. Məzmunsuz, amma rəvan və ahəngdar şeir ancaq poetik formaya olan qabiliyyəti üzə çıxarır: həqiqi natiqliyin yanında ritorika nədirsə, belə şeir də həqiqi poeziyanın yanında eyni şeydir. Şeirin poetik olması üçün nəinki təkcə rəvanlıq və ahəngdarlıq azdır, hətta hiss özü də hələ kifayət eləməz: burada fikir lazımdır ki, hər cür poeziyanın da elə əsl məzmununu təşkil edən budur" [2, s. 227]. Nəsrdə də bu belədir və bütünlükdə mahiyyət məzmunla uğurlu ifadə üsulunun alınmasında bədii mükəmməllik özünü göstərir. H.Orucovun bədii nəsrinin zənginlik formulasını bir tərəfdən onun həyat faktlarını dərk və müşahidə qabiliyyəti təşkil edirsə, digər kontekstdə yaradıcı istedadı müəyyənləşdirir. Daha doğrusu, şairlik istedadı onun bədii düşüncəsinin ana axarını faktlaşdırmaqla, həm də həyat hadisələrini əks etdirmənin uğrlu üsullarını tapmaq üçün əsas olur.

Doğrudan da, üslub yaradıcı istedadını, düşüncə və yanaşma orjinallığını, həyat həqiqətinə fərqli münasibətini sərgiləmək üçün müstəsna funksiyaya malikdir. Onun funksional rolu sənət anlamında şairin, yazıçının böyük ədəbiyyatda yerini və rolunu aydınlaşdırmaq üçün başlıca vasitədir. Üslubda insan bütövlükdə ifadə olunduğu kimi, bədii mətndə də mövzu, əsərin qayəsi, yaradıcı laboratoriyasının əsrarəngizliyi özünü göstərir. H.Orucovu da ədəbi mühitə sevdirən və əsərlərinin oxunaqlığını müəyyənləşdirən başlıca vasitə üslub mükəmməlliyidir. Əsərlərində boy göstərən yazıçı mövqeyi, şəxsiyyət orijinallığı məhz bu üslubla nümunəyə çevrilir.

H.Orucovun yaradıcılığı bu baxımdan üfiqi və şaquli yanaşmalarda daha geniş təhlil-müşahidələrə yol açır. Poeziya, nəsr, publisistika, dramaturgiya və tərcümə sahəsindəki fəaliyyətinin üslub baxımından təhlili sinxron və diaxron yanaşmalarda bir möhtəşəmliyi diqqət önünə gətirir. "Rayonumuz Arazın qırağındadır. Kəndimiz Arazacan doqquz-on kilometr ola-olmaya. "Almaniya dəftərindən" ("İrəvanda xal qalmadı" kitabından, 1984-cü il) sətirlər düşər yadıma" deyiminin ortaya qoyduğu informasiya tarixi reallığı, ikiyə bölünmüş vətənin acılarını və xalq timsalında yaşananları bir bütöv olaraq diqqət önünə gətirir. Araz, Təbriz, Xoy, Mərənd, Səlmas, Ərdəbil və s. baş verən olaylardan sonra yaddaş hadisəsi olaraq mövzuya çevrildi və tarixi vətənin müqəddəslik simvolu olaraq bütün müstəvilərdə mövcud boşluğu doldurdu. Daha doğrusu, itirilmiş vətənin ayrılıq simvolu olaraq obrazlaşmasını nəğmə, bayatı, rəvayət, dastan və s. səviyyələrdə cızdı. Ədibin üslub müəyyənliyi onun şəxsiyyəti, yaradıcı istedadı ilə birgə inkişaf keçirmiş və zənginləşmələrlə ədəbiyyatımıza öz töhfəsini vermişdir. "İrəvanda xal qalmadı", "Ömürdn uzun gecə", "Tamaşadan sonra" və s. əsərləri bunun tipik nümunəsi olaraq diqqət önünə gəlir. Məsələn, "İrəvanda xal qalmadı" əsərindən maraqlı bir epizoda diqqət yetirək: "Niyə bu mahnını tez-tez oxuyardı görəsən? Onda uşaqlığın ilk çiçək mövsümündə bu sual hələ oyanmamışdı Sultanın qəlbində. Sonra da oyanmadı heç. Atasının dramatik ilk məhəbbəti haqda Sultan ərsəyə çatandan sonra eşitdi, Smbat kişi gözləri dola-dola hər şeyi yerli-yataqlı danışdı ona: atası gəncliyində Sevda adlı bir qız sevirmiş İrəvanda. Sevda gözəl imiş, ağıllı imiş, Sevda Kamalı hədsiz sevirmiş, Sevdanın sol yanağındakı xal onu daha da gözəlləşdirirmiş. Sevda Zəngəzura atası ilə dincəlməyə gəlibmiş. Atası el həkimi imiş Sevdanın, Kamalgilin qonşuluğunda kirayələdiyi evdə günortadan sonra xəstələri qəbul edərmiş. Sevda ilə Kamal vurulurlar bir-birinə. İki həftədən sonra Sevdanın atası işdən halı olur, qızını bostançıya vermək dəhşətli faciə kimi görünür ona, bir səhər alatoranında heç kəsə demədən, qızını da götürüb kənddən çıxır" [6, s.188]. Və yaxud da yazıçı müəyyənliyində digər bir epizoda diqqət yetirək: "Sultan otuz doqquz yaşındadır. Günəşi də qara bulud kimi görünən o xoflu may axşamı Sultanın yeddi yaşı tamam olmamışdı hələ. Amma kitablarını anasının qəhvəyi parçadan tikdiyi çiyin çantasına yığıb sentyabrı gözləyirdi. Sentyabr gələcəkdi, amma Nəcəf müəllim onu sinfə buraxacaqdımı? Axı yeddi yaşı hələ noyabrda tamam olacaqdı. Son iki ildə sentyabr adını eşidəndə Nəcəf müəllimin sözləri cingildəyirdi qulaqlarında: Yaşın çatmır hələ... Maarif nazirliyinin təlimatında yazılıb ki...

Bu sözləri ilk dəfə kolxoz sədrindən eşidən günü kəndlərinin kolxoz sədrindən soruşdu:

-Maarif nazirliyi kimdir?

Sədr başa düşdüyü tərzdə izah eləmişdi.

-Bəs “Təminat” onun nəyidir?
“Təlimat” “təminat” kimi qalmışdı yadında.
Sədr yenə başa düşdüyü tərzdə izah eləmişdi.
-Sən böyüksən, yoxsa o maarif nazirliyi?
Sədrin cavabı indi də yadındadır:
-Baxır yerinə, burda mən böyüyəm, orda – o.
-Onda Nəcəf müəllimə de ki, məni məktəbə götürsün” [6, s.188]. Bu iki epizod yazıçı üslubunu, hadisə və epizodları bir-birinin axarında özünə məxsus təhkiyə ilə sıralama bacarığını aydınlıqla ortaya qoyur. Elat həyat tərzinə, onun qaynar mühitinə çal-çağırlı yaşam tərzinə, qayğı və istəklərinə lazımı qədər bələd olan, həm də onun bir hissəsi olaraq o həyatı yaşayan sənətkar təbii şəkildə görüb müşahidə etdiklərini, xalq arasında söylənilənləri tipik şəraitdə bədii mətmnə gətirir. Heç bir boyaq vurmadan, əlavə qatqı etmədən yüksək intelleksiya ilə xalq düşüncəsində olan səviyyədə mətnə gətirir. Burada motivləşmə Sultan, Nəcəf müəllim, sədr timsalında verilən epizod o qədər ustalıqla və təbii şəkildə canlandırılır ki, yazıçı onunla həmin dövrün ümumiləşmiş mənzərəsini, kasıb həyat tərzi timsalında ananın parçadan oğluna məktəb çantası tikməsini və əhalinin maarif nazirliyi, maarif naziri timsalında elə də informasiyaya (bilgiyə) malik olmadığını diqqət önünə gətirir. “Sən böyüksən, yoxsa o maarif nazirliyi” sualı həmin təbiiliyin klassik örnəyidir. Bütün bunlar hansısa epizodun, yazıçı təxəyyülünün faktından çox uzaq olan örnəkdir, əksinə dövrün reallıqlarını, maariflənmənin gərəkliyini çatdırma amalını faktlaşdırır. “Öz üslubunu təyin etmək və ona daim sadiq yaşayıb yaratmaq şair üçün səadətdir. Başqalarının söz, düşüncə və duyğu pərdələri altında gizlənib qalmaq şair üçün fəlakətdir” [8, s.34]. H.Orucovun yaradıcılığı (poeziya, nəsr, publisistika, dramaturgiya) məhz üslub müəyyənliyində uğurluluq qazanır və sənətkar qayəsini müəyyənlikli ifadəyə yüklənir. Onun şeir istedadı sankı nəsri üçün dil və üslub müəyyənliyində bir körpü funksiyasını yerinə yetirir.

Sadə, aydın, qaynar elat həyat tərzi və yazıçının bu həyata bütün parametrlərdə bələdliyi və onu yaşaması, yaddaş səviyyəsində ruhani dünyası ilə ora bağlılığı bədii nəsrinin ana axarı olaraq özünü göstərir. Və buna görə də H.Orucov mövzu çətinliyi çəkmir, elə müdriklərin dilindən eşitdiklərini, evdə, ailədə böyüklərindən qohumlarından eşitdiklərini olduğu kimi, daha doğrusu dərk etdiyi səviyyədə bədii mətnə gətirir və burada nağıl, rəvayət, əfsanə ruhu, sadə, aydın elat danışıq tərzi aparıcılıq qazanır. Əsər boyu özünü göstərən ifadə formulları yazıçı orijinallığı timsalında əlçatmazlığın təminatçısına çevrilir. Nəcəfin, Sultanın, kolxiz sədrinin, Smbat kişinin, Kazımın, Kamalın, Sevdanın və başqalarının timsalında olanlar bunun örnəyidir. “Bədiilik elə ondan ibarətdir ki, bir cizgi, bir sözlə elə bir şeyi bizə canlı və hərtərəfli təqdim edir ki, bədiilik olmasa həmin şeyi heç on cilddə də ifadə edib qurtara bilməzsən. Elə bu səbəbdəndir ki, bədiilikdən uzaq olan bütün əsərlərdə sözçülük həddindən çox olur. Sənətkarın isə əksinə sözçülüyə ehtiyacı yoxdur: izahına bəzən bir cild lazım olan fikri ifadə etmək üçün ona bir neçə cizgi və bir neçə söz kifayətdir” [2, s.226]. H.Orucovun bədii nəsri bu baxılmdan kifayət qədər ytüksək sənət intelleksiyası ilə geniş təsirliliyə və mahiyyəti ifadəyə bağlanır. “İrəvanda xal qalmadı”da daha bir epizoda diqqət yetirək: “İl yarım yatıb kəndlərinə qayıtdı Kamal. El-obası onu əsl məhəbbət aşiqi kimi qarşıladı. Qonşu, uzaq kəndlərdən də onun görüşünə gələnlər olurdu, ətraf rayonlardan da.

Tanıyan da gəlirdi, tanımayan da.

Atası qurban kəsdi.

Anası nəzir payladı, Molla Xanlara təzə dualar yazdırdı.

Bu vaxt Kamalgilin kəndinə bir çərçi gəldi. İrəvandan gəlmişdi, bu çərçi amma əsli Ərdəbildən idi. Kamalgilin qonşuluğunda gecələdi, o evdə ki, neçə il qabaq Sevda atası ilə qalmışdı. Söhbət necə oldusa Sevdagilin üstünə gəldi [6, s.191]**.** Bütöv bir təfsilatı ortaya qoyan bu epizod müəllif düşüncəsində özünəməxsus ifadə üsulları, keçid formulları və hadisələrin ardıcıllığı ilə möhtəşəm bir mənzərəni canlandırır. Müəllifin yazı manerası, hadisələri sıralama səriştəsi və çatdırma janrları ancaq və ancaq yüksək ustalığa, nağıl təhkiyəsindən gələnlərə bağlanır. Xalq məişətinə, dil zənginliklərinə, elat həyat tərzinə dərindən bələd olan sənətkar bədii nəsrində də, publisistikasında da üslubuna sədaqət göstərir və nəyi necə verməyin gərəkliyini yazıçı istedadı ilə duyub müəyyənləşdirir. Qonağın dedikləri Sevdanın acı taleyini bir bütöv olaraq ortaya qoyur. “Xaloğlum şəninə sığışdırmadı bu izdivacı. Qız unutmadı. Ərdəbildən Arazacan gizli yollarla, dağla-daşla qaçıb gəldi. Arazı keçə bilmədi, qızılgüllərin açan vaxtıydı, çayların daşan vaxtıydı. Biçarənin meyitini iki həftə sonra Arazın bir adasında tapdılar” [6, s.192]**.** Bu hadisədən sonra İrəvanda xal qalmadının oxunması mətn semantikası, işarələdiyi məzmunla bütöv bir tarixi və bu mahnı səviyyəsində olanlardan Sevda ilə Kazımın acı taleyinə qədər son dərəcədə böyük bir keçmişi və qatışıq zamanları faktlaşdırır, eyni zamanda yazıçının bu ifadəni işlətməsinin məramı aydınlaşır.

H.Orucovun bədii nəsri onun poeziyası qədər canlı və təsirlidir. Yazıçı hər bir nəsr nümunəsi ilə həyatın müəyyən həqiqətlərini, görüb bildiklərini obrazlı şəkildə, həm də ümumiləşdirmələrlə canlandırır.

Burada məsələ təkcə bədiiliyin yaratdığı ovqatla məhdudlaşmır, müəllifin çatdırmağa çalışdığı ideya tərbiyəvi mahiyyəti, insani dəyərləri təlqin etmə gücü ilə də ciddi məzmun daşıyır. Yazıçı ümumiləşdirmələrində həyat canlı və obrazlılıq anlamında daha təsirli və sənətkar idealını faktlaşdırma amalı ilə əhəmiyyət daşıyır. Məsələn, "Ömürdən uzun gecə" hekayəsi Təvəkkül timsalında aludəçilikləri, mənsəb və vəzifə tutma baxımından ona qapanmanı, daha ağır nəticələrini diqqət önünə gətirir. H.Orucov həyatın zənginlikləri, müxtəlifliklər müstəvisində bütün işlərin nizamlanmasını, hər şeyin (vəzifənin də, sosial çevrənin də, ailənin də və s.) öz yerinin olduğunu və bunu taraz aparmağın gərəkliyini Təvəkkül timsalında faktlaşdırır. *Salam maşını düz onların küçə qapısında saxladı.*

-Mən də düşdüm, - təklif-zad gözləmədən maşının açarlarını qıfıldan çıxarıb pencək cibinə atdı, - anam xəstələnəndən bəri kişiyə baş çəkə bilməmişəm. Sən gəldin, yəqin yatıbsa da oyanacaq.

Deməli, Salman bura gəlib-gedirmiş.

Təvkkül donub yerində qalmışdı.

Salman Təvəkkül oturan tərəfin qapısını açdı:

-Kimi gözləyirsən?

Təvəkkül susurdu.

Küçə qapısı açıq idi. Qafar kişi ilə Taksi Karapet dinməz-söyləməz həyətdə mağar qururdular [6, s.182]**.** Həyat özlüyündə ucu-bucağı görünməyən əhvalatlarla, tipik hadisə örnəkləri ilə doludur. Yazıçı müşahidələri onun istedadı və bacarığı timsalında seçimə bağlanır. H.Orucovun nəsri də məhz bu zənginliyin ən tipik örnəkləri səviyyəsində ümumiləşdirmələrə bağlanır. Bunların hər birisi hansısa hadisə və əhvalatı işarələməklə insanları həyati bacarıqlara, etnik yaşam prinsiplərinə kökləmək kimi missiyaya yüklənir. "Dəyməyin, qoyun ağlasın" artıq keçmişin səhvlərinin göz yaşlarıdı və bir ibrət örnəyidir. Ona görə də əsərin sonluq formulu "səhər isə açılmaq bilmirdi. Ömürdən də uzun idi bu gecə" reallığını ortaya qoyur. Həyatın ibrətamiz dərslərinə, sərt həqiqətlərinə və yüksək insani dəyərlərin qoruyuculuğuna yükləyir. Yazıçı fərdiyyəti, sənətkar üslubu, həyat hadisələrinə yanaşma faktı bütün bunlar timsalında bir möhtəşəmliyi diqqət önünə gətirir və eyni zamanda bədii nəsrin uğurlu örnəyi olaraq yaşarlıq qazanır.

Tipik şəraitdə tipik xarakter yaratmaq bacarığı bütünlükdə yazıçı idealında, həyat həqiqətlərini hansı səviyyədə dərk etməsinə və təqdim üsullarına bağlanır. "Tamaşadan sonra" povesti də ədibin həyat lövhələrini canlandırma imkanları ilə lazımı qədər diqqətçəkici təsir bağışlayır. Məlum olduğu kimi, "sözün ifadəliliyi yalnız onun ifadə etdiyi mənadan yox, yalnız onun leksik mənasından yox, həm də onun stilistik siqlətindən, eləcə də sözün akustik çalarından tutmuş assosiativ-emosional çalarına qədər başqa sözlə müxtəlif əlaqələrindən də asılıdır" [9, s.61]**.** Çağdaş ədəbiyyatın istedadlı nümayəndələrindən olan H.Orucovun bədii nəsri dil, üslub, mətn informasiyası və onun işləkliyi baxımından kifayət qədər uğurlu təsir bağışlayır. "Tamaşadan sonra" povesti bu baxımdan siyasi hakimiyyət (rayon rəhbərliyi) timsalında bir bütövü əhatələyir. Povestdən aydınlaşır ki, Sahil şəhərinin teatrında şair Savalanın əsəri tamaşaya qoyulur. Əsər geniş xalq kütləsi tərəfindən böyük marağa səbəb olsa da, şəhər rəhbərliyi, mənsəb və səlahiyyət sahibləri tərəfindən tənqidlə qarşılanır. Çünki orada idarəetmədə baş verən hadisələr, çatışmamazlıqlar özünün ifadəsini tapır. "*Başqa vəzifəlilər də Savalanı təbrik elədilər. Və lap axırda prokuror yaxınlaşdı:*

-Mən dünən dedim ki, ailəliklə gələcəyik. Bu, oğlumdur, bu, qızım.

-Allah saxlasın, maşallah, böyüyüblər, xoşbəxt olsunlar!

Elə bil çoxdan tanıyırdı bu uşaqları, atalarına da oxşayırdı, Əsmərə də.

-Bu da uşaqların anasıdı.

-Xoş gördük! Necəsiniz?

Savalanın rəngli yuxusu sanki indi başladı. Əsmər az dəyişmişdi, saçlarında tək-tük dən vardı, bir azca da kökəlmişdi. Gözləri həmin gözlərdi, qapqara, dərin, mənalı". Birinci katibin "artistliyi" hətta teatrın peşəkar artistlərinin də təccübünə səbəb olur". Bütün bunlar sənətkarın hər kəsi öz dilində danışdırma bacarığından, ona yanaşma, onu açma imkanlarından irəli gəlir. Beləliklə, H.Orucovun bədii nəsri təkcə məzmun və mövzu zənginliyi ilə maraq doğurmur, həm də ifadə üsulları, nəsr poetikası baxımından da dolğun təsəvvür formalaşdırır.

Ədəbiyyat

1. Aslan M. "Ömürdən uzun gecə"lər yaşandı. "Ekran-efir" qəzeti, 12-18 aprel 1996.
2. Belinski V.Q. Seçilmiş məqalələri. Bakı: Gənclik, 1979, 227 s.
3. Cəfərov N. Hidayət. Bakı: AzAtaM, 2015, 160 s.
4. Əliyeva S. Sabah ümidi ilə. "Azərbaycan" jurnalı, 1991, № 1, s. 164.
5. Hacıyev A. Ədəbiyyatşünaslığın əsasları. Bakı: ADPU, 2010, 370 s.
6. Hidayət. İrəvanda xal qalmadı. Yerevan, Sovetskan Qrof, 1984, 288 s.
7. Hidayət. Əsərləri. Səkkiz cilddə. I c., Bakı: Apostroff MMC, 2011, 480 s

8. Rəfili M. Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı: Azərnəşr, 1958, 282 s.
9. Шмелев Д.Н. Слово и образ. Москва: Наука, 1964, 120 с.

РЕЗЮМЕ
ВЫРАЗИТЕЛЬНОСТЬ И СТИЛИСТИЧЕСКАЯ ДОСТУПНОСТЬ В ХУДОЖЕСТВЕННОЙ ПРОЗЕ Х.ОРУДЖЕВА
Гасанова Ш.А.

Ключевые слова: *драматургия, образ, художественная проза, публицистика, современный, литературная среда, проблемная тема.*

Хидаят Оруджев – одна из известных личностей, всю свою сознательную жизнь посвятившая развитию азербайджанской литературы и культуры, укреплению азербайджанской государственности, удостоившаяся любви литературной общественности нашего народа и пользующаяся большим уважением в среде политической элиты. Почитаемый всеми интеллигент... Однко во всех отношениях он все-таки поэт. Богатое литературное наследие Хидаята Оруджева, одного из известных представителей современной азербайджанской литературы, как проблемная тема в разных направлениях привлекало и продолжает привлекать к себе внимание литературно-теоретической мысли. С первых своих шагов в литературе Хидаят Оруджев своим оригинальным мышлением и образным подходом к жизненным событиям привлек внимание литературной критики.

SUMMARY
EXPRESSIVENESS AND STYLISTIC ACCESSIBILITY IN FICTION H.ORUJOV
Hasanova Sh.A.

Key words: *dramaturgy, image, artistic prose, journalism, contemporary, literary environment, problematic topic.*

Hidayat Orujov is one of the well-known personalities who dedicated his entire conscious life to the development of Azerbaijani literature and culture, strengthening of Azerbaijani statehood, loved by the literary community of our people, and highly respected in the environment of the political elite. He is a distinguished type of intellectual... But at all times he is still a poet. The rich literary heritage of Hidayat Orujov, one of the well-known representatives of contemporary Azerbaijani literature, has attracted the attention of literary and theoretical thought in various directions as a problem topic and continues to do so today. Hidayat Orujov attracted the attention of literary critics with his original thinking and figurative approach to life events from the first days of his entry into literature.

İNGİLİS DİLİNDƏ FEİLİN ŞƏKİL KATEQORİYASI

Hüseynova T.E.
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
huseynova.turkan@rambler.ru

Açar sözlər: *qrammatik, şəkil, kateqoriya, feil, reallıq, qeyri-reallıq*

İngilis dilində feil şəkillərinin sayını müəyyən etmək hər zaman dilçilər arasında mübahisəli məsələ olub. Niyə şəkil kateqoriyanı anlamaq üçün dilçilər arasında bu qədər mübahisə və fikir ayrılığına səbəb olduğunu bilmək üçün ingilis dilinin tarixinə müraciət etmək, dilin inkişafı prosesində sabcanktiv şəklin forma və semantikasının necə dəyişdiyini müşahidə etmək və bu dəyişikliklərin qanunauyğunluğunu müəyyən etmək lazımdır. Belə ki, tədqiqatçı L.S. Bərxudarov yalnız iki şəkli - indikativ və əmr şəklini fərqləndirib. [2; s. 67] Alman tədqiqatçısı M.Deutşbein isə bu fikrə zidd olaraq formaların müxtəlifliyini nəzərə almış və yalnız sabcanktiv şəklin 16 növünü təyin etmişdir. Filoloq B.A. İliş şəkil kateqoriyasını iki istiqamətdə tədqiq edib: məna baxımından 4 şəkli və ifadə üsulları baxımından 6 şəkli müəyyən edib. [9; s. 90] Ən çox rast gəlinən feilin şəkil kateqoriyasının üç növə bölünməsidir: real hərəkəti ifadə edən (Indicative mood) indikativ şəkil, hərəkətə vadarlıq ifadə edən (Imperative mood) imperativ şəkil və ehtimal, fərziyyə və qeyri-reallığı ifadə edən (Subjunctive mood) sabcanktiv şəkil. Bununla belə, A.İ. Smirnitski və O. Cespersenin oxşar fərziyyələrinə müraciət edəcəyik. Burada indikativ, imperativ və sabcanktiv şəkil ilə yanaşı, daha bir şəkil - (*conditional mood*) kandişinal şəkil də fərqləndirilmişdir. Müəllifə görə bu şəkil sabcanktiv şəkildən fərqli olaraq, bəzən gerçəkləşə bilən hərəkəti ifadə edir. [6; s. 287].

Kandişinal şəkli şərt budaq cümləli mürəkkəb cümlənin baş cümləsində "*should"* və *"would"* feilləri ilə düzələn analitik formalardan istifadə etməklə ifadə olunur. [12; s. 223]

Əksər qrammatistlər şərt şəklini (Smirnitskiyə görə kandişinal şəkli *sabcanktiv II* - dir) fərqləndirirlər ki, bu da *"real şərt"* formasına və *"qeyri-real şərt"* formasına bölünür. Şərt şəkli şərt, güzəşt və müqayisə budaq cümlələrində işlənir. [7; s. 72]

Məs: *"He said: "If I have time, I shall go". (= perhaps I'll have time, so perhaps I'll go)*" [1; s. 113] *O, dedi: "Əgər vaxtım olsa gedəcəm" (= ola bilsin ki, vaxtım olsun, beləliklə ola bilsin ki gedəcəm)* bu

cümlədə hərəkətin icra olunması mümkündür və müəyyən şərtdən asılıdır. Əgər həmin şərtdən asılı olaraq mümkün olsa hərəkət reallaşacaq.

Məs: *"He said: "If I had time, I would go" . (= I don't have time today so I will not go)"* [1; s. 113] O dedi: "vaxım olsaydı gedərdim". (= vaxtım olmadığı üçün getməyəcəm). Bu nümunədə isə hərəkətin reallaşması haqda danışa bilmərik. Çünki danışan hərəkəti keçmişdə vaxtı olmadığı üçün reallaşdıra bilməyib və indi hərəkətin icra olunmama səbəbinin hansısa şərtdən asılı olduğunu izah edir.

Bu şəkil baş (arzu və ya qeyri-real şərti ifadə etmək üçün) və budaq cümlələrdə (şərt mənasını ifadə edərək) işlənmişdir. Sabcanktiv şəkil həm güzəşt, həm də güman bildirən budaq cümlələrdə, həm də vasitəsiz nitqdə istifadə edilir. [8; s. 132-133]

Feilin əmr və sabcanktiv şəkilləri semantik baxımdan oxşarlıqlara malikdir. Qədim ingilis dilində şəkil kateqoriyasına aid məqalənin müəllifi Yu.I. Qurovun dediyinə görə, " hər bir təşviqin, vadarlığın əsasında arzu, istək dayanır." [5; s. 5]

Beləliklə, məsələn, sabcanktiv şəklində olan bir feil şərt budaq cümlələrində bir arzu / motivasiya və ya qeyri-müəyyənlik və ya şübhə mənalarını ifadə edə bilər.

Sabcanktiv şəkil, bir qayda olaraq, ifadə olunan məna və ya ifadə üsulundan asılı olaraq növlərə bölünür, ona görə də feilin bu kateqoriyası ilə bağlı belə müxtəlif fikirləri müşahidə edə bilərik. Ə.İ.Smirnitskinin nəzərə aldığı sabcankiv şəklin qruplaşdırılmasının əsasını semantika təşkil edir. Smirnitski ingilis dilində sabcanktiv şəklin dörd növünü fərqləndirir: sabcanktiv I, sabcanktiv II, kandişinal və sapozişinal şəkli. Hər birinin öz istifadə xüsusiyyətləri, formaların formalaşması və ifadə edilmiş mənası var. Feil şəklinin hər dörd növü üçün ümumi olan, onların reallığa zidd hərəkəti ifadə etmələridir. Qeyri-reallığı ifadə etmək üçün isə sadəcə feilin zaman dəyişikliyindən (*Shifting of Tenses*) istifadə olunur. Feilin keçmiş zamanı indiki zamanda qeyri-real hərəkəti ifadə etmək üçün, feilin keçmiş bitmiş zamanı (*Past Perfect*) isə keçmişdə qeyri-real hərəkəti ifadə etmək üçün istifadə olunur.

Sabcanktiv şəklin formaları indikativ şəklin formalarından fərqlənmir, yəni *"to be"* feili sabcanktiv şəklin sintetik forması olduqda şəxsə görə dəyişmir, yəni indiki zamanda bütün şəxslərdə eyni formada olur (*-be*) ; keçmiş zamanda isə bütün şəxslərdə eyni olan - *were* forması işlənir. [4; s. 126]

Məs: *"If he were not ill he would come."* [1; s. 115] Xəstə olmasaydı gələrdi. Nümunədən də göründüyü kimi, üçüncü şəxsin təkində *was* deyil *were* işlənmişdir və hərəkətin qeyri-reallığını ifadə edir. Yəni xəstə olduğu üçün gələ bilməyib.

A.I. Smirnitskinin bölgüsündəki sabcanktiv şəklin növlərinin daha ətraflı nəzərdən keçirilməsinə baxaq. Subjunctive I – sabcanktiv I (*if he be; I suggest that he go*) şərt budaq cümləsində işlənir: "*If he were to ask me (əgər məndən xahiş etsəydi) I would probably agree (yəqin ki, razılaşardım")* [1; s. 111]. Eyni zamanda, A.İ. Smirnitski qeyd edir ki, hərəkət mütləq qeyri-mümkün və ya real olmayan hərəkəti ifadə etməli deyil. [11; s. 352]

Suppositional Mood - sapozişinal şəkli mümkün olmayan bir fərziyyəni ifadə edir və *("should"* köməkçi feili və məsdər) analitik formalarla düzəlir. Sapozişinal şəkli *(so) that* (belə ki), *lest* (əgər yox), *if* (əgər) bağlayıcıları ilə bağlanan zərf budaq cümlələrində işlənir. [11; s. 353] *"She seemed nervous lest she should miss the train."* [1; s. 138] O, qatara gecikəcəyi üçün narahat idi.

Conditional mood - şərt şəkli, qeyri-real şərtdən asılı olan qeyri-reallığı ifadə edir. Şərt şəkli tələb olunan hərəkətin zamanından asılı olaraq *would* və *should* köməkçi feilləri və keçmiş sadə zaman və ya feili sifət II köməkçi feillərindən istifadə etməklə düzəlir. Məs*: "If you knew him better you wouldn't think so."* [1; s. 115] Əgər onu yaxşı tanısaydın, belə fikirləşməzdin. *"If he hadn't insisted upon her going there, nothing would ever have happened."* [1; s. 116]. O, onu oraya getməyə məcbur etməsəydi, heç nə olmazdı.

Nümunələrdən də göründüyü kimi, şərt şəkli də hadisənin reallığını deyil, qeyri-reallığını ifadə edir. Fərq isə ondadır ki, kandişinal şəkli birinci cümlədə indiki zamanda, ikinci cümlədə isə keçmiş zamanda işlənmişdir. Beləliklə şəkil kateqoriyası real, qeyri-real, fərziyyə, güman, vadarlıq və s. mənaları ifadə etmək üçün işlədilir.

Ədəbiyyat

1. Asadov A.Practical English Grammar. Morphology. Baku, 2016, p.372
2. Бархударов Л.С. Штелинг Д.А. Грамматика английского языка [Книга]. – М.: Ленанд, 2016. - с. 424.
3. Виноградов В.В. Русский язык. Граматическое учение о слове [Книга] / ред. Золотова Г.А.. – М.: «Русский язык», 2008. - с. 354.
4. Грузинская И.А. Грамматика английского языка [Книга]. – М.: Высшая школа, 2012. - 15-е : стр. 255.
5. Гурова Ю.И. Грамматическая категория сослагательного наклонения в древнеанглийском языке [Журнал] // Современные проблемы науки и образования. - Пенза : Издательский Дом "Академия Естествознания", 2013 г. - с. 386.

6. Есперсен О. Философия грамматики английского языка [Книга]. – М.: [б.н.], 2004. - с. 480.
7. Иванова И.П. Бурлакова В.В., Почепцов Г.Г. Теоретическая грамматика английского языка [Книга]. – М.: Высшая школа, 2007. - стр. 287.
8. Ильиш Б.А. История английского языка [Книга]. – М.: Высшая школа, 2012. - пятое : с. 420.
9. Ильиш Б.А. Строй современного английского языка [Книга]. – СанктПетербург : Просвещение, 2008. - с. 356.
10. Каушанская В.Л. Грамматика английского языка [Книга]. – М.: Айрис Пресс, 2008. - 5-е изд., испр. и доп. : с. 384.
11. Смирницкий А.И. Морфология английского языка. [Книга]. – М.: Прогресс, 2009. - с. 440.
12. Смирницкий А.И. Синтаксис английского языка [Книга] / ред. В.В. Пассек. – М.: Либроком, 2015. - с. 296.

РЕЗЮМЕ
КАТЕГОРИЯ ФОРМЫ ГЛАГОЛА В АНГЛИЙСКОМ ЯЗЫКЕ
Гусейнова Т.Е.

Ключевые слова: *грамматический, наклонение, категория, глагол, реальность, ирреальность*

Для того, чтобы понять причину, по которой категория наклонения глагола в английском языке вызвала столько споров среди исследователей и столько разногласий во мнениях о ней, необходимо просмотреть историю этой категории. При изучении категории наклонения одни лингвисты учитывали форму, другие - значение. Категория наклонения глагола в основном группируется под названием изъявительного, сослагательного наклонения, повелительного наклонения, условного, предполагаемого наклонений. В то время как повелительное наклонение выражает поощрение, предположение, возможность, сослагательное наклонение выражает нереальность. Условное наклонение в основном используется в придаточном предложении уступки, условия и сравнения, выражая значение условия. Сослагательное наклонение, которое образуется с помощью аналитических форм, выражает гипотетические значения и используется в главных предложениях. В отличие от всех остальных наклонений изъявительное наклонение выражает действительность и образуется при участии временной категории глагола. Все эти перечисленные наклонения указывают на то что, действия реальны или нет.

SUMMARY
THE CATEGORY OF THE VERB FORM IN ENGLISH
Huseynova T.E.

Key words: *grammatical, mood, category, verb, reality, irreality*

In order to understand the reason why the category of mood of the verb in English has caused so much controversy among researchers and there is so much differences of opinions about it, it is necessary look through the history of this category. While studying the category of mood some linguists have taken into account the form while the others have taken into account the meaning. The category of mood of the verb is mainly grouped under the name of indicative, subjunctive, imperative, conditional, suppositional moods. While the imperative mood expresses encouragement, willingness, possibility, the subjunctive mood expresses unreality. The conditional mood is mainly used in adverbial clause of concession, condition and comparison, expressing the meaning of condition. The suppositional mood, which is formed with the analytical forms, expresses hypothetical meanings and is used in main clauses. Unlike all the other moods, the indicative mood, expresses reality and is formed with the participation of the tense category of the verb. All these listed moods indicate whether the fulfillment of the action is real or not.

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN İDARƏ EDİLMƏSİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN ÜSTÜNLÜKLƏRİ

İsmayılova N.N.
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
inr2112@gmail.com

Açar sözlər*: idarəetmə, informasiya və telekommunikasiya texnologiyaları, təhsilin informasiyalaşdırılması, kompüter texnologiyası*

Təhsil müəssisəsinin idarə edilməsi, bir-biri ilə əlaqəli məqsəd və vəzifələrin məcmusundan, təhsil prosesinin təhlilindən, onun planlaşdırılmasından və təşkilindən, optimal və effektiv metodların, forma və vasitələrin seçilməsindən, pedaqoji proses, eləcə də bütün iştirakçılar arasında qarşılıqlı əlaqəni təmin edən mürəkkəb prosesdir. Təhsil müəssisəsinin idarəetmə sistemi dedikdə, təşkilatın rəhbərliyi və müəllim heyətinin mövcud qüvvələrdən, vaxtdan, maddi resurslardan səmərəli istifadəyə yönəlmiş proses başa düşülür. Ümumilikdə idarəetmə dedikdə, idarəetmə fəaliyyəti subyektinin səmərəli fəaliyyətini təmin etmək və qarşıya qoyulan məqsədə nail olmaq üçün sosial obyektə sistemli və məqsədyönlü təsiri başa düşülür.

İdarəetmə, müəssisəsinin öz məqsədinə çatması üçün və digər resurslara nəzarət etmək, səmərəliliyin artması üçün planlaşdırma, təşkiletmə, nəzarət kimi funksiyaları özündə birləşdirən prosesdir. İdarəetmədə ən başlıca məqsəd cəmiyyətin obyektiv imkanlarından istifadəni təmin etməkdir. Elmi-texniki tərəqqinin

gətirdiyi texnoloji yeniliklərin arasında məlumat bazaları və onların idarə edilməsi nəzərdə tutulur. Qloballaşma şəraitində informasiya axını və informasiya əldə etmək imkanı da genişlənir.

Direktorun məktəbin idarə olunmasında istifadə etdiyi informasiya texnologiyaları vasitələri, müasir idarəetmə metodlarından istifadəni, qərarların qəbulu prosesində müxtəlif riyazi model və metodlardan istifadəni və zəruri informasiya bazasının yaradılmasını nəzərdə tutan inteqral sistemdir. Bu sistem, kompüter texnologiyası və rabitə vasitələrinə əsaslanaraq, təhsil sisteminin səmərəliliyinin artırılmasında yeni keyfiyyətə nail olunmanı təmin edir. Texnologiya və informasiya texnologiyaları anlayışlarına nəzər yetirək.

Texnologiya – "techne" (bacarıq, ustalıq), "logos" (öyrənmə, idrak) sözlərinin birləşməsindən yaranmışdır və istehsal proseslərinin yerinə yetirilməsi üçün üsullar və vasitələr haqqında biliklər toplusunun və həmin proseslərin özlərini ifadə edir[2, səh.18]. Bu sözün müasir anlayışı praktiki problemlərin həlli üçün elmi və mühəndislik biliklərinin tətbiqini əhatə edir.

İnformasiya texnologiyası – verilənlərin toplnamsı, ötürülməsi və emalı üçün metod və vasitələrdən istifadə etməklkə tədqiq olunan obyektin, prosesin, hadisənin vəziyyəti haqqında informasiyanın alınması prosesidir[2, səh.17]

İnformasiya texnologiyalarının məqsədi təşkilatın rəhbəri tərəfindən təhlil üçün idarəetmə məlumatlarının istehsalı və onun əsasında müəyyən bir idarəetmə hərəkətinin həyata keçirilməsi barədə qərar qəbul edilməsidir. İdarəetmədə informasiya texnologiyaları, obyektin vəziyyəti və idarəetmə prosesi haqqında "idarəetmə məlumatı" əldə etmək üçün informasiyanın toplanması, emalı və ötürülməsi vasitələri və üsullarının məcmusudur.

V.A.Slastyonin məktəbdaxili idarəetmə dedikdə, optimal nəticə əldə etmək üçün obyektiv qanunauyğunluqlara əsaslanan vahid pedaqoji proses iştirakçılarının məqsədyönlü, şüurlu qarşılıqlı əlaqəsini nəzərdə tutur.[5] Beləliklə, təhsil müəssisəsinin rəhbərliyi altında səmərəli fəaliyyətini təmin etmək üçün müxtəlif səviyyələrdə idarəetmə subyektlərinin sistemli, planlı, şüurlu və məqsədyönlü qarşılıqlı əlaqəsini başa düşürük. Təhsilin idarə edilməsi təhsil sisteminin tam fəaliyyət göstərməsi və inkişafı üçün təhsil müəssisələri rəhbərlərinin məqsədyönlü fəaliyyətidir. İdarəetmə həm də lazımi pedaqoji şəraitin, metodların, vasitələrin və təsirlərin köməyi ilə məqsədlərə faktiki nail olmaqda onun yeni, keyfiyyətcə daha yüksək səviyyəyə keçirilməsi, idarə olunan sistemin optimal inkişafı deməkdir.

Müasir təhsili idarəetmə sistemlərində universal ofis proqramları və informasiya-kommunikasiya texnologiyaları vasitələrindən geniş istifadə olunur: mətn prosessorları, elektron cədvəllər, təqdimatların hazırlanması proqramları, verilənlər bazası idarəetmə sistemləri və s. Məsələn, elektron jurnallar sistemi müəllimlər üçün çox əlverişlidir - təhsil müəssisəsinin vahid məlumat və təhsil məkanını yaratmaq və təhsil müəssisəsinin tələbələrin valideynləri ilə qarşılıqlı əlaqəsi üçün güclü, ən əsası, tamamilə pulsuz vasitədir. Bu sistemlə müəllimlər valideynlərlə rahat ünsiyyət imkanı əldə edirlər. Bu sistemin köməyilə hesabatlarını tərtib edilə, elektron test təşkil etmək olar. Elektron jurnal sistemi hər bir sinif üçün cədvəl dərc etmək, sinif adlarını təyin etmək, məktəb haqqında məlumat yaymaq və şagirdin gündəliyini doldurmaq imkanı verir.

Qeyd edək ki, 2020-2021-ci tədris ilindən etibarən ölkənin seçilmiş təhsil müəssisələrində "e-Jurnal" layihəsinin tətbiqi prosesinə başlanılıb. Hazırda Bakı, Sumqayıt və 11 bölgəni əhatə edən 204 təhsil müəssisəsində elektron jurnal və gündəlik layihəsi tətbiq olunur [3].

Təhsilin idarə edilməsində informasiya-kommunikasiya texnologiyalarının imkanlarının nəzərə alınması xüsusi diqqətə layiqdir. Məhz təhsil sahəsində informasiya texnologiyalarından müxtəlif təhsil müəssisələrinin rəhbərləri tərəfindən daha çox istifadə olunur. Çünki İKT təhsil müəssisələrinin rəhbərlərinin fəaliyyətinə şərait yaradır, sənədlərlə işin sadələşdirilməsi, metodiki işlənmələr və s. İnformasiya-kommunikasiya texnologiyalarının köməyilə işləmək daha asan və daha sürətli olur: tədris planlarını hazırlamaq, materialı emal etmək, şagirdlərin və müəllim heyətinin siyahılarını yaratmaq, davamiyyət, elektron jurnalı, tələbələrin şəxsi işlərini və s. Bundan əlavə, informasiya və kommunikasiya texnologiyalarının üçün daha çox imkanları var:

- informasiya-metodiki təminat proseslərinin avtomatlaşdırılması, tədris fəaliyyətinin təşkilati idarə edilməsi;
- şagirdlərin biliklərinin mənimsənilməsinin nəticələrinə nəzarət, şagirdin fəallıq səviyyəsinin yüksəldilməsi
- təlim prosesində qarşılıqlı əlaqənin yeni formalarının təşkili;
- öyrənilən obyektlərin, hadisələrin, proseslərin və onlar arasındakı əlaqələrin modelləşdirilməsi və nəticələrini proqnozlaşdırmaq bacarığı.

Elmi nöqteyi-nəzərdən təhsilin informasiyalaşdırılması prosesi təhsil islahatının əsas hissəsini təşkil etdiyindən onu yalnız texniki vasitələrdən istifadə kimi qiymətləndirmək olmaz. Təhsildə informasiya

texnologiyalarından istifadə təkcə təlim prosesinin deyil, həm də idarəetmənin, inkişafın, təhsilin mahiyyətində və təşkilində köklü dəyişikliklərə səbəb olmasını da nəzərə almaq lazımdır.

Ədəbiyyat

1. Əliyev D., Abaslı K., Məmmədov R., Məhərrəmov Q. Məktəbin idarə olunması (Direktorun əl kitabı), Bakı, "Mücrü", 2021, 224 s.
2. Kərimov S. İnformasiya sistemləri. Bakı: Elm, 2008, 674 s.
3. https://edu.gov.az/az/announcements/17771-1
4. Пащенко О.И. Информационные технологии в образовании: Учебно методическое пособие. – Нижневартовск: Нижневарт, 2013, 227 с.
5. Сластенин В.А. и др. Педагогика: Учеб. пособие для студ. высш. пед. учеб. заведений / В. А. Сластенин, И. Ф. Исаев, Е. Н. Шиянов; Под ред. В.А. Сластенина https://pedlib.ru/Books/1/0075/1_0075-586.shtml

РЕЗЮМЕ

ПРЕИМУЩЕСТВА ИСПОЛЬЗОВАНИЯ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В УПРАВЛЕНИИ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫМИ ШКОЛАМИ

Исмаилова Н.Н.

***Ключевые слова**: управление, информационные и телекоммуникационные технологии, информатизация образования, компьютерные технологии.*

Информационные технологии влияет на все области деятельности человека, а также значительно повышают автоматизацию информационных процессов, что является необходимым условием ускорения скорости научно-технического прогресса. Управление современной школой на основе информационных и коммуникационных технологий является неотъемлемой частью современной системы образования. В статье рассматриваются такие вопросы, как цель, сущность и процесс информатизации управления общеобразовательной школой. Также была отмечена важность концепции информационных технологий, их применения, развития и использования в образовании.

SUMMARY

ADVANTAGES OF USING INFORMATION TECHNOLOGY IN THE MANAGEMENT OF SECONDARY SCHOOLS

İsmayilova N.N.

***Key words**: management, information and telecommunication technologies, informatization of education, computer technology.*

Information technologies affect all areas of human activity, and also significantly increase the automation of information processes, which is a necessary condition for accelerating the speed of scientific and technological progress. Modern school management based on information and communication technologies is an integral part of the modern education system. The article discusses issues such as the purpose, essence, and informatization process of the management of the general education school. secondary school. The importance of the concept of information technologies, their application, development and use in education was also noted.

MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA RAYON VƏ ŞƏHƏRLƏRDƏ DÖVLƏT ARXİVLƏRİNİN TƏŞKİLİ

Kərimli Samir S.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

samir-karimli@mail.ru

***Açar sözlər**: rayon arxivi, arxiv bürosu, dövlət arxivi, arxiv müdiri, mühafizəxana.*

Azərbaycanda arxiv işinin dövlət səviyyəsində təşkili sovet hakimiyyətinin qurulmasından sonra baş vermişdir. 1920-ci ilin 6 dekabrında Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun imzası ilə "Vahid dövlət arxiv fondu və Mərkəzi Dövlət Arxivi"nin təşkilinə dair dekret verildi. 1920-ci ilin martında isə Mərkəzi Dövlət Arxivi (MDA) fəaliyyətə başladı[1, s.5-6].

MDA ilk günlərdən respublikanın bölgələrində - şəhər və rayonlarda arxiv sənədlərinin toplanılması və mühafizəsi işi ilə maraqlanmağa başladı. Lakin bölgələrdə sənədlərin toplanılması və mühafizəsi işinin yüksək səviyyədə həyata keçirilməsi qeyri-mümükündü. Bunun əsas səbəbi maddi imkanların və kadr bazasının çatışmazlığı idi. Mövcud çətinliklərə baxmayaraq, 1927-ci ilin 10 dekabrında MDA-nin kollegiyasında bölgələrdə - qəzalarda arxiv işinin durumu müzakirə edildi və qəza arxivlərinin təşkilinə dair Əsasnamə hazırlandı. Qəza arxiv büroları sovet hakimiyyətinə qədərki və sovet hakimiyyəti

dövründəki sənədləri toplayaraq mühafizə etməli idi. İlk arxiv bürosu 1928-ci ildə Gəncə şəhərində təşkil edildi. Daha sonra isə Qazax, Quba, Lənkəran qəzalarında da arxiv büroları fəaliyyətə başladı [5, s.142].

1929-cu ilin 1-9 aprel tarixində sovetlərin VI Ümumazərbaycan qurultayında qəzaların ləğvi, əvəzində yeni inzibati ərazi vahidlərinin – dairələrin yaradılması qərara alındı. Bu səbəbdən qəza arxiv bürolarının dairə arxiv bürosu olaraq yenidən təşkilinə dair qərar verildi. 1930-cu ildə isə respublikamızda yeni inzibati ərazi vahidləri – rayonlar təşkil olunur. Həmin ildə Azərbaycan SSR-də 31 rayonda dəyişən tərkibli arxivlər fəaliyyətə başladı. Növbəti illərdə Azərbaycanın bütün şəhər və rayonlarında dövlət arxivlərinin təşkili işi tam şəkildə həyata keçirildi. 1968-ci ildə Rayon və şəhərlərdə fəaliyyət göstərən bəzi rayon arxivləri Oktyabr inqilabı və sosializm quruculuğu Mərkəzi Dövlət Arxivinin (ind. Azərbaycan Respublikası Dövlət Arxivi) filialı olaraq yenidən təşkil edilmişdir.

Həm sovet, həm də müstəqillik illərində rayon (şəhər) dövlət arxivlərinin əhəmiyyəti yüksək olmuşdur. Bunun əsas səbəbi dövlət arxivlərinin komplektləşdirilməsində rayon arxivlərinin istisnasız əhəmiyyətə malik olmasıdır. Hazırda ölkəmizdə Azərbaycan Respublikası Dövlət Arxivinin 15 filialı və 58 dəyişən tərkibli rayon dövlət arxivi fəaliyyət göstərir [6]. Rayon arxivlərinin işi Azərbaycan Respublikasında arxiv sahəsində mövcud olan qanun və digər hüquqi-normativ sənədlər ilə tənzimlənir.

Rayonda fəaliyyət göstərən dövləti arxivi fəaliyyətilə bağlı ərazi üzrə yuxarı arxiv və hakimiyyət orqanlarından aslı olur və fəaliyyətini onunla razılaşdırır. Belə ki, rayon arxivləri elmi-metodiki fəaliyyətinə görə Azərbaycan Respublikası Dövlət Arxivinin müvafiq filialı, maliyyə və təşkilati məsələlərdə isə mövcud olduğu rayonun icra hakimiyyəti qarşısında cavabdehlik daşıyır. Bundan başqa Milli Arxiv İdarəsinin təlimatları, sahə ilə əlaqədar qanun, əsasnamə və digər hüquqi-normativ sənədlər rayon arxivinin işinin tənzimlənməsində əsas götürülür. Rayon arxivinə rəhbərliyi müdir həyata keçirir və həmin müdir müəyyən olunmuş qayda üzrə ən azı orta ixtisas təhsilinə malik olmalıdır. Rayon arxivinin müdiri vəzifəyə təyin olunduqdan sonra uyğun olaraq seminar və istehsalat təcrübəsində iştirak etməlidir. Müdir arxivdə mövcud olan sənədlərin keyfiyyətli saxlanması və qaydasında istifadəyə cəlb edilməsi üçün məsuliyyətlidir. Bundan başqa arxiv müdiri arxiv işi ilə məşğul olan şəxslərə sahə ilə bağlı təlimatları verməlidir. Hətta sənədlərini rayon arxivinə verməyən idarələrin arxiv əməkdaşları da yerləşdiyi rayonun arxivinin müdiri ilə sıx əlaqədə olmalı, onun tövsiyyə və tapşırıqlarına əməl etməlidir.

Hazırda rayon arxivlərinin vəzifələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlardan sənədli materialların qəbul olunması;
2. Rayon arxivində toplanan sənədli materialların uçotunun və keyfiyyətli mühafizəsinin təşkili;
3. Bir zamanlar rayonda fəaliyyət göstərən idarələrin, həmçinin tanınmış şəxsiyyətlərin sənədlərini müəyyən edərək arxivə toplayaraq mühafizəyə cəlb etmək;
4. Sənədli materialların dəyərini müəyyən etmək üçün ekspertiza təşkil etmək, mühafizə müddəti keçən sənədləri digərlərindən kənarlaşdırmaq;
5. Sənədli materialların rayon arxivində mühafizə vaxtı bitdiyində həmin sənədləri yuxarı dövlət arxivinə təqdim etmək və s. [3, s.70-71]

Rayon arxivləri sənədləri komplektləşdirilmə mənbəyi hesab edilən idarə və müəssisələrin əvvəlcədən müəyyən edilən siyahılarına əsasən qəbul edirlər.

Rayon arxivində mühafizə olunan sənədlər aşağıdakı kimi qruplaşdırılır:

- Həmin rayonda mövcud olan dövlət idarə və təşkilatlarının, həmçinin qeyri-hökumət təşkilatlarının sənədləri;
- Rayonda fəaliyyətini dayandıran idarələrin, müəssisələrin və təşkilatların sənədləri;
- Bu rayonda aşkar edilən və sahibi olmayan sənədlər. [2, s.133]

Lakin bir sıra müəssisə, idarə və təşkilat vardır ki, onlar öz sənədlərini rayon arxivinə təhvil vermirlər. Onlara aiddir: sənədli materiallarını birbaşa mərkəzi dövlət arxivinə verən respublika tabeli təşkilatlar, rayonda fəaliyyət göstərən hərbi komissarlıq, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizlik Xitmətinin yerli orqanı və s.

Rayon arxivi tərəfindən yuxarı arxiv orqanına sənədlər təhvil verilərkən qutulara doldurulmalıdır. Qutulara doldurmaq mümkün olmadıqda sənədlər parçaya bürünür və bu zaman onların nəmişlik təhlükəsindən uzaq olmasına əmin olmaq lazımdır. Sənədlərin yuxarı dövlət arxiv orqanına daşınması zamanı rayonun arxiv müdiri də iştirakçı olmalıdır [3, s.108].

Hər hansı idarə, müəssisə və təşkilatın göstərdiyi fəaliyyət nəticəsində meydana gələn sənəd toplusu arxiv fondu adını daşıyır. Sənədli materialların arxiv fonduna nə dərəcədə aidiyyatlı olub-olmadığına görə məsuliyyəti məhz rayonun arxiv müdiri daşıyır. Arxiv müdiri daimi və müvəqqəti saxlanılan sənədlərin eyni fonda daxil edilməsinə yol verməməlidir. Arxiv fondunda toplanılan sənədlərin həmin rayonun sosial, iqtisadi, mədəni, tarixi və s. cəhətdən öyrənilməsində ən vacib mənbələrdən biri hesab edilir.

Ədəbiyyat

1. Babayev M.Z. Azərbaycan SSR-də arxiv quruculuğunun 50 ili // - Bakı, Azərbaycan arxivi, 1972, №1, - s.5-11
2. Kərimli S.S. Azərbaycanda arxiv işinin əsasları. – Sumqayıt: Sumqayıt Dövlət Universiteti, - 2019, - 163 s.
3. Kərimli S.S. Azərbaycan Respublikasında idarə, müəssisə, təşkilat və rayon (şəhər) dövlət arxivlərinin əsas iş istiqamətləri. Sumqayıt: Sumqayıt Dövlət Universiteti, - 2018, - 123 s.
4. Rəsoluv Ə., Həsənov H. Azərbaycan Respublikasında arxiv işi. - Bakı: Elm və təhsil, - 2019, - 264 s.
5. Кара-Мурза Г.С. Архивное строительство в Азербайджанской ССР в период борьбы за индустриализацию республики и подготовку сплошной коллективизации сельского хозяйства (1926-1929 гг.). //– Баку, Архив Азербайджана, 1973, №2, - с.133- 157
6. https://milliarxiv.gov.az/az/arxiv-100

РЕЗЮМЕ
ОРГАНИЗАЦИЯ ГОСУДАРСТВЕННЫХ АРХИВОВ В РАЙОНАХ И ГОРОДАХ АЗЕРБАЙДЖАНА В ГОДЫ НЕЗАВИСИМОСТИ
Керимли С.С.

***Ключевые слова**: районный архив, архивное бюро, государственный архив, хранилище.*

В советское время, и в годы независимости государственные архивы играли немаловажную роль. Причина этого заключается в том, что региональный архив имеет исключительное значение в пополнении государственных архивов. В настоящее время в стране действуют 15 филиалов государственного архива Азербайджанской Республики и 58 региональных государственных архивов различного состава. Деятельность районных архивов регулируется законом и другими нормативно правовыми актами, действующими в области архивов Азербайджанской Республики.

SUMMARY
ORGANIZATION OF STATE ARCHIVES IN DISTRICTS AND CITIES IN AZERBAIJAN DURING THE YEARS OF INDEPENDENCE
Karimli S.S.

***Keywords**: district archive, archive bureau, state archive, archive director, conservatory.*

The importance of regional (city) state archives was high both during the Soviet and independence years. The main reason for this is that regional archives have an exceptional importance in the completion of state archives. Currently, there are 15 branches of the State Archives of the Republic of Azerbaijan and 58 regional state archives of variable composition in our country. The work of district archives is regulated by the law and other legal-normative documents existing in the field of archives in the Republic of Azerbaijan.

AZƏRBAYCANDA ASTRONOMİYA ELMİNİN İNKİŞAFI

Kərimova Aytən Elxan qızı
Təbii Ehtiyatlar İnstitutu, Naxçıvan, Azərbaycan
aytenkerimova567@gmail.com

Açar sözlər: *astronomiya, rəsədxana, Şamaxı Astrofizika Rəsədxanası, Batabat Astrofizika Rəsədxanası, günəş.*

Astronomiya kainatı və göy cisimlərini: ulduzları, planetləri, qalaktikaları peykləri, kometləri, meteoritləri və bütün ulduzlararası maddələri, onların qarşılıqlı təsirlərini və hərəkətlərini öyrənən elmdir. Bu elm bəşəriyyətin ən qədim elmlərindən biridir. Astronomiyaya aid ilk elementar biliklər minlərcə illər bundan əvvəl Babil, Çin və Misirdə məlum idi. Astronomiya müşahidə elmidir. Astronomiyada göy cisimləri haqqındakı bütün biliklər uzun astronomik müşahidələr nəticəsində əldə edilir. İlk əvvəllər bu müşahidələr adi gözlə aparılırsa da teleskopun kəşfi ilə bu proses xeyli təkmilləşdi, bu da göy cisimləri haqqında əldə olunan məlumatların qatbaqat zənginləşməsinə səbəb oldu. [1]

Bildiyimiz kimi Azərbaycan qədim astronomlar ölkəsi hesab edilir. Qobustan və Gəmiqaya rəsmləri, çoxlu arxeoloji abidə və qazıntılar bunun ən böyük sübutudur. Marağa rəsədxanası və onun yaradıcısı Nəsrəddin Tusinin elmi nailiyyətləri dünya astronomiyasının inkişafında böyük əhəmiyyətə malik olmuşdur. Müasir dövrdə Azərbaycanda astronomiya elminin inkişafında 2 böyük astrofizika rəsadxanasının fəaliyyəti əsas yer tutur. Bunlar Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası və Batabat Astrofizika Rəsədxanasıdır.

Şamaxı Astrofizika Rəsədxanası 17 noyabr 1954-cü ildə yaradılmış, Azərbaycan Milli Elmlər Akademiyası Fizika-Riyaziyyat və Şamaxı şəhərindən 22 km aralıda Y.Məmmədəliyev qəsəbəsi yaxınlığında Pirqulu dağının şimal yamacında dəniz səviyyəsindən 1435 m yüksəklikdə yerləşir.

Rəsədxanada ilk qurulan teleskop 1957 ildə Xromosfer-Fotosfer Günəş teleskopu olmuşdur. 1959 ildə Rəsədxanada 200 mm-lik fotoelektrik teleskop qurulmuş və onun vasitəsilə ərazinin astroiqlimi öyrənilmişdir. Bu teleskopda işləyən mütəxəssislərdən Q.Axundova və S.Ömərovun fəaliyyəti xüsusi qeyd olunmalıdır. 1964 ildən etibarən həmin teleskopda dəyişən ulduzların və kometlərin fotoelektrik və elektropolyarimetrik müşahidələri aparılmışdır. 1962-ci ildə rəsədxanada yeni teleskop Üfüqi Günəş teleskopu inşa olunmuş və onun köməyi ilə Günəşin spektral müşahidələrinə başlanmışdır. Həmin müşahidələr müasir dövrdə də davam etdirilməkdədir. 1964 ilin dekabrında rəsədxanada dərəcə orijinal - AST-452, 1970 ildə isə 700 mm-lik AZT-8 adlı fotoelektrik teleskopun inşası başa çatmışdır. [2]

Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Batabat ərazisindəki bu rəsədxana 1970-ci ildə Şamaxı Astrofizika Rəsədxanasının Batabat bölməsi kimi yaradılmış və 2003-cü ilə qədər həmin adla fəaliyyət göstərmişdir. Naxçıvan Bölməsinin təsis olunması haqqında Azərbaycan Respublikası prezidentinin 7 avqust 2002-ci il tarixli sərəncamına əsasən, AMEA Naxçıvan Bölməsinin tərkibində, Şamaxı Astrofizika Rəsədxanasının Şahbuz rayonu ərazisində yerləşmiş Batabat bölməsi və Ordubad rayonu ərazisində yerləşmiş Ağdərə Astronomiya Stansiyasının maddi-texniki bazası əsasında Batabat Astrofizika Rəsədxanası yaradılmışdır. Batabat Astrofizika Rəsədxanasında fotometriya və kompüter otaqları istifadəyə verilmişdir. Rəsədxanada elmi tədqiqatlara uyğun olaraq "Səma cisimlərinin dinamikası və fizikası" istiqamətinə daxil olan "Səma cisimlərinin mövqe və fotometrik müşahidələri" problem üzrə aparılır. Bu problem daxilində Günəş və Günəş sisteminə aid olan kiçik cisimlər-komet və asteroidlər tədqiq olunmuş, 2007-ci ildən "Seyss-600" teleskopunun istifadəyə verilməsi ilə ulduzların da tədqiqi həyata keçirilməyə başlanmış və qalaktikalar, Günəş fizikası və kometlərin öyrənilməsi üzrə təkmilləşdirilmişdir. [3]

"Ulduz və dumanlıqlar fizikası" sahəsində əsas tədqiqatlar ulduz atmosferlərində və qalaktikalarda baş verən qeyri-stasionar proseslərin öyrənilməsinə yönəlmişdir. Buraya maqnit xüsusiyyəti güclü olan, çox böyük, yeni, Volf-Raye və tipli ulduzların, həmçinin, qalaktikaların tədqiqi də daxildir. Kometlərin mənşəyinin öyrənilməsi sahəsində də dəyərli elmi tədqiqatlar aparılmış və hətta Şamaxı Astrofizika Rəsədxanasında Ə.Quliyevin rəhbərliyilə "Elektron komet kataloqu" yaradılmışdır. Kometlər, asteroidlər və planetlərin atmosferinə dair çoxlu dəyərli işlər dünyanın bir çox jurnallarında dərc edilmişdir. Yalnız Mars planetinin öyrənilməsində xidmətlərinə görə N.B.İbrahimovun adı Qırmızı planetin səthindəki kraterlərdən birində əbədiləşdirilmişdir. İndi Mars planetinin xəritəsində "İbrahimov" və "Quba" adlı kraterlər var.

1970-2010 illərdə yeni kəşf edilmiş asteroidlərə "Azərbaycan", "Cavid", "Müslüm Maqomayev", "ŞAR", "Nizami", "Sorin", "Əyyub Quliyev", "Tusi" adları verilmişdir. Ayda isə bir kraterə N.Tusinin və Merkuridəki kraterlərdən birinə isə "N. Gəncəvi" adı verilmişdir. "Research Gate" elmi şəbəkə tərəfindən rəsədxananın direktoru, AMEA-nın müxbir üzvü N.Cəlilova, onun elmi işlərinə dünya alimləri tərəfindən edilən istinad və müraciətlərin sayının rekord həddi aşaraq 3000-i keçməsi ilə əlaqədar olaraq təbrik məktubu gəlmişdir.

Azərbaycanın astronomiya elminin inkişafını daim diqqət mərkəzində saxlayan Ulu Öndər Heydər Əliyev 1974 ildə Şamaxı Astrofizika Rəsədxanasına getmiş və alimlərlə görüşmüşdür. Bu ənənəni davam etdirən Prezident İlham Əliyev rəsədxananın inkişafına daim yüksək diqqət və qayğı göstərir.

Ədəbiyyat

1. Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan astronomiya jurnalı, Cild 10№2-2015
2. Quluzadə C.M. Klassik astronomiya. II nəşr, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı-2007
3. İsmayılov N.Z. Atmosferdənkənar astronomiya, Bakı-2009

РЕЗЮМЕ

РАЗВИТИЕ АСТРОНОМИИ В АЗЕРБАЙДЖАНЕ

Керимова А.Э.

Ключевые слова: *астрономия, обсерватория, Шамахинская астрофизическая обсерватория, Батабатская астрофизическая обсерватория, солнце.*

В статье утверждается, что астрономия – это наука, изучающая Вселенную и небесные тела. Азербайджан – земля древних астрономов. В качестве доказательства можно привести росписи Кобустана и Гамигая. Ключевую роль в развитии астрономии в Азербайджане играет деятельность двух крупных обсерваторий, Шамахинской астрофизической обсерватории и Батабатской астрофизической обсерватории имени Насреддина Туси. В этих обсерваториях проведено много исследований, изучены малые объекты, принадлежащие Солнцу и Солнечной системе, - кометы и астероиды, сделаны неоценимые исследования атмосферы комет, астероидов и планет.

SUMMARY
DEVELOPMENT OF ASTRONOMY IN AZERBAIJAN
Karimova A.E.

Key words: *astronomy, observatory, Shamakhi Astrophysical Observatory, Batabat Astrophysical Observatory, sun.*

The article deals with astronomy is a science that studies the universe and celestial bodies. Azerbaijan is the land of ancient astronomers. Kobustan and Gamigaya paintings can be cited as proof of this. The activities of two large observatories, Shamakhi Astrophysical Observatory and Batabat Astrophysical Observatory, named after Nasreddin Tusi, play a key role in the development of astronomy in Azerbaijan. A lot of research has been done in these observatories, small objects belonging to the Sun and the Solar System - comets and asteroids - have been studied, invaluable studies have been made about the atmosphere of comets, asteroids and planets.

HEYDƏR ƏLİYEV – TƏHSİLİMİZİN HİMAYƏDARI

Kərimova Lamiyə Mübariz
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan
lamiyosmanova@gmail.com

Açar sözlər: *təhsil, elm, inteqrasiya, dahi şəxsiyyət, lider*

Hər bir xalqın tarixində onun taleyinə təsir edən, taleyində iz qoyan ali şəxsiyyətlər olmuşdur.Lakin bəşər tarixində hər hansı bir fərdin öz dövlətinin, millətinin talismanına çevrilməsi, həyatını öz millətinin taleyi ilə bağlaması nadir hadisələrdəndir.Azərbaycan xalqı xoşbəxtdir ki, onun tarixində belə şəxsiyyət olmuşdur.Belə şəxsiyyətlərdən biri həyat amalı xalqına, dövlətinə, ölkəsinə xidmət olan Ümummilli lider Heydər Əliyevdir.

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının tarixində öz imzasını qoyan, qaranlıqdan işığa nur saçan, öz iradəsi, qətiyyətli mövqeyi ilə mənsub olduğu xalqı arxasınca aparan, xalqın tarixinin ən taleyüklü məqamlarında qalib olan, ona zəfər yaşadan, çiyinlərində böyük bir ölkənin yükünü daşıyan dahi şəxsiyyətdir.

Azərbaycan tarixində müstəsna rol oynayan Ümummilli liderin ömrünü nəhəng bir insan ömrünün qızıl salnaməsi kimi qiymətləndirmək olar. O, başqalarından fərqli olaraq uzağı görə bilmək, vəziyyəti məqamında dəyərləndirmək, ən çətin anlarda belə düzgün qərar verə bilmək qabiliyyətlərinə görə digərlərindən seçilirdi.

Tarixdə adı dövlətçiliyin rəmzinə çevrilən çox az siyasi liderlər olmuşdur.Nadir dövlətçilik və liderlik keyfiyyətinə, qeyri-adi unikal yaddaşa, fitri istedada, yüksək vətənpərvərlik hissinə malik olan Ulu öndər məhz belə liderdir. Azərbaycanın ən yeni tarixində bütöv bir epoxanı təcəssüm etdirən, müstəqil Azərbaycanın siyasi, iqtisadi, hüquqi, sosial-mədəni əsaslarını yaradan və inkişafını təmin edən qüdrətli şəxsiyyətdir.

Azərbaycanın ictimai həyatın bütün sahələrində əldə etdiyi uğurlar, o cümlədən elm və təhsil sahəsində qazandığımız nailiyyətlər Ulu öndərin adı ilə bağlıdır.

Bir milləti məhv etmək üçün onun təhsilini, elmini məhv etmək kifayətdir.Axı milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır. Ulu öndərin elmə və təhsilə qayğısı kontekstindən yanaşdıqda Ümummilli lider milləti məhv olmaqdan xilas etdi.

Ulu öndər təhsili milli tərəqqinin, elmin, mədəniyyətin və mənəviyyatın inkişafının əvəzedilməz sahəsi hesab edirdi, həyatın bünövrəsinin təhsillə qoyulduğunu dəfələrlə vurğulayırdı, elmin bəşəriyyəti həqiqətə, ədalətə, xoşbəxtliyə aparan yeganə yol olduğunu hər çıxışında xüsusilə vurğulayır, xalqın oyanışını onun milli-mənəvi dərkində, təhsilində görürdü. “Təhsil milli məqsədlər, mənafelər əsasında qurulmalıdır”,- deyən dahi şəxsiyyət təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmış, mümkün olan bütün vasitələrdən istifadə edərək elmin, savadın insan, cəmiyyət həyatındakı rolunu önə çəkərək böyük işlər görmüşdür. “Bir gül ilə bahar olmaz” ifadəsinin puç olduğunu öz əməlləri ilə sübut edən Ulu öndər təhsilin ölkənin, cəmiyyətin ən mühüm sahəsi olduğunu sübut etməyi bacardı. Etiraf edək ki, bütün sahələrdə olduğu kimi Azərbaycanda təhsilin dünyanın inkişaf tendensiyasına cavab verən hazırkı səviyyəyə çatması və inkişafında Ümummilli liderin misilsiz xidməti olmuşdur[7, s,154].

Azərbaycanın 1969-cu ildən başlanan tarixi haqlı olaraq bugünkü Azərbaycan elminin başlanğıcı və inkişaf dövrü kimi qəbul olunur.

Azərbaycan təhsilinin son 30 illlik tarixi inkişafının təhlili göstərir ki, Ulu öndərin rəhbərliyi ilə milli təhsilimiz xüsusi inkişaf mərhələlərindən keçmişdir: Azərbaycan təhsilinin inkişafının yüksəlişi (1970-1982);

Azərbaycan təhsilinin xüsusi mərhələsi (1982-1987); Azərbaycan təhsilində depressiya dövrü (1988-1993); Müstəqil Azərbaycanda yeni təhsil quruculuğu dövrü.

Azərbaycan təhsilinin milli tariximizdə coşğun yüksəliş, əsl intibah illəri məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə təsadüf edir.

İkinci mərhələ Ulu öndərin keçmiş SSRİ-nin ali rəhbərliyində çalışdığı 1982-1987- ci illəri əhatə edir. Bu illərdə Ulu öndər digər sahələrlə yanaşı, həm də bütünlükdə təhsil sisteminə rəhbərlik edirdi. Azərbaycan gənclərinin Azərbaycan hüdudlarından kənarda təhsil almalarına yaradılan şərait genişləndirilmişdir.Tez-tez azərbaycanlı tələbələrlə görüşür, onların qayğı və problemləri ilə şəxsən maraqlanır, onların həlli üçün bütün imkanlardan istifadə edirdi.

Üçüncü mərhələ çağdaş təhsil tariximizin ən mürəkkəb, böhranlı (1988-1993), tənəzzül və depressiya illərini əhatə edir. Bu mərhələdə Azərbaycan təhsilinə rəhbərlik edənlər onun cəmiyyətdəki rolunu düzgün qiymətləndirə bilmədilər.

Dördüncü mərhələ Ulu öndərin müstəqil Azərbaycanın dünya standartlarına uyğun təhsil islahatları əsasında yeni milli təhsil quruculuğuna rəhbərliyi ilə başlanan dövrü əhatə edir[2, s.133].

1982-ci ilin sonunda Heydər Əliyevin keçmiş SSRİ-nin təhsil islahatlarına rəhbərlik etməsi ilə ümumtəhsilin inkişafında müəyyən keyfiyyət dəyişmələrinə gətirib çıxartdı.

Möhtərəm H.Əliyevin Azərbaycan təhsilinin inkişafı yolunda böyük xidmətlərindən biri də 1970-1980-ci illərdə təşəbbüs və qayğısı sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin ən məşhur ali məktəblərində Respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaratmışdır.

H.Əliyev 70-80-ci illərdə Azərbaycandan kənarda təhsil almış yüksək ixtisaslı mütəxəssisləri "Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirmişdir.Ümummilli liderin milli kadr hazırlığı sahəsində apardığı siyasətin mühüm istiqamətlərindən biri də milli hərbi kadrların yetişdirilməsi oldu[4, s.93]. Dahi rəhbəri düşündürən əsas məsələlərdən biri azərbaycanlı gənclərin orduya hazırlanması və hərbi məktəblərə cəlb edilməsi idi. Onun təşəbbüskarlığı və uzaqgörənliyinin nəticəsi olaraq 1971-ci ildə C.Naxçivanski adına hərbi təmayüllü məktəb yaradıldı. Ulu Öndər taleyini hərb sənətinə, zabitlik peşəsinə həsr edənlərə böyük hörmətlə yanaşır və onların xidmətlərini həmişə yüksək qiymətləndirirdi. C.Naxçıvanski adına Hərbi liseyin və ali hərbi məktəbin milli zabit kadrlarının hazırlanmasında və Silahlı qüvvələrimizin formalaşmasında müstəsna rolu olub. Bu gün də ordumuzun sıralarında xidmət edən zabitlərin əksəriyyəti C.Naxçivanski adına Hərbi liseyin məzunlarıdır. Onlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və rəşadət göstərdilər. Beləcə siyasi mübarizədə müdriklik və qətiyyət, həyatda praqmatizm, dövlət idarəçiliyində ustalıq göstərən H.Əliyev imzası 44 günlük Vətən müharibəsində də öz təsdiqini tapdı.

Azərbaycan müstəqillik qazandıqdan sonra cəmiyyətin hər bir sahəsində olduğu kimi təhsil sahəsində də bir canlanma, yenilənmə nəzərə çarpmağa başladı.Ümummilli liderimizin uzaqgörən siyasətinin böyük təsiri nəticəsində irəliləyişlər olmuş, orta, orta-ixtisas və ali məktəblərdə struktur dəyişiklikləri baş vermiş, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ciddi quruculuq işləri aparılmış, problemin həlli üçün effektiv üsul və metodların tətbiqi önə çəkilmişdir.

Təhsilə həmişə prioritet sahə kimi baxan, "Təhsil millətin gələcəyidir" deyən Ümummilli lider dövlətin təhsil sahəsinə münasibətini belə ifadə etmişdir:

"Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq. Bütün dünya ölkələrinin mütərəqqi təcrübələrindən istifadə edirik. Hesab edirəm ki, indiyə qədər yaranmış təməlin üzərində Azərbaycan təhsili, məktəbi bundan sonra daha da təkmilləşəcək" [1, s.68].

Ümumiyyətlə, Azərbaycanda təhsilin dünyanın inkişaf tendensiyasına və beynəlxalq standartlara cavab verən hazırkı səviyyəyə çatmasında Ümummilli liderin xidmətləri əvəzsizdir.

Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin intibah dövrü keçən əsrin 70-ci illərindən başlanır. İndi ölkədə fəaliyyət göstərən ümumi, texniki-peşə, orta ixtisas, ali, eləcə də əlavə təhsil müəssisələrinin geniş şəbəkəsi, güclü elmi-pedoqoji kadr korpusu öz mənbəyini məhz keçən əsrin 70-ci illərində H.Əliyevin rəhbərliyi altında təhsil sahəsində aparılan uzaqgörən və məqsədyönlü siyasətdən almış, həyata keçirilən genişmiqyaslı təhsil quruculuğu işi gələcək inkişafın güclü təməlini qoymuşdur.

1969-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak edən H.Əliyevin ana dilində söylədiyi nitqində təhsil sahəsində qarşıda duran vəzifələrdən danışması bütün cəmiyyət üçün milli ruhun oyanması istiqamətində bir dönüş anı oldu [3, s.146]. Dahi rəhbər həmişə vurğulayırdı ki, milli ideologiyanı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin, ədəbiyyatının, dilinin tədrisinə çox fikir vermək lazımdır. O, yaxşı anlayırdı ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsində,

fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir.Onun hakimiyyəti dövründə ən ucqar kəndlərdə də yüzlərlə məktəb, mədəniyyət evi ,kitabxana, uşaq bağçaları tikilmişdir [5, s.201].

1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 1965-ci ilə nisbətən 3 dəfədən çox artaraq 2117-yə, 1982-ci ildə isə 4267-yə çatdı. 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" sərəncamı imzalaması təhsil sahəsində təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədindən irəli gəlmişdir. Elə həmin ildə Azərbaycan müəllimlərinin XI Qurultayında Ümummilli lider məktəb tikintisinə diqqətin artırılması barədə iş adamlarına çağırış etdi. Həmin çağırışdan sonra bu sahəyə diqqət əhəmiyyətli şəkildə artdı, dövlət təşkilatlarının vəsaitləri, beynəlxalq təşkilatların qrant və kreditləri, iş adamlarının, xeyriyyəçilərin vəsaitləri hesabına yeni məktəb binalarının tikintisinə başlandı. ABŞ-ın humanitar təşkilatları,Yaponiya hökuməti, Səudiyyə Ərəbistan İnkişaf Fondu, İslam İnkişaf Bankı, bir sıra nazirliklər və dövlət şirkətlərinin maliyyə vəsaitləri hesabına ölkənin müxtəlif regionlarında yeni məktəb binaları inşa edildi, 1978-ci ildən isə şagirdlər dərsliklərlə pulsuz təmin edildi. Ən mühüm xidmətlərindən biri də latın qrafikalı əlifbanın reallığa çevrilməsi oldu.Təhsilə qayğının bariz nümunələrindən biri də hər il yüksək bal toplamış abituriyentlərlə şəxsən görüşməsi və onlara "Prezident təqaüdü"nün verilməsidir.

1960-cı illərin sonunda ali məktəblərdə 105 fakültə, 450 kafedra var idisə və burada 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 10-dan çox ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Bu illərdə ali təhsil alanların sayı 70000-dən 100000-ə yüksəlmişdi. 1997-ci ildən etibarən bakalavriat təhsilini başa vuran məzunlar ilk dəfə olaraq magistratura səviyyəsində təhsilə başladılar. 1969-70-ci illərdə respublikadan kənara cəmi 47 nəfər təhsil almağa göndərilmişdisə, 1978-ci ildən etibarən respublikadan kənara hər il 800-900 tələbə göndərilməsinə nail olunmuş, 1986-cı illərin əvvəlindən isə bu göstərici 1000-1400 nəfərə çatmışdır. Ali məktəblər üçün çoxlu sayda tədris korpusları, yataqxana kompleksləri tikilmişdi.2000-ci ildə ali təhsil müəssisələrinin şəbəkəsi optimallaşdırıldı ,onlara universitet statusu verildi [6, s.211].

2003-cü ildə yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Dövlət Proqramı, xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə proqram və onların reallaşdırılması da təhsilin inkişafı ilə bağlı görülən işlərin bir qismidir.

Bugün Ümummilli liderin elm və təhsil sahəsində həyata keçirdiyi bütün işlər ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ədəbiyyat

1. Əliyev H.Ə. Müstəqillik yollarında. Bakı, 1997
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. II kitab. Bakı: Azərnəşr, 1997
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. V kitab. Bakı: Azərnəşr, 1998.
4. Xalqın böyük xilaskarı. Bakı, 2001
5. Əliyev İ. Azərbaycanıma inanıram. Bakı, 2007
6. Mərdanov M. Təhsil millətin gələcəyidir. Bakı, 2002
7. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001

РЕЗЮМЕ

ГЕЙДАР АЛИЕВ – ПОКРОВИТЕЛЬ ОБРАЗОВАНИЯ

Керимова Л.М.

Ключевые слова:*образование, наука, интеграция, гений, лидер*

Начиная с 70-х годов XX века Азербайджан проводил реформы, и достиг во всех областях больших успехов. Успехи, достигнутые Азербайджаном, благодаря которым он смог стать в ряд с ведущими государствами, связаны с именем общенационального лидера Гейдара Алиева. Подготовка квалифицированных кадров, укрепление материально-технической базы средних и высших учебных заведений, вклад внесенный в мировую науку, стали возможными благодаря его заботе о развитии науки и образования. Азербайджанский народ всегда высоко ценил Гейдара Алиева, как личность, чьи заслуги являются неоспоримым фактом.

SUMMARY

HEYDAR ALIYEV IS THE PATRON SAINT OF EDUCATION

Karimova L.M.

Keywords: *education, science, integration, genius, leader*

The history of Azerbaijan, which began in the 70s of the last century, the successes, the reforms implemented and the victories that brought our country to the ranks of the leading countries are connected with the name of the national leader Heydar Aliyev.As in all spheres of life, the achievements in the field of science and education and the contributions to world science were

possible due to his concern for the development of science and education.Always appreciates the greatness of this insightful personality, his genius, the importance of the huge works he has done for Azerbaijan.It is an undeniable fact that he is a rare personality for the Turkic world and the Muslim world.

CULTURAL DEVELOPMENT OF THE IDEOLOGY OF AZERBAIJANISM AND TOLERANCE IN THE HERITAGE OF THE NATIONAL LEADER

Mammadova I.O.
Azerbaijan State Pedagogical University, Baku, Azerbaijan
Elchin_mamedzade@hotmail.com

"Many features distinguish one nation from other peoples of the world, bring it recognition and respect. The most valuable, most significant of them is culture!"
Heydar Alirza oglu Aliyev

Keywords: *ideology of "Azerbaijanism", religious beliefs, state-religious relations, interreligious dialogue, tolerance, diaspora, multiculturalism*

Only peoples who are aware of themselves as a national ethnos were able to maintain their existence by creating a national state. Experience shows that the return of each nation to its national and ethnic roots under favorable historical conditions, the ability to protect its identity on the basis of the national and moral values accumulated over the centuries and the worldview system are due to the exceptional mission of the phenomenon of historical identity, like Heydar Aliyev. Belonging to a nation-state for centuries has demonstrated what each nation is capable of, the path of fair struggle and the determination to take its rightful place among the nations of the world. In this sense, the existence of a nation state is one of the important conditions in the process of people moving towards specific goals that they have set for themselves.

It would be difficult today to talk about the existence of Azerbaijan as a sovereign state with an independent line, if not for the actions taken for the socio-economic and cultural development of Azerbaijan during the first reign of the great leader Heydar Aliyev in our country. By the end of the last century, the formation of the national path of development and worldview of the Azerbaijani people, who regained statehood and freedom as a result of centuries of historical struggle, coincides with the leadership of our independent republic, the great leader Heydar Aliyev [4]. The national leader, who considers himself an Azerbaijani with all his heart, put forward the deep political and theoretical foundations of national unity, having done important work towards the integration of society and the transformation of the ideology of Azerbaijanism into a leading factor of national solidarity. The great strategist turned the historically established individual components of Azerbaijanism into a single system and concept and turned it into the scientific and theoretical basis of state administration. It was through the efforts of the genius Heydar Aliyev that Azerbaijanism got the opportunity to be realized in practice, having a real content. The ideology of Azerbaijanism, capable of protecting and preserving the national and moral values of our people, organically combining the interests of the state and citizens, is a successful basis for civil unity and a single society in the country. "For every person, his nationality is a source of his pride. I have always been proud and proud today that I am Azerbaijani." The main idea of an independent Azerbaijani state is Azerbaijanism. One of the most important factors determining Azerbaijanism is national traditions. Tradition is a stimulus for the development of Azerbaijanism, which is the genetic source of the system of national thinking. The tradition has been tested for many centuries and accumulates historical experience, the wisdom of the people, their spiritual culture, etc. factors are expressed in this concept. It connects the past with the future, preserves the ethno-cultural being. These traditions preserve the progressive life experience of the rich historical path of the people. People who do not have a sense of statehood cannot develop their own nation-state. In this sense, the ideology of Azerbaijanism calls to love the nation, the people, the state with all its essence and work tirelessly for it. High fidelity to symbols and attributes, traditions and customs, high spiritual values expressing the national existence of the people, love for the native language, respect for universal ideals reveal the national essence of Azerbaijanism and show that it is of a humanistic nature. Communicative unity, which is the basis of Azerbaijaniism, is realized through our common mother tongue. Since the Azerbaijani language is a means of expressing nationality, it is an integral part of the ideology of Azerbaijanism.

One of the great merits of national leader Heydar Aliyev to the Motherland and people is that he put forward the idea of Azerbaijanism, which is very important in terms of strengthening our national statehood, and turned it into an ideological basis for the organization of the national diaspora. During his visits to foreign countries, the national leader held numerous meetings with Azerbaijanis and called on our compatriots living abroad to unite, organize and create communities and national societies around the national idea. The great leader has always urged our compatriots to actively participate in the social and political life of the country in which they live, at the same time maintain close ties with their Motherland - native Azerbaijan, do not forget that they represent Azerbaijan at least for a moment. During his official visit to the United States in 1997, Heydar Aliyev, in his speech to the Azerbaijani diaspora, defined the basic principles in this direction: "You should not think about what Azerbaijan has done for us, think about what we have done for Azerbaijan. Azerbaijan will also move forward, Azerbaijan, the diaspora will also develop... It doesn't matter where you were born, the main thing is that you are an Azerbaijani, a bearer of the Azerbaijani language and culture." [2]. The great leader, with his unique foresight and wisdom, from the first day correctly defined the strategic goals in foreign policy and said that in the modern era, the power of each state is measured not only by its economic resources, but also by the power of the diaspora and the lobby formed by it abroad. Without paying special attention to this area, it is impossible to achieve serious achievements in foreign policy, as well as to raise national issues to the international level. It is for this reason that over the past 10 years, the Azerbaijani authorities have tried to responsibly fulfill the historical mission entrusted to them, achieve solidarity among the Azerbaijanis of the world, and pursue a systematic and consistent policy in this area. The establishment of multifaceted relations with our compatriots living in foreign countries, their arming at the ideological and political level and mobilization for national interests have become one of the priorities of Azerbaijan's foreign policy. The goal of state policy in this area is to protect and develop the national identity of our compatriots living abroad, to expand their ties with Azerbaijan, as well as to exercise other rights.

The Azerbaijani state carried out consistent and systematic work in the direction of concentrating the potential of the Azerbaijanis of the world, directing them to solve various problems that arise in the process of independent state building, establishing closer relations, and achieving national unity. One of the most memorable and highest peaks of the manifestation of our national solidarity in 2001 was the holding of the 1st Congress of World Azerbaijanis in Baku on November 9-10. According to the decree signed by national leader Heydar Aliyev on May 23, 2001, this congress was held in order to further strengthen the ties of our compatriots living in different countries of the world. The national leader Heydar Aliyev, in his speech at this historic event, made a recommendation "... on the need to ensure the national unity and solidarity of the Azerbaijanis of the world, strengthen relations between the Azerbaijani state and the Azerbaijanis of the world, join efforts in solving problems, preserve and develop the Azerbaijani language and our national and moral values…" [2]. Raising the international prestige of Azerbaijan, at a high level in different countries, exposing the aggressive policy of Armenia, organizing systematic and consistent opposition to the notorious Armenian lobby were the main tasks of the congress. After this congress, the Azerbaijani diaspora movement entered a completely new stage, the national leader Heydar Aliyev in 2002 signed a decree "On the establishment of the State Committee for Work with Azerbaijanis Living Abroad" in order to ensure the implementation of a systemic state policy in this area. The creation of the committee provided ample opportunities for coordinating the activities of Azerbaijani communities, associations and associations abroad from a single center, as well as for covering them with state care. The creation of the State Committee marked the beginning of a new stage in the consolidation of the Azerbaijanis of the world, in their development from the diaspora to the lobby. In a short time, the committee managed to do a lot of work towards uniting our compatriots living in different countries of the world around the idea of Azerbaijanism and the Azerbaijani state. "Heydar Aliyev and religious and moral values" is a non-trivial topic, it is necessary to look at the work done by our esteemed President in the field of strengthening the moral and ethical foundations of our society, preserving and developing the humanistic potential of our national culture, centuries-old traditions and the importance of correctly conveying the meaning of these works to people [1].

In the first years of national independence, Azerbaijani society was characterized by a certain diversity in the field of religion, as well as in all spheres of life. Extreme ideological stereotypes were aimed at creating a system of moral education entirely based on a materialistic worldview. In the conditions of social tension associated with the occupation of a significant part of the country's territory as a result of Armenian aggression, the creation of a million army of refugees and internally displaced persons, this situation really created serious obstacles for the future of our society and man, and his inclusion in the group of modern nations. Religion is involved in a conflict artificially created by various political forces in the country, a tendency to use religion for political purposes, religious intolerance, discriminatory sentiments were manifested in the slogans raised in attempts at separatism that manifested themselves in different

regions. The adoption in 1992 of the Law of the Republic of Azerbaijan “On Freedom of Religion”, prepared hastily without fully taking into account the historical conditions for the spread of religion in the region, ensured state control over the religious situation and could not create radical changes. On the contrary, foreigners, stateless persons, various missionary organizations, using the law and especially the loopholes in it, began to plant in our country and nation foreign beliefs of religious sects that do not even meet the requirements of national security and public order. Many religious communities became preachers of foreign religious centers and missionary organizations in the country. Non-traditional religions that did not have deep roots were widely spread in Azerbaijan. When national leader Heydar Aliyev returned to power in the republic, the religious position of society was so complex and contradictory. Only a person with extensive experience in state activity could get out of such difficult circumstances, correctly assess the situation and create a turning point. Heydar Aliyev, thanks to his deep knowledge, high skills, strong will, and great managerial experience, could return state-religious relations to their natural course in accordance with acceptable international standards and bring them into line with the strategic line of the state. First of all, it was necessary to eliminate the resulting gap in relations between religion and the state, restore mutual trust, and determine the place of religion in national and moral values. It was not an easy or quick task. Probably, first of all, in order to create a radical change in the situation, in addition to expressing attitudes towards the problem, it was necessary to prepare a legal framework. For this purpose, certain changes were made to the Law of the Republic of Azerbaijan "On Religious Beliefs", some articles were excluded, and some were added. The President goes to mosques, participates in ceremonies held with religious relations, meets with representatives of religions, tries to personally explain the strategic line of the state. In one of his speeches, he stated that the strategic path of Azerbaijan passes through democratic, legal and secular state building. Of course, the principle of secular statehood implies the separation of the state from religion [3]. However, the citizen, the people and the nation as a whole are inseparable from religion. On October 1-2, 1998, at the international conference “Modernity and Religious and Moral Values” held in Baku, Heydar Aliyev explained the principle of freedom of religion in a secular state and said: “Our state has given people all freedoms and freedom of conscience and religion is the main part of its policy ... The Constitution of the Republic of Azerbaijan (Articles 18, 48) established freedom of religion and conscience, and we, as a state, are the guarantor of this. Yes, that is why our state is a secular state. But we are not separated from religion.” The democratic, legal and secular path of state building chosen by Azerbaijan requires a deep self-consciousness of the nation, and national self-consciousness requires an appeal to the social and religious views, philosophy, customs and traditions of the nation.

Although Azerbaijan has historically been distinguished by its traditions and religious tolerance, we can say with confidence that today's tolerance, which meets international standards, was created in our country thanks to the merits of Heydar Aliyev. In one of his speeches, the national leader said: “The Republic of Azerbaijan is a multinational state. In addition to Muslims, citizens of other religions also live in Azerbaijan. Azerbaijan, as an independent state adhering to the principles of democracy, provides freedom to all peoples and nationalities living on its territory, regardless of their religion, language, race and political affiliation.” This tolerance in our country is recognized by many international organizations. Greek Patriarch Bartholomew I, who visited Azerbaijan, is a living witness of tolerance in our country. Suffice it to say that in Baku two Jewish synagogues and the Cathedral named after Jen the Peacebearer have been restored and handed over to believers [3]. While some countries located in the heart of Europe suffer from religious intolerance, in Azerbaijan we see the strengthening of mutual respect and close cooperation between Jews, Christians and Muslims. This tolerance, inter-religious dialogue and cooperation were created thanks to the correct and fair policy of Heydar Aliyev.

Heydar Aliyev, who took into account the role of education in general, including religious education, in the fight against religious extremism, in the name of national solidarity, in order to strengthen tolerance in Azerbaijan, where different ethnic groups, confessions and representatives of culture live, regulate relations in a civil way within the framework of the law between traditional and non-traditional religions. Today, a strategic direction is being implemented in Azerbaijan. All work carried out in this important area is based on legislative acts. The State Committee for Work with Religious Organizations of the Republic of Azerbaijan was also established by the decree of President Heydar Aliyev dated June 21, 2001 in order to create appropriate conditions for the implementation of Article 48 of the Constitution of the Republic of Azerbaijan and ensure compliance with the requirements of legislative acts relating to freedom of religion. Today, the absence of religious conflicts in Azerbaijan, the fact that people freely choose the form of religion, the creation of conditions for religious tolerance, the recognition of these successes by many international organizations, influential religious figures in the world, and large countries are the result of the balanced policy of the national leader Heydar Aliyev in the religious sphere and are the result of continuing this policy today. Pope John Paul II said during his visit to Baku in May 2003: "Azerbaijan is a rare country

where three different religions coexist peacefully and a stable society in terms of religious tolerance." This stability is the result of hard work, very careful thoughtful policies and strong will. This is a natural manifestation of favorable conditions created against the background of the attitude of the country's leadership to national traditions, spiritual and religious values.

We are proud that a worthy follower of the great leader, President of Azerbaijan Ilham Aliyev, puts the diaspora and lobbying building among the important issues. President Ilham Aliyev, who has ensured the implementation of consistent and systematic measures in this direction over the past 8 years, at the meetings stressed the need to organize national diaspora organizations as a single organized force and determined the ideological and political contours of this. In our time, reality shows that a lot of work needs to be done in order to widely use the opportunities of the Azerbaijani diaspora abroad, to realize its active participation in solving problems that arise in various spheres of the country's life. The consistent and resolute, purposeful and principled policy of President Ilham Aliyev in this area suggests that in the coming years the Azerbaijani diaspora will become stronger, and we will be more actively involved in solving the fateful problems of our Motherland.

Bibliography

1. Heydar Aliyev and the Development of Oil in Azerbaijan.- Baku: SOCAR- State Oil Company of Azerbaijan Republic, 1997.- 17 p.
2. The Poetry Anthology for World Peace / ed.: R. R.C. Wilkinson, Yan Yi.- Cambridge, 2000.- 226 p.
3. South Caucasus in the Context of New Geostrategical Relations: International Conference: working materials / Qərb universiteti.- Bakı: Qərb Universiteti NPM, 2003.- 275 p.
4. Towards the future / "Heydar Aliyev's Heritage" International On-line Library; ed. V. Suleymanov; trans. T. Guliyev.- Baku, 2004.- 72 p.

XÜLASƏ
ÜMUMMİLLİ LİDERİN İRSİNDƏ AZƏRBAYCANÇILIQ VƏ TOLERANTLIQ İDEOLOGİYASININ MƏDƏNİ İNKİŞAFI
Məmmədova İ. O.

Açar sözlər: *azərbaycançılıq ideologiyası, dini inanclar, dövlət-din münasibətləri, dinlərarası dialoq, tolerantlıq, diaspor, multikulturalizm*

Yalnız özlərini milli etnik qrup kimi tanıyan xalqlar milli bir dövlət quraraq varlıqlarını qoruya bildilər. Təcrübə göstərir ki, hər bir millətin əlverişli tarixi şəraitdə öz milli-etnik köklərinə qayıtması, əsrlər boyu toplanmış milli-mənəvi dəyərlər və dünyagörüşü sistemi əsasında öz şəxsiyyətini müdafiə etmək qabiliyyəti xalqın müstəsna missiyası ilə şərtlənir. Əsrlər boyu milli dövlətə mənsub olmaq hər bir millətin nəyə qadir olduğunu, ədalətli mübarizə yolunu və dünya xalqları arasında layiqli yer tutmaq əzmini nümayiş etdirmişdir. Bu mənada milli dövlətin mövcudluğu insanların qarşısına qoyduqları konkret məqsədlərə doğru irəliləməsi prosesində vacib şərtlərdən biridir.

РЕЗЮМЕ
КУЛЬТУРНОЕ РАЗВИТИЕ ИДЕОЛОГИИ АЗЕРБАЙДЖАНСТВА И ТОЛЕРАНТНОСТИ В НАСЛЕДИИ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА
Мамедова И.О.

Ключевые слова: *идеология «азербайджанства», религиозные убеждения, государственно-религиозные отношения, межрелигиозный диалог, толерантность, диаспора, мультикультурализм*

Только народы, осознающие себя национальным этносом, смогли сохранить свое существование, создав национальное государство. Опыт показывает, что возвращение каждой нации к своим национально-этническим корням при благоприятных исторических условиях, способность защищать свою идентичность на основе накопленных веками национально-нравственных ценностей и системы мировоззрения обусловлены исключительной миссией народа. Принадлежность к национальному государству на протяжении веков демонстрировала, на что способна каждая нация, путь честной борьбы и решимость занять достойное место среди наций мира. В этом смысле существование национального государства является одним из важных условий в процессе движения людей к конкретным целям, которые они перед собой поставили.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN 1920-30-cu İLLƏR TARİXİNİN AKTUAL MƏSƏLƏLƏRİ

Məmmədov Ənvər Fəttah oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
mammadovanvar1969@mail.ru

Açar sözlər: *Heydər Əliyev, Azərbaycan Respublikası, müqavimət hərəkatı, qələbə, çıxışlar, işğal*

Azərbaycanın XIX-XX əsrlər tarixi Vətən tarixinin ən dramatik hadisələri ilə zəngin dövrünü təşkil edir. Həmin vaxtı Şimali Azərbaycan torpaqları çar Rusiyası tərəfindən işğal olunmuş, Vətənimiz Araz çarından olmaqla iki yerə bölünmüş, ərazilərimizə Qacar İranı və Osmanlı dövlətindən kütləvi şəkildə ermənilər köçürülmüşdür. [6] Çar Rusiyasının Cənubi Qafqazda özünə xristian dayağı yaratmaq məqsədilə həyata keçirdiyi müstəmləkə xristianlaşdırma siyasətinin həyata keçirilməsi də məhz bu dövr Azərbaycan tarixinin ciddi şəkildə araşdırılmasına ehtiyac duyulan səhifələrini təşkil edir. [4]

Şimali Azərbaycan XIX-XX əsrin əvvəlləri boyu çar Rusiyasının müstəmləkə siyasətinə qarşı kütləvi xalq hərəkatlarına, 1826, 1863 və 1877-ci illərdə baş vermiş ümumqafqaz üsyanlarına meydan olmuşdur.

XX əsrin əvvəllərindən ümumilikdə Rusiya imperiyasında baş verən hadisələrin təsiri ilə Şimali Azərbaycanda da milli-demokratik hərəkatın yüksəlişi baş vermiş, 1917-1918-ci illərdə azərbaycanlı ziyalılar, ictimai-siyasi xadimlər Cənubi Qafqazda baş vermiş siyasi proseslərdə yaxından iştirak etmişdilər. [1]

1920-1930-cu illər isə Azərbaycanın tarixində xüsusi bir mərhələni təşkil edir. Təsadüfi deyildir ki, Ümummilli Lider tərəfindən irəli sürülmüş XX əsr Azərbaycan tarixinin dövrləşməsində 1920-30-cu illər hadisələrinin yer aldığı tarixi dövr ayrıca bir mərhələni təşkil etmişdir. Bu mərhələ həmin yüzilliyin 1920-ci ilin aprel işğalından başlanmaqla 1991-ci ilin oktyabrın 18-də dövlət müstəqilliyimizin bərpasına qədərki dövrü əhatə edir. [5, s. 19-20]

Bu barədə Ümummulli Lider 2000-ci ilin dekabrın 29-da "Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"ndə qeyd edir ki, "Bu mərhələdə Azərbaycan sovet hakimiyyəti qurulandan sonra da öz müstəqilliyini saxlamış, aprelin 30-da Rusiya ilə Azərbaycan arasında hərbi-iqtisadi müqavilə imzalanmışdı. Azərbaycanda xarici ölkələrin nümayəndəlikləri, o cümlədən Rusiya konsulluğu da fəaliyyət göstərirdi. Azərbaycanın bu dövrdə yürütdüyü uğurlu siyasətin təzahürlərindən biri kimi, Azərbaycanın ərazi bütövlüyünün qorunması istiqamətində aparılan işlər, Moskva və Qars müqavilələri, Genuya konfransı sayıla bilər... 1921-ci ildə Zaqafqaziya Federasiyasının yaradılması artıq müstəqilliyin itirilməsi yolunda atılan ilk addım oldu. 1922-ci ildə dekabrın 30-da SSRİ-nin yaranması ilə Azərbaycanın müstəqilliyinə son qoyuldu. O, bir sıra dövlətçilik atributlarını, o cümlədən bayraq, gerb, himn və Konstitusiyasını qoruyub saxlamasına baxmayaraq, bir çox sahələrdə özünün beynəlxalq hüququn subyekti olmaq statusunu itirmişdi." [3, s. 143]

Bütövlükdə isə tarixi hadisələrlə zəngin olan XIX-XX əsrlər tarixi Heydər Əliyevin diqqət mərkəzində olmuş, məhz bu səbəbdən Ümummilli Lider 1997-ci il yanvarın 31-də Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, institut direktorları və akademiyanın aparıcı alimləri ilə görüşü zamanı Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yeni baxımdan öyrənilməsi və yetişməkdə olan gənc nəslə çatdırmağın vacibliyini qeyd edərək, bu işi bir vəzifə kimi tarixçi alimlərin qarşısında qoymuşdur. Bu barədə onun çıxışında qeyd olunur: "...XX əsr çox mürəkkəb bir əsrdir. Bu əsrdə dünyada və respublikamızın həyatında baş verən ictimai-siyasi hadisələr məlumdur. Ancaq bu XX əsrdə yaşadığımız ideologiyaya və onun konsepsiyasına görə bizim tariximiz təhrif olunmuşdur." [2, s. 183]

Bu görüş faktiki olaraq XIX-XX əsrlər Azərbaycan tarixinin öyrənilməsində dönüş nöqtəsi hesab oluna bilər; məhz ondan sonra qısa vaxt ərzində çoxsaylı tədqiqat işləri və monoqrafiyalar hazırlanaraq, geniş oxucu kütləsinin ixtiyarına verilmişdi. Həmin əsərlərdə Azərbaycanda sovet hakimiyyətinin qurulması, müqavimət hərəkatının çeşidli aspektləri kimi problemlər dərindən təhlil olunmağa başlanılır. Z. Bünyadovun, C. Quliyevin, B. Rəfiyevin, X. İbrahimlinin, H. Manaflının özündə bu problemlərə yeni yanaşmanı əks etdirən tədqiqatlarında müqavimət hərəkatının səbəbləri, bu hərəkatda xüsusi rolu olmuş gizli təşkilatlar, Yeni İqtisadi Siyasətin xüsusiyyətləri kimi məsələlər tarixşünaslığımızda ilk dəfə olaraq ideoloji təzyiqlərdən azad bir şəkildə araşdırılır.

2000-ci ildən etibarən bu problemlə bağlı yeni tədqiqatlar işıq üzü görməyə başlayır. F.İbrahimli, M.Qasımlı, C.Qasımov, F.Əhmədova, Ş.Rəhmanzadə, C.Cəfərov, E.İsmayılov, M.Süleymanov, N.Məmmədov, İ.Niftəliyev, R.Bayramova, Ə.Əhmədov, Ə.Nəzərli, Ş.Məmmədova, A.Muradovanın əsərləri XX əsrin 20-30-cu illərində Azərbaycanda ictimai-siyasi vəziyyətin, bolşevik rejiminin respublikanın daxili həyatına təsir göstərən kursunun və müqavimət hərəkatının tədqiqinə həsr olunmuşdur.

C.Cəfərov və N.Məmmədovun Azərbaycanda kənd təsərrüfatının kollektivləşməsi probleminin araşdırılmasına həsr olunmuş tədqiqatlarında bir çoxu ilk dəfə elmi dövriyyəyə cəlb edilmiş arxiv materiallarının məlumatları əsasında Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra respublikamızda sovet idarəetmə sisteminin tətbiqi, 1921-1930-cu illərdə Azərbaycan SSR-in ərazi bütövlüyünə edilən qəsdlərin ağır nəticələri, Azərbaycan və Gürcüstan SSR-i arasındakı ərazi mübahisələri, Yeni İqtisadi Siyasət, sənayeləşdirmə, kənd təsərrüfatının zorakı yolla kollektivləşdirilməsi və bu siyasətə qarşı baş vermiş kəndli çıxışları məsələləri araşdırılmışdır.

Bu əsərlərdə tarix elminin uzun illər sovet ideologiyasının təsiri və nəzarətində olması səbəbindən obyektiv araşdırılmamış problemlərə, Ümummilli Liderin bu istiqamətdəki tövsiyyələrinə uyğun olaraq yeni yanaşma təqdim olunur.

Ədəbiyyat

1. Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin dövlətçilik fəaliyyətinin Tiflis dövrü. Bakı: "Turxan" NPB, 2018, 440 s.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir. 8-ci kitab. Bakı: Azərnəşr, 1998, 488 s.
3. Əliyev H. Müstəqilliyimiz əbədidir. 31-ci kitab. Bakı: Azərnəşr, 2010, 512 s.
4. Əliyeva İ. İngiloylar: zorakı xristianlaşmaya və gürcüləşdirməyə qarşı mübariz tarixindən. Bakı, 2000, 368 s.
5. Hüseynova L. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri. (müstəqillik dövrü). Bakı: Təhsil, 2011, 216 s.
6. İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2010, 616 s.

РЕЗЮМЕ
ГЕЙДАР АЛИЕВ И АКТУАЛЬНЫЕ ВОПРОСЫ ИСТОРИИ АЗЕРБАЙДЖАНА 1920-30-Х ГОДОВ
Мамедов А.Ф.

Ключевые слова: *Гейдар Алиев, Азербайджанская Республика, движение сопротивления, победа, выступления, оккупация.*

В современной азербайджанской общественной идеологии описание героического прошлого в первую очередь служит прославлению многовековой борьбы нашего народа против гнета и произвола, против иноземных захватчиков, за независимое национальное существование. Именно в результате этой целеустремленной работы, проводимой как в идеологической, так и во всех сферах, азербайджанский народ, наша Победоносная Армия под руководством Главнокомандующего Президента Ильхама Алиева разгромила ненавистного врага и одержала историческую победу, положившую конец 30-летней оккупации. Общенациональный лидер Гейдар Алиев поставил перед историками задачу изучения истории Азербайджана XIX и XX веков.

SUMMARY
HEYDAR ALIYEV AND ACTUAL ISSUES OF THE HISTORY OF AZERBAIJAN IN THE 1920S AND 30S
Məmmədov A.F.

Key words: *Heydar Aliyev, Republic of Azerbaijan, resistance movement, victory, speeches, occupation.*

In the modern Azerbaijani social ideology, the description of the heroic past primarily serves to glorify the centuries-old struggle of our people against oppression and arbitrariness, against foreign invaders, for an independent national existence. It was as a result of this purposeful work, carried out both in the ideological and in all spheres, that the Azerbaijani people, our Victorious Army under the leadership of Commander-in-Chief President Ilham Aliyev defeated the hated enemy and won a historic victory that put an end to 30 years of occupation. All-national leader Heydar Aliyev challenged historians to study the history of Azerbaijan of the 19th and 20th centuries.

AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ MƏDƏNİYYƏTİN VƏ MƏNƏVİ MÜNASİBƏTLƏRİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

Məmmədova Esmira Fərhad qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan, ped.f.d.
tunaryasinmemmedli@mail.ru

Açar sözlər*: mənəviyyat, dil, inkişaf , mənəvi dəyərlər, tərəqqi, irs, din*

Cəmiyyətin mənəvi inkişafı və mənəvi tərəqqisi heç də mücərrəd problem deyildir. Milli liderimiz cəmiyyətin mənəvi inkişafından danışaraq, bu sahədə böyük səylər göstərərək daim cəmiyyətə, xalqa bir canlı orqanizm kimi yanaşmışdır. Bu canlı orqanizmdə gedən müsbət və mənfi prosesləri təhlil edib orada bu gün və gələcək üçün mühüm əhəmiyyət kəsb edən nəticələr çıxartmışdır. Bu baxımdan cəmiyyətdə mənəvi münasibətlərin formalaşması Heydər Əliyev irsində xüsusi yer tutur. Cəmiyyətin mənəvi inkişafına və tərəqqisinə ölkədə formalaşmış ictimai, siyasi, iqtisadi və mənəvi münasibətlərin böyük əhəmiyyətə malik təsiri olur.

Heydər Əliyev fəaliyyətində mənəvi tərbiyə, xüsusən də gənc nəslin mənəviyyatı məsələsi həmişə aparıcı yer tutmuşdur. Onun çıxışlarına, məruzələrinə, nitqlərinə və yazılarına müraciət edərək, biz birinci növbədə mənəvi yanaşmanın istiqamətlərini Heydər Əliyev prizmasından dərk edib, qarşıda duran praktiki və nəzəri məsələləri müəyyənləşdirməliyik. Müasir dövrün aktual məsələlərini nəzərə alaraq, bir qədər Azərbaycanın mənəvi inkişafında və mənəvi tərəqqisində mənəvi münasibətlərin yeri, rolu və funksiyaları haqqında danışmaq istərdim.

Əgər biz, Heydər Əliyev ideya-nəzəri irsinə diqqətlə yanaşsaq, onda görərik ki, mənəvi münasibətlərin formalaşmasına o, müxtəlif prizmalardan yanaşırdı. Bu baxımından mən bir neçə səviyyəni qeyd etmək istəyirəm. Birinci və əsas səviyyə- kollektivdə formalaşan münasibətlər, kollektivdə aparılan

siyasi, tərbiyəvi və ideoloji iş, kollektivin daxilindəki mənəvi-psixoloji mühit və mənəvi dəyərlərə tələbatdır. Demək olar ki, sosializm dövründə bu yanaşma mənəvi tərbiyənin, mənəvi inkişafın, mənəvi tərəqqinin təməl daşını təşkil edirdi. Müasir Azərbaycan cəmiyyətində bu yanaşma aktuallığını itirməmişdir.Doğrudur, araşdırma apararkən məlum olur ki, sovet cəmiyyətində olan kollektivlər indi mövcud deyil, ictimai mülkiyyət əsasında əfaliyyət göstərən müəssisələri barmaqla saymaq olar. Əsas təşkilatlar özəl müəssisələrdə cəmləşibdir və burada rəsmi qəbul olunmuş, və ya rəsmi formada qəbul olunan heç bir ideoloji yönəliş yoxdur. Ümumiyyətlə ölkəmizdə fəaliyyət göstərən (istər Azərbaycan, istər xarici müəssisələr, istərsə də qarışıq müəssisələr olsun) müəssisələrin heç birində nə tərbiyə proqramları var, nə də bu məsələ ilə kimsə məşğul olur. Ona görə də müasir Azərbaycandan danışdıqda heç kəs kollektivi nəzərə almaq istəmir. Ancaq biz Heydər Əliyev ideyalarına müraciət etsək, görərik ki, o kollektivin tərbiyəsinə, kollektivdə olan mənəvi münasibətlərə nə qədər böyük əhəmiyyət verirdi.

Bu baxımından mənə belə gəlir ki, müvafiq təşkilat və qrumlar tərəfindən kollektivlərin mənəvi tərbiyəsi və kollektivlərdə mənəvi münasibətlərin formalaşması problemlərinə dair xüsusi konsepsiyalar hazırlanmalıdır.

Heydər Əliyev irsində mənəviyyat bir sistem kimi təhlil olunur. onun fikrincə mənəviyyatın özünün keyfiyyət göstərici vardır. O, çıxışlarının birində demişdir: “ Hesab edirəm ki, insan mənəviyyatının ən yüksək keyfiyyəti, ən yüksək göstəricisi səmimilikdir.” [3, s.84-85] Apardığımız araşdırmalarda müasir Azərbaycan cəmiyyətində sosializm dövründə olan kollektivlər və kollektivizm mövcud deyildir. Ancaq indi başqa qrumlar, siyasi partiyalar, ictimai hərəkatlar vardır. Və onların daxilində eyni zamanda onların bir-birilə olan əlaqələri çərçivəsində müəyyən mənəvi münasibətlər mövcuddur. Birinci növbədə siyasi partiyaların daxilindəki mənəvi münasibətlərin formalaşmasına diqqət salaq. Buradan bir sual meydana çıxır: Həmin partiyaların daxilindəki prinsiplər, o cümlədən, mənəvi prinsiplər hansı ideyalar və ideoloji dəyərlər üzərində formalaşır? Burada bir neçə ideyanı qeyd etmək olar: birinci ideya ən populyar ideya bu demokratiya fenomenidir. Əgər siyasi partiyaların rəhbərlərinin çıxışlarını nəzərə alsaq, onda görərik ki, onların əksəriyyəti demokratik prinsipləri vurğulayır və öz partiyadaxili münasibətləri demokratik prinsiplər üzərində qurmaqlarını bəyan edirlər. Əslində bu bəyanatların çoxu populizm xarakter daşıyır. Problemin başqa aspektinə toxunaq. Siyasi partiya və ictimai hərəkatlar arasında formalaşan mənəvi münasibətlər. Burada da ürəkaçıcı bir şey yoxdur. Çünki seçkilərqabağı verilən bəyənatlar, mənəviyyatlar çağırışlar konponiya xarakteri daşıyır. Əslində isə bu xarakterli çıxışlar, bəyənatlar, şüarlar insanları aldatmaq, çaşqınlığa salmaq məqsədi güdür.

Yeni bir sual ortaya çıxır: Ölkədə mövcud olan siyasi partiyalar arasında yüksək mənəvi prinsiplər əsasında münasibət qurmaq mümkündürmü? Mənə belə gəlir ki, bu sualın dolğun və obyektiv cavab Heydər Əliyev ideya və nəzəri irsində öz yerini tutmuşdur.

Heydər Əliyev dəfələrlə siyasi partiyalara, ictimai hərəkatlara müraciət edərək, onları əməkdaşlığa dəvət etmişdir. Dərin potriotizm vətənə, dövlətə, torpağa, millətinə tarixi keçmişinə və mədəniyyətinə, onun mənəvi dəyərlərinə səmimi qəlbdən hörmət, onları sevmək, bu anlayışlar eşqinə yaşamaq-siyasi partiya və hərəkatların fəaliyyətləri, onlar arasında münasibət məhz bu zəmin üzərində formalaşıb, inkişaf etməlidir. Vətənə sevgi, millətə sevgi, xalqın tarixi keçmişinə hörmət və bağlılıq- onların hamısı mənəvi dəyərlərdir və partiyalararası münasibətlər bu dəyərlərdən bəhrələnməlidir.

Mən bu mövzunun bir aspektinə toxunmaq istərdim, o da cəmiyyətin idarəetmə sistemində və dövlət strukturlarında mənəvi münasibətlərin formalaşması məsələsidir.

Heydər Əliyev bu problemə dəfələrlə toxunmuşdur. Bildiyimiz kimi, 2002-ci ildə Naxçıvanda olarkən o, rəhbər işçilərin mənəvi siması haqqında və bəzilərinin mənəvi simalarının itirmələri haqqında çox ciddi sözlər demişdir.

Dövlət strukturlarında müsbət, mənəvi-psixoloji iqlimin yaranması, işçilər arasında səmiyyətin olması, birinci növbədə təşkilat və idarə rəhbərlərindən asılıdır. Idarələrin və təşkilatların rəhbərlərinin mənəviyyatı nə qədər dərin olsa, mənəvi mədəniyyətləri nə qədər yüksək olsa, kollektivin təşkilatların mənəvi münasibətləri bir o qədər pak olar. Məhz buradan biz belə bir nəticəyə gəlirik.

Kollektivlərin, təşkilatların mənəvi təmizliyi, mənəvi paklığın, yüksək mədəniyyəti cəmiyyətin mənəvi tərəqqisinin əsas faktorlarından biridir.

Bu baxımdan da kollektivlərin, təşkilatların, siyasi partiyaların daxili, mənəvi sağlamlığı haqqında lahiyələr işlənməlidir, konsepsiyalar hazırlanmalıdır. Həmin lahiyələr və konsepsiyalar Heydər Əliyev ideya-nəzəri irsindən faydalanmalıdır.

Azərbaycan xalqının mənəvi tərəqqisində, mənəvi inkişafında Heydər Əliyevin rolunu araşdırarkən mən istərdim ki, sizin diqqətinizi aşağıdakı məsələlərə yönəldim.

Öncəliklə, Heydər Əliyev şəxsiyyətin, millətin, cəmiyyətin mənəviyyatı probleminə toxunaraq, milli-mənəvi dəyərlərə müraciət edirdi. Xalqın min illərlə formalaşmış adət-ənənələrinə müraciət edirdi. Bu o

deməkdir ki, Azərbaycan xalqının mənəvi inkişafı, mənəvi tərəqqisi, mənəvi paklığı bilavasitə xalqın öz keçmişinə münasibətindən, öz tarixi mədəniyyətini nə dərəcədə mənibsəyib-mənimsəməməyindən asılıdır. Nəhayət, mənəvi saflıq millətin mütərəqqi adət-ənənələrinin bu günkü həyata daxil olmasının dərəcəsindən asılıdır. Milli-mənəvi dəyərlər deyəndə Heydər Əliyev, birinci növbədə, Azərbaycanda min illərlə formalaşmış adət-ənənələri, eyni zamanda bu adət-ənənələrdə əks olunan mütərəqqi prinsipləri nəzərdə tuturdu. Bunları sxematik formada aşağıdakı kimi təqdim etmək olar.

1. Azərbaycan ailəsi, ailə ənənələri, ailə mənəviyyatı, ailə mədəniyyəti. Mənəvi cəhətdən sağlam, mənəviyyatı zəngin olan ailə gənc nəslin dayağıdır, mənəvi qida mənbəyidir.

2. Azərbaycanın milli-mənəvi dəyərlərində, Azərbaycan xalqının adət-ənənələrində böyük-kiçik problemi. Gənclərin ağsaqqallara, yaşlılara münasibəti, yaşlı nəslin gənc nəslə qayğısı, onlar üçün nümunə olması. Bu sistemdə hərə öz funksiyasını düzgün yerinə yetirməlidir. Əgər gənclik böyük enerjiyə, kəskin düşüncəyə, sağlam orqanizmə malikdirsə, bunlara arxalanaraq yaşlı nəslə hörmət göstərirsə, yaşlı nəsil isə bir nümunə mənbəyi olmalıdır. Öz hərəkəti, davranışıilə gənclərə yol göstərməlidir. Bu Heydər Əliyev irsində xüsusi yerlərdən birini tutur.

3. Heydər Əliyev sosial ədalət tərəfdarı idi. O, daima sosial ədaləti qorumaq, gözləmək, dərinləşdirmək məsələlərini ön plana çəkirdi.

Sovet dövründə də o, ümumbəşəri dəyərlərə müraciət edirdi. Ancaq bu, o dövrün prinsiplərinə bir o qədər də uyğun deyildi. Azərbaycanın müstəqilliyi dövründə o, ümumbəşəri dəyərlərə xüsusi əhəmiyyət verirdi. Burada həm dünyəvi prinsiplərə, həm də dində olan müsbət mütərəqqi dəyərlərə xüsusi yer verirdi və onların bu gün Azərbaycan xalqının mənəvi tərbiyəsində rolunu daim qeyd edirdi.

Siyasi xadimlər və dövlət başçıları cəmiyyətin mənəvi inkişafı problemləri haqqında düşünərək, bir qayda olaraq, siyasi prinsiplərə və siyasi mədəniyyətə müraciət edirlər. Siyasətçilər arasında belə bir fikir formalaşmışdır ki, siyasi lider yalnız siyasət problemləri ilə, siyasətlə məşğul olmalıdır. Lakin tarixi təcrübə və reallıq bu prinsipi inkar edir. Dünya şöhrətli siyasətçilər və dövlət xadimləri heç vaxt öz fəaliyyətlərini siyasət və siyasi problemlərin həlli ilə məhdudlaşdırmamışlar. Məhz Heydər Əliyev bu tipli siyasətçilərdəndir. Biz yüz faiz o tədqiqatçılarla həmfikirik ki, onlar, Heydər Əliyevi həm dünya şöhrətli siyasi xadim, həm də mütəfəkkir hesab edirlər. Əgər bir qədər dərinə getsək, onda biz tam aydın anlayıq ki, Heydər Əliyev siyasətin və siyasi proseslərin ən mühüm və ən çətin problemləri ilə məşğul olaraq siyasi mədəniyyətin tədqiqi ilə heç vaxt kifayətlənməmişdir. O, cəmiyyətin siyasi və mədəni inkişafını mənəvi inkişafsız hətta təsəvvür edə bilmirdi. Məsələyə bir qədər də ciddi yanaşsaq, tam aydın görərik ki, Heydər Əliyev mənəviyyatsız və mənəvi cəhətdən zəif cəmiyyətə inkişf etmiş cəmiyyət deməzdir. Onun zəngin ideya-nəzəri irsi bizə əsas verir ki, birmənalı təsdiq edək: cəmiyyətin mənəvi sağlamlığı onun inkişaf göstəricisinin əsas meyarıdır. Mənəvi cəhətdən inkişaf etmiş insanlar, mənəvi cəhətdən mütərəqqi, humanist və demokratik inkişafın faktorlarıdırlar.

Bildiyimiz kimi, cəmiyyət çox mürəkkəb bir sistemdir. Bu sistemin müxtəlif səviyyələri və müxtəlif komponentləri vardır. Ona görə də cəmiyyətin mənəvi inkişafından, yaxud siyasi mədəniyyətinin inkişafından söhbət açaraq, biz birinci növbədə o sistemi təşkil edən konponentlərin mənəvi inkişafından, yaxud da onların siyasi mədəniyyətinin inkişafından bəhs etməliyik. Bu baxımdan olduqca maraqlı və bu günə qədər öyrənilməmiş bir məsələ vardır. Biz nəyi nəzərdə tuturuq?- Birinci növbədə, biz ölkənin müxtəlif dövlət və siyasi qurumlarının, o cümlədən, sosial idarəetmə sisteminin mənəvi zənginliyi, onların siyasi mədəniyyətinin hansı səviyyədə olub-olmamasını nəzərdə tuturuq. Məlumdur ki, siyasi qurumlar, siyasi strukturlar, ictimai və dövlət strukturları yüksək mənəvi səviyyədə fəaliyyət göstərmirsə, onların siyasi mədəniyyəti aşağı səviyyədədirsə, onda cəmiyyətin, ölkənin və dövlətin yüksək mənəvi və mədəniyyətindən danışmaq yersiz olardı. Beləliklə, Heydər Əliyev ideya-nəzəri irsində insanın, şəxsiyyətin,ictimai və siyasi qurumların, müxtəlif sosial insitutları yüksək mənəviyyata və dərin siyasi mədəniyyətə nail olmaları cəmiyyətin mənəvi tərəqqisinin əsas şərtlərindən biridir.

Sual olur:- "*Bu adı çəkilən qurumların və ya sturkturların mənəvi zənginləşməsinin müxanizmi nədən ibarətdir?*"

Və digər sual: "*Onların siyasi mədəniyyətinin yüksəlmə mexanizmi nədən ibarətdir*?"

Birinci – şəxsiyyətin idarəçilik subyektlərinin, siyasətçilərin və siyasi qurumların liderlərinin, cəmiyyətdə fəaliyyət göstərən müxtəlif insanların mənəviyyatının, inkişafının və zənginləşməsinin ümumi və xüsusi cəhətləri vardır. Ümumi cəhətləri nəzərdən keçirək, Heydər Əliyev onların bir neçəsinin üzərində dayanır. Onun fikrincə, "millətin tarixi keçmişi, tarixən formalaşmış mədəniyyəti, onun adət-ənənələri, həyat tərzi min illərlə formalaşmış xarakteri və s. keyfiyyətləri cəmiyyətin, bütün strukturların mənəvi inkişafının əsasını təşkil edir. Ona görə də istər şəxsiyyət olsun, istərsə də siyasi qurumlar və onların liderləri olsun, öz xalqının tarixinin, mədəniyyətini, onun adət-ənənələrini dərindən mənimsəməlidirlər. Söhbət yalnız milli-mənəvi dəyərlərin formal mənimsənilməsindən getmir. Söhbət xalqın, millətin, mənəvi dəyərlərini, yüz

illərlə formalaşıb və inkişaf etmiş prinsiplərini özününkü etməkdən, öz şəxsi pirinsiplərinə çevirməkdən ibarətdir. Bu gün cəmiyyətin qarşısında duran tərbiyə məsələləri pirismasından, demək olar ki, gənc nəslin Şah İsmayıl mənəviyyatını, Babək mənəviyyatını, Nəsimi mənəviyyatını bilməklə kifayətlənməməlidir. Ümdə vəzifə ondan ibarətdir ki, Azərbaycan tarixinə öz adlarını qızıl hərflə yazmış bu şəxsiyyətlərin mənəvi pirinsiplərini bu günkü və gələcək nəsillər özlərinin şəxsi prinsiplərinə çevirsinlər, fəaliyyət prinsipi etsinlər. Belə olarsa, onda milli ruh daha çox güclənər, cəmiyyətin həyatında o daha mühüm rol oynayar." [1, s.54-55]

İkinci – cəmiyyətin mənəvi tərəqqisində, mənəvi inkişafında ən mühüm rol oynayan faktorlardan biri cəmiyyətdə və onun müxtəlif səviyyələrdə formalaşan mənəvi münasibətləridir. Əgər insanlar müxtəlif funksiyaları yerinə yetirən subyektlər arasında müxtəlif qrumlar, təşkilatlar və insanlar arasında yüksək mənivi prinsiplərə söykənən münasibətlər formalaşıb və inkişaf edərsə, o, cəmiyyətin mənəvi tərəqqisinin aparıcı faktoru funksiyalarını yerinə yetirə bilər. Digər tərəfdən, adını çəkdiyim qurumlar və strukturlar zəngin siyasi mədəniyyəti mənimsəyib və fəaliyyətlərini istiqamətverici faktora çevirsələr, o zaman, cəmiyyətin mənəvi və siyasi tərəqqisində harmoniya yaranmasının böyük şansları ola bilər.

Üçüncü – Heydər Əliyev cəmiyyətin mənəvi inkişafından və mənəvi tərəqqisindən danışaraq, həmişə birtərəfliliyə qarşı öz mənfi münasibətini bildirirdi. Onun fikrincə cəmiyyətin tərəqqisi insanların mənəvi, mədəni, intellektual, siyasi və sosial inkişafından asılıdır. Həmçinin cəmiyyətin inkişafından söhbət açaraq, o, müxtəlif subyektiv faktorların, eyni zamanda fəaliyyət göstərməsini, fəaliyyətini çox yüksək dəyərləndirirdi. Məsələn, cəmiyətin sosial kamilliyini formalaşmasında mənəviyyatın, ümumi mədəniyyəti, siyasi mədəniyyətin və sosial özünüdərketmənin xüsusi yeri və rolu vardır. Vəzifə cəmiyyətin tərəqqisinə adı çəkilən faktorların təsiri mexanizmini öyrənmək və ondan səmərəli istifadə etməkdən ibarətdir.

Heydər Əliyev ideya-nəzəri irsini, onun siyasi, ideoloji və praktiki fəaliyyətindən təcrid olunmuş şəkildə anlamaq qeyri-mümkündür. Bildiyimiz kimi, Heydər Əliyevin nəzəri irsində siyasi və praktiki fəaliyyətində idarəetmə fəaliyyəti xüsusi yer tutmuşdur. Onun idarəetmə fəaliyyəti heç də göstəriş verməklə, tapşırıqlar verməklə kifayətlənmirdi. Heydər Əliyev səylərini siyasi və dövlət strukturlarının humanistləşdirilməsinə və demokratikləşdirilməsinə yönəldirdi. Sosial və siyasi idarəetmə strukturları fəaliyyətlərinin yüksək siyasi mədəniyyət və mütərəqqi mənəviyyat üzərində qurulması onu daima düşündürürdü. Dövlət orqanları, dövlət və siyasi strukturları rəhbərləri öz fəaliyyətlərində ədalətli olmalı, sosial ədalətin prinsiplərinə daima əməl etməlidirlər. Bununla o, strukturlar və qurumlar müəyən qədər insanları mənəvi təcavüzdən, mənəvi sıxıntılardan azar edə bilərlər- bu Heydər Əliyev baxışlarında ən əsas yer tutan ideyalardan biridir.

Mən istərdim bir məsələyə yenidən qayıdım. Cəmiyyətin mənəvi inkişafında mənəvi prinsiplərin və mənvi dəyərlərin insanın və millətin inkişafında ən vacib yerlərdən birini tutur. Vurğulamaq istərdim ki, real həyatda nə mənəvi prinsiplər, nə siyasi mədəniyyət, nə də hüquqi normalar ayrı-ayrılıqda, necə deyərlər, bir-birindən xəbəri olmayaraq, hansısa bir formal sxem əsasında tətbiq olunmurlar. Onların tətbiqində zaman baxımından ardıcıllıq prinsipi də qeyri-məqbuldur. Praktiki həyatda qəbul olunmazdır ki, kimsə, hansısa, struktur və qurumlar əvvəlcə hüquqi prinsipləri və normaları tətbiq etsin, onların fəaliyyətlərini başa çatdırdıqdan sonra kimsə mənəvi prinsiplərin tətbiqinə başlasın və başa çatdırsın, sonra isə üçüncü subyektlər siyasi mədəniyyətin tətbiqi ilə məğul olsunlar. Elmdə və real həyatda belə ardıcıllıq qəbul oluna bilməz. Beləliklə, söhbət ondan gedir ki, eyni zamanda, eyni şəraitdə, eyni cəmiyyətdə münasib strukturlar mənəvi prinsiplərin tətbiqi ilə məşğul olsunlar, başqa mütəxəssislər və səlahiyyətli strukturlar hüquqi prinsipləri tətbiq etsinlər. Nəhayət siyasətçilər və siyasi mədəniyyət üzrə mütəxəssislər siyasi mədəniyyətin prinsiplərini, normalarını həyatda gedən proseslərə tətbiq edə bilsinlər. Qeyd olunan dəyərlər və prinsiplər real həyatda real prinsiplərin cərəyan etməsində elə tətbiq olunmalıdırlar ki, onlar bir-birlərini tamamlasınlar və funksiyalarını daha da optimallaşdırsınlar.

"Heydər Əliyevin ideya- nəzəri irsində problem bu səpkidə qoyulmuşdur və cəmiyyətin mənəvi tərəqqisini təmin edən faktorlara bizim də yanaşmalarımız bu prinsiplər əsasında qurulmalıdırlar." [4, s.72-73]

Nəticə. Sovet dövründən fərqli olaraq, müstəqillik illərində Heydər Əliyev dini dəyərlərə mütəmadi olaraq müraciət edirdi. Bu müraciətlərin bir xüsusiyyətini xüsusi qeyd etmək yerinə düşərdi.Məsələ ondan ibarətdir ki, Heydər Əliyev dini dəyərləri sadalamaqla heç vaxt kifayətlənmirdi. O, dini mənbələrdə, dini kitablarda daima ümumibəşəri dəyərlər axtarır və tərbiyə işində onlardan düzgün istifadə olunmasını məsləhət görürdü.

Dinləri də, müxtəlif mütərəqqi hümanist ideologiyaları da birləşdirən məhz bu ümumbəşəri, mütərəqqi humanist ideyalardır.

Ümummilli liderimizin 3 iyun 1995-ci ildə "Vətənə, dövlətə, xalqa sədaqət andı" Miniatür kitabının təqdimat sərgisində çıxışdan bir hissəni təqdim etmək istərdim: "Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də

hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram" [3, s.126-127].

Ümid edirik ki, gələcəkdə Heydər Əliyev ideyalarına əsaslanaraq bu istiqamətdə araşdırmalar, tətqiqatlar aparılacaqdır.

Ədəbiyyat

1. Azərbaycan Müəllmlər İnstitutunun xəbərləri, Bakı: Müəllim, 2006, 120 s.
2. Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə, Bakı,2007
3. İsmayılov Ə. Təhsil. Bilik. Məktəb, Bakı: Müəllim, 2006, 400 s.
4. Qəhrəmanova N. Heydər Əliyevin siyasi- nəzəri irsində siyasi mədəniyyət və mənəvi dəyərlərin realizə olunmasının bəzi metodoloji problemləri haqqında. AMİ, Bakı, 2008
5. Əliyev H. Müstəqilliyimiz əbədidir. II kitab, Bakı, 1997
6. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, 2005

РЕЗЮМЕ

РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ФОРМИРОВАНИИ НРАВСТВЕННЫХ ОТНОШЕНИЙ В АЗЕРБАЙДЖАНСКОМ ОБЩЕСТВЕ

Мамедова Э.Ф.

Ключевые слова: *духовность, язык, развитие, духовные ценности, прогресс, наследие, религия*

В статье затронуты вопросы религии и духовности в идеологическом наследии Гейдара Алиева. Наш общенациональный лидер всегда уделял особое внимание формированию нравственных отношений общества. Учитывая актуальные вопросы современной эпохи, в статье представлена обширная информация о месте, роли и функциях духовных отношений в духовном развитии и духовном прогрессе Азербайджана. Здесь подробно анализируется роль общенационального лидера Гейдара Алиева в развитии образования, развитии и строительстве новых школ, увеличении числа абитуриентов, поступающих в высшие учебные заведения республики. Говоря о роли Гейдара Алиева в развитии образования в Азербайджане, автор рассматривает решение этой проблемы в контексте функционирования двух социально-экономических систем. Автор проанализировал титаническую деятельность выдающегося государственного деятеля Азербайджана Гейдара Алиева в области высшего образования в Азербайджане. Он уделял много внимания расходам на образование, открывая новые школьные здания, направляя студентов в передовые высшие учебные заведения бывшего СССР. В наследии Гейдара Алиева духовность анализируется как система. По его словам, сама духовность имеет качественный показатель. В деятельности Гейдара Алиева вопрос духовного воспитания, особенно духовности подрастающего поколения, всегда занимал ведущее место. Обращаясь к его выступлениям, докладам, речам и трудам, мы должны, прежде всего, понять направления духовного подхода с точки зрения Гейдара Алиева и определить предстоящие практические и теоретические вопросы.

SUMMARY

THE ROLE OF HEYDAR ALIYEV IN THE FORMATION OF MORAL RELATIONS IN AZERBAIJANI SOCIETY

Mammadova E.F.

Keywords: *spirituality, language, development, spiritual values, progress, heritage, religion*

In the article, the issues of religion and spirituality in the ideological legacy of Heydar Aliyev were touched upon. Our national leader has always paid special attention to the formation of moral relations of the society. Taking into account the current issues of the modern era, the article provides extensive information about the place, role and functions of spiritual relations in the spiritual development and spiritual progress of Azerbaijan. The role of the national leader Heydar Aliyev in the development of education, the development and construction of new schools, and the increase in the number of applicants entering the republic's higher education institutions are analyzed in detail here. Talking about the role of Heydar Aliyev in the development of education in Azerbaijan, the author considers the solution of this problem in the context of the functioning of two socio-economic systems. The author analyzed the titanic activity of Heydar Aliyev, the outstanding statesman of Azerbaijan, in the field of higher education in Azerbaijan. He paid a lot of attention to education costs, opening new school buildings, and sending students to advanced higher education institutions of the former USSR. In Heydar Aliyev's legacy, spirituality is analyzed as a system. according to him, spirituality itself has a quality indicator. In Heydar Aliyev's activity, the issue of spiritual education, especially the spirituality of the young generation, has always taken a leading place. Turning to his speeches, reports, speeches and writings, we should first of all understand the directions of the spiritual approach from the perspective of Heydar Aliyev and determine the practical and theoretical issues ahead.

FEİLİN TƏDRİSİNDƏ QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR

Məmmədova Çimnaz Həsənəli qızı

Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan, dosent

Cimnaz.memmedov20@mail.ru

Açar sözlər: *feil, feilin leksik məna növləri, mürəkkəb feillər, orfoepik və orfoqrafik qaydalar.*

Məlumdur ki, sözlər leksik mənalarına, qrammatik əlamətlərinə və sintaktik vəzifələrfinə görə qruplara bölünür. Bu qruplar nitq hissələri adlanır. Feil bir sıra qrammatik xüsusiyyətlərinə görə digərlərindən fərqlənir. Hərəkət, dəyişmə və s. mənaları ifadə edən feil zəngin kateqoriyalar sisteminə malik olduğundan heç bir nitq hissəsi ilə müqayisə edilə bilməz. Bu nitq hissəsinə aid olan sözlər zamana və şəxsə görə təsrif olunur, işin icra olunub olunmadığını bildirir, təsirli və ya təsirsiz olur, müxtəlif qrammatik mənalara və şəkillərə malikdir.

Heç bir nitq hissəsi feillər qədər müxtəlif mənalar ifadə etmir. Nitqə dəqiqlik, aydınlıq, emosionallıq bəxş etməsi ilə fərqlənən bu nitq hissəsi dilimizin milliliyini qoruyan söz qrupudur. Belə ki, Azərbaycan dilindəki sadə feillərin hamısı mənşəyinə görə millidir. Alınma feillərin isə kökü başqa dillərə məxsus olduğu halda, onlara qoşulan leksik şəkilçilər bizim öz dilimizə məxsus milli şəkilçilərdir.

Təsadüfi deyil ki, böyük rus tənqidçisi V.Q.Belinski A.S.Puşkinin poeziyasından danışarkən onun milli kökə bağlılığını xüsusilə qeyd etmiş, bu şairi rus poeziyasının feili adlandırmışdır.

Xalq şairi B.Vahabzadə isə feillərin dilimizin milliliyini qoruyub saxlamasını, nitqə dinamiklik, çılğınlıq, mübarizlik ruhu gətirməsini nəzərə alaraq yazmışdır:

Öz dostu var,
Düşməni var dilin də.
İsim, sifət döyüşlərdə çox zaman
Karıxır...
Feillərsə həmişə qalib çıxır.
Çox sevirəm igid kimi döyüşən
Kəlməni mən, sözü mən,
Feil olmaq istəyirəm, düzü mən. [4, s. 165]

İbtidai sinif şagirdləri təbii ki, belə zəngin xüsusiyyətlərə malik olan bir nitq hissəsi ilə tanış etmək həm çətin, həm də məsuliyyətli işdir. Çünki, ibtidai təhsilin ilkin pilləsidir, bünövrəsidir. Əgər bünövrədə hər hansı qüsur olarsa, sonrakı hissələrdə onları düzəltmək çətin olur.

Feillər zəngin lüğəvi məna xüsusiyyətlərinə malikdir. Lüğəvi mənasına görə feillər aşağıdakı qruplara bölünür: **1) İş feillər**. Bu qrupa aid olan iş nəticəsində obyekt bir formadan başqa formaya keçir. Məs.: *cırmaq, doğramaq, sındırmaq* və s.; **2) Hərəkət feilləri.** Bu feillər canlıların və nəqliyyat vasitələrinin hərəkətini, irəliləməsini ifadə edir. Məs.: *yollanmaq, şütümək, sürünmək;* **3) Nitq feilləri** isə insanların danışıq prosesini, heyvanların səslərini bildirən sözləri əhatə edir. Məs: *tərifləmək, qışqırmaq, hürmək, ulamaq* və s.; **4) Təfəkkür feilləri** isə insanın əqli fəaliyyəti ilə əlaqədar sözlərdir. Məs.: *fikirləşmək, arzulamaq, müqayisə etmək;* **5) Görmə feilləri** isə canlıların görmə prosesini əks etdirən sözlər. Məs.: *göz qoymaq, seyr etmək, tamaşa etmək;* **6) Eşitmə feilləri** isə eşitmə prosesi ilə bağlı sözlərdir. Məs.: *dinləmək, qulaq asmaq*; **7) Hal-vəziyyət feilləri** ilə işçi icra edənin bir haldan başqa hala düşməsini bildirir. Məs.: *kökəlmək, arıqlamaq, acıqlanmaq* və s.

Göründüyü kimi, feillər anlayışları ifadə edir. Amma nədənsə ibtidai siniflərdə feil haqqında danışarkən onu hərəkət bildirən söz kimi izah etmək olar. Ancaq III–IV siniflərində oxuyan şagirdləri digər feil növləri ilə, yəni nitq, eşitmə, təfəkkür, görmə, hal-vəziyyət tanış olurlar. Halbuki o zaman uşaqlar həmin sözlərin iş, yaxud hərəkət olmadığını söyləyirlər. Fikrimizcə, feilə tərif verərkən iş, hərəkət, dəyişmə, bir haldan başqa hala keçmə bildirən sözlər kimi təqdim etmək daha məqsədəuyğundur.

1) Feil haqqında məlumat verərkən şagirdləri çaşdıran məsələlərdən biri də olmaq, etmək, eləmək köməkçi sözləri ilə düzələn mürəkkəb feillərdir. Məlumdur ki, həmin köməkçi sözlər həm də əsas feil kimi işlənə bilir. Məs.: *1) Nənəmgili Bakıda olurlar; 2) Demişdim ki, havalar tezliklə soyuyacaq, mən deyən oldu; 3) Küçədə tullan, ey oğul, sənətin olmur, olmasın; 4) Nə xalq olaydı, nə xəlq, nə əşki-həsrət olaydı; 5) Bu təklifi kim elədi?; 6) Bu düşmənçiliyi sən elədin mənə; 7) Həkimin dediklərinin hamısını elədim;*

8) Kababım olaydı, közüm olaydı.
Yar yanında ötkəm sözüm olaydı
Vaqif deyər iki gözüm olaydı,
Baxaydım bunların ikisinədə

Şagirdlər bu sözlərin köməkçi yoxsa əsas feil olduğunu müəyyənləşdirməkdə çətinlik çəkirlər. Hətta yuxarı siniflərdə morfoloji təhlil zamanı belə hallara çox təsadüf edilir.

Məsləhətdir ki, şagirdlərə bir xüsusiyyətə diqqət yetirmək olduqları izah olunmalıdır. Əgər *olmaq* sözü müstəqil feil olduqda obyekt tələb etmir və subyektlə uzlaşır.

Eyni zamanda *olmaq* feili köməkçi feil olanda *onu-dır* şəkilçisi ilə əvəz etmək mümkün olur. Məsələn:

1) Kaş bu gün mənim anam olaydı
2) Mən o vaxt ezamiyyətdə olmuşam
Gözümün yaşın silən olaydı
3) Bayram oldu heç bilmirəm neyləyim,

Bizim evdə dolu çuval da yoxdur (M.P.Vaqif)

4) Münəvvər xanımın Minadan başdan uşağı olmurdu.

Etmək, eləmək feilləri müstəqil söz kimi işləndikdə özündən əvvəl təsirlik halda işlənən obyekt tələb edir. Mürəkkəb felin komponent, olduqda isə obyektə ehtiyac duyulmur. Məsələn: *1) Son məqamda ən düzgün hərəkəti sən etdin; 2) Ən çətin halda mənə köməyi sən elədin; 3) Mənə tənə eləyənlər səni görsələr utanarlar; 4) Mən dostlarımla söhbət edirdim.*

Beləliklə, çalışmalar üzərində işlətməklə onları fərqləndirmək bacarığı formalaşdırmaq olar.

Mürəkkəb feil məsələsi dilçilikdə mübahisəli məsələlərdəndir. Vaxtilə dilçilərimizin əksəriyyəti olmaq, etmək, eləmək köməkçi sözləri ilə yaranan feilləri mürəkkəb hesab edirdilər. Lakin sonralar bu fikirlə razılaşmayanlar da oldu. Prof. B.Əhmədov iki sözdən ibarət olan feillərin mürəkkəb yox, tərkibi olduğunu söyləyirdi [2]. Onun fikrincə, mürəkkəb sözlər ya bitişik, ya da defislə yazılmalıdır. Əgər komponentləri ayrı yazılırsa, deməli, o, mürəkkəb deyil.

Prof. B.Əhmədov Azərbaycan dilində mürəkkəb feillər olduğunu təsdiq edir və nümunə də verir. Məs.: *yazıb-yaratmaq, çalıb oynamaq, gülüb danışmaq, qurub-yaratmaq, aşıb-daşır, qatıb-qarışdırır* və s.

Göründüyü kimi, bu feillər defislə yazılır.

Bu feillər 2 qrupa bölünür: *1) Hər iki komponenti tam mənalı sözlərdən ibarət olur. Məs.: saralıb solmaq, yazıb-yaratmaq və s.: 1. Arzular aşır-daşır, eldən-elə dolaşır; 2. Qohumlar qaynayıb qarışdılar; 3. Nizami Gəncəvi XII əsrdə yazıb yaratmışdır; 4. Camaat çalışıb-vuruşdu, dağılmış obanı abad etdi.*

3) İkinci qrupa daxil olan feillərin birinci komponenti əsas mənanı ifadə edir, II komponent isə yarımmüstəqil olub I tərəfi tamamlayır. Məsələn: *1. Qəhrəman döyüşçülərimiz düşmənə divan tutdular; 2. Həkim xəstəni dilə tutdu.*

Dilçilərin böyük bir hissəsi olmaq, etmək, eləmək yarımmüstəqil söz kimi müxtəlif sözlərə qoşularaq mürəkkəb feil düzəldir. Məs:

1. Aylar keçir, illər keçir, axın olur.
Yadlar gəlir doğma olur, yaxın olur.
Məhəbbətlə ötən ömür nağıl olur,
Ey həyat, sən nə qəribəsən. (Ç.N.)

2. Nə üçün üz çevirdin
Bir zəng elə barı (Ç.N.)

Məlumdur ki, iki komponentli frazeoloji birləşmələr də mürəkkəb feil hesab olunur. Belə frazeoloji birləşmələr quruluşuna görə bir neçə qrupa bölünür:

a) Frazeoloji birləşmənin I komponenti adlıq halda olan və mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərdən ibarət olur. Məs.: *1) Hərgah papağı bu cürə qoysam, onda qızın məndən zəhləsi gedər. (Ü.H.); 2. Paşanın qəribə ürəyi yandı.*

b) Ad bildirən komponent yönlük halda olur. Məs.: *1. Tərəflər razılığa gəldilər; 2. Ata uşaqları dilə tutdu.*

1) Ad bildirən söz qeyri-müəyyən təsirlik halda olur. Məs.: 1. *Səlim bəy bu sözü eşidəndə başladı Nəbiyə dil tökməyə. ("Qaçaq Nəbi" dastanı); 2. Bədnam qonşularımızla heç dil tapa bilmirik.*

ç) Ad bildirən tərəf yerlik halda olur. Məs.: *1. Bu mənfur niyyətiniz ürəyinizdə qalacaq, sərhəng. (Ə.M.).*

d) Ad bildirən komponent çıxışlıq halda olur. Məs.: *1) Qızı axtaran kəndlilər əldən düşdülər; 2) Yaddan çıxmır uşaqlıq illərim.*

Göründüyü kimi mürəkkəb feillər haqqında məlumat qarışıqdır. Bu isə ibtidai sinif şagirdləri üçün çox çətindir. Ona görə də felin quruluşca növləri haqqında məlumat ibtidai siniflərdə praktik yolla verilir.

Bu məqsədlə bir sıra çalışma növlərindən istifadə etmək olar. Məs.

1) Frazeoloji birləşmələri bir sözlə əvəz edin.

yola salmaq – gözdən düşmək – fikrə düşmək – dilə tutmaq – qulaq asmaq – başa düşmək –

2) Sözlərin sinonimlərini yazın.

qorxmaq – hirslənmək – anlamaq – yalvarmaq – ötürmək –

Heydər Əliyevin məqsədyönlü və humanist siyasəti sayəsində biz siyasi sabitliyin, davamlı inkişafın hökm sürdüyü ölkədə azad, azad yaşayırıq. O, ölkəmizdə yaşayan bütün insanları, o cümlədən təkcə azərbaycanlıları deyil, digər xalqları da vahid ideologiya ətrafında toplaya bildi. H.Əliyev multikulturalizmi yüksək qiymətləndirmiş, onu dövlət siyasətinin ayrılmaz hissəsinə çevirmişdir.

Ümummilli Lider Heydər Əliyev multikulturalizm siyasətini ölkənin demokratik və etnik-mədəni inkişafının mühüm tərkib hissəsi hesab etməkdə haqlı idi. O bildirmişdir ki, Azərbaycan ərazisində yaşayan bütün etnosların hüquq və azadlıqlarının, eləcə də etnik-mədəni dəyərlərinin qorunub saxlanılması demokratiyanın mühüm prinsipi kimi insan hüquq və azadlıqlarının qorunmasından irəli gəlir. [3]

Multikulturalizm ideyasının inteqrasiyası üçün bir çox regional və beynəlxalq layihələrə start verildi. "Azərbaycan multikulturalizmi" adlı kurs ölkə daxilində və xaricdə müxtəlif universitetlərdə tədris olunmağa başladı. Yeni nəslə tolerantlıq, qarşılıqlı əlaqə, qarşılıqlı anlaşma və mədəniyyət dəyərlərinin öyrədilməsi vacibdir, çünki ölkənin gələcəyini gələcək nəsil daşıyır.

H.Əliyev demişdir: "Mədəniyyət xalqları bəşəriyyətin topladığı ən gözəl nümunələrlə zənginləşdirir". Millətin özünüdərk etməsi liderin başqa bir mərkəzi idi. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının böyük milli mənlik şüurunun və dərin idrakının göstəricisi olan azərbaycançılıq ideyasının mühüm xüsusiyyətlərindən biri kimi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində, dövlətçiliyimizin möhkəmlənməsində və müstəqillik qazanmasında mühüm rol oynamışdır. Azərbaycançılıq ideologiyası Azərbaycanda yaşayan millətlərin tarixi, mənəvi-əxlaqi, mədəni ənənələrə söykənən birliyi ideyası üzərində dayanır.

H.Əliyevin ölkəmizə, millətimizə, elmimizə, təhsilimizə, mədəniyyətimizə verdiyi töhfələrin hamısını əhatə etmək mümkün deyil. Onun gərgin, fədakar və narahat əməyi və zəhməti sayəsində yaşaya biləcəyimiz, inkişaf etdiyimiz və çiçəklənən güclü müstəqil ölkəmiz var. H.Əliyev milli dəyərlərimizi qoruyub-saxlamaqla, həyatın bütün sahələrində inkişaf etmək üçün özümüzü bütünlüklə ölkəmizə, millətimizə həsr etmək hamımız üçün gözəl nümunədir.

Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" kəlamı müşahidə etdiyimiz bütün proseslərdə öz əksini tapır. Bizim gənc nəsil bu siyasəti davam etdirməyə çalışmalıdır. Vətənin, millətin dəyərini hər kəs dərk etməlidir. Bu, yalnız təhsillə mümkündür.

Ədəbiyyat:

1. Əhmədov H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010, 880 s.
2. Mirələmov H. Heydər Əliyev. (Görkəmli adamların həyatı). Bakı, 2008
3. Magsudov F. Heydar Aliyev and Azerbaijani Science. Baku, Elm, 1998

РЕЗЮМЕ

ГЕЙДАР АЛИЕВ КАК АРХИТЕКТОР РАЗВИТИЯ НАУКИ, ОБРАЗОВАНИЯ И КУЛЬТУРЫ

Мусаева Л.К.

Ключевые слова: *Гейдар Алиев, наука, образование, культура, политика, развитие*

Этап, на котором Общенациональный лидер Гейдар Алиев, известный своей иной философией управления и уникальными характеристиками, руководил Азербайджаном в советский период, известен многими факторами, которые не только вывел страну на путь стремительного развития, но и привели к формированию стабильного государства. Идеалы Гейдара Алиева, автора ярчайших страниц национальной мысли, написанных в прошлом столетии и являющиеся основой национального пробуждения и самосознания в этот период, полностью модернизировали жизнь страны. Одним из действий в этой серии было то значение, которое он придавал образованию, и важные шаги, которые он предпринял в этой области.

SUMMARY

HEYDAR ALIYEV AS AN ARCHITECT OF THE DEVELOPMENT OF SCIENCE, EDUCATION AND CULTURE

Musayeva L.Q.

Keywords: *Heydar Aliyev, science, education, culture, politics, development*

The stage in which National Leader Heydar Aliyev, who is known for his different management philosophy and unique characteristics, led Azerbaijan during the Soviet period is known for many factors that not only led the country to the path of rapid development, but also led to the formation of a reliable state. The ideals of Heydar Aliyev, the author of the brightest pages of national thought written in the last century and the basis of national awakening and self-awareness in this period, completely modernized the country's life. One of the actions in this series was the importance he gave to education and the important steps he took in this field.

TÜRK TARİXİNDƏ ELM, TƏHSİL VƏ MƏDƏNİYYƏTİN İNKİŞAFI

Mustafayeva Nərmin Vaqif qızı

Təbii Ehtiyatlar İnstitutu Naxçıvan, Azərbaycan

nermin222@icloud.com

Açar sözlər*: elm, təhsil, mədəniyyət, dil, din, fərd, cəmiyyət*

Elmin tarixi qısaca elmin doğulması və inkişafı hekayəsidir. Elm tarixinə və müxtəlif elm sahələrinin nəticələrinə əsaslanaraq elmdə anlayışların, nəzəriyyələrin və anlayışların yaranması və inkişaf etməsinə yol açır. Elm tarixi bəşəriyyətin haradan gəldiyi ilə bağlı maraqlı bir macəra hekayəsidir. Bu hekayədə elmdə çətinliklə qazanılan uğurlar, elmlə məşğul olanların yaşadıqları çətinliklər, ixtiraların mənbəyi olan maraqlı ilham mənbələri, ixtiralara, yaradıcı təxəyyüllərə ilham verən elmi nailiyyətlər göstərilir. Nümunələr, ixtiralar yaratmaqda böyük çətinliklər, dogmalarla mübarizədə böyük cəsarət nümunələri, böyük uğurlar və onları müşayiət edən sevinclər, ixtiraların gətirdiyi yeniliklər, elmi kəşflərin yaratdığı irəliləyişlər mühüm mərhələlərdir. Elm tariximiz cəmiyyətimizin transformasiyası ilə bağlı mühüm ipuçlarını ehtiva edir. Elm tariximizin inkişafı elm baxımından hardan gəldiyimizi və çatmalı olduğumuz hədəfləri göstərmək baxımından böyük əhəmiyyət kəsb edir.[3]

Bizim elm tariximiz də digər xalqların elm tarixi kimi həyəcanlı və maraqlı dönüş nöqtələri ilə doludur. Elm tariximizdə universitetlərimizin xüsusi yeri və əhəmiyyəti var. Universitetlərimizin elm tariximizdəki yerini izah etmək elm tariximizin inkişafı üçün mühüm məsələdir. 11-ci əsrdə Bağdadda Səlcuqlu türkləri tərəfindən qurulan Nizamiyə mədrəsəsi ilə başlayan universitetləşmə prosesi ilə başlayan elm tariximizə töhfə bu günə qədər müxtəlif elm sahələrində davam etmişdir. Universitetlərimizin elm tariximizdəki yeri hər dövrdə fərqlidir. Səlcuqlu dövrünə nəzər saldıqda "mədrəsələri" bir ali təhsil ocağı, türk-islam qurumu kimi görürük. Bu mədrəsələr arasında "Nizamiyyə mədrəsələri" xüsusi əhəmiyyət kəsb edir. Nizamülmülk mədrəsələri Bağdadda 1068-ci ildə Böyük Səlcuqlu İmperatorluğunun vəziri Nizamülmülk tərəfindən açılan Nizamiyə mədrəsəsi Türkiyənin ali təhsil tarixində ali təhsil ocağı kimi mühüm bir qurumdur. Qəzəli Nişapur mədrəsəsində təhsil aldıqdan sonra 1091-1095-ci illər arasında Bağdadda açılmış "Nizamiyyə mədrəsəsi"ndə "rektor" və "professor" vəzifələrində çalışmışdır. Nizamülmülk sonralar Belh, Herat, İsfahan, Bəsrə, Mərv, Mosul, Amul, Harcird, Rey və Buçenc mədrəsələrini tikdirdi. Nizamülmülk mədrəsələrinin əsas məqsədləri:[4]

- ruhanilər yetişdirmək,
- yoxsul və istedadlı tələbələri yetişdirib cəmiyyətə cəlb etmək,
-imperiyanın idarə olunması üçün dövlət qulluqçuları yetişdirmək
- dövlət xadimləri.

Nizamiyə mədrəsələrinin başqa bir məqsədi də alimləri Nizamülmülkdə deyildiyi kimi vəzifə və maaşla mədrəsələrə ilişdirərək nəzarətdə saxlamaq və beləliklə də onların dövlətə qarşı gizli hərəkatlarda iştirak etmə ehtimalını aradan qaldırmaqdır. Nizamiyə mədrəsələrində əsasən din, hüquq, dil və pozitiv elmlər tədris olunurdu.[2]

Təhsillə bağlı bütün planlaşdırılan fəaliyyətlər müəyyən məqsədlərə nail olmaq və müəyyən funksiyaları yerinə yetirməkdən ibarətdir. Təhsil sistemlərinin əsaslandığı müəyyən təhsil fəlsəfəsi nəzəri cəhətdən bu fəlsəfəyə əsaslanır. İnsan kimi yetişdirilmək üçün nəzərdə tutulmuş insan tipi və yaradılması arzu olunan bir cəmiyyət modeli var. Fərqli təhsil fəlsəfələri təhsildə məqsəd, məzmun, proses, metod və mühit kimi fərqli məqamları vurğulayır. Təhsilin məqsəd və funksiyaları sözügedən təhsil fəlsəfəsinə daxildir. Təhsilin məqsədləri haqqında müxtəlif fikirlər var. Bunlar zamana, cəmiyyətlərə, ölkələrin idarəetmə və təhsil fəlsəfələrinə görə fərqlənə bilər. Məsələn, Qədim Yunanıstanda və Qərbdə Romada təhsilin əsas məqsədi siyasi hakimiyyətə sadiq vətəndaşların yetişdirilməsi kimi görüldüyü halda, orta əsr təhsilində sırf dini məqsəd güdülürdü. Təhsil sosiologiyasının əsas tədqiqat predmetidir. Təhsil sosiologiyası sahəsində təhsil, təhsil və cəmiyyət, sosial institutlar

• fərd və cəmiyyət arasındakı münasibətləri dərk edəcək,
• sosial institutlar və proseslər və təhsil arasındakı əlaqəni başa düşəcək,
• təhsildə ailənin rolunu anlayacaq,
• insan-cəmiyyət münasibətlərini təhlil etməyi bacaracaq.

Təhsilin sosial aspektləri proseslər arasındakı əlaqələr makro və mikro səviyyələrdə, yəni daha geniş icma və məktəb mərkəzli səviyyədə idarə olunur. Osmanlı İmperatorluğunun mühüm vəqf qurumlarından biri olan kitabxanalar, təxminən 800 ildir Anadolu torpaqlarında türk mədəniyyət, elm, təhsil və sənət həyatında mövcud olan ictimai qurumlardır. Bütün bu uzun prosesdə kitabxanalar müxtəlif dövrlərdə cəmiyyətin müxtəlif təbəqələrinə informasiyanın ötürülməsində, istehsal olunan informasiya ehtiyatlarının qorunmasında, çoxaldılmasında və təqdimatında fəal iştirak etmişlər. Bir çox hökmdarlar, yüksək vəzifəli dövlət məmurları, elm adamları və ruhanilər bu qurumların yaradılmasında, onların xidmətlərinin və kolleksiyalarının inkişafında mühüm töhfələr vermişlər. Bu çərçivədə bir kitabxanada göstərilən xidmətlərin nə olacağı, işçilərin vəzifə və məsuliyyətləri kitabxanalarla bağlı bir çox fondlarda ətraflı şəkildə izah edilir. Kolleksiyaları, memarlıq xüsusiyyətlərini, işçiləri, hüquqi tənzimləmələri, xidmətləri və məşhur alimlərin bu qurumlara kitabxanaçı (hafız-ı kütüb) təyin olunmasını nəzərə alsaq, bu qurumların Osmanlı sivilizasiyası tərəfindən heç vaxt diqqətdən kənarda qalmadığı bir həqiqətdir. Kitabxanalar, XV 19-cu əsrdən etibarən Osmanlı təhsilinə və elmi həyatına əhəmiyyətli töhfələr verən qurumlar kimi görünür. Ancaq Osmanlı İmperatorluğunun XVII 19-cu əsrdən başlayaraq hərbi, siyasi və iqtisadi problemlər səbəbindən zəifləməsi ilə bu qurumların cəmiyyətin elmi, mədəni və ictimai həyatına təsiri azalmağa başladı.Müvafiq olaraq, bu kontekstdə təhsillə bağlı əsas mövzular sosial institutlar, sosial təbəqələr, sosial status və rollar, sosial proseslər, sosial dəyişikliklər, təhsil siyasəti, təhsilin planlaşdırılması, peşələr, mədəniyyət və hüquqdur. İnsan cəmiyyətdə doğulur və təhsil alır. Cəmiyyətsiz fərdin mövcud olması mümkün deyil. Osmanlı İmperiyası, XIV və XX əsrlər boyu geniş bir coğrafiyaya yayılmış, müxtəlif etnik və dini mənşəli vətəndaşların ticarət, sosial, mədəni, dini və elmi fəaliyyətlərini həyata keçirdikləri bir dövlət idi. Bu səbəbdən Osmanlı İmperatorluğunda geniş və zəngin bir mədəniyyət yığılması mövcud idi və bu, mövcud mədəniyyət yığımının başqa nəsillərə ötürülməsinə səbəb olmuşdur. Adı çəkilən mədəniyyət çərçivəsində; İncəsənətin bəzi sahələri (musiqi, miniatür, xəttatlıq və s.), tarix, fəlsəfə, din, ədəbiyyat, təhsil, idman, yemək, mərasimlər (rituallar), geyim, elm və s. meydana çıxan intellektual və əməliyyat elementləri var idi. Həyat boyu formalaşan bu mədəni elementlər tarix boyu yazılı və ya şifahi şəkildə nəsildən-nəslə ötürülmüşdür. Osmanlılar da digər böyük dövlətlər kimi öz mədəniyyətlərini müxtəlif informasiya daşıyıcılarında qeyd edərək qoruyub saxlamış və gələcək nəsillərə ötürməyə çalışmışlar. Mədəniyyətin yığılması və nəsildən-nəslə ötürülməsi həm də biliklərin yığılması və ötürülməsidir. Bilik həm də istehsal və əldə etmə üsuluna görə özlüyündə fərqlənir. Adı çəkilən növlərə dini biliklər, fəlsəfi biliklər, bədii biliklər, elmi biliklər və mistik biliklər aid edilə bilər. Bütün bu informasiya növləri və onların ötürülməsi və istifadəsi xüsusiyyətləri cəmiyyətin mədəniyyətini təşkil edir. Osmanlılarda müxtəlif növ məlumatların yazılı şəkildə ötürülməsində daha çox ferman, berat, ahidname və dövlət nəşrləri, müəllif hüququ-tərcümə kitabları, risalələr, annotasiyalar, annotasiyalar, hamilər və miniatürlərdən istifadə edilmişdir. XIX Əsrin ikinci rübündən (1831); Qəzet və jurnal kimi dövri nəşrlər ən çox istifadə olunan məlumat qeyd edən media və ünsiyyət vasitələri olmuşdur. Bu məlumat mənbələri müxtəlif dövrlərdə - mövcud siyasi mühitlə əlaqədar

olaraq müxtəlif növ məlumatların qeydə alınması və ötürülməsi üçün istifadə edilmişdir. Bununla belə, məlumatın sadəcə qeydə alınması və mühafizəsi informasiyanın özünəməxsus "paylaşılabilirliyinə" ziddir. Bu səbəbdən qeydiyyatdan keçmiş məlumatlar müxtəlif sahələrdə bilik və araşdırmalara sahib olmaq istəyənlərə müəyyən qaydalar çərçivəsində pulsuz təqdim edilməlidir. Qaydalar çərçivəsində bu prosesi həyata keçirəcək sosial qurumlar kitabxanalardır. Lakin kitabxanaların mədəniyyət tariximizdəki rolu baxımından o qədər də müzakirə olunmayıb. Lakin məlumdur ki, kitabxanalarımız Anadoluda hökmranlıq edən dövlətlərin - Qaraxanlılardan Osmanlılara qədər olan dövlətlərin təhsil, mədəni və elmi həyatında 1000 ilə yaxın tarixə malik ictimai qurumlardır. Bundan əlavə, kitabxanalar Osmanlı da daxil olmaqla İslam təhsil sistemi ilə sıx bağlı olan elmi müəssisələrdə yerləşir. Bu təhsil siyasətinin əsas təhsil müəssisələri mədrəsələrdir. Bu nöqteyi-nəzərdən kitabxanaları təhsil müəssisələrinin bir hissəsi kimi nəzərdən keçirdikdə, yuxarıda qeyd etdiyimiz kimi, Osmanlıda ilk kitabxanaların bu qurumların daxilində və ya onların yaxınlığında yaradıldığı bir həqiqətdir. Böyük Səlcuqlu dövlətinin məşhur vəziri Nizamü'l-Mülk tərəfindən qurulan və onun adını daşıyan Nizamiyə mədrəsələrindəki təhsil üsulu və idarə quruluşu Böyük Səlcuq Dövlətindən Anadolu Səlcuqlarına, oradan da Osmanlıya keçmişdir. dövlət. Osmanlılar yarandığı gündən etibarən ölkələrini zəngin kitabxanalarla təchiz etmiş və o dövrün şərtlərinə uyğun olaraq çox cəlbedici təklif və imkanlarla İslam dünyasının müxtəlif yerlərindən alimləri cəlb etmişlər. Beləliklə, müvafiq olaraq İznik, Bursa, Ədirnə və İstanbul dəyərli elm adamlarının və mühüm təhsil ocaqlarının və buna görə də böyük kitabxanaların yerləşdiyi mərkəzlərə çevrildi. İslam sivilizasiyasında kitabxanalara "xarici elmləri (əqli elmləri) daxil edən qurumlar" kimi baxılır. Bu fərqin mənbəyi İslamın əsas təhsil ocaqları olan məscid və mədrəsələrdən qaynaqlanır. Klassik İslamda mədrəsə ən qabaqcıl təhsil müəssisəsidir və ilk növbədə İslam elmlərinin sevimlisi olan fiqhin təhsili üçün yaradılmışdır. Mədrəsənin doğulduğu və inkişaf etdiyi "məscid" müxtəlif növ İslam elmlərinin, o cümlədən fiqhin tədrisi üçün istifadə olunmağa davam edirdi. Mədrəsənin bu mərkəzi yerləşməsinə görə İslamın digər təhsil müəssisələri mədrəsədən əvvəlki və mədrəsədən sonrakı dövrlərə bölünür. İslam dini İslam elmləri ilə əqli elmləri bir-birindən ayırdığı üçün mədrəsədən əvvəlki dövr müəssisələri də rasional elmləri özündə birləşdirən və olmayanları ayırd edə bilər. Əqli elmləri ehtiva etməyən mədrəsədən əvvəlki müəssisələr dərs üzükləri olan məscid və məscidlərdir. Zehni elmləri əhatə edən qurumlar; kitabxanalar və xəstəxanalar. Osmanlı İmperatorluğunda yarandığı andan süqutuna qədər olan dövrdə bina və yaşayış məntəqələrinin xüsusiyyətlərinə görə fərqli xüsusiyyətlərə malik kitabxanalar yaradılmışdır. Qeyd olunan kitabxanaları 5 əsas tip altında qruplaşdırmaq olar:

• Şahzadəlik və hökmdarlıq dövründə sultanların saraylarında yaradılmış şəxsi (şəxsi) kitabxanalar,

• Evlər, malikanələr, otaqlar və s. yerlərdə şəxsi məqsədlər üçün yaradılmış kitabxanalar,

• Məscid, mədrəsə, məktəb və sinif otaqları kimi müxtəlif təhsil müəssisələrində və ya bu müəssisələrin yaxınlığında yaradılmış kitabxanalar,

• Məkkə, zaviyə, türbə, hənkə, ribat, məscid, dərviş evi və mövləvixana kimi təhsil-ibadət ocaqlarında və ya ətrafında yaradılmış kitabxanalar,

• Öz müstəqil (ayrı) binası olan kitabxanalar. Bu şəkildə yaradılmış kitabxanalarda fondler daha çox hədiyyə edilən kitablar hesabına hazırlanıb,

Lakin bu kolleksiya eyni miqdarda qalmamış və zaman keçdikcə müxtəlif yollarla inkişaf etmişdir. Osmanlı kitabxanaları yarandığı dövrdən etibarən öz kolleksiyalarını aşağıdakı yollarla genişləndirmişdir:

• Müxtəlif dövrlərdə vəqf sahibləri tərəfindən bağışlanan kitablar,

• Müxtəlif insanlar tərəfindən bağışlanan kitablar,

• Satınalma ilə təmin olunan kitablar,

• Kitab çapı - dublikat Kitablar,

• Müxtəlif hökmdarların, səfirlərin, dövlət xadimlərinin və görkəmli şəxslərin hədiyyələri kitablar,

• Müsadirə yolu ilə əldə edilmiş kitablar,

• Qənimət yolu ilə əldə edilmiş kitablar. [1]

Ədəbiyyat

1. Binbaşıoğlu, C. Türk Eğitim Düşüncesi Tarihi, Anı, Ankara. (2005).
2. Əliyev A. Universal Onluq Təsnifat (UOT): Yaranması, quruluşu və təşkili prinsipləri // Kitabxanaşünaslıq və biblioqrafiya. 1998. №1. 65 s.
3. Hesapçıoğlu, M. "Eğitim Nedir?". Cumhuriyet, 30 Nisan, s. 2. (2004)
4. Quliyeva Ş. Monoqrafiyalar elmi ədəbiyyatın növü kimi. Kitabxanaşünaslıq və biblioqrafiya. Bakı: BUN, 2009. №1. s.141–153

РЕЗЮМЕ
РАЗВИТИЕ НАУКИ, ОБРАЗОВАНИЯ И КУЛЬТУРЫ В ТЮРКСКОЙ ИСТОРИИ
Мустафаева Н.В.

***Ключевые слова**: наука, образование, культура, язык, религия, личность, общество*

Библиотеки, являющиеся одним из важных фундаментальных учреждений Османской империи, являются общественными учреждениями, которые существовали в турецкой культуре, науке, образовании и художественной жизни на анатолийских землях около 800 лет. За этот период библиотеки в разное время принимали активное участие в передаче информации разным слоям общества, защите, воспроизведении и представлении произведенных информационных ресурсов. Многие правители, высокопоставленные государственные деятели, ученые и духовенство внесли важный вклад в создание этих учреждений, развитие их служб и коллекций. В этом контексте услуги, предоставляемые в библиотеке, обязанности и ответственность сотрудников подробно разъясняются во многих фондах, связанных с библиотеками.

SUMMARY
DEVELOPMENT OF SCIENCE, EDUCATION AND CULTURE IN TURKIC HISTORY
Mustafayeva N.V.

***Key words**: science, education, culture, language, religion, individual, society*

Libraries, which are one of the important foundation institutions of the Ottoman Empire, are public institutions that have existed in Turkish culture, science, education and art life in Anatolian lands for about 800 years. In this long process, libraries have actively participated in the transfer of information to different layers of society, protection, reproduction and presentation of produced information resources at different times. Many rulers, high-ranking government officials, scientists and clergy have made important contributions to the establishment of these institutions, the development of their services and collections. In this context, the services provided in the library, the duties and responsibilities of the employees are explained in detail in many foundations related to libraries.

AZƏRBAYCAN DİLİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİIN ROLU

Nəcəfova Günel Alim
Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan
gunel.necefova.35@mail.ru

Açar sözlər: *ana dili, latın əlifba, təfəkkür, təhsil*

Doğma dilimiz dünyanın ən qədim dillərindən biridir. Dilimiz söz bazasının zənginliyi, ifadə tərzinin dəqiqliyi, ahəng qanunauyğunluğu, incəliyi ilə dillər içərisində seçilir. Elə bil, gözəl bir şeirdən, həzin bir nəğmədən doğulub dilimiz. Ulu əcdadlarımızın kəlamlarını, millətimizin düşüncə tərzini, yaşayış tərzini, adətlərimizi özündə əks etdirən bütün sözlər, dilimizin canına, qanına keçmişdir.

Elə bir təfəkkür məhsulu yoxdur ki, onun sözlərlə ifadəsi dilimizdə tapılmasın, olmasın.

Y.A.Komenski öyrənənləri həyata hazırlamaq üçün nümunəni çox mükəmməl, çox yararlı vasitə kimi qələmə verirdi. O, bütün öyrədənlərə dərs zamanı bu yoldan irəliləməyi tövsiyə edirdi. Bu da dilimizin zənginləşməsinə, lüğətin inkişafına təsir göstərmiş olar.

Klassik pedaqoqların da irəli sürdükləri fikirlərdə nümunənin ən yaxşı, ən gözəl təsir vasitəsi olduğunu görürük. Şəxsi nümunə həyatdan götürülsə də və ya tarixdən alınsa da tərbiyədə istifadə olunan vasitə və metodların artdığı, müxtəlif mənalar kəsb etdiyi bir şəraitdə, elm və texnikanın təlimdə geniş tətbiq edildiyi bir zamanda güclü və təsirli tərbiyə vasitəsi kimi qalmaqdadır. Bu tərbiyə vasitələrindən istifadə etməklə, gələcəyimiz olan uşaqlarda, milli-mənəviyyatımıza, millətimizə xas olan gözəl əxlaqi keyfiyyətləri, vətəninə, dövlətinə hörmət və məhəbbət hissini aşılamaq mümkündür. [2, s.84]

Xalqımızın tarixinə nəzər salsaq görərik ki, o, öz inkişafı boyu çox sayda xalqına, millətinə, dövlətinə gərəkli olan şəxsiyyətlər böyüdüb, başa çatdırıb, tərbiyə edib. Bu cür şəxsiyyətlərdən biri də Ulu Öndər Heydər Əliyevdir. Dahi şəxsiyyətləri tanıyıb, ona dəyər verən xalq xoşbəxtdir. Elə bu xüsusdan da məktəblilərimizin dahi rəhbərin nümunəsində tərbiyə olunması, öz yurduna, torpağına, millətinə, dövlətinə yararlı vətəndaş kimi böyüməsi təhsil ocaqlarının və öyrədənlərin üzərinə düşən bir vəzifədir. Böyüyən nəsli dilimizə, dinimizə sevgi, qayğı hissi duyaraq böyütmək lazımdır.

Xalqımızın əbədiyaşar lideri Heydər Əliyev yazıçıların III qurultayında dilimizin inkişafında və zənginləşməsində onların əməyinə yüksək qiymət vermişdir. Hər bir milləti, xalqı yaşadan onun dilidir. Onu yaşadan, inkişaf etdirən, nəsillərdən-nəsillərə çatdıran yazarlarımız, şairlərimizdir. Bu tarixən belə olmuş və indi də belədir. Onların yazdıqları əsərlər bizə tariximizi, mədəniyyətimizi, xalqımızın çoxəsrlik inkişaf

yolunu göstərir və öyrədir. Biz hər zaman onların dəyərli əsərlərinə müraciət edirik. Onlardan çıxışlarımızda, ölkəmizin mədəniyyətindən, tarixindən danışarkən nümunələr göstəririk. [1,s11]

Dilimizin inkişafı, qorunması və fəaliyyət sferasının genişlənməsi dahi rəhbərin xidmətləri sayəsində baş vermişdir. Ana dilimizin geniş miqyasda işlənməsi dünyada, beynəlxalq arenada tanınması məhz onun adı ilə bağlıdır.

O, dilimizə adi ünsiyyət vasitəsi kimi baxmırdı. Xalqımızın, dilimizin tarixinə, onun inkişafına ciddi yanaşırdı. Bu cür məsələləri faktlarla, sübutlarla əsaslandırırdı. O, dilimizə xalqımızın milli sərvəti, tarixi mədəniyyəti kimi baxırdı. Onun xalqımızdan istəyi öz ana dilini mükəmməl bilmək və bu dildə danışmağı bacarmaq idi.

Ümumiyyətlə, Ulu Öndərin dilimizin inkişafında və qorunmasında gördüyü ən böyük iş dilimizə dövlət statusu verilməsi istiqamətində apardığı işdir. Böyüməkdə olan nəslin öz ana dillərində təhsil almaları ilə bağlı məsələlərdən biri də yeni əlifbaya keçiddir. Dahi insan bu məsələyə mövqeyini öz çıxışlarında daim bildirirdi. O qeyd edirdi ki, yeni əlifbaya – latın əlifbasına keçmişik. "Buna görə də yaşlı nəsil bu əlifbaya çətin alışır, çətinlik çəkir. Kiril və latın əlifbaları arasında çox da elə fərq yoxdur. Sadəcə, qeyrət göstərmək lazımdır. Öz doğma əlifbamıza – latın əlifbasına qayıtmaq lazımdır". [1, s.96] Beləliklə, 18 iyun 2001-ci ildə Ulu Öndər dilimizin təkmilləşdirilməsi haqqında fərman imzaladı. Cəmi bir neçə gün sonra, 4 iyul tarixində doğma dilimiz və əlifbamız haqqında əmr verdi. Bu fərman və sərəncamlarda xalqımızın, dilimizin var olması, müstəqilliyi şərh olunurdu.

Daha sonra Heydər Əliyev tərəfindən 30 sentyabr 2002-ci il tarixində dilimizə dair mühüm sənəd imzalandı. 3 fəsil, 22 maddədən ibarət olan bu sənəd – qanun bir çox gərəkli məsələlərin həlli yolunu göstərdi.

Dilimizin qorunması, bütün sahələrdə tətbiq olunması, inkişaf etdirilməsi ilə bağlı Ulu Öndər öz sözünü dedi. Bunları həyata keçirmək, reallaşdırmaq isə Azərbaycan ziyalıları və dövlət strukturlarının üzərinə düşən məsuliyyətli işdir. Ölməz, həmişəyaşar rəhbərimizin hər sahədəki fəaliyyəti bir həyat məktəbidir. Təlim-tərbiyə işində bu məktəbdən sistemli və ardıcıl istifadə etmək isə bütün təlim-tərbiyə müəssisələrində çalışan pedaqoji işçilərin müqəddəs vəzifəsidir."Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü"nün əhəmiyyətini öyrənənlərə izah etmək, açıqlamaq hər bir öyrədənin tədris etdiyi fəndən asılı olmayaraq borcudur. Bu dilin, yəni doğma Azərbaycan dilinin bütün dünyada yaşayan azərbaycanlıların ünsiyyət vasitəsi olduğunu öyrənənlərin diqqətinə çatdırmaq vacibdir. Bir sözlə, dilimizə sevgi, hörmət, məhəbbət yaratmaq lazımdır.Ulu Öndər dilimizin ahəngdar, zəngin və anlaşıqlı bir dil olduğunu, onun dərin tarixi köklərə bağlılığını daim öz çıxışlarında söyləmişdi. Şəxsən onun doğma ana dilinə və bu dildə danışdığına böyük fəxr hissi keçirməsini dərslərdə öyrənənlərə çatdırmaq gərəkdir. [3, s.149]

Onun istər həyat və fəaliyyətindən, nitqindən, başqa ölkələrə səfərlərindən, gördüyü əməli işlərindən gətirilən nümunələr öyrənənlərdə liderin şəxsiyyətinə, dilimizə sevgi hissi yaradır. Öyrənənlərdə dözümlülük, qorxmazlıq kimi müsbət əxlaqi keyfiyyətlərin yaranmasına və möhkəmlənməsinə yardımçı olur.

Kiril əlifbasından latın əlifbasına keçildikdən sonra Azərbaycanın təhsil sahəsində, yəni məktəblərdə yeni dərsliklərin yazılması və şagirdlərin istifadəsinə verilməsi başlıca vəzifə kimi qarşıda durdu.Azərbaycanda məktəblə əlaqədar bir sıra təqdirəlayiq işlər görülmüşdür. Ən əsası isə yeni dərsliklərin yazılması və öyrənənlərin istifadəsinə verilməsidir. Dərsliklər yeni təlim üsuluna uyğundur. Bunlar öyrədən üçün vəsait, öyrənənlər üçün isə dərslik və iş dəftəridir.

Bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, təhsil prosesində aparılan işlər-tədris prosesinin yenilənməsi, orta ümumtəhsil məktəbləri və ali təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmlənməsi Ulu rəhbərimizin gərgin əməyinin nəticəsidir.

Onun 2000-ci il iyunun 13-də imzaladığı fərman buna bariz nümunədir. Bu fərmandan irəli gələn məsələlər (müəllim kafedralarının hazırlanması, ali məktəblərin şəbəkəsinin genişlənməsi) ardıcıllıqla öz həllini tapdı.Ölkəmizə lazım olan savadlı kadrların yetişdirilməsi və hazırlanması üçün təhsil müəssisələrinin dünya təhsil sistemi ilə uyğunlaşdırılması üçün gərəkli işlər görüldü.Hal-hazırda istər dilimiz, istər dinimiz və istərsə də təhsilimiz Ulu rəhbərin görmək istədiyi formada fəaliyyət göstərir. Gələcəkdə dövlətini, dövlətlər içərisində layiqincə təmsil edə biləcək gənclər formalaşır, şəxsiyyətlər yetişdirilir.

Ədəbiyyat

1.Əliyev H.Ə.Müstəqillik yollarında, I cild. Bakı: Nəşriyyat 1995-1998, 364 s.
2.Əliyev R.S. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı: Maarif 2000, 385 s.
3. Əliyev H.Ə. Ailə və məktəb ənənələri sağlam nəsil tərbiyə edir. Bakı: Maarif 1988, 248 s.

РЕЗЮМЕ
РОЛЬ ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА
Наджафова Г.А.

Ключевые слова: *родной язык, латиница, мышление, образование*

Великий Вождь говорил о сохранении, применении и развитии нашего языка во всех сферах. Ответственность за их реализацию и реализацию лежит на азербайджанской интеллигенции и государственных структурах. Деятельность нашего бессмертного, вечного лидера во всех областях есть школа жизни. Систематическое и последовательное использование этой школы в воспитательной работе является священной обязанностью педагогических кадров, работающих во всех учебных заведениях.

SUMMARY
THE ROLE OF HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF THE AZERBAIJANI LANGUAGE
Najafova G.A.

Key words: *mother tongue, Latin alphabet, thinking, education*

The Great Leader spoke about the preservation, application and development of our language in all fields. It is the responsibility of Azerbaijani intellectuals and state structures to implement and realize them. The activity of our immortal, eternal leader in every field is a school of life. Systematic and consistent use of this school in educational work is the sacred duty of pedagogical staff working in all educational institutions.

ERMƏNİLƏR TƏRƏFİNDƏN MƏDƏNİ İRSİMİZƏ QARŞI TERROR AKTLARI: ŞAHBULAQ QALASININ ERMƏNİLƏŞDİRİLMƏ CƏHDLƏRİ

Nərimanova Ayşə Hüseyn qızı
Bakı Dövlət Universiteti, Erməni Araşdırmaları və Təlim Mərkəzi, Bakı, Azərbaycan
ayshanarimanova@gmail.com

Açar sözlər: mədəniyyət, terror, arxeoloji ekspedisiya, Şahbulaq, Qarabağ

Bir xalqın mövcudluğu üçün əsas ünsürlərdən biri onun mədəniyyətidir. Mədəniyyətin göstəriciləri sırasına daxil olan tarixi abidələr isə yerləşdikləri ərazinin kimliyi və mülki sənədidir. 30 illik işğal dövründə ermənilər tərəfindən Azərbaycan torpaqlarındakı arxeoloji, tarixi irsimizə münasibətdə edilən saxtalaşdırma siyasəti və digər qanunsuz aktlar mədəniyyətimizə qarşı həyata keçirilmiş terror aktlarıdır. Erməni tarixini qədimlərə bağlamaq və bu ərazinin əsl sahiblərinin izlərini silmək məqsədi daşıyan qanunsuz arxeoloji qazıntıların aparılması və abidələrin bərpa adı ilə dəyişdirilməsi bu terrorun parlaq təzahürlərindən biridir. Bu məqsədlə, 2000-ci ildə Dağlıq Qarabağ və onun ətraf ərazilərində, xüsusən də Xocalı, Şuşa, Xankəndi, Ağdam, Kəlbəcər, Xocavənd və Laçın rayonlarında arxeoloji qazıntılar aparmaq məqsədi ilə Ermənistan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitututu tərəfindən Hamlet Petrosyanın rəhbərliyi ilə daimi komissiya yaradılmışdır. Bu komissiyanın həyata keçirdiyi arxeoloji ekspedisiyalar vasitəsi ilə arxeoloji faktlar təhrif edilmiş və əldə edilən artefaktlar qeyri-qanuni yollarla Ermənistana daşınmışdır.

Bu terrora məruz qalmış yerlərdən biri Ağdamın rayon mərkəzindən 10 km aralıda yerləşən Şahbulaq saray kompleksi və ona bitişik olan ətraf ərazilərdir. 2000-ci ildə Ermənistan hökuməti Ağdam rayonunun Şahbulaq ərazisində qədim yaşayış məskənlərinin və kurqanlarının istismarı üçün arxeoloji tədqiqat qrupu yaratmışdır. Həmin ildən Ermənistanın Qarabağa göndərdiyi arxeoloji qrup Şahbulaq kompleksi ərazisində qeyri-qanuni arxeoloji fəaliyyətlə məşğul olmuşdur. XVIII əsrdə tikilən Şahbulaq qalası Şuşa qalasından öncə Qarabağ xanlığının inzibati mərkəzi olmuşdur. Kompleks dörbucaqlı formada olub qoruyucu divarlar, dairəvi və yarımsilindrik idarəetmə qüllələri ilə əhatə olunmuşdur. Kompleksə giriş şərq divarının mərkəzində yerləşmiş, şimal-qərbində bulağın yaxınlığında kiçik bir ibadət zalı və eyvanı olan kiçik məscid tikilmişdir. 2005-2019-cu illəri əhatə edən geniş və ardıcıl arxeoloji ekspedisyalar zamanı 10 hektar əraziyə ziyan vurulmuş və Xocalı mədəniyyətinə aid 15-dən çox kurqanı dağıdılıb maddi sübutları isə Ermənistana aparılmışdır. Burada təmir işləri aparan ermənilər, milli mədəniyyətimizi əks etdirən bədii ornament və daş yazıları tamamilə dağıtmış, kompleksin memarlıq üslubunda və interyerində dəyişikliklər etmiş, divar yazılarını korlamışlar. [1, səh. 14] Bununla yanaşı, abidəyə yeni əlavələr olunmuşdur. Beləki, 2016-cı ildə abidənin giriş qapısı önündə oval formalı tikinti quraşdırılmışdır. Bu isə abidənin keçən əsrin əvvələrində çəkilən layihə-smeta sənədlərində öz əksini tapmamışdır. [2] Abidənin əsas mühafizə divarlarının bayır hissəsi sökülmüş buradakı yazılar və ornamentlər silinərək üzərinə xaçlar çəkilmişdir. Həmçinin interyer sökülərək mişar daşları yerləşdirilmişdir. Abidəyə daxil olan məsciddən isə uzun müddət kilsə kimi istifadə olunmuşdur. Bütün bunlarla yanaşı 2005-ci ildən etibarən Ermənistan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən Şahbulaq qalasının

ətrafında qeyri-qanuni arxeoloji qazıntılar aparılmışdır. Qazıntılar Hamlet Petrosyan, Jores Xaçatryan, Lyuba Kirakosyan, Hayk Akopyan və Vardqes Səfəryanın iştirakı, "Yerkir" Repatriasiya və Bəraət Qeyri-Hökumət Təşkilatları İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilmişdir. [3] Qazıntılar nəticəsində burada guya II Tiqranın əsasını qoyduğu "Tiqranakert" şəhərinin qalıqlarının aşkarlandığı elan edilir. 2010-cu ildə buradan aşkara çıxarılmış arxeoloji materiallar əsasında Şahbulaq qalasının daxilində "Tiqranakert" tarix muzeyi yaradılmışdır. [4]

Bu aktlarla ermənilər YUNESKO-nun 1956-cı il 5 dekabrda qəbul etdiyi arxeoloji qazıntıların beynəlxalq tənzimlənməsi haqqında tövsiyyələrinin 32-ci maddəsində üzv dövlətlərin üzərinə qoyulan öhdəliyini kobud şəkildə pozur. Maddədə göstərilir ki, silahlı münaqişə baş verdikdə, başqa dövlətin ərazisini işğal edən hər hansı üzv dövlət işğal olunmuş ərazidə arxeoloji qazıntılar aparmaqdan çəkinməlidir. Təsadüfi tapıntılar, xüsusən də hərbi işlər zamanı aşkar edildiyi halda, işğalçı dövlət bu tapıntıların mühafizəsi üçün bütün mümkün tədbirləri görməlidir və bu tapıntılar bütün sənədlərlə birlikdə hərbi əməliyyatların dayandırılması ilə bağlı əvvəllər işğal olunmuş ərazinin bununla bağlı səlahiyyətli orqanlarına təhvil verilməlidir. [5] Bütün bunlara baxmayaraq, mədəni tariximizə qarşı həyata keçirilmiş terror aktları dünya ictimaiyyətinə mütəmadi oalraq çatdırılır. Dağıdılmış abidələr, öz dövrünün tarixi izlərini qoruyuraq bərpa edilir.

Ədəbiyyat

1. Məhərrəmova T. Abidələrin ermənilərşdirilməsinə cəhd. "Kaspi" qəz., Bakı, 2021, 20 mart.
2. Qarabağ xanlığının yay iqamətgahı-Şahbulaq qalası/ https://medeni yye ttv.az/a z /ne w s/1 2 8 7/qarabag-xanliginin-yay-iq ametgahi-sahbulaq-qalasi
3. Տիգրանակերտ՝ Արցախի թաքնված գանձերից մեկը / https://champord.am/tigranakert/
4. Տիգրան Պասկևիչյան, Տիգրանակերտ. https://hetq.am/hy/article/11990
5. Draft Recommendation on International Principles Applicable to Archaeological Excavations. https://unesdoc.unesco.org/ark:/48223/pf0000160714/PDF/160714eng.pdf.multi

РЕЗЮМЕ
ТЕРРОРИСТИЧЕСКИЕ АКТЫ АРМЯН ПРОТИВ НАШЕГО КУЛЬТУРНОГО НАСЛЕДИЯ: ПОПЫТКИ АРМЕНИЗАЦИИ КРЕПОСТИ ШАХБУЛАГ
Нариманова А.Г.

Ключевые слова: *культура, терроризм, археологическая экспедиция, Шахбулаг, Карабах*

Роль исторических памятников в сохранении и передаче нашей национальной идентичности будущему неоценима. Во время оккупации армяне пытались фальсифицировать наши исторические памятники. Армяне, которые делали это различными способами, пытались стереть следы настоящих хозяев региона. Замок Шахбулаг - один из наших исторических памятников, подвергшихся культурному посягательству. Армяне, совершившие эти акты с помощью незаконных археологических экспедиций и восстановительных мероприятий, пытались построить свою собственную историю через этот исторический памятник. Однако после Второй Карабахской войны их действия были предотвращены.

SUMMARY
TERRORIST ACTS BY ARMENIANS AGAINST OUR CULTURAL HERITAGE: ATTEMPTS TO ARMENIANIZE THE SHAHBULAG FORTRESS
Narimanova A.H.

Keywords: *culture, terrorism, archaeological expedition, Shahbulag, Karabakh*

The role of historical monuments in preserving and transmitting our national identity to the future is invaluable. During the occupation, Armenians tried to falsify our historical monuments. The Armenians, who did this in various ways, tried to erase the traces of the real owners of the region. Shahbulag Castle is one of our culturally encroached historical monuments. The Armenians, who committed these acts with illegal archaeological expeditions and reconstruction measures, tried to build their own history through this historical monument. However, after the Second Karabakh war, their actions were prevented.

CƏMİYYƏTİN MƏNƏVİ DƏYƏRLƏRİNİN İNKİŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

[1]Nəcəfov Əlizadə Şəmil oğlu, [2]Kərimli Anar Tahir oğlu
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ağcabədi filialı, Azərbaycan, 1,2- t.f.d.
elizade.necefov@bk.ru ; kerimli_anar@mail.ru

Açar sözlər: *Ümummilli Lider, cəmiyyət, mənəvi dəyərlər, milli və dini bayramlar, tolerantlıq, multikultualizm*

Azərbaycan cəmiyyətinin inkişafında mənəvi dəyərlərin, xüsusilə də azərbaycançılıq məfkurəsinin, Azərbaycan dilinin, təhsilin, elmin, maarifin və mədəniyyətin, ədəbiyyat və incəsənətin, adət ənənələrin, dini dəyərlərin tolerantlıq və multikulturalizmin inkişafında Ümummilli lider Heydər Əliyevin xidmətləri əvəzsizdir. Özünün saf mənəviyyat xəzinəsini adamların varlığına hopdurmuş, ömrünün hər dəqiqəsindən hər bir insanın xeyrinə pay ayırmış, bütün şüurlu ömrünü Azərbaycanın və Azərbaycan xalqının hərtərəfli inkişafına həsr etmiş Ulu Öndərin böyüklüyünün ən parlaq etirafı xalqın ona ilahi məhəbbəti və dərin inamıdır.

Ümummilli lider Heydər Əliyev irsində vətən sevgisi, xalq, millət sevgisi, din sevgisi, milli ənənələr sevgisi xüsusi yer tutur. O, bunları insan üçün mənəvi əsas kimi təqdim etmiş və mənəvi əsasa sahib olmayanların müstəqil Azərbaycanın inkişafında lazımi qədər iştirak edə bilməyəcəkləri qənaətində olmuşdur. Elə buradan da milli tərbiyə işinin məzmununda vətənə, millətə, dilə, dinə, ənənəyə və s. sevgi hissinin formalaşdırılmasının əsas yer tutması və bunun formal deyil, real olaraq həyata keçirilməsi vacibliyi şərtlənirdi.

Cəmiyyətin inkişafında mənəvi dəyərlərin təsirini yüksək qiymətləndirən Ümummilli Lider gənclərə tövsiyyə edərək demişdir ki, gənclik dövründən səmərəli istifadə edin, yaxşı təhsil alın, özünüzü həyata yaxşı hazırlayın. Gənclik illəri sonra ələ düşməyən illərdir, yaş artdıqca insan bu illəri həmişə böyük hörmətlə xatırlayır. Gələcəkdə özünüzü qınamamaq üçün, gəncliyinizdə nəyi isə eləmədiyinizə görə heyfslənməməyiniz üçün mən sizə məsləhət edirəm: "Gənclik günlərindən, aylarından, gənclik illərindən səmərəli istifadə edin, boş yerə vaxt sərf etməyin, yaxşı oxuyun, yaxşı təhsil alın, özünüzü həyata, əmək fəaliyyətinə, gələcəyə yaxşı hazırlayın". [4, s.35]

Gənclərimizin milli mənəvi dəyərlər əsasında tərbiyələnməsini vacib hesab edən Ulu Öndər davamlı olaraq deyirdi ki, gənclərimiz bizim tarixi yaxşı bilməlidir, mənəvi dəyərlərimizi, dilimizi, dinimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.

Ümummilli Lider tövsiyyə edirdi ki, müasir düşüncəli hər bir gəncdə azərbaycançılıq hissinin formalaşdırılması ideyası milli tərbiyə konsepsiyasının əsas məqsədlərindən biri olmalıdır. Yaşadığı ölkədən, vətəndaşı olduğu dövlətdən asılı olmayaraq, harada azərbaycanlı varsa, onda azərbaycançılıq hissi özünü göstərməlidir. Bu hiss öz başlanğıcını Azərbaycana sevgidən, Ana Vətənə məhəbbətdən alır. Heydər Əliyevin fikrincə, Azərbaycanı sevmək azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir. İndi müstəqil Azərbaycan Respublikası məlum olan Azərbaycanın hüdudları çərçivəsindədir. Keçmiş dövrlərdə, keçmiş əsrlərdə Azərbaycan daha da geniş ərazilərdə olmuşdur. İndi dünyanın onlarla xarici dövlətində azərbaycanlılar yaşayır. Amerika qitəsində, Asiya qitəsində də azərbaycanlılar yaşayır. Onlar da azərbaycanlılardır, onlarda da azərbaycançılıq hissləri yaşamalıdır.

Ulu Öndər yetişməkdə olan gənc nəslin mənəvi tərbiyəsində dini dəyərlərdən bəhrələnmək, əməldə, davranışda İslam dininin tələblərinə uyğun olaraq hərəkət etmək vərdişlərinə yiyələnməyin vacib olduğuna xüsusi diqqət yetirmişdir. O, İslam dininin, Quranın Azərbaycan xalqına bəxş etdiyi mənəvi dəyərlərin bizim üçün əziz olduğunu, xalqımızın, gənclərimizin bu gün də, gələcəkdə də tərbiyəsi üçün çox əhəmiyyətli olduğunu bildirmişdir.

Cəmiyyət həyatının mənəvi zənginliyində Azərbaycan dilinin inkişafı və zənginləşməsinə qayğının gücləndirilməsində Ulu Öndərin müstəsna xidmətləri danılmazdır. Azərbaycan Respublikasına 30 ildən çox rəhbərliyi dövründə qarşılaşdığı çətinlik və maneələrə baxmayaraq ana dilimizin dövlət dili səviyyəsinə yüksəlməsinə və 1978-ci ildə bu aktın Azərbaycan SSR Konstitusiyasına daxil edilməsinə nail olmuşdur. [2, 53]

Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinin bayrağı, himni və gerbinə uşaqlarda dərin məhəbbətin tərbiyə edilməsini də zəruri hesab edirdi. Buna görə də məktəblərdə həm rəmzləri yaxşı təbliğ etmək lazımdır, həm də Azərbaycan dövlətinin bayrağına məhəbbət, onun müqəddəsliyinə dərin ehtiram uşaqlarda, yeniyetmələrdə daxildən gəlmədir. Azərbaycan bayrağı bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir.

Cəmiyyətin hərtərəfli inkişafında müxtəlif xalqların və onların mənsub olduğu dinlərin də rolu danılmazdır. Tarixən Azərbaycan azsaylı xalqların, milli azlıqların və etnik qrupların da yaşadığı bir diyar olmuşdir. Ümummilli Lider Heydər Əliyev əsrlərlə ölkəmizdə mövcud olmuş tolerantlıq və multikulturalizmi azərbaycançılıq ideyasının tərkib hissəsi kimi təqdim edərək, xalqımızın çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni müstəviyə keçirdi. O, Azərbaycanda digər din və mədəniyyətlərə ehtiramın tarixinin çox dərinlərə gedib çıxdığını bildirərək, həmin ənənələrin inkişafının çox vacib olduğunu belə qeyd etmişdi ki, Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları vermişdir".

Ulu Öndər İdeologiyaya ictimai problemlərin həllinə və inkişafa yönləndirən fəlsəfi, iqtisadi, siyasi, hüquqi, dini, əxlaqi görüşlərin və ideyaların bütöv sistemi kimi baxırdı. Onun fikrincə din, tarix, mədəniyyət, vətən və s. bu kimi amillər nə qədər ciddi önəm daşısalar da, bir toplumun millətə çevrilməsi ideologiyasız, məfkurəsiz mümkün deyildir.

Azərbaycançılıq ideologiyası Ulu Öndər Heydər Əliyev tərəfindən layiqli qiymətini almış, ölkənin dövlət siyasətinə çevrilmiş, ümumbəşəri dəyərlərlə zənginləşdirilmişdir. Onun azərbaycançılıq haqqında aşağıdakı sözləri mənəvi dəyərlərimizin lakonik ifadəsidir. "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsub iyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən bəhrələnmək deməkdir". [2, 13]

Ümummilli Lider Heydər Əliyevin bu barədəki fikirləri də milli-mənəvi dəyərlərin müasir Azərbaycan cəmiyyətinin inkişafına təsirini tam dolğunluğu ilə ifadə edir: "Mən bu gün bir azərbaycanlı kimi, özündə həm milli-mənəvi dəyərləri, həm də ümumbəşəri dəyərləri cəm edən bir insan kimi deyirəm ki, bizim xalqımızın mənəvi-əxlaqi mentaliteti onun ən böyük sərvətidir, xalqımızın milli-mənəvi dəyərləri onun milli sərvətidir". [2, 21]

Mənəvi dəyərlərimizin tərkib hissəsi olan çoxəsrlik Novruz bayramı, Ramazan bayramı, müqəddəs Qurban bayramı, Respublika günü, Konstitusiya günü, Zəfər günü və digər bayramlarımız və tarixi günlərimizlə yanaşı, cəmiyyətin hər bir inkişaf mərhələsində digər mədəniyyətlərə inteqrasiyamız genişləndikcə, həyatımıza və məişətimizə yeni beynəlxalq bayram və tarixi günlər də daxil olmuşdur.

Bunu da xüsusi qeyd etməliyik ki, 1993-cü ildə xalqımızın təkidli tələbiylə ikinci dəfə Azərbaycanda siyasi rəhbərliyə qayıdan Ulu Öndər qısa zamanda dövlətçiliyin xilasına, ictimai-siyasi sabitliyin, qanunçuluğun, hüquq qaydalarının bərpasına, iqtisadi tənəzzülün qarşısının alınmasına nail olmaqla yanaşı, həm də milli-mənəvi, əxlaqi dəyərlərin yox olması təhlükəsinin qarşısını almışdır.

Ulu Öndər dəfələrlə öz çıxışlarında qeyd edirdi ki, ölkəmizdə dövlət-din və cəmiyyət-din münasibətlərinin tənzimlənməsi dünyanın ən yaxşıları sırasındadır. Çünki adət-ənənələrimiz və onların formalaşdırdığı milli dəyərlər sistemi ilə güclü dövlətçilik quruculuğu arasında sıx vəhdət var.

Ümummilli Lider demişdir: "Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsası bizim müqəddəs kitabımız Qurani-Şərifdə öz əksini tapıbdır. Ancaq bununla yanaşı Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar." [2, 43]

Ulu Öndər gənclərimizi milli-mənəvi dəyərlər, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi daim tövsiyyə edərək demişdir ki, biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq va gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik.

Məlum olduğu kimi Azərbaycan cəmiyyətinin inkişafında digər dəyərlərlə yanaşı tolerantlıq və mültikulturalizmin də xüsusi yeri vardır. Çünki, Azərbaycan dövlət-din münasibətlərinin inkişafı baxımından nümunəvi bir ölkədir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət-din münsibətləri modeli cəmiyyətin sağlam inkişafı, milli-mənəvi dəyərlərin qorunması, insanların dini etiqadına olan hörmət və ehtiram baxımından əvəzolunmaz xarakter daşıyır. Təsadüfi deyil ki, ölkəmiz dinlərarası, mədəniyyətlərarası və sivilizasiyalararası dialoq, tolerantlıq və multikulturalizm mövzsunda təşkil edilən çoxsaylı mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir.

Müasir dünyamızda beynəlxalq münasibətlər sistemindəki mövcud vəziyyət, bir daha sübut etdi ki, dinə yalnız inanc, mənəviyyat və hüquq məsələsi kimi deyil, həm də dövlətin və cəmiyyətin təhlükəsizliyi və sabitliyi prizmasından yanaşmaq lazımdır. Bu mənada Ümummilli Lider Heydər Əliyevin dövlət-din münasibətləri, milli-mənəvi, o cümlədən dini dəyərlərin qorunması və təbliği, eləcə də tarixi-dini abidələrin bərpası, tolerantlığın və dinlərarası dialoqun təşviq edilməsi sahəsində zəngin irsinin öyrənilməsi və düzgün təbliği Azərbaycanla yanaşı, digər ölkələr üçün də faydalı ola bilər.

Milli-mənəvi dəyərlər xalqımızın özünəməxsus xüsusiyyətidir. Məhz bu amilə əsaslanaraq Ümummilli Lider çıxışlarının birində demişdir: "Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi xalq ola bilməz. Ancaq bununla belə, Azərbaycanın təfəkkürlü insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıbdır. Biz bunların hamısı ilə fəxr etməliyik. Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz İslam dininə, İslam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik." [1, 3]

Ümummilli Lider Heydər Əliyev mənəvi dəyərlərin qorunmasından və özünün də dövlət başçısı və şəxsiyyət olaraq milli-mənəvi dəyərlərdən bəhrələndiyini belə ifadə etmişdir: "Sizi əmin edirəm ki, mən

həmişə yüksək mənəviyyat uğrunda mübarizə aparmışam, mənim həyatım saf mənəviyyat əsasında qurulubdur, mənim bütün əməllərim saf, təmiz mənəviyyat əsasında qurulubdur. Mən Azərbaycan xalqının yüksək mənəviyyatını xalqımızın böyük sərvəti hesab edirəm. Ona görə də mən indiyə qədər buna sadiq olduğum kimi, bundan sonra da sadiq olacağam. Bütün həyatımla, gördüyüm işlərlə, respublikanın, dövlətin başçısı kimi atdığım bütün addımlarla, tədbirlərimlə ölkəmizdə mənəviyyatın daha da möhkəmlənməsi, milli-mənəvi dəyərlərimizin yaşaması, milli adət-ənənələrimizə sadiq olmağımızı təmin etməyə çalışmışam." [3, 3]

Yekun olaraq qeyd etmək lazımdır ki, Ümummilli lider Heydər Əliyev bir tərəfdən xalqın əqli və mənəvi həyatının təməlini təşkil edən tarixi nailiyyətlərimizə qayğı ilə yanaşmağı tələb edirdisə, digər tərəfdən milli, mədəni-tarixi və ümumbəşəri dəyərləri üzvi surətdə birləşdirən tarixi perspektivə üz tuturdu.

Ədəbiyyat

1. Azərbaycan Respublikası 1991-2001, Bakı: Yeni nəşrlər evi, 2001, 280 s.
2. Babaşova T. Azərbaycançılıq məfkurəsi. Bakı: LTD, 65 s.
3. Əliyev Heydər: Mənəviyyat, mənəvi dəyərlər, mənəvi tərbiyə. – Bakı: Müəllim, 2008, 637 s.
4. Heydər Əliyev və Azərbaycan elminin inkişafı: elmi-profilaktik konfransın materialları – Bakı: AMİ, 2003, 56 s.

РЕЗЮМЕ

РОЛЬ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ ДУХОВНЫХ ЦЕННОСТЕЙ ОБЩЕСТВА

Наджафов А.Ш., Керимли А.Т.

Ключевые слова: *Общенациональный лидер, общество, нравственные ценности, национальные и религиозные праздники, толерантность, мультикультурализм*

В статье были рассмотрены взгляды общенационального лидера Гейдара Алиева на развитие духовных ценностей в его наследии, в частности, вопросы азербайджанства, национальных традиций, модернизации национальных духовных ценностей. Одним из вопросов, затронутых в статье, является роль национальной идеологии, национальных и религиозных праздников, знаменательных исторических дней, толерантности и мультикультурализма в развитии общества. Выводы, сделанные в конце исследовательской работы, заключаются в том, что Общенациональный лидер Гейдар Алиев в годы своего политического руководства проявлял особую заботу о развитии и сохранении азербайджанской культуры, государственно-религиозных отношений, вопросов толерантности и мультикультурализма

SUMMARY

THE ROLE OF NATIONAL LEADER HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF SPIRITUAL VALUES OF SOCIETY

Najafov A.Sh., Kerimli A.T.

Key words: *National leader, society, moral values, national and religious holidays, tolerance, multiculturalism*

In the article, researches were conducted on the ideas of National Leader Heydar Aliyev regarding the development of moral values in his heritage, especially Azerbaijaniism, national customs and traditions, modernization of national moral values. One of the issues highlighted in the article is the role of national ideology, national and religious holidays, significant historical days, tolerance and multiculturalism in the development of society. As a conclusion at the end of the research work is that National Leader Heydar Aliyev, during his years as a political leader, paid special attention to the development and preservation of Azerbaijani culture, state-religion relations, tolerance and multiculturalism issues.

ŞİRVAN-SALYAN İQTİSADİ RAYONUNDA TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFININ ƏRAZİ TƏŞKİLİ

[1]Niftiyev Famil Qağamalı oğlu, [2]Abdullayeva Zoya Hamlet qızı

[1]Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu, Publik hüquqi şəxs, Bakı, Azərbaycan

[2]Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

f.niftiyev@mail.ru

Açar sözlər: *peşə təhsili, məktəb, demoqrafiya, müəssisələr, Şirvan-Salyan*

Təhsil dövlətin və cəmiyyətin inkişafında ən əhəmiyyətli sahədir. Bu sahənin inkişafı ilk öncə ölkənin inkişafı ilə bağlıdır. Təhsilin inkişaf etdirilməsi üçün əvvəlcə onun müəssisələrinin tikintisi həyata keçirilməlidir. Ərazidə hər hansı təhsil müəssisəsi tikitisi sahənin relyefi, iqlimi, əhalinin sayı, yol infrastrukturun qurulması nəzərə alınmalıdır.

Şirvan-Salyan iqtisadi rayonu relyefi düzən ərazidə ovalıqlar və düzənliklərdən ibarətdir. Havanin temperaturu yanvarda 2°C və iyun ayında 26°C olur. Yağıntının müqdarı 150-370 mm arasında dəyişir. Təbii şərait əlverişli olması burada təhsil müəssisələrin qurulması üçün uyğundur [5].

İqtisadi rayonda məktəbəqədər və əyani ümumi təhsil müəssisələri yerləşdirilərkən əhalinin sayı nəzərə alınır. Xüsusən tikiləcək təhsil müəsisəsi əhalinin sayından aslı olaraq böyük və kiçik ola bilər. 2022-ci ilin əvvəlinə Şirvan-Salyan iqtisadi rayonunda əhalinin sayı 504,3 min nəfərdir. Şirvan şəhərində 88,2 min nəfər, Biləsuvar rayonunda 107,2 min nəfər, Hacıqabul rayonunda 77,7 min nəfər, Neftçala rayonunda 89,6 min nəfər və Salyan rayonunda 141,6 min nəfər olmuşdur [1].

Son dövrlər yol infrastrukturuna yenidən qurulması üçün işlər görülür. 2021-ci il üzrə iqtisadi rayonda yerli əhəmiyyətli yolların uzunluğu 910 kmdir. Onunda 50% -dan çoxu qəsəbə və kənd yolları təşkil edir. İnzibati rayonlar üzrə Neftçala və Salyan rayonları üstünlük təşkil edir. Yol uzunluğunun az olmasına görə Şirvan şəhəri ön sıradadır [2].

Yeniyetmə və gənclərin həyata hazırlanmasında və mənəvi dəyərlərə malik olmasında təhsil müəsissələri mühüm yer tutur [4]. Təhsil müəssisələrin fəaliyyəti gələcəkdə region üçün əhalinin bilik səviyyəsini artıracaq və kadr çatışmazlıqlarını aradan qaldıracaqdır. Təhsil müəsissələrinin beynəlxalq standarlara əsasən qurulması şagirdlərin təhsilə olan marağını artıracaqdır.

Şirvan-Salyan iqtisadi rayonunda məktəbəqədər təhsil müəssisələrinin sayı 2022-ci ilin əvvəlinə 54 ədəd olmuşdur. Onlarda oxuyan uşaqların sayı 2887 nəfər olmuşdur. Orta hesabla hər bir məktəbəqədər təhsil müəssiəsələrində uşaqların sayı fərqlidir. Belə ki, Şirvan şəhərində 103 nəfər, Biləsuvar rayonunda 43 nəfər, Hacıqabul rayonunda 50 nəfər, Neftçala rayonunda 53 nəfər, Salyan rayonunda 45 nəfər olmuşdur. Məktəbəqədər təhsil müəssisələrində 100 yerə düşən uşaqların sayına görə Şirvan 100 nəfər, Neftçala 93 nəfər olmuşdur [3]. Bu da iqtisadi rayon göstəricisindən yüksəkdir. Respublikada məktəbəqədər təhsil müəssisələrinin sayının 3% bu iqtisadi rayonun payına düşür (cədvəl 1).

Respublikada orta hesabla 1 məktəbəqədər təhsil müəssiəsələrinə düşən uşaqların sayı 69 nəfər təşkil edir. Bu iqtisadi rayon üzrə 53 nəfər deməkdir. Bu da iqtisadi rayonda məktəbəqədər təhsil müəssisələrində keyfiyyətinin yaxşılaşmasına, uşaqlarla fərdi qaydada işləməyə vaxtın çox olmasına imkan verir.

İqtisadi rayonda əyani ümumi təhsil müəssisələrinin sayı 2022-ci ilin əvvəlinə 190 ədəd olmuşdur. Salyan rayonunda 54, Neftçala rayonunda 51, Biləsuvar rayonunda 36, Hacıqabul rayonunda 33 və Şirvan şəhərində 16 əyani ümumi təhsil müəssisələri fəaliyyət göstərir. Respublikada fəaliyyət göstərən əyani ümumi təhsil müəssisələrinin 4,3% bu iqtisadi rayonda cəmləşmişdir. Əyani ümumi təhsil müəssisələrində oxuyan uşaqların sayı 76683 nəfər olmuşdur [3].

Cədvəl 1.

2022-ci ilin əvvəlinə Şirvan-Salyan iqtisadi rayonda məktəbəqədər təhsil müəssisələri

İnzibati rayonlar	Məktəbəqədər təhsil müəssisələrinin sayı	Onlarda uşaqların sayı, nəfər	Məktəbəqədər təhsil müəssisələrində 100 yerə düşən uşaqların sayı
Şirvan	6	620	100
Biləsuvar	12	512	72
Hacıqabul	3	150	71
Neftçala	16	840	93
Salyan	17	765	85
İqtisadi rayon	54	2887	86

Mənbə: *Azərbaycanda elm, təhsil, mədəniyyət. 2021. DSK. 2022*

Regionda II və III növbələrdə təhsilalanların xüsusi çəkisində fərqlər müşahidə edilir. Əsasən II və III növbələrdə təhsilalanlar Biləsuvar, Şirvan və Hacıqabul rayonlarını əhatə edir. Salyan (7,8) və Neftçala (6,7) rayonlarında II və III növbələrdə təhsilalanların xüsusi çəkisi iqtisadi rayon (16,0) göstəricisindən aşağadır (cədvəl 2). Respublikada II və III növbələrdə təhsilalanların xüsusi çəkisi 20,1 olmuşdur. Təbii ki, bu iqtisadi rayon göstəricisindən yüksəkdir.

Cədvəl 2.

2021/2022-ci ilin əvvəlinə Şirvan-Salyan iqtisadi rayonda əyani ümumi təhsil müəssisələri

İnzibati rayonlar	Əyani ümumi təhsil müəssisələri	Onlarda təhsilalanların sayı, nəfər	II və III növbələrdə təhsilalanların xüsusi çəkisi
Şirvan	16	13875	19,6
Biləsuvar	36	17248	27,7
Hacıqabul	33	12014	18,8
Neftçala	51	11205	6,7
Salyan	54	22341	7,8
İqtisadi rayon	190	76683	16,0

Mənbə: *Azərbaycanda elm, təhsil, mədəniyyət. 2021. DSK. 2022*

Peşə təhsil müəssisələrinin sayı iqtisadi rayonda 2022-ci ildə 5 ədəd, o cümlədən Salyan rayonunda 2 ədəd, Şirvanda 1 ədəd, Biləsuvarda 1 ədəd və Neftçalada 1 ədəd olmuşdur.Bu respublikada olan peşə təhsil müəssisələrinin 5% deməkdir. Hacıqabul rayonunda peşə təhsil müəssisəsi yoxdur. İqtisadi rayonda tələbələrin sayına görə hər bir peşə təhsil müəssisəsinə orta hesabla 217 nəfər düşdüyü halda respublikada bu 230 nəfər deməkdir (cədvəl 3).

Cədvəl 3.

2022-ci ilin əvvəlinə Şirvan-Salyan iqtisadi rayonda peşə təhsil müəssisələri

İnzibati rayonlar	Peşə təhsil müəssisələrinin sayı	Qəbul olanların sayı, nəfər	Tələbələrin sayı, nəfər	Bitirənlərin sayı, nəfər
Şirvan	1	218	369	236
Biləsuvar	1	139	193	85
Neftçala	1	80	105	69
Salyan	2	316	420	243
İqtisadi rayon	5	753	1087	633
Respublikada	99	18289	22749	14233

Mənbə: *Azərbaycanda elm, təhsil, mədəniyyət. 2021. DSK. 2022*

"Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiqi region üçün uğurlu olmuşdur [6]. Dövlət proqramında Şirvan şəhəri 5 nömrəli 432 şagird yerlik ümumi orta məktəbinin tikintisi, 9, 11, 14, 21 nömrəli tam orta məktəblərin, 18 nömrəli təbiət, humanitar təmayüllü məktəb-liseyin və Uşaq Gənclər İnkişaf Mərkəzinin əsaslı təmiri nəzərdə tutulmuşdur.

Biləsuvar rayonunda Biləsuvar şəhərində 1176 şagird yerlik tam orta məktəbin və Bağbanlar, Nərimankənd, Nəsimi və Zəhmətabad kəndlərində tam orta məktəbi üçün yeni binanın tikintisi nəzərdə tutulub. K.Ağayev adına Biləsuvar Şəhər Texniki Fənlər Təmayüllü İnternat Tipli Məktəb Liseyinin bərpa-gücləndirmə və Bəydili, Səmədabad, Dəvrişli kəndlərində tam orta məktəbinin əsaslı təmiri planlaşdırılır.

Neftçala rayonunda Bankə qəsəbə 1 nömrəli, Xıllı qəsəbə 1 nömrəli, Qədimkənd və Qaçaqkənd kəndlərinin tam orta məktəbin əsaslı təmiri həyata keçrilib. Haqverdili, Uzunbabalı, Elektrik şəbəkə, Yenikənd, Şorkənd və Mayak kəndlərində modul tipli ibtidai məktəbinin tikintisi planlaşdırılır. Humanitar təmayüllü "Muğan" liseyi üçün yeni binasının və Şəhər 4 nömrəli tam orta məktəbinin əsaslı təmiri, əlavə sinif otaqlarının, akt və idman zalların tikintisi nəzərdə tutulub. M.Səfərov adına internat məktəbinin tədris korpuslarının əsaslı təmiri və yeni yataqxana binasının tikintisi davam etdirilir.

Hacıqabul rayonunda Hacıqabul şəhər 5 və 6 nömrəli tam orta məktəblərin əsaslı təmiri nəzərdə tutulub. Hacıqabul şəhər 3 və 7 nömrəli tam orta məktəblər üçün yeni binanın tikintisi həyata keçirilmişdir. Talış, Navahı, Qızılburun kəndlərin və Muğan qəsəbəsinin tam orta məktəbləri əsaslı təmir olunmuşdur. Udulu kənd tam orta məktəbinin bərpa-gücləndirilməsi və əsaslı təmir olunub istifadəyə verilmişdir.

Salyan rayonu Salyan şəhər A.Səfərov adına inteqrasiya təlimli internat tipli gimnaziyanın və Yuxarı Xalac-1, Şorsulu, Aşağı Noxudlu, Sarvan kənd tam orta məktəbinin əsaslı təmiri olmuşdur. Çadırlı kənd ümumi orta mətəbin, Yuxarı Xalac-2, Aşağı Kürkənd, Ərəbqardaşbəyli və Bəşirbəyli kənd tam orta məktəbi üçün yeni binanın tikintisi həyata keçirilmişdir. Arbatan kənd tam orta məktəbinin əsaslı təmiri, əlavə sinif otaqlarinin, akt və idman zallarının tikintisi olmuşdur.

Nəticə. İqtisadi rayonda iqtisadi rayonunda təhsil müəssisələrinin inkişafında və ərazi təşkilində problemlər hələdə öz həllin tapmayıb.

1. İqtisadi rayonda aqrar peşə məktəbləri açılmalıdır.
2. Təhsil müəssisələrində yüksək əmək haqqı ödəməklə müəllim heyəti ilə təmin olunmalıdır.
3. İqtisadi rayonda xüsusi və internat məktəbləri yaradılmalıdır.
4. Regionda ali təhsil müəssisəsinin yaradılması məqsədə uyğundur.

Ədəbiyyat

1. Azərbaycanın demoqrafik göstəriciləri, Bakı: 2022, 560 s
2. Azərbaycanın regionları. ARDSK-nın məcmuəsi, Bakı: 2022, 775 s.
3. Azərbaycanda təhsil, elm, mədəniyyət, Bakı : 2022, 496 s.
4. Əfəndiyev V. Azərbaycanın iqtisadi və sosial coğrafiyası. Bakı 2010, 257 s.
5. Museyibov M.A. Azərbaycanın fiziki coğrafiyası. Bakı 1998. 201 s.
6. https://e-qanun.az/framework/41320

РЕЗЮМЕ
ТЕРРИТОРИАЛЬНАЯ ОРГАНИЗАЦИЯ РАЗВИТИЯ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЙ ШИРВАН -САЛЯНСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА
Нифтиев Ф.Г., Абдуллаева З.Г.

Ключевые слова: *профессиональное образование, школа, демография, институты, Ширван-Салян.*

В статье рассматриваются факторы, влияющие на развитие образовательных учреждений в Ширвано-Сальянском экономическом районе и их комплексное исследование. К влияющим факторам относятся в основном природные красоты местности, демографическая ситуация, инфраструктурный объект. При этом дошкольные и общеобразовательные учреждения анализируются по экономическим районам. Исследуется положение учреждений профессионального образования по административным районам. Приводится информация о выполнении работ, предусмотренных государственной программой.

SUMMARY
TERRITORIAL ORGANIZATION OF DEVELOPMENT OF EDUCATIONAL INSTITUTIONS IN SIRVAN-SALYAN ECONOMIC DISTRICT
Niftiyev F.G., Abdullayeva Z.H.

Keywords: *professional education, school, demography, institutions, Shirvan-Salyan*

The article deals with the factors affecting the development of educational institutions in the Shirvan-Salyan economic district and their comprehensive investigation. The influencing factors are mainly informed about the natural beauty of the area, the demographic situation, and the infrastructure object. At the same time, pre-school and formal general education institutions are analyzed by economic region. The situation of vocational education institutions by administrative regions is investigated. Information is provided on the implementation of the works envisaged in the state program.

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MODALLIQ KATEQORİYASININ QARŞILIQLI MÜQAYİSƏLİ TƏHLİLİNƏ DAİR

Nuriyeva Səadət Tapdıq qızı
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
saadetnuriyeva@gmail.com

Açar sözlər: *modallıq, qoşa modallıq, modal feillər, inversiya, modal sözlər*

Modallıq kateqoriyası səlist, bədii və obrazlı nitqin formalaşmasında əsas rol oynayan amillərdən biri olub dilin müxtəlif səviyyələrində (əsasən, söz birləşməsi, cümlə, mətn və discurs) reallaşır. Modallıq universal dil kateqoriyasıdır. Azərbaycan dilinin izahlı lüğətində modallıq barəsində qeyd edilir: ‘Modallıq elə bir qrammatik kateqoriyadır ki, nitqin məzmununun gerçəkliyə münasibətini ifadə edir və feil formaları, modal feillər, modal sözlər, ara sözlər, intonasiya və s. ilə ifadə olunur. [14] qeyd etmək lazımdır ki, S.T.Nuriyeva bu siyahıya inversiyanı (yerdəyişmə) da əlavə etmişdir. [10. səh. 191-201]

Modallıq kateqoriyasının ifadə vasitələri danışanın ifadə etdiyi fikrinin təsirliliyini daha da gücləndirilməsinə xidmət edir. [11, s.112]

Dilçilikdə modallığa müxtəlif dilçilər tərəfindən bir-birindən fərqli tərifiər verilmiş, onun mahiyyət və xüsusiyyətləri müxtəlif aspektlərdən tədqiq edilmişdir. Modallıq kateqoriyasının ifadə vasitələri də ayrıca bir mövzu kimi tədqiqat obyekti olmuşdur. İstər eyni sistemli, istərsə də müxtəlif sistemli dillərdə modallıq kateqoriyasının tədqiq və təhlilinə geniş yer verilmişdir. O cümlədən, Azərbaycan və ingilis dillərində bu kateqoriya müxtəlif nöqteyi-nəzərdən araşdırılmışdır, çünki bu kateqoriya ingilis və Azərbaycan dilllərinin hər iksinə məxsus olan bir kateqoriyadır. Bu məqalə Azərbaycan dilçiliyində modallıq kateqoriyasının qarşılıqlı müqayisəli təhlilinə dair aparılmış tədqiqat işlərindən bəhs edir. Müqayisəli dilçiliyin inkişafı hər iki dildə modallıq kateqoriyalarının müqayisəli şəkildə qarşılaşdırılaraq tədqiq edilməsinə yol açmışdır. Həmin tədqiqatların nəticələrindən belə qənaətə gəlmək olar ki, ayrı-ayrı dil ailələrinə mənsub olan ingilis və Azərbaycan dillərində modallıq kateqoriyasının ifadə vasitələri fərqli formalarda təzahür edir. Məsələn, ingilis dilində modallığın əsas ifadə vasitəsi modal feillər olduğu halda, Azərbaycan dilində modal feillər yoxdur. Bu səbəbdən Azərbaycan dilində onların qarşılığını müəyyənləşdirmək zərurəti yaranır. Hər iki dildə modallıq kateqoriyasının oxşar və fərqli xüsusiyyətlərni müəyyənləşdirmək üçün müxtəlif çeşidli tədqiqat işləri yazılmışdır. Azərbaycan dilçiliyində M.Hüseynzadə, M.Adilov, A.Aslanov, Z.Budaqova, F.Hüseynov, F.Ağayeva, O.Musayev və b. modallığı fərqli nöqteyi nəzərdən araşdırmışlar. [2]

F.Cahangirovun “İngilis və Azərbaycan dillərində modallığın struktur-semantik tədqiqi” monoqrafiyası bu sıradan olan bir nümunədir. O, modallıq haqqında yazır: “Modallıq kateqoriyası müxtəlifsistemli dillərdə ünsiyyəti təmin edən ən mühüm dil hadisələrindəndir. Bu kateqoriya dilin ifadə

planından tutmuş onun məzmun planınadək, dilin adlandırma funksiyasından tutmuş onun ifadəetmə funksiyasına qədər bir çox məsələləri əhatə edir" (3, s. 6).

F.Cahangirov haqlı olaraq modallığın ifadə vasitələrini -morfoloji, sintaktik, leksik və fonetik olaraq qruplaşdırır. [3, s.31]

Son onillikdə Azərbaycan dilçiliyində modallığa dair xeyli sayda elmi tədqiqat işləri yazılmışdır. Modallıq çoxsaylı məqalələrin, dissertasiyaların və monoqrafiyaların tədqiqat obyektinə çevrilmişdir. E.M.Abbasova Azərbaycan və ingilis dillərinin materialları əsasında "Azərbaycan və ingilis dillərində predikativlik və modallıq" adlı dissertasiya işi yazmışdır. Tədqiqatçı cümlənin üç əsas kateqoriyasından olan modallıq və predikativlik arasında olan əlaqədən, onların çuğlaşmasından bəhs etmişdir. [1, s. 12-19]

M.Mürsəlova isə ingilis dilində modal feillərin funksiyalarını araşdırmışdır. Tədqiqatçı belə qənaətə gəlir ki, ingilis dilində modal sözlər, və xüsusilə modal feillər digər feillərdən onunla fərqlənir ki, onlar müstəqil işlənmir, konkret hərəkəti və ya konkret vəziyyəti ifadə edə bilmir, onlar sadəcə həmin hərəkət və ya vəziyyətin modallığını, yəni danışanın həmin hərəkətə və vəziyyətə münasibətini ifadə edir. [7, s.148]

G. Müslümova İngilis və Azərbaycan dillərində modallıq intonasiyasının qarşılıqlı müqayisəli tədqiqi ilə məşğul olmuş və bu barədə dissertasiya işi yazmışdır. Intonasiyanın modallıq yaratma xüsusiyyətləri müəyyənləşdirilmiş, müqayisə edilən dillərdə modallıq ifadə edən intosiyanın fərqli və oxşar cəhətləri müəyyənləşdirilmışdir. [9, s.1-20]

R. İsmayılov ingilisdilli nəsr nümunələri əsasında "Bədii mətnin strukturunda subyektiv-qiymətləndirici modallıq" adlı dissertasiya işi yazmışdır. [5, s. 22]

Y. Qaraşova İngilis və Azərbaycan modallığın struktur-semantik tədqiqi adlı dissertasiya işində modallıq kateqoriyasını həm struktur, həm də semantik cəhətdən təhlil etmişdir. [6, s. 384-391]

S.Nuriyevanın "Müasir ingilis və Azərbaycan dillərində gələcək zamanın leksik-qrammatik ifadə vasitələri" adlı dissertasiya işində də modallıq kateqoriyasının bəzi xüsusiyyətləri müqayisəli şəkildə araşdırılmışdır. [12, s. 22]

Son onillikdə S.Nuriyeva dilçilikdə ilk dəfə olaraq dilin cümlə səviyyəsində reallaşan qoşa modallıq haqqında bir sıra elmi məqalələr yazmışdır. Bəzi amerikan dilçiləri qoşa modallığın yalnız iki modal feil ilə ifadə olunduğunu qeyd edirlər. S.Nuriyeva isə nümunələr verərək qoşa modallığın ifadə vasitələrinin sayca daha çox olduğunu əsaslandırır və dilçilikdə yekdilliklə qəbul olunan modallığın ifadə vasitələrini (modal feillər, modal sözlər, nida, feilin şəkil kateqoriyası, intonasiya) qoşa işlənmə xüsusiyyətinə görə qruplaşdırır. S.T.Nuriyeva "Müasir ingilis dilində inversiya modallıq kateqoriyasının ifadə vasitəsi kimi" adlı məqaləsində inversiyanı da bu siyahıya əlavə etmişdir. [10, s.191-201] İnversiyanın modallığın ifadə vasitəsi kimi verilməsi qoşa modallığın ifadə vasitələrinin siyahısını genişləndirir. İnversiya elə bir üslubi dil hadisəsidir ki, onun işləndiyi cümlələrdə modallığın digər ifadə vasitələri də işlənir. Məsələn, 'Hardly could he collected the papers on his desk when the door burst open...'cümləsində qoşa modallıq işlənmişdır, cünki 'Hardly could he collected the papers on his desk' budaq cümləsində modallığın iki ifadə vasitəsi- həm "can" modal feili, həm də inversiya işlənmişdir. "He might be able to lick us all in a fair fight..." cümləsində birinci tərəfdə modallığın iki ifadə vasitəsi 1) might modal feili, 2) "to be able to" modal ifadəsi işlənmişdir.

Modallığın ifadə vasitələrindən hər hansı ikisinin və ya üçünün eyni bir cümlədə qoşa işlənməsi modallığın təsirini daha da artırır. Qeyd edək ki, qoşa modallığı əmələ gətirən ən məhsuldar ifadə vasitəsi inversiya hesab edilə bilər, çünki o digər bütün ifadə vasitələri ilə birləşərək modallığı gücləndirir.

S.T.Nuriyeva ingilis dilinin materialları əsasında yazdığı "Qoşa modallığın komponental təhlili" adlı məqaləsində məhz birbaşa bu ifadə vasitələrinin qoşa işlənərkən ayrı-ayrılıqda hansı ifadə vasitəsi ilə ifadə olunmasından bəhs etmişdir. Həmin siyahıya modallığın aşağıdakı ifadə vasitələri aid edilmişdir:

modal feil+ modal ifadə
modal feil+inversiya
şəkil kateqoriyası+inversiya
modal feil+şəkil kateqoriyası
modal söz+modal feil
modal feil+feilin şəkil kateqoriyası+inversiya
modal ifadə+feilin şəkil kateqoriyası+inversiya
modal feil+modal söz+feilin şəkil kateqoriyası

Azərbaycan dilində xəbər şəklinin modal modifikasiyaları modal sözlərdən başqa, ədat, vurğu və intonasiyanın köməyi ilə ifadə oluna bilər. [3, s.34] Bu ifadə vasitələrindən hər hansı ikisinin eyni bir cümlə tərkibində işlənməsi qoşa modallığa gətirib çıxarır. Azərbaycan dilində feilin xəbər şəkli heç bir modal söz və vasitə olmadan öz morfoloji strukturu ilə subjektiv modallıq ifadə edir. Yalnız modal feillər deyil, modallığın eyni cümlədə işlənən digər ifadə vasitələri də qoşa modallıq yaradır. Məsələn,

Sözsüz, bizim olacaq, gec-tez qələbə!

Bu cümlədə həm modal söz (sözsüz), həm də inversiyanın baş verməsi qoşa modallıq əmələ gətirmişdir.

Açılmır ki, açılmır düyünü bu torpağın!

Bu nümunədə isə modallıq modifikasiyasının üç modal vasitə ilə formalaşdığı danılmazdır. 1. Inversiya 2. Inkar modallığı 3. **Ki** ədatı

Kaş, kor olaydı gözlərim, bir də görməyəydi səni!

Bu cümlədə isə "kaş", "bir də" modallıq ifadə edən sözlərin və feilin arzu şəklinin işlənməsi, inversiyanın baş verməsi qoşa modallığın əsas əlamətləridir.

Ingilis və Azərbaycan dillərində modallıq kateqoriyasının qarşılıqlı müqayisəli təhlilinə dair aparılan tədqiqat işlərindən belə nəticəyə gəlmək olar ki, modallıq universal bir kateqoriya olub bütün dillərdə, o cümlədən Azərbaycan və ingilis dillərində də mövcuddur. Bu dillərdə modallıq kateqoriyası müxtəlif ifadə vasitələrinə malik olsalar da onlar arasında oxşar və fərqli cəhətlər mövcuddur. Hər iki dildə modallıq kateqoriyası dilçilərin diqqətini cəlb etmiş və onların tədqiqat obyektinə çevrilmişdir.

Ədəbiyyat

1. Abbasova E.M. Azərbaycan və ingilis dillərində predikativlik və modallıq (Azərbaycan və ingilis dillərinin materialları əsasında). Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2011, 21 s.
2. Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri. Bakı: Maarif, 1989, 364 s.
3. Cahangirov F. İngilis və Azərbaycan dillərində modallığın struktur-semantik tədqiqi (müqayisəli-tipoloji tədqiqat). Bakı: Elm, 2005
4. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1973, 358 s.
5. İsmayılov R. Bədii mətnin strukturunda subyektiv-qiymətləndirici modallıq (ingilisdilli nəsr nümunələri əsasında). Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: Azərbaycan Dillər Universiteti, 2007, 22 s.
6. Qaraşova Y. İngilis və Azərbaycan modallığın struktur-semantik tədqiqi // Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin elmi məcmuəsi, Bakı, №10, sentyabr, 2008, s. 384-391 və s.
7. Mürsəlova M. İngilis dilində modal feillərin funksiyaları // Filologiya məsələləri, №6, 2019, s.148
8. Musayev O. İngilis dilinin qrammatikası. Bakı: Maarif, 1979, 360 s.
9. Müslümova G. İngilis və Azərbaycan dillərində modallıq intonasiyasının qarşılıqlı müqayisəli tədqiqi. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: Bakı Slavyan Universiteti, 2013, 20
10. Nuriyeva S.T. Müasir ingilis dilində inversiya modallıq kateqoriyasının ifadə vasitəsi kimi // Filologiya məsələləri, №14, 2022. s. 191-201
11. Nuriyeva S.T. Qoşa modallıq // ADU, Elmi xəbərlər, Bakı-2010, №5, səh. 102-112.
12. Nuriyeva S.T. Müasir ingilis dilində qoşa modallıq gələcək zamanın ifadə vasitəsi kimi. Bakı, AMEA,Tədqiqlər I, 2019.

Lüğətlər

13. ABBYY lingvo

Internet saytları

14. https://nedir.az/modalliq-sozunun-menasi
15. http://ek.anl.az/lib/item?id=chamo:216938&theme=e-kataloq

РЕЗЮМЕ

О ВЗАИМНОМ СРАВНИТЕЛЬНОМ АНАЛИЗЕ КАТЕГОРИИ МОДАЛЬНОСТИ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

Нуриева С.Т.

Ключевые слова: *модальность, двойная модальность, модальный глагол, инверсия, модальные слова*

В статье говориться о научных исследованиях, проведенных по взаимному сравнительному анализу категории модальности в английском и Азербайджанском языках, особенно об исследованиях, написанных по модальности в Азербайджанском языкознании. Определяются отличительные и сходные черты средств выражения модальности в сравниваемых языках. В статье также упоминаются исследования об инверсии как одном из средств выражения модальности. Также дается анализ исследований дуальной модальности и ее основных признаков.

SUMMARY
ON THE COMPARATIVE ANALYSIS OF THE MODALITY CATEGORY IN ENGLISH AND AZERBAIJANI LANGUAGES
Nuriyeva S.T.

***Key words**: modality, double modals, modal verbs, inversion, modal words*

The article deals with about the scientific research conducted on the mutual comparative analysis of the category of modality in English and Azerbaijani languages, especially the research works written on modality in Azerbaijani linguistics. Different and similar features of means of expression of modality in the compared languages are analyzed. The article also mentions researches about inversion being one of the means of expression of modality. Analyzes are also given on the research works on dual modality and its main features.

DÖVLƏTIN İNKİŞAFINDA TƏHSİLİN VƏ MİLLİ–MƏNƏVİ DƏYƏRLƏRİN ROLU

Paşayeva Səidə Vasif
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
saida.74@list.ru

***Açar sözlər**: təhsil, inkişaf, dəyərlər, milliyyət, əxlaq.*

İnsanın həyatını işıqlandıran, təbiət və cəmiyyətdəki mübarizəsinə kömək edən, onu qələbəyə aparan bir qüvvə vardir. O, da elmdir. Maarif, məktəb, təhsil hər bir millətin tərəqqi körpüsü, inkişaf yolu olmuşdur. Azərbaycanın mütəffəkiri, siyasi xadimi N.Nərimanov yazırdı ki, millətin tərəqqisi məktəbdən, məktəbin tərəqqisi isə müəllimdən asılıdır.

Dünyəvi elmə o vaxt yiyələnmək mümkündür ki, ölkənin mütərəqqi üsulla təşkil edilmiş təhsil sistemi olsun. Təhsil fərdin təlim və tərbiyə sistemidir, habelə əldə edilmiş bilik, bacarıq, dəyərlər, təcrübə və səriştələrin məcmusudur. Təhsil sözün geniş mənasında şəxsiyyətin şüurunun, xarakterinin və fiziki qabiliyyətlərinin formalaşması prosesidir. İnsanda bir fərdin təcrübəsi onun ölümündən sonra yoxa çıxmadığı, insanların inkişaf etmiş zehni və ünsiyyət qabiliyyəti sayəsində cəmiyyətdə toplandığı üçün təcrübənin toplanması bu fenomenin bir mədəniyyət kimi formalaşmasına şərait yaratdı. Mədəniyyət bir fərdin təcrübəsi deyil, bütövlükdə cəmiyyətin təcrübəsidir. Təhsil mədəniyyətdə toplanmış bu biliklərin yeni nəsillərə ötürülməsi prosesidir. Hələ Pifaqor qeyd edirdi ki, təhsil belə bir fenomendir ki, onunla insanlarla bölüşmək olar və eyni zamanda onu itirməmək olar. Ümumiyyətlə, insanları heyvanlardan, barbarlardan, azad olanları qullardan, filosofları adi insanlardan fərqləndirən təhsildir.

Tarixi unutqanlıq millətin şərəf və ləyaqətinə ziyan vurur. Milli tariximizi bilmədən, tarixən itirdiklərimizi tənqidi dərk etmədən və əldə etdirklərimizin qədrini bilmədən inkişaf və tərəqqi mümkün deyil. Təhsil bütün dövrlərdə inkişafın başlıca mənbəyi olmuşdur Azərbaycan müstəqillik qazandıqdan sonra təhsil quruculuğunda yeni nailiyyətlər əldə edildi. Bu məqsədlə bir tərəfdən, xarici ölkələrin təhsil sahəsindəki təcrübəsi öyrənildi, digər tərəfdən Azərbaycanda təhsil sahəsində qazanılmış nailiyyətlərin təhlil süzgəcdən keçirilməsi aktuallaşdı. H.Əliyev qeyd edirdi ki, dövlət müstəqillik qazanır və onun əsas göstəricilərdən biri odur ki, təhsil sistemi xalqın, millətin tarixinə, mənəviyyatına və ənənələrinə uyğun qurulur.

Azərbaycanda müasir təhsilinin əsas məqsədi məsuliyyətli, milli ənənələrinə uyğun, azad fikirli, vətənpərvərlik ideyaları dəstəkləyən, təşəbbükarlıqla fərqlənən, geniş dünyagörünüşünə malik insan böyütməkdir. Elə bir şəxsiyyət ki, milli-mənəviyyatı və dəyərləri qorusun, inkişaf etdirsin, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacarsın, nəzəri və praktiki biliklərə yiyələnsin, yaradıcı təfəkkürü və rəqabətə davamlılığı ilə seçilsin.

Bu istiqamətdə aparılan işdə əsas güc təhsilin üzərinə düşür. Təlim prosesində bilik və bacarıqları verməklə yanaşı insanlarda sivil dəyərlərə əsaslanan vətəndaş təfəkkürü formalaşdırmaq, milli və dünyəvi dəyərlərə hörmət hissini aşılamaq, ailə, cəmiyyət və dövlət qarşısında duran hüquq və vəzifələrini öyrətmək durur. Müasir dövrdə bu məsələlərə xüsusi önəm vermək zəruriyyəti yaranıb. Avropa təhsilinə inteqrasiya olunan Azərbaycan təhsili üçün milli və ümumbəşəri dəyərlər, şəxsiyyətin azad inkişafı, insan hüquqları və azadlıqları, onların sağlamlığı və təhlükəsizliyi, ətraf mühitə və insanlara qayğı və hörməti, tolerantlıq və dözümlüyü prioritet kimi önə çəkilməsə ali vəzifələri həyata keçirmək mümkün olmaz.

Bu gün milli-mənəvi dəyərləri qoruyub saxlamaq vacib məsələlərdən biridir, çünki hər keçid dövründə milli-mənəvi dəyərlər sistemində boşluqlar yaranır. Bu da, öz növbəsində, xalqa xas olmayan xüsusiyyətlərin təbliq edilməsilə əlaqədar milli-mənəvi dəyərlərinin rolunu və yerini azaldması ilə nəticələnir. Məhz ona

görə də onlara daha da diqqətlə yanaşmaq və dövlətin gələcəyi təşkil edən gənclərin arasında təbliq etmək maarifçilər üçün ən vacib məsələyə çevrilir.

Hər bir dövrün astanasında milli dəyərlərin formalaşması və inkişafı zəruri hadisəyə çevrilir. Bu cür meyllərin möhkəmlənməsinə cəmiyyətin müasirləşməsi, sənayeləşməsi adlanan, bir-biri ilə sıx əlaqədə olan və, xüsusən də Avropa ölkələrində özünü göstərən, paralel inkişaf edən bir neçə dünyəvi proseslər səbəb olmuşdur. Yəni, hadisələrin əsas səbəbləri iqtisadiyyatda islahatların aparılması, dünya dövlətlərin siyasi münasibətlərin dəyişdirilməsi və elmlərin inkişafı olmuşdur.

Bu cür dəyişikliklər Azərbaycandan da yan keçə bilməzdi. Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanda hər bir yeni başlanan dövr yeniliklərlə zəngindir. Yeniliklər Azərbaycana təsiri daha da əhəmiyyətli rol oynayır, çünki dövlət Avropa və Asiya qitələrin qovşağında yerləşdiyindən ona gösətərilən təsir dövlətdə baş verən islahatların kəskin keçməsi ilə müşahidə edilir.

Onu qeyd etmək vacibdir ki, hər bir yeni tarixdə keçmişdə baş verən hadisələrlə sıx bağlılığı var. Məhz buna görə də müasir Azərbaycanda ideoloji və iqtisadi baxımından baş verən dəyişikliklər XX əsrin əvvəllərində də aparılan dəyişikliklərlə demək olar ki, eyniləşdirilir.

Məlumdur ki, XX əsrin əvvəllərində milli ideologiyanın yaranmasında və inkişafında dövrün bir neçə maarifçi mühüm rol oynamışdır. Aparılan tədqiqatlarda onlardan Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun və M.Ə.Rəsulzadənin adlarına daha çox rast gəlmək olar. Bu maarifçilər, demək olar ki, Azərbaycan milli ideologiyanın təşəbbüskarları hesab olunur.

Məhz onların təşəbbüsu ilə milli ideologiyanın əsaslarının formalaşması və inkişaf etdirilməsi üçün zəmin yaradılmışdır. Bir sözlə. milli ideologiyanın əsasında nə durur sualına cavab ancaq belə ola bilər. Bu ideoloji sistemin əsasında müstəqil və azad düşünən vətəndaş cəmiyyəti qurması durur. Azərbaycançılıq ideologiyası isə nədir? Bu daha çox ana dilini, milli mənəviyyatla bağlı dəyərləri birləşdirərək maarifpərvər fikirlər vasitəsilə yeniliyə doğru irəliləmək deməkdir.

Təbii ki, onu da qeyd etmək lazımdır ki, milli-mənəviyyatla bağlı dəyərlər etnik və dini mənsubiyyatı ilə sıx bağlıdır. Bundan başqa, ideoloji baxımından dinin tarixi rolunundan da imtina etmək mümkün deyil. İslam dini və onunla bağlı dəyərlər xalqından ayrılmazdır, əsrlər boyu azərbaycanlıların inkişafına güclü təsir etmişdir.

XX əsrin əvvəllərində bütün bəşəriyyətini xarakterizə edən fakt odur ki, əksər inkişaf etmiş ölkələrdə dövlətin inkişafında dünyəvi xarakterli olmasına cəhd göstərməsi idi. Dünyəvi dövlətin formalaşması istiqamətlərində vacib məsələlərdən biri milli və dini dəyərlərinə baxışların dəyişməsi və bəzi hallarda ümumiyyətlə onlardan imtina etməsidir. Milli dəyərlərin qorunması, saxlanması mühüm məsələlərdən biridir. Xalqın mənəvi dünyasını zənginləşdirən, tarixini və mədəniyyətini ucaldan milli-mənəvi dəyərlər millətin birliyini təmin edir. Dövlətin ideologiyasında fikir ayrılığı təbii ki, Azərbaycanda böyük əhəmiyyətini kəsb edən islam dininə və dinlə bağlı dəyərlərinə əhali arasında, xüsusilə, cəmiyyətin ziyalı təbəqəsini təşkil edən insanların münasibətin dəyişməsinə səbəb olmuşdur. Bu cür hadisələr daha kəskin və dərin özünü göstərmişdir. Maarifçi hərəkatın nümayndələrinin islam dini haqqında irəli sürdüyü fikirləri bunu bir daha təsdiqləyir.

XX əsrin əvvəllərində milli ideologiyanın demək olar ki, əsas hissəsini təşkil edən milli-mənəvi dəyərlərin tərkibində dini–mənəvi dəyərlərin rolu haqqında mübahisələr cəmiyyətin maarifçi təbəqəsinin diqqət mərkəzində olmuşdur. Azərbaycan Demokratik Respublikasının yaradıcısı M.Ə.Rəsulzadə demokratik və dünyəvi dövlət quruculuğu yolunda Azərbaycanda din dövlətdən ayrı olmasının tərəfdarı olmasına baxmayaraq, dini dəyərləri xalqın mənəviyyatından və ideologiyasından ayrılmaz olduğunu qeyd edirdi. Bir sözlə, milli-mənəvi dəyərlərimizin demək olar ki, əsas hissəsi təşkil edən islam dinin dəyərləri dövlət tərəfindən dəstəklənməli və inkişaf etdirilməlidir.

Ulu öndər Heydər Əliyev xalqın və islam dini dəyərlərini Azərbaycan xalqının milli sərvəti hesab edərək deyirdi: “İslam dini yüksək mənəvi dəyərlərə malik olan birlikdir. İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o dini mənsubiyyədən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir” [1].

Bunu qeyd etmək lazımdır ki, dinlə yanaşı, xüsusi yer ana dili tutur. O, da milli dəyərlərinin tərkib hissəsidir. Buna görə də təbii ki, ana dilinin inkişafı istiqamətində əhəmiyyətli dərəsəcədə işlər görülüb və indi da görülür. Ümummilli lider Heydər Əliyev Azərbaycan dilini xalqın ən böyük sərvəti hesab edib və bununla əlaqədar olaraq 18 iyun 2001-ci ildə “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” fərman imzalamışdır. O, dövr üçün bu sənəd mühüm əhəmiyyət kəsb edirdi.

Heydər Əliyevin qeyd edirdi: “Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik”[1].

Milli mənəvi dəyərlərin rolu və əhəmiyyəti əsrin astanasında daha da artır və bu gün də müstəqil Azərbaycan Respublikasının çətin, keşməkeşli dövründə milli-mənəvi dəyərlərin bütün sahələrində qorunması dövlətin inkişafı və zənginləşdirilməsi deməkdir..

Ədəbiyyat

1. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002
2. Mərdanov M. Azərbaycan təhsil tarixi. Bakı: Təhsil, 2012
3. Rüstəmov F.A. Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri. Bakı, 1998

РЕЗЮМЕ

РОЛЬ ОБРАЗОВАНИЯ И НАЦИОНАЛЬНО - ДУХОВНЫХ ЦЕННОСТЕЙ В РАЗВИТИИ ГОСУДАРСТВА

Пашаева С.В.

Ключевые слова: *образование, развитие, ценности, национальность, нравственность.*

Образование и развитие два зависящих друг от друга понятия: одно по сути своей определяет другое. Особенное значение они приобретают в период интенсивных изменений во всех областях. Вопрос ценностей, в том числе национальных, находится в центре внимания. Рассматривается проблема национальных и нравственных ценностей на рубеже веков и их значение в развитии, как образования, так и государства в целом.

SUMMARY

THE ROLE OF EDUCATION AND NATIONAL - SPIRITUAL VALUES IN THE DEVELOPMENT OF THE STATE

Pashayeva S.V.

Key words: *education, development, values, nationality, morality.*

Education and development are two mutually dependent concepts: one essentially determines the other. They acquire special significance in a period of intense changes in all areas. The question of values, including national ones, is in the center of attention. The problem of national and moral values at the turn of the century and their importance in the development of both education and the state as a whole are considered.

MƏDƏNİ DƏYİŞİKLİKLƏR KONTEKSTİNDƏ TƏHSİLİN ROLU

Pənahova İlkanə Mübariz qızı

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji kolleci, Bakı, Azərbaycan

panahovae@yahoo.com

Açar sözlər: *mədəniyyət, mədəni dəyişiklik, təhsil, institusionallaşma, kulturasiya*

İctimai həyatın məhsulu kimi qəbul edə biləcəyimiz mədəniyyət zamana və məkana görə dəyişə bilən bir ünsürdür. Beləliklə, mədəniyyət anlayışı dəyişməyə açıq dinamik bir anlayışdır. Köhnə və yeni kontekstdə mədəniyyətin transferini göstərən akkulturasiya öyrənilmiş və öyrədilmiş bir prosesdir. Beləliklə, köhnə ilə yeninin sintezi nəticəsində yaranan fərqlər mədəni dəyişikliklər baxımından araşdırılır. Lakin bu dəyişikliyin arzuolunan olmasında təhsilin böyük rolu var. Spiral kimidir. Həm mədəni dəyişikliklər, həm də təhsil mədəni dəyişikliklərə təsir edən ölçülərə malikdir. Çünki cəmiyyət bəzi makromədəni strukturlardan ibarətdir. Bu strukturlar digər strukturlardan müstəqil strukturlar deyil. Xüsusilə, təhsilin məzmunu və ölçüləri siyasət, iqtisadiyyat və din kimi mədəni strukturların vəziyyətinə görə dəyişə bilər.

Maks Veber sosial münasibətlər və bağlılıqlar çərçivəsində insan hərəkətləri və davranışları ilə məşğul olurdu. Sosial münasibətlər tərəflər arasında razılaşmalardan yarana bilər və ya kənar bir qüvvə tərəfindən tətbiq oluna bilər. Veber iddia edir ki, bütün sosial institutlar istər tarixdə şaquli inkişaf baxımından, istərsə də indiki mövcud şəraitdə ideal və mücərrəd tiplərə endirilə bilər.

Sosial həyatda bütün amillər bir-birinə qarşılıqlı təsir göstərir. İqtisadi münasibətlərin dinə və digər ictimai münasibətlərə böyük təsiri olduğu kimi, məsələn, hər bir din iqtisadi və sosial əxlaq yaradır. Bütün bu arzu olunan dəyişikliklərin həyata keçirilməsində təhsil mühüm rol oynayır.

Təhsil fərdlərin gələcəkdə ictimai quruluşda alacaqları statusu müəyyən etmək baxımından çox əhəmiyyətlidir. Veberə görə təhsilin əsas vəzifəsi fərdləri və qrupları gələcəkdə insanın ictimai quruluşda çatacağı yerə çatmağa hazırlamaqdır. Başqa sözlə, təhsil, bürokratiya və sosial təbəqələşmə içərisində fərdləri və qrupları gələcəkdə tutacaqları yerə hazırlamaq işidir.

Cəmiyyət həm maddi, həm də mənəvi elementlərdən ibarət bir bütövdür. Cəmiyyətin maddi varlığı cəmiyyətin qavrayışına, inanclarına və dəyərlərinə əsaslanır. Başqa sözlə, görünən maddi dünyamızın və davranışlarımızın altında onların formalaşmasına imkan verən mədəni kodlar var. Bu mədəni kodlar

şəxsiyyətin və cəmiyyətin hərəkət yollarını müəyyən edən, xaosa səbəb olmayacaq bir xəritə və kompasdır. Bu kontekstdə mədəniyyət və onun tərkib hissələri çox önəmlidir [5]. Mədəniyyətin mühüm komponentlərindən biri təhsildir.

Ümumi istifadə sahəsi olan təhsil mədəniyyətin ən mühüm elementlərindən biridir. İnsana və cəmiyyətə birbaşa funksiyaların verilməsi bu inkişafın səbəblərindən biri sayıla bilər [2]. Gökalpın intizam olaraq qəbul etdiyi təhsil anlayışı, cəmiyyətin fərdlərə qazandırmaq istədiyi davranışdır. Təhsil vasitəsilə cəmiyyətin bir üzvü olan fərdlə rastlaşırıq.

Bütün anlayışlarda olduğu kimi, təhsil anlayışında da geniş və dar səlahiyyətlər kimi müxtəlif tərifiər verilmişdir. Geniş mənada təhsil "təbiətin, sosial institutların və digər insanların ağlımıza və ya iradəmizə göstərə biləcəyi təsirlər" mənasında istifadə olunur. Təhsilin tərifi bu qədər geniş saxlandıqda, yaşadığımız cəmiyyətin institutlarından gələn təsirlər təhsildir, eyni zamanda qanunlar, siyasi idarəetmə formaları, istehsal texnikalarıdır [1]. Təhsil sosial həyatın hər bir elementindən təsirlənir.

Təhsilin dar tərifinə nəzər saldıqda, o, təhsil müəssisələrinin köməyi ilə insanlardan gələn bilavasitə təsirləri ətraf mühit elementlərinin təsirlərindən fərqləndirərək aradan qaldıra bilməkdir [1]. Təhsil fərd və cəmiyyət üzərində bir növ filtr görür.

Dürkheimdən ilham alan bu yanaşmaya görə, təhsil hələ ictimai həyata hazır olmayanlara yetkin nəslin tətbiq etdiyi təsirdir. Təhsilin məqsədi həm bütövlükdə siyasi icmanın, həm də xüsusi olaraq bağlı olduqları xüsusi peşəkar dairənin uşaqdan tələb etdiyi müəyyən miqdarda fiziki, intellektual və əxlaqi vəziyyətləri yaratmaq və inkişaf etdirməkdir [1]. Bunun da cəmiyyətin mədəni həyatı ilə birbaşa əlaqəsi var.

Müasir cəmiyyətlər Durkheim tərəfindən "cəmiyyət tərəfindən yaradılmış, hər kəsin öz şəxsiyyətini inkişaf etdirməli və öz sosial funksiyasını görməlidir [2]. Buna uyğun olaraq təhsil insanlara bu funksiyanı təmin edəcək mühüm sosial institutdur. Bu mənada təhsil fərdi əsasda müasir cəmiyyətin gözləntilərini yerinə yetirəcək sosial funksiyaya malikdir. Müasir cəmiyyətdə yaşamaq üçün lazım olan keyfiyyətləri ancaq təhsillə əldə etmək olar.

Durkheim üçün təhsil sosial prosesdir və hər bir cəmiyyətin öz təhsil müəssisələri var. Hər cəmiyyətin özünə uyğun əxlaq sistemi olduğu kimi, hər cəmiyyətin də öz təhsil sistemi vardır [2]. Buna görə də mədəniyyət və hər bir cəmiyyətin dəyər və normalarından qidalanan təhsil sistemi arasında sıx əlaqə mövcuddur.

Təhsilin tərifi verildikdə, məktəbin vəzifəsi nədən ibarət olduğu soruşulduqda, məzmunu pedaqogika prinsiplərinə uyğun olaraq müəyyən edildikdə, həmişə mədəniyyət anlayışı ön plana çıxır. Bunlara əsaslanaraq, fəlsəfi, sosioloji və psixoloji tədbirlərə əsaslanan tədris proqramları tərtib edilərkən mədəniyyət anlayışı nəzərə alınır. Cəmiyyətin məqsədləri, sosial faydalar, iqtisadi və texnoloji dəyişiklik kimi mövzular mədəni elementlərlə əlaqədədir [6]. Başqa sözlə, sosial həyata aid olan bütün elementlər cəmiyyətin mədəni həyatı ilə sıx bağlıdır.

Sosial sistemlərdə baş verən mühüm hadisələr ani ehtiyaclara və bu ehtiyacların qarşılanmasında bəzi problemlərə səbəb olur, bu problemlər təhsil də daxil olmaqla bütün qurumlara təsir edir və onları dəyişməyə məcbur edir. Cəmiyyətin bir parçası olan təhsil də bütün sosial sistemlə bağlıdır. Təhsili davam edən sosial sistem üçün müəyyən funksiyaları yerinə yetirən bir alt sistem kimi də görmək olar [3]. Bütün sosial sistemi nəzərə alsaq, cəmiyyətin məqsəd və ehtiyacları təhsil sisteminin funksiyalarında və bu funksiyaları yerinə yetirmək üçün yaratdığı təhsil proqramlarında da öz əksini tapır.

Yuxarıda qeyd edildiyi kimi, mədəniyyət dəyərlərin, normaların və mənaların bütövlüyünə aiddir. Bu baxımdan mədəniyyətin dəyərlərdən qidalanan xüsusiyyəti var. Cəmiyyətdə formalaşan bu dəyərlərin cəmiyyət tərəfindən mənalı bir bütövlük təşkil etməsi üçün onların bir vərdiş və ya ənənə ətrafında davamlılığını təmin etmək lazımdır. Cəmiyyətin vərdişləri və ya ənənələri öyrənilən və öyrədilən bir prosesi ifadə edir. Öyrənilən və öyrədilən bu prosesin formal və arzuolunan olmasında təhsilin böyük rolu var.

İnsanların və cəmiyyətlərin həyat formaları dəyişdikcə, təkmilləşdikcə və transformasiya olunduqca dəyişiklik həm qaçılmazdır, həm də zəruridir. Cəmiyyət və sosial institutlar daim cavab verməli və ya aradan qalxmalı olan problemlərlə üzləşirlər. Fərdlər və cəmiyyətlər həyatın demək olar ki, hər bir sahəsində baş verən bu dəyişikliklərin təsiri altında davamlı olaraq dəyişir və öz dəyərlərində, davranışlarında və həyat tərzlərində müxtəlif dəyişikliklər edirlər. Bu dəyişiklik prosesindən digər sosial sahələr kimi təhsil də təsirlənir. Bu kontekstdə təhsildə dəyişikliyi qaçılmaz edən bir çox ümumi və ya xüsusi inkişaflar var. Bunlar: informasiya partlayışı, biliyin mahiyyətinə dair fəlsəfi baxışların rəngarəngliyinin artması, beynin yeni sərhədlərinin açılması, şagird və müəllimlərin davranışında dəyişiklik, münasibət və dəyərlərin dəyişməsi, bilik və bacarıqların artması, müxtəlif sosial seqmentlərin tələbləri, işçi qüvvəsinin xarakterinin dəyişməsi, iş həyatının keyfiyyətinin dəyişməsi və məhsulların sürətlə qocalmasıdır.

Təhsil sosial quruluşun ən əsas institutlarından biridir. İctimai quruluşun bir hissəsi olan təhsili sosial quruluşun digər hissələrində baş verən dəyişikliklərdən təcrid etmək mümkün deyil. Təhsildə

başlanan dəyişiklik, dəyişmə istiqamətində ictimai quruluşun digər hissələrinə də təsir edir və digər hissələrdəki dəyişikliklərin təsirlərinə daim açıqdır [4]. Bu aspekti nəzərə alsaq, sosial dəyişikliklə təhsil arasında qarşılıqlı əlaqə mövcuddur.

İnkişaf etməkdə olan ölkələrin kortəbii, müsbət sosial dəyişiklikləri yaşamalarını gözləmək üçün uzun müddət lazımdır. Bu ölkələrdə sosial dəyişikliklərin uğurla həyata keçirilməsi üçün plan və proqram lazımdır. Əks halda, bir-birinə uyğun gəlməyən müxtəlif problemlərə səbəb ola biləcək vəziyyətlər ola bilər.

Bununla belə, əgər sosial dəyişiklik səyləri planlaşdırılırsa, bu dəyişiklik sosial inkişaf kimi xarakterizə edilə bilər [1]. Cəmiyyətdəki dəyişikliyə nəzarəti təmin edən əsas element təhsildir.

Sosial dəyişiklik və təhsil arasında mürəkkəb əlaqə var. Bu mürəkkəb münasibət sosial qarşılıqlı əlaqə çərçivəsində formalaşır və sosial hadisələrin gündən-günə sürətlənməsi ilə gündən-günə daha mürəkkəb bir görünüş qazanır. Bununla belə, sözügedən mürəkkəblik daha da artır, çünki təhsil bir-biri ilə ziddiyyət təşkil edən iki ayrı funksiyaya malikdir, məsələn, mədəni dəyərləri qorumaq və saxlamaq və dəyişikliklərə töhfə vermək. Bir tərəfdən mədəni yığımın mühüm xüsusiyyətlərinin yeni nəsillərə ötürülməsi, digər tərəfdən təhsil proseslərinin və təhsil proqramlarının dəyişikliyə uyğunlaşdırılması təhsilin daim üzləşdiyi problemlər sırasındadır [3].

Cəmiyyət mədəniyyət olduğunu aşkar edən əsas elementdir. Mədəniyyət kollektiv hadisə olduğundan o, cəmiyyətin dəyərlərindən, normalarından və mənalarından qidalanır. Mədəniyyəti təşkil edən dəyərlər, normalar və mənalar sistemi cəmiyyətin vərdişlərinin və ya ənənələrinin məhsuludur. Ona görə də mədəniyyət elementi üçün ondan uzun müddət ərzində cəmiyyət tərəfindən istifadə edilməlidir.

Cəmiyyətlər mədəni elementlərin davam etdirilməsinə meyl göstərirlər. Bu istiqamətdə akkulturasiya elementi meydana çıxır. Akkulturasiya sayəsində cəmiyyətin vərdişlərini və ya ənənələrini tədris və ya öyrənmə nəticəsində sonrakı nəsillərə ötürmək mümkündür. Bununla belə, akkulturasiya prosesi keçmişin köçürülməsi ilə eyni şəkildə getmir. Burada köhnə ilə yeninin sintezindən yaranan yeni bir vəziyyət yaranır. Cəmiyyətlərdə yavaş-yavaş baş verən bu dəyişiklik mədəni dəyişikliklər kontekstində müzakirə edilir.

Sosial quruluşu təşkil edən qurumlar var. Veber yanaşmasına görə, cəmiyyət din, iqtisadiyyat, siyasət, təhsil və hüquq kimi sosial institutlardan ibarətdir. Hər bir qurum öz sahəsi daxilində məna birliyi yaratsa da, digər sosial institutlarla da əlaqədədir. Başqa sözlə desək, sosial institutların özlüyündə heç bir mənası yoxdur. Mədəniyyətin strukturuna görə ictimai strukturlar daxilində birlik mövcuddur. Bununla belə, cəmiyyətlər zamanla dominant qurumlar ətrafında digər institutları formalaşdırırlar. Məsələn, din dominant institutdursa, digər sosial institutlar da buna uyğun formalaşır. İqtisadiyyat dominant bir qurumdursa, digər sosial institutlar da iqtisadiyyatla əlaqələndirilərək formalaşır. Bu qurumlar arasında siyasət, iqtisadiyyat və din hakim qurum olma xüsusiyyətinə malikdir. Təhsil və hüquq kimi digər sosial institutlar əsas elementlərə görə formalaşır. Ona görə də cəmiyyətlərin təhsil sistemləri hakim mədəniyyətlərin təsiri altında formalaşır.

Cəmiyyətlər zamanla dəyişə bilər. Çünki cəmiyyət dinamik bir varlıqdır və dəyişikliklərə açıqdır. Məhz təhsil vasitəsilə cəmiyyətdə zamanla baş verən bu dəyişikliklər arzu olunan davranışlarla əldə edilir. Cəmiyyətlər mədəni dəyişiklikləri planlı və nəzarətli etmək üçün təhsil sistemlərindən istifadə edirlər. Təhsil sistemi ilə fərd və cəmiyyət həm akkulturasiyaya, həm də dəyişmə miqyasına uyğun, cəmiyyətin gözləntilərinə uyğun olaraq yetişdirilir.

Hər bir cəmiyyətin fərqli dəyərlər sistemi, normaları və mənaları var. Bu fərq mədəni elementləri təşkil edən ictimai strukturlarda da fərqliliklər yaradır. Buna görə də təhsil, mədəniyyətin formalaşması və dəyişməsi baxımından mühüm elementdir. Təhsil həm mədəniyyətin davamlılığını təmin etmək, həm də sosial dəyişikliyi arzu olunan ölçülərdə idarə etmək baxımından nəzərə alınan mühüm sosial quruluşdur.

Ədəbiyyat

1. Bilgiseven, A. K. (1987). Eğitim sosyolojisi: kavramlar-teoriler-eğitim yolu ile kalkınmanın esasları, İstanbul: Türk Dünyası Araştırmaları Vakfı Yayınları.
2. Doğan, İ. (2011). Eğitim sosyolojisi, Ankara: Nobel Yayınları.
3. Erol, N. (2011). Toplumsal değişme ve eğitim: Temel ilişkiler, çelişkiler, tartışmalar. Gazi Akademik Bakış Dergisi, 5 (9), 109-122.
4. Özdemir, S. M. (2011). Toplumsal değişme ve küreselleşme bağlamında eğitim ve eğitim programları: Kavramsal bir çözümleme. Ahi Evran Üniversitesi Eğitim Fakültesi Dergisi, 12 (1), 85-110.
5. Türkkahraman, M. ve Tutar, H. (2009). Sosyal değişme, bütünleşme ve çözülme bağlamında toplumda farklı kültür ve anlayışlarının yeri ve önemi. Alanya İşletme Fakültesi Dergisi, 1 (1), 1-16.
6. Ültanır, G. (2003). Eğitim ve kültür ilişkisi: Eğitimde kültürün hangi unsurlarının genç kuşaklara aktarılacağı kaygısı. Gazi Üniversitesi Eğitim Fakültesi Dergisi, 23 (3), 291-309.

РЕЗЮМЕ
РОЛЬ ОБРАЗОВАНИЯ В КОНТЕКСТЕ КУЛЬТУРНЫХ ИЗМЕНЕНИЙ
Панахова И.М

Ключевые слова: *культура, культурные изменения, образование, институционализация, аккультурация*.

В статье проводится обзор литературы и подчеркиваются культурные изменения и образовательный аспект, связанный с концепциями культуры, институционализации и аккультурации. Культурная жизнь, которая является осязаемым индикатором обществ и социального существования, динамична и претерпевает изменения с течением времени. Изменения, происходящие в жизни общества, реализуются обучением наряду с процессом аккультурации. Потому что каждое общество хочет контролировать изменения в своей культурной жизни через образование. Образовательные процессы создают желаемые изменения в человеческой и общественной жизни. Однако, когда вопрос рассматривается с точки зрения культурных изменений и образования, как образовательные культурные изменения, так и культурные изменения влияют на образовательные процессы. Поэтому культурные изменения и образование предстают как два элемента, которые поддерживают и подпитывают друг друга.

SUMMARY
THE ROLE OF EDUCATION IN THE CONTEXT OF CULTURAL CHANGE
Panahova I.M

Keywords: *culture, cultural change, education, institutionalization, acculturation*

The theme of this article is to explore the role of education in the context of cultural change. The article conducts a literature review and emphasizes cultural changes and the educational dimension related to the concepts of culture, institutionalization, and acculturation.Societies and cultural life, which is the concrete indicator of social existence, are changing dynamically. Changes in the life of the community are realized through learning together with the process of culturing. Every society wants to control the changes in cultural life through education. Because every society wants to control the changes in cultural life through education. Education processes create changes in human and social life. But when it comes to cultural change and education, both education and culture changes and cultural changes affect educational processes. Therefore, cultural changes and education are two elements that support and support each other.

HEYDƏR ƏLİYEVİN MADDİ MƏDƏNİYYƏT ABİDƏLƏRİNƏ GÖSTƏRDİYİ DİQQƏTİN TƏHLİLİ: ŞİMAL REGİONU ABİDƏLƏRİ

Pirquliyeva Günel Firudin qızı
"Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğu, Şabran rayonu, Azərbaycan
gunel.pirquliyeva@bk.ru

Açar sözlər: *Heydər Əliyev, abidə, Çıraqqala, Şabran, Şeyx Cüneyd, Rustov məscidi*

Şanlı tarixi olan Odlar Yurdu - Azərbaycan bəşəriyyətin ən qədim insan məskənlərindən biridir. Dünya sivilizasiyasını zənginləşdirən ölkəmiz dünyanın istər mədəniyyət və incəsənət, istər elm, istərsə də siyasət tarixinə öz töhfəsini vermişdir. Müxtəlif dövrlərin və nəsillərin həyat izləri, tikinti-memarlıq sənətkarlığı, mənəvi-estetik düşüncələri, incəsənəti bu abidələrdə əks olunmuş və zəmanəmizə qədər gəlib çıxmışdır.

Bu nümunələr dərin tarixi özündə əks etdirməklə yanaşı, milyonlarla insanların, xüsusilə gənclərin mənəvi tərbiyəsi işində mühüm əhəmiyyətə malikdir. Bu baxımdan isə maddi mədəniyyət abidələrimizin qorunması, bərpası, tədqiqi, təbliği sahəsində məqsədyönlü tədbirlər görmək və maddi mədəniyyət nümunələrimizi dünya mədəniyyəti xəzinəsində yerləşdirmək çox vacib sayılır. Müəyyən dövrlərə qədər bu işə laqeyd, biganə, səriştəsiz, bəzən isə müxtəlif məqamlar baxımından hətta düşməncəsinə yanaşmalar olmuşdur.

XX əsrin ikinci yarısından başlayaraq isə Azərbaycanın tarixi keçmişinə, maddi-mədəni abidələrinə dövlət səviyyəsində məqsədyönlü və intensiv olaraq qayğı göstərilməsinin təməli qoyuldu. Bu tarixə qədər maddi-mədəni sərvətlərimizə qarşı mövcud olmuş laqeyd münasibətlərin üstündən xətt çəkildi, milli kimliyimizin pasportu olan tariximizə, milli mədəniyyət yaddaşımıza və abidələrimizə doğma yanaşma meydana gəldi.

Belə ki, məhz ümum milli lider Heydər Əliyevin sovet dönəmində - birinci dəfə Azərbaycanda hakimiyyətə gəlişi milli məfkurəmizin, milli yaddaşımızın durulmasında, milli dövlətçilik şüurunun əsasının qoyulmasında yeni epoxanın başlanğıcı oldu.

Heydər Əliyevin xalqımızın keçmişinə, maddi mədəniyyətinə, vətənimizin çox əsrlik tarixinə ürəkdən bağlılığı, onun Azərbaycan adlı "qala"nın müasir dövrdəki azadlığı, istiqlaliyyəti təşəkkülü və təkamülü yolunda apardığı mübarizədə qazanılan qələbələrdə öz əksini tapmışdır. Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə onun böyük qayğısı, köməyi və bilavasitə şəxsi iradəsi sayəsində tarix

və mədəniyyət abidələrinin yenidən qurulması, mühafizəsi, bərpası, tədqiqi və istifadə edilməsi sahəsində respublikada çox faydalı işlər görülmüşdür.

Heydər Əliyev insan əməyi və istedadı ilə yaradılmış bütün maddi və mənəvi sərvətləri bəşəriyyətin təkamülünü, keçmiş olduğu çoxminillik inkişaf yollarını izləmək və həyati həqiqətləri aşkara çıxarıb elmi əsaslarla canlandırmaq üçün vacib tarixi mənbələr hesab edirdi. Bu amili nəzərə alaraq ulu öndər alimlərimizə tövsiyələrinin birində demişdir: "Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır". Xalqımızın tarixinin, yaratdığı mədəniyyət nümunələrinin önəmini aydın şəkildə ifadə edən bu mövqe ümummilli liderin ölkəmizə rəhbərlik etdiyi o dönəmdə milli-mədəni sərvətlərimizin qorunması ilə bağlı qəbul edilmiş qərarlar və tədbirlərdə çox bariz şəkildə, əyani olaraq orta qoyulmuşdur. Bu baxımdan həmin dövrdə qəbul edilmiş qərarlar barədə qısaca qeyd etmək yerinə düşər. [1]

Ölkə başçısının siyasətdən uzaq olan problemlər ilə belə dərindən maraqlanmağı həqiqətən heyrətamizdir. O, təkcə maraqlanmaqla, lazımi göstərişlər verməklə kifayətlənmirdi, mütəmadi olaraq mədəni irsimizə aid obyektləri ziyarət edir, onların vəziyyətini diqqət mərkəzində saxlayırdı.

Azərbaycanın müxtəlif şəhər və kəndlərinə səfəri zamanı Heydər Əliyev daim oradakı memarlıq və mədəniyyət abidələrinin vəziyyəti ilə maraqlanırdı. Onlara xüsusi məhəbbət və qayğı ilə yanaşırdı.

O fəxr edirdi ki, insanlar Azərbaycanın nə qədər qədim və zəngin keçmişə malik olduğunu görüb heyrətə gələcəklər və onu qorumaq üçün əlindən gələni əsirgəmirdi.

Azərbaycan xalqının mədəniyyəti, tarixi və mədəni irsi haqqında saysız hesabsız fikirlər söylənilib və bundan sonra da söylənilməcək, lakin onların heç birində Heydər Əliyevin dediyi kəlamlar olduğu qədər dəqiqlik və hədsiz qürur hissi ola bilməz. [1]

Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə maddi-mədəni irsimizin qorunması,tədqiqi və təbliği işi yüksək inkişaf səviyyəsinə çatmışdır. Məhz onun sayəsində bir çox abidələrimiz YUNESCO-nun mədəni irs siyahısına əlavə edilmişdir.

Heydər Əliyevin elmə olan qayğısı elmi araşdırmalara, tarix, mədəniyyət, arxeoloji və etnoqrafik tədqiqatların aparılması üçün geniş imkanlar yaratdı.Bu qəbildən onun 2003-cü ildə şimal regionunda "Şabran" və "Çıraqqala" qoruqlarının yaradılmasını nəzərdə tutan Sərəncamı imzalaması şabranlılara rayonun qədim tarixi abidələrini qorumaq üçün bir fürsət yaratdı. Atasının yolunu davam etdirən prezident İlham Əliyev cənabları da azərbaycan xalqının zəngin maddi-mədəni irsinin üzə çıxarılması,dərindən və hərtərəfli öyrənilməsi üçün arxeologiya və etnoqrafiya sahəsində araşdırmaların müstəsna əhəmiyyətini qeyd edərək bir çox sərəncamlar imzalamışdır [5]. Bu sərəncamlar Azərbaycanın bir çox bölgələrinə,həmçinin Şabran rayonuna da şamil edilmişdir.

Belə ki, "Çıraqqala" tarixi kompleksi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2003-cü il 23 iyun tarixli 1262 nömrəli Sərəncamına əsasən tarixi qoruq elan edilmişdir.

Daha sonra "Şabran şəhəri" tarix və mədəniyyət abidəsi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2003-cü il 27 sentyabr tarixli 1343 nömrəli Sərəncamına əsasən tarixi qoruq elan edilmişdir.

Nəhayət, "Çıraqqala" və "Şabran şəhəri" tarixi qoruqlarının ərazisi Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2019-cu il 22 oktyabr tarixli 1498 nömrəli Sərəncamına əsasən "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edildi. [6]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 №-li qərarı ilə Şabran rayonu ərazisində yerləşən dünya əhəmiyyətli V-VI əsr sasani dövr memarlıq abidəsi olan, müdadiə məqsədiilə tikilən Çıraqqala dövlət mühafizəsinə götürülmüşdür. Azərbaycanın ən qədim abidələrindən olan "Çıraqqala" tarixi abidəsi Böyük İpək Yolunun qorunması məqsədini daşıyaraq, Gilgilçay müdafiə divarlarının ən yüksək nöqtəsi olaraq, dəniz səviyyəsindən 1232 metr hündürlükdə yerləşir. [2]

Amma qədim mənbələrdə həmin tarixin daha əvvəllərə aid olduğu qeyd edilir.. Əsasən yerli daşlardan və bişmiş kərpicdən düzbucaqlı formasında tikilmiş qlanın hündürlüyü təxminən 150 metr, divarların hündürlüyü təxminən 8-10 metr, qalınlığı isə 3-4 metrdir. Qalanın zindan həbsxanası və ərzaq saxlamaq üçün buzxana anbarı bu gündə qalmaqdadır.

Çıraqqala mərkəzi qala daxil olmaqla 17 bürcdən ibarətdir. Bəhs olunan 17 bürcdən bu günümüzə 3 bürc gəlib çatmışdır. [4] Qalanın ən yüksək nöqtəsindən bir tərəfi Dəmirqapı Dərbənddən, bir tərəfi Beşbarmaq səddinəcən dəniz sahili boyu 100 kilometrə qədər ərazini nəzarətdə saxlamaq mümkündür.

Ulu öndərin layiqli davamçısı olan Prezidentimiz cənab İlham Əliyevin Mədəniyyət sahəsinə və xüsusilə də tarixi mədəniyyət abidələrinə yüksək diqqət göstərməsi nəticəsində 15 yanvar 2019-cu il tarixli 890 № li Sərəncamına əsasən Çıraqqala abidəsində möhkəmləndirmə və bərpa-konservasiya işlərinin görülməsi üçün vəsait ayrılmışdır. 01 may 2019-cu il tarixdən həmin Sərəncama əsasən Çıraqqala abidəsində möhkəmləndirmə və bərpa-konservasiya işlərinə başlanılmışdır və hal-hazırda da bərpa-konservasiya işləri müvəffəqiyyətlə davam etməkdədir.

Əvvəlki görünüşünü saxlamaqla qalada xeyli işlər görülmüşdür. Bərpa-konservasiya işləri aparılarkən qala ərazisində torpaq qazma zamanı müxtəlif formalı eksponatlar,otaqlar, yeni bürclər aşkar edilmişdir.

Arxeoloq İdris Əliyev də Çıraqqala abidəsində olmuş orada gedən bərpa-konservasiya işləri ilə yaxından tanış olmuşdur. İ. Əliyev bərpa-konservasiya işləri zamanı aşakar olunmuş yazılı daşın üzərindəki şəkillərin zərdüştlüyü təcəssüm etdirdiyini söyləmişdir.

Çıraqqalada aparılan bərpa-konservasiya işləri həm də bu ərazinin maraqlı turizm obyektinə çevrilməsinə şərait yaradacaqdır. Həqiqətəndə bu ərazidə turizmin inkişafı üçün əlverişli şərait vardır.

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 nömrəli 14 yanvar 2004-ci il tarixli Sərəncamı ilə şimal regionun ikinci dünya əhəmiyyəti arxeoloji abidəsi olan "Şabran Şəhəri " Tarixi Qoruğunun qalıqlarının konservasiyasına dair Tədbirlər Planı imzalanmışdır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi ilə 2006-cı ildə "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutunda "Şabran şəhəri" tarixi qoruğunun inzibati binasının işçi layihəsi hazırlanmış, 0,12 ha torpaq sahəsi ayrılmışdır. Hər iki qoruqda bərpa və konservasiya işlərinin aparılması məqsədilə layihələr hazırlanmış və həyata keçirilməsi nəzərdə tutulmuşdur

Böyük İpək Yolu üzərində yerəşən, Şabran rayonu Şahnəzərli kəndi ərazisində V əsrə aid Azərbaycanın möhtəşəm qədim şəhərlərindən biri olan Şabran şəhəri iqtisadi, ticarət və mədəni mərkəz kimi daim diqqət mərkəzində olmuşdur. Şəhər Abşeron yarmadasından Dərbənd keçidinə aparan karvan yolu üzərində yerləşir.

Şabranın adı bəzi mənbələrdə müxtəlif formalarda Şaburan, Sabiran, Şapuran, Saturan, Saparan formalarında verilməsinə baxmayaraq şəhərin əsil adı Şabran kimi qalmış, həmin Şabran sözünün mənası Şab-gecə qaranlıq, ran-məkan mənasını verir.

Sara Aşurbəyli "Şirvanşahlar dövləti" adlı əsərində Şabran şəhərinin Sasani şahı tərəfindən salındığını, Şabran 1124-cü il gürcü sənaməsində qeyd olunduğu adı Şəbəran kimi də verilməsindən bu adın mənasının Şapur İran adı ilə uyğunluğundan bəhs edir. [3]

Səfər Aşurovun bildirdiyinə görə, "Şabran şəhəri" Tarixi Qoruğu ilə bağlı aparılan tədqiqatlar Şirvanşahlar dövlətinin, bütövlükdə isə Azərbaycan tarixinin daha dərindən öyrənilməsi baxımından müstəsna əhəmiyyətə malikdir. Şirvanşahlar dövlətinin ailə sərdabəsi, zindan həbsxanası və zərbxanaları Şabran şəhərində olmuşdur. [7]

Şabran şəhər yeri XVII əsrin sonlarına qədər orta əsr Azərbaycan üçün mühüm mədəni-iqtisadi və hərbi-strateji mərkəz rolunu oynamışdır. Tədricən iqtisadi çətinliklərlə qarşılaşan və tez-tez yadellilərin basqınlarına məruz qalan Şabran XVIII əsrin sonlarında tarix səhnəsindən silinmişdir.

Monqol işğalları zamanı həm şəhər, həm də onun ətrafında olan yaşayış yerləri tənəzzül etməyə başlamışdır.Lakin belə strateji mövqedə yerləşən şəhərin hansı səbəbdən tənəzzül etməsi hələ də tam şəkildə aydın deyil. Xatırladaq ki, böyük Azərbaycan şairi Əfzələddin Xaqani (XII əsr) Şirvanşah Əxistanın qəzəbinə düçar olanda Şabran qalasında həbsə atılıb və məşhur həbsiyyə əsərini burada yazmışdır.

Keçən əsrin 30-cu illərindən başlayaraq həyata keçirilən elmi tədqiqatlar və ərazidə aparılan arxeoloji qazıntılar xalqımızın maddi və mənəvi mədəniyyətini əks etdirən zəngin arxeoloji materiallar əldə etməyə imkan vermişdir.

Şabran şəhərinin tarixi mənbələrdə göstərilən 12 qalasından ikisi, atəşpərəstlər məbədi, zərbxana,həbsxana, XI-XIV əsrlərə aid küçələr, sənətkarlıq məhəllələri, 3000-ə qədər numizmatika nümunəsi, arxeoloji ədəbiyyatda analoqu əks etdirilməyən yeni arxeoloji tapıntılar üzə çıxarılmışdır.

980-ci ildə isə AMEA Tarix İnstitutunun təşkil etdiyi Şirvan-Şabran stasionar arxeoloji ekspedisiyasının əsas tədqiqat obyekti məhz orta əsr Şabran şəhər yeri olmuşdur**.**

1983-cü ildə ulu öndərimiz qoruğun ərazisində aparılan qazıntı işlərilə tanış olmuşdur və öz tövsiyyələrini vermişdir. [4] Qazıntılar nəticəsində şəhərin yaşayış evlərinin bünövrəsində lay daşları olduğu və bişmiş kərpicdən tikildiyi aşkar edilmişdir.

Azərbaycanda IX əsrə aid kanalizasiya sistemi ilk dəfə Şabranda açılmışdır. Daş və kərpicdən hörülmüş bu qurğu şəbəkəli və örtülü olmuş, şəhərin mərkəzi məhəlləsi çay ilə birləşmişdir. Şabranlalılar IX-XII əsrlərdə 14 km məsafədən xüsusi tünglər vasitəsilə şəhərə bulaq suyu gətirmişlər. Şabran qızılın əyarının müəyyənləşdirilməsində istifadə olunan məhək daşı ilə məşhur olmuşdur. Şəhərin 70 məhəlləsi və hər məhəllənin özünün məscidi olmuşdur.

Sənətkarlıq yüksək səviyyədə inkişaf edən Şabran şəhərində şirsiz və şirli saxsı qablar hazırlanırdı. Bundan savayı şüşə istehsalı da Şabranda inkişaf etmişdir. Şabran öz çörəyi, düyüsü, və digər məhsulları ilə məşhur olmuş, dünya bazarlarında yüksək qiymətləndirilən ipək və yun parçalar, xalçalar, boyaq maddələri məhz Şabran şəhərindən ixrac edilirdi.

Bundan savayı 1903-cü ildə şimal regionu abidələrinə Quba rayonunun Rustov kəndində yerləşən Rustov məscidi və Qusar rayonun Həzrə kəndində yerləşən Şeyx Cuneyd Türbəsini misal göstərə bilərik. Bu abidələr də Heydər Əliyevin səyi nəticəsində tarixi abidələrin siyahısına əlavə edilib. Belə ki, Rustov Məscidi və Şeyx Cüneyd Türbəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci ildə verdiyi 132 nömrəli qərarı ilə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına salınıb.Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra binadan yenidən məscid kimi istifadə olunmağa başlanılıb.[9]

2008-ci ildə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə «Azərbərpa» Elmi-Tədqiqat Layihə İnstitutunun layihəsi əsasında məscid restavrasiya olunub. Burada pilləkənlər, müəyyən yerlərdə kərpic divar, pəncərələr, qapılar, pəncərə şəbəkələri, taxta tavan, dam örtüyü, çardaq nərdivanı, suvaq örtüyü, ornamentlər, güldəstənin taxta döşəməsi, taxta divarlar və tavan, pəncərələr və s. bərpa olunub. Zəngin maddi və mənəvi mədəniyyət abidələrimiz xalqın ruhunu əks etdirən tarixdir, onun şanlı keçmişi və müasir dövrünün salnaməsidir. Maddi mədəniyyət abidələri minlərlə nəsillərin əməyinin təcəssümü olub, məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafı, texnikanın və texnologiyanın təkmilləşdirilməsi səviyyəsini və xalqın inkişafının hər bir müəyyən mərhələsində onun mənəvi mədəniyyət səviyyəsini əks etdirən bəşəri sərvətdir.

1456-cı ildə Şirvanşahlarla Samur çayı yaxınlığında baş vermiş döyüşdə öldürülən Şeyx Cüneyd tərəfdaşları tərəfindən Həzrə kəndində dəfn edilsə də sonradan Ərdəbilə aparılsada məzarın yerində türbə tikilmiş, həmin türbə 2011-ci ildən dövlət nəzarətinə götürülmüş. 2007-ci ildə işə bərpa və restavrasiya işləri aparılmışdır.[8]

Ümumilikdə Ümummilli lider Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci ildə verdiyi 132 nömrəli qərarı[9] ilə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına Səkinə xanım məscidi, Səkkiz güşəli məscid, Yeddilər qalası, Qusar rayonunda Qala divarlarının qalıqları və digərləri daxil edilmişdir ki, həmin abidələrin restavrasriya və bərpasınünü günümüzdə davam etdirilməsi də həmin sərəncamın verilməsi əlaqədar olmuşdur**.**

Ədəbiyyat

1. Heydər Əliyev və Mədəni İrs, Bakı, 2014.
2. Bakıxanov A.A. Gülüstani İrəm. Bakı- 2000.
3. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı-2006.
4. Bayramlı Z. Arzuları Qovuşlduran Məkan, Bakı-2016.
5. https://www.elibrary.az/docs/QAZET/qzt2009_2567.pdf
6. https://president.az/articles 34531
7. https://azertag.az/xeber/1209118
8. https://granitas.az/seyx-cuneyd-turbesi-hezre-kendi-qusar
9. https://culture.gov.az/medias/media/other/13/tma.pdf

РЕЗЮМЕ

АНАЛИЗ ВНИМАНИЯ ГЕЙДАРА АЛИЕВА К ПАМЯТНИКАМ МАТЕРИАЛЬНОЙ КУЛЬТУРЫ: ПАМЯТНИКИ СЕВЕРНОГО РЕГИОНА

Пиргулиева Г.Ф.

Ключевые слова: *Гейдар Алиев, памятник, Чираггала, Шабран, Могила шейха Джунайда, Рустовская мечеть*

Образцы нашей материальной культуры, отражающие историческое прошлое азербайджанского народа, были уничтожены в годы колониализма и стерты с лица земли. Охрана этих памятников, их популяризация в мире, полная информация об историческом прошлом Азербайджанского государства. Целью написания статьи является исследование деятельности Общенационального лидера, проделавшего большую работу по охране и популяризации наших памятников истории и культуры, выполнявшего свой гражданский долг и восстанавливающего наши памятники. В то же время это способствует возвращению к нашим историчесим корням и является примером приверженности делу. К сожалению, некоторые из этих памятников ушли в историю. Часть тех образцов нашей материальной культуры, которые своей древностью засвидетельствовали столетия, относится к северной зоне. Благодаря его огромной заботе, помощи и прямому личному волеизъявлению в республике за время руководства Азербайджаном Гейдаром Алиевым было проделано много полезных работ в области реконструкции, охраны, реставрации, исследования и использования как международных, так и простых местных памятников. Благодаря совпавшим с этим периодом указам и распоряжениям о реставрационных работах наши материальные памятники культуры стали широко известны в мире и имели большое значение для возрождения туристической отрасли края.

SUMMARY
ANALYSIS OF HEYDAR ALIYEV'S ATTENTION TO THE MONUMENTS OF MATERIAL CULTURE: MONUMENTS OF THE NORTHERN REGION
Pyrgulieva G.F.

Key words: *Heydar Aliyev, monument, Chiraggala, Shabran, Sheykh Chuneyd, Rustov mosque*

Our material culture samples which reflect the historical miniature of the Azerbaijani people, were blown away and destroyed during the years of colonialism, and face erasure from the stage of history. It is the protection of these monuments, their introduction to the world community, and full information about the historical past of the Azerbaijan state. The purpose of writing the article is to investigate the activities of our national leader, who has done great work on the protection and promotion of our historical and cultural monuments, fulfilling his civic duty and restoring our monuments. At the same time, it promotes a return to our ancestral roots and an example of commitment. Unfortunately, some of these monuments have fallen into history. A part of those examples of our material culture, which have witnessed centuries with their antiquity, belongs to the northern zone. Many useful works in the field of reconstruction, protection, restoration, research and use of both international and simple local monuments were done in the republic during the time when Heydar Aliyev led Azerbaijan, thanks to his great care, help and direct personal will. Thanks to the decrees and orders issued on the restoration works that coincided with that period, our material cultural monuments became well-known in the world and were of great importance to the revival of the tourism sector of the region.

AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFI HEYDƏR ƏLİYEVİN SİYASİ VƏ DÖVLƏTÇİLİK FƏALİYYƏTİ İLƏ BAĞLIDIR (1970-2003-cü illər)

Qasımova Flora Bayram qızı
Azərbaycan Dövlət Pedoqoji Universiteti, Azərbaycan, Bakı
Shikarqasimov@mail.ru

Açar sözlər: *təhsil, islahat, tərəqqi, siyasət, proqram*

Azərbaycan təhsilinin səmərəli inkişaf mərhələsi Ümummilli lider Heydər Əliyevin siyasi və dəvlətçilik fəaliyyəti ilə bağlıdır. Müstəqil Azərbaycanın təhsil siyasətində, həyata keçirilən 1970-2003-cü illər mərhələsi elmin, təhsilin əsl tərəqqi və yüksəliş dövrü kimi Azərbaycan tarixinə daxil olubdur. Çoxda uzun olmayan bu illər ərzində Azərbaycanın və onun təhsilinin böyük inkişaf yolu keçməsi dünya miqyasında qəbul olunan reallıqdır. Bu dövrdə qüdrətli ölkəyə çevrilən, beynəlxalq hüquq məkanında öz mövqeyini müstəqil və qətiyyətli şəkildə ifadə edən Azərbaycan, hər bir Azərbaycanlının qürur mənbəyinə çevrilmişdi. Əsası Müstəqil Azərbaycan dövlətinin banisi, ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş quruculuq, milli dövlətçilik siyasəti nəticəsində qısa dövr ərzində dövlətimizin hüquqi-sosial bazası yaranmış, müstəqilliyi möhkəmlənmiş, ölkəmizin dünya birliyinə inteqrasiyası sahəsində mühüm addımlar atılmışdır.

1970-ci ildən başlayaraq Azərbaycanda yüksələn sürətlə inkişaf edən sosial-iqtisadi və mədəni quruculuq işləri başladı [1,s.97]. Bu tarixi misiyanı 34 ildən artıq bir müddətdə uğurla davam etdirən ümummilli lider Heydər Əliyev elm, təhsil və mədəniyyət sahəsində həyata keçirdiyi düşünülmüş tədbirlər bu gün ki, Azərbaycan dövlətinin təhsilinin uğurları üçün geniş zəmin yaradılmasını təmin etmişdir.

Azərbaycanda 1969-ci ilin yayından başlayaraq elm və təhsilin inkişafı daim diqqət mərkəzində olmuş, respublikanın intellektual səviyyəsinin artırılması naminə gənclərə xüsusi qayğı göstərilmişdir. Təhsildə islahatlar sistematik şəkil almış, yeni ali məktəblər və onların filialları yaradılmışdır. SSRİ-nin qabaqcıl ali məktəblərinə azərbaycanlı gənclərin göndəril-məsi kütləvi hal almışdır. 1970-ci ilədək Azərbaycandan digər respublikalara ali təhsil almağa göndərilənlər içərisində azərbaycanlılar 40 faiz təşkil edirdisə, aparılan uğurlu təhsil siyasəti nəticəsində 1976-cı ildə göndərilənlər içərisində azərbaycanlıların say nisbəti 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci ildə 97,6 faizə yüksəlmişdir. Bütün bunlar Azərbaycanın intelektual potensialının artırılması işində böyük nailiyyət idi. Təkcə 1969-1982-ci illərdə respublikadan kənarda- SSRİ-nin 50-dən artıq şəhərinin 135 mülki, 105 hərbi ali məktəblərində Azərbay-canın Xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən 250-dən çox nadir ixtisaslar üzrə 15-mindən çox azərbaycanlı mütəxəssis hazırlanmışdır [2, s.5]. Hələ 70-ci illərdən başlayaraq Azərbaycanda yeni tipli milli kadr bazası yaradılmış, ali məktəblərin həyatında da əsl dönüş baş vermişdir. Belə ki, 1980-cı ildə Azərbaycanda ali təhsil müəssələ-rinin sayı artmış, təhsilin səviyyəsi yüksəlmiş, tədris prosesi yaxşılaşmışdı. Azərbaycanda ali məktəblərin sayı 1969-cu ildəki 12-dən 17-yə çatmışdı. Ölkədə 75 orta ixtisas məktəbi fəaliyyət göstərirdi. Orda 148 ixtisas üzrə mütəxəsis hazırlanırdı [3,s.103-104].

Heydər Əliyevin 1987-ci ildə hakimiyyətdən istefa verməsindən sonra Azərbaycanda təhsilə, elmə qayğı unuduldu. Təhsilimizdə başlanan tənəzzül XX əsrin 80-ci illərinin sonu-90-cı illərin əvvəllərində daha geniş xarakter almışdı. Müstəqillik haqqında tarixi qərarın qəbul olunmasından sonra milli təhsilimizin

inkişafı naminə müəyyən təşəbbüslər göstərildi. 1992-ci ilin sonlarında "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu da qəbul edildi. Bununla bağlı müvafiq əsasnamələrin, normativ aktların hazırlanmasına başlandı. Təhsilin məzmununun yeniləşdirilməsi və digər sahədə də təşəbbüslər edildi. Ancaq görülən bəzi tədbirlərə baxmayaraq 80-90-cı illərdə özünü göstərən geriləmə və tənəzzül 1991-1993-cü illərdə xüsusilə geniş miqyas aldı. Cəmiyyətdə tarixən xüsusi hörmət və nüfuza malik olan məktəbə, müəllimə, ziyalıya ehtiram, oxumağa maraq azaldı. Ölkədən mütəxəssislərin axını başladı. Mənfur qonşularımız olan ermənilər Azərbaycana qarşı irəli sürdükləri əsassız torpaq iddialarına başladılar. Dağlıq Qarabağın, onun ətrafındakı rayonların düşmən tərəfindən işğalı nəticəsində təhsilimizə böyük maddi zərbə dəymiş, 220 körpələr evi-uşaq bağçası, 616 ümumtəhsil məktəbi, 35 məktəbdənkənar tərbiyə müəssisəsi, 11 peşə məktəbi, 4 orta ixtisas təhsil müəssisəsi, 1 ali məktəb filialı [4] darmadağın edilmişdi. Ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kim, elm və təhsil sahəsində də böhran və tənəzzülün qarşısı alındı. Milli təhsil sisteminin inkişaf etdirilməsi üçün əlverişli şərait yarandı. Ulu öndər XX əsrin 70-80-ci illərində ölkədə formalaşdırılmış zəngin elmi-intelektual potensiala istinad edərək özünün təkmil, təhsil konsepsiyasını irəli sürdü. Bu isə təhsilin öz məcrasına düşməsi, inkişaf üçün əlverişli iqtisadi şərait, hüquqi və mənəvi-əxlaqi mühit formalaşdırdı. Azərbaycan təhsilinin 90-cı illərin əvvəllərindən başlayaraq milli əsaslar üzərində Çağdaş dünya təhsil sisteminə inteqrasiyası başlıca vəzifə kimi aktuallaşdı. Təhsil sahəsində mütərəqqi islahatlar ardıcıllıqla həyata keçirildi. 1993-1994-cü tədris ilindən iki pilləli sistemə keçid başladı.

Bu illərdə həmdə təhsil sistemində özünü göstərən yeniliklərdən biri də qeyri-dövlət müəssələrinin, xüsusən də özəl ali məktəblərin yaranması oldu. Dövlət müstəqilliyinin bərpası özəl təhsil müəssələrinin yaranmasına və inkuşafına da geniş zəmin yaratdı. 90-cı illərin əvvəllərində fəaliyyətə başlayan bu müəssisələrin işində xeyli nöqsanlara yol verilirdi. Ancaq ümummilli lider Heydər Əliyevin özəl ali məktəblərin fəaliyyətinin tənzimlənməsini Təhsil Nazirliyinə həvalə etməsindən sonra bu sahədə müəyyən sabitlik yarandı və uğurlar əldə olunmağa başlandı. 1998-ci ildə Azərbaycanda artıq dövlət qeydiyyatından keçmiş 17 özəl ali məktəb fəaliyyət göstərirdi. Bununla birlikdə bu illərin ən mühüm yeniliklərindən biri də dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla tələbə qəbulunun tətbiqi idi. Ali təhsil pilləsində ödənişli təhsil barədə Heydər Əliyevin 1995-ci ildə imzaladığı tarixi sərancam bu pillənin sonrakı illərdə ardıcıl inkişafı üçün real zəmin yaratdı.

Müstəqilliyimizin ilk ilində Türkiyədən gəlmiş bir qrup iş adamı və təhsil işçisi Azərbaycanda müştərək təhsil müəssisəsi yaratmaq barədə təklif irəli sürmüşlər. Lakin o dövrki hakimiyyətdə olanlar bu təklifə etiraz etməsələr də real fəaliyyət üçün də heç bir iş görülməmişdir. Həmin vaxt Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsində işləyən Heydər Əliyev bu təklifi müsbət qarşılayaraq 1 dekabr 1992-ci il tarixdə müqavilə imzaladı. Beləliklə, Naxçıvan şəhərində ilk Azərbaycan Türkiyə müştərək ümumtəhsil məktəbi açılmışdı.

1993-cü ilin payızından etibarən, elmin inkişafı üçün lazımi maddi-texniki təminat, alimlərin sosial problemlərinin həlli qayğısına qalınmaga başlanılır. Heydər Əliyev hər dəfə keçirdiyi görüşlər zamanı Azərbaycan elmi qarşısında dayanan əsaslı problemlərə toxunur, alimlərimizə Azərbaycan dövləti, xalqı üçün daha gərəkli strateji məsələlərlə məşğul olmağı tövsiyə edirdi. Xalq və millət üçün humanitar elmlərin xüsusi əhəmiyyətə malik olduğunu vurğulayırdı. O, ədəbiyyat, mədəniyyət tarixinin yazılması zəruriliyi barədə söhbət açmış, çoxəsrlik Azərbaycan tarixinin dərindən öyrənilməsinin və yüksək elmi prinsiplər əsasında şərhinin dövlət üçün mühüm əhəmiyyətini xüsusi qeyd etmişdi [5].

Heydər Əliyev hakimiyyətə gəldiyi elə ilk günlərdən alimlər, ziyalılarla görüşlər keçirirdi. O, 1993-cü ilin 21 sentyabrında, sonra isə 1997-ci il 31 yanvarda Azərbaycan MEA-da alimlərlə görüş keçirdi [6.s.170-171]. İlk görüşündə Azərbaycan elminin təfəkkür mərkəzi sayılan AMEA haqqında gəzən söz-söhbətlərə son qoydu. Sonrakı görüşdə isə yeni tarix dərsliklərinin, xüsusən də XIX-XX əsrlər üzrə dərsliklərin hazırlanması zərurətini vurğulayaraq demişdir: "Məktəbə gedən gənc gərək Azərbaycanın tarixin bilsin, oxusun, öyrənsin. Amma o, köhnə dərsliklərdən bunu öyrənə bilməz. Dərsliyi də hərə öz istədiyi kimi yazmamalıdır. Gərək bizim xalqımızın əsil tarixi yazılsın ki, onun əsasında da gənclər üçün, orta və ali təhsil məktəbləri üçün tarix dərslikləri yazılsın" [7, s. 368]. Görüşdə həm də elm sahəsində də islahatların aparılmasının zəruriliyini xüsusilə qeyd etmişdir. Ötən müddətdə dövlət başçısının tapşırığına uyğun olaraq Azərbaycan MEA tərəfindən 7 cildlik "Azərbaycan tarixi"nin akademik nəşri başa çatdırılmışdı.

Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin 30 mart 1998-ci il tarixli "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında" sərəncamı ilə Dövlət Komissiyası tərəfindən qısa müddətdə hazırlanmış, "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" geniş müzakirələrdən sonra 1999-cu il iyunun 15-də prezident Heydər Əliyev tərəfindən ayrıca sərancamla təsdiqləndi. İslahat proqramına əsasən, Azərbaycanın ümumi təhsil pilləsinin məzmununun yeniləşdirilməsi qarşıda ən mühüm vəzifə kimi dururdu. Müstəqilliyimizin ilk illərində ölkənin maliyə

çətinliyi qarşısında qaldığı bir vaxtda möhtərəm Heydər Əliyev təhsilə xüsusi qayğı göstərir, büdcədən təhsilə ayrılan vəsaiti ildən-ilə artırırdı. Əgər 1990-cı ildə təhsilə ümumi büdcədən 113,2 milyard manat vəsait ayrılmışdısa, bu rəqəm 1995-ci il də 376,8 milyard manata, 2000-ci ildə 906 milyard manata, 2003-cü ildə isə 1990-cı ilə nisbətən 10 dəfədən çox artırılaraq 1216 milyard manata çatmışdı [8].

Müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi bu illərdə daim diqqət mərkəzində olmuşdu. 1993-2003-cü illərdə təhsil işçilərinin əmək haqqı 9 dəfə artırılmış və bunun üçün prezident fərmanları verilmişdir. Xaricdə dövlət hesabına təhsil alan tələbələrin sosial vəziyyəti hər il diqqət mərkəzində olmuşdur. Təkcə Türkiyədə dövlət hesabına təhsil alan 700 azərbaycanlı tələbənin hər birinə təqaüd verilməsi üçün ildə 2,4 milyard manat vəsait ayrılmışdı. Azərbaycanın ali məktəblərinə daxil olan gənclər üçün xüsusi Prezident təqaüdünün, eləcə də istedadlı gənclər üçün fəxri təqaüdlərin, prezident fərmanı ilə "Qızıl kitab"ın təsis olunması bu qayğının bariz nümunəsi hesab olunmalıdır.

Azərbaycanda təhsil sisteminin təkmilləşdirilməsində, idarəetmənin müasir prinsiplər üzrə təşkilində, təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasında və dünya təhsil sisteminə inteqrasiyası sahəsində iki mininci ildən başlayaraq əsaslı işlər görülmüşdür. Bu işə 2000-ci il 13 iyun tarixli "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" [9,s.286] verilmiş fərman əsas zəmin yaratmışdı. Fərmana uyğun olaraq bir sıra universitetlərə muxtariyyət verilmiş, Azərbaycanda müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədilə Müəllimlər İnstitutu və rayonlarda onun 12 filialı yaradılmışdı.

Təhsilinin inkişafı ilə yanaşı həm də elmin inkişafı istiqamətində də ciddi işlər görülmüşdür. 2001-ci il 15 may prezident fərmanı ilə Azərbaycan Milli Elmlər Akademiya-sının dövlət statusu möhkəmləndirildi. 2001-ci ilin iyun ayında AMEA-nın həqiqi və müxbir üzvlüyünə seçkilər keçirilmişdir. Seçkilərdə müxtəlif ixtisaslar üzrə 500 nəfərə yaxın iddiaçının sırasından 29 akademik və 91 müxbir üzv seçilmişdir. Beləliklə, Akademiya üzvlərinin sayı 79-dan 177-yə çatmışdı [10].

Milli təhsil sisteminin inkişafında mühüm amil ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsi və maddi-texniki bazanın möhkəmləndirilməsidir. Bu sahədə 2002-ci il 4 oktyabr tarixli "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" [11, s.564] verilmiş fərman mühüm amil olmuşdur. Məktəb tikintisinin geniş vüsət almasında isə 17 fevral 2003-cü il tarixli "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqram"(2003-2007-ci illər) prezident sərəncamı əhəmiyyətli rol oynamışdır. 2006-cı ildə araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, 1225 birtipli yeni məktəb binasının təxminən 800-ü məhz 1970-1982-ci illərdə tikilmişdir. 1993-2004-cü illər ərzində isə Azərbaycanda 287 yeni məktəb binası tikilmişdir ki, bunlardan da 69-u Naxçıvan MR-nın payına düşür [12].

Ulu öndərin təməlini qoyduğu nəhəng quruculuq işləri özündən sonra onun layiqli davamçısı, müasir təfəkkürlü siyasətçi cənab Prezidentimiz İlham Əliyev tərəfindən böyük qətiyyət və uğurla həyata keçirilir. Möhtərəm prezitent İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-cü ildən üzü bəri keçən illər, müasir dövr təhsilimizin tarixində görünməmiş səviyyədə inkişaf, islahatların daha da dərinləşməsi, təhsilin elmi əsaslara söykənən dövlət proqramları vasitəsilə idarə olunması dövrü kimi xarakterizə olunur. 2002-2012-ci illərin əsas xüsusiyyətlərindən biri təhsilə qayğının, onun inkişafına ayrılan xərclərin ildən-ilə artırılma-sıdır. Belə ki, təhsilə ayrılan büdcə 2003-cü illə müqayisədə 6 dəfədən çox artaraq 2010-cu ildə 1,2 milyard manata çatmışdı [13]. Bü kimi göstəricilər əsas verir deyək ki, ulu öndərin təhsil sahəsində müəyyənn etdiyi strategiya özündən sonra da, cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hakimiyyətə gəlişinin ilk günlərindən təhsilə, elmə, mədəniyyətə, bütövlükdə mədəni quruculuğa qayğı və diqqəti ön plana çəkən cənab İlham Əliyev bu sahədə dinamik inkişafa təkan verən bir sıra silsilə fərman və sərəncamlar imzalamışdır.

Ölkəmizdə genişmiqyaslı təhsil islahatlarının başlanmasına start verən, Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat proqramının" qəbulundan keçən on iki il ərzində milli təhsilimizin yenidən qurulması və dünya standartlarına uyğunlaşdırılmasına yönəldilmiş daha 16 dövlət proqramı qəbul edilmişdir. 22 may 2009-cu ildə Prezident İlham Əliyevin imzaladığı "2009-2013-cü illərdə Azərbaycan Respublikasında ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" indiyə qədər qəbul olunmuş dövlət proqramları içərisində ilk sənəddir ki, bütövlüklə təhsil sisteminin yüksək pilləsi olan ali təhsilin inkişaf prespektivlərini nmüəyyənləşdirilməsinə həsr edilmişdir. Elə təkcə bu göstərilənlər dövlətimizin təhsil sahəsinə nə qədər böyük əhəmiyyət verdiyini əyani şəkildə göstərir.

Müasir Azərbaycan təhsilinin bu günki uğurları göstərir ki, Heydər Əliyev siyasəti və siyasi kursu bu gün də uğurla davam edir. Azərbaycan təhsilinin, elm və mədəniyyətin böyük himayəçisi və təəssübkeşi, Heydər Əliyev kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsilin, elmin, mədəniyyətin inkişafı istiqamətində, imzaladığı silsilə fərmanlar, sərəncamlar bizə əsas verir

deyək ki, millətin gələcəyi olan Azərbaycan təhsilinin hərtərəfli inkişafına təminat verən, Heydər Əliyev siyasi kursu yaşayır və qalib gəlir.

Ədəbiyyat

1. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, 2002, s.97.
2. Əsrlərə bərabər illər 1969-1999. Faktlar və rəqəmlər, Bakı, 1999, s.5.
3. Qasımov Ə. Heydər ,Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası. Bakı, 2008, s.103-104.
4. Mərdanov M. Azərbaycan təhsili müstəqillik illərində "Azərbaycan" qəz. 2 oktyabr, 2011.
5. Məhərrəmov A. Xilaskarlıq və quruculuq missiyası "Azərbaycan"qəzeti, 11 dekabr, 2011.
6. Bayramov Q. Heydər Əliyev və Azərbaycan tarix elmi. Bakı, 2004, s. 170-171
7. Əliyev H. Müstəqilliyimiz əbədidir. C. VII, Bakı. 1998, 368 s.
8. "Azərbaycan qəzeti", 2 oktyabr, 2011-ci il.
9. Azərbaycanın təhsil siyasəti (1998-2004) I hissə, Bakı, 2005, 286 s.
10. Hüseynova İ. Elm və təhsilin inkişafına dair Heydər Əliyev kursu uğurla davam etdirilir. "Respublika" qəzeti, 11 aprel, 2006-cı il.
11. Azərbaycanın təhsil siyasəti. I hissə, 1998-2004. Bakı, 2005, 564 s.
12. "Respublika" qəzeti, 11 aprel, 2006.
13. "Azərbaycan" qəzeti, 2 oktyabr, 2011.

РЕЗЮМЕ

РАЗВИТИЕ ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ СВЯЗАНО С ПОЛИТИЧЕСКОЙ И ГОСУДАРСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТЬЮ ГЕЙДАРА АЛИЕВА (1970-2003 ГГ.).

Гасымова Ф.Б.

Ключевые слова: *образование, реформа, прогресс, политика, программа.*

Период 1970-2003 годов, реализованный в образовательной политике независимого Азербайджана, вошел в историю Азербайджана как период реального прогресса и развития науки и образования. С лета 1969 года развитие науки и образования всегда находилось в центре внимания в Азербайджане, и особое внимание уделялось молодежи в целях повышения интеллектуального уровня республики. Реформы в сфере образования приняли системный характер.

Сегодняшние успехи современного азербайджанского образования показывают, что политику и политический курс Гейдара Алиева сегодня успешно продолжает Президент страны господин Ильхам Алиев.

SUMMARY

THE DEVELOPMENT OF AZERBAIJANI EDUCATION IS CONNECTED WITH THE POLITICAL AND STATEHOOD ACTIVITIES OF HEYDAR ALIYEV (1970-2003 ГГ.).

Gasimova F.B.

Keywords: *education, reform, progress, policy, program.*

The period of 1970-2003, implemented in the education policy of independent Azerbaijan, entered the history of Azerbaijan as a period of real progress and advancement of science and education. Since the summer of 1969, the development of science and education has always been in the center of attention in Azerbaijan, and special care has been given to young people in order to increase the intellectual level of the republic. Reforms in education have taken a systematic form.

Today's successes of modern Azerbaijani education show that the policy and political course of Heydar Aliyev is successfully continued today by the President of the country Mr. Ilham Aliyev.

YENİ NƏŞR I SİNİF AZƏRBAYCAN DİLİ DƏRSLİYİNDƏ ŞAGİRDLƏRİN CÜMLƏ QURMAQ BACARIQLARININ İNKİŞAFI MƏSƏLƏLƏRİNİN QOYULUŞU

Qasımova Maya Rəhim qızı

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan, ped.f.d.

maya0866@gmail.com

Açar söz: *ibtidai məktəb, şagird, cümlə qurmaq bacarıqları, cümlə növlərinin öyrədilməsi.*

Cümlə üzərində iş və şagirdlərdə öz fikirlərini ifadə etmək üçün cümlədən şüurlu şəkildə istifadə etmək bacarıqlarının formalaşdırılması – ibtidai məktəbdə ana dili təliminin vacib vəzifələrindən biridir. Cümlə üzərində işin əhəmiyyəti ilk öncə onun sosial funksiyası ilə şərtlənir. Kiçik məktəb yaşlı uşaqlara cümlədən şüurlu şəkildə istifadə etməyi öyrətmək – onlarda nitq axınını məzmun və struktur baxımından bitmiş vahidlərə bölmək bacarığını inkişaf etdirmək, fikrin predmetini müəyyənləşdirmək, sözlərdən istifadə

edərək və onları cümlə daxilində birləşdirərək fikri struktur və intonasiya baxımından düzgün ifadə etməyi öyrətmək deməkdir.

Dil dərslərində cümlə üzərində işin mərkəzi yerlərdən birini tutmasının digər səbəblərindən biri də odur ki, doğma dilin leksik tərkibinə də şagirdlər cümlə sayəsində yiyələnirlər. Belə ki, sözün leksik mənası məhz cümlə daxilində açılır, dəqiqləşir, çünki kontekst daxilində sözün həmişə bir mənası olur (məlumdur ki, cümlədən kənarda söz bir neçə mənanı ifadə edə bilər).

I sinifdə cümlə üzrə işin şərti olaraq aşağıdakı istiqamətlərini müəyyən edə bilərik:

1. Yazılı nitqdə cümlədən istifadə bacarığının formalaşdırılması (cümlənin baş hərflə başlayaraq yazılması, sonda lazımi durğu işarələrinin qoyulması).

2. Şagirdlərdə öz nitqində məqsəd və intonasiyasına görə müxtəlif növ cümlələrdən istifadə etmək bacarığının formalaşdırılması. Yəni şagirdləri məqsədə görə cümləyə düzgün intonasiya vermək bacarığına yiyələndirmək.

3. Sözləri cümlədə dəqiq yerində işlətmək bacarığının inkişaf etdirilməsi.

Şagirdlərin cümlə ilə bağlı müəyyən biliklərə yiyələnməsi və nitqində sərbəst şəkildə onlardan istifadə etmək bacarığının formalaşması şagirdlərin ətraf aləm haqqında təsəvvürlərinin daim genişlənməsi sayəsində mümkün olur. Şagird nə isə yeni bir şey öyrənir və onda həmin hadisə haqqında məlumat vermək tələbatı yaranır. O, fikrini ifadə etmək üçün daha münasib sözlər axtarır. Beləliklə, ünsiyyət tələbatı cümlə qurmaq bacarığına daha mükəmməl şəkildə yiyələnmək zərurətini doğurur.

İbtidai məktəbdə cümlə üzrə işin ilkin mərhələsi savad təlimi dövrünə, yəni I sinfə təsadüf edir. Belə ki, I sinif dərsliyinin 1-ci hissəsinin 27-ci səhifəsində "Bunları bilməliyik" rubrikasında şagirdlərə *Fərəh gül dərdi* cümləsi təqdim olunur və şagirdlərin diqqəti cümlənin böyük hərflə başlaması və sonunda nöqtə işarəsi qoyulmasına cəlb edilir. Görünür, dərslik müəllifləri bu yaş dövründə şagirdlərin cümləni "bitmiş bir fikri ifadə edən söz sırası" kimi qavramaqda çətinlik çəkəcəklərini düşünmüş və bu səbəbdən də cümlənin formal əlamətlərinə görə tanıdılmasını məqsədəuyğun hesab etmişlər.

Şagirdlərin nitq bacarıqlarının inkişafı üçün cümlə qura bilmələrinin çox önəmli olduğunu nəzərə alaraq müəlliflər dərsliyin ikinci bölməsində ("Təhlükədən qorunaq") "Cümlə və onun növləri"nin tədris olunmasını məqsədəuyğun görmüşlər. Belə ki, dərsliyin 33-cü səhifəsində "Bunları bilməliyik" rubrikasında şagirdlərə nəqli və sual cümlələri ilə bağlı sadə nəzəri məlumat verilərək qeyd edilir ki, nəqli cümlələr məlumat vermək, sual cümlələri isə nəyi isə soruşmaq məqsədilə istifadə edilir. Bu məqamda müəllim nəqli və sual cümlələrini daha dərindən mənimsətmək məqsədilə şagirdlərə müxtəlif əşyalar göstərərək onlardan bu əşyalarla bağlı məlumat və sual verən cümlələr qurmağı tələb edə bilər. Bu zaman müəllim şagirdlərə söylənilən cümlələri yazı taxtasına yazıb sonunda müvafiq durğu işarəsini qoymağı tapşıra bilər. Dərsliyin həmin səhifəsindəki C tapşırığında şagirdlərə verilmiş cümlələri oxuyub növünü müəyyənləşdirmək tələbi qoyulur ki, bu da nəqli və sual cümlələrinin daha dərindən mənimsədilməsinə xidmət edir. Həmçinin, dərsliyin 46-cı səhifəsində verilmiş B tapşırığında hər sırada növünə görə fərqli olan cümləni seçmək; 85-ci səhifəsindəki Ç tapşırığında isə hər bir sual cümləsinə uyğun olan nəqli cümləni müəyyənləşdirmək tələbi qoyulur ki, butipli tapşırıqlar şagirdlərin nəqli və sual cümlələri ilə bağlı təsəvvürlərini daha da konkretləşdirir, dərinləşdirir.

Məlumdur ki, şagirdlərdə "cümlə" məfhumu ilə bağlı dəqiq təsəvvürlərin formalaşdırılmasında nitq axınından cümlənin ayırılması ilə bağlı çalışmaların mühüm əhəmiyyəti var. Bunun üçün şagirdlərə cümlələrinin sərhədi pozulmuş (yəni baş hərfi və nöqtəsi olmayan) mətnin təqdim edilməsi və onlara həmin mətni oxuyub cümlə sərhədlərini müəyyənləşdirmək, ilk sözünü böyük hərflə yazmaq və sonda məqsədə görə uyğun intonasiyanın göstəricisi olan durğu işarəsi (?, !, .) qoymaqla bağlı tapşırığın verilməsi səmərəli iş növlərindəndir. Müəlliflər dərsliyin 1-ci hissəsinin 46-cı səhifəsində, təxmini olaraq, butipli çalışmaya yer vermiş, C tapşırığında şagirdlərə "Mətndə buraxılmış səhvləri tap"maq tələbi qoyulmuşdur.

I sinif dərsliyində şagirdlərin cümlə qurmaq bacarıqlarını inkişaf etdirmək məqsədilə "verilmiş sözlərdən istifadə edərək mətnə uyğun cümlələr qurun" [4; 30], "şəkillərdəki varlıqların adlarını əlavə etməklə cümlələri tamamlayın" [4; 32,62, 86, 90], "nitq etiketlərindən istifadə edərək cümlə qurun" [4; 35], "yarımçıq cümlələrə verilmiş sözlərdən uyğun olanını artırmaqla cümlələri tamamlayın" [4; 52,57,65, 82, 96], "şəkillərə aid cümlələr qurun" [4; 65], "bu və ya digər fəsildə (bölmədə, mətndə) "öyrəndiyiniz yeni sözləri seçin və cümlədə işlədin" [4; 51, 67], "verilmiş sözlərdən hərəkət bildirən, say bildirən sözləri seçib cümlədə işlədin" [4; 57, 65], "nöqtələrin yerinə əlamət (hərəkət) bildirən sözlər artırıb cümlələri köçürün" [4; 59, 93], "şəklə uyğun bir neçə açar söz yazın, həmin sözlərin iştirakı ilə şəklə aid cümlələr qurun" [4; 68], "cümlədə göy (qırmızı) rəngdə verilmiş sözü yaxınmənalı (əksmənalı) sözlə əvəz edin" [4; 78, 79, 91], "altından xətt çəkilmiş cümləni şəkillərin köməyi ilə genişləndirin" [5; 71] şərtli və sadə cümlələrin mürəkkəb cümlədə tamamlanması [4; 58, 76, 88, 94] ilə bağlı çalışmalara rast gəlmək olur.

Dərsliyin 1-ci hissəsinin 72-ci səhifəsində cümlələri tamamlamaqla bağlı maraqlı çalışma yer almışdır. Belə ki, şagirdlərə verilmiş tapmacaların cavabını tapmaq və müvafiq olanını məzmuna uyğun olaraq nöqtələrin yerinə artırıb cümlələri tamamlamaq tapşırığı verilir. Düşünürük ki, şagirdlərə cümlələri hazır şəkilə verilmiş sözlərlə deyil, tapmacaların cavabı ilə tamamlamaq tapşırığının verilməsi onları idraki fəallığa sövq edir.

Səhifə 86-da verilmiş E çalışmasında isə şagirdlərə "Aşağıdakı cümlələri "Göbələk" fəslində öyrəndiyiniz məlumatlara əsasən tamamlayın" tapşırığı verilir. Bu qəbildən olan tapşırıqlar şagirdlərin cümlə qurmaq bacarıqları ilə yanaşı, oxu mətnləri vasitəsilə əldə etdikləri məlumatları dərk etmək, hafizədə qorumaq, lazımi situasiyada yada salmaq, tətbiq etmək kimi keyfiyyətlərinin inkişafına da yol açır.

Dərsliyin 1-ci hissəsinin 66-cı səhifəsində "Çörək ağacı" mətni ilə bağlı yer almış B tapşırığında şagirdlərdən cümlələrdəki səhvləri düzəldərək "Çörək ağacı" haqqında düzgün məlumatlar vermək tələbi qoyulur. Butipli tapşırıqlar şagirdlərə müəyyən cisim və hadisə ilə bağlı cümlə qurarkən dəqiq məlumat çatdırmağın önəmliliyini vurğulamaqla yanaşı, oxunun şüurluluğunun təmin olunmasında da səmərəli iş növlərindəndir. Həmin mətnlə bağlı C tapşırığında isə şagirdlərdən mətnə aid açar sözləri seçib yeni cümlələrdə işlətmək tələbi qoyulur ki, bu da şagirdlərin düzgün sintaktik konstruksiyada cümlə qurmaq bacarıqlarının inkişafına kömək edir.

Şagirdlərin cümlə qurmaq bacarıqlarının inkişafında verilmiş sxem və ya suallar (*Kim? Harada? Nə edir?*) əsasında cümlə tərtibi üzrə iş də mühüm rol oynayır. Dərsliyin 2-ci hissəsinin 14-cü səhifəsində şagirdlərə bununla bağlı aşağıdakı çalışmalar təqdim edilir:

A.Cümlələrdə söz sırasını sualların ardıcıllığına uyğun bərpa edin.

1. qəzəbləndi tacir xəsis Hansı? Kim? Nə etdi?

2. fırça ilə çəkdi Yunşen gəmi Kim? Nə ilə? Nə? Nə etdi?

3. canlandı çiçəklər ətrafdakı Hansı? Nələr? Nə etdi?

B. Verilmiş cümləyə uyğun sual ardıcıllığını seçin.

Göydən üç alma düşdü

A) Harada? Nə? Nə etdi?

B) Necə? Kim? Nəyi? Nə etdi?

C) Haradan? Neçə? Nə? Nə etdi?

Analoji çalışmalara dərsliyin 2-ci hissəsinin 40, 41-ci səhifələrində də rast gəlmək olur. Səh 40-da verilmiş Ç çalışmasında "Xocalı" mətnini dinləyib *Kim? Hara? Nə etdilər?* sual sözlərindən istifadə etməklə Xocalıya aid üç sual cümləsi qurmaq, səhifə 41-dəki D çalışmasında isə "Şuşanın yaraşığı" mətnində rənglərlə fərqləndirilmiş cümlələri sual cümləsinə çevirmək və bunun üçün cümlələrlə eyni rəngdə olan sual sözlərindən (*Harada? Nə? Necə?*) istifadə etmək tapşırığı verilir.

Dərslikdə söz sırası pozulmuş (pərakəndə hala gətirilmiş) cümlənin heç bir kömək olmadan (yəni sxem, sual olmadan) bərpa olunması, eyni məzmunun müxtəlif cümlələrlə ifadəsi ilə bağlı çalışmaların olmaması, cümlənin genişləndirilməsi ilə bağlı dərslik boyunca yalnız bir tapşırığa rast gəlinməsi [5, 71] diqqətimizi cəlb etdi. Bu qəbildən olan çalışmalar I sinif şagirdlərinin cümlə qurmaq bacarıqlarının inkişafında səmərəli iş növlərindəndir və onlardan imtina edilməsini məqbul hesab etmək olmaz.

İbtidai sinif müəllimi şagirdlərin cümlə qurmaq bacarıqlarını təkmilləşdirmək üçün yalnız dərsliyin imkanları ilə qane olmamalı, əlavə resurslardan istifadə etməli, müxtəlif səpgili tapşırıqlar hazırlamalı, dərs boyunca şagirdləri fəal ünsiyyətə sövq edəcək təbii və süni situasiyalar yaratmalı, oxu materialları üzrə müsahibə və müzakirə əsnasında verdikləri cabavların sintaktik konstruksiyasına, dolğunluğuna, düzgünlüyünə diqqət etməlidir. Yalnız səbir və inamla təşkil olunmuş sistematik, planauyğun iş sayəsində şagirdlərin cümlə qurmaq bacarıqlarında davamlı nailiyyətlər əldə etmək olar.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I-IV siniflər). Bakı: Mütərcim, 2008, 495 s.
2. Cəfərova N. Qasımova M. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası.Bakı, ADPU, 2023
3.Kərimov Y.Ş. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı:"Səda",2013, 552 s.
4. Nurullayeva Ü., Allahverdiyeva N., Bayramova İ., Xanalıyeva A. Ümumtəhsil məktəblərinin 1-ci sinifləri üçün dərslik (1-ci hissə). Bakı: "Şərq-Qərb" ASC, 2020, 96 s.
5. Nurullayeva Ü., Zahidova Ş., Bayramova İ., Allahverdiyeva N., Xanalıyeva A. Ümumtəhsil məktəblərinin 1-ci sinifləri üçün dərslik (2-ci hissə). Bakı: "Çaşıoğlu Elm-İstehsalat MMC" ASC, 2020, 80 s.
6. NurullayevaÜ., Bayramova İ., Zahidova Ş., N., Xanalıyeva A. Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün Azərbaycan dili fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı: "Radius" MMC,2020,184 s.

7. Буланова С. Ю. Методические подходы к изучению младшими школьниками видов простых и сложных предложений / С. Ю. Буланова // Вестник Северного Федерального университета, 2010, № 5, с. 98–103.
8. Буланова, С. Ю. Методические подходы к изучению синтаксиса русского языка [Текст] / С. Ю. Буланова // Начальная школа, 2015, № 2, с.27-30
9. Рамзаева Т.Г., Львов М.Р. Методика обучения русскому языку в начальных классах, М.:Просвещение, 1979, 431 с

РЕЗЮМЕ
К ВОПРОСУ РАЗВИТИЯ НАВЫКОВ ПОСТРОЕНИЯ ПРЕДЛОЖЕНИЙ У УЧАЩИХСЯ I КЛАССА В НОВОМ УЧЕБНИКЕ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА
Гасымова М.Р.

Ключевые слова: *начальная школа, навыки построения предложений, обучение типам предложений.*

В статье рассматриваются возможности последнего издания учебника Азербайджанского языка I класса в организации работы по развитию навыков построения предложений у учащихся начальных классов. Учебник Азербайджанского языка I класса создан на основе современных методологических подходов, принятых в мире, соответствующих учебным программам передовых образовательных систем и педагогических принципов обучения. Анализ учебника показал, что если не учитывать некоторые недостатки, то здесь даны многочисленные задания с целью развития у учащихся навыков построения предложений. Учитель начальных классов должен видеть, оценивать имеющиеся возможности учебника, ориентироваться на развитие навыков построения предложений учащихся с помощью инновационных методов и приемов.

SUMMARY
ON THE ISSUE OF DEVELOPING SENTENCE-BUILDING SKILLS AMONG FIRST GRADE STUDENTS IN THE NEW TEXTBOOK OF THE AZERBAIJANI LANGUAGE
Gasimova M.R.

Keyword: *elementary school, student, sentence building skills, teaching sentence types.*

The article deals with the possibilities of the latest edition of the Azerbaijani language textbook of the first grade in the organization of work on the development of sentence-building skills among primary school students. The textbook of the Azerbaijani language of the first grade was created on the basis of modern methodological approaches adopted in the world corresponding to the curriculum of advanced educational systems and pedagogical principles of teaching. The analysis of the textbook showed that if some shortcomings were not taken into account, numerous tasks were given here in order to develop the skills of students to build sentences. The primary school teacher should see, evaluate the existing capabilities of the textbook, focus on the development of students ' skills in building sentences using innovative methods and prerequisites.

ÜSLUBİ VASİTƏ KİMİ ANTİTEZANIN NÖVLƏRİ VƏ İFADƏ VASİTƏLƏRİ

Qasımova Nigar Azad qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
gasimovanigar90@gmail.com

Açar sözlər: *antiteza, antitezanın növləri, antitezanın ifadə vasitələri, kontakt antitezalar, distant antitezalar, sadə antitezalar, mürəkkəb antitezalar, qapalı antitezalar, açıq antitezalar.*

Dilin təsviri vasitələri ilə bağlı mövcud olan linqvistik ədəbiyyatlarda antitezaya münasibətdə “üslubi fiqur”, “üslubi vasitə”, “ekspressiv sintaktik konstruksiya”, “nitq fiquru”, “sintaktik fiqur” və s. kimi terminlər işlədilir. Üslubiyyatla məşğul olan alimlər qeyd edirlər ki, antiteza oksimoronla birlikdə əkslik mənasını ifadə edən üslubi vasitələrə aiddir. Üslubi vasitə - dil-nitq vahidləridir, ekspressiv funksiyaları həyata keçirmək üçün üslubi cəhətdən əhəmiyyətli ifadənin təşkili yoludur. Qeyd olunur ki, üslubi vasitələr estetik funksiyanın həyata keçirilməsində mütləq şəkildə iştirak edir.

Bir çox müəlliflər əkslik anlayışını antitezanın yaranmasında, təşkilində dominant prinsip adlandırırlar. Üslubi vasitə kimi antitezanın əsas xüsusiyyəti onun iki komponentli strukturunun olmasıdır, antiteza leksik və sintaktik simmetrik konstruksiyadır. Antiteza elə bir üslubi vasitədir ki, mətnin ekspressivliyini, ifadəliliyini gücləndirir, bu və ya digər dil vahidinə aid olan həm struktur, həm də məna baxımından simmetrikliyi vurğulayır.

Antitezada oppozisiyalar - əks tərəflər potensial olaraq istənilən nitq hissəsi ilə ifadə oluna bilər: isim, sifət, feil, əvəzlik, zərf, say, sözönü ilə işlədilə bilər. Əsas nitq hissələri ilə ifadə olunmuş antitezaya nümunələr gətirək: **Sifətlərlə:**

*The island itself seemed **malicious**. It would go on being **hurtful** and **evil** for weeks at a time. Then suddenly again one morning it would be **fair**, **lovely** as a morning in paradise, everything **beautiful** and **flowering**.*

*Ada **pis** görünürdü. Həmçinin, həftələrlə belə **ağrılı** və **pis** görünməyə davam edəcək. Sonra qəflətən yenidən bir gün cənnət səhəri kimi **gözəl** olacaq, hər şey **çiçəklənəcək** və **gözəlləşəcək**.*

Burada ada əsərin qəhrəmanında qeyri-müəyyən hisslər yaradır və bu əksmənalı sifətlərlə ifadə olunur; *malicious, hurtful, evil – fair, lovely, beautiful, flowering.* Neqativ, mənfi məna ifadə edən sifətlər adanın sahibinin daxili hisslərini, adanın içində olan təhlükəni əks etdirir. Müsbət, pozitiv məna ifadə edən sifətlər isə adanın xarici görünüşünü təsvir edir, onun gözəlliyini vurğulayır. Çoxlu sayda istifadə olunmuş sifətlər birinci növbədə unudulmuş yer haqqında təəssüratı əks etdirir, ikincisi də qəhrəmanın öyrəşdiyi mühitin dəyişməsindən irəli gələn sevincli, xoş əhval-ruhiyyəni ifadə edir.

Feillərlə: *I wanted **to run away** from him, and I wanted **to go to** him.*

*Mən **ondan həm qaçmaq**, həm də **ona tərəf getmək** istəyirdim.*

Burada antiteza antonimik cütlük olan *to run away – to go to* feillərinin qarşılaşdırılması əsasında yaranır. Bu cür konstruksiyanın istifadə olunması qəhrəman qadının keçirdiyi ziddiyyətli hissləri ifadə edir.

İsimlərlə: *He had wanted **protection**, but she was **danger**.*

*O, **müdafiə** istəyirdi, ancaq o, başdan-başa **təhlükə** idi.*

Bu cümlədə antitezanın komponentləri kimi *protection – danger* isimləri çıxış edir.

Antiteza daha çox əsas nitq hissələri ilə ifadə olunur, köməkçi nitq hissələri müxtəlif kombinasiyalarda istifadə olunmaqla antitezanın tərkibinə ekspressivlik, ifadəlilik verir. Məsələn: *"Where you and I **flinch back**, she **leaps forward**".*

*"Mən və sən **geri çəkiləndə**, o, **önə doğru tullandı**".*

Back – forward oppozisiyasında sözönüləri hərəkətin icra olunduğu istiqaməti ifadə edir, bu kontekstdə isə davranış tərzini xarakterizə edir. Bu cümlədə əsas hərəkət mənası *flinch* "geri çəkilmək" – arxaya doğru addım atmaq feilində və *leap* "tullanmaq, sıçramaq" – bir addımdan daha uzun məsafəni qət etmək feilləri ilə ifadə olunur.

Əkslik xarakteri yaratmaq üçün müəyyən bir fikir məntiqi cəhətdən onun tam əksi olan bir fikirlə qarşılaşdırılır. Bu cür qarşılaşdırma predmetlərin oxşar cəhətlərini deyil, əks cəhətlərini aşkara çıxarır. Məsələn: *"They speak like **saints** and act like **devils**"."Onlar **müqəddəslər** kimi danışır, **şeytanlar** kimi hərəkət edirlər".*

Antiteza həm bir cümlə daxilində reallaşa bilər, həm də daha böyük nitq kəsiklərində istifadə oluna bilər. Bir cümlə daxilində antiteza adətən cümlənin bütöv fikir bitkinliyini yaradır. Antiteza demək olar ki, hər zaman sintaktik konstruksiyaların paralelizmi və xiazm (əks parallelizm) üzərində qurulur. Məsələn:

O! The more angel she,
And you the blacker devil.

Antiteza adətən cümlələrin bağlayıcısız birləşməsi əsasında yaranır. Antitezanın komponentləri arasında əlaqə bağlayıcı ilə ifadə olunubsa, onda ən çox *"and"* bağlayıcısından istifadə olunur. *"And"* bağlayıcısı öz təbiətinə görə qarşılaşdırılan faktların vahidliyini ifadə edir. *"But"* bağlayıcısı işlədildikdə antitezanın üslubi effekti əhəmiyyətli dərəcədə zəifləyir. *"But"* bağlayıcısının özünün qarşılaşdırma mənası oxucunu gələcək əkslik mənası ifadə edən cümləyə hazırlayır.

Antiteza adətən bədii üslubda və publisistik üslubda istifadə olunur. O, çox nadir hallarda elmi üslubda işlədilir, halbuki elmi üslub üçün məntiqi qarşılaşdırmalar normal haldır.

Antitezanın formalaşmasında struktur quruluşu böyük əhəmiyyət kəsb edir. . Burada hər bir şey antitezanın struktur təsnifatının əsasında duran prinsiplərdən asılıdır. İ.R.Qalperin antitezanın struktur təsnifatında bu prinsipləri qeyd edir: yerləşmə prinsipi və qurulma prinsipi.Yerləşmə prinsipinə görə antiteza kontakt (yaxın) və distant (uzaq) antitezaya bölünür. Məsələn:

*"I am embarrassed by unprivate displays of **affection** or of **hostility**".*

*"Mən **sevgini** və ya **düşmənçiliyi** açıq nümayiş etdirməyə utanıram"*

Kontakt antiteza əksmənalı sözlərin yaxın yerləşməsi ilə xarakterizə olunur və bu sözlər güclü əkslik effekti yaradır. Distant antitezada isə əksmənalı sözlər bir-birindən uzaq məsafədə yerləşir. Məsələn:

*"It is the march of the disciplined, **the bread – winners, the money – grubbers, the money – needers...** They don't look over their shoulder and down or they would see us, their opposites as in a medieval diptych of heaven and hell – or hell and heaven: the motley bundlers of the theatre – queuers looking upwards and over at them as we blink with sleep. Us, **the pleasure – lovers, the pleasure –seekers,** the unrepentant from across the wide world, the creatures of high holiday" .*

Qarşılaşdırılmış sözlər *the bread – winner, the money – grubbers, the money – needers – the pleasure – lovers, the pleasure – seekers* bir abzasın müxtəlif cümlələrində istifadə olunur. Qarşılaşdırmanın semantik əsasını *money – pleasure* sözləri təşkil edir, oppozisiyalarda bu sözlərdən düzəldilmiş ifadələr istifadə olunur (*the money – grubbers, the money – needers, the pleasure – lovers, the pleasure – seekers*). Oppozisiyanın bütün üzvləri mürəkkəb isimlərdir və eyni model əsasında yaradılıb. İlk iki isimlər (*the bread – winners, the money – grubbers*) lüğətdə qeyd olunub, dildə mövcuddur. Ancaq bu sözlərin yaradılması üsulu oxşar tipli yeni isimlərin yaradılması üçün model rolunu oynayıb. Bundan başqa mətndə digər leksik vahidlər də mövcuddur ki, bunlar da əkslik anlayışını ifadə etməyə kömək edir: *opposites* sözü, *heaven* və *hell* antonimləri, əks parallelizm (xiazm) konstruksiyasında iki dəfə istifadə olunub.

İkinci prinsipə əsasən, yəni qurulma prinsipinə görə antitezalar sadə və mürəkkəb antitezalara bölünür. Sadə antitezalar öz növbəsində açıq antitezaya və qapalı antitezaya ayrılır. Açıq antiteza iki antonimik cütlüyün qarşılaşdırılmasına əsaslanır. Qapalı antitezada sözlərin mənası nitq situasiyası vasitəsilə açılır və tamamlanır.Qapalı antitezada qarşılaşdırılan sözlər, ifadələr situasiya kontekstində məna qazanır. Məsələn:

*"She knew she submitted to **life** which was her **immediate master**, but from **death**, her **ultimate master**, she winced with fear and shame".*

*"O bilirdi ki, **həyata t**əslimdir, həyat onun **indiki ağası**, ancaq **ölümündən** sonra isə ən **son ağasıdır**. O, tələş və qorxu içində diksindi".*

Bu nümunə sadə açıq antitezadır, burada iki antonimik cütlük *life – death, immadiate master – ultimate master* qarşılaşdırılır.

*"Philip was cleverer than she was. He sat her up, the queen-be, the mother, the woman, and he served her with subtle, cunning homage. He p**ut the scales, the balance** in her hand. Bur also, cunningly, he blindfolded her, and **manipulated the scales** when she was sightless".*

*"Filip ondan daha ağıllı idi. Filip evdə ona kraliça, qadın, ana kimi yanaşırdı, biclik edərək ona incə və hörmətlə xidmət edirdi. Filip **tarazlığı qorumağı** onun əlinə vermişdi. Lakin hiyləgərliyi ilə onun gözünü bağlayaraq, görmədiyi anlarda **situasiyanı özü idarə edirdi**".*

Bu nümunə sadə qapalı antitezadır, qarşılaşdırılan metaforik ifadələr *put the scales, the balance – manipulated the scales* ancaq situasiya kontekstində məna qazanır. Qəhrəmanın xarakteristikası (*cleverer)*, onun davranışları (*sat her up, the queen-be, the mother, the woman, and he served her*) müəyyət bir obraz formalaşdırır, ancaq bu obraz qəhrəmanın həqiqi davranışları *(blindfolded her, manipulated)* aşkara çıxan zaman dağılır.

Mürəkkəb antitezada ayrı-ayrı sözlər deyil, əksmənalı sözlər cərgəsi qarşılaşdırılır. Bu əksmənalı sözlər bir obraza aid olur və vahid bir bütöv əmələ gətirir. Məsələn:

*"In those days Avril had worn **expensive**, daring green shoes with satin bows, **all the better to flirt in:** Helen had **worn cheap** navy shoes with sensible heels, **all the better to work in.** Today Avris's shoes, with their scuffed high heels, were still green, but somehow **vulgar and pitiable,** and the legs above them were knotted with veins. And Helen's shoes were still navy, but **expensive and comfortable,** and had sensible medium heels. And Helen **owned the salon,** and **had a husband,** and **grown children,** and **savings,** and a dog, a cat and a garden, and Avril had nothing. **Nothing, childless, unmarried,** and **without property or money in the bank".***

"*O günlərdə Avril **bahalı**, vulqar, satin bantları olan yaşıl ayaqqabı geyinirdi, bu, **başqalarının diqqətini cəlb etmək üçün ən yaxşı üsul idi**. Helen isə **ucuz**, sıradan, adi dabanları olan, tünd göy ayaqqabı geyinirdi, **bu da işləmək üçün ən yararlı yol idi.** Bu gün isə artıq Avrilin sürtülmüş dabanları olan həmin yaşıl ayaqqabıları, necə olmuşdusa, **zövqsüz və acınacaqlı** görünürdü və onun ayaqları damarlarla örtülmüşdü. Helenin ayaqqabıları isə hələ də tünd göy rəngdə idi, lakin **bahalı, rahat** və ortadabanlı idi. Helen **salon sahibi idi** və **həyat yoldaşı, böyümüş uşaqları, pulu**, iti, pişiyi, bağı var idi. Ancaq Avril isə **subay idi** və **heç nəyi yox idi: nə uşaqları, nə əmlakı, nə də bankda pulu**".*

Bədii əsərdən gətirdiyimiz bu nümunədə əsərin iki əsas qadın qəhrəmanlarının tam bir-birinə əks portretləri yaradılır. Bu iki qadın qəhrəman bir-birinə qarşı qoyulur, həyatın müxtəlif dövrlərində onların mövqeləri dəyişsə də, bu mövqelər yenə də tam bir-birinə əks olur.

Bədii əsərdə gətirdiyimiz nümunənin emosionallığı, ifadəliliyi təkcə çoxlu miqdarda oppozisiyalarla əldə olunmur, həm də onların yerləşməsi, mövqeyi ilə əldə olunur: paralel kostruksiyalar, bağlayıcılarla əlaqə, əsərin bir qadın qəhrəmanında olan obyektlərin sadalanması və digərində bunların heç birinin olmamasını göstərmək üçün "*nothing*" inkar əvəzliyinin istifadə olunmasını misal göstərə bilərik.

Avril		Helen
Expensive		Cheap
All the better to flirt in		All the better to work in
Vulgar and pitiable		Expensive and comfortable
Without property	**Nothing**	Owned the salon
Without money in the bank		Had savings
Unmarried		Had a husband
Childless		Had grown children

Antitezanın xarakterik xüsusiyyətlərindən biri paralelizmdir. Bu təsəvvürlərə əsasən simmetriya obyektdə eynicinsliliyi, uyğun ölçülülüyü, mütənasibliyi və harmoniyanı bildirir və ayrı-ayrı hissələrin məhz bu üsulla bir bütövdə birləşdiyini göstərir. Paralelizm və ikikomponentli strukturu sayəsində antiteza simmetrik konstruksiya yaradır və bunun nəticəsində antitezanın iki elementi qarşılaşdırılmasına baxmayaraq, eyni əhəmiyyətli kimi qavranılır. Paralelizm fonunda bədii-emosional yükü daşıyan lazımi sözlər fərqləndirilir. Antonim olmayan leksik vahidlər paralel konstruksiya əsasında qurulan antitezanın fəaliyyət sferasına düşdüyü zaman qarşılaşdırılmış sözlərə çevrilir və bu sözlər yeni məna çalarları qazanır. Paralelizm eyni zamanda antiteza cümləsinin ritmik təşkilini yaradır. Antiteza cümləsində paralelizmin effektivliyi bundan ibarətdir ki, oxucuya cümlənin xarici strukturunu təhlil etmək üçün zərurət qalmır, o, diqqətini cümlədə konseptual əlaqələrin aşkara çıxarılmasına cəmləyə bilir.

Paralel konstruksiyaların köməyi ilə qurulmayan antiteza cümlələrinə çox nadir hallarda rast gəlinir. Belə olan halda oxucunun işi daha da çətinləşir, qrammatik konstruksiya tərkib hissələri arasında münasibətlərin ifadəsinə kömək etmir, informasiyanın ifadə olunmasında əsas yük semantik komponentlər üzərinə düşür, ona görə də oxucu əvvəlcə qarşılaşdırılmış komponentləri müəyyənləşdirmək, daha sonra isə qarşılaşdırmanın əsasını tapmalı olur.

Ədəbiyyat

1. Hacıyeva Ü. A guide to English Stylistics. Bakı, 2010, 341 s.
2. Hacıyeva Ü. English Rhetorical Devices. Bakı, 2017, 151 s.
3. Hacıyeva Ü. English Stylistics. Bakı, 2014, 166 s.
4. Hüseynova M., Yunusova G. English Stylistics. Bakı, 2017, 250 s.
5. Qayıbova M.T., Cəfərova L.M. Stylistics of the English Language. Bakı, 2007
6. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Elm, 2010, 378 s.
7. Арнольд И.В. Стилистика современного английского языка. М.: Просвещение, 1990, 301 с.
8. Гальперин И.Р. Очерки по стилистике английского языка. М.: Изд-во литературы на иностранных языках, 1958, 459 с.
9. Гальперин И.Р. Стилистика английского языка. М.: Высшая школа, 1981, 334 с.

РЕЗЮМЕ

ВИДЫ И СРЕДСТВА ВЫРАЖЕНИЯ АНТИТЕЗЫ КАК СТИЛИСТИЧЕСКОГО СРЕДСТВА

Гасымова Н.А.

Ключевые слова: *антитеза, виды антитезы, выражения антитезы, контактные антитезы, дистанционные антитезы, простые антитезы, сложные антитезы, закрытые антитезы, открытые антитезы.*

В литературе по языкознанию по отношению к антитезе используются термины как “стилистическая фигура”, “стилевое средство”, “выразительная синтаксическая конструкция”, “фигура речи”, “синтаксическая фигура” и др. Ученые отмечают, что антитеза относится к стилистическим средствам, которые вместе с оксюмороном означают противоположность. Главной особенностью антитезы является наличие его двухкомпонентной структуры, антитезой является лексико-синтаксическая симметричная конструкция. В антитезе противоположности могут быть выражены любой частью речи: существительным, прилагательным, глаголом, местоимением, наречием, числом, предлогом. Антитеза может использоваться как в предложении, так и в более крупных фрагментах речи. Антитеза почти всегда строится на параллелизме синтаксических конструкций и противоположном параллелизме. Виды антитезы определяются принципом ее расположения и построения. По принципу расположения антитезы делятся на контактные и дистанционные. Однако по принципу построения антитезы бывают простыми и сложными.

SUMMARY
TYPES OF ANTITHESIS AS A STYLISTIC DEVICE AND MEANS OF EXPRESSION
Gasimova N.A.

Key words: *antithesis, types of antithesis, expressive means of antithesis, contact antithesis, distant antithesis, simple antithesis, complex antithesis, closed antithesis, open antithesis.*

In the literature on linguistics, in relation to the antithesis, the terms such as "stylistic figure", "stylistic device", "expressive syntactic construction", "figure of speech", "syntactic figure" and so on are used. Scientists note that the antithesis, together with the oxymoron, refers to stylistic devices of expressing the meaning of opposites. The main feature of the antithesis is the presence of its two-component structure, the antithesis is a lexical and syntactic symmetrical construction. In the antithesis, opposites can be expressed by any part of speech: noun, adjective, verb, pronoun, adverb, numeral, preposition. The antithesis can be used both within a sentence and in larger cuts of speech. The antithesis is almost always built on the parallelism of syntactic constructions and the opposite parallelism. The types of antithesis are determined according to the principle of its location and construction. According to the principle of location, antitheses are divided into contact and distant antitheses. And according to the principle of construction, antitheses are simple and complex.

MƏDƏNİYYƏTİMİZDƏ ƏBƏDİLƏŞƏN ÖMÜR

Qasımova Nailə Zaman qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
kulturoloq1@gmail.com

"Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək,
həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir.
Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir."
Heydər Əliyev

Açar sözlər: *fenomen, milli mədəniyyət, siyasi mədəniyyət, milli tərəqqi, intibah, mədəni irs, monumental incəsənət, natiqlik, milli yaradıcılıq*

Müasir dövrdə bəşəriyyətin mövcudluğu üçün həyati əhəmiyyəti olan məsələlər çoxdur. Dünyada ictimai tərəqqinin asılı olduğu sosial-qlobal problemlər isə həmişə üstünlük təşkil edib. Qlobal problemlərin həlli yollarında sözsüz ki, mədəniyyətlərin rolu böyük olmuşdur. Bəşəriyyətin inkişaf tarixi göstərir ki, dövlətləri, xalqları biri-birinə yaxın edən mədəniyyətlərdir. Lakin dünya mədəniyyətini, tarixini türk mədəniyyəti və tarixi olmadan təsəvvür etmək qeyri mümkündür. Türk dünyası tarixə çoxlu şəxsiyyətlər bəxş edib. Onlar həyatları, fəaliyyət və xidmətləri ilə tarix yazıblar. Bu mövzu bəşəriyyətin varlığından, dövlətlərin formalaşmasından ta bugünümüzə qədər aktual bir mövzu olmuşdur. Belə bir ifadə var, "Şəxsiyyət var tarix yazır, tarix də var şəxsiyyət yaradır". Bu fikrə istinadən deyə bilərik ki, milli dövlətçiliyin inkişafını və onun qüdrətlənməsini təmin edən tarixi şəxsiyyətlərin həyat və fəaliyyətləri tarixin özü ilə eyniləşmişdir. Zamanın fövqündə yetişən dahilər adını dövlətinin, millətinin tarixinə əbədi həkk etdirmiş olub. Tarixin yetişdirdiyi belə dahi insanlardan biri Ulu öndər Heydər Əliyevdir. Mədəniyyəti, xalqı və milləti üçün dahi olan insanlar əslində, özündə və qəlbində sadə olmağı bacaran insanlardır.

Bu tarixi şəxsiyyətlə başlanan Azərbaycanda mədəni-mənəvi quruculuq dövrü geniş bir tarixi araşdırmanın mövzusudur. Təbii ki, mövzunun müəyyən çalarlarını məqalədə işıqlandırmaq insandan mənəvi bir istək tələb edir. Quruculuq dövrü ölkəmizdə milli hümanitar, iqtisadi, o cümlədən mədəniyyət sahəsinin inkişafında xüsusi bir mərhələdir. Azərbaycan xalqı keçməkeşli, çətin, lakin çox şərəfli bir tarix yaşamışdır.Yaxın tarixə nəzər salsaq, 1990-cı illərin əvvəlində milli müstəqilliyimizin itirilməsi və həmçinin dövlətçilik ənənələrinin yaddaşlardan silinmə qorxusu ilə üzləşdiyimiz bir dönəmdə dahi şəxsiyyət, qüdrətli siyasətçi Heydər Əliyevin xalqımızın tələbi ilə öz xilaskar missiyasını xalqından əsirgəməməsi bu insanı Azərbaycan xalqının sevimlisi etdi. Həmin tarixi zamandan başlayaraq dövlətimizi və xalqımızı böyük bir uçurumdan xilas edərək, onu zirvələrə ucaltdı. Azərbaycanın milli sərvəti olan müstəqilliyin qorunmasını təmin etdi və xalqı tənəzzüldən qurtararaq böyük tərəqqi yoluna çıxartdı. Məhz Azərbaycan tarixinin şanlı səhifəsində Ulu Öndərin ən böyük missiyası bu idi. Tarixən Azərbaycan xalqı öz mədəniyyəti, incəsənət və musiqisi ilə dünya aləmində tanınmışdır. Təbii ki, XX əsr Azərbaycan xalqının mədəniyyətində yeni bir dövr, yeni bir cığır açılmışdı. Fəxr hissi ilə deyə bilərik ki, bu yeni başlanğıc ulu öndər Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Ulu Öndər Heydər Əliyev istər sovetlər dövründə Azərbaycana rəhbərlik etdiyi zaman, istərsə də müstəqilliyimizə nail olduğumuz dövrlərdə dövlətimizin başçısı olaraq, onun üçün ən önəmli sahələrdən biri mədəniyyət sahəsi idi. O mədəniyyəti hər bir xalqın milli sərvəti hesab edirdi. Bu baxımdan, Ulu öndərin fərmanlarına əsasən, "Mədəniyyət haqqında" (1998), "Kinemotoqrafiya haqqında" (1998),

“Muzeylər haqqında” (2000), “Tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında” (1998), “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” (2003) və digər mədəniyyət sahələri haqqında qanunlar da qüvvəyə minmişdir. Bəli O, Azərbaycan xalqının milli sərvəti olan mədəniyyəti həmişə hər şeydən üstün tuturdu. Heydər Əliyev Azərbaycan mədəniyyətinin hər bir sahəsini sevirdi və sevərək onu dünyada tanıtdırırdı. Mədəniyyətin müxtəlif istiqamətlərində çalışan yaradıcı insanların əməyini həmişə qiymətləndirmişdir. Azərbaycan yazıçılarının, bəstəkarların, rəssamların, kinomatoqrafçıların, teatr xadimlərinin, keçirilən qurultaylarında onların əməyinin nə qədər yüksək olmasını dəfələrlə öz nitqində əsaslandırmışdır. Heydər Əliyevin Azərbaycan mədəniyyətinin və incəsənətinin dünyaya inteqrasiyasında xidmətləri əvəzsizdir. Bəli, tarix sübut edib ki, yüksək mədəniyyətə sahib olan xalq müasir dünyanın yeni çağırışlarına cavab vermək iqtidarındadır. Dəfələrlə öz nitqində Ulu Öndər mədəniyyətin inkişafı və təbliği məsələsini vurğulayaraq qeyd etmişdir ki, “Mədəniyyət bəşəri bir sərvətdir, onu qoruyub saxlamaq və gələcək nəsillərə ötürülməsi vacib olan bir vəzifədir.” [1, s.29]

Heydər Əliyev Azərbaycan ədəbiyyatını sevirdi, çünki orda sevdyi yazarların əsərləri xalqını dünya ədəbiyyatına tanıtmışdır. Bədii ədəbiyyatın onun həyatında nə qədər mükəmməl rolu olduğunu özü dəfələrlə etiraf etmişdir. Dahi şəxsiyyət ədəbiyyatın və mədəniyyətin insanın təhsilində, mənəviyyatında silinməz iz qoymasını qeyd etmişdir. Heydər Əliyev Azərbaycan dramaturqlarının və şairlərinin əsərlərini sevə-sevə oxuyaraq, öz fikirlərində onlara geniş yer vermişdir. O, xüsusən Azərbaycan dramaturgiyasında çox böyük simalar olan, Mirzə Fətəli Axundzadənin, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin və diğər nümayəndələrin yaradıcılıqları haqqında çox dəyərli fikirlər söyləmişdir. Belə ki, C. Məmmədquluzadənin “Ölülər” əsərinə ayrıca önəm verdiyini və bu əsərin onun ədəbi yaradıcılığında xüsusi ilə fərqləndiyini nəzərə çarpdırmışdır. Hələ kiçik yaşlarından “Ölülər” əsərinin onun fəlsəfi, ictimai şüuruna necə təsir etdiyini qeyd etmişdir. Heydər Əliyev “Ölülər” əsərinin dünya teatrına çıxarılmasına nail olmağı vurğulamışdır. Ulu öndər Cəlil Məmmədquluzadə, Hüseyn Cavid yaradıcılığını Şekspir yaradıcılığı ilə müqayisə etmişdir. Ulu Öndərin Azərbaycan ədəbiyyatının unudulmaz dramaturqu Hüseyn Cavid şəxsiyyətinə olan məhəbbəti də sonsuz olmuşdur. Hüseyn Cavid ədəbi irsinin təbliğində və onun əsərlərinin nəşrində Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdu. Yazıçının nəşinin uzaq Sibirdən doğma torpağı Naxçıvana gətirilməsində Heydər Əliyevin böyük zəhmətinin nəticəsində mümkün olmuşdur. O, XX əsrin 30 - 40- cı illərin siyasi təqib və repressiyasına məruz qalmış onlarla mədəniyyət xadimlərinə yeni “ömür” vermişdir. Ulu Öndər Hüseyn Cavidin “Turana qılıncdan daha kəskin, ulu qüvvət, yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət..” misrasını bütün türk dünyasının ortaq mədəniyyətinin əsl simvolu hesab etmişdir. Məhz Cavid əfəndi də onlardan biri idi. Onun əsərlərinin Azərbaycan teatr tarixində böyük yer alması, yeni nəsil aktyorlarının yetişməsi Ulu Öndərin ədəbiyyata və sənətə olan sevgisinin təzahürü idi. Onun nəzəriyyəsində Azərbaycan dili, ədəbiyyatı, incəsənəti, musiqisi azərbaycançılıq fəlsəfəsinin, müasir azərbaycanın milli və dövlət ideologiyasının əsas məğzi və bədii-fəlsəfi göstəricisi olmuşdur. Azərbaycanın dahi klassiklərinə Nizaminin, Nəsiminin, Füzulinin yaradıcılığına həmişə böyük ehtiram göstərmişdir. Onların əsərlərinin dünya çapına çıxarılmasında böyük səy və məhəbbət göstərmişdir. Müasir çağdaş ədəbiyyatımızda Məmməd Araz, Bəxtiyar Vahabzadə, Qabil, Musa Yaqub, Zəlimxan Yaqub yaradıcılıqlarının əsl Azərbaycançılıq ənənələrində olduğunu demişdir. Xüsusən Məmməd Arazın, Bəxtiyar Vahabzadənin şerlərini, poemalarını öz fikirlərində səsləndirmişdir. [2, s.84]

Heydər Əliyev teatr sənətinin məna və mahiyyətini, tərbiyəvi əhəmiyyətini, estetik cəhətdən gözəlliyini həmişə dərindən duyurdu. O sənət adamlarının sözün əsl mənasında hamisi idi. Vaxtaşırı teatr tamaşalarının premyeralarına gedər və ordan xüsusi bir zövq aldığını bildirərdi. Hər bir baxdığı tamaşanın estetik, psixoloji-mənəvi əhəmiyyətini dəfələrlə vurğulayırdı. Azərbaycan teatrının 60-80-ci illərdə çiçəklənməsi dövrünü böyük dramaturq İlyas Əfəndiyev yaradıcılığına söykəndiyi dövr kimi qeyd edirdi. O dövrdə yeni nəsil aktyorlarının sənətə gəlişini də məhz İlyas Əfəndiyev yaradıcılığının bəhrəsi kimi görürdü. Bu qismdən Sofa Bəsirzadənin, Səfurə İbrahimovanın, Həsənağa Turabovun, Rasim Balayevin, Amalya Pənahovanın, Nurəddin Mehdixanlının və digərlərinin adlarını qeyd edə bilərik. Onlar həm Azərbaycan kinosunun, həm də teatrının repertuarlarında daima yer alan sənətkarlar olmuşlar. Dövlət tərəfindən onların xidmətləri yüksək ad və mükafatlarla qiymətləndirilmişdir. Xatirələrində qeyd etdiyi kimi, hələ uşaq çağlarından bu sənətə olan məhəbbətini də gizləmirdi. O kiçik yaşlarında Naxçıvanda, sonralar Azərbaycan teatrının görkəmli nümayəndəsi olan xalq artisti Zəroş Həmzəyevlə birgə dram dərnəklərindəki fəaliyyətini xatırlayarkən duyğularını böyülüşərək teatr sənətini sevdiyini qeyd etmişdir. Onun ədəbi mühitə bağlılığı da elə gənc yaşlarından formalaşmışdır. [3, s.45]

Azərbaycan musiqisinin inkişafında hər vaxt Heydər Əliyev mərhələsi seçilmişdir. Azərbaycan musiqisinin vurğunu olan Heydər Əliyev onun inkişaf tarixində xidmətləri olmuş insanları həmişə dəyərləndirmiş və mükafatlandırmışdır. Üzeyir Hacıbəyovdan başlayaraq Azərbaycan musiqisinin karifey sənətkarları Maestro Niyazi, Müslüm Maqomayev, Fikrət Əmirov, Qara Qarayev, Tofiq Quliyev, Arif Məlikov Azərbaycan musiqisini dünya musiqi mədəniyyətinə çatdırmışdır. Ulu Öndər bu şəxsiyyətlərin

yaradıcılığına böyük önəm vermişdir. Xanın, Seyidin, Bülbülün, Rəşidin, Zeynəbin ifasındakı bütün muğam, təsniflər və xalq mahnıları Azərbaycan musiqi mədəniyyətinə qızıl hərflərlə yazıldı. Ulu öndər bu şəxsiyyətlərin yaradıcılığına da həmişə yüksək qiymət verdi. Bütün qeyd etdiklərimə rəğmən Ulu Öndərin sayəsində mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz bütün dünyada tanıdılaraq böyük nüfuza sahib oldu. [5, s.27]

Bir məsələnin üzərində dayanmaq bu arada yerinə düşər, Azərbaycan memarlığı. Azərbaycanda memarlıq ənənələrinin böyük bir tarixi vardır. Tarixən Azərbaycanda memarlıq və arxitektura mədəniyyəti inkişaf etmişdir. Bəli, Ulu Öndər Heydər Əliyev milli memarlıq ənənələrinin tarixinə və onun qorunmasına xüsusi diqqət yetirirdi. Heydər Əliyev ölkəmizdə aparılan hər bir quruculuq işləri ilə şəxsən maraqlanaraq, tikinti işlərinə öz dəsti-xətti ilə yanaşmışdır. O qeyd edirdi ki, memarlıq bir inşaat incəsənətidir, bu sənət çox mükəmməl bir işdir. Tarix yazan bir şəxsiyyət kimi, Heydər Əliyev həm sovetlər dönəmində, həm də müstəqillik illərində Azərbaycan dövlətinin memarı idi. Hələ ötən əsrin 60-cı illərində respublikamızda memarlıq- tikinti işlərinə böyük diqqət yetirərək, Bakıda və eləcə də bir çox şəhərlərimizdə modern binaların tikintisi məhz Ulu Öndərin adı ilə bağlıdır. Hətta çox qədim dövrlərdə inşa olunmuş bir çox tarixi binaların yenidən bərpası və tikintisi onun səyi nəticəsində olmuşdur. Xüsusən 60-cı illərdə Bakıda bir sıra ictimai və həmçinin mədəniyyət obyektləri tikilmişdir. Möhtəşəm Respublika Sarayı, bir çox mehmanxana kompleksləri, Bakı Dəmir Yolu Vağzalı, Gülüstan sarayı, Azərbaycan Respublikası Prezident Aparatı binası, Səadət sarayı və bu kimi memarlıq nümunələrini misal gətirə bilərik. Müasir dövrümüzdə ölkəmizin simasının gözoxşayan dərəcədə dəyişilməsi məhz Ulu Öndər Heydər Əliyev siyasətinin nəticəsidir. Müstəqilliyimizin ilk illərindən başlayaraq memarlıq-şəhərsalma sahəsində dövlət siyasətinin istiqamətlərinə uyğun olaraq reallaşan tədbirlərin həyata keçirilməsi bu sahədəki görüləcək işləri daha da zənginləşdirdi. Ulu Öndərin memarlıq, şəhərsalma-arxitektura mədəniyyətini, onun davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev daha orjinal formada davam etdirir. Bu baxımdan Muğam Mərkəzi, Heydər Əliyev Mərkəzi, Üç Alov və digər komplekslər arxitektura həm də memarlıq baxımından çox möhtəşəmdir. [7, s.102]

Azərbaycanda Xalçaçılıq, Rəssamlıq, Tətbiqi sənət növlərinin tarixi çox qədim və zəngindir. Xalça sənətimizin, heykəltəraşlıq və rəssamlığın bu günkü inkişafı onun dəyərli ideyalarından bəhrələnmişdir. Hələ qədim dövrlərdən başlayaraq Azərbaycanda bir çox sənət nümunələri ilə yanaşı xalçaçılıq ənənələri də inkişaf etmişdir. Mədəni irsimizə daxil olunmuş bu sənət nümunəsi xalqımızın məişət və mədəniyyətinin əvəzolunmaz hissəsi olmuşdur. Ulu Öndər Heydər Əliyev xalçaçılıq sənətinə xüsusi bir incəliklə yanaşmışdır. O dəfələrlə öz çıxışlarında bu sənət haqqında çox yüksək fikirlər söyləmişdir. O bu sənətə dəyər verərək, "Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bugünüdür" demişdir. Milli köklərimizə söykənən bu sənətin Azərbaycanda böyük nümayəndələri olub. Xalçaçılıq sənətinin milli mədəniyyətimizə və dünya mədəniyyətinə tanıdılmasında xalçaçı-rəssam Kamil Əliyevin böyük xidmətləri olmuşdur. Məhz bu insanın xidmətləri Ulu öndər tərəfindən qiymətləndirilmiş və onun haqqında bir neçə sərəncamlar imzalayaraq, Kamil Əliyevi "Xalq rəssamı" fəxri adı, yüksək mükafat "İstiqlal" ordeni ilə təltif etmişdir. Məhz Kamil Əliyev öz sənət əsərlərinin birini Ulu öndərə həsr edərək, Heydər Əliyevin portretini ilmələrə köçürmüşdü. Azərbaycan xalçaşılığının sənət tarixi haqqında "İlmələrə köçürülən rənglər" adlı kataloq tətib edilərək Azərbaycan Xalça Muzeyinə təqdim edilmişdir. Belə ki, bu kataloqda Gəncə, Qarabağ, Qazax, Təbriz və Naxçıvan xalçaçılıq məktəbləri haqqında geniş məlumat verilmişdir. Bu məktəblərin tarixinin arşdırılmasında və onun toxunaraq sərgilənməsində xalçaçı rəssam və ustaların o cümlədən, Lətif Kərimovun, Eldar Mikayılzadənin, Faiq Əhmədovun da xidmətləri böyük olmuşdur. Məhz onun hakimiyyətə qayıdışından sonra mədəniyyətimizin digər sahələrində olduğu kimi xalçaçılıq sənəti durmadan inkişaf etməkdədir. [8, s.72]

Azərbaycanda rəssamlıq sənətinin də qədim və zəngin ənənələri olmuşdur. Realist rəssamlıq sənətinin banisi Bəhruz Kəngərli ilə başlayan məktəbin Azərbaycan milli mədəniyyətinə, boyakarlığın yeni yaradıcı nümayəndələrinin yetişməsində böyük rolu olmuşdur. Azərbaycan rəssamlıq tarixində böyük səhifə açan Əzim Əzimzadə, Səttar Bəhlulzadə, Maral Haşımova, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov, Tahir Salahov kimi dünya şöhrətli rəssamlarımız mədəniyyətimizin ən parlaq nümayəndələridirlər. Ulu öndər bu sənətin də incəliklərinə dərindən bələd olan bir insan kimi daima rəssamları diqqət mərkəzində saxlayaraq, onların hər birinin yaradıcılığına hörmət və məhəbbətlə yanaşmışdır. Eyni zamanda müasir heykəltəraşlıq sənətinin ucalmasında da Ulu öndərin xidmətləri böyük olmuşdur. Azərbaycan heykəltəraşlıq sənəti Cəlal Qaryağdı, Tokay Məmmədov, Fuad Əbdülrəhmanov, Mirələsgər Mirqasımov, Ömər Eldarovun adı ilə bağlıdır. Heydər Əliyev heykəltəraşlıq sənətini Azərbaycan tarixinin, mədəniyyətinin özü qədər qədim, monimental olduğunu qeyd etmişdir. Bütün dünya şəhərlərinin bəzəyinə və ornamentli görünüşə sahib olmasında heykəllərin özünəməxsus yeləri olmuşdur. Heydər Əliyevin istər sovetlər dönəmində, istərsə də müstəqilik illərində ölkəmizə rəhbərliyi dövründə şəhərsalma, memarlıq və heykəltəraşlıq sahəsi xüsusi olaraq genişləndirilmişdir. Təkcə Bakıda deyil, respublikamızın digər bölgələrində də inşa edilən binalar, qurulan heykəllər milli memarlıq ənənələrimizə xidmət etmişdir. Bu gün Azərbaycanın bütün bölgələrində Ulu Öndərin dahiyanə heykəlləri də məhz bu qəbildəndir. [8, s.97]

Milli dövlətçiliyimizin inkişafı və onun qüdrətini təmin edən dahi şəxsiyyət Heydər Əliyevin həyat və yaradıcılığı elə tariximizin özü ilə bir eyniləşir. Məhz bu dahi, böyük mütəfəkkir şəxsiyyət Azərbaycan tarixinin, mədəniyyətinin məzmununu, zənginliyini, həqiqiliyini müəyyən etməklə zamanın fövqünə yüksəlmişdir. XXI əsrin dünyasına Azərbaycan müstəqil bir ölkə kimi güclü iqtisadiyyatı, ictimai-tarixi hadisələri, elm-təhsili, mənəvi-əxlaqi keyfiyyətləri və zəngin mədəniyyəti ilə daxil olmuşdur. Bəli, bu tarixi şəxsiyyət Azərbaycan dövlətinin siyasətində, iqtisadiyyatında, mədəniyyətində, həmçinin xalqının taleyində dönüş yaradaraq, ölkəmizi tənəzzüldən tərəqqiyə çatdırmışdır.

Ədəbiyyat

1. Abdullayev K. M. "Heydər Əliyev və milli-mənəvi dəyərlər" Bakı, 2017, 152 s.
2. Abbasov N. Ə. Müasir şəraitdə azərbaycan dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişaf amilləri. Bakı: Təknur MMC, 2008, 240 s.
3. Əhmədova S.A. Heydər Əliyev və ədəbi tarixi proses (Monoqrafiya), Bakı: Elm, 2013, 156 s.
4. Əhmədova S.A. Heydər Əliyevin dil siyasəti. Bakı: İNCƏ NE, 2010, 212 s.
5. Əfəndiyev T.İ. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. (Monoqrafiya) Bakı, 2011, 270 s.
6. Nəbiyev B.Ə. Cabbarlı N. Heydər Əliyev və azərbaycan ədəbiyyati. AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutu. Bakı: Şərq-Qərb, 2009, 248 s.
7. Prezident Kitabxanası. Heydər Əliyev və mədəniyyət: II cild: 1997-1998. Bakı: Nurlar NPM, 2008, İSBN-9952-426-48-8. 520 s.
8. Rəhimzadə V.G. "Milli–mədəni dəyərlərin qorunmasında Heydər Əliyevin rolu" Bakı: "Təknur MMC", 2017, 235 s
9. Zamanov N.T. Heydər Əliyev və azərbaycan nitq mədəniyyəti. Bakı: Elm və Təhsil, İSBN-978-9952-83842-8, Bakı-nəşr illəri, 2013 (I c., 480 s.), 2014 (II c., 496 s.), 2018 (III c., 520 s.), 2020 (IV c., 544 s.)

РЕЗЮМЕ
ЖИЗНЬ, УВЕКОВЕЧЕННАЯ В НАШЕЙ КУЛЬТУРЕ
Касумова Н.З.

Ключевые слова: *феномен, национальная культура, политическая культура, национальный прогресс, ренессанс, культурное наследие, монументальное искусство, красноречие, народное творчество*

Азербайджан, как обладатель одной из древнейших культур в мире, внесс большой вклад в культуру человечества своей богатой историей, литературой, музыкой и искусством. В истории было много личностей, которые защищали нашу национальную культуру и прославляли её в мире. Азербайджан пережил такой исторический период, который был богат развитием и заботой о нашей культуре. Культура Азербайджана XX века вошла в историю своей интеграцией в мир. Велика исключительная роль и заслуга Гейдара Алиева в укреплении этого места и его признании на мировой арене. Феномен и идеология Гейдара Алиева постоянно обогащали нашу культуру и искусство. На этом уровне Гейдар Алиев развивал Азербайджан и всегда защищал историю, культуру, богатое национально-духовное наследие, богатство, язык и самобытность своего народа.

SUMMARY
THE ETERNAL LIFE IN OUR CULTURE
Gasimova N.Z.

Key words: *a phenomenon, national culture, political culture, national progress, renaissance, cultural heritage, monumental art, eloquence, national creativity*

Azerbaijan, one of the oldest cultures in the world, has made great contributions to human culture with its rich history, literature, music and art. Historically, there have been many personalities who protected our national culture and introduced it to the world. Azerbaijan has experienced such a historical period that this period was rich with the development and care of our culture. Azerbaijan's culture of the 20th century entered history with its integration into the world. The exceptional role and services of Heydar Aliyev are great in the strengthening of this place and its recognition in the world arena. Heydar Aliyev's phenomenon and ideology has constantly enriched our culture and art. At this level, Heydar Aliyev developed Azerbaijan and always protected the history, culture, rich national-spiritual heritage, wealth, language, and overall uniqueness of his people.

MİLLİ TƏƏSSÜBKEŞLİK NÜMUNƏSİ

Qədirova Afət Əbdülhəsən qızı
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Bakı, Azərbaycan, fil.e.n.
afetkadirova@gmail.com

Açar sözlər*: Ulu Öndər, mədəniyyət, muzeylər, mühafizə, təbliğ*

Bəşəriyyət tarixinin ayrı-ayrı mərhələlərində elə görkəmli şəxsiyyətlər olmuşdur ki, mənsub olduqları xalqın siyasi-ictimai, mədəni həyat fəaliyyətində silinməz izlər qoymuş, yalnız adlarını tarix səhifələrinə həkk etdirməmiş, eyni zamanda tarix yaratmışlar. Müasir müstəqil Azərbaycanın memarı, Ümumilli lider Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir. Onun yaratdığı tarixin şanlı səhifələrini öyrənmək isə Azərbaycanın ayrı-ayrı nəsillərinin vətəndaşlıq borcudur. Ulu Öndərin təbirincə desək, "çünki tarixini bilməyən insan öz millətinə, xalqına sədaqətlə xidmət edə bilməz və həqiqi insan ola bilməz" [3, s.472].

Bölüşəcəyimiz məsələlərdə biz Ulu Öndərin şəxsi təşəbbüsü və sərəncamı ilə mədəniyyət tariximizin parlaq səhifələrində yer alan, ictimai-mədəni fəaliyyət missiyası ilə yaradılan muzeylər silsiləsindən bəhs etmək niyyətindəyik.

Bir faktı xüsusi qeyd etməliyə ehtiyac vardır ki, Heydər Əliyevin ölkəyə başçılıq etməyə başladığı ildə, 1969-cu il 10 noyabr tarixində milli ədəbiyyatımızın bütün dövrlərinin tədqiqi və təbliğinə görə ölkənin əsas mədəniyyət ocağı sayılan Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinə ziyarəti muzey işinə xüsusi həssas münasibətinin təzahürü kimi olduqca əhəmiyyətlidir. Ulu Öndərin görkəmli mədəniyyət xadimi Cəfər Cabbarlının 70 illik yubileyi ərəfəsinə təsadüf edən bu möhtəşəm ziyarətdən sonra bu söz məbədinə növbəti gəlişi 1981-ci il noyabr ayının 6-da Nizami Gəncəvinin 840 illik yubileyi ərəfəsinə təsadüf etmişdir.

O, 1990-cı il qanlı yanvar hadisələrindən sonra Azərbaycana gəlişində Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyini yenidən ziyarət etmiş, bu da ölkə üçün ağır və çətin zamanlarda Ulu Öndərin milli mədəniyyətimizə həssas təəssübkeş münasibətinin ifadəsi idi.

Ümumiyyətlə, müxtəlif çıxışlarında, ziyalılarla görüşlərində, ayrı-ayrı mövzulardakı müsahibələrində H.Əliyev muzeylərin xalqın milli tarixinin ayrı-ayrı dövrlərinin, mərhələlərinin öyrənilməsində və təbliğindəki rolunu hər dəfə yüksək dəyərləndirir, xalqın ictimai həyatında, mədəni-estetik dünyagörüşündə onların əhəmiyyət dərəcəsini xüsusi vurğulayırdı.

Milli mədəni özünəməxsusluğun mədəni transformasiyasının təbliğini prioritet məqsəd hesab etməklə ötən əsrin 70-ci illərinin əvvəllərində məhz H.Əliyevin təşəbbüsü, şəxsi səyi və göstərişi ilə Bakıda Azərbaycanın ayrı-ayrı mədəniyyət xadimlərinin ev-muzeyləri açılmağa başladı. Bu qəbildən olan ictimai-mədəni tədbirlərin ilki 20 noyabr 1975-ci ildə Heydər Əlievin fövqəladə yaradıcı istedad sahibi kimi xüsusi dəyər verdiyi böyük şəxsiyyətlərdən Üzeyir Hacıbəyovlinin ev-muzeyinin təntənəli açılışı ilə əlamətdar oldu.

Həmin il Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi sayəsində növbəti muzey 1975-ci ilin oktyabr ayında açıldı. Bu, görkəmli şair Səməd Vurğunun 70 illik yubileyi ərəfəsində yaradılan ev-muzeyi idi. Sonrakı illərdə, yəni Ulu Öndərin 7 mart 1997-ci il Səməd Vurğunun 90 illik yubileyinə həsr edilmiş tədbirdəki çıxışında bəyan etdiyi mövqe yalnız Səməd Vurğuna deyil, yaradıcılığının məhsuldar dövrü sovet dönəminə təsadüf edən bir çox istedadlı qələm sahiblərinə ünvanlanmış fikirlərlə zəngindir. Onun həmin çıxışda səsləndirdiyi müdrik mülahizələrini həm də müstəqillik dövrünün yeni yaranan bir çox inkarçı tədqiqatçıları üçün tam haqla ustad dərsi hesab etmək olar: "Səməd Vurğunun yaradıcılığı dəryadır, indiyədək yazılanlar bunun hamısını əks etdirə bilməyib... Şübhəsiz ki, Səməd Vurğunun əsərləri öz dövründə yazılıbdır. O dövrün hökmü, tələbləri Səməd Vurğunun əsərlərində də öz əksini tapıbdır. Bu gün heç kəs buna görə Səməd Vurğunun əvəzindən üzr istəməməlidir. ... Səməd Vurğun komsomola həsr etdiyi poemasında da, Kommunist Partiyasına həsr etdiyi "Zamanın bayraqdarı" poemasında da öz əqidəsinə xidmət edib, öz əqidəsinə sadiq qalıbdır, eyni zamanda yüksək şeir sənətini nümayiş etdiribdir. ...Hər bir şair öz dövrünün aşiqi olubdur, öz dövrünü yazıbdır. Biz buna görə keçmiş əsrlərin heç bir şairinə hər hansı bir mənfi münasibət göstərə bilmərik və kimisə qınaya bilmərik. Səməd Vurğunu da heç kəs qınaya bilməz ki, o şeirləri, poemaları yazıbdır" [2, s.34].

Bütövlükdə ayrı-ayrı ev-muzeylərinin açılışına və fəaliyyət göstərməsinə böyük əhəmiyyət verən Ulu Öndər bu mədəni tədbirlərlə bağlı çıxışlarında onların vacibliyini xüsusi qeyd edir, hər dəfə bu istiqamətdəki fəaliyyətinin mahiyyətini geniş ictimaiyyətin diqqətinə çatdırır, uzun əsrlərdən keçib gələn adət və ənənələrimizin dəyərini gələcək nəsillərə çatdırmaqda, yetişməkdə olan gənc nəslin mənəvi-estetik tərbiyəsi işində, elmi təfəkkür potensialının inkişafında muzeylərin müstəsna əhəmiyyətini diqqətə çatdırırdı. Bu istiqamətdə görülən işlərdən biri də H.Əliyevin sərəncamı ilə 1975-ci ildə Ordubadda yaradılan, Azərbaycan elminin inkişafına xüsusi töhfələr bəxş etmiş akademik Yusif Məmmədəliyevin ev-muzeyi idi.

Heydər Əliyevin muzeylərin milli ənənələrin gələcək nəsillərə ötürülməsi konsepsiyasını Azərbaycanın siyasi-ictimai, eləcə də ədəbi fikir tarixində müstəsna xidmətləri olan Nəriman Nərimanovun 1913-cü ildən 1918-ci ilə qədər yaşadığı Kommunist (indiki İstiqlaliyyət küçəsi) küçəsindəki 15 nömrəli evdə xatirə muzeyinin açılışı (1977-ci ilin 6 noyabr tarixində) bir daha təsdiqlədi. Belə ki, hələ beş il əvvəl, yəni 6 iyun 1972-ci ildə Nəriman Nərimanovun 100 illik yubieyi münasibətilə abidəsinin açılış

mərasimindəki çıxışında Ulu Öndərin: "Nəriman Nəcəf oğlu Nərimanov bir siyasi rəhbər və təşkilatçı kimi özünün bütün istedadı, qəlbinin bütün hərarəti ilə xalqa xidmət etmişdir" [1, s.26] fikri ev-muzeyləri zəncirinin növbəti möhkəm halqasının yaranacağına zəmanət verirdi.

Onu da qeyd edək ki, muzeylərin açılmasında başlıca əngəllərdən biri həmin evlərdə ailə üzvlərinin, qohumların məskunlaşması məsələsi idi. O insanlara yeni mənzillər təklif olunsa da, bəzən onların yersiz tərəddüdləri məsələni uzadır, muzeylərin açılması prosesini ləngidirdi. Bütün inzibati-sosial məsələləri öz siyasi iradəsi və humanist uzaqgörənliklə həll edən Ulu Öndər həyatının mənası və məqsədi hesab etdiyi xalqa xidmətini ardıcıllıqla və təmkinlə həyata keçirirdi.

Bu qəbildən olan əlamətdar mədəniyyət hadisəsi kimi 1982-ci il mart ayının 22-də, C.Cabbarlının doğum günündə milli səhnəmizdə çağdaş ideya-bədii həqiqətlərin teatr vasitələri ilə ifadəsinə nail olan ədibin həm abidəsinin, həm də ev muzeyinin açılış mərasimi oldu.

Həmin silsilə tədbirlər mühüm mədəni siyasət xəttinin tərkib hissəsi olaraq dövlətin diqqətinin həssaslıqla zəngin qayğısının konkret göstəriciləri idi və həmin ilin 11 iyun tarixində Bülbülün xatirə muzeyinin açılışı da milli mədəniyyətə təəssübkeş münasibətin növbəti təzahürü idi. Açılış mərasimindəki nitqində H.Əliyev bu xatirə muzeyinin yaradılmasını mühüm mədəniyyət hadisəsi kimi dəyərləndirmişdi.

Musiqi sənətimizin dövlət qayğısına nümunə olaraq 1994-cü ilin milli təqvimdə musiqi günü kimi qeydiyyatdan keçən 18 sentyabr − Ü.Hacıbəylinin doğum günü görkəmli mədəniyyət xadimi Niyazinin ev muzeyinin təntənəli açılış mərasimi oldu. Açılış mərasimindəki çıxışında H.Əliyev Niyasi şəxsiyyətinin və istedadının ayrı-ayrı çalarlarını ifadə edən mülahizələrini dilə gətirib: "...onun özünəməxsus dəst-xətti vardı. Bu da onu nəinki fərqləndirirdi, həm də qeyri-adiliyini göstərirdi. Bu qeyri-adilik onun yalnız və yalnız böyük bəstəkar, böyük dirijor, böyük musiqiçi olduğuna dəlalət edirdi" [1, s.234] – deyən Ulu Öndər musiqi mədəniyyətimizin qədimlikdən bu günə gələn varislik xüsusiyyətini vurğulayırdı.

Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin etnopsixoloji qatda ədəbi nümunələrin mayasında təzahürünə nail olan görkəmli yazıçı Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılması barədə hələ 1980-ci illərdən göstəriş verilsə də, mənzillərin ayrılması ilə bağlı problem yaranmış, sonralar 1982-ci ildə problem həll olunsa da, H.Əliyevin Moskvaya, SSRİ rəhbərliyində yüksək vəzifəyə dəvət aldığı üçün başladığı iş yarımçıq qalmışdı. Beləliklə, C.Məmmədquluzadənin ev-muzeyinin açılışı 12 il sonra – 28 dekabr 1994-cü ildə Heydər Əliyevin Azərbaycana qayıdışından sonra baş tutdu.

Molla Nəsrəddin ədəbi məktəbinin, eyni adda jurnalın yaradıcısı olan C.Məmmədquluzadənin ictimai-ədəbi fəaliyyəti, milli özünüdərk, düşüncə oyanışına təkan olan bədii yaradıcılığı misilsiz nümunələrlə zəngindir.Ədibin felyetonları, hekayələri dram əsərləri milli ədəbiyyatımızın ən dəyərli yaradıcılıq məhsulu olaraq xalqımızın ictimai şüurunun oyanmasında müstəsna əhəmiyyət kəsb edir.

Cəlil Məmmədquluzadənin ev-muzeyinin fəxri qonaqlar kitabına öz dəsti-xətti ilə yazdığı ürək sözləri də Ulu Öndərin ev-muzeylərinin açılmasındakı şəxsi təşəbbüsünün mahiyyətini bir daha açıqlayırdı: "Bakı şəhərində yeni mədəniyyət ocağı, Mirzə Cəlil ocağı fəaliyyətə başlayır. Bu, C.Məmmədquluzadənin yaradıcılığına, onun ədəbi, mədəni irsinə, onun xalqımızın tarixində əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin rəmzidir" [1, s.273].

Əlamətdar fakt olaraq onu da qeyd etmək vacibdir ki, 13 oktyabr 1999-cu ildə Cəlil Məmmədquluzadənin Naxçıvanda da ev-muzeyinin açılış mərasimi oldu.

Ev-muzeylərinin fəaliyyət şəbəkəsi genişlənməkdə davam etdikcə, xalq arasında siyasi iradənin, milli təəssübkeşliyin bariz təzahürləri kimi dəyərləndirilirdi. 2002-ci il oktyabr ayının 24-də Bakıda Hüseyn Cavidin ev-muzeyinin açılış mərasimindəki çıxışı da xalqın ümummilli liderinə inamını bir daha təsdiqlədi. Belə ki, 1920-ci ildən repressiya illərində həbs olunanadək H.Cavidin yaşadığı binanı memarlıq abidəsi kimi yüksək qiymətləndirməsi, hər hansı nazirliklərə, inzibati orqanlara yox, məhz Əlyazmalar Fonduna verilməsi Ulu Öndərin mədəni siyasət xəttinin növbəti perspektiv və uğurlu addımlarından biri oldu. Açılış mərasimindəki çıxışında H.Əliyev bu barədə belə deyirdi: "...Belə binalar Azərbaycanın milli sərvətidir. Hansısa bir nazirlik, hansısa bir inzibati təşkilat özü üçün bina ala bilər. Amma belə binaları memarlıq abidələri kimi həm qoruyub saxlamaq lazımdır, həm də ondan istifadə edərkən uyğun təşkilatları orada yerləşdirmək, yaxud onların sərəncamına vermək lazımdır" [3, s.473-474].

Elə həmin ilin 18 iyununda Naxçıvanda rəssam Bəhruz Kəngərli muzeyinin açılış mərasimi oldu. Heydər Əliyev rəssam Bəhruz Kəngərlinin yaradıcılığını yüksək qiymətləndirərək, onun ayrı-ayrı fondlarda qorunub saxlanılan əsərləri ilə geniş ictimaiyyətin tanış olması üçün bu görkəmli sənətkarın muzeyinin yaradılmasının əhəmiyyətini diqqətə çatdırırdı. Bu da ilk ali təhsilli rəssam kimi gənc yaşlarından başlayaraq milli rəssamlıq məktəbinin formalaşmasına sədaqətlə xidmət edən Bəhruz Kəngərli irsinin təbliğ edilməsi məsələsinin vaciibliyini ortaya qoyurdu.

Yaxın tariximizi diqqətlə nəzərdən keçirdikdə açıq-aşkar görünən faktlar təəccüb hissi doğurur. Belə ki, ötən əsrin sonlarından başlayaraq elə bir ictimai-mədəni sahə tapmaq çətindir ki, orada Ulu Öndərin

diqqəti, qayğısı öz təsirini göstərməsin. Yəni özünün daxili və xarici siyasət, iqtisadi tənzimləmə və inkişaf sahəsindəki titanik fəaliyyətinin miqyas genişliyinə baxmayaraq, H.Əliyev xalqımızın ictimai-mədəni həyatının bütün sferalarına xüsusi nəzər yetirməyə vaxt tapırdı.

Başqa sözlə desək, ana dilimizin qanunvericilikdə təsbit olunmasından tutmuş, dinlərarası tolerantlıq, multikultural dəyərlərə ehtiram, tarixi abidələrin, mədəni mirasın qorunması, elmin, ədəbiyyatın, musiqi, təsviri və tətbiqi-dekorativ sənətin, teatrın, kinonun, muzeylərin, kitabxanaların və b. sahələrin inkişafı üçün Ulu Öndərin gördüyü işlər misilsizdir.

Xalqımızın uzun əsrlər boyu inkişaf edib formalaşan mədəniyyət tarixində xüsusi xidmətləri olan şəxsiyyətlərinin unudulmaması, xatirələrinin əbədiləşdirilməsi, təbliğ edilməsi H.Əliyevin təbiətinə məxsus olan milli təəssübkeşliklə bağlı idi. Belə ki, Azərbaycanın görkəmli xadimlərinin ev-muzeylərinin yaradılması ilə bağlı fəaliyyətindən danışarkən Ulu Öndər qururunu, fəxarətini açıq bəyan edərək deyirdi: " ...Çox fəxr edirəm ki, mən Azərbaycanın tarixini əks etdirən, xalqımızın tarixində böyük izlər qoymuş, xalqımıza böyük xidmətlər göstərmiş dahi, böyük insanların ev-muzeylərinin yaradılmasının həm təşəbbüskarı olmuşam, həm də onların həyata keçirilməsini təmin etmişəm" [2, s.258].

Söz yox ki, görkəmli şəxsiyyətlərin ev muzeylərinin açılması müstəsna əhəmiyyət kəsb edən məsələdir. Amma iş burasındadır ki, Ulu Öndər çoxcəhətli dövlət işləri ilə yanaşı açılan həmin muzeylərin fəaliyyətini də diqqətində saxlamağa imkan tapır, milli mədəniyyətimizin tərəqqisinə öz rəhbər qayğısını əsirgəmirdi. Bu, sözün əsl mənasında heyrətamiz vətəndaşlıq ali dərəcədə Öndərlik nümunəsi idi.

Ədəbiyyat

1. Heydər Əliyev və mədəniyyət: Üç cilddə. I c. Bakı: Nurlar, 2008, 504 s.
2. Heydər Əliyev və mədəniyyət: Üç cilddə. II c. Bakı: Nurlar, 2008, 528 s.
3. Heydər Əliyev və mədəniyyət: Üç cilddə. III c. Bakı: Nurlar, 2008, 536 s.

РЕЗЮМЕ
ПРИМЕР НАЦИОНАЛЬНОЙ ПРИВЕРЖЕННОСТИ
Гадирова А.А.

***Ключевые слова**: Гейдар Алиев, культура, музеи, защита, пропаганда*

В статье затрагивается внимание и бережное отношение великого лидера Гейдара Алиева, архитектора нашего сегодняшнего независимого государства, к музейному делу, являющемуся институтом нашей национальной культуры, которая собирает, охраняет и пропагандирует.

Увеличение числа музеев, действующих в нашей стране, расширение музейной сети в целом, интенсивность ее функционального масштаба, а также развитие национальной культуры несомненно, были связаны с дальновидной внутренней политикой Великого Лидера, которую он считал приоритетным направлением внутренней политики.

В статье показаны конкретные примеры личных усилий Г. Алиева в организации и открытии нескольких музеев, в том числе домов музеев видных ученых и художников, и его преданность каждому поколению граждан страны, что является примером национального фанатизма.

SUMMARY
AN EXAMPLE OF NATIONAL FANATICISM
Gadirova A.A.

***Keywords:** Heydar Aliyev, culture, museums, protection, propaganda*

The article touches on different aspects of attention and caring attitude of the Great Leader Heydar Aliyev, the architect of our independent state today, to the museums, which are institutions for the collection, preservation and promotion of our national culture

The increase in the number of museums operating in our country, the expansion of the museum network as a whole, the intensity of its functional scale, was undoubtedly related to the visionary domestic policy of the Great Leader, including the development trends of national culture, which he considered a priority in this policy.

The article shows specific examples of H.Aliyev's personal efforts in organizing and opening several museums, including the house-museums of individual scientists and artists, and his dedication to every generation of citizens of the country, which is an example of national fanaticism.

SATİRA BƏDİİ GÜLÜŞÜN NÖVLƏRİNDƏN BİRİ KİMİ

Qəhrəmanova Ulduz Fərhad qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan, fil.f.d.
ulduzkahraman1@gmail.com

***Açar sözlər:** ədəbiyyat, satira, bədii gülüş, kinayə, sarkazm*

Həyatı dərk etmədən heç nəyə gülmək olmaz. Bütün canlı varlıqlar arasında gülüş yalnız insana məxsusdur. İnsan yeganə canlı varlıqdır ki, həm gülür, həm də gülüş obyekti olur. Gülüş insanı düşündürməlidir, nəticə çıxarmağa, ibrət götürməyə, mübarizə aparmağa hazırlamalıdır. Gülüş insanı öz eyib və nöqsanlarından əl çəkməyə məcbur edir. Heç kəs öz-özünü ifşa etdiyi qədər başqası onu ifşa edə bilməz. Gülüş öz təbiətinə görə xəlqi keyfiyyətlərə malik olmalıdır. Gülüş yalanı sevmir. Çünki gülüş məhz yalana qarşı çevrilir. Ona görə də gülüşün daxilində yalan gizlətmək mümkün deyil. İnsan xislətində qəmdən sonra ən doğma hiss məhz gülüşdür. Gülüş eybəcərliyin qənimidir. "Gülmək həm də insanın gözəl, xeyirxah, nəcib, məhz insani xüsusiyyətlərindəndir. Onu başqa məxluqatdan, heyvanatdan ayıran, onun yüksəkliyini göstərən ülvi, təmiz, parlaq bir əlamətdir". [6, s.214-215]

Yazıçı gülməlini, gülüncü həyatdan mənimsəyir, ətraf mühitdən seçib götürür və onu yüksək sənət səviyyəsinə qaldıraraq oxucunu, tamaşaçını güldürür. Beləliklə, komik sənət gülüşdən (gülüncdən) başlayır və gülüşlə bitir. (14, 37-38") "Komiklik insanı həqiqətə, düzlüyə, ülviliyə aparan şəffaf bir yoldur". (U.Q.)

Əsrlər bir-birini əvəz etdikcə, insanlar təbəqələşib hakim-məhkuma bölünüb bir-birindən uzaqlaşdıqca onların haqsızlığa hiddəti, nifrəti, qəzəbi ədəbiyyatda satirik, yumoristik formalarda meydana çıxırdı. Zaman-zaman ictimai formasiyaların hamısında ədalətsizlik, haqsızlıq, zülmkarlıq, istismarçılıq ədəbiyyatda öz əksini tapıbdır. Aşağı təbəqə əzilib, talanıb təhqir olunubdur. Say etibarı ilə aşağı təbəqə çoxluq təşkil etsə də, daim istismara, zülmə məruz qalan da həmişə aşağı təbəqə olubdur.

Haqq və ədaləti müdafiə etmək sənətkarların əsas mövzusuna çevrilirdi və bu narazılığı ədəbiyyatda həmişə müxtəlif bədii nümunələrdə əks etdirdilər. Hər bir sənətkarın fərdi üslubunun formalaşmasında zaman, mühit və sənətkarın ictimai mövqeyi həlledici rola malikdir. Bu da dövrün tələblərinə köklənir, bədii həqiqəti sənətkara zamanın özü diqtə edir.

Məlumdur ki, sadə xalq kütlələri hakim dairələrə narazılığını bildirəndə çox vaxt gülüşdən, kinayə və istehzadan istifadə edirdilər. Yazıçı gülüş vasitəsilə əks etdirdiyi həyat hadisələrinə öz münasibətini bildirir. Bu baxımdan bədii ədəbiyyatda gülüşün iki növü müəyyənləşir: Satira və yumor

Satirik əsər, satirik gülüş həyat hadisələrindən doğur. Belə ki, satira varlığın bədii əksini verən, mənfi cəhətlərini, mahiyyətini açan, ifşa edən komik növdür. Köhnə həyatla mübarizədə satiranın əhəmiyyəti böyükdür. Sənətkar cəmiyyətdəki eyibləri, maneələri, zülmü, cəhaləti tənqid və ifşa etməklə qələmə aldığı həyatı ya islah, ya da rədd edir.

Satira ancaq ifşaedici, kəskin kinayəli gülüşdür. Satirik gülüş dərin və ciddi gülüşdür. Kəskin gülüşdə sənətkarın nifrəti hiss olunur. Çünki satirada sənətkarın danışdığı əhvalatda əslində gülüş doğuran heç nə olmur. Sadəcə olaraq sənətkarın danışdığı əhvalat o dərəcəyə çatıb ki, mühit, insanlar o qədər pisləşib ki, sənətkar onlara kinayəli münasibət bəsləyir və sənətkar tərəfindən kəskin gülüş yaranır. Əslində isə sənətkarın danışdığı əhvalat acınacaqlı vəziyyət, tənqiddir.

Göründüyü kimi, satira cəmiyyətlə fasiləsiz mübarizə aparan bədii gülüşdür. Yazıçı satira yazarkən qəzəblə hər hansı bir ictimai hadisəni qələmə alır, nifrətini acı gülüş yolu ilə verir. Deməli, cəmiyyətin müxtəlif dairələrinin sənətkar tərəfindən tənqidi ilə bağlı yaranan gülüş satiradır, kəskin gülüşdür. Çünki satira iylənmiş, çürümüş, müalicəsi mümkün olmayan sosial eyibləri baltalayıb atmaq yolunu seçməklə ictimai qüsurlarla, mədəni geriliyin fəsadları ilə, mənəvi şikəstlik ilə mübarizə aparır. Satirik ədib insanın ictimai qüsurunu, eybəcər tərəfini qabartmaqla cəmiyyətdəki ictimai problemə işıq salmış olur. Əsl satirada mübaliğə həmişə olur. Əslində satira cəmiyyəti mənəvi-əxlaqi kamilləşməyə aparan bir yoldur. Cəmiyyəti təmizləmək baxımından satiranı əvəz edəcək II əhəmiyyətli yol bəlkə də yoxdur.

Satirik gülüş, gerilik və nöqsanlar əleyhinə çevrilmiş silahdır, cəmiyyətin demokratikləşməsinə və tərəqqisinə kömək edən güclü vasitədir. Satira müəllifin dünyagörüşünün təzahür forması, həyatı dərketmə üsul və vasitələrindən biridir. Satira bütün zamanların təzahür formasıdır. Satira bədii gülüşdür, eybəcərliyin ifşasıdır. Satirik əsərlərdə həyat həqiqətləri satirik gülüş fonunda təqdim olunur. Tənqid satirik gülüşün nüvəsini təşkil edir. Lakin məzmununda tənqid olan hər cür gülüşdə özlüyündə dərin ictimai satira deyil. Ədəbiyyatşünaslıqda ancaq ifşaedici gülüşə satira deyilir. Satira sosial bəlalardan, hər cür mənəvi-əxlaqi naqislikdən yaxa qurtarmaq vasitəsi, qüdrətli mübarizə üsuludur.

Satirik üslubda poetik obrazlılıq yaradan vasitələrdən bir də ancaq dioloji nitqdə işlənən kalamburlardır. Kalamburlar sözgüləşdirmədir. Bədii üslubda mənfi tipi ələ salmaq, ifşa etmək məqsədi ilə səhnə əsərlərinin, ən əsası da komediyaların dilində kalamburlardan istifadə edilir. Kalamburlar ikibaşlı deyim tərzi daşıyır.

Komikliyin inikası növləri: qrotesk, hiperbola, bədii şişirtmədir. Hiperbola satirik yazıçı üçün sanki mikroskopu, böyüdücü şüşəni əvəz edir. Belə ki, mənfi tip bu "böyüdücü şüşə" altına düşdükdə onun bütün günahlarını, eybəcərliklərini, islah olmalı cəhətlərini daha aydın görən, duyan, dərk edən oxucuda ona qarşı kin, etiraz, nifrət oyanır.

Qrotesk fantastik formada ifrat mübaliğədir. Qroteksin funksiyası bəzən fantastik süjet yaratmaqdır.

Qroteks inadırıcılıq həddini keçir, obrazı reallıqdan uzaqlaşdırır. Qroteks üslubu ilə yaradılan obraz haqqında belə deyilir: "inanılası deyil", "fantaziyadır". Qroteks əsasən intibah ədəbiyyatında daha çox inkişaf etmişdir. Qroteks xarakterin keyfiyyətinin şişirdilərək pozulmasıdır. Qroteksdə bir yerdə sığışmayan əlamətlər bir hadisəyə, bir şəxsə, bir əşyaya süni şəkildə cəmləşdirilir. "Qroteks" sözünün mənşəyi naməlum rəssam tərəfindən çəkilmiş yarı heyvan, yarı bitki ornamentdir. Bu ornament XVI əsrdə qədim Roma ərazisindəki qrotlarda yəni kaha, mağarada çəkilmişdir. Qroteks şişirtmənin bir formasıdır.

Satiranın formaları:

1.Kinayə, ironiya, tənə, istehza, rişxənd bir-birinə sinonim olan terminlərdir. Müəyyən bir fikrə dolayı yolla, üstüörtülü şəkildə münasibət bildirməkdir. Kinayə (ironiya, tənə) kobud şəkildə ələsalma, rişxənd, lağa qoymaqdır. Kinayə ərəb sözü olub tənə etmək, toxunmaq mənasını bildirir. İroniya termini də yunanca "eironeia" sözündən olub hiyləgər, gizli istehzalı gülüş deməkdir. Kinayə bədii gülüşün təzahür forması olub satiranın ən qüvvətli tərkib hissəsidir. Satiranın gücü kinayədən aslıdır. Məsələn: Əgər zəif cüssəli bir adamın pəhləvanlığından, hamının qorxaq kimi tanıdığı adamın şücaətindən, qəhrəmanlığından danışılırsa, bu kinayə, ironiyadır. Məsələn: Qacarın dediyi:

Vətən! Çoxmu sevir məni o vətən?
Mənə həcv yazır hər yoldan ötən! (S.Vurğun "Vaqif" dramı)

misraları kinayədir. Çünki Qacar öz vətənində sevilmədiyini yaxşı bilirdi.

Kinayə xarakteri daşıyan ifadə üçün həyəcan, yüksək ton, hiddət deyil, sakitlik əsas şərtdir. Sakit, adi şəkildə deyilmiş sözlər daha dərin və ciddi məna kəsb edir. Deməli, kinayə insana, hadisə və əhvalata tənəli, istehzalı, rişxəndli münasibətdir. Ancaq bu münasibət təmkinlə, sakit və soyuqqanlı ahənglə ifadə olunur. Bizə elə gəlir ki, tənqid edilən, lağa qoyulan şəxs, hadisə, əhvalat sanki tərifləniliir. Kinayədə söz öz həqiqi mənasında yox, məcazi mənasında işlənir. Məsələn: M.Ə.Sabirin satiraları başdan-ayağa kinayə üzərində qurulmuşdur. Onun "Ata nəsihəti" satirasına nəzər salsaq görərik ki, ata elm öyrənməyə çalışan oğlunu, düşdüyü yaman yoldan çəkindirməyə çalışır. Bu məqsədlə ona belə "öyüd" və "ağıl" verir:

Bəsdir, ey oğul, boş yerə bu elmə çalışma,
Qanın tələf oldu!
Gündüz, gecə səy eyləyibən dərsə alışma,
Canın tələf oldu!
Bu şəhrdə çoxdur, görürəm, elm oxuyanlar,
Onlar nə tapıblar?
Divanədilər malını bu yolda qoyanlar,
Guya ki, yatıblar... [13, s.81]

"Nəsihət" bu ruhda davam edir. Ata oxuyanların aləmi qarışdırıb həm özlərini, həm də ətrafı incitdiklərini əsas gətirir. Bununla, öz mövqeyinin doğruluğunu sübut etməyə çalışır. O, pislədiyi, bəyənməyib zərərli hesab etdiyi yolun əvəzinə oğluna belə bir yolu "məsləhət" görür:

Bundan sora qıl tövbə dəxi, məktəbə getmə,
Bircə usan, oğlum!
Ta baxma müəllim sözünə, ta əməl etmə,
Axır utan, oğlum!
Çıx dağa, daşa, yol kəsibən qarətə başla,
Axırda qaçaq ol;
Sal bir beşatan boynuna, bu adətə başla;
Həmmali-yaraq ol,
Xəlqə dadanaq ol,
Hər işdə sayaq ol,
Var cana ziyanı
Qeyrətdən uzaq ol!... [13, s.81]

"Ata nəsihəti" satirasında oğlunu dərsdən, məktəbdən, elmdən çəkindirməyə çalışan ataya sənətkarın kinayəsinin şahidi oluruq. Sabirin bu satirası M.Füzulinin məşhur "Leyli və Məcnun" poemasında atasının Məcnuna nəsihətindən bəhrələnməklə yazılmışdır. Professor M.Məmmədov həmin satira ilə bağlı "Hophopnamə"nin [13, s.81-82] "İzah və şərh"lərində yazır: "Bu şeir Füzulinin "Leyli və Məcnun" poemasında Məcnuna atası tərəfindən edilən nəsihətə bənzətmədir.

Kinayənin gücü, bədii dəyəri onun ictimai mənasındadır. Kinayə məcaz növüdür, yəni bədii-ifadə vasitəsidir, onun yeri-yurdu, fəaliyyət sahəsi satirik və yumoristik əsərlərdir. Kinayədə sətiraltı mənaya üstünlük verilir. Sətiraltı məna adətən kinayəli ifadənin, satiranın, yumorun, atalar sözləri və lətifələrin alt qatında gizlənir. "Kinayəni məcazi söz yox, məcazi gülüş hesab etmək daha doğru olardı. Lap əslində kinayə təkcə məcazi gülüş deyil, ümumiyyətlə, tənqidi gülüşün əsas yaradıcısı, mayasıdır". [4, s.33]

İstehza satirik əsərlərdə zəhərli gülüşün ifadəsidir. İstehza danışan yaxud yazan adamın, haqqında bəhs etdiyi şəxsdən, şəxslərdən üstün olması nəticəsində meydana çıxan bir haldır. İstehzaya satirik şeirlərdə daha çox rast gəlinir. Məsələn: M.Ə.Sabirin satirik şeirləri istehza içindədir.

Millət necə tarac olur, olsun, nə işim var?!
Düşmənlərə möhtac olur, olsun, nə işim var?!

2.Sarkazm, təriz bir-birinə sinonim olan terminlərdir. Sarkazm yunanca "parçalama", "dağıtma", "iztirab" mənaları daşıyan, qəzəbli gülüş deməkdir. Sarkazm kinayənin ən son kəskin, şiddətli pilləsidir. Sarkazmda istehza, tənə daha yüksək mərhələyə çatır. Burada qəzəb, nifrət hissi özünü göstərir. Sarkazmla kinayənin fərqi:

- Kinayə sakit bir tərzdə, ciddi, soyuqqanlıqla deyilirsə, sarkazm şiddətli, gərgin, həyəcanlı tərzdə deyilir.
- Kinayədə nifrət, sarkazmda qəzəb hissi var.

Məmməd Əliyeyə əsaslanaraq kinayənin aşağıdakı növlərini müəyyənləşdirə bilərik:

1.Tərif etməklə tətbiq edilən kinayə növü. Məsələn: M.Ə.Sabirin İran şahının dilindən yazılan "Mən şahi-qəvişövkətəm,.." [13, s.121] sözləri ilə başlayan satirasında satirik tip özünü belə öyür:

Mən şahi-qəvişövkətəm, İran özümündür!
İran özümün, Rey, Təbəristan özümündür!
Abad ola, ya qalsa da viran, özümündür!
Qanuni-əsasi nədi, fərman özümündür!
Şövkət özümün, fəxr özümün, şan özümündür!

Vermişdi atam gər sizə qanuni-əsasi,
Bir molla kişiydi, var idi hilmi, həyasi,
Bilməzdi nədir leyk, ümurati-saiyasi;
Ey həmşəri, sən əyninə gey bitli libasi!
Xələt özümün, təxti-zərəfşan özümündür!
Şövkət özümün, fəxr özümün, şan özümündür! [13, s.121].

Göründüyü kimi, şah özünü öyərək "dövlətçilik", "idarəçilik" bacarığını nümayiş etdirir. Atası Müzəffərəddin şahın "bir molla kişi" olduğunu, siyasət nə olduğunu bilmədiyi üçün ölkədə "qanuni-əsasi" elan etməsindən narazı qaldığını bildirir. Elan edir ki, ölkədə demokratiyadan söhbət belə gedə bilməz. Ölkə, onun varlığı və bütün sərvəti mənə məxsusdur. Ona görə hökm və fərman vermək səlahiyyəti də mənə məxsusdur. Özü də ölkənin abad, ya bərbad olmasının heç kəsə dəxli yoxdur. Çünki mən mütləq hakiməm. Satirik tip bütün bu səlahiyyət və imkanlarını bildirdikdən sonra özünün eybəcər daxili sifətləri haqda belə məlumat verir.

2.Tənqid etməklə tətbiq edilən kinayə növü: Məsələn: Yenə də M.Ə.Sabirin İran şahının dilindən yazılan "Mən şahi-qəvişövkətəm,.." [13, s.121] sözləri ilə başlayan satirasındakı satirik tipin özünü öymə səhnəsinə nəzər salaq:

İranlı deyil, cümlə bilir Məndəliyəm mən,
Gürgani-cəfavü sitəmin çəngəliyəm mən,
İranlıların başlarının əngəliyəm mən,
Sorram, içərəm qanlarını-çün zəliyəm mən,
Laşə özümün, ət özümün, qan özümündür!
Şövkət özümün, fəxr özümün, şan özümündür!

Gördüz ki, necə sizləri tədib elədim mən!
Baqqal balasın leşkərə sərtib elədim mən!
Atəşlə yaxıb məclisi tərxib elədim mən!
Quranı danıb, andı da təkzib elədim mən!
Sövgənd nədir, əhd nə, fərman özümündür!
Şövkət özümün, fəxr özümün, şan özümündür! [13, s.121-122]

Bu öyünmələr davam etdikcə İran şahı Məhəmmədəli Mirzənin vəhşi və yırtıcı təbiəti oxucunun gözü qarşısında bütün dəhşəti ilə canlanır. O, vəhşi və yırtıcı olmaqla yanaşı yalançı və hiyləgərdir. Bütün müsbət dəyərlər bu tipə yaddır. Ona görə də xalqa verdiyi vədləri də, Qurana içdiyi andı da danması ilə fəxr edir.

İran şahını özünü bu cür öyüb tərifləməsinə, bəd əməlləri ilə fəxr etməsinə səbəb nədir? Satiradan aydın görünür ki, ölkədə baş qaldıran azadlıq qüvvələrinin xofu şahı hövsələdən çıxarmışdır. Ona görə onların qarşısına bu cür hərbə-zorba ilə, özünü öyməklə çıxır. Şah bir qədər də irəli gedib Təbriz

inqilabçılarını vaxtilə ona etimad göstərdiklərinə görə yamanlayır:

Təbrizlilərin kor idimi gözləri əvvəl,
Bir yerdə keçirtdik gecə-gündüzləri əvvəl,
Həqqimdə yox idi oların sözləri əvvəl,
Şah etdilər İranə məni özləri əvvəl,
İndi nə deyirlər dəxi, dövran özümündür!
Qızlar özümündür, gözəl oğlan özümündür! [13, s.122]

Bütün bu qınaqlardan, hədə-qorxulardan, fəxr etmələrdən sonra ölkə əhaləsinə həqarətli münasibət bəslədiyini də gizlətmir. Onun rəyinə görə, iranlılar hər cür təhqirə, acınacalı güzərana layiqdirlər. Bu barədə satirada oxuyuruq:

İranlı gərək ömr edə zillətdə həmişə,
Nikbətdə, əsarətdə, məzəllətdə həmişə;
İranlı gərək can verə qürbətdə həmişə!
İranlı, itil, get yaxanı bitdə həmişə!
Xaqan özümün, kişvərü saman özümündür!
Şövkət özümün, fəxr özümün, şan özümündür! [13, s.122]

Şahın özünü öyməsi, lovğalanması, ölkəni xarabazara çevirməsi, bütün bunlardan utanmaq əvəzinə fəxr etməsi onun öz həmvətənlərinə həqarətli münasibətindən, həm də vəhşi təbiətindən irəli gəlir. Sabir İran şahını özünü öydürməklə ifşa etmişdir.

Aparılan təhlillərdən də göründüyü kimi, M.Ə.Sabir eyni satiralarının içində kinayənin hər iki növündən məharətlə istifadə etmişdir.

Abbas Hacıyev satira haqqında danışarkən kinayə ilə bağlı belə demişdir: "Kinayə insana, hadisə və əhvalata tənəli, istehzalı və rişxəndli münasibətdir. Ancaq bu münasibət təmkinlə, sakit və soyuqqanlı ahənglə ifadə olunur. Elə bil tənqid edilən, lağa qoyulan adam tərifləniliр, onun mövqeyində dayanılır, ancaq əslində pis əməlləri pislənilir". [10, s.197]

Satira yaradıcılığı üçün kinayə və istehzanın olması əsas şərtdir. Satiranın nüvəsində ifşa dayanır. Bu ifşa həcvlərdə birbaşa, yəni ünvanı ilə, təmsillərdə isə alleqorik şəkildə həyata keçirilir.

Satira cəmiyyətdən narazı qalanların, hüququ tapdalanları mənəvi cəhətdən qoruyan, onların yaralarına məlhəm olan bədii priyomdur. Satira bəşər tarixində mənəvi ucalıq, firavanlıq simvoludur. Satira latınca "qarışıq" (smes), "hər şey" mənası verən kəskin, ifşaedici, bütöv ictimai epoxaya, onun siyasi-mənəvi arsenalına qarşı yönəlmiş gülüşdür. Əslində satira öldürücü, məhvedici gülüş deyil. Satiranın öldürücü, məhvedici gülüş kimi xarakterizə edilməsi Sovet ideologiyasının təsirindən irəli gəlir. Bu fikir də tamamilə yanlışdır. Çünki sənətkar əslində kimisə öldürmür. Satira ancaq tərbiyəedici gülüşdür.

Ədəbiyyat:

1. Abiyev A. Türkiyə ədəbiyyatı tarixi. Bakı: Bakı Universiteti, 2007.
2. Abıyev A. Türk ədəbiyyatında satira. Bakı: Elm, 1991.
3. Azərbaycan ədəbiyyatı tarixi, AMEA-nın Ədəbiyyat İnstitutu, 6 cilddə: IV cild, Bakı, 2011
4. Ağazadə Y.B. Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkülü və inkişafı, f.ü.e.dok. dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 2013.
5. Babayev B.M. Azərbaycan realist nəsrində satiranın təşəkkülü, inkişaf mərhələləri və problemləri (1850-1920), filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 2012.
6. Cəlal Mir, Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları, Bakı: Çaşıoğlu, 2005.
7. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı, 2008.
8. Əliyev M. Ədəbiyyat nəzəriyyəsinin əsasları. Bakı, 2000.
9. Əliyev R. Ədəbiyyatşünaslığın əsasları. Bakı, 2001.
10. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1999.
11. Xəndan C. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1958.
12. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı. 2019.
13. Qəhrəmanova U. M.Ə.Sabir və klassik irs, f.ü.f.d.dissertasiyası. Bakı, 2015.
14. Kazımov Q. Bədii ədəbiyyatda komizmun üsulları. Bakı: Maarif, 1987
15. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq ensiklopedik lüğəti. Bakı: Azərbaycan Elmlər Akademiyası, 1998
16. Rəfili M. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1958.
17. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 2012.
18. Hacıyev T. Satira dili. Bakı: ADU, 1975.
19. Hüseynov F.E. Satirik gülüşün qüdrəti, Bakı: Yazıçı, 1982.
20. Məmmədov K. XIX əsr Azərbaycan şeirində satira. Bakı: Elm, 1975.

21. Məmmədov K. XX əsr Azərbaycan gülüşü. Bakı: Yazıçı, 1989.

РЕЗЮМЕ
САТИРА КАК ОДИН ИЗ ВИДОВ ХУДОЖЕСТВЕННОГО СМЕХА
Кахраманова У.Ф.

Ключевые слова: *литература, сатира, художественный смех, ирония, сарказм.*

Сатира — это лишь обличительный, остро-саркастический смех. Сатирический смех — глубокий и серьезный смех. В резком смехе чувствуется презрение художника. Потому что в сатирическом плане в истории, рассказанной художником, нет ничего смешного. Просто история, рассказанная художником, дошла до такого уровня, что окружающая среда и люди настолько испортились, что у художника возникает саркастическое отношение к ним и вызывает у художника резкий смех. На самом деле история, рассказанная художником, — это печальная ситуация, критика.

Сатира — художественный прием, который морально защищает недовольных обществом и тех, чьи права попираются. Сатира является символом духовного совершенства и процветания в истории человечества. Сатира — это острый, разоблачительный, смех, направленный против всей социальной эпохи, ее политико-нравственного арсенала, что в переводе с латыни означает «смешанный» (smes), «все». На самом деле сатира — это не убийственный, разрушительный смех. Характеристика сатиры как убийственного, разрушительного смеха происходит от влияния советской идеологии. Эта идея также совершенно неверна. Потому что художник на самом деле никого не убивает. Сатира — это только назидательный смех.

SUMMARY
SATIRE AS ONE OF THE TYPES OF ARTISTIC LAUGHTER
Kahramanova U.F.

Key words: *literature, satire, artistic laughter, irony, sarcasm*

Satire is only revealing, sharply sarcastic laughter. A satirical laugh is a deep and serious laugh. The artist's contempt is felt in the sharp laugh. Because in satire, there is nothing actually funny in the story told by the artist. Simply, the story told by the artist has reached such a level that the environment and people have deteriorated so much that the artist has a sarcastic attitude towards them and a sharp laugh is generated by the artist. In fact, the story told by the artist is a sad situation, a criticism.

Satire is an artistic method that morally protects those who are dissatisfied with society and those whose rights are trampled on, and is a salve for their wounds. Satire is a symbol of spiritual excellence and prosperity in human history. Satire is a sharp, revealing, laugh directed against the entire social epoch, its political-moral arsenal, which means "mixed" (smes), "everything" in Latin. Actually, satire is not murderous, destructive laughter. The characterization of satire as murderous, destructive laughter comes from the influence of Soviet ideology. This idea is also completely wrong. Because the artist doesn't actually kill anyone. Satire is only edifying laughter.

ÜMUMİMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ MUSİQİ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA ROLU

Qəniyev Telman Xanış oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent

Açar sözlər: *Ulu Öndər, lider, tarix, incəsənət, siyasi-mədəni*

Dünya miqyasında öz tarixi fəaliyyəti ilə seçilən çox dövlət xadimləri olmuşlar. Lakin, H.Əliyevin fəaliyyəti bütün dünya dövlətlərində müxtəlif dövlərdə yaşamış dövlət xadimlərinin fəaliyyətindən tamami ilə fərqlənmişdir. Tarix göstərir ki, dövlətin əsas meyarları olan siyasət,mədəniyyət və iqtisadiyyat sahələri məhz həmin dövlətin daxili və xariçi siyasətindən daha çox aslı olur.Bu baxından böyük liderimizin dövlətimiz daxilində apardığı multikultural siyasət bütün türk dünyası üçün örnək olmaqla yanaşı həm də əksər dünya dövlətləri üçün bir nümunə olmuşdur. Həyatını Azərbaycançılıq ideyasına həsr edən böyük liderimiz həmişə danışarkən demişdir: “Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən Azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir” [3] .

Sövet dönəmində ən yüksək dövlət orqanlarında çalışan H.Əliyev Azərbaycan dilinə, mədəniyyətinə üstünlük verən,bu dildə mükəmməl danışan,parlaq istedad nümayiş etdirən bir natiq olaraq hamının diqqətini çəkmişdir. Hələ müstəqilliyimizin olmadığı vaxtlarda belə Azərbaycanda gedən tarixi proseslərən xeyli əvvəl münasibət bidirmiş və bu amal uğruda ömrünün sonuna qədər çalışmışdır.

Hələ SSRİ dönəmində Ulu Öndər Azərbaycanda baş verən mədəni-ictimai tarixi proseslərin müsbət nəticələrini həyata keçirmək üçün böyük əmək sərf etmişdir. Bu bu cəhət onun təkcə Azərbaycanda deyil, bütün SSRİ məkanında böyük şöhrət qazanmasına səbəb olmuşdur [4].

Bu tarixi şəxsiyyət XX əsrin 70-80-cı illərində görkəmli şəxsiyyətlərin yaradıcılığının işıqlandırılması ilə bağlı mühüm danışıqlar apararaq həmin illərdə Moskva və kommunist rejiminin ciddi

narazılığına baxmayaraq Azərbaycanın görkəmli ədiblərindən Nizami Gəncəvi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif və digər dahi şəxsiyyətlərimizin irsinin öyrənilməsində də mühüm qərqrların həyata keçirilməsinə də nail olmuşdur. Həmin illərdə H.Əliyev Sovetlər birliyinin KPMK-nın birinci katibi L.İ.Berejnevlə lazimi ciddi danışıqlar aparmışdır [2].

Bu cəhətləri nəzərə alaraq onu da qeyd etmək lazımdır ki, məhz Ulu ondərin respublikamıza rəhbərlik etdiyi dövrdə xüsusən, XX əsrin 70-ci illərindən başlayaraq bəstəkarlarımızın yazdığı müxtəlif janrlı musiqi əsərləri də diqqət çəkir [1]. Bu dövrdə F.Əmirovun yazdığı "Nəsimi" vokal xareoqrafik poeması dinləyicilərin çox böyük marağına səbəb olur. Bundan əlavə bəstəkarın simfonik orkestr üçün yazdığı "Azərbaycan qravürləri" də diqqət çəkir. Lakin, onun həm də 1971-ci ildə yazdığı "Gülüstan-bayatı-şiraz" simfonik müğamı isə 1948-ci ildə ilk dəfə yazdığı "Kürd-ovşarı" və "Şur" simfonik muğamlarının davamı kimi öz əksini tapır. Bu əsərlər Azərbaycan profesional bəstəkarlıq məktəbində və dünya profesional musiqi yaradıcılığında yaranan yeni bir janr kimi diqqət çəkmişdir.

Lakin, bu əsərlər məhz Ulu öndər H.Əliyevin musiqi və incəsənətimizə dair göstərdiyi xidmətlər sahəsində baş vermişdir. Onun hər zaman cox böyük ustalıqla apardığı siyasətlə yanaşı bəstəkarlarımız, şairlərimiz, yazıçılarımız və ümümiyyətlə sənət adamlarımıza göstərdiyi hədsiz diqqət və qayğı bir növ Sovetlər dönəminda gənc nəslin yetişdirilməsində vacib rol oynamışdır. Azərbaycan simfonik musiqisinin əsasını qoyanlardan biri kimi Azərbaycan bəstəkarlıq məktəbində özünəməxsus yer alan Covdət Hacıyevin "İnsan", "Torpaq", "Kosmos" adlı 5-ci simfoniyası da 1970-ci illərin məhsuludur.

Ulu öndərin rəhbərliyi dövründə həm də Görkəmli Azərbaycan bəstəkarı Cahangir Cahangirovun yaradıcılığı da diqqət cəkir. Bəstəkarın "Azərbaycan odası" 1970-ci ildə, "Kür axır" odası" 1972ci ildə, "Nəsimi" kantatası isə 1973-ci ildə yazılmışdır. Əsərlərin adından məlumdur ki, bu dövrdə siyasi və sərbəst mövzulu əsərlər zamanın tələbindən irəli gəlmişdir. Bəstəkarın əsasən xor ifası ilə həyata keçrilən yazdığı kantata və oda janrları ilə yanaşı, simfonik poema, opera və operetta janrlarında da əsərləri medana gəlir. Onun 1977-79 cu illərdə yazdığı "Simfonik qravürlər", "Təzə gəlin" oprerettası və "Xanəndənin taleyi" operası öz əhəmiyyəti ilə seçilir. Qara Qarayevin "Fortepiano və orkestr" üçün yazdığı konserti isə 1978-ci ildə meydana gəlir. Həmçinin XX əsrin 70-80 -ci illərində bəstəkar Süleyman Ələsgərovun "Həmişə xanım" (1971), "Sevindik qız axtarır" (1979), "Gurultulu məhəbbət" (1982) adlı opperettaları diqqət çəkir. Bu dövrdə onun yazdığı "Azərbaycanım mənim" kantatası, "Bayatı-şiraz" simfonik muğamı, "Rəqs", "Marş" və eyni zamanda "Sözsüz mahnılar" məcmuəsi və "Dostluq mahnısı" süitası da geniş yaradıcılıq imkanlarını göz önünə gətirir.

Ulu Öndərin rəhbərliyi dövründə XX əsrin 70-ci illərindən başlayaraq 2000-ci illərə qədər bəstəkar Arif Məlikovun yaradıcılığı da diqqət çəkir. Onun II simfoniyası (1970), "Torpağın səsi kantatası" (1972), III və IV simfoniyalarını (1974-77), "İki qəlbin dastanı" baletini (1982), V və VI simfoniyaları" (1985) öz milli və dünyəvi dəyərləri ilə cəmiyyətimizin həyatında mühüm rol oynamışdır. Bəstəkarın 1995-ci ildə yazdığı VII simfoniyası Ulu öndər H.Əliyevin yaxın dostu, Türk xeyriyyəçisi İshan Doğramacıya "Əbədiyyət" adlı VIII simfoniyası isə 2003-cü ildə məhz Ulu öndərin özünə həsr edilmişdir.

Onu da qeyd etmək lazımdır ki həmin illərdə bəstəkar C.Hacıyev yazdığı "Onu zaman seçmişdir adlı VIII simfoniyası da Ulu öndərə həsr edilmişdir. Məhz H.Əliyev XX əsrdə Azərbaycan mədəniyyətində və həm də musiqi mədəniyyəniyyətində sənətkarlarımızın və bəstəkarlarımızın yetişməsində və fəaliyyətində hər zaman dəstək olmuşdur. Təsadüfü deyil ki, Ulu öndər H.Əliyev xalqımızın milli mənəvi dəyərləri haqqında çox gözəl və dəyərli fikirini belə ifadə etmişdir: "Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir" [5].

Biz və xalqımız inanırıq ki, Ulu öndərin dəyərli fikirlərindən olan bu aforizm doğurdan da xalqımızın siyasi, iqtisadi və həm də mədəni həyatının daima ən əsas istiqamətverici qüvvəsi olacaqdır.

Ədəbiyyat

1. Əfəndiyeva E. Qədimova J. Musiqi. Dərslik, Bakı: ADPU, 2007, 414 s.
2. Əliyev Heydər: biblioqrafiya / Layih. rəhb. Ə.Qarayev; tərt. ed.: M.Vəliyeva, M.İbrahimova, A.Hüseynova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva. Bakı: 2018. 680 s.
3. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
4. Xələfov A.A Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnəşr, 2006.- 312 s.
5. https://menazerbaycanliyam.wordpress.com/aforizml%C9%99r /

РЕЗЮМЕ
РОЛЬ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ МУЗЫКАЛЬНОЙ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
Ганиев Т.Х.

Ключевые слова: *Великий лидер, вождь, история, искусство, политико-культурный*

В статье говориться о роли Г.Алиева и его деятельности в развитии искусства и культуры Азербайджана. Одновременно описывается образование новых произвидений, которые написаны во время политической и культурной деятельности Г.Алиева, освещаются важные событья в жизни Великого Лидера.

SUMMARY
THE ROLE OF NATIONAL LEADER HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF THE MUSICAL CULTURE OF THE AZERBAIJAN REPUBLIC
Ganiev T.Kh.

Keywords: *Great Leader, leader, history, art, political and cultural*

The article deal with distinguished statesman, the great son of Azerbaijan people, immortal lider Haydar Aliyev`s role in the development of Culture and art. Different fields of art and culture are touched upon in the article. Wide information about new works that wrote and created during mister Haydar Aliyev`s activity in our political and cultural music life is mentioned here. Important cultural music events that happened during life activity of immortal Lider are lightened from different spheres.

AZƏRBAYCAN İNCƏSƏNƏTİNƏ HEYDƏR ƏLİYEV QAYĞISI

Qəniyeva Afaq Abdul qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
afaqgeniyeva79@gmail.com

Açar sözlər: *Ulu Öndər, mədəniyyət, incəsənət, dövlətçilik, siyasət*

XX əsrdə Azərbaycan musiqi mədəniyyətində böyük nəaliyyətlər əldə edilmişdir. Milli musiqi incəsənətini inkişaf etdirən görkəmli musiqi xadimləri və onların qiymətli əsərləri xalqımızın çox böyük milli sərvətləridir. Xalqımız Azərbaycana dünya şöhrəti qazandıran istedadlı musiqiçiləri ilə haqlı olaraq fəxr etmiş, edir və edəcəkdir.

Dünya şöhrətli siyasətçi, Ümummilli Lider Heydər Əliyevin şoxsahəli irsi və siyasi fəaliyyətinə nəzər saldıqda görürük ki, dahi şəxsiyyət Azərbaycan milli musiqi mədəniyyəti ilə ayrılmaz tellərlə bağlı olmuşdur. Həmçinin o, bu sahənin inkişafında və təbliğində rolu olan istedadlı insanlardan öz qayğısını əsirgəməmişdir.

Azərbaycan və dünya bəstəkarlarının musiqi nümunələrinə yüksək musiqi zövqü ilə yanaşan, incə musiqi duyumuna malik olan H.Əliyev eyni zamanda bəstəkarlar və musiqiçilərlə hər zaman dostluq etmiş, musiqiyə, incəsənətə böyük dəyər verərək ətraflı, dəyərli fikirlər söyləməklə bərabər bu sahənin aktual problemləri, bəstəkarların, ifaçıların, musiqişünasların yaradıcılığı, təklifləri uğurları ilə daima maraqlanmışdır. Bundan əlavə o, musiqinin müxtəlif sahələri üzrə peşəkar kadrların yetişdirilməsində, musiqi əsərlərinin səhnələrdə ifa olunması və not nümunələrinin nəşri, ümumilikdə Azərbaycan musiqi mədəniyyəti və incəsənətinin sağlam ənənələr üzərində müasirləşməsi, yeni konstruksiyalı konsert zallarının tikilməsi, müxtəlif xalqlarla və ölkələrlə mədəni əlaqələrin genişlənməsi və s. bu kimi vacib məsələlər ilə yaxından maraqlanaraq, onların həll olunması, həmçinin musiqi mədəniyyətimizin inkişafı məsələlərinə dövlət siyasəti səviyyəsində yanaşması onun dövlətçilik ənənələrinin əsasını təşkil edirdi.

Tarixə nəzər salsaq görərik ki, H.Əliyev 1969-cu ildən ölkəmizdə siyasi rəhbərliyə başladıqdan sonra Azərbaycanda yeni tarixi səhifənin təməli qoyulmuşdur. Belə ki, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, incəsənət sahələrində hərtərəfli tərəqqi uğurlu siyasətin nəticəsində özünü büruzə verirdi. Azərbaycan mədəniyyət və incəsənətinin davamlı inkişafında yeni tarixi dövrün başlaması, bu sahədə yeni quruculuq və fəaliyyət, yeni yaradıcılıq və mədəni əlaqələr epoxasının, yeni intibah mərhələsinin Azərbaycan tarixinə qədəm qoyması, gələcəyin böyük sənət nəaliyyətlərinə təkan verilməsi baxımından həm obyektiv, həm də subyektiv səciyyəli amillər və şərtlər idilər [1].

Heydər Əliyevin dövlətçilik siyasitinə nəzər saldıqda mədəniyyət istiqamətində yürütdüyü siyasətində inkişafa sistemli, ardıcıl və konseptual yanaşmanın tətbiq olunduğunu aydın şəkildə görə bilərik. İlk növbədə milli musiqi mədəniyyətinə müasir incəsənətin və dünya musiqi mədəniyyətinin ayrılmaz tərkib hissəsi kimi yanaşması olduqca böyük əhəmiyyətə malik idi. Bu ilk növbədə musiqi əlaqələrinin mədəni-coğrafi miqyasının artmasına və musiqimizin dünya miqyasında tanınmasına, təbliğinə xidmət edirdi.

Musiqi incəsənətinin inkişafına milli inkişafın mühüm və ayrılmaz tərkib hisəsi kimi yanaşan Ümummilli Liderin həyat-fəaliyyəti sübut edir ki, Azərbaycan musiqisi ilə yanaşı, dünya bəstəkarlarının əsərlərinin respublikada ifa edilməsi, tədris repertuarına daxil edilməsi digərn xalqların, eləcə də türkdilli xalqların Azərbaycanla musiqi-mədəni əlaqələrinin yaranamsı, inkişafı üçün peşəkar musiqiçilərə, musiqi qurumlarına, tədris ocaqlarına hər cür dəstək göstərilmişdir. Heydər Əliyevin başçılığı altında həyata keçirilən inkişaf siyasəti nəticəsində Naxçıvan konservatoriyası yaradılmış, Bakı Xoreoqrafiya Məktəbi, Dövlət Mahnı Teatrı, Yaşıl teatr, Ş.Məmmədov adına Opera Studiyası və digər mədəniyyət binaları, incəsənət məktəbləri əsaslı şəkildə təmir və rekonstruksiya olunmuşdur.

Bundan əlavə Azərbaycanın milli mənəvi dəyəri və sərvəti olan muğamlara yüksək qiymət verərək xalq musiqisinə milli əsasda bədii-estetik tərbiyənin əsas amili kimi yanaşaraq onların muhafizə olunması, yaşadılıb gələcək nəsillərə ötürülməsi üçün əlindən gələni əsirgəməmişdir. Xalq musiqisinin yaşaması üçün yalnız ənənəvi yolu deyil, həmçinin bəstəkarların yaradıcılığının da rolunu və əhəmiyyətini qeyd edirdi.

Onu da qeyd edək ki, H.Əliyev xalq, klassik və müasir musiqinin Azərbaycan ictimaiyyətinin bütün təbəqələrində dinlənilməsi, insanların musiqi-estetik zövqünün inkişafı üçün müəyyən tədbirlər həyata keçirmişdir. Məsələn, 1970-80-ci illərdə Azərbaycan Dövlət Filarmoniyada hər həftə "musiqili cümə", "musiqili şənbə" konsertlərini qeyd edə bilərik. Bu konsertlərə dirijor Niyazi rəhbərlik edirdi, burada Ulu Öndər başda olmaqla şəhər və rayon rəhbərləri, nazirlər, mərkəzi komitənin işçiləri iştirak edirdilər. Təbii ki, bu konsertlərin təşkilinin bir məqsədi vardı: H.Əliyev respublikadakı bütün məmurların, dövlət işçilərinin humanist, mədəni, incəsənətə qiymət verə bilən həssas bir musiqi dinləyicisi kimi yetişməsini arzu edirdi və o bilirdi ki,incəsənəti hiss etməyən və başa düşməyən dövlət qulluqçusu incısınıtin milli inkişafdakı əhəmiyyətini dərk edə bilməz.

Ulu Öndərin yürütdüyü mədəniyyət siyasətinin əsas qayələrindən biri də məktəblilərin, gənclərin musiqi-estetik tərbiyəsi, dünyagörüşünün formalaşması, milli incəsənətə marağın artması, xalq və bəstəkar yaradıcılığına bələd olması idi. Gələcəkdə vətənə, xalqa layiq ixtisaslı kadrların yetişməsi məsələsinə xüsusi diqqət yetirərək bu istiqamətdə mühüm addımlar atmışdır. Buna misal olaraq hər həftənin şənbə və bazar günləri Dövlət Opera və Balet Teatrında ali məktəb tələbələri üçün konsert və tamaşaların təşkili, Oqtay Zülfüqarovun rəhbərliyi ilə "Tumurcuq" uşaq mahnı teatrının yaradılması, məktəblilərin mart tətili günlərində ənənəvi "Məktəblilərin musiqi həftəsi"nin keçirilməsi, Bəstəkarlar İttifaqının nəzdində "Məktəbli filarmoniyası"nın yaradılması qeyd etmək olar. Bütün bu qeyd olunanlar H.Əliyev tərəfindən gələcəyi görə bilən lider kimi məhz gənclərin, yeniyetmələrin musiqi-estetik tərbiyəsinin və onların bədii mədəniyyətinin inkişafına hesablanmışdır.

Heydər Əliyev musiqi sənətinə milli özünüdərkin, milli şüurun çox mühüm atributu kimi yanaşmış və bu münasibətini xalq qaşısında tarixi xidmətləri ilə sübut etmişdir. O, musiqi incəsənətinə xalqlar və mədəniyyətlər arasında mühüm ünsiyyət körpüsü və əməkdaşlıq vasitəsi kimi yanaşırdı [2].

Azərbaycan müstəqillik əldə etdikdən sonra Heydər Əliyev Azərbaycan dövlətinin mədəniyyət siyasətinin formalaşmasına, bu siyasətin strateji xəttinin, istiqamətinin müəyyən edilməsinə nail olmuşdur. Azərbaycan mədəniyyətinə müstəqil dövlət quruculuğunun vacib atributu kimi yanaşaraq bu istiqamətdə mühüm qərarlar verərək, mədəniyyətin inkişafına, xalqlar arası əlaqələrin genişlənməsinə təminat verən mühüm addımlar atmışdır. Bir sözlə Heydər Əliyev Azərbaycan mədəniyyət və incəsənətinə Azərbaycanın milli-mənəvi sərvəti, milli-mənəvi dəyər kimi yanaşılmasının əsasını qoymuşdur.

Ədəbiyyat

1.Abduləliyev A. Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti. Musiqi dünyası 1-2/35. Bakı 2008. s.4-18
2.Ələkbərova N. Mədəniyyət və siyasət. Bakı, "Azərbaycan" qəzeti, 2000

РЕЗЮМЕ
ЗАБОТА ГЕЙДАРА АЛИЕВА ОБ ИСКУССТВЕ АЗЕРБАЙДЖАНА

Ганиева А.А.

Ключевые слова: *Великий лидер, культура, искусство, государственность, политика.*

Музыкальное искусство интегрировало в жизнь общества во все периоды уникальные социокультурные, социальные, идейно-философские, воспитательные, гуманистические функции. Великий лидер Гейдар Алиев высоко ценил музыку как вид искусства, творчества и сферы деятельности, играющей фундаментальную и важную роль в модернизации и цивилизации азербайджанского общества, его интеграции в мир, международном сотрудничестве. Он добился реализации всех направлений, ведущих к развитию азербайджанской музыки. Социальность, социокультурная функция музыкального искусства является одним из важных элементов национально-культурного развития, чтобы нация могла модернизироваться, сохраняя свои традиции.

SUMMARY
HEYDAR ALIYEV'S CONCERN FOR THE ART OF AZERBAIJAN
Ganiyeva A.A.

Key words: *Great Leader, culture, art, statehood, politics.*

Musical art has integrated unique socio-cultural, social, ideological and philosophical, educational, humanistic and humanistic functions into the life of society in all periods. Great leader Heydar Aliyev highly valued music as a form of art, creativity and a field of activity that plays a fundamental and important role in the modernization and civilization of the Azerbaijani society, its integration into the world, and international cooperation. He achieved the implementation of all directions leading to the development of Azerbaijani musical complexity. Sociality, the socio-cultural function of musical art is one of the important elements of national and cultural development, so that the nation can modernize while maintaining its traditions.

XIX-XX ƏSRLƏRDƏ AZƏRBAYCANDA ELM VƏ TƏHSİLİN İNKİŞAFINDA GÖRKƏMLİ PEDAQOQ ÖMƏR FAİQ NEMANZADƏNİN ROLU

Quliyeva Kubra Ramiz
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
k.guliyeva@yahoo.com

Açar sözlər*: məqalə, görkəmli pedaqoq, təhsil, məktəb, xalq*

Azərbaycan uzun, tarixi inkişaf yolu keçmişdir. Bu keşməkeşli yolda müxtəlif maneələr xalqın həyatına, ölkənin inkişaf sahələrinə öz təsirini göstərmişdi. Bu sahələrin başlıcasını məhz elm, təhsil müəssiəslərinin, məktəblərin təsis edilməsi təşkil edir. Qeyd olunan müxtəlif sahələr də özlüyündə deyil, mərhələli şəkildə həyata keçirilmişdi. Dövr baxımından bir çox mərhələlər mövcud olmuşdur. Lakin Azərbaycan xalqının elm, təlim və təhsil sahəsindəki mərhələşməsi prosesinin əsasını XIX-XX əsr qovşağı əhatə edir. XIX-XX əsrlər möhtəşəm dahi şəxsiyyətlər, pedaqoq və psixoloqlar yetişdirmişdir. O, dahi şəxsiyyətlərdir ki, xalqın milli mənafeyi uğrunda mübarizə aparmış, bu yolda bir çox işlər görmüşlər. XIX-XX əsr Azərbaycan elminin inkişafında bir çox görkəmli şəxsiyyətlərin adı qeyd etmək olar. XIX əsrdə görkəmli şəxsiyyətlərindən Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, XX əsrdə isə Hacı Zeynalabdin Tağıyev, ümumilli lider Heydər Əliyevin xüsusi rolunu qeyd etmək olar. Ümummilli lider Heydər Əliyev bütün çıxışlarında, təşkil etdiyi görüşlərdə elm, maarif sahəsinə hər zaman diqqətlə yanaşmağı, xüsusilə qızların elm, təhsil sahəsinə cəlb olunmasının əhəmiyyətindən danışırdı. Onun bir dahi şəxsiyyət olaraq Azərbaycan elminə, maarif sahəsinə diqqət yetirməsi, yeni məktəblərin təşkili, universitetlərin açılaması üçün göstərdiyi xidmətlər əvəzedilməz və danılmaz bir faktdır.

Daima xalqının yanında olan, öz xidmətlərini əsirgəməyən, milliləşmək ideyasının davamçılarından olan, yeni üsullu məktəblərin təsis edilməsində səylə çalışan, bu yolda bir çox təqiblərə məruz qalmasına baxmayaraq canla-başla fəaliyyət göstərən görkəmli şəxsiyyətlərdən biri də məhz Ömər Faiq Nemanzadə olmuşdu. Onun ideyaları xalqın rifah halını yaxşılaşdırmaq, dünyəvi biliklərlə zənginləşdirmək, gənc nəsili istiqamətləndirmək yönümündə idi. Ömər Faiq Nemanzadə həmçinin xalqının yanında olan, milli-mənəvi dəyərlərə sahib çıxan pedaqoqlardan biri idi. O, hər zaman çıxışlarında bildirirdi ki, hər millətin mədəniyyətə və maariflənməyə haqqı vardır. O haqqdır ki, hər yerdə, hər zaman saxlanmalıdır. Onu da qeyd edirdi ki, maarif, elm hər qüvvətin, hər fikrin anası və köküdür. Xalqın maariflənməsi, elm, təhsilə yiyələnməsinin yeganə yolunu məktəblərin təşkili və saylarının artırılmasında görürdü. Xalqın müəyyən biliklərə yiyələnməsi də Azərbaycan mətbuatçılıq inkişafına təkan vermiş olacaqdır. Belə ki, təhsilli hər bir şəxs qəzet və jurnallarda dərc olunan yazıların mahiyyətini anlayacaq, yeni biliklərlə silahlanacaq, dünyagörüşünü artıra biləcəkdi. O, xalqının gücünə, qüvvəsinə inanırdı.

Ömər Faiq Nemanzadə maarifçiliyin genişlənməsi eləcə də təbliğində, xalq kütlələrinin içərisində yayılması üçün bir çox işlər görmüşdür. Onun maarif sahəsində gördüyü işlərin başlıcasını açdırdığı, rəhbərlik etdiyi məktəblər təşkil edir. Xüsusilə Şəkidə təşkil olunan məktəb Azərbaycan maarif, təhsili adına aparılan işlər içərisində ön sıralarda dayanır. Ölkədə müəllim, elm adamları, təhsilli şəxslərin sayı nə qədər çox olarsa, ölkə bir o qədər irəliyə gedər, dünya ölkələri içərisində ön cərgələrdə dayanar. Görkəmli pedaqoq Ömər Faiq Nemanzadənin də məqsədi, niyyəti bu yolda idi.

Ömər Faiq Nemanzadə maarif, təhsil sahəsinə olan fikirləri məqalələrində, felyetonlarında ön plana çəkmişdir. Belə ki, Ömər Faiq Nemanzadənin Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin orqanı olan "Azərbaycan" qəzetində "Ümidvar" təxəllüsü ilə dərc etdirdiyi məqalələri toplanıb."Azərbaycan" qəzeti nəşr olunduğu 1918-1920-ci illəri Ömər Faiq daha çox doğma Axlasıq qəzasında və Gürcüstanın həbsxanalarında keçirsə də, nəşrin fəal müəlliflərindən olub [2]. Ömər Faiq Nemanzadənin qəzetdə toplanan məqaələrində

dövrün ictimai-siyasi mühit problemləri, maarif, təhsil sahəsinə olan münasibət əks etdirilib. Pedaqoq dil, millət, təhsil problemlərinə "Milliləşmək" adlı sərlövhəli silsiləli məqaləsində xüsusi diqqət yetirmişdir. Bu silsidən ikinci məqaləsində yazırdı: "Türkcənin yazı və mətbuat aləmindəki zəifliyinə gəlincə, bundakı qüsur, bəzilərinin sandığı kimi, türkcənin özündə, onun əksik və qabalığında deyil, başına bəla etdiyi əlifbasındadır. Doğrudan da türkcəmiz danışıq və ahəngini olduğu kimi göstərməyə, yazmağa, öz istiqlalını itirmiş və bu günə qədər ərəbliyə əsir olaraq həqiranə ömür sürmüşdür.

Vaxtdır ki, həqiqi, ictiami bir inqilab ilə dilimizi bugünkü yaramaz və çirikin əlifba əsirliyindən qurtarıb öz təbiətinə, öz istiqlalına uyğun bir əlifba qəbul edəlim. Və bunun sayəsində dilimizə danışıqda qazandığı ümumillik şərəfini mətbuatda da qazandıralım. Və bu yol ilə xalqa savad öyrədəlim, onlara qolayca bilgi və maarif qapılarını açalım. Hamıya ümumi təlim verəlim, elmin ləzzətini daddıralım. Və ancaq bundan sonra camaatdan hürriyyət, ədalət və müsavat qanunlarına tamamilə riayəti, istiqlal yolunda, xalqçılıq uğrunda can verməyi istəyəlim." [1].

Görkəmli pedaqoqun məqaləsinə diqqət yetirsək xalqı maariflendirmək, işıqlı gələcəyə çıxarmaq, dünyəvi biliklərə silahlandırmağı qarşısına məqsəd qoyduğu bir daha nəzərə çarpır. Yad, özgə əlifbalar ilə dilimiz korlandığı xüsusi vurğulanır. Dilimizin zənginliklərinə üstünlük verməklə xalqı maarifə, elmə səsləyir. Ömər Faiq Nemanzadə həmçinin hamıya ümumi bir təlim verilməsinin tərəfdarı idi. Ümumi təlim dedikdə mədrəsələrə deyil xalqı açılan məktəblərə, elm ocaqlarına, istiqamətləndirilməsi nəzərdə tuturdu. Bununla dünya ölkələrinə çıxış əldə edə biləcəyimizi düşünürdü. Onu da qeyd edirdi ki, xalqa öz doğma ana dilində təlim keçdikdən sonra onlardan ədalətli olmağı, öz dilində danışmağı, müsavat qanunlarına riayət etməyi tələb etmək olardı.

Qeyd olunanlardan bir daha aydındır ki, XIX-XX əsrdə xalqda milli oyanış, ruh yüksəkliyi var idi. Sadəcə müəyyən şərait lazım idi ki, xalq öz istedadını, biliyini, zəngin təcrübəsini ortaya çıxara bilsin. XIX-XX əsr maarifpərvər, ziyalıların, görkəmli şəxsiyyətlərin gördüyü işlərin nəticəsi idi ki, ölkədə pedaqoji sahədə irəliləyişlər baş verdi. İstər qadın, istər kişi olsun bütün kütlənin təhsillənməsi prosesi sürətləndi. Ölkəmizdə bu sürətlənmənin nəticəsində son dövrlərdə təhsil alan qızların sayı oğlanları ötüb keçmişdir. Son dövrlərdə də ictimai-siyasi xadimlərin diqqəti, qayğısı xalqın maariflənməyi, biliklərə yiyələnməyi istiqamətindədir. Dövlətimiz istənilən yaş dövründə insanların təhsil almalarına xüsusi şərait yaratmışdır. Xüsusilə bir-birinin ardınca təşkil olunan kurslar, təlimlər, seminarlar nəinki gənc nəsili, ümumən bütün xalqı təhsil sahəsinə istiqamətləndirir, dünyagörüşün artırılmasına şərait yaradır. İngilis yazar, şair Joseph Addison sözlərilə desək bir mərmər üçün heykəltaraş nədirsə, ruh üçün təhsil də odur.

Ədəbiyyat

1. Azərbaycan qəzeti, № 328, 24 noyabr 1919
2. https://www.azerbaijan-news.az/az/posts/detail/azerbaycan-yazilari-seriyasindan-ilk-kitab-omer-faiq-nemanzade-1677220120
3. Qurbanov.Ş. Ömər Faiq Nemanzadə seçilnmiş əsərləri.. Bakı, 1992

РЕЗЮМЕ
РОЛЬ ВЫДАЮЩЕГОСЯ ПЕДАГОГА ОМАРА ФАИГА НЕМАНЗАДЕ В РАЗВИТИИ НАУКИ И ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ В XIX-XX ВЕКАХ

Гулиева К.Р.

***Ключевые слова**: статья, выдающийся педагог, образование, школа, люди*

В статье говорится о значении науки и образования, а также о работе выдающегося педагога Омара Фаига Неманзаде в области народного образования. Было отмечено, что XIX-XX века стали основой постепенного прогресса в области науки и образования в Азербайджане. Особо было подчеркнуто имя Омара Фаига Неманзаде, который является одной из выдающихся личностей, усердно трудившихся над созданием школ нового метода, несмотря на многочисленные гонения. В статье также упоминается деятельность Омара Фаига Неманзаде в газете «Азербайджан», хотя и кратко, и приводится пример статьи, опубликованной в газете.

SUMMARY
THE ROLE OF PROMINENT EDUCATOR OMAR FAIG NEMANZADE IN THE DEVELOPMENT OF SCIENCE AND EDUCATION IN AZERBAIJAN IN XIX-XX CENTURIES

Guliyeva K.R.

***Keywords**: article, outstanding teacher, education, school, nation*

The article deals with about the importance of science and education, and the work done by the outstanding educator Omar Faig Nemanzadeh in the field of public education. It was noted that the 19th-20th century was the basis of the gradual process in the field of science and education in Azerbaijan. The name of Omar Faig Nemanzadeh, who is one of the outstanding personalities who worked diligently to establish new method schools, despite being subjected to many persecutions, was specially emphasized. The

article also mentions the activities of Omar Faig Nemanzadeh in "Azerbaijan" newspaper, albeit briefly, and gives an example of an article published in the newspaper.

RADİOJURNALİSTİKADA CƏNUB MÖVZUSU

Quliyeva Şəlalə Məhyəddin qızı
AMEA, Mərkəzi Elmi Kitabxana, Bakı, Azərbaycan, fil.f.d
selale_meh@mail.ru

Açar sözlər: *radiojurnalistika, Cənubi Azərbaycan, milli musiqi, bütöv millət, jurnalistika, Araz, radio yaradıcılığı*

İnformasiyanın ötürülməsində radionun unikal imkanları danılmazdır. Nəzərə alsaq ki, müasir dövrdə, elmi-texniki tərəqqinin vüsət aldığı bir zamanda, rəqəmsal texnologiyanın bütün dünyanı "ovucun içində" cəmləşdirdiyi bir vaxtda yenə də radio öz əvvəlki ampulasını qoruyub saxlamaq gücündədir və eyni zamanda texnoloji cəhətdən mükəmməl yenilikləri özündə ehitava edərək, AM və ultraqısa dalğadan (UQD) daha keyfiyyətli və geniş tutumlu FM, DAB-dalğalarına keçid edərək daha geniş areala yayılmaq üstünlüyünə malikdir. Radionun ən böyük spesifik cəhəti onun naqilsiz, istənilən məkanda rahatlıqla dinlənilməsindədir.

Radionun tarixi ilə bağlı araşdırmalardan aydın olur ki, hər bir ölkə bu texniki vasitədən özünü tanıtmaq, milli- mənəvi dəyərlərini təbliğ etmək məqsədini güdüb. Əsasən də siyasi təbliğat vasitəsi kimi ideoloji müstəvi olduğunu, ölkəsinin tərənnümü naminə ondan məqsədli formada, "silah" qismində istifadə etmək barədə düşünüb.

Məhz Azərbaycan Radiosu da fəaliyyətə başladığı ilk illərdə və sonrakı gedişatda milli varlığını tanıtmaq, dəyərlərini təbliğ və təlqin etmək ruhuna köklənmişdi. Cənubi Azərbaycana verilişlərin təşkilində isə diqqət daha ciddi məsələlərə yönəlmişdi...

Əvvəlcə Azərbaycan Beynəlxalq Radiosunun tarixinə qısa nəzər salaq. 1941-ci ilin iyul ayında radioda türk və fars dillərində verilişlər hazırlayan iki redaksiya yaradılır. Bu həmin dövr idi ki, SSRİ hökuməti radio təbliğatını Türkiyə və İranda yaymağı məqsədəuyğun hesab edir. Məhz, niyə Türkiyə və İran? Çünki hər iki ölkəni Azərbaycana bağlayan qırılmaz tellər olduğundan ideoloqlar düşünür ki, sovet gerçəkliklərini bu xətt vasitəsilə təbliğ etsinlər, dalğalardan mesajlarını ötürə bilsinlər. Ona görə 1941-ci il iyulun 20-də "Burasu Baku", "İnca Baku" ifadələri ilk dəfə Azərbaycan Radiosu ilə verilən sınaq verilişlərdə səsləndirilir. Həmin verilişlər 1941-ci il avqustun 18-dən müntəzəm olaraq "Bakının səsi" çağırışı altında dünya efirinə çıxır. Verilişlərdə sovet məlumat bürosunun xəbərləri, ziyalıların radio ilə çağırışları İran və Türkiyə əhalisinə çatdırılırdı. Həmin dövrdə senzuranın güclü olmasına baxmayaraq şərqşünaslar, ziyalılar, yazıçılar bu məqamdan ustalıqla istifadə edərək milli maraqların təbliği naminə əllərinə düşən fürsəti lazımınca dəyərləndirirdilər. O dövrdə xaricə yayımlanan radio təbliğatına Məmməd Səid Ordubadi, Mikayıl Rəfili, Cəfər Xəndan, Qulam Məmmədli, Adil Əfəndiyev, Lətif Kərimov, Mübariz Əlizadə, Ələsgər Məmmədov, Abbas Gülməmmədov, Cəfər Hacıyev, Hüseyn Məcnunbəyov, Cabbar Cabbarov, Fazil Babayev, Mina Bayramova, Şərif Vəliyev və digər tanınmış yazıçılar, jurnalistlər, şərqşünaslar cəlb olunmuşdular. Bu insanların fərdi yaradıcılığında milli mövzular daha dərin məna kəsb edirdi.

İrana verilişlər baş redaksiyasının tərkibindəki Azərbaycan dilində verilişlər hazırlayan şöbə 1980-ci il martın 1-dən ayrıca baş redaksiyaya çevrilir. 1980-ci illərdə Azərbaycanın xarici ölkələrə veriliş yayan qurumu efirdə hər gün farsca 2 saat 15 dəqiqə, türkcə 2 saat, ərəbcə 1 saat, xaricdəki soydaşlarımız üçün Azərbaycan dilində 1 saat fəaliyyət göstərirdi. 1986-cı ildə farsca verilişlərin həcmi 1 saata endirilir, Azərbaycan dilində yayılan verilişlərin həcmi isə 2 saat 45 dəqiqəyədək artırılır. "Ana dili", "Körpü", "Ovqat", "Elin sazı, elin sözü" verilişləri azərbaycanlı həmvətənlərimiz arasında rəğbət qazanır.

Cənubi Azərbaycan dinləyiciləri üçün hazırlanan verilişlərdə efir dili - söz, mətn məqsədli şəkildə yazılırdı və bu gün də belədir. Radiojurnalistlər peşənin bütün məziyyətlərindən bəhrələnərək əsl sənətkarlıq nümayişi göstərirlər. Semiotikadan bəllidir ki, "insan cəmiyyətində ən mühüm ünsiyyət vasitəsi kimi çıxış edən dilin işarələr sistemi" [7, s.169] qarşı tərəfə ünvanlanan fikirin ünvanına çatmasında ən mühüm əhəmiyyət kəsb edir. O tay üçün hazırlanan verilişlərdə söz və fikir elə formada seçilməli və deyilməli idi ki, nəyə işarə edilməsi anlaşılsın. Ancaq kənar baxışlar tərəfindən sezilməsin. Professor Nəsir Əhmədinin təbirincə desək "nitq, fikirlər, həmin fikiri ifadə etmək üçün zəruri olan dil vahidlərinin vəhdətindən yaranmış idrak (qavrayış) obyektidir" [2,s.18]

İkiyə bölünmüş bir millətin yazarı, jurnalisti zaman-zaman sözün kəsəriylə, efir vasitəsi ilə radiojurnalistikanın bütün janrlarında fikirlərini ali idrak səviyyəsində təlqin edib ki, dinləyici nə demək istəyini rahatlıqla tuta bilsin. "Publisistikanın, xüsusən radiopublisistikanın janrlarından geniş istifadə olunurdu. Çünki efir materiallarının əksəriyyəti Moskvadan göndərilən materialların tərcüməsindən ibarət idi. Buna baxmayaraq milli kadrlar çətinliklə də olsa milli dəyərləri efirə gətirir, sənətkarlıq xüsusiyyətlərinə fikir verirdiər. Beləliklə də Azərbaycan dünya efirdə idi və bu dolayısı ilə Azərbaycanın özünün, dilinin, mədəniyyətinin, adət-ənənələrinin təbliği idi" . [1,s.41-41]

Radioda cənuba hazırlanan verilişlərdə musiqiyə ciddi önəm verilib. Ayırlıqdan, nisgildən notların dili ilə danışlıb. Musiqi seçimində, proqram tərtibatında xüsusi ustalıq göstərilib. Məsələn 13 yaşında Ərdəbildən ayrı düşən, ömrünün axırına kimi vətən həsrətiylə yaşayan, xalq artisti Rübabə Muradovanın Məhəmmədhüseyn Şəhriyarın sözlərinə bu taydan oxuduğu nəğməsi, nisgilli səsi Arazın o tayında ürəkləri riqqətə gətirib.

Heydər baba, yolum səndən kəc oldu,
Ömrüm keçdi, gələmmədim, gec oldu.
Heç bilmədim, gözəllərin nec oldu,
Bilməz idim, döngələr var, dönüm var.
İtkinlik var, ayrılıq var, ölüm var.

Bu kimi sətirlər, həsrətdən bəhs edən kəlmələr efir materiallarına tez-tez salınıb. SSRİ vaxtı Cənubi Azərbaycan üçün ayrılan qısa efir vaxtında, zaman kəsiyində belə musiqilər, mahir ifalar tez-tez səslənir və ayrı düşən, ikiyə bölünən xalqın səmalardakı görüşü dinləyicinin psixoloji durumuna hədsiz dərəcədə sirayət edirdi, "Qaragilə", "Ay günahsız əzizim", "Ahu kimi", "İndi məni tanımadın", "Təki sən səslə məni", "Nədən oldu" və s. mahnılar cənublu soydaşlarımız tərəfindən sevə-sevə dinlənilir.

Ulu Öndər Heydər Əliyev Cənubi Azərbaycan məsələsinə ciddi önəm verirdi. Xüsusən ana dilinin radio vasitəsi ilə təbliği məsələsi, Arazın o tayındakı qardaşlarımız üçün hava, su qədər zəruri, vacib amil idi. "Buna görə də, hakimiyyəti illərində Heydər Əliyevin Cənubi Azərbaycan məsələsinə münasibəti bir neçə istiqaməti əhatə edirdi: Cənubi Azərbaycandan olan ziyalılara xüsusi qayğı göstərir, cənub mövzusunun unutdurulmamasına çalışır, elmi araşdırmaların aparılmasını təşviq edir, ağır sovet rejimi şəraitində nəinki böyük ustalıqla bu işin öhdəsindən gəlir, eyni zamanda, həmin ideyanın yayılmasına kömək edir, alim, yazıçı və şairləri cənub mövzusunda yazmağa çağırır, Cənubi Azərbaycandan olan şair və yazıçıların məişət şəraitinin yaxşılaşdırılması məqsədilə sərəncamlar verir, onları mənzillə təmin edir, İrana və Cənubi Azərbaycan şəhərlərindəki kitabxanalara nəşrlər göndərilməsini artırırdı və s. [5]

İran Xarici Verilişlər Radiosunun özbək və Azərbaycan dillərində verilişlərinin müdiri Mehti Seyidzadə yazır: "Azərbaycan Dövlət Radiosunun Cənubi Azərbaycana yayımladığı verilişlər adi bir radio verilişi deyil, həm də bizim ana dilində məktəbimizdir. Bu radio bizə azərbaycanlı olduğumuzu və Azərbaycana necə xidmət etməyimizi öyrətdi." [6]

Müasir dövrdə jurnalistikada elektron kütləvi informasiya vasitələrinin sözü hədəfə daha öndə çatır. Yəni "getdikcə kütləvi informasiya vasitələrinin bütün növlərinin, o cümlədən elektron kütləvi informasiya vasitələrinin qlobal problemlərin bütün təzahürlərinin monitorinqində, həmçinin qlobal problemlərin idarə olunmasında iştirakı daha vacib xarakter daşıyır". [3,s.19]

Radio yaradıcılığında sənət və sənətkarlıq anlayışları, radiojurnalistikanın ayrıca bir sahə kimi geniş tədqiqat obyektinə çevrilməsi, audiopublisistikanın önəmli olduğunu isbatlayan araşdırmaların aparılmasında da əsas məqsəd informasiyanın səslə ötürülməsinin üstünlüklərini və bunun üçün də xüsusi yaradıcılıq qabiliyyətinin nümayişini təlqin etməkdir.

Kollektiv əməyin məhsulu olan radio verilişi tək mətndən ibarət deyil. Sözlə yanaşı, səs, musiqi verilişin bitkin bir əsər kimi əmələ gəlməsində əsas rol oynayır.

Radiojurnalistikada sözü qarşı tərəf, auditoriyadakı fərd səslə, qulağı ilə eşidir. Onu təqdim edən aparıcı sözü çatdırmaq üçün xüsusi səs tembrinə malik olmalıdır. Səsin məlahəti, axıcılığı, diksiyanın səilistliyi, düzgün danışıq qaydaları, ədəbi dilin bütün incəlikləri mükəmməl olmalıdır ki, veriliş dinləyiciyə zövq versin. Professor Qulu Məhərrəmli yazır ki, "radionun verilişlərində Azərbayan milli varlığı ideyası ön plana çəkilirdi" [4,s.122] Bu mənada Cənubi Azərbaycan üçün hazırlanan verilişlərdə doğma ana dilimizin yüksək səviyyədə təbliği məqsədi ilə aparıcıların seçiminə xüsusi diqqət yetirilib.

Müstəqillik ilərində Beynəlxalq radionun fəaliyyətində daha önəmli hadisələr baş verdi. 2007-ci ildə Güney Azərbaycan redaksiyasınıın adı dəyişdirilib "Araz" adlandırıldı. Xatırladaq ki. 1964-cü il, oktyabrın 15-də Azərbaycan Radiosunda "Araz xəbərlər" və musiqi proqramı efirə çıxıb və uzun illər davam edib. Həmin verilişin çağırış musiqisini böyük bəstəkarımız Fikrət Əmirov bəstələmişdir...

Hazırda Beynəlxalq Radionun Güney Azərbaycana aid Verilişlər Redaksiyası Azərbaycan tarixinin, ədəbiyyatının, incəsənətinin, folklorunun təbliği ilə məşğuldur. Eyni zamanda Arazın bu tayında baş verən ictimai, siyasi hadisələrlə bağlı xəbərləri, analitik şərhləri, müzakirələri, aktual müsahibələri və milli musiqilərimizi öz dinləyicisinə çatdırır.

Demək bu radioda çalışmaq, yuxarıda adlarını çəkdiyimiz sahələri yetərincə təbliğ etmək üçün radio jurnalistlərindən professionallıq tələb olunur. İstedadlı kadr hazırlığı jurnalistikada da xüsusi diqqət tələb edən məsələdir. Radioda çalışmaq həm də incəsənət sahəsinin mütəxəssisi olmaq deməkdir.

Bu gün Güney Azərbaycana verilişlər tam gerçəklik əsasında tərtib olunmalıdır. Çünki virtual aləmin imkanları geniş olduğundan tək radio ilə deyil, sosial şəbəkələr, elektron media informasiyanın ötürülməsində çeviklik nümayiş etdirir. Belə olan təqdirdə radio yaradıcılığı necə tənzimlənməlidir?

Radioda söz və səs, bu iki amil bir-biriylə uzlaşma təşkil edir. Sözün səsli təqdimatı asan və qavranılan olmalıdır. Cümlələr qəzet, kitab dilindən fərqli olaraq danışıq dilində qısa halda qurulmalıdır. Müsahibə janrında yazılan efir materialında əsas fikirə xələl gəlmədən, müsahibin dedikləri təhrif edilmədən montaj prosesi düzgün aparılmalıdır. Şünki uzun-uzadı sözçülük fikiri yayındırır və veriliş mahiyyətini itirir. İdeya və məzmun anlayışı radiojurnalistikada verilişin orijinallığı üçün əsas meyardır.

İkinici məsələ odur ki, təqdim olunan hər hansı bir mövzunun quru sözlə - səslə təqdimatı kifayət qədər yetərli deyil. Dinləycini cəlb etmək üçün onu inandırmaq, deyilən sözə uyğun alternativ variant düşünmək zəruridir. Buna radio dilində yardımçı küy səslərdən istfadə etmək deyirlər. Məsələn ədəbi-bədii verilişlərin mətnində, lazım olan məqamda təsvir olunan hadisənin radio dilində portretini çəkmək, yəni səsdən onun palitrasını yaratmaq tələb olunur. Adi bir misal çəkək. Əgər Azərbaycan təbiətini vəsf edən bir veriliş hazırlanırsa, çayın şırıltısı, küləyin səsi, göyün gurultusu və s. lazım olan effektlər həmin verilişin səsləri arasında yer almalıdır.

Səslər iki cür olur. Təbii səslər: bura təbiətin, ətraf aləmin həqiqi səsləri aiddir. Süni səslər: yəni notlarla yaranan sənət əsərləri, saz havaları, musiqili tonlar və yaxud kompüterin, texnologiyanın köməyii ilə düzələn səs effektləri nəzərdə tutulur. Verilişdə bütün səslərin bir-birinə bağlılığı mütləq şərtdir. Ona görə də radioda səslərin portretini yaratmaq tək redaktorun işi deyil, bütün komandanın, yaradıcı heyətin gərgin əməyi sayəsində meydana gələn sənət əsəridir.

Danışıq üslubunda təqdimat radionun özəlliyidir. Çünki efir söhbəti tam bədii dildə vəsf oluna bilməz. Ədəbi-bədii üslubdan, yazılı dildən fərqli olaraq, şifahi danışıq, el dilində fikiri çatdırma, sözün deyiliş tərzində ifası radiopublisistikanın qayəsini təşkil edir. Bəs danışıq dili necə olmalıdır? Məlum olduğu kimi efirdə ləhcələrə, şivələrə, dialektlərə yer vermək olmaz. Radio danışığı şifahi dilin hansı xüsusiyyətləri özündə ehtiva etməlidir? Audiopublisistikada orfoepiya qaydalarına üstünlük verilməldir. Danışıqda ədəbi dil normaları sabitləşdikcə, tələffüzlə yazı qaydaları arasındakı fərq azalır. Yəni sözlər düzgün tələffüz olunmalıdır.

Verilişin mətni öz musiqi həllini düzgün tapmalıdır. Mövzuya uyğun musiqi seçilməlidir. Cənubi Azərbaycan üçün hazırlanan verilişlərdə Azərbaycan bəstəkarlarının, el havalarının, müasir dövrdə hər iki tərəfdə tanınan sənətçilərin əsərlərinin təbliğinə xüsusi önəm verilir.

Yuxarıda adlarını çəkdiyimiz sahələrin, mili musiqinin, folklor nümunələrinin təbliğində daha səriştəli redaktorların fəaliyyəti tələb olunur ki, milli ruhda sanballı verilişlər hazırlansın.

Məsələn 1980-ci ildə Cənubi Azərbaycan üçün hazırlanan "Sözlü, nəğməli sətirlər" verilişində bu tayın təsviri sözlə, musiqiylə və təbii səs effektləri ilə zəngin hazırlanırdı ki, o taydan Vətənin bütün rayihəsi duyulsun. Xalqımızın maddi və mənəvi dəyərlərinin təbliği, milli musiqinin tərənnümü, elin, obanın tarixinə aid bilgilərin mütəmadi səslənməsi, ədəbiyyatımızın hər bir nümayəndəsinin əsərlərinin tanıdılması, poeziya nümunələrinə geniş yer verilməsi, bir sözlə bu tayda baş verən yaşantıların zamanında qarşı tərəfə ötürülməsində Azərbaycan Beynəlxalq Radiosunun, Cənubi Azərbaycan redaksiyasının fəaliyyəti körpü rolunu oynayıb.

Bu gün cənubdakı soydaşlarımız molla rejimindən əziyyət çəkir.Tarix boyu baş verən qəhrəmanlıq hadisələri, azadlıq mücadilələri hələ ki, öz nəticəsini verə bilməyib. Amma çox keçməz ki, müstəqil ölkəmiz, regionda söz sahibinə çevrilən, dünaynın əksər ölkələrinin enerji təchizatını həll etmək gücündə olan, öz qüdrətli ordusu ilə öyünən Azərbaycan dövləti cənubdakı soydaşlarımızın bu arzusunu da reallığa çevirər. Bütöv Azərbaycan naminə, dünənki, bugünki təbliğat dönəmində, informasiya müharibəsində radionun da informasiya ötürücülüyündə üzərinə böyük məsuliyyət düşür. Radiojurnalistlərin mükəmməl hazırlığı, savadlı kadrların milli ruhda çalışması üçün zəngin bilik və təcrübəyə malik olması önəmli amillərdən biridir.

Ədəbiyyat

1. Atamoğlanova, N. Güney Azərbaycanda milli mədəniyyətin inkişafında Azərbaycan beynəlxalq radiosunun rolu / N. Atamoğlanova. – Bakı: 2011, – 261 s.
2. Əhmədli, N. Jurnalistin nitq mədəniyyətinin əsasları / N.Əhmədli. – Bakı: Elm və Təhsil, – 2014. – 280 s.
3. Mazanlı,İ. Jurnalistika və müasir dövrün qlobal problemləri /İ.Mazanlı. – Bakı Universiteti, – 2013, s.416
4. Məhərrəmli, Q. Radio dərsləri / Q.Məhərrəmli. – Bakı: Nurlan, – 2007. – 496 s.
5. Ömərov, V. Ulu Öndər Heydər Əliyevin birinci hakimiyyəti illərində SSRİ-İran əməkdaşlığı çərçivəsində Cənubi Azərbaycan məsələsinə diqqət verməsi// Səs. – 2013, 1 aprel
6. Vəliyev, M. Səsimizi dünya eşidir//İki sahil. – 2021, 9 iyun
7. Veysəlli, F. Semiotika / F.Veysəlli. – Bakı: Mütərcim, – 2010

РЕЗЮМЕ
ТЕМА ЮГА В РАДИОЖУРНАЛИСТИКЕ
Кулиева Ш.М.

Ключевые слова: *радиожурналистика, Южный Азербайджан, национальная музыка, журналистика, Араз, радиотворчество*

Сегодня наши соотечественники, проживающие в Южном Азербайджане, страдают от режима мулл. На той стороне Араза политическая рознь, персидский режим, хаос, охвативший общество, национальная дискриминация, все меры, направленные на уничтожение азербайджанского духа во все эпохи, имеют целью держать народ в рабстве. Азербайджанское радио готовит для наших южных братьев познавательные передачи о воспитании родного языка, национальной музыки, образцов фольклора, словом, национальной памяти, успехах и достижениях в этой стране. Все жанры радиожурналистики затрагиваются в программах, представленных в духе патриотизма. Азербайджанское радио, легко пересекающее границы в передаче информации, уже более 70 лет выполняет свою миссию. Однако режим муллы, который держит народ в страхе, забывает, что Азербайджанское государство, крепнущее день ото дня, будет заботиться о своих соотечественниках на юге.

SUMMARY
A SOUTHERN THEME IN RADIO JOURNALISM
Guliyeva Sh.M.

Key words: *radio journalism, Southern Azerbaijan, national music, journalism, Araz, radio broadcasting*

Today, our compatriots living in southern Azerbaijan suffer under the rule of the mullahs. Political conflicts in that region, the Persian regime, societal chaos, national separatism, and all measures aimed at destroying the Azerbaijani spirit throughout history aim to keep the people in bondage. Azerbaijani Radio prepares informative broadcasts for our southern brothers and sisters on the dissemination and teaching of our mother tongue, national music, folkloric examples, our national memory, the successes and achievements that occur in that region. The broadcasts, presented with a patriotic spirit, appeal to all genres of radio journalism. Azerbaijan Radio, which easily crosses borders in transmitting information, has been fulfilling its mission worthily for more than 70 years. However, the mullah regime, which keeps the nation in fear, forgets that the Azerbaijan state, which is growing stronger day by day, will also take care of its compatriots in the south.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TƏHSİLƏ VERDİYİ DƏYƏR

Qurbanova Yeganə Təlhəd qızı
Azərbaycan Texniki Universiteti, Bakı, Azərbaycan
yeganaqurbanova67@gmail.com

Açar sözlər: *ali təhsil müəssisələri, dövlət siyasəti, təhsil, milli-mənəvi dəyərlər, ideologiya.*

Azərbaycan xalqının ağır anında özünü "köməyə" yetirmiş dünya şöhrətli siyasətçi, yorulmaz diplomatik səyi və təcrübəsi sayəsində vətəndaş həmrəliyinə və siyasi sabitliyə nail olmuş, daxili və xarici siyasət sahəsində ağlasığmaz nəaliyyətlər qazanmışdır. Onun prezident kimi fəaliyyəti çoxşaxəli və müqayisə olunmazdır.

Öndərimiz H. Əliyevin fəaliyyətinin ayrılmaz hissəsi olan maarifçilik xalqın bu günü, sabahı və gələcəyidir. Özlüyündə geniş məfhum olan maarifçiliyin Azərbaycanda A. A. Bakıxanov, İ. B. Qutqaşınlı, N. B. Zərdabi kimi görkəmli nümayəndələri olmuşdur. Xalqın maariflənməsində qeyd edilən şəxsiyyətlərlə yanaşı möhtərəm ulu öndərimiz H. Ə. Əliyevin adını çəkməyimiz onun dövlət başında olduğu dövrdə təhsilə, mədəniyyətə, elmə, dinə olan ciddi marağı və onların inkişafına göstərdiyi qayğı ilə bağlıdır.

XX əsrdə xalqımız iki dəfə müstəqillik qazanmaq və öz milli dövlətçiliyini qurmaq imkanına malik olmuşdur. 1918-1920-ci illərdə qazanılmış müstəqillik hələ öz kövrək addımlarını atmağa başlamamış

süquta uğramış olsa da, sonrakı müstəqillik üçün ibrət dərsləri tariximizin şərəfli səhifəsi kimi yadda qaldı. 1991-ci ildə ikinci dəfə qazandığımız müstəqillik tarixi dərslərə əsaslanaraq və öz dönməz xarakteri ilə əvvəlkindən fərqlənir. Bu yolda ərazilərimizin bir hissəsini itirsək də, parçalanmaq və vətəndaş müharibəsi həddinə çatsaq da, minlərlə qurbanlar versək də mübarizliyimizi, sabaha inamımızı, milli -mənəvi birliyimizi möhkəm qorumuş, taleyimizi inanılmış öndərə, görkəmli sərkərdəyə, əsl Vətən oğluna tapşırıb, onun ardınca gələcəyə doğru mətin addımlarla irəlilədik. Bu Vətən oğlu, Azərbaycan prezidenti hörmətli Heydər Əlirza oğlu Əliyev idi.

Hörmətli şəxsiyyət öz çıxışlarında qeyd edir ki, əsrlər boyu inkişaf edən dünya sivilizasiyası möhkəm təhsil, elm və yüksək tərbiyə üzərində qurulmuşdur. Həm orta məktəbdə, həm də ali məktəbdə təhsil alan gənclər dünya elminin, dünya mədəniyyətinin əldə etdiyi dəyərlərlə tanış olmalı, onu mənimsəməlidir. "Azərbaycan elə Azərbaycandır", "Azərbaycan üçün hər şey Azərbaycanın içində olmalıdır" ideyaları ümum-bəşəri hisslərdən, sivilizasiyadan uzaq olan şəxslərin fərdi fikirləri möhtərəm H. Əliyev tərəfindən qətiyyətlə rədd edilir.

Təhsili həyata keçirən müəllim şərəfli, yüksək ad daşıyan vətən övladıdır. Bu adı doğrultmaq, ona layiq olmaq hər bir müəllimin borcudur. Təhsil sahəsində çalışan hər kəs onun qayğısına qalmalıdır.

Məktəblərin, müəllimlərin Azərbaycanın gələcəyi üçün böyük məsuliyyət daşıdığını qeyd edən hörmətli öndərimiz H. Əliyev həm də çoxminli müəllimlər ordusunun öz vəzifələrini layiqincə yerinə yetirəcəklərinə əmin olduğunu bildirmək öz maarifçi təbiətini bir daha təsdiq edir.

Ulu öndərimiz qeyd etmişdir ki, biz XX əsrdə müxtəlif formada mərhələlər keçmişik, ayrı-ayrı ideologiyaların təsiri altında qalmışıq. İndi xalqımız hər cəhətdən azaddır.

Buna görə də bütün düşünən beyinlərimiz - alimlərimiz və o cümlədən, təhsil sahəsində çalışan müəllim ordusu milli ideologiyamızın formalaşması üçün əllərindən gələni etməlidirlər. Onu qurmaq, yaratmaq, həyata keçirmək sahəsində məktəb və ali təhsil ocaqlarlarında çox iş görmək lazımdır. Bunun üçün isə əlimizdə olan potensialdan yaradıcılıqla istifadə etmək lazımdır.

Təhsil sahəsində yeniliklərə dövrün tələbləri baxımından yanaşan möhtərəm H. Əliyev bu sahədəki bütün nəaliyyətləri alqışlamış, dünya təcrübəsindən yaradıcılıqla istifadə etməyi tövsiyyə etmişdir. Onları yerinə yetirərkən yaxın və uzaq zamanların nəticələrini mütləq nəzərə almağı təkidlə tələb edirdi. Bu onun uzaq görənliyi ilə bağlıdır.

Humanitar elmlərin tədrisinə diqqət yetirən ulu öndərimiz tariximizin, mədəni ənənələrimizin ön plana çəkilməsini tövsiyyə etmiş və tarixi kökümüzü bilmədən, ona hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə yaxşı qura bilməyəcəyimizi bildirmiş, gələcəyimiz barədə öz narahatlığını ifadə etmişdir.

Öz doğma dilimiz ilə yanaşı xarici dillərin öyrənilməsi hər bir azərbaycanlı üçün şərəfdir. Lakin hər bir xarici dilin öyrənilməsi ana dilindən başlanır. Ana dilimiz haqqında hörmətli H. Əliyev öz fikirləri ilə maraq doğurur: "Dilimiz zəngin dildir, ədəbiyyatımız, mədəniyyətimiz zəngindir və bunlar hamısı da ana dilimizlə, Azərbaycan dili ilə bağlıdır" - deyən öndərimiz digər dillərin öyrənilməsi üçün ana dilinin açar olması faktını bir daha diqqətimizə çatdırmaqla həm də öz doğma dilinə münasibətini bildirir.

Ali təhsil sistemində tələbələrin təhsili ilə bağlı professor-müəllim heyətinin üzərinə düşən vəzifələr barədə hörmətli prezident demişdir: Ali məktəblərə daxil olan gənclər Azərbaycanın elmini, mədəniyyətini, iqtisadiyyatını, ictimai-sosial həyatını, inkişaf etdirəcək yeni nəslin bir qrupudur. Bu gənclərin qeydinə qalmaq, onlara qayğıkeş münasibət göstərmək, başlıcası isə yaxşı təhsil vermək, ali məktəblərdə mənəvi mühiti möhkəmləndirmək, gənclərimizi gələcəkdə müstəqil həyatda sərbəst və layiqincə çalışmağa hazırlamaq – bunlar, ali məktəblərin professor və müəllim heyətinin, bütün ali məktəb işçilərinin müqəddəs vəzifəsidir.

Hörmətli ümummilli lider bizim qarşımıza qoyduğu bu vəzifələrdən hər birimizi daha məsuliyyətli ,daha əhatəli fəaliyyətə sövq edir.

Ali məktəblərin bugünkü vəziyyətini 1970-ci il səviyyəsi ilə müqayisə etdikdə - bu gün gənclərin ali təhsil almaq üçün daha geniş imkanlara malik olduqlarını qeyd etmək lazımdır. Bu gün tələbələrin digər dövlətlərin qabaqcıl univerisetlərində təhsil almaları ulu öndərimizin təşəbbüsü olmuşdur. İnkişaf göz önündədir, öz axarına düşmüş bu təşəbbüsü hal-hazırda hörmətli prezidentimiz İlham Əliyev davam etdirməkdədir. Bu gün gənclərimizin təhsil coğrafiyası daha da genişlənib: Amerika, Almaniya, Fransa, Türkiyə, Moskva, Yaponiya və s. Möhtərəm prezidentimizin çıxışından sətirlər: "Gənclərimizin təhsil dipozununu, müxtəlif sahələrdə mütəxəssislər hazırlanmasının diapazonunu genişləndirəcəyik və müstəqil Azərbaycan üçün yeni intelektual nəsil yetişdirəcəyik. Bunu etməliyik, bu bizim vəzifəmizdir".

Gənclər arasında vətənpərvərlik hisslərinin geniş təbliği diqqət mərkəzindədir. Hər bir vətəndaş vətənpərvər olmalıdır, vətənini, torpağını sevməlidir. Keçdiyimiz faciələrimizin, aşınmalarımızın səbəbini gənclərin daxili imkanlarından səmərəli istifadə etməməkdə, vətənpərvərlik tərbiyəsində buraxdığımız səhvlərdə görən möhtərəm H. Əliyev tərbiyədə şəxsi hisslərin ümummilli hisslərdən yüksəkdə durmasını

dözülməz hal hesab etmiş və əsas vəzifələrimiz sırasında vətənpərvərlik ruhunu, döyüş ruhunu qaldırmağın ilkin şərt olmasını vurğulamışdır.

Müxtəlif təhsil formaları ilə bağlı hörmətli liderimiz dünya təcrübəsindən istifadə etməklə, lakin onu kor-koranə tətbiq etmədən litsey, kolleclərin yaranması və gənclərin öhdəsinə verilməsi zəmnində bir çox işlər görmüşdür. Hansı formalar Azərbaycan gəncliyinin təhsil vəziyyətini qaldıra biləcəksə, yaxşı nəticələr verəcəksə bunlar haqqında düşünməli olduğumuzu qeyd edən ulu öndərimiz təhsilin ümumi problemlərini ön plana çəkməklə öz əsl Azərbaycanlı, əsl vətəndaş və maarifçi xarakterini nümayiş etdirmişdir.

Hörmətli liderimizin çıxışlarında tez-tez millilik məsələsi də öz əksini tapmışdır. Təhsildə, mədəniyyətdə milliliyi yüksək qiymətləndirən möhtərəm Heydər Əliyev milli mənəviyyatı millətin əsas sərvəti hesab etməkdə haqlıdır. Elm, təhsil sahəsində ənənələrimizə qayıtmağı tövsiyyə edən hörmətli prezident gənclərə bütün dünyaya yol açmağı vacib sayır və qeyd edirdi ki, XX əsrdə bunlardan məhrum olmaq bizim üçün böyük itkidir.

Azərbaycanda elmin inkişafına xüsusi diqqət yetirən möhtərəm Heydər Əliyev EA-nı xalqın tarixi nailiyyətləri sayırdı. Nəyin bahasına olursa olsun, Elmi Tədqiqat İnstitutlarının dağılmasına, elm ocaqlarına biganə münasibətə son qoyulacağı onun tərəfindən dəfələrlə deyilmiş, elmin inkişafının vacibliyini qeyd etmişidir. Liderimizin elm məbədi olan Elmlər Akademiyasının təkcə elmi mərkəz olmayıb, həm də bugünkü təhsilimizin yeni-yeni sahələrinin yaradıcı və ziyalı kadrlar formalaşdıran ən görkəmli müəssisə kimi Respublikamızın ictimai-siyasi hadisələri barədə fikirləri onun elmə, elm adamlarına qayğısının bariz nümunəsidir.

Xalqın mənəviyyatını, mədəniyyətini dərindən bilən möhtərəm prezidentimizin görkəmli şəxsiyyətlərin yubiley şənliklərində şəxsən iştirakı təqdirə layiq idi. Böyük Nizami Gəncəvinin əsərlərinin Moskvada "Художественная литература" nəşriyyatında nəfis və yüksək poliqrafik səviyyədə nəşri də hörmətli liderimizin klassik irsə maarifçi baxışlarına sanballı nümunədir.

İstər N. Gəncəvi, istərsə də M. Füzuli barədə söz deyərkən möhtərəm Heydər Əliyev cənabları onların təkcə bir şair kimi dünyaya tanıdılması ilə razılaşmır. O, qeyd edirdi ki, M. Füzulini də, N. Gəncəvini də dünya ictimaiyyətinə böyük filosoflar kimi, dünya mədəniyyətinə, elminə əvəzsiz töhvələr vermiş mütəfəkkirlər kimi tanıtmaq lazımdır. İ. Nəsimi, Bəhmənyar, Nəsrəddin Tusi və başqalarının da bu hörmətə layiq olması xüsusi vurğulanmışdır.

Ümummilli liderimiz M. Füzulinin 500 illik yubileyi ilə bağlı dövlət komissiyasının iclasında demişdir: "Ərəblər və farslar Füzulini öz şairi sayırlar. Türkdilli xalqlar isə hesab edirlər ki, o türkdür." Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda bunu türkmən, özbək, qazax, Türkiyədə yaşayan türklər, İraq türkmənləri də deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun, tarixə bəşəri bir şəxsiyyət kimi düşsün. Lakin şairin azərbaycanlı, Azərbaycan köklü olması, yaradıcılığının Azərbaycan ədəbiyyatı və mədəniyyətinin bəhrəsi olduğunu faktlarla sübuta yetirməyi özünə borc bilmişdir.

Görkəmli şəxsiyyətləri olan Azərbaycan həmişə öz övladları ilə fəxr etmişdir. Bizim üçün M. F. Axundov da, Əhməd bəy Ağayev də, Məmmədəmin Rəsulzadə də böyük şəxsiyyətlərdir. Bunların şəxsiyyətini yüksək qiymətləndirən liderimiz xüsusi olaraq N. Nərimanov və bir sıra başqa siyasi xadimlərin Azərbaycana düşmən olmaları barədə fikirlərə qarşı çıxır və göstərir ki, bunu deyən insanlar onların səviyyələrinə qalxmaları üçün bəlkə də on illərlə siyasi fəaliyyət göstərmələri lazımdır.

Siyasi xadim H. Əliyev bu sözləri ilə millətin say-seçmə oğullarını himayə etməklə onlara dayaq olduğunu, səviyyəsiz və qərəzli hücumlardan onları qoruduğunu bəyan etməklə, əsl vətəndaş, ziyalı, hamı olduğunu bir daha sübut etmişdir.

Bəşər övladının bəhrələndiyi mənbələri bəşəriyyətə səxavətlə bəxş etməyə hazır olan görkəmli şəxsiyyət həqiqətən dünyəvi maarifçiliyin yüksək zirvəsində özünəməxsus formada təbliğ edilməyə tam haqlıdır. Öyrədən, başqaları üçün nümunə, hamı üçün örnək şəxsin bəşəriyyətə mənsubluğu ideyası ən ümdə maarifçilik duyğusu kimi rəğbətə layiqdir.

Bütün bunlara istinad edərək şəxsi keyfiyyətləri əsas tutaraq möhtərəm ulu öndərimiz H. Əliyevin uzaqgörən, həssas, yorulmaz, qeyrətli vətəndaş, dünyəvi maarifçi kimi dərindən öyrənilməsi və nəsillərə nümunə bir şəxsiyyət kimi təbliğ edilməsinə böyük ehtiyac vardır.

Ədəbiyyat

1. Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir (otuz altıncı kitab). Bakı: Azərnəşr, 2011.
2. Əliyev H.Ə. Mənəviyyat, mənəvi, dəyərlər, mənəvi tərbiyə. Bakı: Müəllim, 2008.
3. Cəfərov N. Ümummilli liderin xilaskarlıq və dövlət quruculuğu missiyası. Xalq qəzeti, 2020, 15 dekabr.
4. Mərdanov M.C. - Azərbaycan təhsili dünən, bu gün, sabah. Bakı, Təhsil-2006.
5. Xəlilov S. H.Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı: Azərbaycan Universiteti, 2002.

РЕЗЮМЕ
ЦЕННОСТЬ, ДАННАЯ ОБРАЗОВАНИЮ ВЕЛИКИМ ЛИДЕРОМ ГЕЙДАРОМ АЛИЕВЫМ
Гурбанова Е.Т.

***Ключевые слова**: высшие учебные заведения, государственная политика, образование, национально-нравственные ценности, идеология.*

Статья отражает идеологию азербайджанства для азербайджанского народа в память о общенациональном лидере Гейдаре Алиеве. Общенациональный лидер Гейдар Алиев в 1993-2003 годах начал развитие независимого, демократического, легального и образованного государства Азербайджана.

SUMMARY
THE VALUE GIVEN TO EDUCATION BY THE GREAT LEADER HEYDAR ALIYEV
Qurbanova Y.T.

***Keywords:** Higher educational institutions, state policy, educstion, national-moral values, ideology.*

The article is dedicated to the memory of the national leader Heydar Aliyev, the ideology of azerbaijanizm, created by him for benefit of the azerbaijan people and the Azerbaijan Republik. Is a result measures taken under the leadership of National Leader Heydar Aliyev in 1993-2003 Azerbaijan began to develer as an independent, democratic, leqal and educated state.

KİÇİK YAŞLI ŞAGİRDİN BİR ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINA DAİR

Rəfiyeva Pərvanə Sərraf qızı
Quba Dövlət Sosial-İqtisadi Kolleci, Quba, Azərbaycan
hacizade211@gmail.com

***Açar sözlər**: ibtidai sinif, ünsiyyət, inkişaf, motivasiya, fəaliyyət*

Kiçik məktəb yaşı (6 yaşdan 10 yaşa qədər) şəxsiyyətin qədər nəzərə çarpan formalaşması yaşıdır. Bu yaş uşaqlığın zirvəsi adlanır və bir çox uşaq keyfiyyətlərini özündə saxlayır - cəfəngiyat, sadəlövhlük, böyüklərə aşağıdan yuxarı baxmaq. Bunlarla yanaşı, bu yaşda davranışda uşaq kortəbiiliyini itirməyə başlayır və artıq fərqli düşüncə məntiqinə malik olur. Uşağın məktəbə yazılması onun həyatının bütün sahələrində böyük dəyişikliklərlə əlaqələndirilir. Bu dəyişikliklər ilk növbədə münasibətlərin strukturu və uşağın cəmiyyətdəki yeri ilə bağlıdır. İnkişafın sosial vəziyyəti dəyişir, oyun fəaliyyəti getdikcə öz yerini təhsil fəaliyyətinə verir, kiçik şagirdin idrak fəaliyyətinin motivləri dəyişir, uşaq indi birbaşa daxil olduğu mənada getdikcə daha çox sosial varlığa çevrilir. Uşağın təhsil fəaliyyəti ilə bağlı daimi vəzifələri var. Yaxınları, müəllim, hətta yad adamlar uşaqla təkcə unikal bir insan kimi deyil, həm də onun yaşındakı bütün uşaqlar kimi öyrənməyə sadiq olan bir insan kimi ünsiyyət qururlar.

J. Piajetə görə məhz bu yaşda uşaq idrak inkişafının bir mərhələsindən konkret əməliyyatların digər mərhələsinə keçir. Bu işin məqsədi ibtidai məktəb yaşını xarakterizə etmək və bu yaşda olan uşaqlarda narahatlıq səviyyəsini müəyyən etməkdir. Beləliklə, ibtidai məktəb yaşı əsasən uşağın gələcək həyatını müəyyənləşdirir: necə oxuyur, kiminlə ünsiyyət qurur, hansı motivlər əsasında inkişaf etmişdir - bütün bunlar uşağı gələcəkdə doğru istiqamətə yönəldilmiş bir insan kimi xarakterizə edir. Kiçik yaşlı məktəblilərin təbiəti bəzi xüsusiyyətlərə görə fərqlənir. Hər şeydən əvvəl, onlar impulsivdirlər - təsadüfi səbəblərdən düşünmədən və bütün halları ölçmədən impulsların, motivlərin təsiri altında dərhal hərəkət etməyə meyillidirlər.

Yaşla bağlı xüsusiyyət həm də ümumi iradənin olmamasıdır: kiçik yaşlı şagird (xüsusilə 6-7 yaşında) qarşıya qoyulan məqsəd uğrunda uzun mübarizədə, çətinlikləri və maneələri dəf etməkdə o qədər də çox təcrübəyə malik deyil. Uğursuzluq halında təslim ola bilər, imkanlarına və gücünə inamını itirə bilər. Bu yaşda uşaqlarda şıltaqlıq, inadkarlıq tez-tez müşahidə olunur. Bunların səbəbi, əlbətdə ki, ailə tərbiyəsindəki çatışmamazlıqlardır. Yani, uşaq öyrəşib ki, onun bütün istək və tələbləri, adətən, ödənilir, və məktəbin onun qarşısında qoyduğu cətin tələblərə qarşı məktəblinin inadkarlığı, sanki bir növ etirazdı. Kiçik yaşlı məktəblilər çox emosionaldırlar. Emosionallıq, ilk növbədə, onların zehni fəaliyyətinin duyğularla rənglənməsinə təsir edir. Uşaqların müşahidə etdikləri, düşündükləri, onlarda emosional münasibət yaradır. Onlar öz hisslərini necə cilovlamağı, xarici təzahürlərinə nəzarət etməyi bilmirlər, təzahürü birbaşa və açıq ifadə edirlər, sevinc, kədər, qorxu, həzz və ya narazılıq ifadə etməyə meyillidilər. Emosionallığ onların tez-tez əhval dəyişikliyi, təsirə meyl, sevinc, kədər, qəzəb və qorxunun qısamüddətli təzahürlərində ifadə olunur.

Məktəbin ilk illəri - maraqların nəzərə çarpacaq dərəcədə inkişafı illəridir. Ən əsası isə koqnitiv maraq, ətrafımızdakı dünyanı tanımaq marağı, ümumiyyətlə, dünyanın fərqli mənzərəsinin mövcud olduğunu bilmək, daha çox öyrənmək hərisliyidir. İllər keçdikcə kiçik yaşlı məktəblinin öz hisslərini tənzimləmək,

arzuolunmaz təzahürlərini cilovlamaq bacarığı getdikcə daha çox inkişaf edir. Onların əməyinin tərbiyəvi əhəmiyyəti də böyükdür. Buna görə də şagirdləri tədricən başqaları üçün, ümumi mənafe üçün əməyə, əlçatan ictimai faydalı əmək növlərinə cəlb etmək çox vacibdir. Uşaqlar yavaş-yavaş başa düşməlidilər ki, öz işləri ilə ətrafdakı insanlara fayda verə bilərlər, və bu onlarda qürur, sevinc və məmnunluq yaradır.

Kiçik məktəb yaşı məktəb həyatının başlanğıcıdır. Ona daxil olan uşaq şagirdin daxili mövqeyini, təhsil motivasiyasını əldə edir. Təhsil fəaliyyəti onun üçün aparıcı fəaliyyətə çevrilir. Məktəb performansı böyüklər və həmyaşıdlar tərəfindən bir uşağın şəxsiyyət kimi qiymətləndirilməsi üçün vacib meyardır. Bu yaş dövründə şəxsiyyətin formalaşması kifayət qədər nəzərə çarpan şəkildə baş verir. Şəxsiyyət idrakın şüurlu subyekti və dünyanın aktiv transformatoru kimi real insanın sosial mahiyyətini əks etdirən ömürlük sistemli formalaşmadır. Şəxsiyyətin formalaşmasının ən mühüm şərti onun fəaliyyətdə iştirakıdır.

Məktəbə getmək uşağın həyatında dönüş nöqtəsidir. Böyüklər və həmyaşıdları ilə yeni münasibətlər formalaşır, uşaq bütöv bir komanda sisteminə (məktəb, sinif otağı) daxil edilir. Yeni fəaliyyət növünə daxil olmaq şagird qarşısında bir sıra ciddi tələblər qoyan, sosial dəyərli şəxsiyyət xüsusiyyətlərini formalaşdırmaq üçün onun həyatını ciddi təşkilata tabe etdirən təlimdir. Bu yaşda əxlaqi davranışın əsası qoyulur, şəxsiyyətin sosial yönümünün formalaşması başlayır. İbtidai siniflərdə təhsilin sonuna kimi kiçik yaşlı məktəblilərin mənəvi şüuru əhəmiyyətli dəyişikliklərə məruz qalır. Uşağın sosial çevrəsi genişləndikcə, sinifdə həmyaşıdlar qrupu inkişaf etdikcə, uşağın mənəvi təcrübəsi toplanır. Kiçik şagirdin hərəkətlərinə, biliyinə, şəxsi keyfiyyətlərinə ictimai qiymət verilməsi artıq onun üçün böyük əhəmiyyət kəsb edir. Ancaq eyni zamanda, kiçik məktəblilərin böyüklərə (ilk növbədə müəllimə) münasibətdə etibarsızlığı və açıqlılığı hələ də çox yüksəkdir. Bu mərhələdə uşağın şəxsiyyətinin formalaşmasında ziddiyyətlərdən biri məhz ondan ibarətdir ki, bir tərəfdən onun öz davranışına nəzarət etmək qabiliyyəti inkişaf edir, digər tərəfdən isə o əxlaq normalarına əməl etməyə çalışır. Buna görə də uşağın daimi ünsiyyətdə olduğu böyüklərin (xüsusilə müəllimlərin) rolu böyük əhəmiyyət kəsb edir. Müəllimin təsiri altında uşaqlar sinif yoldaşlarının uğur və uğursuzluqlarına xeyirxah maraq göstərməyə başlayanda, şəxsi uğurlarını ümumi uğurun bir hissəsi hesab edəndə kollektiv formalaşmağa başlayır. Fəaliyyətin belə təşkili uşaqların bir-biri ilə qarşılıqlı əlaqədə olması, bir uşağın fəaliyyətinin nəticəsinin digərinin fəaliyyətindən asılı olması üçün lazımdır. Hər bir şagirdin fəaliyyətdə fəal mövqe tutması da çox vacibdir. Kiçik məktəb yaşı emosiyaların təzahürlərində təmkin və məlumatlılığın artması, emosional vəziyyətlərin sabitliyinin artması müşahidə olunur. Şagirdlər artıq əhval-ruhiyyələrini necə idarə etməyi bilirlər.

İbtidai siniflərdə təhsilin sonunda artan tələblərin, düzgün təşkil edilmiş tərbiyə işinin təsiri altında kiçik şagirddə əməksevərlik, nizam-intizam, dəqiqlik formalaşır. Tədricən öz davranışını könüllü tənzimləmək qabiliyyəti inkişaf edir, özünü saxlamaq və hərəkətlərinə nəzarət etmək, ani impulslara tab gətirməmək, əzmkarlıq və çətinlikləri dəf etmək bacarığı meydana çıxır. Beləliklə, təhsil fəaliyyətində və ünsiyyət prosesində formalaşan kiçik yaşlı şagirdin özünə hörməti sabit şəxsiyyət xüsusiyyətinə çevrilə və digər şəxsiyyət xüsusiyyətlərinin yaranmasına təsir göstərə bilər. Sabit, adət olunmuş özünə hörmət uşağın həyatının bütün sahələrində iz buraxır.

Ədəbiyyat

1. Qədirov Ə.Ə., Xəlilov N. Yaş psixologiyası. Gəncə, 1999, 381 s.
2. Çələbiyev N. Uşaq psixologiyası, Bakı, 2005.
3. Валлон А. Развитие ребенка. М.: Гос.Изд. 1956
4. Məhərrəmova, M.H. Müasir dilçilikdə koqnitiv paradiqmaya dair // Sumqayıt Dövlət Universiteti. Elmi Xəbərlər, Sosial və humanitar elmlər bölməsi. c. 13, № 1, –Sumqayıt: SDU, – 2017. s. 4-8
5. Матюхин М.В. Мотивация обучения младших школьников. – М., 1984.

РЕЗЮМЕ

О СТАНОВЛЕНИИ ШКОЛЬНИКА МЛАДШЕГО ВОЗРАСТА КАК ЛИЧНОСТИ

Рафиева П.С.

Ключевые слова *: начальный класс, общение, развитие, мотивация, деятельнось*

В статье рассматриваются особенности формирования личности младшего школьного возраста. Автор отмечает, что правильно организованная учебная деятельность и коммуникативный процесс являются наиболее эффективным средством формирования самореализующейся личности, что приводит к большому желанию ходить в школу и учиться.

SUMMARY

ABOUT BECOMING AN IDENTITY OF A JUNIOR SCHOOLCHILD

Rafiyeva P.S.

Key words *: elementary school, communication, development, motivation, activity*

The article deals with the features of the formation of the personality of a junior schoolchild. The author notes that a properly organized educational activity and a communicative process are the most effective means of forming a self-fulfilling personality, which leads to a great desire to go to school and study.

HEYDƏR ƏLİYEV – TƏHSİLDƏ VƏTƏNPƏRVƏRLİK İDEYASI

Rzaquliyeva Səvvarə Dövlət qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
sosiologiya@mail.ru

Açar sözlər: *müstəqillik, təhsil strategiyası, vətənpərvərlik, azərbaycançılıq, milli özünüdərk*

İlk müstəqillik illərindən başlayaraq dövlətimizin siyasi-iqtisadi, milli inkişaf strategiyası və mədəniyyət siyasətinin təkamül konsepsiyası formalaşmışdır. Eyni zamanda milli maraqlara əsaslanan diplomatiyası və hüquqi dövlət quruculuğu milli müstəqilliyimizi bərqərar edib. Ölkəmizin regionda geosiyasi və dünyada iqtisadi əhəmiyyəti getdikcə artmaqdadır. Azərbaycanın beynəlxalq aləmdə əhəmiyyəti və regional dövlət olaraq gələcək perspektivləri daha da genişlənməkdədir. Hazırda Prezident İlham Əliyevin apardığı məqsədyönlü uğurlu siyasəti nəticəsində Azərbaycan beynəlxalq ictimaiyyətə tanıdıldı. Azərbaycanda siyasətin, iqtisadiyyatın gücü nə qədər artmışdırsa eləcə də təhsilin inkişafına diqqət artmışdır. Hələ ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda milli təhsil konsepsiyası hazırlandı və ugurla həyata keçirildi. Sözsüz ki, təhsilimizin son 60 ildə qazandığı uğurlar ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dövrün reallıqları onu göstərir ki, atrıq təhsil sisteminin də yeni inkişaf mərhələsi başlanmışdır. Günümüzün reallığına uyğun olaraq təhsilimiz durmadan inkişaf etməkdədir. Bu inkişafın əsas strategiyası milli təhsilimizi yüksək dünya standartlarına çatdırmaq və gənc nəsili vətənpərvərlik ruhunda böyütməkdir. Gənc nəsilin yüksək təhsil alması və vətənpərvərlik ruhda böyüməsi üçün dövlətimiz tərəfindən böyük diqqət göstərilir. Çünki bir xalqın təhsili nə qədər tərəqqi edərsə, o xalqın işıqlı gələcəyi və intibahı olar. Azərbaycanda təhsilin inkişafı dövlət siyasətinin əsas prioritet istiqaməti, həmçinin bu sahədə müəyyən vəzifələri layiqincə yerinə yetirməkdən ibarətdir. Cəmiyyətdə sosial-iqtisadi həyatın yüksəlməsində və müasirləşmə dönəmində təhsilin rolu çox böyükdür. Təhsil alanın təkcə qazandığı bilik deyil, eyni zamanda onun bilik və qabiliyətinin mükəmməlliyi cəmiyyətdə layiqli bir vətəndaş olması üçün əsaslı zəmin yaradır. Bu baxımdan tarixin bütün dövrlərində təhsil insanların həyatında, onların dünyagörüşlərinin formalaşmasında əsaslı rol oynamışdır. [1, s.89]

Müasir dünyanın qlobal çağırışı təhsilin daha yüksək prioritetə çevrilməsinə yönəlmişdir. Təbii ki, qloballaşmanın vüsət aldığı bir dövrdə Azərbaycan da bu proseslərdən kənarda deyil, daim yeni inkişafa, informasiya fəaliyyətininə doğru irəliləyir. Azərbaycan təhsilində ən vacib şərtlərdən biri gənc nəsili fəal və vətənpərvər yetişdirmək vəzifəsidir. Xüsusən ümumtəhsil məktəblərində keçilən hərbi dərslər və təbliğ olunan vətənpərvərlik ideyaları şagirdlərdə qəhrəmanlıq, hünər, fədakarlıq kimi ülvi hisslər yaradır. Biz məğlubedilməz bir xalq olaraq hələ kiçik yaşlarımızdan bu müqəddəs ülvi hisslərlə böyüyürük. Gənc nəslin milli-vətənpərvərlik ruhda yetişməsi son dərəcə vacibdir. Təkcə müəllimlərin onlara elm, təhsil verməklə deyil, həmçinin milli ruhda böyüməsində, vətəninə sadiq bir vətəndaş kimi yetişdirilməklərində də əziyyətləri böyükdür. Vətənə, torpağa, millətə sadiqlik onlarda tariximizi öyrənmək, soy kökümüzə bağlılıq, torpağımızı, dilimizi sevmək kimi ən ali hisslərə sahib olmaqdır. Tarixdən gələn ənənələrimizə bağlılıq və dövlətçiliyimizə sədaqət ruhunda tərbiyə xalqımızın milli mentalitetinə əsaslanır. Bu gün qururla demək olar ki, 44 günlük Vətən müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatmasında elə ən mühüm amil məhz gənclərimizin vətənpərvərlik ruhuna bağlı olması idi. Həm birinci, həm də ikinci Qarabağ savaşında qanları ilə tarix yazan övladlarımız hər biri bir qəhrəmanlıq dastanına çevrildi. Hələ çox kiçik yaşlarından başlanan vətən sevgisi, el-oba təsübkeşliyi onları gələcəkdə sözün əsl mənasında qəhrəman etdi. İkinci Qarabağ müharibəsi Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldı. Tarix səhnəsində özlərinin qəhrəmanlıq yollarını yazan gənclərimiz Azərbaycan torpağına tarixi qələbəsini qazandırmış oldular. [2, s.154]

Milli kimliyimizin göstəricisi olan vətən, torpaq təsübkeşliyi ölkəmizin siyasətində də özünü biruzə verir. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi gənclərimizin bütün sahələrdəki uğurlarının göstəricisidir. Milli dövlətçiliyimizin tarixində müstəsna rolunu nəzərə alaraq, Azərbaycan Prezidentinin müvafiq sərəncamlarıilə 27 sentyabr tarixinin Anım günü kimi və mədəniyyət beşiyimiz olan Şuşamızın azad olunduğu 8 noyabrın tarixinin – Zəfər günü kimi qeyd olunması qərara alındı. Ulu öndər Heydər Əliyev milli təhsil quruculuğu sahəsində bir çox islahatlar aparmışdır. O əsasən təhsilin məzmununda milli dövlətçilik

prinsipləri əsasında, azərbaycançılıq ieologiyasına uyğun olaraq qurulmasına zəmin yaratmışdır. Ulu öndər təhsilin mühüm komponenti olan milli tərbiyə və ideologiya sistemini təhsilimizdə ən vacib məsələ hesab etmişdir. Bu gün Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev təhsil quruculuğunda bir sıra kardinal islahatlar apararaq, təhsilimizin daha yaxşı inkişaf prespektivlərini irəli çəkmişdir. Azərbaycan təhsilində vətənpərvərlik ruhu və milli tərbiyə sistemi yeniyetmə və gənclərin həyatının formalaşmasında zəruri hesab olunur. Bu gənc nəsildə azərbaycançılıq ideologiyasının formalaşmasının zəruriliyi, həmçinin milli tərbiyə konsepsiyasının və strategiyasının prioritetlərindəndir. Ümumiyyətlə cəmiyyətdə əxlaq normaları, insanların mənəviyyatı və həyata baxışları milli tərbiyə və adət ənənəyə sıx bağlıdır. Təbii ki, hər bir insan hələ kiçik yaşlarından milli tərbiyyə ruhunda böyüməlidir. Çünkü o uşaq vaxtından adət ənənələrlə qarşılaşır, ailədə milli tərbiyə ruhunda böyüyərək gələcəkdə özündən əvvəlki nəslin mənəvi simasını əks etdirir. Belə ki, yaşadığı cəmiyyətdə ləyaqətli vətəndaş kimi yeniləşir və mütərəqqi hisslərini artırmış olur. Çünki, milli tərbiyə hissi və vətənpərvərlik ənənələri daima insan münasibətlərinin tənzimləyicisi olmuşdur. Hər bir xalqın təhsilində ən önəmli faktor dil məsələsidir. Dil insanın ictimai-siyasi həyatında mühüm hadisədir. Bu mənada Azərbaycan təhsilində dilimizin qorunması və inkişafı prioritet məsələlərdəndir. Vətənini, dilini sevən hər bir azərbaycanlı vətən uğrunda canını belə fəda etməkdən usanmır. [3, s.17] Bu gün Azərbaycan gəncliyi sözün əsl mənasında vətənpərvər ruhda böyüyür və tərbiyə alır. Qürurla deyə bilərik ki, 44 günlük Vətən müharibəsi xalqımızın şanlı tarixi, qəhrəmanlıq simvoludur. İgid, vətənpərvər övladlarımızın sücaəti nəticəsində tarixi torpaqlarımızın işğaldan azad edilməsi bənzəri olmayan qələbəmiz olmuşdur. Mənfur düşmən nə qədər beynəlxalq birlik tərəfindən tanınan ərazilərimizi zor tətbiq etməklə işğal altında saxlamağa çalışsa da qəhrəman, ruhu vətən eşqi ilə çırpınan övladlarımız bununla barışa bilməzdi. Bu istiqamətdə dövlətimiz hər bir zaman onların yanında olmuş, vətən müharibəsində və sonrakı dövrlərdə də onların hər birinə mənəvi, sosial dəstəyini əsirgəməmişdir. Şəhidlik elə bir zirvədir ki, o zirvə yalnız ona layiq olana qismət olur. Şəhidlik dövlət, vətən, xalq, ədalət və haqq yolunda canından keçməkdir. Şəhidlik milli qürur mənbəyi, milli iftixar hissidir ki, bu amal uğrunda düşmən üzərinə yeriyən vətən oğulları bu adı özlərinə sevərək qəbul etdirmişlər. Tarix boyu xalqımız öz azadlığı, müstəqilliyi uğrunda saysız şəhidlər vermiş və vətən torpaqlarımızı yad ellilərdən təmizləmişlər. Öz ata-baba nəsihət və əmanətlərinə sahib çıxan vətənpərvər övladlarımız otuz ilə yaxın düşmən tapdağında qalan torpaqlarımızı qarış-qarış azad etməyə qadir oldular. Mübariz İbrahimov, Polad Həşimov, Həmid Şükürov, İlqar Mirzəyev, Cəbrayıl Dövlətzadə, Murad Mirzəyev kimi və yüzlərlə vətən oğullarımız öz ömür yollarına şanlı tarix yazdılar. Onların hər birnin həyatı xalqımızın övladları üçün bir örnəkdir. Bu gün onların keçdikləri həyat yolu təhsil müəssisələrində iftixarla anılır. Ümumtəhsil və ali məktəblərdə təhsil alan hər bir gənc şəhid adını uca tutaraq, hər zaman onların xatirələrini anmağı özlərinə mənəvi borc bilirlər. Bütün gənclər milli tərbiyə sistemində və azərbaycançılıq ideologiyasının əsas qayəsində şəhidlərimizi xatırlayırlar. Əlbət ki, müasir dövdə yeniləşən təhsil sistemində azərbaycançılıq ideologiyasının gənc nəsil tərəfindən öyrənilməsi ən ümdə vəzifədir. Çünki, böyüməkdə olan gənc nəsilin kamilləşməsi, mənəviyyatca zəngin olması üçün azərbaycançılıq ideologiyasını anlamaqdan keçir. [4, s.75]

Qloballaşma və modernləşmə şəraitində dünyada bir çox hadisələr, dəyişikliklər baş verir. Dünyada baş verən dəyişikliklər, ictimai-siyasi, mədəni islahatlar və vətəndaş cəmiyyəti quruculuğu sahəsində demokratik bir mühitin yaranmasını təmin etmiş olur. Demokratik mühitdə vətəndaş cəmiyyətinin formalaşdırılması üçünsə şəxsiyyətin toxunulmazlığı, tolerant mühitinin olması, əxlaqi-mənəvi, milli dəyərlərin mühafizəsi istiqamətində ciddi addımların atılması vacib və mütləqdir. Tarixən milli-mənəvi dəyərlərin qorunması onu yaşadan xalqa məxsus olmuşdur. Təbii ki, bu dəyərlərin ən müqəddəsi vətən anlayışına və vətənpərvərlik ruhuna bağlıdır. Azərbaycan xalqının tarixən formalaşmış mənəvi- əxlaqi meyarlarını, mədəni irs və milli kimliyini gənc nəsilə öyrətmək bu günün təhsil işçisinin ən böyük məsuliyyəti və şərəfidir. Təhsilimizdə fundamental elmi biliklərin öyrədilməsi ilə yanaşı vətənpərvərlik anlayışı, hərbi vətənpərvərlik dərsləri də tədris olunur. Hərbi vətənpərvərlik dərsləri şagirdlərin, tələbələrin vətənpərvərlik ruhunda tərbiyə olunmasında müstəsna rol oynayır. Bu ruhun əsas daşıyıcıları gənclərdir. Dəfələrlə öz çıxışlarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasını ən vacib məsələ kimi qeyd etmişdir. Azərbaycan vətəndaşı olan hər kəs bacardığı qədər gənclərdə vətənpərvərlik tərbiyəsini yüksəltmək və onlarda ruh yüksəkliyi yaratmaq, vətənini dərindən öyrənməyi aşılamalıdır. Xalqımızın və elmi- tərəqqinin gələcək inkişafı birbaşa təhsillə bağlıdır. Bu gün milli təhsil quruculuğunda yeniləşmə, yeni struktur dəyişiklikləri aparılır. Son illərdə təhsilimizin dünya ölkələrinin təhsilinə inteqrasiya prosesi sürətlə inkişaf edir. Müasir cəmiyyətlər yeni nəsil dəyişikliyinin səviyyəsi üçün cavabdehlik daşıyır. Bu baxımdan cəmiyyət təhsilin inkişafına, gələcək nəsilin saglam ruhda yetişməsində xüsusi rol oynayır. Təlim-tərbiyə prosesində mədəniyyətin böyük rolu vardı. Belə ki, müasir nəsilin dünyagörüşünün formalaşmasında, onların vətənpərvər bir ruhda böyümələri üçün milli ədəbiyyatın, musiqinin, təsviri sənət nümunələrinin, televiziya verlişlərinin və filmlərin əhəmiyyəti

əvəzsizdir. Bu cür ideoloji tərbiyə işinin keyfiyyəti yeniyetmə və gənclərin sosiallaşmasında müsbət keyfiyyətləri aşılayır. Təhsilimizdə vətənpərvərlik ideyalarının gücləndirilməsi və inkişafı istiqamətində əsaslı dönüş yaradılmışdır. İftixar hissi ilə qeyd edə bilərik ki, bu gün ölkəmizdə hüquqi demokratik dövlət quruculuğu, iqtisadi, siyasi, mədəni islahatların geniş miqyasda aparılması gələcək inkişaf strategiyamızı təşkil edir. [5, s.203] Müasir dövrdə cəmiyyət, ailə və dövlət üçün əxlaqi dəyərlərə hörmət edərək saflaşdırmaq ən vacib məsələlərdən biridir. Ümumtəhsil məktəblərində hümanitar elmlərin xüsusən tarix, ədəbiyyat, coğrafiya fənnlərinin öyrənilməsi özəlliklə mühüm rol oynayır. Əxlaqi-mənəvi meyarlarımızı, genetik yaddaşımızı, tarixi kimliyimizi gənc nəsilə aşılamaq, istər orta, istərsə də ali təhsil müəssisələrində çalışan pedaqoq və müəllimlərin üzərinə məsuliyyət qoyur. Qeyd etdiyimiz kimi bu elmlərin hələ kiçik yaşlarından öyrənilməsi cəmiyyəti inkişaf etdirən, daima irəli aparan vətəndaşlar yetişdirir. Bütün tarixi zamanlarda gələcəyimiz olan gənclərimiz doğulub boya-başa çatdığı vətəninə, millətinə, soy-kökünə sədaqət nümayiş etdirərək, böyük məsuliyyət hissi yaşamışlar. Gənclər cəmiyyətin tərəqqisinin hərəkətverici qüvvəsidir. Milli tərbiyə sistemimizdə yer alan milli ruh özünüdərk, hümanizm və digər mənəvi keyfiyyətlər gənc nəsildə emosional hisslər oyadır. Mənəvi mədəniyyət mənəvi tərbiyənin əsasını təşkil edir. Çünki mənəvi mədəniyyət gənclərdə daha çox mənəvi fəaliyyəti formalaşdırır. Mənəvi mədəniyyət olmadan milli tərbiyə yarımçıq hesab olunar və qazanılan biliyin də əhəmiyyəti ola bilməz. Milli və mənəvi mədəniyyətin inkişafı isə dövlət mədəniyyət siyasətinin əsasını təşkil edən prioritet məsələlərdəndir.

Ədəbiyyat

1. Abdullayev K. M. Heydər Əliyev və milli-mənəvi dəyərlər Bakı, 2017.
2. Əmirov M.M. İnsan və cəmiyyət (Ali məktəblər üçün dərs vəsaiti). Bakı: ADPU-nun nəşriyyatı, 2010.
3. Əliyev F. A Müasir mərhələdə vətənpərvərlik tərbiyəsi (metodik vəsait). Bakı: ADPU-nəşriyyatı, 2012.
4. Əsgərov Ş. Q. Təhsilimiz: dünən, bu gün, sabah. Bakı, 2003.
5. Rəhimzadə V. G. Milli-mədəni dəyərlərin qorunmasında Heydər Əliyevin Rolu. Bakı, 2017.

РЕЗЮМЕ

ГЕЙДАР АЛИЕВ - ИДЕЯ ПАТРИОТИЗМА В ОБРАЗОВАНИИ

Рзагулиева С.Д

Ключевые слова: *независимость, образовательная стратегия, патриотизм, азербайджанство, национальное самосознание*

Ввысокое развитие образования в истории нашей независимости является заслугой великого лидера Гейдара Алиева. Особое место занимает идея патриотизма в содержании национального образования азербайджанского народа. Отмечено, что развитие нашего образования признано не только в нашей стране, но и в мире. Будущее развитие и успех Азербайджана в 21 веке зависит от современного образования. В статье отмечается, что величайшей духовной силой, которую дает азербайджанское образование нашей молодежи, является чувство патриотизма, национальной государственности, идеология азербайджанства.

SUMMARY

HAYDAR ALIYEV - THE IDEA OF PATRIOTISM IN EDUCATION

Rzaguliyeva S.D

Key words: *independence, education strategy, patriotism, azerbaijanism, national self-awareness*

The article is about the high development of education in the history of our independence is precisely the services of the great leader Heydar Aliyev, the idea of patriotism in the content of the national education of the Azerbaijani people has a special place. It is noted that the development of our education is recognized not only in our country, but also in the international world. Future development and success of 21st century Azerbaijan depends on modern education. The article mentions that the greatest spiritual power that Azerbaijani education gives to our youth generation - the feeling of patriotism, national statehood, the ideology of Azerbaijaniism, and patriotism education.

EDUCATION SYSTEM IN THE GLOBALIZED WORLD: SUCCESS, PROBLEMS

Shapran Liudmyla

First Vice-Rector, Candidate of Technical Sciences Communal Institution of higher education "Dnipro Academy of Continuing education" of Dnipropetrovsk Regional Council

Key words: *globalized, education system, problems, technology*

The education system can not adapt to the rapidly changing world. The education system is struggling to keep up with the rapid development of technology. Rapid changes in technology reveal the need for adequate infrastructure and resources for education systems.

In modern times, rapid globalization and technology development are rapidly changing our world. These changes also affect the education system, bringing problems and successes to education.

Thus, with the development of technology, the diversity in learning styles has increased significantly. As a result, in this way, it was possible for students to receive education according to different learning styles. Thanks to international student exchange programs, students have the opportunity to develop themselves by studying different cultures and languages. Thanks to e-learning opportunities, it was possible to receive training from anywhere.

More people gained access to education, which accelerated economic growth. Thanks to advanced education systems, students' preparation for the world of work has expanded.

Based on what has been mentioned, we can say that globalization has had a significant impact on education systems around the world. Success in education due to the influence of globalization can be evaluated as follows:

1. Increased access to education: Globalization has given people from different parts of the world access to education and training opportunities that were previously unavailable to them. Online learning platforms, international student exchange programs and global partnerships between educational institutions have helped to provide greater access to education.

2. Diversification of education systems: As globalization brings together people from different cultural backgrounds, the need for education is increasingly recognized. Systems are becoming more diverse and comprehensive. This has led to a greater emphasis on multiculturalism and the integration of different perspectives into education.

3. Standardization of education: At the same time, globalization has led to greater standardization of education, especially in terms of curriculum and assessment. This is partly due to international organizations such as the OECD, which have developed standardized measures of educational performance and encouraged the adoption of best practices in different countries.

4. Commercialization of Education: With the growth of the global education industry, there is increasing pressure for educational institutions to operate as profit-driven businesses. This has led to concerns about the quality and accessibility of education, particularly in developing countries where public funding for education is lacking.

5. Brain Drain: Globalization has also contributed to the phenomenon of brain drain, where talented individuals from developing countries migrate to more developed countries in search of better educational and employment opportunities. This can have a negative impact on the development of education systems in countries that lose their best and brightest.

6. Technological advances: Globalization has also facilitated the development and diffusion of new technologies that have changed the way we learn and teach. This includes online learning platforms, mobile learning apps and virtual reality simulations.

Overall, globalization's impact on education has been both positive and negative, creating opportunities and challenges for students, teachers, and policymakers around the world.

- inequality and equal opportunities: The education system in developing countries and some rich countries is criticized for inequalities between rich and poor families. While the children of wealthy families have the opportunity to receive better quality education, the children of poor families are not provided with these opportunities;

- insufficient budget: Collection systems often face insufficient budget. For this reason, problems arise in the physical infrastructure of schools, opportunities given to students, and teachers' salaries;

- educational systems cause pressures that negatively affect the mental health of students and teachers. Applying exam pressure to students is based on teachers' actions;

- inadequate teacher training: lack of quality education of teachers as a problem of the education system. The impact of teachers not having enough knowledge and skills on students' quality education;

- inadequate use of technology: In an era of rapid development of technology, the technological infrastructure of the educational system may be insufficient. The negative impact of insufficient use of technology on the adaptation of students and teachers to the modern world;

- lack of interest and motivation of students: the lessons presented by students in the education system are boring or useless;

- standardization: Some education systems measure student achievement through tools such as standardized tests and exams. However, this standardization system pushes students to succeed only in a certain area. This situation does not encourage students to think creatively and solve problems;

The problems of inequality and satisfaction created by globalization in world education are two major issues that can have a significant impact on students, teachers, and society as a whole. Some of the problems with these issues are:

1. Inequality in access to education: In many parts of the world, there are significant disparities in access to education, especially for marginalized groups such as girls, rural populations, and low-income families. This can lead to significant educational and economic disadvantages for these groups, perpetuating inequality.

2. Inequality in the quality of education: Even when education is accessible, there can be significant differences in the quality of education available to different groups. This includes funding, resources, teacher training, educational infrastructure and other factors.

3. Inequality in academic achievement: students from disadvantaged backgrounds often struggle to achieve academic success, leading to lower graduation rates and reduced access to higher education and employment opportunities.

4. Satisfaction with educational experience: Many students and teachers report dissatisfaction with their educational experience. This may be due to a variety of factors, including lack of engagement with the material, inadequate resources and support, and lack of relevance to real-world needs.

5. Inequality in opportunities after graduation: Even when students complete their programs of study, there can be significant differences in the opportunities available to them. This can result in factors such as differences in social networks, discrimination and unequal access to employment opportunities.

Solving these problems requires the joint effort of politicians, educators and society as a whole. This may include increasing funding for education, developing more inclusive and equitable education policies and practices, and ensuring that education is relevant to the needs of students and society. It may also require addressing broader issues of social and economic inequality, such as poverty, discrimination and social exclusion.

Pressures in education systems have a negative impact on the mental health of students and teachers. The education system cannot adapt to the rapidly changing world. The education system is struggling to keep up with the rapid development of technology. Rapid changes in technology reveal the need for adequate infrastructure and resources for education systems.

As a result, education systems around the world face both successes and challenges. Education systems respond to the rapidly changing needs of the world.

References

1. Michigan State University – www.msu.edu
2. Massachusetts state university – www.mit.edu
3. University of Chicago – www.uchicago.edu
4. Princeton University – www.princeton.edu
5. Stanvord University – www.stanford.edu
6. University of Pennsylvania – www.upenn.edu

XÜLASƏ

QLOBALLAŞAN DÜNYADA TƏHSİL SİSTEMİ: UĞURLAR, PROBLEMLƏR

Şapran L.

Açar sözlər: *qloballaşma, təhsil sistemi, problemlər, texnologiyalar*

Məqalədə qloballaşan dünyada təhsil sisteminin uğurları və problemləri əks olunur. Qeyd olunur ki, texnologiyanın inkişafı ilə tədris üslublarının müxtəlifliyi xeyli artıb və beləliklə, tələbələrin müxtəlif tədris üslublarına uyğun təhsil almaq imkanı yaranıb. Beynəlxalq tələbə mübadiləsi proqramları sayəsində tələbələr müxtəlif mədəniyyətləri və dilləri öyrənərək özlərini inkişaf etdirmək imkanına malikdirlər. E-learning imkanları ilə dünyanın istənilən yerindən təlim keçmək mümkün oldu. Qloballaşmanın təhsilə təsiri həm müsbət, həm də mənfi əhəmiyyətə malikdir, bütün dünyada tələbələr, müəllimlər və siyasətçilər üçün imkanlar və problemlər yaradır.

РЕЗЮМЕ

СИСТЕМА ОБРАЗОВАНИЯ В ГЛОБАЛИЗИРОВАННОМ МИРЕ: УСПЕХИ, ПРОБЛЕМЫ

Шапран Л.

Ключевые слова: *глобализация, система образования, проблемы, технологии*

В статье отражены успехи и проблемы системы образования в глобализированном мире. Отмечается, что с развитием технологий разнообразие стилей обучения значительно возросло, и таким образом у студентов появилась возможность получать образование в соответствии с различными стилями обучения. Благодаря международным программам студенческого обмена студенты имеют возможность саморазвития, изучая различные культуры и языки. Благодаря возможностям электронного обучения стало возможным проходить обучение из любой точки мира. Влияние глобализации на образование имеет как положительное, так и отрицательное значение, создавая возможности и проблемы для студентов, преподавателей и политиков по всему миру

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA ELM VƏ TƏHSİLİN İNKİŞAFINA TÖHFƏSİ

Səlimov Mahir Məhəmmədəli oğlu
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı, Azərbaycan, f.f.d., dosent
mahir.0707@mail.ru

***Açar sözlər**: Heydər Əliyev, inkişaf, elm, təhsil, şəxsiyyət, Ümummilli lider*

Azərbaycanda elm və təhsilin inkişafı həmişə böyük şəxsiyyətlərin sayəsində irəliyə bilmişdir. Elm və təhsilin inkişafında Ulu Öndər Heydər Əliyevin töhfəsi heç kimdə şübhə yarada bilməz. Məhz onun Azərbaycana rəhbərlik etdiyi illərdə milli elmimiz və təhsilimiz inkişafa doğru bir sıçrayış etmişdir. Sözsüz ki, onun peşəkarcasına qurub-yaratdığı idarəetmə sistemi sayəsində bu sahələr daha da böyük zirvələrə imza atmışdır. Əgər XX əsrdə Azərbaycanda elmə aid müəyyən ancaq milli səviyyədə işlər görülmüşdürsə, məhz 1970-ci illərdən sonra onun əks-sədası bütün dünyada yayılmağa başlamışdır. Bu dövrlərdən sonra həm elmi dərəcəli, həm də yüksək və müxtəlif profilli vətəndaşlarımızın sayı xeyli artmışdır. Məhz həmin dövrlərdə əldə olunan elmi nailiyyətlərin praktiki tətbiqi imkanları genişlənmiş və inkişaf etmişdir. Yeni elmi-tədqiqat institutları, ali və orta ixtisas təhsili müəssisələri şəbəkəsi qurulmuş, onların o zamankı dövrlərdə ittifaq əhəmiyyəti artmışdır. Məhz həmin dövrlərdə Azərbaycan Neft Akademiyası kimi ümumdünya şöhrəti qazanmışdır.

Onun böyük təşkilatçılığı sayəsində Azərbaycan Elmlər Akademiyası dünyada şöhrət qazandı, güclü elmi kadr potensialını yaratdı, maddi-texniki bazasını möhkəmləndirdi. Heydər Əliyevin özünün qeyd etdiyi kimi, akademiyanın əlli ilinin yarısından çoxu onun həyatı, rəhbərliyi ilə bağlı idi. Onun uzaqgörənliyi məhz elmi prinsiplərə, intellektual potensiala arxalanmasında idi.

Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman Azərbaycan elminin bəxş etdiyi ən yeni nəticələrindən faydalanırdı.

Heydər Əliyev Azərbaycana rəhbərliyə gəldiyi ilk günlərdən, 1969-cu ilin avqustundan respublika elmində cərəyan edən neqativ hallardan narahatçılığını qeyd edərik bildirmişdi ki, …*Elmi idarələrimizin fəaliyyətində hələ ciddi nöqsanlar vardır. Elmlər Akademiyası, bir sıra sahə elmi idarələri elmi-texniki tərəqqinin sürətləndirilməsi uğrunda, tamamlanmış işlərin istehsalata tətbiqi uğrunda mübarizədə kifayət qədər əzmkarlıq göstərmirlər... Dissertasiyaların heç də hamısı lazımi nəzəri səviyyədə yazılmır. Aspiranturada vəziyyət yaxşı deyildir... Alimlik dərəcəsi alanlar arasında nazirliklərin və digər mərkəzi idarələrin rəhbər işçiləri də az deyildir. Elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirməyə, irəlilətməyə qabil olan adamlar gəlsinlər* [1].

1997-ci ilin 31 yanvarında Ümummilli Lider Elmlər Akademiyasının rəhbərləri, həqiqi və müxbir üzvləri, aparıcı alimləri ilə görüşündəki çıxışında Elmlər Akademiyasına və onun alimlərinin əməyinə yüksək qiymət verməsi Azərbaycan elminin sabahına inamını və ümidini artırdı.

Ümummilli Liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu ənənəyə sadiq olaraq Azərbaycan Milli Elmlər Akademiyasının 60 illiyinə həsr edilmiş təntənəli yığıncaqdakı çıxışında … *Bütün dövrlərdə – 90-cı illərdə, ondan sonra, 1990-cı illərdə Heydər Əliyevin elmə diqqəti və qayğısı çox yüksək səviyyədə idi. O, çox gözəl bilirdi ki, hər bir ölkənin, hər bir xalqın tərəqqisində elmin inkişafı müstəsna rol oynamasını* bir daha vurğuladı [2].

H.Əliyevin mövqeyi bundan ibarət idi ki, mütərəqqi yeniliklərin tətbiqi yolu ilə elm və milli təhsil sistemi müasirləşir, fəal maarifçilik kursu həyata keçirilir, dövlət idarəçiliyi üçün yüksək mənəvi-əxlaqi keyfiyyətlər, intellektlə fərqlənən ixtisaslı kadrlar yetişdirilir. Elmi-intellektual sahədə qazanılan nailiyyətləri dövlət quruculuğu prosesinin vacib şərti və etibarlı təminatı hesab edən Ulu Öndər Heydər Əliyev elm və milli təhsil sisteminin mütərəqqi prinsiplər əsasında inkişafı naminə bütün zəruri tədbirləri həyata keçirib.

Bu il 100 illiyini təntənəli şəkildə qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin Azərbaycanın sosial-iqtisadi və mədəni inkişaf yolundakı tarixi xidmətlərini təhlil edəndə, onun tərəfindən görülmüş işləri milli və

dövlətçilik mənafeyi baxımından dəyərləndirəndə Azərbaycanın keşməkeşli sovet dövründə və müstəqilliyinin ağrılı-acılı ilk illərində inkişafdan dayanmadığının bir daha şahidi oluruq.

Həm rus çarizmi dövründə, həm də sovetlər dövründə bütün vəchlə milli dövlətçiliyi əlindən alınan Azərbaycan xalqı 90-cı illərdə müstəqilliyini bərpa etdikdən sonra sürətlə milli sosial-iqtisadi durumunu möhkəmləndirmiş, bütün məhrumiyyətlərə baxmayaraq öz mili-mədəni dəyərlərinə yiyə durmu, milli özünüdərkin və özünü təsdiq üçün zəruri imkanlardan bacarıqla istifadə etmiş, əhalinin intelektual inkişaf səviyyəsi yüksəltmişdir. Ümummilli lider milli tərəqqinin, elmin, təhsilin, mədəniyyətin ahəngdar inkişafı yolundakı xidmətləri ölçüyə gəlməzdir.

Elmin inkişafı ilə yanaşı, Ulu Öndər həmçinin təhsil sistemində də ciddi islahatların həyata keçirilməsinə xüsusi əhəmiyyət vermişdir.

Azərbaycan təhsilinin inkişafı sahəsində Heydər Əliyevin xidmətləri iki istiqamətdə getmişdir:

1. milli tərbiyə və təhsilə dair siyasi-nəzəri yanaşmaları.
2. milli təhsil quruculuğunda, təhsilin müxtəlif sahələrinin ahəngdar inkişaf yolunda praktiki addımlar.

1972-ci ildə gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında [2] və 1973-cü ildə kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında [3] qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılıb. Bu da öz növbəsində yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsində xüsusi rol oynadı.

Heydər Əliyevin keçmiş SSRİ-nin ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxuması üçün göstərdiyi fəaliyyət xüsusi vurğulanmalıdır [4]. Bu istiqamətdə əsaslı dönüş 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gəncin Sovetlər İttifaqının o zamankı nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmələri idi ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə geniş imkanlar yaratdı.

Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymayıb, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşıb. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirib, mühüm tarixi fərman və sərəncamlar imzalayıb. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir [5]. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaradıb. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olub [6].

Ulu Öndər Heydər Əliyev təhsilin cəmiyyətin inkişafındakı rolundan danışarkən: Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycan yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə inkişaf edə bilməzdi. Bunlar olmasaydı biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır fikrini dəfələrlə səsləndirmişdir [7].

1982-ci ilin sonunda Heydər Əliyevin keçmiş SSRİ-nin təhsil islahatlarına rəhbərlik etməsi ilə ümumtəhsilin inkişafında da müəyyən keyfiyyət dəyişmələrinə gətirib çıxartdı.

Möhtərəm Heydər Əliyevin Azərbaycanda təhsilin inkişafı yolundakı böyük xidmətlərindən biri də 1970-1980-ci illərdə təşəbbüsü və qayğısı sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin ən məhşur ali məktəblərində Respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaratmasıdır. Heydər Əliyev 70-80-ci illərdə Azərbaycandan kənarda təhsil almış yüksək ixtisaslı mütəxəssisləri "Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirmişdir [8].

Azərbaycan müstəqillik qazandıqdan sonra cəmiyyətimizin hər bir sahəsində olduğu kimi, təhsil sahəsində də bir canlanma, yeniləşmə nəzərə çarpmağa başladı. Ümummilli liderimiz Heydər Əliyev siyasətin büyük təsiri nəticəsində irəliləyişlər olmuş, orta, orta-ixtisas və ali məktəblərdəə struktur dəyişiklikləri baş vermiş, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ciddi quruculuq işləri aparılmış, problemin həlli üçün effektiv üsul və metoların tətbiqi önə çəkilmişdir.

Ümumiyyətlə, Azərbaycanda təhsilin dünyanın inkişaf tendensiyalarına və beynəlxalq standartlara cavab verən hazırkı səviyyəyə çatmasında Ümummilli lider Heydər Əliyevin xidmətləri az olmamışdır. Əvvəldədə qeyd edilmişdir ki, Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin intibah dövrü 1970-ci ildən başlanılır. İndi ölkəmizdə faliyyət göstərən ümumi, texniki-peşə, orta ixtisas, ali eləcədə əlavə təhsil müəssələrinin geniş şəbəkəsi, güclü elmi-pedoqoji kadr korpusu öz mənbəyini məhz keçən əsrin 70-ci illərində Heydər Əliyevin rəhbərliyi altında təhsil sahəsində aparılan uzaqgörən və məqsədyönlü siyasətdən almış, həyata keçirilən genişmiqyaslı təhsil quruculuğu işi gələcək inkişafın güclü təməlini qoymuşdur.

Ədəbiyyat

1. Xalq qəzeti. 11 may 2016-cı il
2. "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" Bakı, 1972
3. Əliyev İ. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 60 illiyinə həsr edilmiş təntənəli yığıncaqdakı çıxışı. Bakı 2015.
4. Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında, Bakı, 1973.
5. Qasımlı M.C. Heydər Əliyev - istiqlala gedən yol: 1969-1987-ci illər ; Nəşr ili, 2006 ; ISBN, 5-8025-001-00 ; Səhifə, 608.
6. Əliyev H. Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı , Bakı, 2002.
7. Əliyev H. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında". Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli Sərəncamı
8. Heydər Əliyev milli təhsil nəzəriyyəsinin və yeni təhsil islahatının yarıdıcısıdır / Xəbərlər ADPU, № 5, 2007, s.21-27
9. Azərbaycan Respublikasının təhsil siyasıtinin əsas prinsipi / «Pedaqoji tədqiqatlar" I Buraxılış, 2000, s. 169-175

РЕЗЮМЕ
ВКЛАД ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИЕ НАУКИ И ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ
Салимов М.М.

Ключевые слова: *Гейдар Алиев, развитие, наука, образование, личность, общенациональный лидер.*

В статье рассматривается роль великого лидера Гейдара Алиева в развитии национальной науки и образования, а также его вклад в повышение внимания к этой сфере в период его руководства Азербайджаном.

Отмечается, что за годы руководства Азербайджаном Гейдаром Алиевым национальная наука и образование сделали рывок в развитии. Благодаря созданной им профессиональной системе управления, эти отрасли достигли еще больших высот. Если в XX веке в Азербайджане проводились определенные работы, связанные с наукой, но только на национальном уровне, то после 1970-х годов ее отголоски стали распространяться по всему миру.

В статье использованы такие методы, как анализ историко-хронологических фактов, обобщение, контент-анализ документов.

В итоговой части статьи посредством сделанных автором обобщений была оценена роль великого лидера Гейдара Алиева в развитии нашей национальной науки и образования, который был скачком для далнейшего развития. Сообщается, что благодаря Общенациональному Лидеру страна достигла больших успехов.

SUMMARY
CONTRIBUTION OF GREAT LEADER HEYDAR ALIYEV TO THE DEVELOPMENT OF SCIENCE AND EDUCATION IN AZERBAIJAN
Salimov M.M.

Key words: *Heydar Aliyev, development, science, education, personality, national leader.*

The article discusses the role of the great leader Heydar Aliyev in the development of national science and education, as well as his contribution to increasing attention to this area during his leadership of Azerbaijan.

It is noted that during the years of leadership of Azerbaijan by Heydar Aliyev, national science and education made a breakthrough in development. Thanks to the professional management system he created, these industries have reached even greater heights. If in the 20th century certain works related to science were carried out in Azerbaijan, but only at the national level, then after the 1970s, its echoes began to spread throughout the world.

The article uses such methods as analysis of historical and chronological facts, generalization, content analysis of documents.

In the final part of the article, through the generalizations made by the author, the role of the great leader Heydar Aliyev in the development of our national science and education was assessed, which was a leap for the future. It is reported that thanks to the Nation leader, the country has achieved great success.

MÜASİR İNGİLİS DİLİNDƏ YENİ YARANAN SÖZLƏRƏ AZƏRBAYCAN PRİZMASINDAN BAXIŞ

Mustafayeva Sahilə Bağır qızı
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan, dosent
sahilamustafa@yahoo.com

***Açar sözlər**: Azərbaycan dili, ingilis dili, lüğət, söz, internet*

Cəmiyyət dəyişdikcə sözlər də dəyişir. Bu həm Azərbaycan, həm də ingilis dilində, o cümlədən digər dillərdə də belədir. Dilin lüğət tərkibi daimi olaraq dəyişir. Azərbaycan dili, həmçinin ingilis dili də gündən günə dəyişən dillərdən hesab olunur. Araşdırmalar göstərir ki, hər iki dildə (Azərbaycan və ingilis) elmi və texniki terminlər hazırda dilin lüğətinin əsas hissəsini təşkil edir.

Dilin inkişafında lüğət tərkibinin dəyişməsi ən çox diqqəti çəkən cəhəti kimi qəbul edilir və bu cəmiyyətin bütün təbəqələrinə təsir edir. 1960 və 1970-ci illərdə ingilis dilinin müxtəlif sahələrində geniş şəkildə istifadə olunmağa başlayan bu təsadüfi söz seçimindən də göründüyü kimi [1, s. 228]. İngilis dilində işlədilən sözlərin Azərbaycan dilində qarşılığını verərək bəzi nümunələrə baxaq:

Aerobics (aerobika), Afro (afro), biofeedback (normal avtomatik bədən funksiyasının elektron monitorinqinin kimisə bu funksiyaya könüllü nəzarəti əldə etmək üçün öyrətmək üçün istifadə edildiyi proses), brain-drain (müəyyən bir ölkədən yüksək təlim keçmiş və ya ağıllı insanların mühacirəti; beyin axını), childproof (uşaqların özlərinə xəsarət yetirməsinin və ya zədələnməsinin qarşısını almaq üçün nəzərdə tutulmuşdur), command module (pilotlu kosmik gəminin ayrıla bilən idarəetmə hissəsi), computer graphics (kompüter qrafikası), disco (disko), disinformation (dezinformasiya), hovercraft (quru üzərində hərəkət edən nəqliyyat vasitəsi və ya gəmi), ombudsman (ombudsman), fibre optics (fiber optik), skateboard (iki kiçik təkərli qısa dar taxta), zip code (poç kodu) və s.

Təbii ki, bu sözlərin hamısı yeni konseptləri və ya kəşfləri əhatə etmir. Onların arasında elə sözlər var ki, ingilis dilinin viktoriya dövrünə aiddir. Məsələn, childproof belə sözlərdən hesab olunur. Lakin bu söz bu gün aktual olaraq işlədilir.

Dildə yeni sözlərin işədilməsi prosesi daimi olaraq davam edir. 1980-1990-cı illərdən başlayaraq Azərbaycan və ingilis dillərinə yeni konseptləri, texnikanı, elmi əhatə edən sözlərin daxil olmasını müşahidə etmək olur. Belə sözlərdən bunları nümunə verə bilərik:

İngilis dilində	**Azərbaycan dilində**
Air miles	təyyarənin uçuş məsafəsinin ölçüsü kimi istifadə edilən dəniz mili;
Edutainment	təhsillə bağlı olan əyləncə növləri;
Outsource	xaricdən və ya xarici təchizatçıdan, xüsusən də daxili mənbə əvəzinə (mal və ya xidmət) əldə etmək;
Ring-fence	dairəvi formada olan hasar;
Rollover	avtomobilin aşması;

Həm Azərbaycan, həm də ingilis dilində yeni sözlərin yaranmasında internetin xüsusi rolu olduğunu danmaq olmaz. İnternetdə səhər işlədilən bir yeni termin (söz, konsept) bir neçə dəqiqə içərisində bütün dünyaya yayıla bilir.

Bəzi sözlər var ki, zamanla onların dildə işlədilməsini müşahidə etmək olmur. Belə sözlərdən müəyyən slənqləri nümunə vermək olar. Məsələn: tosh, what-ho, old top və s. Yaxud erkən dövrlərdə işlədilən bəzi nəqliyyat adları: *gig (bir atın çəkdiyi yüngül ikitəkərli vaqon), sociable (yan oturacaqlara baxan açıq vaqon), surrey (iki oturacağı irəli baxan yüngül dördtəkərli vaqon), brougham (damı, dörd təkəri və qarşısında açıq sürücü oturacağı olan at arabası)* və s.

Bildirək ki, sözləri ictimai nüfuzu baxımından müzakirə etmək üçün ən çox tanınan cəhd britaniyalı dilçi A.S.Ross tərəfindən həyata keçirilmişdir. O, sözləri iki qrupa bölürdü. Birinci qrupa aid olan sözlər U-words "yuxarı sinif istifadəsi" üçün nəzərdə tutulan sözlər olduğu halda, non-U words isə digər növ istifadə üçün nəzərdə tutulur. Həmin sözlərdən bir neçə nümunə verək [2, s. 114]:

Birinci qrup	İkinci qrup	Azərbaycan dilində tərcümələri
Luncheon	Dinner	Nahar, lanç;
sick	ill	Xəstə; mərəzli;
Writing-paper	Note-paper	Yazı kağızı;
Table-napkin	Serviette	Masa salfeti;
Vegetables	greens	Tərəvəz;

Hazırda həm Azərbaycan, həm də ingilis dillərində işlədilən sözlərin çoxu proqram təminatı ilə bağlıdır. Şəbəkə proqramları ilə bağlı olan sözlərdən bəzilərini təqdim edə bilərik: *file (fayl), view (nəzər), format (format), tools (alətlər), window (pəncərə, ekran), fonts (şriftlər)* və s.

Bəzi terminlər, adətən səhv mesajlar yazıldıqda vəziyyətdən asılı olaraq ekranda yalnız intervallarla görünür. Nümunələr: *forbidden (qadağandır), illegal operation (qanunsuz əməliyyat), error (səhv; yanlış), not found (tapılmadı), 404 error (səhv 404)* və s.

Bəzi terminlər isə kompüter avadanlıqları ilə bağlıdır. Məsələn: *freeze (donmaq), lock (bağlı), down (aşağı), hang (asılı), crash (qəza), bomb (bomba)* və s.

Hazırda həm Azərbaycan, həm də ingilis dillərində gənclərin dilində çox istifadə olunan qısaldılmış internet sözlərinə rast gəlmək olar [3, s. 85]. Məsələn:

Qısaldılmış yazılış	Tam yazılış	Azərbaycan dilində tərcümələri
afaik	As far as I know	Mən bildiyim qədərilə
afk	Away from keyword	Açar sözdən uzaq
asap	As soon as possible	Mümkün olduğu qədər tez
atw	At the weekend	Həftə sonunda
bbfn	Bye bye for now	Hələlik sağlıqla qalın
Brb	Be right back	Tezliklə geri qayıdın
cm	Call me	Mənə zəng edərsən

Ədəbiyyat

1. Crystal D. The English Language. UK: Penguin Books, 2002, 307 p.
2. Ross A.S.C. Linguistic class-indicators in present-day English. Neuphilologische Mitteilungen (Helsinki), Vol.55, 1994, pp.113-149.
3. Crystal D. Language and the Internet. Cambridge: Cambridge University Press, 2001, 256 p.

РЕЗЮМЕ

ВЗГЛЯД НА НОВЫЕ СЛОВА В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ СКВОЗЬ ПРИЗМУ АЗЕРБАЙДЖАНА

Мустафаева С.Б.

Ключевые слова*: Азербайджанский язык, английский язык, лексика, слово, интернет*

Изучение лексики современного азербайджанского и английского языков всегда находится в центре внимания. Как известно, английский язык считается одним из ведущих языков мира. В настоящее время большая часть населения мира говорит и пишет на английском языке. По подобным причинам, а также по мере развития науки и техники количество слов, включенных в словарный запас английского языка, увеличивается день ото дня. Количество слов, входящих в словарный запас языка, увеличивается даже несмотря на Интернет, а Интернет уже стал самой удобной и быстрой формой общения. Наблюдаемые эти вопросы как в азербайджанском, так и в английском языках, представлены в статье в виде возражений.

SUMMARY

AZERBAIJANI PERSPECTIVE ON EMERGING WORDS IN MODERN ENGLISH

Mustafayeva S.B.

Key words: *The Azerbaijan language, English, vocabulary, word, internet*

Studying the vocabulary of modern Azerbaijani and English languages is always in the center of attention. As it is known, English is considered to be one of the world's leading languages. Currently, most of the world's population speaks and writes English. For reasons like these, and as science and technology develop, the number of words included in the vocabulary of the English language is increasing day by day. The number of words included in the vocabulary of the language is increasing even though the Internet, and internet has already become the most convenient and fast form of communication. These issues that are observed both in Azerbaijani and in English are presented in the form of objections in the article.

ŞƏKİ AZƏRBAYCAN MƏDƏNİ İRSİNİ ŞÖHRƏTLƏNDİRƏN DİYARDIR

Məmmədov Anar Amil oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
1983anarmemmedov@gmail.com

Açar sözlər: *Şəki, mədəniyyət, ipək, abidə, saray, turizm, bərpa*

Tarix boyu Şərqin milli mədəniyyət və elm mərkəzlərindən biri kimi şöhrət qazanmış Şəki şəhəri tarixin özü qədər qədimdir.

Şəki həm də tarix-memarlıq abidələri ilə zəngin, elm, incəsənət, mədəniyyət, hərbi və digər sahələrdə iz qoymuş insanların doğulduğu diyardır. Belə ki, rayonun ərazisində Şəki Şəhər Dövlət Tarix-Memarlıq Qoruğu, Şəki xanı Hacı Çələbinin dövründə tikilmiş Şəki qalası, daha sonra Narınqala, Şəki Xanının sarayı həmişə xüsusi diqət mərkəzində olmuşdur. XVIII - XIX əsrdə şəhərdə tikilmiş Yuxarı Karvansara və Aşağı Karvansara, XVIII əsrə aid Gilaxlı məscidi, Hacı Çələbi xanın 1745-1750-ci illərdə tikdirdiyi Xan məscidi, XVIII-XIX əsrlərdə tikilmiş Ömər Əfəndi məscidi, abidəsi Cümə məscidi, Kiş məbədi, "Gələsən-görəsən" qalası kimi dünyada məşhur memarlıq abidələri var [5].

XIX əsrin əvvəllərində Şəkidə əhəmiyyətli ticarət inkişaf etmişdir. 1824-cü ildə şəhərdə 400 ticarət dükanı var idi və tez-tez burada yarmarkalar keçirilirdi. Xarici ticarətdə ipək xüsusi yer tuturdu. 1834-cü ildə Şəkidən İpək Rusiya, Fransa, İtaliya, İran, Türkiyəyə 7805 funt sterlinq dəyərində ixrac edilmişdi. Şəkiyə neft, duz, dəmir, şəkər, taxıl, yun və başqa mallar gətirilirdi. Şəhərdə 1827-ci ilə aid məlumatlara görə 1000 rubldan 20.000 rubladək kapitalı olan 166 tacir var idi [10, s.27].

Rusiya ipək toxuculuğu ilə xammal sənayesinə ehtiyacını ödəmək üçün Moskva sahibkarları Alekseyev və Voronin qardaşlarının Şəki şəhərində açdıqları iri ipəksarıma fabrikinin Şəkinin şöhrətini daha da artırdı. Fabrik 1863-cü ildən 1866-cı ilə qədər fəaliyyət göstərsə də sonrakı illərdə biri-birinin ardınca onlarla yeni ipəkçilik müəssisələrinin açılmasına baza yaratmışdı [10, s.28].

Zaman keçdikcə Şəki rayonunu və Azərbaycanı şöhrətləndirən sahələrdən biri də ipəkçilikdir. Şəkinin zəngin ipəkçilik tarixi var. 1861-ci ildə açılmış və Rusiya imperiyasının ən böyük zavodlarından birinə çevrilən Şəki İpək Kombinatının məhsullarına daxili və xarici bazarlarda böyük tələbat var idi [10, s.28]. İpək xalçalar həmişə dünya bazarlarına, o cümlədən Almaniya, Fransa və ABŞ-a ixrac olunurdu.

XIX əsrin 50-60-cı illərində Şəkidə istehsal olunan xam ipəyin 71%-i Rusiyanın mərkəzi quberniyalarına ixrac olunurdu. Azərbaycan xam ipəyinə xarici bazarlarda yüksək tələbat vardı və bu durmadan artmaqda idi. Məhz bu səbəbdən ipək ticarəti ilə məşğul olan 200 xarici şirkətin nümayəndələri burada fəaliyyətə başlamışdı [9, c.168].

Kəlağay müəssisəsinin dünya şöhrətli məhsulları arasında xüsusi yer tutur. Bu, Azərbaycan qadınlarına məxsus ipək saplardan toxunmuş kvadrat formalı baş geyimidir. Bu örtük gözəllik, şərəf, ləyaqət, hörmət və sədaqət rəmzi olmaqla yanaşı, həm də Odlar Yurdu Azərbaycanın qədim tarixini, mədəniyyətini və adət-ənənələrini özündə saxlayır. Azərbaycanda kəlağayı istehsalı qədim zamanlardan məlumdur. Şəki uzun illər Azərbaycanda və Qafqazda ipəkçiliyin mərkəzi olmuşdur. XIX əsrdə Şəkidə dünyanın ən böyük ipəkçilik fabriki fəaliyyət göstərirdi. Şəki ipəyi təkcə Azərbaycanda deyil, Şərq, Avropa və Rusiya ölkələrində də tanınır və yüksək qiymətləndirilirdi [8].

Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra xalqın təkidli tələbi ilə respublikada digər sahələr kimi ipəkçiliyə də münasibət dəyişdi. Keçmiş SSRİ-nin ən qabaqcıl istehsalçılarından olan bu müəssisə İttifaqın dağılmasından sonra fəaliyyətini dayandırmışdı. Lakin Ulu öndərin ikinci hakimiyyəti başlayan kimi burada vəziyyət dəyişdi. Burada ipəkçilik sənayesinin bərpası istiqamətində əsaslı dönüş olmuşdur. Müəyyən işlərin həyata keçirilməsi Ulu öndər Heydər Əliyev 2002-ci ildə Şəkidə olarkən ipək kombinatının fəaliyyəti ilə də maraqlanmış, bilavasitə sərəncamı ilə imzaladığı müvafiq sərəncamla dövlət büdcəsindən və istehsal prosesinin gedişinə xeyli vəsait ayrılmış, müəssisə bərpa edilmişdir [3, s.152-153].

Şəki kəlağayısında "Şah buta", "Saya buta" və "Xırda buta" ədviyyatlarından daha çox istifadə olunur. "Heyrati", "Luk", "İstiotu", "Əlbuxari", "Abi", "Elani" də Yaxın Şərq və Qafqaz xalqları arasında böyük şöhrət qazanmışdır [8].

Şəki bu gün də mədəni quruculuqda yeni nailiyyətləri və turizm potensialının genişliyi baxımından ön mövqelərdədir.

2010-cu il aprelin 3-də şəhərin mərkəzində yerləşən parkda "Şəki – Azərbaycan yaradıcılığının paytaxtı" ilinin təntənəli açılış mərasimi keçirilmişdir. Tədbirdə şəhərin yerli əhalisi ilə yanaşı xaricdən gələn

xarici qonaqlar və turistlər, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları, ictimaiyyət nümayəndələri də iştirak etmişdilər [10, s.168].

Şəkiyə gələn qonaqların və turistlərin çox maraqlandıqları tarixi abidələrdən biri də hazırda mehmanxana kimi istifadə edilən Karvansara binasıdır. İndi Şəkidə Cənubi Qafqaz ölkələri arasında mədəniyyət abidələrinin ən böyük bərpası aparılır.

2010-cu il iyunun sonunda Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə qədim Şəki şəhərində "İpək Yolu" Beynəlxalq Musiqi Festivalı keçirilmişdir. Festivalın təntənəli açılışı Karvansarada olmuşdu.

30 iyun 2012-ci il tarixində Şəkidə "İpək Yolu" III Beynəlxalq Musiqi Festivalının təntənəli açılışı mərasimi keçirilmişdir [10, s.265].

Qeyd edək ki, son illər Şəki rayonunda Azərbaycanı dünyada şöhrətləndirən tarix və mədəniyyət abidələrinin bərpası istiqamətində xeyli işlər görülmüşdür. Onlardan biri haqqında demək olar ki, 2001-ci ilin mayında Azərbaycan-Norveç birgə "Kiş" layihəsi çərçivəsində burada bərpa işlərinə başlanılmış və 2003-cü ilin sentyabrında məbədin açılışı mərasimi keçirilmişdi. Layihə Norveç hökuməti tərəfindən maliyyələşdirilmiş və tanınmış alim Thor Heyerdahl tərəfindən dəstəklənmişdi [2].

Prezident İlham Əliyev 2006-cı ildə Şəkidə olarkən rayona səfəri zamanı demişdi: "Bu gün ölkəmiz Heydər Əliyev yolu ilə uğurla inkişaf edir. Onların arasında Şəki şəhərinin inkişafında əldə olunan nailiyyətlər də var" [4, s.165]. Zəngin tarixi və mədəni irsimiz qorunub saxlanılır. Biz də bu məsələyə böyük diqqət yetirməliyik. Mən çox şadam ki, Şəki xanlarının sarayı artıq bərpa olunub. Bu, böyük hadisədir. Bu ərazidə - Şəki və ona bitişik ərazilərdə Azərbaycan mədəniyyətinin çox qiymətli abidələri var. Biz bu abidələri qorumalı və bərpa etməliyik [4, s.165].

Hazırda regionun ən böyük sənaye müəssisəsi olan Şəki İpək Kombinatında istehsal olunan müxtəlif ipəklər, xalçalar, kilimlər və digər məmulatlar üçün bir çox ölkələrin muzeylərindən müraciətlər daxil olur.

Milli dəyərlərimizin qorunmasına böyük diqqət və qayğının göstərildiyi ölkəmizdə kəlağayı sənətinin inkişafı daim diqqət mərkəzində olmuşdur. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti nəticəsində kəlağayı sənəti beynəlxalq səviyyədə Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində, adət-ənənələrimizdə ən mühüm mədəniyyət nümunəsi kimi özünü təsdiq etmişdir. Belə ki, UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü il noyabrın 26-da keçirilmiş iclasında Azərbaycan kəlağayı sənəti "Kəlağayı simvolizmi və ənənəvi sənət" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir [8].

Son illər Prezident İlham Əliyevin ipəkçiliyə diqqət və qayğısı nəticəsində ipəkçiliyin intensiv inkişafını təmin etmək imkanları genişlənmişdir [6]. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında ipəkçiliyin inkişafına dövlət dəstəyi haqqında" 15 sentyabr 2016-cı il tarixli Sərəncamına uyğun olaraq, ölkəmizdə ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması daha da aktuallaşmışdır [1].

Şəki rayonunun tarix və mədəniyyət abidələrinin mühafizəsi, bərpası və populyarlaşdırılması dövlətimizin başçısı İlham Əliyevin daim diqqət mərkəzində olmuş, bu sahə ilə bağlı bütün problemlər vaxtında öz həllini tapmışdır.

2022-ci il dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki Xan məscidi kompleksində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri ilə tanış olmuşlar. Səfər zamanı Şəki Xan məscidi kompleksi əsaslı bərpa işlərindən sonra istifadəyə verilmişdir.

Qeyd etməliyik ki, tarixi Şəki Xan məscidində 2021-ci ilin may ayından Heydər Əliyev Fondu tərəfindən bərpa işləri aparılır. Heydər Əliyev Fondu bərpa işləri ilə yanaşı, qazıntılar zamanı aşkar edilmiş və Şəki xanının nəslinə aid olduğu iddia edilən skelet nümunələrinin tədqiqinə dəstək vermişdir [7].

Heydər Əliyev Fondunun dəstəyi ilə saray kompleksinə daxil olan məscidin ərazisində muzey də yaradılmışdır. Muzeydə Şəki xanlığı dövrünə aid müxtəlif eksponatlar, müxtəlif mənbələrdən toplanmış material və mədəniyyət nümunələri nümayiş etdirilir. Muzey Şəki xanlığının yaranması və təşəkkülünün milli dövlətçilik tariximizdə xüsusi yerini əyani şəkildə nümayiş etdirir [7].

Turizmin inkişafı iqtisadiyyatın inkişafına təkan verdi. Əvvəlki illərdə olduğu kimi, 2008-ci ildə də Şəkidə turizm infrastrukturunun yaradılması istiqamətində mühüm işlər görülmüşdür. Burada hər il 70 min insan turizm xidmətlərindən istifadə edir. Turizmin inkişafı iqtisadiyyatın inkişafına, əhalinin məşğulluğuna, nəqliyyatın, rabitənin və ticarətin inkişafına güclü təkan verdi. Beləliklə, "Ümid", "Şəki safari", "Cənnət bağı" turizm-istirahət bazaları istifadəyə verilmiş, Təpəbaşı nekropolunda son tamamlama işləri başa çatdırılmışdır. Bu nadir mədəniyyət abidəsi artıq şəhərin turizm marşrutuna daxil edilmişdir.

Ədəbiyyat

1.Azərbaycan ipəyinin şöhrəti özünə qayıdır [Elekrton resurs] / URL: https://ikisahil.az/post/59701-news-59701

2.Bölgələrimizin qədim tarixi, müasir görünüşü və inkişafı Latviya Prezidentini heyran edib. [Elekrton resurs] / URL: https://yeniazerbaycan.com/Siyaset_e3769_az.html
3. Əliyev H. Müstəqilliyimiz əbədidir. Qırx ikinci kitab. oktyabr, 2002 - noyabr, 2002. Azərnəşr, Bakı: - 2012. - 213 s.
4. Əliyev İ. İnkişaf – məqsədimizdir. On altıncı kitab. mart 2006 - may 2006. Azərnəşr, Bakı: - 2014. - 376 s.
5.Qədim Şəki müasir inkişaf və tərəqqi yolunda. [Elekrton resurs] / URL: https://www.yeniazerbaycan.com/Sosial_e3660_az.html
6.Şəki - qədim ipəkçilik ənənələrinin qorunub saxlanıldığı diyar [Elektron resurs] / URL: https://azertag.az/xeber/Seki___qedim_ipekchilik_enenelerinin_qorunub_saxlanildigi_diyar-14727
7.Şəki Xan məscidi kompleksi Heydər Əliyev Fondu tərəfindən bərpa olunub. [Elekrton resurs] / URL: https://apa.az/az/resmi-xeber/seki-xan-mescidi-kompleksi-heyder-eliyev-fondu-terefinden-berpa-olunub-yenilenib-foto-735609
8.26 noyabr – Azərbaycan Kəlağayısı Günüdür[Elekrton resurs] / URL: https://shekimedia.az/26-noyabr-azerbaycan-kelagayisi-gunudur-k%C9%99lagayi-tariximiz-m%C9%99d%C9%99niyy%C9%99timiz-z%C9%99rifliyimiz-yarasigimizdir-k%C9%99lagayi-az%C9%99rbaycanda-q/
9.Мурадалиева, Э.Б. Города Кавказа на великом Шелковом пути / Баку: Кавказ, - 2011. - 200 с.
10.Таирова, А.Э. История города Шеки (1920-июнь 1941 гг.) / Баку: Elm və təhsil, - 2014. - 208 с.

РЕЗЮМЕ
ШЕКИ – КРАЙ ПРОСЛАВЛЯЮЩИЙ КУЛЬТУРНОЕ НАСЛЕДИЕ АЗЕРБАЙДЖАНА
Мамедов А.А.

Ключевые слова: *Шеки, культура, шелк, памятник, дворец, туризм, реставрация*

Шеки также богат историческими и архитектурными памятниками, родиной людей, оставивших свой след в науке, искусстве, культуре, военной и других областях. Шелководство – одно из направлений, прославивших Шекинский регион и Азербайджан. Шеки имеет богатую историю шелководства. Продукция Шекинского шелкового комбината, открытого в 1861 году и ставшего одной из крупнейших фабрик Российской империи, пользовалась большим спросом на внутреннем и внешнем рынках. В последние годы в результате внимания и заботы Президента Ильхама Алиева к шелководству расширились возможности для обеспечения интенсивного развития шелководства.

SUMMARY
SHEKİ İS A LAND GLORİFYİNG THE CULTURAL HERİTAGE OF AZERBAİJAN
Mammadov A.A.

Keywords: *Sheki, culture, silk, monument, palace, tourism, restoration*

Sheki is also rich in historical and architectural monuments, the birthplace of people who left their mark in science, art, culture, military and other fields. Sericulture is one of the directions that glorified the Sheki region and Azerbaijan. Sheki has a rich history of sericulture and sericulture. The products of the Sheki silk factory, opened in 1861 and becoming one of the largest factories in the Russian Empire, were in great demand in the domestic and foreign markets. In recent years, as a result of the attention and care of President Ilham Aliyev to sericulture, opportunities have expanded to ensure the intensive development of sericulture.

İNKLÜZİV TƏHSİL – İNKLÜZİV CƏMİYYƏTİN TƏMƏLİ KİMİ

Tağıyeva Təranə Əsgər qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
tarana.tagiyeva.56@mail.ru

Açar sözlər: *inklüziv təhsil, sağlamlıq imkanları məhdud, xüsusi qayğıya ehtiyacı olan, resurs maneələr, sosial maneələr, fərdi yanaşma*

"Təhsil haqqında" qanunda göstərilir ki, "irqindən, milli və dini mənsubiyyətindən, dilindən, cinsindən, yaşından, səhhətindən, sosial-maddi vəziyyətindən, fəaliyyət sahəsindən, həmçinin üzərində məhkumluğu olmasından asılı olmayaraq,vətəndaşların təhsil hüququna təminat verilir". Deməli, səhhətində problemi olan, xüsusi qayğıya ehtiyacı olan, əlil və fiziki geriliyi olan uşaqların da təhsil almaq hüququ var. Təhsil bütün uşaqların bərabər imkanlara malik olmasını təmin etməlidir. Belə bir imkanı inklüziv təhsil yaradır.

İnklüziv təhsil – fisiki, intellektual, sosial, emosional, dil və digər xüsusiyyətlərindən asılı olmayaraq, hər bir insana ümumtəhsil müəssisələrində təhsil almağa imkan verir. İnklüziya (inklüzion- daxil etmə mənasındadır) bütün vətəndaşların, ilk növbədə, əlilliyi olan insanların cəmiyyətdə iştirak səviyyəsinin

artırılması prosesidir. . İnklüziv təhsil əlillərin sağlam uşaqlarla bərabər təhsil alma hüquqlarını təmin edir. Bu da cəmiyyətdə sosial bərabərliyin qorunmasına şərait yaradır. İnklüzivliyin əsas prinsipləri aşağıdakılardır:

* İnsanın dəyəri onun qabiliyyətlərindən və nailiyyətlərindən asılı deyildir;
* hər bir insan düşünmək və hiss etmək qabiliyyətinə malikdir;
* hər bir insanın ünsiyyət qurmaq və dinlənilmək hüququ vardır;
* bütün insanlar bir-birinə ehtiyac duyur;
* bütün insanların yaşıdlarının dostluğuna və dəstəyinə ehtiyacı var;
* həqiqi təhsil yalnız qarşılıqlı münasibətlər kontekskində həyata keçirilə bilər

Hazırda dövlətin və cəmiyyətin qarşısında duran əsas məsələ- bütün uşaqların təhsil ala bilməsi və sağlamlıq imkanlarından asılı olmayaraq, maksimum dərəcədə tam dəyərli yaşamalarını təmin etməkdir. İnklüziv təhsil sistemi sağlamlıq imkanları məhdud olan uşaqların təhsil hüquqlarının bütünlüklə reallaşdırılmasına imkan verir. Sağlamlıq imkanları məhdud olan uşaqlarda dayaq-hərəkət, görmə, eşitmə sistemlərinin, əqli, inkişaf, psixi vəziyyətlərinin pozğunluqları olur. Onların xüsusi uyğunlaşdırılmış həyat şəraitinə, xüsusi təlimə, həm də diqqət və yardıma ehtiyacları vardır və daim başqalarının köməyinə möhtacdırlar. Xüsusi məktəb və internat-məktəblərdə oxuyan bu cür uşaqlar digər uşaqlarla ünsiyyətə girməkdə çətinlik çəkir və özlərini bir növ cəmiyyyətdən təcrid olunmuş kimi hiss edirlər. Sağlam uşaqlar da, eyni zamanda, bu və ya digər məkanda xüsusi qayğıya ehtiyacı olan uşaqlarla rastlaşdıqda ona təəccüblə baxır, bəzən isə gülür və ələ salırlar. Bunun əsas səbəbi isə onların arasında ünsiyyətin, əməkdaşlığın olmamasıdır. Bunun nəticəsində onlar bir-birlərini dərk etmir və nə hiss etdiklərini başa düşmürlər.

Azərbaycanda Nazirlər kabinetinin 3 fevral 2005-ci il tarixli qərarına əsasən "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı" təsdiq edilmişdir. İnklüziv təhsilin sağlamlıq imkanları məhdud üşaqlar üçün faydaları çoxdur. Belə ki,

- xüsusi qayğıya ehtiyacı olan uşaqlar kollektivə uyğunlaşır, cəmiyyətə inteqrasiya edirlər;
- onlarda özünə inam hissi formalaşır;
- onlar cəmiyyətin digər üzvləri kimi bərabər hüquqlu şəxsiyyət kimi formalaşırlar;
- gələcəkdə onların məşğulluq problemi də aradan qaldırılmış olur. Onlar inklüziv təhsil imkanından yararlanaraq cəmiyyətin fəal üzvünə çevrilə bilərlər. Bu cür uşaqlara sənət vermək. qabiliyyətlərini inkişaf etdirmək olar.

İnklüziv təhsil ümumi təhsilin hamı üçün əlçatan olmasını təmin edir. Differensial təlimin alt komponenti olan inklüziv təlimin əsasını hər bir şagirdə fərdi yanaşma ideyası təşkil edir. Fərdi keyfiyyətlərinə görə hər bir şagird tədris materiallarını müxtəlif səviyyədə qavrayır. Lakin təhsilin əsas məqsədi təhsil alanların bilik və bacarıqlar əldə edərək, həyatda onlardan səmərəli istifadə etməsidir. Qeyd edilməlidir ki, cəmiyyətdə xüsusi qaygıya ehtiyacı olan uşaqların təlim prosesinə cəlb olunması çox vacibdir .İnklüziv təhsil istər sağlam, istərsə də əlillərin bərabər təhsil alma hüquqlarını təmin edir ki, bu da əlil uşaqların təhsili və başqa ehtiyaclarının ödənilməsinə şərait yaratmış olur. İnklüziv təhsil sağlam uşaqlarla əlil uşaqların birgə təhsil almasına əsaslanan, sağlamlıq imkanları məhdud uşaqların qabaqcıl təhsil sistemidir. Birgə təhsil zamanı uşaqlar birgə yaşamağa uyğunlaşır, əlillərlə sağlam insanlar arasında sərhədlər götürülür, əlilliyə münasibət dəyişir, əlillik qüsur yox, bu və ya digər insanın xüsusiyyəti kimi qəbul edilir. İnklüziv təhsildə fiziki, intellektual və digər xüsusiyyətlərə malik olan uşaqlar ümumi təhsil sisteminə qoşulur və onlar, xüsusi təhsil tələbləri nəzərə alınmaqla öz yaşıdları ilə birgə təhsil alırlar .İnklüziv təhsil bütün uşaqların fərdi imkanlarını genişləndirir, onlarda humanizm, tolerantlıq, hər bir zaman köməyə hazır olmaq kimi xüsusiyyətləri inkişaf etdirir.

İnklüziv təhsildə əlillər və sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi şərait yaradılır – təlim otaqları yenidən planlaşdırılır və inklüziv təhsil üçün uyğunlaşdırılır, yeni təlim üsul və vasitələri, həmçinin qiymətləndirmə üsulları tətbiq edilir, yeni uyğunlaşdırılmış tədris planı hazırlanır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləyərkən müəllim onlara inteqrasiyanı müxtəlif yollarla, müxtəlif təlim forma və üsulları ilə çatdırmalıdır. Bu prosesdə ilk addım sağlamlıq imkanları məhdud olan bütün şagirdləri təlim prosesində bilikləri hamı kimi mənimsəyə biləcəkləri fikrinə inandırmaqdır. Digər məqsəd isə hamı ilə birlikdə,cəmiyyətdən təcrid olunmadan , amma ehtiyaclara uyğun təşkil olunmuş fərdi inkişaf və təhsil proqramını tətbiq etmək və onları sosial həyata inteqrasiya etməkdir.

İnklüziv təlim üçün aşağıdakılar nəzərə alinmalidir:

- dərsin bütün mərhələlərində xüsusi qayğıya ehtiyacı olan uşaqların fəallığı təmin edilir;
- təlimdə qrup işləri zamanı onların qrup işində iştiraki təmin edilir;

- müəllimin xüsusi qayğıya ehtiyacı olan uşaqlara verilən tapşırıqlarda differensial yanaşma prinsipi gözlənilir;
- özünüqiymətləndirmə və formativ qiymətləndirmə zamanı onların qiymətləndirilməsi üçün meyarlar müəyyən olunur, qiymətləndirmə zamanı belə uşaqlara xüsusi münasibət göstərilir.

Lakin inklüziv təhsilin bir sıra çətinlikləri də vardır. Bunlar resurs və sosial xarakterli maneələrdir. Resurs xarakterli maneələrə misal olaraq, pandus, piyada keçidlərində səsli işıqforların, valideynlərin uşaqlarını məktəbə aparıb-gətirmək üçün nəqliyyat vasitələrinin, liftlərin, tutacaqların olmamasını, qapıların çətinliklə açılmasını, əlilliyə uygunlaşdırılmamış ayaqyolu və idman zalı,aşağı əmək haqqı, kollektiv müzakirə və problemlərin həllində təcrübənin az olması, qəbul umtahanları zamanı fiziki qüsurlu şəxslərə hər hansı bir üstünlüyün yaradılmaması, təhsillərini davam etdirmələri üçün kadr çatışmamazlığı və s. göstərmək olar. Lakin sosial maneələr də mövcuddur. Sosial maneələr,təhsildə ilk növbədə şagird, müəllim və valideynlərin qarşılıqlı əlaqələrindən formalaşır. Digər amillər ölkədə aparılan sosial siyasət, mədəniyyət, sosial və iqtisadi aspektlərdir. Sosial maneələrə aşagıdakıları da aid etmək olar:

* inklüzivlik ideyasını dəstəkləməmək və onu təhsil müəssisəsində reallaşdırmağa hazır olmamaq;
* müəllimlərin (pedaqoqların) bu cür uşaqlarla təlimə hazır olmamaları;
* təhsil mühitini və ya " uşaqla birgə və uşağın xətrinə dəyişməyə" hazır olmayan müəllimlərin mövcudluğu.

İnklüziv təhsil hamı üçün lazimlıdır. Belə ki, inklüziv təhsil:

1. **xüsusi qayğıya ehtiyacı olan uşaqların** sosiallaşması və tam mənalı inkişafı üçün optimal şərait yaradır
2. **normal, sağlam böyüyən uşaqlarda** öz sağlamliqlarını qiymətləndirmək, başqalarının qeydinə qalmaq, tolerantlıq kimi xüsusiyyətləri inkişaf etdirir, çətinlikləri aradan qaldırmaq təcrübəsi yaradır
3. **müəllimlərin** yaradıcılıq fəaliyyətnii genişləndirir, onlarda yeni pedaqoji mövqe yaradır, onları yeni təlim üsulları və yeni qiymətləndirmə vasitələri axtarıb tətbiq etməyə sövq edir
4. **məktəbin** yeni dəyərlərə, yeni avadanliqlara, yeni təlim texnologiyalarına yiyələnməsinə yardımçı olur.
5. **ailədə** məsuliyyətli valideyn mövqeyi formalaşdırır, övladını qorumaq və sağlam düşüncəli vətəndaş yetişdirməyə sövq edir
6. **cəmiyyətdə** ictimai təhlükəsizliyi, vətəndaş azadlıqlarını, bərabər hüquqları, insan ləyaqəti və fərdiliyini inkişaf etdirir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2009
2. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının qanunu", Bakı, 2001
3. "Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün İnklüziv Təhsilin inkişafı üzrə Dövlət Proqramı", Bakı, 2005
4. TİPİİ. İnklüziv siniflərdə təlimin təşkili, Bakı, 2018
5. Xudaverdiyeva T. İnklüziv təhsildə təlimin təşkili prinsipləri,perspektivlər və nəticələr. Bakı, 2021
6. Гусева Т.Н. Инклюзивное образование. М., 2010
7. Голубева Л.В. Инклюзивное образование: идеи, перспективы,опыты. Волгоград, 2014

РЕЗЮМЕ

ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ КАК ОСНОВА ИНКЛЮЗИВНОГО ОБЩЕСТВА

Тагиева Т.А

Ключевые слова: *инклюзивное образование, ограниченные возможности здоровья, нуждается в особом подходе, ресурсные барьеры, социальные барьеры,индивидуальный подход*

В статье говорится о сущности, принципах, значении инклюзивного образования, вовлечения к учебе детей с ограниченными возможностями и нуждающихся в особом подходе, также о возникших трудностях (барьерах). Отмечается, что в нашей стране каждый гражданин, независимо от состояния здоровья, имеет право на образование и для этого созданы равные условия. При организации инклюзивного образования, следует создать учебные планы, учителя, следуя принципу индивидуального подхода, должны использовать новые методы обучения и технологии,так же новые методы и средства оценивания.

SUMMARY
INCLUSIVE EDUCATION – AS THE BASIS OF INCLUSIVE SOCIETY
Taghiyeva T.A.

Key word: *inclusive education, limited health opportunities, in need of special care, resource barriers, social barriers, individual approach*

In this article is about the importance, principals of inclusive education and getting the children needing special care and children with limiting health opportunities involied in education and difficultes. It is mentioned that regardless of the health opportunities each citizen is able to get education In the article the process of teaching in inclusive education is teaching in inclusive education is olso. Explained it is mentioned that plan activities have to be porepared in teaching process, teachers have to use new teaching methods and technologies based on individual approaching princip

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ ONUN DİL SİYASƏTİ

Tağıyeva Ofeliya Allahverdi qızı
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan, dosent
ofeliya.salimova@yandex.ru

Açar sözlər: *Ümummilli lider, dil siyasəti, multikulturalizm, təhsil, Azərbaycan dili, rus dili.*

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, bütün türk dünyasının böyük oğlu ümummilli lider Heydər Əliyev bütün həyatını canından artıq sevdiyi xalqının xöşbəxt yaşamasına, Azərbaycan tərəqqisinə həsr etmişdir. O tarix yaradan dahi şəxsiyyətlərdəndir. Xalqımızın tarixinin son qərinəsində xalqımızın həyatın bütün sahələrində nail olduğu uğurlar görkəmli siyasi xadim Heydər Əliyevin adı ilə bağlıdır. Dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qalan ölkəmizi də məhz bu dahi şəxsiyyət tələtümlər burulğanından xilas edərək, ictimai-siyasi sabitlik yaratmış və Azərbaycanı hərtərəfli inkişaf yoluna çıxarmışdır.

Ölkənin, xalqın, Azərbaycan tarixinin, onun dövlətçiliyinin böyük təəssübkeşi olan Heydər Əliyev XX yüzilliyin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycanının xilaskarı oldu.

Böyük idarəçilik təcrübəsinə malik Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin milli və bəşəri normalara əsaslanan uzunmüddətli konsepsiyasının işləyib hazırlamış və onu dəqiqliklə həyata keçirmişdir. Məhz bunun nəticəsində Azərbaycan bu gün dünyada özünəməxsus yeri olan dövlətlərdən biridir.

Azərbaycan Respublikasının milli ziyalılığın orta və ali təhsilin ən məhsuldar inkişaf dövrləri görkəmli dövlət xadimi Əliyevin adı ilə bağlıdır. Azərbaycan Dillər Universiteti, Memarlıq və İnşaat Universiteti, Bakı Slavyan Universiteti, Texniki Universitet, Milli Konservatoriya, Rəssamlıq Akademiyası, Hərbi Akademiya, Milli Aviasiya Akademiyası və s. kimi ali təhsil müəssisələri H.Əliyevin uzaqgörən siyasəti nəticəsində və sərancamı ilə Azərbaycanda yaradılan yeni ali məktəblərdir.

Azərbaycan ziyalısına, o cümlədən elm və təhsil işçilərinə, alimlərə və müəllimlərə dövlət səviyyəsində qayğı göstərilməsi H.Əliyevin hakimiyyəti dövrlərində daha qabarıq şəkildə nəzərə çarpmışdır. Ən böyük fəxri adlara layiq görülənlər sırasında alimlərin və müəllimlərin üstünlük qazanması ümummilli liderimizin ziyalı əməyinə bəslədiyi yüksək ehtiramın təcəssümümdür.

H.Əliyev hakimiyyətinin hər iki etapında Azərbaycan təhsilinə böyük qayğı göstərilmişdir, onu narahat edən əsas problemlərdən olmuşdur. Buna görə o də tez-tez həm gənc nəsillə, həm də təhsil işçiləri ilə görüşmüş, Azərbaycan təhsilinin qlobal səviyyədə inkişafı yollarını axtarmış və bu yolda müxtəlif möhtəşəm, irimiqyaslı layihələrə imza atmışdır. Bu layihələr eyni zamanda təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsinə də xidmət etmişdir. Belə ki, ölkəmizdə ən müasir, ən yüksək tələblərə cavab verən təhsil sisteminin yaradılması istiqamətində daim işlər aparılmışdır. Bunun üçün ən yeni texnologiyalarla təmin edilmiş məktəblər tikilmiş və tikilməyə davam edilir, ali məktəblərlin bir çoxları kömpyuter sistemi ilə təmin edilir.

Gənclərin həm əvvəlki illərdə (sovet dönəmində), həm də sonra – müstəqillik dövründə xaricdə təhsil alıb yüksək səviyyəli kadrlar kimi vətənə qayıdıb onun inkişafında layiqincə töfələrini vermək üçün hər cür şəraiti yaratmışdır. Gənc nəslin tolerantlıq ruhunda tərbiyəsinə, onların sivilvaziyasılararası və mədəniyyətlərarası dialoqa hazır olmasına da çox diqqət yetirilir. Təbii ki, hər bir xalqın öz tarixi, öz xüsusiyyətləri, öz ənənələri, adətləri və s. var. Hər bir xalqın gələcəyi üçün ən mühüm amillərdən biri də bu sadalanan tərəflərin inkişafıdır. Bunun üçün ana dilindən başqa xarici dillərin mənimsənilməsinə də böyük ehtiyac var.

Ulu öndər hakimiyyəti dövründə müxtəlif sahələrdə olduğu kimi dil siyasətində də böyük islahatlar aparmışdır.

Heydər Əliyevin dil siyasətinin mühüm məsələlərindən biri də Azərbaycan dilinin dövlətin rəsmi dili kimi təsdiq edilməsi idi. Ulu öndər hər zaman Azərbaycan xalqının mədəni irsinin, o cümlədən dilinin, ədəbiyyatının, adət-ənənələrinin qorunub saxlanmasının və inkişaf etdirilməsinin vacibliyini vurğulayır və hesab edirdi ki, xalqın dilinə, mədəniyyətinə hörmət cəmiyyətdə birlik və harmoniya üçün mühüm amildir. O, Azərbaycan dilinin daha geniş yayılmasını təmin etmək, nüfuzunu artırmaq üçün təhsil sistemində də islahatlar aparıb. Onun hakimiyyəti dövründə tədrisin Azərbaycan dilində aparıldığı çoxlu sayda yeni məktəblər yaradıldı, Azərbaycan dilində nəşrlərin sayı da artırıldı. O, Azərbaycan dilinə milli mənsubiyyətin simvolu kimi baxırdı və buna görə də Azərbaycan dilinin ictimai və işgüzar sferalarda tətbiqinin genişləndirilməsi, milli dərsliklərin və kurikulumların hazırlanması, müəllimlərin ixtisasının yüksəldilməsi, tədrisin genişləndirilməsi, azlıq qruplarının Azərbaycan dilində təhsil almaq imkanı, Azərbaycan mədəniyyətinin və ədəbiyyatının dəstəklənməsi və inkişafı istiqamətində addımlar atmışdır.

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə, ölkənin çətin siyasi və iqtisadi böhran dövrünü yaşadığı vaxt hakimiyyətə gəldi. Bu dövrdə Azərbaycan dili dövlət və işgüzar sferalarda istifadəsi ilə bağlı müəyyən çətinliklərlə üzləşmişdir. Rus dili o dövrdə, xüsusən biznes və siyasətdə mühüm millətlərarası ünsiyyət dili olaraq qaldı, təhsil və mədəniyyətdə əhəmiyyətini qoruyub saxladı. Buna uyğun olaraq, ölkə hökuməti Azərbaycan dilinin təhsil sahəsində gücləndirilməsi üçün bir sıra proqram və tədbirlər həyata keçirirdi, o cümlədən milli dərslik və kurikulumların yaradılması, müəllim və, Azərbaycan dilinin tədrisi və s. və s.

Bundan əlavə, Azərbaycan hökuməti dil siyasəti sahəsində beynəlxalq əməkdaşlığın inkişafına diqqət yetirir. 2001-ci ildə Azərbaycan İslam Əməkdaşlıq Təşkilatına üzv olub və bu təşkilat çərçivəsində Azərbaycan dilinin və mədəniyyətinin inkişafı sahəsində əməkdaşlıq həyata keçirilir. Həmçinin 2009-cu ildə Azərbaycan və Türkiyə arasında əməkdaşlığın müxtəlif sahələrini, o cümlədən dil siyasəti sahəsini özündə birləşdirən Dövlətlərarası Əməkdaşlıq Komissiyası yaradılmışdır.

Heydər Əliyevin dil siyasətində Azərbaycan dilinin dövlətin rəsmi dili kimi bərqərar edilməsi və nüfuzunun artırılması, rus dilinin ikinci rəsmi dil kimi istifadəsinin dəstəklənməsi, ingilis dilinin öyrənilməsi daxildir. Bu dil siyasəti tədbirləri dillərin inkişafına töhfə verdi və bölgədə daha səmərəli ünsiyyəti təmin etdi. Ana dilinin əhəmiyyətini vurğulayan Heydər Əliyev müasir dünyada rus dilinin xüsusi əhəmiyyətini qeyd etdi. Dövlətimizin müstəqilliyinin ilk illərində bəzi millətçi qüvvələrin rus dilinə, rusdilli əhaliyə qarşı ifrat emosional çıxışlar etdiyi bir vaxtda Ümummilli Lider dəqiq və düzgün dil siyasəti həyata keçirmişdir. Hələ 1978-ci ildə SSRİ Konstitusiyasına Azərbaycan dilinin rus dili ilə yanaşı daimi işlədilməsi ilə bağlı maddənin əlavə edilməsinə nail olan H.Əliyev rus dilinə ikinci həyat "bağışladı". Belə ki, 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsində "Hər kəsin öz ana dilindən istifadə etmək hüququ vardır", "Hər kəsin istənilən dildə tərbiyə və təhsil almaq, habelə yaradıcılıqla məşğul olmaq hüququ vardır".

Bundan əlavə, 2001-ci ildə Heydər Əliyev "Dövlət dili haqqında" qanunu imzaladı və Azərbaycan dilini Azərbaycanın rəsmi dövlət dili kimi təsbit etdi. Bununla belə, qanun vətəndaşların dövlət və dövlət qurumlarında öz ana dilindən istifadə hüququna da təminat verirdi ki, bu da Azərbaycanın rusdilli vətəndaşlarına öz dillərini həyatın bütün sahələrində qoruyub saxlamağa və istifadə etməyə imkan verir.

Heydər Əliyev Azərbaycanda rus dilinin tətbiqinə böyük əhəmiyyət verir, onun Azərbaycanda rus dilinə mühüm millətlərarası ünsiyyət dili kimi münasibət göstərib öyrənilməsinə və inkişafına təkan verirdi. O, başa düşürdü ki, ölkə vətəndaşlarının çoxu rus dilində danışır və rus dilindən istifadə iqtisadiyyatın və mədəniyyətin inkişafında mühüm amildir və hesab edirdi ki, regionda uğurlu ünsiyyəti təmin etmək üçün rus dilini bilmək vacibdir. Buna görə də o, rus dilinin qorunub saxlanması və dəstəklənməsi üçün bir sıra tədbirlər gördü. O, həmçinin beynəlxalq ünsiyyət dili kimi ingilis dilinin öyrənilməsinin vacibliyini vurğulayıb.

Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanda rus dilinin gücləndirilməsi istiqamətində bir sıra proqramlar və tədbirlər yaradılmışdır, o cümlədən məktəb və universitetlərdə bu dili öyrənən tələbələrin əhatə dairəsinin genişləndirilməsi, rusdilli KİV-lərin və mədəni tədbirlərin inkişafı, o cümlədən əlaqələrin möhkəmləndirilməsi Rusiya ilə dil mübadiləsi və təhsil sahəsində. Azərbaycanda rus mədəniyyətinin təbliği ilə bağlı çoxlu tədbirlər, o cümlədən rus mədəniyyəti festivalları, sərgilər və konsertlər keçirilib.

Ümumiyyətlə, Heydər Əliyev Azərbaycanda çoxdilliliyin, millətlərarası əməkdaşlığın əsl tərəfdarı idi və onun rus dili ilə bağlı siyasəti bu anlayışı əks etdirirdi. O, həm Azərbaycan dilinin dövlət dilinin, həm də rus dilinin millətlərarası ünsiyyət dili kimi qorunub saxlanmasının və inkişaf etdirilməsinin vacibliyini dərk edib ki, bu da Azərbaycanda müxtəlif mədəni və dil icmalarının harmonik yanaşı yaşaması üçün şərait yaradıb.

Bundan əlavə, Heydər Əliyev Azərbaycandakı rus icmalarına dəstək verirdi. O, rus dilində işləyən mədəni-maarif mərkəzlərinin inkişafı üçün vəsait ayırdı. 1997-ci ildə Bakıda Rusiya Elm və Mədəniyyət Mərkəzi yaradılıb və bu, Azərbaycanda rus dilinin və mədəniyyətinin təbliği üçün mühüm platformaya çevrilib.

Onu da qeyd etmək yerinə düşər ki, Heydər Əliyevin dövründə Azərbaycanda çoxlu sayda rusdilli KİV-lər, məsələn, "Бакинский рабочий" və "Русский вестник" qəzetləri, rus dilində "Россия-Азербайджан" və "Азербайджанское телевидение на русском языке" televiziya kanallarını yaradılmışdır. Bu KİV Azərbaycanda rus dilinin və mədəniyyətinin qorunub saxlanması və inkişafı üçün mühüm vasitəyə çevrilib.

Ümumilikdə deyə bilərik ki, Azərbaycanda rus dilinin qorunub saxlanmasında və inkişafında Heydər Əliyevin böyük təsiri olmuşdur. Onun rus dili ilə bağlı siyasəti ölkədə mədəni və dil müxtəlifliyinin qorunmasında mühüm rol oynayan çoxdilli və millətlərarası əməkdaşlığa şərait yaratmağa yönəlmişdi.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin dövründə rus dilinin tədrisi ilə bağlı xeyli sayda tədbirlər həyata keçirilmişdir. Rusdilli məktəblər, rus dili və mədəniyyətinin tədrisi mərkəzləri yaradıldı, xaricdə rus dilinin tədrisi üçün qrantlar ayrıldı. Bu siyasətin nəticəsidir ki, rus dili Azərbaycanda Azərbaycan dili ilə yanaşı ən geniş yayılmış və istifadə olunan dillərdən biri olaraq qalmışdır.

Ulu Öndərin Azərbaycanın inkişafına və müasirləşməsinə yönəlmiş strategiyası – dövlətçilik siyasəti kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. O, Rusiya ilə əlaqələrin inkişafına xüsusi diqqət yetirərək rus dilinin dövlət səviyyəsində öyrənilməsi və tədrisi üçün lazımi şərait yaratmışdır. Bu gün dövlət dəstəyi ilə ölkədə rusiyaşünaslıq sahəsində bir çox layihələr həyata keçirilir, orta və ali təhsil müəssisələrində səmərəli tədris üçün yeni nəslin tədris materialları hazırlanır, rus dilinin aktual problemlərinə dair elmi simpoziumlar və beynəlxalq konfranslar təşkil olunur. Hazırda Bakı məktəblərində rus bölmələrinin sayı Sovet İttifaqının mövcudluğunun son illəri ilə müqayisədə eynidir.

Qeyd etmək lazımdır ki, bu gün Azərbaycanda rus dili ölkənin ictimai-mədəni həyatında fəal və tam şəkildə fəaliyyət göstərir. Rus dilində Tədris rus dilində olan məktəbəqədər, orta və ali təhsil müəssisələrinin geniş şəbəkəsi mövcuddur. 324 şəhər məktəbindən 155-də rus bölməsi var.

Ölkədə rus dilində qəzet və jurnallar, dərsliklər, elmi və bədii ədəbiyyat nəşr olunur, elektron formatda çap olunur, rus dilində televiziya və radio proqramları yayımlanır. Onlardan "Azərbaycanda rus dili və ədəbiyyatı" jurnalı elmi-metodiki əhəmiyyətini saxlamaqla yanaşı, mədəni-kütləvi nəşr kimi böyük maraq doğurur.

Rus Dövlət Dram Teatrı, Bakı Slavyan Universiteti, Moskva Dövlət Universitetinin Bakı və İ.M.Seçenov adına Moskva Tibb Universitetinin filialı, rus dili və mədəniyyəti mərkəzləri uğurla fəaliyyət göstərirlər, rus dilində elektron resurslar, rusdilli elmi-bədii yaradıcılıq və s. inkişaf etdirilir

Azərbaycanda rusdilli təhsilin tam respublika büdcəsindən maliyyələşən dövlət təhsil sisteminin bir hissəsi olması vacibdir. Azərbaycanın rus mədəniyyətinin inkişafı, rus dilinin fəaliyyət göstərməsi, rus və rusdilli əhalinin vətəndaş hüquqlarının və yaradıcılıq potensialının həyata keçirilməsi üçün hər cür şərait yaradılmışdır. Ümummilli lider Heydər Əliyevin rus diasporunun nümayəndələri ilə tez-tez görüşlərini, respublikada rus dilində təhsilə, ümumən rus mədəniyyətinə qayğısını xatırlayırıq.

Rus dilinin humanitar ünsiyyət dili kimi inkişafında Heydər Əliyev Fondu da böyük rol oynayır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva buna böyük önəm verməklə yanaşı, dilin inkişafına töhfə verən bir sıra tədbirlər həyata keçirir. Təsadüfi deyil ki, Mehriban Əliyeva Rusiyaya səfəri və Rusiya Prezidenti Vladimir Putinlə görüşü zamanı ölkələrimiz arasında mədəni-humanitar əlaqələrin inkişafına görə Rusiyanın yüksək "Dostluq" ordeni ilə təltif edilib ki, bu da dil siyasətinin ayrılmaz hissəsidir.

Bu gün isə ölkə Prezidenti İlham Əliyev rus dilində tədris olunan təhsil və mədəniyyət ocaqlarına, ölkədə rus mənəviyyatının ənənələrinin qorunub saxlanmasına və inkişafına hərtərəfli dəstək verir. O, ölkəmizin uzunmüddətli inkişafı, yaxın illərdə Azərbaycanın ən müasir və inkişaf etmiş dövlətə çevrilməsi ilə bağlı strateji hədəflərin inamla həyata keçirilməsi istiqamətində əzmlə, yorulmadan, qətiyyətlə çalışır. Ölkəmizdə multikulturalizm dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu istiqamətdə Heydər Əliyev Fondunun həyata keçirdiyi böyük işləri xüsusi qeyd etmək lazımdır. Şübhə yoxdur ki, qarşıdakı illərdə Azərbaycanı daha da böyük uğurlara imza atacaqdır.

Ədəbiyyat

1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu // Azərbaycan Respublikasının Təhsil Nazirliyi [Elektron resurs]: http://edu.gov.az/ru/page/72/4297
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası// Azərbaycan Dövlət İnformasiya Agentliyi http://azertag.az/ru/xeber/109168

3. Гаджиев А.А. Русский язык в новых независимых государствах: реалии и ирреалии // Русский язык и литература в Азербайджане. 2008, №1, с. 77-78.

РЕЗЮМЕ
ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И ЕГО ЯЗЫКОВАЯ ПОЛИТИКА
***Тагиева* О.А.**

Ключевые слова: *Общенациональный лидер, языковая политика, мультикультурализм, образование, азербайджанский язык, русский язык.*

В данной статье говорится о языковой политике общенационального лидера Гейдара Алиева. Автор рассказывает о статусе русского языка во времена правления Г.Алиева и в современной Азербайджанской Республике и роли образования на русском языке в уникальном многоязычном образовательном пространстве страны как части государственной образовательной системы. В статье кратко вопросы языковой политики Г.Алиева и истории образования на русском языке в Азербайджане, анализируются факторы, способствующие активному функционированию русского языка в системе образования Азербайджанской Республики.

SUMMARY
NATIONAL LEADER HEYDAR ALIYEV AND HIS LANGUAGE POLICY
Taghiyeva O.A.

Key words: *national leader, language policy, multiculturalism, education, Azerbaijani language, Russian language.*

This article deals with the language policy of the national leader Heydar Aliyev. The author talks about the status of the Russian language during the reign of H. Aliyev and in the modern Republic of Azerbaijan and the role of education in Russian in the country's unique multilingual educational space as part of the state educational system. The article briefly discusses the issues of H. Aliyev's language policy and the history of education in Russian in Azerbaijan, analyzes the factors that contribute to the active functioning of the Russian language in the education system of the Republic of Azerbaijan.

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İŞLƏDİLƏN SÖZLƏRDƏ DƏYİŞİKLİK

Umudova Məhbubə Tofiq qızı
Azərbaycan Turizm və Menecment Universiteti, Bakı, Azərbaycan
mehbube.umudova@gmail.com

Açar sözlər: metafor, yazı, tarixi, ölkə, dəyişmək

Biz yazı dilini müxtəlif hərflər ardıcıllığı ilə yazılmış sistem kimi görməyə alışmışıq. Bizə yazmağı belə öyrədiblər. Hərfləri bir-bir ardıcıl düzürük və sonra yavaş-yavaş və rahat şəkildə onları yazıda birləşdiririk.

Yazıda işlədilən hər bir sözün öz mənası vardır. Elə söz və ifadələr var ki, müəyyən situasiyalarda, kontekslərdə fərqli mənalar ifadə edə bilir.

İngilis və Azərbaycan dillərində müxtəlif frazeoloji birləşmələr, idiomlar, metaforlar var ki, onların tərkibindəki sözün yerini dəyişdikdə mənalarında da dəyişiklik yaranır. Məsələn, belə sözlərdən *metaforları* nümunə verə bilərik.

Məlum olduğu kimi, metaforlar dildə mühüm əhəmiyyət kəsb edən sözlər hesab olunur. Onlar (metaforlar) obyekti və ya hərəkəti hərfi mənada doğru olmayan şəkildə təsvir edən, lakin bir fikri izah etməyə və ya müqayisə aparmağa kömək edən nitq fiqurlarıdır. Metaforlar dildə hazır olan sözlər (ifadələr) hesab olunur. Nümunə verək:

İngilis dilində	**Azərbaycan dilində**
Life is a highway.	Həyat bir magistraldır (həyatın çətin olduğunu göstərir).
Her eyes were diamonds.	Onun gözləri brilyant kimi idi (gözlərin gözəl olduğunu göstərir).
He is a shining star.	O, parlayan ulduzdur (kiminsə uğurunu ifadə edir).
The snow is a white blanket.	Qar ağ yorğandır (qarın ağılığını, tıəmizliyini göstərir) .

Göründüyü kimi, bu metaforlardakı sözlər ayrı-ayrılıqda fərqli mənalar ifadə etsələr də, cümlə tərkibində metafor kimi yeni məna ifadə edirlər.

Bundan əlavə, Azərbaycan dilində elə istorizmlər (tarixizmlər) var ki, onlar ya artıq dildə istifadədən çıxıb, ya da fərqli mənalar ifadə edirlər və onların ingilis dilinə tərcüməsi çətin olur. Məsələn: *kəndxuda, koxa, girvənkə, misqal* və s.

Hazırda ingilis dilinin tələffüzündə bəzi narahatlıq doğuran məsələlər müşahidə edilir. Son zamanlarda gənclərin danışığında sözlərin qısaldılmış şəkildə işlədilməsinə, yaxud deyilməsinə rast gəlmək olur. Məsələn: *Feb'ry – February (Fevral); twel'ths – twelfths (12-ci), patien's – patients (xəstələr), reco'nize – recognize (xatırlamaq)* və s.

Aşağıdakı bəzi sözlər son illərin mübahisəli tələffüz məsələlərini özlərində əks etdirə bilir. Bu sözlər müasir ingilis dilində bir neçə fərqli vurğu ilə tələffüz oluna bilər [3, s.94].

Həmin sözlərin bəzilərinə baxaq:

Adversary	Birinci və ikinci hecalarda vurğular dəyişə bilir;
Applicable	Birinci və ikinci hecalarda vurğular dəyişə bilir;
Centenary	Vurğu ikinci hecada ola bilir;
Deity	Vurğu birinci hecaya düşə bilir;

İngiltərədə hər şeydən üstün olan bir vurğu var ki, ənənəvi olaraq onun işlədilməsi xüsusi sosial mövqe və yaxşı təhsil birliklərini çatdırmağa xidmət edir. Bu cür "prestijli" vurğu forması ingilis dilində "Received Pronunciation" (Alınan Tələffüz) kimi adlandırılır. İngilis dilinin Oksford lüğətində "Alınan Tələffüz" belə izah edilir: "İngiltərədəki təhsilli danışığı əks etdirən ingilis tələffüzünün standart forması" [2, s.100]. Məlumat üçün bildirək ki, b tələffüz forması əsasən İngiltərənin cənub-şərqi ilə əlaqələndirilir, lakin əslində bu formanı ölkənin hər yerində eşitmək olar.

"Received Pronunciation" termininin tətbiqi adətən britaniyalı fonetik Daniel Counsa aiddir. "İngilis Tələffüz Lüğəti"nin (English Pronouncing Dictionary) ilk nəşrində o, (D.Couns) vurğunu "İctimai Məktəb Tələffüzü" kimi adlandırdı və bu barədə belə yazırdı: "

"RP" (Alınan tələffüz) tələffüzün ilkin forması orta əsrlərin sonlarında Londonda yaranmışdı. Bu tələffüz forması ölkənin cənub-şərqində də əsasən məhkəmənin və yuxarı təbəqənin vurğusu kimi işlədilmişdi və inkişaf etdirilmişdi. 400 il müddətində bu tələffüz forması yaxşı şəkildə inkişaf etdirilmişdir.

19-cu əsrdə "Received Pronunciation" artıq dövlət məktəblərinin tələffüzü kimi qəbul edilməyə başladı. Məsələn: Eton, Harrou, Vinçester kimi məktəblərdə bu tələffüz forması işlədilirdi. Qeyd edək ki, İngiltərə şahzadələri Uilyəm və Harri də Eton məktəbini qurtarmışdılar və hər ikisi də ingilis dilində düzgün tələffüz formasında danışan məmurlardan (zadəganlardan) hesab olunurlar.

Ədəbiyyat

1. Crystal D. The English Language. Cambridge: Cambridge University Press, 2002, 307 p.
2. Daniel J. English Pronouncing Dictionary (1st ed.). London: Dent, 1917, 1076 p.
3. John W. Accents of English: An introduction. Cambridge: Cambridge University Press, 1982, 336 p.

РЕЗЮМЕ

ИЗМЕНЕНИЕ СЛОВ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

Умудова М.Т.

***Ключевые слова**: метафора, правописание, исторический, страна, изменение*

В этой статье говорится о некоторых изменениях в словах, используемых в английском и азербайджанском языках. Известно, что следует быть осторожным как в произношении, так и в письме на английском языке. Те, кто изучает английский язык как иностранный, должны быть осторожны с произношением некоторых слов. Есть слова, ударение в которых также очень важно, и неправильное ударение может иметь значение. Кроме того, необходимо обратить внимание на произношение слов, которые употребляются в форме «Полученное произношение» в современном английском языке.

SUMMARY

CHANGING IN WORDS USED IN ENGLISH AND AZERBAIJAN LANGUAGES

Umudova M.T.

***Key words**: metaphor, spelling, historic, country, change*

This article is about some changes in the words used in English and Azerbaijani languages. It is known that one should be careful in pronunciation as well as in writing in English. Those learning English as a foreign language should be careful with the pronunciation of some words. There are some words whose stress is also very important and the wrong stress can make a difference. In addition, it is necessary to pay attention to the pronunciation of words that are used in the form of "Received Pronunciation" in modern English.

HƏYAT BİLGİSİ DƏRSLƏRİNDƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN YARADICI QABİLİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASINDA TƏFƏKKÜRÜN ROLU

Verdiyeva Ülviyyə
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
pedaqoq1984@mail.ru

Açar sözlər: *Həyat bilgisi, ibtidai siniflər, qabiliyyətlər, məntiqi təfəkkür, yaradıcı təfəkkür, təxəyyül*

İbtidai siniflərdə Həyat bilgisi fənninin tədrisi prosesində şagirdlər daha çox həyat hadisələri ilə tanış olur, həyati bilgilər qazanır və bir sıra yaradıcı qabiliyyətlərə də yiyələnmiş olurlar. Bunun üçün Həyat bilgisini tədris edən ibtidai sinif müəllimləri problemin innovativ əsaslarını düzgün müəyyənləşdirməyə məqsədyönlü şəkildə yanaşmalıdırlar. Çünki Həyat bilgisi dərslərində ibtidai sinif şagirdlərinin yaradıcı qabiliyyətlərinin aşkara çıxarılması, inkişaf etdirilərək formalaşdırılması işinin müvəffəqiyyətlə həyata keçirilməsinə innovativ əsasların gücü ilə nail olmaq mümkündür. Bunun üçün ibtidai sinif müəllimləri ilk növbədə öz kompetensiyalarına əsaslanmağa üstünlük verməlidirlər.

Nəzərə alsaq ki, ibtidai sinif müəllimləri Həyat bilgisinin tədrisi prosesində şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılması zamanı sinif müəllimlərinin nümunəvi ünsiyyət qurmaq, kompüter texnologiyalarından səmərəli istifadə etmək, musiqi əsərlərinin dinlənilməsi zamanı pedaqoji innovasiyaların gücündən istifadə etmək, muğam ifaçılığının təqdimatına düzgün yanaşmaq, Həyat bilgisinin digər fənlərlə inteqrasiyası zamanı, sinfin və şagirdlərin sosiallaşması kimi kompetensiyalardan istifadə etmələri mühüm aktuallıq kəsb edir. Ona görə Azərbaycanda həyata keçirilən təhsil islahatlarına dair direktiv sənədlərdə digər fənlərin tədrisində olduğu kimi Həyat bilgisinin tədrisi prosesində də şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılması üçün müəllimlərin kompetensiyalara əsaslanmaları zəruri sayılır. Kurikulum təliminin tələblərinə uyğun olaraq şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılmasından ötrü müəllimlərin bir sıra kompetensiyalara əsaslanmaları zəruri sayılır. Onlar aşağıdakılardan ibarətdir:

- Həyat bilgisi dərslərində ünsiyyət kompetensiyaları;
- Həyat bilgisi təlimində kompüter texnologiyalarından istifadə kompetensiyası;
- Həyat bilgisi dərslərində müstəqil öyrənmə kompetensiyaları;
- Həyat bilgisinin digər fənlərlə inteqrasiyasını təşkil edən kompetensiyalar;
- Şagirdlərin sosiallaşdırılması ilə bağlı olan kompetensiyalar [4].

Kompetensiyalarla bağlı metodik ədəbiyyatda və rəsmi sənədlərdə göstərildiyi kimi əsas kompetensiyalarla yanaşı metokompetensiyalar da təsnif olunur. Gülər Hüseynovanın adı çəkilən kitabında həmin kompetensiyalar tənqidi təfəkkür, yaradıcı yanaşma, təşəbbüskarlıq, problemlərin həlli, riskin qiymətləndirilməsi, hisslərin konstruktiv idarə edilməsi kimi təsnif olunur. Fikrimizcə, metokompetensiyalar aşağıdakı şəkildə müəyyənləşdirilib təsnif olunmalıdır:

- Tənqidi təfəkkürə əsaslanan kompetensiyalar
- Pedaqoji innovasiyalara əsaslanan kompetensiyalar;
- Məntiqi təfəkkürə əsaslanan kompetensiyalar;
- Yaradıcı təfəkkürə əsaslanan kompetensiyalar;
- Yaradıcı qabiliyyətlərə əsaslanan kompetensiyalar;
- Hislərin konstruktiv idarə edilməsi ilə bağlı konpetensiyalar

Əlbəttə ki, bu kompetensiyaların sırasında təşəbbüskarlıq, problemli situasiyalarla bağlı kompetensiyalar, riskin reallaşdırılması ilə bağlı kompetensiyalar, riskin qiymətləndirilməsi ilə bağlı kompetensiyalar və digər kompetensiyalar təsnif oluna bilər.

Fikrimizcə, tənqidi təfəkkürə əsaslanan kompetensiyaları Həyat bilgisi dərslərində hər hansı mövzunun tədrisi prosesində tətbiq etmək olar. Çünki belə kompetensiyalar şagirdlərin yaradıcı qabiliyyətlərinin aşkara çıxarılıb inkişaf etdirilməsinə və formalaşdırılmasına öz dinamik təsirini göstərər bilər. Məsələn, III sinifdə "Təhlükəli təbiət hadisələri" mövzusunun tədrisi üçün dərslikdə verilən şəkillərə ciddi tənqidi münasibət bəsləmək lazım gəlir. Dərsliyin 42-ci səhifəsində zəlzələ ilə bağlı verilən şəklin izahlı illustrasiyalar formasında verilməməsi tənqid olunmalıdır. Bu zaman şagirdlərin zəlzələlərə münasibətini öyrənmək lazım gəlir. Çünki əvvəlki siniflərdə zəlzələ ilə bağlı dərsliklərdə verilən məlumatlardan bəhrələnən III sinif şagirdləri valideynlərinin və müəllimlərinin informasiyaları əsasında da zəlzələ haqqında kifayət qədər biliklər əldə etmişlər. Şagirdlərin şəklə münasibətini öyrənmək üçün onlara meydan vermək və öz tənqidi fikirlərini irəli sürməklə imkanları irəli sürmək lazım gəlir. Belə olan tərzdə şagirdlərin təhlil olunan məsələyə yaradıcı şəkildə yanaşmaları onlarda yaradıcı qabiliyyətlərinin aşkara

çıxarılmasına təsir göstərir. Yaxud "Sürüşmə", "Toz fırtınası, vulkan, burulğan, Sunami, Meşə yanğını, Meteorit düşməsi" adlandırılan şəkillər haqqında şagirdlərin mülahizə söyləməsi, mühakimə yürütmələri, məsləyə yaradıcı şəkildə yanaşmaları onların tənqidi təfəkkürünü inkişaf etdirmiş olur [7]. Belə innovativ əsaslar üzrə təşkil olunan fəal dərsləri metokompetensiyaları üzrə də təşkil etmək olar. Hansı ki, bu kompetensiyaların hər biri haqqında pedaqoji innovasiyaların köməyi ilə məlumatların verilməsi çox faydalıdır.

Həyat bilgisi dərslərində kompüter texnologiyalarından, planşetlərdən, internet resurslarından və bu kimi digər innovativ vasitələrin gücündən istifadə edərkən elə bədii təsvirlərdən, peyzaj komponentlərindən istifadə etmək lazımdır ki, onlar şagirdlərin təxəyyülündə yeni bədii obrazların yaranmasına təsir göstərə bilsin.

Təxəyyüldə yeni bədii obrazların meydana gəlməsi yaxınlığa, təzadlığa və oxşarlığa görə assosiasiya qanunu üzrə baş verir. Məsələn, real gerçəklikdə məkan və zaman şəraiti ilə bir-birindən ayrılmış iki təsəvvürün birləşdirilməsi; bir obrazın cizgiləri ilə digər obrazların tamamlanması; predmetlərin xassələrinin gücləndirilməsi və yaxud zəiflədilməsi; çox zaman əksliyə gətirib çıxaran təzadlı dəyişikliklər də bu qəbildəndir. Bədii təxəyyüldə intuisiyanın da əhəmiyyətli rolu vardır. A.M.Aslanovun qeyd etdiyi kimi: "Bədii obrazın fərdiliyi və universallığı insanın estetik hisslərinin, bədii təxəyyül və dünyagörüşünün formalaşmasında mühüm rol oynayır [5, s. 16]. Məhz belə yanaşmalar şəraitində şagirdlərin yaradıcı qabiliyyətlərinin aşkara çıxarılmasına, inkişaf etdirilərək formalaşdırılmasına şərait yaranmış olur. Yəni şagirdlərin təxəyyülündə yeni obrazların canlanması onların təbiət hadisələrini rəsm etmək, peyzajlara dair şəkillər çəkmək, təbiət hadisələrinə dair şeirlər söyləmək, mahnılar oxumaq kimi bədii yaradıcı qabiliyyətlərini formalaşdırmış olur.

Bəllidir ki, hər hansı bir sənət nümunəsini, müəyyən bir obrazı yaradarkən bədii təxəyyülsüz keçinmək qeyri-mümkündür. Bədii təxəyyül – keçmiş duyğuların, qavrayışların, təsəvvürlərin, hisslərin, təəssüratların xəyalda, xatirələrdə bərpa edilməsi və şüurlu surətdə yenidən işlənib hazırlanması əsasında bədii obrazlar yaratmaq bacarığıdır, həmin obrazlar yaratmaq prosesi və onun nəticəsidir. Təxəyyül insanın hər cür yaradıcılıq fəaliyyətinin zəruri ünsürüdür. Çünki insan öz əməyinin nəticəsini qabaqcadan təsəvvüründə canlandırmalıdır. Geniş ümumiləşdirmə və tipikləşdirmə prosesindən ibarət olan sənətkar təxəyyülü yaradıclıq fəaliyyətinin bütün mərhələləri üçün: gerçəkliyin dərk olunması, qayə, ayrıca bədii obraz və bütünlükdə incəsənət əsəri yaradarkən material üzərində işləmək və s. kimi mərhələlər üçün səciyyəvidir. Təxəyyül həmişə qarşıya qoyulmuş məqsədlə, üzərində sənərkarın işlədiyi materilla, sənətkarın şəxsi və ictimai təcrübəsi ilə bağlıdır. Dərk etməyin dərinliyi, qabaqcıl dünyagörüşü, humanizm, zəngin şəxsi təcrübə, həyat faktlarını qavramağın emosionallığı bədii təxəyyülün inkişafına kömək edir. Bədii təxəyyül isə materialın öyrənilməsi, seçilməsi prosesini, bir növ, başa çatdırır və onu canlı, müsbət və yaxud mənfi ictimai tipik xarakter halında formalaşdırır. "Təxəyyül bədii əsərin qavranılması, fikri məsələnin həll edilməsi, fəaliyyətin planlaşdırılması prosesində bilavasitə iştirak edir və onların məhsuldarlığını şərtləndirən əsas amillərdən birinə çevrilir". [7, s. 14-15]. Məhz bu baxımdan Həyat bilgisi dərslərində ibtidai sinif müəllimlərinin şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılmasına münasibət bildirmək yerinə düşərdi. İbtidai sinif müəllimlərinin şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılması məsələsini daha dəqiq aydınlaşdırmaq üçün yaradıcı qabiliyyətlər anlayışının da şərh olunmasına ehtiyac duyulur. Yaradıcı qabiliyyətlər sözünün iki tərəfi vardır. Birinci tərəfdəki "yaradıcı" sözü bir anlayış olaraq "yaratmaq" sözündən əmələ gəlmişdir. Yaratmaq sözü insanın fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlərinin məcmusu sayılır. Çünki hər bir insan müvafiq fəaliyyət istiqamət üzrə nailiyyətlər əldə edir. Hansı ki, onlar bu nailiyyətləri əldə etmək üçün əmək sərf edirlər. Fəaliyyət prosesində sərf olunan əməyin növləri və istiqamətləri müxtəlif olur.

Fəaliyyət – insanın ətraf aləmə fəal münasibətinin səciyyəvi forması və məzmunu aləmi məqsədəuyğun dəyişdirməkdən ibarətdir. Hər bir fəaliyyətdə məqsəd, vasitə, nəticə və prosesin özü ehtiva olunmuşdur. Fəaliyyət ictimai tərəqqinin real hərəkətverici qüvvəsi və cəmiyyətin mövcudluğunun şərtidir. Bununla yanaşı, mədəniyyət tarixi göstərir ki, fəaliyyət insan mövcudluğunun tam əsası deyil. Əgər fəaliyyətin əsası şüurlu məqsəddirsə, məqsədin əsası fəaliyyətdən kənarda, insanı motivlərdə, ideallarda, sərvətlərdədir [1, s. 529]. Şagirdlərin yaradıcı fəaliyyəti onların əsas məqsədindən irəli gələn yaradıcı imkanlarıdır. Yəni təhsil prosesində şagirdlərin yaradıcı fəaliyyəti onların dərsə münasibətindən, tapşırıqları yerinə yetirə bilmək imkanlarından, davranışla əlaqədar olan mənəvi keyfiyyətləri qazanmağa səy göstərməkdən ibarətdir. Şagirdlərin mənəvi fəaliyyəti, maddi fəaliyyəti, istehsalat fəaliyyəti, əmək fəaliyyəti, işgüzarlıq fəaliyyəti ilə yanaşı, yaradıcılıq fəaliyyəti də mövcuddur. Deməli, yaradıcı sözündən əmələ gələn yaradıcılıq sözü də şagirdləri müvafiq nailiyyətlərə sövq edən fəaliyyət prosesidir. Bu mənada yaradıcı sözü bir anlayış olaraq yaradıcılıq anlayışını da özündə ehtiva edir. Yaradıcılıq sözü də yaratmaq söz kökündən

əmələ gəlmişdir. Yaradıcılıq şagirdlərin hər hansı fəaliyyətinin yeni fərqli və bütövlükdə götürdükdə orjinal bir sahəsi kimi dəyərləndirilir.

"Yaradıcılıq" sözü yaratmaq kökündən əmələ gəlmiş hər hansı fəaliyyətin, yəni insan fəaliyyətinin yeni fərqli, bütövlükdə götürüldükdə orijinal bir sahəsidir.

Yaradıcılıq həmişə ona ciddi təsir göstərən konkret sosial-tarixi şəraitdə və ətraf mühitlə, yaradılmış mədəniyyət formaları ilə sıx əlaqədə baş verir. Elmi və bədii yaradıcılığın inkişafının labud şərtlərindən biri azad tənqid, yaradıcılıq mübahisələri, rəy mübadiləsi və mübarizəsidir [2, s. 79]. Bu mənada Həyat bilgisi dərslərində ibtidai sinif müəllimlərinin kompetensiya imkanlarından istifadə etməklə şagirdlərin yaradıcı qabiliyyətlərinin aşkara çıxarılması və innovativ əsaslar üzrə inkişaf etdirilməsi onların məqsədyönlü fəaliyyətinin yeni və fəqli olan göstəricisidir. Hansı ki, belə innovativ yanaşma prosesində yeni-yeni yaradıcı fəaliyyət istiqamətində şagirdlərin qabiliyyətlərinin innovativ əsaslar üzrə aşkara çıxarılması üçün imkanlar yaranır. Həyat bilgisi dərslərində şagirdlərin yaradıcı qabiliyyətlərinin aşkara çıxarılması, inkişaf etdirilərək formalaşdırılması onların elmi dünyagörüşlərini və şəxsiyyətyönümlülük səviyyələrini yüksəltmiş olur. Ona görə ki, Həyat bilgisi dərslərində bütün mövzular üzrə həyat hadisələrinin təbii görüntüsünü kompüter texnologiyaları, planşetlər, trafaretlər, informasiya və kommunikasiya texnologiyaları vasitəsilə şagirdlərin əyani olaraq diqqətinə çatdırmaq çox faydalıdır. Belə innovativ yanaşmalar isə şagirdlərə təqdim olunan həyata hadisələrinə yaradıcı şəkildə yanaşmağa imkan verir. Belə yaradıcı yanaşmalar isə onların yaradıcı qabiliyyətlərini inkişaf etdirərək formalaşdırır. Şagirdlərin qazandıqları yaradıcı qabiliyyətlər isə onların müəyyən müddət ərzində nailiyyətlər qazanmalarına istiqamət vermiş olur. Deməli əgər şagirdlərin yaradıcı qabiliyyətləri deyəndə onların qazandıqları nailiyyətlərinin məzmunu nəzərdə tutulursa həmin qabiliyyətlərin yaranma mənbəyi ilə bağlı da fikirlər söyləmək lazım gəlir. Elmi ədəbiyyatda qabiliyyətlərin genetik imkanlar hesabına yaranması, mühitin təsiri ilə inkişaf etməsi haqqında mübahisəli fikirlər çoxdur.

